ODLAR YURDU UNİVERSİTETİ

Prof. Sabir Allahverdiyev

AZƏRBAYCAN RESPUBLİKASININ MÜLKİ HÜQUQ KURSU

5283

II cild
Xüsusi hissə
II nəşr

(*05 yanvar 2009-cu il tarixədək olan əlavə və dəyişikliklərlə*)

Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən «hüquqşünas» ixtisası üzrə təhsil alan ali təhsil müəssisələrinin tələbələri üçün dərslik kimi təsdiq edilmişdir.

«Digesta» nəşriyyatı
Bakı — 2009

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

67.404(5Azə)
A88

Redaktorlar: Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının «Dövlət idarəçiliyinin hüquqi təminatı» kafedrasının müdiri, **h.e.n., dos. S. Səlimov;** Azərbaycan Dövlət İqtisad Universitetinin «İqtisadi hüquq» kafedrasının baş müəllimi **N. Əhmədov**; Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının «Mülki hüquq» kafedrasının müdiri, polis polkovniki **M. Məmmədov**

Rəyçilər: Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının **«Dövlət idarəçiliyinin hüquqi təminatı» kafedrası;**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının **«Mülki hüquq» kafedrası**

Kitabın 29-cu fəslinin «İpoteka krediti» adlı yarımbaşlığı Ukrayna Milli Elmlər Akademiyasının Dövlət və Hüquq İnstitutunun dissertantı **Axundov Arzu Teyyub oğlu** tərəfindən yazılmışdır.

Sabir Salman oğlu Allahverdiyev (*Odlar Yurdu Universitetinin professoru*).
Azərbaycan Respublikasının mülki hüquq kursu. II cild. (II nəşr).
«Digesta» nəşriyyatı. Bakı, 2009. 736 səh.

Kitab mülki hüququn iki böyük yarımsahəsinə — əşya və öhdəlik hüququnun (daha doğrusu, öhdəlik hüququnun ümumi hissəsinin) elmi (doktrinal) işıqlandırılmasına həsr edilmişdir. Burada həmin yarımsahələrin institutlarının məna və mahiyyətinə bütün detal və parametrləri ilə aydınlıq gətirilir.

Kitab özündə **dərsliyin, monoqrafiyanın, mühazirə kursunun, Mülki Məcəllənin kommentariyasının** elementlərini birləşdirir. Buna görə də ondan praktiki işçilər (hakimlər, notariuslar, vəkillər, bank və sığorta işçiləri, alimlər, sahibkarlar, hüquqşünaslar və s.) də istifadə edə bilərlər.

Lisenziya: A - 060
№ 022060
Kod: 102

© Sabir Allahverdiyev, 2009
© Digesta, 2009

MÜLKİ HÜQUQUN XÜSUSİ HİSSƏSİ

(BESONDERER TEIL DES BÜRGERLICHEN RECHTS)

II BÖLMƏ ƏŞYA HÜQUQU

(SACHENRECHT)

İXTİSARLA VERİLMİŞ ŞƏRTİ İŞARƏLƏRİN ADI

AR QK — Azərbaycan Respublikasının Qanunlar Külliyyatı
MM — Azərbaycan Respublikasının Mülki Məcəlləsi
AM — Azərbaycan Respublikasının Ailə Məcəlləsi
CM — Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
MPM — Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi
TGM — Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsi
HM — Azərbaycan Respublikasının Hava Məcəlləsi
VM — Azərbaycan Respublikasının Vergi Məcəlləsi
İXM — Azərbaycan Respublikasının İnzibati Xətalar Məçəlləsi
TM — Azərbaycan Respublikasının Torpaq Məcəlləsi
Almaniya MQ — Almaniya Mülki Qanunnaməsi
Yaponiya MM — Yaponiya Mülki Məcəlləsi
ГК — Гражданский Кодекс РФ
БВС — Бюллетень Верховного Суда РФ
БНА — Бюллетень нормативных актив министерств и ведомств

XVII FƏSİL
ƏŞYA HÜQUQU (SACHENRECHT)

§ 1. Əşya hüququnun anlayışı, predmeti və mənbələri

1. Əşya hüququ mülki hüququn yarımsahəsi kimi

Mülki hüququn yarımsahələrindən biri **əşya hüququ** adlanır. Özü də haqlı və mübaliğəsiz olaraq göstərə bilərik ki, o, mülki hüququn ən vacib, ən mühüm və ən zəruri yarımsahəsidir. Bu, onunla izah edilir ki, həmin yarımsahə «bütün indiki xalq təsərrüfatı həyatının məhək daşı olan əsas əşya hüququ — mülkiyyət hüququ ilə» bağlıdır[1]. Bu, onunla əlaqədardır ki, əşya hüququnun əsas «işi» mülkiyyət münasibətlərini nizama salmaq və rəsmiləşdirməkdən ibarətdir. Mülkiyyət münasibətləri isə vətəndaş cəmiyyətinin və ictimai-iqtisadi quruluşun əsasını təşkil edir. Məşhur Höte «Faust» əsərinin qəhrəmanının dili ilə deyir ki, «mənə şan-şöhrət deyil, mülkiyyət lazımdır»; bunlar, əlbəttə, təsadüfi deyilməmiş sözlərdir.

Əşya hüququ kontinental (roman-german) hüquq ailəsinin alman qrupuna (yarımsisteminə) daxil olan dövlətlərin mülki hüquq sahəsinin xüsusi hissəsinə daxildir. Kontinental Avropa ölkələrinin — Bolqarıstanın, Macarıstanın, Polşanın, Çexiyanın, Almaniyanın, İspaniyanın, İtaliyanın, İsveçrənin mülki qanunvericiliyində əşya hüququ vacib və mühüm kateqoriya kimi nəzərdə tutulur[2]. İtaliya MM-inin üçüncü kitabı «Əşya hüququ» adlanır ki, bu, doqquz bölmədən ibarətdir. Hollandiya MM-inin «Əşya hüququ» adlı 5-ci kitabı doqquz bölməni əhatə edir. Almaniya Mülki Qanunnaməsinin birinci kitabı yeddi bölmədən ibarətdir. Həmin kitabın ikinci bölməsinə daxil olan normalar əşyaların hüquqi rejimini müəyyən edir. Göstərilən bölmə «Əşyalar» adlanır. Qanunnamənin üçüncü kitabı «Əşya hüququ» adlanır. O özündə doqquz bölməni əhatə edir. Əşya-hüquqi münasibətləri haqqında normalar məhz bu bölmələrdə (§854-1296) ifadə edilir. Almaniya Mülki Qanunnaməsinə əsaslanan Yaponiya Mülki Məcəlləsinin ikinci bölməsi «Əşya hüququ» (175-338[22]-ci maddələr) adlanır. Bu bölmə on fəsildən (ümumi müddəalar, sahiblik, mülkiyyət hüququ, superfitsi, servitut və b. fəsillərdən) ibarətdir.

Fransa MM-inin ikinci kitabı «Əmlak və mülkiyyət hüququnun dəyişməsi» adlanır. Burada əşya hüququnu tənzimləyən normalar cəmlənmişdir. Kitab dörd bölmədən ibarətdir. Özü də dərhal qeyd etməliyik ki, kontinental Avropa ölkələrinin əşya hüququ barədə qanunvericiliyinin tarixi kökü və mənşəyi Roma xüsusi hüququ ilə bağlıdır. Əşya hüququ bu hüququn əsas sahələrindən

[1] *Покровский И.А.* Основные проблемы гражданского права. М., 1998, с. 192.

[2] Kontinental Avropa ölkələrinin qanunvericiliyində əşya hüququnun anlayışı, hüquqi tənzimlənmənin mənbələri, mülkiyyət hüququnun əmələ gəlməsi və keçməsi kimi məsələlər geniş təhlil edilmişdir (bax: Основные институту гражданского права зарубежных стран. Сравнительно-правовое исследование / Под ред. *В.В.Залесского.* М., 1999, с. 210-192).

biri sayılırdı[1]. Roma xüsusi hüququna görə, əşya hüququ dedikdə, əşya barəsində subyektlər arasında yaranan münasibətləri tənzimləyən hüquq normaları başa düşülürdü. Roma hüquqşünasları əşya hüququna anlayış vermirdilər.

Hüquq ədəbiyyatında əşya hüququnun mülki hüququn yarımsahələrindən biri olması fikri, demək olar ki, bütün müəlliflər tərəfindən mübahisəyə yol verilmədən qəbul edilmişdir. Bəzi müəlliflər mülki hüququn bu yarımsahəsini «əşya hüququ», bəziləri isə «mülkiyyət hüququ və digər əşya hüquqları» adlandırırlar[2]. Almaniya hüquq doktrinasında əşya hüququnun (Sachenrecht) müstəqil bölmə (hissə) kimi ayrılması mübahisə doğuran məsələdir. Amma qanunverici rəsmi surətdə əşya hüququna Almaniya mülki hüququnun müstəqil hissəsi (bölməsi) kimi prinsipial əhəmiyyət verir. Yaponiya Mülki Məcəlləsi də əşya hüququnu mülki hüququn müstəqil hissəsi kimi nəzərdə tutur.

Əşya hüququ **həm obyektiv, həm də subyektiv mənada işlədilir**[3]. Obyektiv mənada əşya hüququ mülki hüququn yarımsahələrindən (predmetinə görə qarşılıqlı əlaqədə olan eynicinsli mülki hüquq institutlarının məcmusundan) biri kimi çıxış etməklə, həmin hüquq sahəsinin tərkib hissəsinə çevrilir. Mülki hüququn predmetinə daxil edilən əmlak münasibətlərinin **bir növü əşyanın (əmlakın) məxsusluğu ilə əlaqədar olan münasibətlərdir** ki, bu münasibətlər hüquqi cəhətdən əşya hüququ kateqoriyasının vasitəsilə rəsmiləşdirilir. Həmin əmlak münasibətləri **statik xarakterə** malikdir. Mülki hüquqla tənzimlənən **statik əmlak münasibətləri əşya hüququnun predmetini** təşkil edir.

Beləliklə, **obyektiv mənada əşya hüququ dedikdə, əmlak münasibətləri subyektlərinə, yəni fiziki şəxslərə, hüquqi şəxslərə, dövlətə və bələdiyyəyə əşyanın (əmlakın) məxsusluğu ilə əlaqədar olan münasibətləri nizama salan mülki hüquq normalarının məcmusu** başa düşülür. Başqa sözlə desək, maddi nemətlərin məxsusluğu ilə, bu nemətlərə yiyələnməklə (sahiblik etməklə) bağlı olan münasibətləri, yəni statik münasibətləri qaydaya salan normaların sistemi əşya hüququnu yaradır. Bu xüsusiyyəti ilə əşya hüququ mülki hüququn digər yarımsahəsi olan öhdəlik hüququndan fərqlənir. Öhdəlik hüququ **dinamik münasibətləri, yəni əmtəənin (malın) hərəkət və mübadilə prosesini, əmlakın bir şəxsdən digərinə keçməsini tənzimləyən** mülki hüquq normalarını birləşdirir. Bütün bunların hamısı onu ifadə edir ki, əşya hüququ, əsasən, **«tələb edə bilərəm» probleminə yox, «mənə məxsusdur» probleminə** toxunur. «Tələb edə bilərəm» problemi öhdəlik hüququnun məşğul olduğu məsələdir. Əşya hüququ əşyanın ayrı-ayrı şəxslərə və ya şəxslər qrupuna məxsus olması formasını, əşya üzərində yiyəliyin və «hakimiyyət»in müəyyənləşdirilməsi üsullarını, bir sözlə, **əşya barəsində şəxslər arasında yaranan münasibətləri** tənzim edir.

Əşya hüququna Almaniya mülki hüquq elmində də anlayış verilir: əşya hüququ (Sachenrecht) dedikdə, hüquq qaydasının müəyyənləşdirdiyi elə normalar başa düşülür ki, bu normalar şəxsin əşyaya yiyəlik etməsini təmin edir[1]. Yaponiya mülki hüquq elmində əşya hüququnun tərifi belə verilir: əşya hüququ elə normalardan ibarətdir ki, bu normalar xarici aləmin predmetləri üzərində yiyəlik münasibətlərini tənzimləyir[2].

2. Subyektiv mənada əşya hüququnun (Dingliche Rechte) xüsusiyyətləri

Subyektiv mənada əşya hüququ dedikdə, konkret subyektin əmlak dövriyyəsinin maddi obyekti kimi əşya barəsində olan hüququ başa düşülür. Əşya hüququ bu hüququ əldə edən şəxsin hər hansı digər şəxsdən asılı olmadan **əşyaya bilavasitə təsir etmək imkanını** ifadə edir; əşya hüququ subyektin əşya üzərində, əşya barəsində hüququ deməkdir[3]; bu hüququn sahibi əşya üzərində **müstəsna yiyəlik (sahiblik) ixtiyarına və səlahiyyətinə** malik olur.

Əşya hüququnun mahiyyətinə xarici ölkələrin sivilistika doktrinası xüsusi diqqət yetirir. Məsələn, Yaponiya doktrinası əşya hüququnun iki əsas cəhətini göstərir. Birinci cəhət müəyyən əşya üzərində birbaşa sahiblikdən (yiyəlikdən) ibarətdir. Birbaşa sahiblik (yiyəlik) yiyəsi tərəfindən əşya üzərində sahibliyin başqa şəxslərin hərəkətlərindən asılı olmadan bilavasitə həyata keçirilməsini ifadə edir. İkinci cəhət isə sahibinin öz əşyasından fayda götürməkdə müstəsna hüquqa malik olmasından ibarətdir. Hüququn müstəsnalığı onu ifadə edir ki, hər hansı əşya barəsində şəxs üçün əşya hüququ müəyyənləşdirilərsə, məzmunca onun eyni olan hüquq başqa şəxs üçün müəyyən edilə bilməz[4]; bu isə o deməkdir ki, əşyadan yalnız onun sahibi istifadə və fayda götürə bilər; başqa şəxslər əgər əşyadan istifadə etmək və fayda götürmək istəsələr, həmin şəxslər onda hökmən onun sahibindən icazə və razılıq almalıdırlar.

Subyektiv mənada əşya hüquqları subyektiv əşya hüquqları və ya sadəcə olaraq əşya hüquqları deməkdir. Subyektiv əşya hüquqları (və ya əşya hüquqları) isə mülki (əmlak) hüquqların bir növü sayılır. Məsələn, şəxs yaşayış evinə sahiblik, yaşayış evindən istifadə və onun üzərində sərəncam vermək hüquqlarına malikdir. Sahiblik, istifadə və sərəncam hüquqları, habelə yaşayış evi barəsində digər hüquqlar subyektiv əşya hüquqlarıdır.

Əşya hüquqları bir sıra spesifik xüsusiyyətə malikdir. **Birincisi, əşya hüquqları ilə əşyanın bu və ya digər şəxsə məxsus olması** rəsmiləşdirilir.

---

[1] bax: *Д.В.Дождев.* Римское частное право. Учебник. М., 1999; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999; *И.Пухан, М.Поленак-Акимовская.* Римское право. Учебник. М., 2000.

[2] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 23; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 23; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с.22; Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева.* М., 1999, с. 16.

[3] Yuqoslaviya hüquq doktoru A.Qams «əşya hüququ» terminini iki mənada işlədir: obyektiv mənada əşya hüququ; subyektiv mənada əşya hüququ. Obyektiv mənada əşya hüququ əşyaya sahibliyi tənzimləyən hüquq normalarının məcmusunu ifadə edir. Subyektiv mənada əşya hüququ dedikdə, əşyaya olan hüquq başa düşülür (bax: *Gams A.* Osnovi stvarnog prava. Beograd: Naucna knjiga. 1980, c. 11-12).

[1] *Baur J.F.* Stürner R. Lehrbuch des Sachenrechts. München. 1992, s. 10.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 161.

[3] Almaniya Mülki Qanunnaməsinin 84-cü paraqrafında göstərilir ki, əşya hüququ əşya üzərində faktiki yiyəliyin (sahibliyin) müəyyən edilməsi ilə əmələ gəlir. Əşya üzərində yiyəlik (sahiblik) əşyaya təsir göstərmək və ya həmin əşyaya kənar təsiri dəf etmək səlahiyyətini ifadə edir (bax: Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 220).

[4] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 166.

Əşyanın məxsusluğu şəxsin əşyaya bilavasitə münasibətini ifadə edir. Bu hüquq əsasında o, əşyanı özününkü hesab edir. Bunsuz normal və səmərəli təsərrüfat fəaliyyətinin həyata keçirilməsi qeyri-mümkündür. Yalnız belə halda əşyadan iqtisadi cəhətdən səmərəli, təsərrüfatcasına istifadə etmək olar.

Normal və səmərəli təsərrüfat fəaliyyətinin həyata keçirilməsi üçün təkcə əşyanın şəxsə məxsus olması kifayət etmir. Bunun üçün həm də zəruridir ki, əşya hüquqlarını həyata keçirməkdə şəxsə kənardan əsassız müdaxilə edilməsin, ona maneçilik törədilməsin. Öz əşyasından istifadə prosesində **əşya sahibi ilə kənar şəxslər arasında hüquq münasibəti** yaranır. Bu münasibətdə səlahiyyətli şəxs rolunda əşya hüququnun sahibi çıxış edir ki, ona qarşı qeyri-müəyyən dairədən olan borclu şəxslər (cəmiyyətdəki bütün şəxslər, yəni «hamı və hər kəs») durur. Belə halda səlahiyyətli şəxsin hamıdan və hər kəsdən onun əşya hüquqlarını pozan hərəkətlərə yol verməməyi tələb etmək hüququ vardır. Bu, onu göstərir ki, əşya hüquqları **mütləq xarakterə** malikdir. Göstərilən cəhət əşya hüquqlarının **ikinci xüsusiyyətini** təşkil edir. Bu xüsusiyyət əşya hüquqlarını mütləq hüquqların bir növü kimi xarakterizə edir. Bu baxımdan əşya hüquqları **iki funksiya** yerinə yetirir: birincisi, **müdafiə funksiyasını** (bu funksiya əsasında hamı və hər kəs şəxsə öz əşya hüquqlarını həyata keçirməyə mane olmaqdan çəkinir, həmin şəxsin əşya hüququnu pozmur); ikincisi, **müəyyən əşyanın konkret şəxsə məxsusluğunu müəyyənləşdirmək funksiyasını**.

Əşya hüquqlarının mütləq hüquq növünə şamil edilməsi onu öhdəlik hüquqlarından (şəxsi hüquqlardan) fərqləndirməyə imkan verir. Öhdəlik hüquqları nisbi hüquq kateqoriyasına aid olunur. Bu növ hüquqların fərqləndirilməsi müəyyən prinsipə əsaslanır. Həmin prinsipə görə, əşya hüququna əməl edilməsi hamıdan və hər kəsdən tələb edilə bilər. Öhdəlik hüququnun yerinə yetirilməsi isə yalnız konkret borclu şəxsdən tələb oluna bilər.

Əşya hüquqlarının **üçüncü xüsusiyyəti** ondan ibarətdir ki, bu hüquqlar **əşya-hüquqi müdafiə üsulları** ilə müdafiə olunur. Bu üsullara **vindikasiya və neqator iddialar,** habelə digər hüquqi vasitələr daxildir. Məsələn, şəxs mülkiyyətçinin əşyasını oğurlayır; mülkiyyətçi həmin şəxsin qanunsuz sahibliyində olan öz əşyasını geri tələb edir; bu zaman o, vindikasiya iddiası verir. Başqa bir misalda məzuniyyətə gedən şəxs arzuolunmaz halların qarşısını almaq məqsədilə dördotaqlı mənzilin otaqlarından birində gecələməyi qonşusuna tapşırır. Məzuniyyətdən qayıdandan sonra nainsaf qonşu otağı təhvil verməməsi nəticəsində şəxsin öz mənzilindən normal istifadə etməsi mümkün olmur, problemə çevrilir. Mənzilin sahibi neqator iddia verməklə öz mülkiyyət hüququnu müdafiə edir.

Bu, onu göstərir ki, əşya hüquqları **xüsusi hüquqi rejimlə** qorunur və mühafizə edilir.

Əşya hüquqlarının **dördüncü xüsusiyyəti** ondan ibarətdir ki, bu hüquqların obyekti yalnız **fərdi-müəyyən əlamətlərə malik olan əşya** ola bilər. Məhz bu səbəbdən müvafiq əşyanın məhv olması avtomatik olaraq həmin əşyaya olan hüququn (əşya hüququnun) da xitam edilməsini şərtləndirir. Buna görə də cinsi əlamətləri ilə müəyyən edilən əşyalar əşya hüquqlarının obyekti qismində çıxış edə bilməz; çünki belə əşyalar hüquqi cəhətdən əvəz ediləndir.

Əşya hüququnun **beşinci xüsusiyyəti** onun üstün hüquq olmasından ibarətdir. Buna görə də əgər əşya hüququ ilə öhdəlik hüququ arasında kolliziya (toqquşma) olarsa, birinci əşya hüququ həyata keçirilir. Məsələn, əgər borclu aldığı krediti qaytarmazsa, onda kredit verənin tələbi girov qoyulmuş əmlak hesabına birinci olaraq təmin edilir; bundan sonra digər kreditorların tələbləri ödənilir.

Bütün bu xüsusiyyətləri ilə əşya hüquqları mülki (əmlak) hüquqların digər növü olan öhdəlik hüquqlarından fərqlənir. Mülki (əmlak) hüquqların əşya və öhdəlik hüquqları adlı iki yerə bölünməsi, bu hüquqlardan əşya hüquqları kimi müstəqil növün ayrılması dünyanın praktiki olaraq bütün hüquq sistemlərində nəzərdə tutulmuşdur[1]. Əşya və öhdəlik hüquqlarının xarakteri məsələsi XIX əsrdə Avropa sivilistika doktrinasında müəyyənləşdirilmişdir. Həmin dövrdə belə bir konsepsiya əsaslandırılmışdı: əşya hüququ şəxsin əşyaya olan elə bir münasibətidir ki, bu münasibət onun əşya üzərində sahibliyini (yiyəliyini) hüquqi cəhətdən ifadə edir; öhdəlik hüququ isə, heç olmazsa, azı iki şəxs arasında elə bir münasibətdir ki, bu münasibətə görə, onlar hüquq və vəzifə daşıyıcısı kimi çıxış edirlər. Bu konsepsiya alman sivilistika, əsasən də pandekt ədəbiyyatında daha geniş yayılmışdı. Onu bir sıra fransız və inqilabaqədərki rus hüquqşünasları[2] da dəstəkləyirdilər.

Roma hüququ əmlak hüquqlarını əşya və öhdəlik hüquqlarına bölməsə də, Roma hüquqşünasları əşya iddiaları (actiones in rem) və şəxsi iddialar (actiones in personam) arasında fərqlər olması barədə fikir irəli sürürdülər[3]. Əşya və öhdəlik hüquqlarının bir-birindən fərqləndirilməsi sonrakı dövrün Roma alimləri tərəfindən (məsələn, klassik Roma hüquqşünası olan Pavel tərəfindən) müəyyən edilmişdi.

Roma hüququ əşya hüquqlarına daxil etmişdi: mülkiyyət hüququnu (bununla əlaqədar əşyaya faktiki sahibliyi); başqasının (özgəsinin) əşyalarına olan hüquqları. Başqasının (özgəsinin) əşyalarına olan hüquqlara şamil olunmuşdu: servitut hüququ; girov hüququ; emfitevzis (əvəzi ödənilməklə özgəsinin kənd təsərrüfatı torpağından uzunmüddətli, özgəninkiləşdirilən, vərəsəlik üzrə keçən istifadə hüququ); superfitsi (haqqı ödənilməklə özgəsinin şəhər torpağı sahəsində özgəninkiləşdirilən, vərəsəlik üzrə verilən tikili ucaltmaq hüququ)[4].

Azərbaycan Respublikasının Mülki Məcəlləsi əşya hüquqlarının dairəsini müəyyən edir: mülkiyyət hüququ (MM-in 152-ci maddəsi); mülkiyyətçi olmayan şəxslərin hüquqları (MM-in 158-ci maddəsi).

---

[1] Гражданское и торговое право капиталистических стран. М., 1980, с. 117; *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 117. Öhdəlik və əşya hüquqlarının fərqləndirilməsi Avropa kontinental, o cümlədən Rusiya Federasiyası hüquq sistemi üçün səciyyəvidir. İngilis-amerikan hüquq ailəsində belə bölgüyə rast gəlinmir. İngilis-amerikan mülki hüquq ailəsində hüquq «ədalət hüququna» (law of eguity), «ümumi hüquqa» (common law) bölünür.

[2] bax: *К.Победоносцев.* Курс гражданского права. Том 1. 1896, с. 4; *И.Трепицын.* Гражданское право. 1914, с. 4-5; *Д.Мейер.* Русское гражданское право. 1910, с. 179-180.

[3] bax: *Д.Д.Гримм.* Лекции по догме римского права. СПб., 1909, с. 148; *И.Б.Новицкий.* Основы римского гражданского права. М., 1956, с. 69; *İ.B.Novitski.* Roma hüququ. Dərslik / Rus dilindən tərcümə. Bakı. 1999, s. 64.

[4] «Superfitsi» termini hal-hazırda yalnız İtaliya, İsveçrə kimi Avropa ölkələrinin qanunvericiliyində saxlanılmışdır. Klassik formada emfitevzis isə ancaq İtaliya qanunvericiliyində, habelə Yaponiya qanunvericiliyində qüvvədədir.

Mülkiyyət hüququ tam məzmuna malik olması ilə digər əşya hüquqlarından fərqlənir. Digər əşya hüquqlarının subyektlərindən heç biri mülkiyyət hüququnun sahibi (mülkiyyətçi) kimi tam səlahiyyətlərə malik deyil. Mülkiyyətçi ona məxsus olan əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək səlahiyyətinə malikdir. Digər əşya hüquqlarının subyektləri (sahibləri) isə mülkiyyətçi statuslu şəxs sayılmır. Onların əmlakdan istifadə hüquqlarının həcmi qanunla və mülkiyyətçinin iradəsi ilə məhdudlaşır. Ona görə də digər əşya hüquq subyektlərini qanun mülkiyyətçi olmayan şəxslər adlandırır.

Digər əşya hüquqlarının, yəni **mülkiyyətçi olmayan şəxslərin hüquqlarının** dairəsi MM-in 158-ci maddəsində müəyyən edilmişdir: girov hüququ; əmlakdan istifadə hüququ; servitutlar. Mülkiyyətçi olmayan şəxslərin hüquqları dedikdə, məhdud əşya hüquqları, yəni özgə əşyasına olan hüquqlar başa düşülür. **Məhdud əşya hüquqlarına** isə aiddir: girov hüququ; ipoteka hüququ; tikiliyə vərəsəlik hüququ (superfitsi hüququ); servitut hüququ; uzufrukt hüququ.

Mülkiyyətçi olmayan şəxslərin əşya hüquqlarının (məhdud əşya hüquqlarının) xüsusiyyəti ondan ibarətdir ki, birincisi, bu hüquqların qanunla müəyyən edilən **siyahısı qəti xarakter** daşıyır[1]. İkincisi, müəyyən hallarda bu hüquqlar **öz hüquqi qüvvəsini saxlamaq, bu hüquqlara əməl olunmaq və riayət edilmək xüsusiyyətinə malikdir** (izləmə hüququ, yəni məhdud əşya hüququnun subyektin yox, əşyanın arxasınca getməsi). Məsələn, girov qoyulmuş əşyaya mülkiyyət hüququ həmin əşyanın əvəzli və ya əvəzsiz özgəninkiləşdirilməsi nəticəsində və ya universal hüquq varisliyi qaydasında girov qoyandan başqa şəxsə keçdikdə, girov hüququ qüvvədə qalır (MM-in 289-cu maddəsinin 1-ci bəndi). Odur ki, girov hüququna əməl olunmalı və riayət edilməlidir. Elə hesab edək ki, vətəndaş bankdan kredit alır və əşyanı girov qoyur. Vətəndaş ölür. Əşyaya mülkiyyət hüququ onun vərəsəsinə keçir. Belə halda girov hüququ həmin əşyanın arxasınca gedir, onu izləyir, yəni girov hüququ qüvvədə qalır və ona xitam verilmir. Deməli, məhdud əşya hüquqlarına **izləmə hüququ** xasdır; izləmə hüququ onu ifadə edir ki, əşya hüququnun sahibi olan şəxs əşyanın başqasının əlinə (yeni ələ) keçməsinə baxmayaraq, həmin hüququ itirmir, saxlayır.

Beləliklə, bizim ölkə qanunvericiliyinə görə, əşya hüquqlarını belə təsnif etmək olar: mülkiyyət hüququ; girov hüququ; ipoteka hüququ; tikiliyə vərəsəlik hüququ (superfitsi hüququ); servitut hüququ; uzufrukt hüququ. Azərbaycan Respublikasının nəzərdə tutduğu yeni anlayış olan sahibliyə gəldikdə isə qeyd etmək lazımdır ki, o, əşya hüquqlarının göstərilən təsnifinə daxil edilmir. Ona görə ki, sahiblik əşya üzərində faktiki (fiziki) yiyəlikdir[2]. Əşya hüququnun bu

[1] Əşya hüquqlarının qanunla müəyyən edilən siyahısının təqribi, qeyri-qəti olması fikrini irəli sürənlər də var (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. 1998, с. 332 (fəslin müəllifi Y.K.Tolstoydur); *Крашенинников П.В.* Субъекты права собственности и иных вешных прав на жилые помещения // Гражданский кодекс России, с. 298-308).

[2] Almaniya sivilistika doktrinasında sahiblik əşya hüquqlarının təsnifinə şamil edilmir (*Wieling H.J.* Sachenrecht. Berlin. 1997, s. 6; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2002, с. 407). Yaponiya mülki hüquq elmi isə sahibliyi əşya hüququnun bir növü hesab edir (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 171).

cür bölgüsü Almaniya mülki hüquq elmində də aparılır. Belə ki, əşya hüququ mülkiyyət hüququ və məhdud hüquqlar adlı iki növə bölünür. Məhdud hüquqlar isə öz növbəsində uzufrukta (Nießbrauch, § 1030), servituta (Dienstbarkeiten, § 1018), tikiliyə vərəsəlik hüququna (Erbbaurecht, § 1012), girova (Pfandrecht, § 1204), ipotekaya (Hypothek, § 1113) və s. bölünür[1]. Yaponiya sivilistika doktrinasında məhdud əşya hüququ anlayışı işlədilmir. Burada əşya hüququnun mülkiyyət hüququ, uzufrukt, girov kimi növləri fərqləndirilir[2].

Əşya hüquqlarının təsnifini nəzərdə tutan göstərilən siyahı qəti və dəqiq xarakterə malikdir[3]. Bu siyahı dövriyyənin statikliyini əks etdirir. O, sabit və müəyyən münasibətləri təmin etmək üçün olduqca vacibdir.

Əşya hüquqlarının növlərini müəyyənləşdirən siyahının qəti xarakterə malik olması ifadə edir: birincisi, əşyalara münasibətdə yalnız qanunda nəzərdə tutulan səlahiyyətlər mümkündür; ikincisi, əşya hüquqlarının məzmunu qanunla müəyyən edilir; üçüncüsü, əşya hüquqları dispozitiv yox, imperativdir. Deməli, **əşya hüquqları yalnız qanunda göstərildiyi halda yarana bilər**. Tərəflərin sazişi və iradəsi ilə qanunvericiliyə məlum olmayan əşya hüquqlarını müəyyənləşdirmək qeyri-mümkündür. Məhz bu səbəbdən əşya hüquqlarının siyahısı müstəsna dərəcədə qanunvericilik bazası əsasında verilə bilər[4]. Yaponiya sivilistika doktrinasında və qanunvericiliyində (MM-in 175-ci maddəsində) **əşya hüquqlarının qanunla müəyyən edilməsi prinsipi** formulə edilir. Bu prinsipə görə, əşya hüquqlarının növləri yalnız qanunla təyin edilə bilər[5].

Qeyd etmək lazımdır ki, xarici ölkələrin mülki hüququ **əşya hüquqlarının dairəsinin qapalı olması prinsipindən** çıxış edir. Bu prinsipə görə, hər hansı ölkənin mövcud qanunvericiliyinə məlum olmayan yeni növ əşya hüququnu şəxs öz iradəsi ilə yarada bilməz. Bu cəhəti ilə də əşya hüququ öhdəlik hüququndan fərqlənir. Belə ki, şəxs öhdəlik hüquq münasibətlərinə, məsələn, müqavilə hüquq münasibətlərinə girməklə özü üçün öhdəlik hüququ yarada bilər[6]. Onun öz iradəsilə qüvvədə olan mövcud qanunvericiliyə məlum olmayan əşya hüququnun hər hansı növünü müəyyənləşdirmək hüququ yoxdur.

3. Sovet mülki hüququ və əşya hüququ kateqoriyası

Sovet qanunvericiliyində əşya hüququnun taleyi ayrı-ayrı dövrlərdə müxtəlif olmuşdur. İnqilabaqədərki Rusiya qanunvericiliyində əşya hüququ kateqoriyası özündə geniş dairəli əmlak hüquqlarını (xüsusən torpaq münasibətləri sahəsində) birləşdirirdi.

1922-ci il ilk sovet Mülki Məcəlləsinin xüsusi bölməsi əşya hüququna həsr

[1] *Wieling H.J.* Sachenrecht. Berlin. 1997, s. 6.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 163-165.

[3] Almaniya sivilistika doktrinasında məhz bu cür fikir irəli sürülür (*Klünzinger E.* Einfuhrung in das bügerliche Recht. München. 1993, c. 411, yəni Klyunsinger E. Mülki hüquqa giriş. Münxen. 1993).

[4] G.F.Şerşeneviç qanunvericilikdə göstərilməyən əşya hüququnun müəyyənləşdirilməsinin mümkünlüyünü göstərirdi (*Г.Ф.Шершеневич.* Учебник русского гражданского права, с. 235).

[5] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 165.

[6] Bax: Гражданское и торговое право капиталистических стран. Учебное пособие / Под. ред. *В.П.Мозолин, М.И.Кулагин.* М., 1980, с. 118.

olunmuşdu. Həmin Mülki Məcəllə əşya hüququna şamil etmişdi: mülkiyyət hüququnu; tikinti hüququnu; girovu.

Sovet mülki hüququnun sonrakı inkişafı belə bir fikri qəbul etmişdi ki, mülki hüquqda əşya hüququ adlı hissənin ayrılmasının heç bir elmi əsası yoxdur. Bu doktrinal (elmi) fikir bir neçə səbəblə izah olunurdu. Birincisi, torpaq və digər təbii resurslar mülki dövriyyə qabiliyyəti olmayan əşyalar sayılırdı və həmin əşyalar dövlətin müstəsna mülkiyyət obyektlərinə daxil edilmişdi.

İkincisi, girov öhdəlik hüququnun institutu hesab edilirdi. Girovdan öhdəliklərin təmin edilməsinin üsullarından biri kimi istifadə olunurdu. Üçüncüsü, sovet mülki hüququnda vətəndaşların yaşayış evinə şəxsi mülkiyyət hüququ təsbit edildiyinə görə tikinti hüququ ləğv edildi.

Sovet mülki qanunvericiliyi əşya hüququ kateqoriyasına mənfi münasibət bəsləyirdi. Hüquq ədəbiyyatında bir çox alimlər əşya hüququ anlayışının istifadə edilməsinin əleyhinə çıxırdılar. V.K.Rayxer, O.S.İoffe və digər sovet müəllifləri belə hesab edirdilər ki, əşya hüququnu sovet qanunvericiliyində möhkəmləndirmək üçün zəruri olan siyasi-hüquqi və ictimai-iqtisadi əsaslar guya yox olub, aradan çıxmışdır. Onların fikrincə, sovet mülki hüququnda əşya hüququ adlı hissənin ayrılmasını şərtləndirən dəqiq amillər isə yox dərəcəsindədir. Həmin alimlər bu fikirlərin həqiqiliyini sübut etməyə və əsaslandırmağa çalışırdılar.

Sovet qanunvericiliyinin və hüquq elminin əşya hüququ kateqoriyasına mənfi münasibəti əşya hüququnun sovet mülki hüququnda bir hissə kimi ayrılmamasını şərtləndirdi. Nə SSRİ Mülki Qanunvericiliyinin Əsaslarında (1961-ci il), nə də müttəfiq respublikaların 60-cı illərdə qəbul edilmiş mülki məcəllələrində (o cümlədən Azərbaycan Respublikasının 1964-cü il MM-də) əşya hüququ mülki qanunvericilik sisteminin bir bölməsi kimi tanındı. Göstərilən həmin aktlarda ikinci bölmə mülkiyyət hüququna həsr edilmişdi.

1991-ci il 9 noyabr tarixli «Mülkiyyət haqqında» qanunun qəbul edilməsi ilə Azərbaycan Respublikasında əşya hüququ dirçəldi[1]. Bu qanunun qüvvəyə minməsi əşya hüququnun «taleyi»nə müsbət mənada çox mühüm təsir göstərdi. Qanunun 5-ci maddəsi əşya hüquqlarına toxunurdu. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin qüvvəyə minməsi isə mülki qanunvericilik sistemində əşya hüququ adlı bölmənin ayrılmasına əsas oldu. Mülki Məcəllənin üçüncü bölməsi «Əmlak və əşya hüququ» adlanır.

4. Əşya hüququnun əsas institutları, predmeti və prinsipləri. Əşya hüququnun mülki-hüquqi tənzimlənmə mənbələri

Maddi nemətlərin (əşyaların) məxsusluğu barədə əmlak münasibətləri hüquqi cəhətdən əşya hüquq münasibətləri kimi rəsmiləşdirilir. Ona görə ki, bu münasibətlər əşya hüququnun vasitəsilə tənzimlənir. Həmin münasibətlər iki yerə bölünür: mülkiyyət münasibətlərinə; digər (məhdud) əşya hüquqları ilə bağlı olan münasibətlərə (məhdud əşya münasibətlərinə).

Mülkiyyət münasibətləri əşyanın mülkiyyətçiyə məxsus olması ilə bağlı olaraq yaranır. Bu münasibətlər əşyadan istifadə etməkdə mülkiyyətçiyə maksimum dərəcədə imkan verir. Mülkiyyət münasibətləri **mülkiyyət hüquq institutu** ilə tənzimlənir ki, bu, əşya hüququnun əsas institutu hesab edilir. Mülkiyyət hüquq institutu əşya hüququnun mühüm, başlıca və fundamental institutu sayılır.

Məhdud əşya münasibətləri isə **məhdud əşya hüquq institutu** ilə tənzimlənir. Bu institutla mülkiyyətçi ilə bərabər, həm də eyni vaxtda digər şəxslərin istifadə etdikləri əmlakın hüquqi rejimi müəyyən edilir. Məsələn, yaşayış evinin mülkiyyətçisi olan şəxslə birlikdə həm də eyni vaxtda onun yaxın qohumlarının yaşamaqla istifadə etmələri ilə əlaqədar yaranan münasibətlər məhdud əşya hüququ ilə qaydaya salınır. Başqa bir misalda vətəndaş başqa şəxsin mülkiyyətində olan torpaq sahəsində həmin şəxsin icazəsilə özünə yaşayış evi tikir. Bu cür münasibət də məhdud əşya hüquq institutu ilə rəsmiləşdirilir.

Məhdud əşya hüququ bir neçə subinstitutdan ibarətdir:

- girov hüququndan;
- ipoteka hüququndan;
- superfitsi hüququndan (tikiliyə vərəsəlik);
- servitut hüququndan;
- uzufrukt hüququndan.

Sahiblik əşya hüququnun xüsusi xarakterli institutudur. Bu institut bizim ölkə qanunvericiliyində novelladır. Əvvəlki sovet dövrünün qanunvericiliyi sahiblik institutunu tanımırdı. Hələ 20 əsr bundan əvvəl Roma hüququna məlum olan bu institut bəzi xarici ölkələrin (məsələn, Almaniyanın, Yaponiyanın, İtaliyanın, Hollandiyanın və s.) qanunvericiliyində əsas institutlardan biri kimi nəzərdə tutulur[1].

Sahiblik institutu **şəxsin əşyaya faktiki (fiziki) yiyəlik etməsini qaydaya salan normaları** birləşdirir. O, mülkiyyət hüququndan fərqlənən **müstəqil institutdur.**

Beləliklə, əşya hüququ üç institutdan ibarətdir:

- mülkiyyət hüququ institutundan;
- məhdud əşya hüququ institutundan;
- sahiblik institutundan[2].

Əşya hüququnun institutlarını müəyyənləşdirdikdən sonra onun nizamasalma predmetinin nədən ibarət olmasını təyin edə bilərik. **Əşya hüququnun predmeti** belə bir suala cavab verir: əşya hüququ nəyi tənzim edir? Apardığımız doktrinal araşdırmalar nəticəsində əşya hüququnun predmetinə daxil edə bilərik:

- mülkiyyət münasibətləri, mülkiyyət hüququnun əldə edilməsi və itirilməsi ilə bağlı yaranan münasibətlər;
- məhdud əşya münasibətləri (superfitsi, uzufrukt və servitut münasibətləri);

[1] bax: AR QK, I cild, s. 143.

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. М., Том 1. Полутом 1. 1949, с. 270; *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 161.

[2] Bu bölgü Almaniya mülki hüquq elmində aparılan bölgüyə uyğundur (*Westermann H.* Sachenrecht. Ein Lehrbuch. Heidelberg. 1998). Yaponiya mülki hüquq elmində isə əşya hüququnun institutlanna aid edilir: mülkiyyət hüququ institutu; uzufrukt (torpaqdan istifadə) institutu; girov institutu. Uzufrukt institutu özündə servitut, superfitsi və emfitevzis kimi institutları birləşdirir (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 163-165).

- sahiblik münasibətləri, sahibliyin əldə edilməsi, verilməsi və xitam olunması ilə bağlı yaranan münasibətlər;
- mülkiyyət hüququnun, məhdud əşya hüququnun və sahibliyin müdafiəsi ilə bağlı olaraq yaranan münasibətlər.

Almaniya hüquq doktrinasında əşya hüququnun predmetinə daxil edilən məsələlərdən biri əşya hüququnun prinsipləridir. Hüquq nəzəriyyəsində belə bir fikir irəli sürülür ki, hüquq sahəsinin tərkibində müəyyən yarımsahənin ayrılması və fərqləndirilməsi üçün həmin yarımsahənin müvafiq sahədaxili prinsiplərə malik olması gərəkdir. Əşya hüququnda ona məxsus olan bir neçə prinsipə rast gələ bilərik[1]:

- **müəyyənlik prinsipi** (bu prinsipə görə, subyektiv əşya hüququ yalnız müəyyən əşya barəsində yarana və onunla bağlı ola bilər);
- **əşya hüquqlarının mütləq qüvvəyə malik olması prinsipi** (bu prinsipə görə, əşya hüquqlarının əhatə dairəsi bilinməyən şəxslərə, yəni «hamıya və hər kəsə» qarşı və münasibətdə qüvvəsi vardır);
- **mücərrədlik prinsipi** (bu prinsipə görə, əşya əqdləri onların əsasında duran hüquqi əqddən asılı deyildir. Məsələn, MM-in 181-ci maddəsinə uyğun olaraq, daşınar əşyaların faktiki olaraq onları əldə edən şəxsə verilməsi, yəni tradisiya əşya əqdidir. Əgər əşya alqı-satqı müqaviləsi əsasında verilərsə, onda bu əqd həmin müqavilədən asılı olmayacaqdır. Belə ki, alqı-satqı müqaviləsinin qanunsuz sayılması həmin əqdin etibarsızlığına səbəb olmayacaqdır. Alman hüquqşünasları göstərir ki, mücərrədlik prinsipi mülki dövriyyədə sabitliyi, hüquqi təhlükəsizliyi və müəyyənliyi təmin edir);
- **açıqlıq prinsipi** (bu prinsipə görə, əşyaların hüquqi vəziyyəti açıq-aşkar olmalıdır. Özü də açıqlıq sahibliyin və daşınmaz əmlakın dövlət reyestri vasitəsilə həyata keçirilir);
- **əşya hüquqlarının vicdanlı əldə etmə imkanı və vicdanlı əldə edənin əşya hüquqlarının müdafiəsi prinsipi**.

Əşya münasibətlərinin mülki-hüquqi tənzimlənməsində **Azərbaycan Respublikasının Konstitusiyasının** müəyyən etdiyi müddəalar prinsipial əhəmiyyətə malikdir. Konstitusiyanın 29-cu maddəsi vətəndaşların mülkiyyət hüququnu təsbit edir, heç bir növünə üstünlük verilməyən mülkiyyət hüququnun, o cümlədən xüsusi mülkiyyət hüququnun qanunla qorunması prinsipini müəyyənləşdirir[2]. Konstitusiyaya görə, heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz, əmlakın tam müsadirəsinə yol verilməsi istisna edilir. Konstitusiya dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərtilə yol verilə bilməsi haqqında qayda müəyyən edir.

Əşya hüququnu tənzimləyən əsas normativ akt **Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsidir**. Mülki Məcəllənin üçüncü bölməsi (135-323-1-ci maddələr) əşya hüququna həsr edilmişdir. Əşya hüququnun tənzimlənməsində əsas mənbə olan Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsi əşya hüququna xarakteristika verərkən kontinental mülki hüquq ailəsinin alman qrupuna (yarımsisteminə) daxil olan ölkələrin qanunvericiliyinə əsaslanır. Xüsusən də Almaniya Mülki Qanunnaməsinin «Əşya hüququ» adlı 3-cü kitabının (§ 854-1296) təsiri qeyd edilməlidir[1].

Əşya münasibətlərinin tənzimlənməsində **Azərbaycan Respublikasının qanunları** vacib rol oynayır. Xüsusən, Torpaq Məcəlləsinin, «Aqrar islahatların əsasları haqqında», «Kolxoz və sovxozların islahatı haqqında», «Sahibkarlıq fəaliyyəti haqqında» və «Torpaq islahatı haqqında» qanunların, habelə Su Məcəlləsinin, Meşə Məcəlləsinin bu sahədə əhəmiyyəti böyükdür. 29 sentyabr 1995-ci il tarixli qanunla təsdiqlənmiş «Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı»nın xalq təsərrüfatı strukturunun bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yenidən qurulmasında, özəlləşdirmə münasibətlərinin qaydaya salınmasında mühüm rolu olmuşdur.

Əşya hüququnun bəzi məsələləri **prezident fərman və sərəncamları** ilə də tənzimlənə bilər. Məsələn, prezidentin 2000-ci il 10 avqust tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı» dövlət əmlakının özəlləşdirilməsinin həyata keçirilməsində mühüm rol oynayır[2].

Əşya münasibətlərinin qaydaya salınmasına **Nazirlər Kabinetinin normativ aktları** ilə də toxunula bilər. Məsələn, Nazirlər Kabinetinin 1993-cü il 5 avqust tarixli qərarı ilə təsdiq etdiyi təlimat əlillərin mülkiyyətinə pulsuz olaraq, avtomobillər və motorlu arabalar verilməsini nəzərdə tutur.

§ 2. Mülkiyyət və mülkiyyət hüququ

1. Mülkiyyət iqtisadi kateqoriya kimi

Mülkiyyət çoxcəhətli anlayışdır. O, əsasən, üç mənada işlədilir: fəlsəfi mənada; iqtisadi mənada; hüquqi mənada. **Fəlsəfi mənada mülkiyyət** dedikdə, cəmiyyətdəki əmlak münasibətlərinin ifadəsi, əmlaka sahiblik başa düşülür[3]. **İqtisadi mənada mülkiyyət** ictimai-iqtisadi münasibətdir[4]. **Hüquqi mənada mülkiyyət** «mülkiyyət hüququ» anlayışı ilə əhatə olunur və hüquq normalarının məcmusu deməkdir. Odur ki, hüquqi anlayış kimi mülkiyyət «mülkiyyət hüququ» ilə sinonimdir[5].

İqtisadi kateqoriya kimi mülkiyyət hər bir ictimai quruluşun əsasını təşkil edir. O, bütün tarix boyu insan cəmiyyəti ilə, necə deyərlər, «yol yoldaşı» olmuşdur. İlkin arxaik dövrlər istisna olmaqla, iqtisadi kateqoriya olan mülkiyyət insan cəmiyyəti ilə birlikdə yaranmış və uzun tarixi inkişaf yolu keçmişdir.

[1] Bu prinsiplər Almaniya mülki hüquq elmində əsaslandırılır (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 408).

[2] bax: AR QK, III cild, s. 575.

[1] *Савельев В.А.* Германское гражданское уложение. М., 1983; Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

[2] bax: AR QK, III xüsusi buraxılış, s. 660.

[3] bax: Краткий философский словарь. М., 1952, с. 463. Fəlsəfi mənada mülkiyyət barədə bax: *К.И.Скловский.* Собственность в гражданском праве. М., 1999, с. 44.

[4] İqtisadi mənada mülkiyyət iqtisadi nəzəriyyə elmində öyrənilir (bax: İqtisadi nəzəriyyə. Dərslik. Bakı.1999).

[5] bax: *Ласк Л.* Гражданское право США. М., 1961, с. 461.

Şübhəsiz ki, sosial münasibət kimi mülkiyyət «homo sapiens»in meydana gəlməsi ilə dərhal yaranmamışdır. O, insan cəmiyyətinin müəyyən inkişaf mərhələsində əmələ gəlmişdir.

Həyatda yaşamaq üçün zəruri olan vəsaitin əldə edilməsi, maddi nemətlərin istehsal olunması insan cəmiyyətinin mövcud olması üçün əsas şərtdir. Maddi nemətlərin istehsalı cəmiyyətin istehsal qüvvələri tərəfindən həyata keçirilir. Əmək vərdişlərinə malik olan insanla əmək alət və predmetlərinin məcmusu cəmiyyətin istehsal qüvvələrini təşkil edir. Həmin qüvvələr tərəfindən gerçəkləşdirilən istehsal prosesində, habelə maddi nemətlərin mübadiləsi və bölgüsü prosesində insanlar özlərinin iradələrindən asılı olmayaraq, müəyyən əlaqəyə girirlər ki, bu, istehsal münasibətləri adlanır. Bu münasibətlərin əsasını **istehsal vasitələri üzərində mülkiyyət** təşkil edir. Odur ki, mülkiyyət insan cəmiyyətinin yaşaması və mövcud olması üçün əsas, habelə istehsal üçün zəruri şərtdir. Buna görə də mülkiyyət istehsal münasibətlərinin bütün sistemlərində təzahür edir və ifadə olunur[1]. Marks yazırdı ki, mülkiyyətin hər hansı bir formasının mövcud olmadığı şəraitdə, ümumiyyətlə, müəyyən bir istehsaldan və cəmiyyətdən söhbət gedə bilməz[2].

Söylədiklərimizdən belə çıxır ki, iqtisadi mənada mülkiyyət **əşya və əmlakın özü deyildir. Mülkiyyət şəxsin özünəməxsus olduğu əşyaya münasibətidir**[3]. Bu münasibətin sayəsində həmin şəxs (mülkiyyətçi) əşyaya bilavasitə təsir etməklə özünün maraq və mənafeyini təmin edir. Mülkiyyətin bu cür xarakterizə olunması Avropa sivilistika doktrinasında əsaslandırılmışdır.

Mülkiyyət «səninki» və «mənimki» kimi anlayışların fərqləndirilməsinə əsaslanır. «Öz əşyam» («mənimki») və ya «özgə əşyası» («səninki») onu ifadə edir ki, cəmiyyətdə şəxslər arasında əlaqə mövcuddur. Bir tərəfdə əşyaya özününkü kimi baxan, ona özününkü kimi münasibət bəsləyən mülkiyyətçi, digər tərəfdə isə həmin əşyaya özgəninki kimi münasibət bəsləyən qeyri-mülkiyyətçi şəxslər («bütün hamı və hər kəs») durur. «Bütün hamı və hər kəs» özgə əşyasına qəsd etməkdən çəkinməyə borcludur. Bu, onu ifadə edir ki, mülkiyyətçinin əşyada ifadə olunan iradəsinə qəsd etmək olmaz. Deməli, **mülkiyyət əşya barəsində şəxslər arasında münasibətdir**. Mülkiyyətin bu cür xarakterizə olunması Avropa sivilistika doktrinasında əsaslandırılmışdır.

Mülkiyyət əşya formasında **maddi substrata (məzmuna, əsasa)** malikdir. Bununla bərabər, mülkiyyət həm də **iradəvi məzmuna** malikdir. Mülkiyyətçinin yalnız iradəsi ilə əşya ona məxsus olur. Bunun üçün o, maddi nemətlərin istehsalı, mübadiləsi, bölgüsü və istehlakı prosesində digər şəxslərlə münasibətə girir ki, bu, ictimai xarakterə malikdir. Buna görə də maddi substrata və iradəvi məzmuna malik olan **mülkiyyət həm də ictimai münasibətdir**. Mülkiyyətin ictimai xarakterli münasibət olmasını göstərərək, Marks qeyd edirdi ki, hər bir istehsal fərd tərəfindən təbiət predmetlərinin müəyyən ictimai forma çərçivəsində və onun vasitəsilə mənimsənilməsi deməkdir. Təsadüfi deyildir ki, mülkiyyəti əsas, təyinedici xüsusiyyətə malik olan ictimai münasibət adlandırırlar. Belə ki, o, əsas rol oynayan ictimai münasibət kimi istehsalın üsulunu formalaşdırır, onun tipini müəyyən edir.

Mülkiyyət əmlak münasibətidir. Hüquqi kateqoriya olmayan əmlak münasibəti öz sosial təbiətinə görə faktiki, iqtisadi münasibətdir. Əmlak münasibəti kimi mülkiyyət dedikdə, maddi nemətlərin (əşyaların) məxsusluğu barədə müəyyən şəxslər arasında yaranan elə konkret iradəvi-iqtisadi münasibət başa düşülür ki, bu münasibət istehsal münasibətinin ictimai həyatdakı ifadə formasıdır.

Deməli, **iqtisadi mənada mülkiyyət** dedikdə, mülkiyyət iqtisadi münasibəti başa düşülür. **Mülkiyyət iqtisadi münasibəti** isə:

- birincisi, şəxsin məxsus olduğu əşyaya münasibətidir;
- ikincisi, əşya barəsində şəxslər arasında münasibətdir;
- üçüncüsü, ictimai münasibətdir;
- dördüncüsü, əmlak münasibətidir.

Sovet elmi Qərb alimlərinin mülkiyyəti şəxslərin əşyaya münasibəti kimi xarakterizə edən konsepsiyasını, ümumiyyətlə, qəbul etməmişdir. Marksist iqtisad elmi mülkiyyətə cəmiyyətdə şəxslər arasında, siniflər arasında münasibət kimi baxırdı. Belə mövqe, məlum məsələdir ki, sovet ideoloji prinsipi ilə bağlı idi.

Hüquq ədəbiyyatında (həm də sosial-iqtisadi ədəbiyyatda) mülkiyyətə fərd və ya kollektiv tərəfindən istehsal vasitələrini və məhsullarını mənimsəmə kimi anlayış verilir[1]. Müəlliflərin əksəriyyəti mülkiyyət anlayışını mənimsəmə kateqoriyasının köməyi ilə müəyyən edirlər[2]. K.Marks mülkiyyətə sosial-iqtisadi tərif verərkən məhz bu kateqoriyanı əsas tuturdu: mülkiyyət xarici aləmi mənimsəmə (istehlak) üsuludur. Kant da mülkiyyətin anlayışını mənimsəmə kateqoriyası vasitəsilə formulə edirdi: mülkiyyət əşyaların mənimsənilməsi barədə şəxslər arasında yaranan münasibətdir. Prinsip etibarilə mənimsəmə kateqoriyasından istifadə etməklə mülkiyyətə anlayış verilməsi mümkündür. Lakin bu, məsələyə birtərəfli yanaşmaq demək olardı. Belə ki, mənimsəmə kateqoriyası mücərrəd xarakter daşıyıb, müxtəlif məzmuna malikdir[3]. Mülkiyyətin iqti-

---

[1] Mülkiyyətin bu xüsusiyyətini nəzərə alaraq, iqtisadçı V.P.Şkredov onun xüsusi iqtisadi kateqoriya kimi mövcud olmaması fikrini əsaslandırır. O, mülkiyyətin hüquqi kateqoriya kimi işlədilməsi fikrini irəli sürür (bax: *Шкредов В.П.* Метод исследования собственности в «Капитал»е К.Маркса. М., 1973; *Шкредов В.П.* Экономика и право. 2-е издание. М., 1990).

[2] *Маркс К., Энгельс Ф.* Соч. Том 12, с. 714.

[3] İqtisadi ədəbiyyatda mülkiyyətin hamılıqla qəbul edilmiş anlayışı verilir. Mülkiyyət istehsalçının istehsal vasitələri və əməyin nəticələri ilə əlaqəsini ifadə edən münasibətdir (bax: *Б.И.Пугинский, Д.Н.Сафиуллин.* Правовая экономика: проблемы становления. М., 1991, с. 109). Mülkiyyət tarixən inkişaf etmiş münasibət olub, hüquqi və ya fiziki şəxsin istehsal vasitələrinə və onun nəticələrinə sahib olmanın formasıdır (bax: *İ.Ə.Feyzullabəyli* və b. Tələb, tələbat, bazar və marketinq. İqtisadi məlumat kitabı. Bakı. 1998, s. 132).

[1] Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 479; *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999. с.302; Гражданское право. Учебник. Часть 1 / Под ред. А.Г.Калпина. А.И.Масляева. М., 1997, с. 229; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 259; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 268.

[2] K.Marks öz əsərlərində mənimsəmə kateqoriyasından istifadə etməklə mülkiyyətə anlayış vermişdir. Xüsusən o, mülkiyyət və mənimsəmə kateqoriyaları arasındakı münasibətə «Siyasi iqtisadın tənqidinə dair» əsərinin girişində toxunmuşdur (bax: *К.Маркс, Ф.Энгельс.* Соч. 2-е изд. т. 46. Часть 1, с. 23-24). Mülkiyyətdən mənimsəmə kateqoriyası kimi V.İ.Lenin də danışırdı (bax: *Ленин В.И.* Полн. собр. соч. Том 1, с. 178).

[3] Hətta K.Marks və digər tədqiqatçılar mənimsəmə kateqoriyasını müxtəlif mənalarda işlədir.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

sadi məzmununu müəyyən etmək üçün daha konkret, daha qeyri-mücərrəd anlayışlardan istifadə edilməsi gərəkdir. Şübhəsiz ki, məsələyə belə yanaşma nisbətən üstünlüyü əks etdirir. **Sahiblik, istifadə etmək, sərəncam vermək** mülkiyyət iqtisadi münasibətlərinin məzmununu müəyyənləşdirmək baxımından mənimsəmə kateqoriyasına nisbətən daha münasib, daha tutarlı iqtisadi kateqoriyalardır[1].

2. Mülkiyyət iqtisadi münasibətlərinin məzmunu (mülkiyyətin iqtisadi məzmunu)

İqtisadi kateqoriya kimi mülkiyyətə xarakteristika vermək üçün mülkiyyət iqtisadi münasibətlərinin məzmununun nədən ibarət olmasını aydınlaşdırmaq lazımdır. Bu münasibətlərin obyektini (maddi substratını) istehsal vasitələrindən və istehlak predmetlərindən ibarət olan əşya təşkil edir. Mülkiyyət iqtisadi münasibətləri həm də iradəvi məzmuna malikdir. Bu baxımdan mülkiyyət «iradənin əşyada yerləşdirilməsi» deməkdir (Hegel)[2]. Mülkiyyətçinin iradəsi ona məxsus olan əşyanın mövcudluğunu şərtləndirir. O, malik olduğu öz əşyasına münasibətdə müxtəlif iradəvi hərəkətlər edə bilər. Bu iradəvi hərəkətlər müxtəlif formalarda həyata keçirilir ki, həmin formalara aiddir: sahiblik forması; istifadə etmək forması; sərəncam vermək forması.

Sahibliklə əlaqədar olaraq statik xarakterli mülkiyyət münasibətləri, istifadə etməklə və sərəncam verməklə bağlı isə dinamik xarakterli mülkiyyət münasibətləri yaranır[3]. Sahiblik əşyanın hər hansı bir şəxsə və ya kollektivə aid olmasını ifadə edir. **Sahiblik** dedikdə, mülkiyyətçinin əşyanı öz təsərrüfatında saxlaması, onun həmin əşya üzərində faktiki (təsərrüfat) yiyəlik etməsi başa düşülür. Sahiblik əşyanın şəxsin və ya kollektivin adına yazılmasını ifadə edir.

İstifadə dedikdə, əşyadan fayda götürmək, onun faydalı təbii xassələrini hasil etmək başa düşülür. İstifadədən götürülən fayda gəlir, artım, bəhər və başqa formalarda ola bilər (MM-in 152-ci maddəsinin 3-cü bəndi). İstifadə onu ifadə edir ki, bununla ya əşya istehlak olunur, ya da o, istehsal (təsərrüfat) məqsədlərinin həyata keçirilməsinə xidmət edir. Əşyadan istifadə etmək və əşya üzərində sahiblik formaları bir-biri ilə sıx surətdə bağlıdır. Bu bağlılıq onda ifadə olunur ki, əksər hallarda əşyadan yalnız ona sahib olmaqla istifadə etmək olar.

Sərəncam dedikdə, əşyanın hüquqi müqəddəratının həll edilməsi başa düşülür. Sərəncam onu ifadə edir ki, bununla əşyanın hüquqi taleyini müəyyən edən akt həyata keçirilir. Əşya barəsində həyata keçirilən akt dedikdə, əşyanın özgəninkiləşdirilməsi (müqavilə üzrə satılması, dəyişdirilməsi, bağışlanması, vərəsəlik üzrə verilməsi), girov qoyulması, icarəyə verilməsi, məhv edilməsi və s. başa düşülür.

Beləliklə, **iqtisadi kateqoriya kimi mülkiyyət dedikdə, şəxslər arasında əşya barəsində elə bir iqtisadi (faktik) münasibət başa düşülür ki, bu münasibət mülkiyyətçiyə əşya üzərində sahiblik, istifadə etmək və sərəncam vermək kimi iradəvi hərəkətlər etmək imkanı verir.**

[1] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 338.

[2] *Гегель Г.В.* Философия права. М., 1990, с. 103.

[3] Bu barədə başqa fikir söylənilir. Müəlliflərdən bəzisi istifadə etməni statik xarakterli münasibəti xarakterizə edən kateqoriya hesab edirlər (Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 230).

3. Mülkiyyət hüququnun hüquqi anlayışı

«İqtisadi kateqoriya olan mülkiyyət» və «mülkiyyət hüququ» kimi anlayışlar bir-birindən fərqlənir. Bunlar üst-üstə düşməyən və bir-birinə tam uyğun gəlməyən anlayışlardır. İlk növbədə onu qeyd edək ki, iqtisadi kateqoriya olan mülkiyyət tarixən mülkiyyət hüququndan daha əvvəl əmələ gəlmişdir.

İqtisadi kateqoriya kimi mülkiyyət insan cəmiyyəti ilə bərabər, onunla eyni vaxtda yaranmışdır. Belə ki, mülkiyyət iqtisadi münasibətləri hələ ibtidai icma quruluşunda dövlət və hüququn olmadığı bir zamanda mövcud olmuşdur. Dövlət və hüququn meydana gəlməsi ilə təbii ki, cəmiyyətdəki mülkiyyət iqtisadi münasibətlərinin hüquqi cəhətdən ifadə edilməsinə və tənzimlənməsinə, mülkiyyətçilərin mənafelərinin hüquqi mühafizəsinə zərurət yarandı. Bu səbəbdən əsas istehsal vasitələrinin mülkiyyətçiləri özlərinin siyasi təşkilatı olan dövlətin məcburetmə qüvvəsi və hüquq normalarının vasitəsilə mülkiyyət münasibətlərini qaydaya salmağa başladılar. Bunun nəticəsində iqtisadi bazis olan mülkiyyət iqtisadi münasibətləri dövlət və hüquq kimi üstqurumun vasitəsilə hüquqi cəhətdən təsbit olundu.

Qeyd etmək lazımdır ki, mülkiyyət iqtisadi münasibətləri mülkiyyət hüququ ilə hüquqi cəhətdən qorunur və nizama salınır. Bu münasibətlər hüquq normaları ilə tənzimlənməklə mülkiyyət hüququ formasını alır. Daha doğrusu, mülkiyyət hüququ iqtisadi kateqoriya olan mülkiyyəti hüquqi cəhətdən rəsmiləşdirir və ifadə edir. Əgər mülkiyyət (mülkiyyət iqtisadi münasibətləri) bazis kateqoriyasına aiddirsə, mülkiyyət hüququ üstqurum kateqoriyasına daxildir. Fəlsəfi planda onlar arasındakı münasibət məzmun və forma kateqoriyaları arasındakı əlaqə kimidir. Belə ki, əgər iqtisadi mənada mülkiyyət (mülkiyyət iqtisadi münasibətləri) məzmundursa, mülkiyyət hüququ iqtisadi mənada mülkiyyətin formasıdır.

Mülkiyyət hüququ anlayışı **iki mənada işlədilir: obyektiv mənada mülkiyyət hüququ; subyektiv mənada mülkiyyət hüququ**[1].

4. Obyektiv mənada mülkiyyət hüququ

Obyektiv mənada mülkiyyət hüququ dedikdə, mülkiyyət münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Obyektiv mənada

[1] Rusiya Federasiyasında yazılan bütün dərsliklərdə müəlliflər mülkiyyət hüququ termininin iki mənada — həm obyektiv mənada, həm də subyektiv mənada işlədilməsini göstərirlər (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 484-485; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 339; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 260; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 229; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 270; Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева.* М., 1999, с. 96-97). Sovet dövründə yazılan dərsliklərdə də mülkiyyət hüququ iki mənada işlədilirdi (bax: Советское гражданское право. Учебник / Под ред. *О.А.Красавчикова.* М., 1985. Том 1, с. 296-297).

mülkiyyət hüququ **mülkiyyət hüququ institutu** ilə əhatə olunur. Məhz bu baxımdan mülkiyyət hüququ mülki hüquqa tərkib hissəsi kimi daxil olan hüquq institutu rolunda çıxış edir.

Mülkiyyət hüququ hər hansı hüquq sistemində əsas və mərkəzi hüquq institutu hesab edilir. Bu institutu xüsusi hüququn özək institutu saymaq olar. Belə ki, mülkiyyət hüququ institutu xüsusi hüququn bütün digər institutlarının xarakterini şərtləndirir. Mülkiyyət hüququnun normaları bu və ya digər dərəcədə **ailə, öhdəlik, vərəsəlik hüququna və digər sahələrə təsir göstərir**. Xüsusən bu normaların öhdəlik hüquq normaları ilə əlaqəsi daha sıxdır. Belə ki, mülkiyyət iqtisadi münasibətlərinin obyekti olan əşyaya sərəncam verilməsi yalnız dinamik xarakterli münasibətlərə, ilk növbədə öhdəlik münasibətlərinə (məsələn, kirayə, icarə, borc, kredit və digər münasibətlərə) girməklə gerçəkləşdirilir ki, bu münasibətlər öhdəlik hüquq normaları ilə nizamlanır. Söhbət əşyaya sərəncam verilməsi formasında edilən iradəvi hərəkətlərdən, yəni alqı-satqıdan, bağışlamadan və digər aktlardan gedir. Vəsiyyət yolu ilə mülkiyyətçi əmlaka sərəncam verərsə, həmin əmlakın vərəsələrə keçməsi prosesi vərəsəlik hüquq normaları ilə qaydaya salınır.

Mülkiyyət münasibətlərini nizama salan mülki hüquq normalarının birləşməsi mülkiyyət hüququ institutunu yaradır. Bu institutun əsasını şəxslərin mülkiyyət hüququnu təsbit edən, mülkiyyətin heç bir növünə üstünlük verilməməsini təmin edən, mülkiyyət hüququnun qanunla qorunmasını müəyyənləşdirən Konstitusiyanın 29-cu maddəsində ifadə olunmuş prinsipial müddəa təşkil edir. Mülkiyyət hüququ institutunda cəmləşən normalar MM-in mülkiyyət hüququnun ümumi müddəaları adlı 6-cı fəslində, habelə 7-ci, 8-ci, 9-cu, 10-cu fəsillərində (152-ci-249-cu maddələr) qruplaşdırılmışdır.

Mülkiyyət hüququ obyektiv mənada **kompleks (çoxsahəvi) xarakterə malik olan hüquq institutudur**[1]. Daha doğrusu, o, qarışıq, mürəkkəb və ya sahələrarası institut kimi çıxış edir. Bu instituta mülki hüquq normaları ilə bərabər, həm də konstitusiya, inzibati və cinayət hüququnun müəyyən etdiyi qaydalar daxildir. Həmin normalar içərisində mülki hüquq normaları daha mühüm rol oynamaqla nisbətən üstünlüyə malikdir. Əgər mülkiyyət münasibətlərinə toxunan normalar mülki-hüquqi xarakter daşıyarsa, belə halda söhbət yalnız mülki hüquq institutu olan mülkiyyət hüququndan gedə bilər.

Mülkiyyət münasibətlərini nizama salan mülkiyyət hüquq institutuna daxil olan normaların xarakter və məzmunu cəmiyyətdə hakim olan iqtisadi və istehsal münasibətləri ilə müəyyən edilir[2]. Başqa sözlə desək, əsasını müəyyən mülkiyyət tipi təşkil edən istehsal üsulları mülkiyyət hüququ institutunun xarakterini şərtləndirir.

Beləliklə, **obyektiv mənada mülkiyyət hüququ dedikdə, maddi nemətlərə yiyələnməklə əlaqədar yaranan münasibətləri tənzimləyən və qoruyan, habelə mülkiyyətçinin əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək hüququnu təmin edən hüquq normalarının sistemi başa düşülür**.

Mülkiyyət hüquq institutunun məzmunu və xarakteri mülkiyyətin tipi ilə müəyyən edilir. Onlar arasında sıx qarşılıqlı əlaqə mövcuddur.

Mülkiyyətin tipi hüquqi yox, iqtisadi kateqoriyadır. Belə ki, mülkiyyət iqtisadi münasibətləri istehsalın üsullarını formalaşdırır, mülkiyyətin tipini ifadə edir. Mülkiyyətin tipi istehsal münasibətləri ilə müəyyən edilir.

Hər bir cəmiyyətdə mövcud olan istehsal üsullarına uyğun gələn müvafiq mülkiyyət tipi vardır. Tarixən mülkiyyətin aşağıdakı tipləri fərqləndirilir: ilkin ibtidai icma mülkiyyət tipi; quldarlıq mülkiyyət tipi; feodal-təhkimli mülkiyyət tipi; kapitalizm mülkiyyət tipi. Yaxın vaxtlara kimi xüsusi olaraq sosialist mülkiyyət tipi də ayrılmışdı. Sosialist birliyinə daxil olan dünya ölkələrinin heç birində həqiqi sosializm qurulmadığına görə bu mülkiyyət tipi tarixin səhnəsindən silinmişdir.

İbtidai cəmiyyətdə dövlət və hüquq olmamışdır. Bu cəmiyyətdə yaranan mülkiyyət münasibətləri hüquq normaları ilə yox, sosial normalarla tənzimlənirdi. Ona görə də ibtidai cəmiyyətdə mülkiyyət hüququ anlayışından danışmaq olmaz. Mülkiyyət hüququ institutunun əmələ gəlməsi yalnız dövlət və hüququn mövcud olduğu cəmiyyətlə bağlıdır.

5. Subyektiv mənada mülkiyyət hüququ

Mülkiyyətin hüquqi məzmununun müəyyən edilməsində əsas anlayışlardan biri subyektiv mənada mülkiyyət hüququ sayılır. **Subyektiv mənada mülkiyyət hüququ** həmişə müəyyən bir şəxsə məxsus olmaqla konkret əmlaka aid edilir. Bu hüquq yalnız müəyyən hüquqi faktlar olduqda əmələ gəlir. Subyektiv mülkiyyət hüququnun əmələ gəlməsini şərtləndirən hüquqi faktlara misal olaraq yeni əşyanın hazırlanmasını, alqı-satqı müqaviləsini, miras əmlakın qəbul edilməsini və s. göstərmək olar.

Subyektiv mənada mülkiyyət hüququ **subyektiv mülkiyyət hüququnu** ifadə edir ki, buna MM-in 152-ci maddəsində anlayış verilmişdir. Bu maddəyə görə, **mülkiyyət hüququ dedikdə, subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüquqları başa düşülür.**

Subyektiv mənada mülkiyyət hüququ izah edilərkən subyektiv mülki hüququn ümumi anlayışından istifadə etmək lazımdır. Bununla bərabər, subyektiv mülkiyyət hüququ həm də spesifik xüsusiyyətlərə malikdir.

Subyektiv mülkiyyət hüququnun **birinci xüsusiyyəti** ondan ibarətdir ki, bu **hüquq mütləq xarakterə malikdir**. Bu, onu ifadə edir ki, səlahiyyətli şəxs olan mülkiyyətçiyə qarşı subyektiv mülkiyyət hüququnu pozmamağa borclu olan qeyri-müəyyən sayda şəxslər («hamı və hər kəs») durur. Səlahiyyətli şəxs (mülkiyyətçi) istədiyi kimi öz mənafeyi naminə əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək hüquqlarını həyata keçirə bilər. Borclu şəxslər isə (dairəsi müəyyən edilməyən) bu hüquqların gerçəkləşdirilməsinə maneçilik edən, əngəl törədən hərəkətlər etməmək vəzifəsini daşıyırlar. Müəlliflərin əksəriyyəti subyektiv mənada mülkiyyət hüququna **mütləq**

[1] bax: *Толстой Ю.К.* Конституция СССР и право собственности // Советское государство и право. 1978. № 7, с. 14; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова.* М., 1985, с. 296; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 485 (fəslin müəllifi *E.A.Suxanovdur*).

[2] K.Marks haqlı olaraq yazırdı ki, mülkiyyət münasibətləri istehsal münasibətlərinin hüquqi ifadə formasıdır (*К.Маркс. Ф.Энгельс.* Соч. Том 12. ч. 1, с. 7).

mülki hüquq münasibəti kimi baxırlar[1]. Almaniya hüquq doktrinasında da mülkiyyət hüququ mütləq hüquq kateqoriyasına aid edilir[2].

Subyektiv mülkiyyət hüququnun **ikinci xüsusiyyəti** ondan ibarətdir ki, o, **əmlak xarakterinə malikdir**. Bu hüququn iqtisadi məzmunu maddi dünyanın predmetləri ilə əlaqədardır. Əmlak xarakterli mülkiyyət hüququnu əqd (məsələn, alqı-satqı, bağışlama və digər müqavilələr) bağlamaq, vərəsəlik yolu ilə özgəninkiləşdirmək olar.

Subyektiv mülkiyyət hüququnun **üçüncü xüsusiyyəti** ondan ibarətdir ki, **bu hüquq əşya hüququdur**. Mülkiyyətçinin mənafeyi əşyaya qarşılıqlı təsir göstərmək yolu ilə onun faydalı xüsusiyyətləri hesabına təmin edilir. O, borclu şəxsin razılığı olmadan əşyaya sahiblik, əşyadan istifadə etmək və onun barəsində sərəncam vermək səlahiyyətlərini həyata keçirir.

Əşya hüququ ilə mülkiyyət hüququ arasındakı əlaqə cins və növ arasındakı münasibət kimidir. Hər bir mülkiyyət hüququ əşya hüququdur, amma hər bir əşya hüququ mülkiyyət hüququ hesab edilmir. Məsələn, məhdud əşya hüquqları (girov hüququ, servitut hüququ, superfitsi hüququ və s.) əşya hüququ kateqoriyasına aid edilir, ancaq mülkiyyət hüququ sayılmır. Mülkiyyət hüququ ilə məhdud əşya hüququ arasındakı əlaqəyə gəldikdə isə qeyd etmək lazımdır ki, mülkiyyət hüququ şahmatdakı vəzirə oxşayır[3].

Subyektiv mülkiyyət hüququ vaxt və zaman kateqoriyası ilə məhdudlaşmır. Mülkiyyət hüququ **müddətsiz hüquqdur**. Belə ki, mülkiyyət hüququ son müddət ideyasını qəbul etmir: müvəqqəti mülkiyyət mövcud deyil. Bu, onun **dördüncü xüsusiyyətidir**. Qanun subyektiv mülkiyyət hüququnun qüvvədə olma müddətini müəyyən etmir. Başqa sözlə desək, mülkiyyətçi əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək hüquqlarını müddətdən asılı olmadan həyata keçirmək imkanına malikdir. Bu, o deməkdir ki, mülkiyyət hüququ ekstinktiv müddəti (mövcud olma və ya ləğv olunma müddətini) tanımır. Bunlardan əlavə, mülkiyyət hüququnun müddətsiz xarakterə malik olması həm də onda ifadə edilir ki, o, hər hansı müddətlə məhdudlaşdırılmır. O mənada məhdudlaşdırılmır ki, mülkiyyət hüququnun obyekti, yəni əşya mövcud olana qədər mülkiyyət hüququ da mövcud olmaqda davam edir[4]. Hətta mülkiyyətçinin ölümündən sonra da o, mövcud olmaqda davam edir və ləğv olunmur. Belə ki, əgər mülkiyyətçi ölərsə, bu zaman mülkiyyət hüququ vərəsəlik qaydasında mülkiyyətçinin vərəsələrinə keçir.

Mülkiyyət hüququ **müstəsna hüquqlar dairəsinə aid edilən hüquqdur**[5]. Bu, onu ifadə edir ki, başqalarının yox, yalnız və yalnız mülkiyyətçinin öz əmlakı barəsində qanuna zidd olmayan istənilən hərəkəti etmək hüququ vardır; belə hərəkəti başqaları yalnız mülkiyyətçinin icazəsi və razılığı ilə edə bilərlər; əgər mülkiyyətçinin razılığı və icazəsi olmadan onlar əşyadan istifadə və digər hərəkətlər edərlərsə, bu, hüquq pozuntusu sayılır. Yalnız mülkiyyətçinin ixtiyarı vardır ki, bütün üçüncü şəxslərin əmlaka etdiyi təsiri dəf etsin. Əşyaya müstəsna hüquqa malik olmaq həm də o deməkdir ki, bütün şəxslər («hamı və hər kəs») əşya barəsində mülkiyyətçinin iradəsi olmadan hər hansı hərəkət etməkdən çəkinməlidirlər. Bu, mülkiyyət hüququnun **beşinci xüsusiyyətidir**. Mülkiyyət hüququnun müstəsna hüquq olması mülkiyyətçinin, yəni mülkiyyət hüququnun sahibi olan şəxsin **inhisarçılığı** deməkdir. Belə ki, mülkiyyət hüququ öz sahibi (mülkiyyətçi) üçün əmlakdan istifadə etmək və ondan fayda götürməkdə, əmlaka sərəncam verməkdə inhisarçılıq müəyyənləşdirir[1]. Buna görə də mülkiyyət hüququ **inhisar hüququ** deməkdir. ABŞ mülki hüququna görə mülkiyyət hüququ mülkiyyətçinin əmlaka müstəsna sahiblik, əmlakdan müstəsna istifadə və onun üzərində müstəsna sərəncam vermək hüququnu ifadə edir[2].

Altıncısı, mülkiyyət hüququna **izləmə hüququ** xasdır. İzləmə hüququ onu ifadə edir ki, əşyanın bir şəxsdən digərinə keçdiyi bütün hallarda mülkiyyət hüququ şəxsin yox, əşyanın arxasınca gedir, onu izləyir. Məsələn, əşya satıldıqda, həmin əşya üzərində mülkiyyət hüququ satıcının arxasınca yox, əşyanın arxasınca gedir; oğurlanmış əşyanın mülkiyyətçisi həmin əşyaya sahibliyi itirsə də onun mülkiyyətçisi olmaqda davam edir.

Yeddincisi, mülkiyyət hüququ **üstün hüquqdur**. Bu, onu ifadə edir ki, mülkiyyət və öhdəlik hüquqları arasında ziddiyyət (kolliziya) olarsa, üstünlük mülkiyyət hüququna verilir. Buna görə mülkiyyət hüququ **güclü hüquq** da adlandırıla bilər. Üstünlük hüququ özünü xüsusən müflisləşmə hallarında büruzə verir. Hətta eyni bir əşyaya eyni vaxtda həm mülkiyyət hüququ, həm də öhdəlik hüququ mövcud olduqda, üstünlük mülkiyyət hüququna verilir. Bu cəhət, ümumiyyətlə, bütün əşya hüquqlarına xas olan xüsusiyyətdir. Həmin xüsusiyyət isə Yaponiya sivilistika doktrinasında əsaslandırılmışdır.

Səkkizincisi, mülkiyyət hüququ **tam hüquqdur**. Tamlıq həm mülkiyyətin, həm də mülkiyyətçinin azadlığını ifadə edir. Mülkiyyətçi əşya üzərində tam yiyəliyə malikdir. O, əmlak barəsində qanunazidd olmayan istənilən hərəkəti edə bilər. Hegelə görə, mülkiyyətçinin əşyanı məhv etmək imkanı mülkiyyətin tamlığını və azadlığını sübuta yetirir. Təsadüfi deyildir ki, klassik mülkiyyət hüququ mülkiyyətçinin əşyanı məhv etmək səlahiyyətini də əhatə edir. Almaniya mülki hüquq elmində göstərilir ki, mülkiyyət tam əşya hüququdur[3].

Mülkiyyət hüququnun tamlığı onu ifadə edir ki, onun məzmunu təkcə üçlü səlahiyyət (sahiblik səlahiyyəti; əşyadan istifadə səlahiyyəti; əşya üzərində sərəncam səlahiyyəti) ilə kifayətlənmir. Mülkiyyətin hüquqi məzmununa digər səlahiyyətlər də daxil ola bilər. Belə halda mülkiyyət hüququ **qeyri-məhdud hüquq** sayılır. Bu xüsusiyyəti ilə mülkiyyət hüququ əşya hüququnun digər növü olan məhdud əşya hüququndan (məsələn, servitut hüququndan, girov hü-

---

[1] bax: Советское гражданское право. Том 1 / Под ред. *В.Т.Смирнова, Ю.К.Толстого, А.К.Юрченко.* Л., 1982, с. 299; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 100; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 87.

[2] *Wolf M.* Sachenrecht. München. 1997; *Wilhelm J.* Sachenrecht. Berlin. 1993; *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 274.

[3] *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 117.

[4] Bax: *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 88.

[5] Mülkiyyət hüququ müstəsna hüquqdur (*Победоносцев.* Курс гражданского права. Часть 1. 1896, с. 124).

[1] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 71.

[2] Bax: *Ласк Г.* Гражданское право США. М., 1961, с. 461.

[3] *Baur J.F., Stürner R.* Lehrbuch des Sachenrechts. 1999, s. 15; *Wieling H.J.* Sachenrecht. Berlin. 1997, s. 37.

ququndan və digər hüquqlardan) fərqlənir. Belə ki, məhdud əşya hüququnun sahibi olan şəxslər (mülkiyyətçi olmayan şəxslər) mülkiyyət hüququnun məzmununu təşkil edən səlahiyyətlərin hamısına yox, bəzi səlahiyyətlərə malikdirlər. Həmin səlahiyyətlər heç bir vaxt tam halında, eyni zamanda bu şəxslərə məxsus olmur. Məsələn, əmlakı girov götürməklə borc verən şəxs həmin əmlaka yalnız sahiblik etmək səlahiyyətinə malikdir; onun girov qoyulmuş əmlakdan nə istifadə etmək, nə də onun üzərində sərəncam vermək səlahiyyəti vardır.

Dediklərimiz onu təsdiq edir ki, mülkiyyət hüququ Fransa mülki hüquq elmində göstərildiyi kimi, **suveren (qeyri-məhdud) xarakterli hüquqdur**[1]; ona suverenlik xasdır. Amma mülkiyyət hüququ mülkiyyətçiyə tam suverenlik vermir. Belə ki, qanunda nəzərdə tutulan hallarda mülkiyyət hüququ məhdudlaşdırıla bilər (MM-in 8-ci fəsli, 169-172-ci maddələr). Bu baxımdan mülkiyyət hüququ tam suveren (qeyri-məhdud) hüquq hesab edilmir.

Doqquzuncu, mülkiyyət hüququ **elastik xarakterə** malikdir. Bu, onu ifadə edir ki, mülkiyyəti məhdudlaşdıran hər hansı hal (girov, ipoteka, əmlakın həbsi və s.) aradan qalxdıqda, mülkiyyət hüququ da tam həcmdə bərpa olunur[2]. Məsələn, şəxs öz əmlakını girov qoyub, digər şəxsdən borc pul alır. Borcu qaytardıqdan sonra o, girov qoyulmuş əmlakı geri götürür. Bunun nəticəsində onun mülkiyyət hüququ tam həcmdə bərpa olunur[3]. Elastiklik xüsusiyyəti imkan verir ki, mülkiyyətçi öz əşyası üzərində tam yiyəlik və «ağalıq» etmək vəziyyətinə qayıda bilsin.

Onuncu, mülkiyyətçinin hüquqlarının sahiblikdən məhrum edilməklə bağlı olmayan pozuntulardan müdafiə zamanı (yəni neqator iddia verilən hallarda) mülkiyyət hüququ iddia müddəti tanımır, yəni **mülkiyyət hüququna iddia müddəti şamil edilmir** (MM-in 384-cü maddəsi). Bu, o deməkdir ki, iddia müddətinin ötməsi mülkiyyət hüququnun ləğv edilməsinə səbəb olmur. Bu baxımdan, Yaponiya mülki hüququnda göstərildiyi kimi, mülkiyyət hüququ **daimi hüquqdur**.

Yeni Mülki Məcəllə mülkiyyətçiyə öz əmlakı barəsində istədiyi kimi əqd bağlamağa ümumi icazə verdiyindən başqa, həm də onun öz əmlakını başqa şəxsin **vəkalətli idarəçiliyinə verə bilməsini** nəzərdə tutur. Belə halda mülkiyyət hüququ vəkalətli idarə edənə keçmir. O, əmlakı mülkiyyətçinin və ya mülkiyyətçinin göstərdiyi üçüncü şəxsin mənafeyi üçün idarə etməlidir (MM-in 152-ci maddəsinin 8-ci bəndi).

Beləliklə, **subyektiv mülkiyyət hüququ dedikdə, səlahiyyətli şəxs olan mülkiyyətçinin qanunla müəyyən edilən elə bir mümkün davranış ölçüsü başa düşülür ki, bununla o, əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək hüququnu həyata keçirir**.

6. Mülkiyyət hüquq münasibətlərinin quruluşu və subyektləri

Hüquq normaları ilə tənzimlənən mülkiyyət iqtisadi münasibətləri hüquq münasibətləri formasını alır. İstənilən hər hansı hüquq münasibəti müəyyən quruluşa malikdir. Mülkiyyət hüquq münasibətlərinin quruluşu dedikdə, bu münasibətlərin subyekti, obyekti və məzmunu (subyektiv hüquq və hüquqi vəzifə) başa düşülür.

Mülkiyyət hüquq münasibətlərinin subyekti rolunda **vətəndaşlar, hüquqi şəxslər** — həm kommersiya təşkilatları (tam şərikli müəssisələr, səhmdar cəmiyyətləri və digər təsərrüfat ortaqlıqları və cəmiyyətləri, kooperativlər), həm qeyri-kommersiya təşkilatları (ictimai birliklər, dini təşkilatlar, fondlar), habelə **dövlət** (**Azərbaycan Respublikası**), **bələdiyyələr** çıxış edir. MM-in 153-cü maddəsi mülkiyyət hüququnun subyektlərinin dairəsini müəyyən edir. Bununla bərabər, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hədlərdə onun ərazisində xarici dövlətlərin, onların hüquqi şəxslərinin və vətəndaşlarının, beynəlxalq təşkilatların mülkiyyətinə yol verilir.

Hər bir subyekt malik olduğu əmlaka **mülkiyyət hüququnun vahid daşıyıcısı qismində** çıxış edir. Əmlakın bir neçə şəxsə məxsusluğu başqa şəxsin bu əmlaka həmin həcmdə mülkiyyət hüququna malik olmasını istisna edir[1]. Bununla bərabər, əşya üzərində **mülkiyyət hüququ eyni zamanda iki və daha artıq subyektə məxsus ola bilər** (ümumi mülkiyyət). İki və ya bir neçə şəxsin mülkiyyətində olan əşya ümumi mülkiyyət hüququ əsasında onlara mənsubdur (MM-in 213-cü maddəsinin 1-ci bəndi).

Mülkiyyət hüquq münasibətlərində yalnız subyekt kimi səlahiyyətli şəxs — mülkiyyətçi konkret olaraq müəyyən edilir. Bu münasibətlərdə subyekt kimi iştirak edən ikinci tərəf, yəni borclu şəxs isə naməlumdur. Dairəsi qeyri-müəyyən olan, çoxsaylı borclu şəxslər («hamı və hər kəs») mülkiyyət hüquq münasibətlərində ikinci tərəf qismində çıxış edirlər. Digər mülki hüquq münasibətlərində (məsələn, öhdəlik hüquq münasibətlərində — alqı-satqı, kredit, kirayə və digər münasibətlərdə) isə əlaqələr ancaq konkret subyektlər arasında əmələ gəlir. Bu, mülkiyyət hüquq münasibətlərinin quruluş xüsusiyyətini təşkil edir. Bu xüsusiyyətə görə, mülkiyyət hüquq münasibətində bir tərəfdə (səlahiyyətli şəxs qismində) mülkiyyətçi, digər tərəfdə isə (borclu şəxs qismində) əhatə dairəsi bilinməyən şəxslər («hamı və hər kəs») çıxış edirlər.

7. Mülkiyyət hüquq münasibətlərinin obyekti və məzmunu

Mülkiyyət hüququnun obyektlərinin dairəsi kifayət qədər genişdir. Buraya daxildir: torpaq; yerin təki; daxili sular və ərazi suları; qitə şelfi; hava hövzəsi; bitkilər və heyvanlar aləmi; müəssisələr; əmlak kompleksləri; binalar, qurğular; avadanlıq; xammal və materiallar; pullar, qiymətli kağızlar; istehsal təyinatlı digər əmlak; istehlak məhsulları. Bunlar mülkiyyət hüququnun ayrı-ayrı subyektlərinə (ya dövlətə, ya bələdiyyəyə, ya da fiziki və hüquqi şəxslərə) məxsus ola bilər.

Qeyd etmək lazımdır ki, maddi dünyanın mülki dövriyyə qabiliyyətli hər hansı predmeti, istehsal vasitə və məhsulları mülkiyyət hüququnun obyekti ola bilər. Şəxsi qeyri-maddi nemətlər — həyat, sağlamlıq, şərəf və ləyaqət, rəsmi ad-san (işgüzar nüfuz) və s. mülkiyyət hüququnun obyekti qismində çıxış edə

---

[1] Bax: *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 34.

[2] D.M.Genkin bu barədə göstərirdi ki, elastiklik hər bir hüquqa xasdır (*Генкин Д.М.* Право собственности в СССР. М., 1961, с. 49-50).

[3] Yaponiya sivilistika doktrinasında mülkiyyət hüququnun elastikliyi göstərilir (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 178).

[1] Bu qayda Roma hüququnun əsas prinsipinə uyğundur: «bir əşya üzərində iki tam mülkiyyət hüququ ola bilməz». Bu prinsip kontinental mülki hüquq ailəsi tərəfindən iqtibas edilmişdir.

bilməz. Bu, məlum məsələdir; həyat, sağlamlıq və digər şəxsi qeyri-maddi nemətlər necə mülkiyyət hüququnun obyekti ola bilər? Hətta bunu təsəvvür etmək qeyri-mümkündür.

Əqli yaradıcılıq fəaliyyətinin elmi-texniki ideyalardan və ədəbi-bədii obrazlardan ibarət olan ideal (qeyri-maddi) nəticələri — elm, ədəbiyyat və incəsənət əsərləri, kəşflər, ixtiralar, faydalı modellər və başqalarının mülkiyyət hüququnun obyekti ola bilməsi istisna edilir. Bu da aydın məsələdir. Belə ki, əqli yaradıcılıq fəaliyyətinin nəticələrinin maddiləşmiş (əşya) forması yoxdur; onlar qeyri-maddi nemətlərdir. Məsələn, hər hansı əsər ədəbi-bədii obrazlardan və ya elmi ideyalardan, ixtira simvollardan, çertyojlardan və s. ibarətdir. Bu kimi nemətlər necə mülkiyyət hüququnun obyekti ola bilər? Bununla bərabər, əqli fəaliyyətin nəticələri, əgər hər hansı maddi obyektdə (məsələn, alimin etdiyi ixtiranın çertyojları əsasında istehsal olunmuş yeni təyinatlı saatda, soyuducuda, televizorda, velosipeddə və digər obyektlərdə, müəllifin yazdığı əsəri əks etdirən kitabda və s.) ifadə edilərsə, digər əşyalar kimi mülkiyyət obyektinin obyekti ola bilər. Təsadüfi deyildir ki, əsərin ifadə edildiyi maddi obyektə olan mülkiyyət hüququ barədə qanun göstəriş ifadə edir (Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında qanunun 5-ci maddəsinin 4-cü bəndi)[1].

Mülkiyyət hüquq münasibətlərinin obyekti yalnız fərdi əlamətləri ilə müəyyən edilən əşya ola bilər. Yalnız konkret və müəyyən əşyaya özününkü kimi münasibət bəsləmək mümkündür. Cinsi əlamətləri ilə müəyyən edilən əşya da mülkiyyət hüququnun obyekti ola bilər, bu şərtlə ki, həmin əşya eyni cinsdən olan əşyalar arasından fərdiləşdirilməklə ayrıla bilsin. Məsələn, vətəndaş pulu banka əmanətə qoyur və bank əmanəti müqaviləsi bağlayır. Belə halda deyirik ki, o, pula mülkiyyət hüququnu itirir. Müddət başa çatdıqda, əmanətçi əmanəti geri götürür. Belə halda isə deyirik ki, o, bankdan götürdüyü pula mülkiyyət hüququ əldə edir. Bu kimi hallarda, sözün əsl mənasında, pul cinsi əlamətləri ilə müəyyən edilən əşya olduğuna görə mülkiyyət hüququnun predmeti ola bilmir. Amma pul seriya və nömrələri yazılmaqla fərdiləşdirilə və bununla mülkiyyət hüququnun obyekti ola bilər. Məsələn, vətəndaş pulun seriya və nömrələrini yazıb özündə saxlayır. Bununla həmin pul nişanəsi digər pullardan (pul kütləsindən) ayrılır və fərdi əlamətləri ilə müəyyən edilən əşyaya çevrilir. Belə halda isə pul mülkiyyət hüquq münasibətinin obyekti kimi çıxış edir.

Əşya hüququnun, o cümlədən mülkiyyət hüququnun obyekti rolunda **yalnız əşya çıxış edə bilər**; ancaq əşyaya münasibətdə mülkiyyət hüququ mövcud olur. Başqa sözlə desək, yalnız əşyaya mülkiyyət hüququnun olmasından söhbət etmək olar. Ona görə də mülkiyyət hüququnun obyekti olmaq üçün müvafiq predmetin əşya olması tələb edilir. Bizim ölkə qanunvericiliyinə görə, **yalnız maddi (fiziki) obyektlər əşya sayılır** (MM-in 135-ci maddəsinin 1-ci bəndi). Bu, bəzi xarici ölkələrin qanunvericiliyinə uyğundur. Almaniya qanunvericiliyinə görə əşya qismində ancaq maddi obyektlər çıxış edə bilər (MQ-nin 90-cı paraqrafı)[2]. Yaponiya qanunvericiliyi göstərir ki, yalnız maddi predmetlər

[1] bax: AR QK, III cild, s. 204.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 11; Германское право. Гражданское уложение. Часть 1. М., 1996..

əşya kateqoriyasına aid edilir (MM-in 85-ci maddəsi)[1]. Almaniyada, hüquqi-texniki planda, mülkiyyət hüququnun obyekti yalnız maddi nemətlər ola bilər (MQ-nin 80-ci paraqrafı). Fransa və İtaliya kimi ölkələrdə isə mülkiyyət hüququ qeyri-maddi nemətlərə (məsələn, orijinal ideyaya) də şamil edilir[2].

Mülkiyyət hüquq münasibətinin məzmunu subyektiv mülkiyyət hüququndan və subyektiv vəzifədən ibarətdir. Mülkiyyət hüquq münasibətinin məzmunu anlayışını subyektiv mülkiyyət hüququnun məzmunundan fərqləndirmək lazımdır. İlk növbədə, onu qeyd edək ki, mülkiyyət hüquq münasibəti məzmunca iki elementdən ibarətdir: subyektiv mülkiyyət hüququndan; subyektiv vəzifədən. Subyektiv mülkiyyət hüququ isə məzmunca başqa elementlərdən ibarətdir. Subyektiv mülkiyyət hüququnun məzmunu növbəti hissədə izah olunacaqdır.

Subyektiv mülkiyyət hüququ mülkiyyətçiyə məxsusdur. Subyektiv vəzifə isə qeyri-müəyyən dairədən olan şəxslər (bütün digər şəxslər, yəni «hamı və hər kəs») tərəfindən mülkiyyətçiyə öz səlahiyyətlərini (subyektiv mülkiyyət hüququnu) həyata keçirməkdə mane olmamaqda ifadə edilir. Bütün digər şəxslər («hamı və hər kəs»), yəni borclu şəxslər mülkiyyətçinin səlahiyyətlərini pozmaqdan çəkinmək vəzifəsini daşıyırlar (**passiv vəzifə**).

Subyektiv vəzifə dedikdə, dairəsi qeyri-müəyyən olan borclu şəxslərin qanunla müəyyən edilən elə bir zəruri davranış ölçüsü başa düşülür ki, bu ölçü mülkiyyətçiyə əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək hüquqlarının həyata keçirilməsinə maneçilik törədilməməsini təmin edir.

8. Subyektiv mülkiyyət hüququnun məzmunu

Subyektiv mülkiyyət hüququ dedikdə, səlahiyyətli şəxsin (mülkiyyətçinin) mümkün olan elə bir davranış ölçüsü başa düşülür ki, bu ölçü mülki hüquq normaları ilə müəyyən edilir. O, mürəkkəb xarakterli hüquqi anlayış olub, müəyyən məzmuna malikdir.

Subyektiv mülkiyyət hüququnun məzmunu dedikdə, səlahiyyətli şəxsə (mülkiyyətçiyə) verilən hüquqi imkanlar başa düşülür. Bu hüquqi imkanlar subyektiv mülkiyyət hüququnun məzmununun tərkib hissəsi (elementi) kimi çıxış edir. O, səlahiyyət adlanır. Üç cür səlahiyyət fərqləndirilir:

- tələb etmək səlahiyyəti (hüquqi imkanı);
- müdafiə səlahiyyəti (hüquqi imkanı);
- davranış səlahiyyəti (hüquqi imkanı).

Tələb etmək səlahiyyətinin mahiyyəti ondan ibarətdir ki, səlahiyyətli şəxs (mülkiyyətçi) bütün şəxslərdən («hamıdan və hər kəsdən») ona məxsus olan mülkiyyət hüququnu pozmamağı tələb etmək imkanına malikdir. **Müdafiə etmək səlahiyyəti** onu ifadə edir ki, səlahiyyətli şəxsin (mülkiyyətçinin) onun mülkiyyət hüququnu pozanlara dövlət məcburetmə tədbirləri tətbiq olunmasını tələb etmək imkanı vardır. **Davranış səlahiyyəti** dedikdə, səlahiyyətli şəxsə (mülkiyyətçiyə) əşya barəsində müstəqil surətdə faktiki və hüquqi əhəmiyyətli hərəkətlər etmək imkanı verilməsi başa düşülür. Məhz davranış səlahiyyəti subyektiv mülkiyyət hüququnun məzmununun əsasını və bünövrəsini təşkil

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 93.

[2] *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 113.

edir. O, mühüm və başlıca səlahiyyətdir. Deməli, subyektiv mülkiyyət hüququnun məzmununda üç səlahiyyət birləşir. Ona görə də bu hüquq **subyektiv mülki hüququn klassik modelidir.**

Davranış səlahiyyəti özü üç cür səlahiyyəti əhatə edir: sahiblik səlahiyyətini; istifadə etmək səlahiyyətini; sərəncam vermək səlahiyyətini. Azərbaycan Respublikasının yeni MM-i də bu mövqedən çıxış edir. MM-in 152-ci maddəsində ənənəvi üçlü səlahiyyət ifadə edilmişdir[1].

Mülkiyyətçinin üçlü səlahiyyətə yalnız Rusiya Federasiyasının, MDB-yə daxil olan bir çox dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının milli hüquq sistemində rast gəlmək olur. İnkişaf etmiş hüquq sistemlərinin heç biri üçlü səlahiyyət kimi hüquqi kateqoriya tanımır. İlk dəfə olaraq bu səlahiyyət 1832-ci ildə Rusiya imperiyasının qanunlar külliyyatının 1-ci hissəsinin 10-cu cildinin 420-ci maddəsində qanunvericilik qaydasında təsbit edilmişdir. Sovet dövrünün mülkiyyət qanunvericiliyi üçlü səlahiyyəti həmin sənəddən iqtibas edərək, 1922-ci və 1964-cü illərin mülki məcəllələrində, 1961-ci il və 1991-ci illərin mülki qanunvericiliyinin əsaslarında saxlamışdı. Azərbaycan Respublikasının 1964-cü il MM-inin 87-ci maddəsi mülkiyyətçinin əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək hüququnu müəyyənləşdirirdi. Bu qayda «Mülkiyyət haqqında» qanunda da saxlanılmışdı (1-ci maddə).

Sovet dövrünün mülki hüquq elmi mülkiyyətçinin üçlü səlahiyyətə xüsusi əhəmiyyət verirdi. Alimlərin çoxu mülkiyyətin məna və məzmununu məhz bu səlahiyyətdə axtarırdılar. Tez-tez onlar A.V.Venediktovun irəli sürdüyü fikrə istinad edirdilər: mülkiyyətçinin əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək üzrə səlahiyyətlərinin ənənəvi siyahısı bütün formasiyalarda mülkiyyət hüququ üçün ümumi olan cəhəti ifadə edir[2].

Əcnəbi dövlətlərin qanunvericiliyində subyektiv mülkiyyət hüququnun məzmununa müxtəlif səlahiyyətlər aid edilir. Yapon qanunvericiliyinə görə, mülkiyyət hüququnun məzmununa qanunvericiliyin müəyyən etdiyi hədlərdə bu hüquqdan müstəqil və azad surətdə istifadə etmək, fayda götürmək və ona sərəncam vermək hüququ daxildir (MM-in 206-cı maddəsi). Yaponiya Konstitusiyasının 29-cu maddəsinin 2-ci bəndinə görə, mülkiyyət hüququnun məzmunu «qanunla müəyyən edilir, bir şərtlə ki, ictimai nemətlərə zidd olmasın»[3]. Fransa Mülki Məcəlləsinin 544-cü maddəsinə görə, mülkiyyət dedikdə, mütləq qaydada əşyadan istifadə və onun üzərində sərəncam vermək hüququ başa düşülür. Fransa qanununa görə, mülkiyyətçi əşyadan yalnız qanunla qadağan edilməmiş fəaliyyət üçün istifadə edə bilər[1].

Almaniya Mülki Qanunnaməsinin 903-cü paraqrafına görə, mülkiyyətçi əşya üzərində öz mülahizəsinə və istəyinə uyğun olaraq sərəncam verə bilər, habelə başqalarının əşyaya hər cür təsir göstərməsinin qarşısını ala bilər, bu şərtlə ki, qanunun göstərişlərinə və ya üçüncü şəxslərin hüquqlarına zidd olmasın[2]. Burada mülkiyyət hüququnun məzmununa iki cür anlayış verilir: formal mənada anlayış; maddi mənada anlayış. **Formal mənada mülkiyyət hüququnun məzmunu** dedikdə, mülkiyyətçinin əşya barəsində etdiyi hərəkətlərin qanunun göstərişlərinə zidd olmaması başa düşülür. **Maddi mənada mülkiyyət hüququnun məzmunu** dedikdə isə əşya üzərində elə sahiblik (yiyəlik) başa düşülür ki, bu sahiblik (yiyəlik) subyekti səlahiyyətlərin (hüquqi imkanların) sistemi ilə təmin edir[3].

Almaniya mülki hüquq doktrinasında üstün olan konsepsiyaya görə, mülkiyyət hüququnun məzmununa qanuna məlum olan istənilən elə səlahiyyətlər daxildir ki, bu səlahiyyətlər əşya üzərində yiyəliyi (sahibliyi) təmin edir. Bu konsepsiya, əsasən, professor X.Pryuttingin işlərində əsaslandırılır[4].

İspaniya MM-inə görə (348-ci maddənin 1-ci hissəsi), mülkiyyət dedikdə, qanunvericiliyin nəzərdə tutduğu hədlərdə əşyaya sahiblik və ondan istifadə hüququ başa düşülür[5].

İngilis-amerikan hüquq ailəsinə görə, mülkiyyətçi on-on iki müxtəlif səlahiyyətə malikdir. Mülkiyyətçiyə ənənəvi hüquqlarla bərabər, həm də bəzi tələb hüquqları (məsələn, pensiya, müavinət, aliment və s. almaq hüquqları), müstəsna hüquqlar (əqli mülkiyyət hüquqları) məxsusdur. Bu, onunla əlaqədardır ki, kontinental mülki hüquq ailəsi üçün xarakterik olan «bir əşya — bir mülkiyyət hüququ» prinsipi əvəzinə, ingilis-amerikan ailəsində «bir əşya — bir neçə mülkiyyət hüququ» prinsipi tətbiq edilir. Eyni bir əşyaya münasibətdə bir neçə şəxsin eyni vaxtda mülkiyyət hüququ yarana bilər. Məsələn, bir mülkiyyətçi icarəyə verilmiş torpağa görə icarə haqqı formasında gəlir almaq, digər mülkiyyətçi isə istifadə etmək hüququna malik ola bilər. Belə halda mülkiyyət hüququnun məzmunu mülkiyyətçilərin razılığı ilə müəyyən edilir. Presedent xarakterinə malik olduğuna görə ingilis-amerikan hüquq ailəsi mülkiyyətin leqal (qanunvericilik qaydasında) anlayışını vermir ki, bu da mülkiyyətçilərin səlahiy-

---

[1] Bəzi müəlliflər subyektiv mülkiyyət hüququnun məzmununun sahiblik, istifadə etmək və sərəncam vermək səlahiyyətlərindən ibarət olması fikrini söyləyirlər. Dediklərimiz onu sübut edir ki, bu, məsələyə birtərəfli və natamam yanaşmadır (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова.* М., 1985; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998).

[2] *Венедиктов А.В.* Государственная социалистическая собственность. М., — Л., 1948, с. 17.

[3] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 179.

[1] Fransa Mülki Məcəlləsi XIX əsrin əvvəllərində Roma hüququ ənənələrinə uyğun olaraq mülkiyyət hüququna belə anlayış verirdi: mülkiyyət hüququ şəxsin əşya üzərində nisbətən daha tam yiyəliyidir (plena in re potestas). Analoji tərifi sivilistika doktrinası da verirdi. Mülkiyyət hüququna verilən bu anlayış uzun müddət geniş yayılaraq, əsas tərif kimi qəbul olunmuşdu (bax: *Иоффе О.С.* Цивилистическая доктрина промышленного капитализма // Труды Киргизского гос. универ. Серия юридических наук. Вып. 8. Фрунзе, 1972).

[2] Almaniya Mülki Qanunnaməsi qəbul edilərkən Reystaqda mülkiyyət barədə çox qızğın debatlar getmişdir. Katolik mərkəzinin nümayəndələri mülkiyyətin «qeyri-alman, yalan» anlayışına qarşı çıxırdılar. Onlar hesab edirdilər ki, mülkiyyət anlayışı Roma hüququndan götürülmüşdür: mülkiyyətçi əşya üzərində öz istəyinə uyğun sərəncam verə bilməz (bu barədə geniş yazılmışdır: *B.A.Савельев.* Германское гражданское уложение. М., 1983, с. 42-43).

[3] *Wolf M.* Sachenrecht. München. 1997, s. 30.

[4] *Schwab K.H., Prutting H.* Lehrbuch des Sachenrecht. München. 1996, s. 122.

[5] Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 221.

yətlərinin çoxsaylı olmasına təsir göstərir[1].

ABŞ mülki hüququ mülkiyyət hüququna üçlü səlahiyyət baxımından anlayış verir. Belə ki, mülkiyyət hüququ dedikdə əşyaya müstəsna sahiblik, əşyadan müstəsna istifadə və əşya üzərində müstəsna sərəncam vermək hüququ başa düşülür[2].

Fransa mülki hüquq elmi mülkiyyət hüququnun məzmununa aid edir[3]. əşyadan istifadə etmək və ondan bəhər, məhsul əldə etmək səlahiyyəti; əşyanı məhv etmək səlahiyyəti; əşya üzərində sərəncam vermək səlahiyyəti; əşya barəsində istənilən mülki-hüquqi əqd bağlamaq (məsələn, sığorta, icarə, alqı-satqı və bağışlama müqavilələri bağlamaq, vəsiyyət etmək) səlahiyyəti.

Qeyd etmək lazımdır ki, bir qayda olaraq, subyektiv mülkiyyət hüququnun məzmunu üçlü səlahiyyətin (sahiblik səlahiyyətinin; istifadə səlahiyyətinin; sərəncam səlahiyyətinin) vasitəsilə açıqlanır; bu səlahiyyətlərin hər biri spesifik, özünəxas xüsusiyyətlərə malik olub, müəyyən dərəcədə müstəqil hüquq hesab edilir; onlar tam halında yalnız mülkiyyətçinin özü tərəfindən həyata keçirilə bilər.

9. Sahiblik səlahiyyəti

Sahiblik səlahiyyəti əmlaka (əşyaya) faktik sahibliyi həyata keçirməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır (MM-in 152-ci maddəsinin 2-ci bəndi). Sahiblik səlahiyyəti qanunla müəyyən edilən və qorunan elə bir imkandır ki, bununla əşyaya faktiki cəhətdən yiyələnmək təmin edilir. Bu səlahiyyətdə əşyanın müəyyən şəxsə məxsus olması imkanı hüquqi cəhətdən ifadə olunur. Sahiblik səlahiyyətindən istifadə etməklə şəxs öz təsərrüfat sahibliyində əşyaya malik olur, əşyanı öz təsərrüfatında saxlayır, sığorta etdirir, uçotunu aparır, balansa götürür, başqa sözlə desək, bu əşyanın salamat qalmasının təmin edilməsinə, idarə olunmasına və saxlanılmasına yönələn hərəkətlər edir.

Sahiblik səlahiyyətinə mülkiyyətçinin əmlakın təsadüfən tələf və xarab olması risqini aradan qaldırmaq və ram etmək üzrə hərəkətləri də daxildir. **Əmlakın təsadüfən məhv olması və ya təsadüfi zədələnməsi risqi**, əgər qanunvericilikdə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, mülkiyyətçinin üzərinə düşür (MM-in 152-ci maddəsinin 10-cu bəndi).

Sahiblik səlahiyyəti həm də mülkiyyətçinin ona məxsus olan əşyanın saxlanılması yükünü daşımağa yönələn hərəkət və tədbirlərini əhatə edir. Əgər qanunvericilikdə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, mülkiyyətçi ona mənsub **əmlakın saxlanılması yükünü** daşıyır (MM-in 152-ci maddəsinin 11-ci bəndi).

Sahiblik səlahiyyəti əşyaya yalnız təsərrüfat (faktik) sahibliyinin həyata keçirilməsini ifadə edən hüquqi imkandır. Buna görə də ərazi və məkan baxımından mülkiyyətçinin olduğu yerdən başqa ərazidə yerləşən və ona məxsus olan əşya yenə də mülkiyyətçinin faktik sahibliyində qalmaqda davam edir. Məsələn, vətəndaş bir ay müddətinə başqa şəhərə yay məzuniyyətinə gedir.

[1] Bu barədə geniş yazılmışdır: *А.А.Рубанов.* Эволюция права собственности в основных странах Запада: тенденции и перспективы // СГП, 1987. № 4.

[2] Bax: *Ласк Г.* Гражданское право США. М., 1961, с. 461.

[3] Bax: *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 35.

Belə halda o, yaşayış evinə və bu evdəki məişət predmetlərinə, habelə ev avadanlıqlarına sahiblik səlahiyyətinə malik olacaqdır.

Sahiblik mülkiyyətçidən ayrılıb, başqa şəxsə verilə bilər. Belə halda **mülkiyyətçi olmayan şəxsin sahibliyi** yaranır. Bu sahiblik iki cür olur: qanuni sahiblik; qeyri-qanuni (qanunsuz) sahiblik. Qanuni sahibliyə həm də titul sahibliyi deyilir. **Titul sahibliyi** hüquqi əsasa malik olan sahiblikdir. Hüquqi əsas titul adlanır.

Qanuni sahiblik odur ki, o, hüquqi əsaslar olan qanun, müqavilə və inzibati aktın göstərişi ilə yaranır. Bu sahibliyə aiddir: alqı-satqı müqaviləsi əsasında əmələ gələn sahiblik; icarə müqaviləsi əsasında əmlakın icarəyə verilməsi ilə əlaqədar yaranan sahiblik; saxlanc müqaviləsi ilə əmlakın saxlanılma üçün verilməsi ilə əlaqədar yaranan sahiblik; əmlakdan əvəzsiz istifadə və kirayə müqavilələri əsasında əmələ gələn sahiblik; idarəçi təyin edilməsi barədə inzibati akt əsasında xəbərsiz itkin düşmüş hesab edilən vətəndaşın əmlakı üzərində idarəçinin sahibliyi və s[1].

Qeyri-qanuni (qanunsuz) sahiblik odur ki, bu cür sahiblik hüquqi əsas olmadan yaranır. Qeyri-qanuni sahiblik **titulsuz sahiblik** də adlanır. Məsələn, əşyanı oğurlayan şəxs onun faktiki sahibi olur. Lakin o, həmin əşyanın qeyri-qanuni sahibidir. Oğurluğa görə şəxs cinayət məsuliyyətinə cəlb edilir. Mülkiyyətçi isə qeyri-qanuni sahiblikdən əşyanı tələb edə bilər.

Qanunsuz sahiblik özü iki cür olur: vicdanlı sahiblik; vicdansız sahiblik. Buna uyğun olaraq qanunsuz sahiblər vicdanlı və vicdansız sahiblər (əldə edənlər) adlanır[2].

Vicdanlı sahiblik odur ki, bu sahiblikdə vicdanlı əldə edən özünün qanunsuz sahibliyini bilmir və ya bilmək imkanına malik olmur. Məsələn, vətəndaşın satılmaq üçün komisyon mağazasına qoyulmuş oğurluq malını həmin mağazadan alması vicdanlı sahiblikdir, bu şərtlə ki, o, satılan malın oğurluq mal olmasını bilməsin və ya bilmək imkanına malik olmasın.

Vicdansız sahiblik odur ki, bu sahiblikdə vicdansız əldə edən qanunsuz sahibliyini bilir və ya bilmək imkanına malik olur (MM-in 157-ci maddəsinin 5-ci bəndi). Məsələn, şəxsin bilə-bilə oğurlanmış əmlakı satın alması vicdansız sahibliyə misaldır.

Sahiblik səlahiyyəti onu həyata keçirən subyektlərə görə iki yerə bölünür: mülkiyyətçinin sahiblik səlahiyyətinə; qeyri-mülkiyyətçi şəxslərin sahiblik səlahiyyətinə. Mülkiyyət hüququ əsasında şəxsə məxsus olan əşya barəsində həyata keçirilən sahiblik səlahiyyətinə **mülkiyyətçinin sahiblik səlahiyyəti** deyilir. Mülkiyyətçi statusu olmayan şəxslərin əşya barəsində həyata keçirdikləri sahiblik səlahiyyəti **qeyri-mülkiyyətçi şəxslərin sahiblik səlahiyyəti** adlanır. O özü iki cür olur: **məhdud əşya hüququ subyektlərinin sahiblik səlahiyyəti** (məsələn, əşyanı girov saxlayanın, uzufruktuarın, yəni əşyadan istifadə

[1] Müəlliflərdən V.P.Pavlov kirayəçilərlə, saxlanca verilmiş əmlakı saxlayanlarla bərabər, mülkiyyətçiləri də titul sahibləri dairəsinə aid edir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 234).

[2] Sahibliyin qanuni və qanunsuz sahibliyə, qanunsuz sahibliyin də öz növbəsində, vicdanlı və vicdansız sahibliyə bölünməsi Roma hüququndan iqtibas edilmişdir (bax: *İ.B.Novitski.* Roma hüququ / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, c. 68).

edən şəxsin sahiblik səlahiyyəti); **öhdəlik hüququ subyektlərinin sahiblik səlahiyyəti** (məsələn, icarəçinin icarəyə götürdüyü əşyaya sahiblik səlahiyyəti, daşıyıcının daşıdığı və başqa şəxsə məxsus olan yükə sahiblik səlahiyyəti, podratçının ona təmir üçün verilmiş əşyaya sahiblik səlahiyyəti və s.).

Mülkiyyətçinin sahibliyi ilkin və müstəqil sahiblik, başqa şəxslərin sahibliyi isə törəmə sahiblikdir. Titul sahibliyi, yəni mülkiyyətçi olmayan şəxsin sahibliyi mülkiyyət hüququndan törəyir.

Bununla bərabər, qeyd etmək lazımdır ki, əşyaya sahiblik bütün hallarda hüquqla qorunmur və mühafizə edilmir. Məsələn, mülki dövriyyədə istifadə olunması qadağan edilən (mülki dövriyyə qabiliyyəti olmayan) obyektlər vətəndaşın faktiki sahibliyində olarsa, həmin obyekt vətəndaşdan dərhal alınır.

Sahiblik səlahiyyətini sahiblikdən fərqləndirmək lazımdır. Sahiblik səlahiyyəti sahibliyə əsas verən hüquqdur (hüquqi imkandır). Sahiblik isə faktiki (fiziki, maddi), yəni hüquqla bağlı olmayan münasibətdir, faktdır. Ola bilsin ki, müəyyən şəxs əşyanın sahibi olsun, amma onun həmin əşyaya sahiblik səlahiyyəti olmasın. Məsələn, şəxs əşyanı oğurlayır. Belə halda əşyanın sahibi həmin əşyaya sahiblik səlahiyyətini itirmir, saxlayır. O, yalnız əşyaya fiziki (maddi, faktiki) sahiblikdən məhrum olur. Lakin bundan fərqli olaraq, oğru əşyanın faktiki (fiziki) sahibi olur. Amma o, həmin əşyaya sahiblik səlahiyyətinə malik deyil.

10. İstifadə etmək səlahiyyəti

İstifadə səlahiyyəti əmlakdan (əşyadan) onun faydalı təbii xüsusiyyətlərini hasil etməyin, habelə ondan fayda götürməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır (MM-in 152-ci maddəsinin 3-cü bəndi). Bu səlahiyyət əsasında fiziki şəxs əşyadan istifadə etməklə öz maddi və mənəvi tələbatını ödəyir (öz mənzilində yaşayır, avtomobildə gedir, ayaqqabı geyinir və s.), hüquqi şəxslər isə xammal və materialları emal etməklə müəyyən mal istehsal edir. Belə təsəvvür yaranır ki, əşyadan istifadə etmək əşyaya münasibətdə şəxsin öz mənafeyi üçün hərəkət etməsini (müxtəlif ehtiyacı və tələbatı ödəmək, fayda götürmək, gəlir, artım və bəhər əldə etmək, məhsul istehsal etmək və s.), onun köməyi ilə istehsal və ya istehlak ehtiyaclarının ödənilməsini, əşyanın sosial-təsərrüfat təyinatına uyğun olaraq istismar edilməsini ifadə edir. İstifadə səlahiyyəti ya şəxsi ehtiyacları təmin etməklə, ya da iqtisadi-təsərrüfat məqsədləri ilə bağlı ola bilər.

Əşyadan istifadəni şərtləndirən və ifadə edən hərəkət üsulları iki cür olur: istehsal və ya digər fəaliyyətə yönələn hərəkət üsulu (**istehsal istehlakı prosesi**); şəxsi istehlaka yönələn hərəkət üsulu (**şəxsi istehlak prosesi**)[1]. Bu üsullardan hər hansı birinin tətbiq olunması əşyanın növündən asılıdır. İstehlak olunmayan əşyalar (məsələn, istifadə prosesində itməyən, lakin tədricən köhnələn, yəni amortizasiya edən istehsal vasitələri, dəzgahlar, avadanlıqlar, cihazlar və s.) istifadə obyekti olarsa, belə halda əşyadan istifadə dedikdə, onun istehsal və ya digər fəaliyyət məqsədlərinin həyata keçirilməsində tətbiq edilməsi başa düşülür. İstehlak olunan əşyalar (yanacaq, ərzaq məhsulları, xammal və s.) istifadə obyekti olarsa, belə halda əşyadan istifadə həmin əşyanın əvvəlki vəziyyətdə mövcud olmasına son qoyulmasına, habelə onun başqa vəziyyətə gətirilməsinə yönələn hərəkətləri ifadə edir. Məsələn, xammaldan məmulat hazırlanır və s. Özü də belə halda əmlaka faktiki sərəncam verilir[1].

Hər bir mülki hüquq subyekti əşyadan istifadə səlahiyyəti əldə etmək hüququna malikdir. Bu məqsədlə qanun onlar üçün müəyyən hərəkətlər etmək imkanı müəyyən edir. Lakin bu imkanın həcmi bütün subyektlər üçün eyni deyildir. İstifadə səlahiyyətinin başqa şəxsə keçməsinin ən geniş yayılmış mülki-hüquqi üsulu **əqdlərdir (müqavilələrdir)**. Bu üsul mülkiyyət hüququnun hüdudlarından kənar qaydada istifadə səlahiyyətinin bir şəxsdən digərinə keçməsini şərtləndirir və bununla həmin səlahiyyət mülkiyyətçidən ayrılır. Müqavilə ilə istifadə səlahiyyəti həm müddətli, həm də müddətsiz olaraq mülkiyyətçidən digər şəxsə verilə bilər. Belə müqavilələrə icarə, əmlak kirayə və əmlakdan əvəzsiz istifadə müqavilələrini və b. misal göstərmək olar.

Sahiblik kimi istifadə də iki cür olur: qanuni istifadə; qeyri-qanuni istifadə. **Qanuni istifadə** odur ki, belə halda mülkiyyətçi və ya digər titul sahibi əmlakdan istifadə üçün digər şəxsə icazə verir. **Qeyri-qanuni istifadə halı**nda isə əmlak digər şəxsin istifadəsinə qüvvədə olan qanunvericiliyin pozulması ilə və digər şəxslərin hüquqlarının pozulması ilə keçir. Əmlakdan istifadə hüquqi əsasa (məsələn, mülkiyyətçi ilə bağlanmış müqavilə əsasında və s.) malik olarsa, bu, **titul istifadəsi** adlanır.

İstifadə səlahiyyətinə şəxsin **öz əşyasından istifadə etməməsi imkanı** da daxildir (MM-in 152-ci maddəsinin 7-ci bəndi). Lakin mülkiyyətçinin əmlakdan istifadə etməməsi və ya ona qulluq etməməsi ictimai mənafeyə zidd ola bilməz.

İstifadə səlahiyyəti sahiblik səlahiyyəti ilə sıx bağlıdır. Belə ki, əşyadan istifadə hüququnu həyata keçirmək üçün şəxs ilk növbədə ona sahiblik səlahiyyətinə malik olmalıdır.

11. Sərəncam vermək səlahiyyəti

Sərəncam səlahiyyəti əmlakın (əşyanın) hüquqi müqəddəratını təyin etməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır (MM-in 152-ci maddəsinin 4-cü bəndi). Bu səlahiyyət vasitəsilə əşyanın hüquqi və faktiki cəhətdən taleyinin müəyyən olunması imkanı ifadə edilir. Sərəncam elə bir hərəkətdir ki, bununla mülkiyyət hüququ yaranır, dəyişir və ya xitam olunur. Başqa sözlə desək, sərəncam aktı əşyanın məxsusluğunu, vəziyyətini və ya təyinatını dəyişdirməyə yönələn hüquqi faktdır. Müqavilə üzrə (məsələn, alqı-satqı, bağışlama, dəyişmə və s. müqavilələr üzrə) əmlakın özgəninkiləşdirilməsi, onun vərəsəlik qaydasında vərəsələrə verilməsi, ya da məhv edilməsi sərəncam səlahiyyətinin həyata keçirilməsini ifadə edir.

Mülkiyyətçi ona məxsus olan əşyanı məhv edə bilər. Məsələn, köhnəlmiş minik avtomobilinin sahibi həmin avtomobili ehtiyat hissələrinə ayırmaqla onu

[1] İstehsal istehlakı istehlakın bir növü olub, istehsalın tələbatını ödəmək üçün istehsal vasitələrinin istehlakıdır. İstehsalın özü istehsal vasitələrinin istehlakı prosesidir. Şəxsi istehlak əhali istehlakının tərkib hissəsidir. Şəxsi istehlaka bazardan, dövlət kooperativ ticarətindən, fermer kəndli bazarından, xüsusi (qeyri-dövlət) ticarətdən satın alınan mallar, şəxsi - ev təsərrüfatından, vətəndaşlardan əldə edilən məhsullar aiddir (*Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ., Əlizadə A.Ş., Orucov Ş.O.* Tələb, tələbat, bazar və marketinq. İqtisadi məlumat kitabı. Bakı. 1998).

[1] bax: *Иоффе О.С.* Советское гражданское право. М., 1967, с. 359.

məhv edir. Bu akt mülkiyyətçinin sərəncam səlahiyyətinin həyata keçirilməsini ifadə edir. Hüquq ədəbiyyatında mülkiyyətçinin özünə məxsus olan əşyanı məhv etməyə yönələn hüquqi hərəkətini mülkiyyət hüququnu xitam edən birtərəfli əqd hesab edirlər[1]. Bu barədə başqa fikir də söylənilir. Müəlliflərdən D.M.Genkin göstərir ki, əşyanın məhv edilməsini sərəncam aktı hesab etmək olmaz. Ona görə ki, sərəncam əşyanın özünün ləğv edilməsinə yox, həmişə onun hüquqi vəziyyətinin dəyişməsinə, onun hüquqi taleyinin müəyyən edilməsinə yönəlir[2].

Əşyanın məhv edilməsinin iki üsulu fərqləndirilir: əşyanın qəsdən bilə-bilə məhv edilməsi (məsələn, atmaq, tullamaq); əşyanın istehlakı nəticəsində məhv edilməsi (məsələn, ərzaq məhsullarının istehlakı). Birinci halda edilən hərəkət əşya üzərində sərəncam verməni ifadə edir. İkinci halda mülkiyyətçinin iradəsi hüquqi nəticə əldə edilməsinə yönəlmir və buna görə də bunu sərəncam hərəkəti hesab etmək olmaz[3]. Xüsusi olaraq mülkiyyət hüququnun xitam edilməsinə yönəlməyən həmin hərəkət hüquqi əməldir[4]. Müəlliflərdən bəziləri xüsusi olaraq əşyanın məhv edilməsinə yönələn istehlakı sərəncam hərəkəti hesab edirlər[5].

Belə təsəvvür yaranır ki, mülkiyyət hüququnun xitam olunmasına səbəb olduğuna görə əşyanın qəsdən bilə-bilə məhv edilməsinə yönələn istehlak sərəncam vermək hərəkətini ifadə edir; əgər mülkiyyətçi xüsusi olaraq əmlak üzərində mülkiyyət hüququnun ləğv olunmasını istəyərsə, həmin əmlakın qəsdən bilə-bilə məhv olunmasını arzu edərsə və bundan ötrü onu istehlak edərsə, bu, sərəncam vermə deməkdir. Sərəncam vermək hərəkəti, ümumiyyətlə, əşyanın mülkiyyətçinin təsərrüfat sferasından (müvəqqəti və ya həmişəlik olaraq) çıxarılmasını göstərir.

Sərəncam vermək səlahiyyəti mülkiyyətçini xüsusən də belə bir hüquqi imkanla təmin edir ki, o, əmlakı barəsində istənilən mülki-hüquqi əqd bağlaya bilər. Bu əqd ilk növbədə, əmlakın salamat qalmasının təmin edilməsinə yönələ bilər (məsələn, sığorta müqaviləsi bağlamaq). Mülkiyyətçi həm də **sərəncam əqdləri** bağlaya bilər ki, bu əqdlərin köməyi ilə o, əmlakını özgəninkiləşdirir. Buna görə onlara **özgəninkiləşdirmə əqdləri** də deyilir. Məsələn, alqı-satqı, bağışlama və dəyişmə müqavilələri bağlamaq, vəsiyyət etmək və s. belə əqdlərə misaldır. Əmlakı girov qoymaq və kirayəyə vermək də sərəncam əqdləri hesab edilir.

Beləliklə, sərəncam səlahiyyəti dedikdə, əşyanın hüquqi taleyini və müqəddəratını həll etməyə yönələn mümkün olan subyektiv hüquq başa düşülür. Sərəncam hüququ qanunla qorunan elə bir imkandır ki, bununla əşyanın hüquqi «aqibəti və taleyi» müəyyən edilir.

Sahiblikdən, istifadə etməkdən və sərəncam verməkdən ibarət olan üçlü

[1] bax: Qражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 237; Гражданское право. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1993, с. 202; Гражданское право. Учебник / Под ред. *Ю.К.Толстого.* СПб., Часть 1. 1996, с. 297; Советское гражданское право / Под ред. *В.А.Рясенцева.* М., 1988, с. 280.

[2] *Д.М.Генкин.* Право собственности в СССР. М., 1961.

[3] Советское гражданское право. Часть 1 / Под ред. *В.А.Рясенцева.* М., 1986, с. 280.

[4] Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева.* М., 1999, с. 99.

[5] Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 264.

səlahiyyət mülkiyyətçiyə verilən bütün imkanları əhatə və ifadə edir. Üçlü səlahiyyətə başqa səlahiyyət də əlavə edilməsinə nəzəri cəhətdən təşəbbüs edilmişdir. Məsələn, idarə etmək səlahiyyətini bəzi müəlliflər müstəqil səlahiyyət kimi üçlüyə daxil etməyə cəhd göstərmişlər. Lakin göstərilən bütün təşəbbüs və cəhdlər müvəffəqiyyətsizliyə uğramışdır.

Qeyd etmək lazımdır ki, üçlü səlahiyyət barədə məsələ mülki hüquq elmində ən çox müzakirə edilən və mübahisə doğuran məsələlərdən biri hesab olunur. Hüquq ədəbiyyatında belə bir fikir söylənilir ki, mülkiyyət hüququnun məzmununu xarakterizə etmək üçün ənənəvi üçlü səlahiyyət «kifayət etmir»[1], mülkiyyətçinin özünə məxsus əmlaka sahiblik, əmlakdan istifadə və onun barəsində sərəncam səlahiyyətlərini müəyyən edən siyahı universal əhəmiyyətə malik deyildir[2]. Mülkiyyət hüququnu sahiblik, istifadə və sərəncam səlahiyyətlərinin məcmusu ilə eyniləşdirmək olmaz (S.N.Bratus)[3]. Əşya üzərində həbs qoyulanda üç səlahiyyət bütövlükdə itir və belə halda mülkiyyət hüququnun mahiyyəti barədə nə demək olar? (A.V.Venediktov tərəfindən başlanılmış və geniş surətdə yayılan mübahisə)[4]. Üçlüyün elementlərindən birinə oxşamayan səlahiyyəti mülkiyyət hüququna daxil etmək imkanını və ya üçlüksüz mülkiyyət hüququnun mövcudluğu imkanını sübut etmək olarmı?[5] XIX əsrdə Almaniya Mülki Qanunnaməsi qəbul ediləndə qəti olaraq müəyyən edilmişdi: «mülkiyyət ayrı-ayrı səlahiyyətlərin məcmusu deyildir»[6]; bu onu ifadə edir ki, mülkiyyətin hüquqi məzmununu təşkil edən səlahiyyətləri qanunvericilik qaydasında göstərmək olmaz; mülkiyyətçi öz əmlakı barəsində istənilən səlahiyyətə malikdir.

Beləliklə, hüquq ədəbiyyatında üçlük problemi böyük əhəmiyyətə malik olan məsələdir. Bu məsələ hətta dünya ölkələrinin qanunvericiliyi tərəfindən mülkiyyətə verilən leqal anlayış və təriflərdə öz əksini tapır[7]. Qeyd etməliyik ki, sahiblik, istifadə və sərəncam səlahiyyətləri bir-biri ilə qarşılıqlı surətdə bağlı və əlaqəlidir; onlar yalnız tam halında, birlikdə götürüldükdə subyektiv mülkiyyət hüququnun məzmununu təşkil edir. Subyektiv mülkiyyət hüququ öz məzmunu baxımından həmin səlahiyyətlərin hamısını ümumiləşdirilmiş şəkildə ifadə edir. Odur ki, subyektiv mülkiyyət hüququnun məzmunu məhz məcmu halında göstərilən səlahiyyətlərlə bitir, necə deyərlər, tükənir. Başqa sözlə desək, sahiblik, istifadə və sərəncam səlahiyyətləri subyektiv mülkiyyət hüququnun qəti olaraq müəyyənləşdirilmiş elementləridir; oraya əlavə olaraq başqa hər hansı səlahiyyət (element) daxil etmək olmaz. Hətta XX əsrin ortalarında

[1] Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 486 (fəslin müəllifi Y.A.Suxanovdur).

[2] *А.А.Рубанов.* Проблемы совершенстовования теоретической модели права собственности // Развитие советского гражданского права на современном этапе / Отв. ред. *В.П.Мозолин.* М., Наука. 1986, с. 105.

[3] Права собственности в СССР / Под ред. *Ю.К.Толстого, В.Ф.Яковлева.* М., 1989, с. 58.

[4] *А.В.Венедиктов.* Государственная социалистическая собственность. М.-Л., 1948.

[5] Geniş təfsilatı ilə bax: *О.С.Иоффе.* Развитие цивилистической мысли в СССР. Часть 2. Л., 1978, с. 8-9.

[6] Sitat götürülmüşdür: *В.А.Савельев.* Германское гражданское уложение. М., 1983, с. 42.

[7] Üçlük problemi barədə geniş yazılmışdır: *И.К.Скловский.* Собственность в гражданском праве. М., 1999, с. 118-132; *И.А.Покровский.* Основные проблемы гражданского права. М., 1998, с. 192.

əvvəlcə ingilis-amerikan hüququ, sonra isə kontinental hüquq ölkələrində belə bir konsepsiya irəli sürüldü və geniş yayıldı ki, başqa səlahiyyətlər (məsələn, əmlakı idarə etmək səlahiyyəti; əmlakdan gəlir götürmək səlahiyyəti; zərərə səbəb olan əmlak istifadəsini qadağan etmək səlahiyyəti və s.) daxil etməklə üçlü səlahiyyət tamamlansın. Lakin həmin səlahiyyətlər öz məzmununa görə müstəqil səlahiyyətlər deyil; onlar mahiyyətcə, artıq mülkiyyətçiyə verilmiş sahiblik, istifadə və ya sərəncam səlahiyyətlərinin həyata keçirilmə üsulları, mülkiyyət hüququnun realizə formalarıdır; bu səlahiyyətlər mülkiyyət hüququnun məzmununu təşkil edən elementlər hesab olunmur[1]. Buna görə də göstərilən səlahiyyətlər inkişaf etmiş ölkələrin qanunvericiliyində praktiki olaraq öz normativ ifadəsini tapmadı.

12. Mülkiyyət hüququnun anlayışı

Mülkiyyət hüququ anlayışı öz mənbəyini Roma hüququndan götürmüşdür. Torpaq üzərində mülkiyyət hüququ xüsusilə bu hüququn inkişafına böyük təsir göstərmişdi. Romada mülkiyyət hüququnu bildirmək üçün «dominium» termini, təxminən respublika dövründən başlayaraq isə «proprietas» termini tətbiq edilmişdi.

Roma hüquqşünasları mülkiyyət hüququnun dəqiq tərifini verməmişdilər. Mülkiyyətə, sadəcə olaraq, şəxs (mülkiyyətçi) olmayan və ya dövriyyə qabiliyyətli hər cür əşya kimi baxılırdı. Onlar yalnız mülkiyyət hüququnun məzmununu (elementlərini), yəni mülkiyyətçinin səlahiyyətlərini müəyyən etmişdilər. Mülkiyyətçi özünə məxsus olan əşya barəsində aşağıdakı hüquqlara malik idi: əşyadan istifadə hüququ (ius utendi); əşyadan gəlir, bəhər almaq hüququ (ius fruendi); sərəncam hüququ (ius abutendi)[2].

Roma hüququ mülkiyyət hüququnun elementlərinin, yəni mülkiyyətçinin ayrı-ayrı səlahiyyətlərinin siyahısını qəti olaraq müəyyən etmirdi. Bu, onunla şərtlənirdi ki, Roma hüququna görə, mülkiyyətçi özünə məxsus olan əşya barəsində qanunla birbaşa qadağan edilməyən hər şey edə bilərdi.

Roma hüquqşünasları vahid mülkiyyət anlayışı, mülkiyyət hüququ sahəsində dəqiq hüquqi termin işləyib hazırlamasalar da, onların mülkiyyət hüququnun elementləri barəsində müəyyən etdikləri qayda müasir qanunvericiliyin prinsipial əsasını təşkil edir. Dünya hüquq mədəniyyətinin ilkin mənbələrindən biri olan Roma hüququnda mülkiyyət barədə işlənib hazırlanmış müddəalar bütün hüquq sistemləri, o cümlədən Azərbaycan Respublikasının mülki hüququ tərəfindən qəbul edilmişdir.

Mülkiyyət hüququna uğurlu anlayış vermək qanunvericiliyin və sivilistika doktrinasının həmişə diqqət mərkəzində olmuşdur. Uilyam Blekston XVIII əsrin axırlarında yazdığı traktatda göstərirdi ki, mülkiyyət hüququna fərdin əşyaya təkbaşına və öz istəyinə uyğun yiyəlik etməsi kimi baxmaq lazımdır. Fransanın 1804-cü il MM-inin (Napoleon Məcəlləsinin) mülkiyyətə verdiyi məşhur

[1] Bax: Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Под ред. *Е.А.Васильева, А.С.Комарова.* М., 2004, с. 332.

[2] *С.Н.Медведев.* Вестготское законодательство V-VI веков. Ставрополь. 1992, с. 84; *İ.B.Novitski.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, c. 81.

anlayış, demək olar ki, XIX əsrdə sivilistika doktrinasında geniş yayılmışdı[1]. Bu anlayış mülkiyyətin əşyadan istifadə və ona sərəncam vermək hüququ olmasını nəzərdə tutur ki, bu, mahiyyətcə əşyaya tam yiyəliyi ifadə edir. O dövrdə alman sivilisti Fridrix Karl fon Savinyi mülkiyyət hüququnun nisbətən uğurlu anlayışlarından birini təklif etdi: mülkiyyət hüququ əmlak üzərində şəxsin qeyri-məhdud və müstəsna yiyəlik etməsidir[2]. Başqa alman sivilisti Dernburq mülkiyyət hüququna əşya üzərində ümumi yiyəlik hüququ kimi anlayış verirdi[3].

İnqilabaqədərki rus sivilistləri də mülkiyyət hüququna anlayış verməyə təşəbbüs göstərirdilər. Onların bu barədə irəli sürdükləri doktrinal fikirlər, əsasən, alman mülki hüquq doktrinasına əsaslanırdı. K.Pobedonostsevə görə, mülkiyyət hüququ müstəsna və tam yiyəlik hüququdur[4]. D.İ.Meyer mülkiyyət hüququna şəxsin əşya üzərində tam yiyəliyi kimi anlayış verirdi[5].

Mülkiyyət hüququna sovet dövrünün hüquq ədəbiyyatı səhifələrində də anlayış verilmişdir. A.V.Venediktov mülkiyyət hüququna «əşya üzərində hər şeyi əhatə edən, ali, nisbətən tam, qeyri-məhdud, mütləq yiyəlik hüququ» kimi anlayış verirdi[6]. Onun fikrincə, mülkiyyət hüququ ixtiyar və mənafe əsasında əşyadan istifadə etmək hüququdur.

Xarici ölkələrin sivilistika doktrinası da mülkiyyət hüququna anlayış verilməsinə xüsusi əhəmiyyət verir. Yaponiya mülki hüquq doktrinası mülkiyyət hüququna əşya üzərində tam yiyəlik hüququ kimi anlayış verir[7]. Almaniya sivilistika doktrinasında göstərilir ki, mülkiyyət obyektlərin məcmusu (subyektin əmlakı, müəssisəsi) olmayan, tək-tək maddi daşınar və ya daşınmaz əşya üzərində bilavasitə hüquqi (faktiki yox) yiyəlik etməkdir[8]. Alman alimi professor Q.Y.Villinq yazır ki, mülkiyyət əşyaya aid olan insan azadlığı deməkdir[9]. İngilis hüquqşünası Metkolfun fikrincə, mülkiyyət sahib olma və yiyəliyin obyekti olan əşyadır[10].

Ümumiyyətlə, bütün hüquq sistemlərində biz mülkiyyət hüququna anlayış verilməsinə rast gələ bilərik. Bu anlayışlar bir-birini istisna etmir. Əksinə, onlar bir-birini tamamlayaraq, mülkiyyət hüququ kimi vacib hüquqi hadisənin mahiyyətinin aydınlaşdırılmasına imkan verir. Ona biz də doktrinal (elmi) anlayış veririk.

Beləliklə, **mülkiyyət hüququ dedikdə, elə bir subyektiv mülki hüquq başa düşülür ki, bu hüquq qanunvericilikdə nəzərdə tutulmuş qaydada və şərtlərlə yaranır, mülkiyyətçinin özünə məxsus əmlaka öz mülahizəsinə görə sahiblik, əmlakdan istifadə və onun barəsində sərəncam səlahiyyətlərini ifadə edir, bu səlahiyyətlərin başqa şəxsə verilə bilməsini,**

[1] Французский Гражданский кодекс 1804 года / Пер. *И.С.Перетерского.* М., 1941; *Иоффе О.С.* Цивилистическая доктрина промышленного капитализма // В книге: Гражданское право. Избранные труды. М., 2000, с. 91.

[2] *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 43.

[3] Demburg. Pandekten, I, s. 47-48.

[4] *К.Победоносцев.* Курс гражданского права. Часть 1. 1896, с. 124.

[5] *Д.И.Мейер.* Русское гражданское право. Часть 2. М., 1997, с. 5.

[6] *А.В.Венедиктов.* Государственная социалистическая собственность. М.-Л., 1948.

[7] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 178.

[8] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 416.

[9] *Wieling H.J.* Sachenrecht. Berlin. 1997, s. 79.

[10] *O.Metcalf.* Qeneral principles of law, p. 13.

əmlakdan girov kimi və ya başqa üsulla istifadə edilə bilməsini, əmlakı mülkiyyət kimi və ya idarə etmək üçün başqa şəxsə verilə bilməsini, habelə əmlak barəsində qanuna zidd olmayan istənilən hərəkətlər edilməsini təmin edir. Mülkiyyətçi bu hüquq əsasında əmlakdan hər hansı sahibkarlıq, təsərrüfat fəaliyyəti və ya qanunla qadağan edilməmiş başqa fəaliyyət üçün istifadə edə bilər.

13. Mülkiyyət hüququnun məhdudlaşdırılması. Qonşuluq hüququ (qonşuluq etmə hüququ)

Qanun mülkiyyətçiyə üçlü səlahiyyət verməklə bərabər, həm də bu səlahiyyətlərin həyata keçirilməsinin hədlərini müəyyən edir. Belə hədlərin nəzərdə tutulması əmlak münasibətlərinin tənzimlənməsinin ən vacib üsuludur.

Mülkiyyətçi ona mənsub olan əmlakı barəsində öz mülahizəsi ilə istənilən hərəkəti edə bilər. Ona verilən səlahiyyətin həcminə görə nisbətən daha geniş və tam əşya hüququ olan mülkiyyət hüququ qeyri-məhdud (tam suveren) xarakterə malik deyil. Belə ki, qanunda və ya müqavilədə nəzərdə tutulan hallarda mülkiyyət hüququnun həyata keçirilməsi məhdudlaşdırıla bilər (MM-in 152-ci maddəsinin 5-ci bəndi). Qanun iki halda mülkiyyətçinin ona mənsub olan əmlakı barəsində öz mülahizəsi ilə **istənilən hərəkəti etmək imkanını məhdudlaşdırır**: digər şəxslərin (qonşuların, üçüncü şəxslərin) hüquqlarının pozulduğu halda; hüquqdan sui-istifadə etdiyi halda (MM-in 152-ci maddəsinin 6-cı bəndi). Hüquqdan sui-istifadə mülkiyyətdən başqalarına yalnız və yalnız ziyan vurmaq niyyəti ilə istifadə edilməsini ifadə edir. Məsələn, vətəndaş öz torpaq sahəsində tikili ucaldır və bununla qonşunun evinə düşən işığın qarşısını alır. Bu, mülkiyyət hüququndan sui-istifadədir.

Mülkiyyətçi hüquqlarını gerçəkləşdirərkən vətəndaşların sağlamlığına və ətraf mühitə ziyan vurmamalıdır. O, qonşularına və üçüncü şəxslərə narahatlıq gətirən bütün hərəkətlərdən çəkinməlidir. O, əmlakdan yalnız qanunla qadağan edilməmiş fəaliyyət üçün istifadə edə bilər. Konstitusiya mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməsini yasaqlayır (Konstitusiyanın 13-cü maddəsinin 3-cü bəndi).

Bu, dünyanın bütün hüquq sistemləri üçün ümumi olan vacib prinsipə uyğun gəlir. Həmin prinsipə görə, mülkiyyətçi ona məxsus olan əmlakdan üçüncü şəxslərə və ya bütövlükdə cəmiyyətə mühüm və əsassız zərər vurmaqdan çəkinmək vəzifəsi daşıyır. Bu prinsip Almaniya Mülki Qanunnaməsinin 823-cü paraqrafında, Fransa Mülki Məcəlləsinin 1382-ci maddəsində, İtaliya Mülki Məcəlləsinin 2043-cü maddəsində ifadə olunmuşdur. O, öz əksini ingilis-amerikan (ümumi) hüquq sistemində də (zərər haqqında delikt hüququnda, yəni tort of niisance) tapmışdır[1]. Göstərilən prinsip bütün cəmiyyət üzvləri qarşısında mülkiyyətçilərin hüquqi məsuliyyət daşıması qaydasını müəyyənləşdirir. Göründüyü kimi, onu bizim ölkə qanunvericiliyi də nəzərdə tutur.

Mülkiyyətçinin istifadə səlahiyyətinə görə, o, öz əmlakından istifadə etməyə də bilər. Mülkiyyətçi əmlakdan istifadə etməməklə, məlum məsələdir ki, ona

[1] *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 210.

qulluq göstərmir. Amma bu hal, yəni əmlakdan istifadə edilməməsi, ona qulluq göstərilməməsi ictimai mənafeyə zidd olmamalıdır. Əgər göstərilən həmin hallar ictimai mənafeyə ziyan vurarsa, mülkiyyətçinin hüquqları məhdudlaşdırılır. Ziyan isə o halda vurula bilər ki, mülkiyyətçi tərəfindən istifadə və qulluq olunmayan əmlak digər şəxslərin istifadəsinə verilsin (MM-in 152-ci maddəsinin 7-ci bəndi). Axı, bu cür əmlakın zərər vurmaq ehtimalı vardır.

Mülkiyyət hüququnun məhdudlaşdırılması mülkiyyətçinin xüsusi mənafeyi ilə bütövlükdə cəmiyyətin ümumi (ictimai) mənafeyi arasındakı uyğunsuzluğu aradan qaldırmaq məqsədi güdür. Belə ki, mülkiyyətçinin hüquqlarının məhdudlaşdırılması cəmiyyətin ümumi (ictimai), ayrı-ayrı şəxslərin, əsasən, qonşuların mənafeyi mülahizələri ilə şərtlənir. Məlum məsələdir ki, mülkiyyətçi öz geniş məzmunlu mülkiyyət hüququnu həyata keçirərkən onun mənafeyi ilə cəmiyyət üzvlərinin, hər şeydən əvvəl, qonşuların mənafeyi arasında uyğunsuzluq yarana bilər. Məsələn, mülkiyyətçinin tikdiyi ev qonşunun evinə düşən işığın qabağını kəsir. Başqa bir misalda mülkiyyətçi radioqəbuledicinin səsini həddindən artıq qaldırır və bununla qonşuların rahatlığını pozur. Başqa misalda mülkiyyətçinin ağacda bitən meyvəsi qonşunun torpaq sahəsinə düşür və s.

Belə hallarda, şübhəsiz ki, qonşuların mənafelərinin təmin edilməsinə zərurət yaranır. Bu, mülki qanunvericiliyin müəyyən etdiyi qonşuluq hüququ institutunun vasitəsi ilə qaydaya salınır və tənzimlənir[1]. Bu institutun əsas təyinatı mülkiyyətçinin öz mülkiyyət hüququnu ağlabatan, başqa şəxslərin mənafeyinə xələl gətirmədən həyata keçirməsini təmin etməkdən ibarətdir. **Qonşuluq hüququ mülkiyyət hüququnu mülki-hüquqi məhdudlaşdırma vasitəsidir**. Qərb hüququnda o, əsas anlayışlardan biri hesab edilir. Almaniyada qonşuluq hüququ (Nachbarrecht) torpaq mülkiyyətinin hüquqi tənzimlənmə prosesində xüsusi yer tutur. Almaniya Mülki Qanunnaməsinin 906-cı, 907-ci, 908-ci, 909-cu və sair paraqrafları qonşuluq münasibətlərini qaydaya salır. Qonşuluq hüququ institutu Yaponiya mülki hüququna da məlumdur. Yaponiya Mülki Məcəlləsinin 209-235-ci maddələri qonşuluq əlaqələrinin mülki-hüquqi tənzimlənməsinə həsr edilmişdir.

Qonşuluq hüququ institutunun müəyyən etdiyi əsas qayda ondan ibarətdir ki, mülkiyyətçilər öz hüquqlarını həyata keçirərkən ağlabatan hərəkət etməlidirlər. Həmin qaydanın əsasını «mənafelərin tarazlaşdırılması» (yəni mülkiyyətçinin mənafeyi ilə qonşuların mənafelərinin uyğunlaşdırılması) prinsipi təşkil edir ki, bu prinsip XIX əsrin axırlarında tanınmış alman hüquqşünası Rudolf fon İeringin tərəfindən təklif olunmuşdur. Bəzi ölkələrin qanunvericiliyi (Almaniya MQ-nin 906-cı paraqrafı, İsveçrə MM-in 648-ci maddəsi, İtaliya MM-in 844-cü maddəsi) bu prinsipi qəbul etmişdir.

Qonşuluq hüququ institutu mülkiyyətçilər arasında hər hansı ixtilaf və mübahisəyə yol verilməsinə imkan vermir. O, qonşuluq mənafelərinin uyğunlaş-

[1] Bu institutun tarixi kökləri Roma hüququ ilə bağlıdır. Mülkiyyətçilərin hüquqlarının məhdudlaşdırılması o dövrdə Romanın ictimai-iqtisadi quruluşu ilə şərtlənirdi və xırda torpaq mülkiyyətçiləri arasında toqquşmaların qarşısını almaq məqsədi güdürdü. Bu niyyətlə XII Cədvəl Qanunları mülkiyyət hüququnu məhdudlaşdıran hallan nəzərdə tuturdu. Onların bəzilərini bir sıra müasir ölkələrin qanunvericiliyi də ifadə edir (bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 383; *Пухан И., Поленак-Акимовская М.* Римское право. М., 2000, с. 142).

dırılmasını nəzərdə tutur. Almaniya mülki hüquq doktrinasına görə, qonşuluq hüququ institutuna aid edilən hüquq normalarının **əsas təyinatı imkan dairəsində qonşuların sakit, dinc və asudə həyatını təmin etməkdən ibarətdir**[1]. Yapon sivilistika doktrinası isə belə hesab edir ki, qonşuluq hüququ başqa şəxsin daşınmaz əmlakına qonşu olan digər daşınmaz əmlaka mülkiyyət hüququndan istifadə etməni tənzimləmək məqsədinə xidmət edir[2]. Bu məqsədlə bizim ölkə qanunvericiliyi də müvafiq qayda və normalar müəyyənləşdirir. Həmin qayda və normalar qonşuluq hüququnun mahiyyətini təşkil edir.

Hər şeydən əvvəl, torpaq sahəsinin və ya digər daşınmaz əmlakın mülkiyyətçisi qonşu sahədən qazın, buxarın, qoxunun, hisin, tüstünün, səs-küyün, istiliyin, titrəyişlərin və ya digər oxşar amillərin öz sahəsinə təsirini qadağan edə bilməz (MM-in 171-ci maddəsinin 1-ci bəndi). Belə ki, əgər qonşunun arzuolunmaz və xoşagəlməz hərəkəti və fəaliyyəti qonşunun sahəsinə təsir göstərərsə, onda mülkiyyətçinin belə hərəkət və fəaliyyətin kəsilməsini tələb etmək hüququ yoxdur. Bu yalnız o halda mümkün ola bilər ki, edilən hərəkət və fəaliyyət torpaq sahəsindən istifadə etməkdə **mülkiyyətçiyə maneçilik yaratmasın və ya onun hüququnu mühüm dərəcədə pozmasın**. Məsələn, qonşu normal qaydada radioqəbuledıciyə səs verərək, musiqiyə qulaq asır. Bunun nəticəsində musiqi səsləri mülkiyyətçinin evinə daxil olur. Başqa bir misalda qış mövsümündə qonşunun odunla qaladığı sobadan çıxan tüstü mülkiyyətçinin evinə dolur. Məlum məsələdir ki, mülkiyyətçi belə məqamlarda həmin halların dayandırılmasını tələb edə bilməz. Ona görə ki, göstərilən hallar mülkiyyətçinin hüquqlarını mühüm dərəcədə pozmur. Bir qayda olaraq, mülkiyyətçi öz qonşusunun mövcudluğu üçün zəruri olan təsir hallarına dözməyə borcludur. Əgər həmin təsir halları müvafiq ərazi üçün nəzərdə tutulan adi istifadədən və iqtisadi cəhətdən yol verilən hədlərdən yüksək olarsa, **onda mülkiyyətçiyə pul formasında müvafiq kompensasiya ödənilir**[3].

Qonşuluq hüququna (**qazıntı və tikinti işləri ilə bağlı qonşuluq münasibətlərinə**) görə, mülkiyyətçinin borcudur ki, öz torpaq sahəsində qazıntı və tikinti işləri apararkən qonşuya ziyan vurmasın (MM-in 172-ci maddəsi). Ziyan vurmaq qonşunun torpaq sahəsindəki qurğuların və obyektlərin zədələnməsində, qazılan torpağın qonşunun torpaq sahəsinə tökülməsində və s. ifadə oluna bilər.

Bəzi hallarda tikinti zamanı mülkiyyətçi qonşu sahənin sərhədlərini qərəzsiz formada pozur. Qonşu həmin pozuntuya dözməlidir. Mülkiyyətçi sərhədi pozduğuna görə pul kompensasiyası ödəyir. Bundan sonra o, hər il kompensasiya ödənişi verir.

Qonşuluq hüququna (**özgəsinin sahibliyində olan sahədən zəruri yol və keçidlə bağlı olan qonşuluq münasibətlərinə**) görə, mülkiyyətçi qonşunun sahibliyində olan sahədən zəruri yol və keçid ayrılmasını tələb edə bilər (MM-

[1] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 415.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 181.

[3] Göstərilən norma olduğu kimi Almaniya Mülki Qanunnaməsinin 906-cı paraqrafından iqtibas olunmuşdur (bax: Германское право. Гражданское уложение. Часть 1. М., 1996). Analoji norma cüzi dəyişikliklə İtaliya MM-inin 844-cü maddəsində də nəzərdə tutulmuşdur.

in 175-ci maddəsi). Belə ki, bəzi hallarda mülkiyyətçinin öz sahəsindən ümumi (ictimai) istifadədə olan yola, elektrik, neft, qaz və su təchizatı xətlərinə keçidi olmur. Bu vəziyyətdə mülkiyyətçinin tələbi ilə qonşular ona zəruri keçid ayırırlar. Buna görə mülkiyyətçi müvafiq kompensasiya ödəyir.

Qonşuluq hüququna (**torpaq sahələrinin sərhədləri ilə bağlı qonşuluq münasibətlərinə**) görə, iki torpaq sahəsi arasında mərz çəkilməlidir (MM-in 176-cı maddəsinin 1-ci bəndi). Bu, torpaq mülkiyyətçiləri arasında yarana biləcək ixtilaf və mübahisələrin qarşısının alınmasına kömək edir. Mərz barı və ya sərhəd kimi istifadə edilən başqa qurğu ilə çəkilir. Mülki qanunvericilik həmin qurğudan istifadə etmək və onunla bağlı xərcləri (saxlama xərclərini) ödəmək barədə prezumpsiya müəyyən edir. Bu prezumpsiyaya görə, əksi sübut olunana kimi torpaq sahələrinin mülkiyyətçiləri qurğudan istifadə etməkdə bərabər hüquqlara malikdirlər və onunla bağlı xərcləri (mərz çəkilməsi xərcləri yox) öz mənafelərinə mütənasib surətdə ödəyirlər. Qurğudan kimin mənafeyi üçün daha çox istifadə olunarsa, onunla bağlı xərclərin də çox hissəsini o şəxs ödəyəcəkdir. Amma mərzin çəkilməsi xərcləri mülkiyyətçilər arasında bərabər bölünür (MM-in 176-cı maddəsinin 2-ci bəndi). Tərəflərin razılaşmasında ayrı qayda da nəzərdə tutula bilər.

Bəzi hallarda mülkiyyətçi özünəməxsus torpaq sahəsini hasarlamaq qərarına gəlir. Bu halda hasarlama xərclərini o, özü çəkir.

Elə hallar yaranır ki, torpaq sahələrinin dəqiq sərhədlərini müəyyənləşdirmək və təyin etmək mümkün olmur. Şübhəsiz ki, belə məqamlarda mərz çəkilməsi zamanı mülkiyyətçilər arasında mübahisə yarana bilər. Mübahisə həll edilərkən qonşuların faktik sahibliyi həlledici əhəmiyyət kəsb edir. Belə ki, mübahisəli torpaq sahəsinə faktik (real) sahiblik edən şəxs həmin sahənin mülkiyyətçisi hesab olunur.

Bəs faktik sahibliyi müəyyənləşdirmək mümkün olmadığı hallarda mübahisəli sahənin hüquqi taleyi necə həll edilir? Mülki qanunvericilik bu suala cavab verərək göstərir ki, əgər faktik sahibliyi müəyyənləşdirmək mümkün olmazsa, mübahisəli sahə qonşular arasında yarıbayarı (bərabər) bölünür (MM-in 176-cı maddəsinin 3-cü bəndi). Əgər bu cür bölgüdən onlar narazı qalarsa, onda məsələ məhkəmə qaydasında həll edilir. Məhkəmə qərarı mübahisəli torpaq (ərazi) sahəsinin hüquqi taleyinin həlli üçün əsasdır.

Qonşuluq hüququna (**çıxıntılı tikililərlə bağlı olan qonşuluq münasibətləri**) görə, mülkiyyətçi qonşunun daşınmaz əmlakına keçən çıxıntılara (məsələn, qismən özgəsinin torpaq sahəsinə girən tikili və s.) mülkiyyət hüququnu itirmir. Ona görə ki, həmin çıxıntılar mülkiyyətçiyə məxsus olan daşınmaz əmlakın tərkib hissəsi kimi qalır. Məsələn, qonşunun torpaq sahəsinin hüdudlarında mülkiyyətçi ev tikdirir. Bu zaman evin divarı qonşunun sahəsinə doğru qabağa çıxır. Lakin buna baxmayaraq, divar tikilən evin tərkib hissəsi kimi qalır. Belə hallarda qonşu onun torpaq sahəsinə qismən daxil olan tikiliyə mülkiyyət hüququ əldə etmir. Yeri gəlmişkən, qeyd edək ki, xarici ölkələrin qanunvericiliyi bu məsələnin, yəni özgəsinin torpaq sahəsinə daxil olan tikilinin tənzimlənməsinə xüsusi diqqət yetirir. Həmin məsələnin tənzimlənməsi üçün müxtəlif üsullar göstərilir. İtaliya, Almaniya, ABŞ və İngiltərənin qanunvericiliyinə görə, özgəsinin torpaq sahəsinə girən tikilini mülkiyyətçi saxlamaq hüqu-

quna malikdir, bir şərtlə ki, o, vicdanlı olub, qonşunun sahibliyini mühüm dərəcədə pozmasın. Fransa MM-inə görə isə tikili üzərində mülkiyyət hüququnu qonşu əldə edir.

Bəzi hallarda mülkiyyətçi öz evinin üzərində üst tikili (sonradan əlavə edilmiş mərtəbə) ucaldır. Belə tikili, söz yox ki, qonşunun mənafeyinə toxunur; üst tikilidən qonşunun həyəti görünür və orada baş verənləri müşahidə etmək mümkün olur. O, həmin tikiliyə dözməyə borclu deyildir[1]. Belə halda qonşu üst tikilinin ucaldılmasına etiraz edə bilər. Əgər qonşu etiraz etməsə, ona ağlabatan məbləğdə kompensasiya ödənilir.

Qonşuluq hüququna (**çıxıntılı budaqlar və uzanan köklərlə bağlı qonşuluq münasibətlərinə**) görə, əgər çıxıntılı budaqlar və uzanan köklər qonşunun mülkiyyətinə ziyan vurarsa (məsələn, evə və ya torpaq sahəsinə düşən işığın qarşısını alarsa və ya lazımsız kölgə salarsa), belə halda qonşu mülkiyyətçidən budaq və köklərin kəsilməsini tələb edir. Mülkiyyətçi bu tələbi ağlabatan müddətdə yerinə yetirməlidir. Əgər yerinə yetirməsə, onda qonşu özünəyardım vasitəsindən istifadə edir, yəni o, özü budaq və kökləri kəsir[2]. Ona görə ki, belə halda budaqlar və köklər özgəsinin torpaq sahəsinə girir, həmin sahənin sərhədlərini pozur, normal təsərrüfat işlərinin aparılmasına mane olur. Çıxıntılı budaqların və uzanan köklərin kəsilməsi kimi hərəkət Almaniya hüquq doktrinasında və qanunvericiliyində **xüsusi xarakterli özünəyardım tədbiri** hesab edilir. Belə tədbir Almaniya Mülki Qanunnaməsinin 910-cu maddəsində nəzərdə tutulur[3]. Həmin tədbir Yaponiya qanunvericiliyinə də məlumdur (MM-in 233-cü maddəsi)[4].

Qonşuluq hüququna (**bəhərlərlə bağlı qonşuluq münasibətlərinə**) görə, torpaq sahəsinin mülkiyyətçisi həmin sahəyə keçən çıxıntılı budaqlarda yetişən bəhərə (meyvələrə) mülkiyyət hüququ əldə edə bilər. Buna onun hüququ çatır. Belə ki, həmin budaqlar qonşunun mülkiyyətinə ziyan vurarsa, qonşu onları kəsir. Əgər qonşu çıxıntılı budaqları kəsməzsə, onda o, həmin budaqlarda yetişən bəhəri (meyvələri) əldə etmək hüququna malik olur. Meyvələr qonşunun torpaq sahəsinə düşə bilər. Belə halda onlar həmin torpaq sahəsinin meyvəsi sayılır.

Qonşuluq hüququna (**su ilə bağlı olan qonşuluq münasibətlərinə**) görə, suyun təbii axımının qonşunun ziyanına dəyişdirilməsi yolverilməzdir (MM-in 170-ci maddəsinin 3-cü bəndi). Bununla belə, suyun təbii axımı süni surətdə dəyişdirilə bilər. Belə halda aşağı torpaq sahəsi üçün zəruri olan su yuxarı torpaq sahəsi üçün zəruri olan həcmdə axıdılmalıdır.

Qonşuluq hüququ institutu qonşuların mənafe və maraqlarını, onların sakit, dinc və asudə həyat sürmələrini, torpaqdan və su obyektlərindən normal istifadə etmələrini təmin edir[1]. Əgər mülkiyyətçi qonşuluq hüququnu pozaraq öz mülkiyyət hüququnu qonşulara ziyan vurmaqla həyata keçirərsə, mülki-hüquqi məsuliyyət daşıyır.

Mülkiyyət hüququ subyektləri geniş səlahiyyətlərlə təmin etməklə bərabər, eyni zamanda onların üzərinə müəyyən vəzifələr də qoyur. **Əmlakı normal vəziyyətdə saxlamaq üçün müəyyən tədbirlər görmək** mülkiyyətçinin vəzifələrindən biridir. Başqa sözlə desək, əmlakın saxlanılması yükünü mülkiyyətçi daşıyır (MM-in 152-ci maddəsinin 10-cu bəndi)[2].

Mülkiyyət hüququ haqqında ümumi müddəaya görə, vətəndaş cəmiyyətində mülkiyyət maddi nemət olmaqla bərabər, həm də yükdür. Mülkiyyətçi əmlakın saxlanılması yükünü daşımağa borcludur. Bu, onu ifadə edir ki, o, özünə məxsus əmlakın lazımi qaydada saxlanılması üzrə, əsaslı və cari təmir edilməsi, sığortası, qeydiyyatı, mühafizəsi və digər məsələlər üzrə bütün maliyyə xərclərini çəkməlidir.

Qanunun mülkiyyətçinin üzərinə qoyduğu əsas vəzifələrdən biri onun **vergiləri tam həcmdə və vaxtında ödəməyə borclu olmasından** ibarətdir. Müəssisələrin vergitutma obyektləri onların balansında olan əsas vəsaitlər və avtonəqliyyat vasitələri, fiziki şəxslərin vergitutma obyektləri isə bina, avtonəqliyyat vasitələri, habelə su və hava nəqliyyat vasitələridir (gəmi, kater, mühərrikli yaxta və qayıq, vertolyot və təyyarə). **Müəssisələrdən və fiziki şəxslərdən əmlak vergisinin** hesablanma və ödənilməsi qaydası «Əmlak vergisi haqqında» 24 mart 1995-ci il tarixli qanunla müəyyən edilirdi[3]. İndi bu məsələ Vergi Məcəlləsi ilə (XIII fəsil) qaydaya salınır. Torpağın mülkiyyətçisindən **torpaqdan istifadəyə görə torpaq vergisi** tutulur. Torpaq vergisinin tutulması obyekti mülkiyyətə və istifadəyə verilmiş torpaq sahələridir. Bu cür verginin müəyyən edilməsi və ödənilməsi «Torpaq vergisi haqqında» 24 dekabr 1996-cı il tarixli qanunla qaydaya salınırdı[4]. Hal-hazırda bu məsələ Vergi Məcəlləsi (XIV fəsil) ilə tənzimlənir.

Qanunda və ya müqavilədə nəzərdə tutulduğu hallarda mülkiyyətçinin əmlakın saxlanılması yükünü daşımaqla əlaqədar xərclərin və ondan tutulan vergilərin ödənilməsi vəzifəsi başqa şəxslərə həvalə edilə bilər. Məsələn, müqavilədə nəzərdə tutularsa, icarəyə verilən torpağın yükləmələrini və ondan tutulan dövlət vergilərini icarəyə verən yox, icarəçi ödəyə bilər (MM-in 709-cu maddəsi).

Əmlakın saxlanılması yükü onun **təsadüfi məhv (tələf) olması və ya xarab olması (zədələnməsi) risqi** ilə sıx surətdə bağlıdır. Belə ki, bu risq mülkiyyətçinin əmlakı saxlamaq yükünün tərkib hissəsini təşkil edir. MM-in 152-ci maddəsinin 10-cu bəndinə görə, təsadüfi tələf və xarab olma risqi, qanunda və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, mülkiyyətçinin üzərinə düşür. Əmlakın təsadüfən tələf və ya xarab olmasını şərtləndirən hallar müxtəlif ola bilər: yanğın; zəlzələ; tufan; qasırğa; təbii fəlakət və s. hallar. Bu hal-

[1] Mülkiyyət hüququnun bu cür məhdudlaşdırılması hələ XII Cədvəl Qanunlarında nəzərdə tutulmuşdu (bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 180).

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 449; *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 191.

[3] Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

[4] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 184.

[1] Bax: *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 56.

[2] Mülkiyyət münasibətlərində iki cəhət bir-birilə sıx surətdə əlaqədardır: əmlakdan maddi nemət kimi istifadə etmək və gəlir, fayda götürmək; əmlakın yükünü daşımaq.

[3] bax: AR QK, II cild, s. 423.

[4] bax: AR QK, II cild, s. 360.

lardan birinin baş verməsi nəticəsində əmlak tələf və ya xarab olarsa, tələf və ya xarab olma üçün risq mülkiyyətçinin üzərinə düşür.

Əqd əsasında özgəninkiləşdirmə qaydasında (alqı-satqı, bağışlama, dəyişmə və s. müqavilələr) əmlak başqa şəxsin mülkiyyətinə keçdikdə, əmlakın təsadüfən tələf və ya xarab olması üçün risq mülkiyyət hüququnun əmələ gəlməsi ilə eyni vaxtda bu əmlakı əldə edən şəxsin üzərinə düşür. Bəzi hallarda əmlakı özgəninkiləşdirən şəxs (satıcı, mal göndərən, hədiyyə verən tərəf və s.) müəyyən səbəblərə görə əmlakın qarşı tərəfə təhvil verilməsini gecikdirə bilər. Elə məqamlar da ola bilər ki, əmlakı əldə edən tərəf əmlakın qəbul edilməsini ləngitsin. Belə hallarda təsadüfən tələf və ya xarab olma üçün risq əmlakın təhvil verilməsini gecikdirməyə və ya əmlakın qəbul edilməsini ləngitməyə yol verən şəxsin üzərinə düşür.

Təsadüfi tələf və xarab olma üçün risq barədə qanunun müəyyən etdiyi norma dispozitiv xarakter daşıyır. Bu, onu ifadə edir ki, qanunla və ya müqavilə ilə təsadüfi tələf və ya xarab olma üçün risqin mülkiyyətçinin üzərinə yox, əmlakı qanun əsasında əldə edən şəxsin üzərinə düşməsi müəyyən edilə bilər.

§ 3. Azərbaycan Respublikasının qanunvericiliyinə görə mülkiyyət hüququnun forma və növləri

1. Mülkiyyət forması və mülkiyyət hüququ

İqtisadi ədəbiyyatda mülkiyyətə hamılıqla qəbul edilən belə bir anlayış verilir: istehsalçının istehsal vasitələri və əməyin nəticələri ilə əlaqəsinin xarakterini ifadə edən münasibətə mülkiyyət deyilir. Mülkiyyət dedikdə, iqtisadi münasibətləri əks etdirən iqtisadi kateqoriya başa düşülür. Başqa sözlə desək, hüquqi və ya fiziki şəxsin istehsal vasitələrinə və onun nəticələrinə sahib olması, bu nəticələri mənimsəməsi mülkiyyət iqtisadi münasibətlərini yaradır. Sahiblik (yiyəlik, mənimsəmə) iqtisadi münasibətləri isə müxtəlif formalarda ifadə edilir. Bu, həmin münasibətlərdə iştirak edən subyektlərdən asılıdır.

Beləliklə, iqtisadi kateqoriya olan mülkiyyəti əhatə edən sahiblik iqtisadi münasibətləri müxtəlif iqtisadi formalarda ifadə olunur ki, buna mülkiyyət forması deyilir. Belə təsəvvür yaranır ki, **mülkiyyət forması hüquqi yox, iqtisadi kateqoriyadır**. İqtisadi kateqoriya kimi mülkiyyətin formasını mülkiyyət hüququ ilə eyniləşdirmək olmaz[1]. Mülkiyyət forması iqtisadi anlayış kimi hüquqi cəhətdən əhəmiyyətə malik deyildir (Y.A.Suxanov)[2]. Mülki hüquqa görə, mülkiyyət forması anlayışı yoxdur, yalnız bu hüququn müxtəlif subyektləri (fiziki şəxslər; hüquqi şəxslər; dövlət; bələdiyyə) vardır[3]. Bu, onunla izah edilir ki, **mülkiyyətin müxtəlif formalara ayrılması mülkiyyət hüququnun məzmununun fərqləndirilməsinə səbəb olmur**. Odur ki, mülkiyyətin formaları mülki hüquq baxımından əhəmiyyət kəsb etmir. Məsələn, dövlət mülkiyyəti forması üzrə mülkiyyət hüququnun məzmunu üç elementdən ibarətdir: tələb etmək səlahiyyətindən; müdafiə səlahiyyətindən; davranış səlahiyyətindən (sahiblik, istifadə və sərəncam səlahiyyətlərindən). Həm bələdiyyə mülkiyyəti forması üzrə, həm də xüsusi mülkiyyət forması üzrə mülkiyyət hüququnun məzmunu bu cür eyni səlahiyyətlərdən (elementlərdən) təşkil olunmuşdur. Onda belə nəticəyə gələ bilərik ki, mülkiyyət forması anlayışının hüquqi məzmunu yoxdur.

Bununla bərabər qeyd etmək lazımdır ki, iqtisadi kateqoriya kimi mülkiyyət formaları müxtəlif hüquqi formalarda ifadə edilir. Buna **mülkiyyət hüququnun formaları** deyilir[1]. Mülkiyyət (sahiblik) iqtisadi münasibətlərinin ifadə olunduğu mülkiyyət formaları mülkiyyət hüququ vasitəsilə qaydaya salındıqda, mülkiyyət hüququ formasını alır. Mülkiyyət forması isə maddi nemətlərə sahibliyin (yiyəliyin, mənimsəmənin) iqtisadi formasını ifadə edir.

2. Mülkiyyət hüququnun formaları (növləri)

Bəzi müəlliflər mülkiyyət hüququnun müxtəlif növlərə, məsələn, xüsusi mülkiyyət hüququna və ya dövlət mülkiyyət hüququna bölünməsinin qeyri-zəruri olması fikrini irəli sürürlər[2]. Onlar mülkiyyət hüququnu yox, mülkiyyəti müxtəlif formalara ayırırlar. Bununla bərabər, qeyd etmək lazımdır ki, Rusiya Federasiyasında yazılan mülki hüquq barədə bir çox dərsliklərdə mülkiyyətin forması ilə barabər, həm də mülkiyyət hüququnun formalarının təsnifi aparılır[3]. Biz də həmin məsələyə bu mövqedən və aspektdən yanaşmağı lazım bilirik[4].

Azərbaycan Respublikasının Konstitusiyası mülkiyyətin üç formasını (növünü) müəyyən edir: dövlət mülkiyyətini; xüsusi mülkiyyəti; bələdiyyə mülkiyyətini (13-cü maddənin 2-ci bəndi). Buna uyğun olaraq MM mülkiyyət hüququnun üç növünü müəyyən edir: fiziki və hüquqi şəxslərin mülkiyyət hüququnu, yəni **xüsusi mülkiyyət hüququnu** (MM-in 154-cü maddəsi); **dövlət mülkiyyət hüququnu** (MM-in 155-ci maddəsi); **bələdiyyələrin mülkiyyət hüququnu**

[1] Mülkiyyət forması və mülkiyyət hüququ problemi barədə ətraflı məlumat almaq üçün bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 480-484; *У.Маттеи, Е.А.Суханов*. Основные положения права собственности. М., 1999, с. 303-306; *К.И.Скловский*. Собственность в гражданском праве. М., 1999, с. 159-167.

[2] Комментарий части первой Гражданского кодекса Российской Федерации. М., 1995, с. 273.

[3] *Л.В.Щенникова*. Вещные права в гражданском праве России. М., 1996, с. 24.

[1] Y.A.Suxanov göstərir ki, iqtisadi (faktiki) mülkiyyət münasibətləri hüquqi cəhətdən təkcə mülkiyyət hüququnun köməyilə qaydaya salınmır. Bu münasibətlər mülkiyyət hüququndan başqa digər mülki-hüquqi formalar vasitəsilə də hüquqi cəhətdən ifadə edilə bilər. Axı, onların obyekti kimi əmtəə çıxış edir. Əmtəə isə təkcə əşyaları yox, həm də işin və xidmətin qeyri-maddi nəticələrini, əqli fəaliyyətin qeyri-maddi nəticələrini, qiymətli kağız şəklində olan ayrı-ayrı hüquqları, hətta belə əmtəələri və subyektləri fərdiləşdirmə vasitələrini (əmtəə nişanları və firma adlarını və s.) əhatə edir. Bu obyektlərin mülki-hüquqi rejimi təkcə əşya hüququ ilə yox, həm də öhdəlik hüququ ilə, habelə müstəsna hüquqlar ilə müəyyən edilir (bax: *У.Маттеи. Е.А.Суханов*. Основные положения права собственности. М., 1999, с. 302).

[2] Bu fikrin tərəfdarlarından biri Y.A.Suxanovdur. O göstərir ki, müxtəlif mülkiyyət forması müxtəlif mülkiyyət hüququnda ifadə olunmasını tələb etmir. Əgər mülkiyyət hüququnun müxtəlif növləri fərqləndirilərsə, onda hökmən mülkiyyətçilərin hüquqlarının məzmunu da bir-birindən fərqlənəcəkdir. Bu isə mülkiyyət formalarının bərabərliyi kimi əsas prinsipin tələblərini pozur (bax: *У.Маттеи, Е.А.Суханов*. Основные положения права собственности. М., 1999, с. 306. Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с 482).

[3] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 344-348; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 232; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко* М., 1998, с. 266.

[4] Azərbaycan Respublikasının yeni MM-də mülkiyyət yox, mülkiyyət hüququ formalara (növlərə) ayrılır.

(MM-in 156-cı maddəsi). Mülkiyyət hüququnun belə bölgüsü mülki hüququn subyekt tərkibi kimi əlamətə görə müəyyən edilir.

Mülkiyyət hüququnun Konstitusiyada nəzərdə tutulan üç forması müxtəlif növlərə bölünür[1]. Xüsusi mülkiyyət hüququ iki növə ayrılır: fiziki şəxslərin mülkiyyət hüququna; hüquqi şəxslərin mülkiyyət hüququna.

Fiziki şəxslərin mülkiyyət hüququnun müxtəlif növləri fərqləndirilir: Azərbaycan Respublikası vətəndaşlarının mülkiyyət hüququ; əcnəbilərin mülkiyyət hüququ; vətəndaşlığı olmayan şəxslərin mülkiyyət hüququ.

Hüquqi şəxslərin mülkiyyət hüququ iki yerə bölünür: kommersiya təşkilatlarının mülkiyyət hüququ; qeyri-kommersiya təşkilatlarının mülkiyyət hüququ. **Kommersiya təşkilatlarının mülkiyyət hüququnun** müxtəlif növləri fərqləndirilir: təsərrüfat cəmiyyətlərinin mülkiyyət hüququ; təsərrüfat ortaqlıqlarının mülkiyyət hüququ; kooperativlərin mülkiyyət hüququ. **Qeyri-kommersiya təşkilatlarının mülkiyyət hüququ** müəyyən növlərə bölünür: ictimai birliklərin mülkiyyət hüququ; dini qurumların mülkiyyət hüququ; fondların mülkiyyət hüququ və s. Belə mülkiyyətin xarici dövlətlərin hüquqi şəxslərinin və beynəlxalq təşkilatların mülkiyyəti kimi növləri fərqləndirilir.

Dövlət mülkiyyət hüququ iki yerə bölünür: Azərbaycan Respublikasının mülkiyyət hüququ; xarici dövlətlərin mülkiyyət hüququ. **Bələdiyyə mülkiyyət hüququna** aiddir: şəhər (rayon) bələdiyyələrinin mülkiyyət hüququ; kənd (qəsəbə) bələdiyyələrinin mülkiyyət hüququ; digər bələdiyyə qurumlarının mülkiyyət hüququ.

Əşyalara mülkiyyət hüququnun eyni vaxtda bir neçə şəxsə məxsus olub-olmaması əlamətinə görə mülkiyyət hüququnun iki növü fərqləndirilir: ümumi olmayan mülkiyyət hüququ; ümumi mülkiyyət hüququ. **Ümumi olmayan mülkiyyət hüququ** odur ki, buna görə əşyaya mülkiyyət hüququ yalnız bir şəxsə məxsus olur.

Ümumi mülkiyyət hüququ odur ki, buna görə əşya üzərində mülkiyyət hüququ iki və ya bir neçə şəxsə məxsus olur (MM-in 213-cü maddəsinin 1-ci bəndi). Belə mülkiyyət hüququnun iki növü fərqləndirilir: paylı mülkiyyət hüququ; birgə mülkiyyət hüququ.

Paylı mülkiyyət hüququ odur ki, buna görə əşyaya malik olduğu mülkiyyət hüququnda hər bir mülkiyyətçinin payını müəyyənləşdirmək mümkün olur. **Birgə mülkiyyət hüququnda** isə belə payları müəyyənləşdirmək mümkün olmur (MM-in 213-cü maddəsinin 2-ci bəndi). Birgə mülkiyyətin özü ərlə arvadın birgə mülkiyyəti və kəndli (fermer) təsərrüfatının birgə mülkiyyəti kimi növlərə ayrılır[2]. Qanun paylı və birgə mülkiyyət hüququnu **mülkiyyət hüququnun xüsusi növləri** adlandırır (MM-in 10-cu fəsli).

[1] Müəlliflərdən bəzisi mülkiyyətin təsnifini başqa qaydada aparır. Məsələn, V.A.Tarxov mülkiyyəti aşağıdakı növlərə bölür: xüsusi mülkiyyətə; dövlət mülkiyyətinə; kollektiv mülkiyyətə; şəxsi mülkiyyətə. O, kollektiv mülkiyyətə bütün təsərrüfat cəmiyyətlərinin və ortaqlıqlarının (sadə ortaqlıqdan başqa) mülkiyyətini, habelə ictimai və dini təşkilatların mülkiyyətini, şəxsi mülkiyyətə isə ictimai istehsalda iştirak edən vətəndaşların mülkiyyətini şamil edir. V.A.Tarxov mülkiyyətin bələdiyyə mülkiyyəti kimi müstəqil formasını ayırmır. O, bələdiyyə mülkiyyətini dövlət mülkiyyətinin iqtisadi hissəsi hesab edir (bax: *В.А.Тархов.* Гражданские права и их осуществление // Вестник. Саратовский гос. Академии права. 1995. № 3, с. 21-23).

[2] Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 267.

Mülkiyyət hüququnun obyekti olan əşyanın növündən asılı olaraq, mülkiyyət hüququnun iki növü fərqləndirilir: **daşınmaz əşyaya mülkiyyət hüququ; daşınar əşyaya mülkiyyət hüququ**. MM-in 178-ci maddəsi daşınmaz əşyaya, 181-ci maddəsi isə daşınar əşyaya mülkiyyət hüququ haqqında qaydalar müəyyən edir.

Mülkiyyət hüququnun müxtəlif formalara (növlərə) ayrılmasının həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır. Belə ki, hər hansı konkret subyektə məxsus olan mülkiyyət hüququnun obyekti kimi çıxış edən **əmlakın hüquqi rejimi mülkiyyət hüququnun formasından (növündən) asılı olaraq müəyyən edilir**. Mülkiyyət hüququnun forması ilə mülkiyyətçinin özünə məxsus əmlak barəsində malik olduğu hüquqi imkanların dairəsi və hədləri təyin olunur.

§ 4. Mülkiyyət hüququnun əmələ gəlmə əsasları və üsulları

1. Mülkiyyət hüququnun əmələ gəlmə əsaslarının anlayışı

Mülkiyyət hüququnun əmələ gəlmə əsasları dedikdə, subyektiv mülkiyyət hüququnun yaranmasını şərtləndirən qanunun əlaqələndirdiyi hüquqi faktlar və ya hüquqi tərkib başa düşülür. Belə fakt rolunda həm hadisə (məsələn, vərəsəlik əsasında mülkiyyət hüququnun əmələ gəlməsinə səbəb olan vətəndaşın ölümü), həm də hərəkət (məsələn, müqavilə bağlamaqla əmlakın əldə olunması) çıxış edə bilər.

Mülkiyyət hüququnun əmələ gəlmə əsaslarına sivilistika elmində **titul mülkiyyəti** (latınca «titulus» — hər hansı hüququn əsası) də deyilir. Əgər mülkiyyət hüququ müvafiq hüquqi faktlardan əmələ gələn hüquqi əsasa malik olarsa, buna **titul sahibliyi** deyilir. Mülkiyyət hüququnun əmələ gəlməsini şərtləndirən hüquqi əsas isə **titul** adlanır. Əgər mülkiyyət hüququnun əmələ gəlməsi hüquqi əsasa və ya titula malik olmazsa, bu, **titulsuz sahiblik** adlanır. Belə sahiblik faktiki sahiblik olmaqla qanunda birbaşa nəzərdə tutulduğu halda müəyyən hüquqi nəticələrin yaranmasına səbəb ola bilər. Məsələn, daşınar əmlakın mülkiyyətçisi olmayan şəxs, əgər ona öz əmlakı kimi vicdanla sahiblik (vicdanlı sahiblik, yəni titulsuz sahibliyin bir növü) edərsə, bu əmlaka mülkiyyət hüququ əldə edir.

Azərbaycan Respublikası MM-inin 9-cu fəsli (178-ci-202-ci maddələr) mülkiyyət hüququnun əldə edilməsi ilə əlaqədar yaranan münasibətləri qaydaya salır. Qanunvericilik mülkiyyət hüququnun obyekti olan əmlakın xarakterindən asılı olaraq, iki cür mülkiyyət hüququnun əmələ gəlməsini müəyyən edir: daşınmaz əmlaka mülkiyyət hüququnun əldə edilməsi (MM-in 178-ci, 179-cu, 180-ci maddələri); daşınar əmlaka mülkiyyət hüququnun əldə edilməsi (MM-in 181-ci-192-ci maddələri). Belə bölgünü Almaniya qanunvericiliyi də müəyyən edir[1]. İspaniya Mülki Məcəlləsi də həmin bölgünü nəzərdə tutur.

Göstərilən bölgünün vacib praktiki əhəmiyyəti vardır. Belə ki, daşınmaz əmlaka mülkiyyət hüququnun əldə edilməsi daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmalıdır; daşınar əmlaka mülkiyyət hüququnun əldə olunmasının isə dövlət qeydiyyatına alınması tələb edilmir.

[1] Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 239-240.

Mülkiyyət hüququnun əmələ gəlmə əsaslarını iki yerə bölmək olar:

- qanuni əsaslar;
- mülki-hüquqi əqdlər.

Qanuni əsaslar dedikdə, qanunda nəzərdə tutulan faktiki tərkib başa düşülür. Onlara aiddir: tapıntı; əldə etmə müddəti; dəfinə; emal və s.

Mülki-hüquqi əqdlər dedikdə, mülkiyyət hüququnun əmələ gəlməsinə əsas olan mülki-hüquqi müqavilələr, birtərəfli əqdlər başa düşülür. Söhbət alqı-satqı, dəyişmə, renta və digər müqavilələrdən, habelə vəsiyyətdən gedir. Yeri gəlmişkən, qeyd edək ki, Almaniya sivilistika doktrinası mülkiyyət hüququnun əmələ gəlməsinin məhz belə əsasını nəzərdə tutur.

2. Mülkiyyət hüququnun əmələ gəlmə üsulları

Sivilistika elmi, xarici ölkələrin hüquq doktrinası və məhkəmə praktikası mülkiyyət hüququnun əmələ gəlməsinin **iki üsulunu müəyyən edir**: **ilkin üsul**; **törəmə üsul**. Dünyanın bir çox ölkələrinin (məsələn, Macarıstanın, Çexiyanın və s.) mülki hüquq elmi mülkiyyət hüququnun əldə edilməsinin törəmə və ilkin üsulu kimi iki üsulunu nəzərdə tutur[1]. Hələ Roma mülki hüququ əmlaka mülkiyyət hüququnun əldə edilməsinin ilkin və törəmə üsulu kimi iki növünü fərqləndirirdi[2]. Bu hüquq əsas üsulu orijinal üsul, törəmə üsulu isə derivat (latınca «derivatus» — ayrılmış) üsul adlandırırdı.

Mülkiyyət hüququnun ilkin və törəmə üsulu kimi iki üsulla əmələ gəlməsi qüvvədə olan mülki qanunvericilikdə birbaşa nəzərdə tutulmamışdır. Lakin buna baxmayaraq, mülki qanunvericiliyi doktrinal (elmi) təfsir etməklə bu üsulları fərqləndirmək və ayırmaq olar. Həmin üsulları mülki qanunvericilik yox, məhz sivilistika doktrinası fərqləndirir.

Hüquq ədəbiyyatında mülkiyyət hüququnun əmələ gəlməsinin ilkin və törəmə üsulu kimi iki üsulunun fərqləndirilməsində iki meyar əsas götürülür: iradə meyarı; hüquqi varislik meyarı. **İradə meyarının (iradə konsepsiyasının)** tərəfdarlarına görə, ilkin üsullar odur ki, bu üsullarla mülkiyyət hüququ iradədən asılı olmadan əmələ gəlir. Buna görə də onlar milliləşdirməni (əvvəllər şəxslərə məxsus olan əmlakın dövlət mülkiyyətinə alınmasını) mülkiyyətin əmələ gəlməsinin ilkin üsuluna aid edirlər. Belə halda mülkiyyət hüququ əmlakın əvvəlki mülkiyyətçilərinin iradəsi olmadan əldə edilir. Törəmə üsullar isə odur ki, bu üsullarla mülkiyyət hüququ əmlakın əvvəlki mülkiyyətçisinin iradəsi əsasında əldə edilir. İradə meyarının əsas tərəfdarı sovet dövrünün alimi O.S.İoffedir. Onun fikrincə, ilkin üsul üçün mülkiyyət hüququnun ya birinci dəfə, ya da əmlakın əvvəlki mülkiyyətçisinin iradəsindən asılı olmadan əmələ gəlməsi, törəmə üsul üçün isə mülkiyyət hüququnun yalnız əmlakı özgəninkiləşdirən şəxsin iradəsi əsasında əldə edilməsi xarakterikdir[3].

Hüquqi varislik meyarının (hüquqi varislik konsepsiyasının) tərəfdarlarına görə, mülkiyyət hüququnun əmələ gəlməsinin ilkin üsulunda hüquqi varislik olmur; ilkin üsulla mülkiyyət hüququ hüquqi varislik əsasında yaranmır. Törəmə üsul isə hüquqi varisliyə əsaslanır. Buna görə də onlar milliləşdirməni mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsuluna şamil edirlər. Hüquqi varislik dedikdə, hüquq və vəzifələrin əvvəlki hüquq sahibindən (hüquqi sələfdən) hüquqi varisə (yeni hüquq sahibinə) keçməsi başa düşülür.

Bizim fikrimizcə, mülkiyyət hüququnun əldə edilməsinin iki üsulunun fərqləndirilməsində əsas kimi hüquqi varislik meyarının götürülməsi və qəbul edilməsi daha inandırıcıdır[1]. Ona görə ki, mülkiyyət hüququnun əldə edilməsinin bəzi törəmə üsullarında mülkiyyət hüququ digər şəxslərə əmlakın əvvəlki mülkiyyətçisinin razılığı (iradəsi) olmadan keçir. Məsələn, vərəsəlik mülkiyyət hüququnun əmələ gəlməsinin törəmə üsuludur. MM-in 1193-cü maddəsinə görə, vəsiyyət edənin uşaqlarının, valideynlərinin və arvadının (ərinin) vəsiyyətin məzmunundan asılı olmayaraq, mirasdan məcburi pay almaq hüququ vardır. Belə şəxslər məcburi vərəsələr adlanır. Məcburi vərəsələrə əmlak həmin əmlakın əvvəlki mülkiyyətçisinin, yəni miras qoyanın razılığı (iradəsi) olmadan keçir. Belə təsəvvür yaranır ki, **iradə meyarı mülkiyyət hüququnun əldə edilməsinin iki üsulunun fərqləndirilməsində əsas kimi götürülə bilməz**. Müəlliflərin əksəriyyəti mülkiyyət hüququnun əmələ gəlməsinin ilkin və törəmə adlı iki üsulunun ayrılmasında əsas əlamət və meyar kimi məhz hüquqi varisliyi qəbul edirlər[2]. Doğrudan da göstərilən üsulları bir-birindən fərqləndirməyin əsasında hüquqi varislik meyarı durur: əgər mülkiyyət hüququ hüquqi varislik əsasında əldə olunmazsa, onda söhbət yalnız ilkin üsuldan gedə bilər; yox, əgər mülkiyyət hüququ hüquqi varislik əsasında əldə edilərsə, belə halda törəmə üsul göz qabağındadır.

Beləliklə, ilkin üsul dedikdə, elə bir vasitə başa düşülür ki, bununla əvvəllər heç kimə məxsus olmayan əşyaya mülkiyyət hüququ yaranır və ya əşyanın əvvəlki mülkiyyətçisinin iradəsindən və hüquqlarından asılı olmadan mülkiyyət hüququ əmələ gəlir; ilkin üsullar elə üsullardır ki, onların vasitəsi ilə mülkiyyət hüququ birinci dəfə yaranır (belə ki, əmlak əvvəllər heç kəsin mülkiyyətində olmur) və ya müstəqil surətdə, əvvəlki mülkiyyətçinin iradə və hüququndan asılı olmadan əmələ gəlir. Buna görə də mülkiyyət hüququnun əldə olunma qaydası tərəflərin razılığı və ya əvvəlki mülkiyyətçinin birtərəfli iradəvi hərəkəti ilə yox, qanunla müəyyən edilir.

Törəmə üsul odur ki, bu üsulla mülkiyyət hüququ hüquqi varislik qaydasında, əsasən, əmlakın əvvəlki mülkiyyətçisinin iradəsi ilə əmələ gəlir; törəmə üsullar elə üsullardır ki, onların köməyi ilə mülkiyyət hüququ bu hüququn əvvəlki mülkiyyətçisindən yeni mülkiyyətçiyə keçməsinə əsasən, yəni hüquqi varislik qaydasında yaranır; əksər hallarda (məsələn, alqı-satqı, bağışlama, də-

[1] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 226-246.

[2] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого* и *И.С.Перетерского*. М., 1994; *Д.В.Дождев*. Римское частное право. Учебник. М., 1999; *İ.B.Novitski*. Roma hüququ Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999.

[3] bax: *О.С.Иоффе*. Советское гражданское право. М., 1967, с. 374-387.

[1] *Б.Б.Черепахин*. Правопреемство по советскому гражданскому праву. М., 1962.

[2] Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 494 (fəslin müəllifi *E.A.Suxanovdur*); Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева*. *Ю.К.Толстого*. М., 1998, с. 349 (fəslin müəllifi *Y.K.Tolstoydur*); Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой*, *Б.М.Гонгало* и др. М., 1998, с. 273 (fəslin müəllifi *M.Y.Kirillovadır*); Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина*. *А.И.Масляева*. М., 1997, с. 249 (fəslin müəllifi *V.P.Pavlovdur*); Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева*. М., 1999, с. 100 (fəslin müəllifi *Q.D.Olnyukovadır*).

yişmə və digər müqavilələr bağlanan, vəsiyyət edilən hallarda) mülkiyyət hüququ yeni mülkiyyətçiyə əvvəlki mülkiyyətçinin iradəsi əsasında keçir; bunun nəticəsində əvvəlki mülkiyyətçinin yerini yeni mülkiyyətçi tutur.

Bəzi hallarda isə mülkiyyət hüququ yeni mülkiyyətçiyə əvvəlki mülkiyyətçinin iradəsi olmadan keçir. Məsələn, qanun üzrə vərəsəlik, milliləşdirmə, müsadirə və rekvizisiya (həcz) kimi üsullarla mülkiyyət hüququ əldə olunan hallarda əvvəlki mülkiyyətçinin iradəsi nəzərə alınmır.

Mülkiyyət hüququnun əldə olunması üsullarının ilkin və törəmə üsullara bölünməsinin həm iqtisadi, həm də hüquqi mənası vardır; bu bölgü həm də praktiki əhəmiyyətə malikdir. Belə ki, ilkin üsulla mülkiyyət hüququ yaranan zaman mülkiyyətçi (əldə edən şəxs) həmin hüququ tam həcmdə əldə edir. Ona görə ki, mülkiyyətçi (əldə edən şəxs) mülkiyyət hüququnu başqa subyektin, yəni əvvəlki mülkiyyətçinin hüququ əsasında qazanmır; onun mülkiyyət hüququ əvvəlki mülkiyyətçinin hüququndan asılı deyil.

Törəmə üsulla mülkiyyət hüququ əmələ gələn hallarda isə yeni mülkiyyətçiyə (əldə edən şəxsə) mülkiyyət hüququ əvvəlki mülkiyyətçinin (əmlakı özgəninkiləşdirən şəxsin) malik olduğu həcmdə keçir; yeni mülkiyyətçinin mülkiyyət hüququ əvvəlki mülkiyyətçinin hüququndan asılıdır; buna görə də o, həcm baxımından əvvəlki mülkiyyətçinin malik olduğundan çox hüquq əldə edə bilməz. Xüsusən də yeni mülkiyyətçiyə mülkiyyət hüququ yüklə birlikdə (məsələn, girov hüququ ilə birlikdə və s.) keçir.

3. Mülkiyyət hüququnun əmələ gəlməsinin digər üsulları

Mülkiyyət hüququnun əldə edilməsi üsulları hüquqi varislik meyarından əlavə, həm də digər əlamətə görə növlərə bölünə bilər. Mülki hüquq subyektlərinin **mülkiyyət hüququnun əldə edilməsi üsullarından istifadə etmək imkanına malik olması əlamətinə görə** mülkiyyət hüququnun əmələ gəlməsinin iki üsulu fərqləndirilir: ümumi mülki (ümumi) üsul; xüsusi üsul.

Əgər mülki hüququn hər hansı bir subyekti mülkiyyət hüququnun əmələ gəlməsinin mümkün olan üsullarının hamısından (çoxundan) istifadə edərsə, belə üsula **mülkiyyət hüququnun əldə edilməsinin ümumi üsulu** deyilir. Məsələn, alqı-satqı müqaviləsi və ya vəsiyyət üzrə vərəsəlik nəticəsində mülki hüququn hər hansı bir subyekti mülkiyyət hüququ əldə edə bilər.

Əgər mülkiyyət hüququnun əmələ gəlməsinin üsulu yalnız məhdud dairə və kateqoriya subyektlər tərəfindən istifadə edilərsə, belə üsul **xüsusi üsul** adlanır. Xüsusi üsula milliləşdirməni, həczi və müsadirəni misal göstərmək olar. Ona görə ki, mülki hüququn subyektlərindən yalnız dövlət bu üsullardan istifadə etməklə mülkiyyət hüququ əldə edə bilər. Vergi yığılması və rüsum alınması kimi üsullar da xüsusi üsullar sayılır. Bu üsuldan istifadə etməklə bələdiyyələr mülkiyyət hüququ əldə edirlər.

Mülkiyyət hüququnun əldə edilməsinin ümumi üsulundan isə mülki hüququn istənilən subyekti istifadə etməklə əmlaka sahib ola bilər. Məsələn, ümumi üsullar sayılan müqavilə bağlamaq və vəsiyyət üzrə vərəsəlik yolu ilə hər hansı bir subyekt mülkiyyət hüququ əldə edə bilər.

Mülkiyyət hüququnun əmələ gəlməsinin bəzi üsulları müəyyən bir halda ümumi mülki üsul kimi, digər halda isə xüsusi üsul kimi çıxış edə bilər. Məsələn, bələdiyyə əmlakının özəlləşdirilməsindən daxil olan ödənişlər və ya vergilər xüsusi mülkiyyətə münasibətdə xüsusi üsul, dövlət mülkiyyətinə münasibətdə isə ümumi üsul hesab edilir.

Yeri gəlmişkən, mülkiyyət hüququnun əmələ gəlmə əsasları anlayışı ilə mülkiyyət hüququnun əmələ gəlmə üsullarını fərqləndirmək lazımdır. Mülkiyyət hüququnun əmələ gəlmə əsasları mülkiyyət titulu və ya hüquqyaradıcı hüquqi faktlardır. **Mülkiyyət hüququnun əmələ gəlmə üsulları** dedikdə isə müvafiq hüquqi faktlar əsasında yaranan hüquq münasibətləri başa düşülür.

Mülkiyyət hüququnun əldə edilməsinin ilkin üsullarına şamil edilir:

- əldə etmə müddəti (MM-in 181-ci maddəsinin 4-cü bəndi);
- özbaşına tikiliyə mülkiyyət hüququnun əldə edilməsi (MM-in 180-ci maddəsi);
- şəxsin qanunvericiliyin tələblərinə əməl etməklə özü üçün yeni əmlak yaratması və hazırlaması (MM-in 178-ci maddəsinin 2-ci bəndi və 181-ci maddəsinin 3-cü bəndi);
- emal (MM-in 188-ci maddəsi);
- əldə edilməsi hamıya müyəssər olan əmlaka mülkiyyət hüququnun əmələ gəlməsi (MM-in 189-cu maddəsi);
- sahibsiz daşınar əşyaya mülkiyyət hüququnun əldə edilməsi (MM-in 184-cü maddəsi);
- tapıntı (MM-in 186-cı maddəsi);
- özünün pay haqqını tamamilə ödəmiş mənzil, bağ, qaraj kooperativi üzvünün və ya başqa kooperativ üzvünün, pay haqqı vermək hüququ olan digər şəxslərin mülkiyyət hüququ əldə etməsi (MM-in 178-ci maddəsinin 8-ci bəndi);
- nəzarətsiz heyvanlar (MM-in 192-ci maddəsi);
- dəfinə (MM-in 187-ci maddəsi);
- əmlakı özgəninkiləşdirməyə hüququ olmayan şəxsdən mülkiyyət hüququnun əldə edilməsi.

Mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsullarına aiddir:

- alqı-satqı, dəyişdirmə, bağışlama müqaviləsi və ya əmlakın özgəninkiləşdirilməsinə dair digər əqd əsasında mülkiyyət hüququn əldə edilməsi (MM-in 181-ci maddəsinin 4-cü bəndi);
- fiziki şəxsin ölümündən sonra ona məxsus olan əmlakın vəsiyyətə və ya qanuna uyğun surətdə vərəsəlik üzrə keçməsi nəticəsində vərəsələrin mülkiyyət hüququ əldə etməsi;
- hüquqi şəxs yenidən təşkil olunduqda, malik olduğu əmlakın hüquqi varislik qaydasında keçməsi nəticəsində yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq varisinin mülkiyyət hüququ əldə etməsi (MM-in 181-ci maddəsinin 6-cı bəndi);
- tradisiya (MM-in 181-ci maddəsi);
- ani müddət (MM-in 182-ci maddəsi);
- torpaq sahəsinin tərkib hissəsinə mülkiyyət hüququnun əldə edilməsi (MM-in 190-cı maddəsi);
- birləşmə nəticəsində yaranan əşyaya mülkiyyət hüququnun əmələ gəlməsi (MM-in 191-ci maddəsi).

Mülkiyyət hüququnun əldə edilməsinin elə üsulları da vardır ki, bu üsullar ikili xarakterə və təbiətə malikdir, yəni bu üsullar bəzi hallarda ilkin üsul kimi, digər hallarda isə törəmə üsul kimi çıxış edir. Əmlakdan istifadə nəticəsində əldə olunan bəhər, məhsul və gəlirə mülkiyyət hüququnun əldə edilməsi üsulunu məhz belə üsula aid etmək olar (MM-in 134-cü maddəsinin 12-ci bəndi və 181-ci maddəsinin 3-cü bəndi).

§ 5. Mülkiyyət hüququnun əldə edilməsinin ilkin üsulları

1. Şəxsin özü üçün hazırladığı və ya yaratdığı yeni əmlaka mülkiyyət hüququnu əldə etməsi üsulu

Göstərilən üsul mülkiyyət hüququnun əldə olunmasının həm ilkin, həm də törəmə üsulları arasında həlledici əhəmiyyətə malikdir. Ona görə ki, həmin üsul maddi istehsalla bilavasitə bağlıdır. Odur ki, onu **maddi istehsal üsulu** adlandırırlar. Bu üsul istehsalçının özünə və ya başqa şəxslərə məxsus materiallardan istifadə etmək əsasında yeni əmlak yaradılmasına yönəlir.

Nəzərdə tutulan bu üsulla həm daşınmaz, həm də daşınar əmlak yaradıla bilər. Yeni yaradılmış daşınmaz əmlaka mülkiyyət hüququ həmin əmlakın hazırlandığı və ya yaradıldığı vaxtda əmələ gəlmir. Belə əmlaka **mülkiyyət hüququnun yaranma vaxtı həmin əmlakın dövlət reyestrində qeydə alınması anı ilə şərtlənir** (MM-in 178-ci maddəsinin 2-ci bəndi). Qeydə alınma üçün lazımi sənədlər (əmlakın yaradılmasını təsdiq edən, torpaq sahəsi barədə sənəd və s.) dövlət reyestrini aparan orqana verilməlidir. Belə təsəvvür yaranır ki, dövlət reyestrində qeydə alındığı vaxta kimi yeni yaradılmış daşınmaz əmlak mülkiyyət hüququnun obyekti hesab edilmir[1]. Belə əmlak hüquqi cəhətdən mövcud olmur. Məsələn, götürək yeni tikilmiş binanı. Binalar daşınmaz əmlakın bir növüdür (MM-in 135-ci maddəsinin 4-cü bəndi). Yeni tikilmiş binaya daşınmaz əmlak kimi mülkiyyət hüququ yalnız həmin binanın dövlət reyestrində qeydə alınması anından əmələ gəlir. Bina qeydə alınana kimi həmin binaya yox, istifadə edilmiş materiallar da daxil edilməklə yalnız əmlak kompleksinə mülkiyyət hüququnun yaranmasından söhbət gedə bilər.

Yeni yaradılmış və ya hazırlanmış daşınar əmlaka mülkiyyət hüququnun yaranması üçün həmin əmlakın dövlət reyestrində qeydə alınması tələb olunmur. Belə əmlakın mülkiyyət hüququnun obyekti kimi tanınması və hüquqi cəhətdən mövcud olması üçün zəruridir ki, yeni maddi obyektlərin və predmetlərin yaradılmasına yönələn istehsal fəaliyyəti başa çatsın. Belə təsəvvür yaranır ki, **daşınar əmlakın yaranma (hazırlanma) anı həmin əmlakın yaranmasına yönələn müvafiq istehsal fəaliyyətinin sonu ilə şərtlənir**. Özü də şəxs yeni daşınar əmlak yaradarkən və ya hazırlayarkən qanunun tələblərinə riayət etməlidir. Bəzi hallarda əşyanın hazırlanması üçün lisenziya (icazə) alınması tələb olunur. Məsələn, etil (yeyinti) spirtinin və alkoqollu içkilərin, tütün məmulatlarının istehsalı üçün prezidentin 2 sentyabr 2002-ci il tarixli fərmanı ilə təsdiq edilmiş siyahıya uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanlarından xüsusi razılıq (lisenziya) alınmalıdır[1]. Şəxsin qanunun tələblərinə əməl etməklə özü üçün hazırladığı və ya yaratdığı yeni əmlaka mülkiyyət hüququnu onun özü əldə edir (MM-in 181-ci maddəsinin 3-cü bəndi).

Neft, qaz və kömürün hasil edilməsini, yaşayış evinin, qarajın, bağ evinin və digər obyektlərin tikilməsini yeni əmlaka mülkiyyət hüququnun əldə edilməsi üsuluna misal göstərmək olar. Bəzi əmlak növlərinin hazırlanması cinayət məsuliyyətinə səbəb olur. Məsələn, qanunsuz olaraq silah hazırlama; qanunsuz olaraq narkotik vasitələr hazırlama; qanunsuz olaraq güclü təsir edən və zəhərli maddələr hazırlama və s. Belə halda hazırlanmış predmetlər alınır və mülkiyyət hüququ əmələ gəlmir.

Göstərilən üsulu bəzi xarici ölkə qanunvericiliyi də tanıyır. Məsələn, İspaniyanın, RF-in və s. ölkələrin mülki məcəllələrində həmin üsula rast gəlmək mümkündür.

2. Özbaşına tikiliyə mülkiyyət hüququnun əldə edilməsi üsulu

Özbaşına tikiliyə[2] MM-in 180-ci maddəsində anlayış verilmişdir. Həmin maddəyə görə, **özbaşına tikili** dedikdə, qanunla müəyyən edilmiş qaydada həmin məqsədlər üçün ayrılmayan torpaq sahəsində tikilmiş, yaxud bunun üçün lazımi icazə almadan və ya şəhərsalma və tikinti (inşaat) normalarını və qaydalarını mühüm dərəcədə pozmaqla tikilmiş yaşayış evi, digər tikili və ya başqa daşınmaz əmlak başa düşülür. Verilən anlayışdan belə təsəvvür yaranır ki, mülki qanunvericilik hər hansı tikintinin özbaşına tikili hesab edilməsi üçün aşağıdakı pozuntuların olmasını nəzərdə tutur: tikilinin qanunla müəyyən edilmiş qaydada həmin məqsədlər üçün ayrılmayan torpaq sahəsində aparılması; tikili üçün zəruri icazənin olmaması; inşaat (tikinti) və şəhərsalma normaları və qaydalarının mühüm dərəcədə pozulması. Göstərilən bu pozuntulardan birinin mövcud olması aparılmış tikilinin özbaşına tikili hesab edilməsini şərtləndirir.

Özbaşına tikilinin obyekti təkcə yaşayış evi, bina və digər daşınmaz əmlakla məhdudlaşmır. Belə obyektlərə bağ evi, qaraj, su nohuru (hovuzu), tunel (yerin altından açılan yol), körpü, habelə yeraltı və yerüstü digər qurğuların tikintisini də şamil etmək olar. Özbaşına tikintini aparan subyekt kimi hər hansı fiziki və ya hüquqi şəxs çıxış edə bilər.

Hər hansı bir obyektin (memarlıq obyektinin) tikintisi «Memarlıq fəaliyyəti haqqında» qanuna uyğun olaraq, aşağıdakı şərtlər əsasında həyata keçirilə bilər: tikiliyə icazə, yəni memarlıq layihəsi mövcud qaydalar əsasında təsdiq edildikdən və müvafiq icra hakimiyyəti orqanında qeydiyyatdan keçdikdən sonra həmin orqan tərəfindən sifarişçiyə verilən rəsmi icazə sənədi olmalıdır; tikintini həyata keçirmək üçün qanunda nəzərdə tutulmuş qaydada torpaq sahəsinə icazə olmalıdır; obyekt mövcud tikinti norma və qaydalarına, əraziplanlaşdırma layihələrinin əsas müddəalarına, insanların ekoloji, sosial cəhətdən təhlükəsiz və rahat həyat fəaliyyətinin təmin edilməsi tələblərinə cavab

[1] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Ответ. ред. *О.Н.Садиков*. М., 1999, с. 440.

[1] bax: 3 sentyabr 2002-ci il tarixli «Respublika» qəzeti.

[2] Qanunverici «tikili» əvəzinə, «tikinti» kimi qeyri-münasib termin işlədir.

verməlidir[1]. Memarlıq obyekti dedikdə, binalar, tikililər və onların kompleksləri, memarlıq abidələri, xatirə abidələri, memarlıq layihəsi əsasında yaradılan bağlar, parklar, kurortlar və digər istirahət yerləri başa düşülür. Belə təsəvvür yaranır ki, «Memarlıq fəaliyyəti haqqında» qanunun müəyyən etdiyi şərtləri pozmaqla tikilən memarlıq obyektləri özbaşına tikili sayılır.

Özbaşına tikili hüquqi nəticəyə səbəb olur. Bu nəticə ondan ibarətdir ki, **özbaşına tikilən obyektlərə həmin obyektləri inşa edən şəxsin mülkiyyət hüququ əmələ gəlmir**. Tikili özü isə daşınmaz əmlak hesab edilmir və dövlət qeydiyyatına alınmır. Özbaşına tikinti aparmış şəxs ona mülkiyyət hüququ əldə etmir (MM-in 180-ci maddəsinin 2-ci bəndi). Özbaşına tikinti obyektləri inşa edən şəxs bu obyekt üzərində sərəncam vermək (satmaq, bağışlamaq, icarəyə vermək, dəyişdirmək və digər əqdlər bağlamaq) hüququna malik deyildir. Həmin obyektlərə sərəncam verilməsinə yönələn əqdlər MM-in 337-ci maddəsinin 1-ci bəndinə görə qanunun tələblərinə uyğun gəlmədiyi üçün etibarsız sayılır.

Bununla bərabər, qanun istisna hal kimi müəyyən şərt əsasında özbaşına tikinti aparmış şəxsin həmin tikiliyə mülkiyyət hüququ əldə etmək imkanını nəzərdə tutur (MM-in 180-ci maddəsinin 3-cü bəndi). Belə halda özbaşına tikiliyə mülkiyyət hüququnun yaranması məhkəmə qaydasında müəyyən edilir. Məhkəmə **yalnız iki şərt** mövcud olduqda özbaşına tikiliyə mülkiyyət hüququnun əldə edilməsi barədə qərar qəbul edir: tikinti aparılmış torpaq sahəsi **özbaşına obyekt inşa edən şəxsin mülkiyyətində olmalıdır**[2]; tikilinin saxlanılması digər şəxslərin **hüquqlarını və qanunla qorunan mənafelərini pozmamalı** və ya **vətəndaşların həyatı və sağlamlığı üçün təhlükə yaratmamalıdır**.

Özbaşına tikinti aparmış şəxs ona mülkiyyət hüququ əldə etmədikdə, həmin tikili onu özbaşına tikdirən şəxs tərəfindən və ya onun hesabına sökülür. Belə halda sökülən tikilinin inşaat materialları həmin tikinti aparmış şəxsin mülkiyyətində qalır.

Göstərilən üsul bəzi xarici ölkə qanunvericiliyinə də məlumdur. Məsələn, RF-in, Macarıstanın, Çexiyanın və s. ölkələrin mülki məcəllələrində belə üsul nəzərdə tutulmuşdur.

3. Emal mülkiyyət hüququnun əldə edilməsinin ilkin üsulu kimi

Mülkiyyət hüququnun əldə edilməsinin emal üsulu MM-in 188-ci maddəsində nəzərdə tutulmuşdur. MM-də bu, yeni maddədir və mülkiyyət hüququnun əldə edilməsinin xüsusi halını müəyyən edir. Emal üsulu hüquq ədəbiyyatında **spesifikasiya üsulu** da adlanır[3] (spesifikasiya əşyanın spesifik, yəni özünə xas olan xüsusiyyətlərinin müəyyən edilməsidir). Spesifikasiya üsulunu hələ Roma hüququ «specificatio» adı altında nəzərdə tutmuşdu. «Specificatio» və ya özgə əşyasını dəyişdirmək (düzəltmək) dedikdə, yeni əşyanın (nova species) hazırlanması başa düşülürdü[1].

Emalın hüquqi anlayışı RF-in Ailə Məcəlləsinin 59-cu maddəsində ifadə edilmişdir. Bu maddəyə görə, emal anlayışına aiddir: malın (əmtəənin) hazırlanması; montaj, quraşdırma və başqa hala salma vasitəsilə maldan yeni mal hazırlamaq; bərpa etmək və ya qaydaya salmaq da daxil olmaqla malın təmiri və s. Emalın obyekti kimi həm materiallar və ya xammal, həm də hazır mallar çıxış edə bilər.

MM-in 188-ci maddəsinə görə, emal dedikdə, bir şəxsin ona məxsus olmayan, başqa sözlə desək, digər şəxsə məxsus olan materiallardan əşya hazırlaması başa düşülür. Emal yolu ilə şəxs başqa şəxsin malik olduğu materiallardan istifadə etməklə yeni əşya hazırlayır; bu zaman materialların mülkiyyətçisinin razılığı alınmır və buna görə də emal edən şəxs həmin **materiallardan qeyri-legitim (qeyri-qanuni) istifadə edir;** bu xüsusiyyət emalı yeni yaradılmış əmlaka mülkiyyət hüququnun əmələ gəlməsinin adi qaydasından fərqləndirir. Belə halda hazırlanmış və ya yaradılmış əşyaya mülkiyyət hüququ MM-in 188-ci maddəsinə uyğun olaraq müəyyən edilir. Həmin maddədə ifadə edilmiş ümumi qaydaya görə, hazırlanmış yeni daşınar əmlaka mülkiyyət hüququnu materialların mülkiyyətçisi əldə edir, bu şərtlə ki, müqavilədə başqa qayda nəzərdə tutulmasın[2].

MM-in 188-ci maddəsində nəzərdə tutulan bu qayda dispozitiv xarakter daşıyır. Müqavilədə emal etmək yolu ilə hazırlanan yeni daşınar əmlaka mülkiyyət hüququnu emal edən şəxsin əldə etməsi də müəyyən edilə bilər. Emal edən şəxsin mülkiyyət hüququnu əldə edə bilməsi üçün aşağıdakı şərtlərin mövcud olması vacibdir:

- əgər emalın dəyəri daşınar əmlakın hazırlandığı **materialların dəyərindən xeyli (əhəmiyyətli dərəcədə) artıq olduqda**;
- **emal edən şəxs vicdanla hərəkət etmişsə**, yəni belə halda o, özgə şəxsin materiallarından istifadə etməsini bilmir və bunu bilməli də deyildir. Məsələn, müxtəlif şəxslərə, o cümlədən mülkiyyətçiyə məxsus olan materialların qarışdırılması nəticəsində emal edən şəxs səhvən hesab edir ki, emal etdiyi materiallar onun özünə məxsusdur və ya o, güman edir ki, materialların sahibi yoxdur və yaxud materiallar sahibi tərəfindən atılmışdır və s. Əgər emal edən vicdansız hərəkət edərsə, yəni materiallardan onun mülkiyyətçisinin razılığı olmadan, qəsdən bilə-bilə istifadə edərsə və bu materialların özgəsinə məxsus olmasını bilərsə və ya bilməyə borclu olarsa, qanun materialların mülkiyyətçisinə hazırlanmış yeni

[1] bax: AR QK, V cild, s. 407-408.

[2] Tikilinin hüquqi problemləri barədə ətraflı yazılmışdır: *К.И.Скловский.* Собственность в гражданском праве. М., 1999, с. 397-427.

[3] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 352; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 274.

[1] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 192.

[2] Emal nəticəsində hazırlanmış əmlak üzərində emal edən şəxsin və ya mülkiyyətçinin mülkiyyət hüququ əldə etməsi hələ neçə-neçə əsr bundan əvvəl Roma hüquqşünaslarının mübahisə predmetinə çevrilmişdi. Sabinyan məktəbinin tərəfdarları göstərirdilər ki, yeni əşya materialın mülkiyyətçisinə məxsus olmalıdır. Prokulyan məktəbinin tərəfdarlarına görə isə yeni əşya üzərində mülkiyyət hüququnu emal edən şəxs əldə edir. Yustinian qanunvericiliyi kompromis mövqe tutdu: əgər yeni əşyanı öz əvvəlki vəziyyətinə qaytarmaq mümkün olarsa, onda o, materialın mülkiyyətçisinə verilirdi; bu, mümkün olmazsa, onda əşya emal edən şəxsin mülkiyyətinə keçirdi (bax: *И.Пухан, М.Поленак-Акимовская.* Римское право. М., 2000, с. 162; *I.B.Novitski.* Roma hüququ. Bakı. 1999, c. 86).

əmlakı onun mülkiyyətinə verilməsini, habelə ona vurulan zərərin ödənilməsini tələb etmək ixtiyarı verir (MM-in 188-ci maddəsinin 3-cü bəndi);

- emal edən şəxs **daşınar əmlakı özü üçün hazırlamışsa**. Əgər əmlak kommersiya məqsədi üçün hazırlanarsa, emal edən şəxs həmin əmlaka mülkiyyət hüququ əldə edə bilməz.

MM-in 188-ci maddəsinin 1-ci bəndində ifadə edilən bu şərtlərdən hər hansı birinin olmaması emal edən şəxsin hazırlanmış daşınar əmlaka mülkiyyət hüququ əldə etməsini istisna edir və onu aradan qaldırır. Belə halda əmlaka mülkiyyət hüququnu materialların mülkiyyətçisi əldə edir.

Dediklərimiz bizə belə nəticəyə gəlmək imkanı verir ki, materialların emalı yolu ilə hazırlanmış yeni daşınar əmlaka kimin mülkiyyət hüququ əldə etməsi məsələsi, birincisi, materialların dəyəri və işin qiyməti (emalın dəyəri) müqayisə olunmaq əsasında həll edilir; ikincisi, bu məsələnin həlli emal edən şəxsin vicdanlı və ya vicdansız hərəkət etməsindən asılıdır; əgər əməl edən şəxs vicdansız hərəkət edərsə, hətta emalın dəyəri (işin qiyməti) materialların dəyərindən dəfələrlə çox olsa da mülkiyyət hüququnu o, yox, materialların mülkiyyətçisi əldə edir. Odur ki, vicdansız emal edən şəxs heç vaxt yeni hazırlanmış əşyaya mülkiyyət hüququ əldə etmir. Bu, məlum məsələdir.

Emal yolu ilə hazırlanmış yeni əmlaka kimin mülkiyyət hüququ əldə etməsindən asılı olaraq ödəniş həyata keçirilir. MM-in 188-ci maddəsinin 2-ci bəndi emal vaxtı görülən işin və istifadə edilən özgə materiallarının dəyərinin kompensasiya edilməsi ilə əlaqədar yaranan hüquq münasibətlərini qaydaya salır. Belə ki, hazırlanan yeni əmlaka mülkiyyət hüququ əldə edən — **materialların mülkiyyətçisi emal vaxtı görülən işin dəyərini ödəməlidir**. Yeni əmlaka mülkiyyət hüququnu emal edən şəxs əldə etdikdə isə o, **materialların itirilməsi nəticəsində vurulmuş zərərin əvəzini ödəməlidir** (MM-in 191-1-ci maddəsinin 1-ci bəndi). Göstərilən bu qayda dispozitiv xarakterə malikdir. Bu, onu ifadə edir ki, tərəflər müqavilədə başqa qayda da nəzərdə tuta bilərlər.

Emal yolu ilə mülkiyyət hüququnun əldə edilməsi bir çox ölkələrin qanunvericiliyində nəzərdə tutulmuşdur. Məsələn, Almaniya Mülki Qanunnaməsinə görə, özgəsinin materiallarından istifadə etməklə emal yolu ilə hazırlanan əşyaya mülkiyyət hüququnu əşyanı hazırlayan əldə edir, bu şərtlə ki, emalın dəyəri istifadə edilmiş materialların dəyərindən xeyli artıq olsun[1]. İspaniya Mülki Məcəlləsi müəyyən edir ki, emal yolu ilə hazırlanan yeni əşyaya mülkiyyət hüququ emal edən şəxsə keçir. O, materialların dəyərini onun mülkiyyətçisinə ödəməyə borcludur[2]. İtaliya qanunvericiliyinə görə, istifadə edilmiş materialın dəyəri emal yolu ilə hazırlanan əşyanın dəyərindən xeyli çox olduqda, həmin əşyaya mülkiyyət hüququnu materialın mülkiyyətçisi əldə edir[3]. İsveçrə Mülki Məcəlləsinə görə, emal (spesifikasiya), mülkiyyət hüququnun əldə edilməsinin əsas üsulu hesab edilir[4]. Yaponiya qanunvericiliyi müəyyənləşdirir ki, emal, yəni başqa şəxsə məxsus olan materialdan yeni əşya hazırlanan zaman bu əşyaya mülkiyyət hüququnu, bir qayda olaraq, materialın mülkiyyətçisi əldə

[1] Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 240.
[2] Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 242.
[3] yenə orada, s. 243.
[4] yenə orada, s. 245.

edir. Amma yeni yaradılmış əşyanın dəyəri materialın dəyərindən xeyli çox olduğu halda isə bu əşya üzərində mülkiyyət hüququnu emal edən şəxs qazanır (MM-in 246-cı maddəsinin 1-ci bəndi)[1].

Göstərilən üsulla mülkiyyət hüququ əldə edilməsinə çoxlu misallar çəkə bilərik. Məsələn, dərzinin özgəsinə məxsus parçadan özü üçün paltar tikməsi, şəxsin özgəyə məxsus taxtadan özü üçün mebel hazırlanması və s.

4. Birləşmə mülkiyyət hüququnun əldə edilməsi üsulu kimi

Birləşmə Roma hüququnda mülkiyyət hüququnun əldə edilməsinin üsullarından biri hesab edilirdi. Roma hüququ bu üsulu «accessio» — aksessio (artma, üstünə qoyma) adlandırırdı[2]. Həmin üsul bir sıra müasir xarici ölkələrin qanunvericiliyi tərəfindən qəbul olunmuşdur. Yaponiya MM-inin 242-ci və 243-cü maddələri mülkiyyət hüququnun əldə edilməsinin birləşmə üsulunun tənzimlənməsinə həsr edilmişdir[3]. Bu üsul İspaniya qanunvericiliyinə də məlumdur (MM-in 358-359-cu maddələri)[4]. Almaniya qanunvericiliyi birləşməni mülkiyyət hüququnun əmələ gəlməsinin əsas üsullarından biri kimi nəzərdə tutur. Almaniya Mülki Qanunnaməsinin 946-947-ci paraqrafları həmin üsulla bağlı olan münasibətləri tənzimləyir[5]. Bu paraqraflarda ifadə olunan norma və qaydalar bizim ölkə qanunvericiliyi tərəfindən qəbul edilmişdir (MM-in 190-191-ci maddələri).

Birləşmə üsulunun iki halı fərqləndirilir: daşınar əşyanın torpaq sahəsi ilə birləşməsi halı (MM-in 190-cı maddəsi); iki daşınar əşyanın birləşməsi halı (MM-in 191-ci maddəsi).

Daşınar əşyanın torpaq sahəsi ilə birləşməsi halının mahiyyəti ondan ibarətdir ki, özgə şəxsə məxsus olan daşınar əşya başqa şəxsin mülkiyyətində olan torpaq sahəsi ilə birləşdikdə, müstəqil surətdə mövcud olmaq qabiliyyətini itirdiyinə görə torpaq sahəsinin mülkiyyətçisi eyni zamanda həmin əşyanın da mülkiyyətçisi olur. Belə halda torpaq sahəsinin mülkiyyətçisi həmin daşınar əşyaya mülkiyyət hüququ əldə edir. Daha dəqiq desək, belə vəziyyətdə torpaq sahəsi mülkiyyətçisinin mülkiyyət hüququ həm torpaq sahəsinə, həm də ona birləşdirilən daşınar əşyaya şamil olunur. Bunun üçün qanunun tələb etdiyi şərtə əməl olunması lazımdır. Bu şərt müəyyən **daşınar əşyanın torpaq sahəsinə tərkib hissəsi kimi birləşməsindən** ibarətdir. Dağılmadan, zədələnmədən və ya dəyişdirilmədən əşyadan ayrıla bilməyən hər şey əşyanın tərkib hissəsi hesab edilir. Əşyanın mülkiyyətçisi onun bütün tərkib hissələrinin mülkiyyətçisidir (MM-in 135-ci maddəsinin 10-cu bəndi). Məsələn, torpaq sahəsində ucaldılan tikililər, çoxillik əkmələr (meyvə ağacları) və s. torpaq

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 186.
[2] *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 397; *Пухан И., Поленак-Акимовская М.* Римское право. М., 2000, с. 161.
[3] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 185-186.
[4] Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 241-242.
[5] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 424; Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 240; Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

sahəsinin tərkib hissəsi hesab olunur və buna görə də torpaq sahibinin mülkiyyət hüququ onlara da şamil edilir.

Göstərilən birləşmə halı **iki formada** təzahür edir. Birinci forma torpaq sahəsi **mülkiyyətçisinin özgəsinin daşınar əşyasını tərkib hissəsi kimi həmin sahəyə birləşdirməsindən** ibarətdir; söhbət mülkiyyətçinin öz torpaq sahəsində özgəsinə məxsus olan materiallardan (daşınar əşyalardan) istifadə etməklə tikili ucaltmasından gedir. Məlum məsələdir ki, belə halda torpaq sahəsi mülkiyyətçisinin mülkiyyət hüququ həmin əşyaya da şamil edilir. Məsələn, o, torpaq sahəsində tikili ucaltmaq üçün özgə şəxsə məxsus olan tikinti materiallarından (sement, qum, taxta, parket və s.) istifadə edir.

İkinci forma isə **müəyyən şəxsin özünün daşınar əşyalarını özgəsinin mülkiyyətində olan torpaq sahəsi ilə birləşdirməsini** əhatə edir; söhbət materialların (daşınar əşyaların) mülkiyyətçisinin özgəsinə məxsus olan torpaq sahəsində tikili ucaltmasından gedir. Bu halda da həmin daşınar əşyalara torpaq sahibinin (mülkiyyətçinin) mülkiyyət hüququ aid edilir. Bu, Roma hüququnun müəyyən etdiyi belə bir qaydaya uyğun gəlir: «Superficies solo cedit», yəni torpaq kimə məxsusdursa, tikili də onun mülkiyyətinə daxil olur[1]. Məsələn, müəyyən şəxs özgəsinin torpaq sahəsində daşınar əşyalardan müxtəlif tikililər (yaşayış evi, körpülər, anbarlar və s.) ucaldır. Belə halda tikililər şəxsin yox, torpaq sahəsi sahibinin mülkiyyətinə keçir.

Torpaq sahəsinə yardımçı əşya (ləvazimat) birləşdirilərsə, bir qayda olaraq, torpaq sahibinin mülkiyyət hüququ ona da şamil edilir. Amma tərəflərin razılaşmasında mülkiyyət hüququnun yardımçı əşyaya aid olmaması nəzərdə tutula bilər (MM-in 135-ci maddəsinin 11-ci bəndi). Belə ki, əşyanın tərkib hissəsindən fərqli olaraq, yardımçı əşya müstəqil surətdə fiziki cəhətdən (təsərrüfat cəhətdən yox) mövcud olur və zədələnmədən, dağılmadan əsas əşyadan ayrıla bilər. Buna görə də yardımçı əşyalar təsərrüfat cəhətdən müstəqil olmasalar da, onların müstəqil surətdə mülkiyyət hüququnun obyekti kimi çıxış etməsi istisna olunmur, mümkündür. Məsələn, əgər torpaq sahəsi əsas (baş) əşyadırsa, kənd təsərrüfatı avadanlığı isə yardımçı əşya sayılır. Belə halda torpaq sahibinin mülkiyyət hüququnun həmin avadanlığa şamil edilməsi üçün tərəflərin sazişi və razılığı gərəkdir.

Birləşmə üsulunun ikinci halı **iki və daha artıq daşınar əşyanın birləşməsini** əhatə edir. Bu halın mahiyyəti ondan ibarətdir ki, müxtəlif şəxslərə məxsus olan bir neçə daşınar əşya birləşən zaman həmin əşyalara mülkiyyət hüququ da birləşir. Belə halda **əvvəlki mülkiyyətçilər yeni əşyanın paylı mülkiyyətçilərinə çevrilir** və onların **paylı mülkiyyət hüququ yaranır**. Hər bir mülkiyyətçinin payı həmin əşyaların birləşməzdən əvvəlki dəyərinə uyğun olaraq müəyyənləşdirilir (MM-in 191-ci maddəsinin 1-ci bəndi). Məsələn, bir kənddə yaşayan qadın özünəməxsus ipdən və qonşunun malik olduğu materiallardan (ip, boyaq və s.) təsadüfən və ya səhvən istifadə etməklə xalça toxuyur. Başqa bir misalda usta təsadüfən dörd nəfər vətəndaşa məxsus olan bandan, mühərrikdən, ramadan, təkərlərdən və digər detal və mexanizmlərdən avtomobil yığır. Belə halda daşınar əşyalar yeni vahid əşyanın (avtomobilin) tərkib hissələrinə çevrilir. Daha başqa bir misalda şəxs səhvən paltara özgə şəxsə məxsus bəzək-düzək və zinət şeyləri bərkidir.

Qarışma (qatılma) daşınar əşyaların birləşməsinin xüsusi halıdır. Qarışma daşınar əşyaların elə birləşməsi və qatışmasıdır ki, bu zaman onları fərdiləşdirmək və bir-birindən ayırmaq mümkün olmur[1]. Məsələn, müxtəlif mülkiyyətçilərə məxsus olan neftin və ya taxılın bir-birinə qatılması buna misaldır. Belə hallarda da qarışma nəticəsində yaranan əşyaya birgə mülkiyyət hüququ əmələ gəlir.

Qeyd etməliyik ki, müxtəlif mülkiyyətçilərə məxsus olan daşınar əşyaların birləşməsi müəyyən şərt əsasında mülkiyyət hüququnun əmələ gəlmə üsulu kimi çıxış edə bilər. Belə ki, daşınar əşyalar ya təsadüfən, ya da səhvən birləşdirilməlidir[2].

Bəzi hallarda baş (əsas) əşyaya yardımçı əşya (ləvazimat) birləşdirilir. Belə halda baş (əsas) əşya sahibinin mülkiyyət hüququ yardımçı əşyaya da şamil edilir, yəni baş (əsas) əşya sahibi yardımçı əşyaya da mülkiyyət hüququ əldə edir. Əşyanın baş (əsas) əşya olub-olmaması, adətən, dövriyyədə yaranmış rəy əsasında müəyyən edilir. Məsələn, yaranmış rəyə görə müəyyən etmək mümkündür ki, qol saatı, portret (şəkil), avtomobil, ayaq xizəyi və s. əsas (baş) əşya hesab olunur. Məlum məsələdir ki, saatın qolbağı, şəklin çərçivəsi, avtomobilin açarları, ayaq xizəyinin ağacları yardımçı əşya kateqoriyasına aid edilir[3].

Daşınmaz əşyaların da bir-biri ilə birləşməsi mümkündür. Belə ki, təbii hadisələrin təsiri nəticəsində təsadüfən yeni torpaq sahələri (ərazilər) yarana bilər. Belə hadisələrə aiddir: daşqın; torpağın səpələnməsi və ya yerdəyişməsi; çayın yatağının və ya səviyyəsinin dəyişməsi və s. Məlum məsələdir ki, bu kimi hadisələrin təsiri nəticəsində yeni ərazi (torpaq sahəsi) əmələ gələ bilər; belə ərazi (torpaq sahəsi) hansı torpaq sahəsinə bitişikdirsə, həmin sahəyə də birləşdirilməlidir (MM-in 178-ci maddəsinin 3-cü bəndi). Bu, o deməkdir ki, torpaq sahəsinin mülkiyyətçisi yeni ərazıyə də mülkiyyət hüququ əldə edir. Belə qayda Fransa, İspaniya, Hollandiya və digər xarici ölkələrin qanunvericiliyinə də məlumdur[4].

Qeyd etmək lazımdır ki, təbii və ya süni yolla əşyaların bir-birilə birləşməsi əmlakın çoxalmasına səbəb olur[5]. **Əmlakın çoxalması** dedikdə, digər əşyanın birləşdirilməsi nəticəsində onun qiymətinin artması başa düşülür[6].

Adətən müxtəlif mülkiyyətçiyə məxsus olan əşyalar bir-biri ilə ya təsadüfən, ya da səhvən birləşdirilir. Bu zaman təbii ki, mülkiyyətçi əmlakını itirmək for-

[1] *I.B.Novitski.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, c. 87.

[1] Bax: *Ласк Г.* Гражданское право США. М., 1961, с. 470.

[2] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 48.

[3] İspaniya qanunvericiliyinə görə, əşyanın əsas (baş) əşya sayılması qiymət və ya həcm kimi meyar əsasında müəyyənləşdirilir (Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 242).

[4] Bax: Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Под ред. *Е.А.Васильева, А.С.Комарова.* М., 2004, с. 363.

[5] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 36.

[6] Bax: *Ласк Г.* Гражданское право США. М., 1961, с. 460.

masında zərərə düşür və ya onun hüququ başqa şəkildə pozulur. Məsələn, torpaq sahəsinin mülkiyyətçisi səhvən belə hesab edir ki, tikinti materiallarının (taxta, sement, daş və s.) sahibi (mülkiyyətçisi) yoxdur və bu ehtimalla da o, həmin sahədə özünə ev tikir. Əlbəttə, belə halda tikinti materiallarının mülkiyyətçisi zərərə düşür. Buna görə də qanun hüquqları pozulan mülkiyyətçilərin maraq və mənafeyini təmin etmək üçün müəyyənləşdirir ki, onlar mülkiyyətçi olmuş şəxsdən **zərərin əvəzinin ödənilməsini tələb edə bilərlər** (MM-in 191-1-ci maddəsinin 1-ci bəndi). Yuxarıdakı misalda torpaq sahəsinin mülkiyyətçisi tikdiyi yaşayış evinə mülkiyyət hüququ əldə edir. Amma o, tikinti materiallarının mülkiyyətçisinə vurulmuş zərərin əvəzini ödəməlidir.

5. Əldə edilməsi hamıya müyəssər olan əmlaka mülkiyyət hüququnun əmələ gəlməsi

Mülkiyyət hüququnun əmələ gəlməsinin bu üsulu MM-in 189-cu maddəsində nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının qanunvericiliyi ilk dəfə olaraq göstərilən üsulla mülkiyyət hüququnun yaranmasını birbaşa müəyyən edir.

Əldə edilməsi hamıya müyəssər olan əmlaka aiddir: meşədə yığılan giləmeyvə, göbələk və s.; sututarlarda tutulan balıq; ovlanan su və meşə heyvanları; əldə edilməsi hamıya müyəssər olan digər əmlak növləri. Göstərilən həmin əmlaka bu əmlakı yığan, ovlayan və ya hasil edən şəxsin mülkiyyət hüququ əmələ gəlir. Bu, yalnız o vaxt mümkün ola bilər ki, yığılması, tutulması, ovlanması və hasil edilməsi hamıya müyəssər olan əmlakın əldə edilməsi **ya qanunda nəzərdə tutulsun**, ya **bu hərəkətlərin edilməsi mülkiyyətçinin verdiyi ümumi icazəyə müvafiq olsun, ya da ki, həmin hərəkətlər yerli adətə uyğun olsun**. Lakin həmin obyektlər sahibsiz əmlak kateqoriyasına şamil edilmir. Bu obyektlər, hər şeydən əvvəl, dövlət və bələdiyyə mülkiyyətində olur. Su Məcəlləsinin 12-ci və 13-cü maddələri su obyektləri üzərində dövlət və bələdiyyə mülkiyyətini təsbit edir. Bu məcəllənin 36-cı maddəsində ümumi istifadədə olan su obyektlərindən (istifadəsi hamı üçün mümkün olan su obyektlərindən) öz ehtiyaclarını təmin etmək məqsədi ilə fiziki şəxslərin balıq ovlamalarına səlahiyyət verilməsi nəzərdə tutulmuşdur[1].

Azərbaycan Respublikasında meşə fondu dövlətin mülkiyyəti hesab olunur. Meşə fondunun mülkiyyətçisi olan dövlət Meşə Məcəlləsinin 53-cü maddəsi əsasında fiziki şəxslərə şəxsi məqsədləri üçün yabanı meyvə, giləmeyvə, gərzəklilər və digər meşə sərvətləri, dərman bitkiləri, texniki xammal yığmağa ümumi icazə vermişdir[2].

«Heyvanlar aləmi haqqında» qanunda ovçuluq obyektlərinə aid edilmiş vəhşi heyvanların tutulmasının və vurulmasının mümkünlüyü göstərilir[3]. Ov xüsusi icazə və ovçuluq biletləri əsasında həyata keçirilir. Bu tələblərə əməl edən şəxslər xüsusi olaraq ayrılmış ov yerlərində ovçuluq fəaliyyəti ilə məşğul ola bilərlər. Özü də ov ödənişlidir. Əldə edilmiş ov məhsulları müvafiq şəxsin mülkiyyətinə daxil olur. Həmin məhsullardan isə əhalinin maddi və mənəvi iqtisadiyyatının xammal, material və digər tələbatlarının ödənilməsi məqsədilə

[1] bax: AR QK, V cild, s. 131.
[2] bax: AR QK, V cild, s. 178.
[3] bax: AR QK, III xüsusi buraxılış, s. 104.

istifadə olunur. Göründüyü kimi, bu cür hallarda əldə edilməsi hamıya müyəssər olan əmlaka yox, yalnız xüsusi icazə alan şəxsə müyəssər olan əmlaka mülkiyyət hüququ əmələ gəlir.

Beləliklə, meşə və su dövlətin mülkiyyətində olmasına baxmayaraq, həmin obyektlərdə tutulan, ovlanan, yığılan və s. təbiət predmetlərinə mülkiyyət hüququnun əldə edilməsini törəmə üsul hesab etmək olmaz. Belə ki, MM-in 189-cu maddəsində nəzərdə tutulan mülkiyyətçinin verdiyi icazə konkret subyektə aid deyildir. Həmin icazə ümumi xarakter daşıyır. Buna görə də əldə edilməsi hamıya müyəssər olan təbiət predmetlərinə **mülkiyyət hüququnun əmələ gəlməsi törəmə üsul kimi yox, ilkin üsul kimi xarakterizə edilir.**

6. Sahibsiz daşınar əşyaya mülkiyyət hüququnun əldə edilməsi

Hər şeydən əvvəl, onu qeyd edək ki, bu üsulla mülkiyyət hüququnun əldə edilməsini neçə-neçə yüz il bundan əvvəl Roma hüququ da nəzərdə tuturdu. Roma hüququ sahibsiz əşyalara mülkiyyət hüququnun əldə olunmasını «okkupasiya (occupatio)» anlayışı ilə əhatə edirdi[1]. XII Cədvəl Qanunlarında belə bir prinsip ifadə olunmuşdu: sahibsiz əşya onu birinci olaraq ələ keçirən şəxsin mülkiyyətinə keçir. Okkupasiya dedikdə, özündə saxlamaq məsqədilə şəxsin əşyanı ələ keçirməsi, mənimsəməsi və ona yiyələnməsi başa düşülürdü.

Sahibsiz daşınar əşyanın anlayışı MM-in 184-cü maddəsinin 2-ci bəndində ifadə edilmişdir. Bu maddəyə görə, **sahibsiz daşınar əşya** dedikdə, mülkiyyətçisi olmayan və ya mülkiyyətçisi bəlli olmayan, yaxud əvvəlki mülkiyyətçisinin sahibliyə xitam verməklə mülkiyyət hüququnu itirdiyi maddi predmetlər başa düşülür. Şəxs mülkiyyətçisi olmayan əmlaka, mülkiyyətçisi naməlum olan əmlaka, yaxud mülkiyyətçinin imtina etdiyi və ya mülkiyyət hüququnu itirdiyi əmlaka qanunda nəzərdə tutulmuş digər əsaslarla mülkiyyət hüququ əldə edə bilər (MM-in 181-ci maddəsinin 7-ci bəndi).

Sahibsiz əmlak **ümumiləşdirilmiş anlayışdır**. Bu anlayışa daxildir: mülkiyyətçi tərəfindən atılmış əmlak; tapıntı[2]; nəzarətsiz heyvanlar (mal-qara); dəfinə. Bunlara uyğun olaraq sahibsiz əmlak dedikdə, atılmış əmlak, itirilmiş əmlak (tapıntı), nəzarətsiz əmlak (nəzarətsiz heyvanlar) və qəsdən gizlədilmiş əmlak (dəfinə) başa düşülür.

Azərbaycan Respublikasının 1964-cü il MM-inin 136-cı maddəsi mülkiyyətçisi olmayan və ya mülkiyyətçisi məlum olmayan əmlak (sahibsiz əmlak) barədə məsələyə aid olsa da, qanunvericilik belə əmlakın hüquqi vəziyyətini müəyyən etmirdi. **Dövlət mülkiyyəti prezumpsiyası müəyyənləşdirilmişdi**. Bu prezumpsiyaya görə, əmlakın başqa şəxsə məxsus olması sübut edilməsə idi,

[1] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. М., 2000, с. 159.
[2] Bu barədə başqa fikir də söylənilir. Prof. M.Q.Maseyeviçə görə, tapıntı sahibsiz əmlak hesab edilmir. Onun fikrincə, imkan dairəsində tapıntı mülkiyyətçiyə və ya onu itirən digər şəxsə qaytarılmalıdır (bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Отв. ред. *О.Н.Садиков*. М., 1999, с. 451). Tapıntını sahibsiz əmlaka şamil edən müəlliflərdən biri də Y.A.Suxanovdur (bax: Гражданское право. Учебник / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 497 (fəslin müəllifi *Y.A.Suxanovdur*). Onun bu barədəki fikrini bir o qədər də əsaslı hesab etmək olmaz. Ümumiyyətlə, əslində tapıntını sahibsiz əmlak növlərinə aid etmək olmaz. Çünki bu, sahibsiz əmlak anlayışına uyğun gəlmir.

həmin əmlak dövlət mülkiyyətinə keçirdi, yəni əksi sübut olunana kimi sahibsiz əmlak dövlət mülkiyyəti sayılırdı. Azərbaycan Respublikasının yeni MM-i sahibsiz daşınar **əmlakı sahibliyə qəbul edən şəxsin mülkiyyət hüququ prezumpsiyası haqqında qayda** müəyyən edir. Şəxs sahibsiz daşınar əşyanı sahibliyə qəbul etdikdə, həmin əşyaya mülkiyyət hüququ əldə edir (MM-in 184-cü maddəsinin 1-ci bəndi). Bununla da dövlət mülkiyyəti prezumpsiyası haqqında müddəa əhəmiyyətini itirir. Ona görə ki, bu müddəa mülkiyyətin heç bir növünə üstünlük verilməməsi, bütün mülkiyyət formalarının bərabər olması barədə Konstitusiyanın müəyyən etdiyi qayda ilə ziddiyyət təşkil edir.

Sahibsiz əmlak bu və ya digər hüquqi fakta görə subyekti olmayan əmlakdır. Belə əmlak həm daşınmaz, həm də daşınar əmlak növündə ola bilər. Sahibsiz daşınmaz əmlak dövlətə məxsusdur (MM-in 178-ci maddəsinin 7-ci bəndi). Sahibsiz daşınar əmlaka isə mülkiyyət hüququnu həmin əmlakı sahibliyə qəbul edən şəxs əldə edir (MM-in 184-cü maddəsinin 1-ci bəndi). Bunun üçün qanun iki şərt müəyyən edir. Birincisi, **sahibsiz əmlakın mülkiyyət hüququ əldə edən şəxsin sahibliyinə qəbul edilməsi qanunla qadağan edilməməlidir**. Həmin əmlak dövlət təhlükəsizliyi, ictimai təhlükəsizlik mülahizələrinə və beynəlxalq öhdəliklərə görə vətəndaşa məxsus ola bilməyən əmlak növünə daxil edilə bilməz. Başqa sözlə desək, həmin əmlak mülki dövriyyə qabiliyyətli olmalıdır. İkincisi, sahibsiz əmlaka mülkiyyət hüququnun əldə edilməsi **həmin əmlakı sahibliyə qəbul etmək hüququna malik olan digər şəxslərin hüquqlarını pozmamalıdır**. Almaniya Mülki Qanunnaməsində (§ 958) sahibsiz daşınar əmlaka yiyələnməklə, onu sahibliyə qəbul etməklə yuxarıda göstərilən iki şərt əsasında həmin əmlaka mülkiyyət hüququnun əldə edilməsi üsulu ifadə edilmişdir ki, bu üsul Azərbaycan Respublikasının MM-ində də nəzərdə tutulmuşdur[1]. Bu üsul Çexiyanın, İsveçrənin, Polşanın və digər ölkələrin qanunvericiliyinə də məlumdur. Yaponiya qanunvericiliyinə görə, sahibsiz daşınar əşyanı ələ keçirən və mülkiyyətçi olmaq niyyətində olan hər bir şəxs sahiblik əsasında həmin əşyaya mülkiyyət hüququ əldə edə bilər (MM-in 239-cu maddəsinin 1-ci bəndi). Sahibsiz daşınmaz əşyalara gəldikdə isə belə əşyalar dövlət xəzinəsinə aid edilir və sahibliyin predmeti ola bilməz (Yaponiya MM-inin 239-cu maddəsinin 2-ci bəndi)[2].

Sahibsiz mədəniyyət sərvətləri qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət mülkiyyətinə daxil edilir («Mədəniyyət haqqında» qanunun 36-cı maddəsi)[3].

7. Mülkiyyətçinin imtina etdiyi daşınar əşyaya mülkiyyət hüququnun əldə edilməsi

Mülkiyyətçinin imtina etdiyi daşınar əşya sahibsiz əşya anlayışına daxildir. Belə əşya atılmış əşya adlanır. Roma hüququ dövründə mülkiyyətçi tərəfindən atılmış əşyanın rejimi haqqında məsələnin tənzimlənməsinə xüsusi əhəmiyyət verilirdi. Bu qəbildən olan əşyaları Roma hüququ «res derelictae» anlayışı ilə əhatə etdirdi. «Res derelictae»ni tapan şəxsin dərhal ona mülkiyyət hüququ yaranırdı[1]. Mülkiyyət hüququnun əldə edilməsinin bu üsuluna **dereliksiya** (derelicsia) deyilirdi. Dereliksiya konstruksiyasını bəzi xarici ölkələrin, məsələn, Almaniyanın qanunvericiliyi də tanıyır[2].

Atılmış əşyaya MM-in 185-ci maddəsində anlayış verilmişdir. Mülkiyyət hüququndan imtina etmək məqsədilə mülkiyyətçinin atdığı və ya digər qaydada əl çəkdiyi daşınar əşyaya **atılmış əşya** deyilir. Əşyadan imtina etmək özlüyündə mülkiyyət hüququnun, başqa sözlə desək, mülkiyyətçinin əşya barəsində hüquq və vəzifələrinin xitam edilməsinə səbəb olmur. Yalnız hər hansı bir şəxs əşyaya mülkiyyət hüququ əldə etdikdə, mülkiyyətçinin imtina etdiyi əşyaya mülkiyyət hüququna xitam verilir (MM-in 203-cü maddəsinin 2-ci bəndi). Prinsip etibarilə mülkiyyətçi əşyanı atmaqla, onu taleyin hökmünə buraxır. Bu, ətrafdakılar üçün təhlükə törədə, ətraf mühitə mühüm ziyan vura bilər. Odur ki, mülkiyyətçinin atılmış əşya barəsində hüquq və vəzifələri həmin əşya başqa şəxs tərəfindən ələ keçirilənə və öz mülkiyyətinə yönəldilənə kimi ləğv olunmur.

Mülkiyyətçi tərəfindən atılmış əmlak sahibsiz əşya hesab olunur və həmin əmlakı ələ keçirən, ona yiyəlik edən istənilən şəxs mülkiyyət hüququ əldə edir[3]. Məsələn, hər hansı şəxs öz köhnə divar saatını zibilxanaya atır; digər şəxs isə həmin saatı götürür və onun mülkiyyətçisi olur. Bu kimi hallarda mülkiyyətçi öz mülkiyyət hüququndan onu heç kəsə vermədən – sözün hərfi mənasında imtina edir[4]. Atılmış əmlak belə bir cəhətlə xarakterizə olunur ki, mülkiyyətçinin həmin əmlakı öz təsərrüfatında saxlamaq niyyəti yoxdur; bu niyyət aydın şəkildə, aşkar surətdə olmalıdır.

MM-in 185-ci maddəsinə görə, mülkiyyətçi tərəfindən atılmış əşyaya başqa şəxslər mülkiyyət hüququ əldə edir. Həmin maddədə atılmış əşyaya mülkiyyət hüququnun əldə edilməsi qaydaları nəzərdə tutulmuşdur. Bu qaydalar əşyanın qiymətindən asılı olaraq iki cür olur: qiyməti az olan və ya tullantılardan ibarət olan atılmış əşyaya mülkiyyət hüququnun əldə edilməsi qaydası (MM-in 185-ci maddəsinin 2-ci bəndi); digər atılmış (qiyməti nisbətən baha) əşyalara mülkiyyət hüququnun əldə edilməsi qaydası (həmin maddənin 3-cü bəndi).

Birinci qaydanın mahiyyəti ondan ibarətdir ki, atılmış əşyaya mülkiyyət hüququnu mülkiyyətində, sahibliyində və ya istifadəsində torpaq sahəsi, sututarı və ya başqa obyekt olan, habelə həmin obyektlərdə atılmış əşyanı aşkar və müəyyən edən şəxs əldə edir. Bunun üçün qanun bir neçə şərt müəyyən edir: atılmış əşyanın dəyərinin şərti maliyyə vahidinin 50 mislindən açıq-aşkar aşağı olması, yaxud atılmış əşyanın metal qırıntılarından, zay məhsuldan, istehsalat tullantılardan ibarət olması; atılmış əşyanı müəyyən edən şəxsin əşyadan istifadə etməyə başlaması və ya əşyanın mülkiyyətə qəbul edilməsini sübut edən digər hərəkətlər etməsi (bu hərəkətlər şəxsin əşyaya sahiblik niyyətini nümayiş etdirir). Bu qayda **əmlaka yiyələnmə** və ya **əmlakı ələ keçirmə (okkupasiya) yolu** adlanır.

---

[1] bax: Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 240; Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 185.

[3] bax: AR QK, V cild, s. 268.

[1] *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 396.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 115.

[3] Bax: *Ласк Г.* Гражданское право США. М., 1961, с. 468.

[4] Bax: *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 89; *Иоффе О.С.* Советское гражданское право. М., 1967, с. 383.

İkinci qaydanın mahiyyəti ondan ibarətdir ki, qiyməti şərti maliyyə vahidinin 50 mislindən yuxarı, nisbətən baha olan digər atılmış əşyaya mülkiyyət hüququ yalnız məhkəmə qərarı əsasında əldə edilir. Belə halda atılmış əşyanı müəyyən edən şəxs əvvəlcə əşyaya sahiblik etməyə başlayır. Bundan sonra o, atılmış əşyanın sahibsiz hesab edilməsi üçün məhkəməyə ərizə verir. Məhkəmə qərarı əşyaya mülkiyyət hüququ əldə edilməsi üçün əsasdır. Daşınar atılmış əmlakın sahibsiz hesab edilməsi barədə məhkəmə qərarı xüsusi icraat qaydasında çıxarılır (MPM-in 34-cü fəsli). Bəzən əmlak zibilxanaya və ya lazımsız əşyaların saxlanması üçün xüsusi olaraq ayrılmış yerlərə atılır. Bu kimi hallarda atılmış əmlaka mülkiyyət hüququ yiyələnmə (okkupasiya) yolu ilə, məhkəmə qərarı olmadan əldə edilir; çünki belə yerlərə atılmış əmlaka mülkiyyət hüququ barədə məhkəmə qaydasında mübahisə etməyin əsası və perspektivi yoxdur.

8. Tapıntı

Tapıntı sahibsiz əmlakın bir növüdür. Tapıntının hüquqi rejimi MM-in 186-cı maddəsində müəyyən edilir.

Tapıntı dünyanın bir çox ölkələrinin qanunvericiliyində (məsələn, Almaniyanın, İtaliyanın, İsveçrənin və digər ölkələrin qanunvericiliyində) mülkiyyət hüququnun əldə edilməsi üsullarından biri kimi nəzərdə tutulur. Məsələn, Almaniya Mülki Qanunnaməsinə görə (§973), itmiş əşyanı tapıb götürən şəxs dərhal mülkiyyətçi də daxil olmaqla bütün səlahiyyətli şəxslərə və ya polisə xəbər verir. Polisə xəbər vermə ərizə ilə rəsmiləşdirilir. Polis İdarəsinə tapıntı barədə ərizə daxil olduğu vaxtdan bir il keçdikdən sonra əşyanı tapan şəxsin həmin əşyaya mülkiyyət hüququ yaranır[1]. Yaponiya qanunvericiliyinə görə əşyanı tapan şəxsin borcudur ki, bu barədə dərhal polisə xəbər versin. Əgər əşyanın mülkiyyətçisi müəyyənləşdirilərsə, onda əşya mülkiyyətçiyə verilir. Altı ay müddəti ərzində mülkiyyətçi müəyyən olunmazsa, əşyanı tapan şəxsin bu əşyaya mülkiyyət hüququ əmələ gəlir (Yaponiya MM-inin 240-cı maddəsi)[2]. ABŞ mülki hüququnda tapıntıya itirilmiş əmlak deyilir.

İtaliya qanununa görə, itmiş əşyanı tapan şəxs bu barədə mətbuatda məlumat verməlidir. Məlumat dərc edildiyi vaxtdan bir il müddətində əşyanı itirən şəxs (mülkiyyətçi) tapılmadıqda, həmin əşya onu tapan şəxsin mülkiyyətinə keçir. İsveçrə Mülki Məcəlləsinə görə, tapıntı mülkiyyət hüququnun əmələ gəlməsinin əsas üsulu kimi müəyyən edilir[3].

Hüquq ədəbiyyatında verilən anlayışa görə, **tapıntı** dedikdə, itirilmə nəticəsində əşyanın mülkiyyətçisinin və ya ona sahiblik hüququ olan digər səlahiyyətli şəxslərin iradəsindən asılı olmadan onların sahibliyindən çıxan və hər hansı bir şəxs tərəfindən aşkar edilən əşya başa düşülür[4]. Tapıntı dedikdə, mülkiyyətçinin və sahibliyi həyata keçirən digər şəxslərin itirdiyi, hər hansı bir kimsənin tapdığı əşya başa düşülür[1]. Əşyanın mülkiyyətçi tərəfindən itirilməsi və onun digər şəxs tərəfindən tapılması **təsadüfilik xüsusiyyəti** ilə şərtlənir. Belə ki, sahibi əşyanı təsadüfən itirir və ya şəxs itirilmiş əşyanı təsadüfən tapır. Belə halda mülkiyyətçi və əşyanı tapan şəxs qabaqcadan düşünülmüş heç bir niyyət güdmür və bilə-bilə qəsdən edilən hər hansı hərəkətə yol vermirlər. Digər tərəfdən aşkar edilmiş əşyanı tapıntı hesab etmək üçün həm də tələb olunur ki, həmin əşya mülkiyyətçinin sahibliyindən onun iradəsindən asılı olmadan çıxsın. Məhz bu cəhət tapıntını sahibsiz əmlakdan fərqləndirməyə imkan verir. Belə ki, əgər mülkiyyətçinin sahibliyindən əşya onun iradəsi ilə çıxarsa (məsələn, mülkiyyətçi əmlaka mülkiyyət hüququndan imtina edərsə), onda həmin əşya tapıntı yox, sahibsiz əmlak hesab edilir[2]. Lakin buna baxmayaraq tapıntını (itirilmiş əşyanı) sahibsiz əmlak anlayışına aid etmək olar[3].

İtirilmiş əşyanı tapan şəxs avtomatik olaraq həmin əşyanın mülkiyyətçisi olmur. MM-in 186-cı maddəsi itirilmiş əşyanı tapan şəxsin vəzifəsini müəyyən edir. O, tapıntı barədə əşyanı itirmiş şəxsə, əşyanın mülkiyyətçisinə və ya əşyaya sahiblik hüququna malik olan digər səlahiyyətli şəxsə (məsələn, kirayəçiyə, daşıyıcıya, podratçıya, saxlayıcıya və s.) **dərhal xəbər verməli və əşyanı onlara qaytarmalıdır**. Əgər mülkiyyətçi və ya başqa şəxslər məlum deyilsə, **tapıntı barədə polisə dərhal məlumat verilməlidir**.

İtmiş əşyanı tapan şəxsin tapıntı barədə polisə məlumat verdiyi vaxtdan bir il müddətində əşyanı itirən şəxs tapıldıqda, əşya ona qaytarılır. Həmin müddət ərzində itirilən əşyanın mülkiyyətçisi olan şəxs tapılmadıqda isə əşyanı tapanın ona mülkiyyət hüququ əmələ gəlir. Bununla əşya onu tapanın xüsusi mülkiyyətinə keçir. Tapıntıya mülkiyyət hüququnun əmələ gəlməsi ilə əşyanı itirən şəxsin (mülkiyyətçinin) mülkiyyət hüququna xitam verilir. Belə təsəvvür yaranır ki, bir illik müddətin keçməsi əşyanı itirənin (əvvəlki mülkiyyətçinin) mülkiyyət hüququna xitam verilməsinə və əşyanı tapanın (yeni mülkiyyətçinin) mülkiyyət hüququ əldə etməsinə əsas olan hüquqi fakt rolunu oynayır. İtirilmiş əmlak bu fakt nəticəsində onu tapan istənilən şəxsin mülkiyyətinə keçir; əgər itirilmiş əmlakı tapan şəxs həmin əmlakın mülkiyyətçisinin kim olmasını bilirsə və mülkiyyətçiyə qaytarmayaraq onu istifadə etmək məqsədi ilə ələ keçirərsə, həmin şəxs oğurluq etməkdə təqsirli bilinir[4]. Elə hallar da olur ki, əşyanı tapan şəxs əşyaya mülkiyyət hüququ əldə etməkdən imtina edir. Belə halda tapıntı haqqında məlumat alan səlahiyyətli orqan əşyanı hərrac yolu ilə satır. Əşyanın satılması əşya barədə məlumatın verildiyi vaxtdan bir illik müddət keçdikdən sonra həyata keçirilir. Tapıntının hərrac yolu ilə satılmasından əldə edilən pul səlahiyyətli orqanın hesabına daxil olur. Tapıntı bahalı əşya olmazsa, onun hüquqi taleyi və aqibəti iki yolla həll edilir: əşyanın əvəzsiz qaydada haqq alınmadan özgəninkiləşdirilməsi; əşyanın məhv edilməsi.

---

[1] Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 240; Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми:* Гражданское право Японии. Книга 1. М., 1983, с. 185.

[3] yenə orada, s. 243, с. 245.

[4] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 355; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И. Цыбуленко.* М., 1998, с. 270; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 276.

[1] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации части первой / Ответственный ред. *О.Н.Садиков.* М., 1999, с. 451.

[2] Иоффе О.С. Советское гражданское право. М., 1967, с. 383.

[3] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 135.

[4] Bax: *Ласк Г.* Гражданское право США. М., 1961, с. 469.

Tapıntı onun barəsində məlumat alındığı vaxtdan bir illik müddət keçmədən də özgəninkiləşdirilə bilər. Bu aşağıdakı hallarda mümkün ola bilər: tapıntının predmeti heyvan olduqda; tapıntı tez xarab olan əşyadan ibarət olduqda; tapıntının saxlanması çox xərc tələb etdikdə. Belə hallarda tapıntı əvəzli qaydada özgəninkiləşdirilir və əldə edilən haqq mülkiyyətçiyə qaytarılır.

Yeni MM köhnə MM-dən fərqli olaraq, itmiş əşyanı tapana ixtiyar verir ki, o, əşyanı qaytararkən həmin əşyanı qəbul etmək səlahiyyəti olan şəxsdən (əşyanı itirmiş mülkiyyətçidən, əşyaya sahiblik hüququ olan şəxslərdən və s.) mükafat tələb etsin. Mükafatın məbləği tapılmış əşyanın dəyərinin beş faizinədək ola bilər (Yaponiya qanunvericiliyinə görə isə pul mükafatının məbləği əşyanın dəyərinin 5%-dən 20%-nə qədər müəyyən edilir). Bundan əlavə, əşyanı tapan şəxs səlahiyyətli şəxsdən digər xərclərin ödənilməsini tələb etmək hüququna malikdir. Belə xərclərə aiddir: əşyanın səlahiyyətli şəxsin olduğu yerdə təhvil verilməsi ilə əlaqədar olan xərclər (yol pulu, daşıma haqqı və s.); əşyanın saxlanılmasına çəkilən xərclər (məsələn, tapıntı heyvan olarsa, onun yemlənməsinə və bəslənməsinə və ya baytar müayinəsinə çəkilən xərclər); səlahiyyətli şəxsin axtarışı ilə bağlı olan xərclər; əşyanın realizə edilməsi (satışı) ilə çəkilən xərclər.

Qanun iki hal (şərt) mövcud olduqda əşyanı tapan şəxsi mükafat almaq hüququndan məhrum edir: birincisi, itmiş əşyanı tapan şəxsin vəzifəsi bu barədə əşyanı itirənə dərhal xəbər verməkdən və əşyanı ona qaytarmaqdan, əgər bu, mümkün olmazsa, tapıntı haqqında polisə məlumat verməkdən ibarətdir. Bu vəzifə imperativ xarakterə malikdir. Həmin vəzifənin yerinə yetirilməməsi əşyanı tapan şəxsi mükafat almaq hüququndan məhrum edir. İkincisi, əşyanı tapan şəxs onu gizlətməyə cəhd göstərərsə, mükafat almaq hüququnu itirir.

Torpaqdan və su altından, binalardan, tikintilərdən, təbii obyektlərdən tapılmış mədəniyyət sərvətləri dövlət mülkiyyətinə daxil edilir («Mədəniyyət haqqında» qanunun 36-cı maddəsi)[1].

9. Dəfinə

Mülkiyyət hüququnun əldə edilməsinin ilkin üsulu kimi dəfinəni Roma hüququ da tanıyırdı. Roma hüququ dəfinəni «thesaurus» anlayışı ilə əhatə edirdi. Dəfinə dedikdə, çoxdan bəri, xeyli müddət hər hansı yerdə gizlədilmiş istənilən qiymətli əşya başa düşülürdü. Dəfinə tapıldıqda, onun mülkiyyətçisini müəyyənləşdirmək mümkün olmurdu[2].

Dəfinə mülkiyyət hüququnun əldə edilməsi üsulu kimi bir sıra müasir xarici ölkə qanunvericiliyinə məlumdur. İsveçrə Mülki Məcəlləsi dəfinəni mülkiyyət hüququnun əmələ gəlməsinin əsas üsullarından biri kimi xarakterizə edir[3]. İtaliya Mülki Məcəlləsinə görə, dəfinə dedikdə, gizlədilmiş və ya torpağa basdırılmış elə qiymətli əşya başa düşülür ki, heç kəs bu əşyaya olan hüquqlarını sübut edə bilmir. Dəfinə onun tapıldığı daşınmaz əmlakın (tikili və ya sahənin) mülkiyyətçisinə məxsusdur[1]. Əgər dəfinə şəxsin sahəsində təsadüfən aşkar edilərsə, onda dəfinə onu tapanla dəfinənin müəyyən edildiyi sahəsinin mülkiyyətçisi arasında bərabər qaydada bölünür. Yaponiya qanunvericiliyinə görə, dəfinəyə mülkiyyət hüququ tapıntıya mülkiyyət hüququnun əmələ gəldiyi eyni (analoji) qaydada əldə edilir (Yaponiya MM-inin 241-ci maddəsi).

Dəfinənin hüquqi rejimi MM-in 187-ci maddəsində nəzərdə tutulmuşdur. Dəfinə haqqında qayda müəyyən edən bu maddə dəfinəyə anlayış verir. Həmin maddəyə görə, **dəfinə** dedikdə, torpağa basdırılmış və ya başqa üsullarla gizlədilmiş mülkiyyətçisini müəyyənləşdirmək mümkün olmayan pul və ya digər qiymətli əşyalar başa düşülür. Belə təsəvvür yaranır ki, bilə-bilə qəsdən gizlədilən hər hansı əmlak dəfinə sayıla bilməz. Yalnız pul, yəni qızıl və gümüş sikkələr, Azərbaycan Respublikasının milli valyutası və xarici valyuta, habelə qiymətli predmetlər, yəni külçə, məmulat və parça halında olan qiymətli daşlar, təbii daş-qaşlar (almaz, yaqut, zümrüd, sapfir, aleksandrit), mirvari, metallar (qızıl, gümüş, platin və platin qrupundan olan metallar) dəfinə hesab edilə bilər. Bununla dəfinə tapıntıdan fərqlənir. Belə ki, hər hansı bir predmet tapıntı sayıla bilər. Digər tərəfdən dəfinənin tapıntıdan fərqli olaraq mülkiyyətçisi olmur. Bundan əlavə, tapıntı mülkiyyətçinin iradəsindən asılı olmadan onun sahibliyindən çıxır. Dəfinə isə pulun və qiymətli predmetin bilərəkdən, qəsdən gizlədilməsi deməkdir. Məsələn, torpağa basdırmaq, evin divarı arasına qoyub hörmək, iri gövdəli ağacın koğuşunda (oyuğunda) gizlətmək və s.

Dəfinəni xarakterizə edən bir neçə əlamət vardır:

- birincisi, dəfinə iri və böyük qiyməti olan sərvətdir;
- ikincisi, dəfinə qəsdən, bilə-bilə gizlədilmiş sərvətdir;
- üçüncüsü, dəfinə mülkiyyətçisi olmayan sərvətdir;
- dördüncüsü, dəfinəyə heç kim özünün mülkiyyət hüququ olmasını sübut edə və təsdiqləyə bilmir[2].

1964-cü il MM-dən (140-cı maddə) fərqli olaraq, yeni MM dəfinənin hüquqi taleyi barədə yeni qayda müəyyən edir. Əgər keçmiş qanunvericiliyə görə, dəfinə dövlət mülkiyyətinə daxil olurdusa, yeni mülki qanunvericilik **dəfinənin iki kateqoriya şəxsin bərabər payda mülkiyyətinə keçməsi qaydasını** nəzərdə tutur. Başqa sözlə desək, MM-in 187-ci maddəsinin 1-ci bəndinə görə, dəfinə, dəfinənin gizlədildiyi əmlakın (torpaq sahəsinin, tikilinin və s.) məxsus olduğu şəxslə dəfinəni tapan şəxs arasında bərabər qaydada bölünür[3]. Bu qayda bəzi xarici ölkələrin müəyyən etdiyi qaydaya uyğun gəlir. Məsələn, Yaponiya qanunvericiliyinə görə, əgər dəfinə başqa şəxsin mülkiyyətində olan əmlakda (torpaq sahəsində, evin divarlarında və s.) aşkar edilərsə, onda dəfinəyə mülkiyyət hüququnu mülkiyyətçi və dəfinəni tapan şəxs bərabər paylarda əldə edirlər (MM-in 241-ci maddəsi). Bununla **iki şəxsin dəfinəyə ümumi paylı mülkiyyət hüququ** yaranır. Bu norma dispozitiv xarakterə malik olduğuna görə dəfinənin bölgüsü barədə onlar arasındakı razılaşmaya görə digər

[1] bax: AR QK, V cild, s. 268.

[2] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 194; *Пухан И., Поленак-Акимовская М.* Римское право. М., 2000, с. 160.

[3] Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 245.

[1] yenə orada, s. 243.

[2] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 135.

[3] Dəfinənin torpağın mülkiyyətçisi ilə onu tapan şəxs arasında bərabər hissələrə bölünməsi qaydasını hələ neçə əsr bundan qabaq Roma hüququ müəyyənləşdirmişdir (bax: *Пухан И., Пленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 160).

qayda da müəyyən edilə bilər. Məsələn, tərəflər razılığa gələ bilərlər ki, dəfinənin 70%-i mülkiyyətçiyə, 30%-i onu tapan şəxsə verilsin və s.

Aşkar edilən dəfinə tarix və ya mədəniyyət abidələrinə aid olduqda, elmi dəyərlərə malik əmlak sayıldıqda, yuxarıda göstərilən qaydadan istisnaya yol verilir və bu barədə xüsusi qayda müəyyən edilir. Bu cür dəfinə dövlət mülkiyyətinə keçir (MM-in 187-ci maddəsinin 3-cü bəndi). «Tarix və mədəniyyət abidələrinin qorunması haqqında» 10 aprel 1998-ci il tarixli qanunun 15-ci maddəsinə görə, dəfinələrdə aşkar edilmiş və ya tapılmış abidələr dövlətə təhvil verilir, habelə dəfinəni aşkar etmiş və əşyanı tapmış şəxs mükafat alır[1]. Mükafatın məbləği dəfinənin dəyərinin əlli faizi miqdarında müəyyən edilir. Mükafat dəfinənin gizlədildiyi torpaq sahəsinin və ya digər əmlakın mülkiyyətçisi ilə dəfinəni aşkar etmiş şəxs arasında bərabər qaydada bölünür (MM-in 187-ci maddəsinin 3-cü bəndi). Bununla onlar **mükafata ümumi paylı mülkiyyət hüququ əldə edirlər**. Göstərilən şəxslər arasındakı razılaşmaya görə mükafatın bölgüsü barədə başqa qayda da müəyyən edilə bilər. **Mükafat dövlət maliyyə orqanları tərəfindən ödənilir**.

Qanunda nəzərdə tutulan halda tarix və mədəniyyət abidələrindən, elmi dəyərlərə malik əmlakdan ibarət olan dəfinəni aşkar etmiş şəxs mükafat almaqdan məhrum edilir. Bu, o vaxt mümkün olur ki, dəfinənin gizlədildiyi əmlakın mülkiyyətçisinin razılığı olmadan həmin şəxs qiymətli şeylərin qazıntısı və ya axtarışı vaxtı dəfinəni aşkar etmiş olsun. Belə halda mükafatın həmisi dəfinənin aşkar edildiyi əmlakın mülkiyyətçisinə çatır və ona ümumi mülkiyyət yaranmır.

Qanunda nəzərdə tutulan halda dəfinəyə ümumi mülkiyyət hüququ yaranmır. Bu, onunla şərtlənir ki, qiymətli şeylərin qazıntısını və ya axtarışını apararkən dəfinə aşkar edən şəxs, bu işləri görən zaman dəfinənin gizlədildiyi torpaq sahəsinin və ya digər əmlakın mülkiyyətçisinin razılığını almır. Belə halda dəfinə onu aşkar edən şəxsin yox, mülkiyyətçinin mülkiyyətinə keçir (MM-in 187-ci maddəsinin 2-ci bəndi).

Ümumi mülkiyyət hüququ qanunda nəzərdə tutulan başqa bir halda da əmələ gəlmir. Əgər dəfinə aşkar etmək üçün qiymətli şeylərin qazıntısı və ya axtarışı şəxsin əmək və ya xidməti vəzifəsinə şamil edilərsə, belə halda tapılmış dəfinə həmin şəxsin mülkiyyətinə keçmir. Məsələn, arxeoloji ekspedisiya iştirakçısı dəfinə aşkar edərsə, dəfinənin bir hissəsi onun mülkiyyətinə daxil olmur.

Dəfinənin qiymətləndirilməsi, mülkiyyətçi ilə dəfinəni aşkar edən şəxs arasında bölüşdürülməsi və digər məsələlərdən yaranan mübahisələr mülki hüquq xarakterinə malikdir. Ona görə də belə mübahisələr məhkəmə qaydasında baxılıb həll edilir.

10. Nəzarətsiz heyvanlar

Nəzarətsiz heyvanın hüquqi rejimi MM-in 192-ci maddəsi ilə müəyyən edilir. Bu maddə nəzarətsiz heyvanlar barədə xüsusi qayda nəzərdə tutur. Bu, onunla izah edilir ki, MM heyvanlara hüququn xüsusi obyekti (sui generis) kimi baxır.

Nəzarətsiz heyvanlara olan mülkiyyət hüququnun əldə edilməsi barədə ümumi qayda tapıntı haqqında qaydaya çox oxşayır. Bununla bərabər, onlar arasında mühüm fərqlər də vardır. Əvvəlcə onu qeyd edək ki, 192-ci maddənin müəyyən etdiyi hüquqi rejim vəhşi heyvanlara (o cümlədən ev şəraitində saxlanılan vəhşi heyvanlara) şamil edilmir. Bu maddənin müəyyən etdiyi qayda yalnız nəzarətsiz və ya özbaşına buraxılmış mal-qaraya, habelə digər nəzarətsiz heyvanlara (ev heyvanlarına, kənd təsərrüfatı heyvanlarına və s.) tətbiq edilir.

Nəzarətsiz heyvan odur ki, həmin heyvan tutulduğu anda heç kəsin təsərrüfatında sayılmır; əgər sürüdən qalarsa, azarsa və ya öz mülkiyyətçisinin təsərrüfatından çıxarsa, belə heyvan nəzarətsiz heyvan sayılır. **Özbaşına buraxılmış heyvan** dedikdə isə tutulan vaxtı hər hansı təsərrüfatda olan heyvan başa düşülür; əgər başqa təsərrüfata məxsus sürüyə və ya ilxıya qatılarsa, belə heyvan özbaşına buraxılmış heyvan hesab olunur. Məsələn, itən qoyun hər hansı bir mülkiyyətçiyə məxsus olan sürüyə qatılır. Belə heyvanlara mülkiyyət hüququ avtomatik olaraq əmələ gəlmir. Nəzarətsiz və ya özbaşına buraxılmış mal-qaranı tutan şəxs, dərhal bu barədə mal-qaranın sahibinə xəbər verməli və mal-qaranı ona qaytarmalıdır. Bu, mal-qaranı tutan şəxsin əsas vəzifəsidir. Mal-qaranı tutanın digər vəzifəsi ondan ibarətdir ki, əgər heyvanların mülkiyyətçisi və ya mülkiyyətçinin olduğu yer naməlum olarsa, o, mal-qara tutulduğu andan üç gündən gec olmayaraq heyvanlar barədə polisə xəbər verməyə borcludur. Polis mal-qara sahibinin axtarılması üçün tədbirlər görür. Axtarış müddətində mal-qara saxlanmaq və istifadə olunmaq üçün ya heyvanları tutanda qalır, ya da onun xahişi ilə mal-qara, heyvanları saxlamaq üçün lazımi şəraiti olan digər şəxsə verilir.

MM-in 192-ci maddəsinin 3-cü bəndi nəzarətsiz heyvanları tapıb özündə saxlayan şəxsin, habelə saxlanmaq və istifadə olunmaq üçün heyvanların verildiyi şəxsin vəzifəsini müəyyən edir. Həmin şəxslər heyvanları lazımi qaydada saxlamağa borcludurlar. Həmin şəxslərin heyvanların tələf olmasında təqsiri olarsa, onlar **heyvanların dəyəri həddində məsuliyyət daşıyırlar**.

Nəzarətsiz heyvanların tutulması barədə xəbər verildiyi gündən altı ay müddətində heyvanların sahibi gəlib çıxarsa, heyvanlar ona qaytarılır. Belə halda mal-qaranın mülkiyyətçisi heyvanları saxlayan tərəfindən mal-qaranın saxlanılması ilə əlaqədar olaraq çəkilən xərcləri ödəyir. Mülkiyyətçi çəkilən zəruri xərc məbləğindən mal-qaradan götürülmüş mənfəəti çıxır. Bundan əlavə, o, mal-qaranı tutan şəxsə tutulan mal-qaranın dəyərinin beş faizinədək məbləğdə mükafat verir.

Göstərilən **altı ay müddəti keçdikdən sonra mülkiyyətçi aşkar edilməzsə** və ya özü heyvanlar barəsində hüquqlarını bildirməzsə, mülkiyyətçi mal-qaraya olan mülkiyyət hüququnu itirir (odur ki, altı aylıq müddət preklyuziv müddət sayılır). Belə halda **heyvanlar mal-qaranı saxlayan və onlardan istifadə edən şəxsin əvəzsiz olaraq mülkiyyətinə keçir**. O, mal-qaraya mülkiyyət hüququ əldə edir. Həmin şəxs saxladığı heyvanların öz mülkiyyətinə daxil edilməsindən imtina etdikdə, **mal-qara əvəzsiz olaraq dövlətin mülkiyyətinə keçir**.

[1] AR QK, V cild, s. 361. Bu qayda Yaponiya qanunvericiliyinə uyğundur. Belə ki, bu ölkənin mülki qanunvericiliyinə görə aşkar edilən dəfinə mədəni sərvət olarsa, həmin sərvətə olan mülkiyyət hüququ dövlət xəzinəsinə keçir, dəfinəni tapan şəxs və mülkiyyətçi isə pul mükafatı alır (*Сакаэ Вагацума, Тору Арииздуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 185).

Qanun altı ay müddəti keçdikdən və heyvanları saxlayan şəxsin heyvanlara mülkiyyət hüququ əldə etdiyi vaxtdan sonra da onların əvvəlki mülkiyyətçisinə qaytarılmasının mümkünlüyü qaydasını müəyyən edir (MM-in 192-ci maddəsinin 5-ci bəndi). Əvvəlki mülkiyyətçi heyvanın qaytarılmasını tələb edə bilər, bu şərtlə ki, mülkiyyətçi heyvanın ona bağlılığını sübut edən dəlillər gətirsin. Heyvanın qaytarılması şərtləri tərəflərin sazişi (razılığı) ilə müəyyən edilir. Əgər mal-qaranın qaytarılması şərtləri barədə mübahisə yaranarsa, məsələ məhkəmə qaydasında həll edilir. Əgər heyvan əvvəlki mülkiyyətçiyə qaytarılarsa, o, mülkiyyət hüququ əldə edir; yeni mülkiyyətçi isə mülkiyyət hüququnu itirir.

11. Kooperativ mənzil, bağ, qaraj və digər tikililərə mülkiyyət hüququnun əldə edilməsi

Kooperativ əmlakı (bağ, mənzil, qaraj və digər başqa bina və ya tikili) üzərində mülkiyyət hüququnun əldə edilməsi üsulu MM-in 178-ci maddəsinin 8-ci bəndində nəzərdə tutulmuşdur. Bu maddəyə görə, mənzil, bağ, qaraj kooperativinin və ya digər kooperativin üzvü, habelə pay yığımına hüququ olan digər şəxslər onların istifadəsinə verilmiş mənzil, bağ, qaraj və ya başqa bina və ya tikili üçün **özünün pay haqqını tamamilə verdikdən sonra bu əmlak üzərində mülkiyyət hüququ qazanır**. Göstərilən həmin qayda «Mülkiyyət haqqında» qanunun 21-ci maddəsinin 3-cü bəndində də ifadə edilmişdi[1].

Bəzi müəlliflər mülkiyyət hüququnun əmələ gəlməsinin bu üsulunu ilkin üsul hesab edirlər[2]. Digər müəlliflər isə mülkiyyət hüququnun əldə edilməsinin göstərilən üsulunu törəmə üsula şamil edirlər[3]. Bizim fikrimizcə, ikinci qrup alimlərin mövqeyi daha əsaslı və inandırıcıdır. Belə ki, mənzil, bağ, qaraj və digər binalar və ya tikililər kooperativin mülkiyyətinə daxil olan əmlakdır. Həmin əmlak kooperativ üzvü, habelə pay yığımına hüququ olan digər şəxslər tərəfindən pay haqqı tamamilə ödənildikdən sonra onların mülkiyyətinə keçir. Belə halda, mahiyyətcə, **əmlak məcburi surətdə alınır[4], kooperativin mülkiyyətindən vətəndaşların mülkiyyətinə keçir**. Burada mülkiyyət hüququnun kooperativdən vətəndaşlara keçməsi hüquqi varisliyə əsaslanır. Bu isə göstərilən üsulun mülkiyyət hüququnun əldə edilməsinin ilkin yox, törəmə üsuluna aid edilməsinə əsas verir.

Hüquq ədəbiyyatında bəzi müəlliflər kooperativin mülkiyyətində olan əmlaka (mənzilə, bağa, qaraja və s.) mülkiyyət hüququnun əmələ gəlməsi üsulunu xüsusi üsul hesab edirlər[5]. Müəlliflərdən bəziləri isə göstərirlər ki, bu üsulun mülkiyyət hüququnun əldə edilməsinin xüsusi üsuluna aid edilməsinə heç bir

[1] bax: AR QK, I cild, s. 155.

[2] Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 273-274.

[3] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Отв. ред. *О.Н.Садиков.* М., 1999, с. 438; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 239.

[4] bax: *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 352; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 495.

[5] bax: Комментарий части первой ГК РФ для предпринимателей. М., 1995, с. 240; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 279; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 494.

əsas yoxdur[1]. Bizim fikrimizcə, göstərilən üsulu mülkiyyət hüququnun əmələ gəlməsinin xüsusi üsuluna müncər edən alimlərin fikrində daha çox həqiqət çalarları var. Belə ki, kooperativin əmlakı üzərində **yalnız məhdud, xüsusi dairə və kateqoriya subyektlər — özünün pay haqqını tam ödəyən kooperativ üzvləri mülkiyyət hüququ qazanırlar**. Kooperativin əmlakına mülkiyyət hüququ əldə edən kooperativ üzvü və ya onun vərəsəsi mülkiyyətçi kimi müqavilə əsasında həmin əmlakı özgəninkiləşdirmək (satmaq, bağışlamaq və s.) yolu ilə digər hər hansı vətəndaşın mülkiyyətinə verə bilər. Bunun üçün yeni mülkiyyətçi olan vətəndaş ərizə verməklə müvafiq kooperativin üzvlüyünə qəbul edilir. Bu isə mülkiyyət hüququnun əldə edilməsinin ümumi üsuludur.

Kooperativin mənzilləri kooperativ üzvlərinin mülkiyyətinə keçdikdən sonra onun mülkiyyətində lift, zirzəmilər, çardaq və s. əmlak növləri qalır. Bundan sonra kooperativ vətəndaşların həmin əmlak növlərinin istismarını birgə həyata keçirən birliyinə çevrilir.

12. Əldə etmə müddəti

Əldə etmə üsulu ilə mülkiyyət hüququnun əldə edilməsi qədim Roma hüququ ilə bağlıdır. Roma hüququ bu üsulu «usucapio» adlandırırdı[2]. Roma hüququ əldə etmə müddəti institutunu ona görə yaratmışdı ki, hər hansı əşyaya mülkiyyət hüququ həmişəlik və ya müəyyən müddətə naməlum qalmasın[3].

Əldə etmə müddəti institutu Azərbaycan Respublikasının MM-də yeni anlayışdır. Sovet dövrünün mülki məcəllələri belə institutu tanımırdı. Bir çox xarici ölkələrin qanunvericiliyində — Almaniyanın, İtaliyanın, İsveçrənin, Çexiyanın, Macarıstanın, Bolqarıstanın və digər ölkələrin normativ aktlarında əldə etmə müddəti mülkiyyət hüququnun əmələ gəlməsinin üsullarından biri kimi nəzərdə tutulur[4]. Məsələn, Almaniya Mülki Qanunnaməsinin 937-ci paraqrafına görə, on il müddətinə əşyaya mülkiyyət hüququ əsasında vicdanla sahiblik edən və mülkiyyətçi olmayan şəxs ona mülkiyyət hüququ əldə edir[5]. Həmin Mülki Qanunnamənin 937-945-ci paraqrafları əldə etmə müddəti üsulu ilə mülkiyyət hüququnun əmələ gəlməsi üzrə münasibətləri tənzimləyir. Əldə etmə müddəti konstruksiyası Yaponiya qanunvericiliyinə də məlumdur. Bu qanunvericiliyə görə, yalnız müəyyən şərtlər mövcud olduqda əldə etmə üsulu əsasında mülkiyyət hüququ əldə edilə bilər: birincisi, daşınmaz əşyanın mülkiyyətçisi olmaq niyyəti; ikincisi, daşınmaz əşyaya dinc və açıq sahiblik edilməsi; üçüncüsü, on il müddətin ötməsi[6].

Əldə etmə müddəti institutunun əsas təyinatı və məqsədi mövcud olan

[1] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 239.

[2] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 202.

[3] *Пухан И., Поленак-Акимовская М.* Римское право. М., 2000, с. 153.

[4] Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 227, 233, 237 və s.

[5] bax: *Шапп Ян.* Основы гражданского права Германии. Учебник. М., 1996; Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

[6] bax: *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 156.

faktiki münasibətlərə hüquqi əhəmiyyət verməkdən, hüquqda və mülki dövriyyədə sabitliyi, dayanıqlığı və möhkəmliyi təmin etməkdən ibarətdir; bu institut mübahisəli əmlakın kimə məxsus olması məsələsinin həllində qeyri-müəyyənliyi aradan qaldırmağa imkan verir. Qeyd etmək lazımdır ki, ayrı-ayrı ölkələrin qanunvericiliyində əldə etmə müddəti üsulu əsasında yaranan mülkiyyət hüququnun obyekti (daşınmaz əşya və ya daşınar əşya) barədə məsələ eyni cür həll olunmur. Məsələn, Fransa qanunvericiliyinə görə, həm daşınar, həm də daşınmaz əşyalara əldə etmə müddəti əsasında mülkiyyət hüququ əldə oluna bilər[1]. İngiltərədə əldə etmə müddəti ilə yalnız daşınmaz əmlaka mülkiyyət hüququnun yaranması mümkündür[2]. Almaniyada və İsveçrədə daşınar əşya əldə etmə müddəti üsulu ilə əmələ gələn mülkiyyət hüququnun yeganə obyektidir. İtaliyada, RF-də, Hollandiyada və Kvebek əyalətində əldə etmə müddəti elə bir üsul sayılır ki, bu üsul əsasında həm daşınar, həm də daşınmaz əşyalara mülkiyyət hüququ əldə olunur[3].

O ki, qaldı Azərbaycan Respublikasının qanunvericiliyinə, qeyd etmək lazımdır ki, bizim ölkə qanunvericiliyi 24 iyun 2005-ci il tarixli qanunla MM-ə dəyişikliklər və əlavələr edilməsinə kimi yalnız daşınmaz əmlaka əldə etmə müddəti ilə mülkiyyət hüququnun əldə edilməsi barədə qayda nəzərdə tuturdu; daşınar əşyalara isə bu üsulla mülkiyyət hüququ əldə oluna bilməzdi. Həmin qanunla MM-ə dəyişikliklər və əlavələr edilməsindən sonra vəziyyət dəyişilmişdir. Belə ki, indi daşınmaz əmlaka əldə etmə müddəti üsulu ilə mülkiyyət hüququ yarana bilməz; çünki qanun göstərirdi ki, sahibsiz daşınmaz əşyaya (yəni mülkiyyət hüququ ilə heç kəsə mənsub olmayan, yəni mülkiyyətçisi olmayan və ya mülkiyyətçisini müəyyənləşdirmək mümkün olmayan daşınmaz əşyaya) 15 il ərzində sahiblik edən şəxs həmin əşyaya mülkiyyət hüququ əldə edir (MM-in 179-cu maddəsinin qüvvədən düşmüş 1-ci bəndi). Qanun başqa bir maddədə isə müəyyən edir ki, sahibsiz daşınmaz əşyalar dövlətə mənsubdur (MM-in 178-ci maddəsinin 7-ci bəndi). Buna görə də, əlbəttə, qanunverici sahibsiz daşınmaz əşyalara əldə etmə müddəti üsulu əsasında mülkiyyət hüququnun yaranmasına yol verə bilməz. İndi bu üsulla yalnız daşınar əşyalara mülkiyyət hüququ əldə edilə bilər.

Əldə etmə müddəti barədə qaydalar MM-in 179-cu maddəsində, habelə 181-ci maddəsinin 4-cü bəndində müəyyən edilmişdir. **Əldə etmə müddəti** mülkiyyət hüququnun yaranmasını şərtləndirən elə bir üsuldur ki, bu üsulla daşınar əmlakın mülkiyyətçisi olmayan fiziki (və ya hüquqi) şəxs beş il müddətində ona öz əmlakı (öz mülkiyyəti) kimi vicdanla və fasiləsiz sahiblik edərsə, həmin şəxs bu əmlaka mülkiyyət hüququ əldə edir. Belə təsəvvür yaranır ki, əldə etmə müddəti yalnız **özgəsinin daşınar əmlakına titulsuz (hüquqi əsası olmayan), yəni faktiki sahiblik halına** şamil edilir. Məsələn, saxlanc müqaviləsinə görə, vətəndaş qonşusunun ona verdiyi əmlakı saxlayır və ya kirayə müqaviləsinə görə, o, qonşusunun daşınar əmlakını (məsələn, nəqliyyat vasitəsini, musiqi alətini, geyim şeylərini və s.) uzun müddətə icarəyə götürür. Göstərilən bu iki halın heç birinə əldə etmə müddəti tətbiq edilmir. Ona görə ki, bu, titul (hüquqi əsası olan) sahiblikdir. Amma daşınar əmlakın mülkiyyətçisi aydın olmayan şəkildə bu əmlakdan imtina edir. Bunun nəticəsində əmlak başqa şəxsin sahibliyinə keçir. Nəzərdə tutulan və tələb edilən şərtlərə əməl olunduqda, həmin şəxs əldə etmə üsulu ilə daşınmaz əşyaya mülkiyyət hüququ əldə edə bilər. Qeyd etməliyik ki, əldə etmə üsulu ilə elə sahibsiz daşınar əşyalara mülkiyyət hüququ yarana bilər ki, həmin əşyaların mülkiyyətçisinin onlara mülkiyyət hüququndan imtina etməsi açıq-aşkar xarakter daşımasın.

Əldə etmə müddəti üsulu ilə mülkiyyət hüququnun əmələ gəlməsinin **subyektləri həm fiziki, həm də hüquqi şəxslər ola bilərlər**. **Dövlətin və bələdiyyələrin** əldə etmə müddətinin subyekti rolunda çıxış etməsi istisna edilmir[1]. Mülki hüququn subyekti kimi tanınan hər hansı bir şəxs əldə etmə üsulu ilə əmlaka mülkiyyət hüququ əldə edə bilər, bu şərtlə ki, **həmin əmlakın əldə edilməsi subyektin hüquq qabiliyyətinə uyğun gəlsin**[2].

Uzun müddətə uzaq xarici ölkələrdən birinə işləməyə gedən vətəndaşın (mülkiyyətçinin) daşınar əmlakı öz qonşusunun əlinə keçir. Qonşu həmin daşınar əmlaka mülkiyyət hüququ əldə edə bilərmi? Bu suala cavab verərək qeyd edirik ki, yalnız tələb olunan şərtlərə əməl olunduqda daşınar əmlaka mülkiyyət hüququnun əmələ gəlməsi mümkündür. Bu şərtlər qanunda nəzərdə tutulur.

Qanun əldə etmə müddəti əsasında mülkiyyət hüququnun əmələ gəlməsi üçün **bir neçə şərt** müəyyən edir[3]. **Birincisi**, yalnız qanunda nəzərdə tutulan **beş il müddəti keçdikdən sonra əmlaka mülkiyyət hüququ əldə edilə bilər**. Hüquqi varislik münasibətləri yaranan hallarda bu müddət necə hesablanır? Belə ki, mülkiyyətçisi olmayan əmlak ona sahiblik edən (əmlaka əvvəlki sahiblik edən) şəxsdən universal hüquqi varislik (məsələn, vərəsəlik üzrə) və ya sinqulyar (məsələn, müqavilə üzrə) hüquqi varislik qaydasında hüquqi varisə keçə bilər. Belə halda əmlaka əvvəlki sahiblik edənin və onun hüquqi varisinin əmlaka sahiblik etdiyi müddətlər toplanır. Başqa sözlə desək, şəxs hüquqi varisi olduğu şəxsin bu əmlaka sahiblik etdiyi bütün müddəti özünün sahiblik etdiyi müddətlə birləşdirə bilər (MM-in 179-cu maddəsinin 2-ci bəndi). Məsələn, ata daşınar əmlaka üç il sahiblik etdikdən sonra ölür. Onun oğlu (vərəsəsi) həmin əmlaka üç il sahiblik edir. Həmin müddətlər toplanır (3 il + 3 il = 6 il). Bu isə onu göstərir ki, mülkiyyət hüququnun əldə edilməsi üçün nəzərdə tutulan şərt göz qabağındadır. Yeri gəlmişkən, qeyd edək ki, beş il müddəti barədə şərt bəzi xarici ölkələrin (məsələn, Rusiya Federasiyasının və s.) qanunvericilik ənənəsinə uyğun gəlir. RF-in qanunvericiliyi daşınmaz əşyalar üçün 15 illik (digər əmlak növləri üçün 5 illik) əldə etmə müddəti nəzərdə tu-

[1] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 139.

[2] Гражданское и торговое право капиталистических стран. Учебное пособие / Отв. ред. *В.П.Мозолин, М.И.Кулагин.* М., 1980, с. 136.

[3] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1. / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров.* М., 2004, с. 363.

[1] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998. с.358; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 279.

[2] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 358.

[3] Y.K.Tolstoy mülkiyyət hüququnun əldə etmə müddəti əsasında əmələ gəlməsi şərtlərini rekvizitlər adlandırır (Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 358).

tur[1]. Roma hüququ iki illik (daşınar əşyalar üçün bir illik) əldə etmə müddəti haqqında qayda nəzərdə tuturdu[2].

İkincisi, **əldə etmə müddəti ilə yalnız daşınar əmlak** (nəqliyyat vasitələri, musiqi alətı, idman avadanlıqları, məişət predmetləri, geyim şeyləri və s.) üzərində mülkiyyət hüququ qazanıla bilər. Bu yolla daşınmaz əmlaka mülkiyyət hüququnun əldə edilməsi istisna edilir. Əvvəldə qeyd etdiyimiz kimi bəzi xarici ölkələrin (məsələn, İtaliyanın, RF-in, Almaniyanın, Çexiyanın, Macarıstanın və s.) qanunvericiliyi əldə etmə müddəti üsulu ilə daşınar əşyalar üzərində mülkiyyət hüququnun əldə edilməsi qaydasını müəyyən edir.

Üçüncüsü, əmlaka faktiki sahiblik edən ona **öz əmlakı (öz mülkiyyəti) kimi münasibət bəsləməlidir**. O, əmlakı normal və yararlı vəziyyətdə saxlamalı, habelə əmlakın saxlanılması üçün zəruri xərcləri çəkməli və ödəməlidir. Əmlaka faktiki sahiblik edən şəxs əmlakın mülkiyyətçisi olub-olmamasından ehtiyatlanmamalıdır.

Dördüncüsü, o, əmlaka **vicdanla və fasiləsiz sahiblik etməlidir**. **Vicdanla sahiblik etmə** faktiki sahiblik edənin əmlaka mülkiyyət hüququnun olmamasını bilməməsini ifadə edir. Vicdanlı əldə edən elə hesab etməlidir ki, əmlak hər hansı bir mülkiyyətçiyə məxsus deyildir. Özgə əmlakına mülkiyyətçinin iradəsinin ziddinə olaraq (məsələn, oğurluq yolu ilə) qəsdən yiyələnmək və faktiki sahiblik etmək əmlaka vicdanla sahiblik etməni istisna edir. Bu hal əmlaka vicdansız sahiblik etməni şərtləndirir. Vicdanlı sahiblik əldə etmə müddətinin vacib atributudur; bu atributdan məhrum olan sahiblik, yəni vicdansız sahiblik mülkiyyət hüququnun yaranmasına səbəb olmur. **Əmlaka fasiləsiz sahiblik etmək** dedikdə, mülkiyyət hüququnun əmələ gəlməsi üçün tələb olunan beş il müddətində əmlaka sahiblik vaxtı hər hansı fasiləyə yol verilməməsi başa düşülür. Beş il müddəti ərzində müxtəlif əsaslara görə fasiləsizlik kəsilə bilər. Məsələn, səlahiyyətli şəxs (əmlakın mülkiyyətçisi) əmlakın qaytarılması barədə əldə edənə qarşı iddia verə bilər və ya əldə edən əmlakın onun mülkiyyətçisinə qaytarılması barədə müxtəlif hərəkətlər edə bilər. Belə hallarda əmlaka sahiblikdə fasilə yaranır. Fasilədən sonra əldə etmə müddətinin axımı yenidən davam edir, bu şərtlə ki, əldə etmə müddəti əsasında mülkiyyət hüququnun əmələ gəlməsi üçün zəruri olan bütün şərtlərə əməl edilsin. **Fasilə kimi ötən müddət əldə etmək müddətinə hesablanmır**. Məsələn, əldə edən sahibliyin birinci ilində əmlakın mülkiyyətçisini axtarmağa başlayır, yerli mətbuatda bu barədə elan verir və digər hərəkətlər edir. Belə halda fasiləsizlik kəsilir və fasilə yaranır. Amma əmlakı mülkiyyətçiyə qaytarmaq mümkün olmur. Bundan sonra, yəni fasilədən sonra əldə etmə müddətinin axımı yenidən davam edir və əvvəlki bir il müddət bu müddətə daxil edilmir və hesablanmır.

Əldə etmə müddəti ötənə kimi əmlaka faktiki sahiblik edən şəxs **titulsuz əldə edən** sayılır. Buna baxmayaraq, qanun mülkiyyət hüququ əldə edənə kimi onun mənafeyini əmlakın mülkiyyətçisi olmayan şəxslərdən qorunmasını nəzərdə tutur. Əldə edən şəxs öz sahibliyini əmlakın mülkiyyətçisi olmayan və qanunda, yaxud müqavilədə nəzərdə tutulmuş digər əsasa görə əmlaka sahiblik hüquqları olmayan üçüncü şəxslərdən müdafiə etmək hüququna malikdir (MM-in 179-cu maddəsinin 3-cü bəndi). Beləliklə, əmlaka sahiblik edən şəxs həmin əmlakın titul sahibi ilə bərabər qaydada öz sahibliyini müdafiə etmək hüququ qazanır. O, öz iradəsindən asılı olmayaraq, əmlak sahibliyindən çıxdığı halda vindikasiya iddiası qaldıra bilər. Sahiblikdən məhrum edilməklə əlaqədar olmayan hər hansı hüquq pozuntusu olduqda (məsələn, əmlakdan istifadə hüququnun həyata keçirilməsinə üçüncü şəxslər maneçilik və əngəl törətdikdə), əldə edən neqator iddia vermək hüququna malik olur.

Göstərdiyimiz şərtlər olduqda əldə etmə müddəti əsasında daşınar əmlakı əldə etmiş şəxs həmin əmlaka mülkiyyət hüququ qazanır. Yeni mülkiyyətçinin bu hüququ əvvəlki mülkiyyətçinin mülkiyyət hüququndan törəmir, ondan irəli gəlmir, yenidən yaranır. Ona görə də həmin üsul mülkiyyət hüququ əldə etmənin ilkin üsulu hesab edilir. Mülkiyyət hüququnu müvafiq şəxsin əldə etməsilə əmlakın əvvəlki mülkiyyətçisi ona mülkiyyət hüququnu itirir.

Qeyd etmək lazımdır ki, bəzi hallarda əldə etmə müddəti üsulu ilə mülkiyyət hüququ yarana bilməz. Belə ki, əgər sahiblik müqavilə öhdəliyi (məsələn, kirayə, saxlama, əvəzsiz istifadə və digər müqavilələr) əsasında həyata keçirilərsə, belə sahibliyə əldə etmə müddəti haqqında qaydalar tətbiq edilmir. Bu qaydalar o halda tətbiq oluna bilər ki, mülkiyyətçinin əmlakı vicdanlı sahibin əlinə (sahibliyinə) qanuna zidd olmayan hər hansı üsulla, müqavilə münasibətlərindən kənar yolla keçsin (məlum məsələdir ki, kirayəçi kirayəyə götürdüyü daşınar əşyaya əldə etmə müddəti üsulu ilə mülkiyyət hüququ qazana bilməz). Məsələn, mülkiyyətçi daşınar əmlakını unudaraq müəyyən şəxsin yanında saxlayır və həmin əmlakı götürmək barədə heç bir tədbir görmür. Bu kimi hallara əldə etmə müddəti haqqında qaydalar tətbiq oluna bilər.

Hesab edirik ki, əldə etmə müddəti barədə qaydaların daşınmaz əmlaka münasibətdə də tətbiq olunması mümkündür. Qanunvericinin sahibsiz daşınmaz əşyalara (mülkiyyət hüququ ilə heç kəsə mənsub olmayan və ya mülkiyyətçisini müəyyənləşdirmək mümkün olmayan daşınmaz əşyalara) bu qaydaların tətbiq olunmasına yol verməməsini başa düşmək olar. Belə ki, əvvəldə qeyd etdiyimiz kimi, sahibsiz daşınmaz əşyalar dövlətə mənsubdur (MM-in 178-ci maddəsinin 7-ci bəndi). Odur ki, əldə etmə üsulu ilə onlara mülkiyyət hüququ əldə etmək olmaz; dövlət sahibsiz daşınmaz əşyaların mülkiyyətçisidir.

Amma elə hallar vardır ki, bu hallarda daşınmaz əmlaka əldə etmə müddəti ilə mülkiyyət hüququnun yaranması mümkün ola bilər. Məsələn, hər hansı müqaviləyə (icarə, kirayə və digər müqavilələrə) əsasən mülkiyyətçi öz daşınmaz əmlakını bu və ya digər şəxsə verə bilər; həmin şəxs müqavilə müddəti başa çatdıqda daşınmaz əmlakı geri qaytarmır. Mülkiyyətçi isə əmlakını geri tələb etmir və altı illik iddia müddətini (MM-in 373-cü maddəsinin 2-ci bəndi) ötürür. Buna görə də o, əmlakı geri almaq hüququnu itirir. **Belə halda şəxs həmin daşınmaz əmlaka əldə etmə müddətinə əsasən mülkiyyət hüququ əldə edə bilər.** Əgər mülkiyyətçi könüllü surətdə özünəməxsus daşınmaz əmlakına mülkiyyət hüququndan imtina edərsə, başqa bir şəxs ona nə üçün və hansı səbəbə görə əldə etmə müddəti əsasında mülkiyyət hüququ əldə edə bilməsin? Qanunverici bu kimi halları nəzərə almalıdır; əks təqdirdə mülkiyyət hüququ əsaslı, möhkəm və həqiqi ola bilməz.

[1] Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Отв. ред. *О.Н.Садиков*. М., 1999, с. 234.

[2] *Пухан И., Поленак-Акимовская М.* Римское право. М., 2000, с. 153.

13. Ani müddət

Mülki qanunvericilik bizim ölkədə daşınar əşyalara mülkiyyət hüququnun əldə edilməsi barədə xüsusi qayda müəyyənləşdirir (MM-in 182-ci maddəsi). Həmin qayda olduğu kimi Almaniya Mülki Qanunnaməsinin 932-ci paraqrafından götürülmüşdür. Analoji qaydanı Fransa MM-in 2279-cu maddəsi də nəzərdə tutur: daşınar əşyaya sahiblik etmə hüquqi əsasa bərabər tutulur. Göstərilən qaydanı İngiltərə və ABŞ[1], İsveçrə[2], Yaponiya[3] və digər ölkələrin qanunvericiliyi də ifadə edir. Həmin qayda Fransa hüquq ədəbiyyatında «ani müddət» adlanır[4].

«Ani müddət» qaydasının mahiyyəti ondan ibarətdir ki, daşınar əşyanı vicdanlı əldə edən şəxs əldə etdiyi anda ona dərhal mülkiyyət hüququ qazanır. Özü də əşyanı özgəninkiləşdirən şəxsin onun mülkiyyətçisi olub-olmamasının məsələyə dəxli yoxdur. Bu, onu ifadə edir ki, daşınar əşyanı vicdanlı əldə edən şəxs həmin əşyanı özgəninkiləşdirən şəxsin bu əşyanın mülkiyyətçisi olmasından asılı olmayaraq, əldə etdiyi anda mülkiyyət hüququ qazanır. Bunun üçün **hər hansı vaxt müddətinin ötməsi tələb edilmir**. Əsas və başlıca şərt daşınar əşyanı əldə edən **şəxsin vicdanlı olmasından ibarətdir**.

Vicdanlı əldə edən odur ki, o, əşyanı özgəninkiləşdirən şəxsin mülkiyyətçi olmadığını bilmir və ya bilməyə borclu deyil. Məsələn, vətəndaş (mülkiyyətçi) televizoru öz qonşusuna əvəzsiz istifadəyə verir. Qonşu ixtiyarı olmaya-olmaya həmin televizoru üçüncü şəxsə satır. Amma üçüncü şəxs bilmir ki, qonşu satılan əşyanın mülkiyyətçisi deyildir. Buna görə də o, vicdanlı əldə edəndir. Məhz bu səbəbdən üçüncü şəxs televizoru əldə etdiyi anda dərhal ona mülkiyyət hüququ əldə edir. Yapon sivilistika doktrinasında göstərilir ki, belə halda vicdanlı əldə edən on il (daşınmaz əşyalar üçün müəyyən edilən əldə etmə müddəti) gözləməli deyil. O, dərhal və təxirə salınmadan mülkiyyətçi olur. Bu, onunla izah edilir ki, Yaponiya MM-inin 192-ci maddəsi ani müddəti nəzərdə tutur. Beləliklə, üçüncü şəxs (vicdanlı əldə edən) ani müddət əsasında mülkiyyət hüququ əldə edir. Mülkiyyətçi televizorun qaytarılmasını ondan tələb edə bilməz. Bu qaydanın tarixi kökü alman adət hüquq norması ilə bağlıdır. Bu norma isə Roma hüququnun müəyyən etdiyi prinsipə uyğun gəlmir. Belə ki, həmin prinsipə görə, vicdanlı əldə edənin yox, əşyanın həqiqi mülkiyyətçisinin hüququ müdafiə olunurdu[5]; yəni əşya mülkiyyətçiyə qaytarılmalı idi.

[1] Гражданское и торговое право капиталистических стран. Учебник / Под ред. *Е.А.Васильева*. М., 1993, с. 322.

[2] *Хостад Т.* Право собственности на движимое имущество // Введение в шведское право / Отв. ред. *Б.С.Крылов*. М., 1986, с. 276.

[3] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Кн. 1. М., 1983, с. 156.

[4] *Черепахин Б.Б.* Юридическая природа и обоснование приобретения право собственности от неуправомоченного отчуждателя // Уч. зап. Свердловского юрид. инс-та. Том 2. Свердловск. 1947, с. 66; *Скловский К.И.* Собственность в гражданском праве. М., 1999, с. 213, 223, 252; *Л. Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть. 2. М., 1960, с. 154.

[5] Bəzi ölkələrin, xüsusən İspaniya və Latın Amerikası ölkələrinin qanunvericiliyi Roma hüququnun müəyyən etdiyi prinsipə uyğun olaraq, mülkiyyətçinin hüququnu müdafiə etməklə onun tərəfində durur. Bununla bərabər, bəzi məqamlarda vicdanlı əldə edənin mənafeyi də nəzərə alınır. Məsələn, İspaniya Ticarət Məcəlləsinin 85-ci maddəsinə görə, əgər şəxs mübahisə edilən əşyanı dükan və ya mağazadan alarsa, o, həmin əşyaya mülkiyyət hüququ əldə edir. Analoji norma ABŞ Vahid Ticarət Məcəlləsinin 2-403-cü maddəsində də ifadə olunur (*У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 158).

Dörd halda şəxs vicdanlı əldə edən hesab edilmir: birincisi, əgər əşyanı onun mülkiyyətçisi **itirmişsə**; ikincisi, əşya ondan **oğurlanmışsa**; üçüncüsü, **iradəsinin ziddinə olaraq, başqa şəkildə əşya onun sahibliyindən çıxmışsa**; dördüncüsü, əldə edən onu **əvəzsiz almışsa**. Buna görə də daşınar əşyanı əldə edən şəxs ani müddət qaydasında həmin əşyaya mülkiyyət hüququ əldə etmir. Göstərilən hallara misal çəkə bilərik. Birinci halda mülkiyyətçi öz əşyasını itirir. Həmin əşyanı onun qonşusu tapır. Qonşu əşyanı üçüncü şəxsə satır. Belə halda üçüncü şəxs vicdanlı əldə edən hesab edilmədiyinə görə əşyaya mülkiyyət hüququ əldə etmir. İkinci halda qonşu mülkiyyətçinin əşyasını oğurlayır və onu üçüncü şəxsə satır. Belə halda da vicdanlı əldə edən olmadığına görə üçüncü şəxsin həmin əşyaya mülkiyyət hüququ əmələ gəlmir. Üçüncü halda mülkiyyətçinin əşyasını sel aparır və həmin əşya kənd sakininin əlinə düşür. O, əşyanı öz qonşusuna satır. Bu halda da əşyanı əldə edənin (qonşunun) mülkiyyət hüququ yaranmır. Dördüncü halda mülkiyyətçi əşyanı qonşusuna saxlanca verir. Qonşu özünü əşyanın mülkiyyətçisi kimi qələmə verir və onu öz tanışına bağışlayır. Göstərilən halda da mülkiyyət hüququ əldə olunmur.

Ani müddət əldə etmə müddətinə oxşar olan institutdur. Mülki hüquq elmində onlar «**qohum institutlar**» kimi xarakterizə edilir[1]. Özü də həm ani müddət, həm də əldə etmə müddəti mülkiyyət hüququnun əldə edilməsinin **törəmə üsulu yox, ilkin üsulu hesab edilir**[2]. Amma Fransa hüquq ədəbiyyatında göstərilir ki, əldə etmə müddətinin əsas şərti müəyyən sahiblik müddəti sayılır; ani müddət bu xüsusiyyətdən məhrum olduğuna görə daxilən ziddiyyətli anlayışdır. Buna görə də təklif olunur ki, göstərilən üsul «ani müddət» yox, «qanuna əsasən əldə etmə» (lege) adlanmalıdır.

14. «Kitab müddəti»

«Kitab müddəti» daşınmaz əşyaya mülkiyyət hüququnun əldə edilməsinin üsullarından biridir[3]. Bu üsul Azərbaycan Respublikasının qanunvericiliyi üçün novelladır (MM-in 178-ci maddəsinin 5-ci bəndi). Sovet dövrünün mülki məcəllələri həmin üsulu, ümumiyyətlə, tanımırdı.

«Kitab müddəti»ni bəzi xarici ölkələrin mülki qanunvericiliyi mülkiyyət hüququnun əldə edilməsinin ilkin üsulu kimi nəzərdə tutur. Məsələn, Almaniya Mülki Qanunnaməsinin 926-927-ci paraqrafları, İsveçrənin Mülki Məcəlləsinin 661-662-ci maddələri bu üsulu tənzimləyən qaydalar müəyyən edir. Bu qaydalar, demək olar ki, olduğu kimi bizim ölkə qanunvericiliyinə daxil edilmişdir.

Göstərilən üsulun «kitab müddəti» adlandırılması onunla izah edilir ki, bu üsulla mülkiyyət hüququnun əmələ gəlməsi tələb olunan müddət keçdikdən sonra mülkiyyət hüququnun daşınmaz əmlakın dövlət reyestrində qeydə alın-

[1] *Черепахин Б.Б.* Юридическая природа и обоснование приобретения право собственности от неуправомоченного отчуждателя, с. 63.

[2] *Черепахин Б.Б.* Правопреемство по советскому гражданскому праву. М., 1962, с. 41.

[3] Hüquq ədəbiyyatı səhifələrində bu, «kitab müddəti» üsulu adlanır (bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 245; Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1/ Отв. ред. Е.А. Васильев, А.С. Комаров. М., 2004, с. 365).

ması (kitab qeydiyyatı) ilə bağlıdır. Almaniyada, İtaliyada və digər ölkələrdə qeydiyyat torpaq kitabında aparılır. Həmin üsulun adı da məhz bununla bağlıdır.

«Kitab müddəti» üsulu ilə mülkiyyət hüququnun əmələ gəlməsi bir neçə şərtlə bağlıdır. Birinci şərtə görə, **torpaq sahəsinin mülkiyyətçisi daşınmaz əmlakın dövlət reyestrində əsassız qeydə alınır**, yəni bu qeydəalmaya onun əsası olmur. İkinci şərtə görə, o, **qeydəalmanın əsassız olduğunu bilmir**. Əgər mülkiyyətçi qeydəalmanın əsassız olduğunu bilərsə, mülkiyyət hüququnun əmələ gəlməsindən söhbət gedə bilməz. Üçüncü şərtə görə, torpaq mülkiyyətçisi **torpaq sahəsinə 10 il ərzində fasiləsiz və etirazsız**[1] **sahiblik etməlidir**. Bu üç şərt mövcud olduqda, o, torpaq sahəsinin faktiki mülkiyyətçisi hesab edilir. Belə ki, bundan sonra əsassız qeydəalma barədə mübahisə edilə bilməz. Daha doğrusu, torpaq sahəsi üzərində həmin şəxsin mülkiyyət hüququ əmələ gəlir.

Bəzi hallarda **daşınmaz əmlaka mülkiyyət hüququ məhkəmə qərarı ilə əmələ gəlir**. Bunun üçün bir neçə şərtin olması gərəkdir. Birinci şərtə görə, daşınmaz əmlak **dövlət reyestrində qeydə alınmır və yaxud dövlət reyestrindən daşınmaz əmlakın mülkiyyətçisini müəyyənləşdirmək mümkün olmur** və ya **daşınmaz əmlakın mülkiyyətçisi ölmüş və ya xəbərsiz itkin düşmüş elan olunur**. İkinci şərtə görə, müvafiq şəxs həmin daşınmaz əmlaka faktik mülkiyyətçi hüququ ilə **30 il ərzində fasiləsiz və etirazsız sahiblik edir**. Bu şərtlər olduqda, əmlaka sahiblik edən şəxs mülkiyyətçi kimi dövlət reyestrində qeydə alınmasını məhkəmə qaydasında tələb edə bilər. Məhkəmədə işə baxılmamışdan əvvəl mətbuatda şəxsin daşınmaz əşyaya mülkiyyət hüququnun yaranması barədə rəsmi elan verilir. Elanda bu əmlak barədə hər hansı bir şəxsin hüququnun olub-olmamasını bildirməsi təklif edilir və bu məqsədlə müəyyən müddət nəzərdə tutulur. Həmin müddətdə etiraz verilmədikdə və ya verilən etiraz rədd edildikdən sonra məhkəmə işə baxaraq müvafiq qərar çıxarır. Həmin qərar müvafiq şəxsin mülkiyyətçi kimi daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması üçün əsasdır[2].

Sahibsiz daşınmaz əşyalar, ümumi istifadədə olan sular, becərilməyə yararsız torpaqlar, bulaqlar, dağlar və faydalı qazıntılar üzərində göstərilən üsulla mülkiyyət hüququnun əldə edilməsi istisna olunur və qeyri-mümkündür. Ona görə ki, onlar dövlət mülkiyyəti hesab edilir (MM-in 178-ci maddəsinin 7-ci bəndi).

Yeni ərazinin yaranması mülkiyyət hüququnun əmələ gəlməsi üsullarından biridir (MM-in 178-ci maddəsinin 3-cü bəndi). Söhbət, mahiyyətcə, **mülkiyyət hüququnun əldə edilməsinin birləşmə üsulundan** gedir. Bu üsul bizim ölkə qanunvericiliyində yeni haldır. Sovet dövrünün qanunvericiliyi həmin üsulu tanımırdı. Göstərilən üsul Almaniya, İsveçrə kimi dövlətlərin qanunvericiliyində nəzərdə tutulmuşdur.

Yeni ərazinin yaranması yeni torpaq sahəsinin əmələ gəlməsini ifadə edir. Yeni torpaq sahəsi isə müxtəlif hallar, xüsusən də qarşısıalınmaz təbii hadisələr nəticəsində yarana bilər. Belə hallara zəlzələni, yer sürüşməsini, daşqını, çay yatağının və ya səviyyəsinin dəyişməsini və s. hadisələri misal göstərə bilərik. Bunun nəticəsində yeni torpaq sahəsi meydana gəlir. Bu sahə **bitişik torpaq sahəsinə birləşdirilir**. Bu sahənin mülkiyyətçisi yeni yaradılmış torpaq sahəsi üzərində mülkiyyət hüququ əldə edir. Amma torpağın bir torpaq sahəsindən digər torpaq sahəsinə yerdəyişməsi mülkiyyət hüququnun yaranmasına səbəb olmur. Çünki belə halda yeni torpaq sahəsi əmələ gəlmir və torpaq sahələrinin sərhədləri sabit qalır.

§ 6. Mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsulları

1. Törəmə üsullar barədə ümumi müddəalar

Mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsulu hüquqi varislik qaydasında, əsasən əmlakın əvvəlki mülkiyyətçisinin iradəsi ilə əmələ gəlir. Törəmə üsul ilkin üsuldan onunla fərqlənir ki, əvvəldə qeyd etdiyimiz kimi törəmə üsulla mülkiyyət hüququnun əldə edilməsi **hüquqi varisliyə** əsaslanır.

Mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsulunda əmlakın **əvvəlki mülkiyyətçisinin (əmlakı özgəninkiləşdirənin) iradəsi** nəzərə alınır. Bu üsul əmlakın köhnə (əvvəlki) mülkiyyətçisinin mülkiyyət hüququnun xitam edilməsinə səbəb olursa, əmlakın yeni mülkiyyətçisi üçün o, mülkiyyət hüququnun əmələ gəlməsinin əsası kimi çıxış edir. Başqa sözlə desək, **törəmə üsul bir şəxs üçün mülkiyyət hüququnun əmələ gəlməsini, digər şəxs üçün isə bu hüququn xitam olunmasını şərtləndirir**.

Bəzən elə hallar da olur ki, törəmə üsulla şəxslərin mülkiyyət hüququnun əmələ gəlməsi əmlakın əvvəlki mülkiyyətçisinin iradəsindən asılı olmur. Məsələn, vərəsəlikdə məcburi pay almaq hüququ olan şəxslərə miras əmlak vəsiyyət edənin iradəsindən asılı olmadan keçir.

Törəmə üsulla həm daşınmaz əmlak, həm də daşınar əmlak bir şəxsin mülkiyyətindən digərinin mülkiyyətinə keçir. Fərq yalnız mülkiyyət hüququnun əmələ gəlmə anından ibarətdir. Belə ki, daşınmaz əmlaka mülkiyyət hüququ onun verilməsi dövlət reyestrində qeydə alındığı andan əldə edənə keçir. Daşınar əşya üçün mülkiyyət hüququ isə əşyanın verildiyi andan əmələ gəlir. Əşyanın verilməsi həmin əşyaya mülkiyyət hüququnun əmələ gəlməsi üçün hüquqi əsas rolunu oynayır.

Daşınar əşyalara mülkiyyət hüququnun əldə edənə keçməsi hansı halla şərtlənir? Hansı hal mülkiyyət hüququnun bir şəxsdən digər şəxsə keçməsinə əsas olur və kifayət edir? Bu məsələni həll etmək üçün dünyanın ayrı-ayrı milli hüquq sistemləri tərəfindən üç model müəyyənləşdirilir[1]. Birinci qrup milli hüquq sistemləri (Böyük Britaniya, İtaliya və Fransa) sazişi daşınar əşyalara mülkiyyət hüququnun verilməsi üçün kifayət edən və zəruri olan əsas kimi gö-

---

[1] Etiraz (Einrede) Almaniya qanunvericiliyində işlənən anlayışdır. Etiraz dedikdə, subyektiv hüququn həyata keçirilməsinə mane olmaq hüququ başa düşülür (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 307).

[2] Almaniya qanunvericiliyinə görə (MQ-nin 927-ci paraqrafı), göstərilən üsul çağırış icraatı qaydasında mülkiyyət hüququnun əldə edilməsi adlanır (*Эннекцерус Л.* Курс Германского гражданского права. М., 1959. Том 1. Полутом 2, с. 405; Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 241).

[1] *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 155-156.

türür. İkinci qrup milli hüquq sistemlərinə görə (Almaniya, Polşa, Macarıstan), zəruri olan və kifayət edən əsas qismində müqavilə yox, əşyanın faktiki (real) verilməsi çıxış edir. Üçüncü qrup milli hüquq sistemləri (Hollandiya, Türkiyə, İsveçrə, Avstriya) belə hesab edir ki, həm müqavilə, həm də əşyanın verilməsi zəruri olan, amma heç də qəti olaraq kifayət etməyən (ayrı-ayrılıqda götürüləndə) əsasdır.

Bizim ölkə qanunvericiliyinin rəsmi mövqeyi ikinci qrup milli hüquq sistemlərinin mövqeyinə uyğundur. Belə ki, Azərbaycan Respublikasının mülki qanunvericiliyi müəyyən edir: **daşınar əşyaya mülkiyyət hüququnun əldə edənə verilməsi üçün mülkiyyətçi əşyaya sahibliyi ona verməlidir** (MM-in 181-ci maddəsinin 1-ci bəndi). Amma bu halda əşyaya sahibliyin verilməsinə yalnız maddi akt kimi baxmaq olmaz. Məlum məsələdir ki, təkcə maddi akt, yəni əşyanın faktiki (fiziki) cəhətdən əldə edənə verilməsi özlüyündə daşınar əşyaya mülkiyyət hüququnun keçməsinə səbəb olmur. Bunun üçün həm də vacibdir ki, **mülkiyyətçi ilə əldə edən əşyaya mülkiyyət hüququnun verilməsi və keçməsi barədə qarşılıqlı razılığa gəlsinlər**. Almaniya sivilistika doktrinasında «əşyanın verilməsi» anlayışına məhz bu aspektdən yanaşılır. Dernburq göstərirdi ki, əşyanın verilməsi aşağıdakıları tələb edir: birincisi, mülkiyyət hüququnu verən şəxsin buna səlahiyyətinin olması; ikincisi, mülkiyyətçi ilə əldə edənin iradələrinin üst-üstə düşmələri; sahibliyin verilməsi[1]. L.Ennekserus belə hesab edirdi ki, tərəflərin sazişindən və əşyanın verilməsindən ibarət olan hüquqi əqd və ya müqavilə hüquqi nəticənin yaranması (mülkiyyət hüququnun verilməsi) üçün əsasdır. Müəllif yazırdı ki, tərəflərin sazişi onların arzu etdikləri hüquqi nəticəyə gətirib çıxarmır, bunun üçün həm də daşınar əşyanın özünün verilməsi gərəkdir[2]. A.Rörixtin fikrincə, mülkiyyət hüququnun verilməsi üçün lazımdır ki, mülkiyyətçi əşyanı əldə edənə versin və onlar mülkiyyətin keçməsi barədə razılığa gəlsinlər[3].

Mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsullarının əhatə dairəsi bir o qədər geniş deyil. İlkin üsullara nisbətən onların sayı məhduddur. Törəmə üsullara aiddir:

- mülki-hüquqi əqdlər;
- vərəsəlik (universal hüquq varisliyi);
- əşyanın verilməsi (tradisiya).

Əşyanın verilməsi (tradisiya) ikili xüsusiyyətə malik olan anlayışdır[4]. Bir tərəfdən əşyanın verilməsi mülkiyyət hüququnun keçməsini və verilməsini şərtləndirən hüquqi aktdır (əqddir). Digər tərəfdən isə o, mülkiyyət hüququnun əldə edilməsi üsulu kimi çıxış edir. Növbəti yarımbaşlıqda da məhz üsul kimi əşyanın verilməsindən söhbət açılır.

[1] *Дернбург Г.* Пандекты. Вещное право. Том 1. Часть 2. СПб., 1905, с. 111.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 121-122.

[3] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 421.

[4] Tradisiyanın əsas cəhətləri barədə bax: *К.И.Скловский.* Собственность в гражданском праве. М., 1999 (гл. 14).

2. Mülki-hüquqi əqdlər mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsulu kimi

Mülkiyyət hüququnun əmələ gəlməsinin əsas törəmə üsullarından biri **əqd əsasında əmlakın verilməsidir**. Bu üsul MM-in 181-ci maddəsinin 4-cü bəndində nəzərdə tutulmuşdur. Göstərilən halda əqd əldə edən üçün mülkiyyət hüququnun əmələ gəlməsinin hüquqi əsası (titulu) kimi çıxış edir.

Əqd dedikdə, hər şeydən əvvəl, **müqavilə** başa düşülür. Müqavilə əldə edən üçün mülkiyyət hüququnun əmələ gəlməsini şərtləndirən hüquqi faktdır. Mülki hüquqda bir çox müqavilə mülkiyyət hüququnun verilməsinə, bir şəxsdən digərinə keçməsinə yönəlmişdir. Belə müqavilələrə şamil etmək olar: alqı-satqı müqaviləsini (MM-in 567-ci maddəsi); pərakəndə alqı-satqı müqaviləsini (MM-in 614-cü maddəsi); mal göndərmə müqaviləsini (MM-in 627-ci maddəsi); dəyişdirmə müqaviləsini (MM-in 662-ci maddəsi); bağışlama müqaviləsini (MM-in 666-cı maddəsi); borc müqaviləsini (MM-in 739-cu maddəsi) və əmlakın özgəninkiləşdirilməsinə dair digər müqavilələr. Belə müqavilələr sivilistika doktrinasında və mülki qanunvericilikdə **əmlakın mülkiyyətə verilməsinə yönələn müqavilələr** adlanır. Onlara **əmlakın özgəninkiləşdirilməsi barədə müqavilələr də deyilir.** Bu qəbildən olan müqavilələr bir tərəf üçün mülkiyyət hüququnun əmələ gəlməsinə, digər tərəf üçün isə mülkiyyət hüququna xitam verilməsinə səbəb olur. Məsələn, alqı-satqı müqaviləsi əsasında satıcı əşya üzərində mülkiyyət hüququnu itirir, alıcı isə mülkiyyət hüququ əldə edir. Başqa bir misalda bağışlama müqaviləsi əsasında hədiyyə verən əşya üzərində mülkiyyət hüququnu itirir, hədiyyə alan isə mülkiyyət hüququ qazanır.

Mülkiyyət hüququ, əsasən, **öhdəlik müqavilələri vasitəsilə** əldə olunur. Söhbət alqı-satqı, dəyişmə, mal göndərmə, renta və s. müqavilələrdən gedir. Bununla belə, **əşya müqaviləsi** də mülkiyyət hüququnun əmələ gəlmə üsulu kimi çıxış edə bilər. Məsələn, daşınar əşyaya mülkiyyət hüququnun verilməsi barədə müqavilə məhz əşya müqaviləsinə misal ola bilər[1]. Daşınmaz əşyaya mülkiyyət hüququnun verilməsi barədə müqavilə də əşya müqaviləsi kateqoriyasına aiddir. Mülkiyyət hüququnun əldə olunması üçün iki şərtə əməl olunması vacibdir: birincisi, daşınmaz əşyanın verilməsi barədə tərəflərin razılığa gəlmələri; ikincisi, daşınmaz əmlakın dövlət reyestrində (Almaniya qanunvericiliyinə görə, torpaq kitabında) qeydə alınması.

Müqavilə anlayışı sivilistika doktrinasında üç mənada işlədilir: birincisi, mülki hüquq münasibəti mənasında; ikincisi, hüquq münasibətinin yaranması faktını qeydə alan sənəd mənasında; üçüncüsü, mülki hüquq münasibəti yaradan hüquqi fakt mənasında. Müqavilələr məhz hüquqi fakt mənasında mülkiyyət hüququnun əmələ gəlməsinə səbəb olur[2].

Müxtəlif müqavilələr əsasında mülkiyyət hüququnun əldə edilməsi üsulu müqavilə hüququ institutunda öyrənilir ki, bu, mülkiyyət hüququ hüdudlarından kənara çıxır. Müqavilə vasitəsilə əmlakın özgəninkiləşdirilməsinin konkret

[1] *Musielak H.-J.* Grundkurs BGB. München. 1994. s. 39. Bu növ əşya müqaviləsi Almaniya Mülki Qanunnaməsində (§929, hissə 1) nəzərdə tutulmuşdur. Həmin konstruksiya bizim ölkə qanunvericiliyi tərəfindən olduğu kimi iqtibas edilmişdir (MM-in 181-ci maddəsinin 1-ci bəndi).

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 121.

üsulları müqavilə hüququnun normaları ilə müəyyən edilir.

3. Mülkiyyət hüququnun vərəsəlik qaydasında (universal hüquq varisliyi) əldə edilməsi üsulu

Mülkiyyət hüququnun vərəsəlik qaydasında əldə edilməsi üsuluna görə fiziki şəxs öldükdə, ona məxsus olan əmlaka mülkiyyət hüququ **vəsiyyətə və ya qanuna uyğun olaraq vərəsəlik üzrə** başqa şəxslərə keçir. Belə halda mülkiyyət hüququ həm qanun üzrə vərəsəlik qaydasında, həm də vəsiyyət üzrə vərəsəlik qaydasında əldə edilə bilər. Ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxsə (vərəsələrə) qanunun göstərişləri əsasında keçərsə, belə vərəsəlik **qanun üzrə vərəsəlik** adlanır. Belə vərəsəlik zamanı vərəsələr kateqoriyasına daxil edilir: birinci növbə üzrə vərəsələr (ölənin uşaqları, ər və ya arvad, valideynlər və s.); ikinci növbə vərəsələr (ölənin bacıları və qardaşları və s.); üçüncü, dördüncü və beşinci növbə vərəsələr. İlk növbədə birinci növbə vərəsələr vərəsəliyə çağırılırlar, yəni vərəsə olurlar. Özü də onların vərəsəlikdə payları bərabər olur. Məsələn, yaşayış evi miras qoyanın (ölmüş şəxsin) qanun üzrə birinci növbə vərəsələri arasında bərabər paylarla bölünür. Bununla onlar yaşayış evinə mülkiyyət hüququ əldə edirlər.

Birinci növbə vərəsələr olmadıqda, vərəsəliyə ikinci növbə vərəsələr çağırılır və onlar miras əmlak üzərində mülkiyyət hüququ əldə edirlər. Məsələn, ölən vətəndaşın birinci növbə vərəsələri yoxdur. Belə halda onun qardaş və bacıları (yəni ikinci növbə vərəsələr) qanun üzrə vərəsə olurlar. Miras əmlak həmin şəxslərin mülkiyyətinə keçir. Bu qayda ilə növbəlilik prinsipi əsasında digər növbə vərəsələr də vərəsəliyə çağırıla bilərlər.

Qanun üzrə vərəsəlik o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymasın. Əgər o, ölməsi halı üçün öz əmlakını və onun bir hissəsini həm vərəsələr sırasından, həm də qeyri-vərəsələr sırasından müəyyən şəxslərə vəsiyyət edərsə, onda qanun üzrə yox, **vəsiyyət üzrə vərəsəlik** yaranır. Bu zaman miras əmlak üzərində vəsiyyət üzrə vərəsələr mülkiyyət hüququ əldə edirlər. Məsələn, miras qoyan şəxs öz yaşayış evini öz qonşusuna vəsiyyət edir. Belə halda həmin evə mülkiyyət hüququnu qonşu əldə edir. Qeyd etmək lazımdır ki, vəsiyyət üzrə vərəsə qismində həm dövlət, həm bələdiyyələr, həm hüquqi şəxslər, həm də fiziki şəxslər çıxış edə bilərlər.

Vərəsəlik qaydasında mülkiyyət hüququnun əldə edilməsi üsulu Macarıstan, İtaliya, İsveçrənin və digər ölkələrin qanunvericiliyində nəzərdə tutulmuşdur. Bolqarıstanda 29 yanvar 1949-cu il tarixli vərəsəlik haqqında qanun qəbul edilmişdir. Almaniya Mülki Qanunnaməsinin 5-ci kitabı bütövlükdə vərəsəlik hüququna həsr olunmuşdur. İtaliyada vərəsəlik 1942-ci il MM-i ilə tənzimlənir. Fransada vərəsəlik məsələləri 1804-cü il MM-i ilə qaydaya salınır. Xarici ölkələrin qanunvericiliyinin vərəsəlik barədə müddəaları Roma hüququna əsaslanır.

Vərəsəlik əsasında mülkiyyət hüququnun əldə edilməsinin konkret üsulları vərəsəlik hüququnun normaları ilə müəyyən edilir. Vərəsəlik hüququ mülki hüququn yeddi yarımsahəsindən biridir. MM-in xüsusi hissəsinin dördüncü bölməsi vərəsəlik hüququna həsr edilmişdir. Ölən şəxsin malik olduğu əmlakın vərəsəlik qaydasında onun vərəsələrinə keçməsi, vərəsələrin bu əmlak üzərində mülkiyyət hüququ əldə etmələri ilə əlaqədar məsələlərin geniş işıqlandırılması kitabın «Vərəsəlik hüququ» adlı fəslində nəzərdə tutulduğuna görə biz bu barədə geniş söhbət açmağı lazım bilmirik.

4. Əmlakın yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq varisinə keçməsi ilə mülkiyyət hüququnun əldə edilməsi

Hüquqi varislik qaydasında əmlaka mülkiyyət hüququ yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq varisinə keçir. Mülkiyyət hüququnun əldə edilməsinin bu üsulu hüquqi şəxs yenidən təşkil olunduqda tətbiq edilir. **Yenidən təşkil olunma** dedikdə, hüquqi şəxsin birləşməsi, qatılması (qovuşması), ayrılması və bölünməsi başa düşülür. Bu, hüquqi şəxsin fəaliyyətinə xitam verilməsinin yollarından biridir.

Hüquqi şəxslər birləşdikdə, hüquqi varis kimi çıxış edən yeni yaradılmış hüquqi şəxs mülkiyyət hüququ əldə edir. **Hüquqi şəxs digər hüquqi şəxsə qatıldıqda**, qatılan (qovuşan) hüquqi şəxsin hüquq və vəzifələri hüquqi varis olan əvvəlki hüquqi şəxsə keçir. Belə halda hüquqi varis mülkiyyət hüququ əldə edir. **Hüquqi şəxs bölündükdə**, yeni yaradılmış hüquqi şəxslər əmlak üzərində mülkiyyət hüququ qazanır. **Hüquqi şəxsin tərkibindən bir və ya bir neçə hüquqi şəxs ayrıldıqda**, ayrılan hər bir hüquqi şəxs (hüquqi varis) yeni mülkiyyətçi kimi çıxış edir. **Bir növdən olan hüquqi şəxs digər növdən olan hüquqi şəxsə çevrildikdə** (təşkilati-hüquqi forması dəyişdikdə), yeni yaradılmış hüquqi şəxs (hüquq varisi) üçün mülkiyyət hüququ əmələ gəlir.

Hüquqi şəxsin fəaliyyətinin xitam olunmasının ikinci qaydası **hüquqi şəxsin ləğv edilməsi yolu**dur. Belə halda məsələ nisbətən qəliz xarakter alır və çətinləşir. Ona görə ki, göstərilən həmin yol hüquqi şəxsin əmlakının hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən onun fəaliyyətinə xitam verilməsini nəzərdə tutur. Belə halda əmlakın taleyi və müqəddəratı həmin hüquqi şəxsin təsis sənədlərində və qanunvericilikdə necə müəyyən edilməsindən asılı olur. Əgər qanunvericilikdə və ya təsis sənədlərində (nizamnamədə) başqa qayda nəzərdə tutulmazsa, **kreditorların tələbləri ödənildikdən sonra hüquqi şəxsin qalan əmlakı onun təsisçilərinə (iştirakçılarına) verilir** (MM-in 61-ci maddəsinin 6-cı bəndi). Belə təsəvvür yaranır ki, ləğv edilmiş hüquqi şəxsin əmlakı üzərində onun təsisçiləri (iştirakçıları) mülkiyyət hüququ qazanırlar.

Elə hüquqi şəxslər vardır ki, onlar ləğv edildikdə, iştirakçıların qalan əmlaka hər hansı hüququ olmur. Belə halda qalan əmlak iştirakçıların (təsisçilərin) sərəncamına verilmir. Qeyri-kommersiya təşkilatlarının bir növü olan ictimai birliklər belə hüquqi şəxslərdəndir. İctimai birlik ləğv edildikdə, onun əmlakı ictimai birliyin nizamnaməsində göstərilmiş məqsədlərə, bu, mümkün olmadıqda isə **dövlət büdcəsinə yönəldilir** (MM-in 114-cü maddəsinin 4-cü bəndi). Qeyri-kommersiya təşkilatlarının digər növü olan fondlar barəsində də (MM-in 116-cı maddəsinin 3-cü bəndi), hüquqi şəxslərin ittifaqı haqqında da (MM-in 117-ci maddəsi) analoji göstəriş ifadə olunur. Hüquqi şəxs statuslu dini qurumların fəaliyyətinə xitam verildikdə, onların vəqf olmayan əmlakı əvvəlki sahiblərinə qaytarılır, mülkiyyətdə olan digər əmlak barəsində isə onun nizamnaməsinə (əsasnaməsinə) və qüvvədə olan qanunvericiliyə müvafiq surətdə sərəncam verilir. Əgər hüquqi varis olmazsa, dini qurumların əmlakı dövlət mül-

kiyyətinə keçir («Dini etiqad azadlığı haqqında» qanunun 20-ci maddəsi)[1].

5. Əşyanın verilməsi (tradisiya) mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsulu kimi

Əşyanın verilməsi mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsulu sayılır. Özü də bu üsulla yalnız daşınar əşyalara mülkiyyət hüququ əldə edilir. Əşyanın verilməsi üsulu bizim ölkə qanunvericiliyində yeni haldır. Əvvəlki qanunvericilikdə bu üsul nəzərdə tutulmurdu. Mülkiyyət hüququnun əldə edilməsinin əsas üsullarından biri kimi əşyanın verilməsinin əsas cəhətləri MM-in 181-ci maddəsinin 1-ci və 2-ci bəndlərində müəyyənləşdirilir.

Əşyanın verilməsi üsulu qədim Roma hüququna da bəlli idi. Bu üsul Roma hüququnda «traditio» anlayışı ilə əhatə edilmişdi. «Traditio» mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsulu sayılırdı. Sonralar Almaniya Mülki Qanunnaməsi bu üsulu nəzərdə tutmağa başladı. Hal-hazırda bir sıra xarici Avropa ölkələrinin qanunvericiliyi əşyanın verilməsi üsulunu **«tradisiya»** (latınca «traditio» — vermək) adı altında tanıyır. Özü də həmin ölkələrin qanunvericiliyində tradisiya mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsulu kimi nəzərdə tutulur. Almaniya Mülki Qanunnaməsinin 929-cu paraqrafına görə, daşınar əşyaya mülkiyyət hüququnun verilməsini həyata keçirmək üçün əşyanın mülkiyyətçisi ilə onu əldə edən şəxsin qarşılıqlı razılığa gəlmələri tələb olunur. Bunun üçün həm də zəruridir ki, əşyanın verilməsi faktı mövcud olsun. İsveçrə Mülki Məcəlləsi tradisiyanı (əşyanın fiziki cəhətdən verilməsini) daşınar əşyaya mülkiyyət hüququnun əldə edilməsinin əsas üsullarından biri kimi müəyyən edir. Macarıstan MM-inin 117-ci maddəsinə görə, əşyanın faktiki olaraq verilməsi mülkiyyət hüququnun başqasına keçməsinə səbəb olur. Bu Məcəllə əşyanın verilməsini mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsullarından biri kimi müəyyən edir[2].

Tradisiya münasibətlərində iki subyekt çıxış edir: daşınar əşyanı özgəninkiləşdirən şəxs (Roma hüququ onu tradens adlandırırdı); daşınar əşyanı əldə edən şəxs (Roma hüququ həmin şəxsi accipiens, yəni aksipiens adlandırırdı). Biz də Roma hüququ ənənələrinə uyğun olaraq, onları bu adlarla əhatə edəcəyik.

Tradisiyanın mülkiyyət hüququnun əmələ gəlməsinin üsulu kimi çıxış etməsi üçün bir neçə şərtin olması lazımdır. **Birinci şərtə görə**, daşınar əşyaya sahiblik **özgəninkiləşdirən şəxsin iradəsi üzrə** əldə edənə keçir. Mülkiyyət hüququnun tradisiya yolu ilə verilməsi və keçməsi üçün əşyaya sahibliyin verilməsi barədə tradensin iradəsinin olması tələb edilir. Bu, onu göstərir ki, tradisiyada iradə ifadə olunur. **İkinci şərtə görə**, şəxsin əşyanı özgəninkiləşdirməyə ixtiyarı çatmalıdır. Daha doğrusu, o, **əşyanın mülkiyyətçisi** olmalıdır. Amma bəzən mülkiyyətçi olmayan şəxs də əşyanın özgəninkiləşdirilməsinə vəkil edilir. **Üçüncü şərtə görə**, tradens (mülkiyyətçi) və aksipiens (əldə edən) **qarşılıqlı razılığa gəlirlər**. Bu, o deməkdir ki, tradisiya yolu ilə mülkiyyət hüququnun verilməsi və keçməsi üçün təkcə tradensin iradəsi kifayət etmir. Bunun üçün həm də aksipiensin əşyaya sahibliyi qəbul etmək barədə iradəsinin mövcudluğu tələb olunur[1]. Söhbət mülkiyyət hüququnun keçməsi haqqında qarşılıqlı razılaşmadan gedir. Bu isə onu ifadə edir ki, **tradisiya iradəvi akt olub, hüquq kimi çıxış edir**. İradə isə üç şərt üzrə uyğun gəlib, üst-üstə düşməlidir: mülkiyyət hüququnun verilməsi barədə; müəyyən şəxsə verilməsi barəsində; müəyyən əşyanın verilməsi barəsində[2]. Bunun nəticəsində tradens üçün mülkiyyət hüququnu aksipiensə vermək və keçirmək vəzifəsi, aksipiens üçün isə tradensdən əşyaya mülkiyyət hüququnun verilməsini tələb etmək hüququ yaranır. Əgər qarşılıqlı razılaşma olmazsa, onda mülkiyyət hüququnun əmələ gəlməsindən söhbət gedə bilməz[3]. Belə halda aksipiensin əşya üzərində yalnız faktiki sahibliyi yaranır.

Dördüncü şərtə görə, tradens (mülkiyyətçi) **əşyaya sahibliyi aksipiensə (əldə edənə) verməlidir**. Söhbət əşyanın aksipiensin faktiki (fiziki) sahibliyinə verilməsindən gedir. Bu isə onu ifadə edir ki, **tradisiya iradəvi akt olmaqdan savayı, həm də maddi aktdır**. Buradan belə nəticəyə gələ bilərik ki, tradisiya hüquq kimi çıxış etməkdən başqa, həm də faktdır. Deməli, tradisiya özündə həm hüquqi, həm də faktiki (maddi, fiziki) cəhətləri birləşdirir. Bu, Almaniya sivilistika doktrinasından irəli sürülən konsepsiyaya uyğun gəlir. Müəlliflərdən L.Ennekserus haqlı olaraq yazır ki, hüquqi nəticənin yaranması (mülkiyyət hüququnun verilməsi) üçün həm tərəflərin sazişi (Einigung), həm də əşyanın verilməsi gərəkdir. Saziş dedikdə isə tərəflərin qarşılıqlı iradə ifadəsi başa düşülür[4]. Müəlliflərdən A.Rörixt analoji mövqedə dayanaraq göstərir ki, tradisiya iki hissədən ibarətdir: əqddən (hüquqi hissədən); əşyaya faktiki yiyəliyi verməkdən (faktiki hissədən)[5]. Y.Şappın fikrincə, tradisiya yolu ilə mülkiyyət hüququnun əldə edilməsi iki hissədən ibarətdir: mülkiyyət hüququnun verilməsi barədə sazişdən (hüquqi hissə); əşyaya sahibliyi verməkdən (faktiki hissə)[6]. G.Şerşeneviç göstərir ki, tradisiya dedikdə, bir şəxsin mülkiyyət hüququnu keçirmək (vermək) niyyəti ilə əşyanı digər tərəfə təhvil verməsi başa düşülür[7]. Deməli, «faktiki hərəkət» və «bilavasitə fiziki cəhətdən ələ keçirmə» mənasında (Hegelin təbirincə) əşyanın verilməsi mülkiyyət hüququnun verilməsi barədə saziş olmadan hər hansı hüquqi nəticəyə, yəni mülkiyyət hüququnun əldə edilməsinə səbəb olmur.

Əşyaya sahibliyi vermək üçün bizim ölkə qanunvericiliyi üç yol müəyyən edir (MM-in 181-ci maddəsinin 2-ci bəndi). Birinci yola görə, əşya aksipiensin (əldə edənin) **birbaşa sahibliyinə verilməsi ilə verilir (birbaşa sahiblik yolu)**. Məsələn, əşya aksipiensə təhvil verilir (əldən-ələ). İkinci yola görə, əşya aksipiensin **dolayı sahibliyinə verilir (dolayı sahiblik yolu)**. Bu yol əşyaya dolayı sahibliyin müqavilə üzrə verilməsini nəzərdə tutur. Belə halda əşya tra-

[1] bax: AR QK, I cild, s. 577.

[2] Daha ətraflı məlumat almaq üçün bax: Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 229-246.

[1] *Дернбург Г.* Пандекты. Вещное право. Том 1. Часть 2. СПб., 1905, с. 112.

[2] *Хвостов В.М.* Система римского права. М., 1996, с. 239.

[3] Klassik Roma hüquqşünası Ulpian hələ neçə əsr bundan əvvəl yazırdı ki, əşyanın «çılpaq», yəni hər hansı hüquqi əsas olmadan verilməsi heç vaxt mülkiyyət hüququnun keçməsinə səbəb olmur (Римское частное право. М., 1948, с. 204).

[4] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 121.

[5] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 421-422.

[6] *Шапп Ян.* Основы гражданского права Германии. М., 1996, с. 66.

[7] *Шершеневич Г.Ф.* Учебник русского гражданского права. М., 1995, с. 183.

densin birbaşa sahibliyində qalır. Roma hüququ əşyanın bu yolla verilməsini «constitutum possessorium» anlayışı ilə əhatə edirdi[1]. «Constitutum possessorium» yolunun mahiyyəti ondan ibarətdir ki, tradens (mülkiyyətçi) ilə aksipiens (əldə edən) əşyanın özgəninkiləşdirilməsi barədə razılığa gəlirlər. Müqavilədə həmin əşyanın tradensin (mülkiyyətçinin) sahibliyində qalması nəzərdə tutulur. Əşya tradensin (mülkiyyətçinin) sahibliyində qalır. Amma həmin əşyanın mülkiyyətçisi aksipiens (əldə edən) hesab olunur. Belə ki, əşya üzərində o, mülkiyyət hüququ əldə edir. Məsələn, vətəndaş qarşılıqlı razılaşma əsasında minik avtomobilini qonşusuna satır. Amma onlar razılığa gəlirlər ki, istifadə etmək məqsədilə avtomobil iki il müddətinə vətəndaşın sahibliyində qalsın. Belə halda avtomobilin mülkiyyətçisi qonşu hesab edilir. Vətəndaşın minik avtomobilindən istifadə etməsi onu göstərir ki, onunla qonşu arasında kirayə (icarə) hüquq münasibəti yaranmışdır.

Üçüncü yola görə, tradens (mülkiyyətçi) üçüncü şəxsdən sahibliyi **tələb etmək hüququnu aksipiensə (əldə edənə)** verir (**tələbin güzəşti**). Onun sahibliyi tələb etmək hüququ müxtəlif hüquq münasibətlərindən irəli gələ bilər: alqı-satqı müqaviləsindən; saxlanc müqaviləsindən; daşıma müqaviləsindən; kirayə müqaviləsindən və s. Məsələn, sifarişçi qabaqcadan podrat haqqını ödəməklə podratçıya mebel hazırlatdırır. Belə halda onun mebelə sahibliyin verilməsini podratçıdan (üçüncü şəxsdən) tələb etmək hüququ yaranır. Sifarişçi ilə onun qonşusu razılığa gəlirlər ki, mebelə mülkiyyət hüququ qonşuya güzəşt edilsin. Bunun üçün vacibdir ki, mebelə sahibliyin verilməsini podratçıdan (üçüncü şəxsdən) tələb etmək hüququ qonşuya güzəşt edilsin. Bu, sahibliyin verilməsini ifadə edir. Başqa bir misalda yük sahibi ilə sahibkar daşıyıcıda (üçüncü şəxsdə) olan yükün sahibkara verilməsi barədə razılığa gəlirlər. Belə halda yük sahibinin üçüncü şəxsdən (daşıyıcıdan) yükün verilməsini tələb etmək hüququnu sahibkara güzəşt etməsi (verməsi) kifayətdir. Bu, sahibliyin verilməsini ifadə edir. Yeri gəlmişkən, sahibliyin bu yolla verilməsi Almaniya MQ-nin 931-ci paraqrafında nəzərdə tutulmuşdur.

Sahiblik, Roma hüququnun dili ilə desək, **«qısa əllə» də (traditio brevi manu)** verilə bilər. Bu yoldan o halda istifadə olunur ki, mülkiyyətçinin əşyası hər hansı hüquqi əsasa görə (icarə, kirayə, saxlama, daşıma və s. münasibətlərə görə) müəyyən şəxsdə olur. Onlar əşyaya mülkiyyət hüququnun həmin şəxsə verilməsi barədə razılığa gəlirlər. Məlum məsələdir ki, belə halda əşyaya sahibliyin şəxsə verilməsi tələb olunmur. Çünki əşya artıq onun sahibliyindədir. Məsələn, sənətçi musiqi alətini musiqi məktəbində oxuyan tələbəyə əvəzsiz istifadəyə verir. İstifadə müddəti başa çatdıqda, həmin alətə mülkiyyət hüququnun tələbəyə keçməsi barədə onlar razılığa gəlirlər. Başqa bir misalda şəxs öz qonşusunun əşyasını icazəsiz götürür. Bundan sonra onlar əşyaya mülkiyyət hüququnun həmin şəxsə (əşyanı götürənə) verilməsi barədə razılığa gəlirlər. Belə halda «traditio brevi manu» göz qabağındadır[2]. G.F.Şerşeneviç yazır ki, «constitutum possessorium» və «traditio brevi manu» hallarında

[1] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. М., 2000, с. 159.

[2] Əşyaya sahibliyin verilməsi üsulları (constitutum possessorium, brevi manu traditio, tələbin güzəşti) barədə ətraflı məlumat almaq üçün bax: *Wolff M.* Sachenrecht. München, 1997. § 38. § 66.

əşyanı vermək artıq şeydir. Bu, onlar üçün ümumi cəhətdir[1].

Tradisiyanın hüquqi təbiəti sivilistika doktrinasında mübahisə doğuran məsələlərdəndir. Əvvəlcə tradisiya birtərəfli əqd (tradens üçün), sonra isə ikitərəfli əqd, əşya müqaviləsi hesab edilmişdir. Onu **mücərrəd əşya müqaviləsi sayan müəlliflərin mövqeyi daha geniş yayılmışdır**. Almaniya mülki hüquq elmində bu mövqe üstünlük təşkil edir[2].

6. Bəhərə, məhsula və gəlirə mülkiyyət hüququnun əldə edilməsi

Hüquq ədəbiyyatında bəhərə, məhsula və gəlirə mülkiyyət hüququnun əldə edilməsi üsulunun **ikili xarakterə malik olması** fikri irəli sürülür[3]. Bu, onu ifadə edir ki, göstərilən **bu üsul bəzi hallarda mülkiyyət hüququnun əmələ gəlməsinin ilkin, digər hallarda isə törəmə üsulu kimi çıxış edir**.

Əmlakdan istifadə nəticəsində əldə olunan bəhər, məhsul və gəlirə mülkiyyət hüququ qanunda nəzərdə tutulan əsaslarla əldə edilir (MM-in 135-ci maddəsinin 12-ci bəndi və 181-ci maddəsinin 3-cü bəndi). Bəhər, gəlir və məhsul dedikdə, əmlakdan təsərrüfat və digər məqsədlərlə istifadə nəticəsində əldə edilən artım başa düşülür. Bunlar bir-birindən alınma üsuluna görə fərqlənirlər. Bəhər iki cür olur: təbii (natural) bəhər; mülki bəhər. **Təbii bəhər** dedikdə, təbii mənşəyə malik olan heyvan və bitkilərin üzvü inkişafının nəticəsi başa düşülür. Meyvə ağaclarının barını, ev quşlarının və mal-qaranın balasını, onların verdiyi məhsulları (südü, yumurtanı, yunu və s.) təbii (natural) bəhərə aid etmək olar. **Mülki bəhərə** gəlir də deyilir. **Gəlir** dedikdə, əşyanın mülki dövriyyədə (icarə, borc, kirayə və digər mülki hüquq münasibətlərdə) iştirakı nəticəsində əldə edilən pul və digər ödənişlər başa düşülür. Məsələn, bank əmanəti üzrə faizlər, ixtiradan istifadəyə görə verilən haqq, icarə haqqı, səhmə görə alınan dividend və s. gəlirə misal ola bilər. **Məhsul** dedikdə, əşyanın emalı, yenidən emalı və ya ondan məqsədyönlü qaydada istifadə edilməsi nəticəsində alınan əmlak başa düşülür. Məsələn, müəssisənin hazırladığı mal, istehsal olunan məmulat, inşaatçıların tikdiyi ev və s. məhsul hesab edilir.

Bəhərə və məhsula mülkiyyət hüququnun əldə edilməsi ilkin üsula, gəlirə mülkiyyət hüququnun əldə edilməsi isə törəmə üsula aid edilir. Gəlir törəmə üsula ona görə şamil edilir ki, burada mülkiyyət hüququnu əldə edənin hüququ əmlakın əvvəlki mülkiyyətçisinin hüququndan asılıdır. Əşyanın mülkiyyətçisi kimdirsə, əşyanın təbii bəhəri də onun mülkiyyətindədir (MM-in 135-ci maddəsinin 12-ci bəndi).

Bəhər əşyanın tərkib hissəsidir. Belə halda bəhər əşya ilə birlikdə onun mülkiyyətçisinə məxsus olur. Ona görə ki, əşyanın mülkiyyətçisi onun bütün tərkib hissələrinin mülkiyyətçisidir. Bəhərlər əşyadan ayrıldıqda, onlar mülki dövriyyədə müstəqil əşyalar kimi çıxış edir. Bu halda isə müxtəlif əqdlər (alqı-

[1] *Шершеневич Г.Ф.* Учебник русского гражданского права. М., 1995, с. 184.

[2] *Дернбург Г.* Пандекты. Том 1. Часть 2. Вещное право. СПб., 1905, с. 112-114; *H.Heinrichs // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 68-69; *Musielak H.-J.* Grundkurs BGB. München. 1994, s. 39.

[3] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 352.

satqı, bağışlama, dəyişmə və s. müqavilələr) əsasında bəhərlərə mülkiyyət hüququ əldə edilə bilər.

Beləliklə, mülkiyyət hüququnun əldə edilməsi üsullarının MM-in 178-192-ci maddələrində müəyyən edilən qəti siyahısı göstərilənlərdən ibarətdir. Lakin hüquq ədəbiyyatında bu siyahının qeyri-qəti olması fikrini irəli sürən müəlliflər də var[1]. Həmin müəlliflərin fikrincə, digər üsulların da tətbiqi istisna edilmir. Onlar **əmlakın rəmzi mənada verilməsini** belə üsullardan hesab edirlər. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, satılmış mənzilin, avtomobilin və digər əmlak növlərinin açarı əldə edənə verilir. Həmin üsul Roma hüququnda **«traditio longa manu» (uzun əllə vermək)** və ya **«traditio symbolica» (rəmzi vermək)** adlanırdı. Onun əsasında mülkiyyətçi əldə edənə özgəninkiləşdirilən əşyanın özünü yox, onun simvolunu (rəmzini) verirdi və ya hər hansı rəmzi hərəkət nümayiş etdirirdi[2]. Belə hərəkətlə mülkiyyətçi göstərirdi ki, o, əşyaya olan mülkiyyət hüququndan əl çəkir və bu hüququ əldə edənə verir.

§ 7. Mülkiyyət hüququna xitam verilməsi

1. Mülkiyyət hüququnun xitam edilməsinin əsasları və üsulları

Mülkiyyət hüququnun xitam edilməsinin əsasları dedikdə, elə hüquqi faktlar başa düşülür ki, bunun nəticəsində əmlak üzərində şəxsin subyektiv mülkiyyət hüququ ləğv edilir və itirilir. Belə halda eyni bir hüquqi fakt müəyyən şəxs üçün mülkiyyət hüququnun itirilməsinə, digər şəxs üçün həmin hüququn əldə edilməsinə əsas olur. Bu, mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsulları üçün xarakterikdir. Məsələn, müqavilə əsasında əşyanın verilməsi satıcı üçün mülkiyyət hüququnun xitam olunmasını, alıcı üçün mülkiyyət hüququnun əmələ gəlməsini şərtləndirir. Buna görə də bəzi müəlliflər mülkiyyət hüququnun itirilməsinə səbəb olan üsulları həm də mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsullarına şamil edirlər[3].

Mülkiyyət hüququnun xitam edilməsinin əsasları müxtəlif meyarlara görə təsnif edilir. **Əmlakın növündən və vəziyyətindən asılı olaraq**, qanun mülkiyyət hüququnun itirilməsinin iki növünü fərqləndirir: **daşınmaz əmlaka mülkiyyət hüququnun itirilməsi** (MM-in 203-cü maddəsinin 1-ci bəndi; məsələn, dövlət reyestrində qeydəalma barədə yazı ləğv edildikdə, əmlak tamamilə məhv olduqda); **daşınar əşyaya mülkiyyət hüququnun itirilməsi** (MM-in 203-cü maddəsinin 2-ci bəndi; məsələn, əşyanın məhv olunması, əşyanın müqavilə əsasında başqa şəxsə verilməsi və s.).

Başqa şəxslər üçün mülkiyyət hüququnun əmələ gəlməsinə görə əsaslar iki cür olur və bu baxımdan mülkiyyət hüququnun itirilməsinin iki cür əsası fərqləndirilir: eyni vaxtda başqası üçün (hüquq varisi üçün) **mülkiyyət hüququnun əmələ gəlməsinə səbəb olan əsaslar** (mülkiyyət hüququnun itirilməsinin əsasları); digər şəxs üçün (hüquqi varis üçün) belə **nəticənin yaranmasına səbəb olmayan əsaslar** (mülkiyyət hüququnun itirilməsinin əsasları). Birinci növə özəlləşdirməni, milliləşdirməni, müqavilə əsasında mülkiyyət hüququnun əldə edilməsini, yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq varisi üçün mülkiyyət hüququnun əmələ gəlməsini, öhdəliklər üzrə tələbin mülkiyyətçinin əmlakına yönəldilməsini, həczi, müsadirəni və sairəni, ikinci növə təbii fəlakət nəticəsində əmlakın tələf edilməsini, mülkiyyətçinin özü tərəfindən onun məhv olunmasını, əşyanın istehlak edilməsini misal göstərmək olar.

İradəvi əlamətə görə əsaslar iki növə bölünür: mülkiyyətçinin iradəsindən asılı olan əsaslar (**subyektiv əsaslar**); onun iradəsindən asılı olmayan əsaslar (**obyektiv əsaslar**). Birinci halda mülkiyyətçinin iradəsi ilə (məsələn, müqavilə üzrə əmlakın verilməsi, vəsiyyət yolu ilə əmlakın vərəsələrə keçməsi və s.), ikinci halda isə onun iradəsindən asılı olmadan (məsələn, həcz, müsadirə, əmlakı itirmə, milliləşdirmə, zəlzələ nəticəsində əşyanın tələf olması və s.) mülkiyyət hüququna xitam verilir.

Könüllülük əlamətinə görə mülkiyyət hüququnun itirilməsi əsasları iki cür olur: **könüllü əsaslar**; **məcburi əsaslar**. Birinci növ əsaslara şamil edilir: alqı-satqı, bağışlama, dəyişmə və s. müqavilələr əsasında əşyanın başqa şəxsə verilməsi ilə mülkiyyət hüququna xitam verilməsi; mülkiyyətçinin özü tərəfindən könüllü olaraq əmlakın məhv edilməsi; əşyanın istehlak (istifadə) olunması; əşyanın emal olunması; əşyaya olan mülkiyyət hüququndan mülkiyyətçinin imtina etməsi.

Məcburi əsasların mahiyyəti ondan ibarətdir ki, bu əsaslara görə əmlak onun mülkiyyətçisindən məcburi olaraq alınır və onun mülkiyyət hüququna xitam verilir. Yalnız qanunda nəzərdə tutulduğu halda məcburi əsaslara görə mülkiyyət hüququna xitam verilə bilər. Bu əsaslar MM-in 203-cü maddəsinin 3-cü bəndində göstərilir: öhdəliklər üzrə tələbin əmlaka yönəlməsi; qanuna görə həmin şəxsə mənsub ola bilməyən əmlakın özgəninkiləşdirilməsi; torpaq sahəsinin alınması ilə əlaqədar orada olan daşınmaz əmlakın özgəninkiləşdirilməsi; təsərrüfatsızcasına saxlanan mədəni sərvətlərin satınalma yolu ilə alınması; rekvizisiya (həcz); müsadirə. Bu əsaslardan bəziləri əmlakın mülkiyyətçidən əvəzli qaydada (məsələn, həcz), digər əsaslar isə əvəzsiz olaraq (məsələn, müsadirə) alınmasını nəzərdə tutur. Mülkiyyət hüququnun xitam verilməsini şərtləndirən məcburi əsaslar barədə normanı genişləndirici təfsir etmək olmaz.

MM-in 9-cu fəsli (203-212-ci maddələri) mülkiyyət hüququnun xitam edilməsinə həsr edilmişdir. Mülkiyyət hüququnun itirilməsi ilə əlaqədar məsələlərin qanunla qaydaya salınmasının böyük əhəmiyyəti vardır. Bununla bir növ Konstitusiyada (13-cü maddə) və MM-də (6-cı maddə) təsbit edilmiş **mülkiyyət toxunulmazlığı prinsipinə hüquqi təminat verilir**.

2. Əmlakın tələf və ya məhv edilməsi ilə mülkiyyət hüququna xitam verilməsi

Əmlakın tələf və ya məhv edilməsi ilə mülkiyyət hüququna xitam verilməsi üsulu MM-in 203-cü maddəsinin 1-ci bəndində nəzərdə tutulmuşdur. Bununla

[1] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 378; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 281-282.

[2] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 159.

[3] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 351.

həm daşınar, həm də daşınmaz əmlak üzərində mülkiyyət hüququ xitam edilir. Daşınmaz əmlak məhv olduqda, onun dövlət reyestrində qeydiyyatı ləğv edilir (MM-in 150-ci maddəsi). Belə ki, əgər daşınmaz əmlak tam məhv olarsa və bunun nəticəsində onun qeydiyyatı hər cür hüquqi mənasını itirərsə, maraqlı şəxs məhkəmə qaydasında qeydiyyatın ləğvini tələb edə bilər; məhkəmə qərarı məhv olmuş daşınmaz əmlakın qeydiyyatının ləğvi üçün əsasdır.

Əmlakın tələf olması dedikdə, mülkiyyətçinin iradəsindən asılı olmadan tam təsadüfi vəziyyətdə əmlakın mülkiyyət hüququnun obyekti kimi yox olması başa düşülür. Belə halda əmlakın mövcudluğuna heç kəsin təqsiri olmadan son qoyulur. Əmlakın tələf olmasına səbəb olan tam təsadüfi vəziyyət dedikdə, təsadüfi hadisələr, qarşısıalınmaz qüvvənin hərəkəti başa düşülür. Qarşısıalınmaz qüvvəyə zəlzələni, yanğını, daşqını, qasırğanı və digər təbii fəlakət hallarını misal göstərmək olar. Qarşısıalınmaz qüvvənin törətdiyi nəticəyə görə heç kəs məsuliyyət daşımır. Ümumi qaydaya görə, əmlakın təsadüfən tələf olması üçün risq mülkiyyətçinin üzərinə düşür.

Əmlakın məhv edilməsi dedikdə, hər hansı üçüncü şəxsin qeyri-hüquqi hərəkətləri nəticəsində əmlakın mövcudluğuna son qoyulması başa düşülür[1]. Belə halda delikt (ziyan vurma nəticəsində əmələ gələn) öhdəlikləri yaranır və mülkiyyətçi təqsiri olan şəxsdən vurduğu ziyanın əvəzinin ödənilməsini tələb etmək hüququ qazanır. Əmlakın məhv edilməsindən ibarət olan mülki hüquq pozuntusuna (deliktə) görə təqsirkar şəxs məsuliyyət daşıyır. O, mülkiyyətçiyə vurduğu zərəri tam həcmdə ödəməlidir (MM-in 1097-ci maddəsinin 1-ci bəndi).

Əmlak həm mülkiyyətçinin iradəsi ilə, həm də onun iradəsindən asılı olmadan məhv edilə bilər. Birinci hala misal kimi vətəndaşın yeni bağ evi tikməsi üçün köhnəni uçurmasını göstərmək olar. İkinci halda mülkiyyətçi icrası onun üçün məcburi olan baytarlıq, sanitar və ya yanğından mühafizə orqanlarının göstərişləri əsasında müvafiq əmlakı məhv edir[2]. Məsələn, heyvanların xüsusi təhlükəli xəstəlik mənbələrinin ləğvi zamanı Baş dövlət baytar müfəttişinin qərarı ilə heyvandarlıq məhsulları məhv olunur.

Əmlakın göstərilən üsulla məhv edilməsinə əmlakın istehlakını da aid etmək olar. Məsələn, ərzaq məhsulları istehlak olunur, material və xammal istehsal prosesində istifadə edilir, avadanlıq işlədilməklə yox olur və s. Söhbət ilk növbədə, **şəxsi istehlakdan** gedir. Belə ki, mülkiyyətçi özünə məxsus olan əmlakı istehlak edir və bunun nəticəsində həmin əmlaka mülkiyyət hüququna xitam verilir. **İstehsal istehlakına** gəldikdə isə qeyd etməliyik ki, bunun nəticəsində istehlak olunan əmlakın əvəzində yeni əmlak yaradılır və ona mülkiyyət hüququ müəyyən edilir[3]. Məsələn, xammaldan yeni məhsul istehsal olunur və s.

Qeyd etmək lazımdır ki, əmlakın istehlakı eyni zamanda həm istifadə aktı, həm də faktiki sərəncam aktıdır[1]. Bu akt nəticəsində mülkiyyət hüququ ləğv olunur.

Fransa hüquq ədəbiyyatında barəsində danışdığımız üsul əşyanın itməsi adlanır. Belə ki, əşyanın itməsi nəticəsində mülkiyyət hüququnun obyekti yox olur və buna görə də mülkiyyət hüququnun özü itir[2]. Aydın məsələdir ki, obyektsiz mülkiyyət hüququ mövcud ola bilməz.

3. Mülkiyyətçinin öhdəlikləri üzrə ödəmənin əmlaka yönəldilməsi

Mülkiyyətçinin öhdəlikləri üzrə tələbin əmlaka yönəltmək əsasında mülkiyyət hüququna xitam verilməsini nəzərdə tutan 205-ci maddə MM-də yeni haldır. Lakin buna baxmayaraq, həmin maddədə formulə edilən qaydalar digər normativ aktlarda ifadə edilməklə təcrübədə tez-tez tətbiq olunur.

Tələbi əmlaka yönəltmək yolu ilə mülkiyyət hüququna yalnız məhkəmə qərarı əsasında xitam verilir. Məhkəmə qərarı cavabdehdən (kreditorlara borcu olan əmlakın mülkiyyətçisindən) əmlakın məcburi surətdə alınmasına səbəb olur. Qanuni qüvvəyə minmiş məhkəmə qərarı əsasında əmlakın alınması icra sənədi ilə həyata keçirilir. İcra sənədi məhkəmə tərəfindən verilir. Tələbin əmlaka yönəldilməsi MPM normaları ilə tənzimlənir.

Qanunla və ya müqavilə ilə tələbin əmlaka yönəldilməsinin başqa qaydası da nəzərdə tutula bilər. Məsələn, «Dövlət vergi xidməti haqqında» qanunun 5-ci maddəsinin 15-ci bəndinə görə, dövlət vergi xidməti orqanları vergi və digər icbari ödənişlər üzrə borcların vergi ödəyicisinin əmlakına yönəltmək hüququna malik idi[3]. Belə halda qanun tələbin əmlaka yönəldilməsinin qeyri-məhkəmə qaydasını müəyyən edirdi. Amma indiki vergi qanunvericiliyinə görə, vergi orqanları vergi öhdəliyini təmin etmək məqsədilə vergi ödəyicisinin əmlakının siyahıya alınması üçün tədbirlər görür. Belə siyahıyaalma müvafiq vergi öhdəliyinin yerinə yetirilməsini təmin etmək üsuludur. Vergi ödəyicisi, əgər əmlak siyahıya alındıqdan sonra 60 gün müddətində vergi öhdəliyini yerinə yetirmədikdə, vergi orqanı əmlakın ixtisaslaşdırılmış açıq hərracda satılması barədə məhkəməyə müraciət edir. Məhkəmə qərarı qüvvəyə mindikdən sonra əmlak satılır[4]. Bununla mülkiyyətçinin mülkiyyət hüququna xitam verilir.

Tələbin əmlaka yönəldilməsinin qeyri-məhkəmə qaydası müqavilə ilə də nəzərdə tutula bilər. Məsələn, girov müqaviləsi girov qoyulmuş əmlaka tələbin yönəldilməsi qaydasını müəyyən edir. Girov saxlayanın tələbinin məhkəməyə müraciət edilmədən girov qoyulmuş əmlak hesabına ödənilməsinə girov saxlayanla girov qoyanın notariat qaydasında təsdiqlənmiş razılaşması əsasında yol verilir (MM-in 296-cı maddəsinin 1-ci bəndi). Belə razılıq olmadıqda, kreditor (girov saxlayan şəxs) iddia ilə məhkəməyə müraciət edir. Məhkəmə qərarı əsasında kreditorun tələbi girov qoyulmuş əmlakın dəyərindən ödənilməklə tə-

[1] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 245; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 504.

[2] bax: «Sanitariya-epidemioloji salamatlıq haqqında» 10 noyabr 1992-ci il tarixli qanun (AR QK, I cild, s. 755); «Baytarlıq təbabəti haqqında» 31 may 2005-ci il tarixli qanun (AR QK, IV cild, s. 380); «Yanğın təhlükəsizliyi haqqında» 10 iyun 1997-ci il tarixli qanun (AR QK, III cild, s. 442).

[3] *Иоффе О.С.* Советское гражданское право. М., 1967, с. 393.

[1] Советское гражданское право. Учебник. Том 1 /Под ред. *В.П.Грибанова, С.М.Корнеева*. М., 1979, с. 312.

[2] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 88.

[3] bax: AR QK, I cild, s. 529. Bu qanun qüvvədən düşmüşdür.

[4] Vergi Məcəlləsinin 90-cı maddəsi (Azərbaycan Respublikasının Məcəllələr Külliyyatı. Bakı. 2000, s. 577).

min edilir.

Tələb, hər şeydən əvvəl, borclu rolunda çıxış edən mülkiyyətçinin pul vəsaitlərinə yönəlir. Nağd pul məcburi surətdə alınır və kreditorun hesabına (borc məbləğində) köçürülür. Borclu şəxsin bankda və digər kreditor idarələrində olan hesablarındakı (əmanətlərindəki) vəsaitə həbs qoyulur. Əgər kreditora borcu ödəmək üçün borclu şəxsin (mülkiyyətçinin) pul vəsaiti kifayət etməzsə, belə halda tələb onun mülkiyyətində olan digər əmlakına yönəldilir.

Qanun xüsusi hallarda mülkiyyətçinin borcu üzrə əmlakın alınmasının mübahisəsiz qaydasını müəyyən edir. Məsələn, büdcəyə ödənilən vergi və digər icbari ödənişlərin qalıq hissəsi dövlət vergi xidməti orqanları tərəfindən mübahisəsiz qaydada alınır.

Qanun tələbin yönəldiyi əmlaka mülkiyyət hüququnun xitam verilməsi anını da müəyyən edir. Bu, əldə edən üçün mülkiyyət hüququnun əmələ gəlməsi anı ilə şərtlənir, yəni **yeni mülkiyyətçinin əmlaka mülkiyyət hüququ əldə etdiyi vaxtdan köhnə mülkiyyətçinin mülkiyyət hüququna xitam verilir** (MM-in 205-ci maddəsinin 2-ci bəndi).

4. Şəxsin qanuna görə ona məxsus ola bilməyən əmlakına mülkiyyət hüququna xitam verilməsi

Qanuna görə, elə əmlak növləri vardır ki, onlar şəxsə məxsus ola bilməz. Əmlakın şəxsə məxsus ola bilməməsi müxtəlif amillərlə şərtlənə bilər: **dövlət təhlükəsizliyi ilə, ictimai və ya milli təhlükəsizlik mülahizələri ilə; beynəlxalq öhdəliklərlə; mülki dövriyyədə olmasına yol verilməməsinə görə** vətəndaşa məxsus ola bilməyən əmlak növləri 23 dekabr 2003-cü il tarixli qanunla müəyyən edilir[1]. Həmin qanuna görə, belə əmlak növlərinə aiddir: döyüş təyinatlı hərbi texnika; qanunla dövriyyəsi qadağan edilən silahlar və döyüş sursatı; hərbi səfərbərlik təyinatlı əmlak və s. Bundan əlavə, şəxsin mülkiyyətində narkotik vasitələr, psixotrop maddələr və prekursorların olması qadağandır. Şəxs bu cür əmlak növlərinə malik ola bilməz[2].

Şəxslərə məxsus ola bilməyən əmlakın hüquqi rejimi onunla şərtlənir ki, bu cür əmlakın **mülki dövriyyədə hərəkəti qadağandır**. Belə əmlak mülki dövriyyə qabiliyyəti olmayan əmlak sayılır. Qanun mülki dövriyyə qabiliyyəti olmayan əmlak növlərinin şəxslərin mülkiyyətində olmasını qadağan edir. Əgər şəxsin mülkiyyətində belə əmlak olarsa, həmin əmlak bir il müddətində mülkiyyətçi tərəfindən özgəninkiləşdirilməlidir (MM-in 206-cı maddəsinin 1-ci bəndi). Belə halda bir illik müddət əmlaka mülkiyyət hüququnun yarandığı andan hesablanır. Qanunda müddət barədə digər qayda da müəyyən edilə bilər.

Əmlakın şəxslərə məxsus ola bilməməsini şərtləndirən hallar müxtəlif ola bilər: bunu qanunun yasaqlaması; əşyanın hüquqi rejiminin dəyişməsi (dövriyyə qabiliyyətli əşyanın qeyri-dövriyyə qabiliyyətli əşya olması); hüquqi şəxsin

[1] bax: «Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında» qanun.

[2] «Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin və prekursorlann siyahılarının təsdiq edilməsi haqqında» 20 fevral 2001-ci il tarixli qanunla müvafiq siyahılar təsdiq edilmişdir (AR QK, III xüsusi buraxılış, s. 602).

statusunun dəyişməsi (qanunla universal mülki hüquq qabiliyyəti verilən kommersiya təşkilatının bu hüquqi imkandan məhrum edilməsi ilə onun bəzi əmlak növlərinə malik ola bilməməsi); vətəndaşın vərəsəlik qaydasında sahiblik və əldə olunması üçün xüsusi icazə tələb edilən əmlak alması[1].

Əmlak bir il müddətində mülkiyyətçi tərəfindən özgəninkiləşdirilmədikdə, məcburi olaraq satılır. Belə halda əmlakın xarakteri və təyinatı nəzərə alınır. Əvvəlcə müvafiq dövlət orqanları əmlakın məcburi satışı üçün iddia ərizəsi ilə məhkəməyə müraciət edir. Məhkəmə iddia ərizəsinə mahiyyətcə baxıb, vətəndaşa məxsus ola bilməyən əmlakın məcburi satışı barədə qərar qəbul edir. Əmlakın satışından əldə edilmiş pul onun keçmiş mülkiyyətçisinə verilir. Göstərilən qaydada əmlakın satışı mümkün olmadıqda, o, dövlət mülkiyyətinə keçir. Belə halda da dövlət keçmiş mülkiyyətçiyə əmlakın dəyəri məbləğində haqq ödəyir. Mülkiyyətçiyə verilən haqdan əmlakın özgəninkiləşdirilməsinə çəkilən xərclər çıxılır (MM-in 206-cı maddəsinin 2-ci bəndi).

Əldə olunması üçün xüsusi icazə (lisenziya) tələb edilən əmlak növləri barədə də analoji qayda tətbiq edilir (MM-in 206-cı maddəsinin 3-cü bəndi). Belə əmlak növlərinin hərəkəti mülki dövriyyədə məhdudlaşır. Əldə olunması üçün xüsusi icazə tələb edilən əmlak məhdud dövriyyə qabiliyyətli əmlak adlanır. Məsələn, mülki silah bu cür əmlak növünə şamil edilir. Mülki silah özünümüdafiə, ov və idmanla məşğul olma üçün nəzərdə tutulmuş silahdır. Mülki silahın dövriyyəsi ilə əlaqədar yaranan münasibətlər «Xidməti və mülki silah haqqında» qanunla tənzimlənir. Əldə olunması üçün xüsusi icazə (lisenziya) tələb edilən əmlak növləri mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardır. Onların dairəsi xüsusi qanunla müəyyən edilir («Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən əşyaların siyahısı haqqında» 23 dekabr 2003-cü il tarixli qanun).

Elə hesab edək ki, atadan oğula vərəsəlik qaydasında mülki silah keçir. Lakin mülki silaha mülkiyyət hüququ əldə etmək üçün vərəsənin xüsusi icazə alması tələb olunur. O, daxili işlər orqanına (polisə) müraciət edir[2]. Vətəndaşın bu müraciətindən sonra polis orqanı qanunda göstərilən əsaslar olduqda, ona mülki silahın əldə edilməsinə icazə verilməsindən imtina edir[3]. Belə halda ya mülki silah vərəsə tərəfindən özgəninkiləşdirilir, əgər bu, mümkün olmazsa, ya məhkəmə qərarı əsasında məcburi satılır, ya da dövlət mülkiyyətinə verilir. Bununla silaha olan mülkiyyət hüququna xitam verilir.

[1] Müəlliflərdən prof. Y.K.Tolstoy belə hesab edir ki, mülkiyyət hüququna xitam verilməsini nəzərdə tutan bu üsulun formulasında (düsturunda) ziddiyyət var. O göstərir ki, bir tərəfdən şəxs əmlakın mülkiyyətçisi olur, digər tərəfdən bu əmlak ona məxsus ola bilməz. Bu fikirlə çətin ki razılaşmaq olar. Belə ki, şəxs qanunla ona məxsus ola bilməsini qadağan edən əmlak əldə edir. Bu, tamamilə mümkün olan məsələdir. Y.K.Tolstoyun mövqeyi barədə bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева. Ю.К.Толстого.* М., 1998, с. 375.

[2] «Xidməti və mülki silah haqqında» qanunun 9-cu maddəsi mülki silahın əldə edilməsi qaydasını müəyyən edir. Bunun üçün vətəndaş polis orqanına ərizə ilə müraciət etməli, özünün şəxsiyyət vəsiqəsini və sağlamlıq haqqında tibbi arayış təqdim etməlidir (bax: AR QK, V cild, s. 207).

[3] Qanunun 7-ci maddəsi vətəndaşın mülki silah əldə etməsini qadağan edən halları müəyyən edir (bax: AR QK, V cild, s. 205).

5. Torpaq sahəsinin alınması ilə əlaqədar olan daşınmaz əmlakın özgəninkiləşdirilməsi

Konstitusiyanın 29-cu maddəsinin 4-cü bəndinə görə, **dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün mülkiyyətin özgəninkiləşdirilməsinə** yol verilir. Konstitusiya müddəasına uyğun olaraq özgəninkiləşdirilməsi mümkün olan mülkiyyət növlərindən biri torpaq sahəsi hesab edilir. Dövlət özünün ehtiyacları (ictimai ehtiyaclar) üçün torpaq sahəsi ala bilər. Məsələn, həyat əhəmiyyətli obyektlərin tikintisi, boru kəmərinin çəkilməsi, dəmir yolu, avtomobil yolu salınması belə ehtiyacları şərtləndirən hallara misal ola bilər. Lakin alınan həmin torpaq sahəsində mülkiyyətçiyə məxsus binalar və qurğular (evlər, damlar, zirzəmilər, quyular və s.), habelə meyvə ağacları, bitkilər, əkinlər və digər daşınmaz əmlak növləri ola bilər. Belə halda dövlət bu əmlak növlərini torpaq sahəsinin mülkiyyətçisindən satın alır və onların dəyərini ödəyir.

24 iyun 2005-ci il tarixli qanunla MM-ə dəyişikliklər və əlavələr edilməsinə kimi dövlət aldığı torpaq sahəsində olan daşınmaz əmlak növlərini yalnız məhkəmə qərarı əsasında əldə edə bilərdi. Bunun üçün daşınmaz əmlakın alınması tələbi ilə dövlət orqanı məhkəməyə müraciət edirdi. Bu tələb dövlət orqanının xeyrinə yalnız o halda ödənilə bilərdi ki, daşınmaz əmlaka mülkiyyət hüququna xitam verilmədən torpaq sahəsindən dövlətin nəzərdə tutduğu məqsədlər üçün istifadə olunmasının qeyri-mümkünlüyü dövlət orqanları tərəfindən məhkəmədə sübut edilsin. Başqa sözlə desək, dövlət orqanları sübut etməli idi ki, daşınmaz əmlak növlərinə torpaq sahəsinin mülkiyyətçisinin mülkiyyət hüququna xitam verilməsə, onda torpaq sahəsindən məqsədə uyğun qaydada istifadə edilməsi mümkün olmayacaqdır. Dövlətin aldığı torpaq sahəsində olan daşınmaz əmlak növlərini məhkəmə qərarı əsasında əldə etməsi Konstitusiyanın 29-cu maddəsində ifadə edilən belə bir müddəaya əsaslanırdı ki, heç kəs məhkəmə qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. 24 iyun 2005-ci il tarixli qanunla MM-ə dəyişikliklər və əlavələr edilməsindən sonra məsələnin məhkəmə tərəfindən həll olunması barədə norma MM-dən çıxarılmışdır ki, bu yuxarıda göstərdiyimiz Konstitusiya müddəasına ziddir.

Beləliklə, MM-in 207-ci maddəsinin nəzərdə tutduğu üsulla şəxslərin mülkiyyət hüququna xitam verilir. Belə halda binaların, qurğuların, meyvə-giləmeyvə ağaclarının, bitkilərin, əkinlərin, mədəni-məişət, istehsal və digər təyinatlı obyektlərin dəyərini dövlət mülkiyyətçiyə ödəyir. Bu isə Konstitusiyanın prinsipial əhəmiyyətə malik olan belə bir normasına uyğundur ki, dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər (Konstitusiyanın 29-cu maddəsi).

Torpaq sahəsinin mülkiyyətçisinin bu sahədə olan daşınmaz əmlak növlərinə mülkiyyət hüququna göstərilən üsulla xitam verildikdə, dövlət tərəfindən satın alınan əmlak onun bazar qiymətinə əsasən qiymətləndirilir (MM-in 211-ci maddəsi).

6. Təsərrüfatsızcasına saxlanan mədəni sərvətlərin satınalma yolu ilə əldə edilməsi

Dövlət təsərrüfatsızcasına saxlanan mədəni sərvətləri satın alır və bu yol ilə həmin sərvətlər üzərində mülkiyyət hüququ qazanır. Bu üsul həm də mədəni sərvətlərin mülkiyyətçisinin mülkiyyət hüququna xitam verilməsini şərtləndirir.

«Mədəniyyət haqqında» qanunun 33-cü maddəsində mədəniyyət sərvətlərinin anlayışı verilmişdir. **Mədəniyyət sərvətlərinə** aiddir: tarixi-mədəni əhəmiyyəti olan binalar, tikililər, əşyalar; tarixi və mədəniyyət baxımından unikal ərazilər və obyektlər; təsviri sənət əsərləri, o cümlədən lövhələr, şəkillər, rəsmlər, qravürlər, heykəltəraşlıq əsərləri, orijinal bədii toplular; əlyazmalar, xüsusi əhəmiyyətə malik kitablar, not yazıları, məktublar, elmi-tarixi yadigarlar, nadir nəşrlər; tətbiqi sənət əsərləri — xalılar və xalça məmulatı, qızıl, platin, gümüş, qiymətli daşlar, mis və gildən hazırlanmış əşyalar, keramika məmulatı; qədim nadir kolleksiyalar və otuz ildən çox tarixi olan muzey əhəmiyyətli əşyalar (o cümlədən mebel, musiqi alətləri və s.); memarlıq abidələri, tikinti nümunələri, xatirə yerləri və s.[1] Mədəniyyət sərvətlərinin göstərilən ayrı-ayrı növləri şəxslərin xüsusi mülkiyyətində ola bilər[2].

Mədəni sərvətlərin bir növü də tarix və mədəniyyət abidələridir. Tarix və mədəniyyət abidələri arxeoloji və memarlıq obyektləri, etnoqrafik, antropoloji, epiqrafik materiallar, tarixi hadisə və şəxsiyyətlərlə bağlı olan bina, xatirə yerləri, əşyalar, xalqın dini əqidəsi ilə bağlı dəyərlərdir («Tarix və mədəniyyət abidələrinin qorunması haqqında» qanunun 2-ci maddəsi)[3]. Qanun tarix və mədəni abidələrin ayrı-ayrı şəxslərin xüsusi mülkiyyətində ola bilməsinə icazə verir (həmin qanunun 4-cü maddəsi)[4].

Mülkiyyətində mədəniyyət sərvətləri, o cümlədən abidələr olan şəxslər həmin sərvətlərin qorunması və istifadə edilməsi qaydalarına ciddi əməl etməlidirlər. Konstitusiyanın 77-ci maddəsinə görə tarix və mədəniyyət abidələrini qorumaq hər kəsin borcudur. Mülkiyyətində və ya istifadəsində abidələr olan şəxslər abidələrin salamatlığına görə məsuliyyət daşıyırlar.

Xüsusilə qiymətli, ən əhəmiyyətli və dövlət tərəfindən qorunan mədəniyyət sərvətlərinin mühafizə siyahısı aparılır («Mədəniyyət haqqında» qanunun 37-ci maddəsi)[5]. Bu işi Mədəniyyət Nazirliyi həyata keçirir. Belə mədəniyyət sərvətləri mühafizə siyahısında qeydə alınır və mülkiyyətçiyə şəhadətnamə verilir.

Konstitusiyanın 40-cı maddəsinə görə, hər kəsin mədəni sərvətlərdən istifadə hüququ vardır. Mədəniyyət sərvətlərinin mühafizə siyahısına daxil edilmiş mədəni sərvətin mülkiyyətçisi göstərilən sərvətdən təyinatına uyğun surətdə istifadə etməlidir. Əgər o, istifadə zamanı iki şərtə əməl etməzsə, mədəni sərvət satınalma yolu ilə dövlət tərəfindən alınır və dövlət mülkiyyətinə daxil edilir: əgər mülkiyyətçi mədəni sərvəti təsərrüfatsızcasına saxlayarsa (birinci şərt);

[1] bax: AR QK, V cild, s. 265-266.

[2] Mədəni sərvətlərin hüquqi rejimi barədə bax: *А.П.Сергеев.* Гражданско-правовая охрана культурных ценностей. Л., 1990.

[3] bax: AR QK, V cild, s. 357.

[4] yenə orada, s. 358.

[5] yenə orada, s. 266, 268.

mədəni sərvətin təsərrüfatsızcasına saxlanılması, əgər onun öz əhəmiyyətini itirmək təhlükəsi yaradarsa (ikinci şərt).

Mədəni sərvətin dövlət tərəfindən satınalma yolu ilə mülkiyyətçidən alınması məhkəmə qərarına əsasən həyata keçirilir. Məhkəmə mədəni sərvətin qiyməti barədə dövlət orqanı ilə mülkiyyətçi arasında mübahisə yarandığı hallarda həm də bu məsələni həll edir.

Mədəni sərvəti satın alarkən dövlət mülkiyyətçiyə sərvətin dəyəri məbləğində haqq ödəyir. Haqqın məbləği tərəflərin razılığı ilə müəyyən edilir.

Beləliklə, ən əhəmiyyətli, xüsusilə qiymətli və dövlət tərəfindən qorunan (bu məqsədlə mühafizə siyahısında qeydə alınan) mədəni sərvətlərin mülkiyyətçilərinin bu sərvətlərə təsərrüfatsızcasına münasibəti onlar üçün xoşagəlməz hüquqi nəticəyə səbəb olur. Onların mədəni sərvət üzərində mülkiyyət hüququna xitam verilir.

Mədəni sərvətin alınması barədə məhkəməyə iddianı Mədəniyyət Nazirliyi, habelə digər maraqlı təşkilatlar (məsələn, Yazıçılar Birliyi, Bəstəkarlar İttifaqı, Mədəniyyət Fondu) verə bilər.

7. Rekvizisiya (həcz)[1]

Təbii fəlakət, texnoloji və ekoloji qəza, epidemiya, epizootiya hallarında və fövqəladə xarakter daşıyan digər hallarda mülkiyyətçidən əmlak cəmiyyətin mənafeyinə və xeyrinə olaraq dövlət tərəfindən məcburi surətdə alına bilər. Fövqəladə xarakter daşıyan digər hallar dedikdə, kütləvi iğtişaşlar, millətlərarası münaqişələr və ədavət və s. başa düşülür. Mülkiyyətçinin iradəsindən asılı olmayaraq, müvafiq dövlət orqanlarının qərarı əsasında həyata keçirilən bu tədbirə **həcz** deyilir.

Fövqəladə xarakterli elə hallar yaranır ki, bu hallar mülkiyyətçidən müəyyən əmlakın təcili olaraq alınmasını tələb edir. Məcburi xarakterli tədbir olan həcz tətbiq edilməklə yaranmış vəziyyətdən çıxış yolu tapılır. **Həczin məqsədi** mülkiyyətçinin hüquqazidd davranışının qarşısını almaqdan yox, yalnız vətəndaşların təhlükəsizliyini təmin etməkdən, əmlakı tələf olmaqdan xilas etməkdən və yaxud epidemiya, epizootiya hallarında xəstəliklə yoluxmuş heyvanları (məsələn, quş qripi ilə yoluxmuş ev quşlarını) məhv etməkdən ibarətdir. Ona görə də **mülkiyyətçidən əmlak inzibati qaydada məhkəmə qərarı olmadan səlahiyyətli dövlət orqanlarının aktı əsasında alınır**. Söhbət AR Nazirlər Kabinetinin qərarından gedir.

Həcz belə bir xüsusiyyətlə xarakterizə olunur ki, o, fövqəladə xarakter daşıyan hallarda baş verə biləcək təhlükələrin qarşısını almaq məqsədilə dövlət orqanlarının gördüyü müstəsna tədbirdir; bu zaman konstitusion hüquqlar pozulur. Belə halların siyahısı «Fövqəladə vəziyyət haqqında» qanunda verilmişdir (qanunun 2-ci maddəsi): təbii fəlakətlər; epidemiyalar; epizootiyalar; böyük ekoloji qəzalar; başqa qəzalar; Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, onun konstitusion quruluşunun zorla dəyişdirilməsinə yönəldilmiş hərəkətlər; zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar; vətəndaşların həyatı və təhlükəsizliyi, yaxud dövlət təsisatlarının normal fəaliyyəti üçün qorxu törədən millətlərarası münaqişələr. Bu kimi hallardan biri mövcud olduqda müəyyən növ əmlak dövlət mülkiyyətinə keçir ki, fövqəladə xarakterli halın baş verməsi ilə bağlı olaraq həmin əmlakdan ictimai mənafe üçün istifadə olunur (məsələn, səfərbərliklə bağlı olaraq hərbi komissarlıq tərəfindən vətəndaşlardan hərbi-səfərbərlik təyinatlı nəqliyyat vasitələrinin alınması). Digər tərəfdən istifadə olunması dövlət maraqları üçün arzuolunmaz olan bəzi əmlak növləri dövlət orqanları tərəfindən alınır. Əmlakı rekvizisiya olunmuş şəxsin həmin əmlakın geri qaytarılmasını tələb edərkən vindikasiya iddiası (mülkiyyət hüququnun müdafiə üsullarından biri) verməsi lazım gəlir; ona görə ki, həcz zamanı əmlakı həcz edilmiş şəxsin həmin əmlak üzərində mülkiyyət hüququna xitam verilir.

Həczin başqa bir xüsusiyyəti də ondan ibarətdir ki, həcz zamanı alınan əmlakın dəyəri qabaqcadan ödənilmir. Onun dəyəri mülkiyyətçiyə veriləndə isə ədalətli ödəniş prinsipi pozulur[1]. Bu isə Konstitusiyanın 29-cu maddəsinin 4-cü bəndində ifadə edilən müddəaya ziddir.

Həcz qaydasında əmlak həm müvəqqəti, həm də daimi olaraq mülkiyyətçinin əlindən alına bilər. Həcz qaydasında əmlakın alınmasını şərtləndirən fövqəladə xarakterli hallar aradan qalxdıqda, mülkiyyətçi saxlanılan əmlakın[2] ona qaytarılmasını məhkəmə qaydasında tələb edə bilər (MM-in 209-cu maddəsinin 2-ci bəndi); məhkəmə yolundan yalnız o halda istifadə oluna bilər ki, səlahiyyətli dövlət orqanı həcz olunmuş əmlakı könüllü surətdə qaytarmasın. Bu, mülkiyyətçinin mənafeyini müdafiə etmək üçün qanunun nəzərdə tutduğu təminatdır. Lakin belə halda mülkiyyətçiyə əmlak qaytarılanda, qanun dövlətlə mülkiyyətçi arasındakı maddi (əmlak) xarakterli münasibətləri müəyyən etmir. Başqa sözlə desək, MM-in həcz barədə olan 209-cu maddəsində mülkiyyətçinin öz əmlakının dəyəri kimi aldığı kompensasiya məbləğini dövlətə qaytarması haqqında göstəriş ifadə edilmir. Elə hesab etmək olar ki, mülkiyyətçi kompensasiyanı dövlətə qaytarmağa borcludur. Belə halda əldən çıxmış fayda, həcz zamanı əmlakdan istifadə nəticəsində onun qiymətinin aşağı düşməsi ilə əlaqədar olan maddi itki nəzərə alınmalıdır, yəni belə itkinin (zərərin) əvəzi ödənilməlidir. Daha konkret desək, maddi itkinin (zərərin) əvəzinin ifadə olunduğu pul məbləği kompensasiya məbləğindən çıxılmalıdır. Əmlakı rekvizisiya olunmuş şəxsin həmin əmlakın geri qaytarılmasını tələb edərkən vindikasiya iddiası (mülkiyyət hüququnun müdafiə üsullarından biri) verməsi lazım gəlir: ona görə ki, həcz zamanı əmlakı həcz edilmiş şəxsin həmin əmlak üzərində mülkiyyət hüququna xitam verilir.

Həcz ilə əlaqədar yaranan münasibətlər Azərbaycan SSR-də «Həcz və müsadirə haqqında» 31 dekabr 1927-ci il tarixli qanunla (sonrakı dəyişikliklərlə) qaydaya salındı. Həmin qanun müəyyən edir ki, həcz ciddi zərurət olduqda

[1] Rekviziya latınca «reguisitio» sözündən olub, tələb mənasını ifadə edir (Словарь иностранных слов. М., 1985, с. 426).

[1] Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 470.

[2] Həcz yolu ilə vətəndaşların torpaq üzərində xüsusi mülkiyyət hüququna xitam verilməsi əvvəlki Torpaq Məcəlləsiinin 35-ci maddəsində nəzərdə tutulmuşdu. Buna oxşar göstəriş yeni Torpaq Məcəlləsinin 73-cü maddəsində də ifadə edilir. Azərbaycan Respublikasında xarici investisiya həczin obyekti ola bilər («Xarici investisiyanın qorunması haqqında» qanunun 11-ci maddəsi).

və səlahiyyətli dövlət orqanlarının xüsusi qərarına əsasən tətbiq olunur. Həcz haqqında qərarda həcz olunan predmetlər, ödənilmə üsulları və s. məsələlər barədə məlumat verilir. Həczi icra edən orqanın nümayəndəsi xüsusi akt tərtib edir. Bu aktda həczin aparılması əsasları, götürülməli olan əmlakın dəqiq siyahısı, mülkiyyətçiyə ödənilən haqqın miqdarı və digər məsələlər öz ifadəsini tapır. Həcz olunmuş əmlakın qiyməti həmin əmlak faktik götürüldüyü gündən bir aydan gec olmayaraq mülkiyyətçiyə verilir. Mülkiyyətçi həczi icra etmiş orqandan tabelik qaydasında yuxarı orqana şikayət verə bilər. Hesab edirik ki, həcz barədə xüsusi və ayrıca qanunun olmadığı indiki şəraitdə barəsində danışdığımız qanun öz əhəmiyyətini saxlayır; bəzi normaları öz aktuallığını itirsə də həmin qanun müasir dövrdə həcz münasibətlərinə tətbiq oluna bilər.

Bununla bərabər, qeyd etmək lazımdır ki, göstərilən həmin qanun həcz haqqında yeni xüsusi qanunun qəbul edilməsi üçün normativ hüquqi baza rolunu oynaya bilər. Yeni xüsusi qanun isə müasir tələblər baxımından və indiki şəraitə uyğun olaraq həcz edilmiş əmlakın alınması qaydasını və şərtlərini müəyyən etməlidir.

Beləliklə, həcz edilmiş əmlak dövlətin mülkiyyətinə keçir və müvafiq orqanların sərəncamına verilir. Bununla həmin əmlak üzərində mülkiyyətçinin mülkiyyət hüquqlarına xitam verilir. Mülkiyyət hüququna xitam verilməsinin üsullarından biri olan həcz bütün ölkələrin qanunvericiliyində nəzərdə tutulan ənənəvi üsuldur.

8. Müsadirə

Əmlak üzərində mülkiyyət hüququna xitam verilməsi üsullarından biri müsadirədir. Bu üsul MM-in 212-ci maddəsində nəzərdə tutulmuşdur[1]. Əvvəlcə onu qeyd edək ki, müsadirə həczdən, əsasən, üç xüsusiyyətinə görə fərqlənir. Birincisi, əgər həcz zamanı əmlak mülkiyyətçidən onun dəyəri ödənilməklə alınırsa, müsadirə üsulu ilə əmlak əvəzsiz olaraq, dəyəri ödənilmədən dövlət mülkiyyətinə keçir. İkincisi, əgər həcz cəmiyyətin mənafeyi və xeyrinə olaraq tətbiq edilirsə, müsadirə mülkiyyətçinin törətdiyi hüquq pozuntusuna görə müəyyən edilir. Üçüncüsü, həcz halında əmlak səlahiyyətli müvafiq dövlət orqanının (AR Nazirlər Kabinetinin), müsadirə zamanı isə məhkəmənin qərarı ilə alınır[2].

Müsadirə dedikdə, qanunda nəzərdə tutulmuş hallarda mülkiyyətçidən əmlakın törədilmiş cinayətə görə sanksiya şəklində məhkəmənin hökmü ilə əvəzsiz alınması başa düşülür (MM-in 212-ci maddəsi). 1964-cü il MM-də (142-ci maddə) müsadirəyə hüquq pozuntusu üçün sanksiya şəklində mülkiyyətçidən əmlakın əvəzsiz qaydada alınması kimi anlayış verilirdi. «Mülkiyyət haqqında» qanunun 6-cı maddəsinə görə, qanunvericilik aktlarında nəzərdə tutulmuş hallarda əmlakın mülkiyyətçidən cinayət törədilməsinə və ya digər hüquq pozuntusuna görə sanksiya şəklində məhkəmənin, arbitraj məhkəməsinin və ya səlahiyyətli başqa dövlət orqanının (vəzifəli şəxsin) qərarı ilə alına bilməsi müsadirə sayılırdı. Bu qanun yeni MM-dən fərqli olaraq, müsadirənin həm də inzibati qaydada tətbiq edilməsini nəzərdə tuturdu. Burada müsadirənin tətbiq edilməsini şərtləndirən əsas kimi təkcə cinayət əməli yox, həm də digər hüquq pozuntusu götürülürdü.

Yeni MM-də müsadirəyə verilən anlayışı bir o qədər də uğurlu hesab etmək olmaz. Ona görə ki, **müsadirə təkcə cinayət əməlinə görə yox, həm də digər hüquq pozuntusu üçün** tətbiq edilir. Digər hüquq pozuntusu dedikdə, mülki hüquq pozuntusu və ya inzibati hüquq pozuntusu başa düşülür. İnzibati xətanın törədilməsində alət və ya bilavasitə obyekt olmuş predmetin müsadirəsi inzibati tənbehin növlərindən biridir (İXM-in 27-ci maddəsi). Belə predmetlərin müsadirəsi onların ödənişsiz, məcburi qaydada dövlətin mülkiyyətinə alınmasından ibarətdir. Yalnız hüquq pozucusunun, yəni inzibati xəta törətmiş şəxsin xüsusi mülkiyyətində olan predmet müsadirə edilə bilər. **İnzibati-hüquqi müsadirənin mahiyyəti** bundan ibarətdir.

1964-cü il MM-də bəzi mülki hüquq pozuntusuna görə **mülki-hüquqi müsadirə** nəzərdə tutulmuşdu. Həmin Məcəllənin 45-ci maddəsi dövlət və cəmiyyətin mənafeyinə zidd məqsədlə bağlanan əqd üzrə tərəflərin aldıqlarının (hər iki tərəfin hərəkətində qəsd olduqda) dövlət mədaxilinə keçirilməsi qaydasını müəyyən edirdi. Həmin məcəllənin 52-ci maddəsinə görə əqd aldatma, zor, hədə təsiri və digər əsaslardan birinə görə etibarsız sayıldıqda, zərər vuranın əsassız olaraq aldığının dövlət mədaxilinə keçirilməsi nəzərdə tutulurdu. Bəzi qanunvericilik aktları mülki-hüquqi müsadirə haqqında qayda müəyyən edir. Məsələn, valyuta qanunvericiliyini pozmaqla bağlanmış etibarsız əqdlər üzrə əldə edilən gəlirlər dövlətin mədaxilinə silinir («Valyuta tənzimi haqqında» qanunun 18-ci maddəsi). Bu, mülki-hüquqi müsadirə deməkdir.

Gömrük Məcəlləsinin 237-ci maddəsində müsadirə (malların və nəqliyyat vasitələrinin müsadirəsi) gömrük qaydalarının pozulmasına görə tətbiq edilən tənbeh növlərindən biri kimi nəzərdə tutulur[1]. Kontrabanda predmetləri, habelə dövlət sərhədindən kontrabanda predmetlərini keçirmək və ya onları gizlətmək üçün nəzərdə tutulmuş daşıma vasitələri və başqa vasitələr müsadirə edilir. Müsadirə gömrük orqanları tərəfindən inzibati qaydada qəbul edilmiş qərar əsasında həyata keçirilir. Söhbət gömrük qaydalarının pozulmasına görə tətbiq olunan inzibati-hüquqi müsadirədən gedir.

Cinayət hüququnda əmlak müsadirəsinə, yəni **cinayət-hüquqi müsadirəyə** CM-in 32-ci maddəsində anlayış verilmişdi[2]. Bu maddəyə görə, məhkumun xüsusi mülkiyyətində olan əmlakının hamısının və ya bir hissəsinin məcburi qaydada, əvəzsiz olaraq dövlət mülkiyyətinə alınması müsadirə hesab edilirdi. Əmlak müsadirəsi cinayət cəzasının əlavə cəza növünə şamil edilməklə yalnız məhkəmə hökmü ilə həyata keçirilirdi. Şəxsi mülkiyyət hüququ ilə məhkuma məxsus olub və ya ümumi mülkiyyətdə onun payı olub, məhkumun özü və hi-

[1] Köhnə Torpaq Məcəlləsinin 33-cü maddəsində vətəndaşların torpaq üzərində xüsusi mülkiyyət hüququna müsadirə yolu ilə xitam verilməsi nəzərdə tutulmuşdu (bax: AR QK, I cild, s. 98).

[2] Hazırda qüvvədən düşmüş «Mülkiyyət haqqında» qanunun 6-cı maddəsində əmlakın məhkəmə, arbitraj məhkəməsinin qərarından başqa, digər səlahiyyətli dövlət orqanının (vəzifəli şəxsin) qərarı ilə müsadirə edilə bilməsinin mümkünlüyü göstərilmişdi (bax: AR QK, I cild, s 147). Yeni MM isə yalnız məhkəmə qaydasında müsadirənin mümkün olmasını müəyyən edir.

[1] bax: AR QK, III cild, s. 562.

[2] Yeni CM-də əmlak müsadirəsi adlı cəza növü nəzərdə tutulur.

mayəsindəki şəxslər üçün zəruri olan bəzi əmlak növləri müsadirə edilmirdi. Belə əmlak növlərinin (yəni müsadirə edilməli olmayan) siyahısı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 15 sentyabr 1980-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdi.

Konstitusiya Məhkəməsinin 12 yanvar 1999-cu il tarixli qərarı ilə CM-in xüsusi hissəsindəki maddələrin sanksiyalarında əlavə cəza növü kimi nəzərdə tutulan əmlak müsadirəsinin yalnız cinayət törədilərkən istifadə edilmiş alət və vasitələr, habelə cinayət yolu ilə əldə edilmiş əmlak barəsində tətbiq edilə bilməsinin mümkünlüyü müəyyən edilmişdir[1]. Bu qərar Konstitusiyanın 29-cu maddəsinin IV hissəsində ifadə olunan əmlakın tam müsadirəsinə yol verilməməsi barədə prinsipial müddəaya uyğundur. Konstitusiya Məhkəməsinin göstərilən qərarı əsasında CM-in 32-ci maddəsində məhkumun xüsusi mülkiyyətdə olan əmlakının hamısının məcburi qaydada, əvəzsiz olaraq müsadirə edilməsini nəzərdə tutan müddəaları 1 fevral 1999-cu il tarixindən qüvvədən düşmüşdür.

Qüvvədə olan CM-in 42-ci maddəsi cəzanın növlərini sadalayır ki, əmlak müsadirəsi onlardan biridir. Bu cəza növü məhkumun cinayət törədərkən istifadə etdiyi alət və vasitələrin, habelə cinayət yolu ilə əldə etdiyi əmlakın məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınmasını nəzərdə tutur; o, yalnız məcəllənin xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallarda təyin olunur. Cinayət-hüquqi müsadirənin mahiyyəti bundan ibarətdir.

Beləliklə, **müsadirənin mülki-hüquqi müsadirə, inzibati-hüquqi müsadirə və cinayət-hüquqi müsadirə kimi üç növü fərqləndirilir**. Mülki-hüquqi müsadirə mülki hüquq pozuntusuna, inzibati-hüquqi müsadirə inzibati hüquq pozuntusuna, cinayət-hüquqi müsadirə isə cinayət hüquq pozuntusuna görə tətbiq edilir. Qüvvədən düşmüş İnzibati Hüquqpozmalar haqqında Məcəlləyə görə, inzibati-hüquqi müsadirə inzibati qaydada səlahiyyətli dövlət orqanlarının qərarı əsasında həyata keçirilirdi ki, bu, Konstitusiyanın 29-cu maddəsinin IV hissəsində ifadə olunan müddəaya zidd idi. Bu müddəaya görə, heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Ona görə Konstitusiya qaydasında təsbit edilən imperativ xarakterli həmin göstəriş müsadirənin inzibati qaydada həyata keçirilməsinin mümkünlüyünü istisna edir[2]. Qüvvədə olan İXM bunu nəzərə alaraq, göstərilən ziddiyyəti aradan qaldırmışdır. Belə ki, həmin məcəllənin 27-ci maddəsinə görə, inzibati-hüquqi müsadirə hakim tərəfindən tətbiq edilir.

Beləliklə, həm inzibati-hüquqi, həm mülki-hüquqi, həm də cinayət-hüquqi müsadirəyə görə əmlak məcburi qaydada, əvəzsiz olaraq dövlət mülkiyyətinə alınır və bununla müvafiq şəxslərin mülkiyyət hüququna xitam verilir.

«Varidata təminat verilməsi haqqında» Konstitusiya qanunu qanunda nəzərdə tutulan hallar istisna olmaqla, şəxslərin varidatının toxunulmazlığına, məcburi və əvəzsiz olaraq dövlətin mülkiyyətinə keçirilməməsinə, müsadirə olunmayacağına tam təminat verir. Analoji göstəriş «Müəssisələr haqqında» qanunun 25-ci maddəsində də ifadə edilmişdi. Bu maddəyə görə, qanunda müəyyən edilmiş hallar istisna olmaqla, müəssisənin əmlakı müsadirə edilə bilməzdi.

Müsadirə bəzi ölkələrin qanunvericiliyinə məlum deyil. Məsələn, Almaniya Mülki Qanunnaməsində müsadirə kimi üsula rast gəlmirik[1].

9. Özəlləşdirmə

Hüquq ədəbiyyatında özəlləşdirməni mülkiyyət hüququna xitam verilməsinin xüsusi halı hesab edirlər[2]. Bu üsulla vətəndaşlar və hüquqi şəxslər əmlak üzərində mülkiyyət hüququ qazanır, dövlətin isə mülkiyyət hüququna xitam verilir. Özəlləşdirmə yalnız dövlət mülkiyyətində olan əmlaka şamil edilir. Dövlət mülkiyyətində olan əmlak özəlləşdirmə haqqında qanunvericilikdə nəzərdə tutulmuş qaydada vətəndaşların və hüquqi şəxslərin mülkiyyətinə özgəninkiləşdirilir (MM-in 203-cü maddəsinin 4-cü bəndi). Bunun nəticəsində dövlətə məxsus olan əmlak xüsusi mülkiyyətə keçir. Belə praktika İngiltərə, Fransa, Almaniya və s. ölkələrə də məlumdur.

Bununla bərabər, əks proses də baş verə bilər; qanun vətəndaşların və hüquqi şəxslərin mülkiyyətində olan əmlakın özgəninkiləşdirilməsinin mümkünlüyünü istisna etmir (MM-in 203-cü maddəsinin 5-ci bəndi). Bu, yalnız özgəninkiləşdirmənin dövlət ehtiyacları və ya ictimai və cəmiyyətin ehtiyacları üçün zəruri olduğu hallarda mümkündür. Belə halda özgəninkiləşdirilən əmlakın dəyəri qabaqcadan ədalətli ödəniş prinsiplərinə riayət olunmaqla vətəndaş və hüquqi şəxslərə verilir.

Özəlləşdirmə dedikdə (sözün geniş mənasında), dövlət mülkiyyətinin həm əvəzli, həm də əvəzsiz qaydada vətəndaşların və hüquqi şəxslərin mülkiyyətinə özgəninkiləşdirilməsi başa düşülür. Özəlləşdirmə prosesi gedişində dövlət mülkiyyəti hesab olunan əmlak təsərrüfat cəmiyyətlərinin və ortaqlıqlarının, fiziki və hüquqi şəxslərin mülkiyyətinə keçir. Mənzillər, torpaq sahələri, yaşayış evləri, binalar, müəssisələr (əmlak kompleksləri) və digər obyektlər dövlət mülkiyyətindən çıxaraq, xüsusi mülkiyyətə daxil olur.

Özəlləşdirmə mülkiyyətçi rolunda çıxış edən dövlətin qərarı əsasında həyata keçirilir. Özəlləşdirilən obyektlərə görə dövlət müəyyən haqq alır. Bu prosesin gedişində dövləti onun əmlak sərəncamçısı — İqtisadi İnkişaf Nazirliyi təmsil edir. Özəlləşdirmə nəticəsində dövlətin mülkiyyət hüququna xitam verilməsi və müəyyən şəxslər üçün mülkiyyət hüququnun əmələ gəlməsi hüquqi varislik qaydasında həyata keçirilir. Bu, yalnız özəlləşdirmə haqqında qanunda nəzərdə tutulan qaydada aparılır. Xüsusi qanunlar özəlləşdirilən obyekti (əmlakı) müəyyən edir.

Dövlət mülkiyyətinin özəlləşdirilməsi həmin mülkiyyətin qanunla müəyyən edilən qaydada xüsusi mülkiyyətə verilməsini ifadə edir. Bu prosesin prin-

[1] bax: Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi. Sənədlər toplusu. Bakı, 1999, s. 206.

[2] RF-in Konstitusiyasının 35-ci maddəsinin 3-cü hissəsində heç kəsin məhkəmə qərarı olmadan mülkiyyətdən məhrum edilə bilməməsi haqqında göstəriş vardır. Müəlliflərdən bəzisi inzibati qaydada müsadirəni Konstitusiyanın bu müddəasına uyğun gəlməsini göstərir. Bu fikrin həqiqətdən çox uzaq olmasına heç kəsin şübhəsi ola bilməz (bax: Комментарий к Кодексу РФ об административных правонарушениях / Под ред. *И.В.Веременко и др.* М., 1997, с. 66-67).

[1] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 424.

[2] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 503; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 286.

sipləri və təşkilati-hüquqi əsasları «Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında» 7 yanvar 1993-cü il tarixli qanunla müəyyən edilir[1]. Qanuna görə, Azərbaycan Respublikasının vətəndaşları, xarici hüquqi və fiziki şəxslər, dövlət müəssisəsi olmayan hüquqi şəxslər, özəlləşdirilən obyektin əmək kollektivi özəlləşdirmənin subyekti sayılır. Özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlər istisna olmaqla, dövlət mülkiyyətində olan bütün müəssisələr və əmlak **özəlləşdirmənin obyekti** hesab edilir. Özəlləşdirmənin iki yolla həyata keçirilməsi nəzərdə tutulmuşdur: özəlləşdirilən əmlakın haqqının tam ödənilməklə satışı; özəlləşdirilən əmlakın haqqının qismən (güzəştlə) ödənilməklə satışı. Qanun özəlləşdirmənin müxtəlif formalarını müəyyən etmişdir: əvvəllər icarəyə verilmiş əmlakın dövlət əmlakını idarə edən orqanın razılığı ilə icarəçiyə satılması; əmlakın müəssisə kollektivinə satılması; auksion (hərrac) və müsabiqələrin təşkili; məhdud məsuliyyətli cəmiyyətlərin (qapalı səhmdar cəmiyyətlərinin) yaradılması; açıq səhmdar cəmiyyətlərinin yaradılması.

«Mənzil fondunun özəlləşdirilməsi haqqında» 26 yanvar 1993-cü il tarixli qanun dövlət mənzil fondunun özəlləşdirilməsi şərtlərini və qaydasını, əsas prinsiplərini müəyyən etmişdir[2]. Qanun dövlət mənzil fondunun mülkiyyətçisi ilə mənzil kirayə müqaviləsi bağlamış vətəndaşların yaşadıqları evləri əvəzsiz olaraq şəxsi (xüsusi) mülkiyyətinə keçirməsi hüququnu təsbit edir. Göstərilən qanunun 9-cu maddəsində dövlət mülkiyyətində olan mənzillərin özəlləşdirilməsi qaydası göstərilmişdir. Bunun üçün əvvəlcə vətəndaş Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı Orqanına (indi AR Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə; bu orqan daşınmaz əmlakın dövlət reyestrini tərtib edir və aparır) yaşadığı evi özəlləşdirmək barədə ərizə verir. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir: ərizəçi ilə birlikdə yaşayan, həmin mənzil sahəsinə (evə) hüququ olan 18 yaşı tamam olmuş şəxslərin mənzilin özəlləşdirilməsinə dair razılıqları barədə ərizələri; mənzil-istismar idarəsinin verdiyi arayış (2 nömrəli forma); mənzil sahəsinin orderi. Həmin orqan ərizə daxil olduğu gündən bir ay ərzində göstərilən mənzilin (evin) vətəndaşın xüsusi mülkiyyətinə verilməsi barədə dövlət qeydiyyatını həyata keçirir. Vətəndaşa mənzilə (evə) mülkiyyət hüququ barədə qeydiyyat vəsiqəsi (küpçə) verilir. Bundan sonra yerli icra hakimiyyəti orqanı mənzili (evi) balansdan silir.

Sovxozların və digər dövlət kənd təsərrüfatı istehsalı müəssisələrinin əmlakının özəlləşdirilməsinin ümumi qaydaları «Sovxoz və kolxozların islahatı haqqında» 18 fevral 1995-ci il tarixli qanunla müəyyən edilmişdir[3]. Qanun toxumçuluq, cins mal-qara və damazlıq təsərrüfatları, atçılıq zavodları, elmi-tədqiqat və tədris müəssisələrinin təcrübə bazaları, vəhşi heyvandarlıq sovxozları və dövlət əhəmiyyətli digər müəssisələrin yalnız əsas istehsal məqsədlərini təmin etmək üçün tələb olunan əmlakın dövlət mülkiyyətində saxlanmasını, yerdə qalan bütün əmlak növlərinin özəlləşdirilməsini nəzərdə tutur (qanunun 9-cu maddəsi)[4].

«Torpaq islahatı haqqında» 16 iyul 1996-cı il tarixli qanun dövlət mülkiyyətinin özəlləşdirilməsinin əsaslarını nəzərdə tutmuşdur[1]. Qanun sovxoz torpaqlarından pay almaq hüququ olan subyektlərin dairəsini müəyyən edir: sovxozda daimi işləyən şəxslər; daimi yaşayış yeri sovxozun ərazisində olan şəxslər; sovxozdan təqaüdə çıxmış şəxslər və müvafiq rayonun ərazisində yaşayan şəxslər və s. Hər bir subyektə düşən orta torpaq payının ölçüsü sovxozun özəlləşdirilən ümumi torpaq sahəsinin subyektlərinin sayına bölünməsi yolu ilə müəyyən edilmişdir.

Qanunun 14-cü maddəsi sovxoz torpaqlarının özəlləşdirilməsi qaydasını nəzərdə tutmuşdur. Pay almaq hüququ olan şəxslərə (ailəyə) torpaq naturada verilir. Torpaq payı əvəzsiz olaraq onların xüsusi mülkiyyətinə daxil olur. Əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə torpaq payları yalnız istifadəyə verilir.

Sovxoz torpaqlarının özəlləşdirilməsi müvafiq Əsasnaməyə uyğun həyata keçirilir. Bununla bərabər, qanun özəlləşdirmə nəticəsində əldə edilən torpağa mülkiyyət hüququnun yalnız Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində qeydə alınmasından sonra əmələ gəlməsi qaydasını müəyyən edir.

Dövlət mülkiyyətinin özəlləşdirilməsində 29 sentyabr 1995-ci il tarixli qanunla təsdiq edilmiş «1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin I Dövlət Proqramı» əsas normativ hüquqi sənəd olmuşdur[2]. Bu sənəd özəlləşdiriləcək dövlət müəssisələrini kiçik, orta və iri müəssisələrə bölür.

Bütün orta və iri müəssisələr əvvəlcə səhmdar cəmiyyətlərinə çevrilir, sonradan isə özəlləşdirilirdi. Proqrama 1 saylı Əlavədə özəlləşdiriləcək və səhmləşdiriləcək müəssisələrin siyahısı verilmişdir. Bu Əlavə özəlləşdirməyə münasibətdə dövlət mülkiyyət obyektlərinin təsnifatını müəyyən etmişdir: özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlər; prezident qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər; Nazirlər Kabinetinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər; yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılaraq, İqtisadi İnkişaf Nazirliyinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər.

Dövlət mülkiyyətinin özəlləşdirilməsinin sonrakı mərhələsi «Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsinin II Dövlət Proqramı» ilə bağlıdır[3]. Proqram özəlləşdiriləcək dövlət müəssisə və obyektlərini iki qrupa bölür: prezidentin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər (mülki müdafiə və səfərbərlik təyinatlı obyektlər, kimya, neft-kimya və biokimya müəssisələri, televiziya mərkəzləri, hava, dəniz və çay nəqliyyatı müəssisələri və s.); Dövlət Əmlak Nazirliyinin (İqtisadi İnkişaf Nazirliyinin) qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər (ictimai iaşə və məişət xidməti müəssisə və obyektləri, hamamlar, aptekər, yüngül sənaye müəssisələri və s.).

II Dövlət Proqramında **dövlət əmlakının özəlləşdirmə forma və üsulları** müəyyən edilmişdir (bunlar barədə «Dövlət mülkiyyət hüququ» adlı fəsildə geniş söhbət açılmışdır):

- dövlət müəssisələrinin **fərdi layihələr üzrə özəlləşdirilməsi**;
- özəlləşdirilən dövlət müəssisələrinin əmlakının **əmək kollektivi üzvləri-**

[1] bax: AR QK, II cild, s. 20.
[2] bax: AR QK, II cild, s. 33.
[3] bax: AR QK, II cild, s. 416.
[4] bax: yenə orada, s. 418.

[1] bax: AR QK, III cild, s. 290-291.
[2] bax: Sahibkarlığa kömək və özəlləşdirmə proqramları. Bakı. 1999, s. 27.
[3] II Dövlət Proqramı prezidentin 10 avqust 2000-ci il tarixli fərmanı ilə təsdiq edilmişdir (AR QK, III xüsusi buraxılış, s. 660).

nə və onlara bərabər tutulan şəxslərə güzəştli satışı;

- dövlət əmlakının **hərraclar vasitəsilə satışı;**
- dövlət əmlakının **investisiya müsabiqələri vasitəsilə satışı;**
- **icarəyə verilmiş dövlət əmlakının satışı;**
- dövlət müəssisələrinin **müflis elan olunması yolu ilə satışı;**
- dövlət əmlakının **ixtisaslaşdırılmış çek və pul hərraclarında satışı.**

Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsini təmin edilməsində prezident aktlarının (fərman və sərəncamlarının) rolu və əhəmiyyəti böyükdür. Prezidentin 22 mart 2001-ci il tarixli fərmanı özəlləşdirilməsi başa çatmamış müəssisə və obyektlərin özəlləşdirilməsi qaydasını müəyyən edir[1]. Prezidentin ölkənin ayrı-ayrı təsərrüfat sahələrinə aid verdiyi sərəncamlar özəlləşdirmənin həyata keçirilməsinə böyük təsir göstərir. Həmin sərəncamlar özəlləşdirmə prosesinin qaydaya salınmasında böyük rol oynayır[2].

Özəlləşdirmənin iki növü vardır: dövlətsizləşdirmə; kommersiyalaşdırma. **Dövlətsizləşdirmə** dedikdə, dövlət müəssisələrinin əmlakının onların əmək kollektivlərinin yaratdıqları hüquqi şəxslərə keçməsi başa düşülür. İqtisadçıların əksəriyyəti belə hesab edirlər ki, bu halda xüsusi mülkiyyət yox, «kollektiv mülkiyyət» yaranır. Bu, səhv və yanlış mövqedir. Ona görə ki, göstərilən vəziyyətdə hüquqi şəxsin həmin əmlaka xüsusi mülkiyyət hüququ yaranır və onun özü xüsusi mülkiyyətçi kimi çıxış edir. Belə halda «əmək kollektivi»nin xüsusi və ya «kollektiv» mülkiyyət hüququndan söhbət gedə bilməz.

Kommersiyalaşdırma dedikdə, dövlət müəssisələrinin tərkibindən onların struktur bölmələrinin əmlakının elə ayrılması başa düşülür ki, məhz ayrılmış həmin əmlakın bazası əsasında yeni hüquqi şəxslər — müstəqil təsərrüfat cəmiyyətləri yaranır. Söhbət dövlət əmlakının bazası əsasında kommersiya təşkilatlarının yaranmasından gedir.

10. Mülkiyyət hüququndan imtina

Mülkiyyət hüququndan imtina mülkiyyət hüququna xitam verilməsinin əsaslarından biridir. Bu, MM-in 204-cü maddəsində nəzərdə tutulmuşdur. Göstərilən üsulla mülkiyyət hüququna xitam verilməsini müəyyən edən həmin maddə forma etibarilə MM-də yenidir. Lakin əvvəllər bu cür əsas əmlak münasibətlərində tətbiq edilirdi.

Qanun əmlakın növündən və vəziyyətindən asılı olaraq, mülkiyyət hüququndan imtinanın iki müxtəlif üsulunu (qaydasını) müəyyən edir: daşınmaz əmlaka olan mülkiyyət hüququndan imtina (MM-in 204-cü maddəsinin 1-ci bəndi); daşınar əşyaya olan mülkiyyət hüququndan imtina (MM-in 204-cü maddəsinin 2-ci bəndi).

Daşınmaz əmlaka mülkiyyət hüququndan imtina halında əmlakın mülkiyyətçisi və ya digər səlahiyyətli şəxs imtina etmək barədə ərizə ilə müraciət edir. Bu ərizə daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı andan mülkiyyətçinin daşınmaz əmlaka olan mülkiyyət hüququna xitam verilir. Daşınmaz əmlakın dövlət reyestrində qeydə alma barədə yazı ləğv edildikdə, mülkiyyətçi daşınmaz əmlaka mülkiyyət hüququnu itirir (MM-in 203-cü maddəsinin 1-ci bəndi). Belə təsəvvür yaranır ki, MM-in mülkiyyət hüququndan imtina barədə 204-cü maddəsi həmin məcəllənin 203-cü maddəsinin 1-ci bəndində nəzərdə tutulan əsasa (qeydə alma barədə yazının ləğv edilməsinə) görə mülkiyyət hüququna xitam verilməsi qaydasını dəqiqləşdirməklə konkretləşdirir. Mülkiyyət hüququna xitam verildiyi andan mülkiyyətçi əmlakı saxlamaq yükünü çəkmir, əmlakdan başqa şəxslərin istifadə etməsi nəticəsində vurulan ziyana görə məsuliyyət daşımır, habelə əmlaka görə vergi ödəmir.

Mülkiyyət hüququndan imtina qaydasında üzərində mülkiyyət hüququ itirilmiş daşınmaz əmlakın hüquqi taleyi və müqəddəratı onunla şərtlənir ki, o, birincisi, daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmamış əmlak kimi hər hansı şəxsin sahibliyinə keçə bilər (MM-in 178-ci maddəsinin 6-cı bəndi). Həmin şəxs otuz il müddətində əmlaka sahiblik edərsə, ona mülkiyyət hüququ əldə edir (kitab müddəti). İkincisi, o, əgər hər hansı şəxsin sahibliyinə keçməzsə, sahibsiz daşınmaz əmlak kimi dövlət mülkiyyətinə daxil olur (MM-in 178-ci maddəsinin 7-ci bəndi).

Daşınar əmlaka mülkiyyət hüququndan mülkiyyətçi iki üsulla imtina edə bilər. **Birinci üsulun** mahiyyəti ondan ibarətdir ki, mülkiyyətçi **imtina barədə yazılı elan verməklə** mülkiyyət hüququna xitam verir; elan KİV-də verilə və ya ictimai yerlərdə asıla bilər; elan əmlakın özünün üstünə də yapışdırıla bilər; amma verbal yolla, yəni şifahi yolla elan vermək olmaz. **İkincisi**, mülkiyyətçi həmin əmlaka hər hansı **hüququnu saxlamaq niyyəti olmadığını bildirmək üçün müəyyən hər hansı hərəkət etməlidir**. Mülkiyyətçi özünün əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək hüquqlarından əl çəkməsini açıq-aydın sübut edən hər hansı hərəkət yerinə yetirməlidir; söhbət mülkiyyətçinin **konklyudent hərəkətlər** etməsindən gedir; bu hərəkətlər onu sübut edir və təsdiqləyir ki, mülkiyyətçinin əmlakı öz təsərrüfatında saxlamaq niyyəti yoxdur; ətrafdakılar üçün bu, açıq-aşkar olmalıdır. Məsələn, o, əmlakı zibilxanaya və ya lazımsız şeylərin saxlandığı yerə atmaqla mülkiyyət hüququndan imtina edə bilər. Belə halda həmin üsul atılmış əşya anlayışına yaxınlaşır. Atılmış əşya odur ki, mülkiyyət hüququndan imtina etmək məqsədilə mülkiyyətçi bu əşyanı atır və ya ondan digər qaydada əl çəkir (MM-in 226-cı maddəsinin 1-ci bəndi).

Üzərində mülkiyyət hüququnun itirildiyi daşınar əmlakın hüquqi taleyi və aqibəti onunla şərtlənir ki, bu əmlak **sahibsiz daşınar əmlak statusu** əldə edir və onun hüquqi rejimi MM-in 184-cü maddəsi ilə müəyyən edilir.

Beləliklə, qeyd etdiyimiz göstərilən bütün bu vasitələr **mülkiyyət hüququna xitam verilməsini şərtləndirən üsulların qəti siyahısını** təşkil edir. Qa-

[1] bax: «Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı»na uyğun olaraq özəlləşdirməyə açıq elan edilmiş, lakin özəlləşdirilməsi başa çatmamış müəssisə və obyektlərin «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı» çərçivəsində özəlləşdirilməsi barədə» fərman (AR QK, III xüsusi buraxılış, s. 702).

[2] Belə sərəncamların sayı kifayət qədər çoxdur: «Kimya sənayesi müəssisələrinin və təşkilatlarının özəlləşdirilməsi haqqında» sərəncam (22 mart 2001-ci il); «Maşınqayırma sənayesi müəssisələrinin özəlləşdirilməsi haqqında» sərəncam (22 mart 2001-ci il); «Yanacaq-energetika kompleksi müəssisələrinin özəlləşdirilməsi haqqında» sərəncam (22 mart 2001-ci il); «Damazlıq, quşçuluq təsərrüfatının özəlləşdiriliəsi haqqında» sərəncam (29 mart 2001-ci il); «Azərbaycan Hava Yolları» Dövlət Konserninin bir sıra müəssisələrinin özəlləşdirilməsi haqqında» sərəncam (29 mart 2001-ci il) // AR QK, III xüsusi buraxılış, s. 733, 734, 735, 738, 739.

nunun mülkiyyət hüququna xitam verilməsini nəzərdə tutan normalarını (MM-in 203-212-ci maddələri) genişləndirici təfsir etmək olmaz. Ona görə ki, Konstitusiya qaydasında mülkiyyət toxunulmazlığı prinsipi təsbit edilmişdir. Mülkiyyət toxunulmazlığı prinsipi həm də MM-in 6-cı maddəsinin birinci bəndində müəyyən edilmişdir.

11. Milliləşdirmə

Milliləşdirmə mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsuludur. Bu üsul həm də mülkiyyət hüququna xitam verilməsini şərtləndirir.

Milliləşdirmə terminini qüvvədə olan yeni MM işlətmir. RF MM-inin 235-ci maddəsinin 2-ci hissəsində bu termindən istifadə olunur və milliləşdirməyə vətəndaş və hüquqi şəxslərin mülkiyyətində olan əmlakın dövlət mülkiyyəti üçün alınması kimi anlayış verilir. Bu termini işlətməsə də, analoji anlayışı Azərbaycan Respublikasının MM-i də (203-cü maddəsinin 5-ci bəndi) verir: **vətəndaşların və hüquqi şəxslərin mülkiyyətində olan əmlakın dövlət və cəmiyyətin ehtiyacları üçün alınmasına milliləşdirmə deyilir;** milliləşdirmə xüsusi mülkiyyətçilərə məxsus olan əmlakın dövlət xeyrinə özgəninkiləşdirilməsidir. RF-in MM-i milliləşdirmənin səbəblərini müəyyən etmir. Bundan fərqli olaraq, Azərbaycan Respublikasının MM-i milliləşdirmənin səbəbini dövlət və cəmiyyətin ehtiyacları anlayışı ilə əlaqələndirir. Milliləşdirmənin səbəbləri əmlakın mülkiyyətçisinin iradəsindən asılı olmayıb, dövlətin və cəmiyyətin mənafeyi ilə müəyyən edilir.

Konstitusiyanın 29-cu maddəsinin 4-cü hissəsi milliləşdirmə barədə qayda nəzərdə tutur. Bu qaydaya görə, dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərtilə yol verilə bilər. Analoji qayda RF-in Konstitusiyasının 35-ci maddəsinin 3-cü bəndində də nəzərdə tutulmuşdur[1].

Konstitusiyanın nəzərdə tutduğu model əsasında da mülki qanunvericiliyin milliləşdirmə haqqında normaları qurulur. Konstitusiyanın 29-cu maddəsinin 4-cü hissəsinin göstərişlərinə əsaslanaraq, mülki qanunvericilik müəyyən edir ki, vətəndaşların və hüquqi şəxslərin xüsusi mülkiyyəti yalnız **mülkiyyət hüququna xitam verən Azərbaycan Respublikası qanununun qəbul edilməsi ilə** (mülkiyyət hüququna xitam verilən zaman mülkiyyətçilərə dəyən zərərin əvəzinin ödənilməsi haqqında mübahisələr isə məhkəmə qərarı ilə həll edilir) dövlət mülkiyyətinə alına bilər (MM-in 210-cu maddəsi). RF-in MM-ində də milliləşdirmənin yalnız xüsusi qanun əsasında həyata keçirilməsi nəzərdə tutulur.

Milliləşdirmə əsasında şəxslərin mülkiyyət hüququna yalnız xüsusi və ayrıca qanun qəbul edilməsi ilə xitam verilməsi barədə normanı həm Azərbaycan

[1] Müəlliflərdən Q.A.Hacıyev belə hesab edir ki, RF-in Konstitusiyasının 35-ci maddəsinin 3-cü bəndində ifadə edilən göstərişin milliləşdirməyə heç bir aidiyyəti yoxdur (bax: *Г.А.Гаджиев.* Основные экономические права. Автореф. док. дисс. М., 1996, с. 35). Q.A.Hacıyevin bu fikri ilə çətin ki razılaşmaq olar. RF-in Konstitusiyasının 35-ci maddəsinin 3-cü bəndində nəzərdə tutulur ki, mülkiyyətçidən mülkiyyət qabaqcadan onun dəyəri ödənilmək şərtilə alına bilər. Bu müddəada milliləşdirmənin əlamətləri vardır (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998).

Respublikasının, həm də Rusiya Federasiyasının mülki qanunvericiliyi MDB ölkələri üçün Model Mülki Məcəlləsindən götürmüşdür. Belə ki, həmin məcəllənin 307-ci maddəsinə görə xüsusi qanun qəbul etmək əsasında milliləşdirmə yolu ilə mülkiyyət hüququna xitam verilə bilər.

Azərbaycan Respublikasının MM-in 210-cu maddəsi milliləşdirməyə həsr olunmuşdur. Düzdür, burada «milliləşdirmə» anlayışından istifadə olunmasına rast gəlmirik. Lakin analoji maddə RF-nin MM-ində (306-cı maddə) də nəzərdə tutulmuşdur və həmin maddəyə kommentariya verən müəlliflər göstərirlər ki, burada söhbət məhz milliləşdirmədən gedir[1]. Bu maddəyə görə, yalnız mülkiyyət hüququna xitam verən Azərbaycan Respublikası qanunu qəbul edildiyi halda milliləşdirmə həyata keçirilə bilər: **milliləşdirmənin həyata keçirilməsi üçün məhkəmə qərarı tələb edilmir.** Məhkəmə qərarı yalnız o halda lazım olur ki, milliləşdirmə nəticəsində milliləşdirilmiş əmlakın mülkiyyətçisinə dəyən zərərin əvəzinin ödənilməsi barədə onunla dövlət arasında mübahisə yaransın; belə mübahisəni məhz məhkəmə həll edir (MM-ni 210-cu maddəsi). Əgər zərərin əvəzinin ödənilməsinə dair mülkiyyətçi ilə dövlət arasında mübahisə olmazsa və dövlət zərərin əvəzini könüllü surətdə ödəyərsə, onda məhkəmə prosedurasına ehtiyac qalmır. Özü də o, **mülkiyyətçiyə vurulan zərərin əvəzini dövlət büdcə vəsaiti hesabına tam həcmdə ödəməlidir**.

Dövlətin həm də borcudur ki, milliləşdirilən əmlakın dəyərini ödəsin, yəni mülkiyyətçiyə kompensasiya versin. Məsələyə bu cür yanaşma isə təsadüfi deyildir. Belə ki, BMT Baş Məclisinin XX əsrin 70-ci illərində qəbul olunan qətnamələrində göstərilir ki, milliləşdirmə aktı yalnız milliləşdirilən əmlakın mülkiyyətçisinə kompensasiya ödənilməsi şərtilə qanuni sayıla bilər; bu qətnamələr milliləşdirmə zamanı xüsusi (qeyri-dövlət) mülkiyyətçilərin mülkiyyət hüququnun müdafiə edilməsi prinsipindən çıxış edir; bu prinsip öz rəsmi-normativ ifadəsini praktiki olaraq bütün ölkələrin daxili qanunvericiliyində tapır. İkinci Dünya müharibəsindən sonra həmin prinsip Şərqi Avropa ölkələri tərəfindən də tanınmışdır. Hal-hazırda qeyd etdiyimiz prinsip MDB ölkələrində qəbul olunan xarici investisiya haqqında qanunlarda da formulə edilmişdir. Milliləşdirmə zamanı mülkiyyətçiyə kompensasiya ödənilməsi prinsipi bizim ölkənin xarici investisiyanın qorunmasına həsr olunan qanununda nəzərdə tutulmuşdur.

Göstərilən qanuna görə, Azərbaycan Respublikasında xarici investisiya milliləşdirilmir, bu şərtlə ki, o, Azərbaycan Respublikasının xalqına və dövlət mənafelərinə zərər vurmasın («Xarici investisiyanın qorunması haqqında» qanun)[2]. Bununla belə, əgər xarici investisiya Azərbaycan xalqına və dövlət mənafeyinə zərər vurarsa, milliləşdirilir; bu zaman mülkiyyətçiyə (xarici investora) təxirə salınmadan, müqabil və səmərəli kompensasiya ödənilir.

Milliləşdirmə məcburi xarakter daşıyan elə bir tədbirdir ki, bunun nəticəsində iqtisadiyyatın ayrı-ayrı obyektləri yox, iqtisadiyyatın bütöv və kompleks sahələri dövlət mülkiyyətinə keçir. Bu tədbirin xarakteri onun kim tərəfindən və hansı məqsədlə həyata keçirilməsindən asılıdır. 1917-1920-ci illərdə Sovet dövləti torpağı, bankları, sənaye və ticarət müəssisələrini milliləşdirmişdi. Milli-

[1] Комментарий к Гражданскому кодексу РФ. Часть 1 /Под ред. *Н.Д.Егорова, А.П.Сергеева.* М., 2003, с. 614.

[2] bax: AR QK, I cild, s. 247.

ləşdirmə bir çox Şərqi Avropa və Asiya ölkələrində, müstəmləkə asılılığından azad olan və iqtisadi müstəqillik əldə edən dövlətlərdə, habelə yüksək inkişaf etmiş Qərb ölkələrində də həyata keçirilmişdir.

Dövlətin suverenliyi beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərindən biridir. Bu prinsip əsasında hər bir dövlət özünün siyasi və iqtisadi sistemini müəyyən edir. Mülkiyyət hüququnun əldə edilməsi və xitam olunması üsullarını və əsaslarını, mülkiyyət hüququnun məzmununu müəyyən etmək dövlətin müstəsna hüququdur. Söylədiklərimizdən belə çıxır ki, suverenlik prinsipi hər bir dövlətin xüsusi mülkiyyəti milliləşdirmək hüququnu şərtləndirir. Milliləşdirmənin həyata keçirilməsi dövlət suverenliyinin ifadə formalarından biridir.

Dövlətin milliləşdirmə hüququna malik olması beynəlxalq hüquq tərəfindən qəbul edilmişdir. Beynəlxalq hüquq suveren dövlətin milliləşdirməni həyata keçirmək hüququnu tanıyır. BMT-nin Baş Məclisinin VII sessiyasında (21 dekabr 1952-ci il) təbii sərvət və ehtiyatlardan müstəqil istifadə hüququ haqqında 626 saylı qətnamə qəbul edilmişdir. Qətnamə xalqların təbii sərvətlərə sərəncam vermək hüququnu onun ayrılmaz suveren hüququ kimi xarakterizə edir.

Milliləşdirmənin həyata keçirilməsi hər bir dövlətin daxili səlahiyyətlərinə aiddir. Hər hansı beynəlxalq orqanın bu məsələni müzakirə etməyə ixtiyarı yoxdur. Bu müddəa BMT-nin Beynəlxalq Məhkəməsinin qərarında öz əksini tapmışdır. Belə ki, İran dövləti tərəfindən İngilis-İran neft şirkəti milliləşdirildiyinə görə Böyük Britaniya hökuməti 1952-ci ildə Beynəlxalq Məhkəməyə şikayət edir. Məhkəmə səlahiyyəti olmadığına görə bu şikayətə baxmaqdan imtina etmişdir.

Milliləşdirmənin hüquqi təbiəti bir neçə əlamətlə şərtlənir[1]. Birincisi, **milliləşdirmə dövlət hakimiyyət aktıdır;** bu aktın həyata keçirilməsi obyektiv surətdə mövcud olan dövlət mənafeyi ilə şərtlənir; o, öz mənafeyini təmin etmək üçün milliləşdirmə aktı kimi tədbir görür; milliləşdirmə dövlət tənzimetmə tədbiridir. İkincisi, milliləşdirmə **ayrı-ayrı şəxslərə tətbiq edilən cəza tədbiri olmayıb, ümumi xarakter daşıyan sosial-iqtisadi tədbirdir**. Bu xüsusiyyətinə görə, milliləşdirmə ayrı-ayrı obyektlərin dövlət mülkiyyətinə alınması kimi tədbir olan ekspropriasiyadan və cəza tədbiri olan müsadirədən fərqlənir. Düzdür, bəzi ölkələrin qanunvericiliyində (məsələn, İtaliya MM-inin 834-cü maddəsində; Kvebek MM-inin 952-ci maddəsində) milliləşdirmə həm də ekspropriasiya adlanır. Lakin onlar bir-birinə həddən ziyadə yaxın olsalar da məzmunca tam üst-üstə düşən, eynimənalı anlayışlar deyillər. Belə ki, ekspropriasiya milliləşdirmənin bir formasıdır; bu forma adətən, əvəzsiz olaraq həyata keçirilir, yəni əmlakı dövlət tərəfindən alınan mülkiyyətçiyə kompensasiya ödənilmir. Digər tərəfdən milliləşdirmə cinayət hüquqi müsadirədən fərqli olaraq nə cinayət-hüquqi sanksiya, nə cinayət hüququ üzrə cəza tədbiri, nə də cinayət cəzasının növüdür; milliləşdirməni eyni zamanda nə mülki-hüquqi müsadirə, nə də inzibati-hüquqi müsadirə hesab etmək olar.

Üçüncüsü, milliləşdirməni həyata keçirən hər bir dövlət **milliləşdirilən əmlaka görə kompensasiya verilib-verilməməsini müəyyən edir**.

Beləliklə, milliləşdirmə termini ilə **dövlətləşdirmə**, yəni xüsusi mülkiyyətdə olan əmlakın alınıb, dövlət mülkiyyətinə verilməsi başa düşülür. Dövlətsizləşdirmə isə bunun əksi olan prosesdir.

[1] Milliləşdirmənin əsas xüsusiyyətləri barədə bax: Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüququ. Dərslik. Bakı, 2007.

§ 8. Hüquqlara və tələblərə mülkiyyət hüququnun əldə edilməsi

Hüquqlara və tələblərə mülkiyyət hüququnun əldə edilməsi bizim ölkə qanunvericiliyində yeni anlayışdır[1]. Sovet dövrünün mülki məcəllələri belə anlayış nəzərdə tutmurdu. Sovet hüquq elmi, o cümlədən sovet mülki qanunvericiliyi, ümumiyyətlə, hüquqlara (tələblərə) mülkiyyət hüququnun əldə edilməsi qaydasını tanımırdı; Sovet mülki hüquq konsepsiyasına görə, mülkiyyət hüququnun obyekti yalnız maddi əşya, fiziki predmet ola bilərdi. İngiltərə mülki hüququ və ABŞ hüququ «mülkiyyət» terminini daha geniş mənada işlədərək, bəzən mülkiyyət hüququ anlayışını əmlak hüququ anlayışı ilə eyniləşdirir; bu ölkələrin doktrinası və qanunvericiliyi əmlak hüquqlarına da mülkiyyət hüququnun əldə edilməsi barədə qayda nəzərdə tutur. Bu qayda bəzi Avropa ölkələrinin qanunvericiliyinə məlumdur. Azərbaycan Respublikasının müasir qanunvericiliyi bazar iqtisadiyyatı şəraitində əmlak dövriyyəsinin inkişaf tələbatını nəzərə almaqla, həmin ölkələrin qanunvericilik ənənələrinə uyğun olaraq MM-ə hüquqlara (tələblərə) mülkiyyət hüququnun əldə edilməsi barədə qayda daxil edir. Yeni MM-in 9-cu fəslinin 3-cü paraqrafına daxil olan normalar həmin məsələnin tənzimlənməsinə həsr edilmişdir (193-202-ci maddələr).

Bazar iqtisadiyyatı şəraitində əmlak xarakterli tələblər (hüquqlar) mülki dövriyyənin müstəqil obyekti kimi çıxış edir. Onlar xüsusən də birja ticarətinin müxtəlif formalarının inkişafına geniş yol açır. Məsələn, fyuçerslərlə ticarət geniş yayılmışdır. Belə halda icrası gələcəkdə nəzərdə tutulan kontraktlar (birja əqdləri) əvəzli qaydada özgəninkiləşdirilir. Beynəlxalq ticarət dövriyyəsində biz tez-tez mal ixrac edən şəxslərin əcnəbi (xarici) alıcılardan pul almaq tələblərinin kredit təşkilatlarına verilməsinin şahidi oluruq[2]. Təsərrüfat (sahibkarlıq) dövriyyəsində patent hüquqları əvəzli qaydada özgəninkiləşdirilir. Bunun nəticəsində əvvəlki hüququn sahibi əmlak hüquqlarına mülkiyyət hüququnu itirir, bu hüququn yeni sahibi isə onlara mülkiyyət hüququ əldə edir. Deməli, müasir qanunvericiliyə görə, təkcə əşyalara (maddi predmetlərə) yox, həm də qeyri-maddi predmetlərə, yəni hüquqlara və tələblərə mülkiyyət hüququ əldə edilir. Bu hüquq və tələblər əmlak hüquqlarıdır. Roma hüququ onları qeyri-maddi əşya (res in corporales) anlayışına daxil edirdi. Belə ki, əşya (res) maddi əşyalar (res corporales) və qeyri-maddi əşyalar adlı iki yerə bölünürdü. Qeyri-maddi əşyalar dedikdə, əşya, vərəsəlik və öhdəlik hüquqları başa düşülürdü[3]. Mülkiyyət hüququ (dominium) isə maddi əşyalara aid edilirdi.

Ümumi qaydaya görə, əşya hüququnun, o cümlədən onun əsas növü olan

[1] RF-in müasir qanunvericiliyi bu cür münasibətləri ayrıca və xüsusi olaraq tənzimləmir.

[2] *Шмиттгофф К.* Экспорт: право и практика международной торговли. М., 1993, с. 231.

[3] *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 358-359; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 2000, с. 147.

mülkiyyət hüququnun obyekti qismində yalnız maddi əşya çıxış edə bilər. Mülkiyyət ancaq maddi əşyaya münasibətdə mövcud olur[1]. Kontinental Avropa ölkələrinin əksəriyyətinin qanunvericiliyi müəyyən edir ki, mülkiyyət hüququnun obyekti yalnız maddi əşya ola bilər. Maddi əşya dedikdə isə Almaniya MQ-nin 90-cı paraqrafına görə, maddi predmetlər başa düşülür. Yaponiya qanunvericiliyi də maddi əşya kateqoriyasına maddi predmetləri aid edir (MM-in 85-ci maddəsi). Analoji göstərişi bizim ölkə qanunvericiliyi də ifadə edir: yalnız fiziki obyektlər əşya sayılır (MM-in 135-ci maddəsinin 1-ci bəndi).

Bununla belə, xarici ölkələrin sivilistika doktrinasında Roma hüququ ənənələrinə uyğun olaraq, əşya kateqoriyasına qeyri-maddi predmetləri də şamil edirlər. Belə predmetlər qeyri-korporal (latınca «corpus» — cisim, bədən) və ya qeyri-maddi əşyalar adlanır. Yaponiya mülki hüquq elmində göstərilir ki, əşya kateqoriyasına maddi predmetlərdən savayı, hüququn digər obyektləri (yəni qeyri-maddi predmetlər) də daxil edilə bilər, bir şərtlə ki, bu, onların xarakterinə görə mümkün olsun[2]. Almaniya sivilistika elmində hüquqların (qeyri-maddi predmetlərin) əşya hüququnun obyekti qismində çıxış edə bilməsi göstərilir[3]. Digər tərəfdən, bəzi ölkələrin (məsələn, Fransanın və İtaliyanın) qanunvericiliyinə görə, mülkiyyət hüququ həm maddi predmetlərə, həm də qeyri-maddi predmetlərə şamil edilir[4]. Bu, o deməkdir ki, mülkiyyət hüququnun obyekti qismində qeyri-maddi nemətlərin çıxış etməsi istisna olunmur. **Almaniyanın Əsas qanununun 141-ci maddəsinə görə, mülkiyyət anlayışı ilə əşya, hüquq və tələblər əhatə olunur** ki, bu, mülkiyyətə verilən mülki-hüquqi tərifə uyğun gəlmir[5]. Avstriya qanunvericiliyi də müəyyən dərəcədə qeyri-maddi əmlakın mülkiyyət hüququnun obyekti olmasına yol verir. ABŞ mülki hüququna görə, iqtisadi qiyməti olan hüquqlara da mülkiyyət hüququ yarana bilər. Hollandiya Mülki Məcəlləsi əmlak hüquqlarının mülkiyyət hüququnun obyekti olmasını nəzərdə tutur.

Müasir mülkiyyət konsensiyası mülkiyyət hüququnun iki növ obyektini tanıyır:

- maddi əşya; (əmlak);
- qeyri-maddi əşya (əmlak).

Mülkiyyət hüququnun obyekti kimi maddi əşya dedikdə, fiziki obyekt, maddi predmet başa düşülür. Uzun müddət «əşya mülkiyyəti» kimi klassik konsensiya həlledici rol oynamışdır ki, bu konsensiyaya görə yalnız maddi əşyalar mülkiyyət hüququnun obyekti ola bilər; həmin konsensiyaya görə ancaq fiziki predmetlərə mülkiyyət hüququ əldə etmək mümkündür.

Mülkiyyət hüququnun obyekti kimi qeyri-maddi əşya dedikdə, dəyəri olan və pula qiymətləndirilə bilən hüquqlar başa düşülür. Söhbət **əmlak hüquqlarından** gedir. Müasir mülkiyyət konsensiyası mülkiyyət hüququnun obyekti kimi qeyri-maddi əşyaya aid edir:

- **sənaye mülkiyyəti hüquqları** (ixtira, sənaye nümunəsi, əmtəə nişanı, firma adı, nou-hau və digər obyektlərə olan hüquqlar);
- **maliyyə mülkiyyəti hüquqları** (pul, qiymətli kağızlarından, yəni istiqrazdan, vekseldən, çekdən və digər qiymətli kağızlardan irəli gələn tələb hüquqları; müxtəlif cəmiyyət və kompaniyalarda iştirak hüququnu ifadə edən sənədlər, yəni səhm və pay);
- **kommersiya mülkiyyəti hüquqları** (malların alınmasını ifadə edən mala sərəncamverici sənədlər, yəni konosament, anbar şəhadətnaməsi).

Həm sənaye mülkiyyəti, həm maliyyə mülkiyyəti, həm də kommersiya mülkiyyəti obyektlərinin maddi (əşya) forması yoxdur; bu obyektlər açıq-aşkar əşya xarakterində deyil.

İstehsal və iqtisadiyyatın inkişafı, elmi-texniki proqress mülkiyyət hüququnun obyekti kimi qeyri-maddi əşyaların əhəmiyyətini artırmış, mülkiyyət hüququ obyektlərinin ilkin, ənənəvi anlayışından prinsipial surətdə imtina olunmasını şərtləndirmişdir. Nəticədə mülkiyyət hüququnun obyekti olan maddi əşyalarla əməliyyatlar ikinci plana keçmiş, əmlak xarakterli və əmtəə məzmunlu hüquq olan qeyri-maddi əşyalar isə təsərrüfat-iqtisadi həyatın vacib amilinə çevrilmişdir.

Məlum məsələdir ki, qeyri-maddi predmetlər sözün əsl mənasında əşya sayılmır və buna görə də mülkiyyət hüququnun obyekti kimi çıxış edə bilməz. Ona görə ki, əşya maddi anlayışdır. Lakin buna baxmayaraq, bu cür predmetlər **formal cəhətdən əşya kateqoriyasına aid olunur**. Belə aid etmə **texniki xarakterli üsuldur** və qətiyyən əşya kateqoriyasına şamil olunan həmin predmetlərin mahiyyətini əks etdirmir. Belə aidiyyətin əsasında praktiki ehtiyaclar durur. Həmin ehtiyacları təmin etmək üçün qeyri-maddi predmetlər əşya kateqoriyasına aid edilir. Belə halda bu predmetlərlə bağlı olan müvafiq münasibətlərin hüquqi rejimi dəyişilir, yəni **həmin münasibətlər üçün xüsusi hüquqi status — əşya-hüquqi rejim** müəyyənləşdirilir. Bu cür rejimə görə, qeyri-maddi predmetlər maddi predmetlər (maddi əşyalar) kimi, mülkiyyət hüququnun obyekti kimi çıxış edir, bir şəxsin mülkiyyətindən digərinə keçir, həmin predmetlərə mülkiyyət hüququ əldə edilir və s. Bu isə göstərilən münasibətlərin müdafiəsini yüksəldir, təminatını artırır və dövriyyəni sürətləndirir[1]. Odur ki, maddi əşyalara olan mülkiyyət hüququ üçün müəyyənləşdirilmiş rejim sənaye, maliyyə və kommersiya mülkiyyəti hüquqlarına da şamil edilir[2]. Məhz bu səbəbdən bizim ölkə qanunvericiliyi qeyri-maddi əşyalara mülkiyyət hüququnun əldə edilməsi barədə qayda müəyyən edir. Qeyri-maddi əşyalar dedikdə isə yuxarıda qeyd etdiyimiz kimi, əmlak hüquqları başa düşülür.

Əmlak hüquqlarına mülkiyyət hüququnun əldə edilməsi dedikdə, bu hüquqların onların sahibi tərəfindən başqa şəxsin mülkiyyətinə verilməsi başa düşülür. Bununla şəxsin həmin hüquqlara mülkiyyət hüququ əmələ gəlir. Hüququn əvvəlki sahibinin hüquqlara olan mülkiyyət hüququna isə xitam verilir.

Lakin bütün hüquqlara, istisnasız olaraq, mülkiyyət hüququ əldə etmək ol-

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 15.
[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 92.
[3] *Эннекцерус Л.* Указ. соч., с. 15.
[4] *У.Маттеи, Е.А.Суханов.* Основные положения право собственности. М., 1999, с. 113.
[5] *BVerfQe* 58. № 300, s. 335 ff (Решения Конституционного суда. Том 58. № 300, с. 335 и след.); JuS. 1999. № 8, s. 786 (Юридическое образование. 1999, с. 786); *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 416.

[1] *Скловский К.И.* Собственность в гражданском праве. М., 1999, с. 430.
[2] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1. М., 2004, с. 317.

maz. Bunun üçün mülki qanunvericiliyin nəzərdə tutduğu və müəyyənləşdirdiyi şərtə əməl olunması tələb edilir (MM-in 193-cü maddəsinin 1-ci bəndi). Bu **şərtə görə, yalnız güzəşt edilməsi və ya girov qoyulması mümkün olan hüquqlar başqa şəxsin mülkiyyətinə verilə**, yəni özgəninkiləşdirilə bilər.

Başqa şəxsin mülkiyyətinə verilə bilən əmlak hüquqlarının dairəsi kifayət qədər genişdir. Bu hüquqlar müxtəlif növlərdə ola bilər:

- əşya hüquqları növündə;
- öhdəlik hüquqları növündə;
- əqli mülkiyyət hüquqları növündə;
- korporativ hüquqları növündə.

Əşya hüquqlarının əşyanın özündən ayrılmaqla başqa şəxslərin mülkiyyətinə verilməsi və özgəninkiləşdirilməsi prinsip etibarilə mümkündür. Belə halda əşyanın özü mülkiyyət hüququnu verən şəxsdə qalır. Bu şəxs əşyaya sahibliyi həyata keçirir. Roma hüququ belə münasibəti constitutum possessorium anlayışı ilə əhatə edirdi[1]. Bu, onu ifadə edir edir ki, əşya hüququ başqa şəxsin mülkiyyətinə verilmiş, əşyanın özü isə istifadə və ya kirayə (icarə) münasibətləri əsasında əvvəlki mülkiyyətçinin özündə qalmışdır. Məsələn, vətəndaş minik avtomobilinə əşya (mülkiyyət) hüququnu girov qoymaqla öz qonşusundan borc pul alır (minik avtomobili vətəndaşın özündə qalır). Müddət tamam olduqda, qonşu pulu qaytara bilmir. Belə halda əvvəlcədən əldə edilən razılığa görə minik avtomobilinə olan əşya (mülkiyyət) hüququ vətəndaşın mülkiyyətinə keçir. Qonşu isə minik avtomobilindən istifadə etməyi davam etdirir.

Əşya hüquqlarının bir növü olan məhdud əşya hüquqlarına (özgə əşyalarına olan hüquqlara) gəldikdə isə, qeyd etmək lazımdır ki, bu hüquqlar müstəqil surətdə başqa şəxsin mülkiyyətinə verilə bilməz. Məsələn, servitut hüququ müstəqil surətdə özgəninkiləşdirilə bilməz (MM-in 255-ci maddəsinin 3-cü bəndi). Bununla bərabər, məhdud əşya hüququnun bir növü olan tikiliyə vərəsəlik hüququnun (superfitsi hüququnun) özgəninkiləşdirilməsi mümkündür: torpağın üstündəki və ya altındakı binaya malik olmaq hüququ özgəninkiləşdirilə bilər (MM-in 250-ci maddəsinin 1-ci bəndi). Məsələn, şəxs superfitsi müqaviləsi əsasında başqa şəxsin mülkiyyətində olan torpaq sahəsində özünə yaşayış evi tikir. Bununla həmin şəxsin bu tikiliyə superfitsi hüququ yaranır. Göstərilən hüququ o, özgəninkiləşdirə bilər.

Əşya hüquqlarının özgəninkiləşdirilməsinin əsas hüquqi vasitəsi **hüquqların alqı-satqısı konstruksiyası** hesab edilir (MM-in 651-ci maddəsi). Belə hallarda bağışlama və dəyişmə müqavilələrindən də istifadə oluna bilər. Deməli, **mülki-hüquqi müqavilələr** əşya hüquqlarına mülkiyyət hüququnun əldə edilməsinin əsas üsuludur.

Başqasının mülkiyyətinə verilə bilən əmlak hüquqları arasında **öhdəlik (tələb) hüquqları — tələblər** mühüm yer tutur. Onlar öhdəlik hüquq münasibətlərindən (öhdəliklərdən) əmələ gəlir. Tələblər dedikdə, öhdəlik iştirakçısı olan kreditorun (səlahiyyətli şəxsin) digər iştirakçıdan, yəni borclu şəxsdən müəyyən hərəkətlərin edilməsini tələb etmək hüquqları başa düşülür. Onlar kreditor tərəfindən özgəninkiləşdirilə və bununla başqa şəxslərin mülkiyyətinə verilə bilər. Özü də dərhal qeyd etməliyik ki, kreditorun şəxsiyyəti ilə qırılmaz bağlı olan tələblərin, o cümlədən alimentlər haqqında və həyata və ya sağlamlığa vurulan zərərin əvəzinin ödənilməsi haqqında tələblərin güzəşt edilməsinə yol verilmir (MM-in 194-cü maddəsinin 3-cü bəndi). Məsələn, vətəndaş öz portretinin çəkilməsini rəssama sifariş edir. Məlum məsələdir ki, o, bu münasibətdən irəli gələn tələb hüququnu, yəni portretinin çəkilməsini rəssamdan tələb etmək hüququnu özgəninkiləşdirə bilməz.

Tələblərin özgəninkiləşdirilməsinin əsas hüquqi vasitəsi **tələbin güzəştidir** (verilməsidir). Tələbin güzəştinin əsas hüquqi forması isə **sessiyadır** (latınca «cessio» — güzəşt etmək, vermək). Sessiyanın əsasını isə tələblərin özgəninkiləşdirilməsinə yönələn mülki-hüquqi əqdlər təşkil edir. Söhbət tələblərin alqı-satqısı, dəyişmə, bağışlama və faktorinq kimi müqavilələrdən gedir[1]. Məsələn, vətəndaş öz qonşusuna borc pul verir. O, həmin pulun verilməsini tələb etmək hüququnu (tələbi) öz dostuna bağışlayır. Belə halda o, həmin tələbə mülkiyyət hüququ əldə edir. Başqa bir misalda vətəndaş tikinti təşkilatına onun üçün bağ evi tikməyi sifariş edir və dərhal podrat haqqını ödəyir. Evin tikilməsinə bir il qalmış o, evin verilməsini tələb etmək hüququnu (tələbi) öz qonşusuna satır. Belə halda qonşunun tələbə mülkiyyət hüququ yaranır.

Əqli mülkiyyət hüquqları (müstəsna hüquqlar) da özgəninkiləşdirilə bilər. Özü də dərhal qeyd etməliyik ki, **yalnız əqli mülkiyyət obyektlərindən istifadə hüquqları başqa şəxsə verilə bilər**. Şəxsi qeyri-əmlak xarakterli müstəsna hüquqlar (məsələn, ixtiranın müəllifi kimi tanınmaq hüququ, əsərin müəllifi kimi tanınmaq hüququ və s.) özgəninkiləşdirilmir. Xüsusən müstəsna hüquqların bir növü olan **patent hüquqları** başqa şəxslərə verilə bilər. Bu, əsasən, patent sahibinin istehsal-iqtisadi resurslarının məhdudluğu ilə, onun istehsal-kommersiya məsələləri ilə məşğul olmaq qabiliyyətinə malik olmaması ilə və digər səbəblərlə şərtlənə bilər.

Patent hüququnun özgəninkiləşdirilməsinin əsas hüquqi forması bu hüququn güzəşt edilməsindən ibarətdir. **Patent hüququnun güzəşti dedikdə**, patent sahibinin ona məxsus olan hüququ başqa şəxsə verməsi başa düşülür[2]. Azərbaycan Respublikasının patent qanunvericiliyinə görə, patent sahibi patenti istənilən şəxsə (fiziki şəxsə və hüquqi şəxsə) güzəşt edə bilər[3]. Patent hüququnu güzəşt etmənin əsas hüquqi vasitəsi alqı-satqı, bağışlama və dəyişmə müqavilələri hesab edilir. Məsələn, mühəndis yeni saat növü ixtira edir və ona patent alır. O, patent hüququnu istehsal müəssisəsinə satır. Bu müəssisə həmin növ saatı istehsal edərək, mülki dövriyyəyə buraxır. Belə halda ixtiradan (saatdan) istifadə hüququ istehsal müəssisəsinə keçir. Mühəndisin ixtiranın müəllifi kimi tanınmaq hüququnun keçməsi isə istisna olunur.

ABŞ mülki hüququnda, patent hüququ mülkiyyət kimi xarakterizə olunur;

[1] *Пухан И., Поленак-Акимовская М.* Римское право. М., 2000, с. 159.

[1] *Брагинский М.И., Витрянский.* Договорное право. Общие положения. М., 1997, с. 373-374.

[2] *Сергеев А.П.* Право интеллектуальной собственности в Российской Федерации. Учебник. М., 1999, с. 519; *Allahverdiyev S.S.* Azərbaycan Respublikasının müəlliflik və patent hüququ. Mühazirə kursu. Bakı, s. 295-296.

[3] «Patent haqqında» qanunun 14-cü maddəsi // AR QK, III xüsusi buraxılış.

bu hüquq maddi əşya (əmlak) olmasa da iqtisadi qiymətə malikdir[1].

İqtisadiyyatın inkişafı prosesində patent hüququnun əsas növü olan sənaye mülkiyyəti hüququ böyük əhəmiyyətə malikdir. Sənaye mülkiyyəti hüququnun xüsusilə ixtira və nou-hau kimi obyektləri elmi-texniki dəyişikliklər şəraitində vacib rol oynayaraq istehsalın inkişafının mühüm elementi kimi çıxış edir; onlar bilavasitə istehsal qüvvəsinə çevrilmiş elmi-texniki biliklər kimi tanınır.

Sənaye mülkiyyəti hüququnun firma adı, coğrafi göstərici və əmtəə nişanı kimi obyektləri təsərrüfat dövriyyəsi iştirakçılarının özlərini və onların istehsal etdikləri məhsulları fərdiləşdirir və fərqləndirir, eləcə də rəqabətin güclənməsi şəraitində malların bazarda effektiv satışını təmin edir və s[2].

Özgəninkiləşdirilməsi mümkün olan hüquqlardan biri **korporativ hüquqlar** hesab olunur. Bu hüquqlar şəxslərin təsərrüfat cəmiyyəti və ortaqlıqlarının idarə olunmasında iştirak etməklə bağlı olaraq əmələ gəlir. İştirakçı həmin hüquqları başqa şəxslərə verə bilər. Məsələn, məhdud məsuliyyətli cəmiyyətin iştirakçısı cəmiyyətin nizamnamə kapitalındakı payını sata bilər (MM-in 93-cü maddəsinin 1-ci bəndi). Səhmdar cəmiyyətinin iştirakçıları onlara mənsub səhmləri özgəninkiləşdirə bilər (MM-in 99-cu maddəsi). Bunlar korporativ hüquqların verilməsini (özgəninkiləşdirilməsini) ifadə edir.

Əmlak hüquqları özgəninkiləşdirildikdə, bu hüquqlar yeni şəxsə köhnə sahibində olduğu vəziyyətdə keçir.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

А.В.Венедиктов. Государственная социалистическая собственность. М.- Л., 1948.

Д.М.Генкин. Право собственности в СССР. М., 1961.

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова**. М., 1998 (гл. 15).

Гражданское право. Учебник. Часть1 / Под ред. **А.П.Сергеева**, **Ю.К.Толстого**. М., 1998 (гл. 16, 17).

Гражданское право. Учебник. Часть1 / Под ред. **Т.И.Илларионовой** и др. М., 1998 (гл. 14).

Гражданское право. Учебник. Часть1 / Под ред. **З.И.Цыбуленко**. М., 1998 (гл. 13).

Гражданское право. Учебник. Часть1 / Под ред. **А.Г.Калпина** и **А.И.Масляева**. М., 1997 (гл. 14).

Гражданское право. Учебник / Под ред. **С.П.Гришаева**. М., 1999 (гл. 8).

Право собственности в СССР / Под ред. **Ю.К.Толстого, В.Ф.Яковлева**. М., 1989.

Ю.К.Толстой. Содержание и гражданско-правовая защита права собственности в СССР. Л., 1955 (гл.1).

Ю.К.Толстой. Понятие права собственности // Проблемы гражданского и административного права. Л., 1962.

Ю.К.Толстой. К учению о праве собственности // Правоведение. 1992. №1.

У.Маттеи, Е.АСуханов. Основные положения права собственности. М., 1999 (гл. IV, V, VI, IX — автор **У.Маттеи**; гл. I, II, IV, VI).

Е.А.Суханов. Лекции о праве собственности. М. 1991.

Е.А.Суханов. Приобретение и прекращение права собственности // Хозяйство и право. 1998. №6.

К.И.Скловский. Собственность в гражданском праве. М., 1999 (гл. VIII, X, XI. XIII, XV).

К.И. Скловский. К проблеме права собственности // Прововедение. 1990. № 1.

Л.В.Щенникова. Вещные права в гражданском праве России. М., 1996.

Л.В.Щенникова. Категория собственность в Российском гражданском праве и русской цивилистике // ГП. 1995. № 3.

Wieling H.J. Sachenrecht. Berlin. 1997 (yəni Q.Y.Villinq. Əşya hüququ. Berlin. 1997).

Wilhelm J. Sachenrecht. Berlin. 1993 (yəni Y.Vilhelm. Əşya hüququ. Berlin. 1993).

Wolf M. Sachenrecht. München. 1997 (yəni M.Volf. Əşya hüququ. München. 1997).

Baur J.F., Stürner R. Lehrbuch des Sachenrecht. München. 1992 (yəni Y.F.Baur, R.Ştyurner. Əşya hüququnun dərsliyi. Münhen. 1992).

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983 (II раздел, гл. 1, 3).

[1] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 461.

[2] Daha ətraflı: *Allahverdiyev S.S.* Əqli mülkiyyət hüququ. Dərs vəsaiti. Bakı, 2006.

XVIII FƏSİL
VƏTƏNDAŞLARIN MÜLKİYYƏT HÜQUQU

§ 1. Vətəndaşların xüsusi mülkiyyət hüququnun əsas cəhətləri

1. Vətəndaşların xüsusi mülkiyyət hüququnun anlayışı

Vətəndaşların xüsusi mülkiyyət hüququ həm subyektiv, həm də obyektiv mənada işlədilir. **Subyektiv mənada vətəndaşların mülkiyyət hüququ** dedikdə, vətəndaşların özlərinə məxsus olan əmlaka özlərinin mülahizəsinə və istəyinə görə sahiblik, əmlakdan istifadə və onun barəsində sərəncam vermək hüquqları başa düşülür. Vətəndaşlar qanunla onlara verilən mülkiyyət hüququna görə özünə məxsus olan əmlakı barəsində qanuna zidd olmayan istənilən hərəkətləri etmək ixtiyarına malikdirlər. Onlar özlərinə məxsus olan əmlak üzərində xüsusi mülkiyyət hüququ qazanmaqla **xüsusi mülkiyyətçilər** hesab edilirlər, yəni **xüsusi mülkiyyətçi statusu** əldə edirlər.

Konstitusiyanın 13-cü maddəsinin 2-ci hissəsi və MM-in 154-cü maddəsi vətəndaşların mülkiyyət hüququnu mülkiyyətin xüsusi müstəqil forması kimi təsbit edir. Qüvvədən düşmüş «Mülkiyyət haqqında» qanunun 20-ci maddəsi də vətəndaşların xüsusi mülkiyyət hüququnu nəzərdə tuturdu[1].

Hüquq ədəbiyyatında vətəndaşların mülkiyyət hüququnun müxtəlif növləri göstərilir. Müəlliflərdən bəzisi mülkiyyət hüququnun iki növünü fərqləndirir: **vətəndaşların şəxsi mülkiyyət hüququnu**; **sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşların mülkiyyət hüququnu**[2]. Əmlakın təyinatı əlamətinə görə aparılan bu bölgünü bir o qədər də əsaslı hesab etmək olmaz. Ona görə ki, hər bir vətəndaş nəzərdə tutulmuş qaydada öz əmlakından sərbəst istifadə edərək, azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər (Konstitusiyanın 59-cu maddəsi). Keçmiş sovet qanunlarından fərqli olaraq, indiki mülkiyyət qanunvericiliyi vətəndaşa özünün (o cümlədən şəxsi mülkiyyətində olan) əmlakından öz mülahizəsinə və istəyinə görə hər hansı sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa icazə verir. Belə təsəvvür yaranır ki, vətəndaş öz şəxsi mülkiyyətində olan əmlakından sahibkarlıq fəaliyyəti üçün istifadə edə bilər. Məsələn, minik avtomobilinə vətəndaşın şəxsi mülkiyyət hüququ vardır. O, avtomobildən istifadə edərək, haqqı ilə sərnişin daşımaqla sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Göründüyü kimi, indiki şəraitdə vətəndaşların mülkiyyət hüququnun yuxarıda göstərilən iki növünü fərqləndirməyə əsas verən əlamətlər arasındakı sərhədlər silinib getmişdir.

Mülkiyyət hüququnun əmələ gəlmə üsuluna görə vətəndaşların mülkiyyət hüququ iki növə bölünür: **ümumi sosial üsulla mülkiyyət hüququ əldə edən vətəndaşın mülkiyyət hüququ**; **ümumi mülki üsulla mülkiyyət hüququ əldə edən vətəndaşın mülkiyyət hüququ**. Birinci növ mülkiyyət hüququna aiddir: ictimai istehlak fondlarından verilən ödənişlər və müavinətlər; humanitar köməklər. İkinci növ mülkiyyət hüququna daxildir: mülki-hüquqi əqd nəticəsində əldə edilən əmlak; vərəsəlik qaydasında keçən miras; bank əmanəti üzrə gəlir faizi.

Qanun muzdlu əməyin tətbiqinə icazə verir. Bu əsasa görə, vətəndaşların mülkiyyət hüququ iki cür olur: **şəxsi əməyə əsaslanan mülkiyyət hüququ**; **muzdlu əməyə əsaslanan mülkiyyət hüququ**.

Mənfəət almaq məqsədinə görə mülkiyyət hüququnun iki növü fərqləndirilir: **sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşların mülkiyyət hüququ**; **qeyri-sahibkarlıq (mənfəət əldə edilməsinə yönəlməyən) fəaliyyəti ilə məşğul olan vətəndaşların mülkiyyət hüququ**. Birinci növ mülkiyyət hüququna məhsul istehsal edilməsini (hazırlanmasını), iş görülməsini, xidmət göstərilməsini misal göstərmək olar. İkinci növ mülkiyyət hüququna şəxsi yardımçı təsərrüfatda özünün ehtiyaclarını təmin etmək üçün məhsul əldə edən vətəndaşın mülkiyyət hüququ daxildir.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaş öz mülkiyyətində olan əmlakdan istifadə hüququnu (təşkilati-hüquqi formadan asılı olaraq) iki qaydada həyata keçirir: hüquqi şəxs yaratmaqla əmlakdan istifadə hüququ; hüquqi şəxs yaratmadan əmlakdan istifadə hüququ. Birinci halda vətəndaş sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmaqla həyata keçirir. Bu məqsədlə o, təsisçisi (iştirakçısı) olduğu müəssisəni dövlət qeydiyyatına aldırır, öz əmlakını həmin müəssisənin nizamnamə fonduna (kapitalına) pay (maya) kimi verir.

İkinci halda hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaş yaşadıqları və ya fəaliyyət göstərdikləri yerin vergi orqanları tərəfindən uçota alınır[1]. Uçota alındığı andan vətəndaş sahibkar statusu qazanır.

Obyektiv mənada vətəndaşların mülkiyyət hüququ dedikdə, əmlakın vətəndaşlara məxsusluğu ilə əlaqədar olan münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür. Bu mənada mülkiyyət hüququ mülki hüquq institutu kimi maddi nemətlərin vətəndaşa mənsub olmasını ifadə edir.

2. Vətəndaşların mülkiyyəti sosial-iqtisadi kateqoriya kimi

Vətəndaşların mülkiyyəti sosial-iqtisadi kateqoriya kimi indiki şəraitdə çox ciddi və əsaslı dəyişikliyə uğramışdır. Cəmiyyətdə həyata keçirilən köklü iqtisadi-ictimai islahatların aparılmasına kimi sovet dövrü adlı tarixi müddətdə vətəndaşların mülkiyyətinin əsas mənbəyini şəxsi mülkiyyət təşkil edirdi. **Şəxsi mülkiyyət dedikdə**, fərdin, yaxud ailənin maddi və mənəvi tələbatının ödənilməsinə yönələn şəxsi istehlak predmetlərinə sahiblik edilməsi barədə münasibətlər başa düşülürdü. Şəxsi mülkiyyətin sosial-iqtisadi təbiəti istehsal vasitələri üzərində hakim sosialist forması ilə müəyyən olunurdu. Vətəndaşların dövlət və ya kooperativ müəssisələrindən əməyin kəmiyyət və keyfiyyətinə görə aldıqları əmək gəliri (əmək haqqı) şəxsi mülkiyyətin əsasını təşkil edirdi.

---

[1] bax: AR QK, I cild.

[2] bax: Гражданское право. Учебник. Том 1 /Под ред. *Е.А.Суханова*. 1993, с. 213-214. Bu bölgünü əsası olmayan bölgü hesab edənlərdən birinin mövqeyi barədə bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 265.

[1] «Sahibkarlıq fəaliyyəti haqqında» qanunun 10-cu maddəsinin 2-ci hissəsinin 1-ci bəndi (AR QK, I cild, s. 827).

Fərdi əmək fəaliyyətindən götürülən gəlir şəxsi mülkiyyətin mənbələrindən biri sayılırdı. Bununla belə, şəxsi mülkiyyət fərdi əmək fəaliyyəti üçün istifadə oluna bilərdi.

Şəxsi mülkiyyətə ev əşyaları, şəxsi istehlak, yardımçı ev təsərrüfatı predmetləri, yaşayış evi və əməklə qazanılan pul əmanətləri daxil idi. Bu mülkiyyətin bir növünü də şəxsi yardımçı təsərrüfat təşkil edirdi. Belə təsərrüfatda bəzi istehsal vasitələrindən istifadə oluna bilərdi.

Əməyə görə bölgü prinsipi Konstitusiya qaydasında təsbit edilmişdi. Belə bölgü sosializmin obyektiv iqtisadi qanunu idi. Həmin qanuna əsasən, işçilər arasında şəxsi istehlak vasitələri onların əməyinin kəmiyyət və keyfiyyətinə uyğun olaraq «Hər kəsdən qabiliyyətinə görə, hər kəsə əməyinə görə» prinsipinə müvafiq surətdə bölünürdü. Odur ki, əməyə görə bölgü prinsipi əsasında ictimai məcmu məhsuldan vətəndaşların şəxsi mülkiyyətinə müəyyən pay ayrılırdı.

İnsanın insan tərəfindən istismar edilməsi yasaqlanmışdı. Muzdlu əməyin tətbiqinə yol verilmirdi. Sosialist mülkiyyəti yeganə hakim mülkiyyət forması sayılırdı. Bu mülkiyyət iki formada meydana gəlmiş və inkişaf etmişdi: ictimai mülkiyyətin aparıcı forması olan dövlət (ümumxalq) mülkiyyəti; kolxoz-kooperativ mülkiyyəti. İctimai təşkilatların mülkiyyəti sosialist mülkiyyəti hesab edilirdi. Total dövlət mülkiyyəti, daha doğrusu, dövlət mülkiyyəti inhisarı mövcud idi. Bu, **iqtisadiyyatın təşkilinin komanda (sovet) iqtisadiyyatı forması — «əmrə əsaslanan iqtisadiyyat» forması üçün xarakterik hal sayılırdı**.

Sosialist mülkiyyəti cəmiyyət üzvləri olan vətəndaşlar arasında istehlak məhsullarının bölgüsünü də (onların əməyinin kəmiyyət və keyfiyyətinə görə) müəyyən edirdi. Bu mülkiyyət maddi nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı münasibətlərinin sosialist təbiətini və məzmununu şərtləndirirdi.

Bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradıldığı, iqtisadi islahatlar aparıldığı indiki şəraitdə vətəndaşların mülkiyyəti sosial-iqtisadi kateqoriya kimi mühüm dərəcədə dəyişmişdir. Bu dəyişiklik, hər şeydən əvvəl, onunla şərtlənir ki, **vətəndaşların mülkiyyətinin əmələ gəlmə və yaranma mənbəyi xüsusi mülkiyyət** adlanır. Konstitusiyanın 13-cü maddəsinin 2-ci hissəsi mülkiyyətin xüsusi mülkiyyət növündə olmasının mümkünlüyünü müəyyən edir. İkincisi, bu dəyişikliyə görə hər bir vətəndaşın mülkiyyətində həm daşınmaz, həm daşınar əmlak, habelə həm istehsal vasitələri, həm də qeyri-istehsal təyinatlı predmetlər ola bilər. Belə halda vətəndaşların **xüsusi mülkiyyətində olan əmlakın miqdarı və ya dəyəri məhdudlaşdırılmır**.

Üçüncüsü, vətəndaş xüsusi mülkiyyətində olan əmlakından istifadə edərək, **azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş hər hansı iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər** (Konstitusiyanın 59-cu maddəsi)[1]. Onların mülkiyyətinin əsas yaranma mənbəyini iki üsul təşkil edir. Birincisi, vətəndaşlar Konstitusiyanın onlara verdiyi əmək hüququndan (36-cı maddə) istifadə edərək, istehsalda iştirak edirlər. Onlar özlərinin əmək qabiliyyətindən başqa cür də istifadə edə bilərlər. Əmək fərdi və ictimai rifahın əsasıdır (Konstitusiyanın 35-ci maddəsinin 1-ci bəndi). İkincisi, vətəndaşın şəxsi iqtisadi fəaliyyəti nəticəsində əldə edilən gəlir hesabına onun mülkiyyəti yaranır. Xüsusən sahibkarlıq fəaliyyəti kimi iqtisadi fəaliyyət növü mühüm rola malikdir. Konstitusiyanın 15-ci maddəsinin 2-ci hissəsi azad sahibkarlığa təminat vermişdir.

[1] bax: AR QK, II cild, s. 581.

3. Vətəndaşların mülkiyyəti hüquqi kateqoriya kimi

Hüquqi kateqoriya kimi vətəndaşların mülkiyyəti xüsusi mülkiyyət hüququ anlayışı ilə əhatə olunur. **Xüsusi mülkiyyət** dedikdə, əmlaka (istehsal vasitələrinə, qeyri-istehsal təyinatı predmetlərə və sərvətlərə, pul vəsaitlərinə, qiymətli kağızlara və s.) sahiblik, əmlakdan istifadə və onun barəsində sərəncam sahəsində ayrı-ayrı vətəndaşların qanunla qorunan hüquqlarının məcmusu başa düşülür. Azad sahibkarlığa təminat verildiyi, bazar münasibətlərinə əsaslanan iqtisadi inkişaf kursu götürüldüyü bir şəraitdə hüquqi kateqoriya kimi vətəndaşların mülkiyyəti ciddi dəyişikliyə uğramışdır. Birincisi, vətəndaşların inzibati-amirlik dövründə (keçmiş sovet dövründə) məhdudlaşdırılan mülkiyyət hüququnun çoxsaylı əldə etmə üsulları müəyyən əngəl və maneçilikdən azad edilərək, geniş surətdə tətbiq olunur. İkincisi, sosialist mülkiyyəti mövcud olduğu vaxtlarda vətəndaşların mülkiyyət hüququ, əsasən, istehlak təyinatlı predmetlər üzərində əmələ gəlirdisə, indiki dövrdə bu hüquq ictimai nemətləri və sərvətləri çoxaltmaq, cəmiyyətin rifahını artırmaq, eləcə də istehsal vasitələrinə sahib olmaq üsulu kimi çıxış edir.

Üçüncüsü, əvvəllər (sosializm cəmiyyətində) vətəndaşların mülkiyyət hüququ fərdin (mülkiyyətçinin), yaxud ailənin maddi və mənəvi tələbatının ödənilməsini təmin etdiyi halda, indiki dövrdə bu hüquqdan mənfəət almaq üçün də istifadə edilir. Bu hüququn obyekti olan müxtəlif əmlak növləri öz funksional təyinatına görə **mülkiyyətçi üçün mənfəət gətirmək xüsusiyyətinə** malik olan nemətlərdir. Belə əmlak növlərinin sayı və dairəsi müqayisəedilməz dərəcədə xeyli genişlənmişdir.

Dördüncüsü, vətəndaşların xüsusi mülkiyyət hüququnun qorunmasına Konstitusiya və mülki qanunvericilik səviyyəsində təminat verilir. Konstitusiyanın 29-cu maddəsinin II hissəsi xüsusi mülkiyyət hüququnun qanunla qorunması barədə prinsipial əhəmiyyətli göstəriş ifadə edir. Konstitusiyanın 13-cü maddəsinə görə, həmçinin MM-in 6-cı maddəsinə görə, xüsusi mülkiyyət hüququ toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

Beləliklə, indiki dövrdə vətəndaşların xüsusi mülkiyyət hüququnun əsas və başlıca xüsusiyyəti onunla şərtlənir ki, bu hüquqa münasibət sivil məcraya yönəlməklə mütərəqqi forma almışdır.

§ 2. Vətəndaşların mülkiyyət hüququnun obyektləri

1. Ümumi müddəalar

Mülkiyyət hüququ əsasında mülkiyyətçinin malik olduğu əşyaya (əmlaka) **mülkiyyət hüququnun obyektləri** deyilir.

Sovet qanunvericiliyinə görə, vətəndaşların mülkiyyətində, demək olar ki, əsasən, yalnız istehlak predmetləri ola bilərdi. Onların mülkiyyətində istehsal vasitələrinin olmasının mümkünlüyü istisna edilirdi. Vətəndaşlar yalnız xırda istehsal vasitələrinə malik ola bilərdilər. Həm istehlak predmetlərinin, həm də xırda istehsal vasitələrinin sayı, adətən, məhdudlaşdırılırdı. Xırda istehsal vasi-

tələrindən istifadə etməklə muzdlu əməyin tətbiqini qanun yolverilməz hal hesab edirdi.

Bazar münasibətlərinə əsaslanan indiki iqtisadi inkişaf şəraitində vətəndaşların mülkiyyət hüququnun obyektləri barədə mülki qanunvericilik əvvəlki qanunvericilikdən prinsipial surətdə fərqlənən yeni müddəalar və qaydalar müəyyən edir. Mühüm əhəmiyyətə malik olan bu müddəalar «Sahibkarlıq fəaliyyəti haqqında» (1992), «Aqrar islahatların əsasları haqqında» (1995), «Kolxoz və sovxozların islahatı haqqında» (1995), «Torpaq islahatı haqqında» (1996) qanunlarda, Konstitusiyada (1995), Su Məcəlləsində (1997), Meşə Məcəlləsində (1997), Torpaq Məcəlləsində (1999) və digər normativ hüquqi aktlarda və nəhayət, yeni MM-də öz ifadəsini tapmışdır[1].

Ən birinci vacib və mühüm müddəa ondan ibarətdir ki, yeni mülki qanunvericilik qanuna uyğun olaraq, vətəndaşlara məxsus ola bilməyən ayrı-ayrı əmlak növləri istisna edilməklə, **fiziki şəxslərin mülkiyyətində istənilən əmlakın ola bilməsi haqqında qayda** müəyyən edir (MM-in 154-cü maddəsinin 1-ci bəndi). Başqa sözlə desək, vətəndaşların mülkiyyət hüququnun obyekti kimi yalnız dövriyyə qabiliyyətli (MM-in 136-cı maddəsinin 1-ci bəndi), habelə xüsusi icazə əsasında məhdud dövriyyə qabiliyyətli (MM-in 136-cı maddəsinin 3-cü bəndi) əmlak çıxış edə bilər.

Dövriyyədən çıxarılmış, yəni mülki dövriyyə qabiliyyəti olmayan əmlak növlərinin (MM-in 136-cı maddəsinin 2-ci bəndi) vətəndaşların mülkiyyət hüququnun obyekti olması istisna edilir. Belə obyektlərin dairəsi və siyahısı qanunla müəyyən edilir. «Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında» 23 dekabr 2003-cü il tarixli qanun vətəndaşların mülkiyyət hüququnun obyekti qismində çıxış edə bilməyən maddi predmetlərin dairəsini konkret olaraq dəqiqləşdirir.

Yeni mülki qanunvericiliyin müəyyən etdiyi ikinci mühüm müddəa ondan ibarətdir ki, bəzi hallar istisna olmaqla, **vətəndaşların mülkiyyətində olan əmlakın miqdarı və dəyəri məhdudlaşdırılmır** (MM-in 154-cü maddəsinin 2-ci bəndi). Belə ki, vətəndaşın qanuna və ya müqaviləyə uyğun olaraq, əldə etdiyi əmlakın miqdarı və dəyərinə hədd qoyulmur. Vətəndaşın mülkiyyətində olan əmlakın miqdarının və dəyərinin məhdudlaşdırılmasını şərtləndirən istisna hallar MM-in 6-cı maddəsinin 3-cü bəndində göstərilmişdir: dövlət və ictimai təhlükəsizliyin, ictimai qaydanın, cəmiyyətin mənafeyinin qorunması; mənəvi-əxlaqi dəyərlərin mühafizə edilməsi; digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi. Göstərilən əsasların mühafizə və müdafiə edilməsi zərurəti yarandıqda, məhdudlaşdırma halına yol verilir.

2. Vətəndaşların mülkiyyət hüququnun obyektlərinin mülki-hüquqi rejimi

Vətəndaşların mülkiyyət hüququnun obyektlərinin mülki-hüquqi rejimi dedikdə, bu obyektlər barəsində hüquqi nəticəyə səbəb olan hər hansı müəyyən hərəkət etmək (əqd bağlamaq) imkanının olub-olmaması başa düşülür. Bu rejim həmin obyektlər barəsində hüquqi əhəmiyyətə malik olan hərəkət edən vətəndaşlar üçün müəyyən edilir.

Hüquq ədəbiyyatında vətəndaşların mülkiyyət hüququnun obyekti barəsində iki cür hüquqi rejimin müəyyən edilməsi fikri söylənilir: xüsusi rejim; ümumi rejim[1]. Obyektin barəsində qanunda və digər normativ aktlarda xüsusi qayda müəyyən edilərsə, buna **xüsusi rejim** deyilir. **Ümumi rejim** odur ki, bu rejim vətəndaşların mülkiyyət hüququnun obyekti barəsində hər hansı xüsusi qayda nəzərdə tutmur.

Daşınmaz əmlak növlərinə, yəni torpaq sahələri, yaşayış evləri, çoxillik əkmələr və digərlərinə münasibətdə xüsusi rejim tətbiq edilir. Belə əmlak növlərinə vətəndaşların mülkiyyət hüququ, eləcə də həmin əmlak növləri üzərində sərəncam vermək hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması anından əmələ gəlir (MM-in 146-cı maddəsi). Daşınmaz əmlaka mülkiyyət hüququnun əmələ gəlməsi dövlət qeydiyyatına alınmalıdır (MM-in 139-cu maddəsinin 1-ci bəndi). Daşınar əmlakın bəzi növləri barəsində də (məsələn, nəqliyyat vasitəsi, silah və s.) xüsusi rejim tətbiq edilir.

Mülkiyyətində səhmlər və digər qiymətli kağızlar olan, habelə müxtəlif təsərrüfat cəmiyyətlərinin və ortaqlıqlarının təsisçisi (iştirakçısı) rolunda çıxış edən vətəndaşlar üçün xüsusi rejim müəyyən edilir. Bu qiymətli kağızların dövriyyəsi xüsusi qaydalar əsasında gerçəkləşdirilir.

Barəsində ümumi rejim müəyyən edilmiş əmlaka münasibətdə vətəndaş hər hansı hüquqi hərəkət etmək imkanına malikdir. Bunun üçün o, qanunun müəyyən etdiyi şərtləri gözləməlidir: vətəndaşın başqa şəxslərə ziyan vurmaq niyyəti ilə həyata keçirdiyi hərəkətlərə yol verməməsi; hüquqdan sui-istifadə edilməməsi; hüquqdan rəqabəti məhdudlaşdırmaq məqsədilə istifadə edilməməsi; bazarda hakim mövqedən sui-istifadə olunmaması (MM-in 560-cı maddəsi). Dövlət qeydiyyatına alınan xüsusi mülkiyyətdə olan abidələr barəsində xüsusi rejim müəyyən edilir («Tarix və mədəniyyət abidələri haqqında» qanunun 4-cü maddəsi). «Mədəniyyət haqqında» qanun (34-cü maddə) mədəniyyət sərvətlərinin mühafizə siyahısında qeydə alınması və bu barədə mülkiyyətçiyə şəhadətnamə verilməsi qaydasını müəyyən etməklə, belə sərvətlər barəsində xüsusi rejimin tətbiq edilməsini nəzərdə tutur.

3. Vətəndaşın mülkiyyət hüququnun obyektlərinin dairəsi

Hər bir vətəndaşın mülkiyyətində qanunda nəzərdə tutulan bəzi əmlak növləri istisna olmaqla, istənilən əmlak ola bilər. «Qanunla qadağan edilməyən hər şeyə icazə verilir» kimi ümumi prinsip əsasında vətəndaş hər hansı əmlak üzərində mülkiyyət hüququ qazanır.

Vətəndaşların mülkiyyət hüququnun obyektlərinin dairəsi kifayət qədər genişdir. Mülki qanunvericilik vətəndaşların mülkiyyətinə aşağıdakı əmlak növlərini şamil edir: torpaq sahələri; yaşayış evləri, mənzillər, bağlar, bağ evləri, qarajlar, ev təsərrüfatı ləvazimatı və şəxsi istehsal predmetləri; pul vəsaiti; səhmlər, istiqraz vərəqələri və başqa qiymətli kağızlar; kütləvi informasiya va-

[1] Göstərilən bu qanunlar AR QK-nın I, II, III, IV və V cildlərinə daxil edilmişdir.

[1] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 388; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 281.

sitələri; malların istehsalı, məişət xidməti, ticarət sahəsində müəssisələr, əmlak kompleksləri, binalar, tikililər, avadanlıq, nəqliyyat vasitələri və başqa istehsal vasitələri; qanunvericilik aktlarında nəzərdə tutulan ayrı-ayrı növləri istisna olmaqla, istehsal, istehlak, sosial, mədəni və başqa təyinatlı hər hansı digər əmlak.

Xüsusi mülkiyyətdə olan torpaq sahələrində yerləşən, başqa su obyektləri ilə hidravlik əlaqəsi və axarı olmayan kiçik sututarlar, yəni su təsərrüfatı obyektləri vətəndaşların xüsusi mülkiyyətində ola bilər (Su Məcəlləsinin 14-cü və 15-ci maddələri)[1]. «Tarix və mədəniyyət abidələrinin qorunması haqqında» qanun abidələr üzərində dövlət və bələdiyyə mülkiyyəti ilə bərabər, həm də vətəndaşların xüsusi mülkiyyətini təsbit edir (4-cü maddə)[2]. Mədəniyyət sərvətləri, habelə mədəniyyət təyinatlı daşınar və daşınmaz əmlak, mədəniyyət təsisatları vətəndaşın xüsusi mülkiyyətində ola bilər («Mədəniyyət haqqında» qanunun 29-cu maddəsi)[3].

Beləliklə, öz mülkiyyətində vətəndaşlar təkcə istehlak predmetlərinə (geyim şeylərinə, ayaqqabıya, mebelə, mənzilə, yaşayış evinə və s.) yox, həm də istehsal vasitələrinə (avadanlığa, traktora, kombayna, dəzgaha və s.) malik ola bilərlər. Özü də bu əmlak həm daşınar (pul nişanları, qiymətli kağızlar, müxtəlif məişət predmetləri, ev avadanlıqları), həm də daşınmaz əmlak (mənzil, ayrıca su obyekti, torpaq sahəsi, yaşayış evi və s.) növündə ola bilər.

Vətəndaşların mülkiyyət hüququnun əmələ gəlməsi üsulları müxtəlifdir. Bu üsulların təsnifi kitabın bundan əvvəlki fəslində verilmişdir. Ona görə də bu məsələyə geniş surətdə toxunmağı lazım bilmirik. Qısaca olaraq, onu deyə bilərik ki, vətəndaş əmlak üzərində mülkiyyət hüququnun əldə edilməsinin həm ilkin üsulu (tikili, yeni əşya hazırlamaq və s.), həm də törəmə üsulu (vərəsəlik, əqd bağlamaq və s.) ilə mülkiyyət hüququ qazanır. Vətəndaşın mülkiyyəti sahibkarlıq fəaliyyəti, vərəsəlik üzrə, əqd bağlamaqla (alqı-satqı, bağışlama və s.), onun istehsalda iştirakı (əmək müqaviləsi üzrə yerinə yetirdiyi işə görə alınan əmək haqqı) və əmək qabiliyyətindən başqa cür istifadə etməsi, habelə qanuna zidd olmayan digər əsaslarla əmlak əldə etməsi nəticəsində qazanılan gəlir hesabına yaradılır və artırılır.

Məlum məsələdir ki, vətəndaşların xüsusi mülkiyyət hüququ obyektlərinin dairəsi əmlakın dövriyyə qabiliyyətli olması ilə şərtlənir. Onlar **mülki dövriyyədə hərəkəti qadağan edilməmiş əmlak üzərində miqdarından asılı olmayaraq,** mülkiyyət hüququ qazana bilərlər.

4. Vətəndaşın mülkiyyət hüququnun obyekti ola bilməyən əmlak növlərinin dairəsi

Elə əmlak növləri vardır ki, bu və ya digər səbəbə görə onlar vətəndaşların xüsusi mülkiyyət hüququnun obyekti kimi çıxış edə bilmir. Belə əmlak növləri hərəkəti mülki dövriyyədə qadağan edilən, dövriyyədən çıxarılan və yaxud dövriyyə qabiliyyətli olmayan (qeyri-dövriyyə qabiliyyətli) əmlak adlanır.

Əmlakın vətəndaşların mülkiyyət hüququnun obyekti kimi çıxış edə bilməsini şərtləndirən səbəblər müxtəlifdir. Bu səbəblərə aiddir: dövlət təhlükəsizliyi mülahizələri; ictimai təhlükəsizlik mülahizələri; beynəlxalq öhdəlikləri yerinə yetirmək zərurəti; yalnız dövlətin müstəsna mülkiyyətində olması səbəbinə görə; milli və bəşəri əhəmiyyəti olan nadir mədəniyyət sərvətləri olduğuna görə və s. Bunlar mülki dövriyyədən çıxarılmış əşyalardır ki, onların dairəsi ayrıca qanunla müəyyən edilir («Mülki dövriyyədə olmasına yol verilməyən əşyaların siyahısı haqqında» qanun).

Göstərilən qanun mülki dövriyyədən çıxarıldığına görə vətəndaşa məxsus ola bilməyən əmlak növlərini müəyyən edir. Belə əmlak növlərinə aiddir: döyüş təyinatlı hərbi texnika; qanunla dövriyyəsi qadağan edilən silahlar və döyüş sursatı; hərbi səfərbərlik təyinatlı əmlak və s.

Milli və bəşəri əhəmiyyəti olan nadir mədəniyyət sərvətləri olduğuna görə belə sərvətlər Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilir. Belə obyektlər mülki dövriyyədən çıxarılır və vətəndaşların mülkiyyət hüququnun obyekti kimi çıxış etmir.

Bəzi əmlak növləri dövlətin müstəsna mülkiyyətinə daxil olduğuna görə vətəndaşlara məxsus ola bilmir. «Torpaq islahatı haqqında» qanunun 6-cı maddəsində göstərilən torpaqlar (dövlət hakimiyyəti orqanlarının yerləşdiyi torpaqlar, meşə fondu torpaqları, su fondu torpaqları və s.) dövlətin müstəsna mülkiyyətindədir. Yerin təki üzərində mülkiyyət hüququ dövlətə mənsubdur və buna görə də vətəndaşların mülkiyyət hüququnun obyekti ola bilməz («Yerin təki haqqında» qanunun 4-cü maddəsi). Meşə fondu dövlətə mənsub olub, onun mülkiyyətidir və bu, meşə fondu üzərində vətəndaşların mülkiyyət hüququ əldə etməsini istisna edir.

Bununla bərabər, elə əmlak növləri vardır ki, onlar yalnız xüsusi icazə əsasında vətəndaşa məxsus ola bilər. Məsələn, bank müəssisəsi vətəndaşların xüsusi mülkiyyətində ola bilər. Bunun üçün prezidentin 2 sentyabr 2002-ci il fərmanına uyğun olaraq, vətəndaş tərəfindən Milli Bankdan xüsusi icazə (lisenziya) alınması tələb olunur.

Mülki silaha vətəndaş mülkiyyət hüququ əldə etmək üçün daxili işlər orqanından icazə almalıdır. Bu silahın əldə edilməsi qaydası «Xidməti və mülki silah haqqında» qanunun 9-cu maddəsində göstərilmişdir.

5. Torpaq üzərində vətəndaşların mülkiyyət hüququ

Əvvəllər sovet qanunvericiliyinə görə, torpaq dövlətin müstəsna mülkiyyətində idi. O, dövlət tərəfindən vətəndaşların vərəsəlik üzrə keçən, ömürlük sahibliyinə verilmişdi. Vətəndaşlar xüsusi mülkiyyət hüququ əsasında torpağa sahib ola bilməzdilər.

XX əsrin axırlarında hamıya məlum olan yenidənqurma prosesi nəticəsində vəziyyət kökündən dəyişdi. İlk dəfə olaraq Torpaq Məcəlləsi (1991) Azərbaycan Respublikasında torpaq üzərində dövlət və kollektiv mülkiyyətlə bərabər, xüsusi mülkiyyət formasını təsdiq etdi (4-cü maddə)[1]. Torpaq Məcəlləsi aşağıdakı məqsədlər üçün torpağın Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşların pulsuz olaraq mülkiyyətinə verilməsini nəzərdə tuturdu (10-cu

[1] bax: AR QK, V cild, s. 122, 123.
[2] yenə orada, s. 58.
[3] yenə orada, s. 264.

[1] bax: AR QK, I cild, s. 85.

maddə): fərdi yaşayış evi və köməkçi tikililərin inşası, habelə şəxsi yardımçı kənd təsərrüfatı üçün; əmtəəlik kənd təsərrüfatı məhsulları istehsalı məqsədilə kəndli (fermer) və digər təsərrüfat fəaliyyəti üçün; şəhər (qəsəbə) hüdudunda fərdi və kollektiv bağ təsərrüfatı və fərdi qaraj tikintisi üçün; sahibkarlıq fəaliyyəti ilə əlaqədar tikintilər üçün; ənənəvi xalq sənətləri ilə məşğul olmaq və digər məqsədlər üçün. Torpaq üzərində vətəndaşların mülkiyyət hüququ onlara verilən dövlət aktı ilə rəsmiləşdirilirdi. Yeni Torpaq Məcəlləsi (1999) fiziki şəxslərin torpaq üzərində xüsusi mülkiyyət hüququnu təsbit edir (49-cu maddə). Bu hüquq dövlət və bələdiyyə torpaqlarının özəlləşdirilməsi, alqı-satqısı, vərəsəlik üzrə keçməsi, bağışlanması, dəyişdirilməsi və torpaqla bağlı digər əqdlərin əsasında yaranır.

Torpaq Məcəlləsi kimi «Mülkiyyət haqqında» qanun torpaq sahələrini vətəndaşların mülkiyyət hüququnun obyektləri dairəsinə şamil edirdi. Qanuna görə, kəndli təsərrüfatı, bağçılıq, bostançılıq və kənd təsərrüfatı istehsalının başqa formalarını yaratmaq, habelə yaşayış evi, qaraj, başqa yardımçı binalar tikmək üçün vətəndaşlar mülkiyyət hüququ əsasında torpaq sahələri almaq ixtiyarına malik idilər (21-ci maddənin 9-cu bəndi)[1].

«Aqrar islahatın əsasları haqqında» qanun (1995) müəyyən edilmiş normalar əsasında əvəzsiz olaraq torpaqları xüsusi mülkiyyətə verməklə torpaq islahatının həyata keçirilməsini nəzərdə tutur. Qanun bir daha təsdiq edir ki, torpaq mülkiyyətçisi torpağı satmaq, bağışlamaq, dəyişmək, girov qoymaq, icarəyə və vərəsəliyə vermək, əlavə torpaq sahəsi satın almaq hüquqlarına malikdir (5-ci maddə).

«Sovxoz və kolxozların islahatı haqqında» qanun (1995) sovxoz və kolxozlardan alınan torpaq payı hesabına vətəndaşların şəxsi yardımçı və digər təsərrüfatları inkişaf etdirməsini nəzərdə tutur. Qanun sovxoz və kolxoz torpaqlarının vətəndaşların fərdi və ya birgə sahibkarlığa əsaslanan xüsusi mülkiyyətinə verilməsi qaydasını müəyyən edir.

Nəhayət, «Torpaq islahatı haqqında» qanun Azərbaycan Respublikasında torpaq islahatının aparılmasının hüquqi əsaslarını müəyyən edən sənəd kimi torpaq üzərində xüsusi mülkiyyət formasını təsdiq edir. Qanuna görə, torpaq islahatının vəzifələrindən biri torpaqların xüsusi mülkiyyətə verilməsini, mülkiyyətçilərin torpağa sahiblik, istifadə və sərəncam hüquqlarının həyata keçirilməsini təmin etməkdən ibarətdir.

Qanun aşağıdakı torpaqların xüsusi mülkiyyətə verilməsini nəzərdə tutur: vətəndaşların qanuni istifadəsindəki fərdi yaşayış evlərinin, həyətyanı sahələrin, fərdi, kollektiv və kooperativ bağların, dövlət bağçılıq təsərrüfatının idarəçiliyindəki bağların altında olan torpaqların[2]; sovxoz və kolxozların özəlləşdirilən torpaqların (8-ci maddə).

Yeni MM-in X fəsli (238-249-cu maddələr) torpağa mülkiyyət hüququnun

[1] bax: AR QK, V cild, s. 155.

[2] Bu münasibətlər prezidentin 10 yanvar 1997-ci il tarixli 534 nömrəli fərmanı ilə təsdiq edilmiş «Vətəndaşların qanuni istifadəsindəki (fərdi, kollektiv və kooperativ bağların, dövlət bağçılıq təsərrüfatının idarəçiliyindəki bağların) torpaqların onların mülkiyyətinə verilməsi haqqında Əsasnamə» ilə qaydaya salınır (Azərbaycan Respublikasının torpaq qanunvericiliyi. Bakı. 2000, c. 383).

xüsusiyyətlərinə aid normaları əhatə edir. MM daşınmaz əmlakın bir növü olan torpağı mülkiyyət hüququnun obyektləri dairəsinə şamil edir (MM-in 238-ci maddəsinin 1-ci bəndi).

Torpaq sahəsinin mülkiyyətçisi olan vətəndaş həmin sahədə **bina və tikili inşa etmək hüququna** malikdir. Belə halda o, şəhərsalma və tikinti normalarını və qaydalarını, habelə torpaq sahəsinin təyinatı ilə bağlı tələblərə riayət etməyə borcludur. Bundan başqa, vətəndaş bina və tikililəri yenidən qurmaq və ya uçurmaq, öz torpaq sahəsində digər kənar şəxslərin tikinti aparmasına icazə vermək hüquqlarına malikdir. Vətəndaş özünə məxsus olan sahədə ucaldılmış və ya yaradılmış bina, tikili, qurğu və digər daşınmaz əmlak üzərində mülkiyyət hüququ qazanır. Torpaq sahəsinin mülkiyyətçisi həmin binanı (qurğunu) özgəninkiləşdirə (məsələn, sata və s.) bilər. Belə halda torpaq sahəsinə hüquqlar da binanı (qurğunu) əldə edən şəxsə keçir. Əldə edən şəxsə keçən torpaq sahəsi tərəflərin razılaşması ilə müəyyən edilir. Torpaq sahəsinin iki hissəsi əldə edənə keçir: torpaq sahəsinin bina (qurğu) yerləşən hissəsi; ondan istifadə üçün zəruri olan hissə.

Vətəndaş öz mülkiyyətində olan torpaq sahəsini digər şəxslərin istifadəsinə (o cümlədən icarəsinə) verə bilər. İstifadəçi həmin torpaq sahəsində binalar tikmək, tikili inşa etmək hüququna malikdir. Torpaq sahəsindən istifadə hüququna xitam verildikdə, həmin binalar, tikililər və digər başqa daşınmaz əmlaka mülkiyyət hüququ torpaq sahəsinin mülkiyyətçisi olan vətəndaşa keçir. Amma bu qayda imperativ yox, dispozitiv xarakterə malikdir. Belə ki, torpaq sahəsinin mülkiyyətçisi olan vətəndaşla istifadəçi arasında bağlanmış müqavilədə ayrı hal da nəzərdə tutula bilər (MM-in 244-cü maddəsi).

Vətəndaşların **xüsusi mülkiyyətində olan torpaq sahəsi dəyəri ödənilməklə əvəzli qaydada dövlət ehtiyacları üçün alına bilər**. Bu, müvafiq icra hakimiyyəti orqanının (AR Nazirlər Kabinetinin) qəbul etdiyi qərar əsasında həyata keçirilir. Bu qərar daşınmaz əmlakın dövlət reyestrində qeydə alınır. İcra hakimiyyəti orqanı (AR Nazirlər Kabineti) həm də qəbul etdiyi qərar barədə torpaq sahəsinin mülkiyyətçisi olan vətəndaşa yazılı bildiriş göndərir. Yaranmış bu münasibətlərdə dövləti daşınmaz əmlakın dövlət ehtiyacları üçün alınmasını konkret halda dövlətin adından icra edən mərkəzi icra hakimiyyət orqanı təmsil edir. Torpaq sahəsinin mülkiyyətçisi bildirişin göndərildiyi gündən sonra 90 təqvim günündən tez və 180 təqvim günündən gec olmayaraq həmin sahəni azad etməlidir; lakin göstərilən müddət imperativ yox, dispozitiv müddətlərdir; belə ki, əgər mülkiyyətçi müraciət edərsə, daşınmaz əmlakın dövlət ehtiyacları üçün alınmasını konkret halda dövlətin adından icra edən mərkəzi icra hakimiyyət orqanı (torpaq sahəsinin alınması haqqında qərar qəbul etmiş Nazirlər Kabineti yox) həmin müddətləri dəyişə bilər.

Dövlət torpaq sahəsinin satınalma qiymətini bildirişin göndərildiyi gündən sonra 80 təqvim günündən tez və 120 təqvim günündən gec olmayaraq mülkiyyətçiyə ödəməlidir (MM-in 247-ci maddəsinin 1-ci bəndi); satınalma qiyməti AR Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada hesablanır; bu zaman AR Prezidentinin 26 dekabr 2007-ci il tarixli fərmanına əsasən mülkiyyətçiyə torpaq sahəsinin 20 faizi miqdarında satınalma qiymətinə əlavə haqq ödənilir.

O ki qaldı dövlət ehtiyaclarının nə demək olduğuna, qeyd etmək lazımdır ki,

MM-in 157-ci maddəsinin 9-cu bəndində bu suala cavab verilmişdir. Belə ki, dövlət ehtiyacları dedikdə, başa düşülür:

- yolların və digər kommunikasiya xətlərinin çəkilməsi;
- sərhəd zolağının müəyyən edilməsi;
- müdafiə əhəmiyyətli obyektlərin tikilməsi.

Yalnız göstərilən məqsədlər üçün torpaq sahələri dövlət ehtiyaclarından ötrü satın alına bilər; başqa məqsədlər üçün torpaq sahələrinin satın alınmasına yol verilmir.

Torpaq sahəsinin satınalma qiyməti yalnız bazar dəyəri miqdarında müəyyən edilir. Bu qiymətə daxildir: torpaq sahəsinin bazar qiyməti; torpaq sahəsində olan daşınmaz əmlakın bazar qiyməti; torpaq sahəsinin alınması nəticəsində vətəndaşa dəyən bütün zərər; əldən çıxmış fayda; vətəndaşın üçüncü şəxslər qarşısında daşıdığı öhdəliklərə vaxtından əvvəl xitam verilməsi ilə əlaqədar düşdüyü zərər.

Mülkiyyətçi ilə razılaşmaya əsasən, alınan torpaq sahəsi əvəzinə, başqa torpaq sahəsi də verilə bilər. Belə halda yeni torpaq sahəsinin dəyəri alınan torpaq sahəsinin qiymətinə daxil edilir.

Torpaq sahəsinin dövlət ehtiyacları üçün alınması zamanı mülkiyyətçi ilə dövlət arasında mübahisə yarana bilər. Məsələn, mülkiyyətçi torpaq sahəsinin alınması barədə müvafiq qərara etiraz edə bilər və ya torpaq sahəsinin qiyməti ilə razılaşmaya bilər. Belə halda o, məhkəmə qaydasında iki cür iddia verə bilər:

- Nazirlər Kabinetinin torpaq sahəsinin dövlət ehtiyacları üçün alınması barədə qərarından iddia (əgər mülkiyyətçi həmin qərardan razı olmazsa);
- satınalma qiymətindən iddia (əgər mülkiyyətçi torpaq sahəsinin satınalma qiyməti ilə razı olmazsa).

İddia müddəti bir il müəyyən edilir. Torpaq sahəsinin dövlət ehtiyacları üçün alınması haqqında qərardan iddia veriləndə bu müddət mülkiyyətçiyə yazılı bildirişin göndərildiyi gündən hesablanır; satınalma qiymətindən iddia verildikdə isə bir illik müddət ödənişin həyata keçirildiyi gündən başlayır (MM-in 248-ci maddəsinin 2-ci bəndi).

Torpaq mülkiyyətçisi olan vətəndaşların torpağa sahiblik, torpaqdan təyinatına görə istifadə etmək, onu icarəyə vermək, satmaq, bağışlamaq, dəyişmək, girov qoymaq, vərəsəlik üzrə və irsən vermək hüquqları vardır («Torpaq islahatı haqqında» qanunun 17-ci maddəsinin 1-ci bəndi).

«Torpaq islahatı haqqında» qanun torpaqların alqı-satqısının ümumi qaydalarını müəyyən edir. Bələdiyyə torpaqlarını vətəndaşlar alqı-satqı yolu ilə əldə etdikdə, bələdiyyə orqanları bu barədə müvafiq qərar qəbul edir. Qərar vətəndaşların ərizələrinə uyğun olaraq çıxarılır. Vətəndaşlar və hüquqi şəxslərin mülkiyyətində olan torpaqlar alınıb-satıldıqda müqavilə bağlanılır. Bu müqavilə notarial qaydada təsdiq edilir. Qanuna görə, vətəndaşların torpağa mülkiyyət hüququ Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən qeydə alınır.

Vətəndaşların **torpağa mülkiyyət hüququnun əmələ gəlməsi, başqasına keçməsi və xitamı dövlət qeydiyyatına alınmalıdır** (MM-in 139-cu maddəsinin 1-ci bəndi). Söhbət torpağa olan hüquqların AR-in Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin tərtib etdiyi daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmasından gedir.

Vətəndaşların torpaq üzərində xüsusi mülkiyyət hüququnun tənzimlənməsində yeni Torpaq Məcəlləsinin rolu böyükdür. Həmin məcəllə xüsusi mülkiyyətdə olan torpaq sahələri üzərində vətəndaşların hüququnu təsbit edir. Burada mühüm əhəmiyyətə malik olan belə bir müddəa ifadə edilmişdir: **torpaq sahəsi üzərində mülkiyyətin dövlət, bələdiyyə və xüsusi mülkiyyət kimi növləri bərabərhüquqlu olub, dövlət tərəfindən qorunur**.

Torpaq Məcəlləsi torpaq sahəsinin dövriyyəsinə yol verir. **Torpaq sahəsinin dövriyyəsi** dedikdə, torpaq sahəsinin bir mülkiyyət növündən digərinə, torpaq sahəsi üzərində hüquqların subyektlərin birindən digərinə əqdlərin bağlanması yolu ilə keçməsi başa düşülür. Söhbət torpaq sahəsinin alqı-satqı, ipoteka, dəyişmə, bağışlama və icarə kimi mülki-hüquqi əqdlərin obyekti (predmeti) olmasından gedir.

Torpağa mülkiyyət hüququ müvafiq sənədlərlə rəsmiləşdirilir. Onlar iki cür olur: sovxoz, kolxoz və kənd təsərrüfatı müəssisələrinin özəlləşdirilən torpaqlarının mülkiyyətçilərinə verilən **torpağa mülkiyyət hüququna dair dövlət aktı**; vətəndaşların qanuni istifadəsindəki fərdi yaşayış evlərinin, həyətyanı sahələrin, fərdi kollektiv və kooperativ bağların, dövlət bağçılıq təsərrüfatının idarəçiliyindəki bağların altında olan torpaqlara görə onlara təqdim olunan **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə**[1].

6. Vətəndaşların yaşayış binasının tərkib hissələrinə mülkiyyət hüququ

«Mülkiyyət haqqında» qanunun 21-ci maddəsi yaşayış evlərini, mənzilləri vətəndaşların mülkiyyət hüququnun obyektləri dairəsinə şamil edirdi. Yeni MM yaşayış evlərini, mənzilləri və otaqları tam vahid halında əhatə etmək üçün yaşayış binası kimi ümumiləşdirilmiş anlayışdan istifadə edir. Otaqlar, mənzillər yaşayış binasının tərkib hissələri hesab edilir. Yaşayış binasının tərkib hissələri dedikdə, ondakı ayrı-ayrı mənzillər və otaqlar başa düşülür[2].

Vətəndaşların yaşayış binalarının tərkib hissəsinə mülkiyyət hüququ vardır. Bu, **ümumi paylı daşınmaz mülkiyyətə olan hüquqdur**. Belə ki, əgər iki və ya bir neçə şəxsin mülkiyyətində əmlak olarsa, belə mülkiyyətə ümumi mülkiyyət deyilir (MM-in 213-cü maddəsinin 1-ci bəndi). Yaşayış binası tərkib hissələrindən ibarətdir ki, həmin hissələrin öz mülkiyyətçisi vardır. Buna görə də yaşayış binası bir neçə mülkiyyətçinin ümumi mülkiyyəti (əmlakı) sayılır; **həmin mülkiyyətçilərin yaşayış binasına ümumi mülkiyyət hüququ vardır.** Yaşayış binasının tərkib hissələri isə ayrı-ayrı mülkiyyətçilərə məxsusdur. Odur ki, yaşayış binasında mülkiyyətçilərin hər birinin payı yaşayış binasının tərkib hissələri mülkiyyətçilərin həmin binadakı payını ifadə edir. Bu səbəbdən yaşayış binasının tərkib hissələrinin mülkiyyətçiləri **ümumi paylı mülkiyyətçilər** adlanır və onlar arasında qarşılıqlı münasibətlər MM-in paylı ümumi mülkiyyət haqqında normaları ilə

---

[1] Bu məsələlər prezidentin 10 yanvar 1997-ci il tarixli 534 saylı fərmanı ilə təsdiq edilmiş «Torpağa mülkiyyət və istifadə hüququna dair sənədlərin hazırlanması, qeydiyyatı və verilməsi haqqında Əsasnamə» ilə qaydaya salınır (Azərbaycan Respublikasının torpaq qanunvericiliyi. Bakı. 2000, c. 387-389).

[2] Bax: Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров.* М., 2004, с. 354.

tənzimlənir (MM-in 214-221-ci maddələri). Analoji qayda xarici qanunvericilikdə, məsələn, Kvebekin MM-də də nəzərdə tutulmuşdur.

Vətəndaş ona məxsus olan yaşayış otağına (mənzilinə) mülkiyyət hüququnu otağın (mənzilinin) təyinatına uyğun həyata keçirir. Qanun onların öz yaşayış binalarında sənaye istehsalının yerləşdirilməsini qadağan edir. Məsələn, məlum məsələdir ki, vətəndaş yaşadığı evdə istehsal müəssisəsi və sexi açа bilməz. Bu, mülki (mülkiyyət) hüquqların sosial təyinatına uyğun həyata keçirilməsi prinsipinə ziddir.

Yaşayış evinə (yaşayış binasının tərkib hissəsinə) vətəndaşların **mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınır**. Yaşayış evinin əldə edilməsi barədə əqdlər notariat qaydasında təsdiq edilir (MM-in 233-cü maddəsinin1 və 2-ci bəndi). Notariat qaydasında təsdiq etmə yaşayış evinin dövlət qeydiyyatını əvəz etmir. Yalnız dövlət qeydiyyatına alındığı andan yaşayış evinə vətəndaş mülkiyyət hüququ əldə edir. Dövlət orqanlarının aktları, məhkəmə qərarları, müqavilələr, vərəsəlik və digər hüquqi faktlar belə obyektlər üzərində mülkiyyət hüququnun dəyişməsinə səbəb olur.

Mülkiyyətçinin ailə üzvləri yaşayış evinin mülkiyyətçisi hesab edilmirlər. Mülkiyyətçinin ailə üzvləri dedikdə, onun əri (və ya arvadı), valideynləri və uşaqları başa düşülür (MM-in 228-ci maddəsinin 5-ci bəndi). Onlar və digər şəxslər (ailə üzvləri sırasına daxil olmayan şəxslər) yaşayış binasından istifadə hüququna malikdirlər. Bunun üçün istifadə hüququnun daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması zəruridir. İstifadə hüququnun əmələ gəlməsi, həyata keçirilməsi və xitamı barədə qayda mülkiyyətçi ilə bağlanan **yazılı müqavilə** əsasında müəyyənləşdirilir. Bu müqavilənin **notariat qaydasında təsdiq olunması** tələb edilir. Özü də mülkiyyətçinin onunla birgə yaşayan ailə üzvləri yaşayış binasının tərkib hissəsindən (yaşayış sahəsindən) mülkiyyətçi ilə bərabər istifadə etmək hüququna malikdirlər (MM-in 228-ci maddəsinin 5-ci bəndi). Hətta mülkiyyətçinin ailə üzvləri öz yetkinlik yaşına çatmayan uşaqlarını həmin yaşayış sahəsinə köçürə bilərlər; digər ailə üzvlərinin (ərin, arvadın) köçürülməsinə yalnız mülkiyyətçinin razılığı ilə yol verilir. Həmin şəxslərin yaşayış binasının tərkib hissəsindən istifadə etmək hüququ mülkiyyətçi ilə ailə münasibətlərinə xitam verildiyi halda da saxlanılır (MM-in 228-ci maddəsinin 5-ci bəndi).

Mənzildən istifadə hüququnun xitam edilməsi barədə mülkiyyətçi ilə istifadəçi arasında mübahisə yarana bilər. Belə halda mülkiyyətçi iddia ərizəsi ilə məhkəməyə müraciət edir. Məhkəmə qərarı mənzildən istifadə hüququna xitam verilməsi üçün əsasdır. Bu zaman istifadəçiyə bazar qiyməti ilə mülkiyyətçi müvafiq kompensasiya ödəyir (MM-in 228-ci maddəsinin 2-ci bəndi).

Yaşayış evinə və ya mənzilə mülkiyyət hüququ başqa şəxsə keçə bilər. Belə halda yaşayış evindən və ya mənzildən istifadə hüququna xitam verilmir.

Mənzildən istifadə hüququ bəzi mülki-hüquqi müqavilələrin müstəqil predmeti kimi çıxış edə bilmir. Belə müqavilələrə alqı-satqı, ipoteka, kirayə və icarə müqavilələrini misal göstərmək olar.

Yeni MM-də işlədilən anlayışlardan biri **mülkiyyətçilərin yığıncağı** anlayışıdır. Bu, hüquqi şəxs statusuna malik olmayan orqandır. Həmin yığıncağın səlahiyyətlərinə aiddir: idarəçinin səlahiyyətlərinə aid edilməmiş bütün idarəetmə məsələlərini həll etmək; idarəçini təyin etmək və onun fəaliyyətinə nəzarəti həyata keçirmək; hər il üçün maliyyə məsələlərini həll etmək (mülkiyyətçilər arasında xərclərin hesablanması, smeta xərclərinin bölgüsü və s.); səliqə-sahman yaratmaq üçün fond yaratmaq; binanı yanğından və digər təhlükələrdən sığorta etdirmək.

İdarəçinin əsas vəzifəsi ondan ibarətdir ki, o, yaşayış binasını birgə mülkiyyət kimi idarə etmək üçün zəruri olan bütün hərəkətləri yerinə yetirir, maliyyə məsələlərini həll edir, pul vəsaitinə sərəncam verir və bu vəsaitdən təyinatına görə istifadə edir, yaşayış qaydalarının gözlənilməsinə nəzarət edir, bir çox məsələlərdə mülkiyyətçilərin nümayəndəsi kimi çıxış edərək, onları təmsil edir.

Xarici ölkələrdə yaşayış binasının ümumi əmlakını idarə etmək üçün ayrıca qurum yaradırlar. Məsələn, Fransada, Kvebekdə və s. ümumi əmlakı idarə etmək üçün **mülkiyyətçilərin sindikatı** təsis edilir; onun hüquqi şəxs statusu vardır. Xarici ölkələrin çoxunun qanunvericiliyi ev sahiblərinin assosiasiyasının yaradılmasını və onun hüquqi şəxs statusu ilə təmin olunmasını nəzərdə tutur.

Azərbaycan Respublikasının qanunvericiliyi yaşayış binasının ümumi əmlakını da mülkiyyətçilərin ümumi paylı mülkiyyəti hesab edir. Belə ki, yaşayış binasının ümumi əmlakı ümumi paylı mülkiyyət hüququ ilə yaşayış binasının tərkib hissəsi mülkiyyətçilərinə məxsusdur (MM-in 227-ci maddəsinin 1-ci bəndi). **Yaşayış binasının əmlakı** dedikdə isə başa düşülür: yaşayış binasının birdən çox mənzilinə xidmət edən ümumi otaqları (bu otaq mənzildən kənarda və ya mənzil daxilində yerləşə bilər); dayaq konstruksiyaları; mexaniki, elektrik, sanitariya-texniki və digər avadanlıqlar; yaşayış binasının yerləşdiyi torpaq sahəsi. Yaşayış binasının tərkib hissəsi mülkiyyətçisinin ixtiyarı yoxdur ki, bu əmlak növlərinə mülkiyyət hüququndakı payını özgəninkiləşdirsin; o, yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququndan ayrılıqda verilməsinə səbəb olan digər hərəkət də edə bilməz. Qanun bunlara yol vermir (MM-in 227-ci maddəsinin 2-ci bəndi).

Azərbaycan Respublikasının vətəndaşları, habelə vətəndaşlığı olmayan şəxslər yaşadıqları mənzilləri (evləri), yəni dövlət və ya ictimai mənzil fondunu özəlləşdirməklə həmin mənzillər (evlər) üzərində mülkiyyət hüququ qazanmışlar. Evlərin (mənzillərin) əvəzsiz olaraq vətəndaşların xüsusi mülkiyyətinə keçməsi qaydası və şərtləri «Mənzil fondunun özəlləşdirilməsi haqqında» 26 yanvar 1993-cü il tarixli qanunla tənzimlənir.

Qüvvədə olan qanunvericilik yaşayış evinə mülkiyyət hüququnun əldə edilməsi üçün müxtəlif üsullar nəzərdə tutur. Bu üsullara misal olaraq alqı-satqını, bağışlamanı, dəyişmə müqaviləsini, vərəsəliyi misal göstərmək olar. Yaşayış evi tikmək ən geniş yayılmış üsuldur. Bunun üçün torpaq sahəsinin ayrılması, tikintinin layihəsinin təsdiq edilməsi, tikintini aparan şəxsin torpağa olan hüququnun qeydiyyata alınması, tikintinin aparılmasına icazə alınması, inşaat norma və qaydalarına əməl edilməsi tələb olunur.

7. Müəssisə vətəndaşların mülkiyyət hüququnun obyekti kimi

Mülki hüquqda müəssisə anlayışı iki mənada işlədilir. Birinci mənada müəssisə mülki hüququn subyekti rolunda çıxış edir. Belə halda müəssisə anlayışı mülki hüququn subyektlərindən biri olan hüquqi şəxslərin müxtəlif növlərini ifadə edir. Subyekt kimi müəssisə dedikdə, mənfəət alması məqsədilə məhsul

istehsal edən və satan, işlər görən və xidmətlər göstərən hüquqi şəxs olan müstəqil təsərrüfat subyekti başa düşülür. Müəssisələr müxtəlif təşkilati-hüquqi formalarda fəaliyyət göstərir. Belə formalara misal olaraq dövlət müəssisəsini, şərikli (tam ortaqlı), payçı və şərikli (kommandit), məhdud məsuliyyətli müəssisələri və səhmdar cəmiyyətini göstərmək olar.

İkinci mənada müəssisə dedikdə, mülki hüququn obyektlərindən biri başa düşülür. Hüquq ədəbiyyatında haqlı olaraq belə bir fikir söylənilir ki, normal əmlak dövriyyəsində müəssisə hüququn subyekti kimi yox, hüququn obyekti kimi çıxış edir[1]. Bu, onunla izah olunur ki, **müəssisə sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün zəruri olan əmlakdır**. Ona görə də, bir qayda olaraq, o, sahibkarlara, o cümlədən fərdi sahibkarlara məxsus olur.

Müəssisə dedikdə, əşyaların, hüquqların və ya faktiki münasibətlərin məcmusu başa düşülür. Faktiki münasibətlərə, hər şeydən əvvəl, imkan (müştərilərlə əlaqə, işgüzar nüfuz, müəssisənin sirri, satış bazarı, reklam, məqsədəuyğun təşkiletmə və s.) daxildir. Almaniya sivilistika doktrinasında müəssisəyə məhz bu mövqedən yanaşırlar[2].

Mülkiyyət hüququnun obyekti kimi müəssisənin tərkibində iki əsas qrup element fərqləndirilir[3]:

- **maddi və ya əşya elementi** (buraya daşınar və daşınmaz əşyalar, yəni binalar, otaqlar, tikililər, qurğular, maşınlar, avadanlıqlar, xammal, hazır məhsullar və digər əmlak növləri, habelə nağd pullar daxildir);
- **qeyri-maddi və ya ideal element** (sənaye mülkiyyəti obyektlərindən, yəni ixtiradan, sənaye nümunəsindən, əmtəə nişanından, firma adından, istehsal sirrindən istifadə hüququ; ayrı-ayrı müqavilələrdən irəli gələn tələb hüquqları; iş qüvvəsi).

Mülkiyyət hüququnun obyekti kimi müəssisənin tərkib hissələrindən biri müəssisənin şansı hesab edilir; müəssisənin şansı onun qeyri-maddi elementinə daxildir.

Müəssisənin şansı (Chancen, achallandage, goodwill) dedikdə, müəssisənin bazarda faktiki vəziyyəti, onun işgüzar nüfuzu, işgüzar əlaqələri, əldə etdiyi müştərilər və gələcəkdə müştərilərə malik olmaq imkanı başa düşülür; istənilən müəssisənin fəaliyyət göstərməsinin vacib şərti olan ixtisaslı mütəxəssislər də müəssisənin şansına daxildir; ona Qərb hüquq elmində **«kliyentella»** da deyilir.

Müəssisənin şansı dəyəri olan nemətdir; bu neməti pulla qiymətləndirmək mümkündür. Belə ki, ilk növbədə, müəssisənin əmlakının (əmlak hüquqlarının) ümumi dəyəri hesablanır; sonra isə müəssisənin qiyməti müəyyənləşdirilir. Müəssisənin qiymətindən onun əmlakının ümumi dəyəri çıxılır. Yerdə qalan məbləğ müəssisənin şansının pula qiymətini ifadə edir. Buna görə də müəssisənin şansı onun vacib elementi sayılır; müəssisənin iqtisadi qiymətinə məhz o, təsir göstərir. ABŞ mülki hüququnda göstərilir ki, müəssisənin şansı (kliyentella) onun aktivinin ən qiymətli elementidir; kliyentella yaxşı alıcılar deməkdir ki, onlarla münasibətlər doğrudan da müəssisənin əsas qiymətini təşkil edə bilər[1].

«Mülkiyyət haqqında» qanunun 3-cü maddəsi müəssisələri mülkiyyət hüququnun obyektləri dairəsinə şamil edirdi. Həmin qanunun 21-ci maddəsi mal istehsalı, məişət xidməti, ticarət sahəsində, habelə sahibkarlıq fəaliyyətinin başqa sahəsində müəssisələrin vətəndaşların xüsusi mülkiyyət hüququnun obyekti kimi çıxış etməsinin mümkünlüyünü müəyyən edirdi. Beləliklə, əmlakın xüsusi növü, mülkiyyət hüququnun xüsusi obyekti olan müəssisələr vətəndaşların mülkiyyətində ola bilər. Onlar mülkiyyətində olan müəssisələri satmaq, dəyişmək, ipotekaya qoymaq, icarəyə vermək və onun barəsində digər hərəkətlər etmək hüququna malikdirlər[2]. Belə təsəvvür yaranır ki, **müəssisə vətəndaşların mülkiyyət hüququnun obyekti kimi müxtəlif əqdlərin predmetini təşkil edir**. Müəssisələrin alqı-satqısı daha geniş yayılmış əqd növüdür; praktikada onun bağlanmasına daha tez-tez hallarda rast gəlinir. Alqı-satqıdan başqa, müəssisə barəsində icarə, ipoteka, etibarlı idarəetmə və digər əqdlər də bağlana bilər.

Elə müəssisələr də vardır ki, belə müəssisələrin vətəndaşların xüsusi mülkiyyətində olmasının mümkünlüyünü qanun yasaqlayır. Bu, ictimai təhlükəsizlik və dövlət təhlükəsizliyi mülahizələri ilə, habelə beynəlxalq öhdəliklərin yerinə yetirilməsi zərurəti ilə bağlı ola bilər. Qeyd etmək lazımdır ki, silah və döyüş sursatı istehsal edən müəssisələr vətəndaşların xüsusi mülkiyyətində ola bilməz. Bu aydın məsələdir.

8. Fərdi sahibkarların mülkiyyət hüququ

Fərdi sahibkarlar kollektiv sahibkarlardan fərqli olaraq, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar. Belə sahibkarlar **sahibkar statuslu vətəndaşlar** adlanır.

Fərdi sahibkarlar sahibkarlıq fəaliyyətindən əldə edilən mənfəətdən vergilər və digər məcburi ödənişlərdən sonra onun qalan hissəsindən sərbəst istifadə etmək hüququna malikdirlər. Əldə edilən mənfəətin qalan hissəsinin hamısı fərdi sahibkarın xüsusi mülkiyyətinə daxil olur. Məhsul satışından, görülən işlərdən, göstərilən xidmətlərdən, habelə təsərrüfat fəaliyyətinin digər növlərindən alınan gəlirlər üzərində, habelə qiymətli kağızların satışından əldə edilən gəlirlər üzərində fərdi sahibkarlar mülkiyyət hüququ qazanırlar.

Fərdi sahibkarların mülkiyyətində binalar, qurğular, nəqliyyat vasitələri, avadanlıqlar və digər əmlak növləri ola bilər. Onlar bu əmlak növlərini satmaq, icarəyə vermək, dəyişdirmək, əvəzsiz olaraq müvəqqəti istifadəyə vermək, yaxud da borc vermək hüququna malikdirlər.

Fərdi sahibkarların ixtiyarı vardır ki, onlar öz əmlakını hüquqi şəxs statuslu müxtəlif təsərrüfat cəmiyyətlərinə və ortaqlıqlarına, kooperativlərə, kollektiv və

[1] Гражданское право. Учебник. Том 1 / Под ред. *А.Е.Суханова*. М., 1998, с. 306.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 67.

[3] Bax: Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров*. М., 2004, с. 176.

[1] Ласк Г. Гражданское право США. М., 1961, с. 223.

[2] L.Ennekserus yazır ki, müəssisə tam halda müqavilələrin, o cümlədən alqı-satqı müqavilələsinin predmeti ola bilər. Özü də bu müqaviləyə analogiya üzrə Almaniya Mülki Qanunnaməsinin alqı-satqı haqqında müəyyən etdiyi qaydalar tətbiq edilir. Belə ki, Mülki Qanunnamə yalnız əşya və hüquqların satqısını tənzimləyir (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 67-68). Zənn edirik ki, bizim ölkə ərazisində də **müəssisələr satılarkən Azərbaycan Respublikası MM-in alqı-satqı haqqında normaları** tətbiq edilməlidir.

başqa müəssisələrə maya kimi qoysun və ondan istifadə etsin. Məsələn, fərdi sahibkar təsisçi (iştirakçı) kimi öz əmlakından şərikli (tam ortaqlı) müəssisənin yaradılmasına (şərikli kapitala) pay qoyur. Fərdi sahibkar müəssisədən çıxdığı hallarda öz payını geri alır. O, şəriklərin razılığı ilə həmin payı sata və başqa şəkildə özgəninkiləşdirə bilər. Kreditorların tələbi paya yönəldilə bilər. Bu, o vaxt mümkün olur ki, fərdi sahibkarın (iştirakçının) digər əmlakı onun şəxsi borclarını ödəmək üçün kifayət etməsin (MM-in 80-ci maddəsinin 1-ci bəndi).

Fərdi sahibkarın mülkiyyətində mülki dövriyyə qabiliyyətli istənilən hər hansı əmlak ola bilər. Onun mülkiyyət hüququnun obyektlərini şərti olaraq iki yerə bölmək olar: **sahibkarlıq fəaliyyəti üçün istifadə edilən əmlak növləri**; **qeyri-sahibkarlıq fəaliyyəti üçün (ailə, məişət, şəxsi və s. məqsədlər üçün) istifadə edilən əmlak növləri**. Bu cür iki əmlak növünü hüquqi cəhətdən ayırmaq olmaz. Buna görə də kreditorların tələbi fərdi sahibkarın məcmu halında bütün əmlakına yönəlir.

§ 3. Fiziki şəxslər mülkiyyət hüququnun subyekti kimi

1. Mülkiyyət hüququnun subyektləri

«Mülkiyyət haqqında» qanunun 4-cü maddəsi mülkiyyət hüququnun subyektlərinin dairəsini müəyyən edirdi. Subyektlərin dairəsini müəyyən edən siyahı kifayət qədər geniş idi. Həmin maddəyə görə, Azərbaycan Respublikasında mülkiyyət hüququnun subyektləri rolunda çıxış edə bilərdi: Azərbaycan Respublikası (Azərbaycan dövləti); Naxçıvan Muxtar Respublikası; yerli bələdiyyələr; kollektiv müəssisələr; ictimai birliklər; dini təşkilatlar; vətəndaşlar. Kollektiv müəssisələr dedikdə, kooperativlər, səhmdar cəmiyyətləri, təsərrüfat ortaqlıqları və təsərrüfat assosiasiyaları, icarə müəssisələri başa düşülürdü.

Həmin qanuna görə, Azərbaycan Respublikasının ərazisində qanunvericiliklə müəyyən edilmiş hədlərdə xarici dövlətlər, onların hüquqi şəxsləri və vətəndaşları, habelə beynəlxalq təşkilatlar mülkiyyət hüququnun subyekti rolunda çıxış edə bilərdi.

Yeni MM də mülkiyyət hüququnun subyektlərinin dairəsini nəzərdə tutur. Həmin Məcəlləyə görə, **mülkiyyət hüququnun subyektləri dörd kateqoriyaya bölünür**:

- **fiziki şəxslər**;
- **hüquqi şəxslər**;
- **bələdiyyələr**;
- **Azərbaycan Respublikası (Azərbaycan dövləti)**.

Mülkiyyət hüququnun subyekti kimi fiziki şəxslər dedikdə, Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər (xarici ölkə vətəndaşları), vətəndaşlığı olmayan şəxslər başa düşülür. Subyektlər mülkiyyətçi də adlandırılır. **Mülkiyyətçi** dedikdə, subyektiv mülkiyyət hüququna malik olan şəxs başa düşülür; o, subyektiv mülkiyyət hüququnun daşıyıcısıdır.

Əmlak mülkiyyət hüququ əsasında iki və ya ikidən daha çox subyektə məxsus ola bilər. Məsələn, əmlakın dörd nəfər vətəndaşa məxsus olması və ya iki kooperativin hər hansı əmlaka malik olması bu hala misaldır. Hər hansı bir müəyyən əmlaka birgə (ümumi) mülkiyyət hüququ olan şəxslərə **ümumi mülkiyyətçilər** deyilir.

2. Azərbaycan Respublikasının vətəndaşları mülkiyyət hüququnun subyekti kimi

Mülkiyyət hüququnun əsas və mərkəzi subyekti Azərbaycan Respublikasının vətəndaşlarıdır. Konstitusiyada mülkiyyət hüququ əsas insan və vətəndaş hüquqları dairəsinə daxil edilir (29-cu maddə); o, subyektiv **konstitusion hüquqdur**. Mülkiyyət hüququ həm də eyni zamanda vacib **sosial-iqtisadi hüquq** sayılır. Bu kimi zəruri hüququn əsas daşıyıcısı Azərbaycan Respublikasının vətəndaşlarıdır.

Vətəndaşlar özlərinin **yaşından asılı olmayaraq, xüsusi mülkiyyət hüququnun subyekti kimi çıxış edirlər**. Məsələn, baba 6 yaşlı nəvəsi üçün onun xeyrinə vəsiyyət edir. Baba öldükdən sonra mülkiyyət hüququnu qanuni nümayəndənin (uşağın valideynləri, övladlığa götürənlər, qəyyum) vasitəsi ilə azyaşlının özü əldə edir.

Vətəndaşlar özlərinin **sağlamlıq vəziyyətindən asılı olmayaraq, mülkiyyət hüququnun subyekti olurlar**. Vətəndaşın əqli zəifliyi, ruhi xəstəliyi, əlil olması, fiziki qüsuru, şikəstliyi və digər xəstəlik halları heç də onun mülkiyyət hüququnun subyekti kimi çıxışını istisna etmir. Məsələn, I qrup əlil yaşamaq üçün ev aldığı zaman sağlam vətəndaşla bərabər qaydada ev üzərində mülkiyyət hüququ qazanır.

Vətəndaşlar **özlərinin mülki fəaliyyət qabiliyyətindən asılı olmayaraq, mülkiyyət hüquq subyektliyinə malik olurlar**. Məsələn, ruhi xəstəlik nəticəsində vətəndaş məhkəmə tərəfindən qeyri-fəaliyyət qabiliyyətli şəxs hesab edilir. Həmin vətəndaş yaşamaq üçün mənzil alır. Qəyyum onun adından alqı-satqı müqaviləsi bağlayır. Beləliklə, fəaliyyət qabiliyyəti olmayan şəxs qəyyumun vasitəsilə mənzil üzərində mülkiyyət hüququ əldə edir. Tam, natamam, qismən, məhdud və qeyri-fəaliyyət qabiliyyətli vətəndaşlar bərabər əsaslarla əmlak üzərində mülkiyyət hüququna malikdirlər.

Vətəndaşların mülkiyyətində onların fəaliyyət qabiliyyətindən asılı olmayaraq, mülki dövriyyədə istifadəsi qadağan edilməmiş istənilən əmlak ola bilər. Lakin öz mülkiyyətində olan əmlak üzərində sərəncam verməyə dair əqdləri onların müstəqil surətdə bağlamaları mülki fəaliyyət qabiliyyətindən asılı olur. Məsələn, azyaşlılar adından əqdləri xırda məişət xarakterli əqdlər istisna olmaqla, onların valideynləri, övladlığa götürənlər və ya qəyyumlar bağlayırlar.

Vətəndaşın öz mülkiyyətində əmlaka malik olmasının, yəni əmlaka mülkiyyət hüququna malik olmasının onun yaşından, sağlamlıq vəziyyətindən, ümumiyyətlə, mülki fəaliyyət qabiliyyətindən asılı olmamasını nə ilə izah etmək olar? Qeyd etmək lazımdır ki, vətəndaşlar xüsusi (şəxsi) mülkiyyətində əmlaka malik ola bilərlər və bu hüquqi imkan onların mülki fəaliyyət qabiliyyətinin yox, mülki hüquq qabiliyyətinin məzmununu təşkil edir; vətəndaşların mülki hüquq qabiliyyəti isə onların nə yaşından, nə də sağlamlıq vəziyyətindən asılıdır.

Vətəndaşın **mülkiyyətçi rolunda çıxış etməsi üçün onun xüsusi olaraq qeydə alınması tələb olunmur**. Əgər o, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyirsə, onda vətəndaşın fərdi sahibkar kimi qeydə alınması tələb edilir. Buna görə də mülkiyyətçi rolunda vətəndaşın çıxış etməsi üçün qeydiyyata

alınması hallarını iki qrupa bölmək olar: qeydiyyata alınması tələb edilməyən hallar; qeydiyyata alınması tələb edilən hallar. Buna uyğun olaraq mülkiyyət hüququnun subyekti kimi vətəndaşları iki kateqoriyaya bölmək olar: qeyri-sahibkar statuslu vətəndaşlar; sahibkar statuslu vətəndaşlar.

Qeyri-sahibkar statuslu vətəndaşlar odur ki, onlar muzdlu işçi qismində, habelə mənfəət alınmasına yönəlməyən iqtisadi fəaliyyətlə məşğul olan şəxs rolunda çıxış edirlər. Qeyri-sahibkar statuslu vətəndaşın mülkiyyətçi rolunda çıxış etməsi üçün onun hər hansı bir səlahiyyətli dövlət orqanı tərəfindən qeydiyyata alınması tələb olunmur. Bununla bərabər, qanun həmin vətəndaşların mülkiyyətində olan bəzi əmlak növlərinin dövlət qeydiyyatına alınmasını istisna etmir. Başqa sözlə desək, vətəndaşa məxsus olan daşınmaz əmlaka mülkiyyət hüququ müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin) tərtib etdiyi daşınmaz əmlakın dövlət reyestrində qeydə alınır (MM-in 139-cu maddəsinin 3-cü bəndi).

Qeyri-sahibkar statuslu vətəndaşın mülkiyyətində olan daşınmaz əmlaka mülkiyyət hüququnun əmələ gəlməsi, başqasına keçməsi və xitam edilməsi, habelə bu əmlak üzərində sərəncam verməyə dair əqdlər (alqı-satqı, renta və s.) dövlət qeydiyyatına alınır.

3. Sahibkar statuslu vətəndaşlar mülkiyyət hüququnun subyekti kimi

Mülki (əmlak) dövriyyədə mülkiyyətçi kimi sahibkar statuslu vətəndaşlar da çıxış edirlər. **Sahibkar statuslu vətəndaşlar** odur ki, onlar hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar. «Sahibkarlıq fəaliyyəti haqqında» qanun sahibkar vətəndaşların **onların yaşadıqları və ya fəaliyyət göstərdikləri yerin vergi orqanlarında uçota (qeydiyyata) alınması qaydasını** müəyyən edir. Sahibkar vətəndaşların uçotu dedikdə, onların mövcudluğu və fəaliyyəti haqqında məlumatların toplanması və sistemləşdirilməsi başa düşülür.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən vətəndaş uçota alınmaq üçün ərizə verir. Ərizə notariat qaydasında təsdiq edilir. Ərizədə vətəndaş özü haqqında məlumat verir, sahibkarlıq fəaliyyətinin növünü göstərir.

Ərizəni qəbul etmiş dövlət orqanı 5 gün müddətinə vətəndaşa uçota alınması barədə sənəd verir. Onlar uçota alınmalarına görə dövlət rüsumu ödəmirlər.

Uçota alınma barədə sənəd verildiyi andan vətəndaş sahibkar statusu əldə edir. Uçotdan vətəndaş ərizə verməklə çıxdığı andan onun sahibkarlıq statusuna xitam verilir.

Sahibkar statuslu vətəndaşların uçota alınması **iki məqsədlə** şərtlənir. Birincisi, vətəndaşlar onların **sahibkarlıq fəaliyyətinə nəzarət olunmaq üçün uçota alınırlar**. Bununla müvafiq orqanlar vətəndaşların sahibkarlıq fəaliyyətini yoxlayır. İkincisi, uçot vasitəsilə vətəndaşların məşğul olduqları sahibkarlıq fəaliyyətindən əldə etdikləri **mənfəətdən verginin büdcəyə daxil olması təmin edilir**.

Vətəndaşlar mülkiyyətçi kimi hüquqi şəxs yaratmaqla da sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilərlər. Belə halda hüquqi şəxs yaradan vətəndaş dövlət qeydiyyatına alınır. Onlar hüquqi şəxsin nizamnamə fonduna (şərikli kapitalına) öz paylarını verirlər. Paylar bina, avadanlıq, qiymətli əşyalar, qiymətli kağızlar, pul vəsaiti, xarici valyuta şəklində verilə bilər. Belə halda əmlakın mülkiyyətçisi vətəndaş yox, hüquqi şəxsin özü olur. Vətəndaş isə bu əmlak barəsində öhdəlik hüququna, yəni maya kimi verdiyi payın verilməsini hüquqi şəxsdən tələb etmək hüququna malik olur.

Vətəndaş yaratdığı hüquqi şəxsin öhdəliklərinə görə məsuliyyət daşımır. Maliyyə iflası halında (borcları yarananda) o, yalnız hüquqi şəxsin nizamnamə fonduna qoyduğu əmlak payı həcmində cavabdehliyə malikdir.

Beləliklə, birinci halda, yəni qeyri-sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu halda mülkiyyətçi qismində vətəndaş çıxış etdikdə, qeydiyyat tələb olunmur. Belə halda hüququn subyektinin ikiləşməsi baş vermir. İkinci halda, yəni hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan mülkiyyətçi fərdi sahibkar kimi uçota alınır[1]. Belə halda da hüququn subyektinin ikiləşməsi baş vermir. Üçüncü halda, yəni hüquqi şəxs yaratmaqla sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlar dövlət qeydiyyatına alınır. Belə halda digər iki haldan fərqli olaraq, **hüququn subyektinin ikiləşməsi** (yəni vətəndaş və hüquqi şəxs adlı iki kateqoriya subyektin yaranması) baş verir.

Sahibkar olan mülkiyyətçi öldükdə, qalan əmlak onun vərəsələrinə keçir.

4. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər mülkiyyət hüququnun subyekti kimi

Konstitusiyanın 69-cu maddəsində, «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında» qanunun 4-cü maddəsində ifadə edilən müddəadan belə nəticə çıxır ki, Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələr ilə başqa qayda nəzərdə tutulmayıbsa, **əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası vətəndaşları ilə bərabər bütün mülkiyyət hüquqlarından istifadə edirlər**. Lakin onların öz mülkiyyət hüququnu həyata keçirməsi Azərbaycan Respublikasının milli mənafeyinə zidd olmamalıdır.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər öz mülkiyyətində olan əmlakdan istifadə etməklə azad sahibkarlıq, investisiya fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilərlər. Belə halda onlar bizim vətəndaşlar üçün müəyyən edilmiş hüquqlardan istifadə edirlər. Onların Azərbaycan Respublikasının vətəndaşları üçün müəyyən edilmiş əsaslarla və qaydada dövlət, idarə və ictimai fondlardan mənzil almaq hüququ vardır.

«Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında» 7 yanvar 1993-cü il tarixli qanunun 5-ci maddəsi xarici fiziki şəxsləri dövlət mülkiyyətinin xüsusi mülkiyyətə verilməsini nəzərdə tutan dövlət mülkiyyətinin özəlləşdirilməsinin subyektləri dairəsinə şamil edir. Qanunda xarici fiziki şəxslərin özəlləşdirmə prosesində yerli kapitalla birgə iştirakına üstünlük verilir.

Xarici sərmayəçilər – xarici fiziki şəxslər və vətəndaşlığı olmayan şəxslər dövlət özəlləşdirmə opsionu əldə etməklə özəlləşdirmə münasibətlərində sub-

[1] Bu barədə başqa fikir də söylənilir. Müəlliflərdən Q.D.Otnyukova göstərir ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaş mülkiyyətçi kimi yox, fərdi sahibkar kimi qeydiyyata alınır. Bu fikirlə çətin ki razılaşmaq olar. Belə ki, fərdi sahibkar da, qeyri-sahibkar da, hamısı mülkiyyətçidir (Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева*. М., 1999, с. 106).

yekt kimi çıxış edirlər. Adsız (təqdim edənə) nağd qiymətli kağız olan opsion onun sahibinə (xarici sərmayəçiyə) iki hüquq verir: özəlləşdirmədə istifadə etmək üçün özəlləşdirmə çekləri almaq hüququ; özəlləşdiriləcək müəssisələrin səhmlərini almaq hüququ[1].

«Xarici investisiyanın qorunması haqqında» 15 dekabr 1992-ci il tarixli qanuna görə, xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında xarici investor rolunda çıxış edə bilərlər[2]. Xarici investorların mənfəət əldə etmək məqsədilə sahibkarlıq fəaliyyəti və başqa növ fəaliyyət obyektlərinə qoyduqları əmlak və əmlak hüquqlarının bütün növləri və əşya hüquqlarına aid olmayan digər hüquqlar xarici investisiyanı təşkil edir.

Xarici investor olan əcnəbi vətəndaşlar Azərbaycan Respublikasının ərazisində müxtəlif yollarla investisiya qoya bilərlər; Azərbaycan Respublikasının şəxsləri ilə birlikdə yaradılan müəssisələrdə payçılıq iştirakı; tamamilə xarici investorlara məxsus olan müəssisələr yaradılması; müəssisələrin, əmlak komplekslərinin, binaların, qurğuların, səhmlərin, istiqrazların və digər qiymətli kağızların və digər əmlak növlərinin əldə edilməsi və s. Xarici vətəndaşlar mülkiyyətçi kimi hər hansı müəssisə təsis edə bilərlər.

Azərbaycan Respublikasında xarici investisiya milliləşdirilmir. Qanun bununla belə, **xarici investisiyanın Azərbaycan xalqına və dövlət mənafelərinə zərər vurduğu hallarda, onun milliləşdirilməsinin mümkünlüyü qaydasını müəyyənləşdirir**. Milliləşdirmə haqqında qərarı parlament qəbul edir. Milliləşdirmə tədbirləri görüldükdə, investora təxirə salınmadan münasib və ədalətli kompensasiya verilir.

Xarici investisiya rekvizisiya (həcz) edilmir. Bununla bərabər, qanunda təbii fəlakət, qəza, epidemiya, epizootiya və digər fövqəladə hallarda **xarici investisiyanın rekvizisiya edilməsinin mümkünlüyü barədə göstəriş ifadə olunmuşdur**. Belə halda da investora ədalətli kompensasiya ödənilir. Rekvizisiya barədə qərarı Nazirlər Kabineti qəbul edir. Həm milliləşdirmə, həm də rekvizisiya tədbirləri görüldükdə, ödənilən kompensasiya investisiyanın real dəyərinə uyğun olmalıdır. Kompensasiya xarici valyuta ilə ödənilir. Zəruri olduqda, o, investorun arzusu ilə xaricə köçürülə bilər.

Qanunda nəzərdə tutulan hallarda və beynəlxalq hüquq normaları əsasında **əcnəbilərin mülkiyyət hüququ məhdudlaşa bilər**. Köhnə Torpaq Məcəlləsinin (1991) 11-ci maddəsinə görə, xarici vətəndaşların mülkiyyətinə, habelə vərəsəlik üzrə keçən ömürlük sahibliyinə torpaq sahələri verilmirdi[3]. Bu qayda «Torpaq islahatı haqqında» qanunun 4-cü maddəsində də göstərilmişdir[4]. Yeni Torpaq Məcəlləsinin (1999) 48-ci maddəsinə görə, xarici fiziki şəxslərə torpaq sahələrinin vərəsəlik, bağışlama və ipoteka əqdləri nəticəsində keçən **mülkiyyət hüququ bir il müddətinə özgəninkiləşdirilir**. Əgər mülkiyyət hüququ özgəninkiləşdirilmədikdə, müvafiq dövlət icra hakimiyyəti orqanı və ya

[1] bax: «Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı»na // Sahibkarlığa kömək və özəlləşdirmə proqramları. Bakı. 1999, c. 31-32.

[2] bax: AR QK, I cild, s. 245.

[3] bax: AR QK, I cild, s. 88.

[4] bax: AR QK, III cild, s. 287.

bələdiyyə torpaq sahəsini məcburi satın alır. Xarici fiziki şəxslər bizim ölkədə **torpaq sahələrini yalnız icarə hüququ əsasında əldə edə bilərlər**. Torpaq sahələri onların yalnız istifadəsinə verilə bilər. Su Məcəlləsinin 14-cü maddəsi Azərbaycan Respublikasının vətəndaşı olmayan şəxslərə su obyektlərinin xüsusi mülkiyyətə verilməsini yasaqlayır[1].

Xarici ölkə vətəndaşlarının mülkiyyət hüququ **retorsiya qaydasında da məhdudlaşdırıla bilər**. Retorsiya cavab məhdudiyyətlərini ifadə edir. Bu tədbir o vaxt tətbiq edilir ki, hər hansı xarici dövlət öz ərazisində Azərbaycan Respublikası vətəndaşlarının mülkiyyət hüquqlarına məhdudiyyət qoysun. Belə halda Azərbaycan Respublikasının ərazisində qanunla həmin dövlətin vətəndaşları üçün eyni məhdudiyyətlər müəyyən edilə bilər. Əcnəbilərin mülkiyyət hüququnun məhdudlaşdırılmasını nəzərdə tutan qanun müəyyən müddətdən sonra ləğv edilə bilər. Bu, yalnız o vaxt mümkün ola bilər ki, həmin qanunun qəbul edilməsinə əsas olan hallar aradan qaldırılmış olsun.

§ 4. Vətəndaşların mülkiyyət hüququnun məzmunu və həyata keçirilməsinin hədləri

1. Vətəndaşların mülkiyyət hüququnun məzmunu

Mülkiyyət hüququ əsasında əmlaka malik olmaq imkanı (qabiliyyəti) vətəndaşların mülki hüquq qabiliyyətinin məzmununu təşkil edən elementlərdən biridir. Bu abstrakt xarakterli imkan müxtəlif hüquqi faktlar əsasında (məsələn, müqavilə yolu ilə, vərəsəlik qaydasında və sairə) gerçəkləşdirilir və bununla vətəndaş əmlak üzərində subyektiv mülkiyyət hüququ əldə edir. Vətəndaşların mülkiyyətində əmlaka malik olmaq qabiliyyəti ilə subyektiv mülkiyyət hüququ arasında münasibət imkan və gerçəklik kimi fəlsəfi kateqoriyalar arasındakı nisbətin eynidir.

Vətəndaşların subyektiv mülkiyyət hüququnun məzmunu, birincisi, tələb etmək səlahiyyətindən (bu səlahiyyətə əsasən mülkiyyətçi hamıdan və hər kəsdən tələb edir ki, onun mülkiyyət hüququnu pozmasınlar), ikincisi, müdafiə səlahiyyətindən (mülkiyyət hüququ pozulduğu hallarda bu səlahiyyətə əsasən mülkiyyətçi pozulmuş hüququnu məhkəmə yolu ilə bərpa edə bilər), üçüncüsü isə davranış səlahiyyətindən, davranış səlahiyyəti isə əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək kimi üç səlahiyyətdən ibarətdir[2]. Mülkiyyətçi kimi vətəndaş özünə məxsus olan əmlaka öz mülahizəsinə görə, istəyinə uyğun olaraq sahiblik, ondan istifadə və onun barəsində sərəncam hüququna malikdir. Vətəndaşın ixtiyarı vardır ki, o, üçlü səlahiyyətini başqa şəxsə versin, əmlakdan girov kimi və ya başqa üsulla istifadə edə bilsin,

[1] bax: AR QK, V cild, s. 123.

[2] Vətəndaşın xüsusi mülkiyyət hüququnun məzmunu barədə söhbət açdığımız zaman K.Marksın bu məsələ barədə mövqeyini aydınlaşdırmaq yerinə düşərdi. Marks soruşur: «Vətəndaşın xüsusi mülkiyyət hüququ nədən ibarətdir?» Verilən bu suala cavab kimi o, Fransanın 1793-cü il Konstitusiyasının 16-cı maddəsini sitat (tutalqa) gətirir: «Mülkiyyət hüququ hər bir vətəndaşın özünə məxsus əmlakından, özünün gəlirlərindən, əmək və səylərinin nəticələrindən öz istəyinə uyğun olaraq istifadə etmək və onlar üzərində sərəncam vermək hüququdur» (*Маркс К., Энгельс Ф.* Соч. Том 2, с. 134).

öz əmlakını mülkiyyət kimi və ya idarə etmək üçün başqa şəxsə versin, habelə öz əmlakı barəsində qanuna zidd olmayan istənilən hərəkətləri etsin. Əmlak barəsində vətəndaşın hərəkətləri həm şəxsi istehlaka, həm də ondan mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədilə qanunla qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri ilə, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün istifadəyə yönələ bilər. Mülkiyyətçinin ixtiyarı vardır ki, o, öz mülkiyyətində olan əmlakdan hər hansı sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməmiş istənilən iqtisadi fəaliyyət növü ilə məşğul olmaqdan ötrü istifadə etsin.

Əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək barədə edilən hərəkətlərin həcmi mülkiyyət hüququnun bütün subyektləri üçün eynidir. Bununla bərabər, mülkiyyətçi vətəndaşın hüquqi vəziyyəti digər subyektlərin hüquqi vəziyyətindən fərqlənir. Bu fərq onunla şərtlənir ki, əmlak üzərində sərəncam verməyə dair bəzi əqd növlərini yalnız vətəndaşlar bağlaya bilərlər. Mülki dövriyyənin digər iştirakçıları belə əqdləri bağlamaq qabiliyyətinə malik deyillər. Belə təsəvvür yaranır ki, vətəndaşların maddi (əmlak) hüquq qabiliyyətinin həcmi digərlərinin hüquq qabiliyyətinin həcmindən fərqlənir. Məsələn, vəsiyyətnamə tərtib etməklə əmlak barəsində sərəncam vermək qabiliyyəti yalnız mülkiyyətçi vətəndaşa məxsusdur (MM-in 1166-cı maddəsi). Müqavilə üzrə ömürlük renta almaq qabiliyyətinə yalnız vətəndaş malik ola bilər (MM-in 877-ci maddəsi).

Mülkiyyətçi vətəndaşın subyektiv mülkiyyət hüququ **mütləq hüquqlar dairəsinə** şamil edilir. Mütləq hüquqların xüsusiyyəti ondan ibarətdir ki, bu hüquqların daşıyıcısına qarşı dairəsi məlum olmayan, qeyri-müəyyən sayda şəxslər dururlar. Həmin hüquqlar onu ifadə edir ki, «hamı və hər kəs» mülkiyyətçinin iradəsi və icazəsi olmadan əşya barəsində hər hansı münasibət müəyyənləşdirməkdən, hərəkət etməkdən çəkinməlidir. Mütləq hüquqlar hər kəsdən, yəni dairəsi naməlum olan şəxslərdən qorunur və müdafiə edilir, çünki müstəsna hüquqları hər kəs poza bilər. Bu sözləri mütləq hüquqların bir növü olan mülkiyyət hüququ haqqında da demək olar. Vətəndaşların mülkiyyət hüququnun məzmununu təşkil edən üçlü səlahiyyət elədir ki, o, bu hüququ qeyri-məlum saylı şəxslər dairəsi tərəfindən («hamıdan və hər kəsdən») tələdilə bilən hər cür hüquq pozuntusundan müdafiə etməyə imkan verir.

2. Vətəndaşların mülkiyyət hüququnun həyata keçirilməsinin hədləri

Qanun mülkiyyətçi vətəndaşa ixtiyar verir ki, o, öz əmlakı barəsində istənilən hərəkəti etsin, bu əmlakdan şəxsi istehlak üçün, hər hansı sahibkarlıq fəaliyyəti və ya digər iqtisadi fəaliyyət üçün istifadə etsin. Bununla bərabər, onun əmlak üzərində ixtiyarı və səlahiyyətləri mütləq xarakter daşımır. Belə ki, vətəndaş mülkiyyətçiyə **yalnız qanunla müəyyən edilmiş həddə əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək hüququ verilir**. O, üçlü səlahiyyəti qanunamüvafiq qaydada müəyyənləşdirilmiş həddə, o cümlədən müqavilə ilə nəzərdə tutulmuş həddə həyata keçirir (MM-in 152-ci maddəsinin 5-ci bəndi). Belə təsəvvür yaranır ki, vətəndaş mülkiyyət hüququnu yalnız qanun və ya müqavilə ilə müəyyən edilən həddə həyata keçirir.

Mülkiyyət hüququ nə qədər geniş məzmuna malik olsa da, onun müəyyən

sərhədləri və hədləri vardır; mülkiyyət hüququ həyata keçirilən zaman həmin sərhəd və hədlər gözlənilməlidir. Bu sərhədləri və hədləri qanun normativ qaydada müəyyən edir. Beləliklə, **mülkiyyət hüququnun həyata keçirilməsinin hədləri** dedikdə, qanunla müəyyən edilən elə sərhəd və hüdudlar başa düşülür ki, məhz bu sərhəd və hüdudlar daxilində mülkiyyətçi əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək hüquqlarını gerçəkləşdirir. Başqa sözlə desək, qanunun qadağan etdiyi və yasaqladığı hallar mülkiyyət hüququnun həyata keçirilməsinin hədlərini ifadə edir.

Mülkiyyət hüququnun məhdudlaşdırılması yalnız mülkiyyətçinin ayrı-ayrı səlahiyyətlərinə aiddir və mülkiyyət hüququ institutunun mahiyyətinə toxunmur, təsir göstərmir. Belə ki, **mülkiyyət məhdudlaşdırma ideyasını qəbul etmir**.

Vətəndaşların mülkiyyət hüququnun həyata keçirilməsi hədləri bunlardır: ətraf mühitə zərər vurmamaq; vətəndaşların, hüquqi şəxslərin və dövlətin hüquqlarını və qanunla qorunan mənafelərini pozmamaq; mülkiyyət hüququndan sui-istifadə etməmək; dövlət və ictimai təhlükəsizliyi, ictimai qaydanı pozmamaq; cəmiyyətin mənafeyinə və mənəvi-əxlaqi dəyərlərə xələl gətirməmək; əhalinin sağlamlığının qorunmasına əngəl olmamaq və s.

Mülki qanunvericilikdə mülkiyyətçi vətəndaşın əmlakı barəsində mülkiyyət hüququnu məhdudlaşdıran kifayət qədər xeyli hallara rast gəlmək olar. Məsələn, vətəndaşların yaşayış evlərindən istehsal məqsədləri üçün istifadə etməsinə qanun yol vermir (MM-in 226-cı maddəsinin 4-cü bəndi); yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisi ona mənsub olan yaşayış otağına sahiblik, ondan istifadə və ona sərəncam hüquqlarını otağın təyinatına uyğun həyata keçirir (MM-in 226-cı maddəsinin 2-ci bəndi). Torpaqdan onun məqsədli təyinatı nəzərə alınmadan istifadə etməyə yol verilmir (Torpaq Məcəlləsinin 11-ci maddəsi)[1]. Nazirlər Kabinetinin icazəsi olmadan vətəndaşların xüsusi mülkiyyətində olan abidələr xaricə aparıla bilməz («Tarix və mədəniyyət abidələrinin qorunması haqqında» qanunun 4-cü maddəsi)[2]. Vətəndaşların xüsusi mülkiyyətində olan abidələr satılarkən Mədəniyyət Nazirliyinə bu haqda məlumat verilməlidir. Vətəndaş qanuni əsaslarla mülkiyyətində olan mülki silahı daxili işlər orqanını əvvəlcədən xəbərdar etməklə mülki silahı əldə etmək üçün icazəsi olan şəxsə verə və ya vəsiyyətlə miras qoya bilər («Xidməti və mülki silah haqqında» qanunun 14-cü maddəsi)[3]. Əgər vətəndaş sahibkarlıq fəaliyyəti ilə məşğul olarsa, o, mülkiyyətində olan əmlakdan rəqabəti məhdudlaşdırmaq məqsədilə, habelə bazarda hakim mövqeyindən sui-istifadə olunması məqsədilə istifadə edə bilməz. Vətəndaşın xüsusi mülkiyyətində qeydə alınmayan müəssisə ola bilməz.

Vətəndaşların mülkiyyət hüququnu məhdudlaşdıran hallardan biri **qonşuluq hüququ (qonşuluq etmək hüququ)** adlanır. Qonşuluq hüququna görə, vətəndaşların öz mülkiyyət hüququnu azad, sərbəst və müstəqil surətdə həyata keçirmək imkanları, bir qayda olaraq, əsasən, **öz qonşularının mənafeyi naminə məhdudlaşır**. Bunsuz cəmiyyətdə birgə dinc həyat mümkün olmazdı. Məhz qonşuluq hüququ nəticəsində qonşuların əmin-amanlıq şəraitində yaşamaları təmin olunur. Buna görə də Mülki Məcəllə bir-biri ilə «qonşuluq

[1] bax: AR QK, III xüsusi buraxılış, s. 11.
[2] bax: AR QK, V cild, s. 359.
[3] bax: AR QK, V cild, s. 210.

edən mülkiyyət»dən istifadə olunmasının minimum hədlərini müəyyən edir. Bu hədlər daxilində mülkiyyətçilər vəzifə daşıyırlar: ya onlar başqa şəxslər tərəfindən törədilən **pozuntulara dözməlidirlər** (məsələn, mülkiyyətçi qonşu sahədən qazın, buxarın, qoxunun, hisin, tüstünün, səs-küyün və s. təsirinə dözməyə borcludur); ya **müəyyən səlahiyyətləri həyata keçirməməlidir** (məsələn, mülkiyyətçi suyun təbii axımını qonşunun ziyanına dəyişdirə bilməz, qonşunun torpaq sahəsinə düşmüş ağacın meyvəsini götürə bilməz və s.); **ya birgə müəyyən hərəkətlər etməlidirlər** (məsələn, torpaq sahəsinin mülkiyyətçiləri mərz çəkməyə borcludurlar və s.)[1]. Almaniya mülki hüquq doktrinasına görə, qonşuluq hüququ qonşuların bir-birilə dinc yaşamasını təmin edir[2].

Mülki qanunvericilik vətəndaşın öz mülkiyyətində olan əmlakdan zəhmətsiz qazanc və gəlir əldə etməsini yasaqlayır. Zəhmətsiz qazancın mənbələri müxtəlif ola bilər: bazarda hakim mövqeyindən sui-istifadə nəticəsində əldə edilən gəlir; haqsız rəqabət nəticəsində əldə edilən gəlir; iqtisadi fəaliyyətdə inhisarçılıq nəticəsində alınan gəlir; xüsusi razılıq (lisenziya) olmadan fəaliyyət göstərməklə əldə edilən gəlir və s.

Köhnə MM-in 106-cı maddəsi zəhmətsiz (əməksiz) gəlir hesabına əldə edilən və ya onların əldə edilməsi üçün istifadə olunan əmlakın əvəzsiz olaraq alınması qaydasını müəyyən edirdi. Bu maddədə vətəndaşın əməksiz gəlirlərlə və dövlət (kooperativ, ictimai) təşkilatların vəsaitindən qanunsuz istifadə etməklə tikdirdiyi ev, bağ və ya başqa tikilinin, habelə əməksiz gəlir hesabına əldə edilən avtomobilin məhkəmə qərarına əsasən, əvəzsiz olaraq alınması kimi sanksiya nəzərdə tuturdu. Yeni MM-də xüsusi olaraq belə sanksiyanı nəzərdə tutan norma yoxdur. Lakin bu, o demək deyildir ki, mülki qanunvericilik əməksiz gəlir məsələsinə münasibətdə heç bir tədbir nəzərdə tutmur. «Müəssisələr haqqında» qanun qeydə alınmayan müəssisənin fəaliyyətindən əldə edilən gəlirin məhkəmə qərarı ilə alınması və yerli büdcəyə köçürülməsi kimi sanksiya nəzərdə tuturdu (18-ci maddə)[3]. «Valyuta tənzimi haqqında» qanuna görə, etibarsız hesab edilən əqdlər üzrə, habelə qeyri-qanuni fəaliyyət nəticəsində əldə edilən gəlirlər dövlətin mədaxilinə silinir (18-ci maddə)[4].

Bunlar onu göstərir ki, mülkiyyət hüququ qeyri-məhdud hüquq deyil[5]; qanunda mülkiyyət hüququnu məhdudlaşdıran kifayət qədər hallara rast gəlmək mümkündür; belə məhdudlaşdırma halları qonşuların mənafeyini və normal təsərrüfat fəaliyyətini təmin etmək üçün müəyyənləşdirilir.

Mülkiyyətçi vətəndaşların mülkiyyət hüququnun həyata keçirilməsinin hədlərini müəyyən edərkən mülki hüququn iki prinsipi nəzərə alınır: birincisi, ixtiyar vermək (yol vermək, icazə vermək) prinsipi; ikincisi, dispozitivlik prinsipi. **İxtiyar vermə prinsipi** onu ifadə edir ki, vətəndaş mülkiyyət hüquqlarını həyata keçirərkən ona qanunla qadağan edilməyən hər şey etmək icazəsi verilir. **Dispozitivlik prinsipinə** görə isə vətəndaş öz mülahizəsinə görə, öz istəyinə

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 181-182.

[2] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 415.

[3] bax: AR QK, II cild, s. 288.

[4] yenə orada, s. 378.

[5] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 88.

uyğun olaraq mülkiyyət hüququnu həyata keçirir, öz mənafeyinə uyğun gələn davranış variantlarından birini seçir. Bu prinsip əsasında mülkiyyətçi özü müstəqil surətdə mülkiyyət hüququnun həyata keçirilməsi məqsədini və bu məqsədə nail olmağın vasitələrini müəyyən edir.

TÖVSİYƏ EDİLƏN ƏLAVƏ ƏDƏBİYYAT

А.Ф.Борисов. Личность работника и его собственность. СПб., 1995.

Д.М.Генкин. Право личной собственности. М., 1964.

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого**, М., 1998 (гл. 18).

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова**. М., 1998 (гл. 16).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко**. М., 1998 (гл. 14).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И.Масляева**. М., 1997 (гл. 16).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой** и др. М., 1998 (гл. 14; §4).

Гражданское право. Учебник / Под ред. **С.П.Гришаева**. М., 1999 (глава 8; §4).

А.А.Иванов. Право личной собственности граждан СССР // Правоведение. 1988. №5.

Ю.Х.Калмыков. Имущественные права советских граждан. Саратов. 1979.

Е.А.Суханов. Лекции о праве собственности. М., 1991.

Р.О.Халфина. Право личной собственности. М., 1964.

Комментарий к ГК РФ. Часть 1 / Отв. ред. **О.Н.Садиков**. М., 1999 (ст. 213).

XIX FƏSİL
HÜQUQİ ŞƏXSLƏRİN MÜLKİYYƏT HÜQUQU

§ 1. Hüquqi şəxslərin xüsusi mülkiyyət hüququ. Hüquqi şəxslərin mülkiyyət hüququnun obyekt və subyektləri

1. Hüquqi şəxslərin mülkiyyət hüququnun anlayışı

Mülki hüququn subyektlərindən biri olan hüquqi şəxslər mülkiyyət hüququna malikdir. Hüquqi şəxslərin mülkiyyət hüququ həm subyektiv mənada, həm də obyektiv mənada işlədilir. **Subyektiv mənada hüquqi şəxslərin mülkiyyət hüququ** dedikdə, hüquqi şəxsin özünə məxsus olan əmlaka öz mülahizəsinə görə sahiblik, ondan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqları başa düşülür. **Obyektiv mənada hüquqi şəxslərin mülkiyyət hüququ** mülkiyyət münasibətlərini tənzim edən hüquq normalarının məcmusunu ifadə edir. Subyektiv mənada hüquqi şəxslərin mülkiyyət hüququ subyektiv hüquq kimi, obyektiv mənada hüquqi şəxslərin mülkiyyət hüququ isə hüquq institutu kimi çıxış edir.

Dövlət müəssisələri və mülkiyyətçi tərəfindən maliyyələşdirilən qurumlar istisna olmaqla, bütün hüquqi şəxslərin mülkiyyət hüququ xüsusi mülkiyyət hüququnun bir formasıdır (növüdür). Hüquqi şəxslərin xüsusi mülkiyyət hüququ MM-in 154-cü maddəsində ifadə edilmişdir.

Hüquqi şəxslər digər mülkiyyətçilər kimi, özünə məxsus olan əmlakı barəsində qanuna zidd olmayan istənilən hərəkətləri etmək ixtiyarına malik olmaqla ondan hər hansı sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş başqa fəaliyyət üçün istifadə edə bilər. Bununla bərabər, hüquqi şəxs mülkiyyət hüququnu gerçəkləşdirərkən vətəndaşların, müəssisələrin, idarələrin, təşkilatların və dövlətin hüquqlarını və qanunla qorunan mənafelərini pozmamalı, ətraf mühitə zərər vurmamalıdır.

Hüquqi şəxslərin mülkiyyət hüququnun həyata keçirilmə üsulları, hədləri və məzmunu müəyyən xüsusiyyətlərlə şərtlənir. Ən **birinci xüsusiyyət** ondan ibarətdir ki, hüquqi şəxslərin mülkiyyət hüququnun məzmununu təşkil edən üçlü səlahiyyət, yəni əmlaka sahiblik, əmlakdan istifadə və ona sərəncam səlahiyyətlərinin komplekti (toplusu) bütün hallarda dəyişməz olduğuna baxmayaraq, hüquqi şəxslərin müxtəlif növlərində bu **səlahiyyətlərin özlərinin məzmunu və hədləri (sərhədləri) eyni olmayıb, bir-birindən fərqlənir**. Məsələn, hüquqi şəxslərin kommersiya təşkilatları kimi növündə mülkiyyət hüququnun məzmununu təşkil edən səlahiyyətlərin məzmunu və bu səlahiyyətlərin həyata keçirilmə sərhədləri nisbətən daha genişdir. Hüquqi şəxslərin digər növü olan qeyri-kommersiya təşkilatlarında isə üçlü səlahiyyətin həyata keçirilmə sərhədləri və məzmunu məhdud xarakter daşımaqla bir o qədər geniş deyil.

İkinci xüsusiyyət ondan ibarətdir ki, hüquqi şəxsi təsis edən (iştirakçı) mülkiyyətçi həmin şəxsə münasibətdə **ya öhdəlik hüququna malik olur, ya da ümumiyyətlə, hər hansı bir əmlak hüququna malik olmur**. Başqa sözlə desək, təsərrüfat cəmiyyət və ortaqlıqlarını, istehsal və istehlak kooperativlərini təsis edənlər (iştirakçılar, üzvlər) həmin hüquqi şəxslərin əmlakına öhdəlik hüququ əldə edir, dini qurumları, ictimai birlikləri, xeyriyyə fondlarını, hüquqi şəxslərin ittifaqlarını və assosiasiyalarını təsis edənlər isə həmin hüquqi şəxslərin əmlakına hər hansı bir əmlak hüququ əldə etmirlər. Belə təsəvvür yaranır ki, hüquqi şəxsi təsis edən (iştirakçı) **mülkiyyətçi hüquqi şəxsin əmlakına hər hansı əşya (mülkiyyət) hüququna malik olmur. Yalnız hüquqi şəxsin özü ona məxsus olan əmlakın vahid və yeganə mülkiyyətçisidir**.

Üçüncüsü, hüquqi şəxsin təsis sənədlərinin (nizamnamə, təsis müqaviləsi və s.) mülkiyyət hüququ əsasında ona məxsus olan əmlakın **hüquqi rejimini müəyyən edən hüquqi aktlar içərisində xüsusi çəkisi və rolu böyükdür**. Təsis sənədlərində hüquqi şəxsin əmlakının əmələ gəlməsi mənbələri, nizamnamə fondu, hər təsisçinin bu fonddakı payı, öhdəliklər, mənfəətin bölünməsi qaydası və s. göstərilir.

Dördüncü, hüquqi şəxsin **mülkiyyət hüququnun həyata keçirilməsinin hədləri onun malik olduğu mülki hüquq qabiliyyətinin həcmindən asılıdır**. Xüsusi (məhdud) hüquq qabiliyyətinə malik olan qeyri-kommersiya təşkilatlarına nisbətən universal (ümumi) hüquq qabiliyyətli kommersiya təşkilatlarının özünə məxsus olan əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam səlahiyyətləri daha genişdir. Başqa sözlə desək, qeyri-kommersiya təşkilatlarının mülkiyyət hüququnun həyata keçirilməsində malik olduğu imkan spektri və diapazonu nisbətən məhduddur. Məsələn, qeyri-kommersiya təşkilatlarının növləri olan ictimai birliklər, dini təşkilatlar və ictimai fondlar (məsələn, xeyriyyə fondları) mülkiyyətində olan əmlakdan yalnız öz nizamnamələrində nəzərdə tutulan fəaliyyəti həyata keçirmək məqsədilə istifadə edə bilər.

Beşincisi, əmlak mülkiyyətçiləri kimi yaradılan və mülki (əmlak) dövriyyədə mülkiyyətçilər kimi çıxış edən hüquqi şəxslərin əksəriyyət hissəsi **hüquqi şəxslərin korporasiya növünə şamil edilir**. Korporasiya şəxslərin elə bir könüllü birliyidir ki, o, iştirakçıların üzvlük prinsipi əsasında təşkil edilir. Korporasiya üzvləri (iştirakçıları) onlara paylar və başqa haqlar şəklində əmlak verməklə və yaxud səhmləri almaqla korporasiyanın əmlak (maddi) bazasını yaradırlar. Təsisçilərin verdikləri pul və maddi paylar hüquqi şəxsin əmlakının əmələ gəlməsinin əsas mənbəyi hesab edilir.

2. Hüquqi şəxslər mülkiyyət hüququnun subyekti kimi

«Mülkiyyət haqqında» qanunun 4-cü maddəsi hüquqi şəxslərin ayrı-ayrı növlərini mülkiyyət hüququnun subyektləri dairəsinə şamil edirdi. Yeni MM-in 153-cü maddəsinin 1-ci bəndi mülkiyyət hüququnun subyektləri sırasında hüquqi şəxslərin də adını çəkir.

Mülkiyyət hüququnun subyekti kimi hüquqi şəxslərin dairəsi kifayət qədər genişdir. Kollektiv müəssisələr, yəni kooperativlər, səhmdar cəmiyyətləri, təsərrüfat ortaqlıqları və təsərrüfat assosiasiyaları, icarə müəssisələri, habelə ictimai birliklər və dini təşkilatlar hüquqi şəxs statuslu mülkiyyətçilər kimi mülkiyyət hüquq münasibətlərində iştirak edirlər. **Hüquqi şəxslər vətəndaşlarla birlikdə xüsusi mülkiyyətin subyektidir**. Hüquqi şəxslərin xüsusi mülkiyyəti müstəsna dərəcədə onların mənafeyinə xidmət edir. Xüsusi mülkiyyət hüququ

qanunla qorunur (Konstitusiyanın 29-cu maddəsinin 2-ci hissəsi).

Hüquqi şəxslərin mülkiyyət hüququnun subyektlərini müxtəlif əsaslara görə təsnifləşdirmək olar. **Fəaliyyət məqsədinə görə** mülkiyyət hüququnun subyekti kimi hüquqi şəxslər iki növə bölünür: **kommersiya təşkilatları; qeyri-kommersiya təşkilatları**[1].

Kommersiya təşkilatlarının mülkiyyət hüququna aiddir: təsərrüfat ortaqlıqlarının mülkiyyət hüququ; təsərrüfat cəmiyyətlərinin mülkiyyət hüququ; kooperativlərin mülkiyyət hüququ.

Qeyri-kommersiya təşkilatlarının mülkiyyət hüququna aiddir: ictimai və dini təşkilatların mülkiyyət hüququ; xeyriyyə və digər fondların mülkiyyət hüququ; hüquqi şəxslərin birliyinin (ittifaqlarının) mülkiyyət hüququ[2].

3. Hüquqi şəxslərin mülkiyyət hüququnun obyektləri

Hüquqi şəxslərin xüsusi mülkiyyət hüququnun obyekti kimi, bəzi istisnalarla, istənilən əmlak növü çıxış edə bilər: mənzil fondu; torpaq sahələri; pul vəsaiti; səhmlər, istiqraz vərəqələri və digər qiymətli kağızlar; kütləvi informasiya vasitələri; əmlak kompleksləri, müəssisələr; binalar, tikililər, avadanlıq, nəqliyyat vasitələri və digər istehsal vasitələri; istehsal, istehlak, sosial mədəni və başqa təyinatlı hər hansı digər əmlak. Hüquqi şəxslərin mülkiyyət hüququnun aid olduğu əmlak tərkibinə həm də **əqli mülkiyyət obyektlərindən istifadə hüququ** daxildir. Belə obyektlərə daxildir: müəlliflik hüququnun obyektləri (elm, ədəbiyyat və incəsənət əsərləri); patent hüququnun obyektləri (sənaye mülkiyyət obyektləri – ixtiralar, faydalı modellər, sənaye nümunələri); fərdiləşdirmə vasitələri (firma adları, əmtəə nişanları və s.); qeyri-ənənəvi, qeyri-standart obyektlər (seleksiya nailiyyətləri, qulluq və kommersiya sirrindən ibarət olan informasiya, «nou-hau»).

Özü də buradaca dərhal qeyd etməliyik ki, əqli mülkiyyət hüququnun (müstəsna hüquqların) obyektlərinin özü yox, bu obyektlərdən istifadə hüququ hüquqi şəxsin malik olduğu əmlak tərkibinə daxil olur. İstifadə hüququnun (məsələn, ixtiradan, əmtəə nişanından, firma adından istifadə hüququnun və s.) əldə olunması lisenziya müqaviləsi vasitəsilə rəsmiləşdirilir. Əmlak (iqtisadi) xarakterli müəlliflik hüquqlarının əldə olunması isə müəllif müqaviləsi əsasında həyata keçirilir.

Hüquqi şəxslərin xüsusi mülkiyyət hüququnun obyekti kimi **öhdəlik xarakterli müxtəlif tələb hüquqları** da çıxış edə bilər. Məsələn, nağdsız pul vəsaiti tələb hüququnu ifadə edir. **Korporativ hüquqların** hüquqi şəxslərin əmlak tərkibinə daxil edilməsi istisna edilmir. Belə ki, mülki hüququn subyektlərindən biri olan hüquqi şəxslərin özləri digər hüquqi şəxslərin təsisçisi və iştirakçısı ola bilər. Məsələn, səhmdar cəmiyyətinin iştirakçısı olan hüquqi şəxsin dividend almaq hüququ korporativ hüququnu ifadə edir. Bu hüquq həmin hüquqi şəxsin mülkiyyət hüququnun obyektidir.

Hüquqi şəxslərin mülkiyyətində həm daşınar, həm də daşınmaz əmlak, həmçinin dəyərinə və qulluq (xidmət) müddətinə görə həm əsas vasitələr (fondlar), həm də dövriyyə vəsaitləri ola bilər. «Mühasibat uçotu haqqında» 24 mart 1995-ci il tarixli qanunun 3-cü maddəsinə görə, hüquqi şəxs olan müəssisənin mülkiyyətində ola bilən əmlakın iki növü fərqləndirilir: müəssisənin dövriyyə vəsaitləri və ya aktivləri (kassada və bankda olan pul vəsaitləri, tez satılan qiymətli kağızlar, mal ehtiyatları, xammal, materiallar, bitməmiş istehsalat, hazır məhsul); dövriyyədənkənar və ya uzunmüddətli aktivlər (əsas vəsaitlər, kapital, yaxud başqa maliyyə qoyuluşları, qeyri-maddi aktivlər).

Hüquqi şəxslərin xüsusi mülkiyyətində müxtəlif əmlak növlərinin ola bilmək imkanı onun kommersiya və ya qeyri-kommersiya təşkilatına aid edilməsi və buna uyğun olaraq **həmin təşkilatların ümumi (universal) və ya xüsusi (məhdud) hüquq qabiliyyətinə malik olması ilə şərtlənir**. Bu, o deməkdir ki, kommersiya təşkilatlarının mülkiyyət hüququnun obyektlərinin dairəsi qeyri-kommersiya təşkilatlarına nisbətən daha genişdir. Başqa sözlə desək, qeyri-kommersiya təşkilatlarının mülkiyyət hüququnun obyektinin dairəsinə yalnız onların nizamnamələrində nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün zəruri sayılan, öz nizamnamələrində müəyyən edilən fəaliyyəti həyata keçirmək üçün lazım olan əmlak daxildir. Məsələn, dini qurumların mülkiyyətində onların fəaliyyətini təmin etmək üçün zəruri olan binalar, istehsal, sosial və xeyriyyə təyinatlı obyektlər, pul vəsaiti ola bilər («Dini etiqad azadlığı haqqında» qanunun 18-ci maddəsi)[1].

Yeni MM-də hüquqi şəxslərin mülkiyyət hüququnun obyekti barədə ümumi xarakterli müddəa formulə edilmişdir. Bu müddəa hüquqi şəxslərin xüsusi mülkiyyət hüququnun məhdudlaşdırılmasının iki halını nəzərdə tutur: əmlakın növündən asılı olan məhdudlaşdırma halı; əmlakın dəyər və miqdarına görə məhdudlaşdırma halı. Bu məhdudiyyətlər yalnız qanunda və MM-in 6-cı maddəsinin 3-cü bəndində nəzərdə tutulduğu hallarda müəyyən edilir.

MM-in 154-cü maddəsinin 1-ci bəndi müəyyən edir ki, **qanuna görə hüquqi şəxslərə mənsub ola bilməyən əmlakın ayrı-ayrı növləri istisna edilməklə, hüquqi şəxslərin mülkiyyətində istənilən əmlak ola bilər**. Belə təsəvvür yaranır ki, dairəsi qanunla müəyyən edilən mülki dövriyyə qabiliyyəti olmayan əmlak növləri hüquqi şəxslərin mülkiyyətində ola bilməz. Bununla bərabər, dövlətin müstəsna mülkiyyətinə aid edilən əmlak növlərinin (meşə fondu, yerin təki və s.) hüquqi şəxslərin mülkiyyət hüququnun obyekti kimi çı-

[1] Müəlliflərdən Y.K.Tolstoy belə hesab edir ki, hüquqi şəxslərin bu cür bölgüsü onların ayrı-ayrı növlərinə məxsus olan əmlakın hüquqi rejimini öyrənməkdə çətinlik törədir. Onun fikrincə, qeyri-kommersiya təşkilatlarının istehlak kooperativi, ictimai və dini təşkilatlar kimi növlərinin əmlakının hüquqi rejimində ümumi əlamətlər azdır. Belə təsnif aparıldıqda, əmlakının hüquqi rejimində çoxlu ümumi əlamətlər olan istehlak və istehsal kooperativləri bir-birindən ayrı düşür. Ona görə də Y.K.Tolstoy aşağıdakı bölgünü daha əsaslı bölgü hesab edir: təsərrüfat ortaqlıqları və cəmiyyətləri; istehsal və istehlak kooperativləri; ictimai və dini təşkilatlar; xeyriyyə və digər fondlar; birliklər (assosiasiyalar və ittifaqlar). Bu barədə bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 421-422.

[2] Mülkiyyət hüququnun subyekti kimi hüquqi şəxslərin belə bölgüsü son zamanlar Moskva-da buraxılan dərsliklərin hamısında cüzi fərqlərlə saxlanılır (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 521-531; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998. 423-443; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 274-288; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 288-299; Гражданское право. Учебник / Под ред. *С.Г.Гришаева*. М., 1999, с. 109-116).

[1] bax: AR QK, II cild, s. 436.

xış etməsi istisna olunur. Bəzi əmlak növlərinin dövlət mülkiyyəti prezumpsiyası əsasında hüquqi şəxslərin mülkiyyətinə şamil edilə bilməməsi qaydası müəyyən edilir. Məsələn, torpaq üzərində Azərbaycan Respublikasının dövlət mülkiyyətinə, digər subyektlərin mülkiyyətinə verilmiş torpaqlardan başqa, bütün torpaqlar aiddir. Göstərilən həmin torpaqlar dövlətin müstəsna mülkiyyətindədir və hüquqi şəxslərin mülkiyyətində ola bilməz.

Əgər hüquqi şəxslərin mülkiyyətində qanuna görə ona məxsus ola bilməyən əmlak olarsa, onda bu hal MM-in 206-cı maddəsində nəzərdə tutulan hüquqi nəticələrə səbəb olur. Hüquqi şəxs belə əmlakı həmin əmlak üzərində mülkiyyət hüququ əldə etdiyi vaxtdan bir il ərzində özgəninkiləşdirməlidir. Mülkiyyətçi həmin müddət ərzində əmlakı özgəninkiləşdirmədikdə, ya məcburi olaraq əmlak satılır, ya da dövlət mülkiyyətinə keçir. Bununla da həmin əmlak üzərində hüquqi şəxsin mülkiyyət hüququna xitam verilir.

Hüquqi şəxsin mülkiyyətində əldə edilməsinə icazə (lisenziya) tələb olunan, yəni məhdud dövriyyə qabiliyyətli əmlak ola bilər. Məsələn, hüquqi şəxsə hüquqi varislik qaydasında yenidən təşkil olunmuş hər hansı bir hüquqi şəxsdən silah keçə bilər. Hüquqi varis olan şəxs həmin silahın əldə edilməsinə icazə almalıdır. Əgər silahın əldə olunmasına icazənin verilməsindən imtina edilərsə, silah hüquqi şəxsə mənsub ola bilməyən əmlak hesab edilir və MM-in 206-cı maddəsinin 3-cü bəndinə uyğun olaraq özgəninkiləşdirilir. Bununla hüquqi şəxsin mülkiyyət hüququna xitam verilir.

Hüquqi şəxsin xüsusi mülkiyyət hüququnu məhdudlaşdıran ikinci hal dəyər və miqdarına görə əmlakın məhdudlaşdırılması halıdır. MM-in 154-cü maddəsinin 2-ci bəndinə görə, **qanunda nəzərdə tutulan bəzi hallar istisna olmaqla, hüquqi şəxsin mülkiyyətində olan əmlakın miqdarı və dəyəri məhdudlaşdırılmır**.

Bununla bərabər, qanunda nəzərdə tutulan bir çox hallarda hüquqi şəxslərin mülkiyyətində olan əmlakın miqdarı və dəyəri məhdudlaşdırılır. Belə hallara aiddir: dövlət və ictimai təhlükəsizliyin müdafiəsi üçün zəruri olduqda; ictimai qaydanın, cəmiyyətin mənəvi-əxlaqi dayaqlarının qorunması lazım olduqda; şəxslərin hüquq və azadlıqlarının, şərəf və ləyaqətin müdafiəsi zərurəti yarandıqda.

§ 2. Hüquqi şəxslərin ayrı-ayrı növlərinin mülkiyyət hüququ

1. Təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin mülkiyyət hüququ

A. Mülkiyyət hüququnun məzmunu və həyata keçirilməsi

Təsərrüfat ortaqlıqları və cəmiyyətləri kommersiya təşkilatlarının bir növüdür. Hüquqi şəxslərin nisbətən geniş yayılmış növlərindən olan kommersiya təşkilatlarının mülkiyyət hüququnun məzmunu ondan ibarətdir ki, bu təşkilat özünə məxsus olan əmlakı barəsində qanuna zidd olmayan istənilən hərəkətləri etmək ixtiyarına malikdir. Kommersiya təşkilatının özünə məxsus olan əmlaka öz mülahizəsinə görə sahiblik, ondan istifadə və onun barəsində sərəncam hüququ vardır. Bununla bərabər, kommersiya təşkilatlarının öz əmlakı barəsində etdiyi hərəkətlər mülki hüququn subyektlərinin hüquqlarını və qanunla qorunan mənafelərini pozmamalıdır, habelə ətraf mühitə ziyan vurmamalıdır. Bu kimi vəzifələr daşıyan kommersiya təşkilatları bütün əsaslar üzrə əldə etdikləri əmlakın, o cümlədən onların təsisçilərinin (iştirakçılarının, üzvlərinin) maya və ya haqq kimi onlara verdikləri əmlakın mülkiyyətçisidir (MM-in 154-cü maddəsinin 3-cü bəndi).

Mülkiyyətçinin əmlak barəsində sahiblik, istifadə və sərəncam səlahiyyətləri **təsərrüfat ortaqlıqlarında bu ortaqlıqların iştirakçıları vasitəsilə həyata keçirilir** (MM-in 72-ci maddəsinin 1-ci bəndi). Tam ortaqlıq adından iştirakçılar üç qaydada fəaliyyət göstərir: tam ortaqlığın nizamnaməsində nəzərdə tutularsa, onun bütün iştirakçılarının işləri birlikdə aparması; işlərin aparılmasının ayrı-ayrı iştirakçılara tapşırılması; əgər nizamnamədə nəzərdə tutularsa, hər bir iştirakçının ortaqlıq adından fəaliyyət göstərməsi. Tam ortaqlığın adından birlikdə fəaliyyət göstərən ortaqlıq iştirakçıları əmlaka sərəncam verməyə dair əqd bağlayarkən ortaqlığın bütün iştirakçılarının razılığını almaları tələb edilir. Beləliklə, təsərrüfat ortaqlıqlarının mülkiyyət hüququ hər hansı icra orqanı tərəfindən yox, bu ortaqlıqların iştirakçıları tərəfindən həyata keçirilir.

Təsərrüfat cəmiyyətlərində mülkiyyətçinin səlahiyyətləri onun orqanları vasitəsilə kollegial və ya təkbaşınalıq kimi qaydaların uyğunlaşdırılması şərtilə həyata keçirilir. Məsələn, səhmdar cəmiyyətinin icra orqanı kollegial (idarə heyəti) və ya təkbaşına (direktor) ola bilər. Səhmdarların ümumi yığıncağı səhmdar cəmiyyətinin ali idarəetmə orqanıdır (MM-in 107-ci maddəsinin 4-cü və 1-ci bəndləri).

Təsərrüfat cəmiyyətləri və ortaqlıqlarının malik olduqları əmlak tərkibinə daxil olan bütün obyektlər barəsində sərəncam səlahiyyətinin həyata keçirilməsi qaydası bir-birindən fərqlidir. Göstərilən həmin qaydalar qanunla, hər hansı normativ aktla və təsis sənədləri ilə müəyyən edilir. Məsələn, mənfəətin bölüşdürülməsi səhmdar cəmiyyəti səhmdarlarının ümumi yığıncağının müstəsna səlahiyyətinə aiddir (MM-in 107-ci maddəsinin 1-ci hissəsinin 4-cü bəndi).

B. Təsərrüfat cəmiyyətlərinin və ortaqlıqlarının mülkiyyət hüququnun əldə edilməsinin əsasları

Təsərrüfat cəmiyyətləri və ortaqlıqları əmlak üzərində müxtəlif əsaslarla mülkiyyət hüququ qazanır. Belə əsaslara aiddir: əmlakın ümumiləşdirilməsi (ictimailəşdirilməsi); sahibkarlıq fəaliyyəti nəticəsində əmlak əldə edilməsi; mülki-hüquqi əqdlər və s.

Əmlakın ümumiləşdirilməsi təsisçilər (iştirakçılar) tərəfindən təsərrüfat cəmiyyətləri və ortaqlıqlarının nizamnamə kapitalına və ya şərikli kapitalına əmanətlər (maya) və başqa haqlar vermək yolu ilə həyata keçirilir. Nizamnamə kapitalına və ya şərikli kapitala təsisçilərin (iştirakçıların) verdikləri paylar — əmanətlər (maya) və digər haqlar, bina, avadanlıq, qiymətli əşyalar, qiymətli kağızlar, torpaqdan, sudan və başqa təbii ehtiyatlardan istifadə hüquqları və pul vəsaitindən, o cümlədən xarici valyutadan ibarət ola bilər. Əmanət (pay) kimi **əqli mülkiyyət obyektlərindən** (müəlliflik hüququnun obyekti olan elm, ədəbiyyat və incəsənət əsərlərindən, patent hüququnun obyekti olan ixtira, faydalı model və sənaye nümunələrindən, kommersiya sirrindən ibarət

«nou-hau»dan) **istifadə hüquqları** çıxış edə bilər ki, bu hüquqlar təsərrüfat cəmiyyətinə və ortaqlıqlarına lisenziya müqaviləsi və ya müəllif müqaviləsi vasitəsilə verilir. Əmanət (pay) kimi **əmlak hüquqları və pulla qiymətləndirilən digər hüquqlar** da verilə bilər. Beləliklə, təsisçilərin (iştirakçıların) **əmanət (maya) qoyuluşları hesabına yaranmış əmlak mülkiyyət hüququ ilə təsərrüfat cəmiyyətləri və ortaqlıqlarına mənsub olur**. Özü də təsərrüfat ortaqlığının və ya cəmiyyətinin əmlakına qoyulan maya puldan, qiymətli kağızlardan, başqa əmlakdan və ya əmlak hüquqlarından və ya pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər (MM-in 64-cü maddəsinin 8-ci bəndi). Təsisçinin qoyduğu mayanın pulla qiymətləndirilməsi təsisçilər (iştirakçılar) arasında sazişə uyğun olaraq həyata keçirilir. Belə halda müstəqil ekspert yoxlamasından (auditdən) istifadə edilir. MM-in 154-cü maddəsinin 3-cü bəndinə görə, təsərrüfat cəmiyyətləri və ortaqlıqları təsisçilərin (iştirakçıların) **maya və haqq kimi onlara verdikləri əmlakın mülkiyyətçisi** hesab olunur.

Təsərrüfat ortaqlığı və cəmiyyəti onlara verilmiş əmanət payından (mayadan) və digər haqlardan sahibkarlıq və qanunla qadağan edilməmiş başqa fəaliyyət üçün istifadə edə bilər. Bu fəaliyyət prosesində istehsal edilən və əldə olunan əmlak mülkiyyət hüququ ilə təsərrüfat ortaqlığı və cəmiyyətinə mənsub olur (MM-in 64-cü maddəsinin 1-ci bəndi). Onlar sahibkarlıq fəaliyyəti nəticəsində aldıqları və əldə etdikləri əmlak üzərində mülkiyyət hüququna malikdir; o, təsərrüfat fəaliyyəti nəticəsində istehsal olunmuş məhsulun, qazanmış gəlirin sahibi məhz təsərrüfat cəmiyyəti və ortaqlığının özüdür.

Təsərrüfat cəmiyyəti və ortaqlığının mülkiyyət hüququ əldə etməsinin əsaslarından biri **mülki-hüquqi əqdlərdir**. Məsələn, səhmdar cəmiyyəti bilavasitə özü, yaxud bank və birja vasitəsilə səhmlərini satmaq hüququna malikdir. Səhmlərin satışı alqı-satqı müqaviləsi ilə rəsmiləşdirilir. Səhmdar cəmiyyəti belə satışdan əldə etdiyi vəsait üzərində mülkiyyət hüququ qazanır. Başqa sözlə desək, səhmdar cəmiyyəti həmin vəsaitin mülkiyyətçisi sayılır.

Birtərəfli əqd olan vəsiyyət yolu ilə də təsərrüfat cəmiyyəti və ortaqlığı əmlak üzərində mülkiyyət hüququ əldə edə bilər. Belə ki, onlar vətəndaşların etdikləri vəsiyyət üzrə əmlakın mülkiyyətçisi hesab edilir. Bundan əlavə, verilən xeyriyyə vəsaitləri, ianələr, qiymətli kağızların satışından əmələ gələn gəlirlər, bank kreditləri və digər kreditlər və s. təsərrüfat cəmiyyətləri və ortaqlıqlarının əmlakının əmələ gəlməsi mənbəyi hesab edilə bilər.

C. Təsərrüfat cəmiyyətləri və ortaqlıqlarının mülkiyyət hüququnun obyektləri

Təsərrüfat cəmiyyətlərinin və ortaqlıqlarının mülkiyyət hüququnun obyektləri kimi təsisçilərin onlara verdiyi əmlak, təsərrüfat fəaliyyəti nəticəsində istehsal olunmuş məhsul, məhsul satışından, görülən işlərdən, göstərilən xidmətlərdən, habelə təsərrüfat fəaliyyətinin digər növlərindən alınan gəlirlər, qiymətli kağızların satışından əldə edilən gəlirlər və qanunvericilikdə yol verilən əsaslarla əldə edilmiş digər əmlak çıxış edir.

Təsərrüfat cəmiyyəti və ortaqlığının malik olduğu əmlak tərkibində **nizamnamə kapitalı və ya şərikli kapital** xüsusilə fərqləndirilir. Nizamnamə kapitalı və ya şərikli kapital bu təşkilatların **təsərrüfat fəaliyyətinin əmlak (maddi) əsasını, iqtisadi-maliyyə bazasını** təşkil edir. Təsərrüfat ortaqlığında təsərrüfat fəaliyyətinin maddi (əmlak) əsası şərikli kapital, təsərrüfat cəmiyyətində isə nizamnamə kapitalı adlanır. Şərikli kapitalın və ya nizamnamə kapitalının miqdarı təsis sənədində (nizamnamədə) göstərilir. Təsis sənədində həm də hər bir təsisçinin (iştirakçının) nizamnamə (şərikli) kapitalındakı payı (əmanəti) ifadə edilir. Nizamnamə (şərikli) kapitalı təsisçilərin (iştirakçıların) paylarına (əmanətlərinə) bölünür. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalı paylara bölünür ki, bu payın miqdarı cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir. Səhmdar cəmiyyətinin nizamnamə kapitalı səhmlərə bölünür. Tam ortaqlı müəssisənin şərikli kapitalı paylara bölünür ki, göstərilən payın miqdarı tam ortaqlığın nizamnaməsi ilə müəyyən edilir.

Tam ortaqlı müəssisənin iştirakçıları **bu müəssisənin öhdəlikləri üzrə onlara mənsub olan əmlakla məsuliyyət daşıyır**. Kreditorların tələbləri tam ortaqlı müəssisənin şərikli kapitalı kifayət etmədikdə, iştirakçıların şəxsi əmlakı hesabına təmin edilməklə ödənilir (**birgə subsidiar məsuliyyət**).

Kommandit ortaqlı müəssisədə iştirakçı (ortaq) sahibkarlıq fəaliyyətini həyata keçirir və ortaqlığın öhdəlikləri üzrə öz şəxsi əmlakı ilə məsuliyyət daşıyır. Sahibkarlıq fəaliyyətində iştirak etməyən digər iştirakçı — kommanditçi ortaqlığın öhdəlikləri üzrə qoyduğu maya məbləği həddində risq daşıyır.

Məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların dəyər həddində risq daşıyırlar. Səhmdar cəmiyyətinin iştirakçıları cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün onlara mənsub olan səhmlərin dəyəri həddində risq daşıyırlar.

Təsərrüfat cəmiyyət və ortaqlıqların əmlakı fondlara bölünür: yığım fondu; sosial inkişaf fondu; istehlak fondu və s. Fondların növləri, onların yaranma mənbələri, fondların xərclənməsi qaydaları təsis sənədləri ilə, habelə normativ aktlarla müəyyən edilir.

Ç. Təsərrüfat cəmiyyəti və ortaqlığı ləğv edildiyi və ya iştirakçıların onlardan çıxdığı zaman əmlakın bölüşdürülməsi qaydası

Təsərrüfat cəmiyyətləri və ortaqlıqları hüquqi şəxs statuslu elə kommersiya təşkilatıdır ki, onların iştirakçıları (təsisçiləri) bu təşkilata münasibətdə **öhdəlik hüququna malikdirlər**. Belə hüquqlara aiddir: mənfəətin bir hissəsini almaq hüququ; səhmlərə görə dividend almaq hüququ; ortaqlıq və ya cəmiyyət ləğv edildiyi halda və ya iştirakçının çıxdığı hallarda əmlakın bir hissəsini almaq hüququ (ləğvetmə kvotası hüququ) və s.

Qanunda və təsis sənədlərində iştirakçının təsərrüfat cəmiyyəti və ortaqlığından çıxmasının şərtləri, qaydası və nəticələri müəyyən edilmişdir. Məsələn, tam ortaqlıqdan çıxmış iştirakçıya, əgər nizamnamədə başqa qayda nəzərdə tutulmayıbsa, həmin iştirakçının şərikli kapitaldakı payına uyğun ortaqlıq əmlakının müəyyən hissəsinin dəyəri ödənilir (MM-in 78-ci maddəsinin 1-ci bəndi). Çıxan iştirakçıya əmlakın dəyəri ödənilməyə də bilər. Belə halda ona əmlak naturada verilir. Bunun üçün tam ortaqlığın tərkibindən çıxan iştirakçının digər iştirakçılarla razılığa gəlməsi tələb olunur. Çıxan iştirakçıya ortaqlıq əmlakından çatası hissə və ya onun dəyəri tərtib edilən balans üzrə müəyyənləşdirilir.

Tam ortaqlığın iştirakçısı **şərik kapitalındakı payını və ya onun bir hissəsini digər şəxslərə verə bilər**. Digər şəxs dedikdə, ortaqlığın başqa iştirakçısı və ya hər hansı üçüncü şəxs başa düşülür. Payın və ya onun bir hissəsinin verilməsi üçün digər iştirakçıların razılığı tələb olunur.

Tam ortaqlığın iştirakçısı öldükdə, **onun vərəsəsi tam ortaqlığa daxil edilir**. Bunun üçün digər iştirakçıların razılıq vermələri tələb olunur. Bu qayda ilə ölmüş iştirakçının payı onun vərəsəsinə keçir.

Tam ortaqlığın mənfəəti iştirakçılar arasında **onların şərikli kapitalındakı paylarına mütənasib surətdə bölüşdürülür**. Ortaqlıq ləğv edildiyi halda isə kreditorlar ilə hesablaşmalardan sonra onlar əmlakdan qalan hissəni və ya onun dəyərini alırlar (**buna ləğvetmə kvotası hüququ deyilir**).

Kommandit ortaqlı müəssisədə (kommandit ortaqlığında) maya qoyan (kommanditçi) ortaqlıqdan çıxdıqda, öz mayasını geri almaq hüququna malikdir. Bununla bərabər, o, şərikli kapitaldakı payını və ya onun hissəsini digər maya qoyana və ya üçüncü şəxsə verə bilər. Kommandit ortaqlıq ləğv edildikdə, o cümlədən müflis olduqda kreditorların tələbləri ödənildikdən sonra ortaqlığın qalan əmlakı tam ortaqlar arasında onların ortaqlığın şərikli kapitalındakı paylarına mütənasib surətdə bölüşdürülür. Maya qoyanlar (kommanditçilər) qalıq əmlakdan mayaları almaqda tam ortaqlar qarşısında üstünlük hüququna malikdirlər.

Kommandit ortaqlıqda iştirak edən tam ortaqlar ortaqlıqdan çıxdıqda, ona şərikli kapitaldakı payına uyğun olaraq əmlak hissəsinin dəyəri ödənilir və ya əmlak naturada verilir. Onlar da şərikli kapitaldakı payını və ya onun bir hissəsini ortaqlığın başqa iştirakçısına və ya üçüncü şəxsə verə bilərlər.

Məhdud məsuliyyətli cəmiyyətin iştirakçısı cəmiyyətin nizamnamə kapitalındakı payını və ya onun bir hissəsini satmaq və ya başqa qaydada özgəninkiləşdirmək hüququna malikdir. Pay və ya onun bir hissəsi iştirakçı vətəndaşların vərəsələrinə və iştirakçı hüquqi şəxslərin hüquq varisinə də keçə bilər.

İştirakçı məhdud məsuliyyətli cəmiyyətdən çıxdıqda, ona nizamnamə kapitalındakı payına uyğun əmlak hissəsinin dəyəri ödənilir. Digər iştirakçıların razılığı ilə ona əmlak naturada da verilə bilər.

Səhmdar cəmiyyətin səhmlərinin verilməsi onun açıq tipli və ya qapalı tipli olmasından asılıdır. Təsərrüfat cəmiyyətinin səhmdar formasının prinsipial xüsusiyyəti ondan ibarətdir ki, onun nizamnamə kapitalı paylara yox, səhmlərə bölünür. Səhmdarların hüquqları qiymətli kağızların bir növü olan səhmlərlə rəsmiləşdirilir. Bu hüquqların digər şəxslərə verilməsi səhmin özünün verilməsi ilə şərtlənir. Çünki iştirakçı cəmiyyətdən çıxdıqda, ondan heç bir ödəniş və ya haqq payı tələb edə bilməz. Ona görə ki, iştirakçının cəmiyyətdən çıxması yalnız bir yolla həyata keçirilir. Bu yol səhmi özgəninkiləşdirməkdən ibarətdir. **Açıq tipli səhmdar cəmiyyətində səhmlər müstəqil surətdə özgəninkiləşdirilir**. Bu tipli səhmdar cəmiyyətində səhmlər əvəzsiz olaraq da verilə bilər. Bu kimi hallarda digər səhmdarların razılıq vermələri tələb edilmir. Səhmlərin ümumi (universal) hüquq varisliyi qaydasında digər şəxslərə verilməsi istisna edilmir.

Qapalı tipli səhmdar cəmiyyətinə gəldikdə isə **səhmlər yalnız təsisçilər arasında bölüşdürülür**. Belə səhmdar cəmiyyətində də səhmlərin özgəninkiləşdirilməsi mümkündür. Bu zaman səhmdarların həmin cəmiyyətin digər

səhmdarının satdığı səhmləri əldə etməkdə **üstünlük hüququ** vardır; əgər səhmdarlardan heç biri bu hüquqdan istifadə etməzsə, səhmdar cəmiyyəti həmin səhmləri özü əldə edə bilər; səhmlərin qiyməti tərəflərin razılığı ilə müəyyən edilir. Əgər səhmlərin qiymətinə dair razılıq əldə olunmazsa və ya səhmdar cəmiyyəti səhmləri almaqdan imtina edərsə, səhmdar onu üçüncü şəxsə satır (özgəninkiləşdirir).

Səhmdara malik olduğu səhmin dəyərinə uyğun olaraq dividend verilir. Dividend hesablanarkən illik xalis mənfəətin məbləği nəzərə alınır; xalis mənfəət vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yerdə qalan mənfəət hissəsidir. Dividendlər və onların ödənilməsi qaydası səhmdar cəmiyyətinin nizamnaməsi ilə müəyyən edilir. Əgər müəyyən olunmazsa, həmin məsələ haqqında qərar direktorlar şurası və ya ümumi yığıncaq tərəfindən qəbul olunur. Hər bir səhmə düşən dividendin məbləği səhmdarların ümumi yığıncağı tərəfindən müəyyən edilir. Dividendlər rüblər üzrə, yarımillik və ya illik ödənilə bilər. Dividendin rübdə, yarımildə və ya ildə ödənilməsi səhmdar cəmiyyətinin nizamnaməsi ilə müəyyən edilir.

Səhmdar cəmiyyəti ləğv edildiyi halda səhmdar pay alır. Belə ki, kreditorlarla hesablaşmalar qanunda nəzərdə tutulmuş ardıcıllıqla və qaydada həyata keçirildikdən (əmək haqqının verilməsi, büdcə ilə hesablaşmaların aparılması, digər kreditor borclarının ödənilməsi, istiqrazların ödənilməsi) sonra imtiyazlı və adi səhmlər ödənilir. Bütün kreditorlarla hesablaşdıqdan sonra cəmiyyətin əmlakının qalan məbləğindən istifadənin məqsədləri və istiqamətləri təsisçilərin və ya səhmdarların ümumi yığıncağının qərarı ilə müəyyən edilir. Ümumi yığıncaq cəmiyyətin yerdə qalan əmlakını satmaq qərarına gələrsə, onun kollektivi bu əmlakı almaqda üstünlük hüququna malikdir[1].

2. Kooperativlərin mülkiyyət hüququ

A. Kooperativ mülkiyyət hüququnun subyekti kimi

Hər bir kooperativ təşkilatı növündən asılı olmayaraq, mülkiyyət hüququnun subyekti kimi çıxış edir. Kooperativ təşkilatı şəxslərin iqtisadi, təsərrüfat və sosial tələbatlarını ödəmək məqsədilə onların səy və resurslarının könüllü birləşməsi əsasında yaradılan və fəaliyyət göstərən hüquqi şəxs statuslu təsərrüfat subyektidir. Kooperativin bütün növləri — **istehsal, istehlak və ya qarışıq növlü (istehsal-istehlak) kooperativlər mülkiyyət hüquq münasibətlərində subyekt rolunda** iştirak edir. RF-in MM-inə görə, istehsal kooperativləri kommersiya təşkilatlarına, istehlak kooperativləri isə qeyri-kommersiya təşkilatlarına şamil edilir. Buna uyğun olaraq, istehsal kooperativləri ümumi (universal), qeyri-kommersiya təşkilatları xüsusi (məhdud) hüquq qabiliyyətinə malikdir. Bizim ölkə qanunvericiliyi isə göstərilənlərdən fərqli olaraq, belə qayda müəyyən etmir. Belə ki, **kooperativ özünün bütün növləri ilə kommersiya təşkilatına aid olunur**.

[1] Səhmdar cəmiyyətinin əmlak tərkibi barədə ətraflı məlumat almaq üçün bax: *С.Элькин.* Состав имущества акционерного общества // Хозяйство и право. 1997. №6, с. 94; Комментарий к Федеральному закону «Об акционерных обществах» / Под ред. *М.Ю.Тихомирова.* М., 1996, с. 21.

İstehsal kooperativlərinə kənd təsərrüfatı kooperativlərini, istehlak kooperativlərinə bağ-tikinti, qaraj-tikinti, mənzil-tikinti və s. kooperativləri, habelə kondominiumu aid etmək olar. Bütün kooperativlər hüquqi şəxs olmaqla mülkiyyətçi kimi çıxış edir,

Kooperativ mülkiyyət hüququnun elə bir subyektidir ki, o, vətəndaşların və hüquqi şəxslərin üzvlüyünə əsaslanan könüllü birliyidir. Mülkiyyət hüququnun subyekti kimi kooperativlərin hüquqi vəziyyəti, fəaliyyətinin hüquqi-təşkilati və iqtisadi əsasları MM-in 109-113-cü maddələrində nəzərdə tutulan normalarla müəyyən edilir.

İstehlak kooperativlərinin bir növü olan **kondominium** kooperativ mülkiyyət hüququnun subyektlərindən biridir. Bu, MM-də yeni haldır. Kondominium yaşayış evləri mülkiyyətçilərinin ortaqlığıdır, onların birliyinə əsaslanan qurumdur. Elə bir qurum ki, o, yaşayış binalarındakı liftin, zirzəminin, çardağın və s. ümumi əmlak növlərinin istismarını həyata keçirir.

B. Kooperativin mülkiyyət hüququnun məzmunu və həyata keçirilməsi

Əmlak mülkiyyətçisi kimi yaradılan kooperativ müstəqil surətdə əmlaka sahiblik, əmlakdan istifadə və əmlaka sərəncam vermək hüququna malikdir. RF-in mülki qanunvericiliyinə görə, kooperativin mülkiyyət hüququnun həyata keçirilməsinin həddi onun növündən və buna uyğun olaraq hüquq qabiliyyətindən asılıdır. Belə ki, əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam səlahiyyətlərinin həyata keçirilməsində ümumi (universal) hüquq qabiliyyətli istehsal kooperativinin imkanları xüsusi (məhdud) hüquq qabiliyyətli istehlak kooperativlərinə nisbətən daha genişdir. Məsələn, istehsal kooperativləri özünə məxsus olan əmlakdan hər hansı sahibkarlıq fəaliyyəti üçün istifadə edə, habelə öz əmlakı barəsində qanuna zidd olmayan istənilən hərəkəti yerinə yetirə bilər. İstehlak kooperativləri isə mülkiyyətində olan əmlakdan, əsasən, onların nizamnamələrində nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün istifadə edir. Başqa sözlə desək, onlar öz nizamnamələrində nəzərdə tutulan fəaliyyəti həyata keçirmək üçün əmlaka sahiblik, ondan istifadə və əmlak üzərində sərəncam səlahiyyətlərini həyata keçirirlər. RF-in qanunvericiliyindən fərqli olaraq, Azərbaycan Respublikasının qanunvericiliyi belə qayda nəzərdə tutmur. Bizim ölkə qanunvericiliyi həm istehsal kooperativlərini, həm də istehlak kooperativlərini kommersiya təşkilatı hesab edir. Buna görə də onlar **ümumi (universal) hüquq qabiliyyətinə malikdir**. Məhz bu səbəbdən bütün kooperativlər növündən asılı olmayaraq, öz əmlakı barəsində qanuna zidd olmayan istənilən hərəkəti edə bilər və eyni zamanda bu əmlakdan sahibkarlıq fəaliyyəti üçün istifadə edə bilər və s.

Kooperativlər iştirakçılar tərəfindən onlara əmanətlər və başqa haqlar şəklində verilən əmlak üzərində, habelə öz sahibkarlıq fəaliyyəti nəticəsində aldıqları və qanunla yol verilən başqa əsaslarla əldə etdikləri əmlak üzərində mülkiyyət hüququna malikdir. Mülkiyyətçi kimi kooperativlər əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam səlahiyyətlərini başqa şəxsə verə bilər, əmlakdan girov kimi və ya başqa üsulla istifadə edə bilər, öz əmlakını mülkiyyət kimi və ya idarə etmək üçün başqa şəxsə verə bilər və s.

Öz mülkiyyətçi səlahiyyətlərini kooperativ təşkilatı **özünün idarəetmə orqanları** vasitəsilə həyata keçirir. **Kooperativin üzvlərinin yığıncağı** onun ali idarəetmə orqanıdır. Kooperativin nizamnaməsi ilə pay haqqı və digər ödənişlərin həcmini müəyyənləşdirmək, mənfəətin (gəlirin) və ziyanın kooperativ üzvləri arasında bölüşdürülməsi qaydasını müəyyən etmək, əsas fondlara daxil olan əmlak əldə etmək və onları özgəninkiləşdirmək, kooperativin fondlarının növlərini və həcmini müəyyən etmək ümumi yığıncağın müstəsna səlahiyyətlərinə aid edilə bilər.

Kooperativin icra orqanları **idarə heyəti və (və ya) onun sədridir** (MM-in 111-ci maddəsinin 1-ci bəndi). Kooperativin idarə heyəti (kooperativin sədri) kooperativ üzvlərinin yığıncaqları arasındakı dövrdə kooperativin fəaliyyətinə rəhbərlik edir, onun işlərini aparır, əmlak və vəsaitlərə sərəncam vermək hüququndan istifadə edir. Üzvlərinin sayı 50-dən çox olan kooperativlərdə müşahidə şurası yaradıla bilər. **Müşahidə şurasının** əsas funksiyası kooperativin icra orqanlarının fəaliyyətinə nəzarət etməkdən ibarətdir.

C. Kooperativin mülkiyyət hüququnun əmələ gəlmə əsasları

Kooperativin mülkiyyət hüququnun əmələ gəlməsinin ən mühüm və başlıca əsasını **kooperativ üzvlərinin verdikləri əmlak pay haqqı** təşkil edir. Əmlak pay haqqı kooperativ üzvünün kooperativin pay haqqı fonduna verdiyi vəsaitdir. Pay pul, torpaq və digər əmlak formasında müəyyən edilir. O, əmlak hüquqlarından da ibarət ola bilər. Əmlakla (əmlak hüquqları ilə) ödənilən paylar qiymətləndirilir ki, bunun qaydası nizamnamə ilə müəyyən edilir. Pay haqqı iki formada olur: mütləq (ilkin) əmlak pay forması; əlavə əmlak pay forması. **Mütləq (ilkin) pay** mütləq qaydada ödənilən elə bir formadır ki, bu, kooperativ üzvünə səsvermədə və kooperativin fəaliyyətində iştirak etmək və əsas kooperativ ödənişlərini almaq hüququ verir. Kooperativ üzvü kooperativ qeydə alınanadək mütləq pay haqqını tamamilə verməyə borcludur (MM-in 110-cu maddəsinin 2-ci bəndi). Belə təsəvvür yaranır ki, mütləq (ilkin) pay məcburi qaydada ödənilir.

Əlavə pay elə bir formadır ki, bu, mütləq paydan artıq (əlavə) verilən pay olmaqla kooperativin səs hüququna malik olan üzvü tərəfindən öz arzusu əsasında dividend (əlavə kooperativ ödənişləri) almaq məqsədilə verilir. Göründüyü kimi, əlavə pay məcburi olmayan qaydada ödənilir. Bəzi hallarda isə bu pay formasının verilməsi məcburi xarakter daşıyır. Belə ki, kooperativin üzvləri əmələ gəlmiş zərəri əlavə haqlar vermək yolu ilə ödəməyə borcludurlar (MM-in 110-cu maddəsinin 4-cü bəndi).

Əsas kooperativ ödənişləri kooperativ üzvlərinin mütləq əmlak pay haqqında, kooperativdə şəxsi əməyinə və digər növ fəaliyyətinə mütənasib surətdə onlara ödənilən kooperativ mənfəətinin bir hissəsidir; **dividend (əlavə kooperativ ödənişləri)** dedikdə isə yalnız səs hüququna malik olan üzvlərə onların əlavə əmlak pay haqqına mütənasib surətdə ödənilən kooperativ mənfəətinin bir hissəsi başa düşülür; dividendlər həm də kooperativin səs hüququna malik olmayan ortaq (assosiativ) üzvlərinə onların mütləq əmlak pay haqqına görə ödənilir; kooperativin səs hüququna malik olan üzvlərinə isə onların mütləq əmlak paylarına görə dividendlər verilmir.

Beləliklə, kooperativin nizamnaməsinə uyğun olaraq, onun üzvlərinin pay-

ları **kooperativin əmlakını** təşkil edir ki, bu əmlak üzərində həmin təşkilat mülkiyyət hüququ əldə edir. Bu isə kooperativin mülkiyyət hüququ əldə etməsinin başlıca əsasıdır.

Kooperativin mülkiyyət hüququnun əmələ gəlmə əsaslarından biri **təsərrüfat, sahibkarlıq və ya qanunla qadağan edilməmiş digər fəaliyyət növüdür**. Bu fəaliyyət nəticəsində kooperativ gəlir əldə edir ki, həmin gəlir üzərində kooperativ mülkiyyət hüququ qazanır.

Mülki-hüquqi əqdlər vasitəsilə kooperativlər mülkiyyət hüququ əldə edirlər. Bu baxımdan əqdlər içərisində alqı-satqı, mal göndərmə, podrat və digər müqavilələr böyük rola və əhəmiyyətə malikdir.

Bunlardan başqa, kooperativin əmlakı (vəsaiti) öz vəsaitlərini banklarda və digər kredit təşkilatlarında, qiymətli kağızlarda yerləşdirilməsindən daxil olan gəlirlər, kreditlər, fiziki və hüquqi şəxslərin ianələri və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşa bilər.

Ç. Kooperativin mülkiyyət hüququnun obyektləri

Kooperativ, onun üzvünün pay kimi verdiyi əmlakın mülkiyyətçisidir. Kooperativin əmlakı onun xüsusi mülkiyyəti hesab edilir. Əsas fondlar, dövriyyə vəsaitləri və balansda göstərilən digər maddi dəyərlər kooperativin əmlakını təşkil edir. Kooperativin əmlakı kooperativin özünün və cəlb edilən vəsaitlərin hesabına yaranır. Cəlb edilən vəsaitin həcmi kooperativin ümumi vəsaitinin (əmlakının) yarısından çox ola bilməz.

Kooperativin vəsaiti müxtəlif gəlir mənbələri hesabına yaranır. Belə gəlir mənbələrinə aiddir: kooperativ üzvlərinin üzvlük haqqı (fiziki və ya hüquqi şəxsin kooperativin üzvlüyünə daxil olarkən verdiyi pul); pay haqqı (pul, əmlak və əmlak hüquqları); təsərrüfat fəaliyyətindən əldə edilən gəlir; qanunvericiliklə qadağan olunmayan digər gəlir mənbələri. Təsərrüfat fəaliyyətindən əldə edilən gəlir kooperativ üzvləri arasında onların kooperativin fəaliyyətində iştirakına və ya şəxsi əmək iştirakına görə pay haqqı nəzərə alınmaqla bölüşdürülür. Bu, kooperativin fəaliyyətinin əsas prinsiplərindən biridir.

Kooperativin vəsaitinin həcmi elə olmalıdır ki, onun miqdarı nizamnamədə göstərilən və müəyyən edilən fəaliyyəti təmin edə bilsin. Kooperativin nizamnaməsində həmin vəsaitin minimum həddi nəzərdə tutulmur.

Kooperativin mülkiyyət hüququnun obyekti kimi həm daşınmaz, həm də daşınar əmlak növləri çıxış edə bilər. Belə obyektlərə aiddir: torpaq sahələri; binalar; tikililər; qurğular; kənd təsərrüfatı maşınları; mənzil fondu; sosial, istehsal, istehlak, mədəni və başqa təyinatlı hər hansı əmlak.

Kooperativin əmlakı fondlara bölünür. Fondların əsas təyinatı kooperativin öz fəaliyyətini həyata keçirmək məqsədilə əlaqədardır. Fondların növləri, həcmi, formalaşdırılması və istifadə qaydaları MM və kooperativin nizamnaməsi ilə müəyyən edilir.

Kooperativin əmlakı, əsasən, üç fond üzrə bölüşdürülür: pay haqqı fondu; bölünməz fond; ehtiyat (sığorta) fondu. Kooperativin pay haqqı fondu onun nizamnaməsi ilə müəyyən edilir.

Kooperativə məxsus olan əmlakın müəyyən hissəsi bölünməz fondu təşkil edir. Bu fond nizamnamə ilə təyin edilən məqsədlər üçün istifadə olunur (MM-in 110-cu maddəsinin 3-cü bəndi).

Kooperativin nizamnaməsində ehtiyat fondunun yaradılması da nəzərdə tutula bilər. Ehtiyat fondu balans mənfəətindən ayırmalar hesabına yaradılır. Bu fondun həcmi pay fondunun müəyyən faizə qədəri miqdarında müəyyən edilir.

Nizamnamə ilə kooperativin fondlarının növlərini və həcmini, həmçinin onların formalaşdırılması şərtlərini müəyyən etmək kooperativ üzvlərinin ümumi yığıncağının müstəsna səlahiyyətinə aid edilə bilər.

D. Kooperativ yenidən təşkil edildiyi və ləğv edildiyi və yaxud iştirakçı onun tərkibindən çıxdığı hallarda əmlakın bölüşdürülməsi qaydası

Kooperativ hüquqi şəxs statuslu elə bir təşkilatdır ki, **onun iştirakçıları kooperativin əmlakına münasibətdə öhdəlik hüquqlarına malikdirlər**. Ona görə də iştirakçılar kooperativ ləğv edildiyi və ya onun tərkibindən çıxdığı hallarda müəyyən edilmiş qaydada pay alırlar.

Kooperativ üzvlərinin ümumi yığıncağı və ya məhkəmə tərəfindən ləğvetmə komissiyası yaradılır. Ləğvetmə komissiyası kooperativin əmlakından ilk növbədə əmək haqqı, büdcəyə ayırmalar, vergilər və digər məcburi ayırmaları ödəyir. Kreditorların tələbləri ödənildikdən sonra isə ləğvetmə komissiyası qalan əmlakı nizamnamədə nəzərdə tutulduğu qaydada kooperativin üzvləri arasında bölüşdürür. Kooperativin ləğvindən sonra qalan əmlak kooperativin üzvləri arasında onun nizamnaməsinə uyğun olaraq bölüşdürülür (MM-in 110-cu maddəsinin 5-ci bəndi). Əmlakın bölüşdürülməsi zamanı üzvlərin qarşılıqlı mübahisələri kooperativ üzvlərinin ümumi yığıncağında və ya məhkəmədə həll edilir.

Kooperativ üzvü kooperativdən çıxdığı halda, ona payın dəyəri ödənilməlidir. Əgər bu, mümkün olmazsa, kooperativ üzvünə paya uyğun əmlak verilir (MM-in 112-ci maddəsinin 1-ci bəndi). Bundan əlavə, kooperativ üzvü nizamnamədə nəzərdə tutulan digər ödənişlər də ala bilər.

Kooperativ üzvü öz payını və ya payın bir hissəsini kooperativin digər üzvünə verə bilər. Pay haqqının bir kooperativ üzvündən digər kooperativ üzvünə keçməsi əvvəlki qanunvericilikdən fərqli olaraq notarial qaydada təsdiq olunmur. Pay haqqının və ya onun bir hissəsinin alınmasında kooperativ üzvləri üstünlük hüququna hüquqa malikdirlər. Onlar kooperativin nizamnaməsində göstərilən müddət ərzində öz üstünlük hüququndan istifadə etmədikdə, pay kooperativ üzvü olmayan hər hansı şəxsə verilir (özgəninkiləşdirilir). Payın (onun bir hissəsinin) kooperativ üzvü olmayan vətəndaşa verilməsinə yalnız kooperativin razılığı ilə yol verilir (MM-in 112-ci maddəsinin 3-cü bəndi).

Kooperativ üzvü öldükdə, onun vərəsələri ölmüş kooperativ üzvünün payının dəyərini alırlar. Bu qayda o vaxt tətbiq edilir ki, ölmüş üzvün vərəsəsi kooperativə üzv qəbul olunmasın.

Kooperativ üzvü olan hüquqi şəxs yenidən təşkil olunduqda, onun varisi kooperativə üzv qəbul edilə bilər. Belə halda yenidən təşkil edilmiş hüquqi şəxsin pay haqqı onun hüquqi varisinə keçir. Əgər hüquqi varis kooperativ üzvlüyünə qəbul olunmazsa, payın dəyərini kooperativ ona ödəyir.

Kooperativ üzvü qanunda və kooperativin nizamnaməsində nəzərdə tutulan vəzifələrini yerinə yetirmədikdə, nizamnamə ilə ona həvalə olunmuş vəzi-

fələri icra etmədikdə və ya lazımınca icra etmədikdə, nizamnamə və qanunları pozmaqla kooperativə ziyan vurduqda, habelə nizamnamədə nəzərdə tutulan digər hallarda ümumi yığıncağın qərarı ilə kooperativdən xaric edilə bilər. Kooperativdən xaric edilən üzvə pay haqqının dəyəri və ya bu paya müvafiq əmlak, habelə nizamnamədə nəzərdə tutularsa, bu payın istifadə edilməsi ilə yeni yaradılmış əmlakdan ona çatası hissə qaytarılır və təsərrüfat ilinin yekununa görə kooperativin mənfəətindən ona veriləsi hissəsi ödənilir; onun kooperativin nizamnaməsində nəzərdə tutulan digər ödənişləri almaq hüququ vardır.

Kooperativdən çıxarılmış kooperativ üzvünün öz payını və kooperativin nizamnaməsində nəzərdə tutulan digər ödənişləri almaq hüququ vardır (MM-in 112-ci maddəsinin 2-ci bəndi).

3. Qeyri-kommersiya təşkilatlarının mülkiyyət hüququ

A. Ümumi müddəalar

Hüquqi şəxslərin bir növü olan qeyri-kommersiya təşkilatları onunla xarakterizə olunur ki, bu təşkilatların əsas təyinatı ictimai fayda və rifaha nail olmağa yönələn sosial və digər məqsədlərdən ibarətdir. Mənfəət (gəlir) əldə etmək qeyri-kommersiya təşkilatlarının əsas qayəsi və məramı deyildir. Bununla bərabər, həmin təşkilatların sahibkarlıq fəaliyyəti ilə, təsərrüfat fəaliyyətinin qanunla qadağan edilməyən hər hansı bir növü ilə, habelə kommersiya fəaliyyəti ilə məşğul olmaları istisna edilmir, bu şərtlə ki, həmin fəaliyyət onların yaradılmasını şərtləndirən məqsədin, nizamnamədə nəzərdə tutulan məramın gerçəkləşdirilməsinə və həyata keçirilməsinə xidmət etmiş olsun, həmçinin bu məqsədə və mərama uyğun gəlsin.

Qeyri-kommersiya təşkilatlarının mülkiyyət hüququ haqqında ümumi xarakterli bir neçə müddəa formulə etmək olar. **Birinci müddəa** ondan ibarətdir ki, qeyri-kommersiya təşkilatlarının mülkiyyəti **hüquqi şəxslərin xüsusi mülkiyyətinə aid edilir**. Bu mülkiyyətin xüsusi mülkiyyətə şamil olunması təsisçi, üzv, iştirakçı və ya sponsor rolunda kimin çıxış etməsindən asılı deyildir. Qeyri-kommersiya hüquqi şəxsləri onların təsisçilərinin (iştirakçılarının), üzvlərinin maya və ya haqq kimi verdikləri əmlakın, habelə həmin hüquqi şəxslərin başqa əsaslar üzrə əldə etdikləri əmlakın mülkiyyətçiləridir (MM-in 154-cü maddəsinin 3-cü bəndi).

İkincisi, qeyri-kommersiya təşkilatları hüquqi şəxslərin elə bir növüdür ki, **təsisçilər (iştirakçılar) bu təşkilatlara münasibətdə hər hansı bir əmlak hüququna — nə əşya, nə də öhdəlik hüququna malik olurlar**. Təsisçilər (iştirakçılar) həmin təşkilatlara verdikləri əmlak üzərində mülkiyyət hüququnu itirirlər.

Üçüncüsü, qeyri-kommersiya təşkilatlarının malik olduqları **əmlakın hüquqi rejimində ümumi cəhətlər çoxdur**. Onlar mülkiyyət hüququ əsasında malik olduqları əmlakdan yalnız **təsis sənədlərində (nizamnamələrində) nəzərdə tutulan məqsədə nail olmaq üçün istifadə edə bilərlər**. Belə təsəvvür yaranır ki, qeyri-kommersiya hüquqi şəxsləri onların təsis sənədlərində nəzərdə tutulan məqsədli təyinata uyğun olaraq mülki (əmlak) dövriyyəyə buraxılır.

B. Qeyri-kommersiya təşkilatlarının mülkiyyət hüququnun subyektləri

Qeyri-kommersiya təşkilatlarının mülkiyyət hüququnun subyektləri kifayət qədər genişdir. Mülkiyyət hüququnun subyekti rolunda ictimai birliklər, dini qurumlar, fondlar, ictimai təşkilatlar, ictimai hərəkat və s. çıxış edir. «Mülkiyyət haqqında» qanunun 4-cü maddəsi ictimai birlikləri və dini təşkilatları mülkiyyət hüququnun subyektləri dairəsinə aid edirdi.

MM ictimai birlikləri və fondları hüquqi şəxs hesab etməklə, malik olduğu əmlakın mülkiyyətçisi sayır. MM-in 114-cü maddəsi ictimai birliklərin mülkiyyət hüquq subyektliyinə toxunur. Onun 115-ci maddəsi mülkiyyət hüququnun subyektlərindən biri olan fondların hüquqi vəziyyətinin müəyyən edilməsinə həsr edilmişdir. MM-in 117-ci maddəsi qeyri-kommersiya təşkilatlarının bir növü olan hüquqi şəxslərin ittifaqlarının mülkiyyət hüququ barədə qayda nəzərdə tutur. Beləliklə, **ictimai birliklər, fondlar, hüquqi şəxslərin ittifaqları kimi qeyri-kommersiya təşkilatları** mülkiyyət hüquq münasibətlərində çıxış edir.

C. İctimai birliklərin mülkiyyət hüququ

İctimai birliklərin mülkiyyət hüququnun əldə edilməsinin əsasları müxtəlifdir. Onların əmlakının əmələ gəlmə mənbələrinə aiddir: birliyə daxil olmaq haqqı; üzvlük haqqı; könüllü verilən vəsait və ianələr; mühazirələrdən, sərgilərdən, idman tədbirlərindən və başqa tədbirlərdən, lotereyalardan əldə edilən mədaxil; qanunla qadağan olunmamış digər mədaxil. Dövlət ictimai birliklərə maliyyə yardımı və köməkliyi göstərməklə onun pul vəsaitini artırır.

İctimai birliklər **müxtəlif əqdlərin vasitəsilə** əmlak üzərində mülkiyyət hüququ əldə edir. Söhbət alqı-satqı, dəyişmə, bağışlama və digər müqavilələrdən gedir. İctimai birliklərin sahibkarlıq fəaliyyəti nəticəsində əldə etdiyi əmlak üzərində mülkiyyət hüququ qazanmasının mümkünlüyü istisna edilmir.

İctimai birliklərin mülkiyyət hüququnun əmələ gəlmə əsaslarından biri onun təsisçilərinin (iştirakçılarının) **ictimai birliyə verdikləri əmlakdır**. Təsisçilərin (iştirakçıların) ictimai birliyə verdikləri əmlak birliyin mülkiyyətidir (MM-in 114-cü maddəsinin 1-ci bəndi). Onlar birliyin mülkiyyətinə verdikləri əmlak üzərində, habelə üzvlük haqqı üzərində mülkiyyət hüququnu itirirlər.

İctimai birliklərin mülkiyyət hüququnun obyekti kimi yalnız onların nizamnamələrində nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün zəruri sayılan əmlak çıxış edə bilər. İctimai birlik mülkiyyətində olan əmlakdan onun nizamnaməsində müəyyənləşdirilmiş məqsədlər üçün istifadə edir (MM-in 114-cü maddəsinin 2-ci bəndi).

İctimai birliklərin mülkiyyət hüququnun obyekti qismində dövriyyə qabiliyyətli istənilən əmlakın çıxış etməsi mümkündür, bu şərtlə ki, həmin əmlak nizamnamə fəaliyyəti üçün maddi təminat rolunu oynasın. İctimai birliklərin mülkiyyətində ola bilər: binalar, qurğular, mənzillər; avadanlıq; inventar; pul vəsaiti; səhmlər və digər qiymətli kağızlar; nəşriyyatlar və digər müəssisələr; xeyriyyə idarələri.

Azərbaycan Respublikasının qanunvericilik aktları ilə dövlət təhlükəsizliyi və ictimai təhlükəsizlik mülahizələrinə görə, yaxud beynəlxalq müqavilələrə (öhdə-

liklərə) müvafiq surətdə ictimai birliklərin mülkiyyətində ola bilməyən əmlakın ayn-ayrı növləri müəyyən edilə bilər. Hər şeydən əvvəl, belə əmlak növləri dövriyyədən çıxardılmış, yəni dövriyyə qabiliyyəti olmayan obyektlərdir[1].

Qanunun yol verdiyi əsaslara görə ictimai birliyin mülkiyyətinə qanunla ona mənsub ola bilməyən əmlak, yəni dövriyyə qabiliyyəti olmayan əmlak daxil ola bilər. Məsələn, vərəsəlik qaydasında ictimai birliyin mülkiyyətinə onun nizamnaməsində nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün zəruri sayılmayan əmlak keçə bilər. Belə halda ictimai birliyin mülkiyyət hüququna MM-in 206-cı maddəsinə uyğun olaraq xitam verilir. Başqa sözlə desək, ictimai birlik tərəfindən əmlak ya özgəninkiləşdirilməli, ya məcburi satılmalı, ya da əvəzi ödənilməklə dövlət mülkiyyətinə verilməlidir.

Qanunun yol verdiyi əsaslara görə (məsələn, vərəsəlik qaydasında) ictimai biliyin mülkiyyətinə əldə edilməsinə icazə tələb olunan əmlak (məsələn, mülki silah) daxil ola bilər. Belə halda ictimai birlik həmin əmlakın əldə edilməsinə icazə almalıdır. Əgər əmlakın əldə edilməsinə icazə verilməsindən imtina olunarsa, ictimai birliyin həmin əmlak üzərində mülkiyyət hüququna MM-in 206-cı maddəsinin 3-cü bəndində nəzərdə tutulduğu kimi özgəninkiləşdirmə yolu ilə xitam verilir.

Ç. İctimai birliklərin mülkiyyət hüququnun məzmunu və həyata keçirilməsi

İctimai birliklərin mülkiyyət hüququnun məzmunu ondan ibarətdir ki, onlar mülkiyyətçi kimi nizamnamədə müəyyən edilmiş fəaliyyətin maddi təminatı üçün zəruri olan əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam səlahiyyətinə malikdir. Onların mülkiyyətçi kimi səlahiyyətləri **ictimai birliyin fəaliyyətdə olan orqanının vasitəsilə həyata keçirilir** ki, bu orqanın hüquqi statusu təsis sənədində müəyyən edilir.

İctimai birliklər **sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq ixtiyarına malikdir**. Sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün onlar müəssisələr yarada bilər, habelə nizamnamə vəzifələrini yerinə yetirmək üçün zəruri olan hədlər daxilində başqa əmlak yarada və ala bilər. İctimai birlik mülkiyyətində olan əmlakı yaratdığı müəssisəyə təhkim etmək ixtiyarına malikdir. Belə təsəvvür yaranır ki, ictimai birliklər yalnız nizamnamə məqsədinə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

Təsisçilərin (iştirakçıların) **ictimai birliyin mülkiyyətində olan əmlaka nə əşya, nə də öhdəlik hüquqları vardır**. Ona görə də ictimai birlik ləğv edildikdə, onun əmlakı təsisçilər (iştirakçılar) arasında bölünmür. İctimai birliyin fəaliyyətinə xitam verildikdə, əvvəlcə büdcə, banklar və başqa kreditorlar ilə haqq-hesab çəkilir. Bundan sonra **qalan əmlak ictimai birliyin nizamnaməsində göstərilmiş məqsədlərə, bu, mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir** (MM-in 114-cü maddəsinin 3-cü bəndi).

[1] Dövlət təhlükəsizliyi və ictimai təhlükəsizlik mülahizələrinə görə, yaxud beynəlxalq müqavilələrə müvafiq surətdə ictimai birliklərin mülkiyyətində ola bilməyən əmlak növlərinə bəzi müəlliflər dövriyyə qabiliyyəti olmayan obyektlərlə bərabər, həm də məhdud dövriyyə qabiliyyətli obyektləri aid edirlər. Bu əmlak növlərinə məhdud dövriyyə qabiliyyətli obyektlərin şamil edilməsi fikri ilə çətin ki razılaşmaq olar. Buna bir o qədər də əsas yoxdur (bax: Гражданское право Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 285).

D. Fondların mülkiyyətində olan əmlakın hüquqi rejimi

Fondlar xeyriyyəçilik, mədəni, təhsil və digər ictimai faydalı məqsədlər üçün yaradılan təşkilatdır. Belə təşkilatlar şəxslərin könüllü əmlak haqları əsasında yaradılır. O, üzvlük prinsipinə əsaslanmır.

Fondlar öz nizamnamələrində nəzərdə tutulan fəaliyyəti həyata keçirmək üçün **təsisçilərin onlara verdikləri əmlak üzərində mülkiyyət hüququ qazanır**. Fondun təsisçilərinin (təsisçisinin) verdiyi əmlak fondun mülkiyyətidir (MM-in 115-ci maddəsinin 2-ci bəndi).

Fondların mülkiyyət hüququnun əldə edilməsinin əsasları və üsulları müxtəlifdir. Onların mülkiyyət hüququ əldə etmələrinin ən başlıca əsası **təsisçilərin fondlara verdikləri əmlakdır**. Bununla bərabər, fondlar təsərrüfat fəaliyyətindən əldə etdikləri gəlirlər, öz vəsaitləri ilə aldıqları və ya yaratdıqları əmlak üzərində, habelə vətəndaşlar, hüquqi şəxslər və ya dövlət tərəfindən verilən əmlak üzərində mülkiyyət hüququna malikdir. Onların əmlakı əldə etmə mənbəyi könüllü verilən vəsaitlərdən və ianələrdən, qanunla qadağan olunmamış digər mədaxildən ibarət ola bilər. Fond qeyri-kommersiya hüquqi şəxsi kimi onların təsisçilərinin (təsisçisinin) verdikləri əmlakın, habelə həmin hüquqi şəxsin başqa əsaslar üzrə əldə etdikləri **əmlakın mülkiyyətçisidir** (MM-in 154-cü maddəsinin 3-cü bəndi).

Fondlar mülkiyyətində olan əmlakdan yalnız onların nizamnamələrində nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün istifadə edə bilər. Fondların malik olduqları əmlakın təyinatı onların nizamnamələrində nəzərdə tutulan fəaliyyəti həyata keçirmək və gerçəkləşdirmək məqsədindən və niyyətindən ibarətdir. Fond öz mülkiyyətində olan əmlakdan onun nizamnaməsində müəyyənləşdirilmiş məqsədlər üçün istifadə edir (MM-in 115-ci maddəsinin 2-ci bəndi). Hüquqi şəxs sayılan fondların mülkiyyət hüququnun obyektləri kimi müxtəlif əmlak növləri çıxış edə bilər: binalar, tikililər; mədəni-maarif, tibbi-sağlamlıq təyinatlı əmlak; pul vəsaiti; səhmlər və digər qiymətli kağızlar; mənzil fondu; torpaq; inventar və avadanlıq və s. Onların mülkiyyətində qanunla onlara mənsub ola bilməyən əmlak (məsələn, nizamnamədə nəzərdə tutulan fəaliyyəti həyata keçirmək məqsədinə xidmət etməyən əmlak), habelə əldə edilməsinə icazə tələb olunan əmlak olduqda, fondların mülkiyyət hüququna MM-in 206-cı maddəsində nəzərdə tutulan qaydada xitam verilir.

Fondlar hüquqi şəxs statuslu müəssisələr və idarələr yarada bilər və ya belə müəssisələri satın ala bilər. Onlar mülkiyyətində olan əmlakı yaratdıqları və təsis etdikləri müəssisə və idarələrə verə bilər.

Mülkiyyətçi kimi fond özünə məxsus olan əmlak üzərində sahiblik, sərəncam və istifadə səlahiyyətlərini **özünün orqanları vasitəsilə** həyata keçirir. Fondun orqanlarının fəaliyyətinin hüquqi əsasları onun nizamnaməsi ilə müəyyən edilir. Fondun nizamnaməsində fondun orqanları haqqında, o cümlədən fondun fəaliyyətinə nəzarət edən **himayəçilik şurası** haqqında məlumatlar göstərilməlidir (MM-in 115-ci maddəsinin 6-cı bəndi).

Fondun əmlak dövriyyəsində iştirakı ümumfaydalı, ictimai xarakterli niyyət və məqsədlərlə şərtlənir. Məhz buna görə də fondlar həmin niyyətin həyata

keçirilməsinə ictimaiyyətin nəzarət etməsi üçün öz mülkiyyətində olan əmlakdan istifadə haqqında hesabatları dərc etdirir. Fond öz əmlakından istifadə haqqında hesabatları hər il dərc etdirməyə borcludur (MM-in 115-ci maddəsinin 3-cü bəndi).

Fondun əmlakı onun məqsədlərinin həyata keçirilməsinə kifayət etmədikdə və zəruri əmlakın əldə edilməsi ehtimalı real olmadıqda, fond məhkəmə qərarı ilə ləğv edilir. Fondun ləğvi halında onun əmlakı barəsində sərəncam verilməsi qaydası onun nizamnaməsi ilə müəyyən edilir (MM-in 115-ci maddəsinin 6-cı bəndi). Fondun fəaliyyətinə xitam verildikdə, əvvəlcə büdcə, banklar və digər kreditorların tələbləri ödənilir. Fondun yerdə **qalan əmlakı onun nizamnaməsində nəzərdə tutulan məqsədlərə yönəldilir**. Bu, mümkün olmadıqda isə qalan əmlak **dövlət büdcəsinə yönəlir** (MM-in 116-cı maddəsinin 3-cü bəndi).

E. Dini qurumların əmlak vəziyyəti

Qeyri-kommersiya təşkilatlarının (hüquqi şəxslərin) bir növü olan dini təşkilatlar və ya dini qurumların mülkiyyətində olan əmlakın hüquqi vəziyyəti «Dini etiqad azadlığı haqqında» qanunun 16-20-ci maddələrində (III fəsil) nəzərdə tutulan qaydalarla müəyyən edilir. Dini qurumun əmlak vəziyyəti onların nizamnamələri ilə müəyyənləşdirilir[1]. Dini qurumlar özünə məxsus olan **əmlakın mülkiyyətçisidir**. Onların qanunla yol verilən əsaslarla əldə etdikləri əmlak üzərində mülkiyyət hüququ vardır. Bu təşkilatı **təsis edənlər** onların mülkiyyətinə verdikləri əmlak üzərində **mülkiyyət hüququnu itirirlər**. Dini təşkilatların mülkiyyət hüququnun obyekti qismində yalnız onların nizamnamələrində nəzərdə tutulan fəaliyyətin maddi təminatı üçün zəruri olan əmlak çıxış edə bilər. Onların mülkiyyətində nizamnamə fəaliyyəti üçün zəruri sayılan müxtəlif əmlak növləri ola bilər: binalar; ayin predmetləri; dini əşyalar; pul vəsaiti; istehsal, sosial və xeyriyyə təyinatlı obyektlər.

Dini təşkilatlar müxtəlif üsul və əsaslarla mülkiyyət hüququ əldə edir. Əmlak üzərində mülkiyyət hüququ qazanılmasının ən vacib əsasını **təsisçilərin dini təşkilatlara verdikləri əmlak təşkil edir**. Bu təşkilatlar özlərinin vəsaiti hesabına əldə etdikləri və ya yaratdıqları əmlak üzərində mülkiyyət hüququ əldə edir.

Dini təşkilatların mülkiyyət hüququ əldə etmələrinin ən geniş yayılmış üsullarından biri **mülki-hüquqi əqdlərdir**. Söhbət, hər şeydən əvvəl, bağışlama müqaviləsindən gedir. Vətəndaşlar, təşkilatlar və dövlət dini qurumlara müxtəlif təyinatlı əmlak bağışlaya bilər. Xüsusən dövlət dini təyinatlı əmlak növlərini, dini mərasim, ibadət və ayinlər keçirmək məqsədilə münasib binaları əvəzsiz olaraq dini təşkilatların mülkiyyətinə verir.

Dini təşkilatlar **istehsal və təsərrüfat fəaliyyəti ilə məşğul olmaq hüququna** malikdir. Bu fəaliyyət nəticəsində götürülən mənfəət və digər gəlirlər onların mülkiyyətinə daxil edilir. Dini qurumlar hüquqi şəxs statuslu nəşriyyat, poliqrafiya, istehsal, bərpa-tikinti müəssisələri, xəstəxanalar, internatlar və s. təsis edə bilər. Onlar hüquqi şəxslər kimi yaratdıqları müəssisə və idarələrə əmlak verir, başqa sözlə desək, təhkim edir. Bu müəssisə və idarələr təhkim olunmuş həmin əmlak üzərində məhdud əşya hüququna malikdir.

Dini təşkilat ləğv edildiyi hallarda onun malik olduğu əmlakın hüquqi taleyi və müqəddəratı nizamnamə və qüvvədə olan qanunvericiliklə müəyyən edilir. Hər şeydən əvvəl, dövlət təşkilatlarının, ictimai təşkilatların və ayrı-ayrı vətəndaşların dini qurumların istifadəsinə verdikləri vəqf olmayan əmlak əvvəlki sahiblərinə qaytarılır. Sonra isə kreditorların tələbləri (büdcə, banklar və digər kreditorların tələbləri) təmin edilir. Özü də buradaca dərhal qeyd etməliyik ki, dini qurumların mülkiyyətində olan ayin təyinatlı əmlakdan kreditorların iddiaları üzrə haqq tutulmasını qanun qadağan edir[1].

Dini təşkilatların hüquqi varisi olmadıqda, **əmlak dövlət mülkiyyətinə daxil** edilir. Dini təşkilatlar ləğv edildikdə, əmlak məsələlərinin həlli qaydası nizamnamə ilə müəyyən olunur.

Ə. Hüquqi şəxslərin ittifaqlarının mülkiyyət hüququ

Kommersiya təşkilatları özlərinin sahibkarlıq fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi əmlak mənafelərinin, bir sözlə, ümumi mənafelərin təmsil və müdafiə edilməsi (o cümlədən dövlət və digər orqanlarda, beynəlxalq təşkilatlarda) məqsədi ilə ittifaqlar yaradırlar. Belə ittifaqları qeyri-kommersiya təşkilatları da yarada bilər.

Hüquqi şəxslərin ittifaqları mülkiyyət hüququna malikdir. Onlar təsisçilərin (iştirakçıların) verdikləri əmlak üzərində mülkiyyət hüququ qazanır. İttifaqın təsisçilərinin (iştirakçılarının) **ittifaqa verdikləri əmlak ittifaqın mülkiyyətidir** (MM-in 117-ci maddəsinin 4-cü bəndi). Təsisçilər (iştirakçılar) həmin əmlak üzərində mülkiyyət hüquqlarını itirir və bu əmlak barəsində əmlak hüquqlarına malik olmur.

Hüquqi şəxslərin ittifaqları mülkiyyətində olan əmlakdan **yalnız nizamnaməsində nəzərdə tutulan fəaliyyətin maddi təminatı üçün istifadə edə bilər**. Əmlakdan ittifaq onun nizamnaməsində müəyyənləşdirilmiş məqsədlər üçün istifadə edir (MM-in 117-ci maddəsinin 4-cü bəndi).

İttifaq sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq ixtiyarına malikdir. Bu, sahibkarlıq fəaliyyətini həyata keçirmək barədə iştirakçıların qərarı ilə mümkün olur. Belə halda ittifaq ya təsərrüfat ortaqlığına və yaxud cəmiyyətinə çevrilir və ya təsərrüfat cəmiyyəti yarada bilər və ya belə cəmiyyətdə iştirak edə bilər (MM-in 117-ci maddəsinin 1-ci bəndi).

İttifaq ləğv edildikdə, onun əmlakı **ittifaqın nizamnaməsində göstərilmiş məqsədlərə**, bu, mümkün olmadıqda isə **dövlət büdcəsinə yönəldilir** (MM-in 117-ci maddəsinin 7-ci bəndi).

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

В.В.Витрянский, С.А.Герасименко. Арбитражно-судебная практика. Комментарий. М., 1993.

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова**. М., 1998 (гл. 16, § 2).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева**,

[1] bax: AR QK, I cild, c.576.

[1] bax: «Dini etiqad azadlığı haqqında» qanunun 20-ci maddəsi (AR QK, I cild, s. 572).

Ю.К.Толстого. М., 1998 (гл. 20).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой** и др. М., 1998 (гл. 14; § 4).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко**. М. 1998 (гл. 15).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина**, **А.И.Масляева**. М., 1997 (гл. 17).

Гражданское право. Учебник. / Под ред. **С.П.Гришаева**. М., 1999 (гл. 8; § 4).

Е.А.Суханов. Лекции о праве собственности. М., 1991.

Е.А.Суханов. Российский закон о собственности: научно-практический комментарий. М., 1993 (гл. 2, разд. 2, разд. 3).

XX FƏSİL
DÖVLƏT MÜLKİYYƏTİ HÜQUQU

§1. Dövlət mülkiyyəti hüququnun anlayışı

1. Dövlət mülkiyyəti iqtisadi kateqoriya kimi

Hər bir dövlət indiki çətin dövrdə, hər şeydən əvvəl, özünün təhlükəsizliyini təmin etməlidir. Təhlükəsizlik dedikdə, dövlətin hərbi, maliyyə, iqtisadi, sanitariya-epidemioloji, ərzaq və s. təhlükəsizliyi başa düşülür. İkincisi, dövlət xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin təmin edilməsinə yönələn sosial siyasət funksiyasını yerinə yetirir (sosial dövlət). Bu funksiyanın məzmunu çoxcəhətlidir: dövlət vətəndaşların əməyinin və sağlamlığının qorunması qayğısına qalır; cəmiyyətin əsas özəyi kimi ailəni dövlət öz xüsusi himayəsinə alır; dövlət pensiyalar, müavinətlər və digər sosial müdafiə təminatları müəyyən edir. Göstərilən bu iki mühüm funksiyanı yerinə yetirmək üçün **dövlət maddi-texniki və maliyyə bazasına malik olmalıdır**. Suveren hakimiyyət daşıyıcısı olan dövlətin qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün lazım olan bütün əmlak növləri dövlət mülkiyyətinə daxil edilərək onun maddi-maliyyə bazasını təşkil edir.

Dövlət mülkiyyəti iqtisadi kateqoriya kimi əmlaka ümumxalq sahibliyinin əsas formasıdır. **İqtisadi kateqoriya kimi dövlət mülkiyyəti** dedikdə, dövlətin simasında bütün cəmiyyət üzvlərinə məxsus olan müxtəlif əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam verməklə bağlı olan iqtisadi münasibətlər başa düşülür. Maddi nemətlərin bütövlükdə cəmiyyət üzvlərinə məxsus olması **dövlət mülkiyyəti formasında** gerçəkləşir. Bu nemətlərin tamamilə cəmiyyətə mənsub olması **ümumxalq malı və ya ümumi ictimai sərvət formasında** da reallaşa bilər. İqtisadi kateqoriya kimi dövlət mülkiyyəti öz məzmununa görə bütün cəmiyyət üzvlərinin ümumi sərvətidir. Ona görə də dövlət mülkiyyətinə həm də **ümumxalq mülkiyyəti** deyilir. Bu, onunla izah olunur ki, dövlət mülkiyyətinə daxil olan əmlak barəsində sərəncam verilməsini, sahibliyi və ondan istifadə edilməsini xalq adından müvafiq vəkil edilən (seçilən) dövlət hakimiyyəti orqanları həyata keçirir. Belə təsəvvür yaranır ki, iqtisadi kateqoriya kimi dövlət mülkiyyəti yüksək dərəcədə ictimailəşməsi (ümumiləşməsi) ilə fərqlənir.

Qüvvədə olan qanunvericilik dövlət mülkiyyətinin xalqa məxsus olması barədə müddəa ifadə edir. Bu, onu göstərir ki, **iqtisadi kateqoriya olan dövlət mülkiyyəti və əmlaka ümumxalq sahibliyi kimi anlayışlar eyni mənalı, sinonim anlayışlardır.** Ümumxalq mülkiyyəti və dövlət mülkiyyəti kimi iki iqtisadi kateqoriyanın mənaca üst-üstə düşmələri üçün zəruridir ki, cəmiyyətdə siyasi hakimiyyət daşıyıcısı olan dövlət demokratik təbiətə və xarakterə malik olsun, bütün xalqın mənafeyini ifadə və təmsil etsin, dövlət mülkiyyətindən məqsədli təyinatına uyğun istifadə etməklə, qanunda nəzərdə tutulan hallar istisna olmaqla, onun xüsusi mülkiyyətə transformasiya olunmasına (çevrilməsinə) yol verilməsin. Başqa sözlə desək, bu dövlət elə bir hüquqi və sivil dövlət ol-

malıdır ki, burada şəxsi hakimiyyət rejiminə, volyuntarist idarə metodlarına, vətəndaşlar üzərində zorakılığa, totalitarizmə, sinfi nifrətə yer olmasın.

Yaxın vaxtlara kimi yaşadığımız sovet dövründə dövlət mülkiyyəti sosialist mülkiyyətinin əsas, aparıcı forması idi, istehsal vasitələrinə və birgə əmək nəticələrinə sahiblik prosesində bütün cəmiyyət üzvlərinin kollektivçilik münasibətlərini xarakterizə edirdi. İstehsal vasitələri üzərində dövlət mülkiyyəti dövlətin iqtisadi sisteminin əsasını təşkil edirdi. İstehsal vasitələrinin əsas kütləsi dövlətin mülkiyyətində cəmlənmişdi[1]. Sənayedə, tikintidə, kənd təsərrüfatında əsas istehsal vasitələri, nəqliyyat və rabitə vasitələri, dövlətin təşkil etdiyi ticarət, kommunal və başqa müəssisələrin əmlakı, əsas şəhər mənzil fondu, habelə dövlət vəzifələrini həyata keçirmək üçün zəruri olan başqa əmlak dövlətə məxsus idi. SSRİ-də torpaq, yeraltı sərvətlər, sular, meşələr dövlətin müstəsna mülkiyyətinə aid olunmuşdu. Dövlət mülkiyyəti ümumxalq mülkiyyəti, bütövlükdə xalqa məxsus olan sərvət hesab edilirdi. Həqiqətdə isə belə bir vəziyyət yaranmışdı ki, maddi nemətlərin bilavasitə istehsalçıları istehsal vasitələrindən məhrum edilmişdilər. Ona görə də həmin istehsalçılar istehsal vasitələrinə «özgəsinə», dövlətə məxsus olan əmlak kimi münasibət bəsləyirdi. Bu isə «xəlvəti iqtisadiyyatın» yaranmasını, dövlət əmlakının oğurlanmasını və talan edilməsini şərtləndirirdi.

İndiki dövrdə Azərbaycan dövləti bazar münasibətlərinə əsaslanan iqtisadi inkişaf kursu götürmüşdür. Azərbaycan Respublikasında hər cür iqtisadi fəaliyyət bazar münasibətlərinə və sahibkarlıq azadlığına əsaslanır (Dövlət müstəqilliyi haqqında Konstitusiya aktının 23-cü maddəsi)[2]. Ölkədə bazar iqtisadiyyatı yaranır və bazar münasibətləri formalaşır. Bu xüsusiyyət istehsal vasitələrinin və əmlakın əsas kütləsinin total şəkildə dövlət mülkiyyətində cəmləşməsini, xalq təsərrüfatının idarə olunmasının mərkəzləşdirilməsini istisna edir, dövlət mülkiyyəti inhisarını aradan qaldırır. Bazar və bazar münasibətləri yalnız müxtəlif mülkiyyət formalarının mövcudluğu şəraitində təşəkkül tapa və inkişaf edə bilər. İqtisadi inkişaf yalnız müxtəlif mülkiyyət növlərinə əsaslanmaqla xalqın rifahının yüksəldilməsinə xidmət edə bilər. Buna görə də dövlət mülkiyyətinə aid olan əmlakın dövlətsizləşdirilməsinə və mülkiyyətin başqa formalarına keçilməsinə ehtiyac yarandı. **Mülkiyyətin dövlətsizləşdirilməsi** bazar iqtisadiyyatına keçid üçün kəskin zərurətə çevrildi.

Dövlət mülkiyyətinin özəlləşdirilməsi nəticəsində başqa mülkiyyət formaları yaranır. Bunun sayəsində dövlət mülkiyyəti fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə keçir. «Mülkiyyət haqqında» qanunun 13-cü maddəsində dövlət mülkiyyətində olan müəssisələrin, əmlak komplekslərinin, binaların, qurğuların və başqa əmlakın qanunla müəyyən edilmiş qaydada və şərtlərlə vətəndaşların və hüquqi şəxslərin xüsusi mülkiyyətinə çevrilməsi barədə prinsipial əhəmiyyətə malik olan müddəa ifadə edilmişdi[3].

Bununla bərabər, xalq təsərrüfatının vacib və əsas sahələrini, mühüm istehsal fondlarını dövlət öz mülkiyyətində saxlamaqda davam edir. Belə sahələrə hərbi-sənaye kompleksi, nəqliyyat, rabitə və digərləri aiddir. Bu, ümumi təhlükəsizlik, ümumdövlət mənafeyi üçün zəruridir. Hal-hazırda dövlət mülkiyyətinin bazası yenidən qurulur və formalaşır.

Beləliklə, **iqtisadi kateqoriya kimi dövlət mülkiyyəti əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam verilməsi ilə bağlı ictimai-iqtisadi münasibətləri ifadə edir ki, bu əmlak cəmiyyətin üzvləri (xalq) tərəfindən vəkil edilən (seçilən) dövlət hakimiyyəti orqanları simasında bütövlükdə onlara məxsusdur**.

2. Dövlət mülkiyyəti hüquqi kateqoriya kimi. Dövlət mülkiyyət hüququ

İqtisadi kateqoriya və ictimai iqtisadi münasibət olan dövlət mülkiyyəti hüquqi cəhətdən təsbit və ifadə olunur ki, bu, dövlət mülkiyyəti hüququ anlayışı ilə əhatə edilir. Dövlət mülkiyyəti hüququ iqtisadi münasibət olan mülkiyyətin hüquqi ifadəsidir, hüquqi formasıdır. Əvvəlcə iqtisadi kateqoriya kimi dövlət mülkiyyəti yaranmışdır. Sonra isə dövlət mülkiyyəti kimi iqtisadi münasibət hüquq normalarında ifadə edilmişdir.

Dövlət mülkiyyəti hüququ həm obyektiv, həm də subyektiv mənaya malikdir. Obyektiv mənada dövlət mülkiyyəti hüququ mülkiyyət hüququnun institutlarından biri kimi onun tərkib hissəsinə daxil olur. Odur ki, obyektiv mənada dövlət mülkiyyəti hüququ hüquq institutu deməkdir.

Dövlət mülkiyyəti hüququ institutu təkcə mülki hüquq institutu olmayıb, həm də **kompleks (qarışıq, mürəkkəb, sahələrarası) institutdur**. Bu instituta hüququn konstitusiya, inzibati hüquq kimi sahələrində də rast gəlmək olur. Bununla bərabər, dövlət mülkiyyəti hüququ institutuna daxil olan mülki hüquq normaları digər hüquq normalarına nisbətən daha mühüm rola malikdir. Bu, onunla şərtlənir ki, mülki hüquq normaları dövlət mülkiyyəti hüququnun obyektlərinin dairəsini, subyekt tərkibini, dövlət mülkiyyətinə daxil olan əmlakın hüquqi rejimini müəyyən edir.

Obyektiv mənada dövlət mülkiyyəti hüququ (dövlət mülkiyyəti hüququ institutu) dedikdə, dövlətin simasında xalqa məxsus olan maddi nemətlərə (istehsal vasitələrinə və istehlak predmetlərinə) sahibliklə əlaqədar münasibətləri tənzimləyən və qoruyan, habelə bu nemətlərdən istifadə və onlara sərəncam vermək qaydalarını müəyyən edən hüquq normalarının məcmusu və sistemi başa düşülür. Dövlət mülkiyyəti hüququ institutu öz normalarında dövlət mülkiyyəti hüququnun əmələ gəlmə üsullarını, dövlətin hüquqi vəziyyətini, obyektlərin hüquqi rejimini, hüququn həcmini və məzmununu müəyyən edir.

Obyektiv mənada dövlət mülkiyyəti hüququna daxil olan normaların hüquqi təbiəti barədə hüquq ədəbiyyatında fikirlər mübahisəlidir. Bu barədə, əsasən, üç fikir formalaşmışdır. Birinci qrup alimlərin mövqeyinə görə, dövlət mülkiyyəti hüququ haqqında normalar öz hüquqi təbiətinə görə mülki-hüquqi xarakterə malikdir; ona görə də bu normalar bütövlükdə mülki hüququn tərkibinə daxil

[1] SSRİ-də əsas istehsal fondlarının təxminən 90 faizi dövlət mülkiyyətinə daxil idi (bax: Qısa siyasi lüğət. Rus dilindən tərcümə. Bakı. 1989, s. 48).

[2] bax: AR QK, I cild, s. 76.

[3] bax: AR QK, I cild, s. 150.

olur. Bu mövqe xüsusən N.D.Yeqorovun işlərində əsaslandırılmışdır[1]. İkinci qrup alimlər isə bunun əksinə olaraq, dövlət mülkiyyəti hüququ haqqında normaların dövlət-hüquqi xarakter daşıması fikrini irəli sürürlər. İkinci mövqeyin tərəfdarlarına misal olaraq V.S.Yakuşevi[2], M.İ.Braginskini misal göstərmək olar[3]. Üçüncü qrup alimlər belə hesab edirlər ki, mülkiyyət hüququna aid olan normalara həm Konstitusiyada, həm MM-də, həm də təbiətin mühafizəsi barədə normativ aktlarda rast gəlmək olar. Buna görə də mülkiyyət hüququ haqqında normalar kompleks xarakterə və təbiətə malikdir. Bu mövqeyin əsas tərəfdarlarından biri Y.K.Tolstoydur[4].

Bizim fikrimizcə, üçüncü qrup müəlliflərin fikirləri həqiqətə daha yaxındır. Belə ki, Konstitusiyada mülkiyyət hüququ haqqında normalar ifadə edilmişdir. Bu normalarda mülkiyyətin müxtəlif formaları, mülkiyyət münasibətlərinin qaydaya salınmasının və qorunmasının əsas prinsipləri təsbit edilmişdir. Hüququn bir sahəsi olan dövlət hüququ (konstitusiya hüququ) dövlət və ictimai quruluşun əsaslarını təşkil edən münasibətləri nizama salır. Mülkiyyət münasibətləri isə cəmiyyətdə mövcud olan münasibətlərin əsasını təşkil edir. Belə təsəvvür yaranır ki, mülkiyyət münasibətləri konstitusiya (dövlət) hüquq normaları ilə də tənzimlənir. Buna görə də Konstitusiyanın mülkiyyət münasibətlərinə toxunan normalarını mülki hüquq normaları hesab etmək olmaz. Bununla bərabər, mülkiyyət münasibətləri həm də mülki hüququn nizamasalma predmetinə daxildir. Yeni MM-in üçüncü bölməsi əşya hüququ ilə bağlı olan məsələlərə toxunur. Bu bölmədə Konstitusiyada təsbit edilən mülkiyyət haqqında prinsipial müddəalar daha da konkretləşdirilir.

Mülkiyyət münasibətləri hüququn bir sahəsi olan inzibati hüquq normaları ilə də qaydaya salına bilər. Məsələn, dövlət müəssisəsinin başqa dövlət müəssisəsinə çevrilməsi barədə qərar qəbul edildiyi halda, dövlət mülkiyyəti hüququ inzibati hüquq münasibətləri vasitəsilə həyata keçirilir. Mülkiyyət münasibətlərinin hüquqi tənzimlənməsinə maliyyə, ekologiya kimi sahələrin normaları da toxuna bilər. Söylədiklərimiz bunu deməyə əsas verir ki, dövlət mülkiyyəti hüququ normaları kompleks xarakterə malikdir. Bu, onunla şərtlənir ki, mülkiyyət anlayışı ümumi hüquqla xüsusi hüququ bir-birinə qovuşduran kateqoriyadır. Hüquq ədəbiyyatında çox haqlı olaraq belə bir fikir söylənilir ki, ümumi və xüsusi hüququ bir-birilə qovuşduran hüquqi anlayışları kompleks

[1] bax: *Н.Д.Егоров.* Право собственности в системе советского права // Правоведение. 1978. №3, с. 35-43; *Н.Д.Егоров.* Гражданско-правовое регулирование общественных отношений: единство и дифференциация. Л., 1988, с. 41-47.

[2] bax: *В.С.Якушев.* О самостоятельности института права государственной социалистической собственности и его государственно-правовой природе. Сб. уч. трудов Свердловского юрид. институт. Вып. 13. 1970, с. 85-110.

[3] *М.И.Брагинский.* Участие советского государства в гражданских правоотношениях. М., 1981, с. 30, 31, 71-72, 74, 172-174.

[4] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 403. Kompleks (qarışıq) hüquq institutu odur ki, bu instituta hüququn iki və daha artıq sahəsində rast gəlmək olur. Bu institut onu ifadə etmir ki, hüququn müxtəlif sahələrinə aid olan normalar eyni bir institutda birləşdirilmişdir. Ümumi və xüsusi hüquq normalarını eyni bir hüquq institutuna daxil etmək olmaz.

xarakter daşıyan anlayışlar hesab etmək lazımdır[1]. Mülkiyyət, xüsusilə dövlət mülkiyyəti hüququ belə anlayışlardandır[2].

Subyektiv mənada dövlət mülkiyyəti hüququ dedikdə, dövlətin, dövlət mülkiyyətinə daxil olan əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək səlahiyyətləri, habelə tələb etmək və müdafiə səlahiyyətləri başa düşülür ki, o, bu səlahiyyətləri öz mülahizəsinə görə, lakin ümumxalq mənafeyini nəzərə almaqla həyata keçirir. Göstərilən səlahiyyətlər hüquqi şəxs statuslu dövlət orqanları vasitəsilə gerçəkləşdirilir. Bu orqanlar mülki dövriyyənin digər iştirakçılarından fərqli olaraq, dövlət mülkiyyətinə daxil edilən əmlakdan yalnız məqsədli təyinatına uyğun olaraq istifadə edə bilər. Beləliklə, subyektiv mənada dövlət mülkiyyət hüququ dövlətin vəkil etdiyi konkret orqanın konkret dövlət əmlakı barəsində tələb etmək, müdafiə, sahiblik, istifadə və sərəncam səlahiyyətlərini ifadə edir.

§ 2. Dövlət mülkiyyət hüququnun subyekti kimi

1. Dövlət mülkiyyət hüququnun xüsusi subyekti kimi

Dövlət mülkiyyət hüquq münasibətlərində **xüsusi və müstəqil subyekt kimi çıxış edir**. O, özü mülki dövriyyə qaydalarını, özünün hüquq qabiliyyətinin məzmununu və hədlərini, həmçinin dövlət mülkiyyəti hüququnun məzmununu və sərhədlərini müəyyən edir. Mülkiyyət hüquq münasibətlərində subyekt rolunda çıxış edən dövlətin hüquqi statusu (vəziyyəti) mühüm xüsusiyyətlərlə şərtlənir. **Birinci xüsusiyyət** ondan ibarətdir ki, dövlət mülkiyyətçi kimi əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək səlahiyyətlərini **ümumxalq mənafeyi, cəmiyyətin ictimai mənafeyini nəzərə almaqla həyata keçirir**.

İkincisi, mülki dövriyyə iştirakçıları arasında **yalnız dövlət xüsusi səlahiyyətə** malikdir. Xüsusi səlahiyyət dedikdə, dövlətin hakimiyyət səlahiyyəti başa düşülür. Hakimiyyət daşıyıcısı olan dövlət hakimiyyət səlahiyyətindən (funksiyasından) istifadə edərək, normativ aktlar qəbul edir və bu aktlar əsasında özünün malik olduğu mülkiyyət hüququnun həyata keçirilməsi qaydalarını müəyyən edir.

«Mülkiyyət haqqında» qanunun 4-cü maddəsi mülkiyyət hüququn subyektləri dairəsinə Azərbaycan Respublikasını (Azərbaycan dövlətini) da şamil edirdi. Bu müddəanı inkişaf etdirərək, yeni MM-in 153-cü maddəsi dövlətin mülkiyyət hüquq subyektliyinə toxunur. Bu maddəyə görə, mülkiyyət hüququnun subyekti kimi **Azərbaycan Respublikasının mülkiyyətində bütün növlərdən olan daşınar və daşınmaz əmlak ola bilər**.

Sovet hüquq ədəbiyyatında xeyli müddətdir ki, **dövlət mülkiyyəti fondu-**

[1] bax: *Ю.А.Тихомиров.* Публичное право. М., 1995, с. 339-345; *Г.А.Гаджиев.* Основные экономические права. Автореф. докт. диск. М., 1996, с. 4-5, 12, 29, 41-42.

[2] Dövlət mülkiyyəti hüququnun sahəvi mənsubiyyəti barədə bax: *П.П.Вяткявичус.* Гражданская правосубъектность советского государства. Вилнюс. 1978; *Р.В.Шенгелия.* Гражданская правосубъектность советского государства в кредитных отношениях. Тбилиси, 1981, с. 82-84; Советское гражданское право. Часть 1 / Под ред. *В.Ф.Маслова и А.А.Пушкина.* Киев, 1983, с. 297-298.

nun vahidliyi tezisi formalaşmışdır[1]. Bu tezisə görə, dövlət mülkiyyəti dövlətin simasında bütün sovet xalqına məxsus idi. Dövlət, sosialist dövlət mülkiyyəti hüququnun yeganə subyekti hesab edilirdi. O, bütün dövlət əmlakının vahid mülkiyyətçisi sayılırdı. Dövlət əmlakı hansı formada ifadə edilməsindən və hansı subyektə verilməsindən asılı olmayaraq, mülkiyyət hüququ əsasında sovet dövlətinə məxsus idi. Sovet dövləti dövlət əmlakının yeganə və vahid mülkiyyətçisi sayılırdı. Dövlət mülkiyyəti vahid fond təşkil edirdi. Dövlət mülkiyyəti fondunun vahidliyi adlı tezisinin mahiyyəti məhz bu kimi fikirlərdən ibarətdir. Bu tezis xüsusən akademik A.V.Venediktovun məlum əsərində daha ətraflı şəkildə əsaslandırılmışdır[2].

80-ci illərin axırlarında ölkədə gedən iqtisadi-ictimai və siyasi proseslərə uyğun olaraq **dövlət mülkiyyətinin çoxsəviyyəli (çoxmərhələli) olması və buna da müvafiq olaraq subyektlərin çoxsaylı olması barədə konsepsiya** formalaşmağa başladı. Bu konsepsiyanın yaranması dövlət müəssisələrinin və regionların hüquqlarının genişlənməsi ilə şərtlənirdi. Çoxsəviyyəlilik konsepsiyası xüsusən V.P.Mozolinin əsərlərində əsaslandırılmışdır[3].

Dövlət mülkiyyətinin çoxsəviyyəli xarakteri barədə konsepsiya «Mülkiyyət haqqında» SSRİ qanununda, Mülki qanunvericiliyin 1991-ci il Əsaslarında, habelə RF-in «Mülkiyyət haqqında» qanununda qanunvericilik qaydasında rəsmən ifadə edildi. Çoxsəviyyəlilik ideyası Azərbaycan Respublikasının «Mülkiyyət haqqında» qanununa müəyyən dərəcədə təsir göstərdi. Bu təsirin nəticəsində Naxçıvan Muxtar Respublikası, yerli xalq deputatları sovetləri müstəqil olaraq mülkiyyət hüququnun subyektləri dairəsinə şamil edildi (qanunun 4-cü maddəsi)[4]. Qanunda göstərilirdi ki, dövlət mülkiyyətinin bir hissəsi Naxçıvan MR-ə məxsusdur. Naxçıvan MR-in dövlət mülkiyyəti Azərbaycan Respublikasının dövlət mülkiyyətinə daxildir (qanunun 9-cu maddəsi)[5].

Dövlət mülkiyyətinin çoxsəviyyəli xarakteri barədə konsepsiya RF-in müasir mülki qanunvericiliyində də möhkəmləndirilmişdir (RF-in MM-inin 212-ci, 214-cü maddələri). Bu konsepsiya RF-in Konstitusiyasının 71-ci və 72-ci maddələrində də ifadə edilmişdir. Həmin maddələrdə çoxsəviyyəli dövlət mülkiyyətinin subyektlərinin dairəsi müəyyən edilmişdir. RF-in mülki qanunvericiliyinə görə, dövlət mülkiyyəti iki yerə bölünür: federal dövlət mülkiyyəti; federasiya subyektlərinə məxsus olan dövlət mülkiyyəti. Bu bölgüyə uyğun olaraq iki kateqoriya dövlət mülkiyyəti subyekti fərqləndirilir: Rusiya Federasiyası (ona federal dövlət mülkiyyəti məxsusdur); respublika, ölkə, vilayət, muxtar vilayət, muxtar mahal, federal əhəmiyyətli şəhərlər (onlara federasiya subyektlərinin

[1] bax: *А.В.Венедиктов.* Государственная социалистическая собственность. М.-Л., 1948; *С.М.Корнеев.* Право государственной социалистической собственности в СССР. М., 1964; *А.В.Карас.* Право государственной социалистической собственности М., 1954; Гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова.* М., 1969; *М.И.Брагинский.* Участие советского государства в гражданских правоотношениях. М., 1981.

[2] *А.В.Венедиктов.* Государственная социалистическая собственность. М.-Л., 1948.

[3] *В.П.Мозолин.* Право собственности в условиях совершенствования социализма. М., 1989; *В.П.Мозолин.* Право собственности в Российской Федерации в период перехода к рыночной экономике. М., 1992.

[4] bax: AR QK, I cild, s. 144.

[5] yenə orada, s. 148.

malik olduğu əmlak məxsusdur).

RF-in qanunvericiliyindən fərqli olaraq, **Azərbaycan Respublikasının mülki qanunvericiliyi çoxsəviyyəli (çoxmərhələli) xarakterli dövlət mülkiyyəti barədə konsepsiyanı ifadə etmir**. Bu, onunla izah edilir ki, Azərbaycan Respublikası dövlət quruluşuna görə federativ yox, unitar dövlətdir. **Bizim müasir mülki qanunvericilik dövlət mülkiyyəti fondunun vahidliyi tezisini təsbit edir**. Dövlət mülkiyyəti vahid fondla xarakterizə edilir.

2. Azərbaycan Respublikası dövlət mülkiyyəti hüququnun yeganə və vahid subyekti kimi

Yeni MM-in 153-cü maddəsinin 1-ci bəndi dövlət mülkiyyəti fondunun vahidliyi tezisinə uyğun olaraq, **Azərbaycan Respublikasını dövlət mülkiyyəti hüququnun yeganə və vahid subyekti kimi** müəyyən etmişdir. Belə təsəvvür yaranır ki, sovet hüquq ədəbiyyatında və qanunvericiliyində formalaşan vahidlik tezisi bizim mülki qanunvericilikdə indi də saxlanılmışdır. Mülki qanunvericilik RF-in qanunvericiliyindən fərqli olaraq, dövlət mülkiyyəti hüququnun subyektlərinin çoxsaylı olması barədə qayda müəyyən etmir, əksinə, dövlət mülkiyyəti hüququnun vahid və yeganə daşıyıcısı kimi Azərbaycan dövləti haqqında müddəa nəzərdə tutur. Bu, onunla izah edilir ki, Azərbaycan Respublikasında dövlət mülkiyyəti çoxsəviyyəli xarakterə malik deyildir və buna görə də dövlət mülkiyyəti hüququ üçün subyektlərin çoxluğu yox, subyektin vahid və yeganə olması xarakterikdir.

Azərbaycan Respublikası dövlət mülkiyyəti hüququnun subyekti kimi, mülkiyyətçi kimi dövlət əmlakından istifadə edərək, əhalinin mənafeyini, ətraf mühitin qorunmasını, ölkənin müdafiə qabiliyyətinin və dövlət təhlükəsizliyinin möhkəmləndirilməsini təmin edir. Dövlət mülkiyyəti hüququnun daşıyıcısı olan Azərbaycan Respublikası öz fəaliyyətinin bir hissəsini güzəranı daha ağır olan əhali qruplarının vəziyyətinin yaxşılaşdırılmasına və sosial müdafiəsi qayğısına qalmağa, binəsiblərin sosial cəhətdən qorunmasını təmin etməyə yönəldir.

Azərbaycan Respublikası **dövlət büdcə vəsaitinin mülkiyyətçisidir**. Bu vəsait inzibati (maliyyə) idarəetmə hüququ əsasında, ya da operativ idarəetmə və tam təsərrüfatçılıq hüququ (mülki-hüquqi) əsasında hər hansı dövlət orqanına verilə bilər. Buna baxmayaraq, göstərilən hallarda dövlət yenə də büdcə vəsaitinin mülkiyyətçisi kimi qalır. Büdcə vəsaitinin bölgüsü məsələsinə gəldikdə isə, büdcə vəsaitinin bölgüsü ilə əlaqədar yaranan münasibətlər maliyyə hüquq normaları ilə tənzimlənir. Mülki hüquq bu münasibətləri tənzimləməkdən çox uzaqdır. Bölünməyən büdcə vəsaitlərinə sərəncam verməklə dövlət maliyyə fəaliyyətini həyata keçirir. Bu baxımdan dövlət maliyyə hüququnun subyekti kimi çıxış edir[1].

Azərbaycan Respublikası dövlət əmlakına sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək səlahiyyətlərini bilavasitə vahid subyekt kimi, lakin **hüquqi şəxs statuslu dövlət orqanlarının vasitəsilə həyata keçirir**. Başqa sözlə desək, dövlət mülkiyyətinin idarə edilməsi və mülkiyyətçi kimi

[1] Dövlətin maliyyə fəaliyyətinin hüquqi əsasları barədə ətraflı məlumat almaq üçün bax: Финансовое право. Учебник / Под ред. *О.Н.Горбуновой.* М., 1996, с. 10.

Azərbaycan Respublikasının səlahiyyətlərinin gerçəkləşməsi dövlət orqanları vasitəsilə həyata keçirilir ki, bu orqanlar hüquqi şəxs hesab edilir. Həmin orqanları iki qrupa bölmək olar. Birinci qrupa dövlət hakimiyyəti orqanlarını şamil etmək olar. Bu orqanlar ya ümumi, ya da məhdud hüquq qabiliyyətinə malikdir. **Dövlət hakimiyyəti orqanları** mülkiyyətçi rolunda çıxış edən Azərbaycan Respublikasının səlahiyyətlərini həyata keçirir. Bu orqanlar Azərbaycan Respublikasının adından çıxış etməklə, onu təmsil edir. Azərbaycan dövlətini təmsil edən həmin orqanlar onlara verilmiş səlahiyyət hədlərində hərəkət edir. Bu səlahiyyət dövlət hakimiyyəti orqanlarının hüquqi statusunu müəyyən edən normativ aktlarla müəyyən olunur.

İkinci qrup orqanlara aiddir: **dövlət orqanları**; normativ aktla müəyyən edilən qaydada və hallarda onlara həvalə edilmiş funksiyanı **xüsusi tapşırıqla həyata keçirən şəxslər**. Dövlət orqanları Azərbaycan Respublikası adından qanunvericilik qaydasında onlara verilmiş səlahiyyətləri həyata keçirir.

Mülkiyyətçinin, yəni Azərbaycan Respublikasının səlahiyyətlərini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanları içərisində **Dövlət Əmlak Nazirliyi (indiki İqtisadi İnkişaf Nazirliyi)** vacib rol oynayır.

İqtisadi İnkişaf Nazirliyinin əsas səlahiyyəti istənilən təşkilati-hüquqi formada müəssisələrin yaradılmasına, ləğvinə və yenidən təşkil edilməsinə yönələn hüquqi hərəkətlər etməkdən ibarətdir. Bu nazirliyin hüquqi statusu onunla şərtlənir ki, o, **dövlət mülkiyyətində olan əmlakın sərəncamçısıdır**. Bununla bərabər, İqtisadi İnkişaf Nazirliyi daşınmaz dövlət əmlakının icarəyə verilməsinə dair bağlanmış icarə müqaviləsində icarəyə verənin, yəni dövlətin hüquqi varisi kimi çıxış edir[1]. Dövlət müəssisələri və birlikləri, habelə dövlət mərkəzi icra hakimiyyəti orqanları tərəfindən müxtəlif təşkilati-hüquqi formalı müəssisə yaradıldığı, ləğv edildiyi və yenidən təşkil edildiyi hallarda, bu nazirliyin razılığı tələb olunur[2]. İqtisadi İnkişaf Nazirliyi Azərbaycan Respublikasında dövlət əmlakının registrinin aparıcısıdır. Dövlət əmlakının registrində daşınmaz dövlət əmlakının qeydiyyatı aparılır[3].

Dövlət orqanları sistemində **Azərbaycan Respublikası Maliyyə Nazirliyi** mühüm yer tutur. Bu nazirlik Azərbaycan Respublikasının dövlət mülkiyyəti sayılan dövlət büdcə vəsaiti üzrə əməliyyatları həyata keçirir, dövlət borc öhdəliklərinin qeydiyyatını və dövlət borcunun uçotunu aparır, onun vəziyyətinə cari nəzarət edir. Qanunda nəzərdə tutulduğu hallarda Maliyyə Nazirliyi dövlət mülkiyyəti hüququnu müdafiə etmək üçün məhkəmədə iddiaçı rolunda çıxış edir.

Dövlət orqanlarından **Azərbaycan Respublikasının Milli Bankı** dövlətin müstəsna mülkiyyətindədir (Konstitusiyanın 19-cu maddəsinin 2-ci hissəsi)[4]. Bu müddəa «Azərbaycan Respublikasının Milli Bankı haqqında» 10 dekabr 2004-cü il tarixli qanunun 1-ci maddəsinin 2-ci hissəsində möhkəmləndirilmiş-

[1] «İcarəyə verilmiş dövlət əmlakından səmərəli istifadə olunması tədbirləri haqqında» Azərbaycan Respublikası prezidentinin 6 sentyabr 1997-ci il tarixli fərmanı (bax: AR QK, V cild, s. 5).

[2] «Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı»na 13 saylı Əlavənin 7-ci bəndi (bax: Sahibkarlığa kömək və özəlləşdirmə proqramları. Bakı, 1999, c. 70).

[3] bax: «Azərbaycan Respublikasında dövlət əmlakının registrinin yaradılması haqqında» prezidentin 20 iyun 1998-ci il tarixli fərmanı (AR QK, V cild, s. 502).

[4] bax: AR QK, II cild, s. 573.

dir. Milli Bank dövlətin pul-valyuta siyasətini müəyyənləşdirir və həyata keçirir; nağd pul dövriyyəsini təşkil edir, valyuta tənzimini və nəzarətini həyata keçirir; sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarını saxlayır və idarə edir; bank fəaliyyətini lisenziyalaşdırır; ödəniş sistemlərinin fəaliyyətini təşkil edir; əməliyyatlar aparır və mülki-hüquqi əqdlər bağlayır və s.

Mədəniyyət sərvətlərinin, tarix və mədəniyyət abidələrinin qorunması icra hakimiyyəti orqanı olan **Mədəniyyət Nazirliyi** tərəfindən həyata keçirilir. Mədəniyyət Nazirliyi dövlət mülkiyyətində olan mədəniyyət sərvətlərindən istifadə rejimini müəyyən edir, milli mədəniyyət əmlakı sayılan mədəniyyət sərvətini Dövlət Siyahısına daxil edir, habelə milli və bəşəri əhəmiyyəti olan nadir mədəniyyət sərvətlərinin qorunmasına nəzarəti həyata keçirir, nəhayət, ən əhəmiyyətli mədəniyyət sərvətlərini qorumaq məqsədilə mədəniyyət sərvətlərinin mühafizə siyahısını aparır.

§ 3. Dövlət mülkiyyəti hüququnun obyektləri

1. Ümumi müddəalar

Azərbaycan Respublikasının mülkiyyət hüququ əsasında malik olduğu bütün əmlak növləri dövlət mülkiyyətinə daxildir. «Mülkiyyət haqqında» qanunun 10-cu maddəsi dövlət mülkiyyəti hüququnun obyektlərinin dairəsini müəyyən edirdi. **Dövlət mülkiyyəti hüququnun obyektləri** dedikdə, suveren dövlət kimi Azərbaycan Respublikasının qarşısında duran vəzifələri həyata keçirmək üçün lazım olan bütün əmlak növləri başa düşülür. Azərbaycan Respublikasının ərazisində olan bütün xalq təsərrüfatı sahələrinin müəssisələri, energetika, nəqliyyat və rabitə şəbəkələri (sistemləri), dövlət mənzil fondu, dövlət idarələrinin əmlakı, mədəni sərvətlər və tarixi abidələr, infrastruktur obyektləri, o cümlədən kurort-turist təyinatlı obyektlər, dövlətin vəsaiti hesabına yaradılmış digər əsas fondlar, dövlət bankları, maliyyə və kredit ehtiyatları, qiymətli kağızlar və digər əmlak növləri Azərbaycan Respublikasının dövlət mülkiyyətinə aiddir. Xarici dövlətlərin ərazisində yerləşən və Azərbaycan Respublikasının dövlət maliyyə ehtiyatları hesabına yaradılan müəssisələr və ya onların hissələri dövlət mülkiyyət hüququnun obyekti hesab olunur.

Qüvvədə olan qanunvericilik dövlət mülkiyyəti hüququnun bəzi obyektləri barədə **milli sərvət** anlayışını işlədir[1]. Milli sərvət anlayışına daxil edilən torpaq, yerin təki, meşələr, sular və digər təbii ehtiyatlar dövlət mülkiyyəti hüququnun obyekti olmaqla Azərbaycan xalqına məxsusdur. Azərbaycan xalqı öz ali dövlət hakimiyyəti və idarə orqanları simasında ölkənin təbii və maddi texniki ehtiyatlarına sərəncam verir. Bu, onun ayrılmaz hüququdur.

Qüvvədə olan qanunvericilik dövlət mülkiyyətinə daxil edilən bəzi mədəniyyət sərvətləri barədə **milli mədəniyyət əmlakı obyektləri** anlayışını nəzərdə tutur. Belə obyektlərə milli və bəşəri əhəmiyyəti olan nadir mədəniyyət sərvətləri daxil edilir («Mədəniyyət haqqında» qanunun 38-ci maddəsi)[2].

Qeyd etmək lazımdır ki, dövlət öz qarşısında duran vəzifələri həyata keçir-

[1] «Azərbaycan SSR-in suverenliyi haqqında» Konstitusiya qanunu (bax: AR QK, I cild, s. 7).

[2] bax: AR QK, V cild, s. 269.

mək üçün lazım olan hər hansı əmlakın mülkiyyətçisi ola bilər. Dövlət həmin əmlak üzərində onun yaradılması, əldə edilməsi üsulundan və hüquqi rejimindən asılı olmayaraq, mülkiyyət hüququ qazanır. Belə təsəvvür yaranır ki, dövlət mülkiyyəti hüququ obyektinin dairəsi heç nə ilə məhdudlaşdırılmır. Dövlət mülkiyyəti hüququnun obyekti kimi həm dövriyyə qabiliyyətli, həm məhdud dövriyyə qabiliyyətli, həm də qeyri-məhdud dövriyyə qabiliyyətli əmlak çıxış edə bilər. Dövlətin mülkiyyətində həm daşınar, həm də daşınmaz əmlak ola bilər. Fiziki və hüquqi şəxslərin və ya bələdiyyələrin mülkiyyətində olmayan torpaq və digər təbii ehtiyatlar dövlət mülkiyyətidir (MM-in 155-ci maddəsinin 2-ci bəndi). Deməli, qanunla **torpaq və digər təbii ehtiyatlara dövlət mülkiyyəti hüququ prezumpsiyası müəyyən edilmişdir**. Konstitusiyanın 19-cu maddəsi dövlət mülkiyyəti hüququnun obyekti barədə mühüm əhəmiyyətə malik olan belə bir göstəriş ifadə edir ki, təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur[1].

Dövlət mülkiyyəti hüququnun elə obyektləri vardır ki, belə obyektlərin xüsusi mülkiyyət hüququnun obyektləri dairəsinə şamil edilməsi istisna olunur. Belə obyektlər dövlətin müstəsna mülkiyyətində olan əmlak adlanır. **Dövlətin müstəsna mülkiyyətində olan obyektlər** yalnız cəmiyyətin və xalqın mənafeyi naminə, habelə xüsusi dövlət ehtiyacları üçün istifadə edilir. Belə obyektlərə xüsusi hüquqi rejim tətbiq edilir ki, həmin rejim normativ aktla müəyyən olunur. Dövlətin müstəsna mülkiyyətinə daxil olan əmlakın hüquqi rejimi dövlətin bu əmlak üzərində inhisarçılığı (təkbaşınalığı) ilə, onun dövriyyə qabiliyyətinin məhdudluğu ilə, habelə xüsusi mülkiyyətə keçməsinə qanunla qadağa qoyulması ilə şərtlənir.

Dövlətin müstəsna mülkiyyətinə daxil olan obyektlərin dairəsi qanunla müəyyən edilir. «Mülkiyyət haqqında» qanunun 10-cu maddəsinin 1-ci bəndində Azərbaycan Respublikasının müstəsna mülkiyyət obyektləri göstərilmişdi: torpaq; yerin təki; daxili sular və ərazi suları; qitə şelfi, bitkilər və heyvanlar aləmi; hava hövzəsi.

Qanunvericilikdə dövlətin müstəsna mülkiyyəti kateqoriyası ilə bərabər, həm də milli sərvət anlayışı işlədilir. Suverenlik haqqında 23 sentyabr 1989-cu il tarixli Konstitusiya qanununda (10-cu bənd) torpaq, yerin təki, meşələr, sular və digər təbii ehtiyatlar milli sərvətin tərkibinə daxil edilir[2]. Odur ki, hər iki anlayış, yəni «dövlətin müstəsna mülkiyyəti» və «milli sərvət» eyni mənalı, sinonim anlayışlardır[3].

Azərbaycan Respublikasının dövlət mülkiyyəti Azərbaycan xalqına məxsusdur. Azərbaycan xalqı özünün seçdiyi və vəkil etdiyi ali dövlət hakimiyyəti (qanunvericilik) və icra orqanlarının simasında və onların vasitəsilə

[1] bax: AR QK, II cild, s. 572.

[2] bax: AR QK, I cild, s. 9.

[3] RF-in qanunvericiliyində xalq sərvəti anlayışı işlədilir. Bəzi müəlliflər belə hesab edirlər ki, xalq sərvəti elan edilmiş əmlak dövlətin müstəsna mülkiyyətini təşkil edən obyektin bir növüdür (bax: *В.П.Мозолин*. Право собственности в РФ в период перехода к рыночной экономике. М., 1992, с. 142-145). İkinci qrup alimlərin fikrincə, xalq sərvəti hesab edilən əmlak barəsində ümumiyyətlə, mülkiyyət hüququnun müəyyən edilməsi mümkün deyil. Bu obyektlər mülkiyyət hüququnun obyekti ola bilməz (bax: *Е.А.Суханов*. Лекции о праве собственности. М., 1991, с. 63-64).

dövlət mülkiyyəti hüququna daxil olan obyektlər üzərində sahiblik, istifadə və sərəncam səlahiyyətlərini həyata keçirir. **Dövlət əmlakının faktiki mülkiyyətçisi xalqdırsa, hüquqi mülkiyyətçisi dövlətdir**.

2. Torpaq dövlətin müstəsna mülkiyyət hüququnun obyekti kimi

Sovet qanunvericiliyinə görə, torpaq kimin istifadəsində olmasına baxmayaraq, vahid dövlət fondu hesab edilirdi. Torpaq üzərində xüsusi mülkiyyət birdəfəlik ləğv edilmişdi. O, dövlətin müstəsna mülkiyyətinə aid idi.

Torpaq Məcəlləsi Azərbaycan Respublikasında torpaq üzərində mülkiyyətin müxtəlif formalarını — dövlət, xüsusi və bələdiyyə mülkiyyət formalarını müəyyən edir. Həmin Məcəlləyə görə, Azərbaycan Respublikasının şəxsində dövlət torpaq mülkiyyətçisi kimi çıxış edir. Torpaq Məcəlləsinin 46-cı maddəsi torpaq üzərində dövlət mülkiyyət hüququnu təsbit edir, qanunla müəyyən edilmiş qaydada digər subyektlərin mülkiyyətinə verilmiş torpaqlardan başqa, bütün torpaqları dövlət mülkiyyətinə şamil edir.

Dövlət meşə fondunun torpaqları dövlət mülkiyyətinə aid olunur. Belə torpaqlardan, əsasən, meşə təsərrüfatının aparılması və genişləndirilməsi (meşələrin bərpası, meşələr salınması və s.) məqsədləri üçün istifadə edilir (TM-in 31-ci maddəsi).

Su fondu torpaqları, yəni sututarların (çaylar, göllər, dəryaçalar, kanallar və s.), hidrotexniki və digər su təsərrüfatı qurğularının yerləşdiyi torpaqlar, habelə sututarların sahilləri boyunca uzanan zolaqlar üçün, mühafizə zonaları və s. üçün ayrılan torpaqlar dövlət mülkiyyətinə daxil edilir.

Ölkəmizdə torpaq üzərində yeni mülkiyyət münasibətlərini yaratmaq, bazar iqtisadiyyatını və sahibkarlığı inkişaf etdirmək, ölkənin iqtisadi müstəqilliyinə, habelə ərzaq təminatına nail olmaq və nəticə etibarilə vətəndaşların maddi rifahını yüksəltmək üçün torpaq islahatı keçirilir. Bu islahatın həyata keçirilməsinin hüquqi əsasları «Torpaq islahatı haqqında» qanunla müəyyən edilir[1].

Torpaq islahatı zamanı **vahid torpaq fondundan dövlət mülkiyyətində saxlanılan torpaqlar (dövlət torpaqları) ayrılır**. Qanunun 6-cı maddəsində **dövlətin müstəsna mülkiyyətində olan torpaqların dairəsi** müəyyən edilir. Belə torpaqlara aiddir: dövlət hakimiyyəti orqanlarının yerləşdiyi torpaqlar; dövlət obyektlərinin — dağ-mədən sənayesinin, faydalı qazıntı yataqlarının, vahid energetika sisteminin, magistral boru kəmərlərinin, nəqliyyat, rabitə və müdafiə obyektlərinin yerləşdiyi torpaqlar; meşə fondu torpaqları (sovxoz və kolxozların meşələri də daxil olmaqla); su fondu torpaqları və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektorunun altında yerləşən torpaqlar; təbiəti mühafizə, təbii-qoruq, sağlamlaşdırma, istirahət, tarix-mədəniyyət təyinatlı torpaqlar, habelə üzərində təsərrüfat fəaliyyəti qadağan edilmiş qanunla qorunan ərazilərin torpaqları və s.

Dövlətin müstəsna mülkiyyətində olan torpaqlar qanunla müəyyən edilmiş qaydada istifadəyə və icarəyə verilə bilər. Bununla bərabər, həmin torpaqların bələdiyyə və xüsusi mülkiyyətə verilməsinin mümkünlüyü istisna edilmir.

[1] bax: AR QK, III cild, s. 286.

3. Yerin təki dövlətin müstəsna mülkiyyətinin obyekti kimi

Qanunun dövlətin müstəsna mülkiyyətinin obyektləri dairəsinə şamil etdiyi təbii ehtiyatlardan biri yerin təkidir. Yerin təkinin öyrənilməsi (kəşfiyyat, axtarış), onun səmərəli istifadəsi, mühafizəsi və görülən işlərin təhlükəsizliyi ilə əlaqədar münasibətlər «Yerin təki haqqında» qanunla tənzimlənir[1]. **Yerin təki** dedikdə, yer qabığının yer səthindən və ya torpaq qatından, sututarların dibindən aşağıda yerləşən, öyrənilməsi və istifadəsi mümkün olan dərinlərədək uzanan suxurlardan, mineral-xammal ehtiyatlarından, enerji daşıyıcılarından (neft, qaz və s.), təbii və süni boşluqlardan, geoloji və texnogen törəmələrdən ibarət hissəsi başa düşülür.

Azərbaycan Respublikasında yerin təki hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına xələl gətirmədən **Azərbaycan Respublikasına məxsusdur**. Lakin buna baxmayaraq istənilən hər hansı fiziki və ya hüquqi şəxs yerin təkindən istifadə edə bilər. Yerin təkinin istifadəçisi rolunda həm də xarici ölkələrin hüquqi və fiziki şəxsləri çıxış edə bilər. Şəxslər əvvəllər prezidentin 4 oktyabr 1997-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri və onları verən icra hakimiyyəti orqanlarının siyahısı»na uyğun olaraq yerin təkindən yalnız xüsusi razılıq aldıqdan sonra istifadə edə bilərdilər[2]. Yerin təkindən istifadənin və fəaliyyətin növündən asılı olaraq, istifadəçilərə lisenziyanı ya Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi, ya da Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ-mədən Nəzarəti Komitəsi verirdi. İndi isə yerin təkindən istifadə üçün xüsusi icazə (razılıq) alınması nəzərdə tutulmur[3].

Qanun bəzi hallarda yerin təkindən istifadəni məhdudlaşdırır və ya yasaqlayır. Bu qayda yerin təkinin ayrı-ayrı sahələrindən istifadə ölkənin təhlükəsizliyinə və ətraf mühitin mühafizəsinə xələl gətirdiyi hallarda tətbiq edilir. Yerin təkindən istifadə qismən və ya tamamilə qadağan edilə bilər. Belə qadağan halları qanunda nəzərdə tutulan əsaslar olduqda tətbiq edilir: yaşayış məntəqələrinin, şəhər ətrafı zonaların, sənaye, nəqliyyat və rabitə obyektlərinin ərazilərində yerin təkindən istifadə insanların həyat və sağlamlığına təhlükə törətdikdə; yerin təkindən istifadə təsərrüfat obyektlərinə və ya ətraf mühitə zərər vurduqda.

Yerin təkindən istifadə müəyyən prinsiplər əsasında həyata keçirilir. Həmin prinsiplərə aiddir: ətraf mühitin mühafizəsinin təmin edilməsi; mineral-xammal bazasının genişləndirilməsi; aşkarlıq şəraitində yerin təkindən istifadə edilməsi; yerin təkindən istifadəyə investisiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılması; yerin təkindən istifadənin ödənişli olması.

Yerin təkindən istifadə münasibətləri dövlət tərəfindən tənzimlənir. Dövlət həm də yerin təkindən səmərəli istifadəyə və onun mühafizəsinə, habelə yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılmasına nəzarət həyata keçirir.

[1] bax: AR QK, V cild, s. 297.
[2] bax: AR QK, V cild, s. 22-24.
[3] bax: prezidentin 2 sentyabr 2002-ci il tarixli fərmanı ilə təsdiq olunmuş «Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı» («Respublika» qəzeti, 3 sentyabr 2002-ci il)

İstifadəçi dövlətə vurulmuş ziyana görə məsuliyyət daşıyır. Belə ki, faydalı qazıntı yataqlarının zəngin sahələrinin seçmə üsulla hasilatını aparan, eləcə də yerin təkindən istifadə imkanlarına qismən və ya tamamilə istisna şəraiti yaradan, yaxud yatağın korlanmasına səbəb olan hərəkətlərdə təqsiri olan yerin təki istifadəçisinin fəaliyyəti nəticəsində dövlətə vurulmuş ziyan istifadəçinin vəsaiti hesabına ödənilir («Yerin təki haqqında» qanunun 48-ci maddəsinin 2-ci bəndi)[1]. Vurulmuş ziyanın miqdarı və ödənilməsi qaydası məhkəmə tərəfindən müəyyən edilir.

Faydalı qazıntı yataqları yerləşən sahələrdə icazəsiz tikinti işləri aparıldığı halda, habelə yerin təkindən özbaşına olaraq istifadə olunduğu zaman istifadə və tikinti işləri dayandırılır. Belə halda istifadəçiyə və ya özbaşına tikinti işi aparan şəxsə onun çəkdiyi məsrəflər ödənilmir.

4. Meşələr dövlətin müstəsna mülkiyyət obyekti kimi

Azərbaycan Respublikasında **meşə fondu dövlətə mənsubdur və onun mülkiyyətidir** (Meşə Məcəlləsinin 11-ci maddəsi)[2]. Qanun meşə fondu sahələrinin alqı-satqısını, bağışlanmasını, girov qoyulmasını və digər əqdlərin bağlanmasını yasaqlayır. Belə təsəvvür yaranır ki, qanun meşə fondu sahələrinin özgəninkiləşdirilməsinə, **meşə fondunun dövriyyəsinə gətirən və gətirə bilən hər hansı əqdə yol verilməsini istisna edir**.

Azərbaycan Respublikasının meşə fondu ölkə ərazisindəki bütün meşələrdən, habelə meşə bitkiləri ilə örtülü olmayan meşə fondu torpaqlarından ibarətdir. Həyətyanı sahələrdə, yaylaq, qışlaq və bağ sahələrində olan ağaclar və ağac qrupları, habelə digər ağac-kol bitkiləri meşə fonduna daxil edilmir.

Meşə münasibətlərinin subyekti kimi dövlətdən başqa, həm də fiziki və hüquqi şəxslər çıxış edirlər. Meşə fondundan istifadə etməklə şəxslər, meşə münasibətlərində iştirak edirlər. Meşə fondu sahələrindən istifadə hüququ verilmiş həmin şəxslər **meşə istifadəçiləri** adlanır.

Qanunda nəzərdə tutulan hallarda meşə fondu sahələrindən istifadə hüququ məhdudlaşdırılır və ya dayandırılır. Bu, ölkənin müdafiəsini və dövlətin təhlükəsizliyini təmin etmək, əhalinin sağlamlığını, ətraf mühiti, tarixi-mədəni və təbii irsi, fiziki şəxslərin hüquqlarını və qanuni mənafelərini qorumaq zərurəti yarandığı hallarda olur.

Meşə fondundan istifadə, onun mühafizəsi, qorunması və meşələrin bərpası dövlət idarəetməsi əsasında həyata keçirilir. Dövlət idarəetməsini icra hakimiyyəti orqanı olan meşə təsərrüfatı idarəsi yerinə yetirir. Meşə təsərrüfatı idarəsi meşə təsərrüfatının aparılması sahəsində dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edir, meşə qanunvericiliyinə riayət edilməsinə, həmçinin meşə fondundan istifadəyə, onun mühafizəsinə dövlət nəzarətini həyata keçirir, meşə fondundan istifadə və meşə fondu barəsində sərəncam verir və s.

Meşə fondundan istifadə, onun mühafizəsi və meşələrin bərpası sahəsində dövlət idarəetməsi müəyyən prinsiplər əsasında həyata keçirilir. Belə prinsiplərə aid edilir: iqtisadiyyatın inkişafı prinsipi; ətraf mühitin mühafizəsi prinsipi; ölkənin mənafeyinə uyğun olaraq, meşə fondundan səmərəli istifadə edilməsi

[1] bax: AR QK, V cild, s. 303.
[2] bax: AR QK, V cild, s. 161.

prinsipi.

Meşə fondu sahələrinin özbaşına tutulmasına (zəbt edilməsinə) görə təqsirkar şəxs həm inzibati, həm də cinayət məsuliyyətinə cəlb edilir. Həmin şəxslər icazəsiz olaraq, özbaşına tutduğu sahəni müəyyən edilmiş müddətdə azad etməlidirlər.

Meşə fondu sahələrinə aid olan hər hansı bir əqd meşə qanunvericiliyinə uyğun olmalıdır. Əgər bağlanılan əqd meşə qanunvericiliyinə zidd olarsa, onda bu, əqdi bağlayan tərəf üçün arzuolunmaz hüquqi nəticələrə səbəb olur. Belə ki, meşə qanunvericiliyini pozmaqla bağlanan əqdlər etibarsız hesab edilir.

5. Daxili sular və ərazi suları (sular) dövlətin müstəsna mülkiyyət obyekti kimi

Azərbaycan Respublikasının Su Məcəlləsinə görə, Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi Azərbaycan xalqının milli sərvətidir. Daxili sular və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi (su obyektləri) Azərbaycan Respublikasının **su fondunu** təşkil edir. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsindən Su Məcəlləsinin müəyyən etdiyi qaydalar əsasında, habelə Azərbaycan dövlətinin tərəfdar çıxdığı beynəlxalq hüquqi aktlar əsasında istifadə edilir.

Su Məcəlləsi dövlətin mülkiyyətinə şamil edilən su obyektlərinin dairəsini müəyyən edir. Dövlətin müstəsna mülkiyyətində aşağıdakı su obyektləri saxlanılır: Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi; sərhəd su obyektləri; dövlət və yerli əhəmiyyətli yerüstü və yeraltı su obyektləri; xüsusi qorunan su obyektləri. **Xüsusi qorunan su obyektləri** dedikdə, xüsusi elmi, tarixi, mədəni, estetik və təbiət qoruyucu əhəmiyyətli su obyektləri başa düşülür. Belə su obyektləri qismən, daimi və ya müvəqqəti olaraq təsərrüfat fəaliyyətindən çıxarılır. Xüsusi qorunan obyektlər qanunvericiliklə müəyyən edilmiş qaydada toxunulmaz elan edilir.

Xüsusi qorunan su obyektlərindən balıq tutmaq, ov etmək, su bitkiləri yığmaq və həmin su obyektlərinin təbii vəziyyətini dəyişən digər işlər görmək qanunla yasaqlanır. Belə obyektlərin suyundan qanunda nəzərdə tutulan qaydada istifadə edilir. Xüsusi qorunan su obyektlərinə qiymətli balıq növlərinin kürütökmə və qışlama yerlərini, Azərbaycan Respublikasının daxili sularının və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sularının sahələrini və s. misal göstərmək olar.

Dövlət mülkiyyətində olan su obyektləri mülkiyyət formasından asılı olmayaraq, hüquqi şəxslərin, Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin istifadəsinə və icarəsinə verilə bilər. Bu obyektlərin bələdiyyə mülkiyyətinə daxil edilməsinin mümkünlüyü istisna edilmir. Dövlət mülkiyyətində olan su obyektləri onların istifadə məqsədindən, ehtiyat potensialından və ekoloji vəziyyətindən asılı olaraq, şəxslərin istifadəsinə verilməsi qısamüddətli (üç ilə qədər), yaxud da uzunmüddətli (iyirmi beş ilə qədər) ola bilər. Dövlət mülkiyyətində olan su obyektlərindən müxtəlif məqsədlər üçün istifadə edilə bilər. Onlardan, əsasən, içməli su və məişət təchizatı, müalicə, kurort, sağlamlaşdırma, istirahət və idman, sənaye, tikinti və energetika, nəqliyyat, balıqçılıq, ovçuluq məqsədləri üçün istifadə edilir.

Su obyektlərindən istifadə dövlət idarəetməsi əsasında həyata keçirilir ki, bu, müəyyən prinsiplərlə bağlıdır. Bu prinsiplərə aiddir: iqtisadiyyatın inkişafı və ətraf mühitin qorunması prinsipi; əhalinin keyfiyyətli su ilə təchizatı prinsipi və s. Bununla bərabər, dövlət su obyektlərinin istifadəsi və mühafizəsi üzərində həm də dövlət nəzarətini həyata keçirir. Dövlət nəzarət qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

6. Dövlət büdcə vəsaiti dövlətin mülkiyyət hüququnun obyekti kimi

Dövlət büdcəsinin vəsaiti Azərbaycan Respublikasının mülkiyyətidir (MM-in 155-ci maddəsinin 3-cü bəndi). Büdcə vəsaiti dövlətin xəzinəsini təşkil edən obyektlərin siyahısında birinci və əsas yeri tutur. O, dövlət xəzinəsinin bir hissəsidir.

Büdcə vəsaiti dövlətin fəaliyyət göstərməsi üçün maliyyə bazası rolunu oynayır. Bu vəsait dövlətin sərəncamında olan güclü idarəetmə mexanizmi kimi çıxış edir. Dövlət aparatı dövlət büdcə vəsaiti hesabına saxlanılır. Buraya, hər şeydən əvvəl, qanunverici və icra hakimiyyəti, habelə hüquq-mühafizə orqanları aiddir.

Büdcəyə yığılan vəsaitdən dövlət iqtisadi-sosial siyasətin həyata keçirilməsi, ölkənin müdafiəsi və təhlükəsizliyinin təmin edilməsi kimi məqsədlər üçün istifadə edir. Büdcə vəsaitindən istifadə etməklə dövlət xalq təsərrüfatı sahələrinin normal fəaliyyət göstərməsini, ətraf mühitin mühafizə edilməsini, hərbi-sənaye kompleksinin möhkəmləndirilməsini, ölkənin elmi-texniki potensialının və mədəniyyətin inkişafını, əhalinin və onun ayrı-ayrı qruplarının maddi həyat səviyyəsinin artırılmasını, cinayətkarlıqla mübarizənin gücləndirilməsini və s. təmin edir. Büdcə vəsaiti dövlətin maliyyə siyasətinin gerçəkləşdirilməsində zəruri alət rolunu oynayır.

Qeyd etməliyik ki, büdcə sistemində milli gəlirin bir hissəsi toplanır ki, bu, ümumi əhəmiyyətə malik olan məsələlərin həllinə yönəlir: iqtisadi-sosial proqramlar; ölkənin müdafiə və təhlükəsizliyinin təmin edilməsi. Belə təsəvvür yaranır ki, büdcə vəsaiti cəmiyyət üçün daha mühüm və vacib əhəmiyyətə malik olan problem və vəzifələrin həyata keçirilməsi və reallaşdırılması vasitəsidir[1]. Büdcə ilə əlaqədar münasibətlər «Büdcə sistemi haqqında» 2002-ci il tarixli qanunla qaydaya salınır[2].

Dövlətin xəzinəsini təşkil edən obyektlərin siyahısında büdcədənkənar fondlar da böyük rol oynayır. **Büdcədənkənar fondlar** pul vəsaitinin xüsusi fondunu təşkil edir. Bu fondların formalaşdırılması və yaradılması onun məqsədli xarakterə malik olması ilə izah edilir. Büdcədənkənar fondlara şamil edilir: dövlət sosial müdafiə fondu; dövlət yol fondu və s.

Dövlət sosial müdafiə fondundan sosial sığorta üzrə ödəmələr ayrılır. Sosial sığorta dedikdə, vətəndaşların itirilmiş əmək haqlarının, gəlirlərinin və ya əlavə xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının

[1] Dövlət büdcəsinin rolu barədə bax: Финансовое право. Учебник / Под ред. *О.Н.Горбуновой*. M., 1996, с. 99.

[2] bax: AR QK, III cild, s. 930. «Digesta» nəşriyyatı.

alınmasına yönəldilmiş təminat forması başa düşülür. Bu fonddan ayrılan ödəmələrin müxtəlif növləri var: dövlət pensiyaları; əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət; hamiləliyə və doğuma görə müavinət; uşağın anadan olmasına görə birdəfəlik müavinət; uşağa göstərilən qulluqla əlaqədar müavinət; dəfn üçün müavinət və s. Sosial sığorta sahəsində münasibətlər «Sosial sığorta haqqında» 18 fevral 1997-ci il tarixli qanunla tənzimlənir[1].

Məqsədli büdcədənkənar vəsaitin toplandığı fondlardan biri **Dövlət yol fondudur**. Bu fondun vəsaiti ümumi istifadədə olan avtomobil yollarının saxlanması, təmiri, yenidən qurulması və çəkilməsi, dövlət bölməsində olan yol xidmət obyektlərinin və yol təsərrüfatının idarə olunması xərclərinin maliyyələşdirilməsinə yönəldilir. Avtomobil yollarının inkişafı və saxlanması ilə bağlı olmayan ehtiyaclara bu vəsaitin xərclənməsi qanunla qadağan edilir. Yol fondunda toplanan vəsaitin faizi dövlət əhəmiyyətli yolların tikintisi, təmiri və saxlanması işlərinə yönəldilir. Dövlət yol fondu ilə əlaqədar məsələlər «Dövlət Yol Fondu haqqında» 16 fevral 1994-cü il tarixli qanunla tənzimlənirdi[2]. İndi yol vergisi adlanan vergi növü Vergi Məcəlləsi ilə tənzimlənir.

7. Müəssisələr dövlət mülkiyyəti hüququnun obyekti kimi

Daşınmaz əmlakın bir növü olan müəssisə dövlət mülkiyyəti hüququnun obyektləri dairəsinə şamil edilir. Müəssisə dövlət mülkiyyəti hüququnun obyekti olan elə bir əmlak kompleksidir ki, mülkiyyətçi bu kompleksdən sahibkarlıq (təsərrüfat) fəaliyyəti məqsədləri üçün istifadə edir.

Dövlət müəssisəsini dövlət əmlakını idarə etməyə vəkil edilən dövlət orqanları yaradır. Bu müəssisənin malik olduğu əmlak Azərbaycan Respublikasının dövlət mülkiyyəti hesab edilir. Azərbaycan Respublikası mülkiyyətçi kimi ona məxsus olan əmlakı yaratdığı müəssisəyə məhdud əşya hüququ əsasında təhkim edə bilər. Əmlakın təhkim edilməsi iki əsasda həyata keçirilir: tam təsərrüfatçılıq səlahiyyəti ilə dövlət əmlakının təhkim edilməsi; operativ idarəetmə hüququ əsasında dövlət əmlakının təhkim edilməsi. Birinci halda müəssisə ona təhkim edilmiş əmlak üzərində tam təsərrüfatçılıq səlahiyyətlərini həyata keçirərək, göstərilən əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam hüququna malik olur. Müəssisə həmin əmlak üzərində qanuna zidd olmayan istənilən hərəkəti edə bilər. Qanunda və ya mülkiyyətçi ilə müəssisə arasında bağlanmış müqavilədə başqa hal nəzərdə tutulmazsa, mülkiyyət hüquq normaları tam təsərrüfatçılıq səlahiyyətlərinə tətbiq edilir[3].

İkinci halda mülkiyyətçi özünün vəsaiti ilə maliyyələşdirdiyi dövlət müəssisəsinə və digər müəssisəyə operativ idarəetmə hüququ əsasında əmlakı təhkim edir. Bu müəssisə əmlak üzərində mülkiyyət hüquqlarını öz fəaliyyət məqsədlərinə, mülkiyyətçinin tapşırıqlarına və əmlakın təyinatına müvafiq surətdə

[1] bax: AR QK, III cild, s. 395.
[2] bax: AR QK, III cild, s. 200.
[3] Azərbaycan Dövlət Dəmir Yolunun (ADDY-nin) əmlakı dövlət əmlakıdır və ADDY-nin tam təsərrüfatçılıq səlahiyyətindədir. ADDY ona təhkim edilmiş əmlak üzərində qanunla müəyyən edilmiş qaydada və hüdudlarda sahiblik, istifadə etmək və sərəncam vermək səlahiyyətlərini həyata keçirir (bax: Nazirlər Kabinetinin 8 avqust 1995-ci il tarixli, 171 saylı qərarı ilə təsdiq olunmuş «Azərbaycan Dövlət Dəmir Yolunun Əsasnaməsi»).

həyata keçirir. Mülkiyyətçi müəssisəyə təhkim edilmiş əmlakı geri götürüb, onu yaratdığı digər hüquqi şəxslər arasında öz mülahizəsinə görə bölüşdürmək səlahiyyətinə malikdir.

Dövlət müəssisələri istənilən hər hansı təşkilati-hüquqi formada yaradılmış müəssisənin nizamnamə kapitalına əmlak payı qoya bilər. Belə halda həmin əmlak payı dövlət mülkiyyəti hesab edilir.

Dövlət müəssisəsi kreditorların tələblərini öz sərəncamındakı pul vəsaiti ilə ödəyir. Əgər onun sərəncamında vəsait çatışmazsa, onun borc öhdəlikləri əmlakın mülkiyyətçisi tərəfindən ödənilir.

Qeyd etməliyik ki, dövlət mülkiyyəti iki hissəyə ayrılır: bölünmüş dövlət əmlakı; bölünməmiş dövlət əmlakı. **Bölünmüş dövlət əmlakı** odur ki, belə əmlak məhdud əşya hüququ əsasında dövlət hüquqi şəxslərinə təhkim edilir. Məhdud əşya hüququ dedikdə, tam təsərrüfatçılıq səlahiyyətləri və operativ idarəetmə hüququ başa düşülür. Bölünmüş dövlət əmlakı dövlət hüquqi şəxslərinin mülki dövriyyədə iştirakı üçün baza rolunu oynayır və onların əmlak müstəqilliyinin əsası hesab olunur. Bununla bərabər, bu cür hüquqi şəxslər öz əmlakı ilə onları təsis edən mülkiyyətçinin — dövlətin öhdəliklərinə görə məsuliyyət daşımır. Dövlət borclarının ödənilməsi də bölünmüş dövlət əmlakı hesabına təmin edilə bilməz.

Bölünməmiş dövlət əmlakı odur ki, belə əmlak dövlət müəssisə və idarələrinə təhkim edilmir və dövlət xəzinəsini təşkil edir. Həmin əmlaka mülkiyyətçi olan dövlətin öhdəliklərinə görə kreditorlar tələb irəli sürə bilərlər. Başqa sözlə desək, dövlətin borcları üçün bölünməmiş dövlət əmlakına ödəmələr yönəldilə bilər.

8. Xaricdə yerləşən dövlət əmlakının hüquqi rejimi

Azərbaycan Respublikası ilə xarici dövlətlər arasında iqtisadi-ticarət münasibətləri günü-gündən inkişaf edir. Bu münasibətlərin inkişafı Azərbaycan Respublikasının xaricdəki əmlakının həcm etibarilə çəkisinin artmasını şərtləndirir. Əcnəbi dövlətlərin ərazisində Azərbaycan dövlətinə məxsus olan əmlak **xaricdəki dövlət əmlakı kateqoriyası ilə** əhatə olunur.

Xaricdəki dövlət əmlakı kateqoriyası həm xüsusi çəkisinə, həm də əmələ gəlmə əsaslarına görə müxtəlifdir. Belə ki, əcnəbi dövlət ərazisində dövlət mülkiyyəti tərkibinə daxil edilən müxtəlif əmlak növləri ilə rastlaşmaq olar. Belə əmlak növlərinə aiddir: bu və ya digər hala görə xarici dövlət ərazisində olan dövlət əmlakı; diplomatik nümayəndəliklərinin və digər dövlət orqanlarının əmlakı; Milli Bankın və Beynəlxalq Bankın əmanətləri; eksporta gedən mallar; müvəqqəti olaraq xaricdəki gəmi və təyyarələr; sərgidə nümayiş etdirilən mallar və s.

Xaricdəki dövlət əmlakı xüsusi hüquqi rejimə malikdir. Bu əmlakın hüquqi statusu onunla şərtlənir ki, o, **immunitetə malikdir, yəni xaricdəki dövlət əmlakı toxunulmazdır**. Xaricdəki dövlət əmlakının immuniteti həmin əmlakın yerləşdiyi və olduğu dövlətin ərazisində xarici dövlət tərəfindən edilən hər hansı bir məcburi tədbirin obyekti ola bilməməsini ifadə edir. Mülkiyyətin və ya əmlakın immuniteti dövlətin immuniteti ilə sıx surətdə bağlıdır. Belə ki, dövlət mülkiyyətinin immuniteti dövlət immunitetinin müstəqil əhəmiyyətə malik olan

elementlərindən biri sayılır[1].

Dövlətin mülkiyyəti toxunulmazdır. Bu, onu ifadə edir ki, mülkiyyətçinin, yəni dövlətin razılığı olmadan dövlət əmlakı məcburi olaraq özgəninkiləşdirilə bilməz; onun barəsində həbs qoymaq, sekvestr və məcburi xarakterli başqa tədbirlər tətbiq etmək olmaz; xarici dövlət ərazisində onu zorla saxlamaq olmaz; həmin əmlak başqa dövlət, onun orqanları və ya vətəndaşları tərəfindən götürülə bilməz; dövlət mülkiyyətinə daxil olan əmlak həm məhkəmə, həm də inzibati xarakterli tədbirin obyekti ola bilməz.

Beləliklə, dövlət mülkiyyətinin immuniteti aşağıdakı müddəaları əhatə edir: birincisi, dövlətin razılığı olmadan onun **mülkiyyətinə bilavasitə iddia vermək olmaz** (ingilis-amerikan hüququnda bu cür iddiaya «im rem» deyilir); ikincisi, dövlətə qarşı irəli sürülən hər hansı bir iddianı təmin etmək məqsədilə onun **mülkiyyətinə həbs qoymaq olmaz**; üçüncüsü, dövlətin mülkiyyəti barədə qəbul edilmiş **məhkəmə qərarını məcburi olaraq icra etmək olmaz**.

Dövlət mülkiyyətinin immuniteti **dövlət aktı doktrinası** ilə sıx surətdə bağlıdır. Bu doktrina dövlətin suverenliyinə əsaslanır. Dövlətin suverenliyi prinsipi isə beynəlxalq hüququn əsas prinsiplərindən biridir. Odur ki, dövlət aktı doktrinası beynəlxalq hüququn doktrinasıdır. Həmin doktrinanın mahiyyəti isə ondan ibarətdir ki, bu doktrina hər hansı bir dövlətin məhkəməsinin başqa bir dövlətin aktının qanuni olub-olmamasını müzakirə etməsini və onun etibarsız sayılması barədə qərar çıxarmasını yasaqlayır. Bu akt uzun müddətdir ki, bir çox ölkələrin təcrübəsində, xüsusən Böyük Britaniya və ABŞ-ın məhkəmə təcrübəsində geniş surətdə tətbiq edilir[2].

İngilis alimi Daysi mülkiyyətin immunitetində iki halı fərqləndirir. Birinci halda xarici dövlətin mülkiyyəti dövlət nümayəndəsinin sərəncamında olur. Belə halda həmin nümayəndə məhkəmə immuniteti hüququndan istifadə edir. Göstərilən halda verilən iddia dövlətin suverenliyinə qarşı yönəlir: ikinci halda isə dövlət mülkiyyəti üçüncü şəxsin sərəncamında olur ki, o, məhkəmə immunitetindən istifadə etmir. Belə şəxsə qarşı iddia vermək olar.

§ 4. Dövlət mülkiyyəti hüququnun məzmunu

1. Dövlət mülkiyyəti hüququ subyektiv hüquq kimi

Subyektiv mənada dövlət mülkiyyəti hüququ subyektiv hüquq kimi çıxış edir. Bu baxımdan mülkiyyət hüququnun bir növü olan dövlət mülkiyyəti hüququ[1] mütləq hüquq münasibətinin elementi (tərkib hissəsi) hesab edilir[2]. Subyektiv hüquq olan dövlət mülkiyyəti hüququ müəyyən məzmuna malikdir. Bu, mülkiyyətçi kimi çıxış edən dövlətin öz mülkiyyətində olan əmlak barəsində həyata keçirdiyi, əsasən, üç səlahiyyətdən ibarətdir: əmlaka sahiblik səlahiyyəti; əmlakdan istifadə səlahiyyəti; əmlakın üzərində sərəncam səlahiyyəti.

Subyektiv mülki hüquq kimi dövlət mülkiyyəti hüququnun məzmununu təşkil edən göstərilən **səlahiyyətlər dövlətin (dövlət əmlakının hüquqi mülkiyyətçisinin) simasında xalqa (dövlət əmlakının faktiki mülkiyyətçisinə)** məxsusdur. Bu, dövlət mülkiyyət hüquq münasibətinin subyekt tərkibinin birinci xüsusiyyətidir. İkinci xüsusiyyət ondan ibarətdir ki, **xalq cəmiyyət üzvləri kimi dövlət mülkiyyət hüquq münasibətində borclu şəxs («hamı və hər kəs») kimi çıxış edir**. Onun vəzifəsi dövlət mülkiyyət hüququnun həyata keçirilməsinə mane olmaqdan çəkinməkdən, dövlət mülkiyyətinə qəsd etməməkdən ibarətdir.

Subyektiv hüquq kimi mülkiyyət hüququnun ümumi anlayışı barədə müddəalar tamamilə subyektiv mənada dövlət mülkiyyəti hüququna şamil edilir. Başqa sözlə desək, hüquqi və fiziki şəxslərin mülkiyyət hüququnda olduğu kimi, subyektiv mənada dövlət mülkiyyəti hüququnun məzmunu üç səlahiyyəti özündə birləşdirir.

Hüquq ədəbiyyatında subyektiv hüquq kimi dövlət mülkiyyəti hüququnun məzmununa üçlük (sahiblik, istifadə və sərəncam) səlahiyyətindən əlavə, digər səlahiyyətlərin də daxil edilməsi barədə fikir söylənilir. Məsələn, müəlliflərdən Q.A.Aksenenok, L.İ.Dembo və b. dövlətin üçlü səlahiyyətindən savayı, həm də idarəetmə və nəzarət kimi əlavə səlahiyyətləri də həyata keçirməsini göstərirlər[3]. Bizim fikrimizcə, idarə və nəzarət kimi əlavə səlahiyyətlərin dövlət mülkiyyəti hüququnun məzmununa aid edilməsinə bir o qədər də əsas yoxdur. Göstərilən səlahiyyətlər bu və ya digər dərəcədə üçlü səlahiyyət ilə əhatə olunduğuna görə həmin səlahiyyətlərin müstəqil olaraq ayrılmasını lazım bilmirik. 60-cı illərdə bu mövqe hüquq ədəbiyyatında bəzi müəlliflər tərəfindən əsaslandırılmışdır[4]. Qeyd etməliyik ki, üçlü səlahiyyət dövlət mülkiyyət hüququnun məzmununu (həcmini) tam ifadə edir və onlar mülkiyyətçinin (dövlətin) əmlak barəsində istənilən hərəkət etmək imkanını əhatə edir. Buna görə də dövlət mülkiyyət hüququnun məzmununa uçot, nəzarət və idarəetmə kimi müstəqil səlahiyyətlərin daxil olunmasını təklif edən A.M.Turubiner kimi müəl-

---

[1] Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. Bakı, 2007, s. 325.

[2] Dövlət aktı doktrinasının Böyük Britaniya məhkəməsində tətbiq edilməsinə misal kimi 22 may 1922-ci ildə Ali Məhkəmənin «Lüter Seqora qarşı» adlı işə baxmasını göstərmək olar. 1920-ci ilin avqustunda Rusiya Xarici Ticarət Xalq Komissarlığı «Seqor» adlı ingilis firmasına partiyalarla fənər satır. Bu fənər «Lüter» adlı səhmdar cəmiyyətinə məxsus idi. Sovet hökuməti bu fənərləri milliləşdirmişdi. Milliləşdirilmiş həmin fənərləri İngiltərəyə xarici ticarət komissarı L.B.Krasinin rəhbərlik etdiyi sovet ticarət nümayəndə heyəti gətirmişdi. Fənərlərin keçmiş mülkiyyətçisi fənərlərin satıldığı «Seqor» firmasına əmlakın geri qaytarılması barədə iddia verir. Böyük Britaniya məhkəməsi iddianı rədd edir. Hakim Skreton göstərir ki, əgər L.B.Krasin sovet hökuməti adından mal gətirir və onun hökumətə məxsusluğunu bəyan edirsə, heç bir Böyük Britaniya məhkəməsi bunu yoxlamağa haqlı deyildir.

[1] Müəlliflərdən bəziləri belə hesab edirlər ki, mülkiyyət hüququ öz subyektlərinə eyni hüquqi imkanlar verir. Buna görə də mülkiyyətin müxtəlif formalara, habelə müxtəlif növlərə bölünməsini şərtləndirən əsaslar yox olub gedir. Onların fikrincə, mülkiyyət hüququnun ayrı-ayrı obyektlərini onların hüquqi rejiminə görə bir-birindən fərqləndirmək lazımdır (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 556).

[2] Mülki hüquq (o cümlədən mütləq hüquq) münasibəti quruluşca dörd elementdən ibarətdir: subyekt tərkibindən; subyektiv hüquqdan; hüquqi vəzifədən; obyektdən. Subyektiv hüquq və vəzifə mülki hüquq münasibətlərinin məzmununu təşkil edir.

[3] *Г.А.Аксененок.* Право государственной собственности на землю в СССР. М., 1960, с. 216; *Л.И.Дембо.* Основные проблемы советского водного законодательства. Л., 1948, с. 67.

[4] *С.М.Корнеев.* Право государственной социалистической собственности. М., 1964, с. 122.

liflərin mövqeyi həqiqətdən uzaqdır[1].

Sovet hüquq ədəbiyyatında bəzi müəlliflər dövlət mülkiyyəti hüququnun məzmununun hakimiyyət xarakterinə malik olması barədə fikir irəli sürürdülər[2]. Bu keyfiyyət bazar münasibətlərinə əsaslanan iqtisadi inkişaf dövründə dövlət mülkiyyəti üçün bir o qədər də səciyyəvi hal deyildir. Dövlət mülkiyyətinin hakimiyyət xarakterinə malik olması, əsasən, onun həyata keçirilmə üsullarında ifadə edilir. Buna görə də dövlət mülkiyyətinin hakimiyyət xarakteri dəyişməsi indiki dövrdə də saxlanılır; mülkiyyətçi kimi dövlət hakimiyyət səlahiyyətindən (funksiyasından) məhrum edilmir. Bununla bərabər, mülki hüquqla tənzimlənən münasibətlərdə dövlət bu münasibətlərin digər iştirakçıları olan vətəndaş və hüquqi şəxslərlə eyni və bərabər əsaslarla çıxış edir. Ona görə də dövlət mülkiyyəti üçün xarakterik olan hakimiyyət kimi xüsusiyyət dövlət mülkiyyətinin realizə edilməsi ilə bağlı olan mülki hüquq münasibətlərinə heç bir təsir göstərmir. Bu, onunla şərtlənir ki, mülkiyyətin heç bir növünə üstünlük verilmir (Konstitusiyanın 29-cu maddəsinin 2-ci hissəsi). Başqa sözlə desək, bütün mülkiyyətçilərin hüquqları eyni və bərabər qaydada müdafiə edilir (MM-in 153-cü maddəsinin 4-cü bəndi). Hakimiyyət səlahiyyətinə malik olan **dövlət mülki hüquq münasibətlərinə, o cümlədən mülkiyyət hüquq münasibətlərinə girdikdə, bu səlahiyyətdən istifadə etmir;** dövlət həmin münasibətlərdə iştirak etdikdə öz hakimiyyət funksiyasını həyata keçirmir; o özü bundan könüllü surətdə istifadə etmir.

2. Üçlü səlahiyyət

Dövlətə mülkiyyət hüququnun subyekti kimi mülkiyyət hüququnun məzmununu təşkil edən səlahiyyətlər — üçlü səlahiyyət (sahiblik, istifadə və sərəncam səlahiyyətləri) məxsusdur. Bu səlahiyyətlərin həyata keçirilmə formaları müxtəlifdir. Dövlətin mülkiyyətçi kimi özünə məxsus olan əmlaka öz mülahizəsinə görə istədiyi kimi sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermək hüququ vardır. O, mülkiyyətində olan öz əmlakı barəsində cəmiyyətin mənafeyi naminə, ümumi əhəmiyyətli işlər üçün istənilən hərəkətlər etmək ixtiyarına malikdir.

Dövlətin sahiblik səlahiyyəti onu ifadə edir ki, suveren hakimiyyət daşıyıcısı olan dövlət öz qarşısında duran vəzifələri həyata keçirmək üçün lazım olan maddi nemətlərə malikdir. Dövlət özünə məxsus olan əmlakı tam təsərrüfatçılıq səlahiyyəti və ya operativ idarəetmə hüququ əsasında müəssisəyə verə bilər. Belə halda dövlət əmlaka mülkiyyət hüququnu özündə saxlayır. Dövlət bu cür məqamda yenə də əmlakın mülkiyyətçisi olmaqda davam edir. Çox vaxt dövlət özünə məxsus olan əmlakı müvəqqəti və ya müddətsiz istifadə üçün müxtəlif təşkilatlara və ya vətəndaşlara verir. Göstərilən hallarda da dövlət sahiblik səlahiyyətini özündə saxlayır.

Dövlətin sahiblik səlahiyyəti dövlət əmlakının uçota götürülməsi və qorunması imkanı ilə sıx surətdə bağlıdır. Daşınmaz dövlət əmlakının qeydiyyatını aparmaq üçün dövlət əmlakının registri yaradılmışdır[1].

Dövlətin istifadə səlahiyyəti onu ifadə edir ki, dövlət əmlakdan fayda əldə edir, qazanc götürür, əmlakı istismar edir, ictimai ehtiyacları cəmiyyətin mənafeyi üçün ödəyir. Bununla o, vətəndaşların layiqli həyat səviyyəsini və azad inkişafını təmin edir. Dövlət istifadə hüququnu özünün orqanları vasitəsilə həyata keçirir. Dövlət hakimiyyəti orqanları əmlakdan ümumi istifadə qaydalarını və onun məqsədli təyinatını müəyyən edir. Dövlət əmlakının müəssisələrə, təşkilatlara və idarələrə verilməsi istifadə səlahiyyətinin həyata keçirilməsinin hüquqi formasıdır. Bu forma əsasında əmlakdan istifadə səlahiyyətini tətbiq etməklə dövlət bütün xalqın və cəmiyyətin ümumi mənafeyi üçün maksimum dərəcədə fayda götürür və onların maddi ehtiyaclarını təmin edir.

Mülkiyyətçi kimi **dövlətin malik olduğu sərəncam səlahiyyəti** vacib və mühüm rola malikdir. Bu səlahiyyət dövlətin özünün mülkiyyətində olan əmlakın hüquqi müqəddəratını və aqibətini təyin etmək imkanını ifadə edir. Hüquq ədəbiyyatında belə bir fikir irəli sürülür ki, dövlət tərəfindən ümumxalq sərvətinə sahiblik və ondan istifadə, əmlakın bölüşdürülməsi qaydalarının təyin edilməsi, habelə dövlət mülkiyyətinin idarə olunmasının ən münasib və əlverişli formalarının müəyyənləşdirilməsi dövlətin sərəncam səlahiyyətini ifadə edir[2].

Dövlətin sərəncam səlahiyyəti onun orqanları vasitəsilə həyata keçirilir. Bu orqanlar **aktlar qəbul etməklə** dövlət əmlakının müxtəlif kateqoriya subyektlərə verilməsini təmin edir. Deməli, qəbul edilən aktlar dövlətin sərəncam səlahiyyətinin həyata keçirilməsinin bir formasıdır. Sərəncam səlahiyyətinin gerçəkləşdirilməsinin ikinci forması **dövlətin bağladığı mülki-hüquqi xarakterli əqdlərdir**. Məsələn, daşınmaz dövlət əmlakını icarəyə verilməsinə dair bağlanmış icarə müqaviləsi əsasında dövlət əmlakı müxtəlif şəxslərin istifadəsinə keçir. Belə halda dövlətin adından daşınmaz dövlət əmlakının icarəyə vermə səlahiyyəti İqtisadi İnkişaf Nazirliyi tərəfindən həyata keçirilir. Dövlət xarici şəxslərlə xarici ticarət müqaviləsi bağlayır. Bunun nəticəsində dövlət əmlakı satılır və onların mülkiyyətinə keçir.

Beləliklə, dövlət mülkiyyəti hüququnun məzmununu təşkil edən üçlü səlahiyyətə ümumi xarakteristika verərək, onu göstərmək olar ki, mülkiyyətçi kimi dövlət özünə məxsus olan əmlakı barəsində qanuna zidd olmayan istənilən hərəkətləri etmək ixtiyarına malikdir. Dövlət üçlü səlahiyyət həyata keçirməklə əmlakdan təsərrüfat, sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş başqa fəaliyyət üçün istifadə edə bilər. Bununla bərabər, dövlət əmlak barəsində üçlü səlahiyyət həyata keçirərkən qanunun tələblərinə ciddi surətdə əməl etməyə, vətəndaşların və hüquqi şəxslərin hüquqlarını və qanunla qorunan mənafelərini pozmamağa borcludur.

---

[1] *Турубинер А.М.* Право государственной собственности на землю в Советском Союзе. М., 1958, с. 140.

[2] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1969, с. 315.

[1] bax: prezidentin «Dövlət əmlakının registrinin yaradılması haqqında» 20 iyun 1998-ci il tarixli fərmanı (AR QK, V cild, s. 502).

[2] Советское гражданское право. Учебник. Часть 1. М., 1986, с. 292.

§ 5. Dövlət mülkiyyəti hüququnun əmələ gəlmə əsasları. Dövlət mülkiyyəti hüququnun xitamı

1. Dövlət mülkiyyəti hüququnun əmələ gəlmə əsasları

Dövlət mülkiyyəti hüququnun əmələ gəlməsini şərtləndirən üsulları iki qrupa bölmək olar: ümumi mülki üsullar; xüsusi üsullar. Əldə edilməsi mülki hüququn bütün subyektlərinə müəssər olan üsullara mülkiyyət hüququnun əldə edilməsinin **ümumi mülki üsulları** deyilir. Belə üsulla həm vətəndaşlar, həm hüquqi şəxslər, həm bələdiyyələr, həm də dövlət əmlak üzərində mülkiyyət hüququ qazanır və mülkiyyətçi olurlar.

Xüsusi üsul odur ki, bu üsulla yalnız dövlət əmlak üzərində mülkiyyət hüququ qazanır. Mülki hüququn dövlətdən savayı, digər subyektlərinin belə üsulla mülkiyyət hüququ əldə etməsi istisna edilir. Xüsusi üsul xüsusi mülkiyyət hüquq münasibətləri üçün səciyyəvi deyildir. Onlara şamil edilir: milliləşdirmə; həcz (rekvizisiya); müsadirə; vergi və digər məcburi ödənişlər (rüsumlar, yığımlar və s.); vərəsəsi olmayan miras əmlakın vərəsəlik qaydasında keçməsi. Dövlət mülkiyyəti hüququnun əldə edilməsinin xüsusi üsulları da öz növbəsində iki növə bölünür (hüquqi varislik əlamətinə görə); ilkin üsullar; törəmə üsullar.

Azərbaycan Respublikasının **milliləşdirmə** terminini işlədən ilk qanunu «Xarici investisiyanın qorunması haqqında» 15 yanvar 1992-ci il tarixli qanun hesab edilir[1]. Qanunun 11-ci və 12-ci maddələri milliləşdirmə haqqında qaydalar müəyyən edir. Xalq və dövlət mənafelərinə zərər vuran müstəsna hallarda, Azərbaycan Respublikasında xarici investisiya milliləşdirilir. Milliləşdirmə parlamentin qəbul etdiyi qərar əsasında həyata keçirilir. Belə tədbir görüldükdə, xarici investora təxirə salınmadan **müqabil və səmərəli kompensasiya** ödənilir. Kompensasiya investisiyanın milliləşdirmə haqqında qərarın qəbul olunduğu vaxtdakı real dəyərinə uyğun olmalıdır. Kompensasiya barədə mübahisələr yarandıqda, həmin mübahisələr öz səlahiyyətləri daxilində müvafiq olaraq Ali Məhkəmədə, İqtisad Məhkəməsində, habelə tərəflərin sazişi və ya Azərbaycan Respublikasının beynəlxalq müqaviləsi ilə nəzərdə tutulmuş hallarda münsiflər məhkəməsində həll olunur («Xarici investisiyanın qorunması haqqında» qanunun 12-ci maddəsi). Beləliklə, qanun xarici investisiya barəsində milliləşdirmənin yalnız investora müəyyən kompensasiya verilməsi şərtilə həyata keçirilməsi qaydasını müəyyən edir. Bununla bərabər, milliləşdirmə əvəzsiz olaraq ekspropriasiya formasında həyata keçirilə bilər. **Milliləşdirmənin ekspropriasiya forması** dedikdə, cəmiyyətdə bir sinfin (ictimai qrupun) digər sinfin (ictimai qrupun) mülkiyyətini zorla əlindən alması başa düşülür. Bu forma bəzi ölkələrin qanunvericiliyində, məsələn, İsveçrə qanunvericiliyində nəzərdə tutulmuşdur[2]. İsveçrə MM-ə görə, ekspropriasiya dedikdə, ictimai mənafe üçün əmlakın məcburi olaraq özgəninkiləşdirilməsi başa düşülür.

Əvvəllərdə (7-ci fəslin 7-ci paraqrafının 11-ci yarımbaşlığında) qeyd etdiyimiz kimi, milliləşdirmə dövlət mülkiyyət hüququnun əldə olunma üsulu kimi Azərbaycan Respublikasının MM-də də nəzərdə tutulur. Belə ki, mülkiyyət hüququna xitam verən Azərbaycan Respublikası qanunu qəbul edildikdə mülkiyyətçi öz mülkiyyət hüququnu itirir, dövlət isə mülkiyyət hüququ əldə edir (MM-in 210-cu maddəsi). «Milliləşdirmə» termini işlədilməsinə baxmayaraq, burada söhbət məhz dövlət mülkiyyət hüququnun əldə olunmasının milliləşdirmə üsulundan gedir.

Həcz (rekvizisiya) məcburi tədbir kimi hələ «Dövlət müstəqilliyi haqqında» Konstitusiya aktında (18 oktyabr 1991-ci il tarixli) nəzərdə tutulmuşdur. Bu aktın 22-ci maddəsində qanunda nəzərdə tutulmuş hallarda xüsusi və kollektiv mülkiyyətin zərərin əvəzinin ödənilməsi şərtilə Azərbaycan Respublikasının xeyrinə özgəninkiləşdirilə bilməsi haqqında qayda müəyyən edilir[1]. «Xarici investisiyanın qorunması haqqında» qanuna görə, təbii fəlakət, qəza, epidemiya, epizootiya və fövqəladə xarakter daşıyan başqa hallarda xarici investisiya rekvizisiya edilir[2]. Bu barədə qərarı Nazirlər Kabineti çıxarır. Rekvizisiya tədbirləri görüldükdə, Azərbaycan dövləti xarici investora təxirə salınmadan müqabil və səmərəli kompensasiya ödəyir. Kompensasiya xarici valyuta ilə verilir. Əgər zəruri olduqda, investorun arzusu ilə kompensasiya onun yaşadığı ölkənin və ya digər xarici ölkələrin bankına köçürülə bilər. Rekvizisiya MM-də də nəzərdə tutulmuşdur (209-cu maddə).

Dövlət mülkiyyəti hüququnun əldə edilməsi üsullarından biri də **müsadirədir**. Müsadirə cəza tədbiridir. Lakin əmlakın tam müsadirəsinə yol verilmir. Hələ «Dövlət müstəqilliyi haqqında» Konstitusiya aktı daşınar və daşınmaz əmlakın tam və bütövlükdə müsadirə edilə bilməsini istisna edir (22-ci maddə). Konstitusiya bu qaydanı daha da möhkəmləndirmişdir. Müsadirə MM ilə də tənzimlənir (212-ci maddə).

Əmlakı qeyri-qanuni olaraq rekvizisiya və müsadirə edilmiş şəxs ona dəymiş maddi (əmlak) zərərin əvəzinin ödənilməsini məhkəmə qaydasında tələb etmək hüququna malikdir. Bunun üçün həmin şəxs məhkəməyə iddia ərizəsi ilə müraciət edir. İddia qanunsuz həcz və müsadirə haqqında qərar qəbul edən dövlət orqanına və bu orqanların vəzifəli şəxslərinə verilir. Zərər Azərbaycan dövlətinin xəzinəsi hesabına tam həcmdə vəzifəli şəxslərin təqsirindən asılı olmayaraq, ödənilir (MM-in 1101-ci maddəsi).

Müsadirə edilmiş əmlakın geri qaytarılması «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi haqqında» qanunla müəyyən edilir[3]. Məhkəmələr tərəfindən müsadirə edilmiş və alınmış yaşayış evləri amnistiya qaydasında 6 noyabr 1991-ci il tarixli qanunla əvəzsiz olaraq sahiblərinə, yaxud onlarla birgə yaşayan ailə üzvlərinə qaytarılır. Nazirlər Kabinetinin qərarı ilə 1930-1940-cı illərdə və 1950-ci illərin əvvəllərində repressiyaya məruz qalmış vətəndaşlara onların müsadirə edilmiş əmlaklarının dəyəri ödənilir[4].

Dövlət mülkiyyəti hüququnun əmələ gəlməsinin digər üsulları da qanunda nəzərdə tutulmuşdur: şəxsin ona məxsus ola bilməyən əmlakı üzərində dövlə-

[1] bax: AR QK, I cild, s. 248.
[2] bax: Основные институты гражданского право зарубежных стран. M., 1999, c. 244.

[1] bax: AR QK, I cild, s. 76.
[2] yenə orada, s. 248.
[3] bax: AR QK, III xüsusi buraxılış, s. 62.
[4] Nazirlər Kabinetinin bu qərarının qüvvədə olması 4 fevral 1993-cü il tarixli başqa bir qərarla müvəqqəti olaraq dayandırılmışdır (bax: AR QK, IV cild, s. 429).

tin mülkiyyət hüququnu əldə etməsi (MM-in 206-cı maddəsi); torpaq sahəsinin alınması ilə əlaqədar olaraq, orada olan daşınmaz əmlak üzərində dövlətin mülkiyyət hüququ əldə etməsi (MM-in 207-ci maddəsi); təsərrüfatsızcasına saxlanan mədəni sərvətlərin dövlət tərəfindən satın alınması yolu ilə mülkiyyət hüququnun əldə edilməsi (MM-in 208-ci maddəsi).

2. Vergilər və digər məcburi ödənişlər dövlət mülkiyyət hüququnun əmələ gəlmə əsası kimi

Vergilər təsərrüfat fəaliyyətinin dövlət tənzimlənməsinin ən vacib və mühüm iqtisadi-hüquqi vasitəsidir. İngilis iqtisadçısı A.Smit «Xalqların sərvəti» adlı əsərində (1770) verginin mahiyyətini açmış, onun təsərrüfat həyatında yerini müəyyənləşdirmiş, habelə verginin yığılmasının əsas prinsiplərini formulə etmişdi. Vergi barədə A.Smitin mövqeyini XIX əsrin A.Vaqner, Nitti və b. iqtisadçı alimləri inkişaf etdirmişlər. A.Smitin fikrincə, vergi dövlət tərəfindən qanun formasında qoyulan elə yükdür ki, həmin qanun verginin ölçüsünü və ödəniş qaydasını nəzərdə tutur. Dövlətin vergi yığmaq hüququ və əhalinin vergini ödəmək vəzifəsi onun cəmiyyətin və ayrı-ayrı şəxslərin mənafeyi naminə mövcud olması və fəaliyyət göstərməsi zərurətindən irəli gəlir. Belə ki, dövlət cəmiyyət tərəfindən ona həvalə edilmiş funksiyaları həyata keçirmək üçün zəruri olan kifayət qədər gəlir mənbəyinə və maddi vəsaitə malik olmur. Belə halda vergi yığılması cəmiyyətin təbii atributuna çevrilir, dövlətin əsas gəlir mənbəyinin və maddi vəsait əldə etməsinin vacib üsulu sayılır.

Vergi dedikdə, əhaliyə məxsus olan əmlakın dövlət tərəfindən məcburi olaraq alınma forması başa düşülür. Cəmiyyətdə o, iki funksiya yerinə yetirir: fiskal funksiyanı; tənzimləmək funksiyasını. Fiskal (fiskal latınca «fiscus» sözündən olub, dövlət xəzinəsi mənasını bildirir) funksiyası dövlət xəzinəsinin mənafeyinə aiddir. Verginin bu funksiyasından istifadə etməklə dövlət, ona həvalə edilmiş vəzifələri və funksiyaları gerçəkləşdirmək üçün zəruri olan maddi bazanın yaradılmasını təmin etmiş olur. İkinci funksiyası ilə vergi iqtisadiyyatı nizama salan vasitə kimi çıxış edir. Bu funksiyanın təsiri nəticəsində sabit iqtisadi yüksəliş təmin edilir.

Verginin alınması ilə əlaqədar yaranan münasibətlər vergi hüququ institutu ilə tənzimlənir. Bu institut hüququn müstəqil sahəsi olan maliyyə hüququnun əsas institutlarından biridir[1]. Bununla bərabər, **vergi və digər məcburi ödənişlər (rüsumlar, yığımlar) dövlətin mülkiyyət hüququ əldə etməsinin xüsusi üsullarından biridir.** Vergilərin növləri müxtəlifdir.

Əsas vergi növlərindən biri əlavə dəyər vergisidir. Bu vergi əsas büdcə gəlirlərindən biri hesab olunur. **Əlavə dəyər vergisi** Azərbaycan Respublikası ərazisində malların istehsalı, işlərin görülməsi, xidmətlərin göstərilməsi və tədavülü prosesində onların dəyərinə əlavənin bir hissəsinin, həmçinin Azərbaycan Respublikası ərazisinə gətirilən və vergi tutulan bütün malların dəyərinin bir hissəsinin büdcəyə tutulması formasıdır. Bu vergi növünün alınma qaydası və məbləği «Əlavə dəyər vergisi haqqında» 31 dekabr 1991-ci il tarixli qanunla müəyyən edilirdi[1]. Hal-hazırda bu vergi növü Vergi Məcəlləsi (XI fəsil, 153-181-ci maddələr) ilə tənzimlənir.

Gəlir vergisi fiziki şəxslərdən (Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərdən) tutulur. Dünya təcrübəsində ən geniş yayılmış vergi növü olan gəlir vergisi böyük büdcə əhəmiyyətinə malikdir. Bu vergi növünün alınma qaydası «Azərbaycan Respublikasında fiziki şəxslərdən gəlir vergisi haqqında» 24 iyun 1992-ci il tarixli qanunla (əlavə və dəyişikliklərlə birlikdə) müəyyən edilirdi[2]. İndi isə gəlir vergisinin alınma qaydası Vergi Məcəlləsi (VIII fəsil, 95-152-ci maddələr) ilə nizama salınır.

Müəssisələrin və təşkilatların mənfəət vergisi büdcə mənbələri üzrə aparıcı yer tutur. Mənfəətdən vergi növünün vergitutma obyekti müəssisənin ümumi mənfəətidir. Hüquqi şəxs statuslu müəssisələr və təşkilatlar, banklar, kredit idarələri və sığorta təşkilatları, xarici investisiyalı müəssisələr, sahibkarlıq fəaliyyətini həyata keçirən beynəlxalq birliklər və təşkilatlar və b. vergi ödəyiciləri hesab edilir. Mənfəət vergisinin alınma qaydası «Müəssisələrin və təşkilatların mənfəət vergisi haqqında» 24 dekabr 1996-cı il tarixli qanunda nəzərdə tutulmuşdu[3]. İndi isə bu məsələ Vergi Məcəlləsi (IX fəsil, 103-106-cı maddələr) ilə tənzimlənir.

Vergi növlərindən biri olan **əmlak vergisinin** məbləği və alınma qaydası «Əmlak vergisi haqqında» 24 mart 1995-ci il tarixli qanunla müəyyən edilirdi[4]. Bu vergi növünün vergitutma obyektləri həm müəssisələrin balansında olan əsas vasitələr, həm də fiziki şəxslərin mülkiyyətində olan bina və nəqliyyat vasitələridir. Vergi ödəyiciləri rolunda hüquqi şəxslər, o cümlədən sığorta təşkilatları, banklar və kredit idarələri, xarici investisiyalı müəssisələr, təsərrüfat fəaliyyəti ilə məşğul olan beynəlxalq birliklər (təşkilatlar) və b. çıxış edə bilər. İndi bu vergi növünün tənzimlənməsində Vergi Məcəlləsinin (XIII fəsil, 196-202-ci maddələr) müəyyən etdiyi qaydalar tətbiq edilir.

Dövlət mülkiyyəti hüququnun əmələ gəlməsini şərtləndirən əsaslardan biri **dövlət rüsumudur**. Dövlət rüsumu dövlət orqanları tərəfindən işlərin görülməsi və xidmətlərin göstərilməsi üçün vətəndaşların, müəssisələrin, idarələrin və təşkilatların verdiyi məcburi xarakterli ödənişdir. Dövlət rüsumunun hesablanması və ödənilməsi qaydası «Dövlət rüsumu haqqında» 24 mart 1995-ci il

[1] Vergi hüququnun maliyyə hüququnun tərkib hissəsi kimi əsas cəhətləri ilə tanış olmaq üçün bax: Финансовое право. Учебник / Под ред. *О.Н.Горбуновой*. М., 1996, с. 185-190; *Е.Ю.Грачева, Н.А.Куфакова, С.Г.Попеляев.* Финансовое право России. М., 1995, с. 49; *А.Н.Козырин.* Налоговое право зарубежных стран. Вопросы теории и практики. М., 1993.

[1] bax: AR QK, I cild, s. 491.

[2] bax: AR QK, I cild, s. 491.

[3] bax: AR QK, III cild, s. 363.

[4] Vergi, rüsum və yığım kimi kateqoriyalar bir-birinə yaxın olan kateqoriyalardır. İcbari surətdə alınmaq, ödənişin məcburiliyi, ödənişin büdcə ilə və ya büdcədənkənar fondla əlaqəsi, habelə ödənişin qeyri-ekvivalentliyi bu kateqoriyaları birləşdirən ümumi cəhətlərdir. Bununla bərabər, onlar arasında mühüm fərqlər var. Belə ki, rüsum və yığım vergidən fərqli olaraq, qismən əvəzlilik xüsusiyyətinə malikdir. Dövlət rüsumu dövlət orqanlarının gördüyü işlərə və göstərdiyi xidmətlərə görə alınır. Lakin rüsum işin və xidmətin qiyməti deyil. Bundan əlavə, rüsum (yığım) almaq həmin dövlət orqanlarının əsas məcburi vəzifəsi deyildir. Rüsum və ya yığım ləğv edilsə də, müvafiq dövlət orqanı öz fəaliyyətini davam etdirəcəkdir. Rüsum və yığım xidmətə və ya işə görə alınsa da, işin (xidmətin) elementi sayılmır. İkinci fərq ondan ibarətdir ki, rüsum və yığım xidmət göstərmək barədə müvafiq dövlət orqanına (idarəsinə) müraciət edən, bu orqanla (idarə ilə) münasibətə girən şəxsdən alınır (bax: Финансовое право. Учебник / Под ред. *О.Н.Горбуновой*. М., 1996, с. 180).

tarixli qanunla müəyyən edilir[1].

Bazarlarda, yarmarkalarda və xüsusi olaraq satış üçün ayrılmış digər yerlərdə malların, məmulatların və kənd təsərrüfatı məhsullarının satışını həyata keçirən fiziki şəxslər üçün **birdəfəlik rüsum** müəyyən edilmişdir. Birdəfəlik rüsumun alınması qaydası və dərəcələri «Birdəfəlik rüsum haqqında» 28 mart 1995-ci il tarixli qanunda nəzərdə tutulmuşdur[2]. Belə rüsumun əlli faizi dövlət büdcəsinə ödənilir, qalan hissəsi isə müvafiq təşkilatın sərəncamında qalır (6-cı maddə).

Büdcəyə ödənilən vergilərdən biri **aksizlərdir** (latınca «accidere» – kəsmək). Aksiz dedikdə, aksizli malların satış qiymətinə daxil edilən vergi başa düşülür. Aksizlərin hesablanması və ödənilməsi qaydası «Aksizlər haqqında» 31 dekabr 1991-ci il tarixli qanunla (əlavə və dəyişikliklərlə) müəyyən edilirdi[3]. İndi bu vergi növü Vergi Məcəlləsi (XII fəsil, 182-195-ci maddələr) ilə tənzimlənir.

3. Vərəsəsi olmayan əmlakın dövlət mülkiyyətinə keçməsi

Dövlətin mülkiyyət hüququ əldə etməsinin üsullarından biri vərəsəlikdir. Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə, **vərəsəsi olmayan əmlak dövlət xəzinəsinə keçir** (MM-in 1165-ci maddəsi). Əgər nə qanun üzrə, nə də vəsiyyət üzrə vərəsə vardırsa və ya vərəsələrdən heç biri mirası qəbul etməmişdirsə, belə miras əmlak **vərəsəsi olmayan əmlak** hesab edilir.

Vərəsəsi olmayan əmlak dövlət mülkiyyətinə keçir və dövlət həmin əmlak üzərində mülkiyyət hüququ qazanır. Bununla bərabər, belə əmlak üzərində mülki hüququn digər subyektlərinin mülkiyyət hüququ əldə etməsi istisna edilmir. Belə ki, əgər miras qoyan şəxs qocalar və əlillər evinin, habelə müalicə, tərbiyə və sosial təminat müəssisələrinin təminatında olmuşdursa, belə halda vərəsəsi olmayan əmlak onların mülkiyyətinə keçir (MM-in 1165-ci maddəsinin 1-ci bəndi).

Vərəsəsi olmayan əmlak əcnəbi dövlətin ərazisində olduqda, bu əmlakın dövlət mülkiyyətinə keçməsi Azərbaycan Respublikasının iştirakçısı olduğu hüquqi yardım barədə müqavilələrdə nəzərdə tutulan qayda ilə müəyyən edilir. Bu müqavilələrə görə, **daşınmaz əmlak üzərində vərəsəlik hüququ bu əmlakın yerləşdiyi dövlətin qanunvericiliyi ilə**, daşınar əmlak üzərində vərəsəlik hüququ isə **miras qoyan şəxsin axırıncı yaşayış yeri olduğu dövlətin qanunu ilə yox, həmin şəxsin vətəndaşı olduğu dövlətin qanunu ilə** müəyyən edilir. Belə təsəvvür yaranır ki, vərəsəsiz daşınmaz əmlak bu əmlakın yerləşdiyi dövlətin mülkiyyətinə keçir. Vərəsəsiz daşınar əmlak üzərində isə o dövlət mülkiyyət hüququ əldə edir ki, miras qoyan həmin dövlətin vətəndaşı olsun[4].

4. Dövlət mülkiyyəti hüququna xitam verilməsi

Dövlət mülkiyyəti hüququna həm ümumi mülki, həm də xüsusi üsullarla xitam verilir.

[1] bax: AR QK, II cild, s. 431.
[2] yenə orada, s. 465,
[3] bax: AR QK, I cild, s. 235.
[4] Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. Bakı. 2007, s. 655.

Dövlət mülkiyyəti hüququna xitam verilməsinin xüsusi üsullarından biri **özəlləşdirmədir**[1]. Dövlət əmlakının özəlləşdirilməsi haqqında qanunda nəzərdə tutulmuş qaydada dövlət öz mülkiyyətində olan əmlakı fiziki və hüquqi şəxslərin mülkiyyətinə verə bilər (MM-in 155-ci maddəsinin 4-cü bəndi).

Özəlləşdirmənin əsas məqsədi aşağıdakılardan ibarətdir: xüsusi mülkiyyət və öz-özünü tənzimləyən bazar iqtisadiyyatı mühitinin yaradılması; xalq təsərrüfatı strukturunun bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yenidən qurulması; iqtisadiyyata investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi; iqtisadi prosesə bütün növ istifadə olunmamış ehtiyatların cəlb edilməsi; əhalinin həyat səviyyəsinin və sosial vəziyyətinin yaxşılaşdırılması. Özəlləşdirmənin göstərilən məqsədləri strateji xarakterə malik olmaqla, siyasi, iqtisadi, fiskal, sosial niyyət güdür[2].

Özəlləşdirmənin siyasi niyyəti onunla şərtlənir ki, bu prosesin nəticəsində bazar münasibətlərinin iqtisadi əsasını təşkil edən geniş xüsusi mülkiyyətçilər təbəqəsi formalaşır. Azərbaycan Respublikasında xüsusi mülkiyyət və sərbəst bazar iqtisadiyyatının, habelə rəqabət qabiliyyətli əmtəə istehsalçılarının yaradılması özəlləşdirmənin **iqtisadi niyyətini** şərtləndirir. Özəlləşdirmədən pul vəsaiti əldə etmək və bu pul vəsaitini dövlət büdcəsinə daxil etmək, sonradan onu müvafiq normativlər üzrə bölüşdürmək **özəlləşdirmənin fiskal niyyətini** ifadə edir. Dövlət əmlakını bölüşdürərkən əhalinin mənafeyini gözləmək, onların sosial vəziyyətini və həyat səviyyəsini yaxşılaşdırmaq **özəlləşdirmənin sosial funksiyasını** təşkil edir.

Qanun bir çox obyektlərin özəlləşdirilməsini qadağan edir: yerin təkini; meşə fondunu; su ehtiyatlarını; hava məkanını; Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus olan sektorunun sularını və resurslarını; nadir mədəniyyət və təbiət abidələrini, tarix, mədəniyyət, elm və texnika obyektlərini; büdcə vəsaitlərini və s[3].

Bəzi obyektlərin yalnız prezidentin qərarı ilə özəlləşdirilməsi nəzərdə tutulur. Belə obyektlərə ümummilli əhəmiyyətə malik olan qaz təsərrüfatı müəssisələrini və obyektlərini, kimya, neft-kimya və biokimya müəssisələrini, dövlət sanatoriya-kurort və mehmanxana təsərrüfatı müəssisə və obyektlərini və b. misal göstərmək olar[4]. Obyektlərin bir qismi isə Nazirlər Kabinetinin qərarı ilə özəlləşdirilir: neft və neft məhsullarının təchizatı və satışı obyektləri; ət kombinatları və balıq-konserv zavodları; xalq bədii sənət müəssisələri və s[5]. Obyektlərin bir hissəsinin isə İqtisadi İnkişaf Nazirliyinin qərarı ilə özəlləşdirilməsi nəzərdə tutulur: hamamlar və camaşırxanalar; mərasim xidməti göstərən müəssisələr və s[6]. Bu nazirlik qərar qəbul edərkən onun yerli icra hakimiyyəti or-

[1] Dövlət mülkiyyətində olan əmlakın özəlləşdirilməsinin təşkilati-iqtisadi və hüquqi əsasları «Dövlət əmlakının özəlləşdirilməsi haqqında» 16 may 2000-ci il tarixli qanunla müəyyən edilir // AR QK, III xüsusi buraxılış, s. 515.
[2] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 563.
[3] Belə obyektlərin dairəsi «1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı»na edilmiş 1 saylı əlavədə müəyyən edilmişdir.
[4] Bu obyektlərin dairəsi Dövlət Proqramına edilmiş 1 saylı əlavədə nəzərdə tutulmuşdur.
[5] 1 saylı əlavə belə obyektlərin dairəsini müəyyən edir.
[6] Belə obyektlərin və müəssisələrin dairəsi Dövlət Proqramına 1 saylı əlavədə müəyyən edilmişdir.

qanının razılığını alması tələb olunur.

Qanunda özəlləşdirmənin **müxtəlif forma və üsullarla** həyata keçirilməsi nəzərdə tutulur[1]. Bu üsullardan biri **hərraclar vasitəsilə özəlləşdirmədir**. Göstərilən üsulun mahiyyəti ondan ibarətdir ki, bu üsulla dövlət müəssisə və obyektlərinin müəyyən hissəsi hərrac vasitəsilə maksimum qiymət təklif edən hər hansı özəlləşdirmə subyektinə (alıcıya) birdəfəlik olaraq satılır. Söhbət hərraclar vasitəsilə dövlət əmlakının satışından gedir. Bunun nəticəsində əmlak özəlləşdirmədə alıcı kimi tanınan şəxslərin mülkiyyətinə özgəninkiləşdirilir. Özü də alıcı tərəfindən özəlləşdirilən əmlak barəsində hər hansı bir şərtin yerinə yetirilməsi tələb olunmur. Göstərilən üsulla özəlləşdirmə zamanı əmlak üzərində mülkiyyət hüququnu o alıcı şəxs əldə edir ki, həmin şəxs **hərracın gedişində maksimum qiymət təklif etsin**. Alıcı əmlakın hərrac dəyərini pulla ödəyir. Həm fiziki şəxslər, həm də hüquqi şəxslər alıcı qismində çıxış edə bilərlər. Hərracda özəlləşdirilən dövlət əmlakının satıcısı kimi İqtisadi İnkişaf Nazirliyi iştirak edir.

Dövlət əmlakının hərraclar vasitəsilə satışının keçirilməsi qaydaları, alıcıların hərracda iştirak etmələri və hesablaşma şərtləri, qaliblərin müəyyənləşdirilməsi və özəlləşdirilən əmlaka mülkiyyət hüququnun rəsmiləşdirilməsi qaydaları müvafiq hüquqi aktla (Qaydalarla) nizama salınır[2].

Özəlləşdirmə üsullarından biri **ixtisaslaşdırılmış çek və pul hərracları vasitəsilə özəlləşdirmədir**. Göstərilən üsulun mahiyyəti ondan ibarətdir ki, bu üsul özəlləşdirmə prosesində yaradılmış səhmdar cəmiyyətlərinin səhmlərinin və ya səhm zərflərinin sifarişlər əsasında satılmasını nəzərdə tutur. Bu zaman həmin səhmlər və ya səhm zərfləri dövlət özəlləşdirmə payları (çekləri) və ya pul müqabilində özgəninkiləşdirilir. Çek və pul hərracları vasitəsilə satışın keçirilməsinin ümumi qaydaları, alıcıların hərraclarda iştirak etməsi özəlləşdirilən əmlaka mülkiyyət hüququnun rəsmiləşdirilməsi və digər məsələlər müvafiq normativ aktla tənzimlənir[3].

Özəlləşdirmənin həyata keçirilməsini təmin edən üsullardan biri dövlət müəssisə və obyektlərinin **investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilməsidir**. Bu üsulla özəlləşdirmədə alıcıdan tələb olunur ki, o, investisiya proqramı təqdim etsin. İnvestisiya müsabiqəsinin qalibi o şəxs hesab olunur ki, o, investisiya proqramının şərtləri daxilində investisiyanın maksimum həcmini və onun səmərəli qoyuluşunu özündə əks etdirən investisiya proqramı təqdim etsin. O, müsabiqə qalibi kimi (alıcı kimi) özəlləşdirilən əmlak üzərində mülkiyyət hüququ əldə edir.

İnvestisiya müsabiqəsinin təşkili və keçirilməsi qaydaları prezidentin 28 sentyabr 1998-ci il tarixli fərmanı ilə təsdiq olunmuş «İnvestisiya müsabiqəsi haqqında Əsasnamə» ilə müəyyən edilir[1]. Bu Əsasnaməyə görə, investisiya müsabiqələri əsasında dövlət müəssisə və obyektlərinin özəlləşdirilməsi haqqında qərarları prezident, Nazirlər Kabineti və İqtisadi İnkişaf Nazirliyi qəbul edir.

İcarəyə verilmiş dövlət əmlakının satışı özəlləşdirmənin həyata keçirilməsinin üsullarından biridir. Bu üsulla özəlləşdirmə tərəflər arasında bağlanmış icarə müqavilələrinin şərtlərindən asılıdır. Onun qaydaları müvafiq hüquqi akt ilə müəyyən edilir[2].

Dövlət müəssisələrinin fərdi layihələr üzrə özəlləşdirilməsi dövlət əmlakının özəlləşdirilməsi üsullarından biridir. Bu üsulla ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edən dövlət müəssisə və obyektləri özəlləşdirilir. Bu zaman həmin müəssisəyə strateji investor cəlb etmək məqsədilə satışa onun səhmlərinin 51%-i və ya daha çox hissəsi çıxarılır. Göstərilən üsulun qaydaları, özəlləşdirilən müəssisələrin siyahısı və digər məsələlər prezident tərəfindən müəyyən edilir.

Fərdi layihələr üzrə özəlləşdirmə zamanı dövlət müəssisəsinin bazasında yaradılmış səhmdar cəmiyyətinin səhmləri tender əsasında pul vəsaitinə strateji investora satılır. Tenderin keçirilməsi məqsədilə İqtisadi İnkişaf Nazirliyi tərəfindən komissiya yaradılır. Buna tender komissiyası deyilir. Həmin komissiya 7 nəfərdən ibarət olur.

Səhmlər tenderin nəticələrinə müvafiq olaraq satılır. Alıcı ilə alqı-satqı müqaviləsi bağlanılır. Bu müqavilədə nəzərdə tutulan məbləğ tam ödənildikdən sonra o, mülkiyyət hüququ əldə edir. Belə məsələlər, ümumiyyətlə, dövlət müəssisələrinin fərdi layihələr üzrə özəlləşdirilməsi qaydaları müvafiq normativ hüquqi aktla müəyyən edilir[3].

Dövlət müəssisələrinin müflis elan olunması yolu ilə satışı üsulu vasitəsilə özəlləşdirmə həyata keçirilə bilər. Söhbət hərrac vasitəsilə satışı mümkün olmayan dövlət müəssisələrinin müflis elan olunaraq özəlləşdirilməsindən gedir. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, dövlət müəssisəsinin beş dəfə hərrac vasitəsilə satışı baş tutmur və ya dövlət müəssisəsinin (obyektinin) özəlləşdirilməsinə hazırlıq mərhələsində onların ödəmə qabiliyyəti olmur (maliyyə-təsərrüfat fəaliyyətinin göstəriciləri qeyri-qənaətbəxş hesab edildiyinə görə). Belə halda həmin müəssisələr prezidentin qərarı ilə və ya Özəlləşdirmə Prosesinə Dövlət Nəzarətini həyata keçirən Dövlət Komissiyasının qərarı ilə müflis elan edilir. Bununla onlar ləğv olunur. Həmin müəssisələrin əmlakı hərrac vasitəsilə satılır. Əldə edilən maliyyə vəsaitinin bir hissəsi növbəlik prinsipi nəzərə alınmaqla kreditorların borclarının ödənilməsinə yönəldilir. Növbəlik prinsipi Mülki Məcəllə ilə müəyyən edilir. Əmlakı əldə edən alıcı ilə alqı-satqı müqaviləsi bağlanılır. O, həmin əmlakın mülkiyyətçisi olur[4].

---

[1] Bu forma və üsullar «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı»nda göstərilmişdir. Bu proqram prezidentin 10 avqust 2000-ci il tarixli fərmanı ilə təsdiq edilmişdir (AR QK, III xüsusi buraxılış, s. 660).

[2] bax: prezidentin 23 dekabr 2000-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Dövlət əmlakının hərraclar vasitəsilə satışı Qaydaları» (AR QK, III xüsusi buraxılış, s. 689).

[3] bax: prezidentin 23 dekabr 2000-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Dövlət əmlakının ixtisaslaşdırılmış çek və pul hərraclarında satışı Qaydaları» (AR QK, III xüsusi buraxılış, s. 692-695).

[1] bax: AR QK, V cild, s. 706.

[2] bax: prezidentin 23 dekabr 2000-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «İcarəyə verilmiş dövlət əmlakının özəlləşdirilməsi haqqında Əsasnamə» (AR QK, III xüsusi buraxılış, s. 686-687).

[3] bax: prezidentin 23 dekabr 2000-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Dövlət müəssisələrinin fərdi layihələr üzrə özəlləşdirilməsi Qaydaları» (AR QK, III xüsusi buraxılış, s. 688-695).

[4] bax: prezidentin 23 dekabr 2000-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Dövlət müəssisələrinin müflis elan olunma yolu ilə özəlləşdirilməsi Qaydaları» (AR QK, III xüsusi buraxılış, s. 695-696).

Özəlləşdirilən dövlət müəssisələrinin əmlakının əmək kollektivi üzvlərinə güzəştli satışı dövlət əmlakının özəlləşdirilməsi üsullarından biridir. Bu üsulun tətbiqi qaydaları müvafiq normativ aktla müəyyən edilir[1]. Həmin üsulun mahiyyəti açıq tipli səhmdar cəmiyyətinə çevrilən dövlət müəssisələrinin səhmlərinin əmək kollektivinə güzəştli satışından ibarətdir. Səhmlərin güzəştli satışı dedikdə, həmin səhmlərin özəlləşdirmə çeklərinə dəyişdirilməsi başa düşülür.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

М.И.Брагинский. Участие советского государства в гражданских правоотношениях. М., 1981.

А.В.Венедиктов. Государственная социалистическая собственность. М. – Л., 1948.

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И.Масляева**. М., 1997 (глава 18).

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова**. М., 1998 (глава 18).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого**, М., 1998 (глава 19).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко**. М., 1998 (глава 16).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой** и др. М., 1998 (глава 14; § 5).

Н.Д.Егоров. Право собственности в системе советского право // Правоведение. 1978. №3.

Н.Д.Егоров. Гражданско-правовое регулирование общественных отношений: единство и дифференциация. Л., 1988.

В.П.Мозолин. Право собственности в Российской Федерации в период перехода к рыночной экономике. М., 1992.

Е.А.Суханов. Лекции о праве собственности. М., 1991.

Е.А.Суханов. Право собственности в гражданском кодексе // Закон. 1995.

В.С.Якушев. О самостоятельности института право государственной социалистической собственности и его государственно-правовой природе//Сб. учен. тр. Свердловского юрид. инс. Вып. 13. 1970.

[1] bax: prezidentin 23 dekabr 2000-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Açıq tipli səhmdar cəmiyyətinə çevrilən dövlət müəssisələrinin əmək kollektivinə güzəştli satışı haqqında Əsasnamə» (AR QK, III xüsusi buraxılış, s. 685-687).

XXI FƏSİL
BƏLƏDİYYƏLƏRİN MÜLKİYYƏT HÜQUQ SUBYEKTLİYİ

§ 1. Bələdiyyələr mülkiyyət hüququnun subyekti kimi

1. Bələdiyyələrin mülkiyyət hüquq subyektliyinin əsas cəhətləri

Azərbaycan Respublikasının yeni mülki qanunvericiliyi bələdiyyələri mülkiyyət hüququnun subyektləri kateqoriyasına aid edir. Dövlət (Azərbaycan Respublikası) ilə, habelə hüquqi və fiziki şəxslərlə bərabər, bələdiyyələr də mülkiyyət hüququnun subyekti hesab edilir. Ona görə ki, onlar mülkiyyət hüquq subyektliyinə malikdir. Bələdiyyələrin mülkiyyət hüquq münasibətlərində iştirak etmək imkanı və qabiliyyəti onların mülkiyyət hüquq subyektliyinin mahiyyətini təşkil edir.

Bələdiyyələrin mülkiyyət hüquq subyektliyi bir neçə xüsusiyyətlə xarakterizə olunur. **Birinci xüsusiyyət** ondan ibarətdir ki, onlar **məhdud (məqsədli) mülkiyyət hüquq subyektliyinə** malikdir. Bu, onunla izah edilir ki, bələdiyyələr seçkili yerli özünüidarə orqanlarıdır. Həmin orqanlar yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir. Yerli əhəmiyyətli məsələlər dedikdə, bələdiyyə əhalisinin həyat fəaliyyətinin bilavasitə təmin edilməsi ilə bağlı olan məsələlər başa düşülür. Bundan əlavə, bələdiyyələr yerli sosial müdafiə və inkişaf proqramlarını (təhsil, səhiyyə, mədəniyyət, yaşayış və qeyri-yaşayış binalarının saxlanılması və istifadə edilməsi, mənzil tikintisi, su təchizatının və kanalizasiya təsərrüfatının təşkili, yerli əhəmiyyətli yolların tikilməsi və saxlanılması və s.), yerli iqtisadi inkişaf proqramlarını, habelə yerli ekoloji proqramları həyata keçirir. Məlum məsələdir ki, yerli əhəmiyyətli məsələləri həll etmək və müvafiq proqramları reallaşdırmaq üçün, habelə qarşısına qoyduğu vəzifələri yerinə yetirmək üçün bələdiyyələr zəruri olan əmlak (maddi) bazasına malik olmalıdır. Bu baza bələdiyyə mülkiyyətini təşkil edir. **Bələdiyyə mülkiyyəti** dedikdə, bələdiyyəyə məxsus olan bütün növ daşınar və daşınmaz əmlak başa düşülür. Beləliklə, bələdiyyələr mülkiyyət hüquq münasibətlərinin iştirakçısına çevrilir. Belə iştirakçılıq isə onların öz xüsusi mənafe və maraqları ilə yox, **bələdiyyə əhalisinin həyat fəaliyyətini bilavasitə təmin etmək məqsədi ilə şərtlənir**. Bu isə bələdiyyələrin mülkiyyət hüquq subyektliyinin mahiyyətini və məqsədli (məhdud) xarakterə malik olmasını şərtləndirir. Bu baxımdan bələdiyyələrin mülkiyyət hüquq subyektliyi dövlətin mülkiyyət hüquq subyektliyi ilə eyni xarakterə malikdir. Belə ki, dövlətin də mülkiyyət hüquq subyektliyi məqsədli xarakterlidir.

Bələdiyyələrin mülkiyyət hüquq subyektliyinin **ikinci xüsusiyyəti** ondan ibarətdir ki, onlar mülkiyyət hüquq münasibətlərində **özlərinin orqanları vasitəsilə çıxış edir**. Başqa sözlə desək, mülkiyyət hüquq münasibətlərində subyekt kimi bələdiyyələri onların orqanları təmsil edir. Bələdiyyələrin səlahiyyətlərini onların orqanları həyata keçirirlər (MM-in 43-cü maddəsinin 4-cü bəndi).

Əsas orqan **bələdiyyə iclasları** hesab olunur. Bələdiyyə iclaslarının səlahiyyəti vardır ki, bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam versin[1]. Bundan əlavə, **bələdiyyənin icra orqanı (icra aparatı)** bələdiyyə mülkiyyətini və bələdiyyənin istifadəsinə verilmiş başqa mülkiyyəti idarə edir. Bu, onun səlahiyyətinə daxil olan məsələdir[2].

Bələdiyyələrin mülkiyyət hüquq subyektliyinin **üçüncü cəhəti** ondan ibarətdir ki, onlar subyekt qismində mülkiyyət hüquq münasibətlərində çıxış edərkən **hakimiyyət funksiyasından (səlahiyyətindən) istifadə etmir**. Belə ki, bələdiyyələr dövlət hakimiyyəti orqanları sisteminə daxil deyildir[3]. Amma buna baxmayaraq, onlar hakimiyyət funksiyasına (səlahiyyətinə) malikdir. Bu funksiya (səlahiyyət) dövlət-siyasi xarakter daşımır.

Bələdiyyələr mülki, o cümlədən mülkiyyət hüquq münasibətlərində subyekt rolunda iştirak edəndə öz hakimiyyət funksiyasını itirmir, sadəcə olaraq, ondan istifadə etmir. Ona görə ki, mülki qanunvericiliyə görə, bələdiyyələr mülki hüquq münasibətlərində eynilə digər subyektlər kimi çıxış edir, yəni o biri subyektlərlə eyni əsaslarla iştirak edir (MM-in 43-cü maddəsinin 4-cü bəndi). Digər tərəfdən, mülki hüquqda subyektlərin hüquq bərabərliyi kimi prinsip əsas prinsiplərdən biri sayılır.

Bələdiyyələrin mülkiyyət hüquq subyektliyinin **dördüncü xüsusiyyəti** ondan ibarətdir ki, onlar bu subyektliyi **ümumi (ictimai) mənafe üçün həyata keçirir**. Bələdiyyə mülkiyyətindən yalnız bələdiyyə vəzifələri üçün istifadə olunа bilər[4]. Bu cəhət mülkiyyət hüquq münasibətlərinin iştirakçısı kimi bələdiyyələrin hüquqi vəziyyətini xarakterizə edir.

2. Bələdiyyə mülkiyyəti

Bizim ölkə qanunvericiliyinin işlətdiyi yeni anlayışlardan biri bələdiyyə mülkiyyəti adlanır. Hələ 1991-ci ildə qəbul olunan mülkiyyət haqqında qanun bələdiyyə mülkiyyətinin hüquqi rejimini, bu mülkiyyətin obyekt tərkibini müəyyənləşdirirdi[5].

Bələdiyyə mülkiyyəti anlayışı sovet mülki hüququna da məlum idi. Belə ki, sovet dövrünün ilk mülki qanunvericilik aktlarında, yəni ilk sovet mülki məcəllələrində (məsələn, 1922-ci il RSFSR MM-də, Az.SSR-in 1923-cü il MM-də və s.) bələdiyyə mülkiyyətinin tənzimlənməsinə, onun rolunun və yerinin müəyyən edilməsinə ayrıca diqqət yetirilirdi. Bu hüquqi sənədlərdə o, dövlət mülkiyyətinin bir növü kimi nəzərdə tutulurdu və buna görə də müstəqil əhəmiyyət kəsb etmirdi. Analoji mövqeyi mülkiyyət haqqında qanun da saxlayırdı. Belə

[1] Konstitusiyanın 144-cü maddəsinin 6-cı hissəsi; Azərbaycan Respublikasının 15 oktyabr 1999-cu il tarixli qanunu ilə təsdiq edilmiş «Bələdiyyənin nümunəvi nizamnaməsi»nin 4-cü hissəsinin 6-cı bəndi // AR QK, III xüsusi buraxılış, s. 218.

[2] «Bələdiyyənin nümunəvi nizamnaməsi»nin 4-cü hissəsi // AR QK, III xüsusi buraxılış, s. 218.

[3] «Bələdiyyələrin statusu haqqında» qanunun 14-cü maddəsinin 4-cü hissəsi // Bələdiyyələr haqqında. Bakı. 1999, s. 215.

[4] «Bələdiyyələrin statusu haqqında» qanunun 33-cü maddəsinin 6-cı bəndi // AR QK, III xüsusi buraxılış.

[5] Qüvvədən düşmüş «Azərbaycan Respublikasında mülkiyyət haqqında» qanunun 11-ci maddəsi // AR QK, I cild, s. 149.

ki, bu qanuna görə, bələdiyyələr dövlət qurumları hesab edildiyi üçün bələdiyyə mülkiyyəti dövlət mülkiyyətinin bir növü sayılırdı. Həmin qanunun 9-cu maddəsində göstərilirdi ki, bələdiyyə mülkiyyəti parlamentin qərarı ilə dövlət mülkiyyətinin bir hissəsinin yerli dövlət hakimiyyəti orqanlarının mülkiyyətinə verilməsindən əmələ gəlir. Amma bizim ölkənin müasir qanunvericiliyi bələdiyyə mülkiyyətini dövlət mülkiyyəti ilə bərabər, **mülkiyyətin müstəqil bir forması kimi təsbit edir**.

Azərbaycan Respublikasının Konstitusiyası bələdiyyə mülkiyyətini mülkiyyətin növlərindən (formalarından) biri kimi nəzərdə tutur[1]. Sonralar bir sıra qanunvericilik aktları mülkiyyətin müstəqil forması kimi bələdiyyə mülkiyyətini qanunvericilik qaydasında daha da möhkəmləndirir və inkişaf etdirir[2]. Yeni Mülki Məcəllə isə bələdiyyələrin müstəqil və asılı olmayan mülkiyyət hüququnu təsbit edir (156-cı maddə). Beləliklə, bələdiyyə mülkiyyəti müstəqil anlayış kimi qanunvericilik qaydasında inkişaf etdirilmişdir.

Bələdiyyə mülkiyyəti **xüsusi mülkiyyətə yox, ümumi (hakimiyyət xarakterli) mülkiyyətə aid edilir**. Bu, onunla izah olunur ki, bələdiyyə mülkiyyətinin subyekti olan bələdiyyələr hakimiyyət səlahiyyətini (funksiyasını) həyata keçirir və buna görə də **ümumi-hüquqi qurum** sayılır. Məhz bu səbəbdən dövlət mülkiyyəti ilə birlikdə bələdiyyə mülkiyyəti ümumi (hakimiyyət xarakterli) mülkiyyətə şamil olunur. Amma, yuxarıda qeyd etdiyimiz kimi, bələdiyyə mülkiyyətini dövlət mülkiyyətinin bir növü hesab etmək olmaz. Çünki bələdiyyə qurumları dövlət qurumları kateqoriyasına aid edilmir. Onlar dövlət orqanları sisteminə daxil olmayan elə seçkili və qeyri-seçkili orqanlardır ki, bələdiyyə tərəfindən yaradılır və yerli əhəmiyyətli məsələləri həll etmək səlahiyyəti ilə təmin olunur. Bu qurumların malik olduğu mülkiyyət bələdiyyə mülkiyyəti adlanır. Belə ki, bələdiyyə qurumları mülkiyyət hüququ əsasında müəyyən əmlaka maiikdir. Bu əmlak bələdiyyə mülkiyyətini təşkil edir.

Bələdiyyə mülkiyyəti iki mənada başa düşülür: iqtisadi kateqoriya kimi bələdiyyə mülkiyyəti; hüquqi kateqoriya kimi bələdiyyə mülkiyyəti. **İqtisadi kateqoriya kimi bələdiyyə mülkiyyəti** dedikdə, bələdiyyələrin malik olduğu öz əmlakına sahibliyi, bu əmlakdan istifadə və onun barəsində sərəncam verməsi ilə bağlı olaraq yaranan münasibət başa düşülür. Bu baxımdan o, **iqtisadi münasibət** kimi çıxış edir və yerli özünüidaretmənin iqtisadi əsası sayılır.

Hüquqi kateqoriya kimi bələdiyyə mülkiyyəti dedikdə, bələdiyyə mülkiyyət hüququ başa düşülür. Başqa sözlə desək, hüquqi kateqoriya mənasında bələdiyyə mülkiyyəti bələdiyyə mülkiyyət hüququ anlayışı ilə əhatə olunur. Bələdiyyə mülkiyyət hüququ isə iki mənada işlədilir: obyektiv mənada bələdiyyə mülkiyyət hüququ; subyektiv mənada bələdiyyə mülkiyyət hüququ.

Obyektiv mənada bələdiyyə mülkiyyət hüququ dedikdə, bələdiyyə mülkiyyəti iqtisadi (faktiki) münasibətlərini rəsmiləşdirən və tənzimləyən hüquq

[1] Konstitusiyanın 13-cü maddəsinin 2-ci hissəsi // AR QK, II cild, s. 572.

[2] «Bələdiyyələrin statusu haqqında» 28 iyul 1999-cu il tarixli qanun; 15 oktyabr 1999-cu il tarixli qanunla təsdiq edilmiş «Bələdiyyənin nümunəvi nizamnaməsi»; «Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında» 7 dekabr 1999-cu il tarixli qunun; «Bələdiyyələrin əraziləri və torpaqları haqqında» 7 dekabr 1999-cu il tarixli qanun; «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» 7 dekabr 1999-cu il tarixli qanun.

normalarının məcmusu başa düşülür. Bu baxımdan o, mülki hüququn bələdiyyə mülkiyyət hüququ adlı institutu kimi çıxış edir. Bələdiyyə mülkiyyəti hüquq institutu isə qarışıq (kompleks) institutdur. Belə ki, bu instituta konstitusiya, inzibati və maliyyə hüququ kimi sahələrdə də rast gəlmək mümkündür[1].

Subyektiv mənada bələdiyyə mülkiyyət hüququ dedikdə, bələdiyyə qurumlarının malik olduqları konkret əmlak barəsində mümkün olan və yol verilən davranış ölçüsü başa düşülür. O, özündə üç səlahiyyəti (hüquqi imkanı) birləşdirir: **tələb etmək səlahiyyətini** (əhatə dairəsi bilinməyən şəxslərdən, yəni «hamıdan və hər kəsdən» onun mülkiyyət hüququnu pozan hərəkətlərdən çəkinməyi tələb etmək səlahiyyəti); **müdafiə səlahiyyətini** (mülkiyyət hüququ pozulduğu hallarda pozuntu törədənə dövlət məcburetmə tədbirinin tətbiq olunmasını tələb etmək səlahiyyəti); **davranış səlahiyyətini** (özü üçün müsbət hərəkətlər etmək səlahiyyətini).

Əsas və başlıca hüquqi imkan davranış səlahiyyəti hesab olunur. O, özündə üç səlahiyyəti («üçlüyü») birləşdirir: **sahiblik səlahiyyətini; istifadə səlahiyyətini; sərəncam səlahiyyətini.** Məhz bu «üçlük» səlahiyyəti bələdiyyəyə öz əmlakına münasibətdə mülkiyyətçi hüququna malik olmaq, mülkiyyətçi statusu əldə etmək imkanı verir. Onun əsasında bələdiyyələr müstəqil surətdə əmlakına sahiblik edir, əmlakından istifadə edir və ona sərəncam verir. Onlar öz əmlakı barəsində öz mülahizəsi ilə istənilən hərəkətləri edə bilər.

Mülkiyyətçi kimi bələdiyyələrin əmlaka sahiblik, əmlakdan istifadə və ona sərəncam verilməsi üzrə səlahiyyətləri **bələdiyyə mülkiyyət hüququnun məzmununu** təşkil edir. O, dövlət mülkiyyət hüququnun məzmunu kimi müəyyən dərəcədə **hakimiyyət xarakterinə malikdir**. Bələdiyyə mülkiyyət hüququnun hakimiyyət xarakterli olması xüsusən özünü bu hüququn həyata keçirilməsi üsullarında göstərir. Belə təsəvvür yaranır ki, dövlət mülkiyyəti kimi bələdiyyə mülkiyyəti də hakimiyyət xarakterlidir. Amma bu cəhət bələdiyyə mülkiyyət hüquq münasibətlərini hakimiyyət-tabeçilik münasibətlərinə çevirmir. Ona görə ki, bələdiyyələr mülki qanunvericiliklə tənzimlənən münasibətlərdə, o cümlədən mülkiyyət münasibətlərində eyni əsaslarla çıxış edir. Digər tərəfdən, mülki hüququn iştirakçıların (subyektlərin) hüquq bərabərliyi kimi fundamental prinsipi imkan vermir ki, bələdiyyə mülkiyyət hüquq münasibətləri hakimiyyət xarakterli olsun.

Dövlət mülkiyyəti kimi bələdiyyə mülkiyyəti də **fondun vahidliyi ilə xarakterizə olunur**. Belə ki, fondun vahidliyi haqqında tezis bələdiyyə mülkiyyətinə də şamil edilir. Bu tezisə görə, **bələdiyyələr bütün bələdiyyə əmlakının yeganə mülkiyyətçisidir**. Bələdiyyə mülkiyyəti vahid fond təşkil edir. Bələdiyyə əmlakı mülkiyyət hüququ əsasında yeganə mülkiyyətçi kimi bələdiyyələrə məxsusdur.

[1] Müəlliflərdən V.P.Nikitina göstərir ki, bələdiyyə mülkiyyət hüququ kompleks institutdur və bu institut özündə mülki, konstitusiya, inzibati və maliyyə hüquq normalarını birləşdirir. Biz kompleks hüquq institutu, eləcə də kompleks hüquq sahəsi konsepsiyasını qəbul etmirik. Belə ki, müxtəlif hüquq sahələrinə aid olan normalardan kompleks hüquq sahəsi və institutu yaratmaq olmaz (Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1999, с. 312).

3. Bələdiyyə mülkiyyətinin obyekt tərkibi

Bələdiyyə mülkiyyətinin obyekt tərkibi kifayət qədər genişdir. Buraya daxildir:

- bələdiyyə əmlakı;
- yerli büdcənin vəsaiti;
- bələdiyyə torpaqları;
- bələdiyyənin büdcədənkənar fondları;
- bələdiyyə müəssisələri və təşkilatları;
- bələdiyyə mənzil fondları və qeyri-yaşayış binaları;
- dövlət və xüsusi mülkiyyətdə olmayan yollar;
- bələdiyyə təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələri;
- digər daşınar və daşınmaz əmlak[1].

Bələdiyyə mülkiyyətinin obyektləri **məqsədli xarakterə malikdir**. Belə ki, həmin obyektlər yerli əhəmiyyətli məsələlərin həll edilməsi, bələdiyyə əhalisinin mənzil-kommunal, sosial-mədəni, məişət və digər ehtiyaclarının ödənilməsi məqsədinə xidmət edir. Bunlar onların tələbatının təmin olunmasına xidmət edən obyektlərdir.

Elə obyektlər vardır ki, bu obyektlər **müstəsna bələdiyyə mülkiyyətini** təşkil edir. Onların dairəsi qanunla müəyyənləşdirilir. Məsələn, dövlət və xüsusi mülkiyyətdə olmayan yollar, bələdiyyə təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələri[2], dövlət və xüsusi mülkiyyətdə olmayan torpaqlar (bələdiyyə torpaqları)[3] bələdiyyələrin müstəsna mülkiyyətinə daxildir.

Dövlət əmlakı kimi bələdiyyə əmlakı da iki hissədən ibarətdir: bölünmüş bələdiyyə əmlakı; bölünməmiş bələdiyyə əmlakı. **Bölünmüş bələdiyyə əmlakı** dedikdə, məhdud əşya hüququ əsasında bələdiyyə müəssisə və təşkilatlarına verilən əmlak başa düşülür. Bu əmlak onların əmlak dövriyyəsində iştirak etməsi üçün maddi (əmlak) baza rolunu oynayır.

Bölünməmiş bələdiyyə əmlakı dedikdə, bələdiyyə müəssisə və təşkilatlarına verilməyən əmlak başa düşülür. Söhbət müvafiq bələdiyyə qurumunun bələdiyyə xəzinəsindən gedir. **Bələdiyyə xəzinəsi** yerli büdcə vəsaitindən və bələdiyyə müəssisə və təşkilatlarına verilməyən digər bələdiyyə əmlakından ibarətdir. Deməli, bələdiyyə xəzinəsi bələdiyyə orqanı yox, bölünməmiş bələdiyyə əmlakı deməkdir.

Bələdiyyə xəzinəsinin əsasını yerli büdcə vəsaiti təşkil edir. O, yerli vergilər (fiziki şəxslərdən torpaq vergisi, əmlak vergisi, yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi, bələdiyyə müəssisə və təşkilatından mənfəət vergisi) və ödənişlər (kurort rüsumu, mehmanxana rüsumu, avtomobillərin dayanacaqları üçün rüsum və s.) hesabına formalaşır[4].

Yerli büdcə dedikdə, bələdiyyə statusuna uyğun olaraq, özünüidarəetmə prinsiplərini reallaşdırmaq, bələdiyyə səlahiyyətlərini həyata keçirmək üçün

[1] «Bələdiyyələrin statusu haqqında» qanunun 33-cü maddəsi // Bələdiyyələr haqqında. Bakı, 1999, s. 223.

[2] yenə orada.

[3] «Torpaq islahatı haqqında» qanunun 7-ci maddəsi // AR QK, III xüsusi buraxılış, s. 445.

[4] «Bələdiyyələrin statusu haqqında» qanunun 33-cü maddəsi; «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» qanunun 7-ci maddəsi.

formalaşan və istifadə olunan maliyyə vəsaiti başa düşülür. O, **bələdiyyə büdcəsi** adlanır. Özü də həmin büdcə **dövlət büdcəsinin tərkib hissəsi sayılmır**. Bələdiyyə (yerli) büdcəsi bələdiyyə maliyyəsinin iqtisadi əsaslarından biridir.

Bələdiyyə xəzinəsi həm də **məqsədli büdcədənkənar fondlardan** ibarətdir. Qanun bələdiyyələrə belə fondlar yaratmağa imkan verir. Onlar yalnız qanunvericiliklə müəyyənləşdirilmiş qaydada və şərtlərlə məqsədli büdcədənkənar fondlar yarada bilərlər[1].

Bələdiyyə əmlakı müəyyən mənbələr hesabına yaradılır. Belə mənbələrə aiddir:

- bələdiyyələrin mülkiyyətinə verilən dövlət əmlakı;
- bələdiyyələrin fəaliyyəti nəticəsində əldə olunan və yaradılan əmlak;
- fiziki və hüquqi şəxslərin, beynəlxalq təşkilatların və fondların bələdiyyələrə könüllü maddi yardım formasında verdikləri əmlak;
- varisi olmayan əmlakın bələdiyyələrə keçməsi yolu ilə əldə olunan əmlak;
- bələdiyyələrə vəsiyyət edilən əmlak[2].

Hər şeydən əvvəl, **dövlət mülkiyyətində olan elə obyektlər bələdiyyə mülkiyyətinə verilir** ki, onlar əhalinin ümumi istifadəsində olsun. Söhbət bələdiyyələrin səlahiyyətlərinin həyata keçirilməsi üçün zəruri olan mənzil-kommunal, sosial və mədəniyyət obyektlərindən və digər əmlak növlərindən gedir. Məlum məsələdir ki, ilk növbədə, bələdiyyələrin fəaliyyətini təmin etmək üçün gərək olan lazımi inzibati binalar, otaqlar və avadanlıqlar verilir.

Bələdiyyələr tərəfindən dövlət əmlakından istifadə etmək zərurəti və imkanı yaranan kimi həmin əmlak bələdiyyə mülkiyyətinə verilir. Bunun üçün onların müvafiq icra hakimiyyəti orqanlarına müraciət etməsi tələb olunur.

Bələdiyyə torpaqları bələdiyyə mülkiyyətinin obyektlərindən biri hesab edilir. Müvafiq inzibati ərazi daxilində dövlət mülkiyyətində saxlanılan və xüsusi mülkiyyətə verilən torpaqlar çıxılmaqla, bələdiyyə mülkiyyətinə verilən qalan torpaqlar bələdiyyə torpaqları adlanır[3]. Bu torpaqlar müvafiq inzibati ərazi vahidinin sahəsinə əlavə edilir və bununla bələdiyyə ərazisinin hüdudları müəyyənləşdirilir[4].

Bələdiyyə torpaqları, dövlət torpaqları ilə (dövlət mülkiyyətində saxlanılan torpaqlarla) və xüsusi mülkiyyətə verilən torpaqlarla bərabər, torpaq üzərində mülkiyyət formalarından biri hesab edilir. Bu torpaqlara üç kateqoriya torpaq sahəsi aiddir: ümumi istifadədə olan torpaqlar (şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin — küçələrin, meydanların, yolların, bağların, meşə-parkların, habelə əhalinin mal-qarası üçün örüş sahələri və s.); fiziki və hüquqi şəxslərin istifadəsində olan torpaqlar (onların daimi və ya uzunmüddətli istifadəsində olan torpaqlar); ehtiyat fondu torpaqları (yaşayış məntəqələrinin

[1] «Bələdiyyələrin statusu haqqında» qanunun 45-ci maddəsi.
[2] «Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında» 7 dekabr 1999-cu il tarixli qanunun 3-cü maddəsi // AR QK, III xüsusi buraxılış, s. 367.
[3] «Torpaq islahatı haqqında» qanunun 7-ci maddəsi // AR QK, III xüsusi buraxılış, s. 445.
[4] «Bələdiyyələrin əraziləri və torpaqları haqqında» qanun // AR QK, III xüsusi buraxılış, s. 368.

perspektiv inkişafı üçün ayrılan torpaqlar, şəxslərin istifadə və icarə hüququna xitam verilən bələdiyyə torpaqları, ehtiyat məqsədləri daşıyan digər bələdiyyə torpaqları)[1].

4. Bələdiyyələrin mülkiyyət hüququnun əmələ gəlmə üsulları

Bələdiyyələrin mülkiyyət hüququ iki üsulla əmələ gəlir: ümumi mülki üsulla; xüsusi üsulla. Ümumi üsul odur ki, bu üsuldan istifadə etməklə mülki hüququn istənilən subyekti mülkiyyət hüququ əldə edə bilər. Xüsusi üsul dedikdə isə yalnız bələdiyyə mülkiyyət hüququnun əmələ gəlməsini şərtləndirən üsul başa düşülür. Özü də buradaca dərhal qeyd etməliyik ki, xüsusi mülkiyyət hüququna münasibətdə bələdiyyələrin mülkiyyət hüququnun əmələ gəlməsinin bəzi üsulları özünü xüsusi üsullar kimi göstərsə də, dövlət mülkiyyəti hüququna münasibətdə onlar ümumi mülki üsullar kimi çıxış edir. Başqa sözlə desək, bələdiyyələrin mülkiyyət hüququnun əmələ gəlməsinin bəzi üsulları xüsusi mülkiyyət hüququna münasibətdə xüsusi üsullar, dövlət mülkiyyəti hüququna münasibətdə ümumi üsullar hesab edilir. Həmin üsullardan biri **dövlət əmlakının bələdiyyə mülkiyyətinə verilməsi sayılır**. Belə ki, dövlət yerli əhəmiyyəti olan məsələlərin həlli üçün zəruri olan torpaq payı və dövlət mülkiyyəti obyektlərini bələdiyyə mülkiyyətinə verir[2]. Bunlar üzərində bələdiyyələrin mülkiyyət hüququ əmələ gəlir.

Bələdiyyə mülkiyyəti obyektlərinin özəlləşdirilməsindən daxil olan vəsaitlər göstərilən üsullara aiddir. Belə ki, qanun bələdiyyə mülkiyyətinin özəlləşdirilməsinin mümkünlüyünü nəzərdə tutur. Bu kimi hallarda özəlləşdirmənin qayda və şərtlərini dövlət yox, bələdiyyə əhalisi bilavasitə və ya bələdiyyənin özü müstəqil surətdə müəyyənləşdirir[3]. Özəlləşdirmədən daxil olan vəsaitlər üzərində bələdiyyələrin mülkiyyət hüququ yaranır.

Göstərilən üsullardan biri **bələdiyyələrin təbii ehtiyatlardan istifadəyə görə ödənişlər almasıdır**[4]. Belə ki, ayrı-ayrı şəxslər müəyyən hüquqi əsaslara görə bələdiyyələrin ərazisində hasil edilən təbii ehtiyatlardan istifadə edə bilərlər. Məlum məsələdir ki, belə istifadə əvəzli xarakterə malikdir. İstifadəçilər ona görə bələdiyyələrə haqq (o cümlədən natura formasında) ödəyirlər. Bu ödənişlər bələdiyyə mülkiyyətinə daxil edilir və onların üzərində bələdiyyələr mülkiyyət hüququ əldə edirlər. Məsələn, bələdiyyə mülkiyyətində olan su obyektləri fiziki və hüquqi şəxslərin istifadəsinə və icarəsinə verilə bilər[5]. Qanunvericilik bələdiyyə mülkiyyətində olan torpaqların ayrı-ayrı şəxslərin istifadəsinə və icarəsinə verilməsinin mümkünlüyünü nəzərdə tutur[6].

Yerli vergilər, rüsumlar və ödənişlər (yığımlar) bələdiyyələrin mülkiyyət hüququnun əmələ gəlməsi üsullarından biridir[7]. Aşağıdakılar yerli büdcəyə daxil olurlar:

[1] Torpaq Məcəlləsinin 47-ci maddəsi // AR QK, III xüsusi buraxılış, s. 817.
[2] «Bələdiyyələrin statusu haqqında» qanunun 54-cü maddəsi // AR QK, III xüsusi buraxılış.
[3] yenə orada, həmin qanunun 33-cü maddəsinin 6-cı bəndi.
[4] yenə orada, həmin qanunun 44-cü maddəsi.
[5] Su Məcəlləsinin 13-cü maddəsi // AR QK, V cild, s. 122.
[6] Torpaq Məcəlləsinin 47-ci maddəsinin 6-cı bəndi // AR QK, III xüsusi buraxılış, s. 817.
[7] «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» qanunun 7-ci maddəsi // AR QK, III xüsusi buraxılış, s. 414.

- fiziki şəxslərdən torpaq vergisi;
- fiziki şəxslərdən əmlak vergisi;
- yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;
- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi;
- küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödəniş;
- kurort rüsumu, mehmanxana rüsumu, avtomobillərin dayanacaqları üçün rüsum;
- qanunla müəyyən edilən digər yerli vergi və ödənişlər.

Lotereyalardan daxil olan vəsait bələdiyyələrin mülkiyyət hüququnun əldə edilməsi üsullarından biridir. Belə ki, bələdiyyələr Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq bələdiyyə lotereyaları buraxa bilər. Qanun buna yol verir[1]. Bu lotereyalardan daxil olan vəsait gəlir növü kimi yerli büdcənin sərəncamına keçir.

Azərbaycan Respublikasının dövlət büdcəsindən verilən dotasiya və subvensiya bələdiyyə mülkiyyət hüququnun əmələ gəlməsinin xüsusi üsulu hesab edilə bilər. Dotasiya (latınca «dotatio» — hədiyyə, ianə) dedikdə, hər hansı konkret məqsəd üçün nəzərdə tutulmayan dövlət büdcəsindən yerli büdcəyə (bələdiyyə büdcəsinə) ayrılan müəyyən pul məbləği başa düşülür. Məsələn, yerli büdcənin kəsiri, yəni yerli büdcə xərclərinin öz gəlirləri ilə təmin olunmayan hissəsi dövlət büdcəsindən alınan dotasiya ilə təmin oluna bilər.

Subvensiya (latınca «subveniere» — köməyə gəlmək) dedikdə, dövlət büdcəsindən yerli (bələdiyyə) büdcəyə bələdiyyələrin sosial-iqtisadi inkişafı üçün, hər hansı konkret məqsəd üçün ayrılan müəyyən pul məbləği başa düşülür. O, müəyyən müddətə verilir. Bələdiyyələr ondan nəzərdə tutulan müddətdə istifadə etməlidir.

Dövlət əhəmiyyətli bəzi tədbirlərin həyata keçirilməsi üçün ayrılan maliyyə vəsaiti bələdiyyə mülkiyyət hüququnun əmələ gəlməsinin xüsusi üsuludur. Bu vəsait müvafiq icra hakimiyyəti orqanlarının qərarı əsasında verilir. Həmin vəsait yerli büdcəyə daxil edilir.

Bələdiyyələrin mülkiyyət hüququ ümumi mülki üsullar əsasında da yarana bilər. Məsələn, **mülki-hüquqi əqdlər** belə üsullara misal ola bilər. İcarə müqaviləsindən əksər hallarda istifadə edilir. Bələdiyyələr öz əmlakını ayrı-ayrı fiziki və hüquqi şəxslərin icarəsinə verə bilər. İcarə haqqı formasında əldə edilən gəlir yerli büdcənin gəliri hesab edilir.

5. Bələdiyyə mülkiyyət hüququnun həyata keçirilməsi

Bələdiyyələrin öz əmlakı barəsində **mülkiyyətçi statusu** vardır. Onlar bu əmlaka münasibətdə mülkiyyətçi hüququna malikdir. Bələdiyyətlər həmin hüququ həyata keçirərək, öz əmlakına sahiblik edir, ondan istifadə edir və ona sərəncam verir. Onların ixtiyarı var ki, öz əmlakı barəsində qanuna zidd olmayan istənilən mülki-hüquqi əqd bağlasın. Söhbət əmlakın özgəninkiləşdirilməsi barədə əqdlərdən (alqı-satqı, dəyişmə və s. müqavilələrdən), əmlakın istifadəyə verilməsinə yönələn əqdlərdən (kirayə, icarə və s. müqavilələrdən) gedir.

Bələdiyyələr təsərrüfat fəaliyyəti ilə və qanunla qadağan edilməmiş başqa

[1] «Bələdiyyələrin statusu haqqında» qanunun 46-cı maddəsi.

fəaliyyətlə məşğul olmaq üçün müstəqil müəssisə və təşkilatlar yarada bilər. Onlara **bələdiyyə müəssisə və təşkilatları** deyilir. Özü də dərhal qeyd etməliyik ki, bələdiyyə orqanları təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin iştirakçıları kimi çıxış edə bilməz (MM-in 64-cü maddəsinin 6-cı bəndi). Bələdiyyələr bu müəssisə və təşkilatların nizamnamələrini təsdiqləyir. Onların fəaliyyət məqsədlərini, şərtlərini və qaydasını müəyyənləşdirir, rəhbərliyini təyin və azad edir. Bələdiyyələr bələdiyyə müəssisə və təşkilatlarının istehsal etdikləri məhsulun (xidmətin) qiymətlərini müəyyənləşdirir, tariflərini nizama salırlar.

Bələdiyyə müəssisə və təşkilatları istehsal, xidmət və digər iqtisadi fəaliyyətlə məşğul olurlar. Belə fəaliyyət bələdiyyə maliyyəsinin iqtisadi əsaslarından biridir.

Yerli (bələdiyyə) büdcə **müstəqillik prinsipinə** əsaslanır. Bu prinsip yerli büdcənin müstəqilliyini ifadə edir. **Yerli büdcənin müstəqilliyi** dedikdə, əsasən, bələdiyyənin yerli büdcə vəsaiti barədə müstəsna sərəncam vermək hüququ başa düşülür. Bələdiyyələr yerli büdcənin istifadə olunmasını müstəqil surətdə həyata keçirir. Bundan əlavə, digər tərəfdən qanunda nəzərdə tutulan hallar istisna olmaqla, **dövlətin bələdiyyələrin büdcə fəaliyyətinə müdaxiləsinə yol verilmir**.

Yerli büdcənin müstəqilliyi həm də onda ifadə olunur ki, yerli büdcənin maliyyə ilinin sonuna əmələ gəlmiş sərbəst qalıqları dövlət tərəfindən alınmır. Bələdiyyələr bu cür qalıqlar üzərində müstəqil sərəncam verir[1].

Bələdiyyələrin **mülkiyyət hüququ bələdiyyə orqanları tərəfindən həyata keçirilir**. Bu orqanlar bələdiyyə mülkiyyətinin tərkibinə daxil olan əmlak barəsində qanuna zidd olmayan istənilən hərəkəti edə bilər, bir şərtlə ki, onların belə hərəkət etməyə lazımi səlahiyyəti olsun. Səlahiyyət qanunda və bələdiyyənin nizamnaməsində nəzərdə tutulur. Məsələn, bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermək hüququ bələdiyyə iclası (bələdiyyə üzvlərinin ümumi yığıncağı) tərəfindən həyata keçirilir[2]. Bələdiyyə mülkiyyətinin idarə edilməsi bələdiyyənin icra orqanının (onun icra aparatının) səlahiyyətinə daxil olan məsələdir[3].

Bununla belə, qanunda nəzərdə tutulmuş hallarda bələdiyyələrin mülkiyyət hüququ **bələdiyyə əhalisi** tərəfindən də həyata keçirilə bilər. Bu cəhət bələdiyyə mülkiyyətinin dövlət mülkiyyətindən üstünlüyünü nümayiş etdirir. Belə ki, bələdiyyə mülkiyyətinin mövcudluğu maddi nemətlərə bu nemətlərin əsl sahibi olan xalqın real yiyəlik etməsinə imkan verir. Bələdiyyə əhalisinin bələdiyyə mülkiyyəti barəsində sahiblik, istifadə və sərəncam hüquqlarını həyata keçirməsi xalqa məxsus olan əmlaka bütövlükdə xalqın sahibliyinin təcəssümü və təzahürüdür. Yalnız bələdiyyə mülkiyyəti forması bələdiyyə əhalisinin şəxsində və simasında xalqın öz əmlakına münasibətdə həqiqi mülkiyyətçi hüququna malik olmasına real təminat yaradır. Bu, onunla izah edilir ki, yerli özünüidarəetmə forması olan bələdiyyə əhalinin (vətəndaşların) fəaliyyətinin

[1] «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» qanunun 5-ci maddəsi // AR QK, III xüsusi buraxılış, s. 414.

[2] Konstitusiyanın 144-cü maddəsinin 6-cı hissəsi.

[3] «Bələdiyyənin nümunəvi nizamnaməsi»nin 4-cü hissəsi // AR QK, III xüsusi buraxılış, s. 218.

qeyri-dövlət sistemidir.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева**, **Ю.К.Толстого**. М., 1997 (гл. 19).

Гражданское право. Учебник / Под ред. **З.И.Цыбуленко**. М., 1998 (гл. 16, § 4,5).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина**, **А.И.Масляева**. М., 1997 (гл. 18, § 6).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой**, **Б.М.Гонгало**, **В.А.Плетневой**. М., 1998 (гл. 7).

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова**. М., 1998 (гл.18).

Гражданское право. Учебник / Под ред. **С.П.Гришаева**. Учебник. М., 1999 (гл. 8, § 4).

XXII FƏSİL
ÜMUMİ MÜLKİYYƏT HÜQUQU

§ 1. Ümumi mülkiyyət hüququnun anlayışı və növləri

1. Ümumi mülkiyyət hüququnun anlayışı

Adətən, əmlakın mülkiyyətçisi qismində hər hansı bir subyekt çıxış edir. Söhbət fərdi subyektdən (məsələn, fiziki şəxsdən) və ya kollektiv subyektdən (məsələn, hüquqi şəxsdən) gedir. Bununla bərabər, əmlak mülkiyyət hüququ əsasında eyni vaxtda bir neçə şəxsə məxsus ola bilər. Bu cür münasibətlərə mülki qanunvericilikdə və sivilistika doktrinasında ümumi mülkiyyət hüququ (ümumi mülkiyyət) deyilir.

Ümumi mülkiyyət və ya ümumi mülkiyyət hüququ dedikdə, əmlakın mülkiyyət hüququ əsasında eyni vaxtda bir neçə şəxsə (iki və daha artıq şəxsə) məxsus olması başa düşülür.

Ümumi mülkiyyət münasibətləri birgə tikinti aparmaq, bir neçə şəxs tərəfindən vərəsəlik qaydasında əmlak əldə etmək, iki və daha artıq subyektin əmlak almaq və digər hərəkətlər nəticəsində yarana bilər. Belə münasibətlər subyektlərə imkan verir ki, onlar öz maddi və mədəni tələbatlarını ödəmək üçün əmlakdan birgə istifadə etsinlər. Ümumi mülkiyyət münasibətləri o halda əmələ gəlir ki, əmlakın bir şəxs tərəfindən əldə olunması və ya ondan istifadə edilməsi ya çətinlik yaratsın, ya da bu və ya başqa hala görə məqsədə uyğun olmasın.

Ümumi mülkiyyət hüququ mülkiyyət hüququnun xüsusi növünə şamil edilir. Yeni MM (10-cu fəsil) bu mülkiyyət hüququnu mülkiyyət hüququnun xüsusi növü (forması) kimi xarakterizə edir[1].

MM-in 213-cü maddəsinin 1-ci bəndində ümumi mülkiyyətin anlayışı verilir. Həmin maddəyə görə, **iki və ya bir neçə şəxsin mülkiyyətində olan əşya ümumi mülkiyyət hüququ əsasında onlara mənsubdur**.

Ümumi mülkiyyət, hər şeydən əvvəl, o əmlak üzərində və barəsində yaranır ki, belə əmlakın təyinatını dəyişdirmədən bölünməsi istisna edilir və mümkün olmur. Məsələn, götürək minik avtomobilini. Bu əmlakı öz əvvəlki təyinatını saxlamaq və dəyişdirməmək şərtilə hissələrə bölmək olmaz. Əgər avtomobil ayrı-ayrı hissələrə bölünərsə, o, öz əvvəlki təyinatını itirəcəkdir. Bu sözləri səhm, bir yerli qaraj, bir otaqlı ev və digər bölünməz əmlak barəsində də demək olar. Bölünməyən əmlaka şamil edilən obyektlərdən biri mürəkkəb (məcmu) əmlakdır ki, buraya əmlak kompleksi kimi müəssisəni, kəndli (fermer) təsərrüfatının əmlakını aid etmək olar. Əmlakın bölünə bilməməsi qanunla da müəyyən edilə bilər (MM-in 135-ci maddəsinin 6-cı bəndi, 213-cü maddəsinin 4-cü bəndi).

Bölünən əşyaya ümumi mülkiyyət hüququnun əmələ gəlməsi istisna edilmir və bu, mümkündür. Bu növ əşyaya ümumi mülkiyyət qanunda və ya müqavilədə nəzərdə tutulmuş hallarda yaranır (MM-in 213-cü maddəsinin 4-cü

[1] Ümumi mülkiyyətin xüsusi növ (forma) mülkiyyət olması barədə fikir söyləyən müəlliflər də var (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998. с.578).

bəndi). Məsələn, ölən vətəndaşın miras əmlak kütləsinə müxtəlif cür bölünən əmlak — pul, kənd təsərrüfatı məhsulları və s. daxil ola bilər. Göstərilən həmin əmlak növləri vərəsələr arasında bölünən vaxta kimi ümumi mülkiyyət hüququ əsasında onlara məxsus olur. Lakin buna baxmayaraq, **ümumi mülkiyyət hüququnun obyekti kimi əsasən bölünməz əmlak növləri çıxış edir**.

Ümumi mülkiyyət hüququnun obyekti olan əmlak onunla xarakterizə olunur ki, **bu əmlak fərdi-müəyyən əlamətləri ilə şərtlənir**. Məsələn, minik avtomobili, yaşayış evi və s. fərdi-müəyyən əlamətlərə malik olan əmlak kimi ümumi mülkiyyət hüququnun obyektidir. Fərdi-müəyyən əlamətlərə malik olan əmlakların məcmusu da bu növ mülkiyyət hüququnun obyekti kimi çıxış edə bilər. Məsələn, miras əmlak və s. Belə təsəvvür yaranır ki, mülki dövriyyə qabiliyyətli hər hansı əmlak ümumi mülkiyyət hüququnun obyekti ola bilər. Bunun üçün zəruridir ki, həmin əmlak fərdi-müəyyən əlamətə malik olsun.

Hüquq ədəbiyyatında ümumi mülkiyyət hüququnun spesifik əlamətlərini fərqləndirməkdə və ayırmaqda, demək olar ki, bütün müəlliflərin fikir və mövqeləri bir-biri ilə üst-üstə düşür[1]. Belə əlamətlərə şamil etmək olar: **bir neçə subyektin olması**, çoxsaylı subyektlilik; ümumi mülkiyyət hüququnun obyektinin vahidliyi, yəni çoxsaylı subyektlərin mülkiyyət hüququnun aid olduğu **obyektin eyni olması** (eyni bir əmlaka bir neçə subyektin eyni vaxtda mülkiyyət hüququnun olması); çoxsaylı subyektlərin əmlak barəsində sahiblik, istifadə və sərəncam **səlahiyyətlərini birgə həyata keçirməsi** (subyektlərdən heç birinin müstəqil surətdə, digər subyektlərin razılığı olmadan əmlaka sərəncam verə bilməməsi).

Beləliklə, ümumi mülkiyyət hüququ əmlakın (əşyanın) eyni zamanda iki və bir neçə şəxsə məxsus olması ilə əlaqədar yaranan münasibətləri rəsmiləşdirir və qaydaya salır. Özü də bu şəxslərdən hər birinin mülkiyyət hüququ əmlakın (əşyanın) naturada hər hansı bir hissəsinə yox, bütövlükdə və tam halında əmlaka (əşyaya) şamil edilir.

Roma hüquqşünasları ümumi mülkiyyət anlayışını qəbul etmişdilər[2]. Klassik Roma hüquqşünası Kv. Mutsiy Stsevola bir neçə şəxsin eyni bir əşyaya ideal paylarla mülkiyyəti ideyasını (pars pro indivisto) irəli sürmüşdü.

Ümumi (birgə) mülkiyyət Roma hüququnun əsas anlayışlarından biri hesab olunurdu. Roma hüququnda ümumi mülkiyyətə eyni bir əşyanın bir neçə mülkiyyətçiyə birlikdə (birgə) məxsus olması kimi baxılırdı. Həmin münasibəti Roma hüquqşünasları «communio» və ya «condominium» (latınca «con» — birlikdə «dominium» — mülkiyyət, sahiblik) anlayışı ilə əhatə edirdilər[1].

Ümumi mülkiyyət konstruksiyasını bir sıra xarici ölkə qanunvericiliyi də tanıyır. Məsələn, İtaliya MM-in II kitabının VII bölməsinə daxil olan normalar ümumi mülkiyyəti tənzimləyir[2]. Almaniya hüquq doktrinasında fərdi mülkiyyətə qarşı ümumi mülkiyyət növü qoyulur[3]. Yaponiya mülki hüquq elmində ümumi mülkiyyətə belə anlayış verilir: ümumi mülkiyyət dedikdə, bir neçə şəxsin eyni bir əşyaya birlikdə malik olması və ona birlikdə yiyəlik (sahiblik) etməsi başa düşülür[4].

2. Ümumi mülkiyyət hüququ obyektiv və subyektiv mənalarda

Ümumi mülkiyyət həm obyektiv mənaya, həm də subyektiv mənaya malikdir. Hüquq ədəbiyyatında müəlliflərdən bəzisi belə hesab edir ki, ümumi mülkiyyət hüququ yalnız obyektiv mənada işlədilə bilər. Subyektiv mənada ümumi mülkiyyət hüququnun tətbiq edilməsi istisna edilir, çünki subyektiv ümumi mülkiyyət hüququ mövcud deyil[5]. Subyektiv ümumi mülkiyyət hüququnun mövcud olmaması barədə fikir söyləyən müəlliflərin mövqeyi ilə çətin razılaşmaq olar. Ona görə ki, bu mövqe həqiqətdən uzaqdır. Belə ki, ümumi mülkiyyət hüququ bir neçə şəxsin əmlaka (əşyaya) və ya əmlakın məcmusuna subyektiv hüququdur[6]. Bundan əlavə, hüququn həm obyektiv, həm də subyektiv mənada işlədilməsi qəbul edilmişdir[7]. Bu bölgü hələ neçə əsr bundan əvvəl Roma hüququna məlum idi. Hüququn iki mənada işlədilməsinə müasir dövrdə Avropa kontinenti və ABŞ hüquq sistemlərində rast gəlmək olur. Bu konsepsiya xüsusən keçən əsrdə alman hüququnda daha geniş şəkildə əsaslandırılmışdır. İnqilabaqədərki rus hüquqşünasları da bu məsələyə toxunmuşdular.

Obyektiv mənada ümumi mülkiyyət hüququ ümumi mülkiyyət hüququ institutu ilə əhatə olunur. Bu aspektdən ümumi mülkiyyət hüququ vacib hüquq institutlarından biri kimi, tərkib hissəsi olmaqla mülki hüquqa daxil olur. **Obyektiv mənada ümumi mülkiyyət hüququ** dedikdə, eyni bir əmlaka iki və ya daha artıq şəxsin sahiblik etməsi, əmlakdan istifadə etməsi və onun üzərində sərəncam verməsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyən, qaydaya salan və qoruyan hüquq normalarının sistemi başa düşülür. MM-in 213-225-ci maddələrində (10-cu fəsil, §1) ifadə edilən həmin normaların məcmusu **ümumi mülkiyyət hüququ institutunu** yaradır.

Subyektiv mənada ümumi mülkiyyət hüququ subyektiv ümumi mülkiy-

---

[1] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1969, с. 379; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 443; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 316 və s.

[2] Римское частное право. М., 1948, с. 194. Ümumi mülkiyyət hələ antik dövrlərdə mütəfəkkirlərin nəzər-diqqətini cəlb etmişdi. Platonun utopiyalarında ümumi mülkiyyətə vacib yer verilirdi. Platon əmlakın ümumiliyinə əsaslanmaqla «adamların zorla qardaşlaşdırılması» (Hegelin ifadəsi ilə) ideyasını irəli sürürdü. Bu ideya Aristotel tərəfindən kəskin etirazla qarşılanmışdı. Aristotelə görə, birgə mülkiyyətə sahib olanlar və bu mülkiyyətdən istifadə edənlər xüsusi mülkiyyət sahiblərinə nisbətən daha çox mübahisə edirlər (Аристотель, Соч. в. 4т, т. 4, с. 411). Epikur dostlarına əmlakın ümumiliyinə əsaslanan ittifaq yaratmağı məsləhət görürdü. Hegel öz əsərində Epikurun bu sözünü çox böyük heyrətlə sitat gətirir (*Г.В.Гегель*. Философия права, с. 105).

[1] *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 440; *Пухан И., Поленак-Акимовская М.* Римское право. М., 2000, с. 147; *Novitski I.B.* Roma hüququ. Bakı. 1999. s.88.

[2] Основные институты гражданского права зарубежных государств. М., 1999, с. 8.

[3] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 416.

[4] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. М., 1983, с. 186.

[5] бах: *Н.Н.Мисник.* Правовая природа общей собственности // Правоведение. 1993. №1, с.33.

[6] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1969, с. 379.

[7] Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова и А.В.Малько*. М., 1997, с. 245.

yət hüququ anlayışı ilə əhatə olunur. **Subyektiv ümumi mülkiyyət hüququ** dedikdə, iki və ya daha artıq şəxsin onlara məxsus olan eyni ümumi əmlaka (əşyaya) öz istədiyi kimi, öz mülahizəsinə görə sahib olmaq, əmlakdan istifadə etmək və onun üzərində sərəncam verməkdən ibarət olan hüququ başa düşülür. Subyektiv mənada ümumi mülkiyyət hüququ da müəyyən məzmuna malikdir ki, məlum «üçlük» səlahiyyəti bu hüququn məzmununu təşkil edir. Şəxslər ümumi əmlaka qanunda və həmin şəxslər arasında bağlanan müqavilədə nəzərdə tutulmuş qaydada və şərtlərlə mülkiyyət hüququna malik olurlar.

3. Ümumi mülkiyyət hüququnun subyektləri

Ümumi mülkiyyət hüququ üçün subyektlərin çoxsaylı olması əlaməti xarakterikdir. Bu subyektlər ümumi mülkiyyətin iştirakçıları adlanır. Ümumi mülkiyyət münasibətlərində subyekt rolunda çıxış edən iştirakçılara **ümumi mülkiyyətçilər (həmmülkiyyətçilər)** deyilir.

Ümumi mülkiyyət münasibətləri mülkiyyət hüquq münasibətlərinin hər hansı subyektləri arasında əmələ gələ bilər. Məsələn, belə mülkiyyət münasibətləri iki nəfər vətəndaş arasında və ya iki hüquqi şəxs arasında yarana bilər. Qarışıq ümumi mülkiyyət münasibətlərinin əmələ gəlməsinin mümkünlüyü istisna edilmir. Belə halda münasibətlər eyni kateqoriya subyektlər arasında yox, müxtəlif kateqoriya subyektlər arasında meydana gəlir. Məsələn, vətəndaşlar və hüquqi şəxslər və ya hüquqi şəxslər və dövlət və ya vətəndaşlar və dövlət ümumi əmlakın ümumi mülkiyyətçiləri ola bilərlər. Belə təsəvvür yaranır ki, **ümumi mülkiyyət münasibətləri mülkiyyət hüququnun istənilən subyektləri arasında əmələ gəlir**. Sovet qanunu isə ümumi mülkiyyət münasibətlərinin dövlət və vətəndaşlar və yaxud vətəndaşlar və kooperativ təşkilatları (və digər ictimai təşkilatlar) arasında yaranmasını yasaq etmişdi (1964-cü il MM-in 117-ci maddəsi). İqtisadi inkişafın bazar münasibətlərinə və mülkiyyətin müxtəlif növlərinə əsaslandığı indiki şəraitdə belə qadağalar öz əhəmiyyətini itirmişdir. İndiki şəraitdə ümumi mülkiyyət münasibətləri vətəndaşlar, hüquqi şəxslər və dövlət arasında yaranır.

Ümumi mülkiyyət münasibətlərində subyekt rolunda çıxış edən ümumi mülkiyyətçilər hər hansı bir mülkiyyətçi kimi özlərinə məxsus olan ümumi əmlaka öz mülahizəsinə görə sahiblik, ondan istifadə və onun barəsində sərəncam hüququna malikdirlər. Lakin onlar ümumi əmlak barəsində **üçlü səlahiyyəti birgə həyata keçirirlər**.

Ümumi mülkiyyət onunla xarakterizə olunur ki, burada iki cür münasibət qovuşur: **ümumi mülkiyyətçilərlə üçüncü şəxslər arasındakı münasibətlər**; **ümumi mülkiyyətçilərin öz aralarındakı münasibətlər**. Öz hüquqi təbiətinə və xarakterinə görə bu münasibətlər bir-birindən fərqlənir. Belə ki, ümumi mülkiyyətçilərlə üçüncü şəxslər (sayı və dairəsi bilinməyən cəmiyyət üzvləri, yəni «hamı və hər kəs») arasında münasibətlər **mütləq (mütləq hüquq münasibətləri)**, ümumi mülkiyyətçilərin öz aralarındakı münasibətlər isə **nisbi xarakterə malikdir (nisbi hüquq münasibətləri)**. Birinci növ münasibətlər xarici hüquqi əlaqələri ifadə edirsə, ikinci növ münasibətlər daxili hüquqi əlaqələri əks etdirir.

4. Ümumi mülkiyyət hüququnun əmələ gəlmə əsasları

Şəxslər müxtəlif üsullarla ümumi əmlak üzərində ümumi mülkiyyət hüququ əldə edə bilərlər. Bu üsullar həm ilkin, həm də törəmə üsullar ola bilər.

Ümumi mülkiyyət hüququnun əldə edilməsinin ilkin üsulları müxtəlif hüquqi faktlardır ki, buraya aiddir: ümumi əşyanın **iki və daha çox şəxs tərəfindən yaradılması, hazırlanması**; ümumi əşyanın **birgə emalı** (MM-in 188-ci maddəsi); birgə tapıntı (MM-in 186-cı maddəsi); şəxsin başqa şəxsə məxsus olan torpaqda və tikintidə **dəfinə** aşkar etməsi (MM-in 187-ci maddəsi); **əldə etmə müddətinə** əsasən mülkiyyətçisi olmayan daşınar əmlaka birgə sahiblik (MM-in 181-ci maddəsi, 4-cü bənd); iki və daha artıq şəxsin torpaq sahəsində **bina, ev, tikili və digər daşınmaz əmlak yaratması** (MM-in 240-cı maddəsi).

Ümumi mülkiyyət hüququ müxtəlif törəmə üsullarla da əmələ gələ bilər. Əsas törəmə üsul **mülki-hüquqi əqdlərdir**. Məsələn, iki və ya bir neçə şəxsin alqı-satqı, bağışlama, dəyişmə və s. müqavilələr əsasında əmlak əldə etməsi bu üsula misaldır.

Ümumi mülkiyyət hüququnun əmələ gəlmə üsullarından biri **vərəsəlikdir**. Həm qanun üzrə, həm də vəsiyyət üzrə vərəsəlik miras əmlakın bir neçə vərəsənin ümumi mülkiyyətinə keçməsi üçün əsas ola bilər.

Ümumi mülkiyyət hüququnun əldə edilməsi əsaslarından biri **kəndli (fermer) təsərrüfatının yaradılması (dövlət qeydiyyatına alınması)** və təsərrüfatın aparılmasıdır. Kəndli (fermer) təsərrüfatının əmlakı ümumi mülkiyyət hüququ əsasında təsərrüfatın bütün üzvlərinə məxsusdur.

Nikah ümumi mülkiyyət hüququnun əldə edilməsinin əsaslarından biridir. Belə ki, nikah dövründə ər-arvadın qazandıqları və əldə etdikləri əmlak onların ümumi mülkiyyəti hesab edilir.

Ümumi mülkiyyət hüququnun yaranmasını şərtləndirən əsaslardan biri **şəxsin kirayəçinin ailə üzvü olması və onunla birgə yaşamasıdır**. Məsələn, özəlləşdirilən mənzilə kirayəçi ilə onun ailə üzvünün ümumi mülkiyyət hüququ əmələ gəlir.

5. Ümumi mülkiyyət hüququnun növləri

Mülki Məcəllə ümumi mülkiyyətin iki növünü fərqləndirir: paylı ümumi mülkiyyət; birgə ümumi mülkiyyət. MM-in 213-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq əşya mülkiyyət hüququnda mülkiyyətçilərin hər birinin payını müəyyənləşdirməklə (paylı mülkiyyət) və ya belə payları müəyyənləşdirmədən (birgə mülkiyyət) ümumi mülkiyyətdə ola bilər. Ümumi mülkiyyətin bu növlərinə müvafiq olaraq ümumi mülkiyyət hüququnun iki növü vardır: paylı ümumi mülkiyyət hüququ; birgə ümumi mülkiyyət hüququ. Belə bölgü Almaniya qanunvericiliyində də nəzərdə tutulur: Niteigentum nach Bruchteilen (paylı mülkiyyət); Gesamthandeigentum (birgə mülkiyyət)[1]. Yaponiya mülki qanunvericiliyi belə bölgü tanımır[2].

Paylı ümumi mülkiyyət odur ki, iştirakçılardan (həmmülkiyyətçilərdən) hər birinin bu mülkiyyətdəki payı dəqiq olaraq müəyyən edilir. Başqa sözlə desək,

[1] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 416.
[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. М., 1983, с. 186.

bu növ mülkiyyətdə iştirakçılardan hər birinə müəyyən pay məxsus olur. Özü də bu paylar həm bərabər, həm də qeyri-bərabər (məsələn, iki şəxsin satın aldıqları minik avtomobilində 30 % vətəndaşların birinin, 70 %-i isə digərinin payını ifadə edir və ya bu paylar yarıbayarı, yəni 50 %-in 50%-ə nisbətində) də ola bilər. Əşyaya ümumi mülkiyyət, qanunvericilikdə həmin əşyaya birgə mülkiyyət yaradılmasının nəzərdə tutulduğu hallar istisna olmaqla, paylı mülkiyyətdir (MM-in 213-cü maddəsinin 3-cü bəndi). Bu, onu ifadə edir ki, mülki qanunvericilikdə **paylı mülkiyyətin prezumpsiyası (ehtimalı)** müəyyən edilir. Buna əsasən, əgər ümumi mülkiyyət yaranarsa, belə halda yalnız paylı mülkiyyətin əmələ gəlməsindən söhbət gedə bilər. Daha doğrusu, əksi sübut olunana kimi, ümumi mülkiyyət paylı mülkiyyət hesab edilir.

Birgə ümumi mülkiyyət odur ki, bu mülkiyyətin hər bir iştirakçısının ümumi əmlakdakı payı əvvəlcədən dəqiq olaraq müəyyən edilmir. Belə mülkiyyətdə pay iki halda dəqiq olaraq müəyyən edilir: **iştirakçılar arasında ümumi əmlak bölündükdə; iştirakçılardan birinin payı ayrıldıqda**. Buna görə çox vaxt birgə mülkiyyət **paysız mülkiyyət** də adlandırılır. Birgə ümumi mülkiyyət yalnız qanunda nəzərdə tutulduğu halda əmələ gəlir (MM-in 213-cü maddəsinin 3-cü bəndi). Bu növ mülkiyyətə ərlə arvadın nikah dövründə qazandıqları əmlakı misal göstərmək olar (MM-in 225-ci maddəsi). Paylı ümumi mülkiyyətin bir növü kimi kəndli (fermer) təsərrüfatının əmlakı fərqləndirilirdi[1]. Bu, yalnız o vaxt mümkün olurdu ki, qanunvericilikdə və ya kəndli (fermer) təsərrüfatı üzvlərinin bağladığı müqavilədə başqa hal nəzərdə tutulmasın.

Qanun birgə ümumi mülkiyyətin paylı ümumi mülkiyyət növünə çevrilməsinin mümkünlüyünü istisna etmir. Belə ki, birgə ümumi mülkiyyətin iştirakçıları razılaşma əsasında ümumi əmlak üzərində paylı mülkiyyət rejiminə keçə bilərlər. Razılıq əldə edilmədikdə, məhkəmənin qərarına əsasən ümumi əşyaya bu şəxslərin paylı mülkiyyəti müəyyənləşdirilə bilər (MM-in 213-cü maddəsinin 5-ci bəndi).

Ümumi mülkiyyətin birgə və ya paylı mülkiyyət növündə olması iştirakçıların subyekt tərkibindən asılıdır. Belə ki, **vətəndaşların subyekt kimi çıxış etdiyi ümumi mülkiyyət həm paylı, həm də birgə mülkiyyət növündə ola bilər**. Dövlətin və bələdiyyələrin, habelə hüquqi şəxslərin iştirakçısı olduğu ümumi mülkiyyət münasibətlərinə gəldikdə isə bu münasibətlər yalnız paylı mülkiyyət növündə ola bilər. **Ümumi paylı mülkiyyət münasibətləri vətəndaşlar və hüquqi şəxslər, vətəndaşlar və dövlət, hüquqi şəxslər və dövlət arasında yaranır**.

Sovet mülki qanunvericiliyinə görə paylı ümumi mülkiyyət münasibətlərində bir tərəfdən vətəndaşların, digər tərəfdən isə dövlət və təşkilatların iştirak etməsinə yol verilmirdi. Əgər belə mülkiyyət münasibətləri hər hansı hüquqi fakt

[1] Rusiya Federasiyasında çıxan dərsliklərdə bəzi müəlliflər kəndli (fermer) təsərrüfatının birgə ümumi mülkiyyətin bir növü olması fikrini irəli sürürlər (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с.519; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 267). Bu, Rusiya Federasiyası MM-in müəyyən etdiyi qaydaya uyğundur. Azərbaycan Respublikasının qüvvədən düşmüş «Kəndli (fermer) təsərrüfatı haqqında» qanununun 23-cü maddəsi kəndli təsərrüfatının əmlakının paylar məlum olan xüsusi mülkiyyət hüququ əsasında bütün üzvlərə aid olması haqqında qayda müəyyən edirdi (bax: AR QK, I cild, s. 399).

əsasında (məsələn, vərəsəlik qaydasında) yaranardısa, bu münasibətlərə 1964-cü il MM-in 117-ci maddəsində nəzərdə tutulan qaydada xitam verilirdi. Qüvvədə olan MM belə məhdudiyyətləri aradan qaldırmışdır. Qanunla paylı ümumi mülkiyyət münasibətləri iştirakçılarının tərkibi məhdudlaşdırılmır, yəni bu münasibətlərdə dövlət və hüquqi şəxslər də çıxış edə bilər. **Ümumi birgə mülkiyyət münasibətlərinə gəldikdə isə, dövlət və hüquqi şəxslərin, bələdiyyələrin belə münasibətlərdə subyekt kimi iştirakı istisna edilir**. Belə subyekt tərkibi ilə ümumi birgə mülkiyyət münasibətlərinin yaranması, ümumiyyətlə, mümkün deyil.

6. Ümumi mülkiyyətdə mülkiyyətçinin payının hüquqi təbiəti və xarakteri

Ümumi paylı mülkiyyətdə hər bir iştirakçıya müəyyən pay hüququ məxsusdur. Ümumi birgə mülkiyyət bölünəndə və ya bu mülkiyyətdən pay ayrılanda iştirakçıların hər birinin müəyyən pay hüququ əmələ gəlir. Lakin pay hüququ əsasında iştirakçılara nəyin məxsus olması, bu hüququn nədə ifadə edilməsi məsələni nisbətən xeyli qəlizləşdirir. Buna görə də ümumi mülkiyyətdə payın mahiyyəti, təbiəti, xarakteri, onun hüquqi əhəmiyyəti barədə, artıq neçə ildir ki, hüquqşünas alimlər geniş diskussiya açaraq mübahisə edirlər[1]. Şübhəsiz ki, hüquq vahiddir. Əşyalardan fərqli olaraq, onu hissələrə ayırmaq olmaz. 1964-cü il MM-i iştirakçının ümumi mülkiyyətdə payının mahiyyətinin nədə — əmlakda və ya əmlaka olan hüquqda ifadə olunduğunu müəyyən etməmişdi[2].

Hüquq ədəbiyyatında bir qrup müəlliflər ümumi mülkiyyətdə payın hüquqi mahiyyətini real və ideal pay konstruksiyalarının (anlayışlarının) vasitəsi və köməkliyi ilə izah etməyə, əsaslandırmağa təşəbbüs göstərmişlər[3]. Bu müəlliflərin fikrincə, real pay dedikdə, ümumi əmlakın naturada bir hissəsi, fiziki cəhətdən ayrıca konkret bir hissəsi başa düşülür. İdeal pay isə ümumi əmlakın dəyərcə (qiymətcə) bir hissəsini ifadə edir. İdeal pay kimi ümumi əmlakın dəyərinin hər hansı bir hissəsi çıxış edir. Müəlliflərdən bəzisi bu iki konstruksiyasını birləşdirməklə payın mahiyyətini izah etməyə çalışır. Onların fikrincə, pay maddi əşyanın xəyalən əks olunan ideal hissəsidir[4].

Həm real pay, həm də ideal pay kimi konstruksiyalar ümumi mülkiyyətdə

[1] Ümumi mülkiyyət hüququnda payın mahiyyəti mülki hüquqda diskussiya doğuran mübahisəli məsələlərdəndir. Bu barədə fikirlərin qısa icmalına (xülasəsinə) bax: Р.П.Мананкова. Правоотношение общей долевой собственности граждан. Томск, 1977, с. 8-34; *П.П.Каськ.* Понятие и виды отношений общей собственности // Уч. зап. Тартусского Ун-та. Вып. 452. Тарту, 1978, с. 18.

[2] Ümumi paylı mülkiyyət iştirakçısının malik olduğu hüququn hüquqi təbiəti barədə ətraflı tanış olmaq məqsədi ilə bax: *Д.М.Генкин.* Право собственности в СССР. М., 1961 (гл. IV); *Р.П.Мананкова.* Правоотношение общей долевой собственности граждан. Томск. 1977, с. 8-34; *А.А.Ерошенко.* Личная собственность в гражданском праве. М., 1973, с. 51-57; Советское гражданское право Казахской ССР. Вып. III. Право собственности. Алма-Ата 1970, с. 157-162; *Н.И.Мисник.* Правовая природа общей собственности // Правоведение. 1993. №1, с. 24-34.

[3] Real və ideal pay barədə baxışların tənqidi verilmişdir: *О.С.Иоффе.* Советское гражданское право. Курс лекций. Л., 1958, с. 339.

[4] *Н.И.Мисник.* Правовая природа общей собственности // Правоведение. 1993. №1, с. 24-34.

payın hüquqi mahiyyətini, ümumi mülkiyyət münasibətlərinin xarakterini açmır, əksinə, ümumi mülkiyyət kimi mürəkkəb və xüsusi hüquq institutunu aradan qaldırır, istisna edir. Belə ki, real pay konstruksiyası ümumi mülkiyyət hüququnda çoxsaylı subyektlərin bir subyektlə əvəz edilməsinə gətirib çıxarır. Çoxsubyektlilik və obyektin vahidliyi (eyniliyi) isə ümumi mülkiyyətin xarakterik xüsusiyyətidir. İdeal pay isə ümumi mülkiyyətin obyekti kimi əşyanı yox edir, onun mövcudluğunu aradan qaldırır. Bu yolla ümumi mülkiyyət hüququ öhdəlik hüququ ilə əvəz edilir[1].

Real və ideal pay konstruksiyaları ümumi mülkiyyət münasibətlərinin mahiyyətini açıqlamadığına və ümumi mülkiyyət hüququnun ləğv edilməsinə səbəb olduğuna görə qanunvericilikdə öz hüquqi təsdiqini və ifadəsini tapmamışdır. Bu barədə nisbətən inandırıcı, ağlabatan və həqiqətə daha yaxın olan fikir bundan ibarətdir ki, hər bir mülkiyyətçiyə ümumi əmlaka olan mülkiyyət hüququnda müəyyən pay məxsusdur. Başqa sözlə desək, pay naturada əmlak payı deyildir, çünki ümumi mülkiyyət hüququnun obyekti vahiddir. **Pay dedikdə, bütün ümumi əmlaka olan mülkiyyət hüququndakı pay (əmlaka ümumi mülkiyyət hüququndakı pay) başa düşülür** ki, bu, hesabla (1/2, 1/3, 1/4 və s.) ifadə olunur. Keçmiş SSRİ dövründə 1970-1980-ci illərdə yazılan mülki hüquq barədə dərsliklərdə payın hüquqi təbiətinə aid bu nöqteyi-nəzər və mövqe daha geniş və ətraflı işıqlandırılmışdır[2]. Bu fikri indiki müəlliflər də dəstəkləyirlər[3]. RF-in, habelə Azərbaycan Respublikasının yeni MM-i payın mahiyyəti anlayışına bu aspektdən yanaşır. Məhkəmə təcrübəsi də mülkiyyət hüququnda (əmlakda yox) pay konsepsiyasından çıxış edir[4].

Bu konsepsiya öz ifadəsini Azərbaycan Respublikası MM-in 213-cü maddəsinin 2-ci bəndində tapmışdır. Bu maddəyə görə, **ümumi əmlakın özü yox, ümumi əmlaka mülkiyyət hüququ mülkiyyətçilərin hər birinin payına bölünür**.

7. Ümumi mülkiyyət və kollektiv mülkiyyət

Kollektiv mülkiyyət anlayışı yenidənqurma dövrünün mülki qanunvericiliyində daha geniş surətdə işlədilirdi. Sovet dövründə kənd təsərrüfatı kooperativinin (kolxozun), istehlak kooperasiyasının və mənzil-tikinti kooperasiyasının mülkiyyəti kollektiv mülkiyyətə aid olunurdu.

90-cı illərin əvvəllərində qanunvericilik aktlarında kollektiv mülkiyyət anlayışından daha geniş istifadə edilməsinə rast gəlirik. Dövlət müstəqilliyi barədə Konstitusiya aktı (18 oktyabr 1991-ci il) kollektiv mülkiyyəti dövlət və xüsusi mülkiyyətin bir forması (növü) kimi müəyyən edir[1]. «Mülkiyyət haqqında» qanunun 4-cü maddəsi kollektiv mülkiyyəti mülkiyyətin bir növü kimi nəzərdə tuturdu[2]. Həmin qanunun III bölməsi (14-19-cu maddələr) özündə kollektiv mülkiyyət hüququ haqqında müddəaları ifadə edən normaları birləşdirirdi.

Kollektiv mülkiyyət hüququ dedikdə, əmlaka eyni zamanda sahiblik, ondan istifadə və onun barəsində sərəncam sahəsində kollektivin (şəxslər qrupunun) qanunla qorunan hüquqlarının məcmusu başa düşülür. Qanun kollektiv mülkiyyətə şamil edirdi: kooperativlərin mülkiyyətini; səhmdar cəmiyyətlərin mülkiyyətini; təsərrüfat ortaqlıqları və təsərrüfat assosiasiyalarının mülkiyyətini; həmkarlar ittifaqı təşkilatlarının və başqa ictimai və dini təşkilatların mülkiyyətini; vətəndaşların birliklərinin və ictimai hərəkatların mülkiyyətini; kollektiv və icarə müəssisələrinin mülkiyyətini[3]. Bu təşkilatların hamısı hüquqi şəxs statusuna malikdir.

«Mülkiyyət haqqında» qanunun 14-cü maddəsi paylı və birgə mülkiyyəti kollektiv mülkiyyətin növləri kimi müəyyən edirdi ki, bununla kollektiv mülkiyyət anlayışı ilə ümumi mülkiyyət anlayışı sinonim anlayışlar kimi mənaca eyniləşdirilirdi. Burada mülkiyyətin bir yox, bir neçə şəxsə məxsus olmasını ifadə etmək üçün ümumi mülkiyyət anlayışı əvəzinə, kollektiv mülkiyyət anlayışı işlədilirdi ki, bunu hüquqi cəhətdən münasib hesab etmək olmaz. Ona görə ki, **kollektiv mülkiyyətdə əmlak vahid hüquq subyekti kimi çıxış edən hər hansı bir kollektivə məxsusdur**. Ümumi mülkiyyət isə subyektin vahidliyi (təkliyi) ilə yox, çoxsaylı olması ilə xarakterizə edilir. Beləliklə, çoxsubyektli mülkiyyət münasibətlərində mülkiyyət bir neçə şəxsə məxsus olur ki, bu şəxslər hüququn vahid subyekti kimi çıxış etmirlər. Bu, ümumi mülkiyyət anlayışına uyğun gəlir. Kooperativ mülkiyyətdə isə əmlak kollektivə (şəxslər qrupuna) məxsus olur. Lakin belə halda kollektiv (şəxslər qrupu) vahid və tək subyekt kimi çıxış edir ki, bu isə subyektlərin çoxsaylı olması ilə xarakterizə olunan ümumi mülkiyyət anlayışına uyğun gəlmir.

§ 2. Ümumi paylı mülkiyyət hüququ

1. Ümumi paylı mülkiyyət hüququnun anlayışı. Ümumi paylı mülkiyyət hüququnun əmələ gəlmə əsasları (üsulları)

Ümumi paylı mülkiyyət hüququ həm obyektiv mənaya, həm də subyektiv mənaya malikdir. **Obyektiv mənada ümumi paylı mülkiyyət hüququ** dedikdə, payları məlum olmaqla ümumi əmlakın eyni vaxtda iki və daha çox şəxsə məxsus olması ilə əlaqədar yaranan münasibətləri tənzimləyən hüquq norma-

---

[1] Müəlliflərin əksəriyyəti real və ideal pay anlayışının ümumi mülkiyyətdə payın hüquqi mahiyyətini əsaslandıra bilməyən konstruksiya olduğu fikrini vurğulayırlar. Bu barədə bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова.* М., 1969, с. 380; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 318; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 580; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 444; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 318; Комментарий к Гражданскому кодексу Российской Федерации. Часть 1 / Под ред. *О.Н.Садикова.* М., 1999, с. 474.

[2] Советское гражданское право. Учебник. Том 1 / Под. ред. *О.А.Красавчикова.* М., 1969, с. 380; Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.А.Рясенцева.* М., 1986.

[3] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998.

[4] Бюллетень Верховного Суда РСФСР. 1980. №9, с. 5 (п.7 «б»).

---

[1] bax: AR QK, I cild, s. 76.

[2] yenə orada, s. 145.

[3] bax: AR QK, I cild, s.151.

larının məcmusu başa düşülür. Bu baxımdan ümumi paylı mülkiyyət hüququ mülki hüququn subinstitutlarından birinə çevrilməklə əşya hüququ yarımsahəsinə daxil olur. Bu subinstitutda birləşən hüquq normaları MM-in 213-221-ci maddələrində ifadə olunmuşdur.

Subyektiv mənada ümumi paylı mülkiyyət hüququ dedikdə, iki və daha artıq şəxsin payları məlum olan ümumi əmlaka özlərinin mülahizəsinə görə, özlərinin istədikləri kimi birgə sahiblik, ondan istifadə və onun barəsində sərəncam hüquqları başa düşülür. Bu baxımdan ümumi paylı mülkiyyət hüququ **subyektiv hüquq kimi** çıxış edir və məzmun etibarilə müəyyən səlahiyyətlərdən ibarətdir. Ümumi paylı mülkiyyət hüququnun məzmununu ümumi əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermək üzrə pay səlahiyyətləri (üçlü səlahiyyət), habelə hər bir mülkiyyətçinin öz payına sərəncam vermək səlahiyyəti təşkil edir.

Ümumi paylı mülkiyyət hüququnun əmələ gəlmə əsasları iki və daha çox şəxsin payları məlum olan ümumi əmlak üzərində onların mülkiyyət hüququ əldə etməsinə səbəb olur. Ümumi mülkiyyətin bu növünün yaranmasını şərtləndirən hüquqi faktlar müxtəlifdir.

Ümumi paylı mülkiyyət hüququ **həm ilkin, həm də törəmə üsullarla** əmələ gələ bilər. İki və ya daha artıq şəxsin **yeni bölünməz əşya hazırlaması və ya yaratması** onların həmin əşya üzərində ilkin üsulla mülkiyyət hüququ qazanmasına səbəb olur. Məsələn, iki və ya daha çox şəxsin ev tikməsi ümumi paylı mülkiyyət hüququnun əmələ gəlməsi üçün əsas sayılır.

Ümumi paylı mülkiyyət hüququ mülkiyyətçisi olmayan daşınar əmlaka beş il müddətində ona öz əmlakı kimi vicdanla və fasiləsiz sahiblik edən iki və daha çox şəxsin bu əmlaka mülkiyyət hüququ əldə etməsi kimi üsul əsasında da yarana bilər (MM-in 181-ci maddəsi, 4-cü bənd). Məsələn, **əldə etmə müddəti əsasında** iki nəfər vətəndaş üçün minik avtomobilinə ümumi paylı mülkiyyət hüququ əmələ gəlir.

Ümumi paylı mülkiyyət hüququnun əldə edilməsində **mülki-hüquqi əqdlər kimi törəmə üsulun** əhəmiyyəti və rolu böyükdür. Söhbət, hər şeydən əvvəl, alqı-satqı müqaviləsindən gedir ki, bu müqavilədə alıcı tərəfində iki və ya bir neçə şəxs iştirak edir. Məsələn, iki nəfər dost bölünməz əmlak olan minik avtomobili almaqla onun üzərində ümumi paylı mülkiyyət hüququ qazanırlar. Belə mülkiyyət hüququ birgə fəaliyyət müqaviləsi əsasında da əmələ gələ bilər. Məsələn, bağda yaşayan üç nəfər qonşu özlərinin şəxsi məişət ehtiyaclarını ödəmək üçün su çıxarmaq məqsədi ilə quyu qazırlar və birgə fəaliyyət haqqında müqavilə bağlayırlar. Birgə fəaliyyət nəticəsində yaranan su quyusu onların ümumi paylı mülkiyyətinə daxil olur.

Törəmə üsullardan olan **vərəsəlik əsasında** da ümumi paylı mülkiyyət hüququ əmələ gələ bilər. Məsələn, bölünməz əmlak olan minik avtomobilinin, yaşayış evinin və b. vərəsəlik qaydasında vərəsələrə keçməsi həmin əmlak növləri üzərində vərəsələrin ümumi paylı mülkiyyət hüququ əldə etmələrinə səbəb olur.

Mülkiyyətçilər paylı mülkiyyətdə olan əşyanın istifadəsindən əldə edilən **bəhər, məhsul və gəlir üzərində də mülkiyyət hüququ əldə edirlər**. Belə ki, göstərilən nemətlər ümumi əmlakın tərkibinə daxil olur və paylı mülkiyyətin

mülkiyyətçilərinin paylarına uyğun surətdə onlar arasında bölüşdürülür (MM-in 216-cı maddəsi). Bu norma dispozitiv xarakterə malikdir, yəni paylı mülkiyyətdə olan əşyanın istifadəsindən götürülən bəhər, məhsul və gəlirin hüquqi taleyi və müqəddəratı barədə mülkiyyətçilərin razılığı ilə başqa qayda da müəyyən edilə bilər.

2. Ümumi paylı mülkiyyət hüququnda payın müəyyən edilməsi

Ümumi paylı mülkiyyət hüququnda hər bir mülkiyyətçinin payının müəyyən edilməsi hüquqi əhəmiyyətə malik olan məsələdir. Mülkiyyətçilərin ümumi əmlakdan istifadə etmələri nəticəsində əldə olunan gəlirlər bölüşdürüldükdə, payın müəyyən edilməsi xüsusilə vacib olur. Bundan əlavə, ümumi mülkiyyət bölündüyü və ya ümumi mülkiyyətdən paylar ayrıldığı hallarda hər bir mülkiyyətçinin hansı pay hissəsinə iddia etməsini müəyyən etmək zərurətə çevrilir. Başqa sözlə desək, mülkiyyətçilər arasında münasibətlərin mülki dövriyyənin tələb etdiyi dəqiqliyə və müəyyənliyə cavab verməsi və uyğun olması üçün gərəkdir ki, onların paylı ümumi mülkiyyət hüququnda paylarının nədə ifadə edilməsi müəyyənləşdirilsin. Bunu nəzərə alaraq, qanun paylı ümumi mülkiyyət hüququnda payların təyin edilməsi qaydasını müəyyən edir (MM-in 214-cü maddəsi).

Müəlliflərin bəziləri ümumi mülkiyyətdə payın hesabla ifadə edilməsini (məsələn, ümumi əmlakın 1/2, 1/3, 1/4 və s. hissələri) göstərirlər[1]. Ümumi mülkiyyətdə payın kəsrlə ifadə edilməsini söyləyən müəlliflərə də rast gəlmək olur (məsələn, ümumi əmlakın 1/2, 2/5, 3/4 və s. hissəsinin mülkiyyətçiyə məxsus olması)[2]. Bəzi müəlliflər isə payın ya kəsrlə, ya da faiz şəklində ifadə olunmasını göstərirlər[3]. Axırıncı fikrin tərəfdarlarının mövqeyi, bizim fikrimizcə, daha əsaslıdır. Məsələn, mülkiyyətçiyə ümumi əmlakın 1/2 hissəsinin məxsus olması və ya ümumi əmlakın 30 faizinin mülkiyyətçilərin birinə mənsub olması ümumi mülkiyyətdə payı ifadə edir.

Paylı ümumi mülkiyyətdə paylar həm bərabər, həm də qeyri-bərabər ola bilər. Əgər paylı mülkiyyət üzrə mülkiyyətçilərin payları MM-ə əsasən təyin edilə bilmirsə və bütün mülkiyyətçilərin razılaşması ilə müəyyənləşdirilməyibsə, paylar bərabər sayılır (MM-in 214-cü maddəsinin 1-ci bəndi).

Paylar, bir qayda olaraq, ümumi mülkiyyət hüquq münasibətləri yaranan anda məlum olur. Bununla belə, paylı mülkiyyətçilərin razılığı və sazişi əsasında onların paylarının müəyyənləşdirilməsi və dəyişdirilməsi qaydası müəyyən edilə bilər. Bu, ümumi mülkiyyətin yaradılmasına və artırılmasına mülkiyyətçilərdən hər birinin qoyduğu mayadan asılı olaraq müəyyən edilir (MM-in 214-cü maddəsinin 2-ci bəndi).

Ümumi əmlakdan istifadə prosesində iştirakçıların payı müxtəlif əsaslara və amillərə görə dəyişə bilər. Məsələn, mülkiyyətçilərdən biri mülkiyyət hüququ-

---

[1] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1969, с. 380; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 579.

[2] Гражданское право. Учебник. Часть 1 / Под. ред. *З.И.Цыбуленко*. М., 1998, с. 318.

[3] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 446; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 318.

nun subyekt tərkibindən çıxır və öz payını digər mülkiyyətçiyə verir. Bunun nəticəsində iştirak etməkdə davam edən mülkiyyətçinin payı artır. Ümumi mülkiyyətdə payın artırılmasını şərtləndirən əsaslardan biri də **mülkiyyətçinin öz hesabına ümumi əmlakı yaxşılaşdıran əlavələr etməsidir**. Belə halda yalnız iki şərt əsasında mülkiyyətçi ümumi mülkiyyət hüququnda öz payının müvafiq surətdə artırılmasını tələb edə bilər. Birinci şərt ondan ibarətdir ki, o, ümumi mülkiyyətdən istifadənin müəyyənləşdirilmiş qaydasına əməl etsin. İkincisi, mülkiyyətçinin etdiyi əlavələr əmlakdan ayrıla bilməsin (MM-in 214-cü maddəsinin 3-cü bəndi).

Mülkiyyətçilərin yerinə yetirdiyi bəzi işləri ümumi əmlakın yaxşılaşdırılmasına yönələn əlavələr hesab etmək olmaz. Məsələn, ümumi mülkiyyətdə olan əşyaya qulluq edilməsi və onun saxlanılmasına yönələn işlər və çəkilən xərclər mülkiyyətçiyə ümumi mülkiyyət hüququnda öz payının müvafiq surətdə artırılmasını tələb etmək ixtiyarı vermir. Ona görə ki, ümumi mülkiyyətdə olan əşyaya qulluq edilməsi və onun saxlanılması xərcləri, MM-də və ya müqavilədə ayrı qayda müəyyənləşdirilməyibsə, mülkiyyətçilərin üzərinə bərabər şəkildə qoyulur (MM-in 213-cü maddəsinin 8-ci bəndi). Əşyaya qulluq etmək və onun saxlanması xərclərini çəkmək mülkiyyətçilərin vəzifəsini təşkil edir.

Əmlakı yaxşılaşdıran şəxs, əgər bunu öz xeyri və mənafeyi üçün edərsə, onda bu cür işi də əmlakı yaxşılaşdıran əlavə hesab etmək olmaz. Məsələn, vərəsəlik qaydasında keçən yaşayış evindən pay kimi ayrılmış otaqların birində mülkiyyətçinin (vərəsənin) həmin otaqdan istifadənin şəraitini yaxşılaşdıran işlər görməsi (adi pəncərə şüşəsinin daha möhkəm şüşə ilə əvəz etməsi, döşəmənin parketini yondurması və s.) payın artırılmasını tələb etmək üçün əsas deyildir.

Yaşayış evinin istifadə üçün yararlı sahənin artırılmasına səbəb olmayan əsaslı təmiri də bu təmiri öz hesabına həyata keçirən mülkiyyətçiyə ixtiyar vermir ki, o, ümumi mülkiyyət hüququnda öz payının artırılmasını tələb etsin. Belə halda o, yalnız çəkdiyi xərclərin əvəzinin digər mülkiyyətçilər tərəfindən ödənilməsini tələb edə bilər[1]. Bununla belə, mülkiyyətçilərdən biri digər mülkiyyətçilərin razılığı ilə yaşayış evində qızdırıcı istilik sistemi düzəldərkən yenidən planlaşdırma əsasında evin ümumi yararlı sahəsi artır. Yenidən planlaşdırma üçün o, müvafiq icazə alır. Bu işi yaşayış evini yaxşılaşdıran əlavə saymaq olar. Belə halda mülkiyyətçi yaşayış evində öz payının artırılmasını tələb edə bilər.

Ümumi mülkiyyət hüququnda öz payının artırılmasını tələb edən mülkiyyətçi ilə digər mülkiyyətçilər arasında yaranan mübahisəyə məhkəmə qaydasında baxılır. Mülkiyyətçilərin razılığı ilə başqa qayda nəzərdə tutulmayıbsa, ümumi mülkiyyəti yaxşılaşdıran və ayrıla bilən əlavələr, onları etmiş mülkiyyətçinin mülkiyyətinə daxil olur (MM-in 214-cü maddəsinin 4-cü bəndi).

3. Paylı ümumi mülkiyyət hüququnun məzmunu və həyata keçirilməsi

Paylı ümumi mülkiyyət hüququnun məzmunu mülkiyyətçilərin özlərinə məxsus ümumi əmlaka öz mülahizəsinə görə paylı sahiblik, əmlakdan paylı istifadə və onun barəsində paylı sərəncam səlahiyyətlərindən, habelə onların

[1] Бюллетень Верховного Суда РСФСР. 1986. №6, с. 1.

öz paylarına sərəncam vermək səlahiyyətlərindən ibarətdir. Hər bir mülkiyyətçi qalan mülkiyyətçilərin hüquqları ilə bir araya sığan dərəcədə əşyaya sahiblik, ondan istifadə və ona dair sərəncam vermək ixtiyarına malikdir (MM-in 215-ci maddəsinin 4-cü bəndi).

Paylı mülkiyyətdə olan **əşyaya sahiblik və ondan istifadə bütün mülkiyyətçilərin razılığı əsasında həyata keçirilir**. Əgər belə razılıq əldə edilməzsə, yaranmış mübahisə məhkəmə qaydasında həll edilir (MM-in 215-ci maddəsinin 1-ci bəndi). Hər bir mülkiyyətçi paylı ümumi mülkiyyət hüququ həyata keçirilərkən bir şəsə malik olur. Bu, payın həcmindən asılı deyildir. Razılıq və ya məhkəmə qərarı nəticəsində ümumi əşyanın hansı konkret hissəsinin mülkiyyətçilərin sahibliyinə və istifadəsinə keçməsi müəyyən edilir. Bu hissə həmin mülkiyyətçilərin ümumi əşyadakı öz paylarına uyğun olmalıdır. Belə halda ümumi mülkiyyət bölünmür (ayrılmır), ancaq mülkiyyətçilərin ümumi əşyanın öz payına uyğun hissəsi onların sahibliyinə və istifadəsinə verilir. Bununla belə, elə hesab etmək olmaz ki, ümumi əşyada mülkiyyətçiyə məxsus olan pay ümumi əmlakın hər hansı konkret hissəsi ilə lokallaşdırılır (məhdudlaşdırılır), əksinə, bu pay bütövlükdə və tam halında ümumi əmlaka şamil edilir.

Mülkiyyətçilərin sahibliyinə və istifadəsinə verilmək üçün ümumi əmlakdan konkret hissə ayrıla da bilər. Belə halda mülkiyyətçilər ümumi əmlakdakı paylarına olan hüquqlarını saxlayırlar, bu hüquqları itirmirlər. Bununla bərabər, onlar ümumi əmlakdan ayrılmış hissəyə hüquq əldə edirlər. Öz hüquqi təbiətinə görə bu hüquq əşya hüququdur[1]. Elə hallar yaranır ki, mülkiyyətçinin ümumi əmlakdakı öz payına uyğun hissəsinin onun sahibliyinə və istifadəsinə verilməsi mümkün olmur. Məsələn, bir otaqdan ibarət olan yaşayış evi iki nəfər vətəndaşın ümumi mülkiyyətindədir. Vətəndaşların biri həmin evdən istifadə və sahiblik hüquqlarını həyata keçirmək üçün öz payına uyğun hissənin ona verilməsini tələb edir. Onun tələbinin yerinə yetirilməsi müşkül məsələyə çevrilir. Belə halda o, ümumi mülkiyyətin digər iştirakçısından müvafiq əvəz (kompensasiya) ödəməyi tələb edə bilər (MM-in 215-ci maddəsinin 2-ci bəndi).

Paylı ümumi mülkiyyət hüququnun məzmununu təşkil edən səlahiyyətlərdən biri ümumi əmlak barəsində sərəncam səlahiyyətidir. Paylı mülkiyyətdə olan əmlaka dair **sərəncam verilməsi əşyanın bütün mülkiyyətçilərinin razılaşması əsasında həyata keçirilir** (MM-in 215-ci maddəsinin 5-ci bəndi). Belə təsəvvür yaranır ki, mülkiyyətçilərin ümumi əmlak barəsində sərəncam səlahiyyətləri müstəsna dərəcədə onların özləri tərəfindən müəyyən edilir. Sahiblik və istifadə səlahiyyətlərindən fərqli olaraq, sərəncam səlahiyyəti üzrə əmələ gələn mübahisələrə məhkəmə qaydasında baxılmır. Mülkiyyətçilər paylı mülkiyyətdə olan ümumi əmlak barəsində sərəncam verməklə onun hüquqi taleyini və müqəddəratını həll edirlər. Sərəncam səlahiyyətindən istifadə etməklə mülkiyyətçilər ümumi əmlakı sata, dəyişdirə, bağışlaya və s. bilərlər. Bununla belə, onlar mülkiyyət hüququnu saxlamaqla ümumi əmlakı istifadəyə də verə bilərlər. Məsələn, icarə müqaviləsi əsasında ümumi əmlak haqqı ödənilməklə digər şəxslərin istifadəsinə verilir. Başqa bir misalda paylı mülkiyyət-

[1] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 448; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 321.

də olan əmlakın əvəzsiz olaraq digər şəxslərin istifadəsinə verilməsi ssuda (əmlakdan əvəzsiz istifadə) müqaviləsi ilə rəsmiləşdirilir. Lakin ümumi mülkiyyətdə olan əmlak barəsində sərəncam verilməsinin bütün hallarında mülkiyyətçilərin razılığı tələb olunur; mülkiyyətçilərdən heç biri müstəqil surətdə, digər mülkiyyətçilərin razılığı olmadan əmlaka sərəncam verə bilməz[1].

Paylı ümumi mülkiyyət hüququnun məzmununu təşkil edən səlahiyyətlərdən biri **mülkiyyətçilərin öz payları barəsində sərəncam səlahiyyətidir**. Lakin ümumi əmlak barəsində sərəncam səlahiyyətindən fərqli olaraq, belə səlahiyyətin həyata keçirilməsi üçün mülkiyyətçilərin razılığı tələb olunmur. Mülkiyyətçinin öz payı üzrə sərəncam səlahiyyəti onu öz mülahizəsinə görə özgəninkiləşdirməsini və digər hüquqi hərəkətlərin edilməsini ifadə edir. Payı özgəninkiləşdirmə həm əvəzli, həm də əvəzsiz xarakterdə ola bilər. Beləliklə, bu səlahiyyət əsasında paylı mülkiyyətin mülkiyyətçisi öz payını sata, bağışlaya, vəsiyyət edə, girov qoya bilər və ya ona dair başqa sərəncam verə bilər (MM-in 215-ci maddəsinin 6-cı bəndi).

Pay **həm üçüncü şəxsə, həm də paylı mülkiyyətin qalan mülkiyyətçilərinə satıla və ya dəyişdirilə bilər**. Açıq hərracdan satış halı istisna olmaqla, paylı mülkiyyətin yerdə qalan iştirakçılarının payı almaqda (və ya dəyişməkdə) üstünlük hüququ vardır (MM-in 218-ci maddəsinin 1-ci bəndi). Açıq hərracdan satış o vaxt həyata keçirilir ki, borclu mülkiyyətçinin payına kreditorun tələbləri yönəldilsin və payın naturada ayrılması mümkün olmasın və ya paylı mülkiyyətin digər iştirakçıları buna etiraz etsinlər. Kreditor tələb edir ki, borclu mülkiyyətçi öz payını bazar qiyməti ilə ümumi mülkiyyətin qalan iştirakçılarına satsın və satışdan əldə edilmiş vəsait borcun ödənilməsinə yönəldilsin. Ümumi mülkiyyətin qalan mülkiyyətçiləri (iştirakçıları) borclunun payını almaqdan imtina etdikdə, kreditorun ixtiyarı vardır ki, tutmanın borclunun ümumi mülkiyyət hüququndakı payına onun açıq hərracdan satılması yolu ilə yönəldilməsini məhkəmə qaydasında tələb etsin (MM-in 224-cü maddəsinin 2-ci bəndi).

Payın satılması (və ya dəyişdirilməsi) müəyyən qayda əsasında həyata keçirilir ki, bu qayda MM-in 218-ci maddəsi ilə müəyyən edilir. Bu qaydaya əsasən, payın satıcısı və ya payı dəyişdirən şəxs paylı mülkiyyətin digər qalan iştirakçılarına **yazılı məlumat (bildiriş)** verir. Yazılı məlumatda (bildirişdə) pay satıcısının öz payını üçüncü şəxsə satmaq (və ya dəyişdirmək) niyyəti ifadə edilir. Bundan əlavə, bildirişdə payın qiyməti və digər satış şərtləri göstərilir. Qanun paylı mülkiyyətin qalan iştirakçılarına payı əldə etməyə görə daşınmaz əmlak üçün 45 gün, daşınar əmlak üçün isə 15 gün müddət müəyyən edir. Bu müddət bildirişin verildiyi gündən hesablanır. Əgər göstərilən həmin müddət ərzində paylı mülkiyyətin digər iştirakçıları payı əldə etməzlərsə, onda satıcı öz payını istənilən üçüncü şəxsə sata bilər (MM-in 218-ci maddəsinin 2-ci bəndi). Onlar daşınmaz əmlaka mülkiyyət hüququndakı satılan payı satın almaqdan imtina etdikləri halda da, satıcı öz payını kənar üçüncü şəxslərə satmaq ixtiyarına malikdir.

Pay, payı satın almaqda üstünlük hüququ pozulmaqla satıla bilər. Belə halda paylı mülkiyyətin hər hansı digər iştirakçısı pozulmuş hüquqlarının bərpa

[1] bax: Советское гражданское право. Учебник. Том 1/ Под ред. *В.П. Грибанова, С.М. Корнеева*. М., 1979, с. 421.

edilməsi məqsədi ilə məhkəməyə müraciət etmək ixtiyarına malik olur. O, məhkəməyə üç ay müddətində müraciət edə bilər.

Payın paylı mülkiyyətin digər iştirakçılarına satılması iştirakçıların sayının azalmasına, payı əldə edənin isə payının satın alınmış pay hesabına artırılmasına səbəb olur. Payın kənar üçüncü şəxslərə satılması isə yalnız ümumi mülkiyyət hüququ münasibətlərinin subyekt tərkibinin dəyişməsi üçün əsas olur. Belə halda payların həcmi, onların arasındakı nisbət dəyişilmir və olduğu kimi qalır.

Qanun mülkiyyətçinin paylı ümumi mülkiyyət hüququndakı payını müqavilə üzrə özgəninkiləşdirdiyi halda bu **payın əldə edənə keçməsi anını** müəyyən edir. Pay müqavilənin bağlandığı andan müqavilə üzrə əldə edənə keçir (MM-in 219-cu maddəsinin 1-ci bəndi). Payın əldə edənə keçməsi barədə tərəflərin saziş və razılığı ilə başqa qayda da nəzərdə tutula bilər. Bəzi pay növlərinin özgəninkiləşdirilməsini nəzərdə tutan elə müqavilələr vardır ki, bu müqavilələr yalnız notariat qaydasında təsdiqləndikdən sonra və daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alındığı andan hüquqi əhəmiyyətə malik olur (məsələn, yaşayış evindəki pay özgəninkiləşdirilərkən müqavilə notariat qaydasında təsdiqlənir və dövlət reyestrində qeydə alınır). Həmin müqavilələr üzrə ümumi paylı mülkiyyət hüququndakı payın əldə edənə keçməsi anı müqavilədən irəli gələn hüququn dövlət qeydiyyatına alındığı vaxtla müəyyən edilir.

Payı satın almaqda üstünlük hüququnun güzəşt edilməsinə yol verilmir (MM-in 218-ci maddəsinin 4-cü bəndi).

4. Paylı mülkiyyətdə olan əşyanın bölünməsi və ondan payın ayrılması paylı mülkiyyət hüququna xitam verilməsinin əsası kimi

Paylı ümumi mülkiyyət hüququna həm ümumi, həm də xüsusi əsaslarla xitam verilir. **Ümumi əsaslar (üsullar)** odur ki, belə əsaslar bütün — həm birsubyektli, həm də çoxsubyektli mülkiyyət hüquq münasibətlərinə xitam verilməsini şərtləndirir. **Xüsusi əsaslar (üsullar)** dedikdə, yalnız mülkiyyət hüququnun xüsusi növü olan ümumi mülkiyyətin xitam olunmasını şərtləndirən əsaslar başa düşülür. Belə üsullara aiddir: paylı mülkiyyətdə olan əmlakın bölünməsi; paylı mülkiyyətdən payın ayrılması.

Paylı mülkiyyətdə olan əmlakın bölünməsi üsulunun mahiyyəti ondan ibarətdir ki, bu, bütün mülkiyyətçilərin mülkiyyət hüququna xitam verilməsi üçün əsas olur. Paylı mülkiyyətdə olan əşya mülkiyyətçilər arasındakı razılaşmaya əsasən onlar arasında bölünə bilər (MM-in 220-ci maddəsinin 1-ci bəndi).

Paylı mülkiyyətdə olan əmlakdan payın ayrılması üsulunun mahiyyəti ondan ibarətdir ki, bu, ümumi paylı mülkiyyətdə bütün iştirakçıların yox, yalnız öz payının ayrılmasını tələb edən mülkiyyətçinin mülkiyyət hüququna xitam verilməsini şərtləndirir. Paylı mülkiyyətin mülkiyyətçisi isə qanuna görə öz payının ayrılmasını tələb edə bilər (MM-in 220-ci maddəsinin 2-ci bəndi). Özü də dərhal qeyd edirik ki, paylı ümumi mülkiyyətdə iki subyekt iştirak edərsə və öz payının ayrılmasını tələb edən subyekt müvafiq kompensasiya (əvəz) alarsa, belə halda hər iki subyektin ümumi paylı mülkiyyət hüququna xitam verilir.

Paylı mülkiyyətdə olan əmlakın bölünməsini və ondan payın ayrılmasını birbirindən fərqləndirmək lazımdır. Ümumi əmlakın bölünməsində bütün mülkiyyət-

çilər naturada pay almaq hüququnu realizə edirlər və onlara verilən əmlakın təkbaşına mülkiyyətçisi olurlar. Bununla onların iştirak etdikləri paylı ümumi mülkiyyət hüquq münasibətlərinə xitam verilir. Ümumi əmlakdan payın ayrılmasında yalnız payın ayrılmasını tələb edən mülkiyyətçinin pay almaq hüququ gerçəkləşdirilir və onun üçün mülkiyyət hüququna xitam verilir. Qalan iştirakçılar isə ümumi paylı mülkiyyət hüququnu həyata keçirməkdə davam edirlər (iki subyekt tərkibindən ibarət olan mülkiyyət münasibətləri istisna olmaqla).

Paylı mülkiyyətdə olan **əmlakın bölünməsi və ondan payın ayrılması qaydaları** müxtəlifdir. Qanun iki cür qaydanın olmasını nəzərdə tutur: qarşılıqlı razılaşma qaydası; məhkəmə qaydası.

Qarşılıqlı razılaşma qaydasının mahiyyəti ondan ibarətdir ki, ümumi əmlakın bölünməsi və ya ondan payın ayrılması üsulu və şərtləri mülkiyyətçilərin sazişi əsasında həll edilir. Hər bir iştirakçı öz aralarındakı razılaşma əsasında naturada paya sahib olur.

Məhkəmə qaydasının mahiyyəti ondan ibarətdir ki, mülkiyyətçilər ümumi əmlakın bölünməsi və ya ondan payın ayrılması üsulu və şərtləri haqqında razılığa gələ bilmədikdə, payın naturada ayrılması üçün onlar məhkəməyə müraciət edirlər. Məhkəmə ümumi əmlakın bölünməsinin və ya ondan pay ayrılmasının açıq-aşkar məqsədəuyğun olmadığı qənaətinə gələ bilər. Belə halda məhkəmə ümumi əmlakın açıq hərracdan satılması haqqında qərar qəbul edir. Məhkəmə qərarına əsasən, ümumi əmlak açıq hərracdan satılır və satışdan əldə edilən pul mülkiyyətçilər arasında bölünür. Satış pulu bölüşdürülərkən mülkiyyətçilərin paylarına mütənasiblik prinsipinə əməl olunur.

Bəzi hallarda öz payının naturada ayrılmasını tələb edən mülkiyyətçiyə naturada pay əvəzinə, bu **payın dəyərinə uyğun müvafiq kompensasiya (əvəz) ödənilir**. Bu, qanunla müəyyən edilən iki halda mümkün olur: payın naturada ayrılmasına qanun yol vermirsə; payın naturada ayrılması ümumi mülkiyyətdə olan əmlaka qeyri-mütənasib, uyğun gəlməyən zərər vurarsa.

Kompensasiyanın ödənilməsi **yalnız ayrılan mülkiyyətçinin razılığı** ilə həyata keçirilə bilər[1]. Bəzi hallarda kompensasiya ödənişinin verilməsi üçün mülkiyyətçinin razılığı tələb olunmur. Bu, aşağıdakı şərtlər olduqda mümkün olur: mülkiyyətçinin payı cüzi olduqda; pay real surətdə ayrıla bilmədikdə; ümumi əmlakdan istifadə edilməsində mülkiyyətçinin mühüm mənafeyi olmadıqda. Bu üç şərt olduqda, məhkəmə mülkiyyətçinin razılığı olmadan paylı mülkiyyətin qalan iştirakçılarının öhdəsinə ona kompensasiya ödənilməsi vəzifəsini qoyur (MM-in 220-ci maddəsinin 4-cü bəndi)[1]. Paylı mülkiyyətin mülkiyyətçisinə naturada pay ayrılması əvəzinə verilən kompensasiya həm müvafiq pul məbləğində, həm də maddi xarakterli digər nemətlərdə ifadə oluna bilər. Kompensasiya aldığı andan mülkiyyətçinin mülkiyyət hüququna xitam verilir.

Elə hallar olur ki, ümumi əmlakdan payın ayrılmasını mülkiyyətçinin özü yox, onun kreditoru tələb edir. Bu, o vaxt mümkün olur ki, paylı mülkiyyətin iştirakçısı hər hansı bir öhdəlik münasibətində (məsələn, borc, nisyə alqı-satqı və s. münasibətlərdə) borclu şəxs qismində çıxış edir və onun başqa əmlakı kreditorun tələblərini ödəmək üçün kifayət etmir. Belə halda **kreditorun tələbləri borclu mülkiyyətçinin paylı ümumi mülkiyyətindəki payına yönəlir**.

Kreditorun irəli sürdüyü tələblərin ödənilməsi müəyyən prosessual qaydada həyata keçirilir ki, bu qaydalar MM-in 224-cü maddəsində göstərilmişdir. Hər şeydən əvvəl, kreditorun tələbi ilə borclu mülkiyyətçi öz payını bazar qiyməti ilə ümumi paylı mülkiyyətin qalan digər iştirakçılarına satır. Payın satışından əldə edilmiş vəsait kreditorun tələblərini ödəmək üçün ona verilir. Göstərilən bu qayda o vaxt tətbiq edilir ki, payın naturada ayrılması mümkün olmasın və ya paylı mülkiyyətin qalan digər iştirakçıları buna etiraz etsin. Əgər paylı mülkiyyətin qalan mülkiyyətçiləri borclunun payını almaqdan imtina etdikdə, kreditor iddia ilə məhkəməyə müraciət edir. Kreditor iddia ərizəsində məhkəmədən xahiş edir ki, borclunun ümumi mülkiyyət hüququndakı payı açıq hərracdan satılsın. Məhkəmə qərarı əsasında pay açıq hərracdan satılır və əldə edilən satış pulu hesabına kreditorun tələbi ödənilir.

§ 3. Ümumi birgə mülkiyyət hüququ

1. Ümumi birgə mülkiyyət hüququnun anlayışı və xüsusiyyətləri

Ümumi birgə mülkiyyət hüququ həm obyektiv, həm də subyektiv mənaya malikdir. **Obyektiv mənada ümumi birgə mülkiyyət hüququ** dedikdə, əvvəlcədən payları məlum olmayan ümumi əmlakın eyni vaxtda mülkiyyət hüququ əsasında iki və ya daha artıq şəxsə məxsus olması ilə əlaqədar yaranan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Obyektiv mənada ümumi birgə mülkiyyət hüququ **ümumi birgə mülkiyyət hüququ subinstitutu** ilə əhatə olunur. Bu baxımdan o, bir subinstitut kimi mülkiyyət hüququna tərkib hissəsi kimi daxil olur.

Subyektiv mənada ümumi birgə mülkiyyət hüququ dedikdə, iki və ya daha çox subyektin ona mənsub olan, əvvəlcədən payları müəyyənləşdirilməyən ümumi əmlaka öz mülahizəsinə görə, öz istədiyi kimi sahib olmaq, ondan

[1] Bu qayda MM-in 220-ci maddəsinin 4-cü bəndində ifadə edilmişdir. Göstərilən analoji qayda RF-in 252-ci maddəsinin 3-cü bəndində də göstərilmişdir. Bu maddədə ifadə olunmuş müddəanı ayrılan mülkiyyətçiyə onun razılığı olmadan pul kompensasiyası verilməsi barədə məhkəmənin hüququ kimi təfsir edirlər. Bu fikirlə çətin ki, razılaşmaq olar (bax: Комментарий части первой ГК РФ для предпринимателей. М., 1995, с. 256).

[1] MM-in 215-ci maddəsinin 5-ci bəndində göstərilir ki, paylı mülkiyyətdə olan əşyaya dair sərəncam verilməsi əşyanın bütün mülkiyyətçilərinin razılaşması əsasında həyata keçirilir. Bu maddədə ifadə olunan qayda imperativ xarakterlidir. Qanun bu qaydadan müəyyən istisnaya yol verilməsini nəzərdə tutmur. Buna görə də MM-in digər iştirakçıların öhdəsinə mülkiyyətçiyə kompensasiya ödənilməsi vəzifəsini qoymasını nəzərdə tutan 220-ci maddəsinin 4-cü bəndini qüsurlu hesab edirik. Bu maddənin qüsurlu olmasını bəzi müəlliflər də göstərmişlər. Bu barədə bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1996, с. 386; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 321.

istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan birgə səlahiyyətləri başa düşülür. Bu baxımdan subyektiv mənada birgə mülkiyyət hüququ **subyektiv hüquq** kimi çıxış edir.

Ümumi birgə mülkiyyət hüququ müəyyən xüsusiyyət və əlamətlərlə xarakterizə olunur. **Birincisi**, vətəndaşlar arasındakı **şəxsi etibar münasibətləri** bu cür mülkiyyətin yaranma şərti kimi çıxış edir. Şəxsi etibar münasibətləri nikaha girmək (ər-arvadın mülkiyyəti), kirayəçi ilə birlikdə yaşamaq və onun ailə üzvünə daxil olmaq (özəlləşdirilmiş mənzillərin ailə üzvlərinin ümumi birgə mülkiyyəti) kimi faktlara əsaslanır. **İkincisi**, ümumi birgə mülkiyyət hüququnun **subyekti rolunda yalnız vətəndaşlar çıxış edə bilərlər**. Mülki hüququn digər subyektlərinin — dövlətin, bələdiyyələrin və hüquqi şəxslərin ümumi birgə mülkiyyət hüququnda subyekt qismində iştirakı istisna edilir. Ümumi birgə mülkiyyət bu cür subyekt tərkibi ilə (dövlət, bələdiyyələr və hüquqi şəxslər), ümumiyyətlə, əmələ gəlmir. **Üçüncüsü**, birgə mülkiyyətdə paylı mülkiyyətdən fərqli olaraq, **qabaqcadan paylar müəyyənləşdirilməmiş (naməlum) olur**. Yalnız pay birgə mülkiyyətdə olan ümumi əmlak bölündükdə və ya ondan pay ayrıldıqda müəyyən edilir.

Dördüncüsü, birgə mülkiyyət paylı mülkiyyətdən fərqli olaraq, **yalnız qanunda nəzərdə tutulan hallarda yaranır**. Əşyaya ümumi mülkiyyət, qanunvericilikdə həmin əşyaya birgə mülkiyyət yaranmasının nəzərdə tutulduğu hallar istisna olmaqla, paylı mülkiyyətdir (MM-in 213-cü maddəsinin 3-cü bəndi). Bu normadan belə çıxır ki, birgə mülkiyyətin növləri, onun əmələ gəlmə əsasları, habelə mülkiyyətçilərin dairəsi qanunla müəyyən edilir.

Beşincisi, ümumi birgə mülkiyyət **paysız mülkiyyətdir**. Ona görə bəzi vaxt onu paysız mülkiyyət adlandırırlar. Paylar yalnız ümumi əmlak bölündükdə və ya ondan pay ayrıldıqda müəyyən edilir. Paylar həm bərabər, həm də qeyri-bərabər ola bilər. Ümumi əşya bölünərkən və ondan pay ayrılarkən mülkiyyətçilərin payları, əgər onların razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, bərabər sayılır (MM-in 223-cü maddəsinin 3-cü bəndi). Bununla mülki qanunvericilik payların bərabərliyi prezumpsiyasını müəyyən edir. Belə ki, ümumi əşyanın bölünməsi və ondan pay ayrılması zamanı, əksi sübut olunana kimi, paylar bərabər hesab edilir.

2. Ümumi birgə mülkiyyət hüququnun məzmunu və həyata keçirilməsi

Ümumi birgə mülkiyyət hüququnun məzmunu üçlü səlahiyyətdən — birgə mülkiyyətdə olan ümumi əmlaka sahiblik, ondan istifadə və ona dair sərəncam verilməsi səlahiyyətlərindən ibarətdir. Ümumi əmlaka sahiblik və ondan birgə istifadə səlahiyyətləri birgə mülkiyyət iştirakçıları tərəfindən birgə həyata keçirilir. Əgər birgə mülkiyyətin mülkiyyətçiləri arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onlar ümumi əmlaka **birgə sahiblik edir və ondan birgə istifadə edirlər** (MM-in 222-ci maddəsinin 1-ci bəndi).

Ümumi əmlak üzərində **sərəncam səlahiyyətinə** gəldikdə isə bu səlahiyyət birgə mülkiyyət **iştirakçılarının qarşılıqlı sazişi əsasında** gerçəkləşdirilir. Birgə mülkiyyətdə olan əşyaya dair sərəncam bütün mülkiyyətçilərin razılığı ilə həyata keçirilir (MM-in 222-ci maddəsinin 2-ci bəndi). Ümumi əmlaka dair sərəncam verilməsi haqqında əqd birgə mülkiyyətin hər hansı iştirakçısı tərəfindən bağlana bilər. Belə halda ehtimal olunur ki, həmin iştirakçı digər mülkiyyətçilərin razılığı ilə hərəkət edir. Beləliklə, birgə mülkiyyətin hər bir mülkiyyətçisi, əgər bütün mülkiyyətçilərin razılaşmasından ayrı qayda irəli gəlmirsə, ümumi əşyaya dair sərəncam verilməsi haqqında əqdlər bağlaya bilərlər (MM-in 222-ci maddəsinin 3-cü bəndi).

Mülki dövriyyənin sabitliyini və möhkəmliyini təmin etmək məqsədi ilə qanun birgə mülkiyyətdə olan əmlaka dair sərəncam verilməsi haqqında əqdlərin etibarsız sayılmasını şərtləndirən halı müəyyən edir. Belə əqdlərin etibarsız hesab edilməsi üçün iki şərtin olması vacibdir. Birinci şərt ondan ibarətdir ki, əqd bağlayan mülkiyyətçinin bu **əqdi bağlamağa kifayət qədər lazımi səlahiyyəti olmasın**. İkincisi, əqddə iştirak edən digər tərəfin (kontragentin) mülkiyyətçinin əqdi bağlamaq üçün lazımi səlahiyyətinin olmasını bildiyi və ya bilməli olduğu sübuta yetirilsin. Belə halda sübutetmə yükü əqdin etibarsız sayılmasını tələb edən tərəfin üzərinə düşür.

3. Birgə ümumi mülkiyyət hüququnun əmələ gəlmə və xitam edilmə əsasları

Birgə mülkiyyət hüququnun əmələ gəlmə əsasları paylı mülkiyyət hüququnun əmələ gəlmə əsaslarının eynidir, bu şərtlə ki, qanunda başqa hal müəyyən edilməsin və ya birgə mülkiyyət hüquq münasibətlərinin özünün mahiyyətindən başqa qayda irəli gəlməsin. Paylı mülkiyyət hüququ kimi bu növ mülkiyyət hüququ da müxtəlif hüquqi faktların əsasında əmələ gəlir. Ümumi birgə mülkiyyət hüququnun əmələ gəlməsini şərtləndirən əsaslara (üsullara) aiddir: **mülki-hüquqi əqdlər**; **özəlləşdirmə**; **nikah**; **kəndli (fermer) təsərrüfatının yaradılması (qeydiyyatı) və aparılması**; **vərəsəlik**.

Özəlləşdirmə üsulu ilə mənzillər (evlər) mənzil kirayə müqaviləsində göstərilmiş və kirayəçi ilə birlikdə faktiki yaşayan onun yetkinlik yaşına çatmış ailə üzvlərinin razılığı ilə onlardan bir neçəsinin və yaxud bütün ailə üzvlərinin ümumi (paylı, birgə) mülkiyyətinə verilə bilər. Bu qayda «Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında» qanunun (1993) 5-ci maddəsində nəzərdə tutulmuşdur[1]. Bu norma dispozitiv xarakterə malikdir. Belə təsəvvür yaranır ki, özəlləşdirilən mənzil yetkinlik yaşına çatmış ailə üzvlərinin istəyindən asılı olaraq **həm paylı, həm də birgə mülkiyyətin obyekti** ola bilər.

Analoji qayda kəndli (fermer) təsərrüfatının əmlakı barəsində də tətbiq edilirdi. Belə ki, «Kəndli (fermer) təsərrüfatı haqqında» qanunun 23-cü maddəsinə görə, kəndli (fermer) təsərrüfatının əmlakı, qanunvericilikdə və ya təsərrüfatın üzvlərinin bağladığı müqavilədə başqa hal nəzərdə tutulmadıqda, paylar məlum olmaqla xüsusi mülkiyyət hüququ əsasında onun bütün üzvlərinə aid idi[2]. Göründüyü kimi, bu maddədə nəzərdə tutulan norma da dispozitiv xarakterə malikdir. Bu, onu ifadə edirdi ki, kəndli (fermer) təsərrüfatının əmlakı həm paylı, həm də birgə mülkiyyət hüququnun obyekti ola bilər. Bu, qanunun göstərişlərindən və ya kəndli (fermer) təsərrüfatı üzvlərinin iradəsindən asılı olur.

[1] bax: AR QK, II cild, s. 33-34.
[2] bax: AR QK, I cild, s. 339.

Qanunda başqa hal nəzərdə tutulmadıqda, birgə mülkiyyət hüququna paylı mülkiyyət hüququ kimi eyni əsaslarla (üsullarla) xitam verilir. Paylı mülkiyyət hüququ kimi birgə mülkiyyət hüququ **həm ümumi əsaslarla, həm də xüsusi əsaslarla xitam edilir**. Birgə mülkiyyətə xitam verilməsini şərtləndirən xüsusi əsaslara şamil olunur: **birgə mülkiyyətdə olan əmlakın bölünməsi; birgə mülkiyyətdən pay ayrılması**. Birgə mülkiyyət hüququna bu əsaslarla yalnız mülkiyyətçilərdən hər birinin payı qabaqcadan müəyyənləşdirildikdən sonra xitam verilir. Ümumi əmlak bölünməklə və ya ondan pay ayrılmaqla birgə mülkiyyət hüququna xitam verilərkən mülkiyyətçilərin payları bərabər sayılır (MM-in 223-cü maddəsinin 3-cü bəndi). Bu qayda dispozitiv xarakter daşıyır. Bu, o deməkdir ki, birgə mülkiyyət iştirakçılarının sazişi ilə payların miqdarı barədə başqa qayda da nəzərdə tutula bilər.

Birgə mülkiyyət hüququnun obyekti olan ümumi əmlakın bölünməsi və ondan pay ayrılması paylı mülkiyyət hüququnda olduğu kimi analoji qaydada və əsaslarla həyata keçirilir. Göstərilən qayda və əsaslar MM-in 220-ci maddəsində nəzərdə tutulmuşdur.

Paylı mülkiyyət hüququnda olduğu kimi birgə mülkiyyət hüququnda da mülkiyyətçinin başqa əmlakı kifayət etmədikdə, **kreditor öz tələblərini və iddialarını onun ümumi əmlakdakı payına yönəldə bilər**. Birgə mülkiyyətdəki pay hesabına kreditorların tələblərinin ödənilməsi qaydası MM-in 224-cü maddəsində nəzərdə tutulmuşdur.

Birgə mülkiyyət hüququnun xitam edilməsinin əsaslarından biri **ümumi əmlakın özgəninkiləşdirilməsidir** (MM-in 223-cü maddəsinin 1-ci bəndi). Söhbət alqı-satqı, bağışlama, dəyişmə və s. mülki-hüquqi əqdlərdən gedir. Bununla bərabər, birgə mülkiyyət hüququna **birgə mülkiyyətin əmələ gəlməsinə əsas olmuş ümumiliyin mövcudluğuna son qoyulması** ilə də xitam verilə bilər (MM-in 223-cü maddəsinin 1-ci bəndi). Birgə mülkiyyətin əmələ gəlməsi üçün əsas olmuş ümumilik şərtlərinə nikahı, kəndli (fermer) təsərrüfatının qeydiyyata alınmasını və bu təsərrüfatın aparılmasını, kirayəçi ilə birlikdə yaşamağı və onun ailə üzvü olmasını aid etmək olar. Məsələn, nikah pozulduqda, kəndli (fermer) təsərrüfatının fəaliyyətinə xitam verildikdə və s. birgə mülkiyyət hüququ xitam olunur. Beləliklə, birgə mülkiyyət hüququnun əmələ gəlmə şərtləri olan şəxsi etibar münasibətlərinin (ümumiliyin) mövcudluğuna son qoyulduqda, bu mülkiyyət hüququ xitam edilir.

4. Birgə ümumi mülkiyyət hüququnun növləri

Qüvvədə olan qanunvericilikdə birgə mülkiyyətin **iki növü fərqləndirilir**: **özəlləşdirilmiş mənzilə olan birgə mülkiyyət; ər-arvadın birgə mülkiyyəti**. Özəlləşdirilmiş mənzilə olan mülkiyyət həm də paylı mülkiyyət növündə ola bilər.

Birgə mülkiyyətin növlərindən yalnız ər-arvadın ümumi mülkiyyəti barədə normalar MM-də göstərilmişdir (MM-in 225-ci maddəsi). Bu mülkiyyətin digər növü, yəni özəlləşdirilmiş mənzilə olan mülkiyyətdə olan ümumi əmlakın hüquqi rejimi xüsusi qanunla müəyyən edilir. Söhbət, «Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında» qanundan (1993) gedir. MM-də mülkiyyətin bu növü barədə konkret normalar yoxdur.

Qüvvədən düşmüş «Kəndli (fermer) təsərrüfatı haqqında» qanunun 23-cü maddəsi kəndli (fermer) təsərrüfatı üzvlərinin əmlakı barəsində ümumi paylı mülkiyyət rejimi müəyyən edirdi. Həmin maddənin göstərişlərindən belə təsəvvür yaranırdı ki, kəndli (fermer) təsərrüfatı üzvlərinin malik olduğu əmlak barəsində birgə mülkiyyət rejimi müəyyən edilməsinin mümkünlüyü istisna edilmir. Başqa sözlə desək, qanuna görə kəndli (fermer) təsərrüfatının mülkiyyəti həm paylı ümumi mülkiyyət, həm də birgə ümumi mülkiyyət növündə ola bilərdi.

5. Özəlləşdirilmiş mənzil üzrə birgə mülkiyyət hüququ

Vətəndaşların dövlət və ya ictimai mənzil fondunun mülkiyyətçisi ilə bağladığı kirayə müqaviləsi əsasında yaşadıqları mənzilləri (evləri) «Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında» qanunla müəyyən edilmiş şərtlərlə və qaydada əvəzsiz olaraq xüsusi (şəxsi) mülkiyyətinə keçirmək hüququ vardır[1]. Belə halda mənzillər (evlər) **ailə üzvlərinin bir neçəsinin və yaxud bütün ailə üzvlərinin həm paylı, həm də birgə mülkiyyətinə verilə** bilər. Bunun üçün zəruridir ki, mənzil kirayə müqaviləsində göstərilmiş və kirayəçi ilə birlikdə faktiki yaşayan onun yetkinlik yaşına çatmış ailə üzvləri razılıq versinlər.

Mənzilə ümumi birgə mülkiyyət hüququnun subyektləri kimi yalnız kirayəçi və kirayəçi ilə birlikdə faktiki yaşayan onun yetkinlik yaşına çatmış ailə üzvləri çıxış edə bilərlər. Yetkinlik yaşına çatmayanların subyekt qismində iştirak etmələri istisna olunur. Elə hallar da olur ki, **birgə mülkiyyətin iştirakçıları kimi bütün ailə üzvləri yox, bir neçə ailə üzvü çıxış edir**. Lakin bütün hallarda birgə mülkiyyət hüququ subyektlərinin dairəsinin konkretləşdirilməsi ailə üzvlərinin razılığı ilə müəyyən edilir.

Mənzilləri (evləri) öz mülkiyyətinə almış vətəndaşlar yetkinlik yaşına çatmış ailə üzvlərinin razılığı ilə bu mənzillərə (evlərə) öz mülahizələrinə görə sahiblik edir və onlar barəsində sərəncam verirlər: onları vəsiyyət edə bilər, sata bilər, bağışlaya bilər, icarəyə verə bilər, onların barəsində qanunvericiliyə zidd olmayan başqa əqdlər bağlaya bilərlər («Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında» qanunun 12-ci maddəsi)[2]. Lakin birgə mülkiyyət hüququnu həyata keçirərkən bu mülkiyyətin iştirakçıları üçüncü şəxslərin hüquqlarına və qanuni mənafeyinə xələl gətirən hərəkətlər etməməlidirlər.

6. Ər-arvadın birgə ümumi mülkiyyəti

Ər-arvadın ümumi mülkiyyətində olan əmlakın hüquqi rejimi MM-in 225-ci, AM-in 31-37-ci maddələri ilə müəyyən edilir. Ər-arvadın birgə ümumi mülkiyyət hüququnun obyekti kimi **birgə nikah dövründə əldə edilən və qazanılan əmlak** çıxış edir. Ərlə arvadın nikah dövründə qazandıqları əmlak, əgər nikah kontraktında və ya onlar arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onların ümumi mülkiyyətidir (MM-in 225-ci maddəsinin 1-ci bəndi). Nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır (AM-in 32-ci maddəsinin 1-ci bəndi).

Ər-arvadın birgə mülkiyyətinə onların hər birinin qanunla qadağan edilmə-

[1] bax: AR QK, II cild, s. 33.
[2] bax: AR QK, II cild, s. 35.

yən fəaliyyət (əmək, sahibkarlıq və ya intellektual fəaliyyət) nəticəsində əldə etdikləri gəlirlər, aldıqları pensiya və müavinətlər, onların ümumi gəlirləri hesabına əldə edilən əşyalar, qiymətli kağızlar, kredit idarələrinə qoyulmuş paylar, əmanətlər və nikah dövründə ər-arvadın qazandığı hər hansı sair əmlak daxil ola bilər. Özü də dərhal qeyd etmək istəyirik ki, müxtəlif üzrlü səbəblərə görə, məsələn, uşaqlara qulluq göstərməklə, ev təsərrüfatını idarə etməklə məşğul olduğuna və s. görə müstəqil qazancı olmayan ər və ya arvad ümumi əmlak üzərində birgə mülkiyyət hüququ qazanır.

Ər-arvadın birgə mülkiyyət hüququnun obyekti kimi çıxış edə bilməz: **nikaha girənədək ər-arvadın hər birinə mənsub olmuş əmlak**; ər-arvaddan birinin nikah dövründə **hədiyyə kimi və ya vərəsəlik qaydasında, digər əvəzsiz ədlər üzrə əldə etdikləri əmlak**; zinət əşyaları və daş-qaş şeyləri istisna olmaqla, **fərdi istifadədə olan əmlak** (paltar, ayaqqabı və i. a.). Birgə mülkiyyət hüququnun obyekti olmayan belə əmlak növləri ər-arvadın hər birinin ayrıca mülkiyyəti hesab olunur. Fərdi istifadə şeyləri, yəni paltar, ayaqqabı, geyim və s. birgə nikah dövründə ər-arvadın ümumi vəsaiti hesabına əldə edilsə də, ər-arvaddan kimin istifadəsində olursa, ona məxsusdur.

Elə hallar olur ki, ər-arvaddan hər hansı birinin əmlakı onların ümumi birgə mülkiyyəti sayılır. Bunun üçün zəruridir ki, nikah dövründə ərlə arvadın ümumi əmlakı və ya ərin (arvadın) şəxsi əmlakı hesabına həmin əmlakın dəyərini əhəmiyyətli dərəcədə artıran vəsait qoyulduğu müəyyən edilsin (MM-in 225-ci maddəsinin 4-cü bəndi, AM-in 35-ci maddəsi). **Əmlakın dəyərini əhəmiyyətli dərəcədə artıran vəsait qoyulması** dedikdə, əsaslı təmir, yenidən quraşdırma, avadanlığı dəyişdirmə və s. başa düşülür.

Yeni Ailə Məcəlləsi ər-arvad arasında əmələ gələn əmlak münasibətləri üçün iki rejim nəzərdə tutur: qanuni rejim (7-ci fəsil, 31-37-ci maddələr); müqavilə rejimi (8-ci fəsil, 38-42-ci maddələr).

Nikah müqaviləsi ilə sair qayda və başqa hal müəyyən edilməyibsə, **ər-arvadın əmlakının qanuni rejimi** tətbiq edilir. Ər-arvadın birgə fəaliyyətinin rejimi onların əmlakının qanuni rejimi hesab olunur (AM-in 31-ci maddəsinin 1-ci bəndi).

Ər-arvadın mülkiyyətinin müqavilə rejimi dedikdə, nikah müqaviləsi (kontraktı) ilə ər-arvadın birgə mülkiyyətinin qanunla müəyyən olunmuş rejimini dəyişməklə ümumi əmlaka, onun ayrı-ayrı növlərinə və ya ər-arvadın hər birinin əmlakına **birgə, paylı və ya ayrıca mülkiyyət rejimi** tətbiq edilə bilməsi başa düşülür. Qeyd etmək lazımdır ki, ər-arvada nikah müqaviləsi (kontraktı) bağlamaq və bununla qanunla nəzərdə tutulan birgə mülkiyyət rejimini dəyişdirmək ixtiyarı verilmişdir. Onlara kifayət qədər geniş elə imkanlar verilmişdir ki, bununla ər-arvad birgə nikah dövründə qazandıqları əmlakın hüquqi rejimini özləri müəyyən edirlər. Müqavilə rejimi qanunvericilikdə ifadə edilən yeni haldır. Bu rejim yeni MM-in 225-ci maddəsində nəzərdə tutulur. Bu maddənin əksəriyyət bəndləri müqavilə (kontrakt) rejimini təsbit edir. Yeni MM ər-arvadın mülkiyyətinin müqavilə rejimi ilə bərabər, həm də onların əmlakının qanuni rejimini müəyyən edir (225-ci maddə). Söylədiklərimizdən belə təsəvvür yaranır ki, ər-arvad arasında əmələ gələn əmlak münasibətlərini hüquqi cəhətdən qaydaya salan bəzi normalar yeni MM-ə daxil edilmişdir. Bu, həmin münasibətlərin mülki-hüquqi tənzimlənməsində yeni qanunvericiliyin mühüm dəyişikliyə uğramasını nümayiş etdirir.

Ər-arvadın ümumi birgə mülkiyyət hüququnun məzmunu onların ümumi əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam səlahiyyətlərindən (üçlü səlahiyyətdən) ibarətdir. Üçlü səlahiyyət onların qarşılıqlı saziş və razılığı ilə gerçəkləşdirilir. Ümumi əmlak üzrə sərəncam verilməsi barədə əqdi ər-arvaddan biri bağlayarsa, bu, əqdin bağlanmasına digər tərəfin razılıq verməsini ifadə edir. Belə halda əqd bağlayan ər-arvaddan birinin digər tərəfin razılığı ilə hərəkət etməsi ehtimal və güman olunur.

Elə əqdlər vardır ki, bu cür əqdlərin etibarlı sayılması üçün həmin əqdlərin notariat qaydasında təsdiq edilməsi və (və ya) dövlət qeydiyyatına alınması tələb edilir. Məsələn, ər-arvaddan birinin daşınmaz əmlak (torpaq sahəsi, yaşayış evi və s.) üzərində sərəncam vermək barədə əqdləri bu cür hüquqi faktlara aiddir. Belə əqdləri bağlamaq üçün digər tərəfin notariat qaydada təsdiq edilmiş razılığı lazımdır. Ərin (arvadın) bu barədə notariat qaydada təsdiq olunmuş razılığının olmaması, əqdin etibarsızlığını şərtləndirir. Bu, yəni əqdin etibarsızlığı ərin (arvadın) əqdin bağlandığını bildiyi və ya bilməli olduğu vaxtdan bir il müddətinə tələb edilə bilər.

Daşınmaz əmlaka birgə ümumi hüquq daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmalıdır. Əgər ərin (arvadın) razılığı olmadan həmin hüquq barədə müqavilə bağlanarsa, belə müqavilə etibarsız hesab edilir (MM-in 225-ci maddəsinin 6-cı bəndi). Müqavilənin etibarsız hesab edilməsi əldə edənin (müqavilənin bir tərəfinin) vicdanlı olmasından asılı deyildir. Vicdanlı əldə edən odur ki, o, daşınmaz əmlaka birgə ümumi hüququn olmasını bilmir; əldə edən zənn edir ki, belə hüquq yalnız müqavilə tərəfinə məxsusdur. Əldə edən vicdanlı olsa da müqavilə etibarsız sayılır; bu zaman vicdansız müqavilə tərəfi vicdanlı əldə edənə etibarsızlıqdan irəli gələn zərərin əvəzini ödəməlidir.

Ər-arvadın birgə mülkiyyətində olan **ümumi əmlak kreditorların tələblərinin və iddialarının obyekti ola bilər**. MM-in 225-ci maddəsinin 5-ci bəndinə görə, ərin (arvadın) öhdəlikləri üzrə tutma onun mülkiyyətində olan əmlaka, habelə onun ərlə arvadın ümumi əmlakındakı payına yönəldilə bilər. Bu maddə dispozitiv xarakterə malikdir, yəni ərin (arvadın) öhdəlikləri üzrə kreditorların tələblərinin ödənilməsi barədə nikah kontraktında (müqaviləsində) ayrı qayda da nəzərdə tutula bilər.

Kreditor ödəməni onlardan birinin (ər-arvadın) ümumi əmlakda olan payına yönəltmək üçün ümumi əmlakın bölünməsi tələbi barədə ərizə verdikdə, ümumi əmlak bölünür (AM-in 36-cı maddəsinin 1-ci bəndi).

Ər-arvadın ümumi əmlakına tutmanın yönəldilməsi öhdəlikdə onların hər ikisinin və ya birinin borclu tərəf kimi çıxış etməsindən asılı olaraq həyata keçirilir. Əgər öhdəlikdə borclu tərəf kimi ər-arvaddan biri iştirak edərsə, onda belə öhdəlik üzrə ödəmə yalnız **ərin (arvadın) şəxsi (ayrıca) əmlakına, eləcə də ümumi əmlakdan ona çata biləcək paya yönəldilə bilər**. Əgər öhdəlikdə borclu tərəf kimi ər-arvadın hər ikisi cavab verərsə, habelə ər-arvaddan birinin öhdəlikləri üzrə alınmış vəsaitin ailə ehtiyacları üçün istifadə olunduğu məhkəmə tərəfindən müəyyən edilərsə, onda **ödəmə (tutma) ər-arvadın ümumi əmlakına yönəldilir**. Bu əmlak kifayət etmədikdə, ödəmə ər-arvaddan hər bi-

rinin ayrıca (şəxsi) əmlakına yönəldilir. Başqa sözlə desək, ümumi əmlak çatmadıqda, ümumi öhdəliklər üzrə ər-arvad onlardan hər birinin əmlakı ilə birgə məsuliyyət daşıyırlar (MM-in 41-ci maddəsinin 2-ci bəndi).

Elə hallar olur ki, ər-arvadın ümumi əmlakı onlardan birinin cinayət yolu ilə qazandığı vəsait hesabına əldə edilir və ya artırılır. Belə halda ödəmə bu əmlaka və ya onun bir hissəsinə yönəldilə bilər. Bunun üçün zəruridir ki, əmlakın cinayət yolu ilə qazanılan vəsait hesabına əldə edilməsi və ya artırılması məhkəmə hökmü ilə müəyyən edilsin və sübut olunsun.

Ümumi əmlakın bölünməsi həm nikah dövründə, həm də ər-arvaddan birinin tələbi ilə nikah pozulduqdan sonra həyata keçirilə bilər. Nikahın pozulduğu hallarda ümumi əmlakın bölünməsi haqqında ər-arvaddan hər hansı birinin tələbinə üç illik iddia müddəti şamil edilir.

Ər-arvadın ümumi əmlakı iki qayda əsasında bölünür: könüllü qaydada; məhkəmə qaydasında. **Könüllü qaydanın** mahiyyəti ondan ibarətdir ki, bununla ər-arvadın ümumi əmlakı onların sazişi (razılığı) əsasında bölünür. Əgər zərurət olduqda, ər-arvadın istək və arzusu ilə belə saziş notariat qaydasında təsdiq edilə bilər. **Məhkəmə qaydası** elə bir qaydadır ki, bu qayda ər-arvadın ümumi əmlakının bölünməsi, eləcə də bu əmlakda ər-arvadın paylarının müəyyən olunması üzrə onlar arasında mübahisə yarandıqda həyata keçirilir. Ümumi əmlakı bölərkən məhkəmə ər-arvadın hər birinə çatacaq əmlakı (payı) müəyyən edir. Elə hallar olur ki, ər-arvaddan hər hansı birinə dəyəri digər tərəfə verilən payın (əmlakın) dəyərindən çox olan əmlak verilir. Belə halda bunun əvəzində məhkəmə qərarı ilə ər-arvaddan birinə müvafiq məbləğdə pul və ya başqa kompensasiya ödənilir.

Məhkəmə bəzi hallarda ər-arvadın paylarını bərabər bölməyə də bilər. Ümumiyyətlə, ər-arvadın ümumi əmlakının bölünməsi zamanı bu əmlakdakı payları bərabər hesab edilir, bu şərtlə ki, ər-arvad arasındakı müqavilədə başqa hal nəzərdə tutulmasın (AM-in 37-ci maddəsinin 1-ci bəndi). Lakin məhkəmə qanunda nəzərdə tutulan hallarda bu qaydadan istisnalara yol verir: ər-arvaddan biri üzrlü səbəb olmadan gəlir əldə etmədikdə; onlar birgə mülkiyyəti ailənin mənafeyinə zidd olaraq sərf etdikdə; yetkinlik yaşına çatmayan uşaqların mənafeyini nəzərə aldıqda.

SSRİ Ali Məhkəməsinin Plenumu özünün 4 oktyabr 1969-cu il tarixli qərarında ər-arvaddan birinin ümumi əmlakdakı payının artırılmasını şərtləndirən halları müəyyən edir: yetkinlik yaşına çatmayan uşaqların ər-arvaddan hansının yanında qalması; onlardan birinin əmək qabiliyyətinə malik olmaması; ər-arvaddan birinin xəstə olması və maddi cəhətdən təmin edilməməsi[1]. Müəlliflərdən bəzisi yalnız tamam tənbəl və avara olan ərin (arvadın) nikah müddətində qazanılmış əmlakdan pay tələb etmək iddiasının rədd edilməsi[2], bəzisi məhkəmənin əmlakı bölərkən ictimai faydalı əməklə məşğul olmuş ər-arvaddan birinin payını artıra bilməsi fikrini irəli sürür[3].

Ər-arvadın ümumi birgə əmlakı olan mübahisəli yaşayış evi natura üzrə bölünür. Bunun nəticəsində onların hər biri ümumi evin ayrı-ayrı müstəqil hissələri üzərində mülkiyyət hüququ qazanırlar. Bununla belə, elə hal yaranır ki, yaşayış evinin natura üzrə bölgüsü mümkün olmur. Belə halda məhkəmə qərarı ilə həmin ev ər-arvaddan birinə verilir. Digər tərəfə isə bunun əvəzində pul formasında kompensasiya ödənilir[1].

Rəsmi nikahda olmayan, yəni faktik nikah münasibətində olan qadın və kişinin ümumi əmlakı qüvvədə olan ailə qanunvericiliyi üzrə bölünə bilməz. Belə əmlak MM-in 220-ci maddəsinə uyğun olaraq bölünür, yəni MM-in müəyyən etdiyi paylı mülkiyyətdə olan əmlakın bölünməsi haqqında qayda tətbiq edilir. Belə təsəvvür yaranır ki, yalnız VVADQ orqanlarında bağlanmış nikah ər-arvad arasında hüquq, o cümlədən birgə ümumi mülkiyyət hüququ yaradır. Rəsmi olmayan faktiki nikah onların birgə ümumi mülkiyyətini əmələ gətirmir. Faktiki nikah vaxtı əldə edilən ümumi əmlak paylı mülkiyyət haqqında qaydalar əsasında bölünür[2].

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Г.П.Батуров. Разрешение судом споров о праве собственности на жилой дом. М. 1979.

Д.М.Генкин. Право собственности в СССР. М., 1961.

К.А.Граве. Имущественные отношения супругов. М., 1960.

М.В.Зимилева. Общая собственность в советском гражданском праве // Уч. зап. ВИЮН. Вып. 2. М., 1941.

А.А.Ерошенко. Общая собственность граждан. Краснодар. 1976.

П.П.Каськ. Понятие и виды правоотношений общей собственности // Учен. зап. Тартусского Универ. Тарту. 1984. Вып. 679.

Комментарий к Гражданскому кодексу Российской Федерации части первой / Отв. ред. **О.Н.Садиков**. М., 1999 (гл. 16).

Р.П.Мананкова. Правоотношение общей долевой собственности граждан по советскому законодательству. Томск. 1977.

М.Г.Маркова. Понятие и содержание права общей собственности // Очерки по гражданскому праву. Л., 1957.

Н.Н.Мисник. Правовая природа общей собственности // Правоведение. 1993. №1.

Н.В.Рабинович. Личные и имущественные отношения в советской семье. Л., 1952.

А.П.Сергеев. Распоряжение общей собственностью супругов // Правоведение. 1984. № 6.

Ш.Тагайназаров. Общая долевая собственность в советском гражданском праве. Душанбе. 1966.

Г.С.Червоны. Общее имущества супругов по советскому праву. Харьков. 1952.

[1] bax: Бюллетень Верховного Суда СССР. 1972. №10, с. 6.

[2] *М.О.Рейхель.* Общее имущественные отношения супругов в советском праве // Советское государство и право. 1940. №8-9, с. 114.

[3] В.А.Рясенцев. Семейное право. М., 1971, с. 102.

[1] bax: Постановление Пленума Верховного Суда СССР от 31 июля 1981 г. №4. «О судебной практике по разрешению споров, связанных с правом личной собственности на жилой дом // Сборник постановлений Пленумов Верховных Судов СССР и РСФСР (Российской Федерации) по гражданским делам. Изд. 2-е. М., 1995.

[2] bax: Бюллетень Верховного Суда РСФСР. 1973. №5, с. 5 (п. 3).

XXIII FƏSİL
MƏHDUD ƏŞYA HÜQUQU

§ 1. Məhdud əşya hüququnun anlayışı, əsas cəhətləri və növləri

1. Ümumi müddəalar

Mülki hüququn yarımsahələrindən biri olan əşya hüququnun özü ayrı-ayrı institutlardan ibarətdir. Mülkiyyət hüququ institutu onlardan biridir; əşya hüququnun əsas və vacib institutu sayılan mülkiyyət hüququ özündə subyektiv mülkiyyət hüququnu tənzimləyən hüquq normalarını birləşdirir. Subyektiv mülkiyyət hüququ isə özünün iqtisadi-təsərrüfat və hüquqi əhəmiyyətinə görə subyektiv əşya hüququnun başlıca növü sayılır. Ona görə ki, subyektiv mülkiyyət hüququ özündə mülkiyyətçinin (subyektiv mülkiyyət hüququnun daşıyıcısı olan şəxsin) əmlak barəsində malik olduğu bütün səlahiyyətlərin hamısını, yəni «üçlük» səlahiyyətini birləşdirir; o, mülkiyyətçiyə (səlahiyyətli şəxsə) özünün malik olduğu əmlakdan maksimum dərəcədə istifadə etmək imkanı verir. Buna görə də **subyektiv mülkiyyət hüququ tam, müəyyən mənada qeyri-məhdud əşya hüququ kimi xarakterizə olunur**.

Məhdud əşya hüququ əşya hüququnun digər institutu sayılır. Bu institut isə subyektiv məhdud əşya hüququnu tənzimləyən normalardan ibarətdir; subyektiv məhdud əşya hüququnun daşıyıcısı mülkiyyətçi olmayan şəxs (qeyri-mülkiyyətçi şəxs) adlanır. Belə ki, subyektiv mülkiyyət hüququnun daşıyıcısı olan mülkiyyətçinin üçlü səlahiyyətdən bu və ya digər səlahiyyət ayrılaraq mülkiyyətçi olmayan şəxsə verilir; həmin şəxs subyektiv məhdud əşya hüququ əldə edir; bu hüquq mülkiyyətçi olmayan şəxsin mülkiyyətçinin, yəni özgəsinin əşyasına olan hüququdur. Buna görə də xarici doktrinada məhdud əşya hüququ özgə əşyasına hüquq adlanır[1]. Subyektiv məhdud əşya hüququ əşya hüququnun digər növüdür.

Məhdud əşya hüququnun bir neçə xüsusiyyəti vardır. Bu, elə bir əşya hüququdur ki, o, mülkiyyət hüququnun məzmunu ilə müqayisədə **məhdud xarakterə malikdir**. Belə ki, mülkiyyətçi öz əmlakını başqa şəxsə verə bilər. Bu halda həmin şəxsin **törəmə əşya hüququ yaranır**. Həmin hüququn məzmununu əmlaka sahiblik, ondan istifadə və məhdud çərçivədə onun barəsində sərəncam səlahiyyətləri təşkil edir. Mülkiyyətçi isə həmin əmlaka münasibətdə özünün mülkiyyət hüququnu saxlayır. Lakin onun mülkiyyət hüququnu həyata keçirməsi ya müvəqqəti, ya da müddətsiz olaraq bu və ya digər dərəcədə məhdudlaşır. Məsələn, kənd sakini böyük torpaq sahəsini kəndli (fermer) təsərrüfatına istifadəyə verir. Başqa bir misalda çoban özünün otlaq sahəsini mal-qaranı, qoyunları otarmaq üçün digər çobanın ixtiyarına verir. Yaşayış evindən onun sahibi (mülkiyyətçi) ilə bərabər, eyni vaxtda həm də onun yaxın

[1] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров*. М., 2004, с. 378.

qohumları istifadə edirlər. Söylədiklərimizdən belə təsəvvür yaranır ki, məhdud əşya hüququ əsas əşya hüququ olan **mülkiyyət hüququndan törəyir, ondan asılı olur və qeyri-müstəqil xarakterə malikdir**. Əgər əşya üzərində mülkiyyət hüququ yoxdursa və ya bu hüquqa xitam verilmişdirsə, belə halda həmin əşya üzərində məhdud əşya hüququnu müəyyənləşdirmək və ya saxlamaq qeyri-mümkündür. Məsələn, nəzarətsiz heyvanlar və ya sahibsiz əmlak üzərində məhdud əşya hüququ müəyyən etməyi təsəvvürə gətirmək mümkün deyil. Ona görə ki, belə halda məhdud əşya hüququnun əmələ gəlməsinə səbəb olan mülkiyyət hüququnun özü yoxdur. Deməli, **məhdud əşya hüququ mülkiyyət hüququndan törəmə və ondan asılı olan əşya hüququdur**. Bu, onun **birinci xüsusiyyətidir**.

Məhdud əşya hüququ müvafiq əmlakın mülkiyyətçisinin yeni bir mülkiyyətçi ilə əvəz edildiyi hallarda da saxlanılır, yəni bu hüquqa xitam verilmir. Başqa sözlə desək, əmlak üzərində mülkiyyət hüququ başqa şəxsə keçdiyi məqamlarda da məhdud əşya hüququ saxlanılır. Bu, onunla izah olunur ki, əmlaka mülkiyyət hüququnun başqa şəxsə keçməsi həmin əmlaka olan digər əşya hüquqlarının xitamına səbəb olmur (MM-in 158-ci maddəsinin 3-cü bəndi); digər əşya hüquqları dedikdə, məhdud əşya hüquqları (mülkiyyətçi olmayan şəxslərin hüquqları) başa düşülür. Məsələn, torpaq sahibi çobana öz ərazisindən mal-qaranı və qoyun sürüsünü keçirmək ixtiyarı verir. Bununla tərəflərin razılığı ilə servitut növündə məhdud əşya hüququ müəyyən edilir; nəticədə torpaq sahəsi servitutla yüklənir. Sonra mülkiyyətçi torpaq sahəsini başqa bir şəxsə (yeni mülkiyyətçiyə) satır. Yeni mülkiyyətçinin borcudur ki, o, müəyyən edilmiş servitut hüquq münasibətinə əməl etsin, yəni çobana mal-qaranı sürüb aparmaq üçün yol versin. Ona görə ki, servitutla yüklənmiş daşınmaz əşyaya hüquqlar başqa şəxsə keçdikdə servitut saxlanılır (MM-in 255-ci maddəsinin 7-ci bəndi). Başqa bir misalda vətəndaş özünə məxsus olan yaşayış evinin otaqlarından birini özünün ailə üzvlərinə və ya kənd yerindən gəlmiş tələbə qohumuna istifadəyə verir. Vətəndaş ölür və yaşayış evi onun vərəsəsinə keçir. Vərəsənin bu halda borcudur ki, o, tələbənin yaşayış evindən istifadə hüququna xitam verməsin (MM-in 228-ci maddəsinin 4-cü bəndi). Digər misalda əşya üzərində mülkiyyət hüququnun girov qoyandan müəyyən şəxsə keçməsi girov hüququna xitam vermir. Həmin şəxs girov qoyanın vəzifələrini yerinə yetirməlidir. Dediklərimizdən belə çıxır ki, məhdud əşya hüququ əşyanı yüklü edir, həmişə mülkiyyətçini yox, əşyanı izləyir. Deməli, **«izləmə hüququ» məhdud əşya hüququnun (ümumiyyətlə, əşya hüququnun) ikinci zəruri hüquqi xüsusiyyətini təşkil edir**.

Məhdud əşya hüququnun **üçüncü xüsusiyyəti** ondan ibarətdir ki, **bu hüquq, mülkiyyət hüququ kimi analoji üsullarla** müdafiə olunur. Belə ki, mülkiyyətçi olmayan şəxsin əşya hüquqları istənilən şəxs, o cümlədən mülkiyyətçi tərəfindən pozulmaqdan müdafiə edilir (MM-in 158-ci maddəsinin 4-cü bəndi). Mülkiyyət hüququ kimi məhdud əşya hüququ da mütləq hüquq hesab edilir. Müstəsna hüquqlar isə öhdəlik hüquq üsulları ilə yox, əşya hüquq üsulları ilə

müdafiə olunur[1]. Əşya hüquq iddiası ilə, yəni vindikasiya və neqator iddiası ilə həm mülkiyyət hüquqları, həm də məhdud əşya hüquqları müdafiə edilir. Mülkiyyətçi olmayan şəxslər, yəni məhdud əşya hüququ əsasında əşyanın titul sahibləri mülkiyyətçi kimi eyni müdafiə üsulundan istifadə etmək ixtiyarına malikdirlər (MM-in 157-ci maddəsinin 8-ci bəndi). Məsələn, şəxs yaşayış evini mülkiyyətçidən uzufrukta (istifadəyə) götürür və bununla uzufrukt növündə məhdud əşya hüququ yaranır. Bu evin yaxınlığında bina tikən tikinti təşkilatı həmin evin həyətində çala qazır və şəxsin məhdud əşya hüququnu pozur. Şəxs öz pozulmuş hüququnu müdafiə etmək üçün neqator iddiası (əşya hüquq iddiası) verir.

Məhdud əşya hüququnun **dördüncü xüsusiyyəti** ondan ibarətdir ki, **həmin hüququ (o cümlədən əşya hüququnu) nəzərdə tutan siyahı təxmini yox, qəti xarakterə malikdir**[2]. Bu siyahı MM-in 158-ci, 250-ci, 255-ci, 263-cü və 269-cu maddələrində və digər qanunlarda göstərilmişdir ki, o, imperativ xarakter daşıyır. Tərəflər onun dairəsini genişləndirmək ixtiyarına malik deyillər. Ona görə ki, məhdud əşya hüquqlarının dairəsini müqavilə yox, ancaq qanun müəyyən edir. Tərəflərin ixtiyarı çatmır ki, onlar müqavilədə və ya birtərəfli əqddə öz mülahizələri əsasında qanunda nəzərdə tutulmayan hər hansı bir əşya hüququ müəyyən etsinlər. Öhdəlik hüquqlarının növləri isə olduqca müxtəlifdir. Bu hüquqlar həm qanunvericilikdə nəzərdə tutulmuş müqavilələrdən və başqa əqdlərdən, həm də habelə qanunvericilikdə nəzərdə tutulmasa da, ona zidd olmayan müqavilələrdən və başqa əqdlərdən əmələ gələ bilər (MM-in 14-cü maddəsinin 2-ci bəndi). Bundan fərqli olaraq, mülki hüquq subyekti öz istək və arzusu əsasında əşya hüququnun (o cümlədən məhdud əşya hüququnun) yeni növünü yarada bilməz. Bu, bir çox ölkələrin, məsələn, Almaniya və Yaponiya kimi ölkələrin sivilistika doktrinasına uyğun gəlir. Belə ki, Almaniya hüquq doktrinasına görə, əşya hüquqları barədə siyahı qətidir; əşya hüququ dispozitiv yox, imperativdir[1]. Yaponiya doktrinasında göstərilir ki, əşya hüququnun növləri yalnız Mülki Məcəllə və digər qanunvericilik aktları ilə müəyyən edilə bilər (**əşya hüquqlarının qanunla müəyyən edilməsi prinsipi**)[2]. Fransa hüquq ədəbiyyatında göstərilir ki, əşya hüquqları qanunla müəyyən edilir və ayrı-ayrı şəxslər öz istəyi ilə belə hüquq müəyyənləşdirə bilməzlər[3].

[1] Yeri gəlmişkən, qeyd edək ki, alman hüquq doktrinası da məhdud əşya hüququna mütləq və hüquqi cəhətdən müdafiə olunan hüquq kimi baxır (*А.Жалинский, А,Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 425).

[2] Bu barədə başqa fikir də söylənilir. Bəzi müəlliflər göstərirlər ki, əşya hüquqlarının sistemi qəti xarakter yox, təxmini xarakter daşıyır. Onlar izah edirlər ki, hər hansı titul sahibliyi öz hüquqi təbiətinə görə əşya hüququdur və bu hüquq həm də müqavilə əsasında yarana bilər. Həmin müəlliflərin fikrincə, mülki hüquqlar və vəzifələr həm də qanunvericilikdə nəzərdə tutulmasa da, mülki qanunvericiliyin ümumi əsaslarına və mənasına əsasən şəxslərin mülki hüquqlar yaradan hərəkətlərindən əmələ gəlir. Bu hərəkətlərdən xüsusi xarakterli əşya hüquqları yarana bilər ki, qanunda və digər hüquqi aktlarda həmin hüquqlar nəzərdə tutulmaya da bilər. Müəlliflərdən prof. V.P.Nikitina göstərir ki, bu siyahı təxmini xarakterə malikdir. Ona görə ki, bu siyahı «в частности» («o cümlədən») qeydi ilə müşayiət edilir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 297; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 329). Prof. Y.A.Suxanov, prof. A.İ.Maslyayev bunun əksi olan mövqe tuturlar (*У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 319; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 428; *Е.А.Суханов.* Право собственности и иные вещные права. Способы их защиты. Комментарий к новому ГК. М., 1996). Müəlliflərdən V.V.Çubarovun mövqeyincə, öhdəlik hüquqlarından fərqli olaraq, əşya hüquqlarının dairəsi qanunun özü tərəfindən müəyyən edilir və qəti xarakter daşıyır (bax: Комментарий к ГК РФ, части первой / Под ред. *О.Н.Садикова.* М., 1999, с. 414).

2. Məhdud əşya hüququnun anlayışı və növləri

Məhdud əşya hüququ iki mənada işlədilir: obyektiv mənada; subyektiv mənada. **Obyektiv mənada məhdud əşya hüququ** dedikdə, mülkiyyətçi olmayan şəxsin özgəsinin (başqasının) əşyasından öz mənafeyi üçün istifadə etməsi nəticəsində əmələ gələn ictimai münasibətləri rəsmiləşdirən və tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Bu baxımdan məhdud əşya hüququ mülki hüququn əşya hüququ adlı yarımsahəsinin bir institutu kimi çıxış edir.

Məhdud əşya hüququ institutu kontinental Avropa ölkələrinin qanunvericiliyində geniş yayılmışdır. Bolqarıstanın «Mülkiyyət hüququ haqqında» qanunu (1951) həm mülkiyyət münasibətlərini tənzimləyir, həm də məhdud əşya hüququna aid qaydalar müəyyən edir. Həmin qanuna görə, məhdud əşya hüquqları əqd bağlamaq, əldə etmə müddəti və digər əsaslarla müəyyən edilə və ya yarana bilər (55-ci maddə). Həmin qanunda başqa şəxsə məxsus olan torpaq sahəsində tikili hüququ kimi məhdud əşya hüququ təsbit edilir.

Macarıstan MM-i servitut və uzufrukt kimi məhdud əşya hüquqlarını nəzərdə tutur. Servitutlar iki qrupa bölünür: şəxsi servitutlar; torpaq sahəsinə olan servitutlar. Öz növbəsində şəxsi servitutlar uzufrukt və istifadə hüququ növündə müəyyən edilə bilər. Macarıstan MM-inə görə, servitut dedikdə, elə bir hüquq münasibəti başa düşülür ki, bu münasibət əsasında mülkiyyətçi olmayan şəxs ona məxsus olmayan əşyadan məhdud istifadə etmək hüququ əldə edir.

Polşa qanunvericiliyi daimi istifadə hüququnu məhdud əşya hüququ kimi nəzərdə tutur. Dövlət torpaqları 99 il müddətinə daimi istifadəyə verilir. Servitutlar haqqında qaydalar MM-in 285-305-ci maddələrində ifadə olunmuşdur. Servitutlar həm torpaq, həm də şəxsi servitutlar növündə ola bilər. Polşa mülki hüququnda uzufrukt MM-in «Şəxsi servitutlar» adlı bölməsi (296-305-ci maddələr) ilə əhatə olunur. Polşa qanunvericiliyi sahibliyi də məhdud əşya hüquqlarına aid edir.

Çexiya qanunvericiliyi və hüquq doktrinası məhdud əşya hüququnun təsnifini verir. Məhdud əşya hüququ institutu «əşyanın yüklülüyü» adı ilə əhatə olunur. Çexiya MM-in müvafiq paraqrafı (§151 «n» — 151 «r») özgə əşyasına olan hüquqları, yəni məhdud əşya hüquqlarını tənzimləyir.

Yuqoslaviya qanunvericiliyi üç cür məhdud əşya hüququnu nəzərdə tutur: servitut; uzufrukt; yaşamaq hüququ. Servitutlar, əsasən, müqavilə və dövlət orqanının qərarı əsasında müəyyən edilir.

Almaniya Mülki Qanunnaməsi məhdud əşya hüququnun bir çox növünü nəzərdə tutur. Bunların arasında özgə əşyasından istifadə hüququ əsas yer

[1] *Wieling H.J.* Sachenrecht. Berlin. 1997, s. 24; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 407.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 165.

[3] *Л. Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2, М., 1960, с. 92.

tutur ki, bu hüquqlara daxildir: servitut; şəxsi servitut; uzufrukt; superfitsi (tikiliyə vərəsəlik hüququ). Servitutun iki əsas növü fərqləndirilir: real servitutlar (§1018-1029); şəxsi servitutlar (§1090-1093). Real servitut torpaq sahəsinin mülkiyyətçisinə məxsusdur. Bu servitut torpaq sahəsinin digər torpaq sahəsinin mülkiyyətçisinin xeyrinə elə yüklənməsidir ki, bununla həmin mülkiyyətçiyə birinci torpaq sahəsindən istifadə etmək hüququ verilir. Yüklü edilən torpaq sahəsi köməkçi (ikinci dərəcəli) torpaq sahəsi, xeyrinə yüklənmə aparılan mülkiyyətçinin malik olduğu torpaq sahəsi isə üstün (birinci dərəcəli) torpaq sahəsi hesab edilir. Şəxsi servitut müəyyən şəxsə məxsus olub, özgəninkiləşdirilmir və ya vərəsəlik qaydasında başqa şəxslərə verilmir. Şəxsi servitut torpaq sahəsinin başqa şəxsin xeyrinə elə yüklü edilməsidir ki, bununla həmin şəxsə istifadə etmək hüququ, ya da real servitutun məzmununu təşkil edən səlahiyyət verilir. Almaniya Mülki Qanunnaməsinə görə, uzufrukt özgə əşyasından istifadə hüququnun bir forması olub, istifadəçiyə əşyadan fayda götürmək hüququ verir (§1030-1089). Həmin qanunnamə superfitsini tikiliyə vərəsəlik hüququ (Erbbaurecht) kimi, yəni torpaq sahəsinin üstündə və ya altındakı binaya malik olmaq hüququ kimi nəzərdə tutur (§1012).

İspaniya Mülki Məcəlləsi servitut, uzufrukt kimi, İtaliya qanunvericiliyi servitut, superfitsi, emfitevzis, uzufrukt kimi, İsveçrə hüququ uzufrukt, superfitsi kimi məhdud əşya hüquqları müəyyən edir[1]. Yaponiya qanunvericiliyi məhdud əşya hüququna aid edir: uzufrukt (torpaqdan istifadə institutu); girov institutu. Uzufrukta daxil olunur: superfitsi; servitut; emfitevzis[2].

Kontinental Avropa ölkələrinin qanunvericiliyinin məhdud əşya hüququ haqqında müəyyən etdiyi qaydaların tarixi kökləri Roma xüsusi hüququ ilə bağlıdır. Roma hüququna görə, mülkiyyət hüququ yeganə mütləq əşya hüququ hesab edilmirdi. Mülkiyyət hüququndan başqa, özgə əşyalarına hüquq (iura in re aliena) da əşya hüquqlarına şamil edilirdi. Özgə əşyalarına hüquq xüsusi xarakterli əşya hüququ idi. Əgər mülkiyyət hüququnun obyektini əşya təşkil edirdisə, bu cür hüququn predmeti kimi «res incorporalis» (əşyanın ayrı-ayrı təsərrüfat funksiyalarına olan hüquq) çıxış edirdi. Roma hüququna görə, özgə əşyalarına hüquqa şamil edilirdi: servitut; emfitevzis; superfitsi; girov hüququ[3].

Subyektiv mənada məhdud əşya hüququ dedikdə, qeyri-mülkiyyətçi olan subyektin özgə əşyasına sahiblik, əşyadan istifadə və onun üzərində sərəncam vermək üzrə elə bir səlahiyyəti başa düşülür ki, bu səlahiyyət mülkiyyətçinin hüquqlarından törəyir və ondan asılı olur, mülkiyyətçinin iradəsi və ya qanunun birbaşa göstərişi əsasında əmələ gəlir, habelə qanunla müəyyən edilmiş və ya mülkiyyətçi ilə bağlanmış müqavilədə nəzərdə tutulmuş həddə həyata keçirilir. Bu səlahiyyət qeyri-mülkiyyətçiyə ixtiyar verir ki, o, öz mənafeyi üçün özgə əşyasından istifadə etsin. Bu cür **istifadəyə yalnız mülkiyyətçinin razılığı ilə və ya qanunun birbaşa (düzünə) göstərişi ilə yol verilir**.

Subyektiv mənada məhdud əşya hüququ mülkiyyət hüququndan onunla fərqlənir ki, o, mülkiyyət hüququnun məzmununa nisbətən natamam, geniş olmayan və məhdud məzmuna malikdir. Mülkiyyətçidən fərqli olaraq, məhdud əşya hüququ subyekti üçlük (əşyaya sahiblik, əşyadan istifadə və onun üzərində sərəncam) səlahiyyətinin hamısına bütövlükdə, məcmu və komplekt halında malik ola bilmir. Mülkiyyətçi öz əşyasından istifadə etməkdə tam təsərrüfat müstəqilliyinə malikdir. Onun əşya üzərində tam yiyəlik («hökmranlıq») hüququ vardır. Məhdud əşya hüququ isə yalnız mülkiyyətçi tərəfindən və ya qanunla müəyyən edilmiş nisbi həddə əmələ gəlir, əşya üzərində tam yiyəlik («hökmranlıq») yaratmır.

Məhdud əşya hüququnun məzmunu mülkiyyətçinin malik olduğu eyni (analoji) üçlü səlahiyyətdən ibarətdir: əşyaya sahiblik səlahiyyəti; əşyadan istifadə səlahiyyəti; əşya üzərində sərəncam səlahiyyəti. Lakin bu **səlahiyyətlərin hamısı məhdud əşya hüququ subyektinə, yəni qeyri-mülkiyyətçiyə tam, komplekt halında, bütövlükdə məxsus ola bilmir**. Xüsusən həmin subyektin əşya üzərində sərəncam səlahiyyəti daha məhduddur. O, mülkiyyətçinin icazəsi olmadan əşyanı sata, bağışlaya, dəyişdirə və s. bilməz. Məsələn, sovet hüququnun qanunvericiliyinə görə, dövlət torpaq sahəsini vətəndaşların vərəsəlik üzrə keçən ömürlük sahibliyinə vermişdi. Bununla vətəndaşın həmin torpaq sahəsi üzərində məhdud əşya hüququ yaranırdı. Vətəndaşın torpaq sahəsinə sahiblik, ondan istifadə səlahiyyəti var idi. Üçlü səlahiyyətdən sərəncam səlahiyyəti isə ona məxsus deyildi. Vətəndaşın torpaq sahəsini satmağa, bağışlamağa, dəyişdirməyə və s. ixtiyarı çatmırdı. Torpaq yalnız vərəsəlik qaydasında onun vərəsələrinə keçə bilərdi. Söylədiklərimizdən belə təsəvvür yaranır ki, **məhdud əşya hüququ subyektinin malik olduğu hüququn məzmununu üçlü səlahiyyətin natamam halında ayrı-ayrı formaları təşkil edir**.

Roma hüququ məhdud əşya hüququnu «özgə əşyasına hüquq» anlayışı ilə əhatə edirdi. Azərbaycan Respublikasının yeni MM-i bu institutu ifadə etmək üçün «mülkiyyətçi olmayan şəxslərin əşya hüquqları» adlı termindən istifadə edir (MM-in 158-ci maddəsi). RF-in yeni MM-i də bu anlayışı tətbiq edir. Həmin məcəllənin 216-cı maddəsi mülkiyyətçi olmayan şəxsin əşya hüquqlarının dairəsini müəyyən edir[1].

Azərbaycan Respublikasının yeni mülki qanunvericiliyi kontinental Avropa ölkələrinin qanunvericilik ənənələrinə uyğun olaraq (bu qanunvericiliyin Roma xüsusi hüquq adlı eyni bir tarixi kökü və mənşəyi vardır) məhdud əşya hüququnun bir neçə növünü nəzərdə tutur. Bu, onu sübut edir ki, bizim ölkəmizin məhdud əşya hüququ barədə müəyyən etdiyi qaydalar qanunvericiliyimizi sivil və qabaqcıl ölkələrin qanunvericiliyinə xeyli dərəcədə yaxınlaşdırır, habelə məhdud əşya münasibətlərini sivil üsullarla tənzimləyir. Beləliklə, yeni MM-ə görə, məhdud əşya hüququnun ayrı-ayrı növlərini nəzərdə tutan siyahıya üç əsas qrup hüquq daxildir:

- girov hüququ (MM-in 158-ci maddəsinin 1-ci bəndi);
- ipoteka hüququ;

[1] Məhdud əşya hüququ barədə kontinental Avropa ölkələrinin qanunvericiliyinin əsas cəhətləri ilə tanış olmaq üçün bax: Основные институты гражданского права зарубежных стран. Сравнительно-правовое исследование / Под ред. *В.В.Залесского*. М., 1999, с. 253-292.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми*. Гражданское право Японии. Книга 1. М., 1983, с. 164-165.

[3] *И.Пухан, М.Поленак-Акимовская*. Римское право. Учебник. М., 2000, с. 176-194; *Д.В.Дождев*. Римское частное право. Учебник. М., 1999, с. 444-469; *İ.B.Novitski*. Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı 1999, s. 90-101.

[1] bax: Комментарий к ГК РФ, части первой / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 432.

• əşyadan istifadə hüquqları (MM-in 158-ci maddəsinin 1-ci bəndi).

Girov hüququ Roma hüququ dövründən ənənəvi olaraq məhdud əşya hüququ hesab edilmişdir[1]. O, özündə əşya hüququnun bütün əlamətlərini və xüsusiyyətlərini əks etdirir.

Girov hüququnun hüquqi təbiəti və xarakteri həmişə qızğın və kəskin nəzəri mübahisələrin predmetinə çevrilmişdir[2]. Bu, onunla izah olunur ki, girov hüququ institutu mürəkkəb və ziddiyyətli xarakterə malikdir. Nəzəri mübahisələrin predmetini girov hüququnun əşya hüququna və ya öhdəlik hüququna aid edilməsi təşkil edirdi. Hələ XIX əsrdə bu barədə alman sivilistikasında iki fikir istiqaməti formalaşmışdı. Bir qrup müəlliflər girov hüququnu əşya hüququna, digər qrup tədqiqatçılar isə öhdəlik hüququna aid edirdilər[3]. Özü də hər iki qrup müəlliflər fikirlərinin əsaslı və həqiqi olması barədə tutarlı arqumentlər gətirirdilər.

İnqilabaqədərki rus sivilistikasında G.Şerşeneviç, D.Qrimm kimi müəlliflər girov hüququnu özgə əşyasına hüququn, yəni məhdud əşya hüququnun bir növü hesab edirdilər[4]. Rus müəlliflərindən L.Kasso hüquqların əşya və şəxsi hüquq adlı hüquqlara bölünməsi əleyhinə çıxaraq göstərirdi ki, hüquqların nisbi və mütləq hüquqlar kimi iki növünün fərqləndirilməsi daha düzgündür. O, girov hüququnu mütləq hüquqlara şamil edirdi[5].

İ.B.Novitskinin bu məsələ barədə mövqeyi ikitərəflidir. O, girovun əşya təbiətinə malik olması ideyasını müdafiə etdiyi halda, birdən-birə qeyd edir ki, girovun əşya hüququna aid edilməsi hamılıqla qəbul edilmiş fikirdən çox uzaqdır[6].

Müasir müəlliflərdən Y.A.Suxanov[7], A.İ.Maslyayev[8] və başqaları girov hüququnun əşya-hüquqi təbiətə malik olması fikrini irəli sürürlər. Azərbaycan müəlliflərindən İ.Vəliyevin çox əsaslı və haqlı mövqeyincə, girov bəzi hallarda əşya xarakterinə malik olur, bəzi hallarda isə o, əşya-hüquqi təbiətini itirir. Onun fikrincə, girovun predmeti kimi əşya çıxış etdikdə, girov hüququ əşya hüququ xarakterinə malik olur. Girovun predmeti hüquq olduqda isə girov hüququ bu xüsusiyyətini itirir, ondan məhrum olur[9]. İnkişaf etmiş ölkələrin girov

[1] bax: *И.Пухан, М.Поленак-Акимовская.* Римское право. Учебник. М., 2000, с. 177; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 204; *İ.B.Novitski.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 91, 98; *Д.В.Дождев.* Римское частное право. Учебник. М., 1999, с. 509.

[2] Girov hüquq münasibətlərinin hüquqi təbiəti barədə bax: *И.Велиев.* Основные формы залога в историческом развитии и проблемы залога недвижимости в современных условиях. Баку. 1998, с. 70-81.

[3] Göstərilən müəlliflərin mövqeyi, gətirdikləri dəlillər barədə ətraflı məlumat almaq üçün bax: *К.Н.Анненков.* Система русского гражданского права. Том 3. СПб., 1898, с. 210-335; *А.С.Звоницкий.* О залоге по русскому праву. Киев. 1912, с. 174-250.

[4] *Г.Ф.Шершеневич.* Учебник русского гражданского права. Том 1. М., 1914, с. 426; *Д.Д.Гримм.* Лекции по догме римского права. Киев. 1909, с. 216.

[5] *Л.А.Кассо.* Понятие о залоге в современном праве. Юрьев. 1898, с. 243.

[6] *И.Б.Новицкий, Л.А.Лунц.* Общее учение об обязательстве. М., 1950, с. 46.

[7] Гражданское право. Учебник. Том 2 / Под ред. *Е.А.Суханова.* М., 1993, с. 32; *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 324.

[8] Гражданское право. Учебник. Часть 2 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 248.

[9] *И.Велиев.* Основные формы залога в историческом развитии и проблемы залога недвижимости в современных условиях. Баку. 1998, с. 77.

hüququnu tədqiq edən müəlliflər də belə hesab edirlər ki, girov hüququ əşya hüququna daxildir[1]. Müasir müəlliflərdən İ.Braginski bu məsələ barəsində xüsusi mövqe tutur. O, girova qarışıq, yəni «əşya-öhdəlik» hüquq münasibəti kimi baxır[2].

Qeyd etmək lazımdır ki, girov hüququ ikili təbiətə malikdir: o, bir tərəfdən əşya hüququ, daha doğrusu, məhdud əşya hüququ sayılır. Məsələn, müəyyən bir şəxs öz minik avtomobilini girov qoyaraq tanışından borc pul alır; həmin şəxsin icazəsi ilə borcverən minik avtomobilini idarə edir və ondan istifadə edir; belə halda borcverən minik avtomobilinə münasibətdə məhdud əşya hüququna malik olur.

İkinci tərəfdən girov borcu qaytarmaq öhdəliyini təmin edir; bu baxımdan o, öhdəlik hüquq münasibəti kimi çıxış edir.

Dediyimiz sözləri ipoteka hüququna da aid etmək olar. Belə ki, ipoteka hüququ girov kimi həm əşya hüququdur, həm də öhdəlik hüquq münasibəti deməkdir.

Əşyadan istifadə hüquqları adlı məhdud əşya hüquqları bir neçə növə bölünür:

- tikiliyə vərəsəlik hüququ (MM-in 250-ci maddəsi);
- servitut (MM-in 255-ci maddəsi);
- uzufrukt (MM-in 263-cü maddəsi);
- yaşayış binasının tərkib hissəsindən mülkiyyətçinin ailə üzvlərinin və digər şəxslərin istifadə hüququ (MM-in 228-ci maddəsi).

Bununla bərabər, köhnə qanunvericilik məhdud əşya hüququnun elə növlərini tənzimləyirdi ki, bu növ hüquqlar MM-də yox, xüsusi qanunlarda nəzərdə tutulurdu. Belə məhdud əşya hüquqlarına aid idi:

- vətəndaşların torpaq sahələrinə vərəsəlik üzrə keçən ömürlük sahiblik hüququ («Mülkiyyət haqqında» qanunun 21-ci maddəsinin 9-cu bəndi);
- hüquqi şəxslərin torpağa daimi sahiblik hüququ (köhnə Torpaq Məcəlləsinin 13-cü maddəsi);
- torpaq sahələrindən daimi (müddətsiz) istifadə hüququ (köhnə Torpaq Məcəlləsinin 14-cü maddəsi);
- kooperativ üzvünün kooperativ mənzilə onun satın alınmasına kimi olan hüququ («Mülkiyyət haqqında» qanunun 21-ci maddəsinin 3-cü bəndi);
- tam təsərrüfatçılıq səlahiyyəti və operativ idarəetmə hüququ («Mülkiyyət haqqında» qanunun 5-ci maddəsi, «Müəssisələr haqqında» qanunun 24-cü maddəsi).

3. Girov hüququ (Pfandrecht) məhdud əşya hüququnun bir növü kimi

Girov hüququnu əşya hüququna aid etmək üçün kifayət qədər ağlabatan, əsaslı və inandırıcı arqument və dəlillər vardır. Girov hüququ, qeyd etdiyimiz

[1] bax: Гражданское и торговое право капиталистических государств. Учебник / Под ред. *Е.А.Васильева.* М., 1993, с. 231.

[2] *М.И.Брагинский.* К вопросу о соотношении вещных и обязательственных право отношений. Гражданский кодекс России. Проблемы. Теория. Практика: Сборник памяти *С.А.Хохлова.* М., 1998, с. 128-129.

kimi, özündə əşya hüququnun, o cümlədən məhdud əşya hüququnun bir sıra əsas əlamətlərini əks etdirir.

Məhdud əşya hüququnda olduğu kimi, **girov hüququna da izləmə hüququ xasdır**. İnqilabaqədərki rus müəlliflərindən G.Şerşeneviç göstərirdi ki, obyekti (predmeti) əşya olan girov hüququ bir şəxsdən digərinə keçən mülkiyyət hüququndan asılı olmayaraq, əşyanı izləyir, onun «arxasınca gedir»[1]. Başqa sözlə desək, girovun obyekti olan əşya üzərində mülkiyyət hüququ başqa şəxsə keçdikdə (satıldıqda, vərəsəlik qaydasında verildikdə və s.) girov hüququna xitam verilmir, o, mövcud olmaqda davam edir. Girov qoyulmuş əşyaya mülkiyyət hüququ girov qoyandan başqa şəxsə keçdikdə, girov hüququ qüvvədə qalır (MM-in 289-cu maddəsi).

Girov hüququnun məhdud əşya hüququna şamil edilməsini şərtləndirən ikinci əsas ondan ibarətdir ki, **bu hüquq məhdud əşya hüquqlarının müdafiə edildiyi analoji üsullarla müdafiə olunur**. Girov saxlayan girov qoyulmuş əşyanı özgəsinin qanunsuz sahibliyindən, o cümlədən girov qoyanın sahibliyindən tələb edə bilər (MM-in 288-ci maddəsinin 1-ci bəndi). Başqa sözlə desək, girov saxlayan məhdud əşya hüququnun subyekti kimi özgəsinin qanunsuz sahibliyindən girovun predmeti olan əşyanı vindikasiya iddiası ilə geri tələb edə bilər. Girov saxlayan ona verilmiş girov predmetindən istifadə hüququna malik ola bilər. Onun istifadə hüququ digər şəxslər, o cümlədən girov qoyan tərəfindən sahiblikdən məhrumetmə ilə bağlı olmadan pozula bilər. Bu halda girov saxlayan neqator iddiası verməklə pozulmuş hüquqlarını müdafiə edə bilər. Beləliklə, girov hüququ əşya hüquq üsulları ilə müdafiə olunur.

Üçüncüsü, girov saxlayan özgə əşyasına elə bir hüquqa malik olur ki, **bu, ona öz əmlak mənafeyini təmin etmək və ödəmək imkanı verir**. Belə ki, girov əsas öhdəliyin lazımınca icra edilməsini təmin edən üsullardan biridir. Öhdəlik lazımınca icra edilmədikdə, girov saxlayan hətta mülkiyyətçinin iradəsindən asılı olmayaraq özgə əşyasından istifadə edir. Bu xüsusiyyət isə məhdud əşya hüququ üçün xarakterikdir.

Bununla bərabər, təkcə əşyalar yox, həm də hüquqlar və tələblər girovun predmeti kimi çıxış edir. Bəzi tələblər və hüquqlar istisna olmaqla, istənilən tələb və hüquq girov predmeti ola bilər (MM-in 276-cı maddəsinin 1-ci bəndi). «Girov haqqında» qanunun (1998) 4-cü maddəsi əmlak hüquqlarının girovun predmeti ola bilməsi qaydasını müəyyən edir. Belə ki, həm sahiblik və istifadə hüquqları, o cümlədən icarə hüquqları, habelə öhdəliklərdən irəli gələ bilən başqa əmlak hüquqları, həm də girov saxlayanın girov qoyana borcları girovun predmeti kimi çıxış edə bilər. Belə hallarda, yəni **girovun predmetini hüquqlar təşkil etdiyi məqamlarla** münasibət xeyli qəlizləşir, daha doğrusu, **girov əşya xarakterini itirir, girov hüququ isə məhdud əşya hüququna aid edilmir**. Ona görə ki, əşya hüquqlarının obyekti (predmeti) kimi yalnız fərdi əlamətləri ilə müəyyən edilən əşyalar çıxış edə bilər. Girovun predmeti kimi hüquq çıxış etdiyi hallarda, əşya hüquqları üçün xarakterik olan əlamətlərdən, yəni «əşya üzərində bilavasitə və müstəsna sahiblik» və «izləmə hüququ» anlayışlarını tətbiq etmək qeyri-mümkün olur. İzləmə hüququ müəyyən maddi obyektlə, yəni əşya ilə sıx surətdə bağlıdır.

[1] *Г.Ф.Шершеневич.* Учебник русского гражданского права. Том 1. М., 1914, с. 426.

Girov hüququnun elə xüsusiyyətləri vardır ki, məhdud əşya hüququnun digər hər hansı növü bu xüsusiyyətdən məhrumdur. Belə ki, girov hüququnun məzmununu girov qoyulmuş əşyanı onun mülkiyyətçisinin (girov qoyanın) iradəsindən asılı olmadan məcburi surətdə realizə etmək (satmaq) təşkil edir. Bununla əşya hüququnun əsas növü olan mülkiyyət hüququ xitam edilir, mülkiyyətçi isə girov qoyulmuş əşya üzərində mülkiyyət hüququnu itirir. Bu hal isə məhdud əşya hüquqları üçün xarakterik deyil.

Bundan başqa, məhdud əşya hüququnun subyektləri mülkiyyətçinin iradəsi və ya qanunun birbaşa göstərişi əsasında bu hüququn obyekti (predmeti) olan əşyadan həmişə istifadə edirlər. Girov hüququ isə, bir qayda olaraq, girov saxlayana əşyadan istifadə etmək hüququ vermir. Bununla belə, müqavilə şərtlərinə görə girov saxlayana girov predmeti olan əşyadan istifadə hüququ verilə bilər (MM-in 288-ci maddəsinin 2-ci bəndi). Müqavilədə nəzərdə tutulmazsa, yəni mülkiyyətçi (girov qoyan) razılıq və icazə verməzsə, girov saxlayanın əşyadan istifadə etməyə ixtiyarı çatmır. Lakin girov hüququ bu hüququn subyektinə (girov saxlayana) məhdud əşya hüququ subyektinə nisbətən müqayisəedilməz dərəcədə daha böyük səlahiyyət verir, yəni bu hüquq mülkiyyətçini ona məxsus olan mülkiyyət hüququndan məhrum edə bilər[1].

Beləliklə, söylədiklərimizdən belə nəticəyə gələ bilərik ki, **girov hüququ həmişə məhdud əşya hüququ kimi çıxış etmir**. Belə ki, qeyd etdiyimiz kimi, girovun predmeti (obyekti) hüquqlar olduqda, girov hüququ əşya-hüquqi xarakterini itirir. Ona görə də əşya hüququ kimi vahid girov hüququ konstruksiyası yaratmaq mümkün deyil. Bu cür konstruksiyanın yaradılmasının heç bir elmi əsası yoxdur. Lakin girovun predmeti əşya və ya hüquqlar olduqda, bu iki halı ümumi anlayışla əhatə edən vahid ümumi anlayış və konstruksiya yaratmaq mümkündür. Belə ki, girovun predmeti əşya və hüquqlar (tələblər) olduqda, son nəticədə girov ümumi xarakterə malik olur. Başqa sözlə desək, predmeti əşya olan girovu predmeti hüquqlar olan girovla sıx surətdə bağlayan, birləşdirən, onlar üçün ümumi olan **girovun təyinat və məqsədidir**. Girovun təyinat və məqsədi isə girovla təmin edilən öhdəlik borclu tərəfindən icra edilmədikdə, kreditorun (girov saxlayanın) tələbinin girov qoyulan əmlakın dəyərindən ödənilməsini təmin etməkdən ibarətdir. Bu, onu göstərir ki, girov borclunun girov saxlayan qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üsuludur (MM-in 269-cu maddəsinin 1-ci bəndi). Başqa sözlə desək, MM-in 460-cı maddəsinə görə, girov öhdəliklərin icrasının təmin edilməsi üsullarından biridir. Ona görə də ən düzgün və ağlabatan yol **girovu öhdəliklərin icrasının təmin edilməsinin üsullarından biri kimi nəzərdən keçirməkdən** və işıqlandırmaqdan ibarətdir. Bunu nəzərə alaraq, biz dərsliyin «Öhdəlik hüququ» adlı bölməsində girovun məzmununa aydınlıq gətirəcəyik. Xarici ölkələrin əşya hüququnu tədqiq edən müəlliflər də girov hüququnu əşya hüququ kimi nəzərdən keçirmirlər[2]. Roma hüququ barədə dərsliklər yazan alimlərin bəziləri girov hüququna özgə əşyasına hüquqların (iura in re aliena), yəni məh-

[1] *Г.Ф.Шершеневич.* Учебник русского гражданского права. Том 1. СПб., 1914.

[2] Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 258-291.

dud əşya hüquqlarının xüsusi qrupu kimi baxsalar da, onlar bu hüququ öhdəliyin icrasının təmin edilməsi üsulu kimi izah edirlər[1]. RF-in MM-də girov öhdəliklərin icrasının təmin edilməsinin ən əlverişli, ən münasib və ən kəsərli vasitəsi kimi nəzərdə tutulur və onun barəsində normalar, bizim MM-dən fərqli olaraq, «Öhdəlik hüququnun ümumi hissəsində» yerləşdirilir. Həmin məcəllənin 334-358-ci maddələri girovun tənzimlənməsinə həsr edilmişdir[2]. Buna uyğun olaraq, RF-də yazılan dərsliklərdə girov əşya hüququnun yox, öhdəlik hüququnun konstruksiyası kimi nəzərdən keçirilir və öyrənilir[3]. Biz belə hesab edirik ki, öhdəlik hüququ barədə təsəvvür olmadan və bilik almadan dərsliyin «Əşya hüququ» adlı bölməsində girovdan söhbət açmaq onun məna və məzmununa aydınlıq gətirilməsinə xələl gətirərdi. Bu, məsələyə birtərəfli yanaşmaq demək olardı.

Beləliklə, girov hüququ barədə söhbətimizi sona çatdıraraq qeyd etmək lazımdır ki, **girov hüququ «təmiz şəkildə əşya hüququ» deyildir**. O, həm də öhdəlik hüququnun əsas konstruksiyalarından biridir. Söylədiklərimizdən belə çıxır ki, **girov qarışıq konstruksiyadır**. Daha doğrusu, girov həm əşya, həm də öhdəlik hüququnun anlayışı hesab olunur. Girovla qarışıq, yəni həm əşya, həm də öhdəlik hüquq münasibəti əhatə edilir. Qüvvədə olan mülki qanunvericilik bu mövqedə dayanaraq, göstərilən həmin qaydanı təsbit edir və möhkəmləndirir. Belə ki, yeni MM-in 269-cu maddəsinin 1-ci bəndinə görə, girov, girov qoyanın əşyası barəsində girov saxlayanın əşya hüququdur və eyni zamanda öhdəliyin icrasının təmin edilməsi üsuludur.

Girov hüququnun «müqəddəratı» və «taleyi» ayrı-ayrı dövrlərdə müxtəlif olmuşdur. Belə ki, girov hüququnun hüquqi təbiəti barədə nəzəri mübahisələr onun qanunvericiliikdəki yerini və mövqeyini şərtləndirmişdir. Həm də, əksinə, qanunvericilik girov hüququnun xarakteri barədə aparılan nəzəri diskussiyalara mühüm dərəcədə təsir göstərmişdir. Birinci sovet Mülki Məcəlləsində (1922-ci il RSFSR MM-də) girov «Əşya hüquqları» adlı bölmədə yerləşdirilmişdi. Azərbaycan SSR-in birinci MM-də də (1923) belə idi. Lakin 1964-cü il MM-də isə girov «Öhdəlik hüququ» adlı üçüncü bölmədə nəzərdə tutulmuşdu. Həmin məcəllənin 181-190-cı maddələri girov münasibətlərini tənzimləyirdi.

Azərbaycan Respublikasının yeni MM-də girov hüququ barədə normalar 12-ci fəsildə verilmişdir. Bu fəslə daxil olan normalar girov münasibətlərini qaydaya salır.

[1] *Д.В.Дождев.* Римское частное право. Учебник. М., 1999, с. 509; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 338. Bəzi müəlliflər isə girov hüququnu əşya hüququ kimi nəzərdən keçirirlər (bax: *I.B.Novitski.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 98; *İ.Пухан, М.Поленак-Акимовская.* Римское частное право. Учебник. М., 2000, с. 188).

[2] Комментарий к ГК РФ, части первой / Под ред. *О.Н.Садикова.* М., 1999, с. 580-610.

[3] Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 376; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 404; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 420; Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева.* М., 1999, с. 148; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 588; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 95.

İpoteka hüququ da məhdud əşya hüququ hesab edilir. O, girov hüququna kifayət qədər və həddən artıq yaxın olsa da, Azərbaycan Respublikasının MM-inə görə, müstəqil institut kimi çıxış edir. İpoteka hüququ da girov hüququ kimi **ikili təbiətə malikdir**: bir tərəfdən o, **məhdud əşya hüququdur**; digər tərəfdən isə **öhdəliklərin icrasının təmin edilməsi üsuludur**.

§ 2. Tikiliyə vərəsəlik hüququnun (Erbbaurecht) anlayışı və əsas xüsusiyyətləri

1. Tikiliyə vərəsəlik hüququnun anlayışı

Məhdud əşya hüququnun növlərindən biri tikiliyə vərəsəlik hüququ adlanır. Bu, MM-də yeni anlayışdır. MM-in 11-ci fəslinin 1-ci paraqrafına daxil olan normalar (250-254-cü maddələr) tikiliyə vərəsəlik hüququnu tənzimləyir və qaydaya salır.

Bizim mülki qanunvericilik üçün yeni olsa da, tikiliyə vərəsəlik hüququ bir çox kontinental Avropa ölkələrinin qanunvericiliyinə məlum olan hüquqi konstruksiyalardandır. Almaniya, İtaliya, İsveçrə və digər dövlətlərin qanunvericiliyi tikiliyə vərəsəlik hüququnu məhdud əşya hüququnun bir növü kimi nəzərdə tutur[1]. Xarici ölkələrin hüquq doktrinası və qanunvericiliyi bu hüquqi konstruksiyanı superfitsi anlayışı əhatə edir[2]. Məsələn, İtaliya MM-inin «Əşya hüququ» adlı kitabının üçüncü bölməsi «Superfitsi» adlanır. Hollandiya MM-inin «Əşya hüququ» adlı kitabının «Superfitsi» adlanan səkkizinci bölməsinə daxil olan normalar bu konstruksiyanı tənzimləyir. Yaponiya qanunvericiliyi də həmin münasibəti superfitsi anlayışı ilə əhatə edir. Bu, Roma hüququ ənənələrinə uyğun gəlir. Belə ki, hələ qədim Roma hüququna görə, superfitsi (superficies) məhdud əşya hüququ, yəni özgə əşyalarına hüququn (iura in re aliena) növlərindən biri hesab olunurdu. Superfitsiyə görə superfitsiar özgəyə məxsus olan torpaqda özgəninkiləşdirilən, vərəsəlik üzrə verilən tikili ucaltmaq, torpaqla birlikdə bu tikilidən istifadə etmək hüququ əldə edirdi. Öz vəsaiti hesabına tikili ucaldan superfitsiar tikili üzərində mülkiyyət hüququ qazanmırdı. Onun tikilidən yalnız istifadə etmək hüququ vardı.

Qədim Romada superfitsi institutunun əmələ gəlməsini yaranmış vəziyyət zərurətə çevirmişdi. Belə ki, torpaq üzərində xüsusi mülkiyyət qəti və tam olaraq möhkəmləndirildiyi bir vaxtda, demək olar ki, bütün torpaq fondu azsaylı mülkiyyətçilərin əlində cəmlənmişdi. Çoxsaylı şəhər əhalisinin yaşayış evlərinə və mənzillərə olan tələbatı günü-gündən artırdı. Belə vəziyyətdə elə bir hüquqi vasitə tapmaq lazım idi ki, bu vasitə torpaq (tikinti) sahəsi üzrə mülkiyyət hüququnun mülkiyyətçidə saxlanmasını, tikilidən və tikinti sahəsindən istifadə hüququnun başqa şəxsə verilməsini təmin edə biləydi. Bu məqsədlə superfitsi institutu yarandı[3].

[1] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 270, 274, 283, 290.

[2] yenə orada.

[3] Roma hüququnda superfitsinin özgə əşyalarına hüququn bir növü olması barədə bax: *Д.В.Дождев.* Римское частное право. Учебник. М., 1999, с. 466; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 213.

Kontinental Avropa ölkələrinin qanunvericiliyinə görə, superfitsi dedikdə, özgəyə məxsus şəhər torpaq sahəsində özgəninkiləşdirilən, vərəsəlik üzrə verilən tikili ucaltmaq və tikilidən istifadə etmək üzrə uzunmüddətli əşya hüququ başa düşülür. Tikili ucaldan şəxs torpaq sahəsinin mülkiyyətçisinə torpaq rentası ödəyir. «Superfitsi» termini yalnız bəzi Avropa ölkələrinin (İtaliya, İsveçrə) qanunvericiliyində saxlanmışdır. Biz də həmin ölkələrin qanunvericilik və Roma hüququ ənənələrinə uyğun olaraq superfitsi anlayışından istifadə edəcəyik. Şərqi Avropa ölkələrinin qanunvericiliyində superfitsi anlayışının ekvivalenti kimi «özgəsinə məxsus olan torpaqda tikmək hüququ» (Bolqarıstan), «özgəsinə məxsus olan torpaq sahəsindəki tikilidən daimi istifadə etmək hüququ» (Polşa) kimi institutlar işlədilir və tətbiq edilir.

MM-in 250-ci maddəsinin 1-ci bəndi superfitsiyə anlayış verir. Torpaq sahəsi elə yüklü ola bilər ki, onun üstündə və ya altındakı binaya malik olmaq hüququ — özgəninkiləşdirilən və vərəsəlik üzrə keçən hüquq xeyrinə yükləmə aparılan şəxsə mənsub olur. Yeri gəlmişkən, qeyd edək ki, superfitsiyə verilən bu leqal definisiya (tərif) Almaniyanın 15 yanvar 1919-cu il tarixli «Tikiliyə vərəsəlik hüququ haqqında Əsasnamə»nin 1-ci paraqrafından iqtibas olunmuşdur (21 sentyabr 1994-cü ildə həmin əsasnaməyə dəyişikliklər edilmişdir). Bu normativ hüquqi akt Almaniya MQ-nə daxil edilmişdir (§1012-1017)[1]. **Bina** dedikdə, özgəsinə mənsub olan torpağın üstündə və ya altında yaradılan və torpağın üstü ilə bağlı olan müxtəlif təyinatlı tikililər — evlər, mənzillər, anbarlar və s. başa düşülür. Yaponiya sivilistika doktrinası tikili kateqoriyasına yaşayış binalarını, körpüləri, su nohurlarını (hovuzlarını), tunelləri (yerin altından açılan yolları) və digər qurğuları aid edir. Bu ölkənin qanunvericiliyinə görə, torpaq sahəsində əkilmiş ağaclar (tut və meyvə ağacları emfitevzisin obyekti ola bilər) və bitkilər də superfitsinin obyekti qismində çıxış edə bilər[2]. Zənn edirik ki, ağacları (bitkiləri) superfitsinin obyekti hesab etmək üçün bizim ölkə qanunvericiliyi hər hansı bir məhdudiyyət nəzərdə tutmur, yəni torpaq sahəsində tikili ucaltmaqla bərabər, həm də ağaclar (bitkilər) əkilə bilər.

Superfitsi özgə torpağından istifadəyə yönələn hüquqlardan biridir. Bu hüququn əsas məqsədi tikiliyə malik olmağı hüquqi cəhətdən mühafizə etməkdən ibarətdir. Onun əsas mahiyyətini özgə torpağından tikinti niyyəti ilə istifadə təşkil edir.

Superfitsi **özgəsinə məxsus olan torpaq sahəsinin başqa şəxsin xeyrinə yüklənməsini nəzərdə tutan hüquq münasibətidir**. Bu münasibətdə iki tərəf (subyekt) çıxış edir: torpaq sahəsinin mülkiyyətçisi; xeyrinə yükləmə aparılan şəxs. Xeyrinə yükləmə aparılan şəxs dedikdə, tikiliyə vərəsəlik hüququ olan subyekt (tərəf) başa düşülür. Qədim Roma hüququ dili ilə o, superfitsiar adlanır. **Superfitsiar** özgəsinə məxsus olan torpaq sahəsində bina (tikili) ucaldır. Bu, onun özünün vəsaiti hesabına tikilir. Lakin o, tikili üzərində mülkiyyət hüququ əldə etmir. Tikili üzərində mülkiyyət hüququ torpaq sahəsinin mülkiyyətçisinə məxsus olur. Bu qayda Roma hüququndakı prinsipə əsaslanır: «torpaqda yerləşən, lakin onunla bağlı olan hər nə varsa, mülkiyyətçiyə məxsusdur» (semper superficiem solo cedere). Başqa sözlə desək, tikili üzərində mülkiyyət hüququnu «torpaq sahəsi kimin mülkiyyətindədirsə, onun üstündə ucaldılan tikili də mülkiyyətçiyə məxsusdur» qaydası üzrə mülkiyyətçi əldə edir. Superfitsiar yalnız tikilidən uzun müddət istifadə etmək hüququna malikdir. Lakin onun ixtiyarı çatır ki, tikiliyə (binaya) olan hüququnu vərəsəlik (həm qanun, həm də vəsiyyət üzrə) qaydasında başqa şəxslərə versin. Superfitsiar tikiliyə (binaya) olan hüququnu həm də özgəninkiləşdirmək ixtiyarına malikdir. Belə ki, o, tikiliyə olan hüququ sata, bağışlaya, dəyişdirə, girov qoya, kirayəyə verə və s. bilər. Superfitsiar tikiliyə olan hüququ satarkən torpaq sahəsinin mülkiyyətçisinin onu satın almaqda üstünlük hüququ vardır. Onun ixtiyarı var ki, üzərində tikili ucaltdığı torpaq sahəsini mülkiyyətçidən satın alsın. Özü də superfitsiarın torpaq sahəsini satın almaqda üstünlük hüququ vardır (MM-in 254-cü maddəsi).

Beləliklə, **superfitsi dedikdə, elə bir məhdud əşya hüquq münasibəti başa düşülür ki, bu münasibətə görə, superfitsiar özgəsinin torpaq sahəsində özgəninkiləşdirilə və vərəsəlik üzrə verilə bilən tikili (bina) ucaltmaq və bu tikilidən (binadan) istifadə etmək kimi əşya hüququ əldə edir**.

Superfitsi **müddətli hüquq münasibətidir**. Müddət tərəflərin razılığı ilə müəyyən edilir. Superfitsinin qüvvədə olduğu maksimum müddət 99 ildir. Belə ki, superfitsinin müddəti doxsan doqquz ildən çox ola bilməz (MM-in 250-ci maddəsinin 3-cü bəndi). Almaniya qanunvericiliyinə görə, tikiliyə vərəsəlik hüququ 66 və ya 99 il müddətinə qüvvədə olur. İsveçrə qanunvericiliyi superfitsinin maksimum müddətini yüz il müəyyən edir[1].

2. Tikiliyə vərəsəlik hüququ haqqında müqavilə

Torpaq sahəsinin mülkiyyətçisi ilə superfitsiar arasında əmələ gələn münasibətlər müqavilə ilə rəsmiləşdirilir ki, bu hüquqi konstruksiya **tikiliyə vərəsəlik hüququ haqqında müqavilə** adlanır. Məhz bu müqavilə əsasında superfitsi əldə edilir. Deməli, həmin müqavilə superfitsinin yaranmasına əsas olan hüquqi fakt rolunu oynayır[2]. Roma hüququnda göstərilən konstruksiya superfitsi müqaviləsi adı altında nəzərdə tutulurdu[3].

Superfitsi müqaviləsinin hüquqi təbiətinə və xarakterinə müəlliflərin münasibəti birmənalı deyil. Hüquq ədəbiyyatı səhifələrində belə bir fikirlə rastlaşırıq ki, superfitsi müqaviləsi öhdəlik əqdidir (müqaviləsidir)[4]. Bizim fikrimizcə, məhdud əşya hüququ (öhdəlik hüququ yox) müəyyənləşdirdiyinə görə həmin müqaviləni **öhdəlik əqdi (müqaviləsi) kateqoriyasına yox, əşya əqdi (müqa-**

[1] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2002, с. 428.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 189.

[1] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 290.

[2] Yaponiya qanunvericiliyinə görə, superfitsi qanunda göstərilən hüquqi faktdan da əmələ gələ bilər (qanuni superfitsi). Belə ki, mülkiyyətçi öz torpaq sahəsini və həmin sahədəki tikililəri ipotekaya qoya bilər. Amma bu əşyalardan biri hərracda satıldıqda torpağın və tikilinin mülkiyyətçisi ayrı-ayrı şəxslər olur. Belə halda tikilinin sökülməsinə yol verməmək məqsədilə ipoteka qoyan üçün superfitsi müəyyən edilə bilər (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 223).

[3] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 212.

[4] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2002, с. 429.

viləsi) kateqoriyasına aid etmək lazımdır. Yaponiya sivilistika doktrinasında superfitsi müqaviləsinə məhz əşya müqaviləsi kimi baxırlar[1].

Superfitsi müqaviləsinin forması barədə qanun **notarial forma** nəzərdə tutur. Belə ki, həmin müqavilə notariat qaydasında təsdiqləndikdə etibarlı sayılır (MM-in 251-ci maddəsinin 1-ci bəndi). Qanunun müəyyən etdiyi konkret göstərişdən belə məlum olur ki, superfitsi müqaviləsi həm şifahi, həm də sadə yazılı formada bağlana bilməz. Əgər müqavilə şifahi və ya sadə yazılı formada bağlanarsa, onda belə formalı müqavilənin hüquqi əhəmiyyəti olmayacaqdır. Bu müqavilə etibarsız hesab ediləcəkdir.

Bununla bərabər, qanun eyni zamanda superfitsi müqaviləsindən irəli gələn hüququn (yəni tikiliyə vərəsəlik hüququnun) dövlət qeydiyyatına alınması qaydasını müəyyən edir. Belə ki, tikiliyə vərəsəlik hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydə alınır (MM-in 250-ci maddəsinin 1-ci bəndi). Əgər superfitsi müqaviləsindən irəli gələn hüquqların dövlət qeydiyyatına alınması tələbinə riayət edilməzsə, onda bu, əqdin etibarsızlığına səbəb olur. Belə əqd hüquqi əhəmiyyətə malik olmur və puç əqd hesab edilir (MM-in 337-ci maddəsinin 1-ci bəndi).

Müqavilənin qiyməti onun elementlərindən biridir. Superfitsi, yəni tikiliyə vərəsəlik hüququ üçün superfitsiarın torpaq sahəsinin mülkiyyətçisinə verdiyi haqq müqavilənin qiymətini ifadə edir. Mülkiyyətçi tikiliyə vərəsəlik hüququ üçün haqq almaq hüququna malikdir (MM-in 253-cü maddəsinin 1-ci bəndi). Haqq tərəflərin razılığı ilə müəyyən edilir. Özü də o, birdəfəlik ödəniş formasında yox, hissə-hissə (aylıq, illik, rüblük və s.) ödəniş formasında müəyyənləşdirilir. Bu, Almaniya qanunvericiliyinə uyğundur. Belə ki, bu ölkənin qanunvericiliyinə görə, tikiliyə hüquq üçün ödəniş müqavilə əsasında həmin hüququn qüvvədə olduğu bütün müddət ərzində müəyyən hissələrlə həyata keçirilir. Yaponiya qanunvericiliyi haqqın həm də birdəfəlik ödəniş formasında dərhal ödənilməsinin mümkünlüyünü nəzərdə tutur.

Qanun superfitsi üçün haqqın ödənilməsini təmin etmək üçün qayda müəyyən edir (MM-in 253-cü maddəsinin 3-cü bəndi). Bu qayda superfitsiar tərəfindən ödənişlərin verilməsini təmin edir. Başqa sözlə desək, göstərilən qayda torpaq sahəsinin mülkiyyətçisinə imkan verir ki, o, superfitsiardan superfitsi üçün haqqı ala bilsin. Bu qaydanın mahiyyəti ondan ibarətdir ki, pul öhdəliyinin (haqqı vermək öhdəliyinin) icrasını təmin etmək üçün mülkiyyətçi superfitsiardan tikiliyə vərəsəlik hüququnun girov qoyulmasını tələb edə bilər. Bununla **mülkiyyətçi tikilidən istifadə etmək hüququna girov hüququ əldə edir (qanun əsasında girov)**. «Girov haqqında» qanunun 4-cü maddəsi istifadə hüquqlarının girovun predmeti ola bilməsinin mümkünlüyünü nəzərdə tutur. Belə halda torpaq sahəsinin mülkiyyətçisi girov saxlayan, superfitsiar isə girov qoyan rolunda çıxış edir. Girov hüququ dövlət qeydiyyatına alınır. Özü də girov hüququ ən çoxu üç illik haqq həcmində qeydə alına bilər.

Superfitsi müqaviləsi müxtəlif əsaslara görə ləğv edilir. Müqavilə, hər şeydən əvvəl, **müddətin başa çatması ilə əlaqədar xitam olunur**. Tikiliyə vərəsəlik hüququ onun verildiyi müddət qurtardıqda, superfitsi müqaviləsinə xitam verilir (MM-in 252-ci maddəsinin 2-ci bəndi).

Müqavilənin ləğv edilməsini şərtləndirən əsaslardan biri **tərəflərin sazişidir**. Tərəflər, yəni torpaq sahəsinin mülkiyyətçisi ilə superfitsiar qarşılıqlı razılığa gəldikdə, müqavilə ləğv edilir (MM-in 252-ci maddəsinin 2-ci bəndi).

Superfitsi müqaviləsinin ləğv edilməsinə dəlalət edən növbəti hallardan biri **dereliksiyadır**. Bu əsası hələ Roma hüququ da tanıyırdı[1]. Müqavilənin ləğv edilməsini şərtləndirən belə əsası bəzi xarici ölkələrin (məsələn, İtaliyanın) qanunvericiliyi də nəzərdə tutur[2]. Dereliksiya dedikdə, superfitsiarın superfitsi hüququndan imtina etməsi başa düşülür. Tikiliyə vərəsəlik hüququ olan şəxs ondan imtina edə bilər ki, bunun da nəticəsində müqaviləyə xitam verilir (MM-in 252-ci maddəsinin 7-ci bəndi).

Superfitsi müqaviləsi **hüquqların qovuşması (birləşdirilməsi) əsasında** ləğv edilə bilər. Bu halda mülkiyyət hüququ və superfitsiyə olan hüquq bir şəxsdə birləşir. Hüquqların qovuşması iki yolla həyata keçirilir. Birinci yolun mahiyyəti ondan ibarətdir ki, superfitsiar torpaq sahəsi üzərində mülkiyyət hüququ əldə edir, yəni o, torpaq sahəsini mülkiyyətçidən satın alır (MM-in 254-cü maddəsi). Bununla superfitsi ləğv edilir. İkinci yola görə, torpaq sahəsinin mülkiyyətçisi superfitsini, yəni tikiliyə vərəsəlik hüququnu satın alır. Bununla da superfitsiyə xitam verilir (MM-in 254-cü maddəsi).

Superfitsi müqaviləsi **birtərəfli qaydada vaxtından əvvəl də xitam edilə bilər**. Belə ki, qanunda nəzərdə tutulan əsaslar olduqda, torpaq sahəsinin mülkiyyətçisi heç bir dəlil, arqument, motiv gətirmədən müqaviləni birtərəfli qaydada ləğv etmək hüququna malik olur. Müqavilənin vaxtından əvvəl ləğv edilməsini şərtləndirən birinci hal **superfitsiarın öz əşya hüququnu aşmasından (kənara çıxmasından)** ibarətdir. Məsələn, superfitsiar torpaq sahəsində faydalı qazıntı işləri aparır və ya torpaq sahəsindən tikinti materialları (daş, qum və s.) çıxarır. Bu halda mülkiyyətçinin superfitsiyə vaxtından əvvəl xitam verilməsini tələb etmək hüququ yaranır (MM-in 252-ci maddəsinin 3-cü bəndi).

İkinci hal müqavilə öhdəliklərinin pozulması ilə bağlıdır. Belə ki, **superfitsiar müqavilə öhdəliklərini icra etmirsə**, müqavilə vəzifələrini yerinə yetirmirsə, yəni müqavilə intizamını pozursa, onda mülkiyyətçi superfitsiyə vaxtından əvvəl xitam verilməsini tələb edə bilər (MM-in 252-ci maddəsinin 3-cü bəndi).

Üçüncü hal **superfitsiarın iki il ərzində superfitsi üçün haqq ödəməməsindən** ibarətdir. Tikiliyə vərəsəlik hüququ olan şəxs iki il ərzində ödənişləri vermədikdə, mülkiyyətçi superfitsiyə birtərəfli qaydada xitam verə bilər (MM-in 253-cü maddəsinin 2-ci bəndi).

Bəzi hallarda bu və ya digər səbəbə görə tikili (bina) məhv ola bilər. Məsələn, özgə torpağında taxta materialdan ucaldılan tikili yanğın nəticəsində tamamilə yanıb məhv olur. Başqa bir misalda güclü zəlzələ (məsələn, 9 bal gücündə) tikilini (binanı) dağıdıb yerlə-yeksan edir. Belə hallarda superfitsi hüququ ləğv edilmir. Ona görə ki, qanun tikilinin (binanın) məhvinin tikiliyə vərəsəlik hüququna xitam verilməsinə səbəb olmaması barəsində göstəriş ifadə edir

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 2. М., 1983, с. 19.

[1] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 215.

[2] Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 283.

(MM-in 252-ci maddəsinin 7-ci bəndi)[1].

Superfitsi müqaviləsinin xitam edilməsi **müəyyən hüquqi nəticələrə** səbəb olur. Ən zəruri nəticə ondan ibarətdir ki, **müqavilə ləğv edildikdən sonra tikili (bina) üzərində mülkiyyət hüququ torpaq sahəsinin mülkiyyətçisinə keçir**. Əgər müqaviləyə xitam verilərsə, mövcud binalar torpaq sahəsinin mülkiyyətçisinə keçir və torpaq sahəsinin tərkib hissəsinə çevrilir (MM-in 252-ci maddəsinin 1-ci bəndi). Özgə torpağında ucaldılan tikili üzərində torpaq sahəsi mülkiyyətçisinin mülkiyyət hüququ əldə etməsinə mülkiyyətçiyə qayıtma deyilir. Bu qayda Roma hüququnun bütün tarixi boyu qüvvədə olan «tikiliyə mülkiyyət hüququ yalnız torpaq sahəsinin mülkiyyətçisinə məxsus ola bilər (superficies solo cedit)» kimi prinsipinə uyğundur[2]. Roma hüququna əsasən, tikiliyə mülkiyyət hüququ «tikili torpaqla bağlıdır, torpağın arxasınca onunla birlikdə gedir» qaydası üzrə torpaq sahəsinin mülkiyyətçisinə məxsus idi. Digər tərəfdən torpaq sahəsi mülkiyyətçisinin tikiliyə mülkiyyət hüququ əldə etməsi həm də onunla bağlıdır ki, əşyanın mülkiyyətçisi onun bütün tərkib hissələrinin mülkiyyətçisidir (MM-in 135-ci maddəsinin 10-cu bəndi).

Superfitsi müqaviləsinin ləğv edilməsinin **ikinci hüquqi nəticəsi torpaq sahəsi mülkiyyətçisinin superfitsiara kompensasiya ödəməsindən ibarətdir**. Mülkiyyətçi kompensasiyanı onun mülkiyyətinə keçən tikililərə (binalara) görə ödəyir. Özü də ödənilən kompensasiya ağlabatan məbləğdə olmalıdır. Ağlabatan kompensasiya dedikdə, normal, münasib, tikilinin həqiqi dəyərinə uyğun gələn əvəz ödəmə başa düşülür. Beləliklə, torpaq sahəsinin mülkiyyətçisi müqaviləyə xitam verildikdən sonra ona keçən binalar üçün tikiliyə vərəsəlik hüququ olmuş şəxsə ağlabatan kompensasiya ödəməlidir (MM-in 252-ci maddəsinin 4-cü bəndi).

Bəzən elə hallar da olur ki, müqaviləyə superfitsiarın təqsirli davranışı nəticəsində vaxtından əvvəl xitam verilir. Superfitsiarın bu cür təqsirli hərəkətlərinə onun əşya hüququnu kobudcasına aşmasını, müqavilə öhdəliklərini pozmasını, iki il ərzində superfitsi üçün haqq ödəməməsini misal göstərmək olar. Belə hallarda müqaviləyə xitam verildikdə, kompensasiyanın məbləği təqsirli davranışa görə azaldılır. Belə təsəvvür yaranır ki, göstərilən məqamlarda kompensasiya tikiliyə vərəsəlik hüququ olan subyektin təqsirli davranışı nəzərə alınmaqla hesablanır (MM-in 252-ci maddəsinin 4-cü bəndi).

Qanun tikiliyə vərəsəlik hüququnun torpaq sahəsinin mülkiyyətçisinə keçməsi məqamını da müəyyənləşdirir (MM-in 252-ci maddəsinin 4-cü bəndi). Belə ki, **mülkiyyətçi kompensasiyanı ödədikdən sonra superfitsi hüququ ona keçir**. Əgər o, nəzərdə tutulan kompensasiya məbləğini superfitsiara verməzsə, superfitsi hüququnu, yəni tikiliyə vərəsəlik hüququnu əldə edə bilməz.

Bəzi məqamlarda mülkiyyətçinin bu və ya digər səbəbə görə kompensasiya məbləğini ödəməyə vəsaiti çatmır. Məsələn, o, müflisləşir, borca düşür və s. Belə halda o, **kompensasiyanın məbləğinə uyğun olaraq girov qoyur**. Girovun predmeti mülkiyyətçinin malik olduğu əmlak, habelə əmlak hüquqları (sahiblik, istifadə, tələb hüquqları və s.) ola bilər. Kompensasiya məbləğində əmlak və ya əmlak hüquqları girov qoyulduqdan dərhal sonra, mülkiyyətçi superfitsi hüququnu əldə edir.

Qanun həm də superfitsi müqaviləsinin ləğv edilməsi anının kompensasiyanın ödənilməsi və ya girov qoyulması vaxtı ilə əlaqələndirir. Belə ki, kompensasiya ödənildikdən və ya girov qoyulduqdan sonra superfitsi müqaviləsinə xitam verilir (MM-in 252-ci maddəsinin 4-cü bəndi).

Superfitsiar tikiliyə vərəsəlik hüququnu girov qoymaq ixtiyarına malikdir. Belə vəziyyətdə də superfitsi müqaviləsi ləğv edilə bilər. Belə halda superfitsiara kompensasiya ödəmək olmaz. Ona görə ki, tikiliyə vərəsəlik hüququ girovun predmetinə çevrilir. Əgər superfitsiar girov saxlayan rolunda çıxış edən kreditorlar qarşısında pul və ya başqa öhdəliyini icra etməsə, onda kreditorlar öz tələblərini kompensasiyaya yönəldir və onun hesabına belə tələbləri təmin edirlər. Ona görə ki, kompensasiya superfitsi hüququnu girov kimi saxlayan kreditorlar üçün qarantiya sayılır (MM-in 252-ci maddəsinin 4-cü bəndi). Bununla belə, girov saxlayan (kreditor) razılıq verərsə, mülkiyyətçi superfitsiara (daha doğrusu, tikiliyə vərəsəlik hüququnun əvvəlki subyektinə) kompensasiya ödəyə bilər.

Bəzi hallarda mülkiyyətçi kompensasiyanı ödəmir və ya hər hansı əmlak (əmlak hüququ) girov qoymur. Bu vəziyyətdə də superfitsi müqaviləsi ləğv edilə bilər. Lakin bunun üçün zəruridir ki, superfitsiarın (yəni tikiliyə vərəsəlik hüququnun əvvəlki subyektinin) tələbi ilə **ipoteka qeydə alınsın**. Belə halda mülkiyyətçinin torpaq sahəsi ipoteka ilə yüklü edilir. Bunun üçün superfitsinin əvvəlki subyekti ilə mülkiyyətçi arasında **ipoteka müqaviləsinin bağlanması və həmin müqavilənin notariat qaydasında təsdiqlənməsi tələb olunmur**. Çünki o, **müqavilə ipotekası yox, qanuni ipotekadır**. Sadəcə olaraq, ipoteka daşınmaz əmlakın dövlət reyestrində qeydə alınır (MM-in 309-cu maddəsinin 1-ci bəndi). Özü də qeydiyyat superfitsiyə xitam verilməsindən ən geci üç ay müddəti ərzində həyata keçirilməlidir. Tikiliyə vərəsəlik hüququ üçüncü şəxslərə (kreditorlara) girov kimi qoyulduğu hallarda, üçüncü şəxslər də (yəni girov saxlayan kreditorlar) ipotekanın qeydə alınmasını tələb edə bilərlər (MM-in 252-ci maddəsinin 5-ci bəndi). Beləliklə, torpaq sahəsi mülkiyyətçinin tikiliyə görə kompensasiya ödəmək öhdəliyinin icrası üçün ipotekaya qoyula bilər. Buna qanuni (qanunda göstərilən hüquqi faktdan əmələ gələn) ipoteka deyilir.

Kompensasiyanın məbləği, onun təyin edilməsi və ödənilməsi qaydası tərəflərin razılığı ilə müəyyən edilir. Tərəflərin ixtiyarı çatır ki, onlar tikili (bina) üçün kompensasiya ödənilməməsi barədə öz aralarında razılığa gəlsinlər (MM-in 252-ci maddəsinin 6-cı bəndi).

§ 3. Servitut (Dienstbarkeiten) özgəsinin daşınmaz əşyasından məhdud istifadə hüququ kimi

1. Servitutun anlayışı və əsas cəhətləri

Məhdud əşya hüquqlarının ən geniş yayılmış növlərindən biri servitut adlanır. Servitut Azərbaycan Respublikasının MM-də nəzərdə tutulan yeni anlayışlardan biridir. MM-in 11-ci fəslinin 2-ci paraqrafına daxil olan normalar (255-262-ci maddələr) servitut hüquq münasibətlərinin tənzimlənməsinə həsr edilmişdir.

[1] Analoji göstəriş bəzi ölkələrin, məsələn, İtaliyanın qanunvericiliyində də ifadə olunmuşdur (bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 283).

[2] *Д.В.Дождев.* Римское частное право. Учебник. М., 1999, с. 466.

Servitut hüquq münasibəti ilk dəfə olaraq bizim mülki qanunvericilik tərəfindən tənzimlənmir. O, Azərbaycan Respublikası mülki hüququnun dünya mülki qanunvericiliyinə gətirdiyi yeni anlayış deyildir. Çoxdan bəridir ki, bir çox dövlətlərin, xüsusən də kontinental Avropa ölkələrinin (məsələn, Macarıstanın, Polşanın, Yuqoslaviyanın, Almaniyanın, İspaniyanın, İtaliyanın, İsveçrənin) qanunvericiliyi servitut hüququnu tənzimləyir[1]. Məsələn, Hollandiya MM-in 5-ci kitabının 6-cı bölməsi «Torpaq servitutları» adlanır. İtaliya MM-in 3-cü kitabının 6-cı bölməsi torpaq servitutlarını tənzimləyir. Fransa MM-in ikinci kitabının 4-cü bölməsi servitut hüququna həsr edilmişdir.

Bəzi ölkələrin qanunvericiliyində servitut **«qonşu hüquqları»**, **«əşyanın yüklənməsi»** adlanır. Kontinental Avropa ölkələrinin qanunvericiliyinə görə, servitut dedikdə, özgə əşyalarına hüquq başa düşülür. Servitut ayrı-ayrı şəxslərin xeyrinə müəyyən edilə bilər. Buna şəxsi servitut deyilir. Şəxsi servitut dedikdə, özgə əşyasından ömürlük istifadə hüququ başa düşülür. Özgəsinə məxsus olan yaşayış evində və ya onun bir hissəsində ömürlük yaşamaq hüququ da şəxsi servitutlara şamil edilir. Servitutların predial və ya torpaq servitutları kimi növləri fərqləndirilir. Torpaq servitutuna görə, müəyyən bir sahə (köməkçi sahə) digər sahəyə (əsas sahəyə) xidmət edir. Bununla əsas hesab edilən torpaq sahəsinin mülkiyyətçisinin mənafeyi və faydası üçün onun ehtiyaclarının ödənilməsi təmin edilir. Torpaq sahələri bir-birilə qonşu olmalıdır. Onların bir-birilə bitişik olması məcburi deyildir.

Servitutların kənd və şəhər servitutları kimi növləri vardır. Kənd servitutlarının iki əsas növü fərqləndirilir: su servitutları (su çəkmək hüququ); yol servitutları (keçid hüququ, mal-qaranı sürüb aparmaq hüququ). Tikilini qonşunun divarına dayamaq hüququ, çirkli suların axıdılması üçün ensiz arx çəkmək hüququ, su buraxmaq hüququ şəhər servitutuna aid edilir.

Kontinental Avropa ölkələrinin qanunvericiliyinin servitut hüququ barədə müəyyən etdiyi qaydaların qısaca hüquqi xarakteristikası bunlardan ibarətdir. Azərbaycan Respublikasının mövcud qanunvericiliyinin servitut barədə müəyyən etdiyi normalar həmin qaydalara əsaslanır. Göstərilən bu qaydaların tarixi mənşəyi və kökləri isə Roma xüsusi hüququ ilə sıx surətdə bağlıdır.

Roma hüququna görə, servitut dedikdə, özgəyə məxsus olan əşyadan istifadə hüququ başa düşülürdü[2]. Servitut həmişə özgə əşyasına hüququ ifadə edirdi. Lakin Roma hüquqşünaslarının əsərlərində servitutun anlayışı verilmirdi. Həmin əsərlərdə yalnız servitutun anlayışını vermək üçün zəruri olan elementlər göstərilirdi. Roma hüququnda servitutların torpaq və ya real servitutlar, şəxsi servitutlar, predial servitutlar, kənd servitutları, şəhər servitutları kimi növləri fərqləndirilirdi.

İndi də servitut sözünün mənasını izah edək. Bu, latınca «servitus» sözündən olub, «əşyanın xidmət göstərməsi» mənasını ifadə edir[1]. Bu isə təsadüfi deyil. Hələ Roma hüquqşünasları göstərirdilər ki, mülkiyyətçinin əşyası onun özünə xidmət göstərmir, amma o, bu əşyadan istifadə hüququnu özgə şəxsə verə bilərdi. Bu isə əşyanın nəyə isə xidmət göstərməsi kimi başa düşülürdü. Belə təsəvvür yaranır ki, servitut bir əşyanın digər əşyanın ehtiyaclarının ödənilməsinə xidmət edir.

Servitutun leqal-normativ anlayışı MM-in 255-ci maddəsinin 1-ci bəndində verilmişdir. **Servitut daşınmaz əşyanın digər daşınmaz əşya mülkiyyətçisinin xeyrinə elə yüklü edilməsidir ki, bu zaman ona (digər daşınmaz əşyanın mülkiyyətçisinə) ayrı-ayrı hallarda əşyadan istifadə etməyə icazə verilir və ya daşınmaz əşyanın mülkiyyətçisinə müəyyən hərəkətləri yerinə yetirməyə və ya mülkiyyət hüququndan irəli gələn digər hüquqları həyata keçirməyə icazə verilmir**. Anlayışdan məlum olur ki, o, özgəsinin daşınmaz əşyasından məhdud istifadə hüququnu ifadə edir. Belə ki, servitut bir-birilə qonşu olan iki daşınmaz əşyanı (hər şeydən əvvəl, başlıca olaraq torpaq sahəsini) bağlayır və əlaqələndirir. Bu əşyalardan biri **«xidmət olunan əşya»**, digəri isə **«xidmət edən əşya»** sayılır. «Xidmət edən əşya» «xidmət olunan əşya»nın mülkiyyətçisinin (digər daşınmaz əşya mülkiyyətçisinin) xeyrinə yüklənir. Bu cür yükləmə servitut adlanır. Məsələn, vətəndaş öz yaşayış evinə («xidmət olunan daşınmaz əşya»ya) qonşusunun mənzilindən («xidmət edən əşya»dan) qaz və işıq (elektrik xətti) çəkir. Bununla həmin mənzil servitutla yüklənir.

«Xidmət olunan daşınmaz əmlak» odur ki, bu əmlakın mənafeyi üçün servitut müəyyənləşdirilir; həmin əmlak müəyyən edilmiş servitutdan faydalanır[2]; məhz ondan istifadə ehtiyacı üçün servitut müəyyən edilir[3].

«Xidmət edən daşınmaz əmlak» dedikdə isə servitutla yüklənən əmlak başa düşülür; bu əmlak «xidmət olunan daşınmaz əmlak»ın istifadə ehtiyacı üçün servitutla yüklənir.

Servitutun yaranması üçün vacibdir ki, «xidmət olunan daşınmaz əmlak» və «xidmət edən daşınmaz əmlak» müxtəlif mülkiyyətçilərə məxsus olsun. Bu, servitutu xarakterizə edən əsas əlamətlərdən biridir.

Servituta çoxlu misallar çəkmək olar. Məsələn, vətəndaş öz qonşusuna su quyusundan hər gün 5 vedrə su verir; kənd sakini öz qonşusuna onun həyət sahəsindən keçib ümumi yola çıxmağa icazə verir; vətəndaş özünə məxsus olan torpaq sahəsindən keçməklə arx çəkilməsinə qonşusuna icazə verir; şəxsin qonşunun torpaq sahəsindən kanalizasiya çəkməsi; şəxsin kənd təsərrüfatı məhsullarını başqasının anbarında saxlaması; çobanın öz otlaq sahəsində baş-

[1] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 260-290.

[2] Roma hüququnda servitut barədə bax: *Д.В.Дождев*. Римское частное право. Учебник. М., 1999, с. 445-456; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 204-212; *İ.Пухан, М.Поленак-Акимовская*. Римское право Учебник. М., 2000, с. 177-186.

[1] Başqa bir mənbədə servitutun «servize» ifadəsindən olub, «xidmət etmək» mənasını bildirməsi göstərilir (bax: *İ.B.Novitski*. Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 92). Müəlliflərdən prof. V.A.Krasnokutski göstərir ki, «servitus» sözü xüsusi mənada «əşyanın kölәliyi» («qulluqçuluq etməsi») mənasını ifadə edir (Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 204). Digər mənbədə servitutun «vəzifə», «öhdəlik» mənasını bildirməsi göstərilir (Словарь иностранных слов. М., 1985, с. 450).

[2] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 507.

[3] *Л.Жюллио де ла Морандьер*. Гражданское право Франции. Часть 2. М., 1960, с. 110. Həm ABŞ, həm Fransa, həm də digər xarici ölkələrdə «xidmət olunan daşınmaz əmlak» əvəzinə «üstün daşınmaz əmlak» anlayışı işlədilir.

qa çobana qoyunları otarmağa icazə verməsi; şəxsin qonşu sahədən su çəkmək hüququ əldə etməsi; şəxsin özgəsinin sahəsindən keçib getməsi və s.

Servitut müəyyən şəxsin mənafeyinə özgə əşyasından istifadə hüququnu ifadə edir[1]. Bu hüquq əsasında şəxs başqasına məxsus olan daşınmaz əşyadan məhdud dərəcədə istifadə edir. Lakin bu cür istifadə servitut verən şəxsi, yəni «xidmət edən daşınmaz əşya» mülkiyyətçisini mülkiyyət hüququndan məhrum etmir. O, yenə də həmin əşya üzərində üçlü səlahiyyəti həyata keçirə bilər. Servitut yalnız daşınmaz əmlaka («xidmət edən daşınmaz əmlak»a) mülkiyyət hüququnu, yəni həmin əmlakın mülkiyyətçisinin səlahiyyətlərini məhdudlaşdırır; o, mülkiyyət haqqında ümumi qaydalardan kənara çıxma deməkdir. Buna görə də servitut mülkiyyət hüququnu ictimai mənafe naminə və üçüncü şəxslərin maraqları üçün məhdudlaşdırmağın ən effektiv üsulu kimi tətbiq olunur. Lakin servitutu həyata keçirən zaman «xidmət olunan daşınmaz əmlak»ın mülkiyyətçisi «xidmət edən daşınmaz əmlak»ın mülkiyyətçisinin (yəni yüklü olan mülkiyyətçinin) imkan daxilində mənafeyini gözləməli və yersiz-lazımsız narahatlıq yaratmamalıdır; servitutdan istifadə yüklü olan mülkiyyətçinin mənafeyinə zidd olmamalıdır (MM-in 257-ci maddəsinin 1-ci bəndi).

Qeyd etmək lazımdır ki, servitut yüklü olan mülkiyyətçinin mülkiyyət hüququndan **törəmə hüquqdur**; o, digər tərəfdən xeyrinə servitut müəyyənləşdirilən mülkiyyətçinin mülkiyyət hüququna («xidmət olunan daşınmaz əmlak»a mülkiyyət hüququna) **əlavə hüquqdur**. Buna görə də əlavə və törəmə hüquq olan servitut mülkiyyət hüququ ilə bağlıdır. Servitut alqı-satqının, girovun və icarənin müstəqil predmeti kimi çıxış edə bilməz (MM-in 255-ci maddəsinin 3-cü bəndi).

2. Servitutun subyektləri, predmeti və məzmunu. Servitutun verilməsi haqqında müqavilə

Servitut hüquq münasibətidir. Özü də o, məhdud əşya hüquq münasibətinin bir növüdür. Bu elə bir hüquq münasibətidir ki, həmin münasibətə görə, səlahiyyətli şəxs ona məxsus olmayan daşınmaz əşyadan məhdud istifadə hüququ əldə edir. Servitutla bağlı əmələ gələn hüquq münasibətində iki subyekt çıxış edir. Bu subyektlərdən biri daşınmaz əşyanın (xidmət edən əşyanın) mülkiyyətçisidir. **Daşınmaz əşyanın (xidmət edən əşyanın) mülkiyyətçisi** dedikdə, digər daşınmaz əşya (xidmət olunan əşya) mülkiyyətçisinin xeyrinə servitut verən şəxs başa düşülür. Başqa sözlə desək, o, digər daşınmaz əşya (xidmət olunan əşya) mülkiyyətçisinin xeyrinə servitutla yüklənən daşınmaz əşyanın mülkiyyətçisidir. Qonşunun həyətində su quyusu vardır. O, öz qonşusu olan vətəndaşa həyətyanı sahəsindəki meyvə ağaclarını suvarmaq üçün arx çəkməyə icazə verir. Bu misalda həyətində su quyusu olan və vətəndaşa arx çəkməyə icazə verən qonşu servitut verən tərəf (subyekt) hesab edilir.

Servitut hüquq münasibətinin ikinci subyekti (tərəfi) digər daşınmaz əşyanın (xidmət olunan əşyanın) mülkiyyətçisi və ya xeyrinə servitut müəyyən edilən şəxs adlanır. O, servitut alan tərəf hesab edilir. **Xeyrinə və mənafeyinə servitut müəyyən edilən subyekt servitut alan tərəfdir**. Ona səlahiyyətli (ixtiyarlı) şəxs deyilir. Servitut alan tərəf ya daşınmaz əşyanın (məsələn, torpağın) mülkiyyətçisidir, ya da özgəsinin daşınmaz əşyasından məhdud istifadə hüququ əldə edən şəxsdir. Yuxarıdakı misalda öz həyətyanı sahəsindəki meyvə ağaclarını suvarmaq üçün arx çəkən vətəndaş servitut alan tərəfdir. Kənd sakininə məxsus olan biçənəkdə yalnız ot çalmağa icazə alan və ya başqasının həyətindən keçib gedən şəxs də servitut əldə edən tərəf hesab edilir.

Servitut hüquq münasibətlərinin subyektləri rolunda həm vətəndaşlar, həm də hüquqi şəxslər çıxış edə bilərlər. Özü də servitut verən qismində bu münasibətlərdə həmişə servitutla yüklənən daşınmaz əşyanın mülkiyyətçisi iştirak edir (MM-in 255-ci maddəsi). Servitut verən şəxs başqa şəxslə əvəz oluna bilər. Məsələn, o, servitutla yüklənmiş daşınmaz əşyanı sata, bağışlaya, dəyişdirə, icarəyə (kirayəyə), vərəsəlik qaydasında verə bilər. Yuxarıdakı misalda həyətində su quyusu olan qonşu mülkünü sata bilər. Belə halda servitutla yüklənmiş su quyusuna mülkiyyət hüququ yeni mülkiyyətçiyə keçir. Belə halda servitut hüququna xitam verilir, yoxsa bu hüquq saxlanılır? Göstərilən məqamlarda servitutla yüklü edilmiş daşınmaz əşyanın yeni mülkiyyətçisinin (və ya titul sahibinin) servitut hüquq münasibətinə xitam verməyə ixtiyarı çatmır[1]. Ona görə ki, qanun, servitutla yüklü edilmiş daşınmaz əşyaya hüquqlar başqa şəxsə keçdikdə, servitutun ləğv edilməməsi, yəni saxlanması haqqında konkret göstəriş ifadə edir (MM-in 255-ci maddəsinin 7-ci bəndi). Bu, onunla izah edilir ki, servitut məhdud əşya hüququdur və ona izləmə hüququ xasdır; o, mülkiyyətçinin yox, daşınmaz əmlakın arxasınca gedir, onu «izləyir».

Servitut, servitut alan şəxsin daşınmaz əşyasına (torpaq sahəsinə) hüquqlar başqa şəxslərə keçdiyi hallarda da saxlanılır və ona xitam verilmir. Məsələn, onun daşınmaz əşyası vərəsələr arasında bölüşdürülə bilər. Yuxarıdakı misalda qonşunun su quyusundan arx çəkən (su götürən) vətəndaş ölür və onun bir neçə hektar sahəni əhatə edən meyvə bağı vərəsələr arasında bölüşdürülür. Bu halda servitut hüquq münasibəti ləğv edilmir, hər bir vərəsəyə düşən hissə üçün ayrıca olaraq (ayrılıqda) servitut müəyyənləşdirilir (MM-in 260-cı maddəsi), yəni hər bir vərəsəyə arx çəkməyə (su götürməyə) hüquq verilir. Bu qayda Roma hüququ ənənələrinə uyğun gəlir[2]. Lakin göstərilən qayda yalnız o halda tətbiq edilə bilər ki, bu servitut verənin, yəni yüklü olan mülkiyyətçinin vəziyyətinə mənfi təsir göstərməsin, onun vəziyyətini pisləşdirməsin.

Servitutla yüklü olan daşınmaz əşya da hissələrə (məsələn, vərəsəlik qaydasında) bölünə bilər. Belə halda servitutla bütün hissələr yox, yalnız vərəsələrdən birinə düşən hissə yüklənə bilər. Qalan vərəsələrin payına düşən hissələr belə məqamlarda servitutla yüklənmir. Bu hissələrə servitut təsir göstərmir və şamil edilmir (MM-in 260-cı maddəsinin 2-ci bəndi). Onlar servitutdan azad olur. Beləliklə, söylədiklərimiz onu sübut edir ki, servitut bölünməzdir, bölünən yalnız servitut hüququdur. Yaponiya mülki hüquq elmində, servitutun bölünməz olması onun əsas əlamətlərindən biri sayılır[3].

---

[1] *Г.Ф.Шершеневич.* Учебник русского гражданского права. Том 1. СПб., 1909, с. 338.

[1] Göstərilən bu qayda Roma hüququ ənənələrinə uyğun gəlir (*İ.B.Novitski.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 92).

[2] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 207.

[3] Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга1, М., 1983, с.196.

Servitut özgəsinin daşınmaz əşyasından məhdud istifadə hüququnu ifadə edir. Buna görə də **servitutun predmeti kimi yalnız daşınmaz əşyalar çıxış edə bilər**. Daşınar əşyanın servitutun predmeti ola bilməsi imkanı tamamilə istisna edilir, yəni daşınar əşyalar servitutun predmeti ola bilməz. Həm əşya servitutlarında, həm də şəxsi servitutlarda servitutun predmeti kimi daşınmaz əşya çıxış edir[1]. Bəzi ölkələrin, məsələn, Macarıstanın qanunvericiliyinə görə, servitutun predmetini daşınar əşyalar da təşkil edə bilər[2].

Servitut hüququnun predmeti qeyri-əşya ola bilməz. Məsələn, vətəndaşın qonşuya onun torpaq sahəsindən istifadə etməsinə icazə vermək kimi hərəkəti servitut hüququnun predmetini təşkil edə bilməz. Bu, onunla izah olunur ki, servitut əşya hüququdur, servitut hüququ əşya xarakterlidir.

Servitut **müəyyən təyinata** malikdir. O, **servitut almış şəxsin normal təsərrüfat fəaliyyətini təmin edir**. Təsərrüfat zərurəti servitutun əsas əlaməti və meyarı hesab olunur. Servitutdan o halda istifadə edilir ki, servitut qoyulmadan və müəyyən edilmədən subyektin (yəni servitut almaq arzusunda olan şəxsin) təsərrüfat, ailə-məişət, şəxsi və digər ehtiyaclarının ödənilməsi və təmin edilməsi mümkün olmasın. Başqa sözlə desək, servitut, servitut almaq istəyində olan şəxsin mənafeyini təmin etməli, onun ehtiyaclarını ödəməlidir. Servitut həmin subyektə öz daşınmaz əşyasından istifadə etməkdə lazımi güzəştlər və imkanlar yaratmalıdır. Əgər o, bu xüsusiyyətlərdən məhrum olarsa, onda servitut hüquq münasibətinin yaranmasından söhbət gedə bilməz (MM-in 255-ci maddəsinin 6-cı bəndi). Deməli, **lazımi güzəştlər və imkanlar yaratmayan münasibətlər servitut hüququnu əmələ gətirmir;** servitut müəyyən bir daşınmaz əmlakın («Xidmət edən daşınmaz əmlak»ın) digər daşınmaz əmlakın («Xidmət olunan əmlak»ın) istifadə ehtiyacları üçün yüklənməsidir[3].

Servitutun məzmunu servitut hüququnun əsas anlayışlarından biridir. **Servitutun qüvvədə olma müddəti** və digər şərtlər servitutun məzmununu təşkil edir. Əsas şərtlərdən biri servitut üçün alınan haqdan ibarətdir. **Servitut haqqı** dedikdə, servitut verən şəxsin (servitutla yüklü olan daşınmaz əşyanın mülkiyyətçisinin) servitutdan istifadəyə görə qarşı tərəfdən, yəni servitut almış şəxsdən (xeyrinə servitut müəyyən edilmiş səlahiyyətli şəxsdən) aldığı haqq başa düşülür. Haqqın miqdarı tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilir. Bu barədə onlar arasında mübahisə yarandıqda, məsələ məhkəmə qaydasında həll edilir, yəni haqqın miqdarı məhkəmənin qərarı ilə müəyyənləşdirilir (MM-in 261-ci maddəsinin 2-ci bəndi).

Servitut alana verilən məhdud istifadə hüququ da servitutun məzmunu təşkil edir. Bu hüquq servitutla yüklənmiş daşınmaz əşya mülkiyyətçisinin ayrı-

[1] Müəlliflərdən prof. A.İ.Maslyayev göstərir ki, guya konkret şəxsə yönələn şəxsi servitutlarda (vəsiyyət üzrə yaşayış evi əldə edən vərəsənin vəsiyyət edənin tapşırığı ilə bu evi və ya onun müəyyən hissəsini digər şəxsə ömürlük istifadəyə verməsi, RF-in 1964-cü il MM-in 538-ci maddəsi) predmet rolunda əmlak çıxış etmir. Bu fikir həqiqətdən uzaqdır. Belə ki, servitut əşya hüququdur. Əşya hüququnun obyekti kimi həmişə əşya çıxış edir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 262).

[2] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 260.

[3] Гражданское и торговое право капиталистических стран. Учебное пособие / Отв. ред. *В.П. Мозолин, М.И. Кулагин.* М., 1980, с. 125.

ayrı səlahiyyətlərini servitut alan şəxsin xeyrinə məhdudlaşdırır. Özü də bu məhdudlaşdırma əşya-hüquqi xarakterə malikdir. Servitutun məzmunu daşınmaz əmlakın dövlət reyestrindəki qeydiyyat yazısında qeyd olunmalıdır (MM-in 258-ci maddəsinin 2-ci bəndi).

Servitut müqavilə əsasında müəyyən edilir və qoyulur. Bu hüquqi konstruksiya **servitut verilməsinə dair müqavilə** adlanır. Həmin müqavilə **əşya müqaviləsi (əqdi)** kateqoriyasına şamil olunur, çünki əşya hüququ müəyyən edir. Qanun bu müqavilənin formasını xüsusi olaraq tənzimləyir (MM-in 256-cı maddəsinin 2-ci bəndi). Belə ki, servitut verilməsinə dair müqavilə **notariat qaydasında təsdiqlənməlidir**. Müqavilənin notarial formasına əməl edilməməsi onun etibarsızlığını şərtləndirir. Belə müqavilə puç, əhəmiyyəti olmayan əqd kimi hüquqi nəticə yaratmır. Müqavilə notariat qaydasında təsdiqləndikdən sonra **daşınmaz əmlakın dövlət reyestrində qeydə alınır**. Servitutun verilməsinə dair müqaviləyə servitutla yüklü olan daşınmaz əşyanın planı da (çertyojları, sxemləri, yerləşdiyi yer və s.) əlavə edilir və qoşulur. Daşınmaz əmlakın dövlət reyestrindəki qeydiyyat yazısında plan göstərilməlidir.

Servitut alan şəxs servitutdan elə istifadə etməlidir ki, bu istifadə servitut verən şəxsin mənafelərinə zidd olmasın. Servitut verən şəxsin isə ən əsas vəzifəsi servitutun həyata keçirilməsinə şərait yaratmaqdan, ondan istifadə etməyə mane olmamaqdan ibarətdir.

Bir məqama da toxunmağı zəruri hesab edirik. Servitut çox vaxt müqavilə qaydasında əmələ gəlir. Lakin buna baxmayaraq, o, əşya xarakterini itirmir. Xüsusilə servitut hüquqları müdafiə olunarkən əşya-hüquqi üsullardan istifadə olunur (MM-in 259-cu maddəsi). Digər tərəfdən həmin müqavilə, yuxarıda qeyd etdiyimiz kimi, öhdəlik müqaviləsi yox, əşya müqaviləsi hesab edilir. Odur ki, hüquq ədəbiyyatında bəzi müəlliflərin servitutun öhdəlik xarakteri almağa başlaması kimi fikir söyləməsinin heç bir əsası yoxdur[1].

3. Servitutun növləri

Servitutların müxtəlif növləri fərqləndirilir. Bu növlərin çoxu hələ Roma hüququnda nəzərdə tutulmuşdu[2]. Kontinental Avropa ölkələrinin qanunvericiliyi servitutları müxtəlif növlərə bölür[3].

Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə görə, **müəyyən edilmə qaydasına (üsuluna) görə** servitutların üç növü vardır: qanun servitutları; müqavilə servitutları; vəsiyyət servitutları. Qanunun birbaşa göstərişləri, daha doğrusu, qanunda nəzərdə tutulan hüquqi faktlar əsasında müəyyən edilən servitutlara **qanuni servitutlar (qanun servitutları)** deyilir. Qanunun göstərişinə görə, bir torpaq sahəsinin mülkiyyətçisi başqa torpaq sahəsinin mülkiyyətçisindən servitut verilməsini tələb edə bilər. Qanun servitutlarına misal olaraq öz sahəsindən ümumi (ictimai) yol, elektrik, neft, qaz və su təchizatı xətlərinə keçidi olmayan torpaq sahəsi mülkiyyətçisi üçün qonşuların zəruri keçid ayırmalarını

[1] Гражданское и торговое право зарубежных стран. Учебное пособие / Под ред. *В.В. Безбаха, В.К. Пучинского.* М., 2004, с. 245.

[2] *И. Пухан, М.Поленак-Акимовская.* Римское право. Учебник. М., 2000, с. 179-184.

[3] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 260-290.

göstərmək olar (MM-in 175-ci maddəsi). Bu cür servitutlarda tərəflər öz aralarında servitutun verilməsinə dair müqavilə bağlamırlar. Qanun servitutlarına su servitutlarını, yəni ümumi istifadədə olan su obyektlərindən məhdud istifadə hüququnu misal göstərmək olar (Su Məcəlləsinin 33-cü maddəsi). Qanun servitutları **leqal servitutlar** və ya **normativ servitutlar** da adlanır.

Müqavilə əsasında, yəni servitutun verilməsinə dair müqavilə əsasında müəyyən edilən servitutlara **müqavilə servitutları** deyilir. Bu cür servitutlar servitut verənlə servitut alan arasında müqavilə bağlanmasını nəzərdə tutur. Məsələn, kənd sakini özünə məxsus olan sahələrdə qonşunun mal-qarasının otarılması barədə onunla razılığa gəlir. Başqa bir misalda kəndli (fermer) təsərrüfatı başçısı çobanla su obyektindən (nohurundan) qoyunların su içmələri barədə müqavilə bağlayır.

Vəsiyyət servitutu odur ki, buna görə vəsiyyət edən yaşayış evini, mənzili və ya digər yaşayış otağını əldə edən vərəsənin üzərinə miras açılanadək bir ildən az olmayan müddətdə miras qoyanla birlikdə yaşamış şəxsə, otaqdan və ya onun müəyyən hissəsindən ömürlük istifadə hüququ vermək vəzifəsi qoyulur. Bu servitut növü MM-in 1207-ci maddəsində nəzərdə tutulmuşdur. Vəsiyyət servitutuna bəzi xarici ölkələrin, məsələn, İtaliyanın qanunvericiliyində rast gəlmək olur[1]. Həm müqavilə servitutlarına, həm də vəsiyyət servitutuna **könüllü servitutlar** deyilir. Qanun servitutları isə **məcburi servitutlar** adlanır. Deməli, belə məlum olur ki, könüllü olmaq kimi meyara görə servitutun könüllü servitut və məcburi servitut kimi iki növü fərqləndirilir.

Daşınmaz əşya mülkiyyətçisinin mənafeyinə və ya müəyyən şəxsin xeyrinə müəyyən edilməsinə görə servitutların iki növü fərqləndirilir: əşya servitutları; şəxsi servitutlar.

Əşya servitutları odur ki, bu servitutlar daşınmaz əşyanı digər daşınmaz əşya mülkiyyətçisinin mənafeyinə yüklü edilməsini və ona, yəni digər daşınmaz əşyanın mülkiyyətçisinə ayrı-ayrı hallarda əşyadan istifadə etməyə icazə verilməsini nəzərdə tutur (MM-in 255-ci maddəsinin 1-ci bəndi). Əşya servitutları **real servitutlar** da adlanır. Bu servitutlar torpağa aid edilir və buna görə də onlar **torpaq servitutları və ya predial** («praedium»— malikanə) **servitutlar** adlanır. Bu, Roma hüququ ənənələrinə uyğundur.

Torpaq servitutu bir torpaq sahəsinin digər torpaq sahəsinin mülkiyyətçisinin mənafeyinə yüklü edilməsidir, Roma hüququ və bir çox xarici ölkələrin (məsələn, Almaniyanın, İspaniyanın, İtaliyanın və s.) qanunvericiliyi servitutla yüklənən torpaq sahəsini «yardımçı sahə», xeyrinə servitut müəyyən edilən sahəni isə «əsas sahə» adlandırır. Bizim qanunvericilikdə belə anlayışlardan istifadə edilmir. Torpaq servitutu iki əsas əlamətlə xarakterizə olunur. Birincisi, yardımçı sahə əsas sahəyə xidmət edir və bununla əsas sahə mülkiyyətçisinin ehtiyacları təmin edilir. İkincisi, həmin sahələr bir-birilə qonşu olmalıdır. Lakin onların bir-birilə əlaqəli (bitişik) olması vacib və məcburi deyil[2]. Məsələn, qonşunun torpaq sahəsində su obyekti (quyusu) vardır. Digər qonşu hesab edilən fermer təsərrüfatı başçısının isə torpaq sahəsində çoxsaylı meyvə

[1] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 281.

[2] *Л. Жюллио де ла Морандьер*. Гражданское право Франции. Часть 2. М., 1960, с. 111.

ağacları yetişdirilmişdir. Həmin ağacları suvarmaq üçün o, qonşunun su obyektindən arx çəkir və ağacları suvarır. Bu misalda qonşunun torpaq sahəsi yardımçı, fermer təsərrüfatı başçısının malik olduğu sahə isə əsas sahə hesab edilir. Yardımçı sahə əsas sahəyə xidmət edir.

Şəxsi servitutlar odur ki, bu servitutlar daşınmaz əşyanın müəyyən şəxsin xeyrinə yüklənməsini nəzərdə tutur (MM-in 255-ci maddəsinin 8-ci bəndi). Şəxsi servituta şəxsin özgəsinə məxsus olan binadan və ya onun bir hissəsindən özü və ya ailəsi üçün mənzil kimi istifadə etmək hüququnu misal göstərmək olar. Şəxsi servitut konkret fiziki şəxsin xeyrinə müəyyən edilir. Özü də bu servitutun özgəninkiləşdirilməsi, yəni başqa şəxslərə verilməsi yolverilməzdir. Onu başqa şəxslərə vermək olmaz. Şəxsi servitut növünə Almaniyanın, Polşanın, Macarıstanın və s. qanunvericiliyində rast gəlmək olur.

Qeyd etmək lazımdır ki, şəxsi servitutun başqa şəxslərə verilməsinin mümkün olmaması həmin servitutun konkret, fərdi-müəyyən subyekt üçün müəyyən edilməsi və **onun şəxsiyyəti ilə bağlı olması ilə** izah edilir[1]. Buna görə də şəxsi servitut nə özgəninkiləşdirilir, nə başqa şəxsə verilir, nə də vərəsəlik üzrə vərəsələrə keçir.

Şəxsi servitut müəyyən bir şəxsin binadan və ya onun bir hissəsindən mənzil kimi istifadə etməsi zamanı yaranır. Belə halda şəxsi servituta uzufrukt haqqında qaydalar tətbiq edilir[2]; buna görə də uzufrukt şəxsi vervitut adlanır[3]. Uzufrukt öz mahiyyətinə və tarixi mənşəyinə görə şəxsi servitut deməkdir[4]. Lakin buna baxmayaraq, Azərbaycan Respublikasının mülki qanunvericiliyi uzufruktu məhdud əşya hüququnun müstəqil növlərindən biri kimi nəzərdə tutur.

Servitutlar **müəyyən hərəkətlərin yerinə yetirilməsinə icazə verilib-verilməməsinə görə** iki növə ayrılır: neqativ servitutlar; pozitiv servitutlar.

Neqativ servitutlar odur ki, bu servitutlar servitutla yüklü edilmiş daşınmaz əşyanın mülkiyyətçisinə müəyyən hərəkətləri yerinə yetirməyə icazə vermir, onu qadağan edir və yasaqlayır (MM-in 255-ci maddəsinin 1-ci bəndi). Məsələn, torpaq sahəsinin mülkiyyətçisinə müəyyən yüksəklikdən hündür bina tikməyə icazə verilmir. Başqa misalda torpaq sahəsinin mülkiyyətçisinə onun tikdiyi evdə qonşunun həyətinə açılan pəncərə qoymaq qadağan edilir. Bu torpaq sahəsi hər iki halda servitutla yüklənir.

Xarici ölkələrin, ilk növbədə, ABŞ-ın mülki hüququnda neqativ servitut **mənfi servitut** adlanır[5]. Mənfi servitut odur ki, bu servituta görə, «xidmət edən qonşu sahə»nin mülkiyyətçisi bu və ya digər istifadə növündən imtina edir. Məsələn, «işıq və hava» servitutu mənfi servituta adi misaldır: bu servitut «xidmət olunan sahə»nin mülkiyyətçisinə elə bir hüquq verir ki, bu hüquq əsasında o, «xidmət

[1] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 508.

[2] Гражданское и торговое право зарубежных стран. Учебное пособие / Под ред. *В.В.Безбаха, В.К.Пучинского*. М., 2004, с. 245.

[3] *Л.Жюллио де ла Морандьер*. Гражданское право Франции. Часть 2. М., 1960, с. 112.

[4] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1. / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров*. М., 2004, с. 386.

[5] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 508; Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров*. М., 2004, с. 386.

edən sahə»nin mülkiyyətçisinə bu sahədə «xidmət olunan sahə»yə işıq və hava daxil olmasının qarşısını alan tikili ucaltmasına mane olur.

Pozitiv servitutlar dedikdə, servitut müəyyən edilmiş sahənin (daşınmaz əşyanın), yəni əsas (xidmət olunan) sahənin mülkiyyətçisinə hər hansı bir hərəkəti etməyə icazə verən servitutlar başa düşülür (MM-in 255-ci maddəsinin 1-ci bəndi). Məsələn, qonşunun mal-qarası torpaq sahəsinin mülkiyyətçisinin su obyektinə su içməyə buraxılır. Digər misallar da çəkmək olar: qonşu sahədən keçib getmək; qonşu sahədən su çəkmək; qonşu sahəyə olan su quyusundan istifadə etmək; kənd sakininin otlaq sahəsində mal-qaranı otarmaq və s. ABŞ mülki hüququnda o, **müsbət servitut** adlanır. Müsbət servitut dedikdə, servituta malik olan şəxsin özgəsinin daşınmaz əmlakının ziyanına olaraq müəyyən hərəkət etmək hüququ başa düşülür.

Servitutların neqativ və pozitiv adlı iki növə bölünməsi halına İspaniya MM-də rast gəlmək olur.

Müddətinə görə servitutlar iki cür olur: müddətli servitutlar; müddətsiz servitutlar. **Müddətli servitutlarda** servitutun qüvvədə olma müddəti göstərilir. Məsələn, çoban kənd sakininə beş il biçənəkdən ot çalmağa icazə verir. Şəxs özgəsinin mənzilindən ömürlük istifadə edərsə, bu servitut da müddətli servituta şamil edilir.

Əgər servitutun qüvvədə olması müddəti göstərilməzsə, belə servitutlar **müddətsiz servitutlar** adlanır. Məsələn, vətəndaş öz qonşusunun sahəsindən işıq çəkir və servitutun qüvvədə olma müddəti göstərilmir.

Qeyd etməliyik ki, servitut müddətlə məhdudlaşdırılmadan, yəni müddətsiz qüvvədə olan hüquqdur. Bu, Fransa mülki hüquq doktrinasında servitutun əsas əlamətlərindən biri hesab edilir[1]; həmin əlamət servitutun «xidmət olunan daşınmaz əmlak»a mülkiyyət hüququna əlavə hüquq olmasından irəli gəlir; servitut həmin əmlakın istifadə ehtiyacları üçün müəyyənləşdirildiyinə görə ondan ayrılmazdır və prinsip etibarı ilə mülkiyyət hüququ kimi **müddətlə məhdudlaşdırılmır, müddətsizdir.** Servitutun müddətsiz olması bununla bağlıdır ki, o, hər hansı şəxsin yox, məhz daşınmaz əmlakın xeyrinə və bu əmlakın ehtiyacları üçün müəyyənləşdirilir. Lakin tərəflərin razılığı ilə **servitut müddətli xarakterdə də ola bilər.** Belə ki, onlar servitutun qüvvədə olma müddətini müəyyənləşdirə bilərlər; digər tərəfdən şəxslərin hüququ vardır ki, müddətsiz servituta xitam versinlər. Belə ki, servitut torpaqdan və digər növ daşınmaz əmlakdan istifadə olunmağı tənzimləmək məqsədinə xidmət edir. Əgər belə istifadəyə ehtiyac olmazsa, servitut da xitam edilir.

Servitutun əhatə dairəsinə, yəni onun şamil edildiyi subyektlərin dairəsinə görə onun iki növü fərqləndirilir: ümumi servitut; xüsusi servitut. Ümumi istifadədə olan obyektlərin hər birindən şəxsin istifadə etməsini nəzərdə tutan servituta **ümumi servitut** deyilir. Məsələn, ümumi su servitutu formasında hər bir şəxs ümumi istifadədə olan su obyektindən istifadə edə bilər (Su Məcəlləsinin 33-cü maddəsi)[2]. Başqa misalda hər bir fiziki şəxs sərbəst surətdə meşələrdə olmaq hüququna malikdir (Meşə Məcəlləsinin 13-cü maddəsi)[3]. Ümumi servitut **kütləvi servitut** da adlanır. Qanunla müəyyən edilən servitutları kütləvi (ümumi) servitutlara misal göstərmək olar.

Bəzi maraqlı şəxslərin xeyrinə müəyyən edilən servitutlara **xüsusi servitutlar** deyilir. Bu servitutlar müqavilə və ya məhkəmə qərarları əsasında müəyyən edilir. Məsələn, maraqlı şəxslər digər şəxslərin xüsusi istifadəsində olan su obyektlərindən xüsusi su servitutu formasında istifadə edə bilər (Su Məcəlləsinin 33-cü maddəsi). Meşə fondu sahələrindən şəxslərin istifadə hüquqları bəzi maraqlı şəxslərin xeyrinə məhdudlaşdırıla bilər ki, bu, xüsusi meşə servitutu adlanır (Meşə Məcəlləsinin 13-cü maddəsi).

[1] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 111.
[2] bax: AR QK, V cild, s. 130.
[3] bax: AR QK, V cild, s. 163.

4. Servituta xitam verilməsi

Servitut müxtəlif əsaslara görə xitam edilir. MM-in 262-ci maddəsi servitut hüquq münasibətinin ləğv edilməsini şərtləndirən halları müəyyən edir.

Servitutun ləğv edilməsinə dəlalət edən əsaslardan biri **daşınmaz əşyanın məhv olmasıdır**. Burada söhbət hər iki əşyadan, yəni həm servitutla yüklü olan («Xidmət edən»), həm də xeyrinə servitut müəyyən edilən əşyadan («Xidmət olunan əşyadan») gedir. Əşya servitutlarında göstərilən əşyalardan biri məhv olduqda, servitut ləğv edilir. Daşınmaz əşyanın məhv edilməsi dedikdə, qarşısıalınmaz qüvvə nəticəsində (məsələn, zəlzələ, yer sürüşməsi, təbii fəlakət, güclü tufan və s.), habelə bu və ya digər qeyri-adi, fövqəladə hadisə nəticəsində əşyanın mövcudluğuna son qoyulması başa düşülür. Məsələn, qonşunun həyət sahəsində olan və o biri qonşunun xeyrinə servitutla yüklənən su obyekti zəlzələ nəticəsində məhv olur. Bununla servitut hüquq münasibətinə xitam verilir. Şəxs servitutla yüklənən binanın bir hissəsindən özü üçün mənzil kimi istifadə edir (şəxsi servitut). Taxta materialdan tikilən bina (ev) qonşunun qəsdi ilə törədilən yanğın nəticəsində yanıb kül olur. Belə halda servituta xitam verilir.

Servitutun müəyyən edilməsini və qoyulmasını şərtləndirən əsasın aradan qalxması servitutun ləğv edilməsinə səbəb olan hallardan biridir. Servitutun əsas əlaməti və meyarı təsərrüfat və digər ehtiyacların ödənilməsi zərurətindən ibarətdir. Servitut ona görə müəyyən edilir ki, onsuz subyektin təsərrüfat və digər ehtiyaclarının təmin edilməsi mümkün deyil. Deməli, subyektin təsərrüfat və digər ehtiyaclarının təmin edilməsi zərurəti və tələbatı servitutun müəyyən edilməsini şərtləndirən əsasdır. Məlum məsələdir ki, bu əsas aradan qalxan kimi servitut hüquq münasibəti də ləğv ediləcəkdir. Meyvə ağaclarını suvarmaq üçün qonşunun su obyektindən arx çəkən vətəndaşın öz həyət sahəsində qazdığı quyudan su çıxır. Qonşudan su götürməyə ehtiyac olmadığına görə, vətəndaşın tələbatı öz su quyusu hesabına təmin edildiyinə görə servitut ləğv edilir.

Servitut hüquq münasibətinin ləğv edilməsinə səbəb olan əsaslardan biri **servitutla yüklü olan daşınmaz əşyadan öz təyinatına uyğun istifadə oluna bilməməsindən** ibarətdir. Özü də dərhal qeyd edirik ki, həmin əşyadan öz təyinatına uyğun istifadə olunmasının qeyri-mümkünlüyü servitutla yüklənmə ilə birbaşa əlaqədə olmalıdır. Belə ki, bu halda servitutla yüklü olma nəticəsində daşınmaz əşya normal istifadə üçün yararsız vəziyyətə düşür, onun vəziyyəti pisləşir. Bu əsas da servituta xitam verilməsinə səbəb olur. Göstərilən

halda servitut hüquq münasibəti məhkəmə yolu ilə ləğv edilir.

Servitutun ləğv edilməsi əsaslarından biri **hüquqların birləşməsi və qovuşmasından ibarətdir**. Belə ki, servitut alan şəxs (yəni xeyrinə servitut müəyyən edilmiş daşınmaz əşyanın mülkiyyətçisi) servitutla yüklü olan daşınmaz əşya üzərində mülkiyyət hüququ əldə edə bilər. Mülkiyyət hüququ müxtəlif üsullarla qazanıla bilər: mülki-hüquqi əqd (alqı-satqı, bağışlama, dəyişmə müqavilələri) bağlamaq nəticəsində; vərəsəlik yolu ilə və s. Beləliklə, servitut alan şəxs hər iki əşyanın mülkiyyətçisinə çevrilir və bununla servitut ləğv edilir.

Bəzi hallarda xeyrinə servitut müəyyən edilmiş daşınmaz əşya üçün servituta hər cür maraq itir və bu hal servitut hüquq münasibətinə xitam verilməsi üçün əsas olur. Belə məqamlarda servitutla yüklü olan daşınmaz əşya mülkiyyətçisi servitutun ləğv edilməsini tələb edə bilər.

Bununla bərabər, servituta xitam verilməsini şərtləndirən elə əsaslar vardır ki, həmin əsaslar qanunda göstərilməmişdir. Belə əsaslara aiddir: servitutun müddətinin başa çatması; servitut alanın servitutdan imtina etməsi; servitut verənin servitut alan şəxsin daşınmaz əşyasını satın alması; xeyrinə servitut müəyyən edilən fiziki şəxsin ölməsi (şəxsi servitutlar); tərəflərin razılığı; servitutdan istifadənin mümkün olmaması; xidmət edən daşınmaz əmlakın ictimai mənafe üçün məcburi surətdə özgəninkiləşdirilməsi; hər iki daşınmaz əmlakın (xidmət olunan və xidmət edən əmlakın) müəyyən bir şəxsin mülkiyyətinə keçməsi və s.

Servitutda edilən bütün dəyişikliklər, habelə servitut hüquq münasibətinin ləğv edilməsi daşınmaz əmlakın dövlət reyestrində qeyd edilməlidir.

§ 4. Uzufrukt (Nießbrauch)

1. Uzufruktun anlayışı

Məhdud əşya hüquqlarının bir növü olan uzufrukt bizim mövcud qanunvericilik üçün yeni anlayışdır. Bu hüquqi konstruksiya hələ neçə əsr bundan əvvəl Roma hüququnda nəzərdə tutulmuşdu. Roma hüququna görə, uzufrukt şəxsi servitut hesab edilirdi[1]. Uzufrukt özgə əşyasından ən geniş istifadə hüququ sayılırdı. **Səlahiyyətli, yəni xeyrinə uzufrukt müəyyənləşdirilən şəxs uzufruktuar adlanırdı**. Uzufrukt əşyanın təsərrüfat təyinatını saxlamaqla, onun maddi substansiyasının tamlığına toxunmadan və əşyanı zədələmədən özgə əşyasından istifadə və bəhər əldə etmək hüququ idi.

Uzufrukt bir çox xarici, o cümlədən kontinental Avropa ölkələrinin qanunvericiliyində nəzərdə tutulan institutdur. Macarıstan MM-in, Polşa MM-in, Almaniya MQ-nin, İspaniya MM-in, İtaliya MM-in, İsveçrə MM-inin və digər ölkələrin qanunvericiliyinin müvafiq normaları bu institutun tənzimlənməsinə həsr edilmişdir. Məsələn, Fransa MM-in ikinci kitabının üçüncü bölməsi uzufrukt münasibətlərini tənzimləyir. İtaliya MM-in üçüncü kitabının beşinci bölməsi «Uzufrukt, istifadə hüququ və yaşamaq hüququ» adlanır. Hollandiya MM-in hələ qüvvəyə minmə-

[1] *Д.В.Дождев.* Римское частное право. Учебник. М., 1999, с. 457; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 208; *İ.Puxan, M.Polenak-Akimovskaya.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 94-95.

yən üçüncü kitabının 8-ci bölməsi uzufruktu nəzərdə tutur. Kontinental Avropa ölkələrinin qanunvericiliyi uzufruktu şəxsi servitutlara aid edir. Lakin bu termindən hər yerdə istifadə olunmur. Məsələn, Bolqarıstan, Macarıstan və İspaniya hüququna uzufrukt anlayışının təxmini ekvivalenti və qarşılığı kimi istifadə hüququ, ehtiyacların məhdud ödənilməsi hüququ uyğun gəlir[1].

Azərbaycan Respublikasının mülki qanunvericiliyində də uzufrukt institutu nəzərdə tutulmuşdur. Özü də dərhal qeyd edirik ki, bu institut barədə bizim ölkə qanunvericiliyinin müəyyən etdiyi qaydalar Roma hüququnun və kontinental Avropa ölkələrinin nəzərdə tutduğu müddəalara və normalara, əsasən, uyğun gəlir. MM-in 263-268-ci maddələri uzufrukt institutunu tənzimləyir. 1964-cü il MM-i belə bir konstruksiyanı tanımırdı.

Uzufrukt istifadə etmək və bəhər götürmək hüququ mənasını ifadə edir. Belə ki, mürəkkəb quruluşa malik olan «uzufrukt» ifadəsi tərkibcə iki sözdən ibarətdir. Birinci söz «usus»-dan ibarət olub, istifadə hüququ mənasını bildirir. İkinci söz «fructus» adlanır və «bəhər götürmək» mənasını bildirir[2].

Uzufrukt əşyanın və ya hüquqların elə yüklülüyüdür ki, bu zaman xeyrinə yük müəyyənləşdirilən şəxs (uzufruktuar) onlardan istifadə etmək və fayda götürmək hüququna malik olur (MM-in 263-cü maddəsinin 1-ci bəndi). Bu leqal anlayış Almaniya Mülki Qanunnaməsinin 1030-cu paraqrafından götürülmüşdür (bu ölkənin qanunvericiliyinə görə, uzufrukt, yəni Nießbrauch istifadə hüququdur). Roma hüququ və kontinental Avropa dövlətlərinin milli hüquq sistemləri də bəzi cüzi dəyişiklik və fərqlərlə uzufrukta belə anlayış verir. Ona görə ki, həmin dövlətlərin əşya hüququ, o cümlədən uzufrukt barədə müəyyən etdiyi qaydaların bir tarixi mənbəyi vardır ki, bu mənbə Roma xüsusi hüququndan ibarətdir.

Uzufrukt hüquq münasibətidir. Bu münasibətə görə, bir tərəf əşyanı (o cümlədən hüquqları) digər tərəfə verir. Həmin tərəf onlardan istifadə etmək və fayda götürmək hüququ əldə edir. Deməli, uzufrukt özgəsinə məxsus olan əşyadan fayda götürmək şərtilə istifadə hüququnun formalarından biridir. Beləliklə, **uzufrukt dedikdə, elə bir məhdud əşya hüquq münasibəti başa düşülür ki, bu münasibət əsasında özgə əşyasından fayda götürmək şərtilə istifadə hüququ müəyyənləşdirilir.**

Uzufrukt məhdud (xüsusi) əşya hüququnun digər növlərindən onunla fərqlənir ki, o, fərdi-şəxsi xarakterə malik olub, konkret şəxs üçün müəyyən edilir və onun şəxsiyyəti ilə bağlıdır. Ona görə də uzufruktu girov qoymaq, vərəsəlik üzrə vermək və ya özgəninkiləşdirmək qeyri-mümkündür (MM-in 263-cü maddəsinin 1-ci bəndi). Lakin bəzi ölkələrin, məsələn, İtaliyanın qanunvericiliyi mülkiyyətçinin razılığı ilə uzufruktun başqa şəxsə verilməsini mümkün hesab edir (İtaliya MM-inin 980-ci maddəsi). Kvebek MM-inə görə uzufruktuar hər hansı şərt olmadan öz hüquqlarını başqa şəxsə verə bilər (Kvebek MM-inin 1135-ci maddəsi)[3].

[1] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 260-290.

[2] Словарь иностранных слов. М., 1985, с. 513.

[3] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров.* М., 2004, с. 388.

Uzufrukt institutunun mahiyyəti ondan ibarətdir ki, mülkiyyətçinin əşyanın istehlak dəyəri ilə bağlı olan ayrı-ayrı səlahiyyətləri digər şəxsə (istifadəçiyə) verilir. Titul və sərəncam hüququ yenə də mülkiyyətçidə qalır. İstifadəçinin isə **əşya üzərində sahiblik və ondan istifadə etmək hüququ əmələ gəlir**. Onun özgə əşyasından istifadə prosesində təbii, istehsal xarakterli bəhər və gəlir əldə etmək hüququ (o cümlədən mülki-hüquqi xarakterli hüquqlar) uzufruktun məzmununu təşkil edir. Buna görə də mülkiyyətçinin uzufrukta verilmiş əmlak barəsində hüququ mühüm dərəcədə məhdudlaşır. Odur ki, onu **«çılpaq» mülkiyyət hüququ adlandırırlar**[1]. Mülkiyyətçi yalnız uzufruktuarı yoxlamaq və ona nəzarət etmək imkanına malik olur. Uzufrukta istehlak olunan əmlak (cinsi əlamətləri ilə müəyyən edilən əmlak) verildiyi hallarda isə uzufruktuar həmin əmlakın mülkiyyətçisi kimi tanınır[2].

Xarici ölkələrin qanunvericiliyinə görə uzufrukt ya qanunla, ya mülkiyyətçinin iradəsi ilə, ya müqavilə ilə, ya da əldəetmə müddəti əsasında müəyyən edilir. Azərbaycan Respublikasının qanunvericiliyinə görə isə **uzufrukt yalnız mülkiyyətçinin iradəsi ilə müəyyənləşdirilir.** Bizim ölkə qanunvericiliyi uzufruktun yaranmasının digər əsaslarını tanımır. Mülkiyyətçi və uzufruktuar arasında heç bir müqavilə münasibəti yoxdur. Bu cəhəti ilə uzufrukt ona yaxın anlayış olan icarədən fərqlənir. Belə ki, icarə icarəyə götürülmüş əmlakdan istifadə etmək, bəhər əldə etmək və gəlir götürmək deməkdir (MM-in 700-cü maddəsi). Uzufrukt əşya hüququ, icarə isə öhdəlik hüququdur. İcarə hüququ icarəyə verənlə icarəçi arasında bağlanmış icarə müqaviləsi əsasında yaranır: icarə yalnız qarşılıqlı vəzifələr yaradır; digər tərəfdən icarəçinin icarəyə götürdüyü əmlaka əşya hüququ yoxdur; o, yalnız icarəyə verəndən tələb etmək hüququna malikdir ki, bu hüquq öhdəlik xarakterlidir.

2. Uzufrukt hüquq münasibətinin elementləri

Uzufrukt hüquq münasibətlərində **iki tərəf iştirak edir: mülkiyyətçi; uzufruktuar**. Onlar **uzufruktun subyektləri** adlanır. **Mülkiyyətçi** uzufruktla yüklənən əşyanın (və ya hüquqların) sahibidir. O, istifadə və fayda götürmək məqsədilə əşyanı (və ya hüququ) digər subyektə verən tərəfdir.

Uzufruktuar mülkiyyətçiyə məxsus olan əşyadan (və hüquqdan) istifadə edən və ondan fayda götürən şəxsdir. Roma hüququ və bir çox xarici ölkələrin (məsələn, İspaniyanın, İtaliyanın, Fransanın və s.) qanunvericiliyi uzufrukta hüququ olan şəxsi uzufruktuar (ususfructuarius) adlandırır. Uzufruktuar «bəhərdən istifadə edən» mənasını ifadə edir. O istifadəçidir.

Həm hüquqi şəxslər, həm də vətəndaşlar uzufruktun hər iki tərəfi rolunda çıxış edə bilərlər. Qanun onlar barəsində hər hansı bir xüsusi tələb müəyyən etmir və nəzərdə tutmur.

Uzufruktun predmeti (obyekti) dedikdə, uzufruktla yüklənən əşya başa düşülür. Uzufruktun predmeti kimi həm daşınar, həm də daşınmaz əşyalar çıxış edə bilər. Bu xüsusiyyətilə o, servitutdan fərqlənir. Belə ki, servitutun predmetini yalnız daşınmaz əşyalar təşkil edə bilər.

Uzufruktun predmetini təsərrüfat təyinatına uyğun istifadə prosesində **öz natural xüsusiyyətlərini itirməyən və istehlak olunmayan əşyalar** təşkil edir. Belə əşyaların hüquqi cəhətdən əvəz edilməsi mümkün deyil. Bu, onunla izah olunur ki, uzufruktun müddəti başa çatdıqda, istifadəçi əşyanı mülkiyyətçiyə qaytarmağa borcludur. Roma hüququ da bu qaydanı nəzərdə tuturdu. Bununla belə, uzufruktun predmeti kimi həm də istehlak olunan əşyalar çıxış edə bilər (MM-in 266-cı maddəsinin 2-ci bəndi). Bu qayda Roma hüququ ənənələrinə uyğun gəlmir. Belə ki, Roma hüququna görə, istehlak olunan əşyalar uzufruktun predmeti ola bilməzdi[1]. İstehlak edilən əşyaların uzufruktun predmeti kimi çıxış etməsi halına bəzən xarici ölkələrin qanunvericiliyində rast gəlmək olur. Məsələn, İtaliya MM-inə, habelə Almaniya MQ-nə görə istehlak edilən əşyalar da uzufrukta verilə bilər[2].

Uzufruktun predmeti kimi hüquqlar[3] da çıxış edə bilər (MM-in 263-cü maddəsinin 1-ci bəndi). Özü də dərhal göstəririk ki, müstəsna dərəcədə şəxsi xarakter daşıyan və ya özgəninkiləşdirilməsi qeyri-mümkün olan hüquqlar barəsində uzufrukt müəyyənləşdirmək qeyri-mümkündür. Məsələn, şəxsiyyətlə qırılmaz surətdə bağlı olan tələb hüquqları, o cümlədən alimentlər haqqında[4] və həyata və ya sağlamlığa vurulan zərərin əvəzinin ödənilməsi haqqında tələblər uzufrukta verilə bilməz. O hüquqlar uzufrukta verilə bilər ki, həmin hüquqların güzəşt edilməsi və ya girov qoyulması mümkün olsun. Xüsusən patent hüquqları, tələb hüquqları, müəlliflik hüquqları, pul tələbi hüquqları (məsələn, bank əmanətinin faizindən istifadə etmək hüququ, renta almaq hüququ) və digər əmlak hüquqları üçün uzufrukt müəyyən edilə bilər.

Qiymətli kağızlar da uzufrukta verilə bilər (MM-in 266-cı maddəsinin 2-ci bəndi). Xüsusən də qiymətli kağızların istiqraz, səhm, adsız əmanət kitabçası və digər növləri uzufruktun predmeti kimi çıxış edə bilər.

Uzufruktun predmeti spesifik əlamətlə şərtlənir. Belə ki, **yalnız fayda götürülməsi mümkün olan, yəni fayda vermək qabiliyyətinə malik olan əşyalar uzufrukta verilə bilər**. Bu xüsusiyyətdən məhrum olan əşya üçün uzufrukt müəyyən etmək istisna edilir. Fayda götürmək dedikdə, uzufrukta verilmiş əşyadan istehsal, təsərrüfat məqsədləri üçün istifadə edilməsi prosesində yeni əşyaların yaranması başa düşülür. Bu yeni əşyalar bəhər, məhsul və gəlir kimi müxtəlif növlərdə ola bilər. Məsələn, uzufrukta qoyun sürüsü götürülmüşsə, onda qoyunların balaları, yunu və südü bəhər hesab ediləcəkdir. Qiymətli kağızlar üçün uzufrukt müəyyən edildiyi hallarda, qiymətli kağızlardan əldə edilən fayda gəlir

---

[1] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 95.

[2] Гражданское и торговое право зарубежных стран. Учебное пособие / Отв. ред. *В.В.Безбах, В.К.Пучинский.* М., 2004, с. 248.

[1] *Д.В.Дождев.* Римское частное право. Учебник. М., 1999, с.239.

[2] İstehlak olunan əşyaların uzufruktun predmeti kimi çıxış etməsi onun üçün səciyyəvi hal deyildir. Belə ki, uzufrukt məhdud əşya hüququdur. Əşya hüququnun, o cümlədən məhdud əşya hüququnun obyekti kimi isə yalnız fərdi əlamətləri ilə müəyyən edilən əşyalar çıxış edə bilər. İstehlak olunan əşyalar isə bu xüsusiyyətdən məhrumdur. Yalnız istehlak olunmayan əşyalar fərdi-müəyyən əşyalar ola bilər.

[3] Belə bir fikri xatırlatmaq yerinə düşərdi ki, mövcud qanunvericiliyə görə, hüquqlar və tələblər onun sahibi tərəfindən başqa şəxsin mülkiyyətinə verilə bilər (MM-in 193-cü maddəsi).

[4] Yeri gəlmişkən, qeyd edək ki, uzufrukt ailə həyatı təcrübəsində əmələ gəlmişdi və qədim Roma hüququ ilk dəfə olaraq ər hakimiyyəti altına keçməmiş dul qadınları alimentlə təmin etməsi məqsədini güdürdü (*Д.В.Дождев.* Римское частное право. Учебник. М., 1999. с.457).

(lotereya biletinin uduşundan əldə edilən gəlir, adsız bank əmanəti kitabçası üzrə alınan faizlər, səhmlərdən götürülən dividendlər və s.) növündə özünü göstərir. Uzufrukta istehsal təyinatlı əşyalar verilərsə, onda götürülən fayda əşyadan istehsal məqsədilə istifadə edilməsi nəticəsində yaranan məhsul növündə olacaqdır. Məsələn, uzufrukta su obyekti (gölməçə) verilirsə, onda orada yetişdirilən balıq məhsul hesab edilir. Başqa bir misalda üzümlük üçün torpaq sahəsi uzufrukta götürülür. Həmin sahədə yetişdirilən üzüm məhsul sayılır. Amma uzufruktuar əmlakda aşkar edilmiş dəfinəyə mülkiyyət hüququ əldə etmir[1]. Ona görə ki, dəfinə nə təbii bəhər, nə mülki bəhər, nə də məhsuldur.

Beləliklə, torpaq sahələri, mənzillər, müxtəlif avadanlıqlar, heyvanlar, qiymətli kağızlar, hüquqlar və s. uzufruktun predmeti ola bilər. Lakin bunun üçün vacibdir ki, həmin obyektlər dövriyyə qabiliyyətli olsun.

Əgər uzufruktuar əmlakı uzufruktla yüklü etməyi öhdəsinə götürərsə, onda münasibətlər **konsensual müqavilə** şəklində rəsmiləşdirilir; bu müqavilə notariat qaydasında təsdiqlənməlidir (MM-in 393-cü maddəsi).

Uzufruktun müxtəlif növləri fərqləndirilir. **Əvəzli olub-olmamasına** görə onun iki növü vardır: əvəzli uzufrukt; əvəzsiz uzufrukt. **Əvəzli uzufrukta** görə, uzufrukta verilən əşya və ya hüquq üçün istifadəçi mülkiyyətçiyə haqq ödəyir. Uzufrukt müəyyən edilən əşya və ya hüquqdan istifadə etməyə və fayda götürməyə görə istifadəçi mülkiyyətçiyə haqq verməzsə, bu, **əvəzsiz uzufrukt** adlanır.

Qüvvədə olma müddətinə görə uzufruktun iki növü fərqləndirilir: müvəqqəti uzufrukt; ömürlük uzufrukt. İstifadəçinin ömrünün yalnız müəyyən vaxt müddətində qüvvədə olan uzufrukt **müvəqqəti uzufrukt** adlanır. Məsələn, mənzil on il müddətinə uzufrukta verilə bilər. **Ömürlük uzufrukt** qeyri-müvəqqəti xarakterə malik olub, istifadəçinin bütün ömrü boyu qüvvədə olur. Məsələn, mənzil üçün istifadəçinin bütün ömrü boyu uzufrukt müəyyən edilir.

Uzufrukta verilən əşyadan götürülən faydanın əhatə dairəsinə görə uzufrukt iki cür olur. Birinci növ uzufrukt götürülən ayrı-ayrı fayda növlərinin məhdudlaşdırılmasını nəzərdə tutur. Məsələn, istifadəçiyə uzufrukta götürdüyü torpaqdan yalnız tikinti daşı çıxarmaq hüququ verilir. Bu halda istifadəçinin həmin sahədən qum, gil, çınqıl və s. əldə etməyə ixtiyarı çatmır. Başqa bir misalda qoyun sürüsü yalnız yundan istifadə etmək şərtilə çobana uzufrukta verilir. Çobanın ixtiyarı yoxdur ki, o, qoyunun balalarını özünə götürsün, südündən istifadə etsin. Bu uzufrukt **tam olmayan uzufrukt** adlanır.

İkinci növ uzufrukta **tam uzufrukt** deyilir. Tam uzufrukt istifadəçiyə uzufrukta verilmiş əşyadan istifadə edib, ondan mümkün olan bütün fayda növlərini götürməyə hüquq verir. Yuxarıdakı misalda çoban həm qoyunların yununu əldə edir, həm südündən istifadə edir, həm də onun balalarını özünə götürür.

3. Tərəflərin hüquq və vəzifələri

Uzufrukt hüquq münasibəti üzrə əsas vəzifələri istifadəçi (uzufruktuar) daşıyır. Onun hüquq və vəzifələrinin dairəsi MM-in 265-ci maddəsi ilə müəyyən edilir.

[1] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 99.

Uzufruktuarın daşımalı olduğu əsas vəzifələrdən biri **uzufrukta götürdüyü əşyadan təsərrüfat təyinatına uyğun istifadə etməkdən** ibarətdir. Onun əşyanın təsərrüfat təyinatını dəyişdirməyə ixtiyarı çatmır. Məsələn, üzümlük sahə uzufrukta götürülmüşdür. Həmin sahədə tikili ucaltmaq üçün münasib və əlverişli şərait vardır, habelə bu, xeyirlidir. Lakin buna baxmayaraq, istifadəçi bu sahədə tikili ucalda bilməz. Bununla belə, mülkiyyətçinin razılığı və icazəsi ilə uzufruktuar əşyanın istifadə məqsədini dəyişə bilər (MM-in 265-ci maddəsinin 2-ci bəndi). Məsələn, üzümlük üçün uzufrukta götürülən sahədə alma-armud ağacları əkilir.

Uzufruktuar əşyadan qayğıkeş, yaxşı və vicdanlı təsərrüfatçı kimi istifadə etməlidir. O, əşyadan normal istifadə etməyə borcludur.

Öz hüququnu həyata keçirərkən **normal təsərrüfatçılıq qaydalarına uyğun hərəkət etmək** uzufruktuarın əsas vəzifələrindən biri hesab edilir. Belə ki, uzufruktun predmeti olan əşyaya münasibətdə istifadəçinin müxtəlif hüquqları əmələ gəlir. Bu hüquqlara aiddir: əşyaya sahiblik hüququ; əşyadan istifadə hüququ; əşyadan fayda götürmək hüququ. Əşya üzərində sərəncam vermək hüququndan istifadəçi məhrumdur. Ona görə ki, bu hüquq mülkiyyətçidə qalır. Göstərilən hüquqları həyata keçirmək üçün vacibdir ki, uzufrukt verilsin. Uzufruktun predmeti olan daşınar əşyalar (və ya hüquqlar) onların uzufruktuara keçməsi ilə (tərəflərin sazişi və əşyanın verilməsi ilə, yəni tradisiya ilə), daşınmaz əşyalar isə onların daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması ilə verilir. Uzufrukt verilərkən mülkiyyət hüququ haqqında normalar və qaydalar tətbiq edilir. Hüquqlar uzufrukta verildiyi halda, hüquqların və tələblərin verilməsi haqqında müddəalardan istifadə olunur (MM-in 193-cü maddəsi).

Uzufrukta verilən əşyaya istifadəçinin sahiblik hüququ əmələ gəlir. Bundan sonra o, əşyadan istifadə və fayda götürmək hüququna malik olur. Bundan əlavə, istifadəçinin əşyanın idarə olunmasını təmin etmək hüququ da vardır. Bu hüquqları yerinə yetirərkən və həyata keçirərkən o, normal təsərrüfatçılıq qaydalarına uyğun hərəkət etməlidir. Başqa sözlə desək, istifadəçi göstərilən hüquqları gerçəkləşdirərkən təsərrüfatsızcasına münasibət qaydalarına yol verməməli, vicdanlılıq prinsipinə uyğun hərəkət etməlidir.

İstifadəçinin əsas vəzifələrindən biri **uzufruktun substansiyasını (əşyanın mahiyyətini) saxlamaqdan** ibarətdir. Özü də dərhal qeyd edirik ki, o, bu vəzifəni uzufruktun predmetini istehlak olunmayan əşyalar təşkil etdiyi hallarda daşıyır. Uzufruktun predmeti kimi istehlak olunan əşyalar çıxış etdiyi məqamlarda isə istifadəçi belə vəzifə daşımır. Ona görə ki, istifadə prosesinin ilk anındaca bu əşyaların maddi substansiyası itir. İstifadəçinin predmeti istehlak olunmayan əşyalardan ibarət olan uzufruktun substansiyasını saxlamaq vəzifəsi onunla şərtlənir ki, o, uzufruktun qüvvədə olma müddəti başa çatdıqda, həmin əşyanın özünü mülkiyyətçiyə qaytarmağa borcludur.

Uzufruktun predmeti olan əşyadan onun təsərrüfat təyinatına, iqtisadi məqsədinə uyğun normal istifadə etmək üçün vacibdir ki, əşya yararlı vəziyyətdə saxlanılsın, habelə əşyaya lazımi və tələb olunan səviyyədə qulluq göstərilsin. Əşya həmişə normal istifadə üçün yararlı olmalıdır. Bu məqsədlə uzufruktuar əşya üçün çəkilən **cari xərcləri ödəməyə, əşyanı təmir etməyə, habelə ona normal təsərrüfat qulluğu göstərilməsi qayğısına qalmağa borcludur** (MM-

in 265-ci maddəsinin 5-ci bəndi). **Cari xərclər** dedikdə, əşyanı yaxşı vəziyyətdə saxlamaq, əşyanı idarə etmək və onu saxlamaq ilə bağlı olaraq çəkilən xərclər başa düşülür. **Əşyanı təmir etmək** dedikdə, onun həm cari, həm də əsaslı təmir olunması başa düşülür. Əşyanın əsas tərkib hissələrinin (detalların, konstruksiyaların və s.) əvəz edilməsi ilə bağlı olmayan qüsurların aradan qaldırılması **cari təmir** adlanır. Əşyanın əsas tərkib hissələrinin dəyişdirilməsi ilə bağlı olan nöqsan və çatışmazlıqların aradan qaldırılmasına isə **əsaslı təmir** deyilir. Məlum məsələdir ki, təmir edilməməsi əşyadan təyinatına uyğun istifadəni qeyri-mümkün edir və ya mühüm dərəcədə çətinləşdirir. Uzufruktun predmeti mənzil olduğu hallarda təmir etmək vəzifəsi xüsusilə mühüm əhəmiyyətə malik olur.

Normal təsərrüfat qulluğu dedikdə, tələb olunan zəruri hərəkətlərin edilməsi başa düşülür. Məsələn, uzufrukta qoyun sürüsü verildikdə, onların vaxtında yemlənməsi, baytar müayinəsindən keçirilməsi, lazımınca bəslənməsi və s. normal qulluğu ifadə edir.

Uzufruktun predmeti olan əşyanın salamatlığını təmin etmək istifadəçinin əsas vəzifələrindən biridir. O, bunun üçün zəruri olan bütün tədbirləri görməlidir. İstifadəçi əşyaya özününkü kimi qayğı göstərməlidir. Əşya və ya onun bir hissəsi məhv olduğu, zədələndiyi hallarda və ya onun saxlanması üçün gözlənilməz xərclər lazım gələrsə, istifadəçi dərhal, ləngimədən bu barədə mülkiyyətçiyə məlumat verir. Belə hallarda zərərli mənfi nəticələri ya mülkiyyətçi, ya da istifadəçinin özü aradan qaldırır. Həmin nəticələri aradan qaldırmaq mülkiyyətçinin vəzifəsi yox, hüququdur. O, mənfi nəticələrin aradan qaldırılmasına yönələn tədbirləri görməyə də bilər.

Zərərli mənfi nəticələrin aradan qaldırılması bəzi hallarda uzufruktun obyekti olan əşyaya müəyyən predmetlər əlavə edilməsinə səbəb olur. Uzufruktun qüvvədə olma müddəti başa çatdıqda, həmin predmetlərin hüquqi müqəddəratı iki qayda ilə həll olunur. Birinci halda istifadəçi predmeti əşyadan ayırır və özü üçün götürür. Bu qaydadan o vaxt istifadə etmək mümkün olur ki, predmet əşyadan ayrıla bilsin. İkinci halda o, predmet üçün mülkiyyətçidən müvafiq kompensasiya tələb edir (MM-in 265-ci maddəsinin 11-ci bəndi). İstifadəçinin təqsiri üzündən əşya məhv olarsa, o məsuliyyət daşıyır. Əksinə, təqsiri olmazsa, istifadəçi məsuliyyətdən azad edilir. Lakin bu hal sübut olunmalıdır. Sübut etmə yükünü o çəkir.

Uzufruktun predmeti olan əşyanı sığortalamaq istifadəçinin daşıdığı vəzifələrdən biridir (MM-in 265-ci maddəsinin 10-cu bəndi). O, uzufruktun mövcud olduğu bütün dövr üçün əşyanı öz hesabına mülkiyyətçinin xeyrinə yanğından və digər bədbəxt hadisədən sığorta etdirməyə borcludur. İstifadəçi bu məqsədlə sığortaçı ilə sığorta müqaviləsi bağlayır və ona sığorta haqqı ödəyir.

İstifadəçinin daşıdığı vəzifələrdən biri **uzufruktu başqa şəxsə verməməkdən** ibarətdir. O, uzufruktu digər şəxslərə vermək hüququna malik deyil. Uzufrukt özgəninkiləşdirilmir (MM-in 263-cü maddəsinin 1-ci bəndi). Bununla belə, istifadəçi həyata keçirilmək üçün uzufruktu başqa şəxsə verə bilər (MM-in 265-ci maddəsinin 9-cu bəndi).

Daşınmaz əşyadan həddən artıq istifadə etməmək istifadəçinin vəzifələrindən biridir (MM-in 265-ci maddəsinin 14-cü bəndi). Həddən artıq istifadə qeyri-normal istifadədir. Bu cür istifadə əşyanın normal köhnəlməsini tezləşdirir, onun vəziyyətini pisləşdirir, yararsız və nasaz olan hala düşməsini sürətləndirir, aşınmanı gücləndirir. Buna görə də istifadəçi əşyadan normal qaydada istifadə etməlidir. Özü də daşınmaz əşyadan həddən artıq istifadə etmək istifadəçi üçün xoşagəlməz nəticəyə səbəb olur. Belə ki, bu istifadə nəticəsində əldə edilən bəhərlər üzərində o, mülkiyyət hüququ qazanmır. Ona görə ki, bu bəhərlərə mülkiyyət hüququnu mülkiyyətçi əldə edir (MM-in 265-ci maddəsinin 14-cü bəndi). Bununla belə, normal təsərrüfat fəaliyyəti, təsərrüfatın lazımınca aparılması nəticəsində əşyadan əldə edilən bəhərlər uzufruktuarın mülkiyyətinə keçir. Bu bəhərlər üzərində mülkiyyətçinin mülkiyyət hüququ əmələ gəlmir (MM-in 265-ci maddəsinin 7-ci bəndi).

İstifadəçi təkcə uzufruktla nəzərdə tutulan fayda növünü yox, həm də əşyadan adi təsərrüfat fəaliyyəti qaydaları nəticəsində əldə edilməsi mümkün olan bəhər və faydaları götürə bilər (MM-in 265-ci maddəsinin 3-cü bəndi). Uzufrukt müəyyən edilən vaxt yalnız bir fayda növünün götürülməsi nəzərdə tutulur (məsələn, torpaq sahəsindən daş çıxarmaq). Uzufruktun predmeti olan əşyadan istifadə olunarkən məlum olur ki, adi təsərrüfat fəaliyyəti qaydalarının tətbiqi nəticəsində, təsərrüfatın adi qaydalarla aparılması şəraitində ondan başqa fayda növləri (torpaq sahəsindən qum, çınqıl, gil, keramzit və s.) əldə etmək mümkündür. Belə halda istifadəçi **mülkiyyətçinin razılığını almadan mümkün ola bilən bütün bəhər və faydaları əldə** edə bilər. Bunun nəticəsində o, əşyaya zərər vurarsa, həmin zərərin əvəzini mülkiyyətçiyə ödəməyə borcludur.

İstifadəçinin vəzifəsidir ki, **normal təsərrüfat fəaliyyəti qaydasında özgəninkiləşdirilən predmetlərin əvəzinə, yeni predmetlər əldə etməklə çatışmazlığı aradan qaldırsın** (MM-in 265-ci maddəsinin 12-ci bəndi). Çatışmazlıq müxtəlif yollarla aradan qaldırıla bilər: satın almaq yolu ilə; təbii artım hesabına və s. Məsələn, çoban qoyun sürüsünü uzufrukta götürür. O, satdığı qoyunların yerini əldə etdiyi bala hesabına doldurur.

Nəhayət, istifadəçinin daşımalı olduğu vəzifələrdən biri **uzufruktun qüvvədə olma müddəti qurtardıqda, əşyanı mülkiyyətçiyə qaytarmaqdan** ibarətdir (MM-in 268-ci maddəsinin 2-ci bəndi). İstifadəçi əşyanı qəbul etdiyi vəziyyətdə, onun normal köhnəlməsi nəzərə alınmaqla geri qaytarır. Uzufruktun predmeti istehlak olunmayan əşya olduqda, istifadəçi həmin əşyanın özünü qaytarır. Ona görə ki, bu cür əşyalar, bir qayda olaraq, fərdi əlamətləri ilə müəyyən edilir və onların başqa əşya ilə əvəz edilməsi mümkün olmur. Məsələn, uzufruktun predmeti mənzil olduqda, istifadəçi həmin mənzilin özünü qaytarmağa borcludur. Özü də o, bu cür əşyaların normal aşınması üçün məsuliyyət daşımır (MM-in 265-ci maddəsinin 5-ci bəndi). Başqa sözlə desək, adi istifadə nəticəsində, normal təsərrüfat-iqtisadi təyinata uyğun istifadə nəticəsində əşyada əmələ gələn dəyişikliyə görə istifadəçinin məsuliyyətindən və cavabdehliyindən söhbət gedə bilməz.

Şübhəsiz ki, istifadə prosesində əşyanın dəyəri azalır. Əgər bu, əşyadan normal istifadə ilə əlaqədar olarsa, onda istifadəçi əşyanın dəyərinin azalmasının əvəzini ödəmir. Qeyri-normal istifadə hallarında isə o, müvafiq kompensasiya ödəyir (MM-in 265-ci maddəsinin 13-cü bəndi). Belə ki, əşyanın dəyəri istifadəçinin təqsiri üzündən azalarsa, o, buna görə məsuliyyət daşıyır. Xüsusən torpaq sahəsinin təsərrüfat təyinatında istifadəçi mühüm dəyişiklik edə

bilməz. İstifadəçinin ixtiyarı çatmır ki, o, torpaq sahəsinin təsərrüfat təyinatında mülkiyyətçi üçün mühüm zərərə səbəb ola biləcək hər hansı dəyişiklik etsin (MM-in 265-ci maddəsinin 15-ci bəndi).

Uzufruktun predmeti istehlak olunan əşya olduğu hallarda, istifadəçi həmin əşyanın özünü yox, əşyanın miqdarına və cinsinə (növünə) bərabər olan başqa əşya qaytarır (MM-in 265-ci maddəsinin 13-cü bəndi). Ona görə ki, bu cür əşyalar istehlak olunur və istifadəçi onlara mülkiyyət hüququ əldə edir. İstehlak olunan əşyanın özünü qaytarmağı təsəvvürə gətirmək çətindir. Həmin əşyalar cinsi (növ) əlamətləri müəyyən edilən əşyalardır və onları başqa əşya ilə əvəz etmək mümkündür. Buna görə də uzufruktuar aldığı əmlakın miqdarına, keyfiyyətinə və cinsinə (növünə) bərabər olan əşyanı qaytarır. Bu kimi hallarda sözün əsl mənasında uzufruktdan yox, **kvaziuzufruktdan (yalançı, həqiqi olmayan uzufruktdan)** söhbət gedə bilər[1].

İstifadəçi istehlak olunmuş əşyanın dəyərinin əvəzini pulla da ödəyə bilər (MM-in 265-ci maddəsinin 16-cı bəndi). Əşyanın dəyərini müəyyənləşdirərkən onların uzufrukta xitam verildiyi vaxt mövcud olan qiymətləri yox, istifadə hüququ qüvvəyə minənədək mövcud olmuş qiymətlər nəzərə alınır və əsas kimi götürülür.

Girov qoymaq və ya qarantiya ilə təmin etmək istifadəçinin daşıdığı vəzifələrdən biridir (MM-in 266-cı maddəsinin 2-ci bəndi). Bu vəzifənin icrası o vaxt zəruri olur ki, uzufruktun predmeti olan əşya (və ya hüquqlar) təhlükəyə məruz qalsın. Belə halda mülkiyyətçi istifadəçidən girov tələb edir. Lakin o, əşyanın (və ya hüquqların) təhlükədə olmasını sübuta yetirməlidir. Uzufruktun predmeti kimi istehlak edilən əşyalar və ya qiymətli kağızlar çıxış etdiyi hallarda, mülkiyyətçi qarantiya tələb edir. Qarantiya əşya istifadəçiyə verilən vaxta kimi tələb edilir. Uzufrukta qiymətli kağızlar verilərsə, onlar depozitə qoyulur və bu, qarantiyanı ifadə edir. İstifadəçi onun üçün təyin olunmuş ağlabatan müddət ərzində girov verməlidir. Əgər istifadəçi bunu etməsə, mülkiyyətçinin ixtiyarı vardır ki, onu əşyaya sahiblikdən məhrum etsin.

İstifadəçinin vəzifəsidir ki, **vergiləri, rüsumları və ayırmaları ödəsin** (MM-in 266-cı maddəsinin 6-cı bəndi). Vergilər və ayırmalar mülkiyyətçidən də tutula bilər. Belə halda istifadəçi onların əvəzini mülkiyyətçiyə ödəyir.

Adi saxlama və təsərrüfat istifadəsi xərcləri, bununla bağlı olaraq yaranan borclar üzrə faizləri ödəmək vəzifəsi istifadəçiyə həvalə edilir (MM-in 266-cı maddəsinin 6-cı bəndi). Yerdə qalan bütün digər xərcləri ödəmək mülkiyyətçinin vəzifəsidir.

Uzufrukta görə, pul ödəmək istifadəçinin vəzifələrindən biridir. Bu vəzifə yalnız uzufrukt əvəzli olduğu hallarda icra edilir. Əvəzsiz uzufruktda o, belə vəzifə daşımır.

Bununla bərabər, istifadəçi həm də hüquqlara malikdir. Onun əşyanın adi qaydada yararlı vəziyyətdə saxlanması üçün **yaxşılaşdırmalar və yeniləşdirmələr etmək hüququ** vardır. İstifadəçinin ixtiyarı çatır ki, əşyanın qorunması üçün mülkiyyətçinin hesabına mürəkkəb işlər və tədbirlər görsün. O, həm də **kompensasiya tələb etmək hüququna** malikdir. Belə ki, istifadəçi mülkiyyətçinin göstərişləri olmadan çəkilən xərclərə və ya edilən yeniliklərə (qurğulara) görə kompensasiya tələb edə bilər. Mülkiyyətçi yaradılan qurğulara görə kompensasiya verməzsə, o, həmin qurğuları geri götürə bilər. Kompensasiya iddiaları barədə qanun bir illik müddət müəyyən edir (bu, iddia müddəti yox, tələb hüququnun həyata keçirilmə, mövcud olma müddətidir). Həmin müddət əşyanın mülkiyyətçiyə qaytarıldığı vaxtdan hesablanır. Bu müddət ötdükdən sonra kompensasiya iddiaları verilə bilməz (MM-in 265-ci maddəsinin 6-cı bəndi).

Uzufrukt predmeti olan əşyanın vəziyyətini təsvir etmək, onun qiymətləndirilməsini tələb etmək hər iki tərəfin hüququ hesab edilir. Əşya onların hesabına qiymətləndirilir.

4. Uzufrukta xitam verilməsi

Uzufrukt müxtəlif əsaslara görə xitam edilir ki, bu əsasların çoxu MM-in 268-ci maddəsində göstərilmişdir. Özü də bu əsaslar Roma hüququ ənənələrinə və bir çox Avropa ölkələrinin qanunvericilik normalarına uyğundur.

Ən birinci əsas **uzufrukt predmeti olan əşyanın məhv olmasıdır**. Əşya tamamilə məhv olduqda, uzufrukta xitam verilir. Əşyanın məhv olması qarşısıalınmaz qüvvə ilə (zəlzələ, güclü qasırğa, yer sürüşməsi və s.), qəsdən törədilmiş təqsirli hərəkətlə (məsələn, cinayət əməli ilə) bağlı ola bilər. Əşya, istifadəçinin özünün təqsirli hərəkətləri nəticəsində məhv ola bilər. O, buna görə məsuliyyət daşıyır. İtaliyanın, İsveçrənin, İspaniyanın və digər dövlətlərin qanunvericiliyində göstərilən əsasla uzufruktun ləğv edilməsi halına rast gəlmək olar.

Çox vaxt əşyanın məhv olması uzufruktun xitam edilməsinə səbəb olmur. Belə ki, mülkiyyətçi əşyanı bərpa edə bilər. Bu, onun vəzifəsini yox, hüququnu təşkil edir. Belə halda əşyaya uzufrukt da bərpa olunur. İstifadəçi məhv olmuş əşyanın əvəzini verə bilər. Belə halda uzufrukt həmin əşyaya keçir.

Uzufruktun ləğv edilməsini şərtləndirən ikinci hal **uzufruktun qüvvədə olma müddətinin başa çatmasıdır**. İspaniya və digər ölkələrin qanunvericiliyində də bu əsas göstərilir. Uzufruktun müddəti tərəflərin razılığı ilə müəyyən edilir. Uzufrukt istifadəçinin bütün ömrü boyu qüvvədə olması şərtilə bağlana bilər. Müddətin başa çatması uzufrukt hüquq münasibətinə xitam verilməsinə əsas olan hüquqi fakt rolunu oynayır.

Uzufruktun ləğv edilməsinə dəlalət edən hallardan biri **istifadəçinin ölümüdür**. Əgər istifadəçi rolunda hüquqi şəxs çıxış edərsə, hüquqi şəxsin fəaliyyətinə xitam verilməsi uzufruktun ləğv edilməsinə səbəb olur. Almaniya və İsveçrə qanunvericiliyində də analoji göstəriş ifadə edilmişdir. İspaniya MM-i istifadəçinin ölümünü uzufrukta xitam verilməsinin əsaslarından biri hesab edir.

İstifadəçi uzufruktdan imtina etdikdə, uzufrukta xitam verilir. İmtinanın səbəbləri müxtəlif ola bilər: istifadəçinin xəstəliyi; onun başqa yerə köçməsi; başqa şəhərə köçməsi; uzufruktdan istifadəyə istək və arzunun olmaması və s. İspaniya MM-i də bu cür əsas nəzərdə tutur.

Uzufruktun mülkiyyətlə birlikdə bir şəxsin əlinə düşməsi uzufrukta xitam verilməsinə səbəb olur. Buna «hüquqların qovuşması və birləşməsi qaydası» deyilir. Bu qaydaya görə, uzufrukt hüququ ilə əşyaya olan mülkiyyət hüququ birləşir, yəni istifadəçi və mülkiyyətçi eyni şəxs olurlar. Bu, onu ifadə edir ki, istifadəçi uzufrukt obyekti olan əşya üzərində mülkiyyət hüququ əldə edir

[1] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 99.

və bununla o, əşyanın mülkiyyətçisinə çevrilir.

Əşyadan hər hansı qanunsuz istifadə və ya əşyadan təsərrüfat-iqtisadi təyinatına (məqsədlərə) uyğun gəlməyən istifadə də uzufruktun ləğv edilməsinə səbəb ola bilər (MM-in 266-cı maddəsinin 1-ci bəndi). Belə hallarda mülkiyyətçi belə istifadəyə etiraz edir. Əgər istifadəçi etiraza əhəmiyyət verməyərək istifadəni davam etdirərsə, mülkiyyətçi iki alternativdən birini seçir: ya o, vurulmuş zərərin əvəzinin ödənilməsini tələb edir: ya da uzufrukta məhkəmə qaydasında xitam verilməsini tələb edir. Qanunsuz istifadə halında təyinatına uyğun gəlməyən istifadə halından fərqli olaraq, mülkiyyətçinin ixtiyarı var ki, məhkəmə qərar qəbul edənə kimi istifadəçini əşyaya sahiblikdən məhrum etsin (MM-in 266-cı maddəsinin 3-cü bəndi). Zənn edirik ki, belə halda mülkiyyətçi özünümüdafiə (özünüqoruma) tədbirlərindən istifadə edə bilər. Belə ki, o, güc tətbiq etməklə əşyanı geri ala bilər. Əşyadan təyinatına uyğun gəlməyən istifadə halında isə mülkiyyətçiyə belə hərəkət etmək hüququ verilmir.

Mənzilə uzufrukt, uzufruktun növlərindən biridir. Bu növə İtaliya, Fransa və digər xarici ölkələrin qanunvericiliyində rast gəlmək mümkündür. Mənzilə uzufrukt dedikdə, binada və ya onun bir hissəsində mənzilə malik olmaq hüququ başa düşülür. İstifadəçi yalnız mənzildən istifadə etmək hüququna malikdir. Onun uzufrukta olan hüquqları, yəni istifadə hüquqları vərəsəlik qaydasında keçə bilməz, habelə hər hansı bir üçüncü şəxsə verilə bilməz.

Vətəndaşın mənzilə olan şəxsi tələbatı onu uzufrukt münasibətlərinə girməyə məcbur edir. Onun mülkiyyətində ev yoxdur. Lakin vətəndaşın yaşamaq üçün mənzilə kəskin ehtiyacı vardır. Ona görə də o, mənzili uzufrukta götürür. Uzufrukta götürülmüş mənzildən istifadəçi ilə bərabər, həm də onun ailə üzvləri, habelə onunla birgə yaşayan digər şəxslər də istifadə edə bilərlər. Bu, yalnız o halda mümkün ola bilər ki, mülkiyyətçi buna razılıq vermiş olsun. Mülkiyyətçi razılıq verməsə, onda uzufrukta götürülmüş istifadəçinin ailə üzvləri və onunla birlikdə yaşayan digər şəxslər mənzildən istifadə edə bilməzlər.

İstifadəçi uzufrukta götürdüyü mənzildən həm müstəsna hüquq, həm də birgə hüquq qaydasında istifadə edə bilər. İstifadəyə müstəsna hüquq dedikdə, onun mənzildə tək yaşaması, istifadəyə birgə hüquq dedikdə isə onun mülkiyyətçi ilə birlikdə yaşaması başa düşülür. Əgər mənzildə tək yaşayarsa, onda mənzilin adi saxlanması xərclərini istifadəçi çəkir. Birgə istifadə hüququ olan hallarda isə mənzilin saxlanması xərclərini mülkiyyətçi çəkir (MM-in 267-ci maddəsinin 3-cü bəndi).

Qeyd etmək lazımdır ki, mövcud mülki qanunvericilik məhdud əşya hüququnun girov hüququndan, servitutdan, superfitsidən və uzufruktdan savayı, digər növlərini də nəzərdə tutur. **Tam təsərrüfatçılıq səlahiyyəti və operativ idarəetmə hüququ** bu növlərdən biri hesab olunur. Məhdud əşya hüququnun bu növləri yeni MM-də nəzərdə tutulmur. RF-in yeni MM-i isə göstərilən konstruksiyaları tanıyır.

Tam təsərrüfatçılıq səlahiyyəti hüququ odur ki, bu hüquqa əsasən, unitar müəssisə ona təhkim edilmiş əmlak üzərində tam təsərrüfatçılıq səlahiyyətini həyata keçirərək, əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam hüququna malik olur. O, həmin əmlak barəsində qanuna zidd olmayan istənilən hərəkəti edə bilər. Mülkiyyət hüququ normaları tam təsərrüfatçılıq səlahiyyətinə də tətbiq olunur, bir şərtlə ki, qanunda və ya müqavilədə başqa hal müəyyənləşdirilməsin. Unitar müəssisəyə verilmiş əmlakın mülkiyyətçisi kimi yenə dövlət qalır.

Operativ idarəetmə hüququ odur ki, bu hüquqa əsasən, unitar müəssisəyə təhkim olunan əmlak mülkiyyətçinin hesabına maliyyələşdirilən həmin müəssisənin operativ idarəsində olur, göstərilən müəssisə əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam hüquqlarını qanunla müəyyənləşdirilmiş hədlərdə və qaydada, öz fəaliyyət məqsədlərinə, mülkiyyətçisinin tapşırıqlarına və əmlakın təyinatına müvafiq surətdə həyata keçirir. Unitar müəssisəyə təhkim olunmuş həmin əmlakın mülkiyyətçisi kimi yenə də dövlət qalır. Mülkiyyətçinin bu əmlakı müəssisədən geri götürmək hüququ vardır.

Tam təsərrüfatçılıq səlahiyyəti və operativ idarəetmə hüququ kimi konstruksiyalar dövlət mülkiyyəti inhisarı şəraitində sovet dövrünün qanunvericiliyində nəzərdə tutulmuşdu[1]. Bu konstruksiyalar iqtisadiyyatın təşkilinin komanda (sovet) iqtisadiyyatı kimi forması üçün xarakterik idi. İqtisadiyyatın təşkilinin bazar iqtisadiyyatı adlı formasında isə onlardan istifadə edilməsi, demək olar ki, istisna olunur. Ona görə ki, bazar iqtisadiyyatı əmtəə və əmlak xarakterli iqtisadi (əmlak) dövriyyəyə əsaslanır. Bu dövriyyədə isə yalnız mülkiyyətçilər, sözün həqiqi mənasında, əsl əmtəə sahibləri kimi çıxış edə bilərlər. Məhz bu səbəbdən sivil və mütərəqqi, qabaqcıl və inkişaf etmiş xarici hüquq sistemlərindən hər hansı birinə göstərilən konstruksiyalar məlum deyil. Nə Almaniya, nə Fransa, nə Yaponiya, nə ABŞ, nə də inkişaf etmiş digər ölkələrin qanunvericiliyi tam təsərrüfatçılıq səlahiyyəti və operativ idarəetmə hüququ kimi konstruksiyaları tanıyır.

Keçid dövrü adlanan indiki şəraitdə göstərilən konstruksiyaların tətbiqi xeyli dərəcədə məhdudlaşdırılmışdır. Amma həmin konstruksiyalar öz rolunu tamamilə itirməmişdir. Belə ki, indiki dövrdə biz tam təsərrüfatçılıq və operativ idarəetmə hüququ subyektlərinin iqtisadi (əmlak) dövriyyədə çıxış etmələrinin şahidi oluruq. Məsələn, Azərbaycan Dövlət Dəmir Yolunun Nizamnaməsində göstərilir ki, dövlət mülkiyyəti tam təsərrüfatçılıq səlahiyyəti əsasında Azərbaycan Dövlət Dəmir Yoluna məxsusdur. O, məhdud əşya hüququnun subyektidir.

Vərəsəlik üzrə keçən ömürlük sahiblik hüququ məhdud əşya hüququnun növlərindən biri sayılırdı. Bu hüquqa görə, vətəndaş müddətsiz olaraq torpaq sahəsindən istifadə və ona sahiblik etmək səlahiyyətlərinə malik idi. Vətəndaş torpaqdan istifadə və ona sahiblik etmək hüquqlarını vərəsələrə verə bilərdi[2]. Sahibliyin obyekti torpaq sahəsi hesab olunurdu. İstifadəçi rolunda yalnız vətəndaşlar bu münasibətlərdə iştirak edə bilərdilər. Əcnəbilər bu cür məhdud əşya hüququnun subyekti kimi çıxış edə bilməzdilər. Ona görə ki, xarici vətəndaşların vərəsəlik hüququ üzrə keçən ömürlük sahibliyinə torpaq sahəsi verilmirdi (köhnə Torpaq Məcəlləsinin 11-ci maddəsi).

Məhdud əşya hüququnun növlərindən biri sahiblik sayılırdı (köhnə Torpaq Məcəlləsinin 13-cü maddəsi). Sahibliyin obyekti kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq ilə məşğul olmaq üçün lazım olan torpaq sahələri hesab edilirdi.

---

[1] Operativ idarəetmə hüququ konstruksiyasını ilk dəfə olaraq A.V.Venediktov işləyib hazırlamışdır (*Венедиктов А.В.* Государственная социалистическая собственность. М.,-Л., 1947).

[2] G.F.Şerşeneviç bu hüququ vərəsəlik üzrə keçən icarə hesab edirdi (bax: *Г.Ф.Шершеневич.* Учебник русского граждансого права. СПб., 1909, с. 341-344).

Bu hüququn subyekti rolunda kiçik müəssisələr, meşə təsərrüfatları, səhmdar cəmiyyətləri, dövlət kənd təsərrüfatı müəssisələri və digərləri çıxış edirdilər.

Torpaq sahələrindən daimi istifadə hüququ da məhdud əşya hüququ hesab edilirdi (köhnə Torpaq Məcəlləsinin 14-cü maddəsi). Bu hüquq müddətsiz xarakterə malik idi. Həmin hüququn subyekt dairəsi geniş idi: sənaye, nəqliyyat və digər müəssisələr; elmi-tədqiqat idarələri; hərbi və dini təşkilatlar; beynəlxalq birliklər.

Göstərilən konstruksiyalar öz əhəmiyyətini və rolunu itirmişdir. Onlar indiki qanunvericiliyə görə, superfitsi, uzufrukt və servitut kimi konstruksiyalarla əhatə edilir.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Основные институты гражданского права зарубежных стран / Под ред. **В.В.Залесского**. М., 1999 (с. 258-292).

Д.В.Дождев. Римское частное право. Учебник. М., 1999 (гл. 4).

И.Пухан, М.Поленак-Акимовская. Римское право. Учебник. М., 2000 (гл. 6).

Римское частное право. Учебник / Под ред. **И.Б.Новицкого, И.С.Перетерского**. М., 1999 (гл. 17).

N.B.Novitski. Roma hüququ. Dərslik / Rus dilindən M.P.Əsgərovanın tərcüməsi. Bakı. 1999 (fəsil 4).

И.Велиев. Основные формы залога в историческом развитии и проблемы залога недвижимости в современных условиях. Баку. 1998 (гл. 3).

Г.Ф.Шершеневич. Учебник русского гражданского права. СПб., 1909 (с. 338-341).

А.Жалинский, А.Рёрихт. Введение в немецкое право. М., 2001.

Wolf M. Sachenrecht. München. 1997.

Klünzinger E. Einführung in das bürgerliche Recht. München. 1993.

Schwab K.H., Prütting H. Lehrbuch des Sachenrechts. München. 1996.

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983.

XXIV FƏSİL
SAHİBLİK (BESITZ) ƏŞYA HÜQUQUNUN XÜSUSİ XARAKTERLİ İNSTİTUTU KİMİ

§ 1. Sahibliyin anlayışı, əsas xüsusiyyətləri və növləri

1. Sahibliyin anlayışı

Sahiblik əşya hüququnun müstəqil institutlarından biridir. Bu, bizim ölkə qanunvericiliyində novelladır, yeni institutdur. Avropada üstün olan və geniş yayılan belə bir sivilistika ənənəsi mövcuddur ki, sahiblik mülkiyyətə münasibətdə müstəqil institut kimi çıxış edir[1]. Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsi həmin ənənəyə uyğun olaraq **sahibliyi asılı və törəmə olmayan, müstəqil hüquq institutu kimi nəzərdə tutur**. Bu isə o deməkdir ki, bizim ölkə qanunvericiliyi sivil və qabaqcıl ölkələrin qanunvericiliyinə qovuşur, hüquqi inteqrasiya edir, necə deyərlər, «Avropa standartları»na uyğunlaşır. İngilis-amerikan hüquq sisteminə (ailəsinə) gəldikdə isə, qeyd edə bilərik ki, həmin sistem belə müstəqil hüquq institutu tanımır.

Sahiblik xüsusi xarakterli münasibətdir. Bu münasibət əşya sahibinin **əşya üzərində fiziki (faktiki) nəzarəti həyata keçirməsilə bağlı** olaraq yaranır.

Hər bir mülkiyyətçi mülkiyyət hüququ əsasında özünün malik olduğu əşyaya fiziki yiyəlik edir, yəni əşyanı fiziki cəhətdən əldə edir. Bununla bərabər, mülkiyyət hüququnun həyata keçirilməsi həmişə əşyanın fiziki (faktiki) cəhətdən əldə edilməsi və ondan bilavasitə istifadə edilməsi ilə bağlı olmur. Başqa sözlə desək, elə məqamlar yaranır ki, mülkiyyətçi özünün mülkiyyət hüququnu əşyanı fiziki cəhətdən əldə etmədən də həyata keçirir. Belə ki, bəzi hallarda mülkiyyətçilər həmişəlik və ya müvəqqəti olaraq öz əşyasına fiziki cəhətdən, yəni faktiki olaraq yiyəlik etmirlər. Lakin buna baxmayaraq, onlar mülkiyyət hüququndan istifadə etməklə əşyadan mülki bəhərlər (gəlirlər) alırlar: mülkiyyətçilər öz istəyi və iradəsi ilə əşyaya fiziki sahibliyi müəyyən şəxslərə (icarəçilərə, kirayəçilərə və s.) verirlər ki, həmin şəxslər əşyadan istifadəyə görə mülkiyyətçilərə müəyyən haqq (kirayə haqqı, icarə haqqı və s. formalarda) ödəyirlər. Mülkiyyətçilər əşyanı əvəzsiz olaraq saxlanca verdiyi hallarda da əşya üzərində fiziki yiyəliyə malik olmurlar. Mülkiyyət hüququnun predmeti (obyekti) olan əşya itirildiyi, oğurlandığı və ya zorla alındığı məqamlarda da mülkiyyətçi həmin əşya üzərində fiziki «hakimiyyəti»ni və «ağalığı»nı itirir. Məlum məsələdir ki, bu hallar onun iradəsi və istəyilə və ya yaranmış vəziyyətlə, yaxud üçüncü şəxslərin hüquqazidd əməli ilə bağlı olaraq yarana bilər. Lakin göstərilən hallarda mülkiyyətçi əşya üzərində fiziki yiyəlikdən məhrum olsa da, onun mülkiyyət hüququ mövcud olmaqda davam edir. Mülkiyyətçinin belə vəziyyətdə yalnız əşya üzərində fiziki «hakimiyyət»i çatışmır. Əşya üzərində **bu cür fiziki «hakimiyyət» mülki qanunvericilikdə sahiblik adlanır**.

[1] Гражданское и торговое право капиталистических стран. Учебное пособие / Отв. ред. *В. П. Мозолин, М.И. Кулагин*. М., 1980, с. 143.

Sahiblik bizim ölkə qanunvericiliyində yeni anlayışdır. Əvvəlki qanunvericiliyə bu anlayış yad idi. Qeyd etməliyik ki, bu anlayışla mülkiyyətçinin üçlü səlahiyyətə daxil olan sahiblik səlahiyyətini eyniləşdirmək və qarışdırmaq olmaz. **Sahiblik faktiki (fiziki) münasibətdir**. Bu münasibət, yuxarıda qeyd etdiyimiz kimi, şəxsin əşya üzərində «fiziki hakimiyyət»i, «faktiki ağalığ»ı ilə bağlıdır. Məhz bu səbəbdən sahiblik əşya hüququnun **nə mülkiyyət hüququ növünə, nə də məhdud əşya hüququ növünə aid edilir.**

Mülkiyyət hüququ və məhdud əşya hüququ şəxsin əşyaya hüquqi münasibəti, buna görə də ideal (qeyri-fiziki, qeyri-maddi) münasibəti hesab olunur. Bu, əşyanın hüquqi vəziyyətini ifadə edir. Amma əşyanın hüquqi vəziyyəti onun faktiki vəziyyətindən ayrıla bilər, yəni onunla üst-üstə düşməyə də bilər. Belə ki, əşya hüquqi cəhətdən bir şəxsə məxsus olduğu halda, faktiki (fiziki) cəhətdən digər şəxsin «hakimiyyəti» altında ola bilər. Əşyanın hər hansı bir şəxsdə olmasının müəyyən hüquqi əsası ola bilər. Məsələn, əşya mülkiyyətçinin özü tərəfindən müvəqqəti istifadəyə və ya başqa yerə daşınmağa verilir və s. Mülkiyyətçinin əşyasının başqa şəxsin əlinə düşməsinin hüquqi əsas olmaya da bilər. Belə ki, şəxsin əşyanı faktiki cəhətdən əldə etməsi qanun pozuntusu ilə bağlı ola bilər. Məsələn, hər hansı şəxs əşyanı oğurlayır və ya qonşuya məxsus olan torpaq sahəsini öz torpaq sahəsinə birləşdirir və s. Belə hallarda oğru və torpaq sahəsini birləşdirən şəxs əşyaya faktik cəhətdən sahiblik edir və faktik sahib hesab olunurlar. Amma onların həmin əşyalara mülkiyyət hüququ yoxdur. Bu əşyaların mülkiyyətçiləri isə onlara faktiki (fiziki) cəhətdən sahiblik edə bilmirlər. Deməli, müxtəlif səbəblərə görə bəzi vaxtlarda əşyanın hüquqi (qeyri-faktiki) vəziyyəti onun faktiki (fiziki) vəziyyəti ilə üst-üstə düşmür.

Göründüyü kimi, mülkiyyət hüququ və sahiblik kimi iki anlayış sinonim anlayışlar hesab olunmur. Belə ki, mülkiyyət hüququ əşyaya hüquqi cəhətdən, sahiblik isə fiziki (faktiki) cəhətdən yiyəlik edilməsi deməkdir. Əgər mülkiyyət hüququ əşyanın hüquqi cəhətdən taleyini müəyyənləşdirirsə, sahiblik onun faktiki (fiziki) müqəddəratını təyin edir. Sahiblik özündə əşya ilə bağlı faktiki aspektləri birləşdirir. Mülkiyyət hüququ isə əşya ilə bağlı hüquqi aspektləri xarakterizə edir. Belə ki, əgər sahiblik əşya üzərində şəxsin faktiki (fiziki) «hakimiyyəti»dirsə, mülkiyyət hüququ həmin şəxsin hüquqi «hakimiyyəti»dir[1]. Sahiblik realdır və vaxta görə mövcud olur. Mülkiyyətə gəldikdə isə o, idealdır və vaxtla (müddətlə) məhdudlaşdırılmır, yəni müddətsiz mövcud olur. Mülkiyyət tam əşya hüququdur. Sahiblik isə hüquqi tituldan (əsasdan) asılı olmadan faktiki cəhətdən əşyanı əldə etməkdir[2]. Lakin bunlara baxmayaraq sahiblik mülkiyyət hüququ ilə bağlıdır. Təsadüfi deyildir ki, XIX əsr alman hüquqşünası Rudolf fon İerinq təklif edirdi ki, sahibliyə «mülkiyyətin görüntüsü» kimi anlayış verilsin. Onun sözlərinə görə, sahiblik «mülkiyyətin dayağıdır».

Sahiblik dedikdə, əşya üzərində şəxsin elə bir yiyəliyi başa düşülür ki, bu yiyəlik həmin şəxsin əşyaya, yəni sahibliyin predmetinə olan faktiki (fiziki) münasibətindən irəli gəlir. O, əşya üzərində şəxsin faktiki (fiziki) yiyəlik, «ağalıq» və «hakimiyyət» faktıdır. Sahiblik əşyaya faktiki malik olmadır. MM-in 7-ci fəslinə daxil olan normalar (159-166-cı maddələr) sahiblik münasibətlərinin tənzimlənməsinə həsr edilmişdir.

Sahiblik institutunun tarixi Roma hüququ ilə bağlıdır. Bu hüquq onu «possessio» anlayışı ilə əhatə edirdi[1]. Roma hüququnda «sahiblik» və «mülkiyyət hüququ» eyni bir şəxsdə üst-üstə düşə bilən, amma həm də ayrı-ayrı şəxslərə məxsus ola bilən müxtəlif kateqoriyalar sayılırdı. O, bu hüququn pozulması ilə də yarana bilərdi. Roma hüquqşünaslarından Ulpian deyirdi ki, mülkiyyətlə sahiblik arasında ümumi heç nə yoxdur. Çox vaxt o, ayrılaraq və fərqləndirilərək mülkiyyətə qarşı qoyulurdu.

Sonralar sahiblik institutu bir sıra Avropa ölkələrinin qanunvericiliyi tərəfindən resepsiya edilmişdir. Onu bəzi qabaqcıl və mütərəqqi ölkələrin qanunvericiliyi əsas kateqoriyalardan biri kimi tanıyır. Məsələn, Almaniya Mülki Qanunnaməsinin «Əşya hüququ» adlı birinci kitabının birinci bölməsi («Sahiblik») sahibliyin tənzimlənməsinə həsr edilmişdir[2]. İtaliya Mülki Məcəlləsinin «Əşya hüququ» adlı üçüncü kitabının səkkizinci bölməsi («Sahiblik») sahiblik münasibətlərini qaydaya salır[3]. Sahiblik Yaponiya qanunvericiliyinə də məlumdur (MM-in 180-ci maddəsi). Hollandiya Mülki Məcəlləsinin üçüncü kitabının beşinci bölməsinə daxil olan normalar sahiblik məsələlərini nizama salır[4]. Bunlardan Almaniya qanunvericiliyinin müəyyən etdiyi qaydalar bizim ölkə qanunvericiliyi tərəfindən sahiblik münasibətlərini tənzimləmək üçün olduğu kimi qəbul olunmuşdur.

Sahibliyin xarakteri və təbiəti uzun müddətdir ki, sivilistika doktrinasında qızğın elmi mübahisələrin predmetinə çevrilmişdir. Əsası hələ qədim dövrlərdə Roma hüquqşünasları tərəfindən qoyulan bu mübahisələr indi də davam edir. Həmin mübahisələrin mahiyyəti **sahibliyin fakt və ya hüquq olmasından ibarətdir**. XIX əsr alman sivilisti Savinyi sahibliyi hüquq yox, fakt hesab edirdi[5]. Başqa bir alman sivilisti Dernburq analoji mövqedə dururdu[6]. İnqilabaqədərki rus sivilistlərindən D.İ.Meyer qeyd edirdi ki, sahibliyin fakt olması barədə baxışlardan kənara çəkilməyə heç bir zərurət yoxdur[7]. G.F.Şerşeneviç isə bunun əksi olan mövqedə dayanaraq göstərirdi ki, sahibliyin obyekti əşyadır və ona görə də o, əşya hüquqları arasında yer tutmaq üçün tam əsasa malikdir[8].

Sovet sivilistləri sahiblik anlayışını kifayət qədər aydın şəkildə həll etmişdilər. Sovet hüququ xüsusi sahiblik hüququnu qəbul etməmişdi. O, yalnız subyektiv mülkiyyət hüququnun məzmununa daxil olan sahiblik səlahiyyətini tanıyırdı[9].

Alman sivilistlərindən L.Ennekserus qeyd edir ki, Almaniya Mülki Qanunnaməsi qəbul edildikdən sonra müəlliflərin çoxu sahibliyi hüquq kimi tanımağa

---

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1949, с. 257.

[2] *Baur J.F., Sturner R.* Lehrbuch des Sachenrecht.1999, s. 15; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 408; *Wieling H.J.* Sachenrecht. Berlin. 1997, s. 37.

[1] *Д.В.Дождев.* Римское частное право. Учебник. М., 1999, с. 360; *І.Пухан, М.Поленак-Акимовская.* Римское право. Учебник. М., 2000, с. 170.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949; *Савельев В.А.* Германское гражданское уложение. М., 1983.

[3] Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 8.

[4] Гражданский кодекс Нидерландов / Под ред. *М.Ферштмана.* Лейден. 1996.

[5] *Savigny.* Recht des Besitres, 1865.

[6] *Дернбург Г.* Пандекты. Том 1. Часть 2: Вещное прво. СПб., 1905, с. 2.

[7] *Мейер Д.И.* Русское гражданское право. Част 2, с. 9.

[8] *Шершеневич Г.Ф.* Учебник русского гражданского права. 1995, с. 142, 152-153.

[9] *Генкин Д.М.* Право собственности в СССР. М., 1961, с. 181-182.

başladılar. Ona görə ki, birincisi, sahiblikdən məhrum edildikdə və sahiblik pozulduqda sahib olan şəxs qorunur; ikincisi, sahiblik vərəsəlik üzrə keçir, özü də faktiki yiyəlik və sahiblik əldə etmədən və s[1]. Başqa alman müəllifi Y.Şapp, əksinə, təsdiqləyir ki, sahiblik hüquq yox, faktdır. Özü də sahibliklə mülkiyyət arasında fərq faktla hüquq arasındakı fərq kimidir. O göstərir ki, sahib sahiblik hüququna malik ola da bilər, olmaya da: «kirayəçi, icarəçi və uzufruktuar bu cür hüquqa malikdir, oğru isə yox»[2]. U.Mattei sahibliyi müstəqil əmlak hüququ hesab edir[3]. K.İ.Sklovskinin fikrincə, müasir qanunvericilik sahibliyi hüquq hesab etməməyə daha çox əsas verir. O, belə hesab edir ki, sahiblik hüquq kimi yox, fakt kimi üstünlüyə malikdir[4]. Dojdev D.V. sahibliyə xüsusi əşya hüququ kimi baxır[5]. Yaponiya mülki hüquq doktrinası sahibliyi əşya hüququna aid edir[6]. A.Rörixtə görə, sahiblik əşya hüquqlarından biridir[7].

Bizim zənnimizcə, bütün müəlliflərin fikirlərində bu və ya digər dərəcədə həqiqət vardır. Amma **sahibliyin həm hüquq, həm də fakt mənasında başa düşülməsi məsələyə daha düzgün və hərtərəfli yanaşılması** demək olardı. **Hüquq mənasında sahiblik** dedikdə, subyektiv mülkiyyət hüququnun məzmununa daxil olan «üçlük» səlahiyyətindən biri — sahiblik səlahiyyəti başa düşülür. **Fakt mənasında sahiblik** isə əşyaya faktiki (fiziki) sahibliyi ifadə edir. Hüquq mənasında sahiblik (sahiblik hüququ) mülkiyyət hüququ institutu ilə tənzimlənir. Fakt mənasında sahiblik (sahiblik faktı) isə müstəqil sahiblik institutu ilə nizama salınır. Odur ki, burada məhz faktiki sahiblikdən (fakt mənasında sahiblikdən) söhbət açılacaqdır. Məsələn, şəxsin əşyanı oğurlaması və əşyaya yiyələnməsi hüquq mənasında sahiblik (sahiblik hüququ) yaratmır. Ona görə ki, əşyanı oğurlayan şəxsin həmin əşyaya sahiblik səlahiyyəti, yəni hüquqi əsası yoxdur. Amma oğrunun həmin əşyaya faktiki sahibliyi (fakt mənasında sahibliyi) yaranır.

Sahiblik hüquqi cəhətdən müdafiə edilir, yəni qanunla qorunur. Bəs sahiblik nədir? Onun mövcud olması və hüquqi cəhətdən müdafiə edilməsi üçün əşya üzərində şəxsin, sadəcə olaraq, faktiki (fiziki) yiyəliyi və sahibliyi kifayətdirmi, yoxsa bu əlamət yetərli deyil? Məsələ burasındadır ki, həyatda bəzən əşya şəxsin faktiki-real (fiziki) sahibliyində olur və həmin şəxs əşyanın onun sahibliyində olmasını bilmir və ya bunu arzu etmir, ümumiyyətlə, istəmir. Məsələn, hər hansı bir şəxs əşyanı yatmış şəxsin cibinə qoyur: bu cür yiyəliyi sahiblik hesab etmək olarmı? Roma hüquq elmi (yurisprudensiyası) bu suala mənfi cavab verirdi. Belə ki, hüquqi mənada sahibliyin mövcud olması və yaranması üçün iki elementin olması tələb edilirdi[8]: obyektiv (xarici) element, yəni şəxsin sahibliyin predmeti olan əşyaya faktiki yiyəlik etməsi (maddi element); subyektiv (daxili) element, yəni şəxsin əşyaya sahiblik niyyətinin və istəyinin olması (iradəvi element). Şəxsin iradəsi və istəyi ziddinə olaraq, yəni onun iradə və istəyi olmazdısa, sahiblik yaranmırdı.

Roma hüquqşünaslarının müəyyən etdiyi bu qayda sonralar Avropa hüquq doktrinası tərəfindən hamılıqla qəbul edildi. Amma XIX əsrin axırlarında qüvvəyə minən Almaniya Mülki Qanunnaməsi həmin qaydadan istisnaya yol verir. Belə ki, həmin qanunnamənin 854-cü paraqrafı köhnə doktrinadan imtina edərək, belə bir qayda müəyyənləşdirir ki, sahiblik (Besitz) əşyaya faktiki sahibliyə nail olmaqla əldə edilir[1]. Deməli, bu norma sahibliyin əmələ gəlməsi üçün iradəvi əlaməti — daxili (subyektiv) elementi nəzərdə tutmur[2]. Bunun ardınca İsveçrə Mülki Məcəlləsi də belə göstəriş ifadə edir (919-cu maddə).

Azərbaycan Respublikasının yeni MM-in 159-cu maddəsi Almaniya Mülki Qanunnaməsinin həmin normasını heç bir dəyişiklik etmədən olduğu kimi saxlamışdır. Məhz bu səbəbdən göstərə bilərik ki, sahibliyin yaranması və mövcudluğu üçün **təkcə xarici (obyektiv) elementin olması kifayət edir**. Şəxsin sahibliyə niyyət və istəyinin (iradəvi əlamətin) olması isə lazım deyil və bu, tələb olunmur. Deməli, sahibliyin əldə edilməsi təmiz **maddi aktdır, iradəvi akt deyil**. Madam ki, sahibliyin əldə edilməsi maddi aktdır, yəni sahiblik əşyaya faktiki sahibliyə nail olmaqla əldə edilir, onda şəxsin özgə əşyasını oğurlaması ilə sahiblik yaranır. Oğru isə əşyanın sahibi hesab olunur. Almaniya və Yaponiya qanunvericiliyinə və mülki hüquq doktrinasına görə, şəxsin özgə əşyasını oğurlaması ilə sahiblik yaranır və həmin şəxs sahib hesab olunur[3].

Sahiblik, bir qayda olaraq, mülkiyyətçinin özü tərəfindən həyata keçirilir. Bəzi hallarda isə mülkiyyətçinin əşyasını hər hansı bir hüquqi əsasa görə başqa şəxslər əldə edirlər. Söhbət məhdud əşya hüququnun (məsələn, girov hüququnun, uzufrukt hüququnun və s.) həyata keçirilməsi üçün əşyanın başqa şəxslərə (məsələn, girovsaxlayana, uzufruktuara və s.) verilməsindən gedir. Bundan əlavə, mülkiyyətçi əşyanı istifadə üçün kirayəyə, icarəyə və ya saxlamaq üçün saxlayıcıya verə bilər. Belə halda həmin kateqoriya şəxslərin (kirayəçinin, icarəçinin, saxlayıcının və s.) əşya üzərində sahibliyi yaranırmı? Roma hüququ bu suala «yox» cavabı verirdi, yəni həmin şəxslərin sahibliyini, sözün əsl mənasında, sahiblik yox, adi saxlama (detentio, bəzən isə possessio naturalis) hesab edirdi[4]. Sonralar Almaniya Mülki Qanunnaməsi Roma hüququnun müəyyən etdiyi bu qaydanı pozaraq, həmin kateqoriya şəxslərin həyata keçirdikləri saxlamanı sahiblik, göstərilən şəxslərin özünü isə sahib hesab edir (868-ci paraqraf). Azərbaycan Respublikasının mülki qanunvericiliyi Al-

---

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 271.
[2] *Шапп Ян.* Основы гражданского права Германии. М., 1996, с. 57, 61.
[3] *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 246.
[4] *К.И.Скловский.* Собственность в гражданском праве. М., 1999, с. 201, 298.
[5] *Д.В.Дождев.* Римское частное право. Учебник. М., 1999. с.373.
[6] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 171.
[7] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 408.
[8] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 158; *I.B.Novitski.* Roma hüququ. Dərslik. Bakı. 1999, s. 66.

[1] Германское право. Гражданское уложение. Часть 1. М., 1996.
[2] Almaniya Mülki Qanunnaməsinin birinci layihəsi iradəvi əlaməti nəzərdə tutmuşdu. Bu layihə mətbuatda dərc ediləndə həmin məsələyə görə o, kəskin tənqidlə üzləşdi. Xüsusən göstərilirdi ki, əgər qanun sahibliyin yaranması üçün iradəvi əlaməti nəzərdə tutarsa, onda iradəvi qabiliyyətə malik olmayan şəxslərin (uşaqların, kəmağılların, ruhi xəstələrin və s.) sahibliyi qanunla müdafiədən məhrum olardı. Belə tənqidetmənin nəticəsində Almaniya Mülki Qanunnaməsi iradəvi (daxili, subyektiv) elementi nəzərdə tutmadı (bax: *И.А.Покровский.* Основные проблемы гражданского права. М., 1998, с. 230).
[3] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 171; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 409.
[4] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 158; *I.B.Novitski.* Roma hüququ. Dərslik. Bakı. 1999, s. 66.

maniya qanunvericiliyinin müəyyən etdiyi bu hüquqi göstərişi olduğu kimi qəbul etmişdir (MM-in 160-cı və 161-ci maddələri). Belə ki, bizim ölkə qanunvericiliyinə görə, mülkiyyətçi də, onun əşyasını hər hansı hüquqi əsasa görə əldə edən şəxslər də (kirayəçi, icarəçi, əşyanı əvəzsiz istifadəyə götürən, girov saxlayan, saxlayıcı və s.) sahib sayılırlar. Onların əşya üzərində faktiki yiyəliyi isə sahiblik hesab olunur. Şəxsin evində və ya təsərrüfatında çalışanların (ev qulluqçularının və xidmətçilərinin, işçilərin) sərəncamında əşyanın olması sahiblik əmələ gətirirmi? Azərbaycan Respublikasının MM-i bu suala cavab vermir. Bizim fikrimizcə, bu kateqoriya şəxslər sahibliyi həyata keçirərlərsə, sahib kimi yox, adi saxlayıcı kimi çıxış edirlər. Ona görə də belə halda sahiblik yaranmır. Almaniya mülki hüququ da həmin kateqoriya şəxslərə sahib kimi baxmır[1]. Yaponiya qanunvericiliyinə görə isə baxılmaq üçün əşyanın ev qulluqçularına verilməsi sahiblik yaradır, ev qulluqçuları isə sahib hesab edilirlər[2].

Sahiblik əşya üzərində müəyyən edilir. Ona görə də onun predmeti (obyekti) əsasən fərdi əlamətləri ilə müəyyən edilən əşya ola bilər. Bununla belə, cinsi əlamətləri ilə müəyyən edilən əşyaların da sahibliyin predmeti ola bilməsi mümkündür; həm daşınar, həm də daşınmaz əşyalar sahibliyin predmeti ola bilər. Əmlak hüquqlarının sahibliyin predmeti (obyekti) rolunda çıxış etməsi istisna olunur[3]. Ona görə ki, hüquqlara faktiki (fiziki) cəhətdən yiyələnmək və sahiblik etmək olmaz. Amma bəzi xarici ölkələrin qanunvericiliyi hüquqlara da sahiblik etməyə yol verir (Almaniya MQ-nin 855-ci maddəsi; İsveçrə MQ-nin 919-cu maddəsi). Bəzi müəlliflər də bu mövqedədirlər. Şübhəsiz, hüquqlar fakt mənasında sahibliyin yox, hüquqi mənada sahibliyin predmeti (obyekti) ola bilər.

2. Sahiblik haqqında nəzəriyyələr

Sahiblik hüquqi əhəmiyyətə malik olan məsələdir. Belə ki, o, müəyyən hüquqi nəticəyə səbəb ola bilər; mülki qanunvericilik bu və ya digər hüquqi nəticənin yaranmasını məhz sahibliklə bağlayır və əlaqələndirir. Buna görə də belə bir məsələnin həlli böyük praktiki əhəmiyyətə malikdir: kim sahibliyin subyekti (sahib) ola bilər? Axı, sahibliyin müdafiə üsullarından yalnız sahib (sahibliyin subyekti) istifadə edə bilər ki, bu üsullar mülkiyyət hüququnun müdafiə üsullarına nisbətən sadədir (bu barədə kitabın 15-ci fəslinin «Sahibliyin müdafiəsi» başlığına baxın).

Göstərilən suala cavab vermək üçün Avropa mülki hüquq elmində (sivilistika doktrinasında) iki əsas sahiblik nəzəriyyəsi irəli sürülmüşdür[4]. Həmin nəzəriyyələr belə adlanır:

- subyektiv sahiblik nəzəriyyəsi;

[1] *И.А.Покровский.* Основные проблемы гражданского права. М., 1998, с. 232; *Wieling H.J.* Sachenrecht. Berlin. 1997. s. 50.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 171.

[3] Roma hüququnda isə hüquqlara sahiblik etmənin mümkünlüyü göstərilirdi. Belə ki, torpağın uzunmüddətli icarəyə verildiyi hallarda, hüquqlara sahiblik etmə barədə nəzəriyyə inkişaf etməyə başladı (bax: *Пухан И., М.Поленак-Акимовская.* Римское право. Учебник. М., 2000, с. 175).

[4] Гражданское и торговое право зарубежных стран. Учебное пособие / Отв. ред. *В.В.Безбах, В.К.Пучинский.* М., 2004, с. 231.

- obyektiv sahiblik nəzəriyyəsi

Subyektiv sahiblik nəzəriyyəsi XIX əsrin əvvəllərində görkəmli alman hüquqşünası Savinyi tərəfindən irəli sürülmüşdür. Bu nəzəriyyənin əsasını Roma hüququnun formulə etdiyi müddəalar təşkil edir. Odur ki, həmin nəzəriyyə eyni zamanda həm də **sahibliyin Roma nəzəriyyəsi** adlanır. Savinyi Roma hüququnun müddəalarını inkişaf etdirərək sahibliyin iki elementini müəyyənləşdirdi:

- corpus (əşyaya fiziki, yəni faktiki yiyələnmə);
- animus (sahiblik iradəsi, yəni şəxsin əşyaya yiyələnmək niyyətinin olması).

Savinyiyə görə, sahibliyin yaranması və şəxsin sahib kimi tanınması üçün hər iki elementin olması tələb edilir; əgər şəxsdə sahiblik iradəsi olmazsa, həmin şəxs sahib yox, başqası üçün əşyanın sadə saxlayıcısı sayılır. Buna görə icarəçi, kirayəçi və digər kateqoriya şəxslər sahib yox, saxlayıcı hesab olunurlar. Odur ki, həmin şəxslər sahiblik müdafiəsi ilə təmin edilmirlər.

Göründüyü kimi, Savinyinin nəzəriyyəsi sahibliklə saxlamanı bir-birindən fərqləndirir və ayırır. Məsələyə bu cür yanaşma öz normativ ifadəsini Fransanın, İtaliyanın və Yaponiyanın mülki məcəllələrində tapmışdır.

Obyektiv sahiblik nəzəriyyəsini XIX əsrin axırlarında digər tanınmış alman hüquqşünası İerinq əsaslandırmışdır. Bu nəzəriyyəyə görə, sahibliyin əsas (konstitutiv) elementi «corpus» hesab edilir; sahibliyin yaranması üçün bu element kifayətdir; bu elementə görə əşyaya faktiki yiyəliyi həyata keçirmə sahiblik kimi tanınır; «animus» (sahiblik iradəsi) kimi element isə sahibliyin tanınması üçün əsas rol oynamır; amma «animus» kimi iradəvi elementə əhəmiyyət verilir, məhəl qoyulur və o, nəzərə alınır; həmin element sahibliyin faktiki həyata keçirilməsində ifadə olunur: «corpus» kimi element «animus» kimi elementi özündə birləşdirir. Buna görə də obyektiv sahiblik nəzəriyyəsi sahiblik və saxlama arasındakı fərqi inkar edir; bu səbəbdən sahiblik müdafiəsindən əşyaya faktiki yiyəlik edən istənilən şəxs (kirayəçi, icarəçi, saxlayıcı və s.) istifadə edə bilər.

Obyektiv sahiblik nəzəriyyəsinin əsas müddəaları öz normativ ifadəsini Almaniya və İsveçrə mülki qanunnamələrində tapdı. Həmin müddəalar həm də Azərbaycan Respublikasının MM-də ifadə olunmuşdur. Belə ki, bizim ölkə qanunvericiliyinə görə, əşyaya faktiki (fiziki) yiyəlik edən istənilən şəxs onun sahiblik niyyəti və iradəsindən asılı olmayaraq sahib kimi tanınır. Odur ki, fəaliyyət qabiliyyəti məhdud olan şəxslər də (azyaşlılar və s.) sahibliyin subyekti ola bilərlər.

3. Sahibliyin növləri

Sahibliyi, hər şeydən əvvəl, mülkiyyətçi həyata keçirir. Mülkiyyətçi mülkiyyət hüququ əsasında əşyaya sahiblik edir. O, əşyanın normal, qanuni (hüquqi) sahibidir. Bununla belə, əşya mülkiyyətçi ilə bağlanan hər hansı hüquqi əqd əsasında başqa şəxslərin (qeyri-mülkiyyətçilərin, yəni mülkiyyətçi olmayan şəxslərin) sahibliyində də ola bilər. Şəxsin əşyaya hüquqazidd hərəkət əsasında sahib ola bilməsi də istisna edilmir (məsələn, müəyyən şəxs mülkiyyətçinin əşyasını oğurlayır, qonşu o biri qonşunun torpaq sahəsinin müəyyən hissəsini torpaq sahəsinə birləşdirir və s.). Göstərdiyimiz bu hallara uyğun olaraq, mülki qanunvericilik sahibliyin bir neçə növünü fərqləndirir.

Sahibliyin mülkiyyətçi və ya qeyri-mülkiyyətçilər tərəfindən həyata ke-

çirilməsi əlamətinə görə onun iki növü fərqləndirilir (MM-in 160-cı maddəsi):

- vasitəsiz (bilavasitə) sahiblik;
- vasitəli (bilvasitə) sahiblik.

Mülkiyyətçinin özü və ya digər əmlak hüquqlarının sahibi tərəfindən həyata keçirilən sahibliyə **vasitəsiz (bilavasitə) sahiblik** deyilir. Belə sahibliyə malik olan şəxs isə vasitəsiz sahib adlanır. **Digər əmlak hüquqlarının sahibi rolunda** girov saxlayan, icarəçi, kirayəçi, saxlayan, əvəzsiz istifadə edən və s. çıxış edir. Bu kateqoriya şəxslər hər hansı hüquqi əsasa (məhdud əşya hüququna, şəxsi sahibliyə, hüquqi əqdə və s.) görə əşya üzərində vasitəsiz sahibliyə malik ola bilərlər.

Vasitəsiz (bilavasitə) sahibliyin mahiyyəti əşyaya faktiki yiyəlik edilməsindən ibarətdir. Belə sahiblik əşya ilə bağlı olmaqla və ona yiyəlik etmək müddəti ərzində, müəyyən yerdə (məkanda) həyata keçirilir. Məsələn, evdə yaşayan şəxsin televizora yiyəlik etməsi, sənətçinin musiqi alətini kirayəyə götürməsi, şəxsin zinət şeylərini oğurlaması və s. vasitəsiz sahibliyi ifadə edir. Televizora yiyəlik edən şəxs də, musiqi alətini kirayəyə götürən də, zinət şeylərini oğurlayan da vasitəsiz sahibdirlər. Buradan belə nəticə çıxara bilərik ki, vasitəsiz (bilavasitə) sahiblik yalnız bir əlamətlə — əşyaya heç kəsin vasitəçiliyi olmadan, birbaşa və düzünə yiyəlik edilməsi kimi əlamətlə xarakterizə olunur[1].

Əgər əşya hər hansı hüquqi əsasa görə (məhdud əşya hüququna görə, şəxsi sahibliyə, hüquqi əqdə və s.) başqa şəxsin sahibliyində olarsa, həmin əşyanın mülkiyyətçisinin (sahibinin) bu əşyaya münasibətdə malik olduğu sahibliyə **vasitəli sahiblik** deyilir[2]. Belə halda bu və ya digər şəxs, yəni mülkiyyətçi (əşyanın sahibi) və hər hansı hüquqi əsasa görə əşyaya sahib olan şəxs **eyni vaxtda sahib olmaqda davam edirlər**: onlardan mülkiyyətçi (əşyanın sahibi) vasitəli, hüquqi əsasa görə (məsələn, uzufrukta, kirayə müqaviləsinə və s. görə) əşyaya sahib olan şəxs (məsələn, uzufruktuar, kirayəçi və s.) isə vasitəsiz sahib sayılır. Belə vəziyyətdə mülkiyyətçi sahibliyini itirmir. Bu şəxslərin sahibliyinə ikiqat sahiblik deyilir. **İkiqat sahiblik** dedikdə, iki şəxsin (mülkiyyətçinin və qeyri-mülkiyyətçinin) eyni vaxtda eyni bir əşyaya sahiblik etməsi başa düşülür[3]. Özü də bu şəxslər bir-birilə eyni cərgədə yanaşı yox, bir-birinin ardınca gəlirlər. Məsələn, mülkiyyətçi əşyanı banka girov qoyur. Belə halda mülkiyyətçi vasitəli sahib, bank (girov saxlayan) isə vasitəsiz sahib kimi çıxış edir. Banka girov qoyulan əşyaya münasibətdə mülkiyyətçinin və bankın eyni vaxtda malik olduqları sahiblik ikiqat sahiblikdir. Başqa bir misalda mülkiyyətçi əşyasını kirayəyə verir; bu zaman da ikiqat sahiblik yaranır; mülkiyyətçinin həmin əşyaya sahibliyi vasitəli, kirayəçininki isə vasitəsiz sahiblik hesab edilir: belə halda mülkiyyətçi vasitəli sahib, kirayəçi isə vasitəsiz sahib sayılır.

İkiqat (vasitəli) sahiblik konstruksiyasını bizim ölkə qanunvericiliyi olduğu

[1] Müəlliflərdən A.Rörixt göstərir ki, vasitəsiz (bilavasitə) sahiblik həm də «əşyaya yiyəlik edilməsinə iradənin olması» kimi əlamətlə xarakterizə olunur (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 409). Onun bu fikri ilə razılaşmaq olmaz. Ona görə ki, Almaniya Mülki Qanunnaməsinin 854-cü paraqrafında aydın şəkildə yazılmışdır: sahiblik əşyaya faktiki sahibliyə nail olmaqla əldə edilir.

[2] Sahibliyin bu iki növü barədə bax: *Иоффе О.С.* Цивилистическая доктрина промышленного капитализма // В книге: Гражданское право. Избранные труды. М., 2000, с. 97.

[3] *Покровский И.А.* Основные проблемы гражданского права. М., 1998, с. 234.

kimi Almaniya Mülki Qanunnaməsindən götürmüşdür[1]. Həmin qanunnamə vasitəsiz sahibliyi «Unmittelbarer Besitz», vasitəsiz sahibi «unmittelbare Besitzer», vasitəli sahibliyi «Mittelbarer Besitz», vasitəli sahibi isə «mittelbare Besitzer» anlayışı ilə əhatə edir (§ 854; 868)[2]. Bununla Almaniya MQ Roma hüquqşünaslarının belə bir aksiomasından imtina etmişdir ki, eyni bir əşyaya iki şəxsin eyni vaxtda və zamanda sahibliyi mümkün ola bilməz («com possessio plurium in solidum»)[3].

Beləliklə, ikiqat (vasitəli) sahiblik müəyyən hüquq münasibəti əsasında əmələ gəlir. Bu münasibətə görə şəxs müvəqqəti olaraq sahibliyi ya həyata keçirməyə borclu olur, ya da həyata keçirmək ixtiyarına malik olur. Söhbət kirayə, icarə, girov, uzufrukt və digər hüquq münasibətlərindən gedir.

Özgənin və ya özünün əşyasına sahibliyin həyata keçirilməsinə görə sahibliyin iki növü fərqləndirilir (MM-in 161-ci maddəsi):

- müstəqil sahiblik;
- müstəqil olmayan sahiblik.

Mülkiyyətçinin əşya üzərində özü üçün həyata keçirdiyi sahibliyə **müstəqil sahiblik** deyilir. Söhbət əşyanın sahibinin mülkiyyət hüququ əsasında həmin əşyaya sahibliyindən gedir. O, sahibliyi özü üçün həyata keçirir. Mülkiyyətçi müstəqil sahibdir[4]. Əşyaya öz mülkiyyəti kimi sahibilk edən oğru da müstəqil sahibdir.

Müstəqil olmayan sahiblik dedikdə, qeyri-mülkiyyətçi şəxslərin (yəni mülkiyyətçi olmayan şəxslərin) özgə əşyasına olan sahibliyi başa düşülür. Söhbət qeyri-mülkiyyətçilərin məhdud əşya hüququ əsasında (girov, uzufrukt və s. hüquqlar əsasında) və digər əsaslara (məsələn, kirayə, saxlama, yükdaşıma, icarə və digər müqavilələrə görə) görə mülkiyyətçinin əşyasına sahibliyindən gedir. Belə sahiblik başqası (mülkiyyətçi) üçün həyata keçirilir[5]. Onu **törəmə**

[1] Almaniya Mülki Qanunnaməsinin ardınca ikiqat sahiblik anlayışını İsveçrə Mülki Məcəlləsi də (920-ci maddə) nəzərdə tutur. Belə ki, əşyanın sahibi «müstəqil sahib», onun adından sahiblik edən şəxs isə «qeyri-müstəqil (törəmə)» sahib adlanır (selbstandiger - unselbstandiger Besitzer).

[2] Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

[3] Almaniya Mülki Qanunnaməsinin ikiqat sahiblik barədə normasını o dövrün bəzi tanınmış sivilistləri böyük qanunvericilik səhvi hesab edirdilər. Amma bunlardan fərqli olaraq, inqilabaqədərki rus sivilisti İ.A.Pokrovski həmin normanın qəbul edilməsini «böyük nəzəri inqilab» adlandırmışdı (bax: *А.І.Покровский.* Основные проблемы гражданского права. М., 1998, с. 233). Doğrudan da, ikiqat sahiblik konstruksiyasının mövcud olması və yaranması üçün həm nəzəri, həm də praktiki əsas vardır. Məsələn, mülkiyyətçi yaşayış evinin üç otağını kirayəyə verir, birində isə özü yaşayır. Belə halda ikiqat sahibliyin yaranması göz qabağındadır. İkiqat sahiblik konstruksiyasını RF-in qanunvericiliyi tanımır. Professor Y.K.Tolstoy alman hüququnda yaranan ikiqat sahiblik institutunun rus qanunvericiliyinə məlum olmamasına təəssüfləndiyini bildirir (Гражданское право. Учебник. Часть 1. СПб., 1996, с. 297).

[4] Polşa MM-in 336-cı maddəsinə görə, müstəqil sahib dedikdə, əşyaya mülkiyyətçi kimi faktiki sahiblik edən şəxs başa düşülür (Osnovnie institutı qrajdanskoqo prava zarubejnix stran. M., 1999, c. 267). Sahibliyin bu növləri İsveçrə qanunvericiliyinə də məlumdur. Belə ki, MM-in 920-ci maddəsinə görə, əşyanın yiyəsi müstəqil sahibdir, onun adından sahiblik edən şəxs isə qeyri-müstəqil sahibdir.

[5] *Иоффе О.С.* Цивилистическая доктрина промышленного капитализма // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 97; Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1. М., 2004, с. 411.

və asılı sahiblik də adlandırırlar. Məsələn, mülkiyyətçi əşyanı girov qoyaraq qonşusundan borc pul alır. Başqa bir misalda sənətçi musiqi alətini konservatoriyada oxuyan tələbəyə kirayəyə verir. Digər bir misalda vətəndaş özünə paltar tikmək üçün dərziyə parça verir. Girov saxlayan qonşu da, musiqi alətini kirayəyə götürən tələbə də, paltar tikmək üçün parça alan dərzi də əşyaya qeyri-müstəqil sahibliyi həyata keçirirlər. Onlar qeyri-müstəqil sahiblər hesab edilirlər. Deməli, müstəqil sahib öz əşyasının sahibi, törəmə (qeyri-müstəqil) sahib isə özgə əşyasının sahibidir. **Bu halda da ikiqat sahiblik yaranır.** Belə ki, eyni bir əşya eyni vaxtda həm mülkiyyətçinin (müstəqil sahibin) müstəqil sahibliyində, həm də qeyri-mülkiyyətçinin (törəmə sahibin) qeyri-müstəqil (törəmə) sahibliyində ola bilər. Bu halda isə ikiqat sahiblik göz qabağındadır: müstəqil sahib də, törəmə sahib də eyni bir əşyaya sahibliyi həyata keçirirlər[1].

Vasitəli sahib (mülkiyyətçi) həmişə müstəqil sahibdir. Vasitəsiz (bilavasitə) sahibə (kirayəçiyə, icarəçiyə, girov saxlayana, uzufruktuara və s.) gəldikdə isə onun vəziyyəti ikili xarakterə malikdir. Bir tərəfdən o, müstəqil sahibdir. Amma vasitəli sahibə (mülkiyyətçiyə) münasibətdə isə vasitəsiz sahib asılı (qeyri-müstəqil) vəziyyətdədir[2], yəni qeyri-müstəqil sahibdir.

Bir əşyaya bir və ya bir neçə şəxsin sahiblik etməsi kimi meyara görə sahibliyin iki növü fərqləndirilir:

- təkbaşına sahiblik;
- birgə sahiblik.

Əşyaya yalnız bir şəxs sahiblik edərsə, ona **təkbaşına sahiblik** deyilir. Məsələn, mülkiyyətçinin minik avtomobilinə, kirayəçinin kirayə obyektinə və s. sahibliyi bu növ sahibliyə misal ola bilər. Təkbaşına sahiblik **adi sahiblikdir**.

Bir əşyaya iki və daha artıq, yəni bir yox, bir neçə şəxs sahiblik edərsə, ona **birgə sahiblik** deyilir. Bu növ sahibliyi Almaniya MQ də nəzərdə tutur (§866). Məsələn, iki nəfər vərəsə miras qalmış yaşayış evinə birgə sahiblik edirlər. Bu növ sahibliyi ikiqat sahiblikdən fərqləndirmək lazımdır. Birgə sahiblikdə birgə sahiblər eyni cərgədə bir-birilə yanaşı dururlar. İkiqat sahiblikdə isə ikiqat sahiblər cərgədə biri digərinin yanında yox, ardında durur[3].

Sahibliyin nümayəndə tərəfindən həyata keçirilməsi əlamətinə görə onun iki növü fərqləndirilir:

- nümayəndə vasitəsilə sahiblik;
- şəxsi sahiblik.

Nümayəndə vasitəsilə sahiblik odur ki, bu növ sahiblik nümayəndə vasitəsilə, **şəxsi sahiblik** isə sahibin şəxsən özü tərəfindən həyata keçirilir[4].

---

[1] Yeri gəlmişkən qeyd edək ki, ikiqat sahiblik konstruksiyası inqilabaqədərki Rusiya Mülki Qanunnaməsinin layihəsində (879-cu maddədə) nəzərdə tutulmuşdu. Əmlaka özününkü kimi sahiblik edən şəxsin sahibliyi müstəqil sahiblikdir (mülkiyyət kimi). Votçina və ya müqavilə hüququna əsasən digər hər hansı sahiblik törəmə sahiblikdir. Eyni bir əşya müəyyən şəxsin müstəqil sahibliyində və bununla bərabər başqa şəxsin törəmə sahibliyində ola bilər (*Покровский И.А.* Основные проблемы гражданского права. М., 1998, с. 234).

[2] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 410; *Baur J.F., Sturner R.* Lehrbuch des Sachenrecht.1999, s. 59.

[3] *И.А.Покровский.* Основные проблемы гражданского права. М., 1998, с. 233-234.

[4] Bu təsnifi Yaponiya MM-i (181-ci maddə) və doktrinası da nəzərdə tutur (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. М., Книга 1. 1983, с. 172.

Şəxsin əşyaya sahiblik hüququ olmasını bilməsi əlamətinə görə onun iki növü fərqləndirilir:

- vicdansız sahiblik;
- vicdanlı sahiblik.

Əşyaya özünün sahiblik hüququ olmadığını bilən və ya bilməyə borclu olan şəxsin həyata keçirdiyi sahiblik **vicdansız sahiblik** adlanır. Sahiblik hüququ olmadığını bilən və ya bilməyə borclu olan şəxsə isə **vicdansız sahib** deyilir. Məsələn, əşyanın ona məxsus olmadığını bilən, lakin özünü əşyanın əsl sahibi kimi aparan oğrunun sahibliyi vicdansız sahibliyə misal ola bilər.

Vicdanlı sahiblik şəxsin həyata keçirdiyi elə bir sahiblikdir ki, bu şəxs özünün əşyaya sahiblik hüququ olmadığı bilmir və ya bunu bilməyə borclu deyildir. Həmin şəxs isə **vicdanlı sahib** adlanır. Məsələn, özünü mülkiyyətçi qələmə verən, amma oğru olan şəxsdən hər hansı vətəndaş əşya alır. Vətəndaş əşyanın oğurluq mal olduğunu bilmir və buna görə də onun sahibliyi vicdanlı sahiblik sayılır. Vətəndaş özü isə vicdanlı sahib hesab edilir. Başqa bir misalda şəxs düşünür ki, bağ evinin sahibi yoxdur və o yiyəsizdir. Bunu nəzərə alaraq həmin şəxs bağ evində yaşayır.

Qanunsuz olub-olmamasına görə sahibliyin iki növü vardır:

- qanunsuz sahiblik;
- qanuni sahiblik.

Hüquqi əsası (titulu) olmayan sahibliyə **qanunsuz sahiblik** deyilir. Ona **titulsuz sahiblik** də deyilir. Həm vicdanlı sahiblik, həm də vicdansız sahiblik qanunsuz (titulsuz) sahibliyə misal ola bilər.

Qanuni sahiblik odur ki, onun hüquqi əsası (titulu) vardır. Buna görə də bu növ sahibliyə **titul sahibliyi** də deyilir. Məsələn, mülkiyyətçinin həyata keçirdiyi sahiblik qanuni sahibliyə misal ola bilər. Hər hansı hüquqi əsasa (kirayə, icarə, girov, uzufrukt və s.) görə əşyaya sahiblik edən qeyri-mülkiyyətçilərin (mülkiyyətçi olmayan şəxslərin) həyata keçirdikləri sahiblik də qanuni sahiblikdir.

Özgəsinin və ya özünün əşyasına sahibliyin həyata keçirilməsinə görə sahibliyini iki növü fərqləndirilir:

- öz əşyasına sahiblik;
- özgə əşyasına sahiblik.

Mülkiyyət hüququ əsasında şəxsin (mülkiyyətçinin) həyata keçirdiyi sahiblik **öz əşyasına sahiblik** adlanır. Qeyri-mülkiyyətçilərin həyata keçirdikləri sahibliyə isə **özgə əşyasına sahiblik** deyilir. Məsələn, girov saxlayanın, kirayəçinin, icarəçinin və s. sahibliyi bu növ sahibliyə misaldır.

Almaniya MQ-də qismən sahiblik növü nəzərdə tutulur (§865). **Qismən sahiblik** dedikdə, şəxsin yalnız əşyanın bir hissəsinə olan sahibliyi başa düşülür. Məsələn, kirayəçi evin otaqlarından birində yaşayır[1].

---

[1] Sahibliyin növləri barədə bax: Гражданское и торговое право зарубежных государств. Учебник, Том 1 / Отв. ред. *Е.А. Васильев, А.С.Комаров.* М., 2004, с. 411. Lakin burada dəqiq olmayan belə bir fikir söylənilir ki, uzufruktuarın, girov saxlayanın, icarəçinin və s. sahibliyi vasitəli sahibdir. Həmin şəxslərin sahibliyi vasitəsiz (bilavasitə) sahiblikdir. Bu barədə bax: Гражданское и торговое право зарубежных стран. Учебное пособие / Отв. ред. *Б.В. Безбах, В.К. Пучинский.* М., 2004, с. 232.

ABŞ mülki hüququnda fərqləndirilir[1].

- faktiki sahiblik;
- hüquqi sahiblik.

Əgər şəxs özünə məxsus olan saatını qoluna bağlayarsa, bu zaman o, həmin saata həm faktiki sahibliyi, həm də hüquqi sahibliyi həyata keçirir. Əgər şəxs məzuniyyətə gedərkən qol saatını evdə saxlayarsa, onda o, həmin saata faktiki sahibliyi həyata keçirmir; lakin bu zaman o, saata hüquqi sahibliyini itirmir.

4. Sahibliyin funksiyaları

Mülki qanunvericilik belə bir prezumpsiya müəyyən edir ki, əksi sübut olunana kimi, daşınar əşyanın sahibi onun mülkiyyətçisi hesab olunur (MM-in 166-cı maddəsi). Əgər müəyyən edilsə ki, daşınar əşyanın sahibi onun mülkiyyətçisi deyildir, onda həmin sahibin əşyanı aldığı şəxs mülkiyyətçi hesab edilir, bir şərtlə ki, o, vicdansız sahib olmasın. Buna görə də sahiblik mülki dövriyyədə daşınar əşyaya mülkiyyət hüququnun **qanuni tituludur**, yəni qanuni əsasıdır. Bu, onu ifadə edir ki, mülki dövriyyənin möhkəm olması üçün istənilən daşınar əşyanın sahibi onun mülkiyyətçisi sayılır.

Bundan əlavə, mülki qanunvericilik həm də belə bir prezumpsiya müəyyənləşdirir ki, əksi sübut olana kimi, daşınar əşyanın sahibi, məhdud əşya hüququnun və ya şəxsi hüququn subyektidir, yəni əmlak hüququna — məhdud əşya hüququna və ya şəxsi (öhdəlik) hüquqa malikdir.

Əgər şəxsin torpağa sahiblik hüququ daşınmaz əmlakın dövlət reyestrindən bəlli olarsa, onda əksi sübut olunana kimi, bu şəxs torpaq sahəsinin mülkiyyətçisi və sahibidir.

Dediklərimizdən məlum olur ki, **sahiblik mülkiyyət hüququ (və ya əmlak hüququna malik olma) prezumpsiyası funksiyasını yerinə yetirir**. Bu funksiyaya görə, daşınar əşyaya sahiblik edilməsinə əsasən, güman edilir ki, şəxs həmin əşyanın mülkiyyətçisidir və ya əmlak hüququna (məhdud əşya hüququna və ya şəxsi hüquqa) malikdir. Başqa sözlə desək, sahiblik mülkiyyət hüququ haqqında sosial əhəmiyyətli siqnaldır[2]. Məsələn, şəxs minik avtomobilinə sahiblik edir. Şəxsin sahibliyinə əsasən, ehtimal olunur ki, o, həmin avtomobilin mülkiyyətçisidir. Başqa bir misalda çoban kənd sakinindən uzufrukta götürdüyü qoyunlara sahiblik edir. Çobanın sahibliyindən güman (prezumpsiya) edilir ki, o, uzufrukt hüququna (məhdud əşya hüququna) malikdir. Digər misalda tələbə kirayəyə götürdüyü televizora və soyuducuya sahiblik edir. Tələbənin sahibliyindən güman edilir ki, o, televizordan və soyuducudan istifadə hüququna (şəxsi hüquqa və ya öhdəlik hüququna) malikdir.

Sahibliyin **ikinci funksiyası** ondan ibarətdir ki, o, **mülkiyyət hüququnun əldə edilməsi üçün ilkin şərt (zəmin) rolunu oynayır**. Söhbət tradisiya üsulu ilə daşınar əşyaya mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsulundan gedir. Bildiyimiz kimi, bu üsul iki hissədən ibarətdir: tərəflərin mülkiyyət hüququnun verilməsi barədə sazişindən; daşınar əşyaya sahibliyin verilməsindən. Göründüyü kimi, sahiblik daşınar əşyalara mülkiyyət hüququnun əldə edilməsi üçün ilkin şərt (zəmin) funksiyasını yerinə yetirir.

Sahibliyin **üçüncü funksiyası** ondan ibarətdir ki, **«kitab müddəti» üsulu ilə daşınmaz əmlaka mülkiyyət hüququ** məhz sahiblik əsasında əmələ gəlir. Belə ki, torpaq sahəsinə və daşınmaz əmlaka etirazsız və fasiləsiz sahiblik edən şəxslər bu əmlaka mülkiyyət hüququ əldə edir (MM-in 178-ci maddəsinin 5-ci və 6-cı bəndləri).

Sahibliyin **dördüncü funksiyasına görə, onun əsasında əldə etmə müddəti üsulu ilə daşınar əşyaya mülkiyyət hüququ** əmələ gəlir. Belə ki, əgər şəxs beş il fasiləsiz daşınar əşyaya öz mülkiyyəti kimi sahiblik etmişdirsə, o, həmin əşyaya mülkiyyət hüququ əldə edir (MM-in 181-ci maddəsinin 4-cü bəndi).

Sahiblik həm də sahibsiz daşınar əşyaya mülkiyyət hüququnun əldə edilməsinə səbəb olur[1]. Belə ki, şəxs həmin əşyanı sahibliyə qəbul etdikdə ona mülkiyyət hüququ əldə edir (MM-in 184-cü maddəsinin 1-ci bəndi). Sahibliyin əhəmiyyəti mülkiyyət hüququ əldə edilməsinə səbəb olmaqdan başqa, həm də əşyaya faktiki yiyəliyi təmin etməkdə ifadə olunur[2].

5. Sahibliyin yaranması (əldə edilməsi), verilməsi, kəsilməsi və xitam olunması

Sahiblik iki üsulla əldə edilir: ilkin üsulla; törəmə üsulla. **İlkin üsul** odur ki, bu üsula görə, sahiblik, ümumiyyətlə, onu əldə edən şəxs tərəfindən birinci dəfə olaraq həyata keçirilir. Belə halda onun sahibliyi əvvəlki şəxsin sahibliyindən irəli gəlmir, yenidən yaranır. Söhbət sahibliyin əvvəlki sahibin iradəsindən və hüququndan, hər hansı sazişdən asılı olmadan əldə edilməsindən gedir. Məsələn, şəxs özünə yaşayış evi tikir və bununla onun həmin evə sahibliyi yaranır. Bir qayda olaraq, bu üsulla sahiblik əldə edən şəxsin birtərəfli faktik hərəkətlərilə əmələ gəlir. Buna görə də Almaniya hüquq doktrinasında həmin üsul **birtərəfli üsul** da adlanır.

İlkin üsulla bilavasitə (müstəqil) sahiblik əldə ediləndə iradənin (subyektiv, daxili elementin) olması tələb edilmir. Bu sahiblik yalnız fiziki hərəkətlə əldə edilir. Elə bir hərəkətlə ki, o, əşya üzərində müəyyən edilə bilən sahiblik yaradır[3]. Belə ki, Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə, sahiblik yalnız xarici (obyektiv), yəni maddi elementdən — əşya üzərində real-faktiki (fiziki) yiyəlikdən ibarətdir. Bu elementin yaranması ilə sahiblik də əmələ gəlir. Başqa sözlə desək, şəxsin əşyaya faktik (fiziki) sahiblik əldə etməsi ilə sahiblik yaranır (MM-in 159-cu maddəsi). Bu, Almaniya Mülki Qanunnaməsinin 854-cü paraqrafının 1-ci bəndinə uyğundur. Analoji göstəriş Yaponiya mülki qanunvericiliyində də ifadə edilmişdir: əşyanı ələ keçirmə və ona yiyələnmə anından sahiblik də əmələ gəlir (MM-in 180-ci maddəsi). Yaponiya sivilistika doktrinasında göstərilir ki, məhz bu andan ilkin üsulla sahiblik əldə edilir[4]. Məsələn, tapıntını və ya sahibsiz əşyanı aşkar etmək ilkin üsulla bilavasitə sahibliyin əldə olunmasına misal ola bilər.

Törəmə üsul odur ki, bu üsulla sahiblik artıq onu həyata keçirmiş şəxsdən

---

[1] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 164.

[2] *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 120, 156.

[1] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 130.

[2] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 466.

[3] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 412.

[4] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. М., Книга 1. 1983, с. 172.

sahiblik predmetinin verilməsi yolu ilə başqa şəxsə verilir və bununla əşyaya sahiblik əldə olunur. Bu üsula Roma hüququnun dili ilə sahibliyin verilməsi — **tradisiya (traditio)** deyilir[1]. Tradisiyanın mahiyyəti ondan ibarətdir ki, əşyanın — sahibliyin predmetinin özünün verilməsi ilə sahiblik də verilir (MM-in 163-cü maddəsinin 1-ci bəndi). Bunun üçün iki şərtin olması vacibdir: birincisi, sahiblik əşya sahibinin iradəsi ilə verilsin; ikincisi, əldə edən şəxs əşyaya faktiki sahibliyi həyata keçirməyə qadir olsun. Dediklərimizdən belə məlum olur ki, törəmə üsulla sahibliyi əldə etmək üçün lazımdır: birincisi, əşyanın sahibi ilə əşyanı əldə edən arasında əşyanın verilməsi və əşyanın götürülməsi barədə razılıq; ikincisi, əşyanın özünün verilməsi. Almaniya mülki hüquq doktrinasında həmin saziş əqd yox, hüquqi davranış hesab edilir[2]. Bu, onu ifadə edir ki, ilkin üsuldan fərqli olaraq, törəmə üsulla sahiblik əldə ediləndə tərəflərin iradələri zəruridir. Bunun nəticəsində bir tərəfdən sahiblik müəyyən şəxsdən digərinə verilir, ikinci tərəfdən isə həmin şəxs sahiblik əldə edir. Özü də göstərilən üsulla, bir qayda olaraq, törəmə (qeyri-müstəqil, vasitəli) sahiblik əldə olunur.

Əşyaya sahiblik **qeyri-tradisiya üsulu** ilə də əldə edilə bilər. Bu halda əşyaya sahiblik əşya verilmədən (Roma hüququnun dili ilə «constitutum possessorium») əldə edilir (MM-in 163-cü maddəsinin 2-ci bəndi). Göstərilən üsulla əşyaya sahiblik yalnız o halda əldə olunur ki, üçüncü şəxs və ya özgəninkiləşdirən şəxs özü xüsusi hüquq münasibətləri (kirayə, icarə və s. hüquq münasibəti) əsasında əşyaya sahibliyi davam etdirsin. Belə ki, sahib (özgəninkiləşdirən şəxs) sahibliyi verir, amma başqa hüquqi əsasa görə, yəni xüsusi hüquq münasibətinə görə əşyanı özündə saxlayır. Məsələn, mülkiyyətçi (sahib) əşyanı satır, amma əşya kirayə hüquq münasibətinə görə satıcının istifadəsində qalır (ikiqat tradisiya). Bu halda əşyanın faktik verilməsi (tradisiya) baş vermir. Başqa bir misalda səxlanc müqaviləsi əsasında mülkiyyətçi (sahib) əşyanı saxlanca verir. Saxlama müddəti başa çatanda mülkiyyətçi onu əşyanı saxlayan şəxsə satır. Bu halda da əşyanın faktik verilməsindən söhbət gedə bilməz.

Sahiblik «**qısa yolla**» da verilə bilər. Bu üsula görə, əşyanın qanunsuz sahibi ilə əşyanın sahibi (qanuni sahib) sahibliyin verilməsi barədə razılığa gəlirlər. Məlum məsələdir ki, belə halda əşyanın verilməsi tələb olunmur. Məsələn, əşyanı şəxs oğurlayır. Əşyanın sahibi (mülkiyyətçi) müəyyənləşdirir ki, əşya həmin şəxsin sahibliyindədir. Onlar əşyanın bu şəxsin sahibliyində qalması barədə razılığa gəlirlər. Bu, «qısa yolla» sahibliyin verilməsidir[3].

Əşyaya sahiblik **sənədlərin verilməsi yolu ilə də verilə** bilər. Belə ki, order sənədinin verilməsi fraxtverənə (kirayəyə verənə, daşıyıcıya) və ya anbara verilmiş mallara sahibliyin verilməsini ifadə edir (MM-in 164-cü maddəsinin 3-cü bəndi). Bu sənəd kimə verilmişsə, mallara sahibliyi də o əldə edir. Belə halda sahibliyin əldə olunması üçün həmin şəxsin malları anbardan və ya fraxtverəndən alması tələb olunmur və bu, lazım deyil. Çünki order sənədinin verilməsi bunun üçün kifayətdir.

Əşyaya sahiblik **rəmzi mənada verilmə — rəmzi tradisiya (traditio symbolica)** ilə də əldə oluna bilər. Məsələn, satıcı mal anbarının açarını alıcıya verir. Bununla alıcının anbardakı mallara sahibliyi yaranır. Sahibliyi vermək üçün sadəcə anbarın açarını vermək kifayətdir. Digər misalda minik avtomobilinin açarlarının verilməsi, həmin avtomobilə sahibliyin verilməsinə əsas olan rəmzi tradisiyadır.

Bəzi hallarda sahiblik müvəqqəti kəsilir. **Sahibliyin müvəqqəti kəsilməsi** dedikdə, bu və ya digər hala görə şəxsin əşyaya faktik sahib olmağa müvəqqəti iqtidarsızlığı və ya imkansızlığı başa düşülür. Bu hallar ötüb keçdikdən sonra həmin şəxsin əşyaya faktiki sahibliyi bərpa olunur. Əşyanın sahibinin xəstələnməsini, uzun müddətli ezamiyyətə və məzuniyyətə getməsini, xarici ölkədə işləməsini və s. belə hala misal göstərmək olar.

Sahibliyin müvəqqəti kəsilməsi sahibliyin ləğv edilməsinə (xitam olunmasına) səbəb olmur. Belə ki, müvəqqəti hal aradan qalxdıqda, şəxsin əşyaya faktiki sahibliyi davam edir.

Sahiblik müxtəlif əsaslara görə xitam (ləğv) edilir. O, təkcə xarici (obyektiv) — maddi elementdən ibarətdir. Bu elementin itirilməsi sahibliyin xitam olunmasına səbəb olur. Belə ki, **əşya şəxsin sahibliyindən çıxan kimi sahiblik də ləğv olunur,** yəni şəxs əşyaya fiziki (faktiki) nəzarəti itirən kimi fakt mənasında sahibliyə xitam verilir.

Bundan əlavə, əşyanın məhvi, onun mülki dövriyyədən çıxarılması və ya əşyanın özgəninkiləşdirilməsi kimi hallar da sahibliyin ləğv edilməsinə səbəb olur.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Покровский И.А. Основные проблемы гражданского права. М., 1998 (разд. XIII).

Покровский И.А. Основные вопросы владения в новом Германском Уложении. М., 1899.

Скловский К.И. Собственность в гражданском праве. М., 1999 (гл. 17 «О понятии владения»).

Шапп Ян. Основы гражданского права Германии. М., 1996.

А.Жалинский, А.Рёрихт. Введение в немецкое право. М., 2001.

Маттеи У., Суханов Е.А. Основные положения права собственности. М., 1999.

Эннекцерус Л. Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949.

Wieling H.J. Sachenrecht. Berlin. 1997.

Klünzinger E. Einführung in das bürgerliche Recht. München. 1993.

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983.

[1] *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 375.

[2] *Wieling H.J.* Sachenrecht. Berlin. 1997, s. 47.

[3] Roma hüququnda bu, «sahibliyin qısa əllə verilməsi» (traditio brevi manu) adlandılırdı (*Дождев Д.В.*Римское частное право. Учебник. М., 1999, с. 376). Bu hüquq sahibliyin «uzun əllə verilməsi» (traditio longa manu) kimi üsul da tanıyırdı. Bu üsula görə, şəxs əşyaya sahibliyi itirirdi və əldə edənə onu ələ keçirməsinə izah etməklə icazə verirdi.

XXV FƏSİL
MÜLKİYYƏT HÜQUQUNUN VƏ BAŞQA ƏŞYA HÜQUQLARININ MÜDAFİƏSİ. SAHİBLİYİN MÜDAFİƏSİ

§ 1. Əşya hüquqlarının mülki-hüquqi üsullarla müdafiə edilməsinin anlayışı və sistemi

1. Əşya hüquqlarının müdafiəsinin anlayışı

Mülki hüquqlar, xüsusən də bu hüquqların bir növü olan əşya hüquqları (o cümlədən mülkiyyət hüquqları) qanunla mühafizə edilir (qorunur). Dövlətin və hüququn ən vacib və mühüm vəzifələrindən biri mülkiyyət münasibətlərini mühafizə etməkdən ibarətdir. Ona görə ki, hər bir cəmiyyətin iqtisadi bazisinin əsasını həmin cəmiyyətdə hakim olan mülkiyyət münasibətləri təşkil edir.

Normal və sivil iqtisadi dövriyyə mülkiyyət münasibətlərinin hüquqla hərtərəfli, geniş və etibarlı qaydada mühafizə edilməsini tələb edir və nəzərdə tutur. Bu münasibətlər hüququn bütün sahələri tərəfindən mühafizə edilir. Xüsusilə mülkiyyət münasibətlərinin hüquqi cəhətdən qorunmasında konstitusiya (dövlət), inzibati, maliyyə, əmək və cinayət hüququ kimi hüquq sahələrinin rolu və əhəmiyyəti böyükdür. Şübhəsiz ki, bu sahədə aparıcı rol **konstitusiya hüququna** məxsusdur. Konstitusiyanın 29-cu maddəsi mülkiyyət hüququna həsr edilmişdir. Bu normada mülkiyyət hüququnun qanunla qorunması (mühafizə edilməsi) haqqında vacib və mühüm müddəa ifadə edilmişdir. Həmin müddəanın mülkiyyət münasibətlərinin hüquqi tənzimlənməsində prinsipial əhəmiyyəti vardır. Hüququn sahələrindən biri olan **cinayət hüququ** mülkiyyət münasibətlərini cinayət əməllərindən (qəsdlərdən) qoruyur və mühafizə edir. CM-in 23-cü fəsli özündə mülkiyyət münasibətlərinə qəsd edən əməllərə görə cinayət məsuliyyəti müəyyənləşdirən normaları (177-189-cu maddələr) birləşdirir[1]. **İnzibati hüququn** əsas mənbəyi olan İnzibati Xətalar Məcəlləsinin daşıdığı vəzifələrdən biri mülkiyyəti qorumaqdan ibarətdir. Həmin Məcəllənin 8-ci fəsli (69-75-ci maddələr) mülkiyyətə qəsd edən inzibati xətaların dairəsini müəyyən edir və bu xətalara görə inzibati məsuliyyət nəzərdə tutur. Mülkiyyət münasibətlərinin qorunmasında əmək hüququ da müəyyən rol oynayır. **Əmək hüququ** müəyyən edir ki, əmək vəzifələrini yerinə yetirərkən özünün hüquqazidd hərəkəti ilə müəssisə, idarə və təşkilatın əmlakına (mülkiyyətinə) zərər vuran işçi maddi məsuliyyətə cəlb edilir[2]. Mülkiyyət münasibətlərinin mühafizə edilməsində **maliyyə hüququ** da iştirak edir. Maliyyə hüquq normaları dövlətin maliyyə fəaliyyəti sahəsində əmələ gələn münasibətləri tənzimləyir[3]. Belə ki, pul vəsaitlərinin yığılması, bölünməsi və ondan istifadə olunması sahəsində

[1] bax: Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası / *F.Y.Səməndərovun* red. ilə. Bakı. 2008; *R.Quliyev, M.İmanov.* Cinayət hüququ. Xüsusi hissə. Dərslik. Bakı. 2001.

[2] bax: *İ.İsmayılov, M.Rəsulov, A.Qasımov.* Əmək hüququ. Dərslik. Bakı. 1996 (fəsil 14).

[3] Финансовое право. Учебник / Под ред. *О.Н.Горбунова.* М., 1996 (гл. 2).

dövlətin fəaliyyəti bu normalarla tənzimlənir; bu normalar dövlət büdcə vəsaiti ilə bağlı münasibətləri də tənzimləyir ki, həmin vəsait Azərbaycan dövlətinin mülkiyyətidir (MM-in 153-cü maddəsinin 3-cü bəndi); maliyyə hüquq normaları həm də vergi məsələlərini tənzimləyir ki, vergi dövlət mülkiyyət hüququnun əmələ gəlmə əsaslarından biridir.

Maliyyə hüququ vergini ödəməməyə görə müxtəlif sanksiyalar nəzərdə tutur. Hüququn sahələrindən biri olan **ekologiya hüququ** təbii ehtiyatların və ətraf mühitin mühafizəsi sahəsində qaydalar və normalar müəyyən edir. Belə təsəvvür yaranır ki, **mülkiyyət münasibətlərinin hüquqla mühafizə edilməsi (qorunması) kompleks (qarışıq) və ya mürəkkəb xarakterli anlayışdır**.

Göstərilən münasibətlərin qorunmasında hüququn ən iri və fundamental sahələrindən biri olan **mülki hüququn**, şübhəsiz ki, özünəməxsus yeri vardır. **Mülki hüququn yarımsahəsi hesab edilən əşya hüququnun** əsas məqsəd və vəzifələrindən biri subyektlərin mülkiyyət hüquqlarını qorumaqdan ibarətdir. Mülkiyyət münasibətlərinin mülki hüququn müəyyən etdiyi qaydalar və normalar əsasında mühafizə edilməsi **«mülkiyyət hüququnun mülki-hüquqi qorunması» anlayışı** ilə əhatə edilir[1]. Bu anlayış iki mənada işlədilir: geniş mənada; məhdud mənada[2].

Geniş mənada mülkiyyət hüququnun mülki-hüquqi qorunması dedikdə, mülki hüquqda nəzərdə tutulan və cəmiyyətdəki iqtisadi münasibətlərin normal və maneəsiz inkişafını təmin edən bütün üsul və vasitələrin məcmusu başa düşülür[3]. Bu üsul və vasitələr mülki hüquq normalarında nəzərdə tutulmuşdur ki, həmin normaların vasitəsilə mülkiyyət hüququnun qorunması həyata keçirilir. **Birinci qrup normalar** mülkiyyət hüququnun əmələ gəlmə əsaslarını, **ikinci qrup normalar** mülkiyyət hüququna xitam verilməsi üsullarını, **üçüncü qrup normalar** mülkiyyətçinin malik olduğu səlahiyyətin həcmini, **dördüncü qrup normalar** mülkiyyət hüququnun həyata keçirilməsinin hədlərini və bu hüquqların məhdudlaşdırılmasını, **beşinci qrup normalar** mülkiyyət hüququnun obyektlərinin ayrı-ayrı növlərinin hüquqi rejimini, **altıncı qrup normalar** əşya hüququnu pozan subyektlər üçün mənfi (arzuolunmayan) nəticələri müəyyən edir. Bu normaların çoxu normal, pozulmamış mülkiyyət hüquq münasibətlərini qoruyur. Qeyri-normal mülkiyyət hüquq münasibətlərinin qorunması bu normaların hüquqi mühafizə sferası üçün səciyyəvi deyildir.

Məhdud mənada mülkiyyət hüququnun mülki-hüquqi qorunması dedikdə, mülki hüququn müəyyən etdiyi elə üsul və vasitələr başa düşülür ki, bu üsul və vasitələr yalnız mülkiyyət hüquqları pozulduğu hallarda tətbiq olunur və pozulmuş hüquqların bərpa edilməsini təmin edir. Bu üsul və vasitələr də

[1] «Mülkiyyət hüququnun mülki-hüquqi mühafizə edilməsi» anlayışı ilə «mülkiyyət hüququnun mülki-hüquqi qorunması» anlayışı eyni mənalı və sinonim anlayışlar olub, mahiyyət və məzmunca üst-üstə düşürlər.

[2] RF-də yazılan dərsliklərin çoxunda mülkiyyət hüququnun mülki-hüquqi qorunması anlayışının bu cür iki mənada işlədilməsi dəbdədir (Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 334; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 302; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 611).

[3] bax: *А.В.Венедиктов.* Гражданско-правовая охрана социалистической собственности в СССР. М., 1954, с. 58-78.

mülki hüquq normalarında ifadə edilmişdir. Bu normaların təsir (hüquqi mühafizə) sferasına normal və pozulmamış mülkiyyət hüquq münasibətləri yox, qeyri-normal və pozulmuş mülkiyyət hüquq münasibətləri daxildir. Göstərilən normaların vasitəsilə artıq pozulmuş mülkiyyət hüquq münasibətləri müdafiə edilir. Söylədiklərimizdən belə qənaətə gələ bilərik ki, **məhdud mənada mülkiyyət hüququnun mülki-hüquqi qorunması «mülkiyyət hüququnun mülki-hüquqi müdafiəsi» anlayışı ilə əhatə edilir**. Bu anlayış yalnız mülkiyyət hüquqları pozulduqda tətbiq edilir[1]. Onun təyinatı pozulmuş hüquqların bərpa edilməsini təmin etməkdən ibarətdir. Buna görə də mülkiyyət hüququnun mülki-hüquqi müdafiəsi dedikdə, mülkiyyət münasibətlərini pozan şəxsə mülkiyyətçinin mənafeyini bərpa etmək məqsədilə qanunda nəzərdə tutulan vasitələrin tətbiqi başa düşülür. Nə vaxt mülkiyyət hüquq münasibətləri pozulursa, o halda da mülki-hüquqi müdafiə üsulları (vasitələri) tətbiq edilir. Göstərilən üsullardan məhdud əşya hüquqları pozulduqda da istifadə olunur. Mülkiyyət və ya məhdud əşya hüquq münasibətləri pozulmadığı hallarda isə bu üsulların təsir göstərməsindən və tətbiq edilməsindən söhbət gedə bilməz.

Beləliklə, **mülkiyyət hüququnun (və digər əşya hüququnun) mülki-hüquqi müdafiə üsulları dedikdə, mülki hüquq normalarında ifadə olunan elə vasitələr başa düşülür ki, bu vasitələrin tətbiqi nəticəsində subyektin (mülkiyyətçinin) pozulmuş mülkiyyət hüququ bərpa edilir**. Məsələn, mülkiyyətçi əşyasını icarə müqaviləsi əsasında icarəyə verir. Əşya onların iradəsindən asılı olmayaraq (məsələn, oğurlanır və ya itir) həm mülkiyyətçinin, həm də icarəçinin sahibliyindən çıxır. Belə halda mülkiyyətçinin və ya titul sahibin (icarəçinin) ixtiyarı vardır ki, əşyanı əldə edəndən tələb etsin. Bu münasibətlərə isə mülkiyyət hüququnun (və digər əşya hüququnun) mülki-hüquqi müdafiə üsulları tətbiq edilir.

Mülkiyyət hüququnun mülki-hüquqi müdafiəsi iki əsas funksiya yerinə yetirir:

- qoruyucu funksiya;
- bərpaedici funksiya.

Qoruyucu funksiyanın mahiyyəti normal və pozulmamış vəziyyətdə mülkiyyət münasibətlərini mühafizə etməkdən ibarətdir; bu funksiyanın köməyi ilə mülki dövriyyədə əmlakın normal təsərrüfat istismarı, habelə mülkiyyətə maneəsiz olaraq sərəncam verilməsi və ondan istifadə olunması təmin edilir.

Bərpaedici funksiyanın mahiyyəti isə pozulmuş mülkiyyət münasibətlərini bərpa etməkdən ibarətdir; bu funksiyanın köməyi ilə mülkiyyətə edilən müxtəlif qəsdlərin zərərli əmlak nəticələri aradan qaldırılır, başqasının qanunsuz sahibliyində olan əmlak mülkiyyətçinin özünə qaytarılır, üçüncü şəxslərin hüquqazidd hərəkətləri ilə vurulmuş zərərin əvəzi ödənilir.

[1] «Mühafizə etmək və ya qorumaq» və «müdafiə etmək» kimi anlayışlar məzmunca üst-üstə düşmür. Mühafizə etmək (qorumaq) dedikdə, mülki hüquq münasibəti iştirakçılarının hüquq və mənafelərinin pozulmasına yol verilməməsini nəzərdə tutan tədbirlər sistemi başa düşülür. Müdafiə etmək isə hüquq və mənafelər pozulduğu halda, onların bərpa edilməsi üçün tətbiq edilən tədbirlər sistemidir. Ona görə də O.S.İoffe «hüquqların qorunması» və «hüquqların müdafiə edilməsi» kimi iki anlayışı bir-birindən fərqləndirirdi (*О.С.Иоффе*. Советское гражданское право. 1967, с. 472-473).

2. Mülki və əşya hüquqlarının mülki-hüquqi müdafiə üsullarının sistemi

Mülki hüquqların hüquqi müdafiə üsullarının sistemi və bu sistemə daxil olan ayrı-ayrı qrup üsulların dairəsini nəzərdən keçirmədən, mülkiyyət hüququnun və digər əşya hüquqlarının mülki-hüquqi müdafiə üsullarının məzmununa aydınlıq gətirmək olmaz. Özü də bütün bu üsulların təyinatı və məqsədi eyni və vahid olub, hüquq pozuntusu törədən subyektə təsir göstərməklə pozulmuş hüquqları bərpa etməkdən ibarətdir. Göstərilən həmin üsullar hüquq ədəbiyyatında, əsasən, dörd qrupa bölünür[1]:

- əşya-hüquqi müdafiə üsulu;
- öhdəlik-hüquqi müdafiə üsulu;
- nə əşya-hüquqi, nə də öhdəlik-hüquqi müdafiə üsullarına aid edilən mülki-hüquqi müdafiə üsulu;
- xüsusi xarakterli mülki-hüquqi müdafiə üsulu.

Birinci qrup vasitələr **əşya-hüquqi müdafiə üsulu** adlanır. Bu üsulla mütləq hüquq münasibətləri müdafiə olunur. Yalnız mütləq xarakterli hüquq münasibətlərinin müdafiə edilməsi göstərilən üsulun əsas xüsusiyyətini təşkil edir. Mütləq hüquq münasibətlərində iştirak edən səlahiyyətli şəxsin (məsələn, mülkiyyətçinin) hüquqları hər hansı üçüncü şəxsin («hamının və hər kəsin») törətdiyi pozuntudan qorunur. Bu münasibətlərdə səlahiyyətli şəxslə üçüncü şəxs arasında konkret hər hansı bir öhdəlik (öhdəlik hüquq münasibəti) yaranmır. Belə ki, mütləq hüquq münasibətlərində səlahiyyətli şəxsə qarşı qeyri-müəyyən dairəli borclu şəxslər durur ki, həmin şəxslər üçüncü şəxslər («hamı və hər kəs») adlanır. Üçüncü şəxslərdən hər hansı birinin hüquqazidd əməli nəticəsində səlahiyyətli şəxsin (mülkiyyətçinin) mülkiyyət hüququ bilavasitə pozula bilər. Məsələn, şəxs mülkiyyətçinin əşyasını oğurlaya və ya başqa yolla qanunsuz əldə edə bilər. Bu pozuntu isə mülkiyyətçinin öz səlahiyyətlərini həyata keçirməsini istisna edir və ya məhdudlaşdırır. Mülkiyyət hüququnun həyata keçirilməsini istisna edən və ya məhdudlaşdıran maneələri aradan qaldırmaq üçün müdafiə vasitələrinə zərurət yaranır. Bu halda istifadə olunan vasitə əşya-hüquqi müdafiə üsulu adlanır.

Söylədiklərimizdən belə nəticəyə gəlmək mümkün olur ki, mülkiyyətçinin mülkiyyət hüququ əşya-hüquqi müdafiə üsulu ilə hər hansı üçüncü şəxsin (konkret şəxsin yox) törətdiyi pozuntudan müdafiə edilir. Bu **müdafiə üsulu-**

[1] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 465-466; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 611-615. Müəlliflərdən A.A.Servetnik və N.M.Frolova bu üsulları üç qrupa bölür (Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 336; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 336). Bəzi müəlliflər isə göstərilən üsulları iki qrupa bölürlər (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др*. М., 1998, с. 302; Гражданское право. Учебник / Под ред. *П.Гришаева*. М., 1999, с. 123). Akademik A.V.Venediktov, professor M.Y.Kirillova mülkiyyət hüququnun müdafiəsi üçün tətbiq olunan mülki-hüquqi iddiaları iki yerə bölür: əşya-hüquqi iddia; öhdəlik-hüquqi iddia (*А.В.Венедиктов*. Гражданско-правовая охрана социалистической собственности в СССР. М., 1954, с. 79; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 396). Zənnimizcə, bu, məsələyə qeyri-əhatəli, birtərəfli yanaşmadır.

nun əsas məqsədi ya mülkiyyətçiyə ona məxsus olan əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək hüquqlarını bərpa etməkdən, ya da bu hüquqların həyata keçirilməsinə mane olan halları aradan qaldırmaqdan ibarətdir. Əşya-hüquqi üsulun əsas istiqaməti və yönümü mütləq subyektiv hüquq olan mülkiyyət hüququnu bilavasitə müdafiə etməklə şərtlənir.

Əşya-hüquqi müdafiə **iddia vasitəsilə həyata keçirilir** və gerçəkləşdirilir. Bu, mütləq iddia adlanır. **Mütləq iddia** elə bir tələb hüququdur ki, o, əşya hüququnu pozan hər hansı bir şəxsə («hamıya və hər kəsə») qarşı irəli sürülür. Mütləq, yəni əşya-hüquqi iddialara daxildir:

- özgəsinin qanunsuz sahibliyindən öz əmlakını geri tələb etmək barədə iddia (**vindikasiya iddiası** — latınca «vindicare» «hüquq üzrə tələb etmək» deməkdir);
- sahiblikdən məhrum edilməklə əlaqədar olmayan pozuntuların aradan qaldırılması barədə iddia (**neqator iddia** — latınca «actio negatoria» «iddianı inkar edən» deməkdir);
- **mülkiyyət hüququnun tanınması barədə iddia**.

Göstərdiyimiz iddialar petitor iddia adlanır. **Petitor iddia** dedikdə, mülkiyyət hüququ barədə verilən iddia başa düşülür. Ona görə də ona həm də **mülkiyyət iddiası** deyilir. Petitor iddiasının əsas növü vindikasiya sayılır (bu iddalar barəsində kitabın növbəti paraqraflarında). Petitor iddiasını sahiblik iddiasından (posessor iddiasından) fərqləndirmək lazımdır (bu barədə kitabın bu fəslinin dördüncü paraqrafında).

Əşya-hüquqi müdafiə üsulunun əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, onun obyekti kimi yalnız fərdi əlamətləri ilə müəyyən edilən əşyalar (fərdi-müəyyən əşyalar) çıxış edə bilər. İstehlak olunan, cinsi (növ) əlamətləri ilə müəyyən edilən, hüquqi cəhətdən əvəz edilməsi mümkün olan və digər əşya növləri bu müdafiə üsulunun təsir sferasına daxil ola bilməz, yəni obyekti ola bilməz. Əşya-hüquqi üsulla yalnız naturada saxlanılan obyektə olan əşya hüququ müdafiə oluna bilər. Məsələn, hər hansı bir şəxs mülkiyyətçinin əşyasını oğurlayır. Əşya yanır və bununla onun mövcudluğuna son qoyulur. Mülkiyyətçi həmin əşyanın özünü tələb edə bilməz. Axı, həmin əşyanın özü yoxdur; əşyanın mövcudluğuna son qoyulanda isə mülkiyyət hüququna xitam verilir. Deməli, əşya-hüquqi müdafiə üsulu ilə əşyanın özünü tələb etmək olmaz. Belə halda mülkiyyətçiyə vurulan zərərin kompensasiya edilməsindən (zərərin əvəzinin ödənilməsindən) söhbət gedə bilər. Zərərin kompensasiya edilməsi isə öhdəlik-hüquqi üsulun müdafiə sferasına aiddir.

İkinci qrup vasitələr **öhdəlik-hüquqi müdafiə üsulu** adlanır. Bu qrup üsulla pozulmuş öhdəlik hüquq münasibətləri (öhdəliklər) müdafiə olunur. Deməli, öhdəlik hüquq üsulunun müdafiə etmə sferasına nisbi xarakterli mülki hüquq münasibətləri daxildir. Bu münasibətlərin subyekt tərkibi konkret olaraq müəyyəndir, yəni səlahiyyətli şəxsə (kreditora) qarşı müəyyən borclu şəxs durur. Məsələn, icarə hüquq münasibəti öhdəlik, yəni nisbi xarakterli hüquq münasibətinin bir növüdür. Bu münasibətdə səlahiyyətli şəxs olan icarəyə verənə (kreditora) qarşı konkret subyekt (borclu şəxs) olan icarəçi durur. Saxlanc münasibətlərində saxlanca verən şəxsə (kreditora) qarşı saxlayan (borclu şəxs), daşıma münasibətlərində yük göndərənə (kreditora) qarşı daşıyıcı (borclu

şəxs) durur. Özü də öhdəlik hüquq münasibətlərində səlahiyyətli şəxs (kreditor) rolunda, bir qayda olaraq, mülkiyyətçi çıxış edir. Məsələn, icarə münasibətlərində icarəyə verən icarəyə götürülən əşyanın, saxlama münasibətlərində saxlamaya verən şəxs saxlanca qoyulan əşyanın, daşıma münasibətlərində yük göndərən daşıma üçün verilən əşyanın (yükün) mülkiyyətçisidir. Həmin münasibətlərdə borclu şəxs rolunda çıxış edən subyektlər (icarəçi, daşıyıcı, saxlayıcı) kreditorun (yəni mülkiyyətçinin) əşyasını geri qaytarmır. Bununla mülkiyyətçinin mülkiyyət hüququ bilavasitə yox, dolayı yolla pozulur. Bu, onu göstərir ki, mülkiyyətçinin mülkiyyət hüququ öhdəlik (nisbi) hüquq münasibətləri hüdudlarında və çərçivəsində də pozula bilər. Özü də bu hüquq konkret olaraq məlum olan subyektlər (saxlayıcı, daşıyıcı, icarəçi və s.) tərəfindən pozulur. Lakin **mülkiyyətçinin əşya (mülkiyyət) hüquqları öhdəlik hüquq münasibətləri hüdudlarında pozulduğu halda, əşya-hüquqi müdafiə üsulu yox, öhdəlik-hüquqi müdafiə üsulu tətbiq edilir**. Özü də öhdəlik müdafiə müəyyən konkret şəxsə tətbiq olunur. Ona görə ki, öhdəlik (nisbi) hüquq münasibətləri çərçivəsində mülkiyyətçinin (kreditorun) hüququ yalnız həmin münasibətlərdə iştirak edən müəyyən konkret şəxs tərəfindən pozula bilər.

Öhdəlik hüquq münasibətlərinin müqavilə və müqavilədənkənar öhdəliklər adlı iki növü fərqləndirilir. **Mülkiyyətçinin əşya hüquqları həm müqavilə öhdəlikləri** (icarə, daşıma, saxlanc və digər müqavilələr), **həm də müqavilədənkənar öhdəliklər** (məsələn, mülkiyyətçinin avtomobilini zədələmək və s.) **çərçivəsində pozula bilər**. Bu hallarda pozulan hüququ hansı üsulla, yəni əşya hüquq iddiası, yoxsa, öhdəlik hüquq iddiası verməklə müdafiə etmək olar? Məsələn, icarə müqaviləsi əsasında icarəyə götürdüyü predmeti icarəçi müqavilədə nəzərdə tutulan müddət başa çatdıqda, mülkiyyətçiyə (icarəyə verənə) qaytarmır. İcarəçiyə hansı iddia veriləcəkdir? Belə vəziyyətdə ingilis-amerikan hüquq sistemi iddiaların rəqabəti adlı qaydadan istifadə olunmasını nəzərdə tutur. Bu qaydaya görə, hüququ pozulmuş şəxsə öz istəyinə uyğun olaraq iddia növünü seçmək imkanı verilir. Buna **iddiaların rəqabəti** deyilir (onun tarixi kökü Roma hüququ ilə bağlıdır). Roman-german (kontinental) mülki hüquq ailəsində, habelə **Azərbaycan Respublikasının mülki hüququnda iddiaların rəqabətinə yol verilməsi haqqında qayda nəzərdə tutulmur**. Buna uyğun olaraq, göstərilən halda öhdəlik (nisbi) hüquq münasibəti pozulduğuna görə əşya yox, öhdəlik hüquq iddiası verilir.

Öhdəlik-hüquqi müdafiə üsulunun obyekt tərkibi geniş və əhatəlidir. Buraya həm əşyalar (məsələn, icarə müqaviləsinin predmeti olan əşya və s.), həm də müxtəlif hüquqlar (məsələn, istifadə hüquqları, nağdsız pul və s.) daxildir. Belə təsəvvür yaranır ki, istənilən əmlak (şübhəsiz ki, dövriyyə qabiliyyətli) bu müdafiə üsulunun predmeti kimi çıxış edə bilər.

Qeyd etmək lazımdır ki, əgər mülkiyyətçinin mülkiyyət hüququ müqavilə öhdəliyi çərçivəsində pozularsa, onda hüququ pozan şəxsə **müqavilə iddiası** veriləcəkdir; bu, öhdəlik iddiasının növlərindən biridir. Mülkiyyətçinin hüquqları müqavilədənkənar öhdəlik çərçivəsində pozulduğu hallarda isə (məsələn, hər hansı bir şəxs mülkiyyətçinin əmlakını korlayır və xarab edir) əsasən iki cür öhdəlik iddiası verilir:

- delikt iddiası;

• kondikasiya iddiası.

Delikt iddiası o halda verilir ki, mülkiyyətçinin əmlakını hər hansı şəxs məhv etsin, zədələsin, korlasın, xarab etsin və s. **Kondikasiya iddiasından** isə o halda istifadə olunur ki, mülkiyyətçinin əmlakını hər hansı şəxs qanunsuz, hüquqi əsas olmadan əldə etsin; bu əmlakı geri, mülkiyyətçinin özünə qaytarmaq həmin iddianın məqsədini təşkil edir. Məsələn, alıcı satın aldığı əmlakın pulunu satıcıya səhvən iki dəfə ödəyir və s. Belə halda alıcı (mülkiyyətçi) satıcıya kondikasiya iddiası verir. Öhdəlik iddiaları dərsliyin öhdəlik hüququna həsr edilmiş ayrı-ayrı fəsillərində nəzərdən keçirilir.

Üçüncü qrup müdafiə vasitələri nə əşya, nə də öhdəlik-hüquqi müdafiə üsuluna şamil edilən üsullardır. Bu üsullar mülki hüququn müxtəlif institutları ilə əlaqədar yaranır. Göstərilən üsullara aiddir:

- xəbərsiz itkin düşmüş hesab edilən mülkiyyətçinin əmlak hüquqlarının müdafiəsi haqqında qayda (MM-in 40-cı maddəsi);
- ölmüş elan edilmiş mülkiyyətçinin əmlak hüquqlarının müdafiəsi haqqında qayda (MM-in 42-ci maddəsi);
- əqdlər etibarsız hesab edildikdə, tərəflərin (mülkiyyətçilərin) əmlak mənafelərinin müdafiəsi haqqında qayda (MM-in 337-351-ci maddələri);
- girov saxlayanın məsuliyyəti haqqında qayda (MM-in 285-ci maddəsi);
- vəsiyyətnamə icraçısının məsuliyyəti haqqında qayda (MM-in 1237-ci və 1242-ci maddələri);
- vərəsənin və ya başqa şəxsin saxlanmaq üçün onlara verilmiş əmlakı qorumaları barədə qayda (MM-in 1319-cu maddəsi) və s.

Dördüncü qrup müdafiə üsulları xüsusi xarakterə malikdir. Bu qrup üsullar ona görə xüsusi xarakter daşıyır ki, **həmin vasitələrdən dövlət orqanlarına və ya yerli özünüidarə orqanlarına münasibətdə istifadə olunur**. Bu orqanlar hakimiyyət səlahiyyətinə malik olub, hakimiyyət funksiyasını həyata keçirir, habelə qanunvericilik təşəbbüsündən istifadə etməklə mülkiyyət hüquq münasibətlərinin inkişafına təsir göstərirlər. Onlar öz funksiyalarını yerinə yetirərkən şəxslərin əşya hüquqlarını poza bilər. Həmin orqanların hərəkətləri (və ya hərəkətsizlikləri) həm qanunsuz, həm də hüquqauyğun ola bilər. Belə hallarda həmin orqanlar mülki dövriyyənin qeyri-bərabər iştirakçıları kimi çıxış edir. Beləliklə, qeyri-adi hal əmələ gəlir. Belə ki, göstərilən məqamda hakimiyyət səlahiyyətinə malik olan dövlət və ya yerli özünüidarə orqanları əmlak dövriyyəsinin qeyri-bərabər hüquqlu subyekti kimi iştirak edir. Bu halda əşya hüquq və ya öhdəlik hüquq iddiası kimi ənənəvi iddialar vermək olmaz. Buna görə də xüsusi xarakterli müdafiə üsulundan istifadə olunmasına zərurət yaranır. Həmin üsuldan istifadə etməklə mülkiyyətçilər hakimiyyət funksiyasına malik olan və əsassız olaraq əmlak sferasına müdaxilə edən, bununla onların mülkiyyət hüququnu pozan dövlət orqanlarının hərəkətlərindən özlərini müdafiə edirlər. Bunun üçün mülkiyyətçilər öz mənafelərini müdafiə etmək barədə dövlət hakimiyyəti orqanlarına (və ya yerli özünüidarə orqanlarına) qarşı iddia verirlər. Bu iddialara şamil edilir:

- dövlət hakimiyyəti orqanının və yerli özünüidarə orqanının müvafiq şəxsin mülkiyyət hüququnu pozan aktının etibarsız sayılması barədə iddia – **I qrup iddia**;

- mülkiyyət hüququna hüquqazidd qaydada xitam verilməsi barədə iddia – **II qrup iddia**;
- mülkiyyətçidən əmlakın alınması ilə ona vurulmuş ziyanın əvəzinin ödənilməsi barədə iddia – **III qrup iddia**.

Birinci qrup iddialar o halda verilir ki, dövlət hakimiyyəti orqanı və ya yerli özünüidarə orqanı mülki qanunvericiliyə uyğun gəlməyən, şəxslərin mülkiyyət hüquqlarını pozan qeyri-normativ xarakterli akt qəbul edir (MM-in 19-cu maddəsi). Qəbul edilən bu akt nəticəsində şəxslərin mülkiyyət hüququ, əlbəttə, pozulur. Onun həyata keçirilməsinə əngəl yaradıla bilər. Şəxs öz pozulmuş mülkiyyət hüquqlarını müdafiə etmək məqsədilə **qanuna zidd olan həmin qeyri-normativ aktın etibarsız sayılması barədə məhkəməyə iddia verə** bilər. Bu üsulla o, pozulmuş mülkiyyət hüququnu müdafiə edir. Mülkiyyətçiyə dəyən zərərin əvəzi tam həcmdə ödənilir. Buraya mülkiyyətçinin öz pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi xərclər, real zərər, əldən çıxmış fayda daxildir (MM-in 21-ci maddəsinin 2-ci bəndi). Özü də mülkiyyətçiyə dəyən zərərin əvəzini Azərbaycan Respublikası (dövlət) və ya müvafiq bələdiyyələr ödəyir.

İkinci qrup iddialar şəxslərin **mülkiyyət hüququ hüquqazidd qaydada xitam olunduğu hallarda** verilir. Belə ki, dövlət orqanı hüquqauyğun olmayan və şəxslərin mülkiyyət hüququnu pozan fərdi (qeyri-normativ) akt qəbul edir[1]. Bu akt nəticəsində şəxs mülkiyyət hüququnu itirir və ondan məhrum olur. Bu halda mülkiyyətçi iddia verir. Hər şeydən əvvəl, o, mülkiyyət hüququnu pozan fərdi (qeyri-normativ) aktın etibarsız sayılmasını şərtləndirən halları sübut etməlidir. Məsələn, dövlət təsərrüfatsızcasına saxlanan mədəni sərvətləri məhkəmənin qərarına əsasən, satın ala bilər (MM-in 208-ci maddəsi). Mülkiyyətçi bu barədə dövlət orqanının aktını ləğv etmək üçün mədəni sərvəti təsərrüfatsızcasına saxlamamasını sübut etməlidir. Başqa bir misalda dövlət torpaq sahəsində olan binaları torpaqla birlikdə alır (MM-in 207-ci maddəsi). Əgər mülkiyyətçi sübut etsə ki, torpaq sahəsində olan binalara mülkiyyət hüququna xitam verilmədən həmin sahənin dövlət ehtiyacları üçün alınması mümkündür, onda həmin binaların alınması barədə fərdi dövlət aktı etibarsız sayılacaqdır.

Bildiyimiz kimi, AR Nazirlər Kabineti torpaq sahəsinin, habelə torpaq sahəsində yerləşən və ya yerləşməyən binaların (evlərin, tikililərin, qurğuların) dövlət ehtiyacları üçün alınması haqqında qərar qəbul edə bilər (MM-in 246-cı maddəsinin 1-ci bəndi). Nazirlər Kabinetinin yalnız üç halda belə qərar etməsi hüquqazidd deyildir (MM-in 157-ci maddəsinin 9-cu bəndi): yolların və digər kommunikasiya xəttlərinin çəkildiyi halda; sərhəd zolağı müəyyən edildiyi halda; müdafiə əhəmiyyətli obyektlər tikildiyi halda. Qalan hallarda Nazirlər Kabinetinin mülkiyyətçilərin torpaq sahəsinin və binaların dövlət ehtiyacları üçün alınması barədə qəbul etdiyi qərar hüquqa ziddir. Buna görə də mülkiyyətçi həmin qərardan məhkəmə qaydasında iddia verə bilər (MM-in 248-ci maddə-

[1] Son zamanlar Bakı şəhəri icra hakimiyyətinin, lazımi icazə almamaqla, şəhərsalma və tikinti normalarını və qaydalarını pozmaqla, vətəndaşların həyat və sağlamlığı üçün təhlükə yaratmaqla, habelə şəhərin xarici görkəminə xələl gətirməklə tikilən obyektlərin sökülməsi barədə həyata keçirdiyi fəaliyyətini təqdirəlayiq iş hesab etmək lazımdır. Bəzən belə tikililərin və obyektlərin sökülməsi şəxslərin mülkiyyət hüququnun kobud surətdə pozulması ilə müşayiət edilir. Şübhəsiz ki, bu halda mülkiyyətçi göstərilən müdafiə üsulundan istifadə edir.

sinin 1-ci və 2-ci bəndləri).

Bu qrup iddialara ən yaxşı misal büdcədən pul vəsaitinin geri qaytarılması barədə iddiadır. Belə ki, həmin vəsait şəxslərdən vergi müfəttişlərinin tətbiq etdikləri iqtisadi (maliyyə) sanksiyalar kimi alınır. Məsələn, mülkiyyətçi vergi ödənişlərini vaxtında vermir və ona maliyyə sanksiyası tətbiq edilir. Özü də maliyyə sanksiyaları əsasında pul vəsaiti mübahisəsiz qaydada silinir. Əgər pul vəsaitinin silinməsi vergi qanunvericiliyinin pozulması ilə müşayiət olunarsa, onda mülkiyyətçi (vergi ödəyicisi) mülkiyyət hüququna hüquqazidd qaydada xitam verilməsi barədə iddia verə bilər.

Üçüncü qrup iddialar qanunda nəzərdə tutulan əsaslarla mülkiyyət hüququ xitam olunduğu hallarda verilir. Bu hallara aiddir: milliləşdirmə (MM-in 203-cü maddəsinin 5-ci bəndi; 210-cu maddəsi); rekvizisiya (MM-in 209-cu maddəsi); təsərrüfatsızcasına saxlanan mədəni sərvətlərin satın alınması və s. Göstərilən hallar əsasında əmlak dövlət orqanının qərarı əsasında vətəndaşdan alınır. Mülkiyyətçi bu qərardan razı qalıb, ona etiraz etmir. Mülkiyyətçinin bu halda iddia verməsini şərtləndirən hal ondan alınmış **əmlakın dəyərinin məbləği, ona vurulmuş zərərin əvəzinin ödənilməsi miqdarı və ya ödənişin qaydasından** ibarətdir. Məsələn, mədəni sərvətlər satın alınarkən, onların dəyəri mülkiyyətçiyə tərəflərin razılığı ilə ödənilir. Mübahisə yarandıqda, mülkiyyətçi məhkəməyə iddia verir. Başqa bir misalda Azərbaycan Respublikasının müvafiq qanununun qəbul edilməsi ilə milliləşdirmə ilə şəxsin mülkiyyət hüququna xitam verilə bilər (MM-in 210-cu maddəsi). Belə halda mülkiyyətçiyə dəymiş zərərin əvəzinin ödənilməsi barədə tərəflər arasında mübahisə yarana bilər. Mübahisə məhkəmə yolu ilə həll edilir. Mülkiyyət hüququ göstərilən əsaslarla ləğv edildikdə, mülkiyyətçinin əmlakı hesablanarkən onun bazar qiyməti əsas götürülür (MM-in 211-ci maddəsi).

§ 2. Əşya-hüquqi müdafiə üsulları

1. Vindikasiya iddiası (Herausgabeanspruch)

Mülki hüquqda ənənəvi olaraq **iki klassik iddia növündən istifadə edilir: vindikasiya iddiasından; neqator iddiasından**. Bu iddiaların tarixi mənşəyi və kökü qədim Roma hüququ ilə bağlıdır[1]. Roma hüququnda mülkiyyət hüququ, əsasən, ya vindikasiya iddiası (rei vindicatio) ilə, ya da neqator iddia (actio negatoria) ilə müdafiə olunurdu[2]. Əşyaya sahibliyi itirmiş mülkiyyətçi əşyanı tələb etmək üçün vindikasiya iddiasından istifadə edirdi. Bəzən də elə olurdu ki, əşya mülkiyyətçinin faktiki sahibliyində qalırdı. Lakin hər hansı bir şəxs qanunsuz olaraq mülkiyyətçiyə onun öz mülkiyyət hüququnu həyata keçirməsinə mane olurdu və bunu məhdudlaşdırırdı. Bu cür qanunsuz hərəkətin qarşısını almaq, onu aradan qaldırmaq üçün neqator iddiası verilirdi. Bəzi ölkələrdə, o cümlədən Respublikamızda mülkiyyət hüququnun müdafiəsinə dair qaydalar Roma hüququ ənənələrinə əsaslanır. Vindikasiya iddiasını bir çox xarici ölkələrin (Almaniyanın, Kanadanın Kvebek əyalətinin, İspaniyanın, RF-in, İtaliyanın və s.) qanunvericiliyi də tanıyır. İngilis-amerikan ailəsində bu iddia nəzərdə tutulmur. Bu ailə yalnız sahiblik iddiasını tanıyır. İngilis-amerikan (ümumi) hüququnda məhkəmə əmrləri əşya müdafiəsinin ən geniş paradiqmasını (yunanca «paradeigma» — nümunə) təşkil edir[1]; bu hüquq sisteminin tarixi inkişaf xüsusiyyətinə görə yalnız mülkiyyət hüququnun müdafiəsi üçün istifadə olunan iddialar ABŞ-da və s. yoxdur. Vindikasiya iddiası roman-german hüquq ailəsinə daxil olan Fransa mülki hüququna da məlum deyil; Fransa MM-i onun haqqında normalar nəzərdə tutmur. Lakin vindikasiya iddiasını Fransa məhkəmə praktikası və hüquq doktrinası tanıyır.

Vindikasiya iddiası tarixən əşya hüquqlarının ən geniş yayılmış və əsas müdafiə üsulu kimi tanınmışdır. O, «rei vindicatio» kimi tarixi prosessual ada malik idi. Belə ki, vindikasiya əvvəlcə prosessual anlayış kimi yaranmışdı. «Rei vindicatio» mülkiyyətçinin öz əşyasını axtarmaq və geri qaytarmaq hüququnu nizama salan prosessual hərəkət hesab edilirdi. Bu hərəkətin mahiyyəti isə «öz əşyamı harada tapıram, orada da onu götürürəm» kimi qaydadan ibarət idi. Deməli, vindikasiya ilk dəfə olaraq maddi yox, prosessual anlayış kimi meydana gəlmişdi. Buna paralel olaraq vindikasiya maddi-hüquqi anlayış kimi inkişaf etməyə başladı. Özü də o, latın mənşəli ifadədir («vim dicere» – «tətbiq olunmasını elan edirəm»)[2].

Elə hallar yaranır ki, mülkiyyətçinin malik olduğu əşya başqa şəxsin (özgəsinin) qanunsuz sahibliyində olur. Məsələn, onun əşyası iradəsindən asılı olmayaraq itir. Əşyanı başqa bir şəxs tapır və onu mülkiyyətçiyə qaytarmır. Mülkiyyətçi əşya üzərində faktiki sahiblikdən məhrum olur, lakin o, əşya üzərində mülkiyyət hüququnu itirmir. Əşya onu tapan şəxsin qanunsuz sahibliyində olur. Mülkiyyətçi mülkiyyət hüququnu müdafiə və bərpa etmək üçün əşyanı tapanın (özgəsinin) qanunsuz sahibliyindən öz əşyasını geri tələb edir. Bu tələb maddi-hüquqi mənada vindikasiya iddiası adlanır.

Vindikasiya iddiası dedikdə, öz əşyası üzərində faktiki sahibliyi itirən mülkiyyətçinin həmin əşyanı naturada özgəsinin (başqa şəxsin) qanunsuz sahibliyindən geri tələb etməsi başa düşülür. Bu iddianın əsas formulası (düsturu) bizim ölkə qanunvericiliyində belə ifadə edilir: mülkiyyətçinin özgəsinin qanunsuz sahibliyindən öz əmlakını tələb etmək ixtiyarı vardır (MM-in 157-ci maddəsinin 2-ci bəndi). Almaniya Mülki Qanunnaməsi vindikasiya iddiasının (Herausgabeanspruch) düsturunu belə formulə edir: mülkiyyətçi sahibdən əşyanın qaytarılmasını (verilməsini) tələb edə bilər (§ 985)[3]. Göründüyü kimi, bizim ölkə qanunvericiliyindən fərqli olaraq, Almaniya qanunvericiliyi burada qanunsuz sahiblik və vicdanlı əldə edənin sahibliyi arasında hədd qoymur, necə deyərlər, dəqiq sərhəd müəyyənləşdirmir[4].

---

[1] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 197, 200; *И.Пухан, М.Поленак-Акимовская.* Римское право. Учебник. М., 2000, с. 165.

[2] *İ.B.Novitski.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 89; *Д.В.Дождев.* Римское частное право. Учебник. М., 1999, с. 29.

[1] *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 260.

[2] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 197; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 616. Uqo Mattei göstərir ki, «rei vindicatio» hərfən «əşyanın tələb edilməsi barədə iddia» mənasını bildirir (*У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 262).

[3] Германское право. Гражданское уложение. Часть 1 / Под ред. *В.В.Залесского.* М., 1996.

[4] *Bassinge P. //* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 1157; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 419.

Vindikasiya iddiasının təyinatı və məqsədi mülkiyyətçinin əşya üzərində itirilmiş sahibliyini (əşya üzərində fiziki nəzarəti) bərpa etməkdən ibarətdir; o, əşyanın mülkiyyətçiyə qaytarılmasına nail olmaq məqsədinə xidmət edir. Sahiblik çox vaxt əşyadan istifadə və onun barəsində sərəncam vermək səlahiyyətləri ilə bağlı olduğuna görə vindikasiya iddiası eyni zamanda həmin səlahiyyətləri də müdafiə edir. Deməli, vindikasiya iddiası ilə **mülkiyyətçinin üçlük (sərəncam, sahiblik, istifadə) səlahiyyətinin hamısı, başqa sözlə desək, onun əşya üzərində mülkiyyət hüququ bütövlükdə müdafiə olunur**.

Vindikasiya iddiasını istisnasız olaraq, bütün hallarda, söz yox ki, vermək olmaz. Bu iddianın verilməsi üçün mövcud mülki qanunvericilik və sivilistika doktrinası bir neçə şərt müəyyən edir. Bu şərtlər olmazsa, vindikasiya iddiasının verilməsindən söhbət gedə bilməz.

Birinci şərt mülkiyyətçinin öz əşyası üzərində **faktiki sahibliyi itirməsindən ibarətdir**. Əşya üzərində faktiki sahibliyi itirmə müxtəlif hərəkətlərdə ifadə oluna bilər. Bu hərəkətlərin dairəsi kifayət qədər genişdir. Buraya daxildir: əşyanın itməsi və oğurlanması; mülkiyyətçinin iradəsindən asılı olmadan əşyanın başqa formada sahiblikdən çıxması (məsələn, əsən güclü küləyin, selin və s. əşyanı aparması); titul sahibinin, yəni təmir, daşıma, kirayə, saxlanc, istifadə və digər məqsədlər üçün əşyanın mülkiyyətçi tərəfindən verildiyi şəxsin əşyanı özünün və mülkiyyətçinin iradəsindən asılı olmadan itirməsi; titul sahibinin əşyanı hüquqazidd qaydada özgəninkiləşdirməsi (satması, dəyişdirməsi və bağışlaması və s.).

İkinci şərt ondan ibarətdir ki, mülkiyyətçinin sahiblikdən məhrum olduğu **əşya başqa şəxsin (özgəsinin) sahibliyinə keçməlidir**. Əşyanın sahiblikdə olması dedikdə, özgə şəxsin əşya üzərində hər cür yiyəlik və fiziki (faktiki) nəzarət etməsi başa düşülür. Əşya üzərində faktiki sahiblik müxtəlif əsas və vasitələrlə əldə edilə bilər: özgə şəxsin mülkiyyətçiyə məxsus olan əşyanı oğurlaması; itən əşyanı tapmaq və mülkiyyətçiyə verməmək, yəni özündə saxlamaq; titul sahibi ilə əqd bağlamaq (alqı-satqı, dəyişdirmə və s.) və s.

Üçüncü şərt ondan ibarətdir ki, özgə şəxsin əşyaya **faktiki sahibliyi qanunsuz olmalıdır**. Titulu, yəni hüquqi əsası olmayan hər cür sahibliyə qanunsuz (titulsuz) sahiblik deyilir. Məsələn, mülkiyyətçinin əşyasını oğurlayan şəxsin sahibliyi qanunsuz sahiblikdir. Ona görə ki, onun hüquqi əsası (titulu) yoxdur. Sonradan öz qüvvə və əhəmiyyətini itirən sahiblik də qanunsuz sahiblik sayılır. Məsələn, icarə (saxlama, ssuda, kirayə) müqaviləsinin qüvvədə olma müddəti qurtarır, buna görə də ona xitam verilir və icarəçi (saxlayan, ssuda alan, kirayəçi) əşyanı geri qaytarmır. Əşya barəsində sərəncam vermək səlahiyyəti olmayan şəxsdən əşyanı əldə edən subyektin sahibliyi də qanunsuz sahiblikdir. Məsələn, əşya icarəyə, kirayəyə və ya saxlanca, ya da daşınma üçün daşıyıcıya verilir. Həmin əşyanı icarəçidən (saxlayandan, kirayəçidən, daşıyıcıdan) əldə edən (məsələn, alqı-satqı müqaviləsi əsasında) şəxsin sahibliyi qanunsuz sahiblik sayılır. Bu şəxsin təqsirliliyi (təqsirli olması) əhəmiyyətə malik deyil. Əşyanı satın alan və onun oğurluq nəticəsində əldə edildiyini, yəni oğurluq mal olduğunu bilməyən şəxsin sahibliyi də qanunsuz sahiblik hesab edilir[1].

Dördüncü şərt ondan ibarətdir ki, mülkiyyətçinin sahiblikdən məhrum olduğu və **özgəsinin qanunsuz sahibliyinə keçdiyi əşya naturada saxlanmalıdır**. Əgər əşya istehlak olunarsa, məhv edilərsə və ya yenidən emal edilərsə, mülkiyyətçinin ona mülkiyyət hüququ itir, yəni mülkiyyətçinin əşya üzərində mülkiyyət hüququna xitam verilir. Bu vəziyyətdə mülkiyyətçinin vindikasiya iddiası verməsi istisna edilir və bundan söhbət gedə bilməz. Belə halda mülkiyyətçi yalnız öz əmlak mənafeyini müdafiə edə bilər. Bu isə ya kondikasiya (əsassız varlanma) iddiası, ya da delikt (ziyan vurmaq nəticəsində yaranan) tələbi ilə həyata keçirilə bilər[2]. Elə hallar ola bilər ki, qanunsuz sahib əşyanı mühüm dərəcədə dəyişdirsin, məsələn, qanunsuz əldə etdiyi evi əsaslı surətdə yenidən tiksin; bu zaman həmin evin naturada saxlanmasından söhbət gedə bilməz, çünki bu ev mülkiyyətçinin sahibliyini itirdiyi evin özü deyildir. Odur ki, mülkiyyətçi vindikasiya iddiası verə bilməz; belə halda o, delikt iddiası, yəni vurulmuş zərərin əvəzinin ödənilməsi barədə iddia verə bilər.

Beşinci şərt ondan ibarətdir ki, geri tələb olunan əşya yalnız **fərdi əlamətləri ilə müəyyən edilən əşya (fərdi-müəyyən əşya) olmalıdır**. Ona görə ki, belə əşya istehlak olunmur, hüquqi cəhətdən əvəz edilmir və onu mülkiyyətçinin özünə qaytarmaq mümkündür. Vindikasiya iddiasının mahiyyəti mülkiyyətçinin faktiki sahibliyindən çıxan əşyanın özünü geriyə, yəni mülkiyyətçiyə qaytarmaqdan ibarətdir. Yalnız fərdi əlamətləri ilə müəyyən edilən əşyanın özünü geri qaytarmaq mümkündür. Cinsi (növ) əlamətləri ilə müəyyən edilən əşyanın özünü geri qaytarmaq olmaz. Ona görə ki, bu cür əşya istehlak olunur, hüquqi cəhətdən əvəz ediləndir. İstehlak olduğuna görə cinsi əlamətləri ilə müəyyən edilən əşyaya mülkiyyətçinin mülkiyyət hüququna xitam verilir. Üzərində mülkiyyət hüququ ləğv edilən əşyanı necə geri qaytarmaq olar? Bunu təsəvvürə gətirmək qeyri-mümkündür. Söylədiklərimiz onu deməyə əsas verir ki, cinsi əlamətləri ilə müəyyən edilən əşyanı vindikasiya ilə geri tələb etmək olmaz. Belə halda kondikasiya (əsassız varlanma) iddiası verilir (MM-in 58-ci

[1] Müəlliflərdən xanım N.M.Frolova göstərir ki, hüquqi əsası qüsurlu olan sahiblik qanunsuz sahiblikdir. O, bu sahibliyə etibarsız sayılan əqdlər nəticəsində yaranan sahibliyi misal çəkir. Onun söylədiyi bu fikirdən belə nəticəyə gəlmək mümkün olur ki, etibarsız əqdlər əsasında yaranan qanunsuz sahiblikdən əşya vindikasiya iddiası ilə geri tələb edilə bilər. Bu, əsassız fikirdir. Belə ki, əqd etibarsız sayıldığı hallarda, mülkiyyətçinin mənafeyi nə əşya, nə də öhdəlik hüquq üsulları ilə müdafiə olunur. Belə halda üçüncü qrup müdafiə üsulları tətbiq edilir ki, bunlardan biri etibarsız əqdlər barədə qaydadır (RF-in MM-in 167-180-ci, Azərbaycan Respublikası MM-in 337-351-ci maddələri). N.M.Frolovanın mövqeyi barədə bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 339.

[2] Kondikasiya (əsassız varlanma) iddiası ilə vindikasiya iddiası arasındakı münasibət barədə bu dərsliyin «Əsassız varlanma» fəslinə bax. Müəlliflərdən P.Nikityuk göstərir ki, bu halda qanunsuz (vicdansız) sahib yenidən emal olunmuş əşyanı iddaçıya (mülkiyyətçiyə) qaytarmalıdır (П.Никитюк. Вопросы спецификации (переработки) вещей в судебной практике по делам о праве собственности на строения // Советская юстиция, 1963. №21, с. 15).

fəsli, 1093-cü maddəsi)[1].

Bununla belə, istisna hal kimi, cinsi əlamətləri ilə müəyyən edilən əşya vindikasiya oluna bilər. Bunun üçün zəruridir ki, iddia verilən ana kimi əşya həmin cinsdən olan əşyalardan ayrılmaqla fərdiləşdirilsin (məsələn, kisədəki kartof, vaqondakı taxıl və s.)[2]. Belə fərdiləşdirmə nəticəsində əşya fərdi əlamətləri ilə müəyyən edilən əşyaya çevrilir. Fərdiləşdirmə məhz həmin əşyanın mülkiyyətçiyə məxsus olmasının sübut edilməsinə imkan verir.

Altıncı şərt ondan ibarətdir ki, əşyanın mülkiyyətçisi və faktiki sahib bir-birilə **öhdəlik hüquq münasibətlərində, məsələn, müqavilə münasibətlərində olmamalıdır**. Ona görə ki, vindikasiya iddiası ilə yalnız mütləq, yəni əşya hüquq münasibətləri müdafiə edilir. Öhdəlik, yəni nisbi hüquq münasibətləri, o cümlədən bu münasibətlərin bir növü olan müqavilə münasibətləri vindikasiya iddiasının hüquqi müdafiə sferasına daxil deyil. Bu cür münasibətlər mülki hüquqda tətbiq edilən əsas vasitələrdən biri olan öhdəlik-hüquqi üsullar ilə (öhdəlik iddiaları ilə) müdafiə olunur. Məsələn, kirayəçi kirayə müqaviləsinin müddəti başa çatdıqda kirayə götürdüyü əşyanı mülkiyyətçiyə (kirayə verən şəxsə) qaytarmır; belə halda mülkiyyətçi vindikasiya iddiası yox, müqavilə iddiası verə bilər. Lakin əgər kirayəçidən əşyanı üçüncü şəxs oğurlayarsa, onda mülkiyyətçi həmin şəxsə vindikasiya iddiası verə bilər. Ona görə ki, belə halda mülkiyyətçi ilə üçüncü şəxs arasında hər hansı bir müqavilə münasibəti yoxdur.

Vindikasiya iddiası hər bir iddia kimi **müəyyən elementlərdən** ibarətdir. Buraya daxil edilir: iddianın subyekt tərkibi; iddianın predmeti; iddianın obyekti; iddianın əsası.

Vindikasiya iddiasının subyekt tərkibi dedikdə, iddia üzrə tərəflər başa düşülür ki, bu, iddiaçı və cavabdehdən ibarətdir. **İddiaçı** dedikdə, əşya üzərində sahibliyi itirən mülkiyyətçi başa düşülür. İddiaçı rolunda titul (hüquqi əsası olan) sahibliyini həyata keçirən şəxs də çıxış edə bilər. Bu şəxs mülkiyyətçi statusuna malik olmayıb, qanunda və ya müqavilədə nəzərdə tutulan əsasla əşyaya sahiblik edən subyektdir. O, mülkiyyətçi hüquqlarından istifadə etməklə əşyanı özgəsinin qanunsuz sahibliyindən geri tələb edə bilər (MM-in 157-ci maddəsinin 8-ci bəndi). Titul sahibliyini həyata keçirən şəxslərə icarə müqaviləsi üzrə icarəçini, saxlama müqaviləsi üzrə saxlayıcını, komissiya müqaviləsi üzrə komisyonçunu, girov müqaviləsi üzrə girov saxlayanı, uzufruktuarı və s. misal göstərmək olar. Titul sahibi rolunda vərəsəlik üzrə keçə bilən ömürlük sahiblik hüququ əsasında və ya təsərrüfat səlahiyyəti hüququ əsasında, ya da operativ idarə etmə hüququ əsasında əşyaya sahiblik edən şəxs də çıxış edə bilər. İddiaçı vindikasiya hüququnun subyektidir.

[1] Müəlliflərdən A.A.Servetnik göstərir ki, qanunsuz sahiblikdə olan əşya emal edildikdə, mülkiyyətçi ona vurulmuş zərərin ödənilməsi haqqında iddia (delikt iddiası) verə bilər. Bu fikirlə çətin ki razılaşmaq olar. Belə halda əsassız varlanma, yəni kondikasiya iddiası verilir. Əsassız varlanma hüquqi əsası olmayan əmlak əldə etmədir. Hüquqi əsas olmadan əşyaya faktiki sahib olan şəxsin hərəkəti də əsassız varlanmadır. Əgər əşya məhv olarsa, məsələn, yandırılarsa, onda delikt iddiası verilə bilər. Ona görə ki, burada əsassız varlanma, əmlak əldə etmə yoxdur (Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 337).

[2] *Б.Б.Черепахин*. Виндикационные иски в советском праве // Уч. записки Свердловского юрид. инс. 1945. Том 1, с. 38; *А.В.Венедиктов*. Гражданско-правовая охрана социалистической собственности в СССР. М., 1954, с. 92.

Vindikasiya iddiası üzrə cavabdeh dedikdə, əşyaya qanunsuz sahibliyi həyata keçirən, faktiki olaraq əşyaya sahiblik edən şəxs başa düşülür. Qanunsuz sahibə əşyanı oğurlayan, tapıntını əldə edən, dəfinəni tapıb özünə götürən şəxsləri, habelə onlardan əşyanı əldə edən (alan) şəxsləri və s. misal göstərmək olar. Məsələn, qonşu öz dostunun əşyasını oğurlayır və hər hansı bir vətəndaşa satır. Həmin vətəndaş qanunsuz sahib hesab edilir. Vindikasiya iddiası üzrə cavabdeh də odur. İddia irəli sürülən ana kimi vindikasiya obyekti mövcud olmazsa, qanunsuz sahibi cavabdeh kimi vindikasiya prosesinə cəlb etmək olmaz. Bu halda başqa mülki-hüquqi vasitələrdən (iddialardan) istifadə edilir.

Vindikasiya prosesində cavabdehin qanunsuz sahibliyi sübut olunmalıdır. Sübut etmə yükünü, şübhəsiz ki, iddiaçı çəkir. O həm də sübut etməlidir ki, əşyaya mülkiyyət hüququ vardır.

Vindikasiya iddiasının obyektini, göstərdiyimiz kimi, yalnız fərdi əlamətləri müəyyən edilən əşya təşkil edir. Cinsi əlamətləri ilə müəyyən edilən əşyalar da vindikasiyanın obyekti kimi çıxış edə bilər, bir şərtlə ki, həmin əşyalar onun növündən olan digər əşyalardan ayrılmaqla fərdiləşdirilsin. Məsələn, bağlamada göndərilən qoz vindikasiya edilə bilər. Bunun üçün zəruridir ki, bağlama plomblansın. Vindikasiya predmetinin obyekti rolunda həm daşınar, həm də daşınmaz əşyalar çıxış edə bilər. Yaşayış evinin, torpaq sahəsinin və digər növ daşınmaz əmlakın vindikasiya edilməsi mümkündür.

Vindikasiya iddiasının predmetini əşyanın özgəsinin qanunsuz sahibliyindən geri qaytarılmasını nəzərdə tutan maddi-hüquqi tələb təşkil edir[1]. Əgər vindikasiyanın predmeti maddi-hüquqi tələbin özüdürsə, vindikasiyanın obyekti isə bu tələbin yönəldiyi və səmtləndiyi əşyanın özüdür. Əşyanın özü yoxdursa, maddi-hüquqi tələb də yoxdur. Bu, o deməkdir ki, özgənin qanunsuz sahibliyində olan əşyanın məhv olması, mühüm dərəcədə dəyişdirilməsi, istehlak olunması və s. vindikasiyanın predmetini, yəni maddi-hüquqi tələbi istisna edir[2]. Maddi-hüquqi tələb dedikdə, özgəsinin qanunsuz sahibliyində olan əş-

[1] Bəzi müəlliflər (N.M.Frolova, A.A.Servetnik, M.Y.Kirillova) vindikasiya iddiasının predmetinin əşyadan ibarət olması fikrini irəli sürürlər. Bu fikir həqiqətdən çox uzaqdır. Elə hesab edirik ki, həmin müəlliflər iddianın predmeti anlayışı ilə iddianın obyekti anlayışını qarışdırırlar. İddianın obyekti dedikdə, iddianın aid olduğu, barəsində iddia verildiyi əşya başa düşülür. İddianın predmetinə gəldikdə isə bu, irəli sürülən maddi-hüquqi tələbin özüdür (həmin müəlliflərin mövqeyi barədə bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г. Калпина, А.И.Масляева*. М., 1997, с. 337; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 337; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 304; *С.Е.Донцов*. Гражданско-правовые внедоговорные способы защиты социалистической собственности. М., 1980, с. 94).

[2] Belə hallarda, söz yox ki, vindikasiya iddiası verilmir və mülkiyyətçinin pozulmuş hüququ mülki hüququn başqa vasitələrinin köməyi ilə müdafiə olunur. Söhbət kondikasiya (əsassız varlanma) və delikt (ziyan vurmaq nəticəsində əmələ gələn öhdəlik) iddialarından gedir. Əgər qanunsuz sahibliyi həyata keçirən şəxs əşyanı emal edərsə, ondan başqa əşya düzəldərsə, bununla o özünün əmlak kütləsini artırır, zənginləşdirir. Belə halda əsassız varlanma göz qabağındadır. Mülkiyyətçi mülkiyyət hüququnu müdafiə etmək üçün əsassız varlanma (kondikasiya) iddiası verir. Yox, əgər qanunsuz sahib əşyanı yandırarsa, məhv edərsə, onda o, zənginləşmir, əsassız varlanmır. O, mülkiyyətçiyə zərər vurur. Belə halda delikt (ziyan vurma nəticəsində əmələ gələn) öhdəliyi əmələ gəlir və delikt iddiası verilir. Ona görə də göstərilən hallarda yalnız delikt iddiası verilməsi fikrini qəti formada söyləyən müəlliflərin mövqeyi ilə razılaşmaq olmaz (Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 610).

yanı geri qaytarmaq başa düşülür.

Vindikasiya iddiasının əsası dedikdə, iddiaçının cavabdehə verdiyi tələbi şərtləndirən və əsaslandıran hüquqi hallar və faktlar başa düşülür. O, həmin halları əşyanın alınması barədə iddiada göstərməlidir. Bu hallara aiddir: əşyanın iddiaçının sahibliyindən çıxması; əşyanın cavabdehin əlinə düşməsi; əşyanın naturada saxlanılması; iddiaçı ilə cavabdeh arasında öhdəlik (nisbi) münasibətlərinin olmamasına dəlalət edən hallar. İddiaçı yalnız əşyanı tələb etmək hüququnu yaradan faktları iddianın əsası kimi göstərir. Yerdə qalan faktlar sırf məlumat xarakterli faktlardan ibarət olub, hüquqi əhəmiyyət kəsb etmir və vindikasiya mübahisəsinin həllinin nəticəsinə təsir göstərmir. Beləliklə, vindikasiya iddiasının əsası bilavasitə hüquq yaradan, yəni iddiaçının mülkiyyət hüququnun müdafiəsi üçün subyektiv maddi hüququnun olmasını şərtləndirən faktlardır. Vindikasiya iddiasına on illik iddia müddəti şamil edilir.

Göstərilən altı şərt və iddianın elementləri mövcud olduqda, vindikasiya iddiası verilir. Lakin bu iddia dərhal və istisnasız olaraq ödənilmir. Belə ki, vindikasiya iddiasının təmin edilməsi də müəyyən şərtlərlə bağlıdır. Qüvvədə olan mülki qanunvericilik bu **iddianın ödənilməsi üçün üç şərt** müəyyən edir ki, bu şərtlər dünyanın bir çox qabaqcıl və sivil hüquq sistemlərində nəzərdə tutulmuşdur. Göstərilən şərtlər əsasında vindikasiyanın ümumi qaydaları formulə edilir.

Birinci şərt (qayda) vindikasiya iddiasının sahibliyin növündən asılı olaraq ödənilməsini nəzərdə tutur. Bu, o deməkdir ki, qanunsuz sahibliyi həyata keçirən bütün şəxslər mülkiyyətçi qarşısında eyni dərəcədə məsuliyyət daşımırlar. Onların məsuliyyəti, hər şeydən əvvəl, **qanunsuz sahibliyin növündən asılı olaraq müəyyən edilir**.

Qanunsuz sahibliyin iki növü fərqləndirilir: vicdansız sahiblik; vicdanlı sahiblik. **Vicdansız sahiblik** odur ki, bu sahiblik vacdansız sahib tərəfindən həyata keçirilir. **Vicdanlı sahiblik** isə vicdanlı sahib tərəfindən həyata keçirilən sahiblikdir. Qanunsuz sahibliyin növlərinə uyğun olaraq iki cür qanunsuz sahib vardır: vicdansız sahib; vicdanlı sahib. **Vicdansız sahib** o şəxsdir ki, bu şəxs əşyaya həyata keçirdiyi sahibliyin qanunsuz olduğunu bilir və ya bilməli olmağa borcludur (MM-in 157-ci maddəsinin 5-ci bəndi). Məsələn, qonşu öz dostundan minik avtomobilini alarkən bilir ki, həmin avtomobili dostu başqasından oğurlamışdır. Qonşu vicdansız sahibdir. Başqa şəxsin əşyasını tapan və onu həmin şəxsə qaytarmayan da vicdansız sahibdir. Vicdansız sahib əşyanı əldə etdiyi anda bilir və ya bilməlidir ki, həmin əşyanı onu özgəninkiləşdirməyə hüququ olmayan şəxsdən əldə edir. Başqa sözlə desək, vicdansız sahib əşyanı əldə edən zaman əşyanı özgəninkiləşdirən şəxsin onun mülkiyyətçisi olmadığını və ya həmin şəxsin mülkiyyət hüququnu vermək səlahiyyətinə malik olmamasını bilir və ya bilməyə borcludur; mülkiyyətçinin əşyasını qanunsuz yollarla ələ keçirən hər bir şəxs vicdansız sahib kimi tanınır. Məsələn, mülkiyyətçi (yük sahibi) daşınma müqaviləsi bağlayaraq yükü daşıyıcıya verir ki, onu təyinat yerinə çatdırsın. Amma nainsaf daşıyıcı yükü üçüncü şəxsə verir; üçüncü şəxs yükü alan zaman bilir ki, daşıyıcı yükün mülkiyyətçisi deyildir, həmin yükü onun özgəninkiləşdirmək və ona mülkiyyət hüququnu başqa şəxsə vermək səlahiyyəti yoxdur. Buna görə də üçüncü şəxs vicdansız sahib

(vicdansız əldə edən) sayılır.

Vicdansız əldə edənin anlayışı mülki qanunvericilikdə verilmişdir: əgər əldə edən özgəninkiləşdirənin mülkiyyətçisi olmadığını bilirmişsə və ya bilməli idisə, vicdanlı əldə edən sayılmır, yəni vicdansız əldə edən hesab olunur (MM-in 182-ci maddəsinin 1-ci bəndi).

Əldə edəni vicdansız sahib hesab etmək üçün onun təqsirinin olması gərəkdir. Bildiyimiz kimi, mülki hüquqda təqsirin üç növü fərqləndirilir: sadə ehtiyatsızlıq; kobud ehtiyatsızlıq; qəsd. Təqsirin sadə ehtiyatsızlıq növündə vicdansız sahiblikdən söhbət gedə bilməz. Bu təqsir növü şəxsi vicdansız sahib hesab etmək üçün kifayət etmir. Təqsirin digər növləri, yəni ya qəsd, ya da kobud ehtiyatsızlıq isə şəxsi vicdansız hesab etmək üçün əsasdır[1]. Bu, o deməkdir ki, qanunsuz sahibin yalnız qəsd və ya kobud ehtiyatsızlıq növündə təqsiri olduqda, o, vicdansız sahib sayılır. Vicdansız sahib vicdansız əldə edəndir.

Vicdanlı sahib o şəxsdir ki, bu şəxs əşyanın, onu özgəninkiləşdirməyə hüququ olmayan şəxsdən əldə edilməsini bilmir və ya bunu bilməli olmağa borclu deyildir. Vicdansız sahib vicdansız əldə edən də adlanır. Vicdanlı əldə edənin anlayışı isə mülki qanunvericilikdə verilmişdir (MM-in 182-ci maddəsi): vicdanlı əldə edən odur ki, qanuni yolla əşya alarkən o, özgəninkiləşdirən şəxsin həmin əşyanın mülkiyyətçisi olmadığını bilmir və ya bunu bilməyə borclu deyildir. O, mülkiyyətçinin əşyasını bilavasitə onun özündən yox, üçüncü şəxsdən (özgəninkiləşdirən şəxsdən) əldə edir. Məsələn, qonşu bilmir ki, onun dostundan aldığı minik avtomobili başqasının (üçüncü şəxsdən) əmlakıdır və bu avtomobili satmağa dostunun ixtiyarı çatmır. Qonşu vicdanlı sahibdir. Vicdanlı sahib əşyanın əldə edilməsinin hüquqazidd olmasını bilmir və bunu da bilməyə borclu deyildir. Mövcud qanunvericilik əldə edənin vicdanlılığı prezumpsiyasını müəyyən edir. Bu prezumpsiyaya görə, əldə edən onun vicdansız olması sübut edilənədək, vicdanlı sahib hesab edilir.

Qanunsuz sahibliyin hansı növə, yəni vicdanlı və ya vicdansız sahibliyə şamil edilməsi məhkəmə tərəfindən müəyyən edilir. **Məhkəmə, əsasən, adi və kobud ehtiyatsızlığı fərqləndirməyə çalışmalıdır**. Belə ki, adi ehtiyatsızlıq nəticəsində vicdansız yox, vicdanlı sahiblik yaranır. Məhkəmə xüsusən diqqət yetirir: hər bir konkret hadisənin faktiki hallarına; əşyanın əldə edilməsi şəraitinə və şərtlərinə; əldə edənin subyektiv keyfiyyətlərinə (həyati təcrübəsi, hüquqi savada malik olması və s. cəhətlərə). Sahibliyin vicdanlı və ya vicdansız sahiblik olmasından, yəni sahibin əşyanı əldə edərkən onun vicdanlı və ya vicdansız hərəkət etməsindən başqa, məhkəmə həm də müəyyən etməlidir ki, əşyanı əldə etdiyi şəxsə (yəni əşyanı özgəninkiləşdirən şəxsə) mülkiyyətçi onu özgəninkiləşdirməyə səlahiyyət vermişdirmi; əşyanı həmin şəxsin özgəninkiləşdirməyə hüququ çatır, yoxsa çatmır?

Vicdansız sahibdən (əldə edəndən) əşya bütün hallarda geri alınır. Əşyanın vicdansız sahibdən geri alınması barədə mülkiyyətçinin vindikasiya tələbi bütün hallarda, istisnasız olaraq ödənilir və təmin edilir. Vicdansız sahib əşyanı onun mülkiyyətçisinə qaytarmağa borcludur. Özü də o, əşyanı mülkiy-

[1] bax: *Ю.К.Толстой.* Содержание и гражданско-правовая защита права собственности в СССР. Л., 1955, с. 120; *О.С.Иоффе.* Советское гражданское право. М., 1967, с. 477; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 471.

yətçiyə qanunsuz sahiblik əldə etdiyi anda mövcud olan vəziyyətdə geri qaytarmağa borcludur. O, əşyanın qiymətinin azalmasına dəlalət edən hər bir təqsirli hərəkətinə görə cavab verir.

Qeyd etmək lazımdır ki, **vicdanlı sahibdən (əldə edəndən) əşya həmişə tələb edilmir**. Mülki qanunvericilik əşyanı vicdanlı əldə edən şəxs üçün, yəni vicdanlı sahib üçün güzəştlər müəyyən edir (MM-in 157-ci maddəsi). Bu isə təsadüfi deyildir. Belə ki, qanunvericilik bu güzəştləri müəyyən etməklə mülki dövriyyənin mürəkkəbləşməsinin və çətinləşməsinin qarşısını alır, bu dövriyyənin dayanıqlığını və möhkəmliyini təmin edir. Bundan əlavə, əgər bu güzəştlər müəyyən edilməsə, onda hər bir əşya əldə edən şəxs aldığı əşyanı itirmək təhlükəsi ilə üzləşərdi. Bununla bərabər, mülki qanunvericilik həm də mülkiyyətçinin mülki-hüquqi müdafiəsini və qanuni mənafeyini nəzərə alır.

Göstərilən güzəştin mahiyyəti ondan ibarətdir ki, **yalnız iki halda vicdanlı sahibdən əşyanı vindikasiya iddiası ilə geri almaq olar**. Həmin iki hal vindikasiya iddiasının təmin edilməsinin ikinci və üçüncü şərtləri hesab olunur. Qalan hallarda isə əşyanın alınması istisna edilir, mümkün olmur. **Birinci hal (ikinci şərt)** ondan ibarətdir ki, **əşya onu özgəninkiləşdirməyə hüququ olmayan şəxsdən əvəzsiz əldə edildikdə, mülkiyyətçi əşyanı vicdanlı əldə edəndən vindikasiya iddiası ilə tələb etmək ixtiyarına malikdir**. Bu, vindikasiya iddiasının təmin edilməsinə səbəb olur. Belə ki, mülkiyyətçinin əşyasını əldə edən şəxs əvəzsiz almışsa, vicdanlı ola bilməz (MM-in 182-ci maddəsinin 2-ci bəndi); Bu isə o deməkdir ki, həmin şəxs vicdansız əldə edən sayılır; vicdansız əldə edən isə əşyanı mülkiyyətçiyə qaytarmalıdır.

Vicdanlı sahib əşyanı müxtəlif əsaslarla əvəzsiz olaraq əldə edə bilər. Məsələn, əşya onu özgəninkiləşdirməyə ixtiyarı çatmayan şəxs tərəfindən vicdanlı əldə edənə bağışlanır, yəni hədiyyə kimi verilir və ya əşya vərəsəlik qaydasında ona keçir. Məsələn, mülkiyyətçi əşyanı kirayəyə verir; kirayəçi qəflətən ölür və əşya onun vərəsəsinin sahibliyinə keçir. Vərəsə elə bilir ki, əşya miras qoyana məxsusdur; o, həqiqi mülkiyyətçini tanımır və əşyanın ona məxsus olmasını bilmir. Buna görə də vərəsə vicdanlı əldə edən hesab edilir. Lakin buna baxmayaraq, mülkiyyətçinin vindiksiya iddiası təmin olunur və əşya ondan alınır. Belə hallarda məlum məsələdir ki, əşyanın vicdanlı əldə edəndən alınması ona hər hansı əmlak (maddi) zərəri vurmayacaqdır.

Üçüncü şərtə (ikinci hala) görə, əvəzli əqd əsasında əşyanı əldə edən **vicdanlı sahibdən əşya yalnız o halda tələb edilir ki, o, mülkiyyətçinin və ya titul sahibinin sahibliyindən onların iradəsindən asılı olmadan çıxmış olsun**. Mülkiyyətçini, onun iradəsindən asılı olmadan əşyaya sahiblikdən məhrum edən hallar müxtəlifdir: üçüncü şəxslərin hüquqazidd əməlləri; qarşısıalınmaz qüvvə; dövlət orqanlarının məcburi göstərişləri və s. Üçüncü şəxslərin hüquqazidd əməlinə misal olaraq onların əşyanı oğurlaması halını göstərmək olar (MM-in 182-ci maddəsinin 2-ci bəndi). O, həmin əşyanı vicdanlı əldə edənə satır. Belə halda, mülkiyyətçi əşyanı vicdanlı əldə edəndən geri tələb edir. Əşya mülkiyyətçinin özü tərəfindən itirildikdə də (iradəsindən asılı olmayaraq), vicdanlı əldə edən onu qaytarmağa borcludur (MM-in 182-ci maddəsinin 2-ci bəndi). Qeyd etmək lazımdır ki, əşyanı mülkiyyətçinin itirməsi və əşyanın ondan oğurlanması kimi hallar mülkiyyətçinin iradəsinin ziddinə olaraq (yəni mülkiyyətçinin iradəsindən asılı olmayaraq) əşyanın onun sahibliyindən çıxmasının ayrı-ayrı formalarıdır. Əşya mülkiyyətçinin iradəsinin ziddinə olaraq başqa şəkildə, digər yolla da onun sahibliyindən çıxa bilər; belə hallarda həmin əşyanı əldə edən şəxs vicdanlı ola bilməz (MM-in 182-ci maddəsinin 2-ci bəndi). Bu isə o deməkdir ki, həmin şəxs vicdansız əldə edəndir. Buna görə də o, əşyanı qaytarmalıdır; həmin şəxsin əşyanı əvəzli şəkildə, məsələn, alqı-satqı müqaviləsi əsasında əldə etməsi məsələnin mahiyyətini dəyişmir; o, əşyanı kimdən almışsa, o şəxsə (yəni əşyanı əldə edənə əvəzli şəkildə özgəninkiləşdirən şəxsə) müqavilə iddiası verərək vurulmuş zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

Bununla bərabər, qanunda nəzərdə tutulan hallarda vindikasiya məhdudlaşır. Bu, o halda mümkün olur ki, əşya mülkiyyətçinin və ya titul sahibinin iradəsindən asılı olaraq onların sahibliyindən çıxsın. Məsələn, mülkiyyətçi əşyanı icarəyə verir. Aydın bir həqiqətdir ki, o, bunu öz iradəsilə edir. Bu məqamda əşya mülkiyyətçinin iradəsindən asılı olaraq onun sahibliyindən çıxır. İcarəçi əşyanı üçüncü şəxsə (vicdanlı əldə edənə) satır. Belə halda mülkiyyətçi vindikasiya ilə əşyanı geri tələb edə bilməz. Çünki vicdanlı əldə edən əşya üzərində mülkiyyət hüququ qazanır. Vindikasiyanın məhdudlaşdırılması anlayışının mahiyyəti də bundan ibarətdir. Göstərilən misalda mülkiyyətçi kontragent (icarəçi) seçməkdə səhvə yol verir. Bu səhvə görə vicdanlı əldə edən zərərə düşə bilməz. Belə ki, o, əşyaya mülkiyyət hüququ qazanır. Mülkiyyətçi yalnız müqavilə iddiası verərək icarəçidən ona vurulmuş zərərin ödənilməsini tələb edə bilər. Əgər əşyanın mülkiyyətçinin sahibliyindən çıxması onun iradəsindən asılı olarsa, yəni əşya mülkiyyətçinin iradəsindən asılı olaraq onun sahibliyindən çıxarsa, vicdanlı əldə edən tərəfindən istənilən özgəninkiləşdirən şəxsdən əvəzli şəkildə alınmış həmin əşya mülkiyyətçi tərəfindən tələb edilə bilməz; çünki özgəninkiləşdirən şəxs əşyanın mülkiyyətçisi olmasa da vicdanlı əldə edən həmin əşyaya mülkiyyət hüququ qazanır (MM-in 182-ci maddəsinin 1-ci bəndi). Bu norma inkişaf etmiş ölkələrin mülki hüququna da məlumdur (Almaniya MQ-nin 932-ci paraqrafı; İsveçrə MM-inin 933-cü maddəsi; ABŞ Vahid Ticarət Məcəlləsinin 2-403-cü maddəsi[1]; Fransa məhkəmə praktikası). Məsələn, alıcı satın aldığı əmlakı unudur və o, satıcının sahibliyində qalır; satıcı həmin əmlakı onun mülkiyyətçisi olmamasına baxmayaraq üçüncü şəxsə satır[2]; üçüncü şəxs vicdanlı əldə edəndir. Buna görə də alıcı (mülkiyyətçi) əmlakı ondan tələb edə bilməz; əmlak vicdanlı əldə edənin mülkiyyəti olur. Başqa bir misalda boşanmadan sonra əmlak bölgüsü zamanı arvad öz babasının hədiyyə verdiyi minik avtomobilini müvəqqəti istifadə üçün ərinin sahibliyində saxlayır; boşanmış ər onu üçüncü şəxsə satır. Minik avtomobilini arvad keçmiş ərinə könüllü verdiyinə görə onun üçüncü şəxsə verdiyi vindikasiya iddiası təmin olunmayacaqdır; üçüncü şəxs vicdanlı əldə edən olduğu üçün minik avtomobilinə mülkiyyət hüququ qazanır. Arvad keçmiş ərinə vurulmuş zərərin əvəzinin ödənil-

[1] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 131; Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1. / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров.* М., 2004, с. 375.

[2] Misal götürülmüşdür: *Ласк Г.* Гражданское право США. М., 1961, с. 570.

məsi barədə iddia verə bilər[1].

Bir sıra ölkələrin qanunvericiliyində belə bir normanın nəzərdə tutulması təsərrüfat dövriyyəsini sadələşdirmək və möhkəmləndirmək, mülki-hüquqi əqdlərin bağlanmasını asanlaşdırmaq, əldə edəni hər dəfə özgəninkiləşdirən şəxsin əqd bağlamaq hüququnu yoxlamaq problemindən azad etmək, əqd bağlanmasını tezləşdirmək və dövriyyəni inkişaf etdirməklə bağlıdır.

Vindikasiya haqqında ümumi qaydadan qanun istisna iki hala yol verir (MM-in 157-ci maddəsi). Belə ki, **pul, habelə adsız qiymətli kağızlar vicdanlı əldə edəndən geri tələb oluna bilməz**. Vicdanlı sahibin bunları əvəzli və ya əvəzsiz əldə etməsinin və ya onların mülkiyyətçinin iradəsindən asılı olaraq sahibliyindən çıxıb-çıxmamasının hüquqi əhəmiyyəti yoxdur (MM-in 182-ci maddəsinin 2-ci bəndi). Hətta pulu və qiymətli kağızları mülkiyyətçi itirsə və ya mülkiyyətçidən onlar oğurlansa da vicdanlı əldə edəndə qalır[2].

Pul və qiymətli kağızlar dövriyyə vasitələri hesab olunur. Ona görə də dövriyyənin etibarlı olması üçün əlavə təminatın olması tələb edilir. Göstərilən qayda pul və adsız qiymətli kağızların dövriyyəsinin möhkəmliyinin təmin edilməsinə yönəlir. Belə ki, bu qayda mülki dövriyyə iştirakçıları tərəfindən onlara yüksək etibar göstərmələrini təmin edir. **Pul və adsız qiymətli kağızlar yalnız vicdansız əldə edəndən vindikasiya iddiası ilə geri tələb edilə bilər**.

Vindikasiyanı istisna edən ikinci hal auksionda özgəninkiləşdirilmiş (yəni əldə olunmuş) əşyalara aiddir. Belə əşyalar mülkiyyətçi tərəfindən heç bir halda tələb edilə bilməz (MM-in 182-ci maddəsinin 2-ci bəndi). Belə ki, əgər əşya auksionda satın alınarsa, həmin əşyanın vicdanlı əldə edəndən geri alınmasına yol verilmir; o, əşya üzərində mülkiyyət hüququ əldə edir. Bu qayda bəzi xarici ölkələrin qanunvericiliyində də nəzərdə tutulmuşdur (Almaniya MQ-nin 935-ci paraqrafı; Yaponiya MM-inin 194-cü maddəsi)[3].

Vindikasiya iddiası ilə sahiblikdən əşya geri alındığı hallarda mülkiyyətçi ilə qanunsuz sahib arasında mübahisələr yarana bilər. Bu mübahisələr əşya geri qaytarılarkən, əsasən, hesablaşma məsələlərini əhatə edir. Mübahisə obyekti (predmeti) olan məsələlərə daxildir: əşyadan götürülən gəlirlər; əşyaya sərf olunan zəruri məsrəflər (xərclər); əşyaya edilən yaxşılaşdırmalar. Bu münasibətlərin həll edilməsi qanunla tənzimlənir (MM-in 157-ci maddəsinin 5-ci, 6-cı və 7-ci bəndləri).

Tərəflər arasında mübahisəyə səbəb olan **birinci məsələ əşyadan götürülən gəlirlərin hüquqi taleyi və müqəddəratından ibarətdir**. Belə ki, qanunsuz sahiblər əşyaya sahibliyi həyata keçirdikləri vaxt ondan gəlir götürə bilərlər. «Gəlir götürmə»ni genişləndirici təfsir etməklə «fayda əldə etmək» mənasında başa düşmək lazımdır. **Fayda əldə etmək** dedikdə, qanunsuz sahiblikdə olan əşyadan istehsal, təsərrüfat məqsədləri üçün istifadə edilməsi nəticəsində əldə edilən yeni əşyalar başa düşülür.

[1] Bu kimi misallar barədə daha ətraflı: *Иванова Н.Р.* Зашита права собственности в арбитражном суде. М., 1999, с. 114-115.

[2] Гражданское и торговое право зарубежных стран. Учебное пособие / Отв. ред. *В.В.Безбах, В.К.Пучинский.* М., 2004, с. 242.

[3] Гражданское и торговое право капиталистических стран. Учебное пособие / Отв. ред. *В.П.Мозолин, М.И.Кулагин.* М., 1980, с. 138.

Söhbət bəhər, məhsul, gəlir (məhdud mənada) kimi yeni yaradılmış əşyalardan gedir[1]. Məsələn, qanunsuz sahiblikdə qoyun olarsa, ondan əldə edilən bala, yun və süd, yəni bəhərlər geniş mənada gəlir hesab edilir. Əşyanın artımının nəticəsi olan məhsul da gəlir (geniş mənada) sayılır. Məhdud mənada gəlir dedikdə, əşyanın mülki dövriyyədə iştirakı nəticəsində əldə edilən pul və digər ödənişlər başa düşülür. Məsələn, icarə haqqı (əşyanın icarəyə verilməsi), lotereya biletinin uduşundan əldə edilən gəlirlər və s.

Gəlirlərin qaytarılması sahibliyin növündən asılı olaraq müəyyən edilir. Belə ki, qanunsuz sahibliyi həyata keçirən **vicdansız əldə edən əşyanın onda olduğu bütün vaxt müddəti ərzində onun götürdüyü bütün gəlirləri qaytarmağa borcludur**. Əşyadan götürülməli olan bütün gəlirlər də hesaba salınır. Bu mücərrəd xarakterli gəlirlərin əvəzinin ödənilməsinin miqdarını mülkiyyətçi əsaslandırmalıdır. Mülkiyyətçi gəlirlərin naturada verilməsini (məsələn, malqaranın balasını) tələb edə bilər. İşə məhkəmədə baxılan zaman gəlirin istehlak olunduğu və ya özgəninkiləşdirildiyi hallarda, vicdansız əldə edən gəlirin əvəzini (dəyərini) pulla ödəyir. Bundan başqa, vicdansız sahib əmlakın mülkiyyətçisinə əmlakın onda olması ilə bağlı bütün zərərin əvəzini ödəməlidir (MM-in 157-ci maddəsinin 5-ci bəndi).

Vicdanlı əldə edənin gəliri qaytarması isə müəyyən xüsusiyyətlərlə bağlıdır. Belə ki, o, əşyanın onda olduğu bütün vaxt müddəti üçün əşyadan götürülən gəlirləri qaytarmır. Vicdanlı əldə edən yalnız qanunla nəzərdə tutulan müəyyən bir vaxt müddəti ərzində əşyanın onda olmasına görə gəlirləri qaytarmağa borcludur. Başqa sözlə desək, **vicdanlı sahib onun əmlaka sahibliyinin qanunsuz olduğunu bildiyi və ya bilməli olduğu vaxtdan və ya əmlakın qaytarılmasına dair mülkiyyətçinin iddiası üzrə çağırış vərəqəsini aldığı vaxtdan götürdüyü bütün gəlirləri qaytarır**. Götürülməyən, lakin götürülməli olan bütün gəlirlər də hesaba alınır, yəni mücərrəd xarakterli bu gəlirləri vicdanlı əldə edən qaytarmağa borcludur. Əgər gəlir istehlak olunmuşsa və ya özgəninkiləşdirilmişsə, onun vəzifəsidir ki, gəlirin əvəzini ödəsin.

Tərəflər arasında mübahisə predmeti ola bilən **ikinci məsələ** əşyaya sərf olunan **zəruri məsrəflərlə (xərclərlə)** bağlıdır. Zəruri xərclər dedikdə, əşyanın yararlı, normal vəziyyətdə saxlanılmasını şərtləndirən məsrəflər başa düşülür. Buraya əşyanı saxlamaq, ona qulluq göstərmək, bəsləmək, yemləmək, cari və əsaslı təmir etmək xərcləri və s. daxildir. Məsələn, qanunsuz sahiblikdə mal-qara olarsa, onun yemlənməsinə və bəslənməsinə, baytar həkiminə çəkilən məsrəflər zəruri xərclər hesab edilir. Minik avtomobili qanunsuz sahibliyin obyekti olarsa, onun təmirinə çəkilən xərclər zəruri xərclər sayılır.

Mülkiyyətçinin borcudur ki, **qanunsuz sahiblikdə olan əşyaya çəkilən zəruri xərcləri ödəsin**. Özü də o, bu xərcləri qanunsuz sahibliyin növündən asılı olmayaraq ödəyir. Bu, o deməkdir ki, həm vicdanlı əldə edən, həm də vic-

[1] Almaniya Mülki Qanunnaməsinə (§ 100) və sivilistika doktrinasına görə, «əşyadan istifadə edilməsindən götürülən fayda» anlayışına daxil edilir: təbii bəhər; mülki bəhər (gəlir); təsərrüfat gəliri (əşyadan təyinatına uyğun əldə edilən gəlir); bilavasitə fayda (məsələn, evdə yaşamaqla və ya paltarı geyməklə ondan faydalanmaq). Bu barədə bax: Германское право. Гражданское уложение. Часть 1. М., 1996; *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 47.

dansız əldə edən zəruri xərclərin kompensasiya edilməsini mülkiyyətçidən tələb edə bilər. Bütün zəruri xərclərin əvəzi ödənilmir. Yalnız o zəruri xərclərin əvəzi ödənilir ki, bu xərclər əşyadan gəlirin mülkiyyətçiyə düşdüyü vaxtdan sonra çəkilmiş olsun[1].

Qanunsuz sahiblərin çəkdiyi zəruri xərclərin mülkiyyətçi tərəfindən kompensasiya edilməsi xaricən qeyri-adi görünə bilər. Belə ki, sahibliyi qanunsuz əsaslarla həyata keçirən şəxslərə onların çəkdikləri zəruri xərclərə görə nisbi uyğun kompensasiya ödənilməsi çox qəribə görünür. Lakin məsələni dərindən və hərtərəfli nəzərdən keçirdikdə görürük ki, bu qayda mülkiyyətçinin əsassız olaraq varlanmasının qarşısını alır. Əgər mülkiyyətçi zəruri xərclərin əvəzini ödəməsə, o, əsassız varlanan şəxs hesab edilir.

Qeyri-zəruri xərclərin əvəzi ödənilmir. Qeyri-zəruri xərclər dedikdə, əşyanın yararlı və normal vəziyyətdə saxlanılması ilə bağlı olmayan məsrəflər başa düşülür. Məsələn, qanunsuz sahibliyin obyekti olan minik avtomobilinə qanunsuz sahib onun saxlanılması ilə bağlı olmayan lazımsız xərclər çəkir.

Tərəflər arasında mübahisə predmeti ola bilən **üçüncü məsələ** əşyaya edilən **yaxşılaşdırmalara** aiddir. Yaxşılaşdırmalar dedikdə, əşya üzərində həyata keçirilən elə əlavə və dəyişiklik başa düşülür ki, bunun nəticəsində əşyanın keyfiyyəti yüksəlir, istifadə (istismar) xüsusiyyətləri yaxşılaşır, dəyəri artır və s. Məsələn, qanunsuz sahib minik avtomobilinə onu tozdan qorumaq üçün örtük (çexol) alır, maqnitofon (səsyazan aparat) qoyur. Belə hallarda qanunsuz sahibin həyata keçirdiyi yaxşılaşdırmaların hüquqi taleyi necə olur?

Qanun yalnız vicdanlı əldə edənin etdiyi yaxşılaşdırmaların hüquqi müqəddəratını tənzimləyir (MM-in 157-ci maddəsinin 7-ci bəndi). **Yalnız vicdanlı əldə edən etdiyi yaxşılaşdırmalar barədə tələb irəli sürə bilər**.

Vicdanlı əldə edən əşyaya iki cür yaxşılaşdırmalar edə bilər. Birinci növ yaxşılaşdırmaları əşyadan ayırmaq mümkündür. Əgər əşyaya edilən yaxşılaşdırmalar zərər vurulmadan ondan ayrıla bilərsə, onda vicdanlı əldə edən bu yaxşılaşdırmaları özündə saxlayır, yəni özü üçün götürür. İkinci növ yaxşılaşdırmaları əşyadan ayırmaq mümkün deyil. Belə halda bu yaxşılaşdırmaların

[1] Bu qaydanın qüsurlu olmasına hələ sovet hüquq ədəbiyyatında bəzi alimlər tərəfindən nəzər-diqqət yetirilmişdir. Belə ki, həmin qayda əmlakdan gəlirin vicdanlı əldə edənə düşdüyü vaxtdan zəruri xərclərin ödənilməsini nəzərdə tutmur. Qanunda belə qayda nəzərdə tutulsaydı, daha məqsədəmüvafiq və ağlabatan olardı. Belə ki, əşyaya çəkilən zəruri xərclərin ondan götürülən gəlir hesabına təmin edilməsi hamıya məlumdur. Lakin aydın məsələdir ki, əşyadan həmişə gəlir əldə etmək mümkün olmur. Buna görə də əşyaya zəruri xərclər çəkən, lakin ondan gəlir götürməyən vicdanlı əldə edən pis vəziyyətdə qalmış olur. Çəkilən zəruri xərclərin əvəzinin vicdansız əldə edənə ödənilməsinə gəldikdə isə qeyd etmək lazımdır ki, bu, zahirən qeyri-adi, qeyri-məntiqi görünə bilər. Ona görə ki, qanunsuz sahib vicdansız olduğuna görə gərək onun hüquqları qanunla qorunmasın. Lakin məsələyə daha dərindən yanaşdıqda görürük ki, çəkilən zəruri xərclərin vicdansız əldə edənə kompensasiya edilməsi son nəticədə mülkiyyətçinin mənafeyinə xidmət etmiş olur. Belə ki, bu qayda əşyaya təsərrüfatsızcasına münasibət göstərilməsinin qarşısını alır. Ədəbiyyatda göstərilən qaydaların qüsurlu olmasını qeyd edən müəlliflərin mövqeyi ilə tanış olmaq üçün bax: *Б.Б.Черепахин.* Виндикационные иски в советском праве // Ученые записки Свердловского юрид. инс. 1945. Том 1, с. 62; *Ю.К.Толстой.* Спорные вопросы учения о праве собственности // Сборник ученых трудов Свердловского юрид. института. 1970. Вып. 13, с. 81; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 475.

hüquqi taleyi həmin yaxşılaşdırmaların əvəzinin mülkiyyətçi tərəfindən ödənilməsilə həll edilir, yəni yaxşılaşdırmaların əvəzi kompensasiya edilir, yaxşılaşdırmalar üçün çəkilən xərclərin əvəzi ödənilir. Lakin kompensasiyanın məbləği əşyanın dəyərindən çox olmamalıdır.

Vicdansız əldə edənin əşyaya etdiyi yaxşılaşdırmaların hüquqi taleyinə gəldikdə isə göstərmək lazımdır ki, qanun bu münasibəti tənzimləmir. Lakin məntiqi təfsir üsulunu tətbiq etməklə həmin məsələyə aydınlıq gətirmək mümkündür. Bu üsula görə, vicdansız əldə edən əşyaya zərər yetirmədən ondan ayrıla bilən yaxşılaşdırmaları mülkiyyətçiyə vermir, özündə saxlayır[1]. Əşyadan ayrıla bilməyən yaxşılaşdırmalara çəkdiyi xərclərin əvəzinin ödənilməsini isə o, tələb edə bilməz. Bu yaxşılaşdırmalar əvəzsiz olaraq mülkiyyətçinin mülkiyyətinə keçir. Axı, vicdansız əldə edən öz adından görünür ki, vicdansız sahibdir. Alimlərin çoxu da bu fikirdədirlər (B.B.Çerepaxin, O.S.İoffe, Y.K.Tolstoy, A.P.Sergeyev və b.), yəni sivilistika doktrinasının bu məsələ barədə mövqeyi belədir.

Qanunsuz sahib əşyanın pisləşməsinə görə məsuliyyət daşıyır. Belə halda məsuliyyət sahibliyin vicdanlı sahiblik və ya vicdansız sahiblik olmasından asılı olmayaraq müəyyən edilir. Onların hər ikisi delikt (ziyan varmaq nəticəsində əmələ gələn) məsuliyyəti haqqında ümumi qaydalar əsasında məsuliyyət daşıyırlar (MM-in 59-cu fəsli).

Vicdansız sahib əşyanın onda olduğu bütün vaxt ərzində əşyanın pisləşməsinə görə məsuliyyət daşıyır. Vicdanlı sahibin isə bundan fərqli olaraq, məsuliyyəti məhdudlaşır. Belə ki, o, əşyaya sahibliyin qanunsuz olduğu bildiyi və ya bilməli olduğu vaxtdan etibarən və ya əşyanın qaytarılmasına dair mülkiyyətçinin iddiası üzrə çağırış vərəqəsini aldığı vaxtdan etibarən əşyanın pisləşməsinə görə məsuliyyətə cəlb edilə bilər.

Beləliklə, inkişaf etmiş ölkələrin, habelə Azərbaycan Respublikasının mülki hüququ vicdanlı əldə edənin mənafeyinin müdafiəsini təmin etmək üçün mülkiyyətçinin əşyanı vindikasiya etməsini (tələb etməsini) məhdudlaşdırır. Bizim ölkə qanunvericiliyi belə bir prinsipdən çıxış edir ki, **əşya yalnız vicdansız əldə edəndən vindikasiya oluna bilər.** Bu prinsip dünyada mövcud olan bütün hüquq sistemlərinə məlumdur.

Bizim ölkə qanunvericiliyi həm də belə bir prinsip müəyyənləşdirir ki, **mülkiyyətçi həmişə vicdanlı əldə edəndən əşyanı vindikasiya edə bilməz**. Belə ki, həm mülkiyyətçinin, həm də vicdanlı əldə edənin mənafeyi qorunmalıdır. Mülkiyyətçi və vicdanlı əldə edənin mənafeləri arasında toqquşmanı aradan qaldırmaq üçün mülki qanunvericilik iki halı nəzərə alır[2]: birinci, əşya mülkiyyətçinin sahibliyindən hansı yolla (onun iradəsindən asılı olaraq və ya asılı olmayaraq) çıxmışdır; ikincisi, sahib əşyanı əldə edərkən vicdanlı, yoxsa vicdansız olmuşdur.

[1] Görkəmli alim O.A.Krasavçikovun redaktəsi ilə yazılan dərslikdə bu barədə başqa fikir söylənilir (bax: Советское гражданское право. Учебник. Том 1. М., 1986, с. 406). Burada göstərilir ki, əşya ona edilmiş yaxşılaşdırmalarla birlikdə mülkiyyətçiyə verilməlidir. Vicdansız əldə edən yaxşılaşdırmaların əvəzinin ödənilməsini tələb edə bilməz.

[2] *Иоффе О.С.* Советское гражданское право. М., 1967, с. 476-477; Советское гражданское право. Учебник. Том 1 /Отв. ред. *В.П.Грибанов, С.М.Корнеев*. М., 1979, с. 308.

2. Neqator iddia (Beseitigungs und Unterllassungsansprush)

Mülki qanunun ənənəvi olaraq nəzərdə tutduğu əşya hüquq iddiasının (petitor iddiasının, yəni mülkiyyət iddiasının) növlərindən biri neqator iddia («actio negatoria» - inkar edən iddia) adlanır. 1964-cü il MM-i neqator iddiaya ayrıca norma (147-ci maddə) həsr etmişdi. Bu iddia növünü dünyanın bir çox ölkələrinin (RF-in, İtaliyanın, Kanadanın Kvebek əyalətinin, Almaniyanın və s.) qanunvericiliyi də nəzərdə tutur. Almaniya qanunvericiliyinə görə, neqator iddia təsiri aradan qaldırmaq və ya təsirdən çəkinmək barədə tələbdir (Beseitigungs und Unterllassungsansprush). İngilis-amerikan hüquq ailəsi bu iddia növünü tanımır. Bu hüquq ailəsi yalnız sahiblik iddiasını nəzərdə tutur. Neqator iddia Fransanın Napoleon Mülki Məcəlləsinə də məlum deyil. Amma bu ölkənin sivilistika doktrinası və ədalət mühakiməsi (məhkəmə praktikası) bu iddia növünün tətbiq edilməsinə yol verir. Hollandiya qanunvericiliyi neqator iddiasını nəzərdə tutmur; onun əvəzinə zərərin əvəzinin ödənilməsi barədə iddiadan istifadə olunur.

Neqator iddianın tarixi kökləri və mənşəyi qədim Roma hüququ ilə bağlıdır. O, mülkiyyətçinin mülkiyyət hüququnun həyata keçirilməsi qanunsuz olaraq məhdudlaşdırıldığı hallarda verilirdi. Lakin əşya mülkiyyətçinin faktiki sahibliyində qalırdı. Belə qanunsuz hərəkətlərin kəsilməsi məqsədilə mülkiyyətçi neqator iddia verə bilərdi. Bu iddia Roma hüququnda «actio negatoria» (latınca hərfi mənada – «cavabdehin belə hərəkətlər etməsi hüququnu inkar edən iddia») anlayışı ilə əhatə edilmişdi. «Actio negatoria» hüquq pozuntusu törədən istənilən şəxsə qarşı verilə bilən iddia hesab edilirdi[1].

Neqator iddia təkcə mülkiyyət hüququnun müdafiəsi üçün tətbiq edilmir. Ondan həm də məhdud əşya hüququnun, məsələn, servitut hüququnun müdafiəsində istifadə olunur. Məhz bu səbəbdən Roma hüququnda neqator iddia **«negatoria servitutis» (servitut neqatoru)** adlanırdı. Servitut neqatoru mülkiyyətçinin verdiyi elə bir iddia idi ki, bunun nəticəsində onun mülkiyyət hüququnun servitutla yüklənməsi mümkün olmurdu.

Neqator iddianın anlayışı MM-in 157-ci maddəsinin 4-cü bəndində verilmişdir. **Neqator iddiasına görə, mülkiyyətçi sahiblikdən məhrum edilməklə bağlı olmayan pozuntulara son qoymağı pozuntu törədəndən məhkəmə vasitəsilə tələb edir**. Bu iddia mülkiyyətçinin əşyaya sahiblik hüququnun itirilməsi ilə bağlı deyil. Neqator iddiası yalnız mülkiyyət hüququnun həyata keçirilməsinə mane olan halların aradan qaldırılması barədə tələbdir. Özü də dərhal qeyd etməliyik ki, bu hallar əşyaya sahiblik səlahiyyətinin yox, yalnız əşyadan istifadə və onun barəsində sərəncam vermək səlahiyyətlərinin həyata keçirilməsinə mane olur. Axı, neqator iddianın verilməsinə əsas olan həmin hallar mülkiyyətçinin əşyaya sahiblik səlahiyyətini pozmur və onu bu səlahiyyətdən məhrum etmir. Deməli, neqator iddia əşyaya sahiblik səlahiyyətinə malik olan **mülkiyyətçinin əşyadan istifadə və onun barəsində sərəncam vermək səlahiyyətlərinin həyata keçirilməsinə mane olan halların aradan qaldırılması barədə tələbdir**[1]. Bu iddia o halda verilir ki, pozulmuş hüquqlar sahiblikdən məhrum edilmə ilə əlaqədar və bağlı olmasın (MM-in 157-ci maddəsinin 4-cü bəndi)[2]. Neqator iddia sahiblikdən məhrum etmə ilə bağlı olmayan pozuntudan mülkiyyət hüququnun müdafiəsi üçün verilən tələbdir.

Əşyadan istifadə səlahiyyətinin pozulması halına çox misal çəkmək olar: paylı mülkiyyətdə olan yardımçı əşyadan (məsələn, anbardan, qarajdan və s.) istifadə olunmasını qadağan etmək; mülkiyyətçinin yaşayış evində otaqlardan birini özbaşına tutmaq; qonşunun evinə işıq düşməsinə mane olan hasar tikmək; tikinti təşkilatının vətəndaşa məxsus olan yaşayış evinin həyətinə dəmir-beton məmulatları tökmək və ya orada çala, xəndək qazmaq. Məsələn, tikinti təşkilatı vətəndaşa məxsus olan qarajın qabağına tikinti materialları tökür. Bunun nəticəsində vətəndaş qarajda olan minik avtomobilindən istifadə edə bilmir. Göründüyü kimi, minik avtomobili vətəndaşın sahibliyindən çıxmır, yəni vətəndaş minik avtomobilinə sahiblik etməkdən məhrum olmur; o, yalnız minik avtomobilindən istifadə etmək səlahiyyətini həyata keçirə bilmir. Buna görə də vətəndaş tikinti təşkilatına neqator iddiası verir. Başqa bir misalda vətəndaş öz torpaq sahəsində tikili ucaldır və bunun nəticəsində qonşunun sahəsinə işıq düşmür; qonşu həmin sahədən təsərrüfat məqsədləri üçün normal istifadə edə bilmir. Odur ki, qonşu neqator iddia verir.

Əşya üzərində sərəncam vermək səlahiyyətinin pozulmasını şərtləndirən hallara da rast gəlmək olar. Belə hallarda mülkiyyətçi qanunsuz olaraq əşya üzərində sərəncam vermək səlahiyyətini həyata keçirə bilmir. Məsələn, borclunun əmlakına həbs qoyularkən başqasına (məsələn, ər-arvaddan birinə, qonşuya) məxsus olan əşya təsadüfi olaraq və səhvən siyahıya düşür. Həmin şəxs siyahıya salınan əşya barəsində sərəncam vermək səlahiyyətini həyata keçirə bilmir [3]. Başqa bir misalda vergi orqanı maliyyə sanksiyası kimi müəssisənin bank hesabındakı pul vəsaiti üzrə əməliyyat aparmasını qanunsuz olaraq dayandırır. Müəssisə belə məhdudiyyətin aradan qaldırılması üçün tələb

---

[1] Roma hüququnda neqator iddianın əsas xüsusiyyətləri barədə bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 389; *I.B.Novitski.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 90, *И.Пухан, М.Поленак-Акимовская.* Римское право. Учебник. М., 2000, с. 166.

[1] Müəlliflərdən prof. A.P.Sergeyev göstərir ki, neqator iddia əşyaya sahiblik səlahiyyətinin həyata keçirilməsinə mane olan halların aradan qaldırılması üçün də verilə bilər. Aydın bir həqiqətdir ki, bu fikir həqiqətdən çox uzaqdır (Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 477). Neqator iddianın yalnız əşyadan istifadə və onun barəsində sərəncam vermək səlahiyyətlərilə bağlı olması fikrini dəstəkləyən müəlliflər də var (Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 341; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 310).

[2] Neqator iddianı nəzərdə tutan göstərilən bənddə «əşyanı götürmək və ya ondan məhrum etmək» kimi qeyri-münasib anlayış işlədilir. Bunun üçün qanunvericilik «sahiblikdən məhrum etmə» adlı hüquqi termin işlədir. Neqator iddiaya leqal anlayış verən Almaniya qanunvericiliyində də məhz bu termindən istifadə olunur: mülkiyyət hüququnun sahiblikdən məhrum etmə ilə bağlı olmayan pozulması halında və ya restitusiyadan imtina olunan halda mülkiyyətçi onun hüququnun həyata keçirilməsinə mane olan şəxsdən pozuntunun ləğv edilməsini tələb edə bilər (Almaniya Mülki Qanunnaməsinin 1004-cü paraqrafı).

[3] Müəlliflərdən prof. E.A.Suxanov bu barədə başqa fikir irəli sürür. Alimin fikrincə, qanunsuz olaraq siyahıya daxil edilmiş əşyanın alınması barədə verilən tələb xüsusi xarakterə malik olub, mahiyyətcə, mülkiyyət (mülki) hüququnun tanınması barədə iddiadır (bax: *Y.Mammeu, E.A.Суханов.* Основные положения права собственности. М., 1999, с. 366-367; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 613).

irəli sürür. Belə hallarda, söz yox ki, neqator iddia verilir[1].

Qeyd etmək lazımdır ki, bəzən mülkiyyətçi əmlakına sərəncam vermək imkanından məhrum olur; amma o, əmlaka sahibliyi və ondan istifadəni davam etdirir. Belə hüquq pozuntusu məhz neqator iddianın vasitəsilə aradan qaldırılır; bu iddia növü eyni zamanda həm də mülkiyyətçinin öz əmlakına sərəncam verməsinə mane olan halları aradan qaldırmaq məqsədi güdür. Əmlaka həbs qoyularkən siyahı tərtib olunan zaman belə vəziyyət yarana bilər, yəni mülkiyyətçi öz əmlakına sərəncam vermək hüququnu həyata keçirə bilmir. Belə ki, iddianı təmin etmək və ya borclunun əmlakına tələb yönəltmək üçün onun əmlakına həbs qoyula bilər; bu zaman borclunun əmlakı siyahıya alınır. Çox vaxt siyahıya başqasına məxsus olan əmlak daxil edilir. Belə hala ən çox ər-arvaddan birinin şəxsi (xüsusi) əmlakının (məsələn, vərəsəlik və ya bağışlama yolu ilə ər-arvaddan birinə keçmiş əmlakın) siyahıya düşməsi zamanı rast gəlinir. Şübhəsiz, şəxsi (xüsusi) əmlakı siyahıya daxil edilən ər və ya arvad həmin əmlakın sahibi və istifadəçisi kimi qalır; amma o, həmin əmlaka sərəncam vermək imkanından məhrum edilir.

Bu kimi hallarda əmlakın siyahıdan çıxarılması və ya həbsdən azad olunması barədə iddia verilir ki, həmin iddia neqator iddia adlanır. Bəzən əmlakın həbsdən azad olunması üçün neqator iddia yox, vindikasiya iddiası verilir. Belə ki, əgər həbs nəticəsində əmlak mülkiyyətçinin sahibliyindən çıxarsa və o, həmin əmlaka sahiblik hüququndan məhrum olarsa, vindikasiya iddiası verilir[2].

Neqator iddianın verilməsi üçün bir neçə şərtə əməl edilməsi tələb olunur. **Birinci şərt** ondan ibarətdir ki, sahiblik səlahiyyətindən başqa, üçüncü şəxs mülkiyyətçinin **«üçlük» səlahiyyətindən ikisinin**, yəni **əşyadan istifadə** və **onun barəsində sərəncam vermək səlahiyyətlərinin** həyata keçirilməsinə mane olan hərəkətlər etməlidir. **İkinci şərt** ondan ibarətdir ki, mülkiyyətçi üçüncü şəxsdən bu **hərəkətlərə son qoymağı** tələb edir. **Üçüncü şərtə görə**, üçüncü şəxsin etdiyi hərəkət **hüquqazidd olmalıdır**. Özü də hüquqazidd hərəkətlər təqsirin həm qəsd, həm də ehtiyatsızlıq formasında edilə bilər. Neqator iddianın anlayışını nəzərdə tutan normanın mahiyyətindən görünür ki, mülkiyyətçi əşyaya sahibliklə bağlı olmayan hər hansı pozuntunun (o cümlədən qeyri-təqsirli hərəkətlərin) aradan qaldırılmasını üçüncü şəxsdən tələb edə bilər. Odur ki, pozuntunun həm təqsirli hərəkətlə (qəsdən və ya ehtiyatsızlıqla), həm də qeyri-təqsirli hərəkətlə törədilməsi mümkündür; mülkiyyətçinin istifadə və sərəncam səlahiyyətlərindən birinin pozulması faktı kifayətdir. O ki qaldı maneələrin başqa şəxslərin hüquqauyğun hərəkətləri nəticəsində yaranmasına, qeyd etməliyik ki, əgər mülkiyyətçi, belə maneələrin aradan qaldırılması barədə neqator iddia verərsə, həmin iddia təmin olunmayacaqdır[1].

Dördüncü şərtə görə, üçüncü şəxsin törətdiyi pozuntu mülkiyyətçi tərəfindən **iddia verilən ana kimi mövcud olmaqda davam edir**. Əgər üçüncü şəxs pozuntunu kəsərsə, onda neqator iddianın verilməsindən söhbət gedə bilməz. Belə halda mülkiyyətçi vurulmuş zərərin ödənilməsi barədə tələb irəli sürür. **Beşinci şərtə görə**, neqator iddia verən tərəflə pozuntu törədən şəxs **bir-birilə öhdəlik (nisbi) hüquq münasibətində olmamalıdır**. Əgər onlar bir-birilə öhdəlik (nisbi) hüquq münasibətində olarsa, belə halda öhdəlik hüquq iddiası verilir. Məsələn, podrat müqaviləsi öhdəlik hüquq münasibətinə aiddir. Müqavilədə podratçı rolunda çıxış edən təmir-tikinti idarəsi vətəndaşın evini təmir edir. Həmin idarə evin giriş hissəsinə (həyətinə) çoxlu dəmir-beton məmulatları düzür. Vətəndaş evdən istifadə edə bilmir. Belə halda mübahisə podrat müqaviləsi əsasında həll edilir, yəni podratçıya öhdəlik hüquq iddiası verilir. Əgər podratçı (tikinti təşkilatı) onunla müqavilə münasibətində olmayan vətəndaşın mülkiyyət hüququnu pozarsa, onda məlum məsələdir ki, əşya hüquq iddiası (neqator iddia) veriləcəkdir. Başqa bir misalda podrat müqaviləsinə əsasən vətəndaşın mənzilini əsaslı təmir edən tikinti təşkilatı başlanmış işi yarımçıq qoyur; bunun nəticəsində vətəndaş mənzildən istifadə edə bilmir. Belə halda o, tikinti təşkilatına neqator yox, müqavilə iddiası verə bilər.

Altıncı şərtə görə, üçüncü şəxsin törətdiyi hüquq pozuntusu **subyektiv mülkiyyət hüququnun pozulmasına səbəb olmasın**. Mülkiyyətçinin subyektiv mülkiyyət hüququnun pozulması hallarında neqator iddia verilmir. Subyektiv mülkiyyət hüququnun pozulması dedikdə, mülkiyyətçinin üçlü səlahiyyəti həyata keçirmək imkanından qanunsuz olaraq məhrum olması başa düşülür. Məsələn, əşya mülkiyyətçinin sahibliyindən çıxanda belə vəziyyət yaranır. Belə hallarda vindikasiya iddiası verilir.

Vindikasiya iddiası kimi neqator iddia da **elementlərdən** ibarətdir. **Tərəflər** bu iddianın elementlərindən biri hesab olunur. Neqator iddia üzrə iddiaçı və cavabdeh iddianın tərəfləri sayılır. **İddiaçı rolunda** əşyanın mülkiyyətçisi çıxış edir. Neqator iddiası hüququna mülkiyyətçi ilə bərabər, həm də əşyanın titul (hüquqi əsası olan) sahibi, yəni məhdud əşya subyekti (superfitsiar, uzufruktuar, servitut alan) və ya öhdəlik hüquq subyekti (kirayəçi, icarəçi, saxlayıcı və s.) malik ola bilər. İddiaçı, bir qayda olaraq, əşyaya sahibliyə malik olan, lakin əşyadan istifadə etmək və ya onun üzərində sərəncam vermək səlahiyyətlərindən məhrum olan şəxslərdir. O, **neqator iddiasının subyekti** adlanır.

Neqator iddiası cavabdehə verilir. O, **neqator iddiası üzrə vəzifə subyekti** adlanır. **Cavabdeh** dedikdə, öz hüquqazidd əməli ilə mülkiyyət hüququnun və ya titul sahibliyi hüququnun (məhdud əşya və ya öhdəlik hüququnun) normal həyata keçirilməsinə mane olan şəxs başa düşülür. O, elə bir subyektdir ki, əşyaya sahiblik səlahiyyətindən savayı, digər səlahiyyətlərin, yəni əşyadan istifadə etmək və ya əşya barəsində sərəncam vermək səlahiyyətlərinin həyata keçirilməsinə mane olmağa yönələn hüquqazidd hərəkətlər edir.

Neqator iddiasının predmeti onun elementlərindən biridir. İddiaçının

---

[1] Müəlliflərin əksəriyyəti siyahıdan əmlakın çıxarılması barədə tələbi neqator iddia hesab edirlər (Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 342). Prof. A.P.Sergeyev isə bu iddianı öz maddi-hüquqi mahiyyətinə görə, hər şeydən əvvəl, neqator iddia hesab edir (Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 428). N.M.Frolova isə siyahıdan əmlakın çıxarılması barədə iddianı mülkiyyət hüququnun tanınması haqqında iddiaya şamil edir (Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 433).

[2] Bax: п. 28 постановления Пленума ВАСРФ от 25 февраля 1998 г. № 8; Гражданское право России. Общая часть. Курс лекций / Отв. ред. *О.Н.Садиков.* М., 2001, с. 570.

[1] Советское гражданское право. Учебник. Том 1 /Под ред. *В.П.Грибанова, С.М.Корнеева.* М., 1979, с. 312.

məhkəmədən baxılmasını və həll olunmasını xahiş etdiyi maddi-hüquqi tələb bu iddianın predmetini təşkil edir. Həmin tələb isə sahiblikdən məhrum edilməklə əlaqədar olmayan pozuntuların aradan qaldırılmasından ibarətdir.

Neqator iddiasının əsası dedikdə, iddiaçı tərəfindən məhkəməyə verilən tələbin əsaslandığı hallar başa düşülür. Bu hallar özündə iki əsas cəhəti əhatə edir: iddiaçının əşyadan istifadə və onun barəsində sərəncam vermək səlahiyyətlərini şərtləndirən hallar; üçüncü şəxsin bu səlahiyyətlərin həyata keçirilməsinə mane olan hərəkətlərini təsdiq edən hallar. İddiaçı bu iki halı əsaslandırmağa borcludur. Lakin iddiaçı cavabdehin etdiyi hərəkətin hüquqazidd olub-olmamasını sübut etməyə və əsaslandırmağa borclu deyil. Bu halın müəyyən edilməsi iddianın əsasına daxil deyil. Ehtimal olunur ki, cavabdeh öz hərəkətinin hüquqauyğun olmasını sübut edənə kimi, onun hərəkəti hüquqazidd sayılır.

Neqator iddiasının məqsədi mülkiyyətçinin və digər titul sahibinin əşyaya sahiblikdən məhrum etmə ilə bağlı olmayan digər səlahiyyətlərini (istifadə və sərəncam səlahiyyətlərini) müdafiə etməklə pozulmuş hüquqları bərpa etməkdən ibarətdir. Bu iddianın məqsədi üç niyyətlə şərtlənir: birincisi, **hüququ pozulmuş hərəkətlərin qarşısını almaq** (məsələn, mülkiyyətçinin evini özbaşına tutan şəxsi həmin evdən çıxarmaq məqsədi); ikincisi, **gələcəkdə mülkiyyət hüququnun pozulmasına gətirib çıxara bilən hərəkətlərin qarşısını qabaqcadan almaq məqsədi** (məsələn, əşyadan istifadəyə mane ola biləcək tikintinin aparılmasını qadağan etməyə nail olmaq məqsədi); üçüncüsü, **hüququn pozulması anına kimi mövcud olan vəziyyəti bərpa etmək üçün müəyyən hərəkət etməyi cavabdehə həvalə etmək** (məsələn, mülkiyyətçinin evinin pəncərəsi qarşısında tikilən hasarı sökmək və s.).

Yuxarıda göstərdiyimiz altı şərt mövcud olduqda iddiaçı məhkəməyə neqator iddiası verir. Özü də neqator iddiaya iddia müddəti şamil edilmir (MM-in 384-cü maddəsinin 4-cü bəndi). Cavabdeh öz hərəkətinin hüquqauyğun olmasını sübut etməlidir. Əgər sübut etməsə, neqator iddia təmin edilir.

Neqator iddianı təmin edən məhkəmə pozuntu törədən şəxsin üzərinə yaratdığı maneəni aradan qaldırmaq vəzifəsi qoyur. Bu vəzifənin icra edilməsi nəticəsində mülkiyyətçi əşya barəsində istifadə və sərəncam səlahiyyətlərini həyata keçirmək imkanı əldə edir.

Qeyd etməliyik ki, neqator iddia, bir qayda olaraq, daşınmaz əşyalara mülkiyyət hüququnu müdafiə etmək üçün tətbiq edilir. Müasir şəraitdə torpağın dövriyyəyə cəlb edilməsi ilə bağlı olaraq bu iddia növündən istifadə daha geniş xarakter almaqdadır.

§ 3. Mülkiyyət hüququnun tanınması barədə iddia

1. İddianın anlayışı

Əşya-hüquqi müdafiə üsullarının bir növü mülkiyyət hüququnun tanınması barədə iddia adlanır. Xeyli müddətdir ki, bu iddianın hüquqi təbiəti hüquq ədəbiyyatında geniş mübahisəyə səbəb olmuşdur. Mübahisə nəticəsində, əsasən, iki fikir istiqaməti yaranmışdır. Birinci fikir istiqaməti tərəfdarlarının mövqeyincə, mülkiyyət hüququnun tanınması barədə tələbi qanunvericilik müstəqil tələb kimi nəzərdə tutmur. Onların fikrincə, bu cür tələb ya vindikasiya iddiası ilə, ya da neqator iddiası ilə əhatə olunur. Müəlliflərin əksəriyyəti bu fikri müdafiə edirlər. Onların bu mövqeyi onunla izah edilir ki, RF-in mülki qanunvericiliyi mülkiyyət hüququnun tanınması barədə iddia adlı müstəqil iddia növü tanımır. RF-in MM-inin 12-ci maddəsi yalnız hüquqların tanınmasını mülki hüquqların müdafiə üsullarından biri kimi nəzərdə tutur[1].

İkinci qrup müəlliflər göstərirlər ki, mülkiyyət hüququnun tanınması barədə iddianı əşya hüquq iddiasının müstəqil bir növü hesab etmək lazımdır[2]. Onlar fikirlərini əsaslandırmaq üçün tutarlı arqumentlər də gətirirlər. Müəlliflərdən bəziləri bu üsulu əşya hüquq və öhdəlik hüquq müdafiə üsuluna şamil etməyərək, onu «mülkiyyət hüququnun mülki-hüquqi müdafiəsinin digər üsulları» adlı üçüncü qrup müdafiə üsullarına daxil edirlər[3].

Nəzərdən keçirilən bu üsul barəsində diskussiyaları Azərbaycan Respublikasının yeni mülki qanunvericiliyi nəzərə almışdır. Belə ki, mövcud qanunvericilik mülkiyyətçinin mülkiyyət hüququnun tanınmasını tələb etmək hüququna malik olması barədə birbaşa və konkret göstəriş ifadə edir (MM-in 157-ci maddəsinin 1-ci bəndi). RF-in MM-i isə, yuxarıda qeyd etdiyimiz kimi, hüquqların tanınması barədə tələbi yalnız mülki hüquqların müdafiə üsullarından biri kimi nəzərdə tutur. Hüquqların tanınması barədə tələb üsulu ilə mülki hüquqlar, o cümlədən əşya hüquqları və bu hüquqların bir növü olan mülkiyyət hüququ müdafiə edilir. Söylədiklərimizdən belə bir nəticəyə gəlmək mümkündür ki, RF-in mülki qanunvericiliyi mülkiyyət hüququnun tanınması barədə iddianı ümumi formada, yəni konkret olmayan formada nəzərdə tutmuşdur.

Bizim ölkə qanunvericiliyində həmin üsulun əşya hüquq müdafiə üsulunun müstəqil bir növü kimi ayrılması üçün kifayət edən əsaslar var. Bundan əlavə, real həyatda mülkiyyət hüquqları ilə bağlı elə hallara rast gəlirik ki, bu hüquqları nə vindikasiya iddiası ilə, nə də neqator iddia ilə müdafiə etmək mümkün olur. Məsələn, vətəndaş qaraj tikir. Qaraj tikilib başa çatdıqda, qonşu tikilinin ona məxsus olmasını iddia edir. Vətəndaş yaranmış mübahisəni həll etmək üçün qaraj üzərində mülkiyyət hüququnun tanınması barədə iddia ilə məhkəməyə müraciət edir. Məhkəmə vətəndaşın qaraj üzərində mülkiyyət hüququnun tanınması barədə qərar çıxarır. Bununla vətəndaşın mülkiyyət hüququ müdafiə olunur. Belə halda, şübhəsiz ki, nə vindikasiya iddiası, nə də neqator iddiası tətbiq olundu. Göstərilən vəziyyətdə mülkiyyət hüququnun tanınması

---

[1] Комментарий к Гражданскому кодексу Российской Федерации части первой / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 41.

[2] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.А.Рясенцева*. М., 1986, с. 416; *А.А.Ерошенко*. Личная собственность в гражданском праве. М., 1973, с. 189; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 479. Müəlliflərdən Y.A.Suxanov hüququn tanınması barədə iddianı mülki, o cümlədən əşya hüquqlarının xüsusi xarakterli müdafiə üsulu hesab edir (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 614; *У.Маттеи, Е.А.Суханов*. Общие положения права собственности. М., 1999, с. 367). Son zamanlar RF-də yazılan dərsliklərin çoxunda mülkiyyət hüququnun tanınması barədə iddia növü nəzərdən keçirilmir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1999; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998; Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева*. Учебник. М., 1999).

[3] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 343.

üsulundan istifadə olundu və bu vasitə ilə mülkiyyət hüququ müdafiə edildi. Qeyd etdiyimiz müdafiə üsulunun mahiyyəti də məhz bundan ibarətdir.

Bəzi xarici ölkələrin qanunvericiliyi mülkiyyət hüququnun tanınması barədə iddianı xüsusi müdafiə üsulu kimi tanıyır[1]. Məsələn, Kanadanın Kvebek əyalətinin MM-inin 912-ci maddəsində həmin üsul nəzərdə tutulur. Bu maddəyə görə, həmin üsuldan həm mülkiyyətçi, həm də əşya hüququnun sahibi istifadə edə bilər.

Mülkiyyət hüququnun tanınması barədə iddia **müəyyənedici iddia və ya declarotory action, yəni deklarator iddia** (latınca «declaratio» — elan) adı altında xarici hüquq sistemlərinə (məsələn, Fransa və İtaliya hüquq sisteminə) də məlumdur. Amma bu iddia növü neqator icraatın tərkibinə daxil edildiyinə görə müstəqil əhəmiyyətə malik deyil. Deklarator iddianın məqsədi bu və ya digər əmlak hüququnun müəyyən cəhəti barəsində məhkəmənin mövqeyini və münasibətini aydınlaşdırmaqdan ibarətdir. Bu iddia əmlak hüquqlarına aydınlıq və müəyyənlik gətirmək niyyəti güdür[2]. Almaniya sivilistika doktrinasında mülkiyyət hüququnun tanınması barədə iddia yox, müəyyən etmə (tanıma) haqqında iddia mülki-hüquqi iddianın müstəqil növü kimi ayrılır[3]. Bu ölkənin Mülki Qanunnaməsi, yuxarıda qeyd etdiyimiz kimi, mülkiyyət hüququnu müdafiə etmək üçün iki müstəqil iddia tipi (vindikasiya və neqator iddialarını) tanıyır[4].

Beləliklə, **mülkiyyət hüququnun tanınması barədə iddia dedikdə, elə bir maddi-hüquqi tələb başa düşülür ki, bu tələb əsasında mübahisə obyekti olan əşyanın mülkiyyət hüququ əsasında mülkiyyətçiyə məxsusluğu müəyyən və təsdiq edilir**. Bu iddia nə əşyanın geri qaytarılmasını, nə də sahiblikdən məhrum edilmə ilə bağlı olmayan pozuntuların aradan qaldırılmasını nəzərdə tutur. Həmin iddia ilə **əşyanın mülkiyyətçiyə məxsusluğu faktı təsdiq olunur**. Məsələn, vətəndaş yaşayış evinə olan mülkiyyət hüququnu təsdiq edən sənədi – reyestrdən çıxarışı itirir. Bundan istifadə edərək qonşu iddia edir ki, guya yaşayış evi ona məxsusdur. Evin mülkiyyətçisi lazımi dövlət orqanlarına (daşınmaz əmlakın dövlət reyestrini aparan orqana) müraciət edir və bunun nəticəsində reyestrdən çıxarışın dublikatını alır. O, bu halda mülkiyyət hüququnun tanınması barədə iddiadan istifadə edir.

Nəzərdən keçirilən iddia növü **müqavilədənkənar tələb** hesab edilir. Ona görə də müqavilə münasibətlərində olan mülkiyyətçi bu üsuldan istifadə etməklə mülkiyyət hüququnu müdafiə edə bilməz.

2. İddianın elementləri

Nəzərdə tutulan **iddia üzrə iddiaçı rolunda** müxtəlif kateqoriya subyektlər çıxış edə bilərlər. Həmin subyektlər mülkiyyət hüququnun tanınması barədə iddia vermək hüququ olan şəxslərdir. Hər şeydən əvvəl, bu iddianı fərdi əlamətləri ilə müəyyən edilən əşyanın mülkiyyətçisi verə bilər. Yuxarıdakı misalda yaşayış evinin mülkiyyətçisi iddiaçı (iddia vermək hüququ olan subyekt) rolunda çıxış edir. Subyekt rolunda əşyaya sahiblik etməyən, onun sahiblik hüququ mübahisə edilən, üçüncü şəxslər tərəfindən inkar edilən və ya tanınmayan şəxslər də çıxış edə bilər. Məsələn, traktorçu özünə məxsus olan torpaq sahəsini şumlayarkən dəfinə tapır. Başqa bir kənd sakini bunu görür və dəfinə çıxardılmamış iddia edir ki, guya dəfinənin bir hissəsi ona məxsusdur. Başqa bir misalda traktorçu kəndli (fermer) təsərrüfatı başçısının torpağını şumladığı halda, oradan dəfinə tapır. Fermer təsərrüfatı başçısı dəfinənin yarısının traktorçuya məxsus olmasını inkar edir. Traktorçu bu halda sahiblik hüququ mübahisə edilən iddiaçı kimi məhkəməyə müraciət edərək, öz hüquqlarını müdafiə edir.

Titul sahibi də hüququn tanınması barədə iddia vermək hüququna malikdir. Xüsusən də tam təsərrüfatçılıq səlahiyyətləri hüququnun və ya operativ idarə etmək hüququnun subyektləri bu iddia ilə öz hüquqlarını müdafiə edirlər. Məsələn, hər hansı bir sahibkar əşyanın dövlət müəssisəsinin istifadəsində olmasını inkar edir. Dövlət müəssisəsi hüququn tanınması barədə iddia verir. Başqa misalda icarəçi əşyanı mülkiyyətçidən icarəyə götürür. Üçüncü şəxs icarənin predmetinin ona məxsus olmasını iddia edir. İcarəçi, yəni titul sahibi hüququ tanıma iddiası verir.

Cavabdeh əşya barəsində mübahisə edən tərəfdir. Cavabdeh rolunda, əsasən, mübahisəli əşyaya öz hüquqlarının olmasını bəyan edən və bildirən üçüncü şəxslər çıxış edirlər. Məsələn, qonşu ölmüş uzaq qohumunun miras əmlakının ona məxsus olmasını elan edir.

Cavabdeh rolunda həm də elə üçüncü şəxslər çıxış edə bilərlər ki, onlar mübahisəli əşyaya iddiaçının əşya (o cümlədən mülkiyyət) hüququnun olmasını inkar edirlər. Onlar hüququn mövcudluğunu inkar edir, lakin əşyaya özlərinin əşya hüququ olmasını elan etmirlər. Məsələn, kənd sakini dəfinənin onu tapan traktorçuya məxsus olmasını inkar edir. Bununla bərabər, kənd sakini dəfinəyə özünün mülkiyyət hüququ olması barədə tələb irəli sürmür.

İddiaçı ilə cavabdehin hər hansı müqavilə (alqı-satqı, podrat, daşıma, icarə, kirayə və s.) münasibətlərində olması istisna edilir. Müqavilə münasibətlərində olan iddiaçının mülkiyyət hüququ öhdəlik hüquq üsulu ilə müdafiə edilir. Belə halda mülkiyyət hüququnun tanınması barədə iddia tətbiq edilə bilməz.

Mülkiyyət hüququnun tanınması barədə iddianın predmeti mülkiyyət hüququ və ya məhdud əşya hüququ əsasında əşyanın mülkiyyətçiyə (titul sahibinə) məxsus olması faktını müəyyən və təsdiq etməkdən ibarətdir. Cavabdehin hər hansı bir konkret hərəkət yerinə yetirməsi iddianın predmeti kimi çıxış edə bilməz.

Əşyaya mülkiyyət hüququnun və ya məhdud əşya hüququnun olması faktının təsdiq edilməsi iki yolla həyata keçirilir. Birincisi, bu, müəyyən edilmiş faktların təkzib olunması vasitəsilə yerinə yetirilir. Məsələn, qonşu özünü ölən şəxsin vərəsəsi kimi qələmə verir və miras əşyalardan birini özünə götürür. Belə halda qonşunun vərəsə olması təkzib olunur və bu vasitə ilə iddianın predmeti təsdiq edilir.

İkincisi, təsdiq etmə mübahisə obyekti olan əşyaya mülkiyyət hüququnu şərtləndirən faktları müəyyən etməklə həyata keçirilir. Məsələn, ər-arvad boşanarkən birgə nikah dövründə qazanılan əmlakı bölüşdürürlər. Arvad tələb

[1] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров.* М., 2004, с. 371.

[2] *У.Маттеи, Е.А.Суханов.* Общие положения права собственности. М., 1999, с. 267-268.

[3] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 389.

[4] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 419.

edir ki, minik avtomobili və bağ evi də bölüşdürülən əmlakın siyahısına daxil edilsin. Ər isə göstərir ki, minik avtomobilini ona babası bağışlamış, bağ evi isə vərəsəlik qaydasında atasından keçmişdir və ona görə də həmin əmlak növləri bölgü obyekti ola bilməz. Beləliklə, mübahisə yaranır və ər iddia verir. Bağışlama müqaviləsi və vərəsəlik faktını təsdiq etməklə, məhkəmə ərin bağ evinə və avtomobilə olan mülkiyyət hüququnun tanınması barədə qərar qəbul edir.

Mülkiyyət hüququnun tanınması barədə iddianın əsasını iddiaçının mülkiyyət hüququnun tanınması barədə məhkəməyə verdiyi tələbin əsaslandığı hallar təşkil edir. Bu hallar nəticəsində iddiaçının iddia vermək hüququ təsdiq olunur. Deməli, iddiaçının mülkiyyət hüququnun tanınması barədə iddia vermək hüququnun əmələ gəlməsini şərtləndirən və bu hüququn yaranmasına dəlalət edən faktlar nəzərdə tutulan iddianın əsasını təşkil edir.

İddianın verilməsi üçün lazım olan şərtlər olduqda, iddiaçı tələb irəli sürür. İddianın təmin olunması da müəyyən şərtlərlə bağlıdır. Ən vacib şərt ondan ibarətdir ki, **iddiaçı mübahisə obyekti olan əşyaya öz hüququnu təsdiq etməlidir**. Bu, müxtəlif sübutetmə vasitələrindən istifadə olunmaqla həyata keçirilir. Bu vasitələrin təyinatı əşyanın mülkiyyətçiyə məxsusluğunu sübut etməkdən və təsdiqləməkdən ibarətdir.

§ 4. Qeyri-mülkiyyətçilərin (titul sahiblərinin) hüquqlarının müdafiəsi. Sahibliyin müdafiəsi

1. Məhdud əşya hüququ subyektlərinin hüquqlarının müdafiəsi

Əşya-hüquqi iddialar iki məqsəd güdür: **birinci məqsəd** mülkiyyətçinin mülkiyyət hüququnu müdafiə etməkdən ibarətdir; **ikinci məqsəd** isə qeyri-mülkiyyətçilərin (mülkiyyətçi olmayan şəxslərin) hüquq və mənafeyini müdafiə etməklə şərtlənir. Bu baxımdan onların iki növü fərqləndirilir: mülkiyyətçilərin verdikləri iddialar; qeyri-mülkiyyətçilərin verdikləri iddialar. **Qeyri-mülkiyyətçilər** dedikdə, titul (qanuni) sahibləri başa düşülür. **Titul sahibləri** hər hansı hüquqi əsasa görə (qanuna və ya müqaviləyə görə) özgə əşyasına sahibliyi həyata keçirən şəxslərdir. Onlar şərti olaraq iki kateqoriyaya bölünürlər: məhdud əşya hüququ subyektlərinə; öhdəlik hüququ subyektlərinə. Bu iki kateqoriya subyektlər **sahiblik səlahiyyətini müdafiə etmək** hüququna malikdirlər.

Məhdud əşya hüququ subyektləri dedikdə, məhdud əşya hüququ əsasında özgə əşyasından istifadə edən qeyri-mülkiyyətçi şəxslər başa düşülür. Onların əhatə dairəsi kifayət qədər genişdir: tikiliyə vərəsəlik, yəni superfitsi hüququ olan şəxslər (MM-in 250-ci maddəsi); servitut hüququ olan şəxslər (MM-in 255-ci maddəsi); uzufruktuar (istifadəçi), yəni başqasının əşyasından istifadə etmək və fayda götürmək hüququna malik olan şəxslər (MM-in 263-cü maddəsi); girov hüququ olan şəxslər (MM-in 269-cu maddəsinin 1-ci bəndi); ipoteka hüququ olan şəxslər (MM-in 269-cu maddəsinin 1-ci bəndi) və s.

Mülkiyyətçilər kimi məhdud əşya hüququ subyektləri də öz hüquq və mənafelərini (sahiblik səlahiyyətini) müdafiə etmək ixtiyarına malikdirlər. Bu məqsədlə onların hüququ çatır ki, **vindikasiya və neqator iddiasından istifadə etsinlər**. Ona görə ki, qanunun nəzərdə tutduğu hüquqi göstərişə görə, mülkiyyətçi hüquqları mülkiyyətçi olmasa da, bu məcəllədə və ya müqavilədə nəzərdə tutulan əsasla əmlaka sahiblik edən şəxsə də mənsubdur (MM-in 157-ci maddəsinin 8-ci bəndi). Bu, o deməkdir ki, məhdud əşya hüququ subyektləri özgə əşyasından istifadə hüquqlarını həyata keçirərkən mülkiyyətçilər kimi analoji müdafiə üsullarını tətbiq edə bilərlər. Söhbət əşya-hüquqi müdafiə üsullarından (əşya-hüquqi iddialardan) gedir: vindikasiya iddiasından; neqator iddiadan; hüquqların tanınmasından. Özü də qeyri-mülkiyyətçi şəxslərin (məhdud əşya hüququ subyektlərinin) məhdud əşya hüquqları istənilən şəxs tərəfindən pozulmaqdan müdafiə edilir (MM-in 158-ci maddəsinin 4-cü bəndi). Hətta onların ixtiyarı çatır ki, öz məhdud əşya hüquqlarını mülkiyyətçi tərəfindən pozulmaqdan müdafiə etsinlər. Məsələn, ali təhsil almaq üçün Bakıya gələn tələbə mənzili uzufrukta götürür. Lakin evin mülkiyyətçisi elektrik enerjisinin verilməsini və qızdırıcı sisteminin işini kəsir. Belə halda tələbə mülkiyyətçiyə neqator iddia verir və öz məhdud əşya hüququnu ondan müdafiə edir. Başqa bir misalda mülkiyyətçi torpaq sahəsini istifadəçiyə uzufrukta verir. Torpağın mülkiyyətçisi heç bir əsas olmadan torpağı geri alır. İstifadəçi vindikasiya verir.

Söylədiklərimizdən belə nəticəyə gələ bilərik ki, məhdud əşya subyektlərinin istifadə etdiyi əşya-hüquqi müdafiə üsulları, yəni mülki hüquq iddiaları iki növ iddia icraatına ayrılır. Söhbət məhdud əşya hüququna münasibətdə iki növ iddiadan istifadə olunmasından gedir. **Birinci növ iddia mülkiyyətçinin özündən məhdud əşya hüququnu müdafiə etmək üçün mülkiyyətçiyə qarşı irəli sürülür**. Məsələn, vətəndaşın ümumi yola olan yeganə çıxış yolu qonşunun həyətindən (torpaq sahəsindən) keçir. Deməli, bu halda qonşunun torpaq sahəsi vətəndaşın xeyrinə servitutla yüklənir və o, bununla servitut hüququna malik olur. Amma qonşu vətəndaşın minik avtomobilinin öz həyətindən keçib getməsinə mane olmaq üçün oraya dəmir plitələr düzür. Beləliklə, vətəndaşın servitut hüququ pozulur. Vətəndaş öz servitut hüququnu müdafiə etmək üçün qonşuya (mülkiyyətçiyə) neqator iddiası verir. **İkinci növ iddiaya gəldikdə isə bu iddia mülkiyyətçini, daha doğrusu, onun mülkiyyət hüququnu müdafiə etmək üçün məhdud əşya hüququna iddia edən «hamıya və hər kəsə» qarşı yönəlir**. İddiaların bu bölgüsü bəzi xarici ölkələrin qanunvericiliyində nisbətən daha dəqiq formada ifadə edilir. Məsələn, Avstriya MM-inin 523-cü maddəsində göstərilir ki, servitut barəsində iki iddia verilə bilər: birinci iddia servitutu müdafiə etmək üçün mülkiyyətçiyə qarşı yönəlir; ikinci iddia isə mülkiyyətçini müdafiə etmək üçün servituta iddia edən hər kəsə qarşı yönəlir. Almaniya və İtaliya hüququ da özlərinin mülki məcəllələrinin ayrı-ayrı normalarında bu bölgünü ifadə edir[1].

2. Öhdəlik hüququ subyektlərinin hüquqlarının müdafiəsi

Qeyd etdi ki, əşya ilə bağlı hüquqlar, yəni əşyaya sahiblik hüququ (səlahiyyəti) qeyri-mülkiyyətçilərin (titul sahiblərinin) digər kateqoriya subyektləri — öhdəlik hüquq subyektləri tərəfindən müdafiə oluna bilər. **Öhdəlik hüququnun subyektləri** dedikdə, mülki-hüquqi müqavilədə nəzərdə tutulan əsasla əşyaya sahiblik edən şəxslər başa düşülür. Bu kateqoriya subyektlərə müqa-

[1] *У.Маттеи, Е.А.Суханов.* Основные положения право собственности. М., 1999, с. 266-267.

vilə hüquq münasibətinin iştirakçıları aiddirlər. Məsələn, podrat müqaviləsinə görə, vətəndaş televizoru təmir üçün təmir emalatxanasına (podratçıya) verir. Başqa misalda icarə müqaviləsi üzrə şəxs istifadə üçün əşyanı icarəçiyə (və ya kirayəçiyə və yaxud əvəzsiz istifadəyə) verir. Digər misalda sərnişin saxlama müqaviləsi üzrə əşyanı dəmir yolu vağzalında saxlanca verir və ya mülkiyyətçi komissiya müqaviləsi üzrə əşyanı müştərilərə satmaq üçün mağazaya (komisyonçuya) verir və s. Podratçı da, icarəçi (kirayəçi) də, saxlayıcı da, komisyonçu da öhdəlik hüququnun subyektləri hesab olunurlar. Onlar özgəsinin əşyasına (məsələn, yuxarıdakı misallarda göstərildiyi kimi, təmirə verilən televizora, icarəyə, kirayəyə, saxlanca və ya komisyonçuya verilən əşyaya) sahiblik hüququnu (səlahiyyətini) həyata keçirirlər.

Mülki qanunvericilik öhdəlik hüququnun subyektlərinə ixtiyar verir ki, bu subyektlər onlarda olan özgə əşyasına sahibliklə bağlı hüquqlarını (səlahiyyətlərini) **mülkiyyətçinin istifadə etdiyi analoji (eyni) əşya-hüquqi iddiaların vasitəsi ilə müdafiə etsinlər** (MM-in 157-ci maddəsinin 8-ci bəndi). Söhbət həmin subyektlərin əşyaya sahibliklə bağlı hüquqları pozulduğu hallarda **vindikasiya və neqator iddiaları verməsindən gedir**. Bu iddiaların da iki növü fərqləndirilir. **Birinci növ iddia mülkiyyətçiyə qarşı yönəlir**. Bunun əsasında subyektin hüquqları mülkiyyətçi tərəfindən pozulmaqdan müdafiə edilir. Məsələn, kirayə müqaviləsinin müddəti başa çatmadan kirayəyə verən (mülkiyyətçi) əsassız olaraq əşyanı kirayəçidən alır və onu sahiblikdən məhrum edir. Kirayəçi mülkiyyətçiyə (kirayə verənə) vindikasiya iddiası verir və bununla əşyaya sahibliyi müdafiə edir. İkinci misalda kirayəyə verən (mülkiyyətçi) müqavilə müddəti başa çatmadan yaşayış evinin işığını və qızdırıcılıq sistemini kəsir, kirayəçiyə su və qaz vermir və bununla həmin evdən normal istifadə olunmasına maneçilik törədir. Kirayəçi bu halda isə öz hüququnu müdafiə etmək üçün neqator iddiası verir.

İkinci növ iddia isə əşyaya titul (qanuni) sahibliyi — qanuni sahiblik səlahiyyətini (hüququnu) müdafiə etmək üçün **əhatə dairəsi bilinməyən üçüncü şəxslərə («hamıya və hər kəsə») yönəlir**. Bu şəxslərə həm vindikasiya, həm neqator iddiası, həm də hüquqların tanınması barədə iddia verilə bilər. Məsələn, qonşu kirayəyə götürülən əşyanı oğurlayır. Kirayəçi vindikasiya iddiası verir. Başqa bir misalda qonşu öz həyətyanı sahəsində hər gün tonqal qalayır, əlinə keçən köhnə şeyləri tonqala atır və bunun nəticəsində tüstü kirayəçinin kirayəyə götürdüyü mənzilə dolur və mənzildən normal istifadəyə maneçilik yaradılır. Kirayəçi hər gün tonqal qalayan qonşuya neqator iddiası verir.

Beləliklə, müəyyən etdik ki, öhdəlik hüququ subyektləri, o cümlədən məhdud əşya subyektləri qanuni (titul) sahiblik hüququnu müdafiə etmək üçün mülkiyyətçi kimi vindikasiya və neqator iddialarından istifadə edə bilərlər. Amma bu **subyektlərin və mülkiyyətçinin verdiyi iddiaların ümumi əsası yoxdur**. Belə ki, iddianın əsasını qanunsuz olaraq pozulmuş hüquq təşkil edir. Mülkiyyətçinin verdiyi iddianın əsası qismində pozulmuş subyektiv mülkiyyət hüququ çıxış edir. Qeyri-mülkiyyətçilərin verdikləri iddiaların əsasında isə başqa hüquq (məsələn, servitut hüququ, uzufrukt hüququ, girov hüququ, ipoteka hüququ, icarə hüququ, kirayə hüququ və s.) durur.

Bəzi hallarda qeyri-mülkiyyətçi şəxslərin verdikləri vindikasiya iddiasından

imtina olunur. Amma belə hallar mülkiyyətçini vindikasiya iddiası vermək hüququndan məhrum etmir, yəni mülkiyyətçi vindikasiya iddiası verə bilər. Vindikasiya iddiası həm titul sahibi (qeyri-mülkiyyətçi) tərəfindən, həm də mülkiyyətçi tərəfindən eyni vaxtda verilə bilər. Belə məqamlarda mülkiyyətçinin iddiasının ödənilməsi üstünlüyə malikdir. Ona görə ki, mülkiyyət münasibətləri istənilən dövlətin iqtisadiyyatının bazisidir; bu münasibətlər hər bir cəmiyyətin iqtisadi əsası sayılır. Təbii ki, buna görə də istənilən tarixi tip dövlətin qarşısında duran başlıca vəzifələrdən biri özünün əsaslandığı mülkiyyət münasibətlərini müdafiə etməkdən ibarətdir; dövlət özünün iqtisadi sisteminin əsası kimi həmin münasibətlərin hərtərəfli qorunmasına böyük əhəmiyyət verərək ona prioritet diqqət yetirir. Bax, odur ki, mülkiyyət hüququnun müdafiəsi üstün xarakter daşıyır. Üstünlük özünü xüsusilə vindikasiya iddiası veriləndə büruzə verir. Məsələn, saxlama müqaviləsi əsasında mülkiyyətçi əşyanı saxlayıcıya verir; saxlayıcının iradəsindən asılı olmayaraq əşya onun sahibliyindən çıxır və qanunsuz olaraq üçüncü şəxsin sahibliyinə keçir. Belə halda mülkiyyətçi və titul (qanuni) sahib olan saxlayıcı üçüncü şəxsə eyni vaxtda vindikasiya iddiası verə bilərlər[1]. Sözsüz, mülkiyyətçinin iddiası saxlayıcının iddiası qarşısında üstündür. Ona görə ki, saxlayıcı əşyaya özü üçün yox, mülkiyyətçi üçün sahiblik edir. Bu səbəbdən mülkiyyətçinin iddiası birinci növbədə təmin olunacaqdır. Daşınma müqaviləsi əsasında mülkiyyətçinin yükünü daşıyan daşıyıcı yükü itirdiyi halda da mülkiyyətçinin verdiyi vindikasiya iddiasına üstünlük veriləcəkdir.

Amma vindikasiya iddiasının təmin olunmasında titul sahibinin öz marağı vardır. Belə ki, o, əşyanın salamat (olduğu kimi) qalmasına görə mülkiyyətçi qarşısında məsuliyyət daşıyır; axı titul sahibi müddət başa çatdıqda onu mülkiyyətçinin özünə qaytarmalıdır. Digər tərəfdən titul sahibi mülkiyyətçinin əşyasından istifadə edir (məsələn, kirayə müqaviləsi üzrə kirayəçinin mülkiyyətçinin əşyasından istifadə etməsi və s.). Buna görə də əgər əşya titul sahibinin sahibliyindən çıxarsa, o, verdiyi vindikasiya iddiasının təmin olunmasında maraqlıdır.

Neqator iddia verilən hallarda isə vəziyyət tam başqa cür olur. Belə ki, titul sahibinin mülkiyyətçinin ona verdiyi əşya barəsində istifadə və sərəncam səlahiyyətlərinin həyata keçirilməsinə maneələr yaradıldıqda, həmin maneələrin aradan qaldırılmasında ilk növbədə, hər şeydən əvvəl, titul sahibi maraqlıdır; əgər maneələr aradan qaldırılmazsa, titul sahibi əşyadan istifadə etmək və ona sərəncam vermək imkanlarından məhrum olur. Bu isə onun mənafeyinə toxunur. Ona görə də belə halda titul sahibinin verdiyi neqator iddiasının təmin olunması vacib məsələ sayılır; bu zaman mülkiyyətçinin mənafeyi pozulmur[2]. Əlbəttə, belə məqamlarda mülkiyyətçinin verdiyi neqator iddia elə də vacib əhəmiyyət kəsb etməyəcəkdir.

Qeyri-mülkiyyətçilərin (titul sahiblərinin) sahibliyinin müdafiəsi əmlak dövriyyəsində sabitliyi, möhkəmliyi və dayanıqlığı təmin etməyə və əşyaların hüquqi rejimində mümkün olan qeyri-müəyyənliyi aradan qaldırmağa yönəlir və səmtlənir. **Onun məqsədi sahiblik faktını, yəni fakt mənasında sahibliyi**

---

[1] *Иоффе О.С.* Советское гражданское право. М., 1967, с. 480.

[2] Советское гражданское право. Учебник. Том 1 /Отв. ред. *В.П.Грибанов, С.М.Корнеев*. М., 1979, с. 313.

yox, qanuni (titul) sahiblik hüququnu (səlahiyyətini) müdafiə etməkdən ibarətdir. Sahiblik səlahiyyəti həm məhdud əşya hüququnun (məsələn, uzufrukt hüququnun və s.), həm də öhdəlik hüququnun (məsələn, kirayə hüququnun və s.) tərkibinə daxildir. Sahiblik faktına, yəni fakt mənasında sahibliyə gəldikdə isə o, **sahibliyin müdafiəsi adlı xüsusi xarakterli institutla** müdafiə olunur. Xarici sivilistika doktrinasında bu müdafiə Roma hüququ ənənələrinə uyğun olaraq, **posessor müdafiə** (latınca «possessor» — sahib)[1] adlanır.

3. Sahibliyin müdafiəsi (posessor müdafiə)

Əşya hüququnun əsas institutlarından biri sahibliyin müdafiəsi adlanır (MM-in 164-cü maddəsi). Bu, onunla izah olunur ki, müdafiə funksiyası hüquq doktrinasında sahibliyin əsas funksiyası sayılır[2]. Göstərilən institutun əsas məqsədi sahibliyi müdafiə etməkdən, bununla mülkiyyət hüququnun maneəsiz həyata keçirilməsini və onun effektiv qorunmasını təmin etməkdən ibarətdir[3]. Axı, sahiblik mülkiyyət hüququ haqqında sosial əhəmiyyətli siqnal rolunu yerinə yetirir[4]. Sahibliyin müdafiəsindən «hər bir inkişaf etmiş cəmiyyətdə»[5] istifadə olunur.

Sahiblik iki mənada müdafiə olunur: hüquq mənasında sahibliyin müdafiəsi (**petitor müdafiə**); fakt mənasında sahibliyin müdafiəsi (**posessor müdafiə**, yəni mülkiyyət hüququ haqqında məsələdən asılı olmayan müdafiə)[6].

Hüquq mənasında (hüquq kimi) sahiblik mülkiyyət hüququnun, məhdud əşya hüququnun və öhdəlik hüququnun (məsələn, kirayəçinin, icarəçinin və s. hüquqlarının) tərkibində müdafiə olunur. Söhbət qanuni sahiblik səlahiyyətinin müdafiəsindən gedir. Belə halda zərərçəkən şəxs hüquq pozuntusu törədən şəxsdən müdafiə olunmaq üçün subyektiv hüququn ona məxsus olmasını sübut etməlidir. Subyektiv hüquq isə özündə sahiblik səlahiyyətini birləşdirir və ya tamamilə onunla məhdudlaşır, yəni təkcə sahiblik səlahiyyətindən ibarət olur. Belə halda sahiblik yox, öhdəlik hüququ (məsələn, kirayə hüququ, icarə hüququ və s.) və ya əşya hüququ (məsələn, mülkiyyət hüququ, servitut hüququ və s.) müdafiə olunur. Ona görə ki, göstərilən məqamda iddia tələbinin əsasını titul (hüquqi əsas) təşkil edir.

Fakt mənasında (fakt kimi) sahiblik ona hər hansı bir hüquqi əsas olmasından asılı olmayaraq, müstəqil surətdə müdafiə edilir. Söhbət sahiblik faktının (fakt mənasında sahibliyin) onun əldə edilməsi əsasından asılı olmadan müdafiəsindən gedir. Məsələn, şəxs qonşusunun əşyasını oğurlayır. Bunun nəticəsində o, əşyanın faktiki sahibi olur və beləliklə, sahiblik faktı yaranır. Oğru bu faktı istənilən pozuntudan müdafiə edə bilər[7]. Amma o, hüquq mənasında sahibliyi (sahiblik hüququnu) isə müdafiə edə bilməz. Çünki oğrunun əşya sahibliyinin titulu (hüquqi əsası) yoxdur. Belə hallarda, yəni sahiblik faktı (fakt mənasında sahiblik) pozulan zaman isə zərərçəkən pozuntudan müdafiə olunmaq üçün sübut etməlidir ki, pozuntu törədilmişdir[1].

Hüquq institutu kimi sahibliyin əsas klassik əlaməti sahibliyin müdafiəsindən (posessor müdafiədən) ibarətdir. Məhz sahibliyin müdafiə (posessor müdafiə) faktı müstəqil sahiblik hüquq institutunun ayrılmasının başlıca əlaməti kimi çıxış edir. Bu cür müdafiə bizim ölkə qanunvericiliyində yeni haldır.

Sovet qanunvericiliyi sahibliyin klassik müdafiəsi anlayışını tanımırdı. Tanınmış sovet sivilisti A.V.Venediktovun qeyd etdiyi kimi, sovet qanunvericiliyinə sahibliyin müdafiəsi (posessor müdafiə) yox, yalnız petitor (titul) müdafiəsi məlum idi[2]. Bu hal sovet hüququnda xüsusi olaraq nəzərə çarpmırdı. Bunun nəticəsində, məsələn, vindikasiyaya adi qaydada sahibliyin müdafiəsi kimi baxılırdı. RF-in müasir qanunvericiliyi də sahibliyin klassik müdafiəsini (posessor müdafiəni) tanımır[3]. Amma yaxın qonşumuz olan Gürcüstan Respublikasının yeni MM-i bu anlayışı nəzərdə tutur[4].

Sahibliyin müdafiəsi (posessor müdafiə) anlayışının tarixi kökü Roma hüququ ilə bağlıdır[5]. O, məhkəmə araşdırması formasında yox, inzibati akt yolu ilə həyata keçirilirdi. Sahibliyin müdafiəsi pretorların inzibati fəaliyyətinin məhsulu idi. Sonralar bir sıra Avropa ölkələri həmin anlayışı öz qanunvericiliklərində nəzərdə tutdu. Almaniya hüququnda sahibliyin müdafiəsi iki tələb növündə saxlanılır: birincisi, sahibin itirilmiş sahibliyin bərpası barədə tələbi növündə; ikincisi, sahibliyin pozulmasının aradan qaldırılması barədə sahibin tələbi növündə (Almaniya MQ-nin 861-862-ci paraqrafları). Özü də bizim ölkə qanunvericiliyinin sahibliyin müdafiəsi haqqında nəzərdə tutduğu qaydalar, əsasən, Almaniya MQ-nə uyğun gəlir.

Beləliklə, Azərbaycan Respublikasının yeni MM-i Avropa sivilistika ənənəsinə uyğun olaraq, iki müdafiə növünü nəzərdə tutur: posessor (sahiblik) müdafiəsini; petitor müdafiəni (titul müdafiəsini, mülkiyyət hüququnun müdafiəsini). Buna **posessor müdafiə və petitor müdafiənin dixotomiyası** (ikiyə bölünmə, yunanca «dicha» iki hissəyə + «tome» yarılma)[6] deyilir. Petitor müdafiə ilə posessor müdafiəsinin dixotomiyası bəzi xarici ölkələrin (məsələn, Almaniyanın, İtaliyanın və s.) qanunvericiliyinə də məlumdur. Bu dixotomiyanı ingilis-amerikan hüquq sistemi tanımır[7]. Bu, onunla izah olunur ki, həmin sistemə daxil olan ölkələrin qanunvericiliyinə görə, əşyaya sahiblik edən mülkiy-

[1] Словарь иностранных слов. М., 1985, с. 394.
[2] *Baur J.F., Stürner R.* Lehrbuch des Sachenrechts. 1999, s. 30ff.
[3] *Иеринг.* Об основаниях защиты владения. 1883.
[4] *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 156.
[5] *Покровский И.А.* История римского права. Пг.,1918, с. 266.
[6] *Шершеневич Г.Ф.* Учебник русского гражданского права. 1995, с. 152.
[7] *Wieling H.J.* Sachenrecht. Berlin. 1997. Alman professoru Q.Y.Vilinq haqlı olaraq göstərir ki, quldurluq, oğurluq, mənimsəmə nəticəsində əşyanın sahibi olan şəxs istənilən pozuntudan müdafiə oluna bilər. Söhbət belə halda sahiblik hüququnun yox, sahiblik faktının müdafiəsindən gedir.

[1] *Иоффе О.С.* Цивилистическая доктрина промышленного капитализма // В книге: Гражданское право. Избранные труды. М., 2000, с. 96; *Скловский К.И.* Собственность в гражданском праве. М., 1999, с. 288-289.
[2] *Венедиктов А.В.* Государственная социалистическая собственность. М., 1948, с. 564-565.
[3] Buna görə də Y.A.Suxanovun ayrıca olaraq sahibliyin müdafiəsi anlayışından söhbət açması bizdə təəccüb doğurur (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 620-622).
[4] Правовые системы стран мира. Энциклопедический справочник / Под ред. *А.Я.Сухарева*. М., 2001, с. 185.
[5] *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 372; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 127.
[6] Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова*. М., 1954, с. 240.
[7] *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 249.

yətçinin sahibliyinin müdafiəsi funksiya cəhətdən mülkiyyət hüququnun müdafiəsinin ekvivalenti kimi çıxış edir.

Posessor (sahiblik) müdafiəsinin mahiyyəti ondan ibarətdir ki, nə iddiaçı, nə cavabdeh sahibliyə əsas verən öz tituluna, mülkiyyət hüququna və ya başqa hüquqa, həmçinin digər tərəfin belə titula malik olmamasına istinad edə bilərlər. Bu, o deməkdir ki, **əşyanı fiziki (faktiki) cəhətdən əldə edən hər bir şəxsin bu əşyaya sahibliyi, onun əşyaya sahiblik etməsinin hüquqi əsası (titulu) olmasından asılı olmayaraq müdafiə edilir**. Həmin şəxsin əşyaya sahibliyinin hüquqi əsası (titulu) ola da bilər, olmaya da bilər. Məsələn, evsiz-eşiksiz olan kənd sakini sahibsiz bağ evinə girərək, orada yaşayır, bununla ona faktiki (fiziki) sahiblik edir. Göründüyü kimi, həmin bağ evinə onun sahibliyinin hüquqi əsası yoxdur. O, faktiki sahibdir. Lakin buna baxmayaraq, kənd sakini bağ evinə faktiki (fiziki) sahibliyini həmin evə soxularaq, onu oradan çıxarmaq istəyən başqa şəxsdən müdafiə edə bilər. Bununla əşyanın faktiki mənsubiyyəti, məxsusluğu, yəni faktiki cəhətdən kimə aid olması müdafiə olunur. Deməli, **posessor (sahiblik) müdafiəsi sahiblik faktına əsaslanır**. İddiaçı və sahib arasında hüquqi əlaqə bu müdafiəyə təsir göstərmir. Posessor (sahiblik) müdafiəsindən istifadə etmək üçün əvvəlki faktiki sahibliyi və onun pozulmasını sübut etmək lazımdır. Petitor (titul) müdafiə isə əşyaya titula (hüquqa), yəni əşyaya sahibliyi nəzərdə tutan hüquqa əsaslanır. Buna görə də bu müdafiədən istifadə etmək üçün əşyaya titulun (hüququn) olmasını sübuta yetirmək gərəkdir. Posessor müdafiəsində sahiblik faktı haqqında, petitor müdafiədə isə hüquq haqqında məsələ həll edilir.

Petitor müdafiə titul sahibliyin, qanuni sahibliyin müdafiəsidir. O, titul üzrə müdafiədir. Əgər iddia tələbinin əsası kimi mülkiyyətçinin, girovsaxlayanın, icarəçinin, kirayəçinin və s. titulu çıxış edərsə, belə halda yalnız petitor müdafiədən söhbət gedə bilər. Belə məqamlarda sahiblik yox, müvafiq hüquq, yəni ya əşya hüququ, ya da öhdəlik hüququ müdafiə olunur. Yox, əgər iddia tələbinin əsasını sahiblik faktı təşkil edərsə, belə halda yalnız posessor müdafiəsindən danışmaq olar. Belə məqamlarda isə müvafiq hüquq yox, sahiblik faktı müdafiə olunur.

Posessor müdafiəsi petitor müdafiədən belə bir cəhəti ilə də fərqlənir ki, o, həm yurisdiksiya (məhkəmə yurisdiksiyası) müdafiə forması ilə, həm də qeyri-yurisdiksiya forması ilə həyata keçirilir. Petitor müdafiənin isə qeyri-yurisdiksiya formasında həyata keçirilməsinin mümkünlüyü istisna edilir. Belə ki, o, özünümüdafiə kimi qeyri-yurisdiksiya formasında həyata keçirilmir. Posessor müdafiəsində isə özünümüdafiə hərəkətlərindən istifadə edilməsi (məsələn, sahibin güc tətbiq etməklə əşyanı geri alması və s.) mümkündür.

Posessor müdafiənin və ya petitor müdafiənin hansının üstün olmasına gəldikdə isə qeyd edə bilərik ki, hüquq ədəbiyyatında posessor müdafiənin effektiv və operativ olması, buna görə də onun petitor müdafiədən texniki cəhətdən üstün yerdə durması göstərilir. Belə ki, qeyd etdiyimiz kimi, posessor müdafiədən istifadə etmək üçün sahiblik faktının pozulmasını sübut etmək lazımdır. Məlum məsələdir ki, sübut etmə yükünü iddiaçı çəkir. Bu isə onun üçün elə bir xüsusi çətinlik törətmir, müşkül məsələyə çevrilmir. Petitor müdafiədən isə, göstərdiyimiz kimi, hüquqi titul, hər şeydən əvvəl, mülkiyyət hüququ pozulduqda istifadə edilir. Belə halda iddiaçı hökmən mülkiyyət hüququnu sübut etməlidir. Bu, mülkiyyət hüququnun əldə edilməsi üsulunu əsaslandırmaq yolu ilə mümkündür. Onu isə əsaslandırmaq, şübhəsiz ki, müəyyən çətinliklərlə bağlıdır. Beləliklə, posessor müdafiə, adətən, petitor müdafiəyə nisbətən iddiaçı tərəfindən həyata keçirilməkdə hər hansı çətinliklə müşayiət edilmir. Ona görə də mülki hüquqda o, daha vacibdir. Mülki (əmlak) dövriyyədə ondan istifadə edilməsinə daha çox ehtiyac vardır, nəinki petitor müdafiədən.

Bəzən elə hallar yaranır ki, həmin hallarda petitor müdafiə mümkün olmur. Belə məqamlarda yalnız posessor müdafiəsindən istifadə edilir. Məsələn, özəlləşdirməyə kimi əmlak təsərrüfatçılıq səlahiyyəti əsasında dövlət müəssisəsinə verilir. Həmin müəssisə özəlləşdirilərkən, yəni səhmdar cəmiyyətinə çevrilərkən əmlak üçüncü şəxsə verildiyinə görə cəmiyyətin nizamnamə kapitalına daxil edilmir. Səhmdar cəmiyyəti bu halda üçüncü şəxsə yalnız posessor iddiası verə bilər. Vindikasiya iddiasının verilməsi isə istisna edilir[1]. Ona görə ki, üçüncü şəxsə verilən əşyanın hüquqi titulunu sübut etmək mümkün deyil. Deməli, iddiaçı öz titulunu sübut edə bilməyən hallarda posessor müdafiəsindən istifadə olunur. Ümumiyyətlə, iddiaçının öz titulunu sübut etməyə borclu olmadığı bütün məqamlarda həmin müdafiə mümkün olur. Çünki posessor müdafiənin vasitəsilə əşyanın hüquqi cəhətdən yox, faktiki (fiziki) cəhətdən məxsusluğu müdafiə olunur. Bu isə belə bir fikir söyləməyə əsas verir ki, o, petitor müdafiəyə münasibətdə «sadələşdirilmiş müdafiədir»[2]. Bu sadələşdirilmiş müdafiə üçün yalnız əvvəlki faktiki sahibliyi (sahiblik faktını) və onun pozulmasını sübut etmək kifayətdir. Petitor müdafiə (vindikasiya) üçün isə həm də titulun (hüququn) olması gərəkdir.

Sahibliyin müdafiəsi (posessor müdafiə) **bir neçə xarakterik əlamətlə** fərqlənir. Bu əlamətlər onun başqa hüquqi müdafiə üsul və vasitələri ilə qarışdırılmasına imkan vermir. **Birinci əlamət** titul (hüquq) barədə **mübahisəyə yol verilməməsindən** ibarətdir. Qeyd etdiyimiz kimi, posessor müdafiə sahiblik faktına əsaslanır. Ona görə də hər hansı hüquq barədə mübahisə edilməsi istisna olunur. **İkinci əlamət özbaşınalığa yol verilməsindən** (məsələn, zorla əşyanın alınması, özgə torpaq sahəsini zorla birləşdirmə və s.) ibarətdir. Bu, sahibliyin müdafiəsi üçün başlıca əsasdır. Özü də o özbaşınalıq ki, ona yol verilməsi qadağan olunsun. Almaniya Mülki Qanunnaməsində göstərilir ki, məhz bu cür, yəni qadağan edilən özbaşınalıq hüquqa ziddir. Qanunda nəzərdə tutulan özbaşınalıq isə hüquqazidd sayılmır (§ 858, 1-ci hissə)[3]. **Üçüncü əlamət operativliyi** əhatə edir. Belə ki, özbaşınalığa yol verilən kimi dərhal, ləngimədən sahiblik iddiası verilir. Belə hallarda özünümüdafiə tədbirlərindən də istifadə oluna bilər.

Posessor müdafiənin petitor müdafiədən köklü və başlıca fərqi ondan ibarətdir ki, posessor müdafiədən istifadə olunan zaman yalnız **sahiblik və onun pozulması faktı sübut edilir**; mübahisə edən tərəflər ortaya əşyaya hüquq

[1] *Савкин С.В.* Споры, возникающие из правоотношений собственности и аренды (судебно-арбитражная практика) // Государство и право. 1997. № 2, с. 72; *Скловский К.И.* Собственность в гражданском праве. М., 1999, с. 309.

[2] *Шершеневич Г.Ф.* Учебник русского гражданского права. М., 1995, с. 153.

[3] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 413.

(əşyaya mülkiyyət hüququ; əşyaya sahiblik hüququ) barədə məsələ qoya bilməzlər; məhkəmə isə əşyaya hüquq barədə məsələni araşdırmır; məhkəmə yalnız müəyyən edir ki, hansı şəxsin sahibliyi bərpa olunmalıdır. Qeyd etməliyik ki, iddiaçı əşyaya öz hüququnu sübut etməli deyildir. Məlum məsələdir ki, çox vaxt əşyaya hüququ sübut etmək çətin və mürəkkəb işə çevrilir. Posessor müdafiə zamanı sahibliyə hüququn olub-olmamasından asılı olmayaraq söhbət yalnız sahibliyin müdafiə edilməsindən gedir[1] və onun hüquqi əsasının sübut edilməsi tələb olunmur. Sahibliyin, eləcə də posessor müdafiənin üstünlüyü məhz bundan ibarətdir.

Petitor müdafiə isə əşyaya mülkiyyət hüququ və ya digər əşya hüququ pozulduğu hallarda həyata keçirilir; vindikasiya qeyd etdiyimiz kimi, onun əsas üsuludur. Vindikasiya iddiasının təmin olunması üçün isə iddiaçı öz mülkiyyət hüququnu və digər əşya hüququnu sübut etməlidir. Bu kimi hallarda həm iddiaçı, həm də cavabdeh sahibliyin hüquqi əsasının özünü mübahisə predmetinə çevirərək əşyaya mülkiyyət hüququ və ya digər əşya hüququ barədə məsələni həll edirlər.

Petitor müdafiə həm də o halda tətbiq olunur ki, bu və ya digər ölkənin qanunvericiliyi ayrıca və xüsusi olaraq sahiblik institutunu, o cümlədən sahibliyin klassik müdafiə anlayışını nəzərdə tutmur. Buna görə həmin ölkələrdə sahibliyin müdafiəsi posessor yox, petitor müdafiə üsulunun köməyi ilə həyata keçirilir[2]. Lakin bu zaman iddiaçı hər dəfə mübahisəli əşyaya sahiblik, həmin əşyadan istifadə və ona hətta sərəncam vermək hüququnu sübut etməlidir. Məhz bu cəhət onu göstərir ki, **petitor müdafiəyə nisbətən posessor müdafiə sadə və asan üsuldur**[3].

Posessor müdafiə üsulunun həm iqtisadi-təsərrüfat, həm də hüquqi əhəmiyyəti vardır. Onun əsas məqsədi mülkiyyətçinin mənafeyini təmin etməkdən ibarətdir; bu müdafiə üsulu mülkiyyətçinin öz əmlak mənafeyini müdafiə etməsini asanlaşdırır. Lakin bizim ölkə qanunvericiliyi yalnız mülkiyyətçiləri yox, həm də titul (qanuni) sahibləri (kirayəçiləri, icarəçiləri, podratçıları, daşıyıcıları, saxlayıcıları və s.) posessor müdafiə ilə təmin edir. Lakin belə hallarda da nəticədə mülkiyyətçilərin mənafeyi qorunur. Belə ki, titul sahibləri əsasən sahibliyi əmlakın mülkiyyətçinin mənafeyi üçün həyata keçirirlər.

Şübhəsiz, **posessor müdafiə mülkiyyət hüququnun müdafiəsi** deməkdir. Ona görə ki, əksər hallarda sahibliyi həyata keçirən şəxs rolunda əmlakın mülkiyyətçisi çıxış edir.

Posessor müdafiə (sahibliyin müdafiəsi) bunlardan başqa, əmlak münasibətləri sahəsində müəyyənləşdirilmiş qaydaların sabitliyini, habelə təsərrüfat dövriyyəsinə cəlb olunmuş əmlaka sərəncam verilməsinə mane olan halların operativ şəkildə aradan qaldırılmasını təmin edir.

Sahibliyin müdafiəsinin əsas istiqaməti əmlak (mülki) dövriyyəsinin möhkəm və dayanıqlı olmasını təmin etməyə, əşyalara faktiki sahiblikdə mümkün

[1] *Л.Жюллио де ла Морандьер.* Гражданское право. Часть 2. М., 1960, с. 248.

[2] *Толстой Ю.К.* Спорные вопросы учения о праве собственности // Сборник ученых трудов Свердловского Института. Вып. 13. Свердловск, 1970, с. 83.

[3] *Венедиктов А.В.* Защита фактического владения в условиях мирного и военного времени // Учен. труды. Вып. IX, М., 1947, с. 70.

ola biləcək hər hansı qeyri-müəyyənlik halını aradan qaldırmağa yönəlir[1]. Belə müdafiə inkişaf etmiş mülki dövriyyə üçün olduqca vacibdir. Qanunda nəzərdə tutulan məlum hallarda isə sahibliyin müdafiəsi institutu vicdanlı sahibliyi (titulsuz, yəni qanunsuz sahibliyi) qoruyur və mühafizə edir (MM-in 157-ci maddəsi). Özü də faktiki vicdanlı sahiblik «kitab müddəti» və əldə etmə müddəti qaydası əsasında mülkiyyət hüququnun əldə edilməsinin üsulu kimi çıxış edə bilər (MM-in 178-ci maddəsinin 5-ci və 6-cı bəndləri, 181-ci maddəsinin 4-cü bəndi). Bu, onu göstərir ki, sahiblik müəyyən hüquqi nəticəyə səbəb ola bilər. Məsələn, daşınar əmlakın mülkiyyətçisi olmayan, lakin beş il ərzində ona öz əmlakı kimi vicdanla və fasiləsiz sahiblik edən şəxs bu əmlaka mülkiyyət hüququ əldə edir. Bu şəxsin hüququ var ki, öz sahibliyini əmlakın mülkiyyətçisi olmayan, habelə bu əmlaka sahiblik hüquqları olmayan üçüncü şəxslərdən müdafiə etsin (MM-in 179-cu maddəsinin 3-cü bəndi).

Bütün qanuni (titul) sahibliyi müdafiə etmək **sahibliyin müdafiəsi anlayışının mahiyyətini** təşkil edir. Qanuni (titul) sahib anlayışı ilə həm vasitəli, həm də vasitəsiz sahiblər əhatə olunur. Vasitəsiz sahiblər kateqoriyasına üç qrup şəxs daxildir: mülkiyyətçi; məhdud əşya hüququ subyektləri, yəni özgə əmlakına əşya hüquqları subyektləri (superfitsiar, servitut alan, uzufruktuar və s.); öhdəlik hüquqları subyektləri (kirayəçi, icarəçi, daşıyıcı, əvəzsiz istifadə edən, komisyonçu, saxlayıcı və s., yəni özgə əşyasına sahibliklə bağlı olan şəxslər). Onlar **sahibliyin müdafiə subyektləri** hesab olunurlar.

Sahibliyin müdafiəsi yol verilən mümkün üsullarla həyata keçirilir. Bu üsullar iki cür olur:

- sahiblik iddiası;
- özünümüdafiə (özünüqoruma) tədbirləri (hərəkətləri).

Sahiblik (posessor) iddiası məhkəmə (yurisdiksiya) müdafiə formasına, özünümüdafiə isə məhkəmədənkənar (qeyri-yurisdiksiya) formaya aiddir; özünümüdafiə zamanı sahib müstəqil surətdə, hər hansı dövlət orqanının köməyi olmadan öz pozulmuş sahibliyini bərpa edir.

Sahiblik iddiasını dünyanın bir çox ölkələrinin qanunvericiliyi də tanıyır. Fransa qanunvericiliyində o, zorla məhrum olunmuş sahibliyin bərpası haqqında iddia (reintegrande, bu 1971-ci ildə qəbul olunan xüsusi qanunda nəzərdə tutulur)[2], Almaniya qanunvericiliyində sahibliyin müdafiəsi haqqında iddia (Besitzentziengsanspruch, Almaniya MQ-nin 861-ci paraqrafı), İtaliya qanunvericiliyində isə sahibliyin qaytarılması haqqında iddia (reintegrazione, İtaliya MM-in 1168-ci maddəsi) adlanır. Yaponiya qanunvericiliyinə görə, üç cür sahiblik iddiası verilir: sahibliyin qaytarılması haqqında iddia (MM-in 200-cü

[1] Sahibliyin müdafiəsi anlayışını XIX əsrdə Avropa ölkələrinin (hər şeydən əvvəl, Alma-niyanın) qanunvericiliyi nəzərdə tutmuşdur. Qanunvericiliyin bu cür müdafiəni nəzərdə tutmasının sosial motivi, sahiblik faktının hüquqi müdafiəsinin mənası Avropa hüquq elmində çoxsaylı və müxtəlif konsepsiyaların yaranmasına səbəb olmuşdur. Bu konsepsiyalar sahibliyiin müdafiəsi haqqında təlimin inkişafına güclü təsir göstərmişdir (bax: *Иоффе О.С.* Цивилистическая доктрина промышленного капитализма // В книге: Гражданское право. Избранные труды. М., 2000, с. 99-101).

[2] Fransanın Napoleon Məcəlləsində bu iddia növü nəzərdə tutulmurdu. Amma buna baxmayaraq, sivilistika doktrinası və presedent hüququ «reintegrande» iddiasını tanıyırdı. Nəhayət, 1971-ci ildə xüsusi qanunla həmin iddia növü rəsmən tanınmağa başladı.

maddəsi); sahibliyin dəstəklənməsi barədə iddia (MM-in 198-ci maddəsi); sahibliyin tamlığını saxlamaq barədə iddia (MM-in 199-cu maddəsi)[1]. İngilis-amerikan hüququnda iki cür alternativ sahiblik iddiası verilə bilər: sahibliyin pozulması haqqında iddia (trespass); daşınmaz əşyaya sahibliyin bərpası haqqında iddia (ejectment). Hər iki müdafiə vasitəsi delikt hüququ sahəsinə aiddir.

Sahiblik iddiası yalnız müəyyən şərtlər olduqda verilə bilər. **Birinci şərt** ondan ibarətdir ki, **qadağan olunmuş özbaşınalığa yol verilsin** (MM-in 164-cü maddəsi). Ona görə də sahiblik iddiasına özbaşınalıq üzrə iddia da deyilir. **Özbaşınalıq** dedikdə, sahibin iradəsi olmadan sahiblikdən məhrum etmə və sahibliyi pozma başa düşülür. Məsələn, hər hansı bir şəxs digər şəxsin əlindən əşyanı zorla alır. Bununla o, sahiblikdən məhrum olur. **İkinci şərt** ondan ibarətdir ki, özbaşınalıq halının və onu edən şəxsin əşyanın sahibinə məlum olmasından dərhal sonra əşyanın qaytarılması və ya pozuntunun aradan qaldırılması tələb edilsin. Əgər bu tələb yerinə yetirilməzsə, onda sahiblik iddiası verilir (MM-in 165-ci maddəsinin 2-ci bəndi).

Sahiblik iddiası iki cür olur: sahiblikdən məhrum etmə üzrə sahiblik iddiası; sahibliyin pozulması üzrə sahiblik iddiası.

Sahiblikdən məhrum etmə ilə bağlı iddia növü bəzi xarici ölkə qanunvericiliyinə də məlumdur. Məsələn, Almaniya qanunvericiliyinə görə, sahiblikdən məhrum olan şəxs əşyanın geri qaytarılması, yəni sahibliyin bərpası barədə iddia verə bilər (Besitzord nungsanspruch, Almaniya MQ-nin 962-ci paraqrafı)[2].

Sahiblikdən məhrum etmə ilə bağlı olmayan iddia növü bir sıra xarici hüquq sistemlərinə də məlumdur. Fransa qanunvericiliyində o, sahiblikdən məhrum etmə ilə bağlı olmayan hərəkətlərə son qoyulması haqqında iddia adlanır (Fransa MM-in 2282-ci maddəsi). İtaliya qanunvericiliyi sahibliyin saxlanılması barədə iddia növünü (manuten zione) nəzərdə tutur (İtaliya MM-in 1170-ci maddəsi)[3].

Sahiblikdən məhrum etmə üzrə sahiblik iddiası dedikdə, sahiblikdən məhrum olan əşya sahibinin qanunsuz olaraq əşyanı əldə edən şəxsə (qanunsuz sahibə) əşyanın qaytarılması (sahibliyin bərpası) barədə verdiyi tələb başa düşülür. Bu iddia yalnız sahibliyin bərpa edilməsinə yönəlir. Onun **predmetini** sahibliyin normal vəziyyətini bərpa etmək tələbi təşkil edir. **İddiaçı** (iddia hüququnun subyekti) rolunda mülkiyyətçi və digər qanuni sahib çıxış edə bilər. Bunun üçün onlar sahiblik faktını sübut etməlidirlər. **İddia üzrə cavab** (vəzifə subyekti) qismində isə tələb irəli sürülən anda əşyanı faktik surətdə əldə edən qanunsuz sahib iştirak edir. Əgər bu ana kimi əşya cavabdehdə olmazsa, onda ona sahiblik iddiası vermək olmaz. Çünki belə halda sahiblik iddiasının predmeti itir. Bu məqamda həmin şəxsə qanuni sahibə **vurulmuş zərərin əvəzinin ödənilməsi barədə iddia verilir**.

Sahiblik iddiasının obyekti qismində yalnız naturada saxlanılan fərdi əlamətləri ilə müəyyən əşya çıxış edə bilər. Məlum və aydın məsələdir ki, cinsi əlamətləri ilə müəyyən edilən və ya naturada saxlanılmayan əşya barəsində bu cür iddia vermək olmaz.

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 176.
[2] Германское право. Гражданское уложение. Часть 1. М., 1996.
[3] *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 2001, с. 248.

Sahiblikdən məhrum etmə üzrə sahiblik iddiası müəyyən nəticəyə səbəb olur. Bu iddianın hansı nəticəyə səbəb olması sahibliyin növündən, yəni vicdansız və ya vicdanlı sahiblikdən asılı olaraq müəyyən edilir. Əgər **sahiblik vicdansız sahiblik növündə olarsa, onda vicdansız sahib tam restitusiyanı həyata keçirir**. Söhbət sahiblikdən məhrum olan şəxsin (mülkiyyətçinin) sahibliyinin əvvəlki normal vəziyyətinin bərpa edilməsindən gedir. Belə ki, vicdansız sahib əşyanı sahibinə (mülkiyyətçisinə) qaytarır. Bu qayda dünyanın, demək olar ki, bütün hüquq sistemlərində qüvvədə olan və fəaliyyət göstərən ümumi prinsip hesab edilir. Həmin prinsip isə əşya ilə bağlı sahiblik münasibətlərini ədalətli və məqsədəmüvafiq surətdə tənzimləmək niyyəti güdür. Məsələn, kənd sakini öz qonşusunun beş ədəd qoyununu oğurlayır. O, vicdansız sahib olduğuna görə həmin qoyunları sahibinə qaytarmalıdır. Başqa bir misalda vətəndaş bilir ki, bağ evi kiminsə mülkiyyətindədir, onun həqiqi sahibi (mülkiyyətçisi) vardır və sahib 5 il müddətinə xaricə işləməyə getmişdir. O, bağ evinin sahibini həmin evin darvazası üzərində asılmış yazı lövhəsindən müəyyənləşdirir. Lakin buna baxmayaraq, vətəndaş özbaşına, hər hansı icazə və razılıq olmadan bağ evinə soxulur və həmin evin vicdansız sahibi olur. O, vicdansız sahib olduğu üçün bağ evinə sahibliyi bərpa etməlidir.

Bununla bərabər, **vicdansız sahib** ələ keçirdiyi əşyaya sahiblik etdiyi bütün müddət ərzində **əldə etdiyi bəhərin əvəzini ödəməlidir**. Söhbət həm təbii bəhərdən, həm də mülki bəhərdən (gəlirdən) gedir. Məsələn, yuxarıdakı misallarda kənd sakini oğurladığı qoyunların quzularının (təbii bəhərin) əvəzini, vətəndaş isə bağ evinin həyətində bitən ağacların meyvələrinin (təbii bəhərin) əvəzini və bağ evinin yay ayında üç aylıq kirayəyə verilməsindən götürdüyü gəlirin, yəni kirayə haqqının (mülki bəhərin) əvəzini ödəməlidir.

Vicdansız sahib ələ keçirdiyi əşyanı saxlaması ilə bağlı bütün zərərin əvəzini də ödəməlidir. Məlum məsələdir ki, o, əşyanı özündə saxlamaqla mülkiyyətçiyə (həqiqi sahibə) xeyli zərər vurur, yəni vicdansız sahiblik nəticəsində mülkiyyətçi ziyana düşür. Söhbət zərərin əldən çıxmış fayda adlı hissəsindən gedir. Belə ki, əşyanı vicdansız sahib ələ keçirməsəydi, mülkiyyətçi ondan fayda götürəcəkdi (məsələn, yuxarıdakı misallarda mülkiyyətçi qoyunların südündən pendir hazırlayacaqdı və ya bağ evinin həqiqi sahibi onu kirayəyə verəcəkdi və s.).

Vicdansız sahib əşyaya müəyyən yaxşılaşdırmalar edə bilər. Məsələn, yuxarıdakı misalda vətəndaş bağ evinə iki otaq əlavə edir. Bağ evi sahibinə (mülkiyyətçiyə) verilərkən bu cür yaxşılaşdırmaların əvəzi ödənilirmi? **Sahib vicdansız olduğuna görə yaxşılaşdırmaların əvəzi ödənilmir.**

Vicdanlı sahibliyə gəldikdə isə məsələ sahiblik edilən əşyanın daşınar və daşınmaz əşyaya aid edilməsindən asılı olaraq həll edilir. Belə ki, daşınmaz əşyaya vicdanlı sahiblik edən şəxs sahiblik iddiası verildiyi andan özünün sahibliyinin qanunsuz olduğunu bilir. Məhz bu andan vicdanlı sahiblik vicdansız sahiblik, vicdanlı sahib isə vicdansız sahib hesab edilir[1]. Buna görə də mülkiy-

[1] Yeri gəlmişkən, qeyd edək ki, bəzi xarici ölkələrin, məsələn, Yaponiyanın qanunvericiliyində bu ayrıca normada rəsmən ifadə olunur. Belə ki, bu ölkənin MM-inin 189-cu maddəsinin 2-ci bəndinə görə, vicdanlı sahiblik iddia verildiyi andan vicdansız sahiblik sayılır (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 174).

yətçinin (səlahiyyətli şəxsin) normal sahiblik vəziyyəti bərpa olunur. Amma vicdanlı sahib əşyadan əldə etdiyi bəhərin əvəzini ödəmir. O, **vicdanlı sahiblik müddətində əşyadan istifadə nəticəsində əldə etdiyi bütün gəlirləri özündə saxlamaq hüququna** malikdir. Bu qayda dünyanın bir çox ölkələrinin qanunvericiliyində ifadə olunan belə bir ümumi prinsipə uyğun gəlir ki, daşınmaz əşyadan törəyən və əldə edilən bütün şeylərin mülkiyyətçiyə məxsus olması vicdanlı sahibliyə güzəşt edilir[1], yəni həmin şeylər (bəhər, gəlir, artım və s.) mülkiyyətçiyə yox, vicdanlı sahibə verilir. Məsələn, Hollandiya MM-inin 120-ci maddəsinə görə, ayrıla bilən təbii bəhərlər və ayrıla bilməyən mülki bəhərlər vicdanlı sahibə məxsusdur[2]. Almaniya MQ-nin 955-ci paraqrafı analoji qaydanı nəzərdə tutur[3]. Yaponiya MM-in 189-cu maddəsinin 1-ci bəndində göstərilir ki, vicdanlı sahib bəhərləri əldə etmək hüququna malikdir[4]. Məsələn, iki nəfər kənddən gəlmiş vətəndaş zənn edirlər ki, Xəzərin sahilində yerləşən bağ evinin sahibi (mülkiyyətçisi) yoxdur və hər hansı bir şəxs həmin evə mülkiyyət hüququna malik deyil. Doğrudan da, onlar bilmirlər ki, həmin evin həqiqi sahibi (mülkiyyətçisi) vardır və o, 5 il müddətinə xaricə işləməyə getmişdir. Vətəndaşlar belə hesab edirlər ki, göstərilən bağ evi yiyəsizdir, sahibsizdir və özbaşına buraxılmışdır. Buna görə də onlar bağ evinə girərək, orada yaşayır və həmin evin faktik sahibi, özü də vicdanlı sahibi olurlar. Vətəndaşlar bağ evini hər il yay aylarında kirayəyə verir və kirayə haqqı formasında mülki bəhər (gəlir) əldə edirlər. Bundan əlavə, onlar hər il bağdakı ağaclarda yetişən meyvələri (təbii bəhəri) dərib özlərinə götürürlər, habelə əlavə iki otaq tikib evə qatırlar. 5 ildən sonra bağ evinin mülkiyyətçisi xaricdən qayıdır. Sahibliyini bərpa etmək üçün o, sahiblik iddiası verir. Bunun nəticəsində mülkiyyətçinin sahibliyi bərpa olunur. Amma vətəndaşlar bəhərin əvəzini ödəmirlər, tikib evə əlavə etdikləri iki otağa görə isə müvafiq kompensasiya alırlar. Əgər qanunda nəzərdə tutulan qaydada onlar bağ evinə sahiblik etsələr, həmin evə mülkiyyət hüququ əldə edə bilərlər (MM-in 178-ci maddəsinin 6-cı bəndi).

Daşınar əşyaya gəldikdə isə qeyd etmək lazımdır ki, bu növ əşyanın vicdanlı sahibi də onu sahibinə (mülkiyyətçiyə) qaytarmaq vəzifəsi daşıyır. Məsələn, şəxs səhvən elə hesab edir ki, əşya sahibi (mülkiyyətçi) tərəfindən atılmışdır. Amma o, bilmir ki, həmin əşya kiminsə mülkiyyətindədir. Daşınar əşyanın sahibi (mülkiyyətçisi) gəlib çıxır. Sahiblik iddiası verildikdən sonra vicdanlı sahib əşyanı ona qaytarır. Amma o, vicdanlı sahib olduğu üçün əşyadan götürdüyü faydanın əvəzini ödəmir (MM-in 168-ci maddəsi). Fayda dedikdə, bəhər, habelə əşyadan istifadə etmək başa düşülür[5]. Məsələn, paltarı geyməklə ondan faydalanmaq, televizora baxmaqla ondan faydalanmaq, musiqi alətini çalmaqla faydalanmaq və s.

Daşınar əşya onun həqiqi sahibindən (mülkiyyətçisindən) yox, daşınar əşyanı özgəninkiləşdirməyə hüququ olmayan şəxsdən vicdanlı sahibin sahibliyinə keçdikdə isə (non domino) məsələ başqa xarakter alır. Məsələn, mülkiyyətçi əşyanı etibar edərək, öz qonşusunun sahibliyinə verir. Qonşu əşyaya sahibliyi həyata keçirir. Amma onun əşyanı özgəninkiləşdirməyə hüququ yoxdur. Lakin buna baxmayaraq, qonşu əşyanı üçüncü şəxsin sahibliyinə verir və bunun müqabilində müəyyən məbləğdə pul alır. Üçüncü şəxs zənn edir ki, qonşu əşyanın həqiqi sahibidir (mülkiyyətçisidir). Buna görə də o, vicdanlı sahib hesab edilir. Bu halda əşyanın mülkiyyətçisinin verdiyi sahiblik iddiası təmin edilirmi? Mülki qanunvericilik həmin suala cavab verərək müəyyənləşdirir ki, bu halda mülkiyyətçinin (həqiqi sahibin) sahiblik iddiası təmin oluna bilməz və vicdanlı sahib əşyanı ona qaytarmaq vəzifəsi daşımır. Ona görə ki, üçüncü şəxs «ani müddət» qaydasında həmin daşınar əşyaya mülkiyyət hüququ əldə edir (MM-in 182-ci maddəsi). Fransanın Napoleon Mülki Məcəlləsinin 2279-cu maddəsində göstərildiyi kimi, daşınar əşyalara münasibətdə sahiblik hüquqi əsasa bərabər tutulur. MM-in 182-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulan hallarda isə şəxs vicdanlı sahib hesab edilmir və onun daşınar əşyaya mülkiyyət hüququ yaranmır[1]. Buna görə də həmin şəxs əşyanı onun mülkiyyətçisinə qaytarmalıdır (bu barədə dərsliyin «Mülkiyyət hüququnun əldə edilməsi üsulları» adlı paraqrafının «Ani müddət» adlı yarımbaşlığına bax).

Sahibliyin pozulması üzrə sahiblik iddiası dedikdə, qanuni sahibin onun sahibliyini pozan şəxsdən pozuntulara son qoyulması barədə tələb başa düşülür. Özü də dərhal qeyd etməliyik ki, bu növ iddia sahiblikdən məhrum etmə ilə bağlı olmayan hallarda verilir.

Göstərilən növ sahiblik iddiasında **iddiaçı qismində** qanuni sahib (mülkiyyətçi və digər qanuni sahib) çıxış edir. Elə bir sahib ki, əşya onun sahibliyində qalır, amma hər hansı şəxs tərəfindən bu sahibliyin həyata keçirilməsinə maneçilik törədilir. **İddia üzrə cavabdeh** rolunda qanunsuz hərəkətlər edərək, sahibliyi pozan şəxs çıxış edir. Məsələn, şəxs mal anbarı sahibinin əlindən zorla həmin anbarın açarlarını alır. Bununla anbardakı mallara sahibliyi həyata keçirmək qeyri-mümkün olur. İddia tələbinin obyekti isə sahibliyi pozan və davam edən hərəkətlərin aradan qaldırılmasından ibarətdir.

Mülki qanunvericilik sahiblik iddiaları üçün **bir illik iddia müddəti** müəyyən edir (MM-in 165-ci maddəsinin 2-ci bəndi). **Bu müddətin axımı** sahiblikdən məhrum etmə və ya sahibliyin pozulması halları əşya sahibinə məlum olduğu andan yox, **sahiblikdən məhrum etmə və ya pozuntu anından başlayır** və **hesablanır**. Məsələn, şəxs əşyanı sentyabr ayının 10-da qanunsuz olaraq əldə edir. Bununla mülkiyyətçi əşyaya sahiblikdən məhrum olur. Bu, yalnız sentyabr ayının 20-də ona məlum olur. Belə halda iddia müddətinin axımı

[1] *У.Маттеи, Е.А.Суханов.* Основные положения право собственности. М., 1999, с. 168.
[2] Гражданский кодекс Нидерландов / Отв. ред. *Ф.Й.М.Фельбрюгге.* Лейден. 1996.
[3] Германское право. Гражданское уложение. Часть 1. М., 1996.
[4] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Указ. соч., с. 174.
[5] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 47.

[1] Azərbaycan Respublikası MM-inin 182-ci maddəsində göstərilən qayda Almaniya mülki qanunvericiliyindən iqtibas olunmuşdur. Almaniya mülki qanunvericiliyi isə alman adət hüququna əsaslanır. Alman adət hüququna görə, daşınar əşyaya vicdanlı sahibin mülkiyyət hüququ əldə etməsi həmin əşyanın mülkiyyətçinin iradəsilə onun sahibliyindən çıxmasından asılıdır. Belə ki, əşya mülkiyyətçinin iradəsi olmadan oğurlanarsa və ya itərsə, onda o, mülkiyyətçiyə qaytarılır. Yox, əgər mülkiyyətçi öz əşyasını etibar edərək, müəyyən şəxsin sahibliyinə verərsə, bu şəxs isə ixtiyarı çatmadığı halda üçüncü şəxsə güzəşt edərsə, onda əşya mülkiyyətçiyə qaytarılmır. Üçüncü şəxs belə halda vicdanlı sahib kimi həmin əşyaya mülkiyyət hüququ əldə edir (*У.Маттеи, Е.А.Суханов.* Основные положения право собственности. М., 1999, с. 158). Göründüyü kimi, alman adət hüququnun müəyyən etdiyi bu qayda klassik Roma hüququna uyğun gəlmir.

sentyabrın 20-dən yox, 10-dan başlanır.

Sahiblik təkcə yurisdiksiya formasının vasitəsilə yox, həm də qeyri-yurisdiksiya formasının köməyi ilə müdafiə olunur. Söhbət **mülki-hüquqi özünümüdafiə (özünüqoruma) kimi qeyri-yurisdiksiya formasından** gedir[1]. Sahibliyin müdafiəsi zamanı özünüqorumanın (özünümüdafiənin) iki növündən istifadə olunur:

- mülki-hüquqi zəruri müdafiədən (Besitzwahr);
- mülki-hüquqi özünəyardımdan (özünəköməkdən).

Sahibliyin qorunmasında istifadə olunan mülki-hüquqi zəruri müdafiənin mahiyyəti ondan ibarətdir ki, hər bir sahib özbaşınalıqdan müdafiə üçün fiziki güc işlədə bilər (MM-in 164-cü maddəsinin 1-ci bəndi). Belə ki, sahib özünün və ya digər şəxslərin sahibliyinə qarşı hüquqazidd real qəsdin dəf edilməsi üçün zəruri müdafiə hərəkətlərindən istifadə etmək ixtiyarına malikdir. Zəruri müdafiə vəziyyətində edildiyinə görə həmin hərəkətlər hüquqazidd deyil və bu zaman vurulan ziyanın əvəzi ödənilmir. Almaniya sivilistika doktrinasında bu cür özünüqoruma **mülki-hüquqi zəruri müdafiənin xüsusi halı** hesab edilir[2]. Göstərilən zəruri müdafiə halına belə bir misal çəkək. Əlində silah olan oğru vətəndaşın evinə soxularaq, ondan zinət əşyalarının verilməsini tələb edir. Vətəndaş oğrunu aldadaraq göstərir ki, guya zinət əşyaları evin həyətində torpağa basdırılmış dəmir qutunun içərisindədir. O, torpağı qazarkən macal tapıb yerdən küt alət götürür və həmin alətlə qəflətən oğrunun başına zərbələr endirir. Bunun nəticəsində o, huşunu itirir və özünə gəldikdən sonra xəstəxanaya düşür. Vətəndaş sahibliyi qoruyan zaman özünümüdafiə (zəruri müdafiə) hərəkətindən istifadə etdiyi üçün sağlamlığın pozulmasına görə mülki-hüquqi məsuliyyətə cəlb edilmir.

Sahibliyin qorunması zamanı tətbiq edilən zəruri müdafiə yalnız iki şərtə uyğun olduqda və cavab verdikdə hüquqi əhəmiyyət kəsb edir. Birincisi, **zəruri müdafiə hərəkəti yaranmış mövcud şəraitə uyğun olmalıdır**. Şəraitə açıq-aşkar uyğun gəlməyən hərəkət zəruri müdafiə vəziyyəti yaratmır. İkincisi, sahibin tətbiq etdiyi fiziki güc hərəkəti, yəni **zəruri müdafiə hərəkəti əsaslı olmalıdır**. Əsassız güc hərəkəti zəruri müdafiə vəziyyətinə səbəb olmur. Göstərilən şərtlərə uyğun olduqda, müvafiq güc hərəkəti zəruri müdafiə vəziyyətində edilən hərəkət sayılır və buna görə də hüquq pozuntusu hesab edilmir.

Sahibliyin qorunmasına yönələn mülki-hüquqi özünəyardım (özünəkömək) dedikdə, sahibin öz şəxsi səy, güc və qüvvəsi ilə sahibliyini təmin etməsi başa düşülür. Bu üsulla sahibliyin müdafiə olunması qaydası bəzi xarici ölkələrin qanunvericiliyinə də məlumdur. Məsələn, Almaniya Mülki Qanunnaməsinə görə, özünəyardım vasitəsilə sahiblik müdafiə oluna bilər (859-cu paraqraf, 1-ci hissə). Sahibin qulluqçularının (xidmətçilərinin) da özünəyardım vasitələrindən

[1] *Иоффе О.С.* Цивилистическая доктрина промышленного капитализма // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 97. O.S.İoffe göstərir ki, müstəqil sahiblik həm sahiblik iddiası ilə, həm də özünümüdafiə ilə, törəmə (qeyri-müstəqil) sahiblik isə yalnız özünümüdafiə ilə qorunur.

[2] Sahibliyin qorunmasında istifadə olunan zəruri müdafiə (Besitzwahr) Almaniya Mülki Qanunnaməsinin 859-cu paraqrafının 1-ci hissəsində nəzərdə tutulur. Bu cür müdafiədən həm də sahibin (mülkiyyətçinin) qulluqçuları (xidmətçiləri) istifadə edə bilərlər (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 413).

istifadə etmək hüququ vardır[1]. Polşa MM-in 343-cü maddəsinə görə, sahib öz sahibliyini müdafiə etmək üçün özünəyardımdan istifadə edə bilər[2].

Sahibliyin müdafiəsi zamanı müxtəlif özünəyardım vasitələrindən istifadə oluna bilər. Əsas və başlıca vasitə sahibliyin predmeti olan əşyanı almaqdan (geri qaytarmaqdan) ibarətdir. Məsələn, qonşunun əşyasını hər hansı şəxs oğurlayır və bununla o, sahiblikdən məhrum olur. Sahibliyini bərpa etmək üçün qonşu güc işlədir və onun hesabına əşyanı qonşudan geri alır.

Sahibliyin müdafiəsi zamanı şəxsin tutulub saxlanılması kimi özünəyardım vasitəsindən də istifadə oluna bilər. Bu vasitədən o halda istifadə olunur ki, əşyanı saxlayan şəxsin qaçıb gizlənməsinə və aradan çıxmasına şübhə yaransın. Məsələn, kənd sakini bir aylıq müddətə başqa şəhərə iş dalınca gedir və öz zinət əşyalarını yaxın bildiyi tanış şəxsə verir. O, qayıtdıqda həmin şəxsi tapmır. Kənd sakininə xəbər verirlər ki, onun yaxın bildiyi tanış şəxs xarici ölkəyə yaşamaq üçün axşam reysi ilə hava limanından uçacaqdır. Kənd sakini dərhal hava limanına gəlir, həmin şəxsi tutub saxlayır və polis orqanına təhvil verir.

Hüquq ədəbiyyatında göstərilir ki, sahibliyin müdafiəsi zamanı özünəyardım vasitəsi kimi həyət (gözətçi) itinin köməyindən istifadə oluna bilər[3]. Məsələn, iki nəfər naməlum şəxs bağ evinə soxulmaq istədikdə, bağ sahibi həyət itini zəncirdən açıb buraxır. Bəzi ölkələrin qanunvericiliyi silah tətbiq etməyi özünəyardım tədbirlərindən biri kimi nəzərdə tutur. Məsələn, Kaliforniya ştatının qanunvericiliyinə görə, sahib (mülkiyyətçi) «havaya güllə atmaq» vasitəsilə sahibliyini müdafiə edə bilər[4].

Sahibliyin müdafiəsi zamanı tətbiq edilən özünəyardım tədbirləri özünəyardım üçün qanunun müəyyənləşdirdiyi şərtlərə cavab verməlidir. Əgər verməzsə, bu tədbirlər hüquq pozuntusu sayılır (həmin şərtlər barədə dərsliyin «Mülki hüquqların müdafiəsi» adlı fəslinin «Mülki hüquqda özünəyardım» adlı yarımbaşlığına bax).

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева**, **Ю.К.Толстого**. М., 1997 (гл. 23).

[1] Германское право. Гражданское уложение. Часть 1. М., 1999. Azərbaycan Respublikasının MM-in sahibliyin müdafiəsi barədə 164-cü maddəsi Almaniya MQ-nin 859-cu paraqrafından iqtibas olunmuşdur. Həmin paraqrafın 2-ci hissəsində göstərilir ki, sahib qadağan olunmuş özbaşınalıq yolu ilə ondan alınmış daşınmaz əşyanı güc işlətməklə geri götürə bilər, bir şərtlə ki, pozuntu törədən şəxs yerindəcə yaxalansın və ya təqib nəticəsində tutulsun. Almaniya sivilistika doktrinasında bu, xüsusi xarakterli özünəyardım tədbiri hesab edilir. Ona görə ki, həmin tədbirdən istifadə olunmasını şərtləndirən zəmin başqa cürdür, yəni xüsusi təbiətə malikdir (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 449). Çox təəssüf ki, bizim ölkə qanunvericiliyi Almaniya MQ-nin 859-cu paraqrafını yarımçıq və natamam iqtibas edərək, onun 2-ci hissəsini öz tərkibinə daxil etmir. Amma buna baxmayaraq, bizim MM-in 164-cü maddəsinin 1-ci hissəsində işlədilən «güc işlətmək» anlayışını «əşyanı qadağan edilmiş özbaşınalıq yolu ilə əldə edən qanunsuz sahibdən geri almaq» mənasında genişləndirici təfsir etmək lazımdır.

[2] Основные институты гражданского право зарубежных стран. М., 1999, с. 267.

[3] *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 163.

[4] Соединенные Штаты Америки: Конституция и законадательные акты. Пер. с англ. М., 1993.

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко**. М., 1998 (гл. 19).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И.Масляева**. М., 1997 (гл. 20).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой**. М., 1998 (гл. 14, §8).

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова**. М., 1998 (гл. 20).

Гражданское право. Учебник / Под ред. **С.П.Гришаева**. Учебник. М., 1999 (гл. 8, § 7).

Советское гражданское право. Учебник. Том 1 / Под ред. **О.А.Красавчикова**. М., 1985 (гл. «Защита права собственности»).

Советское гражданское право. Учебник. Том 1 / Под ред. **В.П.Грибинова, С.М.Корнеева**. М., 1979 (гл. «Защита права собственности»).

О.С.Иоффе. Советское гражданское право. М., 1967 (гл. «Защита права собственности»).

У.Маттеи, Е.А.Суханов. Основные положения права собственности. М., 1999 (гл. 5, 7).

Г.Н.Амфитеатров. Иски собственников о возврате принадлежащего им имущества. М., 1945.

Ю.К.Толстой. Содержание и гражданско-правовая защита права собственности в СССР. Л., 1955.

М.В.Малинкович. Защита права владельца, не являющегося собственником. Советская юстиция. 1968, № 5.

А.В.Венедиктов. Гражданско-правовая охрана социалистической собственности в СССР. М., 1954.

К.И.Скловский. Собственность в гражданском праве. М., 1999 (гл. «Защита владения»).

А.Жалинский, А.Рёрихт. Введение в немецкое право. М., 2001 (§10).

Wolf M. Sachenrecht. München. 1997.

Baur J.F., Stürner R. Lehrbuch des Sachenrechts. 1999.

P.Bassenge // Palandt. Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999.

Medicus D. Bürgerliches Recht. Berlin; Köln; Bonn; München. 1999

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983.

MÜLKİ HÜQUQUN XÜSUSİ HİSSƏSİ

(BESONDERER TEIL DES BÜRGERLICHEN RECHTS)

III BÖLMƏ

ÖHDƏLİK HÜQUQU (ÜMUMİ HİSSƏ)

SCHULDRECHT (ALLGEMEINER TEIL)

XXVI FƏSİL
ÖHDƏLİK HÜQUQU (SCHULDRECHT)

§ 1. Öhdəlik hüququ mülki hüququn yarımsahəsi kimi. Öhdəliyin anlayışı, əmələ gəlmə əsasları və növləri

1. Öhdəlik hüququnun anlayışı və predmeti

Öhdəlik hüququ mülki hüququn həcm etibarilə ən böyük və geniş yarımsahəsidir. Bu yarımsahə Azərbaycan Respublikasının mülki hüququnun ən iri hissəsi olub, özündə Mülki Məcəllədə olan normaların yarısından çoxunu birləşdirir.

Hər şeydən əvvəl, qeyd edək ki, öhdəlik hüququ bir çox qabaqcıl və sivil ölkələrin milli mülki hüquq sahələrinə struktur hissəsi kimi daxil olur. Fransa Mülki Məcəlləsinin (Napoleon Məcəlləsinin) üçüncü kitabı öhdəlik hüququnun bütün məsələlərini tənzimləyir. Burada «Müqavilələr və müqavilədən əmələ gələn öhdəliklər haqqında ümumi müddəalar», «Müqavilədənkənar öhdəliklər», habelə ayrı-ayrı müqavilə öhdəliklərinə (alqı-satqı, dəyişmə, kirayə, borc və digər öhdəliklərə) həsr edilmiş bölmələr vardır. Almaniya Mülki Qanunnaməsinin ikinci kitabı «Öhdəlik hüququ» («Schuldrecht») adlanır və özündə yeddi bölməni («Öhdəliyin məzmunu», «Müqavilələrdən əmələ gələn öhdəliklər», «Öhdəliyin ləğv edilməsi», «Öhdəliyin ayrı-ayrı növləri» və b. bölmələri) birləşdirir. Həmin normalar qanunnamənin 241-853-cü paraqraflarını əhatə edir[1]. Yaponiya MM-in III bölməsi (399-724-cü maddələr) öhdəlik hüququna həsr edilmişdir. Bu bölmə beş fəsildən ibarətdir[2].

İtaliya Mülki Məcəlləsinin «Öhdəlik» adlanan dördüncü kitabı doqquz bölmədən ibarətdir: «Öhdəliklər haqqında ümumi müddəalar»; «Müqavilələr haqqında ümumi müddəalar»; «Müqavilələrin ayrı-ayrı növləri» və b. Hollandiya Mülki Məcəlləsinin 1992-ci ildə qüvvəyə minən altıncı kitabı öhdəlik hüququnun ümumi hissəsinə həsr edilmişdir. Beş bölmədən ibarət olan həmin kitaba daxildir: «Öhdəliklər haqqında ümumi müddəalar»; «Müqavilələr haqqında ümumi müddəalar»; «Deliktlər» və b. Həmin məcəllənin yeddinci kitabı öhdəlik hüququnun xüsusi hissəsini təşkil edən ayrı-ayrı müqavilə öhdəliklərini (alqı-satqı, dəyişmə, borc, podrat, kirayə, saxlanc, kənd təsərrüfatı icarəsi və s. öhdəlikləri) tənzimləyir. Qeyd etməliyik ki, mülki hüquqda öhdəlik hüququ adlı tərkib hissəsinin ayrılması kontinental Avropa (roman-german) mülki hüquq ailəsi üçün səciyyəvidir. O, bu ölkəyə daxil olan istənilən hüquq sisteminin ən əsas bölmələrindən biridir. İngilis-amerikan (ümumi) mülki hüquq ailəsində öhdəliyin anlayışı verilmir və onun təsnifi aparılmır. Öhdəlik hüquq münasibətləri müqavilə və delikt hüququna daxil olan normalarla tənzimlənir[3]. Bir sözlə

---

[1] *Westermann H.P., Bydlinski P.* BGB. Schuldrecht. Heidelberg, 1999; Германское право Гражданское уложение. Часть 1. М., 1996.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 243.

[3] ABŞ-ın öhdəlik hüququnun əsas institutları barədə bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 310-340.

desək, öhdəlik hüququ anlayışı ingilis-amerikan (ümumi) hüquq ailəsinə məlum deyildir[1].

Öhdəlik hüququ Roma xüsusi hüququnda onun əsas hissəsini təşkil edirdi. Roma öhdəlik hüququ Romanın ən əhəmiyyətli və mükəmməl hüquqi irsi idi. K.Marksın dili ilə desək, «Roma öhdəlik hüququ adi əmtəə - mal mülkiyyətçiləri arasında əmələ gələn alqı-satqı, xidmət, borc və digər öhdəliklər üzrə bütün mövcud münasibətləri dəqiqliklə formulə etmişdi»[2]. Bu hüquq kontinental Avropa ölkələrinin qanunvericiliyinə mühüm təsir göstərmişdir[3]. Həmin ölkələrin qanunvericiliyi Roma öhdəlik hüququnun əsas anlayışlarını qoruyub saxlamaqla onları ifadə edir. Bu ölkələrin hüquq doktrinası Roma öhdəlik hüququna əsaslanmaqla öz mülki hüquqlarının mərkəzi bölməsi və sivilistika elminin başlıca obyekti olan öhdəlik hüququnu yaratmışdır.

Roma hüququ və kontinental Avropa ölkələrinin qanunvericilik ənənələrinə uyğun olaraq, **Azərbaycan Respublikasının mülki hüququ öhdəlik hüququnu özünün tərkib hissəsi — yarımsahəsi kimi nəzərdə tutur**. Öhdəlik hüququ müxtəlif ictimai münasibətləri tənzimləyir. Bu münasibətlərin dairəsi kifayət qədər genişdir. Öhdəlik hüquq normaları ilə tənzimlənən həmin münasibətlər öhdəlik hüququnun nizamasalma predmetini təşkil edir.

Öhdəlik hüququn predmetini təşkil edən ictimai münasibətlərə çoxlu misal çəkmək olar. Daşıma müqaviləsi bağlamaqla hər gün işə gəlirik (belə halda şifahi formalı müqavilə bağlanır). Alqı-satqı müqaviləsi münasibətlərinə girməklə biz bazardan və dükandan şəxsi ehtiyacımızı ödəmək üçün müxtəlif ərzaq məhsullarını alırıq. Podrat hüquq münasibətləri əsasında biz özümüzə yaraşıqlı bağ evi tikdiririk (belə halda podrat müqaviləsi bağlayırıq). Kommersiya fəaliyyətini gücləndirmək üçün sahibkar kredit müqaviləsi bağlamaqla bankdan kredit alır. Yaşadığımız evi yanğından qorumaq üçün sığorta təşkilatı ilə sığorta müqaviləsi bağlayırıq. Kənd sakini torpaq sahəsini icarəyə verir. Yaşayış evinin mülkiyyətçisi mənzillərdən birini tələbəyə kirayəyə verir. Firma bankda hesablaşma hesabı açır və bank hesabı müqaviləsi bağlayır. Vətəndaş sərbəst pul vəsaitini banka əmanətə qoyur və bankla depozit (bank əmanəti) müqaviləsi bağlayır. Əqli mülkiyyət obyektlərindən (əsərlərdən, ixtiralardan və s.) istifadəyə müstəsna hüquqlar istifadəçilərə verilir və bu məqsədlə müəllif və ya patent-lisenziya kimi müqavilələr hüquqi rəsmiləşdirmə vasitəsi kimi çıxış edir. Öhdəlik hüququnun hüquqi tənzimləmə predmetinə həyatın və sağlamlığın qorunması, şəxslərin malik olduqları əmlakın mühafizə edilməsi ilə bağlı yaranan münasibətlər də daxildir. Məsələn, hər hansı vətəndaşın sağlamlığına və ya onun əmlakına zərər vuran şəxsin həmin zərərin əvəzinin ödənilməsi ilə bağlı olan münasibətlər.

Ümumiyyətlə, öhdəlik hüququnun hüquqi nizamasalma predmetinə daxil olan ictimai (əmlak) münasibətlər **əmlakın mülkiyyətə verilməsi ilə** (məsələn, alqı-satqı, dəyişmə, renta və s. müqavilələr ilə), **əmlakın istifadəyə verilməsi ilə** (məsələn, icarə, lizinq, kirayə müqavilələri ilə), **xidmət göstərilməsi ilə** (daşıma, sığorta, kredit, bank hesabı, bank əmanəti və s. müqavilələr ilə), **iş görülməsi ilə** (podrat müqaviləsi ilə), birtərəfli hərəkətlər edilməsi ilə (tapşırıq olmadan özgəsinin mənafeyi üçün hərəkət etmək, xüsusi mükafatlandırma barədə ümumi — açıq elan vermək və s.), **müqavilədənkənar hərəkətlərlə** (məsələn, ziyan vurmaqla, əsassız varlanmaqla) bağlı yarana bilər. Göstərilən bu cür çoxsaylı münasibətlər öhdəlik hüquq normaları ilə qaydaya salınır. Bu hüquq normaları ilə tənzimlənən həmin çoxsaylı münasibətlər iqtisadi dövriyyə və ya əmlak dövriyyə münasibətləri anlayışı ilə əhatə olunur. Belə təsəvvür yaranır ki, öhdəlik hüququ iqtisadi dövriyyəni qaydaya salır.

İqtisadi dövriyyə (iqtisadi dövriyyə münasibətləri) dedikdə, iqtisadi sistemin subyektləri arasında mal və xidmətlərin fasiləsiz olaraq mübadilə edilməsi prosesi başa düşülür[1]. İqtisadiyyatda bütün resursların son istehlakçıya çatdırılması iqtisadi dövriyyə ilə həyata keçirilir. İqtisadi dövriyyə əmtəə-mal mübadiləsi deməkdir. Əmtəə-mal mübadiləsi elə bir münasibətdir ki, bu münasibətə görə, maddi nemətlər və iqtisadi əmtəə formalı digər nemətlər bir şəxsdən digərinə keçir. Barəsində danışdığımız, **öhdəlik hüququ məhz maddi nemətlərin mübadilə və yerdəyişmə prosesini qaydaya salır**. Bu, onu göstərir ki, öhdəlik hüququ ilə statik münasibətlər yox (bu, mülkiyyət hüququ ilə tənzimlənir), **dinamik xarakterli münasibətlər rəsmiləşdirilir**. Mülki münasibətlərin statikası əşya hüququnun, müstəsna (əqli mülkiyyət obyektlərinə olan) hüququn və şəxsi qeyri-maddi nemətlərə olan hüququn müəyyən bir şəxsə məxsus olması ilə bağlıdır. Mülki münasibətlərin dinamikası isə maddi (əmlak) nemətlərin bir şəxsdən digərinə keçməsi, əmtəə-mal mübadiləsi ilə əlaqədardır[2]. Əgər mülki münasibətlərin statikası mülki hüququn əşya hüququ, əqli mülkiyyət hüququ (ona müstəsna hüquq da deyilir) və şəxsi qeyri-maddi nemətlərin qorunması hüququ (ona şəxsi qeyri-əmlak hüququ da deyilir) kimi yarımsahələrinin hüquqi nizamasalma predmetinə daxildirsə, mülki münasibətlərin dinamikası öhdəlik hüququ adlı yarımsahənin hüquqi tənzimetmə sferasına aiddir. Bu münasibətlərin dinamikliyi öhdəlik hüququ ilə rəsmiləşdirilən çoxsaylı iqtisadi dövriyyə münasibətlərinin hamısı üçün ümumi əlamətdir. Belə ki, həmin münasibətlərin hamısı əşya, pul, göstərilən xidmət, görülən iş və s. kimi maddi nemətlərin yerdəyişməsi və mübadilə edilməsi ilə bağlıdır. Məsələn, alqı-satqı müqaviləsi bağlandıqda, mal (əşya) satıcıdan alıcının mülkiyyəti-

[1] *Давид Р., Жоффре-Спинози К.* Основные правовые системи современности. М., 1999, с. 64.

[2] bax: *Маркс К., Энгельс Ф.* Сочинения. Том 14, с. 672.

[3] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 470-622; *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 195-311; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 251-536.

[1] bax: *Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ., Əlizadə A.Ş., Orucov Ş.O.* Tələb, tələbat, bazar və marketinq. İqtisadi məlumat kitabı. Bakı. 1998, c. 45.

[2] Statika və dinamika fizika elmində işlənən anlayışlardır. Yunanca «statika» sükut (yunanca «statos»— bir yerdə duran), dinamika (yunanca «dynamikos» — qüvvəyə aid olan) isə hərəkət mənalarını ifadə edir. Mülki hüquqda bu anlayışlar hüquqi əhəmiyyətə malikdir. Məsələn, yaşayış evi vətəndaşa məxsusdur. Bu, əşya hüququnun bir növü olan mülkiyyət hüququnu ifadə edir. Belə halda yaşayış evi sükut vəziyyətində vətəndaşa məxsusdur. O hərəkət etmir, yəni bir şəxsdən digərinə keçmir. Bu, münasibətin statikasını ifadə edir. Münasibətlərin dinamikasında isə maddi nemətlər bir şəxsdən digərinə keçir. Məsələn, alqı-satqı münasibətləri öhdəlik hüquq münasibətidir. Bu münasibətdə xüsusi əmtəə olan pul malla mübadilə edilir, dəyişdirilir, başqa sözlə desək, mal satıcıdan alıcıya keçir, hərəkət edir, öz yerini dəyişir. Bu, münasibətin dinamikasıdır.

nə keçir. Yaşayış evinin kirayə müqaviləsi bağlanan halda mülkiyyətçi evi kirayəyə verir. Vətəndaş borc müqaviləsi əsasında öz dostuna borc pul verir və pul onun mülkiyyətinə keçir. Bankla depozit (bank əmanəti) müqaviləsi bağlamaqla vətəndaş öz pul vəsaitini əmanətə qoyur. Podrat müqaviləsi əsasında tikinti təşkilatı (podratçı) görülən işin nəticəsini, yəni tikilini (məsələn, qarajı) sifarişçiyə (vətəndaşa) verir.

Bununla bərabər, maddi nemətlərin bir şəxsdən digərinə keçməsi və mübadilə edilməsi ilə bağlı yaranan bütün münasibətlərin hamısını, istisnasız olaraq, öhdəlik hüququnun hüquqi nizamasalma predmetinə daxil etmək olmaz. Məsələ burasındadır ki, öhdəlik hüququ real həyatdakı bu cür münasibətlərin hamısını bütövlükdə qaydaya salmaq funksiyasını yerinə yetirmir. Məsələn, müəssisənin işçisi buraxılan məhsulu bir sexdən müəssisənin digər sexinə aparır. Başqa bir misalda ata oğluna minik avtomobili verir və s. Belə təsəvvür yaranır ki, maddi nemətlərin bir şəxsdən digərinə keçməsi üzrə münasibətlərin hamısı, iqtisadi dövriyyə münasibətləri kimi çıxış edə bilmir. Maddi nemətlərin bir şəxsdən digərinə keçməsi ilə bağlı yaranan münasibətlərin iqtisadi dövriyyə münasibəti hesab edilməsi və bununla da öhdəlik hüququnun hüquqi nizamasalma predmetinə daxil olması üçün zəruridir ki, **bu nemətlər əmtəə formasında olsun**. Əmtəə dedikdə, insanın bu və ya digər tələbatını ödəmək xassəsinə, yəni istehlak dəyərinə malik olan, mübadilə üçün istehsal olunan spesifik iqtisadi nemət başa düşülür[1]. Maddi nemət ilə əmtəə kateqoriyasını eyniləşdirmək olmaz. Maddi nemətin mübadilə üçün, satılmaq üçün istehsal olunması həmin nemət əmtəəyə çevirir. Bütün əmtəələr maddi nemətdir; bütün maddi nemətlər isə əmtəə deyildir. Xidmət də (məsələn, daşıma müqaviləsi üzrə daşıyıcının göstərdiyi xidmət, bank hesabı müqaviləsi üzrə bankın göstərdiyi xidmət və s.) əmtəə kimi çıxış edir. Lakin xidmətin əşyalaşmış (maddiləşmiş) forması yoxdur. Xidmətin də istehlak dəyəri vardır; xidmət göstərilən anda o istehlak olunur. Məsələn, daşıyıcı (nəqliyyat təşkilatı) sərnişini daşımaqla ona xidmət göstərir və bu zaman həmin xidmətin istehlak dəyəri istehlak olunur[2].

Söylədiklərimizdən belə nəticəyə gələ bilərik ki, **yalnız əmtəə formalı maddi nemətlərin mübadiləsi və bir şəxsdən digərinə keçməsi iqtisadi dövriyyə münasibətlərini əmələ gətirir** və bu münasibətlər də öhdəlik hüququ ilə tənzimlənir. Qeyri-əmtəə formalı maddi nemətlərin yerdəyişməsi və mübadilə edilməsi iqtisadi dövriyyə münasibətləri yaratmır. Buna görə də həmin münasibətlər öhdəlik hüququ ilə tənzimlənmir və rəsmiləşdirilmir. Deməli, əmtəə formalı maddi nemətlərin və digər nemətlərin mübadiləsinə əsaslanan iqtisadi (əmlak) dövriyyə münasibətləri **öhdəlik hüququnun nizamasalma predmetini** təşkil edir. Başqa sözlə desək, əmtəə-mal mübadiləsi öhdəlik hüququnun tənzimetmə predmeti kimi çıxış edir.

Qeyd etdik ki, öhdəlik hüququnun hüquqi nizamasalma predmetinə daxil olan əmlak münasibətlərinin dairəsi kifayət qədər geniş və müxtəlifdir. Bu münasibətlərin özlərinin predmetinə daxildir:

- əşyalar;
- işin nəticəsi (həm maddi, həm də qeyri-maddi xarakterli);
- xidmətlər (həm maddi, həm də qeyri-maddi xarakterli);
- əmlak hüquqları;
- əmlak xarakterli qeyri-maddi nemətlər (əqli mülkiyyət obyektləri, qorunma qabiliyyətli informasiya və s.);
- şəxsi qeyri-maddi nemətlər (fiziki şəxsin sağlamlığı, həyat və s.).

Mülki hüququn öhdəlik hüququ adlı yarımsahəsi iqtisadi dövriyyə münasibətlərinin ən vacib və zəruri sahəsini tənzimləyir. Almaniya professoru H.Haynriks yazır ki, həmin münasibətlər müxtəlif növ həyati hallardan ibarətdir[1]. Bu yarımsahəyə daxil olan normalar praktiki olaraq, ölkənin bütün ictimai-iqtisadi və sosial həyatına toxunur və onu əhatə edir. Bunun üçün mülki-hüquqi müqavilələrin siyahısını nəzərdən keçirmək lazımdır. Bu müqavilələrin (alqı-satqı, faktorinq, sığorta, kredit, borc, icarə, kirayə, lizinq, daşıma, bank hesabı və s. müqavilələrin) hüquqi parametrləri MM-də göstərilmişdir.

Öhdəlik hüququ ilə həm də fiziki şəxsin sağlamlığına və həyatına, onun əmlakına vurulan zərərin ödənilməsi ilə bağlı yaranan münasibətlər, əsassız varlanmadan əmələ gələn münasibətlər və s. nizama salınır. Onun bu cür münasibətlərə toxunan normaları həmin yarımsahənin xüsusi hissəsini təşkil edir.

Öhdəlik hüququnun əhəmiyyəti olduqca böyükdür. Bu hüququn normaları olmasaydı, biz yaşamaq üçün lazım olan ərzaq məhsulları, geyim şeyləri və digər zəruri predmetlər ala bilməzdik, nəqliyyat vasitəsilə iş yerinə gələ, əşyanı icarəyə (və ya kirayəyə) götürə bilməzdik və s. Obrazlı desək, öhdəlik hüququ mülki hüquq adlı orqanizmin qan damarlarıdır ki, bunun nəticəsində həmin orqanizmdə maddələr mübadiləsi həyata keçirilir.

Beləliklə, **öhdəlik hüququ dedikdə, mülki hüququn elə bir yarımsahəsi başa düşülür ki, bu yarımsahə özündə iqtisadi dövriyyə (əmtəə-mal mübadiləsi) münasibətlərini tənzimləyən hüquq normalarını birləşdirir**. O, iqtisadi dövriyyə münasibətlərinin hüquqi forması kimi çıxış edir. Öhdəlik hüququ elə bir hüquqi alətdir ki, onun vasitəsilə bazar iqtisadi münasibətləri idarə və təşkil olunur. **Onun əsas vəzifəsi mülki (iqtisadi) dövriyyəni tənzim etməkdən ibarətdir**[2].

2. Öhdəlik hüququnun sistemi

Öhdəlik hüququnun sistemi dedikdə, həmin yarımsahəni təşkil edən hüquq normalarının daxilən vahid halında birləşməsi və bu normaların ayrı-ayrı institutlar üzrə qruplara bölünməsi, təsnif edilməsi başa düşülür. Göstərilən normalar xaotik halda yox, müəyyən bir sistem əsasında yerləşir.

Öhdəlik hüququnun sistemi bu hüququn predmetinə daxil olan əmlak münasibətlərinin spesifik xüsusiyyətlərinə əsaslanır. Elə münasibətlər vardır ki, onlar ümumi xüsusiyyətlərə və əlamətlərə malikdir. Bu xüsusiyyət və əlamətlər öhdəlik hüququnun predmetinə daxil olan həmin münasibətlərin vahid və ümumi qaydada tənzimlənməsini tələb edir. Bu isə ümumi xarakterli öhdəlik

[1] Əmtəənin xüsusiyyətləri barədə bax: İqtisadi nəzəriyyə. Dərslik / *T.S.Vəliyevin, Ə.P.Babayevin, M.X.Meybullayevin* ümumi elmi redaktəsi ilə. Bakı. 1999, c. 125-133.

[2] Xidmət barədə bax: *Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ., Əlizadə A.Ş., Orucov Ş.O.* Tələb, tələbat, bazar və marketinq. İqtisadi məlumat kitabı. Bakı. 1998, c. 240-241.

[1] *H.Heinrichs // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München, 1999, s. 219.

[2] *H.Heinrichs // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München, 1999, s. 219.

hüquq normalarının müəyyən edilməsini şərtləndirir. Ümumi təbiətə malik olan həmin normalar **öhdəlik hüququnun ümumi hissəsində yerləşir**.

Bununla belə, elə öhdəlik hüquq münasibətləri (məsələn, alqı-satqı, icarə, dəyişmə, sığorta və s. münasibətlər) vardır ki, onlar öhdəlik hüquq münasibətlərinin konkret növü kimi çıxış edir, habelə spesifik əlamətləri ilə fərqlənir. Bu spesifik xüsusiyyət və əlamətlər həmin münasibətlərin tənzimlənməsinin differensiasiyasını, yəni xüsusi xarakterli ayrı-ayrı növ konkret normalarla qaydaya salınmasını şərtləndirir. Bu normalar yalnız həmin münasibətlərin nizama salınmasında istifadə oluna bilər. Onların ayrı-ayrı konkret növ öhdəlik münasibətlərinin tənzimlənməsində tətbiq edilməsi, bəzi istisnalarla, demək olar ki, mümkün deyil. Göstərilən həmin normalar xüsusi xarakterə və təbiətə malik olduqları üçün **öhdəlik hüququnun xüsusi hissəsinə daxil edilir**.

Söylədiklərimizdən belə qənaətə və nəticəyə gələ bilərik ki, öhdəlik hüququ ilə tənzimlənən əmlak münasibətlərinin ümumi və xüsusi (konkret) xarakterə malik olmaları bu yarımsahənin **iki hissədən ibarət olmasını şərtləndirir: ümumi hissədən; xüsusi hissədən**. Yeri gəlmişkən, qeyd edək ki, öhdəlik hüququnun bu cür struktura malik olmasını bəzi xarici ölkələrin, məsələn, Almaniyanın və Yaponiyanın qanunvericiliyi də nəzərdə tutur. Almaniya MQ-nin 241-432-ci paraqraflarında ifadə olunan normalar öhdəlik hüququnun ümumi hissəsini, 433-853-cü paraqraflarında ifadə edilən normalar isə xüsusi hissəni təşkil edir[1]. Yaponiya MM-in 399-520-ci maddələrində ifadə olunan normalar öhdəlik hüququnun ümumi hissəsinə, 521-724-cü maddələrində ifadə edilən normalar isə xüsusi hissəsinə daxildir[2].

Ümumi hissə dedikdə, ümumi əlamət və xüsusiyyətlərə malik olan öhdəlik münasibətlərini tənzimləyən hüquq normalarının sistemi və birləşməsi başa düşülür. Ümumi hissəyə daxil olan normalar MM-in altıncı bölməsinin 19-27-ci fəsillərində (385-559-cu maddələrdə) yerləşmişdir[3].

Xüsusi hissə odur ki, o özündə xüsusi xarakterli konkret növ öhdəlik münasibətlərini rəsmiləşdirən hüquq normalarını birləşdirir. Xüsusi hissə normaları MM-in yeddinci bölməsinə daxil olan 29-61-ci fəsillərdə (567-1132-ci maddələrdə) yerləşdirilmişdir[4]. Xüsusi hissədə öhdəlik hüquq münasibətlərinin ayrı-ayrı növlərinə aid (məsələn, alqı-satqı, icarə və s.) olan xüsusi göstərişlər ifadə olunmuşdur.

Ümumi hissədə elə normalar birləşdirilmişdir ki, bu normalar öhdəlik hüquq münasibətlərinin hamısına tətbiq edilə bilmək xüsusiyyətinə malikdir. Burada ümumi müddəalar formulə edilir. Ümumi hissəyə daxildir: öhdəlik haqqında ümumi müddəalar; müqavilə hüququ; öhdəliklərin icrasına aid normalar; öhdəliklərin icrasının təmin edilməsi haqqında normalar; öhdəlikdə şəxslərin dəyişməsi haqqında normalar; öhdəliklərə xitam verilməsi barədə normalar.

Öhdəlik hüququnun **xüsusi hissəsinin özü iki instituta ayrılır: müqavilə institutuna; müqavilədənkənar instituta**. Bu cür bölgü Roma hüququ və pandekt sisteminə malik olan ölkələrin mülki hüquq ənənələrinə uyğundur. Hollandiya MM-inin altıncı kitabı öhdəlik hüququnun ümumi hissəsinə, yeddinci kitabı isə öhdəlik hüququnun xüsusi hissəsinə həsr edilmişdir. Almaniya Mülki Qanunnaməsinin «Öhdəlik hüququ» adlı ikinci kitabı (§241-853) yeddi bölmədən ibarətdir. 1-6-cı bölmələr öhdəlik hüququnun ümumi hissəsini, «Öhdəliklərin ayrı-ayrı növləri» adlı yeddinci bölmə isə öhdəlik hüququnun xüsusi hissəsini əhatə edir. Xüsusi hissədə alqı-satqı, dəyişmə, kirayə, icarə, ssuda, borc, podrat, tapşırıq, saxlanc, əsassız varlanma, deliktlər və s. normalar yerləşir[1]. E. ə. II əsrdə Roma hüquqşünası Qay öz institusiyalarında öhdəlikləri müqavilədən yaranan və hüquq pozuntularından əmələ gələn (yəni müqavilədənkənar) öhdəliklərə bölürdü[2].

Müqavilə institutu özündə müqavilədən əmələ gələn öhdəliklərin ayrı-ayrı konkret növlərini tənzimləyən normaları birləşdirir: alqı-satqı (onun pərakəndə alqı-satqı, mal göndərmə, faktorinq və s. yarımnövləri) haqqında normalar; dəyişmə haqqında normalar; renta haqqında normalar və s. (bu normalar birləşərək, **əmlakın mülkiyyətə və digər əşya hüququna verilməsi üzrə öhdəlik qrupunu** yaradır); əmlak kirayəsi haqqında normalar; icarə haqqında normalar; lizinq haqqında normalar (bu normalar birləşərək, **əmlakın istifadəyə verilməsi üzrə öhdəlik qrupunu** əmələ gətirir); podrat haqqında normalar (bu normalar **iş görülməsi üzrə öhdəlik qrupunu** yaradır); tapşırıq haqqında normalar; komissiya haqqında normalar; ticarət agenti haqqında normalar; kommersiya konsessiyası haqqında normalar; kredit haqqında normalar; sığorta haqqında normalar; daşıma haqqında normalar (bu normalar **xidmət göstərilməsi üzrə öhdəlik qrupunu** əmələ gətirir); françayzinq, patent-lisenziya, lisenziya və müəlliflik müqavilələri haqqında normalar (bu normalar **əqli mülkiyyət obyektlərindən istifadə üzrə öhdəlik qrupunu** yaradır) və s.

Müqavilədənkənar instituta müqavilə olmadan yaranan öhdəlikləri tənzimləyən normalar daxildir: xüsusi mükafatlandırmanın açıq elan edilməsi barədə normalar; müsabiqə barədə normalar; oyunların və mərclərin keçirilməsi barədə normalar; özgə işlərini tapşırıqsız aparma barədə normalar (bu normalar birləşərək, **birtərəfli hərəkətlərdən (əqdlərdən) əmələ gələn öhdəlik qrupunu** əmələ gətirir); əsassız varlanma barədə normalar; mülki hüquq po-

---

[1] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 293.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 243.

[3] «Mülki hüquqların həyata keçirilməsi» adlı 28-ci fəslin «Öhdəlik hüququnun ümumi hissəsi» adlı altıncı bölmədə yerləşdirilməsi ağlabatan iş deyil və bizdə təəccüb doğurur. Belə ki, mülki hüquqlar özündə təkcə öhdəlik hüquqlarını yox, həm əşya hüquqlarını, həm şəxsi qeyri-əmlak hüquqlarını, həm də müstəsna hüquqları birləşdirir. Ona görə də «mülki hüquqların həyata keçirilməsi» anlayışı mülki hüququn ümumi hissəsinə aiddir. Bununla bağlı bu anlayışa aid normaların MM-in 1-ci bölməsində yerləşdirilməsini vacib hesab edirik. Bununla qanunverici yol verdiyi qüsuru aradan qaldırardı. Yeri gəlmişkən qeyd edək ki, hüquqların həyata keçirilməsi bölməsi Almaniya MQ-nin ümumi hissəsinə daxildir.

[4] Qanunvericinin yol verdiyi qüsurlardan biri qiymətli kağızlar haqqında normaları «Öhdəlik hüququnun xüsusi hissəsi» adlı 7-ci bölməyə daxil etməsindən ibarətdir. Düzdür, qiymətli kağızların bəzi növləri, məsələn, çeklə əlaqədar öhdəlik hüquq münasibətlərindən biri olan hesablaşma hüquq münasibətləri əmələ gəlir. Bununla bərabər, qiymətli kağızlar mülki hüquqların obyektlərindən biridir. Mülki hüquqların obyekti mülki hüququn ümumi hissəsində nəzərdən keçirilir. Ona görə də qiymətli kağızlar barədə normaların MM-in əvvəlki bölmələrinin birində verilməsini məqsədəuyğun hesab edirik.

---

[1] bax: Основные институту гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 6; Правовые системы стран мира. Энциклопедический справочник / Под ред. *А.Я.Сухарева.* М., 2001, с. 161, 465.

[2] *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999. s.1.

zuntularından (deliktlərdən), yəni zərər vurmaqdan əmələ gələn öhdəlikləri tənzimləyən normalar (bu normalar birləşərək, **hüquqqoruyucu öhdəlik qrupunu** əmələ gətirir).

Beləliklə, öhdəlik hüququnun xüsusi hissəsinə daxildir: əşyanın mülkiyyətə və digər əşya hüququna verilməsi üzrə öhdəlik qrupu; əmlakın istifadəyə verilməsi üzrə öhdəlik qrupu; iş görülməsi üzrə öhdəlik qrupu; xidmət göstərilməsi üzrə öhdəlik qrupu; əqli mülkiyyət obyektlərindən istifadə üzrə öhdəlik qrupu birtərəfli hərəkətlərdən (əqdlərdən) əmələ gələn öhdəlik qrupu; hüquqqoruyucu öhdəlik qrupu.

Bunlardan başqa, çoxtərəfli əqdlərdən əmələ gələn öhdəlik qrupunu da ayırmaq olar. Bu öhdəlik qrupuna hüquqi şəxslərin yaradılması zamanı təsisçilərin öz aralarında bağladıqları **birgə fəaliyyət haqqında müqavilə** (ona şərti olaraq təsis müqaviləsi deyilir) barədə normaları daxil etmək olar.

§ 2. Öhdəliyin anlayışı və elementləri

1. Öhdəlik mülki hüquq münasibəti kimi

Mülki hüququn yarımsahələrindən biri olan öhdəlik hüququnun əsas və mərkəzi anlayışı öhdəlik adlanır. Əmtəə-mal mübadiləsinin hüquqi rəsmiləşdirilməsi və iqtisadi (əmlak) dövriyyə münasibətlərinin hüquqi tənzimlənməsi nəticəsində həmin münasibətlər hüquqi forma alır və öhdəlik hüquq münasibətləri kimi çıxış edir. K.Marks göstərirdi ki, əmtəə dövriyyəsi, iqtisadi münasibətlər tərəflərin iradəsi ilə müqavilə forması əsasında hüquq münasibətinə çevrilir[1]. Mülki hüquqda bu cür münasibətlər öhdəlik adlanır. Deməli, **öhdəlik mülki hüquq münasibətinin bir növü olan öhdəlik hüquq münasibətini ifadə edir**. Alqı-satqı, icarə, kirayə, sığorta, kredit, saxlanc, daşınma və digər çoxsaylı hüquq münasibətləri öhdəliklər, yəni öhdəlik hüquq münasibətləridir. Odur ki, öhdəlik və öhdəlik hüquq münasibəti kimi iki anlayış sinonim anlayışlardır. Bu anlayışlar məna və məzmunca üst-üstə düşür.

Öhdəliyin iki cür anlayışı verilir: öhdəliyin leqal (qanunda nəzərdə tutulan) anlayışı; öhdəliyin doktrinal anlayışı. Öhdəliyin leqal anlayışı MM-in 385-ci maddəsinin 1-ci bəndində verilmişdir. Özü də bu, roman-german ailəsinə daxil olan hüquq sistemlərinin nəzərdə tutduğu tərifə, əsasən, uyğun gəlir[2]. **Öhdəliyə əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və i.a. və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır**. RF MM-in 307-ci maddəsi öhdəliyə analoji qaydada leqal anlayış verir[3]. Köhnə qanunvericilik də öhdəliyə bu cür tərif verirdi. Almaniya Mülki Qanunnaməsinin 241-ci paraqrafında öhdəliyə belə anlayış verilir: öhdəlik münasibətinə görə, kreditor borcludan vəzifənin həyata keçirilməsinə yönələn hərəkəti tələb

[1] *К.Маркс.* Капитал. Том 1. М., 1931, с. 41.

[2] *Давид Р., Жоффре-Спинози К.* Основные правовые системы современности. М., 1999, с. 64.

[3] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова.* М., 1999, с. 553.

etmək hüququna malikdir (Leistung)[1].

Hüquq ədəbiyyatında öhdəliyə verilən leqal anlayışın qüsurlu olması barədə fikir irəli sürülür[2]. Bu anlayışın qüsurlu olması onunla izah edilir ki, həmin anlayış praktiki olaraq hər bir nisbi hüquq münasibətini «öhdəlik» kateqoriyası ilə əhatə etmək imkanı verir. Anlayışa görə, belə nəticəyə gəlmək mümkün olur ki, hər hansı bir nisbi hüquq münasibəti «öhdəlik» kateqoriyasına daxildir. Məsələn, vergi vermək üzrə münasibətlər əmlak xarakterli olub, nisbi hüquq münasibəti hesab olunur. Lakin bu cür münasibət mülki hüquqla yox, hüququn başqa sahəsi olan maliyyə hüququ ilə tənzimlənir. Öhdəliyə verilən leqal anlayışdan belə məlum olur ki, «vergi öhdəliyi» adlı həmin münasibət mülki hüquqla tənzimlənən öhdəliyə aiddir.

Göstərilən xüsusiyyət bəzi müəlliflərə belə bir fikir söyləməyə əsas vermişdir ki, guya öhdəlik mülki-hüquqi anlayış yox, hüququn müxtəlif sahələrində istifadə olunan sahələrarası anlayışdır. Həmin müəlliflər belə bir nəticə çıxarırlar ki, əmək, maliyyə, idarəçilik, təsərrüfat və başqa öhdəliklər də mövcuddur[3]. Beləliklə, öhdəliyə verilən leqal anlayışdan belə qənaətə gəlirik ki, öhdəlik «nisbi hüquq münasibəti» olub, müxtəlif hüquq sahələrində istifadə olunan sahələrarası anlayış kimi çıxış edir. Lakin öhdəlik əmtəə-pul münasibətlərini rəsmiləşdirən spesifik hüquqi formadır. Öhdəliyin bu xüsusiyyəti və əlaməti ona verilən leqal anlayışda əks olunmur. «Maliyyə öhdəliyi», «əmək öhdəliyi» və digər öhdəliklər əmtəə-pul münasibətlərini, əmtəə-mal əlaqələrini qaydaya salmır.

Öhdəliyə verilən leqal anlayışın ikinci qüsurlu cəhəti ondan ibarətdir ki, «borclunun müəyyən hərəkətdən çəkinmək» kimi passiv davranışı öhdəliyin mühüm əlamətinə uyğun gəlmir. **Öhdəliyin mühüm əlaməti isə onun dinamikliyindədir**. Dinamiklik isə maddi nemətlərin bir şəxsdən digərinə keçməsindən, mübadilə və dəyişmə prosesindən ibarətdir. Ona görə də maddi nemətlərin mübadiləsi üçün borclu müəyyən hərəkətdən çəkinmək yox, hər hansı bir fəal hərəkət etməlidir. Buna uyğun olaraq, «borclu müəyyən hərəkətdən çəkinməlidir» kimi göstərişin öhdəliyin leqal anlayışını nəzərdə tutan normadan çıxarılmasını məqsədəmüvafiq hesab edirik[4]. Yaponiya mülki hüquq elmində öhdəliyə anlayış verilərkən bu cəhət nəzərə alınır: öhdəlik müəyyən şəxsdən müəyyən hərəkətin edilməsini tələb etmək hüququdur[5].

Öhdəliyin mahiyyəti və mənası ona verilən doktrinal anlayışda təzahür

[1] Bu, öhdəliyə məhdud mənada verilən anlayışdır (Германское право. Гражданское уложение. Часть 1. М., 1996). Almaniya hüquq ədəbiyyatında göstərilir ki, öhdəlik həm də geniş mənada işlədilir. Professor Q.Y.Muselyak qeyd edir ki, geniş mənada öhdəlik iştirakçılar arasındakı tələb əlaqələrini əhatə edir (*Müsielak H.J.* Grundkurs BGB. München. 1994, s. 69; *Brox H.* Allgemeines Schuldrecht. München. 1993, s. 7).

[2] Гражданское право. Учебник. Часть 1/ Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 484.

[3] *Танчук И.А., Ефимочкин В.П., Абова Г.Е.* Хозяйственные обязательства. М., 1970, с. 17.

[4] Bəzi müəlliflər öhdəliyə anlayış verərkən bu göstərişi nəzərə alırlar (Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчиков.* М., 1969, с. 409; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 313 və s.).

[5] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 247.

edir[1]. Bu anlayış öhdəliyin əsas xarakterik xüsusiyyət və əlamətlərini müəyyən etməyə imkan verir. Öhdəliyin doktrinal anlayışı öhdəliyin əmtəə-pul münasibətlərini ifadə edən hüquqi forma olmasını əks etdirir.

Beləliklə, **öhdəlik dedikdə, iqtisadi dövriyyə (əmtəə mübadiləsi) iştirakçıları arasında əmələ gələn elə nisbi hüquq münasibəti başa düşülür ki, bu münasibət əsasında əmtəə formalı maddi və digər nemətlər bir şəxsdən digərinə keçir və buna uyğun olaraq bir şəxs (borclu) digər şəxsin (kreditorun) tələbi ilə onun xeyrinə müəyyən hərəkətlər etməyə (əmlak verməyə, iş yerinə yetirməyə, pul verməyə, xidmət göstərməyə və s.) borclu olur**. Anlayışdan görünür ki, öhdəlik mülki hüquq münasibətinin bir növüdür. Lakin bu münasibət özünə məxsus spesifik xüsusiyyətlərlə xarakterizə olunur.

Öhdəliyin **birinci xarakterik xüsusiyyəti** ondan ibarətdir ki, o, **əmlak hüquq münasibətidir**. Ona görə ki, öhdəlik əmtəə-mal mübadiləsi prosesini rəsmiləşdirir. Qeyri-əmlak xarakterli mülki hüquq münasibətlərinin öhdəlik forması alması istisna edilir, bu, mümkün deyil. Məsələn, şəxsin şərəf və ləyaqətinin müdafiəsi üzrə öhdəliyin əmələ gəlməsini təsəvvürə gətirmək mümkün deyil. Bu halda öhdəliyin mövcudluğundan söhbət gedə bilməz.

Bununla bərabər, bəzi hallarda öhdəlik, əmtəə-mal mübadiləsinin özü kimi qeyri-ekvivalent və ya ümumiyyətlə, əvəzsiz xarakter daşıyır. Məsələn, bağışlama və əvəzsiz istifadə müqavilələrindən əmələ gələn münasibətlər əvəzsiz xarakter daşıyır. Lakın belə hallarda hüquq münasibətinin əmlak təbiəti və xarakteri dəyişmir.

Elə öhdəliklər də vardır ki, bu öhdəliklər səlahiyyətli şəxsin qeyri-əmlak xarakterli mənafeyinin təmin edilməsinə yönəlir və ya bu cür öhdəliklərin obyekti borclu şəxsin qeyri-əmlak xarakterli hərəkətlərindən ibarət olur (bir şərtlə ki, əmlak mübadiləsi ilə əlaqə itməsin). Əmlak mübadiləsi dedikdə, məsələn, kontragentin bu cür hərəkətlərə görə pul və ya digər əmlak formasında əvəz alması başa düşülür. Belə halda hüquq münasibəti özünün əmlak təbiətini dəyişmir. Məsələn, turist xidməti göstərilməsi və ya kompüter öyrətmək üzrə xidmət göstərilməsi üzrə əvəzli münasibətlər öhdəlik formasını saxlayır.

Obyekti borclu şəxsin qeyri-əmlak xarakterli hərəkətlərindən ibarət olan öhdəliyin məzmununu borclu şəxsin qeyri-əmlak xarakterli vəzifəsi təşkil edir. Məsələn, tapşırıq müqaviləsi üzrə vəkalət alan, tapşıran adından qeyri-əmlak xarakterli hərəkətlər edir (ixtiraya patent alır, alimlik dərəcəsi verilmək barədə diplom alır və tapşırana verir). Bu misalda vəkalət alanın (yəni borclu şəxsin) hərəkətləri və onun vəzifəsi qeyri-əmlak xarakterlidir. Bax, bu xüsusiyyət, yəni borclunun qeyri-əmlak vəzifəsini nəzərdə tutan öhdəliyin olması və ya bəzi müqavilələrdən (məsələn, bağışlama, əvəzsiz istifadə və s. müqavilələrindən) yaranan münasibətlərin əvəzsiz olması bir qrup müəlliflərə belə bir fikir söyləməyə əsas vermişdir ki, guya öhdəlik qeyri-əmlak münasibətləri formasında

[1] Bəzi müəlliflər öhdəliyin leqal anlayışından istifadə etməklə öhdəliyə tərif verirlər (bax: *Гражданское право*. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 346; Гражданское право. Учебник / Под ред. *С.П. Гришаева*. М., 1999, с. 126).

da ola bilər[1]. Qeyd etməliyik ki, bu mövqeyin əsası inandırıcı deyil. Müəlliflərin əksəriyyəti **öhdəliyin yalnız əmlak hüquq münasibəti olması fikrini dəstəkləyirlər. Qeyri-əmlak öhdəlikləri ola bilməz**. Biz də bu fikrə qoşuluruq. Ona görə ki, əvəzsiz müqavilələr əsasında yaranan öhdəliklər və ya borclu şəxsin hərəkətinin qeyri-əmlak xarakterli olmasını nəzərdə tutan öhdəliklər bütövlükdə öz əmlak xarakterini itirmir, bu və ya digər dərəcədə həmişə maddi nemətlərin müxtəlif formalarda bir şəxsdən digərinə keçməsi ilə bağlı olur[2].

Öhdəliyin **ikinci xarakterik xüsusiyyəti** ondan ibarətdir ki, o, **nisbi mülki hüquq münasibətidir**. Belə ki, bu cür hüquq münasibətində səlahiyyətli şəxsə qarşı konkret borclu şəxs durur. Həmin münasibətlərdə öhdəliyin subyekt tərkibi (tərəfləri) konkret və dəqiq olaraq müəyyən edilir. Özü də həm səlahiyyətli şəxs rolunda, həm də borclu şəxs qismində bir yox, hətta bir neçə şəxs çıxış edə bilər. Məsələn, alqı-satqı müqaviləsindən əmələ gələn öhdəliklərdə tərəf rolunda konkret satıcı və konkret alıcı çıxış edirlər. Bu xüsusiyyəti ilə öhdəlik mütləq hüquq münasibətlərindən (məsələn, mülkiyyət hüquq münasibətlərindən, əqli mülkiyyət obyektlərinin istifadəsi və qorunması ilə bağlı yaranan hüquq münasibətlərindən, yəni müstəsna hüquq münasibətlərindən) fərqlənir. Nisbi hüquq münasibəti olan öhdəliklərdən fərqli olaraq, mütləq hüquq münasibətlərində səlahiyyətli şəxsə qarşı qeyri-müəyyən dairə, yəni sayı məlum olmayan borclu şəxslər durur. Deməli, nisbi hüquq münasibəti kimi öhdəlik iqtisadi mübadilənin konkret aktını rəsmiləşdirir ki, bu, konkret olaraq müəyyən olunan mübadilə iştirakçıları arasında əmələ gəlir.

Öhdəliyin **üçüncü xarakterik xüsusiyyəti** ondan ibarətdir ki, öhdəlikdə tərəf kimi çıxış edən **səlahiyyətli şəxs borclu şəxsdən onun xeyrinə müəyyən hərəkətlər etməyi tələb etmək ixtiyarına malikdir**[3]. Borclu şəxsin müəyyən hərəkətlər etməsi dedikdə, səlahiyyətli şəxsə əmlak verməsi, iş görməsi, xidmət göstərməsi, pul verməsi və s. başa düşülür. Məsələn, alqı-satqı müqaviləsi üzrə satıcıya (səlahiyyətli şəxsə) alıcı (borclu şəxs) əşyaya görə pul verir və yaxud alıcıya (səlahiyyətli şəxsə) satıcı (borclu şəxs) pulun əvəzində əşya (mal) verir. Bununla səlahiyyətli şəxsin mənafeyi borclu şəxsin müəyyən hərəkətlər etməsilə təmin olunur. Bu xüsusiyyəti ilə öhdəlik, əşya hüquq münasibətindən (məsələn, mülkiyyət hüquq münasibətindən) fərqlənir. Belə ki, əşya hüquq münasibətlərində səlahiyyətli şəxsin mənafeyi əşyaya bilavasitə təsir göstərməklə, onun fayda vermək xüsusiyyəti hesabına təmin edilir. Öh-

[1] Bu fikri söyləyən müəlliflərin mövqeyi ilə tanış olmaq üçün bax: *Покровский И.А.* Основные проблемы гражданского права (по изданию 1917). М., 1998, с. 134-143; *Новицкий И.Б., Лунц Л.А.* Общее учение об обязательстве. М., 1950, с. 57-59; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 352. Bu fikrin əleyhinə çıxan müəlliflərin mövqeyi ilə əlaqədar bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1997, с. 485; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 312; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 9.

[2] bax: *Иоффе О.С.* Обязательственное право. М., 1975, с. 14-15.

[3] Bəzi müəlliflər göstərirlər ki, səlahiyyətli şəxsin (kreditorun) tələb etmək hüququna malik olması öhdəliyin spesifik xüsusiyyətlərindən biridir. Bu, əsassız fikirdir. Ona görə ki, bu əlamət bütün mülki hüquq münasibətləri üçün xarakterikdir. Ona görə də bu mövqe haqlı olaraq tənqid edilmişdir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева. Ю.К.Толстого*. М., 1998, с. 485).

dəlik hüquq münasibətləri borclu şəxsin hərəkəti ilə, əşya hüquq münasibətləri isə səlahiyyətli şəxsin hərəkəti ilə həyata keçirilir və realizə edilir, yəni borclu şəxsin vasitəsi və köməyi olmadan yerinə yetirilir. Məsələn, mülkiyyət hüquq münasibətlərində iştirak edən mülkiyyətçi ona məxsus olan yaşayış evindən öz şəxsi ehtiyacları üçün sərbəst surətdə istifadə edir, bununla mülkiyyət hüququnu həyata keçirir, tələbatını ödəyir.

Bununla belə, öhdəlik əşya hüquq münasibəti ilə, xüsusən də mülkiyyət hüquq münasibəti ilə sıx surətdə bağlıdır. Onların arasındakı əlaqə qarşılıqlı xarakterə malikdir. Əşya üzərində sərəncam vermək səlahiyyətini həyata keçirərək, mülkiyyətçi (mülkiyyət hüquq münasibətinin subyekti) onu icarəyə və kirayəyə vermək, dəyişdirmək, borc vermək, satmaq və s. kimi hüquqlara malikdir. Belə hallarda mülkiyyətçi müqavilələr bağlayır və həmin müqavilələrdən əmələ gələn öhdəliyin subyekti (iştirakçısı, tərəfi) kimi çıxış edir. Belə təsəvvür yaranır ki, **mülkiyyət hüquq münasibətləri iqtisadi dövriyyə münasibətləri olan öhdəliyin yaranması üçün ilkin zəmin rolunu oynayır**.

Öhdəliyin icrası, öz növbəsində, bəzi hallarda əşya üzərində özgəninkiləşdirən şəxsin (yəni satan, dəyişdirən və s. şəxsin) mülkiyyət hüququna xitam verir, əldə edənin isə həmin əşya üzərində mülkiyyət hüququ qazanmasını şərtləndirir. Məsələn, alqı-satqı müqaviləsindən əmələ gələn öhdəliklərdə öhdəliyin icrası ilə satıcı əşya üzərində mülkiyyət hüququnu itirir, alıcı isə həmin əşyaya münasibətdə mülkiyyətçi statusu əldə edir. Deməli, **mülkiyyət hüquq münasibətləri əmtəə-mal mübadiləsinin hüquqi forması olan öhdəlik hüquq münasibətlərinin nəticəsini rəsmiləşdirən hüquqi vasitə kimi çıxış edir**.

Öhdəliyin dördüncü xüsusiyyəti ondan ibarətdir ki, o, **sanksiya formasında dövlət məcburetmə tədbirləri və vasitələri ilə təmin edilir**. Bu sanksiyalar qanunda nəzərdə tutulmuşdur. Onların tətbiqi nəticəsində öhdəliyi icra etməyən, yəni hüquq pozuntusu törədən şəxs üçün mənfi və arzuolunmaz nəticələr yaranır. Öhdəliyin həyata keçirilməsini təmin edən sanksiyaların dairəsi genişdir: zərərin əvəzinin ödənilməsi; dəbbə pulu (cərimə, penya); keyfiyyətsiz əşya satıldıqda, əşyanın satış qiymətinin azaldılması, əşyadakı qüsurun əvəzsiz olaraq aradan qaldırılması, onun yenisi ilə əvəz edilməsi; mənəvi zərərin əvəzinin ödənilməsi və s.

Öhdəliyin beşinci xüsusiyyəti ondan ibarətdir ki, onun üçün **pozulmuş hüquqların iddia (məhkəmə) qaydasında (formasında) müdafiə edilməsi xarakterikdir**. İddiaya məhkəmədə baxılma onunla nəticələnir ki, öhdəlikdən irəli gələn hüquqları pozan şəxsə müvafiq sanksiya tətbiq olunur; iddia qaydasında müdafiə sanksiyanın tətbiq olunmasının tipik formasıdır[1]. Belə ki, hüququ pozulmuş kreditor məhkəməyə müraciət edir. Məhkəmə qərarı əsasında onun iddiası natura formasında və ya pul kompensasiyası formasında təmin edilir; bununla borclu şəxsə sanksiya tətbiq edilmiş olur. Məsələn, kirayəyə götürülmüş əmlak kirayəçinin təqsiri üzündən məhv olur. Mülkiyyətçi iddia ilə məhkəməyə müraciət edir. Məhkəmə pul kompensasiyası formasında zərərin əvəzinin mülkiyyətçiyə ödənilməsi barədə qərar çıxarır. Bununla belə, elə öhdəliklər vardır ki, onlar sanksiya ilə təmin olunmur. Bu öhdəliklərə **natural öhdəliklər** deyilir. Məsələn, oyun və mərc üzrə heç bir tələb əmələ gəlmir (MM-in 1084-cü maddəsi). Bu cür öhdəliklər məhkəmə müdafiəsindən məhrumdur, yəni bu cür öhdəliklər üzrə iddia müdafiəsi tətbiq edilmir. Məsələn, televiziya kanallarının birində keçirilən oyunu udan şəxsə oyun təşkilatçısı priz verməkdən imtina edir. Əgər oyunun qalibi məhkəməyə müraciət etsə, onun iddiası məhkəmə tərəfindən təmin olunmayacaqdır.

[1] Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.А.Рясенцева*. М., 1986, с. 422; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 354.

2. Öhdəliyin elementləri

Öhdəlik mülki hüquq münasibətinin bir növüdür. Buna görə hər bir mülki hüquq münasibəti kimi o, quruluşca üç elementdən[1] ibarətdir: öhdəliyin tərəfləri (subyekt tərkibi); öhdəliyin məzmunu; öhdəliyin obyekti.

Öhdəliyin tərəfləri dedikdə, öhdəlik hüquq münasibətlərində çıxış edən iştirakçılar başa düşülür. Hər bir hüquq münasibətində olduğu kimi, öhdəlikdə iki tərəf iştirak edir: səlahiyyətli şəxs; borclu şəxs.

Səlahiyyətli şəxs öhdəliyin kreditoru adlanır. **Kreditor** dedikdə, elə bir səlahiyyətli şəxs başa düşülür ki, o, borclu olan tərəfdən müəyyən fəal hərəkətlər etməyi tələb etmək ixtiyarına malikdir. Bu isə təsadüfi deyil. Belə ki, öhdəliyin mahiyyətini təşkil edən maddi nemətlərin mübadilə prosesi fəal hərəkətlər olmadan mümkün deyil.

Kreditor anlayışının tarixi mənbəyi Roma hüququ ilə bağlıdır. Belə ki, Roma hüququ öhdəliyi öz təbiətinə görə inama əsaslanan kredit (latınca «credo» — inanıram) münasibəti kimi nəzərdə tuturdu. Kreditor bu münasibətdə «inanan şəxs» kimi çıxış edirdi[2]. Belə ki, o, öhdəlikdə çıxış edən digər tərəfin — kontragentin öz vəzifəsini icra etməsinə inanırdı. Buna görə də öhdəlikdə tələb etmək hüququ olan tərəf kreditor (yəni inanan) adlanırdı[3].

Öhdəlikdə çıxış edən ikinci tərəf borclu şəxs adlanır. **Borclu şəxs** dedikdə, öhdəlikdə iştirak edən elə bir tərəf başa düşülür ki, ona müəyyən fəal hərəkətlər etmək və ya müəyyən hərəkəti etməkdən çəkinmək vəzifəsi həvalə edilir. O, **debitor** (latınca «debitor» — borclu) da adlanır. Debitor kreditorun tələbini yerinə yetirməli olan tərəfdir. Məsələn, kirayə öhdəliyində kirayəçi borclu şəxs (debitor) hesab olunur. Kirayəçi nəzərdə tutulan müddətdə kirayəyə götürdüyü əşyanı kirayəyə verənə qaytarmağa borcludur. Kirayəyə verən isə öhdəliyin kreditoru sayılır. O, nəzərdə tutulan müddət başa çatdıqda, kirayəçidən əşyanı geri qaytarmaq hüququna malikdir.

Öhdəlikdə subyektiv hüquq kreditora məxsusdur. Bu hüquq **tələb hüququ (tələb)** adlanır. Müəyyən hərəkətləri etməkdən (və ya müəyyən hərəkəti etməkdən çəkinməkdən) ibarət olan **subyektiv vəzifəni** borclu şəxs (debitor) daşıyır. Bu subyektiv vəzifəyə isə **borc** deyilir. Borclunun daşıdığı subyektiv

[1] Quruluşca öhdəliyi dörd elementə də bölmək olar: öhdəliyin tərəfləri; öhdəliyin obyekti; tərəflərin hüquqları; tərəflərin vəzifələri.

[2] İnqilabaqədərki rus mülki hüququnda kreditor «inanan şəxs» adlanırdı. Belə ki, o, borclu şəxsin öhdəliyi icra etməsinə inanırdı (bax: Шершеневич Г.Ф. Учебник русского гражданского права. М., 1995, с. 265).

[3] bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, c. 103.

vəzifə həm müəyyən fəal hərəkətlərdə, həm də müəyyən passiv hərəkətlərdə ifadə oluna bilər, yəni onun daşıdığı vəzifələr iki formada ola bilər: fəal formalı vəzifələr; passiv formalı vəzifələr. **Fəal formalı vəzifələr** müəyyən hərəkətlər edilməsində ifadə olunur. Məsələn, alqı-satqı öhdəliyində alıcı borclu şəxs kimi satın aldığı əşyanın müqabilində satıcıya pul verməlidir.

Passiv formalı vəzifəyə gəldikdə isə qeyd etmək lazımdır ki, bu vəzifə borclu şəxsin müəyyən hərəkətlərdən çəkinməsində ifadə oluna bilər. Məsələn, icarə öhdəliyində icarəçinin (borclu şəxsin) borcudur ki, icarəyə verənin razılığı olmadan icarəyə götürdüyü əşyanı ikinci əldən icarəyə (subicarəyə) verməsin. Kirayəyə verənin icazəsi olmadan kirayəçinin kirayəyə götürdüyü əşyanı kirayəyə verənin ailəsinin tərkibinə daxil olmayan üçüncü şəxsin istifadəsinə vermək, o cümlədən əşyanı ikinci əldən kirayəyə vermək hüququ yoxdur (MM-in 683-cü maddəsinin 1-ci bəndi).

Bununla belə, **iqtisadi dövriyyə münasibətlərində borclunun yalnız «təmiz şəkildə» passiv formalı vəzifə daşımasını nəzərdə tutan öhdəliyin mövcud olması mümkün deyil**. Başqa sözlə desək, real həyatda yalnız borclunun passiv davranışına yönələn öhdəlik yoxdur[1]. Ona görə ki, öhdəlik hüququ bazar əmtəə-mal mübadiləsini və dövriyyəsini qaydaya salır. Başqa sözlə desək, öhdəlik hüquq normaları iqtisadi dövriyyəni, əmtəə mübadiləsini, yəni əmtəə formalı maddi nemətlərin və digər nemətlərin bir şəxsdən digərinə keçməsi prosesini tənzimləyir. Bu səbəbdən öhdəlik hüququ üçün maddi nemətlərin bir şəxsdən digərinə keçməsi və borclu şəxsin fəal hərəkətlər (passiv hərəkətlər yox) etməsi halı xarakterikdir. Ona görə də predmeti (obyekti) borclunun yalnız passiv davranışına yönələn öhdəliyin mövcud olması fikrini irəli sürən müəlliflərin mövqeyi əsassızdır[2]. Düzdür, öhdəlikdə borclu şəxsin passiv davranışı nəzərdə tutula bilər. Lakin bu cür passiv davranış öhdəliyin obyekti kimi çıxış edə bilməz. Borclu şəxsin müəyyən hərəkətdən çəkinmək vəzifəsi onun əsas vəzifəsinə, yəni kreditorun xeyrinə müəyyən fəal hərəkətlər etmək vəzifəsinə münasibətdə əlavə, yardımçı və qeyri-əsas vəzifədir. Azərbaycan Respublikasının mövcud qanunvericiliyi yalnız borclu şəxsin passiv davranışına yönələn öhdəlik tanımır.

[1] bax: *Иоффе О.С.* Обязательственное право. М., 1975, с. 6-8.

[2] Bu fikri əsaslandırmağa cəhd edən və təşəbbüs göstərən müəlliflərdən biri prof. Y.A.Suxanovdur. O, öz mövqeyinin həqiqiliyini sübut etmək üçün müəyyən arqument və dəlillər gətirir. Müəllif göstərir ki, O.S.İoffenin mövqeyi əvvəlki dövriyyəyə əsaslanır. Müəllif fikrini əsaslandırmaq üçün inqilabaqədərki sivilistikada mövcud olan «mənfi məzmunlu öhdəlik» (rəqabətdən çəkinmək barədə müqavilə) kimi konstruksiyanı misal çəkir.

Düzdür, inqilabaqədərki mülki qanunvericilik «rəqabətdən çəkinmək barədə müqavilə» kimi hüquqi konstruksiya tanıyırdı ki, bu müqavilə yalnız borclu şəxsin passiv davranışını nəzərdə tuturdu (bax: *Шершеневич Г.Ф.* Учебник русского гражданского права. М., 1995, с. 266). Bu konstruksiya bəzi inkişaf etmiş hüquq sistemlərinə də məlumdur. Məsələn, Almaniya Mülki Qanunnaməsinin 241-ci paraqrafı həmin konstruksiyanı nəzərdə tutur. Lakin inqilabaqədərki sivilistikadan və bəzi xarici ölkələrin qanunvericiliyindən fərqli olaraq, nə RF-in, nə də Azərbaycan Respublikasının mövcud qanunvericiliyi yalnız borclunun passiv davranışını nəzərdə tutan öhdəlik tanıyır (Y.A.Suxanovun mövqeyi barədə bax: Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханов*. М., 1999, с. 13). O.S.İoffenin mövqeyinə əsaslanan N.D.Yeqorov Y.A.Suxanovun əksinə olan fikir irəli sürür (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1996, с. 418).

Elə öhdəliklər də vardır ki, bu öhdəliklərdə **kreditor eyni vaxtda həm borclu şəxs qismində, borclu şəxs isə həm də kreditor rolunda çıxış edir**. Başqa sözlə desək, kreditor həm tələb etmək hüququna malik olur, həm də borclu şəxs kimi müəyyən fəal hərəkətlər etməyə borclu olur. Borclu şəxs isə həm müəyyən fəal hərəkətlər etməyə borclu olar, həm də kreditordan müəyyən hərəkətlər etməyi tələb etmək hüququna malik olur. Məsələn, alqı-satqı öhdəliyində satıcı alıcı qarşısında borclu şəxs sayılır. Belə ki, o, satdığı əşyanı alıcıya verməyə borcludur. Eyni zamanda satıcı həm də kreditor kimi çıxış edir. O, satdığı əşyanın qiymətinin ödənilməsini alıcıdan tələb etmək ixtiyarına malikdir. Alıcı isə borclu şəxs kimi satın aldığı əşyanın qiymətini ödəməyə borcludur. Kreditor kimi o, satıcıdan əşyanın verilməsini tələb edə bilər. Daşıma, podrat, icarə, kirayə və s. öhdəliklərdə də belədir.

Mülki hüququn istənilən subyekti, yəni **hüquqi şəxslər, fiziki şəxslər, bələdiyyələr və Azərbaycan Respublikası (dövlət) öhdəlikdə həm kreditor, həm də borclu şəxs rolunda çıxış edə bilərlər**. Öhdəlik hüquq münasibətlərində həm kommersiya təşkilatları, həm qeyri-kommersiya təşkilatları, həm istehlakçı vətəndaşlar, həm də sahibkar statuslu vətəndaşlar iştirak edə bilərlər.

Öhdəliyin məzmunu dedikdə, tərəflərin hüquq və vəzifələri başa düşülür. Kreditorun tələb hüququ və borclu şəxsin müəyyən hərəkətləri etmək vəzifəsi öhdəlik hüquq münasibətinin məzmununu təşkil edir. Öhdəlikdə tərəflərin hüquq və vəzifələri vahiddir. Özü də **bir tərəfin malik olduğu hüquqa digər tərəfin daşıdığı vəzifə uyğun gəlir**. Məsələn, podrat öhdəliyində podratçının (borclu şəxsin) borcudur ki, nəzərdə tutulan obyekti tiksin. Podratçının bu vəzifəsinə sifarişçinin (kreditorun) nəzərdə tutulan obyekti tikməyi tələb etmək kimi hüququ uyğun gəlir. İcarə öhdəliyində icarəçinin (borclu şəxsin) borcudur (vəzifəsidir) ki, müddət başa çatdıqda, icarəyə götürdüyü əşyanı icarəyə verənə (kreditora) qaytarsın. İcarəçinin daşıdığı bu cür vəzifəyə icarəyə verənin əşyanı qaytarmağı tələb etmək kimi hüququ uyğun gəlir. Alqı-satqı öhdəliyində satıcının əşyanı vermək vəzifəsinə alıcının satılmış əşyanın ona verilməsini tələb etmək hüququ uyğun gəlir. Deməli, **kreditor yalnız o hərəkətlərin edilməsini tələb edə bilər ki, borclu şəxs həmin hərəkətləri etməyə borclu olsun**.

Öhdəlik əmlak hüquq münasibəti olduğuna görə borclu şəxsin etdiyi hərəkətlər əmlak xarakterinə malikdir. Belə ki, onun əmlakın verilməsinə, iş görülməsinə, xidmət göstərilməsinə, pul verilməsinə və s. yönələn hərəkətləri mülki dövriyyə subyektlərinin əmlak mənafeyinin ödənilməsinə yönəlir. Bununla belə, borclu şəxsin etdiyi hərəkətlər qeyri-əmlak xarakterli də ola bilər. Məsələn, tapşırıq müqaviləsi əsasında tapşıran vəkalət alana hər hansı bir sənəd almaq üzrə hərəkət etmək tapşırığı verir. Bu halda borclunun hərəkəti qeyri-əmlak təbiətinə malikdir. Lakin borclu şəxsin qeyri-əmlak xarakterli vəzifə daşıması öhdəliyin təbiətinə təsir göstərmir. O, yenə də əmlak xarakterli hüquq münasibəti olmaqda qalır[1].

Öhdəliyin obyekti, mülki hüquq münasibətinin obyekti kimi, mübahisəlidir.

[1] bax: Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.Ф.Маслова, А.А.Пушкина*, с. 386.

Bu barədə, əsasən, bir-birindən fərqli iki mövqe mövcuddur. Birinci mövqeyə görə, borclunun hərəkəti öhdəliyin obyekti kimi çıxış edir[1]. Digər mövqenin tərəfdarları əşyanı, pulu, qiymətli kağızları, əmlak hüquqlarını, hərəkətin nəticəsini və s. öhdəliyin obyekti hesab edirlər[2].

Bizim fikrimizcə, mülki hüquq münasibətlərinin (xüsusən də əşya hüquq münasibətlərinin) obyekti barədə «monist konsepsiya» (obyektin təkliyi nəzəriyyəsi) yox, «plyuralist konsepsiya» (obyektlərin çoxluğu nəzəriyyəsi) əhəmiyyət kəsb edir[3], yəni mülki hüquq münasibətlərinin obyekti kimi maddi nemətlər (əşyalar, predmetlər, sərvətlər), qeyri-maddi nemətlər, əqli fəaliyyətin nəticələri, subyektlərin davranış və hərəkətləri, işlər, xidmətlər, qiymətli kağızlar, əmlak hüquqları çıxış edə bilər.

Mülki hüquq münasibətlərinin bir növü olan öhdəlik hüquq münasibətlərinin obyektinə gəldikdə isə qeyd etmək lazımdır ki, bu obyektlərə münasibətdə «monist konsepsiya» (obyektin təkliyi nəzəriyyəsi) əhəmiyyət kəsb edir. Bu, o deməkdir ki, **yalnız borclu şəxsin davranışı (hərəkəti) öhdəliyin obyekti ola bilər**. Məsələn, alqı-satqı öhdəliyində borclu şəxs kimi satıcı əşyanın verilməsi üzrə hərəkət edir, alıcı isə borclu şəxs kimi aldığı əşyanın qiymətini ödəmək üzrə hərəkət edir. Deməli, borclu şəxslərin (həm satıcının, həm də alıcının) hərəkətləri öhdəliyin obyektidir. Burada kreditorun (satıcının və ya alıcının) tələb hüququ bilavasitə əşyanın özünə yox (belə halda mülkiyyət hüququndan danışmaq olar), borclunun hərəkətinə yönəlmişdir. Kreditor borclu şəxsdən əşyanın verilməsi üzrə müəyyən hərəkət etməyi tələb etmək ixtiyarına malikdir. Bu isə o deməkdir ki, kreditora başqa şəxsin, yəni borclu şəxsin hərəkətinə olan hüquq məxsusdur[4]. Bu isə öhdəliyin obyektini müəyyənləşdirməyə imkan verir: obyekt rolunda yalnız hərəkət çıxış edə bilər.

Əşyalar, qiymətli kağızlar, predmetlər, pul və s. öhdəliyin obyekti yox, **öhdəliyin predmeti** kimi çıxış edir. Ona görə də «öhdəliyin predmeti» və «öhdəliyin obyekti» kimi iki anlayış üst-üstə düşmür. Bu anlayışları qarışdırmaq olmaz[5].

---

[1] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1997, с. 484; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 11.13; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 346; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 352.

[2] bax: Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.Г.Смирнова, Ю.К.Толстого, А.К.Юрченко.* Л., 1982, с. 322; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 318-321.

[3] Bu konsepsiyalar barədə dərsliyin «Mülki hüquq münasibətləri» adlı IV fəslinə bax.

[4] *Майер Д.И.* Русское гражданское право. СПб., 1902, с. 344.

[5] Bəzi müəlliflər «öhdəliyin obyekti» əvəzinə, «öhdəliyin predmeti» anlayışını işlədir. Prof. Y.A.Suxanov belə mövqe tutur (bax: Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханов.* М., 1999, с. 11,13). O.S.İoffe hüquq münasibətlərinin «hüquqi obyekti» və «maddi obyekti» kimi iki anlayış işlədir. Hüquq münasibətinin hüquqi obyekti dedikdə, hərəkət, maddi obyekti dedikdə isə əşyalar başa düşülür. Bizim fikrimizcə, öhdəliyin maddi obyekti eyni zamanda öhdəliyin predmetini ifadə edir. Roma hüququ da əşyaları öhdəliyin predmeti hesab edirdi (bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 257). Öhdəliyin predmeti kimi həm fərdi əlamətləri ilə müəyyən edilən, həm də cinsi əlamətləri ilə müəyyən edilən əşyalar (taxıl, çaxır, yağ) çıxış edə bilərdi. Pul da öhdəliyin predmeti ola bilərdi.

Almaniya mülki hüquq elmində öhdəliyin məzmunu və obyekti (Gegenstand) haqqında məsələ belə izah olunur: borclu nəyi, harada, nə vaxt və kim üçün icra etməlidir[1]. Hüquq ədəbiyyatında öhdəliyin məzmunu borclunun vəzifə və ya öhdəliyinin (borcunun) müəyyən edilməsi yolu ilə açıqlanır (Leistungen)[2]. Öhdəliyin predmeti (Gegenstand) isə müxtəlif qarşılıqlı əlaqələrdə nəzərdən keçirilir. Məsələn, H.Broks öhdəliyin predmetini öhdəliyin məzmunu ilə əlaqələndirir[3].

3. Öhdəliyin əmələ gəlmə əsasları

Öhdəliyin əmələ gəlmə əsasları dedikdə, öhdəlik hüquq münasibətlərinin əmələ gəlməsini şərtləndirən, onların yaranmasına dəlalət edən, qanunda nəzərdə tutulan və qanunun əlaqələndirdiyi hüquqi faktlar başa düşülür. Başqa sözlə desək, öhdəliklər hüquqi faktlar əsasında əmələ gəlir. Qanun öhdəliyin tərəfləri üçün hüquq və vəzifələr müəyyənləşdirilməsini bu faktlarla əlaqələndirir.

Öhdəliyin əmələ gəlməsini şərtləndirən hüquqi faktların dairəsi kifayət qədər genişdir. Bu faktların təxmini dairəsi qanunda müəyyənləşdirilmişdir. MM-in 386-cı maddəsi öhdəliyin əmələ gəlməsi əsaslarını tənzimləyir. Bu normada öhdəliyin əmələ gəlməsinin müqavilə, zərər vurmaq, əsassız varlanma kimi əsasları göstərilmişdir. Bunlarla yanaşı, öhdəliklər **MM-də nəzərdə tutulan digər əsaslardan da yarana bilər.**

Öhdəliyin əmələ gəlməsinin ən geniş yayılmış əsası **müqavilədir**. Müqavilə öhdəliyin yaranmasını şərtləndirən hüquqi faktlar arasında mühüm yer tutmaqla aparıcı rola malikdir. Bu cür müqavilələrin sayı kifayət qədər çox və müxtəlifdir: alqı-satqı müqaviləsi; dəyişmə müqaviləsi; icarə müqaviləsi; kirayə müqaviləsi; daşıma müqaviləsi; sığorta müqaviləsi; kredit müqaviləsi və s. Azad sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul olmaq üçün mülki hüququn subyektləri müxtəlif müqavilələr bağlayırlar. Özü də onlar müqavilə bağlamaqda müstəqildir. Müqavilə azadlığı mülki qanunvericiliyin əsas prinsiplərindən biridir (MM-in 6-cı maddəsi).

İstehsalı zəruri xammalla, materialla təmin etmək üçün, hazırlanmış məhsulu realizə etmək üçün alqı-satqı və mal göndərmə müqaviləsindən istifadə edilir. Ev, qaraj, mənzil tikmək üçün, müxtəlif təmir işlərini görmək üçün vətəndaş tikinti təşkilatı ilə podrat müqaviləsi bağlayır. Yükü, baqajı və sərnişinləri təyinat yerinə çatdırmaq üçün daşıma müqaviləsindən istifadə olunur.

Bazar münasibətləri şəraitində **müqavilə iqtisadi əlaqələri tənzimləyən ən universal hüquqi alət** kimi çıxış edir. O, normal əmtəə-mal dövriyyəsinin və prosesinin əsası rolunu oynayır. K.Marksın dili ilə desək, müqavilə əmtəə mübadiləsi münasibətlərini və iqtisadi əlaqələri rəsmiləşdirən hüquqi formadır[4]. Müqavilə elə bir əlverişli hüquqi formadır ki, o, tərəflərə özlərinin əmlak mənafelərini dəqiq ifadə etmələrinə imkan verir. Müqavilənin rolu təkcə bununla, yəni öhdəliyin əmələ gəlməsini şərtləndirən hüquqi fakt kimi çıxış etməklə bitmir. O, həm də müqavilə bağlayan tərəflərin hüquq və vəzifələrini

---

[1] *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 59 ff.

[2] *Medicus D.* Schuldrecht I. Allgemeiner Teil. München. 1999, s. 67.

[3] *Brox H.* Allgemeines Schuldrecht. München. 1993, s. 59 ff.

[4] *K.Marks.* Kapital. Tom 1. M., 1931, c. 41.

müəyyən edir.

Öhdəliyin əmələ gəlmə əsaslarından biri **birtərəfli əqdlərdir (hərəkətlərdir)**. Ata öz itmiş uşağını tapan şəxsə televiziya vasitəsilə xüsusi mükafatlandırma vədi barədə açıq elan verir. Uşaq tapılır. Onu tapan şəxsə nəzərdə tutulan mükafat verilir. Bu halda atanın birtərəfli hərəkətindən (əqddən) **xüsusi mükafatlandırma öhdəliyi** yaranır (MM-in 1079-cu maddəsi). Ədəbi təşkilat ən yaxşı dram əsəri yaratmağa görə priz vermək barədə yerli mətbuat səhifələrində açıq elan verir. Müsabiqə qalibi müəyyən edilir və ona priz verilir. Belə halda **müsabiqə öhdəliyi** göz qabağındadır (MM-in 1082-ci maddəsi). Bu öhdəlik ədəbi təşkilatın birtərəfli hərəkətindən (əqddən) yaranır. Rusiyanın ORT kanalında hər cümə günü «Поле чудес» adlı əyləncəli proqram göstərilir. Suallara düzgün cavab verən şəxsə mükafat (priz) verilir. Bu halda isə **oyunlardan əmələ gələn öhdəlik** yaranır (MM-in 1083-cü maddəsi). Vətəndaş öz dostu olan qonşusunun bağ evini onun tapşırığı olmadan öz hesabına təmir etdirir, yəni tapşırıqsız fəaliyyət göstərir. Qonşu bu işi bəyənir və vətəndaşın evin təmirinə çəkdiyi xərcləri ödəyir. Belə halda **işləri tapşırıqsız aparma öhdəliyi** əmələ gəlir (MM-in 1087-ci maddəsi). Ata bütün əmlakını oğluna vəsiyyət edir. Ata yaşayış otaqlarından birini ömürlük istifadə üçün qonşuya verilməsini vərəsəyə həvalə edir. Belə halda birtərəfli əqd olan vəsiyyət tapşırığı qaydasında öhdəlik əmələ gəlir (MM-in 1205-ci maddəsi). Bu öhdəlikdə qonşu kreditor, onun oğlu isə borclu şəxs kimi çıxış edir.

Hakimiyyət aktları öhdəliyin əmələ gəlmə əsaslarından biridir. Bu akt həmin aktdan yaranan öhdəliyin məzmununu müəyyən edir. Bu cür hakimiyyət aktları iki cür olur: inzibati aktlar; məhkəmə aktları. Hakimiyyət aktları arasında **dövlət orqanlarının və ya yerli özünüidarə orqanının qeyri-normativ (fərdi) xarakterli inzibati aktları** xüsusi yer tutur. Bu aktlar qanunvericilikdə öhdəliyin əmələ gəlmə əsası kimi nəzərdə tutulduqda, mülki hüquq və vəzifələr əmələ gəlir (MM-in 14-cü maddəsinin 2-ci bəndinin 2-ci yarımbəndi). Təbii fəlakətlər, texnoloji qəzalar, epidemiyalar baş verdikdə və fövqəladə xarakter daşıyan digər hallarda müvafiq dövlət orqanı qərar qəbul edir. Bu qərar əsasında mülkiyyətçidən əmlak dəyəri ödənilməklə, cəmiyyətin mənafeyi üçün məcburi surətdə alınır. Buna rekvizisiya, yəni həcz deyilir (MM-in 209-cu maddəsi). Belə halda mülkiyyətçidən alınmış həmin əmlakın dəyərinin ödənilməsi barədə mülkiyyətçi ilə dövlət arasında öhdəlik yaranır. Bu öhdəlikdə mülkiyyətçi kreditor, dövlət isə borclu şəxs kimi çıxış edir. Öhdəliyin əmələ gəlməsinin əsasını isə dövlət orqanının qeyri-normativ (fərdi) xarakterli aktı təşkil edir. Başqa bir misalda torpaq sahəsi dövlət ehtiyacları üçün müvafiq icra hakimiyyəti orqanının qərarı ilə mülkiyyətçidən satınalma yolu ilə alınır (MM-in 246-cı maddəsi). Belə halda da öhdəlik əmələ gəlir ki, bunun əmələ gəlmə əsasını inzibati akt təşkil edir.

Xalq təsərrüfatı üçün əhəmiyyəti olan obyektlərin və iqtisadiyyatın inkişafı üçün zəruri olan obyektlərin tikintisi barədə müvafiq dövlət orqanının qərarı podrat öhdəliyinin əmələ gəlmə əsası kimi çıxış edir. Müəssisələr dövlət ehtiyacları üçün işlər görə bilər. Dövlət orqanlarının inzibati aktlarından sayılan plan aktları əsasında yüklər daşınır və nəqliyyat təşkilatı (daşıyıcı) ilə yük göndərən arasında daşıma öhdəliyi yaranır.

Mənzilə ehtiyacı olan vətəndaşlara yerli dövlət orqanları tərəfindən verilən order də inzibati akt hesab olunur[1]. Bu akt order sahibi üçün onunla yaşayış evinin kirayə müqaviləsi bağlanmasını tələb etmək hüququ yaradır, mənzil-istismar sahəsi üçün isə bu cür müqavilə bağlamaq vəzifəsi əmələ gətirir. Belə halda da öhdəlik yaranır ki, bu öhdəlik mülki hüquqla tənzimlənir.

Hakimiyyət aktlarından biri sayılan məhkəmə qərarları əsasında da öhdəlik yarana bilər. Belə halda məhkəmə qərarı öhdəliyin əmələ gəlməsini şərtləndirən hüquqi fakt kimi çıxış edir. Xüsusilə qiymətli və dövlət tərəfindən qorunan sərvətlər sırasına daxil edilmiş mədəni sərvətlər mülkiyyətçi tərəfindən təsərrüfatsızlasına saxlana bilər. Bu isə onların öz əhəmiyyətini itirmək təhlükəsi yaradır. Bu sərvətlər məhkəmənin qərarına əsasən, mülkiyyətçidən alınır və dövlət mülkiyyətinə keçir. Dövlət həmin sərvətin qiymətini ödəyir. Belə halda mədəni sərvətin mülkiyyətçisi ilə dövlət arasında öhdəlik yaranır ki, bu cür öhdəliyin əmələ gəlmə əsası kimi məhkəmə qərarı çıxış edir (MM-in 208-ci maddəsi).

Öhdəliyin əmələ gəlməsini şərtləndirən əsaslardan biri **mülki hüquq subyektlərinə vurulan ziyandan** ibarətdir. Belə hallarda şəxsin hüquqazidd hərəkəti, yəni mülki hüquq pozuntusu öhdəliyin əmələ gəlməsinə səbəb olan hüquqi fakt rolunu oynayır. Bu cür mülki hüquq pozuntusu **delikt** adlanır. Qanun müəyyən edir ki, başqa şəxsə zərər vurmaq mülki hüquq və vəzifələrin əmələ gəlməsi əsaslarından biridir (MM-in 14-cü maddəsinin 2-ci bəndinin 6-cı yarımbəndi). Məsələn, minik avtomobilini yüksək sürətlə idarə edən sürücü (zərərvuran) vətəndaşın (zərərçəkənin) əmlakını zədələyir. Bununla əmlaka ziyan vurulur. Belə halda ziyan vurmaq nəticəsində hüquq münasibəti yaranır ki, bu cür münasibətə ziyan vurmaq nəticəsində əmələ gələn öhdəlik və ya delikt öhdəliyi deyilir. Zərər vurmaq faktı bu öhdəliyin əmələ gəlmə əsası kimi çıxış edir. Zərərvuran sürücü əmlaka vurulmuş zərərin əvəzini tam həcmdə ödəməlidir. O, həmin öhdəlikdə borclu şəxs, əmlakına zərər vurulmuş vətəndaş (zərərçəkən) isə kreditor rolunda çıxış edir. Vətəndaş (zərərçəkən) kreditor kimi zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malikdir. Başqa bir misalda sərxoş vəziyyətdə kənd sakini öz qonşusuna xəsarət yetirir. Bunun nəticəsində qonşunun sağlamlığı pozulur və əmək qabiliyyətini müvəqqəti itirir, habelə aylarla işə çıxmadığına görə qazancdan (gəlirdən) məhrum olur. Bununla belə, qonşu sağlamlığın pozulması ilə bağlı əlavə xərclər çəkir, o cümlədən müalicəyə, əlavə qidalanmaya, dava-dərman alınmasına və s. xərclər çəkir. Belə halda kənd sakini ilə (zərərvuranla) qonşu (zərərçəkən) arasında delikt öhdəliyi yaranır ki, kənd sakininin hüquqazidd hərəkəti (xəsarət vurmaq faktı) bu öhdəliyin əmələ gəlmə əsası kimi çıxış edir. Bu öhdəlikdə qonşu onun çəkdiyi xərclərin əvəzinin ödənilməsini tələb etmək hüququna malik olan kreditor, kənd sakini isə bu zərərin əvəzini ödəməyə borclu olan şəxsdir.

Beləliklə, delikt öhdəlikləri hüquqazidd hərəkətlərdən əmələ gəlir. Bu cür hərəkətlər iqtisadi dövriyyənin normal fəaliyyət göstərməsinə mane olur. Həmin hərəkətlər nəticəsində mənfi nəticələr yaranır. Bu cür nəticələri aradan

[1] Hüquq ədəbiyyatında orderin inzibati akt olması fikri geniş yayılmışdır (bax: *Толстой Ю.К.* Советское жилищное законодательство. М., 1974, с. 21; Гражданское право. Учебник. Том 2. М., 1980, с. 127).

qaldırmaq üçün qanun xüsusi xarakterli delikt öhdəliyi nəzərdə tutur (MM-in 9-cu bölməsi, 1096-1132-ci maddələr). Lakin delikt öhdəlikləri hüquqauyğun nəticəyə nail olunmasına yönəlir. Bu nəticə isə iqtisadi dövriyyə iştirakçılarının pozulmuş əmlak vəziyyətini bərpa etməkdən ibarətdir.

Öhdəliyin əmələ gəlmə əsaslarından biri **əsassız varlanmadır**. Qanun əsassız varlanmanın mülki hüquq və vəzifələrin əmələ gəlmə əsaslarından biri kimi nəzərdə tutur (MM-in 14-cü maddəsinin 2-ci bəndinin 7-ci yarımbəndi). Belə ki, əsassız varlanmadan öhdəlik yaranır. Hələ neçə əsr bundan əvvəl Roma hüququ onu **kondikasiya öhdəliyi** anlayışı ilə əhatə etmişdi[1].

Əsassız varlanma öhdəliyi hüquqazidd hərəkətlərdən əmələ gələn xüsusi xarakterli öhdəlikdir. Bu anlayış hüquqi əsası olmayan (titulsuz) əmlak əldə etməni ifadə edir. Buna görə də qanun müəyyən edir ki, hüquqi əsas olmadan varlanmış şəxs əldə etdikləri əmlakı məhrum olanın tələbi ilə ona qaytarmalıdır (MM-in 1092-ci maddəsi). Məsələn, bir binada Cavadov familiyalı iki nəfər yaşayır. Bunlardan biri müəllim, digəri isə mühəndisdir. Uzaq şəhərdə yaşayan dostlardan biri müəllim Cavadova iki min dollar məbləğində maddi yardım məqsədilə pul göndərir. Pulu gətirən şəxs onu səhvən mühəndis Cavadova verir. Mühəndis Cavadov əsassız varlanmış şəxs hesab edilir. Onun (əsassız varlanmış şəxsin) borcudur ki, məhrum olanın (kreditorun) tələbi ilə pulu ona qaytarsın. Belə halda əsassız varlanma öhdəliyi yaranır. Başqa bir misalda dağda güclü tufan qopur. Bunun nəticəsində çobanın (məhrum olanın) otardığı qoyun sürüsündən bir dəstə qoyun o biri çobanın (əsassız varlananın) sürüsünə qarışır. Çobanlar arasında əsassız varlanma öhdəliyi yaranır. Bu öhdəliyə görə, əsassız varlanan çoban qoyunları məhrum olan çobana qaytarmalıdır.

Əsassız varlanma öhdəliyinin təyinatı mülki dövriyyə iştirakçılarının pozulmuş əmlak vəziyyətini bərpa etməkdən ibarətdir. Bununla mənfi hallar aradan qaldırılır və müsbət nəticəyə nail olunur.

Öhdəliyin əmələ gəlmə əsaslarından biri **hüquqi əməllərdir**. Hüquqi əməllər elə hüquqauyğun hərəkətlərdir ki, bu hərəkətlər xüsusi olaraq hüquq münasibətlərinin yaranması, dəyişməsi və ya xitam olunmasına, yəni hüquqi nəticə əldə edilməsinə yönəlmir, lakin bu cür nəticənin əmələ gəlməsinə səbəb olur. Məsələn, traktorçu kəndli (fermer) təsərrüfatı başçısının malik olduğu torpaq sahəsini şumlayarkən dəfinə tapır. Torpaq sahəsinin mülkiyyətçisi ilə traktorçu arasında öhdəlik yaranır. Bu öhdəliyə görə, traktorçu dəfinənin yarısını fermer təsərrüfatı başçısına verməlidir. Dəfinənin tapılması hüquqi əməldir və bu, öhdəliyin əmələ gəlməsinə səbəb olur. Başqa bir misalda vətəndaş özgə şəxsə məxsus olan itirilmiş əşyanı tapır. Bu hərəkət də hüquqi əməldir. İtirilmiş əşyanı tapan şəxs tapıntı barədə onu itirmiş şəxsə və ya onun mülkiyyətçisinə məlumat verməlidir (MM-in 186-cı maddəsinin 1-ci bəndi). Belə halda da öhdəlik əmələ gəlir. Hüquqi əməl (əşyanı tapmaq) isə bu öhdəliyin əmələ gəlməsinə əsas olan hüquqi faktdır.

[1] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 538; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 509; *Novitski I.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 191.

Öhdəliyin yaranma əsaslarından biri **mürəkkəb hüquqi tərkib** adlanır[1]. Mürəkkəb hüquqi tərkib özündə **iki hüquqi faktı birləşdirir: inzibati aktı; müqaviləni**. Yalnız hər iki hüquqi fakt mövcud olduqda mürəkkəb hüquqi tərkib yaranır və bu tərkib öhdəliyin əmələ gəlmə əsası kimi çıxış edir. Bunlardan biri olmadıqda, mürəkkəb hüquqi tərkib yaranmır və belə halda öhdəliyin mövcudluğundan söhbət gedə bilməz.

Mürəkkəb hüquqi tərkib planlı iqtisadiyyatın (Sovet iqtisadiyyatının) mövcudluğu şəraitində daha geniş yayılmışdı. İqtisadiyyatın planlı surətdə idarə edilməsi dövründə bütün təsərrüfat öhdəlikləri mürəkkəb hüquqi tərkibə əsaslanırdı: plan aktına; müqaviləyə. Məsələn, tədarük öhdəliyinin yaranması üçün həm inzibati aktın (məhsul bölgüsünə dair plan aktının), həm də bu akt əsasında bağlanmış tədarük müqaviləsinin olması tələb olunurdu (1964-cü il MM-in 254-cü maddəsi).

Bazar iqtisadiyyatına və münasibətlərinə keçilməsi mürəkkəb hüquqi tərkibin rolunu xeyli məhdudlaşdırır. Öhdəliyin əmələ gəlməsinin bu cür əsası öz təbiətinə görə əmtəə-pul münasibətləri olan müasir iqtisadi dövriyyə üçün xarakterik deyil. Belə ki, bazar iqtisadiyyatı şəraitində təsərrüfat əlaqələrinin sabitliyi əmtəə-pul münasibətləri iştirakçılarının iqtisadi maraqlarına əsaslanır. Bu maraq isə onlar arasında bağlanan müqavilələrdə ifadə olunur.

Müasir dövrdə mürəkkəb hüquqi tərkibin əhəmiyyəti və rolu məhdudlaşmışdır, lakin tam itməmişdir. Bu cür mürəkkəb tərkib mülki-hüquqi öhdəliyin əmələ gəlməsinə səbəb ola bilər. Məsələn, dövlət təsərrüfatsızcasına saxlanılan mədəni sərvətləri satınalma yolu ilə ala bilər (MM-in 208-ci maddəsi). Belə halda dövlətlə mədəni sərvətin mülkiyyətçisi arasında öhdəlik yaranır ki, mürəkkəb hüquqi tərkib bu öhdəliyin əmələ gəlmə əsası kimi çıxış edir: məhkəmə qərarı (hakimiyyət aktı); alqı-satqı müqaviləsi.

Öhdəliyin əmələ gəlmə əsaslarından biri **hadisələrdir**. Hadisələr insan iradəsindən asılı olmayaraq baş verən hüquqi faktlardır. Hüquqi əməllər kimi hadisələr də öhdəliyin əmələ gəlməsinin geniş yayılmış əsası hesab edilmir. Lakin real həyatda hadisələrin öhdəliyin yaranmasına əsas olan hüquqi faktlar kimi çıxış etməsi halına rast gəlmək mümkündür. Məsələn, naviqasiya mövsümi hadisədir. Bu, yazın gəlməsi və havaların isinməsi ilə bağlı olaraq, çay və dənizlərdə buzun əriməsi, bunun nəticəsində isə su yolu ilə yük daşınmasına imkan verən mövsümdür. Naviqasiya mövsümünün açılması ilə yük daşıma öhdəliyi yaranır və icra edilir, yəni çay və dəniz nəqliyyatı ilə yük təyinat məntəqəsinə daşınır.

Qanun hadisələri mülki hüquq və vəzifələrin əmələ gəlməsi əsaslarından biri hesab edir (MM-in 14-cü maddəsinin 2-ci bəndinin 9-cu yarımbəndi). Lakin ümumi qaydaya görə, **hadisələr çox vaxt öhdəliyin əmələ gəlməsinin müstəqil əsası kimi çıxış etmir**. Belə ki, hadisələr həmin öhdəliyin çərçivəsində və hüdudlarında tərəflər üçün hüquq və vəzifələr yaradır. Məsələn, əmlak təbii fəlakətdən (zəlzələdən, daşqından, qasırğadan və s.) sığortalanır və onun mülkiyyətçisi sığortaçı (sığorta təşkilatı) ilə sığorta müqaviləsi bağlayır.

[1] «Mürəkkəb hüquqi tərkib» nəzəriyyəsi hələ 1940-cı ildə M.M.Aqarkov tərəfindən əsaslandırılmışdır (bax: *Агарков М.М.* Обязательство по советскому гражданскому праву. М., 1940, с. 123).

Təbii fəlakət, yəni sığorta hadisəsi baş verir və əmlak məhv olur. Bununla sığortaçı üçün sığortalıya sığorta ödənişi vermək vəzifəsi yaranır. Deməli, belə halda sığorta hadisəsi (təbii fəlakət) sığorta öhdəliyi yox, sığortaçı üçün vəzifə əmələ gətirir. Sığorta öhdəliyi sığorta müqaviləsi əsasında yaranır. Başqa bir misalda ata (vəsiyyət edən) bank əmanətinin yarısının öz qardaşına verilməsini oğluna (vərəsəyə) həvalə edir (vəsiyyət tapşırığı — leqat). Bu cür vəsiyyət tapşırığı birtərəfli əqddir. Bu əqd yalnız vərəsəlik açıldığı andan, yəni vəsiyyət edən ata öldüyü andan öhdəlik əmələ gətirir. Vəsiyyət edən ata ölməsə (onun ölümü hadisədir), öhdəliyin yaranmasından söhbət gedə bilməz. Belə təsəvvür yaranır ki, belə halda hadisə (vəsiyyət edənin ölümü) vəsiyyət tapşırığı (birtərəfli əqd) ilə birlikdə mürəkkəb hüquqi tərkib kimi öhdəliyin əmələ gəlməsinə səbəb olur.

Öhdəliyin əmələ gəlmə əsaslarından biri **fiziki və hüquqi şəxslərin digər hərəkətləridir** (MM-in 14-cü maddəsinin 2-ci bəndinin 8-ci yarımbəndi). Şəxslərin digər hərəkətləri dedikdə, onların nə əqd, nə də inzibati akt olan davranışı başa düşülür. Lakin bu cür hərəkətlər mülki qanunvericiliyin prinsiplərinə və ümumi əsaslarına zidd olmamalıdır. Məsələn, vətəndaş huşunu itirir və yıxılır. Bunu görən qonşu onu təcili olaraq xəstəxanaya çatdırır. Vətəndaşın üzərində ağır cərrahiyyə əməliyyatı aparılır. Dava-dərman alınması və cərrahiyyə əməliyyatı üçün zəruri olan bütün xərcləri qonşu çəkir. Vətəndaş tam sağaldıqdan sonra qonşu çəkdiyi xərclərin əvəzinin ödənilməsini tələb etmək hüququna malik olur, vətəndaş isə həmin xərclərin əvəzini ödəmək vəzifəsini daşıyır. Onlar arasında öhdəlik yaranır. Bu öhdəliyin əmələ gəlməsi vətəndaşın birtərəfli hərəkəti ilə bağlıdır.

§ 3. Öhdəliyin növləri

1. Öhdəliyin sistemi anlayışı və əhəmiyyəti

Öhdəliyin sistemi dedikdə, düzgün seçilmiş təsnif meyarı əsasında onların vahid halında birləşməsi və ayrı-ayrı növlərinin fərqləndirilməsi (differensiasiyası) başa düşülür. Öhdəliklərin lazımınca sistemləşdirilməsi vacib əhəmiyyətə malikdir. Belə ki, öhdəliklərin elmi cəhətdən əsaslandırılmış təsnifi (sistemi) olmadan, hər şeydən əvvəl, onların lazımi qaydada hüquqi tənzimlənməsi mümkün deyil. Öhdəliyin sistemi imkan verir ki, öz təbiətinə və xarakterinə görə eyni olan öhdəliklər eyni hüquq normaları ilə tənzimlənsin. Öhdəliyin sistemi həm də mühüm əlamətləri ilə fərqlənən öhdəliklərin öz məzmununa görə müxtəlif olan hüquq normaları ilə tənzimlənməsinə imkan verir.

Öhdəliyin sisteminin həm də hüquq tətbiqetmə fəaliyyəti üçün əhəmiyyəti böyükdür. O, öhdəliklərin bir növünü digərindən fərqləndirməyə imkan verir. Bununla bərabər, öhdəliyin sisteminin öhdəlik hüququnun öyrənilməsi və mənimsənilməsi üçün vacib əhəmiyyəti vardır.

Hüquq ədəbiyyatında problem xarakterli məsələlərdən biri öhdəliklərin təsnifi məsələsidir. Bu məsələ xeyli müddətdir ki, müəlliflər arasında geniş diskussiya predmetinə çevrilmişdir. Tədqiqatçı müəlliflər öhdəliklərin təsnifini vermək üçün müxtəlif meyarlardan istifadə edirlər: iqtisadi xüsusiyyətinə görə[1]; öhdəliyin istiqamətinə görə[2]; qarışıq hüquqi və iqtisadi meyara görə[3].

Göstərilən bütün təsnif meyarları ümumi qüsura malikdir. Bu nöqsan onunla şərtlənir ki, təklif olunan meyarlar əsasında bir-birindən ayrılan və fərqləndirilən öhdəlik növləri hüquqi ümumilik xüsusiyyətindən məhrumdur. Bəzi müəlliflər çoxpilləli təsnifat qaydasını irəli sürürlər[4]. Bu qaydaya görə, öhdəliyin sistemi çoxpilləli təsnifat üzrə qurulur. Bu mövqe əsaslı və inandırıcıdır. Qeyd etmək lazımdır ki, ayrı-ayrı təsnifat pillələri arasında ziddiyyət yoxdur, əksinə, onlar bir-birini tamamlayaraq öhdəlik kimi mürəkkəb məsələnin düzgün və hərtərəfli başa düşülməsinə imkan verir.

Çoxpilləli təsnifat qaydasına görə, bütün öhdəliklər iki tipə bölünür (öhdəliyin əmələ gəlmə əsasına görə): müqavilə öhdəlikləri tipinə; müqavilədənkənar öhdəliklər tipinə.

Müqavilə öhdəlikləri odur ki, bu öhdəliklər müqavilə əsasında əmələ gəlir. Müqavilə olmayan digər hüquqi faktlardan əmələ gələn öhdəliklər **müqavilədənkənar öhdəliklər** adlanır. Müqavilə öhdəliklərinin məzmunu, əsasən, tərəflərin razılığı və sazişi ilə, müqavilədənkənar öhdəliklərin məzmunu isə yalnız qanunla müəyyən edilir.

Müqavilə öhdəlikləri, öz növbəsində, **qruplara bölünür**. Bu qruplara aiddir: əşyanın mülkiyyətə və digər əşya hüququna verilməsi üzrə öhdəlik qrupu; əşyanın istifadəyə verilməsi üzrə öhdəlik qrupu; iş görülməsi üzrə öhdəlik qrupu; xidmət göstərilməsi üzrə öhdəlik qrupu; əqli mülkiyyət obyektlərindən istifadə üzrə öhdəlik qrupu; çoxtərəfli əqdlərdən əmələ gələn öhdəlik qrupu.

Müqavilədənkənar öhdəliklər iki qrupa bölünür. Bu qruplara aiddir: birtərəfli əqdlərdən (hərəkətlərdən) əmələ gələn öhdəliklər; mühafizəedici (qoruyucu) öhdəliklər.

Hər bir qrup öhdəlik **ayrı-ayrı növlərə bölünür**. **Əşyanın mülkiyyətə və digər əşya hüququna verilməsi öhdəlik qrupuna** daxildir: alqı-satqı öhdəliyi; dəyişdirmə öhdəliyi; bağışlama öhdəliyi; renta öhdəliyi.

Əşyanın istifadəyə verilməsi üzrə öhdəlik qrupuna aşağıdakı növ öhdəliklər daxildir: icarə öhdəliyi; kirayə öhdəliyi; əvəzsiz istifadə öhdəliyi; lizinq öhdəliyi.

İş görülməsi üzrə öhdəlik qrupuna podrat öhdəliyi aiddir.

Xidmət göstərilməsi üzrə öhdəlik qrupuna daxildir: daşıma öhdəliyi; sığorta öhdəliyi; nəqliyyat-ekspedisiya öhdəliyi; kredit-borc öhdəliyi; bank əmanəti öhdəliyi; bank hesabı öhdəliyi; saxlama öhdəliyi.

Əqli mülkiyyət obyektlərindən istifadə üzrə öhdəlik qrupuna daxildir: sənaye mülkiyyəti obyektindən istifadə hüququnun verilməsi barədə lisenziya müqaviləsindən əmələ gələn öhdəlik; müəllif müqaviləsindən əmələ gələn öh-

---

[1] *Аскназий С.И.* Очерки хозяйственного права в СССР. Л., 1926, с. 65.

[2] *Красавчиков О.А.* Система отдельных видов обязательств // Советская юстиция. 1960. № 5, с. 42-43.

[3] *Гордон М.В.* Система договоров в советском гражданском праве // Уч. зап. Харковского юрид. инс-та. Вып. 5. 1954, с. 54.

[4] *Брагинский М.И.* Общее учение о хозяйственных договорах. Минск. 1967, с. 30; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 486-488.

dəlik; françayzinq müqaviləsindən əmələ gələn öhdəlik.

Çoxtərəfli əqdlərdən əmələ gələn öhdəlik qrupuna hüquqi şəxsin yaradılması zamanı təsisçilər arasında bağlanan müqavilə öhdəliyi daxildir.

Birtərəfli hərəkətlərdən (əqdlərdən) əmələ gələn öhdəlik qrupuna aiddir: xüsusi mükafatlandırma öhdəliyi; müsabiqə öhdəliyi; oyunların və mərclərin keçirilməsi öhdəliyi; tapşırıqsız fəaliyyətdən əmələ gələn öhdəlik.

Qoruyucu (mühafizəedici) öhdəlik qrupuna şamil edilir: ziyan vurmaq nəticəsində əmələ gələn öhdəlik (delikt öhdəliyi); əsassız varlanmadan əmələ gələn öhdəlik (kondikasiya öhdəliyi).

Öhdəliyin ayrı-ayrı növləri müxtəlif **formalarda ola və ya yarımnövlərə** bölünə bilər. Elə öhdəlik növləri vardır ki, həmin öhdəliklər müxtəlif formalarda ifadə olunur. Belə halda onların forması spesifik xüsusiyyətləri ilə şərtlənir. Məsələn, pərakəndə alqı-satqı müqaviləsi alqı-satqının yarımnövlərindən biridir; pərakəndə alqı-satqı isə müəyyən formalarda ola bilər: kreditlə satış; malın alıcı tərəfindən müəyyən müddətə qəbul edilməsi şərtilə satılması; malların nümunələr üzrə satışı; malların avtomatlardan istifadə etməklə satışı; malların alıcıya çatdırmaq şərtilə satılması.

Əgər müəyyən növ öhdəlik formaca yox, məzmunca spesifik xüsusiyyətlərə malik olarsa, onda həmin konkret növ öhdəlik yarımnövlər üzrə təsnif edilir. Məsələn, alqı-satqının mal göndərmə, pərakəndə alqı-satqı, faktorinq və s. digər yarımnövləri fərqləndirilir.

Beləliklə, çoxpilləli qayda əsasında öhdəliyin sistemini belə qurmaq olar. Bütün öhdəliklər iki tipə bölünür. Hər bir tip öhdəlik isə ayrı-ayrı öhdəlik qruplarına bölünür. Hər bir öhdəlik qrupu isə müxtəlif növ öhdəliklərdən ibarətdir. Nəhayət, öhdəliyin konkret növləri yarımnövlərə və formalara bölünür.

Bununla bərabər, öhdəliklərin həmin öhdəliklərdə iştirak edən tərəflərin mülki-hüquqi statusuna görə iki yerə ayrılması mühüm əhəmiyyətə malikdir: sahibkarlıq öhdəlikləri; istehlakçı vətəndaşların iştirak etdikləri öhdəliklər. **Sahibkarlıq öhdəlikləri** odur ki, bu öhdəliklərdə iştirak edən tərəflər sahibkar statusuna malik olmaqla əmlak dövriyyəsinin professional iştirakçılarıdırlar. Bu cür öhdəliklərə mal göndərmə, lizinq, françayzinq və s. müqavilələrdən əmələ gələn öhdəlikləri misal göstərmək olmur.

İstehlakçı vətəndaşların iştirak etdikləri öhdəliklər (istehlak öhdəlikləri) odur ki, bu öhdəliklərin tərəflərindən biri sahibkar statusuna malik olmur. Həmin tərəf iqtisadi cəhətdən nisbətən zəif tərəf hesab olunur. Ona görə də qanun onları daha yüksək hüquqi müdafiə ilə təmin edir. Başqa sözlə desək, qanun həmin tərəflərə öz hüquq və mənafeyini müdafiə etmək üçün əlavə imkanlar verir. Bu cür öhdəliklərə pərakəndə alqı-satqı öhdəliyini misal göstərmək olar[1]. Bu öhdəlikdə alıcı rolunda istehlakçı vətəndaşlar çıxış edir. Onların mənafeyi «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» qanunla qorunur[1]. Bu qanun istehlakçıların hüquqlarının müdafiəsinin ümumi hüquqi əsaslarını və mexanizmini müəyyənləşdirir.

İstehlak öhdəliklərini **məişət öhdəlikləri** də adlandırmaq olar. Bu öhdəliklərin sosial-iqtisadi məqsədi ailə-məişət ehtiyacları və qeyri-sahibkarlıq fəaliyyəti ilə bağlıdır. Məsələn, vətəndaş öz qonşusuna televizor satır (xüsusi mənada alqı-satqı öhdəliyi).

2. Öhdəliklərin növləri

Öhdəliklər müxtəlif əsas və meyarlara görə müxtəlif növlərə bölünür. **Hüquq və vəzifələrin tərəflər arasında bölünməsi meyarına** görə öhdəliklər iki cür olur: birtərəfli öhdəliklər; ikitərəfli öhdəliklər. **Birtərəfli öhdəliklər** odur ki, bu öhdəliklərdə tərəf rolunda çıxış edən şəxslərdən biri yalnız hüquqa malik olur, digər tərəf isə ancaq vəzifə daşıyır. Bu öhdəliklərdə tərəflər arasındakı hüquqi əlaqənin xarakteri elədir ki, burada bir tərəf yalnız kreditor rolunda, digər tərəf isə yalnız borclu şəxs qismində çıxış edir. Birtərəfli öhdəliklərə bank əmanəti (depozit) müqaviləsindən əmələ gələn öhdəliyi, habelə ziyan vurmaq nəticəsində əmələ gələn öhdəliyi misal göstərmək olar.

İkitərəfli öhdəliklər odur ki, bu öhdəliklərdə çıxış edən tərəflərin hər ikisi həm hüquqlara malik olur, həm də vəzifələr daşıyırlar. İkitərəfli öhdəliklər **qarşılıqlı öhdəliklər** də adlandırılır. Həmin öhdəliklərdə kreditor eyni zamanda həm borclu şəxs, borclu şəxs isə eyni zamanda həm də kreditor kimi çıxış edir. Öhdəliklərin çoxu ikitərəfli (qarşılıqlı) öhdəliklər növünə şamil edilir. Alqı-satqı, icarə, kirayə, daşıma və digər öhdəliklər ikitərəfli öhdəliklərə misal ola bilər. Götürək alqı-satqı müqaviləsini. Satıcı satdığı əşyanın verilməsini tələb etmək hüququna malik olan kreditordur. Bununla belə, o, satılan əşyanı alıcıya verməyə borclu olan şəxsdir. Alıcı satılan əşyanın pulunu verməyə borclu olan şəxsdir. Alıcı həm də əşyanın ona verilməsini tələb edən kreditordur. Özü də qarşılıqlı öhdəliklərdə hər bir tərəfin daşıdığı vəzifə digər tərəfin hüququna uyğun gəlir.

Müəyyən edilmiş hüquqi əlaqələrin sayına görə öhdəliklərin iki növü fərqləndirilir: sadə öhdəliklər; mürəkkəb öhdəliklər. **Sadə öhdəliklər** odur ki, bu cür öhdəliklərdə tərəfləri yalnız bir hüquqi əlaqə (hüquq və vəzifə) bağlayır. Həmin öhdəliklərdə tərəflər bir-birilə yalnız bir hüquq və bir vəzifə ilə bağlı olurlar. Məsələn, bank əmanətindən əmələ gələn öhdəlikdə əmanətçinin yalnız bir hüququ, yəni əmanətin qaytarılmasını bankdan tələb etmək hüququ vardır, bank isə əmanəti qaytarmaqdan ibarət yalnız bir vəzifə daşıyır. Ziyan vurmaq nəticəsində əmələ gələn öhdəliklərdə zərərvuran şəxs yalnız bir vəzifə, yəni vurulmuş zərərin əvəzini ödəmək vəzifəsini daşıyır. Zərərçəkmiş şəxsin isə yalnız bir hüququ, yəni vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır.

Mürəkkəb öhdəliklər odur ki, bu öhdəliklərdə tərəflər bir-biri ilə birdən çox hüquq və vəzifə ilə bağlı olurlar. Başqa sözlə desək, mürəkkəb öhdəliklərdə bir neçə hüquq və vəzifə olur[2]. Bu cür öhdəliklərə icarə, kirayə, alqı-satqı və s.

[1] Pərakəndə alqı-satqı öhdəliyi «xalis», «təmiz formada», necə deyərlər, «yüz faizli» istehlak öhdəliyi hesab edilmir. Belə ki, bu öhdəliyin bir tərəfi olan pərakəndə ticarətçi (satıcı) sahibkarlıq fəaliyyətini həyata keçirir. Bu baxımdan o, sahibkarlıq öhdəliyi hesab edilir. İkinci tərəf olan alıcı malları ailə-məişət, şəxsi və ya qeyri-sahibkarlıq məqsədi üçün əldə edir. Bu baxımdan o, istehlak öhdəliyi kimi çıxış edir. Deməli, pərakəndə alqı-satqı öhdəliyi 50% sahibkarlıq öhdəliyi, 50% isə istehlak öhdəliyi hesab edilməlidir.

[1] bax: AR QK, II cild, s. 540.

[2] bax: *Новицкий И.Б., Лунц Л.А.* Общее учение об обязательстве. М., 1950, с. 59.

öhdəlikləri misal göstərmək olar.

Bundan əlavə, öhdəliyin qarışıq (kompleks) öhdəliklər kimi növü də fərqləndirilir. **Qarışıq (kompleks) öhdəliklər** odur ki, bu cür öhdəliklər özündə müxtəlif müqavilə öhdəliklərinin elementlərini birləşdirir. Məsələn, vətəndaş cinsi əlamətləri ilə müəyyən edilən əşyanı (məsələn, taxılı, unu, pambığı və s.) saxlamaya verir. Belə halda saxlama öhdəliyi yaranır. O, saxlayıcıya icazə verir ki, həmin əşyadan istifadə etsin. Saxlayıcı həmin əşyadan istifadə etməklə, ona mülkiyyət hüququ əldə edir. Belə halda borc öhdəliyi əmələ gəlir. Öhdəlik isə bütövlükdə iki müxtəlif müqavilə öhdəliyinin, yəni saxlama və borc öhdəliklərinin elementlərini özündə birləşdirən qarışıq öhdəliyə çevrilir. Başqa bir misalda mal göndərmə öhdəliyində tərəflər müəyyən məsələlər barədə razılığa gələ bilərlər: malın daşınması (daşıma öhdəliyi); malın saxlanması (saxlama öhdəliyi); malın sığortalanması (sığorta öhdəliyi). Belə halda öhdəlik özündə dörd (mal göndərmə; daşıma; saxlama; sığorta) öhdəliyin elementlərini birləşdirən qarışıq (kompleks) öhdəlik kimi çıxış edir[1].

Öhdəlik yaranan anda öhdəliyin icra predmetinin müəyyən olunması dərəcəsinə görə öhdəliklər üç cür olur: birpredmetli öhdəliklər; alternativ öhdəliklər; fakultativ öhdəliklər.

Birpredmetli öhdəliklər odur ki, bu öhdəliklərə görə borclu şəxs kreditora dəqiq və konkret olaraq müəyyən edilmiş əşya verir. Məsələn, vətəndaş (satıcı) Bakı şəhərinin İnqilab küçəsindəki 5 saylı yaşayış evini alıcıya satır.

Alternativ öhdəliklər (latınca «alternare» — dəyişmək) odur ki, bu öhdəliklərə görə borclu şəxs kreditor üçün mümkün olan iki və daha artıq hərəkətdən birini etməyə borclu olur. Bu cür öhdəliklər borclu şəxsin kreditora bu və ya digər əmlak verməsini nəzərdə tutur. Alternativ öhdəliklərdə öhdəliklərin icra predmetləri sadalanır, yəni mümkün olan bir neçə icra variantı təklif olunur. İcra variantını seçmək hüququ, əgər müqavilədən, Mülki Məcəllədən və ya öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, borcluya məxsusdur (MM-in 434-cü maddəsinin 1-ci bəndi). Seçmək hüququ kreditora da məxsus ola bilər. Məsələn, qüsuru olan mal satılarkən istehlakçı (kreditor) satıcıdan və ya istehsalçıdan aşağıdakıları tələb etmək hüququna malikdir («İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» qanunun 7-ci maddəsinin 1-ci bəndi)[2]: lazımi keyfiyyətli mala dəyişdirməyi; satış qiymətini uyğun məbləğdə azaltmağı; malın qüsurlarının satıcının (və ya istehsalçının) hesabına aradan qaldırılmasını və ya qüsurların aradan qaldırılması üçün özünün çəkdiyi xərclərin əvəzinin ödənilməsini və s.

Alternativ öhdəliklər icra predmetinin çoxluğunu nəzərdə tutan öhdəliklərdir[1]. Lakin o, vahid öhdəlik hesab edilir. Bu öhdəliklərin «məzmunu həm məlum, həm də qeyri-məlumdur»[2]. Alternativ öhdəlikləri hələ Roma hüququ da tanıyırdı[3].

Fakultativ öhdəliklər (latınca «facultas» — imkan, qabiliyyət, qeyri-məcburi) odur ki, bu öhdəliklər borclu şəxs tərəfindən müəyyən hərəkət edilməsini (müəyyən predmet verilməsini) nəzərdə tutur, lakin bu hərəkəti etmək mümkün olmadıqda, ona predmeti əvvəlcə müəyyən edilmiş digər predmetlə əvəz etmək imkanı verilir. Bu öhdəlik şərtləşdirilmiş predmetin əvəzində başqa bir predmet verilməsinin mümkünlüyünü nəzərdə tutur. Məsələn, girov öhdəliyində girov saxlayan girov predmetini itirir. Belə halda girovun predmetini qaytarmaq mümkün olmur. Öhdəliyin icra predmeti pul verilməsi ilə əvəz edilir (MM-in 285-ci maddəsinin 3-cü bəndi). Başqa bir misalda podrat müqaviləsi üzrə podratçı sifarişçi üçün məmulat (məsələn, ev üçün pəncərə qapıları) hazırlayır. Sifarişçi həmin məmulatda qüsur aşkar etdiyinə görə onu qəbul etmir. Podratçı yeni məmulat hazırlayır. Bununla öhdəliyin icra predmeti başqa məmulatla əvəz edilir (MM-in 763-cü maddəsinin 1-ci bəndi).

Fakultativ öhdəliklərdə icra predmeti həmişə məlum olur. Bu xüsusiyyətilə o, alternativ öhdəlikdən fərqlənir. Fakultativ öhdəlik icranın başqa predmetlə əvəz edilməsinin mümkünlüyünü nəzərdə tutan öhdəlikdir. Bu öhdəliyi də Roma hüququ tanıyırdı[4]. Fakultativ öhdəlik Almaniya Mülki Qanunnaməsinə də məlumdur (§249)[5]. Bu növ öhdəliyi Yaponiya qanunvericiliyi də nəzərdə tutur. Yaponiya MM-i fakultativ öhdəliyə münasibətdə qayda müəyyənləşdirmir. Həmin öhdəlik, adətən, müqavilədən yaranır. Bununla belə, o, hüquq norması əsasında da əmələ gələ bilər. Məsələn, xarici valyutada ifadə edilən öhdəliyin icrası yapon iyeni ilə əvəz oluna bilər (Yaponiya MM-in 403-cü maddəsi).

Bir-birilə qarşılıqlı əlaqədə olmasına və birinin digəri üçün kəsb etdiyi əhəmiyyətin dərəcəsinə görə öhdəliklər iki növə bölünür: əsas öhdəliklər; aksessor öhdəlikləri.

Əsas öhdəliklər odur ki, bu öhdəliklər əlavə öhdəliklərə ehtiyac olmadan müstəqil surətdə mövcud olur. Həmin öhdəliklərin taleyi hər hansı bir öhdəlikdən asılı olmur. Məsələn, alqı-satqı, icarə, kirayə, borc və s. öhdəliklər əsas öhdəlik növünə şamil edilir. Əsas öhdəliklərə **baş öhdəliklər** də deyilir.

Aksessor öhdəlikləri odur ki, bu öhdəliklər yalnız əsas (baş) öhdəliklər mövcud olduqda yaranır və onunla qırılmaz qarşılıqlı əlaqədə olur. Aksessor

[1] İnqilabaqədərki Rusiya mülki hüququ yük daşıma üzrə öhdəliyi qarışıq öhdəlik kimi tanıyırdı. Bu öhdəlik özündə podrat, kirayə, saxlanc, tapşırıq kimi öhdəliklərin elementlərin birləşdirirdi (bax: *Шершеневич Г.Ф.* Учебник торгового права. М., 1994, с. 212). Mövcud mülki hüquq isə yük daşıma öhdəliyini qarışıq yox, vahid təbiətə malik olan müstəqil konstruksiya kimi tanıyır.

[2] bax: AR QK, II cild, s. 550.

[1] Alternativ öhdəlik konstruksiyası Almaniya Mülki Qanunnaməsinə də məlumdur (§ 262. Wahlshuld). Bu konstruksiyanı Yaponiya MM-i də tanıyır. Seçim hüququ borcluya məxsusdur (Yaponiya MM-in 406-cı maddəsi). Bu hüquqdan xüsusi saziş əsasında həm kreditor, həm də üçüncü şəxs istifadə edə bilər. Yaponiya mülki hüquq elmində göstərilir ki, alternativ öhdəliyə ən çox bağışlama müqaviləsi bağlanan hallarda rast olunur (*Сакаэ Вагацума, Тору Арииздзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 259).

[2] bax: *Новицкий И.Б., Лунц Л.А.* Общее учение об обязательстве. М., 1950, с. 122.

[3] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 259; *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 487.

[4] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 260; *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 488.

[5] *Сакаэ Вагацума, Тору Арииздзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 260-261.

öhdəliklərinin (latınca «accessorius» — əlavə, törəmə) taleyi əsas (baş) öhdəliklərdən asılı olur. Əsas öhdəliyin etibarsızlığı aksessor öhdəliyinin də etibarsızlığına səbəb olur. Əsas öhdəliklər xitam edildikdə, əlavə öhdəliklər də ləğv olunur. Onlar **qeyri-müstəqil olub, yardımçı xarakter daşıyır**. Bir qayda olaraq, əsas (baş) öhdəliklərin lazımınca icrasını təmin etmək bu öhdəliklərin məqsədini və təyinatını şərtləndirir. Aksessor öhdəliklərinə törəmə, qeyri-müstəqil və əlavə öhdəliklər də deyilir. Bu öhdəliklərə zaminlik, dəbbə pulu və s. ilə bağlı yaranan öhdəlikləri misal çəkmək olar. Girov da aksessor öhdəliyi hesab edilir[1]. Məsələn, sahibkar bankdan kredit alır və öz daşınar əmlakına olan mülkiyyət hüququnu girov qoyur. Əsas öhdəlik kredit öhdəliyidir. Girov isə bu öhdəliyin lazımınca icra edilməsini təmin edir.

İcranın subyekti kimi əlamətə görə öhdəliklər (şəxsi xarakterli öhdəliklər) iki cür olur: borclunun şəxsiyyəti ilə bağlı olan öhdəliklər; kreditorun şəxsiyyəti ilə bağlı olan öhdəliklər. Bu öhdəliklərin hər ikisi **şəxsi xarakterli öhdəliklərə** şamil edilir.

Borclunun şəxsiyyəti ilə bağlı olan öhdəliklər odur ki, bu öhdəliklər icranın yalnız şəxsən borclu tərəfindən həyata keçirilməsini və başqa şəxsə həvalə edilməməsini nəzərdə tutur. Bu cür öhdəliyə misal olaraq rəssamın şəkil (portret) çəkməsini, vəkalət alanın tapşırıq müqaviləsi əsasında tapşıranın tapşırığını şəxsən icra etməsini və s. göstərmək olar. Belə öhdəliklərdə borclunun başqası ilə əvəz edilməsi mümkün deyil və bu, yolverilməzdir. Borclunun ölümü və ya hüquqi şəxsin ləğv edilməsi ilə öhdəlik də xitam olunur, onun icrasının hüquqi varislik qaydasında həyata keçirilməsi istisna edilir, yəni hüquqi varislər (vərəsələr) belə öhdəliyi icra edə bilməzlər.

Kreditorun şəxsiyyəti ilə bağlı olan öhdəliklər odur ki, bu cür öhdəliklər kreditorun başqa birisilə əvəz edilməsinin mümkün olmamasını nəzərdə tutur. Bu öhdəliklərdə kreditorun dəyişdirilməsi yolverilməzdir. Məsələn, alimentlər haqqında, həyat və sağlamlığa vurulan zərərin əvəzinin ödənilməsi haqqında öhdəliklər bu cür öhdəliklərə misal ola bilər; aliment alan şəxs (kreditor) ölür və bu zaman onu başqa bir şəxslə əvəz etmək qeyri-mümkündür.

Şəxsi etimad təbiətli öhdəliklər şəxsi xarakterli öhdəliklərin yarımnövüdür. Bu cür öhdəliklər tapşırıq müqaviləsindən əmələ gəlir. Bu öhdəliklərin xüsusiyyəti ondan ibarətdir ki, həmin öhdəliklərin hər bir iştirakçısı hər hansı dəlil gətirmədən birtərəfli qaydada öhdəliyi ləğv edə bilər (MM-in 786-cı maddəsinin 1-ci bəndi). Tapşırıq öhdəliyinə görə, vəkalət alan tapşırığı şəxsən özü icra etməlidir. Bununla belə, tapşırıq öhdəliyinin tərəfləri, yəni vəkalət verən və ya vəkalət alan öldükdə, öhdəlik, bir qayda olaraq, ləğv edilir (MM-in 786-cı maddəsinin 2-ci bəndi). Öhdəliyin bu növü Roma hüququnun dili ilə **fidusiar öhdəlik** də adlanır.

Əmələ gəlmə əsaslarına görə öhdəliklər iki cür olur: müqavilə öhdəlikləri; müqavilədənkənar öhdəliklər. **Müqavilə öhdəlikləri** dedikdə, müqavilə əsasında yaranan öhdəliklər başa düşülür. Bu cür öhdəliklərin yaranmasını şərtləndirən müqavilələr normal iqtisadi dövriyyəni qaydaya salır.

Müqavilədənkənar öhdəliklər o öhdəliklərdir ki, onların yaranması birtərəfli əqdlərlə (hərəkətlərlə) və ya hüquqazidd hərəkətlərlə bağlı olur. **Birtərəfli əqdlərdən (hərəkətlərdən) əmələ gələn öhdəliklərə** aiddir: xüsusi mükafatlandırma vədi öhdəliyi; müsabiqə öhdəliyi; özgəsinin işini tapşırıqsız aparma öhdəliyi; oyunların və mərclərin keçirilməsindən əmələ gələn öhdəlik.

Hüquqazidd hərəkətlərdən əmələ gələn öhdəliklərə aiddir: əsassız varlanmadan əmələ gələn öhdəlik (kondikasiya öhdəliyi); ziyan vurmaq nəticəsində əmələ gələn öhdəlik (delikt öhdəliyi).

Əmələ gəlmə əsasına görə öhdəliklərin **qanundan əmələ gələn öhdəliklər** kimi növü fərqləndirilir (MM-in 8-ci bölməsi, 57-ci və 58-ci fəsillər). Bu cür öhdəliklər qanunun göstərişləri əsasında əmələ gəlir. Bu cür öhdəliyə aiddir: özgənin işlərini tapşırıqsız aparma; əsassız varlanma[1]. Yeri gəlmişkən, onu qeyd edək ki, delikt öhdəlikləri də qanundan əmələ gələn öhdəliklərdir. Ona görə ki, zərərvuran vurulmuş zərərin əvəzini öz arzusu və istəyi əsasında yox, qanunun göstərişinə əsasən ödəməyə borcludur.

Öhdəliklərin **pul öhdəlikləri adlı xüsusi xarakterli növü** fərqləndirilir (MM-in 439-cu maddəsi). Pul öhdəliklərini Roma hüququ da nəzərdə tutmuşdu[2].

Pul öhdəliklərinin obyektini borclunun pul verilməsinə yönələn hərəkəti təşkil edir. Bu **öhdəliklərin predmeti** kimi pul çıxış edir[3]. Pul dedikdə, həm nağdsız, həm də nağd pul başa düşülür. **Nağdsız pul** pul vəsaitinə (bank hesablarında və əmanətlərində olan pula), **nağd pul** isə kağız və metal pullara deyilir.

Pul öhdəliyi manatla ifadə olunur. Manat Azərbaycan Respublikasının pul vahididir. Pul öhdəliyinin xarici valyutada icra edilməsini qanun yasaqlayır. Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağandır (Konstitusiyanın 19-cu maddəsinin 3-cü hissəsi).

Bununla belə, pul öhdəliyinin xarici valyuta ilə icra olunmasına yol verilir. Belə ki, əgər pul öhdəliyində iştirak edən tərəflərdən biri xarici fiziki və ya hüquqi şəxs olarsa, tərəflər pul öhdəliyini xarici valyutada müəyyənləşdirə bilərlər (MM-in 439-cu maddəsinin 1-ci bəndi). Lakin vacibdir ki, bu, qanunla qadağan edilməsin.

Pul öhdəlikləri, bir qayda olaraq, əvəzli müqavilələrdən əmələ gəlir. Belə ki, əmlakın verilməsinə (məsələn, alqı-satqı müqaviləsi üzrə), iş görülməsinə (məsələn, podrat müqaviləsi üzrə), xidmət göstərilməsinə (məsələn, daşıma

[1] Girov münasibətlərinin aksessor öhdəlik olması barədə müəlliflərin mövqeyi ilə əlaqədar bax: *Ибрагим Велиев.* Основные формы залога в историческом развитии и проблемы залога недвижимости в современных условиях. Баку. 1998, с. 77-81. Azərbaycan müəlliflərindən olan İ.Vəliyev girov münasibətinin əsas öhdəlikdən tam asılı olmaması, «yüz faiz» asılı olmaması fikrini irəli sürür (yenə orada, s. 81).

[1] Qanundan əmələ gələn öhdəliklər Almaniya mülki qanunvericiliyində və hüquq doktrinasında nəzərdə tutulur. Azərbaycan Respublikasının MM-i (8-ci bölmə) də bu öhdəlik növünü fərqləndirir. Bundan əlavə, qanunsuz hərəkətlərdən yaranan öhdəliklər (delikt) də qanundan əmələ gələn öhdəlik kateqoriyasına aid edilir (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 338).

[2] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 257.

[3] Prof. Y.A.Suxanov pul öhdəliklərinin obyektini bu öhdəliklərin predmeti ilə qarışdırır. O, borclunun pulun verilməsinə yönələn hərəkətlərini səhvən öhdəliyin predmeti hesab edir (bax: Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханов.* М., 1999, с. 23).

müqaviləsi üzrə) və s. görə borclu şəxs kreditora pul ödəyir. Bu öhdəlik hüquqazidd hərəkətlərdən də yarana bilər. Məsələn, vurulmuş zərərin əvəzi pulla ödənilə bilər. Pul öhdəliyi əsassız varlanma ilə də bağlı olaraq yarana bilər. Belə ki, öhdəlikdən kənar ödənilmiş pul əsassız varlanma hesab edilir və o qaytarılmalıdır. Bundan əlavə, əsassız varlanma nəticəsində əldə edilən əmlakın özünü qaytarmaq mümkün olmadıqda, həmin əmlakın dəyəri pulla ödənilir. Məsələn, satış bazası əhaliyə satmaq üçün 1 saylı univermağın əvəzinə, səhvən 2 saylı univermağa 100 ədəd soyuducu göndərir. Soyuducular müştərilərə satılır. 2 saylı univermaq əsassız varlanan şəxs hesab edilir. Əsassız varlanma öhdəliyi yaranır. Bu öhdəliyə əsasən, 2 saylı univermaq, soyuducuların özünü qaytarmaq mümkün olmadığına görə onların dəyərini ödəyir.

Müasir dövriyyəyə **elektron formada bağlanan əqdlərdən irəli gələn öhdəliklər** də məlumdur. Xüsusi xarakterə malik olan bu öhdəliklər «Elektron imza və elektron sənəd haqqında» qanunla (2004), «Elektron ticarət haqqında» qanunla (2005), habelə Mülki Məcəllə ilə tənzimlənir (MM-in 386-cı maddəsinin 4-cü bəndi).

Elektron formada bağlanan əqdlərdən irəli gələn öhdəliklər dedikdə, informasiya sistemlərindən istifadə etməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi ilə bağlı yaranan öhdəliklər başa düşülür. Bu öhdəliklər satıcı (təchizatçı) və alıcı (sifarişçi) arasında yaranır. Həmin öhdəliklərə **elektron ticarət öhdəlikləri** də deyilir.

Natural öhdəlik də öhdəliyin bir növü sayılır. İcra edilməsi məcburi surətdə iddia (məhkəmə) qaydasında mümkün olmayan öhdəliyə **natural öhdəlik** deyilir. Bu öhdəlik növünün əsasını Qədim Roma xüsusi hüququna məlum olan «çılpaq hüquq» (nudum jus) təşkil edir. Məhkəmə müdafiəsi ilə təmin olunmayan və məcburi surətdə həyata keçirilə bilməyən hüquq «çılpaq hüquq» adlanır.

Natural öhdəlik Fransa, Hollandiya və s. ölkələrin qanunvericiliyinə məlumdur[1]. Azərbaycan Respublikasının da mülki hüququnda bu növ öhdəlik nəzərdə tutulmuşdur. Belə ki, oyunlar və ya mərclərlə bağlı olaraq yaranan borcun ödənilməsi natural öhdəlikdir; əgər belə borc ödənilməzsə, bu məsələ məcburi surətdə məhkəmə (iddia) qaydasında həll edilə bilməz. Ona görə ki, oyun və mərc üzrə heç bir tələb hüququ əmələ gəlmir (MM-in 1084-cü maddəsi).

§ 4. Öhdəliyin subyektləri

1. Öhdəlikdə şəxslər çoxluğu

MM-in öhdəliyin leqal anlayışını nəzərdə tutan 385-ci maddəsinin müəyyən etdiyi göstərişdən belə məlum olur ki, ümumi qaydaya görə, adətən, öhdəlikdə iki tərəf çıxış edir: kreditor; borclu şəxs. Bu tərəflərin ümumi adıdır. Lakin ayrı-ayrı öhdəlik növlərində həmin tərəflər xüsusi ada malik olurlar. Məsələn, alqı-satqı öhdəliyində alıcı-satıcı, icarə öhdəliyində icarəçi - icarəyə verən, əmlak kirayəsi öhdəliyi üzrə kirayəçi - kirayəyə verən, lizinq öhdəliyi üzrə lizinq alan - lizinq verən, françayzinq öhdəliyi üzrə françayz alan - françayz verən və s. tərəflərin xüsusi adlarıdır. Belə təsəvvür yaranır ki, öhdəlikdə bir kreditor

[1] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 517.

və bir borclu şəxs iştirak edir. Adətən, tərəflərdən hər birini bir şəxs təmsil edir.

Bununla belə, qeyd etmək lazımdır ki, **mülki qanunvericilik öhdəlikdə ikidən çox tərəfin iştirak etməsinə yol verir**. Belə ki, öhdəlikdə kreditor və ya borclu kimi eyni zamanda bir neçə şəxs iştirak edə bilər (MM-in 387-ci maddəsinin 1-ci bəndi). Başqa sözlə desək, öhdəlikdə kreditora qarşı bir neçə borclu şəxs dura bilər. Məsələn, iki vətəndaş avtomobili qaçırarkən avtomobil tamam dağılıb sıradan çıxır. Hər iki vətəndaş zərərin əvəzini mülkiyyətçiyə ödəməlidirlər. Bir neçə kreditor eyni bir borclu şəxsdən öhdəliyin icrasını tələb etmək hüququna malik ola bilərlər. Məsələn, ər-arvaddan hər birinin onların ümumi mülkiyyətində olan torpağın icarəsi üzrə haqq verilməsini tələb etmək hüququ vardır. Elə hallar da ola bilər ki, öhdəlikdə eyni zamanda bir neçə kreditor və bir neçə borclu şəxs çıxış edə bilər. Belə halda **öhdəlikdə şəxslər çoxluğu** haqqında söhbət gedə bilər. Bu cür öhdəliklər çoxsaylı şəxslərin iştirak etdikləri öhdəliklər adlandırılır. Həmin öhdəliklər iştirakçıların sayına görə mürəkkəb xarakterə malikdir.

Öhdəlikdə şəxslər çoxluğu anlayışını hələ Roma hüququ da tanıyırdı[1]. Bu anlayışla bir neçə kreditoru və ya bir neçə borclu şəxsi olan öhdəlik əhatə olunmuşdu. Bəzi xarici ölkələrin qanunvericiliyi də öhdəlikdə şəxslər çoxluğu anlayışını nəzərdə tutur. Məsələn, Almaniya Mülki Qanunnaməsinin ikinci kitabının 6-cı bölməsi «Borcluların və kreditorların çoxluğu» adlanır (§420-432)[2]. Bizim MM-də belə adlanır (25-ci fəsil). Öhdəlikdə şəxslər çoxluğu anlayışı Yaponiya qanunvericiliyinə də məlumdur. Yaponiya MM-in 427-465-ci maddələri həmin məsələni tənzimləyir. Sivilistika doktrinası öhdəlikdə şəxslər çoxluğuna bir neçə kreditorun və ya bir neçə borclu şəxsin iştirak etdiyi öhdəlik kimi anlayış verir[3].

Beləliklə, **çoxsaylı şəxslərin iştirak etdiyi öhdəliklər dedikdə, ya borclu tərəfində, ya kreditor tərəfində, ya da həm borclu, həm də kreditor tərəfində bir yox, bir neçə şəxsin iştirak etməsi başa düşülür**. Öhdəlikdə çoxsaylı şəxslərin kreditor və ya borclu şəxs tərəfində çıxış etməsi əlamətinə görə bu öhdəliklərin üç növü fərqləndirilir: passiv çoxluq; fəal çoxluq; qarışıq çoxluq.

Passiv çoxluq öhdəlikləri odur ki, bu cür öhdəliklərdə borclu tərəfində bir neçə şəxs iştirak edir. Bu, onunla bağlıdır ki, borclu şəxs öhdəliyin passiv iştirakçısıdır. Məsələn, dörd nəfər vətəndaş minik avtomobilini qaçırarkən avtomobil dağdan aşır və istifadə üçün tam yararsız vəziyyətə düşür. Belə halda zərər vurma nəticəsində öhdəlik (delikt öhdəliyi) yaranır. Bu öhdəlikdə borclu tərəfində avtomobili qaçıran dörd nəfər vətəndaş çıxış edirlər.

Fəal çoxluq öhdəlikləri odur ki, bu cür öhdəliklərdə kreditor tərəfində bir neçə şəxs iştirak edir. Bu, onunla əlaqədardır ki, kreditor öhdəliyin fəal tərəfi

[1] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 263; *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 129.

[2] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 6; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 331; *Brox H.* Allgemeines Schuldrecht. München. 1993, s. 257 ff.

[3] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983. с. 292.

hesab olunur. Məsələn, üç hüquqi şəxs öz vəsaitlərini payçılıq (hissə) əsasında birləşdirərək, yaşayış binası tikmək üçün tikinti təşkilatına (podratçıya) sifariş verir. Belə halda podrat öhdəliyi əmələ gəlir. Bu öhdəlikdə kreditor, yəni sifarişçi tərəfində üç hüquqi şəxs çıxış edir.

Qarışıq çoxluq öhdəlikləri odur ki, bu öhdəliklərdə həm kreditor, həm də borclu şəxs tərəfində bir neçə şəxs iştirak edir. Məsələn, yaşayış evi vəsiyyət əsasında atadan dörd nəfər vərəsəyə keçir. Həmin vərəsələr evi iki nəfər vətəndaşa — ər -arvada satırlar. Bu halda həm kreditor tərəfində, həm də borclu tərəfində bir neçə şəxs çıxış edir.

Çoxsaylı şəxslərin iştirak etdiyi öhdəliklər kreditorların irəli sürdüyü tələbin və borcluların daşıdığı vəzifənin həcminə görə iki növə ayrılır: paylı (hissə-hissə) öhdəliklər; birgə öhdəliklər.

Paylı (hissə-hissə) öhdəliklər odur ki, bu öhdəliklərdə kreditorlardan hər biri öhdəliyin icrasını öz payları (hissələri) həcmində tələb edir və yaxud borclu şəxslərdən hər biri öhdəliyi öz payları həcmində icra edir. Bu cür öhdəliklərdə borclulardan hər biri özü üçün, yalnız öz payına görə cavabdehdir. Hər bir kreditor isə ona məxsus olan müəyyən pay (hissə) həcmində öhdəliyin icrasını tələb edə bilər. Özü də öz payı həcmində öhdəliyi icra edən borclu üçün öhdəlik xitam edilir, qalan borclular üçün isə öhdəlik ləğv edilmir, öz qüvvəsini saxlayır.

Qeyd etmək lazımdır ki, vərəsəlik işlərində paylı öhdəliklərin praktiki əhəmiyyəti daha çoxdur. Belə ki, miras qoyan öldükdən sonra miras əmlak (miras aktivi və miras passivi) vərəsələr arasında bölüşdürülən zaman paylı öhdəliklər haqqında normalar vacib rol oynayır.

Paylı öhdəliklərin tərəfləri təmin edənlərin sayına görə üç növü fərqləndirilir: passiv çoxluq; fəal çoxluq; qarışıq çoxluq. **Passiv paylı çoxluqda** borclulardan hər biri öz payı (hissəsi) həcmində öhdəliyi icra edir, yəni kreditorun xeyrinə hərəkət edir. Məsələn, məhkəmə zərəri birlikdə vurmuş şəxslərin üzərinə zərərin əvəzini ödəmək vəzifəsini paylarla (hissələrlə) qoya bilər (MM-in 1113-cü maddəsinin 2-ci bəndi).

Fəal paylı çoxluqda kreditorların hər biri borcludan öhdəliyin icrasını öz payı (hissəsi) həcmində tələb etmək ixtiyarına malikdir. Məsələn, vəsiyyət yolu ilə atadan bərabər paylarla vərəsələrə (dörd nəfərə) keçən yaşayış evini onlar qonşuya 40 min manata satırlar. Onlardan hər birinin payı (40 000 : 4) 10 min manatdır. Vərəsələrdən hər biri borcludan (qonşudan) yalnız 10 min manat (öz payı həcmində) pulun verilməsini tələb edə bilər.

Qarışıq paylı çoxluqda kreditorlardan hər biri ona çatası payı (hissəni) tələb etmək hüququna malikdir, borclulardan hər biri isə öhdəliyi ona düşən pay (hissə) həcmində icra edir. Yuxarıdakı misalda dörd nəfər vərəsə yaşayış evini payları bərabər olan (yəni hər biri 10 min manat) dörd nəfər vətəndaşa satır. Hər bir vərəsə 10 min manat tələb edə bilər, hər bir borclu (vətəndaş) isə yalnız 10 min manat ödəməyə borcludur.

Mülki qanunvericilik **paylı çoxluğun prezumpsiyasını** müəyyən edir. Belə ki, əgər müqavilədə, qanuna və ya öhdəlik predmetinin bölünməzliyinə əsasən birgə (solidar) çoxluq əmələ gəlməzsə, onda paylı çoxluqdan söhbət gedə bilər. Deməli, müqavilədə və qanunda nəzərdə tutularsa və ya öhdəliyin

predmetini bölmək mümkün olmazsa, onda birgə (solidar) çoxluq yaranır. Belə təsəvvür yaranır ki, birgə çoxluğun əmələ gəlməsinin üç əsası var: müqavilə; qanun; öhdəliyin predmeti olan əmlakın paylara (hissələrə) bölünməsinin mümkün olmaması faktı (MM-in 493-cü maddəsinin 2-ci bəndi, 500-cü maddəsinin 2-ci bəndi). Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə, bütün öhdəliklər paylı öhdəlik hesab edilir, bir şərtlə ki, müqavilədə, qanunda birgə (solidar) öhdəlik nəzərdə tutulmasın və ya öhdəliyin predmeti olan əmlakın bölünməməsinə əsasən birgə (solidar) öhdəlik əmələ gəlməsin. Qeyd etmək lazımdır ki, paylı öhdəliklərdə kreditorların tələb hüquqları və ya borcluların öhdəlikləri (borcları) paylara bölünür. Birgə öhdəliklərdə isə tələb hüquqları və ya öhdəliklər[1] (borclar) paylara bölünmür. Yalnız bölünən öhdəliklər (yəni predmeti bölünən öhdəliklər) paylı öhdəlik ola bilər[2].

Birgə, yəni solidar öhdəlik (latınca «solidus» — tam, bütöv) odur ki, bu öhdəliyə görə kreditorlardan hər biri borcludan tam icranı tələb edə bilər və ya borclulardan hər birinə öhdəliyi tam icra etmək vəzifəsi həvalə oluna bilər. Bu öhdəliyin üç növü vardır: passiv birgə çoxluq; fəal birgə çoxluq; qarışıq birgə çoxluq.

Passiv birgə çoxluq bu öhdəliklərin ən geniş yayılmış növüdür. Əgər öhdəlikdə bir kreditora qarşı bir neçə birgə borclu şəxs durarsa, onda bu cür öhdəlik passiv birgə çoxluq adlanır. Bu öhdəlikdə borclunu təmsil edən tərəf **birgə borclular** adlanır. Birgə borclular o şəxslərdir ki, onlardan hər biri öhdəliyin tam icrasında iştirak etməyə borcludur, kreditor isə yalnız birdəfəlik icranı tələb etmək hüququna malikdir (MM-in 500-cü maddəsinin 1-ci bəndi). Bu münasibətlərdə hər şey kreditorun iradəsindən asılıdır. Belə ki, kreditor icranı istənilən borcludan tələb edə bilər. Şübhəsiz ki, onun icranı bütün borclulardan birlikdə tələb etmək ixtiyarı da vardır.

Kreditorun ixtiyarı var ki, o, **istənilən borcludan həm tam, həm də hissə-hissə icranı tələb etsin**. Bu, kreditorun arzusundan asılıdır. Məsələn qonşu (kreditor) bir otaqlı mənzili ər-arvada satır. Qonşu ər-arvaddan hər birinə mənzilin pulunun tam ödənilməsi barədə tələb irəli sürə bilər. O, ər və ya arvaddan hissə-hissə icranı da tələb edə bilər.

Birgə borclulardan biri (adətən, təminatlı və imkanlı olan) öhdəliyi tam icra edə bilər. Bu halda öhdəliyə xitam verilir. Yuxarıdakı misalda arvad mənzilin pulunu tam ödəyir və alqı-satqı öhdəliyi ləğv edilir. Bununla qalan borclular icradan azad edilir. Beləliklə, **borclulardan birinin öhdəliyi tam icra etməsi öhdəliyin ləğvinə səbəb olur.** Lakin birgə borclular arasında hüquqi əlaqə davam edir. Belə ki, qanun öhdəliyi tam icra etmiş borcluya çəkdiyi xərclərin əvəzinin ödənilməsi barədə qalan borclulara tələb irəli sürmək hüququ verir (MM-in 509-cu maddəsi). Bu hüquq geriyə tələb hüququ və ya reqres adlanır. **Reqres qaydasında tələb hüququ** dedikdə, birgə öhdəliyi tam icra etmiş borclunun qalan borclulara verdiyi tələb başa düşülür. Tələb çəkilən xərclərin borclular tərəfindən kompensasiya edilməsini nəzərdə tutur. Birgə borclular-

[1] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 632.

[2] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров.* М., 2004, с. 440.

dan hər biri çəkilən xərci öz paylarına mütənasib surətdə kompensasiya edir. Belə halda öhdəliyi tam icra etmiş borclunun payı çıxılır. O, yerdə qalan digər borclulara münasibətdə kreditor kimi çıxış edir. Özü də onlar kreditor rolunda çıxış edən borclu qarşısında öz payları həcmində məsuliyyət daşıyırlar. Deməli, bu cür reqres öhdəlik paylı öhdəlik hesab edilir. Məsələn, kənd sakini beş nəfər üzvü olan kəndli (fermer) təsərrüfatına qiyməti 50 min manat olan yük maşını satır. Üzvlər öz aralarında razılığa gəlirlər ki, yük maşını üçün ödənilməli olan pul məbləği bərabər paylarla (hissələrlə) verilsin. Hər bir üzvün payı 10 min (50 000 : 5) manat müəyyən edilir. Təsərrüfat üzvlərindən (birgə borclulardan) biri yük maşınının pulunu ödəyir. Bundan sonra o, kənd sakini olan kreditora (satıcıya) ödədiyi pul məbləğini kompensasiya etmək üçün hər bir təsərrüfat üzvünə (birgə borclulardan hər birinə) 10 min manat məbləğində — cəmi 40 min manat (onun öz payı çıxılır, yəni 50 min – 10 min.) məbləğində reqres tələb irəli sürür.

Bəzən elə hallar olur ki, birgə borclulardan biri ölür. Belə halda öhdəlikdə onu vərəsələr əvəz edirlər. Əgər bir vərəsə olarsa, kreditorun tələbini o icra edir. Vərəsələr bir neçə nəfərdən ibarət olduqda, onda onlardan hər biri kreditorun tələbini öz miras payına mütənasib surətdə icra etməyə borcludur. Bəzən də elə vəziyyət yaranır ki, birgə borclulardan birinin ödəniş qabiliyyəti olmur, yəni o müflisləşir. Birgə borclulardan digərləri isə ödəniş qabiliyyətli hesab edilir. Belə halda onlar ödəniş qabiliyyəti olmayan borcluya düşən payı öz aralarında mütənasib surətdə bölüşdürür və öhdəliyi icra edirlər.

Fəal birgə çoxluq öhdəlikləri odur ki, bu cür birgə öhdəliklərdə bir borclu və bir neçə kreditor çıxış edir. Bu öhdəliklərdə birgə kreditorlardan hər biri borcludan öhdəliyin tam icrasını tələb edə bilər. Öhdəlikdə kreditor tərəfi birgə kreditorlar təmsil edir. **Birgə kreditorlar** o şəxslərdir ki, onlardan hər birinin tam icranı tələb etmək hüququ vardır, bir şərtlə ki, borcluya yalnız birdəfəlik icra həvalə olunsun (MM-in 493-cü maddəsinin 1-ci bəndi).

Birgə kreditorların borcluya irəli sürdüyü tələblər **birgə tələblər** adlanır. Birgə tələblər o halda mövcud olur ki, tələb etmək hüququ birgə surətdə bir neçə şəxsə məxsus olsun[1]. Həmin tələblərin üç əmələ gəlmə əsası vardır: müqavilə; qanun; öhdəliyin predmetinin bölünməməsi faktı (MM-in 493-cü maddəsinin 2-ci bəndi).

Tələb verilən ana kimi borclu öhdəliyi öz arzusu ilə istənilən kreditora icra edə bilər. Məsələn, minik avtomobili vərəsəlik qaydasında atadan vərəsələrə keçir. Vərəsələr həmin avtomobili vətəndaşa satır. Belə halda vərəsələrdən (birgə kreditorlardan) hər biri vətəndaşdan (borcludan) avtomobilin pulunun verilməsini tələb edə bilər. Vətəndaş isə bu barədə tələb irəli sürülməmişdən əvvəl öz arzusu ilə avtomobilin pulunu vərəsələrdən birinə verə bilər.

Borclu şəxsin öhdəliyi kreditorlardan birinə tamamilə icra etməsi müəyyən hüquqi nəticələrə səbəb olur. Belə ki, bu, öhdəliyin xitam olunmasına səbəb olur. Bununla o, kreditor qarşısında məsuliyyətdən azad edilir. Bununla belə, birgə kreditorlar arasında hüquqi əlaqə davam edir. Borclu öhdəliyi tamamilə icra etdikdə, icranın predmetini əldə edən kreditor birgə kreditorlardan hər birinə düşən payı ödəyir. Yaranan bu yeni münasibətlərdə borcludan icra predmetini əldə edən şəxs borclu, yerdə qalan digər birgə kreditorlar isə kreditor rolunda çıxış edirlər. Özü də icra predmeti birgə kreditorlar arasında bərabər paylar əsasında bölünür. Tərəflərin razılığı ilə icra predmeti bərabər olmayan paylar əsasında da bölüşdürülə bilər. Bu halda paylı öhdəlik yaranır.

Bəzən də elə hallar yaranır ki, bu və ya digər səbəbə görə birgə kreditorlardan biri borclu barəsində tələbdən imtina edir. Məsələn, yuxarıdakı misalda birgə kreditorlar rolunda çıxış edən vərəsələrdən biri minik avtomobilinə olan payından imtina edir. Bu hal müəyyən hüquqi nəticələrə səbəb olur. Belə ki, birgə kreditorlardan birinin borclu barəsində tələbdən imtina etməsi borclunun həmin kreditora çatan hissəni ödəməkdən azad olunmasına səbəb olur (MM-in 496-cı maddəsi). Bu, onlar arasında bağışlama münasibətinin yaranmasına səbəb olur. Tələb hüququ bu münasibətin predmetini təşkil edir.

Birgə kreditorlardan biri ölə bilər. Bu, münasibətlərin ləğv olunmasına səbəb olmur. Belə hallarda ölən kreditorun yerini onun vərəsəsi tutur. Vərəsə həmin münasibətlərdə ölən kreditoru əvəz edir. Başqa sözlə desək, ölən kreditorun tələb hüququ onun vərəsələrinə keçir. Əgər onun bir vərəsəsi varsa, tələb hüququnun hamısı ona keçir. Əgər onun bir neçə vərəsəsi olarsa, onda vərəsələrdən hər birinə borca olan hüququn yalnız onun vərəsəlik payına uyğun hissəsi keçir.

Qarışıq birgə çoxluq, yəni qarışıq birgə öhdəlik odur ki, bu cür öhdəliklərdə bir neçə kreditor və ya bir neçə borclu iştirak edir. Məsələn, vərəsəlik qaydasında yük avtomobili əldə edən vərəsələr (dörd nəfər) həmin avtomobili kəndli (fermer) təsərrüfatının beş üzvünə satır. Həyatda bu öhdəliklərə az hallarda rast gəlmək olur. Qarışıq birgə öhdəliklərə birgə öhdəliklər və birgə tələblər haqqında qaydalar tətbiq edilir (MM-in 493-512-ci maddələri).

Hüquq ədəbiyyatında bəzi müəlliflər birgə və paylı öhdəliklərlə bərabər, həm də subsidiar (lat. «subsidiarius» – ehtiyat, yardımçı) məsuliyyəti şəxslər çoxluğunun müstəqil bir növü hesab edirlər[1]. Bu mövqe həqiqətdən uzaqdır. Göstərilən mövqenin əsassız və ağlabatan olmaması bir sıra səbəblərlə şərtlənir.

Birincisi, Azərbaycan Respublikasının MM-in 25-ci fəsli öhdəlikdə şəxslər çoxluğuna həsr edilmişdir. Bu fəsildə subsidiar öhdəliklər nəzərdə tutulmur. Subsidiar öhdəlik haqqında normalar MM-in başqa fəslində — 23-cü fəslində (453-cü maddədə) yerləşdirilmişdir. RF-in MM-də də bu məsuliyyəti nəzərdə tutan normalar 25-ci fəslə (399-cu maddə) daxil edilir ki, bu fəsil «Öhdəliyin pozulmasına görə məsuliyyət adlanır». Halbuki öhdəlikdə şəxslər çoxluğu MM-in «Öhdəliklərin icrası» adlı 22-ci fəslində (321-326-cı maddələr) nəzərdə

[1] Qanunverici səhvən «birgə tələb» anlayışı əvəzinə, «birgə səlahiyyət» anlayışı işlədir. Bu, onun qüsurlarından biridir.

[1] bax: Гражданское право. Учебник. Том 2 / Под ред. *Е.А.Суханова*. М., 1993, с. 17; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. СПб., с. 467; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 25; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 537.

tutulur[1]. Deməli, nə RF-in, nə də Azərbaycan Respublikasının qanunvericiliyi **subsidiar öhdəliyi öhdəlikdə şəxslər çoxluğu anlayışına şamil edir**. Avropa ölkələrinin mülki hüququ da bu mövqedə durur[2].

İkinci səbəb ondan ibarətdir ki, **subsidiar məsuliyyət çoxsaylı şəxslərin iştirak etdikləri öhdəliklərin hüquqi modelinə yerləşmir və uyğun gəlmir**. Subsidiar müqavilə öhdəliklərində elə əvvəlcədən şəxslər çoxluğu yaranmır. Belə halda subyektlər bir-birilə qarşılıqlı əlaqədə olan, lakin öz hüquqi təbiətinə görə müxtəlif iki növ öhdəliyin tərəfləri kimi çıxış edirlər. Bu öhdəliklərdən biri əsas, digəri isə aksessor (əlavə, törəmə) öhdəlikdir. Məsələn, vətəndaş bağ evi tikmək məqsədilə bankdan kredit alır və əsas öhdəlik yaranır (vətəndaş və bank arasında). Kreditin qaytarılmasını, yəni öhdəliyin icra edilməsini təmin etmək üçün vətəndaşın maddi imkana malik olan qohumlarından biri bank qarşısında zamin durur. Bu məqsədlə də onlar arasında müqavilə bağlanır və aksessor (əlavə) öhdəlik yaranır (vətəndaşın qohumu ilə bank arasında). Deməli, **əgər şəxslər çoxluğu yalnız bir öhdəliklə bağlıdırsa, subsidiar öhdəlik isə əsas müqavilə öhdəliyi ilə bağlıdır**.

Subsidiar məsuliyyət qanun əsasında da əmələ gələ bilər. Belə halda da öhdəlikdə şəxslər çoxluğu yaranmır. Məsələn, qanun müəyyən edir ki, tam ortaqlığın iştirakçıları ortaqlığın öhdəlikləri üzrə özlərinin əmlakı ilə birgə subsidiar məsuliyyət daşıyırlar (MM-in 75-ci maddəsinin 1-ci bəndi). Satış bazası tam ortaqlı müəssisəyə mal satır (göndərir). Belə halda müəssisə ilə baza arasında öhdəlik əmələ gəlir. Tam ortaqlı müəssisə malın pulunu ödəmir. Baza tam ortaqlıq iştirakçılarının özlərinə tələb irəli sürür. Belə halda ikinci bir öhdəlik yaranır ki, bu subsidiar öhdəlik adlanır (bütün iştirakçılarla baza arasında).

Müqavilədənkənar subsidiar öhdəliklərdə də şəxslər çoxluğu yaranmır. Belə halda da iki öhdəlik yaranır. Məsələn, on beş yaşlı yetkinlik yaşına çatmayan şəxs qonşunun əmlakını yandırır və ona ziyan vurur. Belə halda öhdəlik yaranır ki, bu, ziyan vurmaq nəticəsində əmələ gələn öhdəlik (delikt öhdəliyi) adlanır. Lakin zərərvuran şəxsin zərərin əvəzini ödəmək üçün kifayət qədər vəsaiti olmur. Buna görə də zərərin əvəzini onun valideyni ödəyir (MM-in 1104-cü maddəsinin 2-ci bəndi). Valideynlə zərərçəkən qonşu arasında öhdəlik yaranır ki, bu öhdəlik subsidiar öhdəlik adlanır. Bu öhdəlikdə valideyn borclu şəxs, qonşu isə kreditor rolunda çıxış edir.

Subsidiar məsuliyyət əlavə məsuliyyət deməkdir. Bu, elə bir hüquqi formadır ki, o, əsas öhdəlik üzrə icra predmetini almaqda (və ya zərərin əvəzini ödəməkdə) kreditorun mənafeyinin təmin olunmasına qarantiya verir. Əsas öhdəlik üzrə borclu şəxs öhdəliyi icra etmədikdə, başqa bir şəxs buna görə əlavə məsuliyyət daşıyır. Subsidiar məsuliyyətin mahiyyəti də məhz bundan ibarətdir. Bax, bu göstərilənlərə görə subsidiar öhdəliyi yalnız bir öhdəliklə bağlı olan şəxslər çoxluğuna aid etmək olmaz. Bu fikir bir çox müəlliflər tərəfindən də dəstəklənir[1].

Bəzi xarici hüquq sistemləri (məsələn, Almaniya, İsveçrə və Hollandiya) **birlikdə (müştərək) öhdəlik kimi xüsusi öhdəlik növü** nəzərdə tutur[2]. Bu öhdəliyə görə, bir neçə kreditor yalnız birlikdə borcluya tələb irəli sürə bilər və ya bir kreditor borcu almaq üçün yalnız bir dəfəyə bütün borclulara birlikdə müraciət edə bilər. Bizim mülki qanunvericilik bunu xüsusi öhdəlik növü kimi nəzərdə tutmur. Lakin bu növə real həyatda rast gəlmək olar. Belə ki, ümumi birgə mülkiyyətdə olan əmlak barəsində bu cür münasibətlər əmələ gələ bilər. Məsələn, həmin əmlak ər-arvadın, kəndli (fermer) təsərrüfatı üzvlərinin birgə mülkiyyətində ola bilər.

2. Üçüncü şəxslərin iştirak etdikləri öhdəliklər

Üçüncü şəxslər öhdəlik ilə bağlı yaranan münasibətlərdə çıxış edən subyektlərdən biridir. Öhdəliyin əsas subyektləri kreditor və borclu şəxsdir. Bu, əsas subyektlərin iştirak etdiyi öhdəlikdir. Həmin öhdəlik özünün subyektləri ilə, yəni ya kreditoru, ya da borclu şəxsi, ya da ki eyni zamanda həm kreditoru, həm də borclu şəxsi vasitəsilə digər hüquq münasibətilə bağlı ola bilər. Göstərilən bu münasibətdə üçüncü şəxslər adlı fiqur iştirak edirlər. Öhdəlikdə tərəf kimi, yəni həm kreditor, həm də borclu şəxs kimi iştirak etməyən şəxslərə **üçüncü şəxslər** deyilir (MM-in 387-ci maddəsinin 3-cü bəndi). O, öhdəliklə bağlı olan həmin münasibətin subyekti hesab olunur. Üçüncü şəxslərin subyekt rolunda çıxış etdikləri belə hüquq münasibəti **üçüncü şəxslərin iştirak etdiyi öhdəlik anlayışı** ilə əhatə olunur. Bu öhdəlik özünün subyekt tərkibi baxımından öhdəliklərin xüsusi xarakterli növü hesab olunur.

Azərbaycan Respublikası MM-inin nəzərdə tutduğu üçüncü şəxslərin iştirak etdikləri öhdəlik konstruksiyası Almaniya mülki qanunvericiliyinə də məlumdur. Özü də həmin analoji konstruksiyalar arasında həddən ziyadə yaxınlıq və oxşarlıq vardır[3].

Üçüncü şəxslərin iştirak etdikləri öhdəliklərin üç yarımnövü fərqləndirilir:

- üçüncü şəxslərin xeyrinə olan öhdəlik;
- icra olunmuş borcun üçüncü şəxslərə həvalə olunması üzrə öhdəlik;
- üçüncü şəxs tərəfindən icra edilən öhdəlik.

Üçüncü şəxslərin xeyrinə olan öhdəlik odur ki, bu öhdəliyə əsasən, borclu icranı müqavilədə adı göstərilmiş və ya göstərilməmiş üçüncü şəxsə, yəni öhdəliyin öz xeyrinə icrasını borcludan tələb etmək ixtiyarı çatan subyektə həyata keçirir (MM-in 403-cü maddəsinin 1-ci bəndi). Bu öhdəlik, bir qayda olaraq, müqavilələrdən yaranır. Belə ki, borclunun icranı üçüncü şəxsə həyata keçirməsi öhdəliyi və vəzifəsi müqaviləni bağlayan tərəflərin razılığı ilə müəyyənləşdirilir. Bu öhdəlik həm də qanunvericilikdə ifadə olunan göstəriş əsasın-

[1] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 569-573.

[2] *Л.Жюллио де ла Морандьер*. Гражданское право Франции. Часть 2. М., 1960, с. 630-634; Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров*. М., 2004, с. 438.

[1] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 353; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 365-367; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 330-331.

[2] bax: Гражданское и торговое право капиталистических государств. Учебник / Под ред. *Р.Л.Нарышкина*. М., 1984, с. 63.

[3] *Brox H.* Allgemeines Schuldrecht. München. 1993; *Westermann H.P., Bydlinski P.* BGB – Schuldrecht. Allgemeiner Teil. Heidelberg: Müller. 1999.

da da əmələ gələ bilər. Məsələn, qanun müəyyən edir ki, həyat sığortası müqaviləsi üçüncü şəxsin xeyrinə bağlana bilər. Yükü yola salanla daşıyıcı (nəqliyyat təşkilatı) arasında bağlanan daşıma müqaviləsindən üçüncü şəxsin (yük alanın) xeyrinə olan öhdəlik yaranır (MM-in 850-ci maddəsinin 1-ci bəndi). Belə hallarda qanun və müqavilə mürəkkəb hüquqi tərkib olmaqla həmin öhdəliklərin əmələ gəlmə əsası kimi çıxış edir.

Üçüncü şəxslərin xeyrinə olan öhdəlik müəyyən xüsusiyyətlərlə şərtlənir. Bu öhdəliyin **ən mühüm xüsusiyyəti** ondan ibarətdir ki, o, **çoxsaylı şəxslərin iştirak etdiyi öhdəlik (öhdəlikdə şəxslər çoxluğu) kateqoriyasına şamil edilmir**. Belə ki, üçüncü şəxs nə birgə, nə də paylı kreditor sayılır. O, öhdəliyin icrasını tamamilə və bütövlükdə özü üçün tələb edir. Üçüncü şəxs öhdəliyin icrasını borcludan tələb etmək hüququ olan **yeni kreditordur**. Bununla belə, o, bəzi hallarda vəzifə də daşıya bilər. Məsələn, daşıma müqaviləsindən yaranan öhdəlikdə yük alanın (üçüncü şəxsin) daşıma haqqını ödəmək vəzifəsi müəyyənləşdirilə bilər (MM-in 850-ci maddəsinin 1-ci bəndi)[1].

Üçüncü şəxslərin xeyrinə olan öhdəliyin əmələ gəlmə əsaslarından biri **sığorta müqaviləsidir**. Söhbət həyat sığortası müqaviləsi və fərdi qəza sığortası müqaviləsi kimi hüquqi konstruksiyalardan gedir. Həyat sığortası (şəxsi sığorta) müqaviləsi üçüncü şəxsin xeyrinə bağlana bilər. Bu cür öhdəliyə Azərbaycan Respublikası Dövlət Sığorta Şirkəti tərəfindən həyata keçirilən uşaqların sığortasını misal göstərmək olar. Bu sığorta həmin şirkətin təsdiq etdiyi «Uşaqların sığorta qaydaları» (10 iyun 1993-cü il) əsasında aparılır. Məsələn, valideynlər öz uşağını onların yetkinlik yaşına çatması üçün sığorta etdirirlər. Bu münasibətlərdə uşaq üçüncü şəxs kimi çıxış edir.

Bununla bərabər, fərdi qəza sığortası müqaviləsi üçüncü şəxsin xeyrinə bağlana bilər. Məsələn, firma öz vəsaiti hesabına işçilərini bədbəxt hadisələrdən sığortalayır. Bu cür sığorta Dövlət Şirkətinin təsdiq etdiyi «İdarə, müəssisə və təşkilatların vəsaiti hesabına işçilərin bədbəxt hadisələrdən sığortası qaydaları» (1 dekabr 1994-cü il) əsasında aparılır. Həmin şirkətin təsdiq etdiyi «Xarici ölkələrə turist səfərlərinə və ezamiyyətə gedən vətəndaşların bədbəxt hadisələrdən sığorta qaydaları» (24 noyabr 1995-ci il) əsasında müəssisə öz işçilərini sığortalayır. Bu misallarda işçilər üçüncü şəxs rolunda çıxış edirlər.

Üçüncü şəxslərin xeyrinə olan öhdəliyin əmələ gəlmə əsaslarından biri **bank əmanəti (depozit) müqaviləsidir**. Belə ki, bu müqavilə əsasında şəxs, üçüncü şəxs rolunda çıxış edən fiziki şəxsin və ya hüquqi şəxsin adına, onların xeyrinə əmanət qoya bilər. Bununla üçüncü şəxslər əmanətçi hüququ qazanırlar. Özü də o, bu hüququ ilk tələbini banka verdiyi və ya belə hüquqlardan istifadə etmək niyyətini başqa üsulla banka bildirdiyi andan əldə edir. Məsələn, Birləşmiş Universal Səhmdar Bankının (indiki «Kapitalbank»ın), Beynəlxalq Bankın mövcud qaydaları məqsədli uşaq əmanəti adlı əmanət növü nəzərdə tutur. Bu əmanət növünə görə, valideynlər öz uşaqlarının adına əmanət qoyurlar. Uşaqlar yetkinlik yaşına çatdıqda, həmin əmanəti götürə bilərlər. Bu əmanət növündə uşaqlar üçüncü şəxslər kimi çıxış edirlər.

Üçüncü şəxslərin xeyrinə olan öhdəliyin əmələ gəlmə əsaslarından biri **daşıma müqaviləsidir**. Yük göndərənlə daşıyıcı (nəqliyyat təşkilatı) arasında bağlanan bu müqavilə yükün təyinat yerində üçüncü şəxsə — yük alana verilməsini nəzərdə tuta bilər. Yük alan bu cür daşıma öhdəliyində üçüncü şəxs kimi çıxış edir[1]. Öhdəlik isə üçüncü şəxsin iştirak etdiyi öhdəlik hesab edilir.

Üçüncü şəxslərin xeyrinə olan öhdəliklərdə üçüncü şəxsin borcludan öhdəliyin icrasını tələb etmək hüququ əldə etməsi müəyyən şərtlə bağlıdır. Bu şərt isə ondan ibarətdir ki, **üçüncü şəxs həmin hüquqdan istifadə etmək niyyətini borcluya birbaşa bildirmiş olsun**. Məsələn, bank əmanəti müqaviləsi üzrə üçüncü şəxs bu niyyəti banka ilk tələbini verməsi yolu ilə və ya başqa üsullarla bildirə bilər (MM-in 952-ci maddəsinin 1-ci bəndi). Həyat sığortası və ya fərdi qəza sığortası müqavilələri üçüncü şəxsin xeyrinə bağlandıqda, bu niyyət üçüncü şəxsin və ya onun nümayəndəsinin (və ya qanuni nümayəndəsinin) razılıq verməsi yolu ilə bildirilir[2].

İcra olunmuş borcun üçüncü şəxslərə həvalə olunması üzrə öhdəlik üçüncü şəxsin iştirak etdiyi öhdəliklərin ikinci yarımnövü hesab edilir. Bu öhdəlik hüquq ədəbiyyatında və qanunvericilikdə çox vaxt **reqres öhdəlik** (latınca «regressus» — qayıtma, geriyə hərəkət) adlanır. Reqres öhdəlik geriyə tələb verilməsini nəzərdə tutur.

Reqres öhdəliklər öhdəlik hüquq münasibətləri arasında kifayət qədər geniş yayılmışdır. Bu öhdəlik əmlak münasibətlərinin ən müxtəlif sferalarında əmələ gəlir. Məsələn, yükgöndərənlə daşıyıcı (nəqliyyat təşkilatı) arasında yükün daşınması barədə müqavilə bağlanır. Daşınmalı olan yükün həcmcə çox olması daşıyıcını məcbur edir ki, o, digər daşıyıcıları bu işin həyata keçirilməsinə cəlb etsin. Cəlb edilmiş daşıyıcılar daşıma prosesində yükü itirirlər. Əsas daşıyıcı itirilmiş yükün dəyərini yük göndərənə ödəyir. Belə ki, yük göndərən qarşısında o, məsuliyyət daşıyır. Ödənişdən sonra o, cəlb edilmiş daşıyıcılara reqres tələb irəli sürür (MM-in 859-cu maddəsinin 4-cü bəndi). Onlar arasında əmələ gələn hüquq münasibəti reqres öhdəlik adlanır. Bu öhdəliyə görə, əsas daşıyıcı itirilmiş yükə görə yükgöndərənə verdiyi pul məbləğini cəlb edilmiş daşıyıcılardan alır. Həmin öhdəlikdə əsas daşıyıcı kreditor, cəlb edilmiş daşıyıcılar isə borclu şəxs rolunda çıxış edirlər. Cəlb olunmuş daşıyıcılar üçüncü şəxslərdir.

Başqa bir misalda yaşayış evinin tikilməsi barədə sifarişçi ilə əsas podratçı (tikinti təşkilatı) arasında podrat müqaviləsi bağlanır. İşin texniki cəhətdən mürəkkəb olması tələb edir ki, əsas podratçı digər tikinti təşkilatlarını (subpodratçıları) cəlb etsin. Subpodratçıların təqsiri nəticəsində xeyli tikinti materialı xa-

[1] Müəlliflərdən prof. Y.A.Suxanov qəti formada göstərir ki, üçüncü şəxs hər hansı bir vəzifə daşıya bilməz (bax: Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 32). Şübhəsiz ki, o, bu fikri söyləyərkən qanunun «öhdəlik tərəf kimi onda iştirak etməyən şəxslər (üçüncü şəxslər) üçün vəzifələr yaratmır» kimi göstərişinə əsaslanır (RF MM-in 308-ci maddəsinin 3-cü bəndi, AR MM-in 378-ci maddəsinin 3-cü bəndi). Bizim yuxarıda çəkdiyimiz misal hörmətli alimin söylədiyi fikrin çox da dəqiq olmadığını göstərir.

[1] Yük alanın hüquqi statusu, yəni üçüncü şəxs olub-olmaması barədə hüquq ədəbiyyatında fikirlər mübahisəlidir (bax: dərsliyin 3-cü cildinin «Nəqliyyat öhdəlikləri» adlı fəsli; Allahverdiyev S.S. Nəqliyyat müqavilələri. Bakı, 2005). Üçüncü şəxslərin xeyrinə bağlanan bank əmanəti və sığorta müqavilələri barədə bax: dərsliyin «Bank əmanəti müqaviləsi» və «Sığorta öhdəliyi» adlı fəsillərinə.

[2] Üçüncü şəxsin xeyrinə bağlanan müqavilənin əsas cəhətləri və xüsusiyyətləri barədə bu dərsliyin «Müqavilə hüququ» adlı fəslinə bax.

rab olaraq sıradan çıxır və tam yararsız vəziyyətə düşür. Əsas (baş) podratçı korlanan tikinti materiallarının əvəzini sifarişçiyə ödəyir. Bundan sonra o, subpodratçılara reqres tələb verir. Bununla onlar arasında reqres öhdəlik yaranır. Bu öhdəliyə görə, subpodratçılar xarab olmuş tikinti materiallarının əvəzini əsas podratçıya ödəməlidirlər. Həmin öhdəlikdə əsas podratçı kreditor, subpodratçılar isə borclu şəxs hesab edilir. Subpodratçılar üçüncü şəxslərdirlər.

Reqres öhdəlik ziyan vurmaq nəticəsində yaranan münasibətlər sferasında da zəruri funksiya yerinə yetirir. Qanun subyektin (zərərçəkənin) zərər vurmuş şəxsə reqres hüququnu ifadə edir (MM-in 1113-cü maddəsi). Müəssisənin işçisi olan sürücü müəssisəyə məxsus olan yük avtomobilini idarə edərkən öz əmək vəzifəsini yerinə yetirdiyi zaman vətəndaşın minik avtomobilini əzərək, onu tam yararsız hala salır, yəni onun əmlakına zərər vurur. Müəssisə qanuna görə, işçisinin (sürücünün) vurduğu zərərin əvəzini vətəndaşa ödəyir (MM-in 1099-cu maddəsinin 1-ci bəndi). Bundan sonra müəssisə vətəndaşa ödənilmiş əvəz miqdarında sürücüyə reqres tələb irəli sürür (MM-in 1114-cü maddəsinin 1-ci bəndi). Müəssisə ilə sürücü arasında reqres öhdəlik əmələ gəlir. Bu öhdəlikdə müəssisə kreditor, sürücü isə borclu şəxsdir. Sürücü müəssisənin tələbini ödəməlidir. Vətəndaşın əmlakına zərər vuran sürücü üçüncü şəxsdir.

Başqa bir misalda müstəntiq qanunsuz olaraq vətəndaşı cinayət məsuliyyətinə cəlb edir və onun barəsində həbs qətimkan tədbiri seçir. Bunun nəticəsində vətəndaş işindən (vəzifəsindən) kənarlaşdırılır və əldə edə biləcəyi mənfəəti və digər gəlirləri (məsələn, əmək haqqını və s.) itirir. Vətəndaşa əmlak (maddi) xarakterli zərər vurulur. Ona həm də mənəvi ziyan dəyir. Əməldə cinayət tərkibi olmamasına görə cinayət işinə xitam verilir. Vətəndaş ona vurulmuş ziyanın ödənilməsi barədə təhqiqat orqanına (müstəntiqə) tələb irəli sürür. Azərbaycan Respublikası (dövlət) dövlət büdcəsinin vəsaiti hesabına vətəndaşa vurulmuş zərəri tam həcmdə ödəyir (MM-in 1101-ci maddəsinin 1-ci bəndi). Bundan sonra Azərbaycan Respublikası müstəntiqə reqres tələb irəli sürür. Belə halda reqres öhdəlik yaranır ki, dövlət (Azərbaycan Respublikası) bu öhdəlikdə kreditor, müstəntiq isə borclu şəxs qismində çıxış edir. Qanunsuz olaraq vətəndaşı cinayət məsuliyyətinə cəlb edən müstəntiq üçüncü şəxsdir.

Çəkilən bu misallar əsasında reqres öhdəliyinin əsas cəhət və xüsusiyyətlərini müəyyən etmək olar. **Birincisi, reqres öhdəlik çoxsaylı şəxslərin iştirak etdikləri öhdəlik (öhdəlikdə şəxslər çoxluğu) hesab edilmir**. Belə ki, reqres öhdəliyi öhdəlikdə şəxslər çoxluğunun hüquqi modelinə yerləşmir.

İkincisi, reqres öhdəlik həmişə başqa, yəni **əsas öhdəliyin icrası ilə bağlı olaraq yaranır**. Bu, onu göstərir ki, həmin öhdəlik **törəmə xarakteri daşıyır**. O, əsas öhdəliyin icra edilməsi faktı əsasında əmələ gəlir[1]. Yuxarıdakı misallarda əsas daşıyıcı ilə yükgöndərən, sifarişçi ilə əsas podratçı, müəssisə ilə vətəndaş, dövlətlə vətəndaş arasındakı münasibətlər əsas öhdəlik, əsas daşıyıcı ilə cəlb edilmiş daşıyıcılar, əsas podratçı ilə subpodratçılar, müəssisə ilə sürücü, dövlətlə müstəntiq arasındakı münasibətlər isə reqres öhdəliyi hesab edilir.

[1] bax: *Новицкий И.Б.* Регрессные обязательства между социалистическими хозяйственными организациями. М., 1952, с. 89.

Üçüncüsü, reqres öhdəliyə **əsas öhdəliyə münasibətdə əlavə (aksessor) öhdəlik kimi baxmaq olmaz**. Reqres tələb verildiyi halda iki müstəqil öhdəlik əmələ gəlir ki, bu öhdəliklərin hər ikisi də subyekt tərkibinə (bir kreditora qarşı bir borclu şəxs durur) malikdir. Lakin həmin öhdəliklər bir-birilə sıx surətdə bağlıdır. Özü də **əsas öhdəliyin borclu şəxsi reqres öhdəliyin kreditoruna çevrilir**. Üçüncü şəxs isə bu öhdəliyin borclu şəxsi kimi çıxış edir. Deməli, reqres öhdəliyi aksessor (əlavə) öhdəlik kimi yox, **müstəqil öhdəlik kimi meydana gəlir**. Belə ki, aksessor öhdəliyinin taleyi əsas öhdəlikdən asılıdır. Əsas öhdəlik ləğv edilən kimi, aksessor öhdəliyi də xitam olunur. Reqres öhdəlik isə, əksinə, əsas öhdəlik ləğv edildikdə yaranır. Yalnız bu mənada o, əsas öhdəlikdən törəyir[1].

Dördüncüsü, reqres öhdəlik üzrə **borclunun ödəməli olduğu məbləğ əsas öhdəlik üzrə həyata keçirilən ödənişin məbləğindən çox ola bilməz**. Belə ki, zərərin əvəzini ödəmiş şəxs zərərvuran şəxsə yalnız ödənilmiş əvəz miqdarında geriyə tələb (reqres) irəli sürə bilər.

Beləliklə, **reqres öhdəlik odur ki, bu öhdəliyə görə, üçüncü şəxsin əvəzinə müəyyən pul məbləğini ödəmiş kreditor, ödədiyi pul məbləği həcmində üçüncü şəxsə reqres (geriyə tələb) irəli sürə bilər**. Müəyyən pul məbləğini ödəmiş kreditor **reqredient**, üçüncü şəxs isə **reqressat** adlanır.

Öhdəliyin üçüncü şəxs tərəfindən icrası üçüncü şəxslərin iştirak etdikləri öhdəliyin yarımnövlərindən biridir (MM-in 431-ci maddəsi). Özü də dərhal qeyd etməliyik ki, şəxsi xarakterli öhdəliklərdə öhdəliyi yalnız borclunun özü icra edə bilər. Məsələn, nəşriyyat yazıçıya roman yazmağı sifariş verir və ya teatr aktyor ilə müəyyən rolun oynanılması barədə müqavilə bağlayır. Üçüncü şəxs belə öhdəlikləri icra edə bilməz.

Ümumi qayda belədir ki, borclu öhdəliyi şəxsən icra etməlidir. Belə ki, çox vaxt öhdəliyin icrası yalnız borclunun özündən asılı olur. Bundan əlavə, borclu MM-dən, müqavilədən və ya öhdəliyin təbiətindən irəli gəldiyi hallarda da öhdəliyi şəxsən özü icra etməlidir. Digər hallarda isə öhdəliyi borclunun əvəzinə, üçüncü şəxs də yerinə yetirə bilər. Beləliklə, üçüncü şəxsin iştirak etdiyi öhdəlik əmələ gəlir.

Öhdəliyin üçüncü şəxs tərəfindən icrasının kreditor üçün təfavütü yoxdur. Kreditor üçün əsas və vacib məsələ odur ki, təki öhdəlik lazımınca icra edilsin. Ona görə də **öhdəliyin üçüncü şəxs tərəfindən icra edilməsinə kreditorun razılıq verməsi tələb olunmur**. Buna borclunun da razılıq verməsi tələb olunmur (MM-in 431-ci maddəsinin 1-ci bəndi). Beləliklə, öhdəliyin icrasında üçüncü şəxs iştirak edir. Elə bir şəxs ki, o, həmin öhdəlik hüquq münasibətinin iştirakçısı hesab edilmir. Buna görə üçüncü şəxs belə halda öhdəliyin tərəfinə çevrilmir. Belə ki, kreditora münasibətdə o, yalnız faktiki hərəkətlər yerinə yetirir. Məsələn, borclunun əvəzinə pul ödəyir, əmlak verir, iş görür, xidmət göstərir və s. Üçüncü şəxsi öhdəliyin icrası üçün borclu şəxs tərəfindən cəlb olunmuş şəxs hesab etmək olmaz. Buna görə də o, borclu tərəfindən öhdəliyin icrasının həvalə edildiyi şəxs sayılmır. Belə ki, öhdəliyin icrasına borclu tərəfindən cəlb edilmiş üçüncü şəxs dedikdə, borclunun öhdəliyin icrasını həva-

[1] bax: *Новицкий И.Б., Лунц Л.А.* Общее учение об обязательстве. М., 1950, с. 215.

lə etdiyi üçüncü şəxs başa düşülür[1]. Bizə belə fikir söyləməyə o əsas verir ki, qanunda nə üçüncü şəxsin borclu tərəfindən öhdəliyin icrası üçün cəlb edilməsi, nə də ona borclunun öhdəliyin icrasını həvalə etməsi barədə göstəriş vardır. Digər tərəfdən qanun birbaşa müəyyən edir ki, bir az əvvəldə qeyd etdiyimiz kimi, öhdəliyin üçüncü şəxs tərəfindən icrasına borclunun razılığı tələb edilmir. Odur ki, müqavilə öhdəliyin üçüncü şəxs tərəfindən borclunun əvəzinə icrasının əsası ola bilməz. Dediklərimizdən belə qənaətə gələ bilərik ki, üçüncü şəxs borclunun əvəzinə öhdəliyi könüllü olaraq icra edir; bu isə onu söyləməyə əsas verir ki, üçüncü şəxsin öhdəliyi icra etməsi **birtərəfli əqddir**. Qeyd etməliyik ki, praktiki olaraq bütün dünya ölkələrinin qanunvericiliyi öhdəliyin istənilən üçüncü şəxs tərəfindən icra edilməsinə yol verir[2], bu şərtlə ki, öhdəliyin icrası borclunun şəxsi keyfiyyətləri ilə bağlı olmasın[3].

Üçüncü şəxsin könüllü surətdə borclunun əvəzinə öhdəliyi icra etməsi həmin öhdəliyin xitamına səbəb olur. Buna görə də borclu kreditor qarşısında məsuliyyət daşımır.

Bununla bərabər, üçüncü şəxs öhdəliyin icrasına borclu şəxs tərəfindən cəlb oluna bilər; bu zaman borclu öhdəliyin icrasını ona həvalə edir. Lakin bunun üçün hüquqi əsas, yəni **borclu ilə üçüncü şəxs arasında müqavilə bağlanması tələb edilir;** müqavilədə borclunun üçüncü şəxs tərəfindən öhdəliyin icra edilməsi üçün məsuliyyət daşıması nəzərdə tutula bilər. Amma belə məsuliyyəti qanunun özü də müəyyənləşdirə bilər. Məsələn, mal göndərmə müqaviləsi üzrə borclu (alıcı) üçüncü şəxslər (yəni mal alanlar) tərəfindən ödənişin həyata keçirilməməsinə görə məsuliyyət daşıyır (MM-in 637-ci maddəsinin 2-ci bəndi). Daşıma öhdəliyi zamanı da belə vəziyyət yaranır. Belə ki, əgər daşıyıcı daşımanı həyata keçirmək üçün başqa daşıyıcılar cəlb edərsə, yük sahibi qarşısında onlar yox, məhz daşıyıcı məsuliyyət daşıyır (MM-in 859-cu maddəsinin 4-cü bəndi).

Göstərilən hallarda borclunun əvəzinə öhdəliyi icra edən şəxsə əlavə borclu qismində çıxış edən şəxs kimi baxmaq olmaz. Belə ki, kreditorla üçüncü şəxs hər hansı bir hüquq münasibətinə daxil olmur. Bu səbəbdən kreditor qarşısında borclu şəxs kimi yenə də ilkin borclu qalır. Deməli, üçüncü şəxsin hərəkətləri üçün kreditor qarşısında borclu məsuliyyət daşıyır. Əgər borclu öhdəliyin icrasını müqavilə əsasında üçüncü şəxsə həvalə edərsə, o, həmin öhdəliyin tam icrasına görə kreditor qarşısında cavabdehdir[4]. Məsələn, mal göndərmə (tədarük) müqaviləsi bağlanarsa, məhsulu alıcıya çatdırmaq vəzifəsi nəqliyyat təşkilatına, yəni daşıyıcıya həvalə oluna bilər. Öhdəliyin icrası pozulduğu halda kreditor nəqliyyat təşkilatına (daşıyıcıya) pretenziya (tələb) irəli sürə bilməz. Ona görə ki, borclu icranın həvalə edildiyi üçüncü şəxslər tərəfindən öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün kreditor qarşısında məsuliyyət daşıyır. Bununla belə, mövcud qanunvericilik kreditor qarşısında öhdəliyi icra edən üçüncü şəxsin bilavasitə məsuliyyətini müəyyən edə bilər. Bu cür birbaşa məsuliyyət, məsələn, hesablaşma haqqında qanunvericilikdə nəzərdə tutulmuşdur. Belə ki, ödəyicinin tapşırığını icra etmək üçün bank digər bankları da cəlb edə bilər. Cəlb edilmiş banklar, yəni üçüncü şəxslər tapşırığın icra prosesində hesablaşma əməliyyatlarının aparılması qaydalarını poza bilərlər. Belə halda məhkəmə məsuliyyəti həmin bankın üzərinə qoya bilər (MM-in 976-cı maddəsinin 2-ci bəndi).

Öhdəliyin üçüncü şəxs tərəfindən icrası zamanı borclu faktiki olaraq başqası ilə əvəz edilir. Bu, çox vaxt kreditor üçün arzuolunmaz olur. Belə ki, öhdəliyi icra edən subyektin şəxsi keyfiyyətləri kreditor üçün mühüm əhəmiyyət kəsb edir. Lakin qanun müəyyən edir ki, kreditor bütün hallarda üçüncü şəxsin təklif etdiyi icranı qəbul etməyə borcludur, bir şərtlə ki, borclu şəxs bunun əleyhinə olmasın. Əgər borclu bunun əleyhinə olarsa, onda kreditor üçüncü şəxsin təklif etdiyi icranı qəbul etməyə bilər (MM-in 431-ci maddəsinin 2-ci bəndi).

Elə öhdəliklər vardır ki, bu öhdəliklərə əsasən, borcluya məxsus olan əşyaya **kreditor məcburi olaraq icra yönəldə bilər**. Məsələn, girov öhdəliyində girov saxlayan (kreditor), borclu girovla təmin edilmiş öhdəliyi icra etmədikdə, tələbi girov qoyulmuş əşyaya yönəldir. Elə hesab edək ki, vətəndaş minik avtomobilini banka girov qoyur və ondan kredit alır. Vətəndaş krediti qaytarmır, yəni girovla təmin olunmuş öhdəliyi icra etmir. Belə halda girov saxlayan (bank), yəni kreditor tələbi minik avtomobilinə yönəldir. Bank avtomobilin satılmasını tələb edir. Belə halda vətəndaşın minik avtomobilinə olan mülkiyyət hüququnu itirmək təhlükəsi yaranır. Üçüncü hər hansı bir şəxs (məsələn, səxavətli kommersant) vətəndaşın əvəzinə krediti banka qaytarır, yəni girovla təmin edilmiş öhdəliyi icra edir. Bundan sonra tələb hüququ girov saxlayandan (kreditor olan bankdan) üçüncü şəxsə (kommersanta) keçir. Üçüncü şəxs vətəndaşa (borcluya) münasibətdə kreditor rolunda çıxış edir. Bu halda girov öhdəliyinə xitam verilmir və bu öhdəlik reqres öhdəliklə əvəz edilmir. Bu öhdəliyin özü saxlanılır. Onun yalnız subyekt tərkibi dəyişir. Belə ki, girov saxlayan bankın (kreditorun) yerini bu öhdəlikdə üçüncü şəxs (yeni kreditor) tutur. Bu halda öhdəliyin yalnız bir tərəfi başqası ilə əvəz edilir. Bu isə o deməkdir ki, öhdəlikdə şəxslərin dəyişməsi baş verir (MM-in 26-cı fəsli).

3. Öhdəlikdə şəxslərin dəyişməsi

Hər şeydən əvvəl, qeyd edək ki, öhdəlikdə şəxslərin dəyişməsi anlayışı bir çox xarici mülki hüquq sistemlərinə məlum olan anlayışdır[1]. Hollandiya MM-in öhdəlik hüququnun ümumi hissəsinə həsr edilən altıncı kitabının 2-ci bölməsi «Tələb və borcların keçməsi və tələblərdən imtina» adı altında öhdəlikdə şəxslərin dəyişməsi anlayışını nəzərdə tutur[2]. Almaniya Mülki Qanunnaməsinin «Öhdəlik hüququ» adlı ikinci kitabının dördüncü bölməsi («Tələbin güzəşti», §398-413) və beşinci bölməsi («Borcun köçürülməsi», §414-419) öhdəlik-

[1] Комментарий к Гражданскому кодексу Российской Федерации. Часть 1 /Отв. ред. *Д.Егоров, А.П.Сергеев*. М., 2005, с. 624.

[2] Гражданское и торговое право зарубежных стран. Учебное пособие / Отв. ред. *В.В.Безбах, В.К.Пучинский*. М., 2004, с. 298.

[3] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров*. М., 2004, с. 447.

[4] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 221.

[1] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 9.

[2] yenə orada, s. 6; Германское право. Гражданское уложение. М., 1996; *А.Жалинский, А.Рёрихт*. Введение в немецкое право. М., 2001, с. 331.

də şəxslərin dəyişməsi münasibətlərini tənzimləyir. RF-in MM-inin 24-cü fəsli «Öhdəlikdə şəxslərin dəyişməsi» adlanır. Bu fəsil özündə «Kreditorun hüquqlarının başqa şəxsə keçməsi» və «Borcun köçürülməsi» adlı iki bölməni əhatə edir[1]. Azərbaycan Respublikasının MM-i Almaniyanın Mülki Qanunnaməsinə uyğun, olaraq öhdəlikdə şəxslərin dəyişməsi üzrə münasibətləri tənzimləmək üçün 194-202-ci maddələrdə və 26-cı fəsildə ifadə olunan normaları iki məsələyə həsr edir: «Tələblərin güzəşti»; «Borcun köçürülməsi»[2]. Öhdəlikdə şəxslərin dəyişməsi qaydasını hələ Roma hüququ da tanıyırdı[3].

Qeyd etmək lazımdır ki, öhdəliklə bağlı münasibətlərdə üçüncü şəxsin iştirak etməsilə öhdəliyin tərəfləri — kreditor və borclu şəxs onunla, yəni üçüncü şəxslə əvəz olunmur. Bu, o deməkdir ki, üçüncü şəxsin iştirakı öhdəliyin subyekt tərkibini dəyişdirmir. Bununla bərabər, müəyyən hallarda öhdəlikdə həm kreditor, həm də borclu şəxs dəyişə və başqası ilə əvəz oluna bilər. Qanun buna yol verir. Bu, onunla izah olunur ki, **öhdəliyin mahiyyəti tərəflərin şəxsi əlaqələri ilə yox, onların əmlak mənafeyi ilə şərtlənir**[4]. Kreditor və borclunun əmlak mənafeyi tələb etdikdə, öhdəliyin subyekt tərkibi dəyişə bilər. Lakin öhdəliyin özü belə halda saxlanılır, ləğv edilmir. Bu, nəinki qanunla yol verilən, həm də geniş yayılmış haldır. Almaniya hüquq ədəbiyyatında göstərilir ki, həmin halın yaranmasına həyatdakı praktiki ehtiyaclar səbəb olmuşdur. Professor D.Medikusun fikrincə, öhdəlikdə şəxslərin dəyişməsi mühüm təsərrüfat əhəmiyyətinə malik olan haldır[5]. Öhdəlikdə şəxslərin dəyişməsi konstruksiyasının Yaponiyanın iqtisadi həyatında mühüm rol oynaması göstərilir[6].

Beləliklə, **öhdəliyin özünün saxlanması və ləğv edilməməsi ilə onda iştirak edən tərəflərin — kreditorun və borclu şəxsin başqa biri ilə əvəz olunmasına öhdəlikdə şəxslərin dəyişməsi deyilir**. Belə halda əvvəlki tərəf öhdəlik münasibətlərindən çıxır, onun yerini başqası tutur. Öhdəlikdən çıxan tərəfin bütün hüquq və vəzifələri öhdəlik münasibətlərinə daxil olan yeni subyektə keçir. Bununla hüquq varisliyi yaranır. Amma öhdəliyin özü saxlanılır, yəni ləğv edilmir.

---

[1] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 629-639.

[2] Yeni MM «borcun köçürülməsi» əvəzinə, «öhdəliklərin verilməsi» anlayışını işlədir. Bunu münasib ifadə hesab etmək olmaz. Rus dilində «perevod dolqa» ifadəsindən istifadə olunur. Azərbaycan dilində bu ifadəyə onun qarşılığı kimi «borcun köçürülməsi» ifadəsi uyğun gəlir. 1964-cü il MM-də (217-ci maddə) məhz «borcun köçürülməsi» ifadəsindən istifadə olunurdu.

[3] bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 125.

[4] Roma hüquqşünasları isə hələ qədim zamanlarda tərəflərin şəxsi əlaqələrini və münasibətlərini öhdəliyin mahiyyəti hesab edərək, bunun əksi olan fikir irəli sürürdülər. Onların fikrincə, öhdəlik dəqiq olaraq müəyyən edilmiş subyektlər arasında əmələ gəlir və bu baxımdan o, şəxsi xarakter daşıyır. Buna görə də Roma hüququna görə, öhdəliyin subyekt tərkibinin dəyişməsi öhdəliyin xitamına və yeni öhdəliyin yaranmasına səbəb olurdu. Subyektlərin bu cür dəyişməsi novasiya adlanır. Mövcud qanunvericiliyə görə, öhdəlikdə şəxslərin dəyişməsi ilə novasiya (öhdəliyin birinin ləğv edilməsi və başqa öhdəliyin yaranması) halına səbəb olmur, yəni öhdəlik ləğv edilmir. İngilis-amerikan hüquq sistemlərində borclunun əvəz edilməsinin yalnız novasiya ilə həyata keçirilməsi haqqında qayda müəyyən edilir.

[5] *Medicus D.* Schuldrecht I. Allgemeiner Teil. München. 1999, s. 339.

[6] *Сакаэ Вагацума, Тору Арииидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 323.

Söylədiklərimizdən belə nəticəyə gələ bilərik ki, öhdəliyin mövcud olduğu dövrdə onun subyekt tərkibinin dəyişməsi mümkündür. Belə ki, ilkin kreditorun və ya ilkin borclunun əvəzinə, öhdəlik hüquq münasibətinə yeni iştirakçı daxil ola bilər. Bununla öhdəlikdə şəxslər dəyişdirilir, başqa şəxslərlə əvəz olunur.

Öhdəlikdə şəxslərin dəyişdirilməsi iki halda baş verir: universal hüquq varisliyi zamanı; sinqulyar (qismən) hüquq varisliyi əsasında. **Universal hüquq varisliyi əsasında öhdəlikdə şəxslərin dəyişməsi halına** hüquqi şəxslərin yenidən təşkil edilməsində və əmlakın vərəsəlik qaydasında vərəsələrə keçməsində rast gəlmək olar. Belə halda hüquq varisinə yenidən təşkil olunan və ya ölən şəxsin bütün hüquq və vəzifələri məcmu halında, o cümlədən konkret öhdəlik (məsələn, alqı-satqı, podrat, daşıma və s. öhdəliklər) üzrə hüquq (və ya vəzifə) da keçir. Yeni iştirakçının, yəni hüquq varisinin konkret öhdəliyə daxil olması üçün hər hansı bir xüsusi sazişin bağlanması tələb olunmur. Məsələn, ata minik avtomobili almaq məqsədilə qabaqcadan onun pulunu satıcıya ödəyir. Lakin avtomobili almamış o ölür. Ölməmişdən əvvəl atanın satıcıdan avtomobilin verilməsini tələb etmək hüququ yaranmışdı. Bu tələb hüququ onun vərəsələrinə keçir, yəni vərəsələr avtomobilin verilməsini satıcıdan tələb etmək hüququna malik olur. Sağlığında atanın qonşuya müəyyən pul məbləğində borcu olur və onun üçün həmin borc məbləğini ödəmək vəzifəsi əmələ gəlir. Ata öldükdən sonra onun borcu ödəmək vəzifəsi də vərəsələrə keçir.

Sinqulyar (qismən) hüquq varisliyi əsasında öhdəlikdə şəxslərin dəyişməsi zamanı hüquq varisinə bütün əmlak (hüquq və vəzifə) yox, yalnız konkret öhdəlik üzrə hüquq və vəzifələr keçir. Bu qaydada öhdəlikdə şəxslərin dəyişməsi, ümumi qaydaya görə, xüsusi saziş (əqd) əsasında həyata keçirilir. Bu saziş tələbin güzəşti (tələb hüququnun verilməsi) və borcun köçürülməsi adlanır.

Deməli, öhdəlikdə şəxslərin dəyişməsi özündə iki anlayışı birləşdirir: tələbin güzəşti anlayışını; borcun köçürülməsi anlayışını. MM-in 194-202-ci maddələrində ifadə olunan normalar tələbin güzəşti üzrə, onun 26-cı fəslinin 2-ci paraqrafına daxil olan normalar (522-526-cı maddələr) borcun köçürülməsi üzrə münasibətləri qaydaya salır. Öhdəlikdə kreditorun başqa birisi ilə əvəz olunmasına **tələb hüququnun güzəşti (tələbin güzəşti)** deyilir. Əgər öhdəlikdə borclu şəxsin yerini başqa birisi tutarsa, onda bu cür qaydada şəxslərin dəyişməsi **borcun köçürülməsi** və ya **öhdəliyin verilməsi** adlanır.

Öhdəlikdə şəxslərin dəyişməsi təkcə tərəflərin sazişi, yəni tələbin güzəşti və borcun köçürülməsi kimi xüsusi xarakterli sazişlər (əqdlər) əsasında həyata keçirilmir. Bu, həm də qanunda birbaşa nəzərdə tutula bilər. Belə halda qanunda ifadə olunan göstəriş əsasında öhdəlikdə şəxslər dəyişdirilir, yəni kreditorun öhdəlik üzrə tələbləri qanun əsasında başqa şəxsə güzəşt edilir: bu kimi hallara aiddir:

- **universal hüquq varisliyi** (söhbət, hər şeydən əvvəl vərəsəlikdən gedir. Belə ki, miras qoyan öldükdə onun tələb hüquqları, məsələn, hər hansı şəxsdən borcun qaytarılmasını tələb etmək hüququ vərəsələrinə keçir);
- **zaminlik** (zamin borclunun əvəzinə kreditora borcu qaytarır; bu zaman borcludan kreditorun tələb etmək hüququ zaminə keçir – MM-in 475-ci maddəsinin 1-ci bəndi);
- **üçüncü şəxsin kreditoru təmin etməsi** (hər hansı üçüncü şəxs borclu-

nun əvəzinə kreditora borcu ödəyir; bu zaman kreditorun borcludan tələb etmək hüququ üçüncü şəxsə keçir – MM-in 431-ci maddəsinin 3-cü bəndi;

• **birgə borclulardan birinin öhdəliyi tam icra etməsi** (kreditor qarşısında birgə öhdəliyi icra edən birgə borcluya kreditorun digər borclulardan tələb etmək hüququ keçir – MM-in 509-cu maddəsinin 3-cü bəndi);

• qanunda nəzərdə tutulan digər hallarda.

Kreditorun tələblərinin qanun əsasında başqa şəxsə güzəşt edilməsi hallarını nəzərdə tutan bu siyahı qəti xarakterə malik olmayan təxmini siyahıdır. Belə ki, mümkün olan başqa hallar da yarana bilər.

Tələbin güzəşti öhdəlikdə şəxslərin dəyişməsinin mümkün olan iki halından biridir. Tələbin güzəştinin özü iki formada həyata keçirilir:

• sessiya (latınca «cessio» — vermək, güzəşt etmək) formasında;

• subroqasiya (latınca «subroqare» — əvəz etmək, tamamlamaq, doldurmaq).

Sessiya tələbin güzəşt edilməsinin əsas forması hesab olunur. Bu anlayışı hələ Roma hüququ da tanıyırdı[1]. Roma hüququ sessiyanı tələb hüququnun bir şəxsdən digərinə keçməsi kimi nəzərdə tuturdu. Bu hüquq sessiyanın fəal sessiya və passiv sessiya kimi iki növünü fərqləndirirdi. Fəal sessiya öhdəlikdə kreditorun başqası ilə əvəz edilməsini nəzərdə tuturdu. O, «tələblərin verilməsi» adı ilə də əhatə olunurdu. Passiv sessiyaya özgəsinin borcunu kreditorun öz öhdəsinə götürməsi kimi anlayış verilirdi[2]. Xarici ölkələrin (məsələn, Almaniyanın, İsveçrənin, Hollandiyanın, İtaliyanın və s.) qanunvericiliyi də sessiya anlayışını tanıyır.

Sessiya dedikdə, hüquqi fakt əsasında sedentdən sessionara hüququn verilməsi (güzəşti) aktı başa düşülür. **Sedent** (latınca «cedere» — vermək) dedikdə, öhdəlikdə tərəf kimi çıxış edən əvvəlki (köhnə) kreditor başa düşülür. O, öhdəlikdən irəli gələn tələb hüququnu sessionara verir, ona güzəşt edir. Öhdəlikdə yeni kreditor rolunda çıxış edən şəxs **sessionar** (fransızca «cessionnaire» — tələb hüququnun keçdiyi şəxs) adlanır. O, sedentdən tələb hüququnu əldə edən yeni kreditordur. Deməli, sedent öhdəliyin əvvəlki kreditoru, sessionar isə yeni kreditoru hesab edilir. Almaniya hüquq doktrinasında da sessiyaya analoji anlayış verilir: sessiya müqavilə əsasında tələb hüququnun sedentdən sessionara verilməsidir[3].

Sedentdən sessionara tələb hüquqları hüquqi fakt əsasında verilir. Hüquqi fakt dedikdə, birincisi, **sedentlə sessionar arasında bağlanan əqd** başa düşülür. Bu cür əqd kimi alqı-satqı, bağışlama, dəyişmə, faktorinq və s. mülki-hüquqi müqavilələr başa düşülür[4]. Özü də bu əqd hüquqi təbiətinə görə həm əvəzli, həm əvəzsiz və ya həm birtərəfli, həm ikitərəfli və yaxud da həm real, həm də konsensual əqd ola bilər[1]. Bu əqdlərin predmetini tələb hüquqları təşkil edir. Konkret misal çəkməklə bu məsələləri aydınlaşdıraq. Vətəndaş öz qonşusuna müəyyən məbləğdə borc pul verir və bununla onlar arasında öhdəlik (borc öhdəliyi) yaranır. Lakin borc verən qonşu uzun müddətə xarici ölkəyə işləməyə gedir. Belə halda o, borc alan qonşudan borcun verilməsini tələb etmək hüququnu qardaşına verir (bağışlayır). Bu misalda borc verən qonşu sedent, onun qardaşı sessionar, borc alan qonşu isə borclu adlanır. Sessiyanın əsası, yəni tələb hüququnun verilməsi üçün əsas olan hüquqi fakt (əqd) bağışlama müqaviləsidir. Bu müqavilənin predmetini isə sedentə (borc verən qonşuya) məxsus olan tələb hüququ təşkil edir. Tələb hüququnun verilməsi aktı isə sessiya adlanır.

Hüquqi fakt dedikdə, ikincisi, **qanunda bilavasitə nəzərdə tutulan elə hallar** (bu halların təxmini siyahısını yuxarıda vermişik) başa düşülür ki, bu hallar nəticəsində öhdəlikdə kreditor dəyişdirilir. Məsələn, universal hüquq varisliyi nəticəsində öhdəlik üzrə tələb hüquqları sedentdən sessionara keçə bilər.

Bu, qanunda birbaşa nəzərdə tutulan hüquqi faktdır. Vətəndaş dostuna borc pul verir. Lakin borc məbləğini dostundan geri almamış o ölür. Borc verənin varisələrinin qonşudan borc məbləğinin qaytarılmasını tələb etmək ixtiyarı vardır. Ona görə ki, borc öhdəliyi üzrə tələb hüququ ölən vətəndaşdan (sedentdən) onun varisələrinə (sessionara) keçmişdir. Bunun üçün əsas isə qanunda nəzərdə tutulan hüquqi fakt, yəni universal hüquq varisliyi (varisəlik) olmuşdur. Belə hallarda söhbət mahiyyətcə, qanun əsasında yaranan sessiyadan gedir. Almaniya sivilistika doktrinasında göstərilir ki, sessiya qanun əsasında yarana bilər. Burada həmin hala belə bir misal çəkilir: zamin tərəfindən borc ödənildikdən sonra borcluya olan tələb hüququ ona keçir. Bu halı bizim ölkə qanunvericiliyi də nəzərdə tutur (MM-in 475-ci maddəsinin 1-ci bəndi). Bundan əlavə, Almaniya mülki hüquq elmində göstərilir ki, hakimiyyət aktı yolu ilə də sessiya yarana bilər (məsələn, əmlaka həbs qoymaqla öhdəliyin məcburi icrası)[2].

Öhdəlikdə tərəf kimi çıxış edən borclunun kreditorun öz tələb hüququnu digər şəxsə verməsində marağı yoxdur. Bununla belə, kreditorun öz tələb hüququnu başqasına verməsi borclunun mənafeyinə toxunmur və onun hüquqlarını pozmur. Buna görə də öhdəliyin kimin qarşısında — yeni kreditorun, yoxsa əvvəlki kreditorun qarşısında icra edəcəyinin borclu şəxs üçün təvafütü yoxdur. Göstərilən halı nəzərə alaraq, qanun müəyyən edir ki, **kreditorun tələblərinin güzəşti üçün borclunun razılığı tələb olunmur** (MM-in 194-cü maddəsinin 1-ci bəndi). Lakin bəzi hallarda kreditor borclunun razılığı olmadan tələb hüququnu yeni kreditora verə bilməz. Həmin hallarda tələbi vermək üçün hökmən borclunun icazə verməsi tələb olunur. Əgər borcludan razılıq alınmazsa, onda sessiyanın şərti pozulur və həmin akt etibarsız hesab olunur. Xüsusən də kreditorun şəxsiyyətinin borclu üçün vacib əhəmiyyət daşıdığı öhdəlik üzrə tələbin borclunun razılığı olmadan güzəşt edilməsinə yol verilmir. Məsələn, vətəndaş (kreditor) rəssama (borcluya) özünün portretinin çəkilməsi barədə sifariş verir. Sifariş verən vətəndaşın şəxsiyyətinin rəssam üçün vacib əhəmiyyəti vardır. Vətəndaş

[1] bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 126-128; *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 536; *Пухан И., Поленак-Акимовская М.* Римское право. М., 2000, с. 203-204; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 307.

[2] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 204.

[3] *Medicus D.* Schuldrecht I. Allgemeiner Teil. München. 1999, s. 339.

[4] bax: *Брагинский М.И., Витрянский В.В.* Договорное право. Общие положения. М., 1997, с. 373-374. Almaniya professoru E.Klyusinger göstərir ki, sessiyanın əsasında bağışlama, alqı-satqı və kredit müqavilələri durur (*Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993).

[1] bax: *Новицкий И.Б., Лунц Л.А.* Общее учение об обязательстве. М., 1950, с. 223-224.

[2] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 355-356.

borclunun (rəssamın) razılığı olmadan portretin çəkilməsini tələb etmək hüququnu öz dostuna verə bilməz. Çünki onun dostu başqa tipli şəxs olub, rəssam üçün maraq doğurmur. Başqa bir misalda qarantiya üzrə benefisiara (kreditora) mənsub olan və qarantdan tələb etmək hüququ başqa şəxsə yalnız qarantın (borclunun) razılığı ilə verilə bilər (MM-in 482-ci maddəsi). Kreditorun şəxsiyyətinin borclu üçün vacib əhəmiyyət kəsb etməsinə görə aşağıdakı tələblər də borclunun razılığı olmadan güzəşt edilə bilməz: konsensual bağışlama müqaviləsi üzrə şəxs öz evsiz qohumuna mənzil bağışlayır və qohumun bu mənzilin ona verilməsini həmin şəxsdən (borcludan) tələb etmək hüququ; kirayə müqaviləsi üzrə kirayəçinin kirayəyə verəndən (borcludan) əmlakın verilməsini tələb etmək hüququ; kredit müqaviləsi üzrə kredit alan şəxsin bankdan (borcludan) kreditin verilməsini tələb etmək hüququ və s.

Bunlardan başqa, kreditor və borclu arasında razılaşmada nəzərdə tutula bilər ki, kreditor tələb hüququnu borclunun razılığı olmadan başqa şəxsə verə bilməz. Əgər kreditor tələb hüququnu borclunun razılığı olmadan güzəşt edərsə, bu, hüquqi nəticə doğurmur və puç əqd sayılır. Borclunun razılıq verməsi **birtərəfli əqddir.** Buna görə də belə halda sessiya üçtərəfli əqdə çevrilmir.

Qeyd etmək lazımdır ki, sessiyanın etibarlı olması üçün o, üç əsas şərtə cavab verməlidir. Bu şərtlər qanunda göstərilmişdir (MM-in 194-cü maddəsinin 1-ci bəndi). Onlara **sessiyanın şərtləri** deyilir.

Sessiyanın birinci şərti ondan ibarətdir ki, o, **öhdəliyin mahiyyətinə zidd olmamalıdır**; əgər öhdəliyin mahiyyətinə sessiya zidd olarsa, onda sedent sessionara tələb hüququnu verə bilməz. Məsələn, bölünməz öhdəliklərdən irəli gələn tələb hüququnun bir hissəsinin (ayrı-ayrı tələblərin) başqa şəxsə verilməsi öhdəliyin mahiyyətinə ziddir (kirayə müqaviləsi üzrə bir otaqlı və ya minik avtomobilindən istifadə hüququnun bir hissəsinin başqa şəxsə verilməsini kirayəçi tələb edə bilməz və s.); **bölünməz öhdəliklər** odur ki, onlar yalnız tam icra olunur[1]; bu öhdəliyin hissə-hissə icrası mümkün deyil. Şəxsi öhdəliklərdən irəli gələn tələb hüquqlarının verilməsi də öhdəliyin mahiyyətinə ziddir. Buna görə belə hüquqların başqa şəxsə verilməsi (o cümlədən sessiya yolu ilə verilməsi) qeyri mümkündür. Məsələn, pensiya almaq hüququnun sessiya yolu ilə başqa şəxsə verilməsini hətta təsəvvür etmək olmur[2]. Xüsusən də icrası şəxsi bacarıq, ustalıq, sənətkarlıq və məharət, müəyyən halları qiymətləndirmək qabiliyyəti və ya müəyyən etibar-nüfuz, ad-san tələb edən öhdəliklərdən (müqavilələrdən) irəli gələn tələb hüquqlarının sessiya qaydasında başqa şəxsə verilməsi istisna edilir[3]. Məsələn, filarmoniya məşhur və tanınmış müğənni ilə konsert vermək barədə müqavilə bağlayır; bu müqavilədən müğənninin konsert vermək barədə filarmoniyadan tələb etmək hüququ yaranır. Aydın məsələdir ki, o, bu hüququ sessiya yolu ilə başqa şəxsə verə bilməz.

Sessiyanın ikinci şərti ondan ibarətdir ki, kreditorun tələb hüququnu başqa şəxsə verməsi **onun borclu ilə razılaşmasına zidd olmamalıdır**.

Belə ki, əgər müqavilədə tələb hüququnun verilməsini qadağan edən şərt nəzərdə tutularsa, həmin hüququ kreditor sessiya yolu ilə başqa şəxsə verə bilməz. Məsələn, mal göndərmə müqaviləsində belə bir şərt müəyyən edilir ki, mal göndərən (kreditor) alıcıdan (borcludan) göndərilmiş malın pulunun ödənilməsini tələb etmək hüququnu üçüncü şəxsə güzəşt edə bilməz. Müqavilədə həm də belə bir şərt nəzərdə tutula bilər ki, kreditor tələb hüququnu yalnız borclunun razılığı ilə güzəşt edə bilər. Əgər müqavilədə tələb hüququnun verilməsini qadağan edən şərt olmazsa, kreditor həmin hüququ güzəşt edə bilər. Yalnız borclunun əsaslı (üzrlü) maraq və mənafeyi olduqda, belə şərt nəzərdə tutula bilər.

Sessiyanın üçüncü şərti ondan ibarətdir ki, kreditorun tələb hüququnu başqa şəxsə verməsi **qanunvericiliyə zidd olmamalıdır**. Əgər tələbin verilməsi qanunvericilikdə nəzərdə tutulan tələbləri pozmaqla bağlı olarsa, hüquqi nəticə doğurmur və puç əqd hesab edilir.

Qeyd etmək lazımdır ki, sessiya zamanı diqqəti cəlb edən əsas məsələlərdən biri borclunun üzərinə düşən vəzifəyə aiddir. Belə ki, o, öhdəliyin kimin qarşısında (sedentin və ya sessionarın qarşısında) icra etməlidir. Bu, məsələ sessiya yolu ilə tələbin güzəşti barədə borcluya bildiriş (məlumat) verilməsindən asılıdır. Bildirişin isə kim (sedent və ya sessionar) tərəfindən göndərilməsi barədə qanunvericilik konkret göstəriş ifadə etmir. Buna görə də bildirişi həm sedent, həm də sessionar göndərə bilər[1]. Amma hamıdan çox borclu tərəfindən öhdəliyin icra edilməsində yeni kreditor (sessionar) maraqlıdır; çünki öhdəliyin icrası onun iqtisadi və əmlak mənafelərinin təmin edilməsinə yönəlmişdir. Buna görə də yeni kreditorun (sessionann) vəzifəsidir ki, o, tələblərin güzəşt edilməsi barədə **borcluya yazılı bildiriş versin;** sessionarın bildirişi (məlumatı) şifahi formada da verə bilər. O, bildiriş verməsə, borclu, sedent qarşısında öhdəliyi icra edir. Bu cür icra mümkündür (MM-in 195-ci maddəsi). Lakin sedent artıq güzəşt edilmiş hüququn sahibi olmadığına görə o, əsassız əmlak əldə edən şəxs (belə əmlak əldə etmənin hüquqi əsası yoxdur), sessionar isə əmlakdan məhrum olan şəxs hesab edilir. Odur ki, onlar arasında kondikasiya öhdəliyi (əsassız varlanma öhdəliyi) yaranır. Bu öhdəliyə görə, sessionarın kondikasiya tələbinə əsasən, sedent əsassız əldə edilmiş əmlakı ona qaytarmalıdır (MM-in 1092-ci maddəsi).

Borclunun sessionar qarşısında öhdəliyi icra etməsi üçün sessionarın müəyyən hərəkətləri yerinə yetirməsi tələb olunur. Belə ki, sessionar **tələbin ona keçməsi barədə sübutları borcluya təqdim etməlidir**. Əgər o, sübutlar təqdim etməsə, borclu öhdəliyi icra etmir (MM-in 198-cı maddəsinin 1-ci bəndi). Sübutlar dedikdə, tələb hüququnun sedentdən sessionara keçməsini şərtləndirən hüquqi faktlar (bağlanmış əqd, universal hüquq varisliyi və s.), habelə sedentin tələb hüququnu təsdiqləyən sənədlər başa düşülür. Sedentin borcudur ki, bu sənədləri və tələbin həyata keçirilməsi üçün əhəmiyyətli olan məlumatları (borclunun olduğu yer, bank hesabı, filialı və digər məsələlər barədə məlumatları) versin. Məsələn, kənd sakini (sedent) öz minik avtomobilini qonşusuna (borcluya) satır. Qonşu onun pulunu iki aydan sonra ödəməyi vəd edir. Onlar arasında alqı-satqı müqaviləsi bağlanır. Kənd sakini (sedent) bu öhdəlikdən irəli gələn tələb hüququnu, yəni avtomobilin pulunun verilməsini tələb etmək hüququnu

---

[1] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 643.

[2] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 596.

[3] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 210.

[1] *Гусев А.Н.* Постатейный комментарий к части первой Гражданского кодекса Российской Федерации. Часть 1. М., 2000, с. 618.

oğluna (sessionara) bağışlayır və onunla bağışlama müqaviləsi bağlayır. Sedent tələb hüququnu təsdiqləyən alqı-satqı müqaviləsinin surətini sessionara, sessionar isə bağışlama müqaviləsinin surətini borcluya (qonşuya) təqdim etməlidir. Qeyd etməliyik ki, borcluya lazımi sənədlərin (sübutların) təqdim edilməməsi öz hüquqi nəticəsinə görə borcluya bildiriş göndərilməməsinə (məlumat verilməməsinə) bərabər tutulur. Hər iki halda borclu sessionar qarşısında məsuliyyət daşımır. Onun sedent qarşısında öhdəliyi icra etməsi isə lazımınca icra hesab edilir və öhdəliyin xitamına səbəb olur.

Öhdəlikdə şəxslərin dəyişməsində, o cümlədən sessiyada **yalnız öhdəliyin subyekt tərkibi dəyişir, öhdəliyin məzmunu (tərəflərin hüquq və vəzifələri) isə dəyişmir, olduğu kimi saxlanılır**. Ona görə də sedentin tələbi sessionara hüququn keçdiyi məqamda mövcud olmuş həcmdə və şərtlərlə keçir (MM-in 196-cı maddəsinin 1-ci bəndi). Sessionara öhdəliyin icrasını təmin edən hüquqlar da (girov hüququ, zaminlik, ipoteka hüququ, dəbbə pulu və s.) keçir. Məsələn, borc girovla təmin edilərsə, onda sessionar da həmin təminatdan istifadə edir. Sessionara həm də tələblə bağlı olan digər hüquqlar, o cümlədən ödənilməmiş faizlərə hüquq da keçir. Bu qayda gəlirlərə, bəhərlərə, xərclərin əvəzinin ödənilməsinə də şamil edilir[1].

Qanun borclunun mənafeyini də nəzərə alır. Belə ki, o, sessionarın tələbinə qarşı etiraz edə bilər. O, sedentə qarşı malik olduğu etirazları sessionara verir. Özü də o, yalnız bildiriş aldığı anda sedentə qarşı malik olduğu etirazları irəli sürə bilər. Tələb sedentdən sessionara güzəşt edildiyi məqamda mövcud olan etirazlar irəli sürülə bilməz və bu, nəzərə alınmır.

Sessiya qanunda nəzərdə tutulan müəyyən formada bağlanır. MM-in 194-cü maddəsinin 4-cü bəndi **sessiyanın formasını** tənzimləyir. Qanun müəyyən edir ki, sessiyanın forması sessiyanın əmələ gəlməsinə əsas olan əqdin forması ilə müəyyən edilir. Belə ki, əgər həmin əqd (əsas) sadə yazılı formada bağlanarsa, onda sessiya da bu formada bağlanır. Məsələn, sadə yazılı formalı borc müqaviləsindən irəli gələn tələb hüququ güzəşt ediləndə, sessiya da sadə yazılı formada olur. Şifahi formalı borc müqaviləsindən əmələ gələn tələb hüququ güzəşt edildiyi halda, sessiya da şifahi formada olur.

Notarial formalı əqdlərdən yaranan tələb hüququ güzəşt edildiyi hallarda, sessiya da notarial formada bağlanır. Məsələn, yaşayış evinin alqı-satqı müqaviləsi üçün qanun notarial forma müəyyən edir (MM-in 647-ci maddəsinin 1-ci bəndi). Bu müqavilə hökmən notariat qaydasında təsdiqlənməlidir. Evin mülkiyyətçisi (kreditor, sedent) bu müqavilədən irəli gələn tələb hüququnu (pul almaq hüququnu) dostuna (sessionara) güzəşt etdikdə, sessiya da hökmən notariat qaydasında təsdiqlənir.

Elə əqdlər vardır ki, bu əqdlərin yaratdığı və əmələ gətirdiyi hüquqların hökmən daşınmaz əmlakın dövlət reyestrində qeydə (dövlət qeydiyyatına) alınması tələb olunur. **Əmələ gətirdiyi hüquqlar dövlət qeydiyyatına alınmalı olan bu cür əqdlər üzrə tələb güzəşt edildikdə**, sessiya da hökmən dövlət qeydiyyatına alınır. Məsələn, yuxarıdakı misalda evin mülkiyyətçisi müqavilədən irəli gələn tələb hüququnu güzəşt etdikdə, sessiya daşınmaz əmlakın

[1] bax: *Новицкий И.Б., Лунц Л.А.* Общее учение об обязательстве. М., 1950, с. 225.

dövlət reyestrində dövlət qeydiyyatına alınır. Ona görə ki, qanun yaşayış evinin alqı-satqı müqaviləsinin yaratdığı mülkiyyət hüququnun daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmasının məcburiliyi haqqında göstəriş ifadə edir (MM-in 647-ci maddəsi). Renta müqaviləsi üzrə (daşınmaz əmlakın özgəninkiləşdirilməsi barədə) renta ödənişini almaq hüququnu renta alan (sedent) güzəşt etdikdə, sessiya yazılı formada bağlanır, notariat qaydasında təsdiqlənir və bundan sonra həmin müqavilənin yaratdığı hüquq daşınmaz əmlakın dövlət reyestrində qeydə alınır (MM-in 865-866-cı maddələri).

Orderli qiymətli kağızlar üzrə də tələb hüququ güzəşt edilə bilər. Bu cür qiymətli kağızlar üzrə tələb hüququ güzəşt edilərkən, qiymətli kağızın arxa tərəfində tələbin güzəşti haqqında qeyd etmək lazımdır. Həmin qeyd indossament adlanır. Adlı qiymətli kağız üzrə hüquq veriləndə tələbin güzəşti haqqında yazılı ərizə verilir (MM-in 993-cü maddəsinin 2-ci bəndi).

Sedentin sessionar qarşısında daşıdığı mülki-hüquqi məsuliyyət müəyyən xüsusiyyətlərə malikdir. Belə ki, **sedent yalnız sessionara verilən tələbin etibarsızlığı üçün məsuliyyət daşıyır**. O, güzəşt edilən tələbin borclu tərəfindən icra edilməsinə cavabdeh deyildir. Lakin sedent tələbin borclu tərəfindən icra edilməsinə təminat verə bilər. Bu, **zaminlik vasitəsilə** həyata keçirilir. Belə ki, o, borclu üçün sessionar qarşısında zamin durur. Bu halda sedent borclunun öhdəliyi icra etməsinə görə məsuliyyət daşıyır.

Bununla belə, mövcud olan bütün tələb hüquqlarının hamısı **sessiyanın predmeti ola bilməz**. Bu, o deməkdir ki, bəzi tələb hüquqlarının verilməsi və güzəşt edilməsi istisna olunur. Qanun bu hüquqların güzəşt edilməsini yasaqlayır. Məsələn, kreditorun şəxsiyyəti ilə qırılmaz bağlı olan tələblərin, o cümlədən alimentlər haqqında və həyata və ya sağlamlığa vurulan zərərin əvəzinin ödənilməsi haqqında tələblərin güzəşt edilməsinə yol verilmir (MM-in 194-cü maddəsinin 3-cü bəndi). Qeyd etmək lazımdır ki, müqavilədən yaranan şəxsi xarakterli hüquq başqa şəxsə sessiya yolu ilə verilə bilməz. Ona görə ki, bu hüquq öz təbiətinə görə sedentin şəxsiyyətindən ayrılmazdır və onun sessionar ilə əvəz olunması borcludan tələb edilən icranın xarakterini dəyişir[1]. Buna görə də aşağıdakı tələblər sessiyanın predmeti ola bilməz[2]: renta müqaviləsi üzrə şəxsi ömürlük saxlamaq barədə tələb; mənəvi zərərin kompensasiya edilməsi barədə tələb; vəsiyyət tapşırığının icrası barədə tələb və s.

İstənilən öhdəlik hüququnun sessiyanın predmeti olması mümkündür. Belə ki, həm müqavilə öhdəliyindən, həm də müqavilədənkənar öhdəlikdən (məsələn, delikt öhdəliyindən; əsassız varlanma öhdəliyindən) irəli gələn öhdəlik hüquqları sessiya yolu ilə başqa şəxsə verilə bilər.

Bundan əlavə, **tələbin güzəşti hüquqauyğun olmalıdır**. Əgər o, qanuna və sessiyanın əsaslandığı əqdə (müqaviləyə) zidd olarsa, kreditorun tələbin güzəşt etməsindən söhbət gedə bilməz. Tələbin güzəşti hüquqazidd ola bilməz.

Tələbin güzəştinin ikinci forması subroqasiyadır. Subroqasiya sığorta hüququnda istifadə olunan anlayışdır. SSRİ Ticarət Gəmiçiliyi Məcəlləsinin 229-cu və 281-ci maddələri bu anlayışı nəzərdə tuturdu. Lakin bu məcəllədə «subro-

[1] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 219.

[2] *Кращенинников Е.А.* Допустимость уступка требования // Хозяйство и право. 2000, № 8, с. 84.

qasiya» termini işlədilmirdi. Subroqasiya Azərbaycan Respublikasının yeni Ticarət Gəmiçiliyi Məcəlləsinə (TGM-ə) də məlumdur.

Subroqasiya institutunu «Sığorta haqqında» qanunun 37-ci maddəsi də nəzərdə tutur[1]. Lakin bu qanunda da «subroqasiya» terminindən istifadə olunmur. Nəhayət, MM-in 936-cı maddəsi subroqasiya institutunun hüquqi təbiətini və xarakterini müəyyənləşdirir; bu maddədə «subroqasiya» terminindən istifadə olunur. Həmin normada subroqasiya tələbin güzəştinin qanunda bilavasitə nəzərdə tutulan forması kimi müəyyənləşdirilir. O, öhdəlikdə şəxslərin dəyişilməsinin xüsusi halıdır.

Subroqasiya tələbin güzəştinin elə bir formasıdır ki, buna görə zərərin əvəzinin üçüncü şəxs (təqsirkar şəxs) tərəfindən ödənilməsini tələb etmək hüququ sığortalıdan sığorta ödənişi məbləğində bu ödənişi vermiş sığortaçıya keçir (MM-in 936-cı maddəsinin 1-ci bəndi, «Sığorta haqqında» qanunun 37-ci maddəsinin 1-ci bəndi). Özü də dərhal qeyd etməliyik ki, subroqasiya institutu yalnız qeyri-həyat sığortasında, yəni zərərdən sığorta və mülki məsuliyyətin sığortasında istifadə olunur. Həyat sığortasında bu anlayış tətbiq edilmir[2].

Subroqasiyanın mənasını başa düşmək üçün konkret misala müraciət edək. Vətəndaş özünə məxsus olan nəqliyyat vasitəsini sığortalayır və bu məqsədlə sığorta təşkilatı ilə (sığortaçı ilə) sığorta müqaviləsi bağlayır. Başqa bir vətəndaş yüksək sürətlə idarə etdiyi yük maşını ilə həmin nəqliyyat vasitəsini tamamilə əzərək, onu sıradan çıxarır və istifadə üçün yararsız hala salır. O, təqsirkar şəxs hesab olunur. Bununla sığorta hadisəsi baş verir və sığortaçı müqaviləyə uyğun olaraq, nəqliyyat vasitəsi sahibinə (sığortalıya) sığorta ödənişi (15 min manat məbləğində) verir. Nəqliyyat vasitəsi sahibinin təqsirkar şəxsə vurduğu ziyanın ödənilməsini tələb etmək hüququ vardır. O, 15 min manat məbləği həcmində (yəni sığortaçının nəqliyyat vasitəsi sahibinə verdiyi sığorta ödənişi həcmində) bu tələb hüququnu sığorta təşkilatına (sığortaçıya) güzəştə gedir. Həyata keçirilən bu akta subroqasiya deyilir.

Subroqasiya institutunun tətbiqini təkcə sığorta münasibətlərilə məhdudlaşdırmaq olmaz. Bu institutdan həm də qeyri-sığorta münasibətləri sferasında istifadə etmək olar. Məsələn, kreditor (girov saxlayan) borcluya (girov qoyana) məxsus əşyaya (girov qoyulmuş əşyaya) məcburi icra yönəldərsə, onda məcburi icra nəticəsində bu əşyaya hüquqların (mülkiyyət hüququnun) itirilməsi təhlükəsi yarana bilər. Onda hər hansı bir üçüncü şəxs kreditorun tələbini ödəyə bilər. Bundan sonra tələb hüququ üçüncü şəxsə keçir (MM-in 431-ci maddəsinin 3-cü bəndi). Bu qeyri-sığorta hüququ sahəsində, yəni girov hüququ sferasında subroqasiyadır. Məsələn, vətəndaş bankdan kredit alır və əmlakını girov qoyur. Kredit müqaviləsinin müddəti başa çatır, amma vətəndaş kreditini qaytarmır. Belə halda bank girov qoyulmuş əmlaka tələb yönəldir. Vətəndaşın yaşayış evinə olan mülkiyyət hüququnun itirilmək təhlükəsi yaranır. Vətəndaşın yaxın qohumu olan sahibkar banka kredit məbləği həcmində pul ödəyir. Belə halda tələb hüququ bankdan həmin sahibkara keçir.

Subroqasiya sessiyadan fərqli cəhətlərə malikdir[1]. Bu anlayışlar bir-birindən, əsasən, **iki xüsusiyyəti ilə fərqlənir: əmələ gəlmə əsasına görə; tələb hüququnun həcmi ilə**. Belə ki, birincisi, subroqasiyanın əmələ gəlmə əsası kimi tərəflərin sazişi, yəni əqd (müqavilə) çıxış edə bilməz. **Subroqasiya bütün hallarda, istisnasız olaraq, qanunun ifadə etdiyi göstəriş əsasında əmələ gəlir**. Sessiya isə həm tərəflərin sazişi əsasında, həm də qanunun göstərişləri (məsələn, vərəsəlik, universal hüquq varisliyi) əsasında yaranır.

İkincisi, sessiya tələb hüququnun yeni kreditora bu hüququn keçdiyi məqamda mövcud olmuş həcmdə keçməsini nəzərdə tutur. Belə halda tələblə bağlı hüquqlar (girov hüququ, zaminlik, ödənilməmiş faizlərə olan hüquq və s.) da yeni kreditora verilir. Subroqasiya isə bu xüsusiyyətdə məhrumdur. Belə ki, **subroqasiya yeni kreditora tələb hüququnun bütövlükdə yox, yalnız onun bir hissəsinin (faktiki həyata keçirilmiş ödəniş məbləği həcmində) keçməsini nəzərdə tutur**.

Öhdəlikdə şəxslərin dəyişməsinin ikinci halı borcun köçürülməsi (öhdəliyin verilməsi) adlanır. Borcun köçürülməsi institutunun tarixi kökü qədim Roma hüququ ilə bağlıdır. Bu hüquq borcun köçürülməsinə öhdəlikdə bir borclunun digəri ilə əvəz edilməsi kimi anlayış verirdi[2].

Azərbaycan Respublikasının MM-in 26-cı fəslinə daxil olan normalar (522-526-cı maddələr) borcun köçürülməsinin əsasları və qaydasını müəyyən edir. **Borcun köçürülməsi dedikdə, öhdəlikdə borclunun üçüncü şəxs ilə əvəz edilməsi barədə kreditor, borclu və üçüncü şəxs arasında bağlanan saziş başa düşülür**. Bu sazişin bağlanması üçün üç tərəfin, yəni borclunun, kreditorun və üçüncü şəxsin (yeni borclunun) öz iradələrini ifadə etmələri tələb olunur. Deməli, borcun köçürülməsi **çoxtərəfli əqddir**. Amma Almaniya mülki qanunvericiliyinə görə, borcun köçürülməsi iki yolla həyata keçirilir: birinci yola görə, kreditorla yeni borclu arasında müqavilə bağlanır (§ 414); ikinci yola görə, köhnə və yeni borclu arasında müqavilə bağlanır (§ 415), kreditor isə buna razılıq verir[3]. Yaponiya qanunvericiliyinə görə, borcun köçürülməsi köhnə və yeni borclu arasında bağlanan borc öhdəliyinin köçürülməsi barədə müqavilə əsasında həyata keçirilir. Amma kreditorun buna razılıq verməsi tələb olunur.

Kreditorun şəxsiyyəti borclu üçün mühüm əhəmiyyət kəsb etmir. Öhdəliyin

---

[1] «Sığorta haqqında» qanun subroqasiyanı reqres öhdəlik kimi nəzərdə tutur. Bu, qanunun qüsurlu olmasını göstərir. Belə ki, subroqasiya reqres öhdəlik deyildir. Subroqasiya mövcud olan öhdəlikdə kreditorların dəyişməsidir. Reqres öhdəlik isə əvvəllər mövcud olmayan, yeni yaranan öhdəlikdir. Subroqasiyadan fərqli olaraq, reqres öhdəlik əsas öhdəliyin ləğv edilməsinin (icra edilməsi ilə bağlı) nəticəsidir. Reqres öhdəlikdə kreditorların dəyişməsi nəzərdə tutulmur. Əsas öhdəlikdə borclu şəxs reqres öhdəlikdə kreditor kimi çıxış edir.

[2] Bu barədə, ümumiyyətlə, subroqasiya haqqında dərsliyin 3-cü cildinin «Sığorta öhdəliyi» adlı fəslinə bax.

[1] Prof. Y.A. Suxanov bu iki anlayışı fərqləndirərkən göstərir ki, subroqasiya həmişə qanunda göstərilən hüquqi faktlardan əmələ gəlir. Müəllifin bu fikrindən belə məntiqi nəticə çıxır ki, sessiya qanunda göstərilən hüquqi faktlardan yarana bilməz. Onun bu mövqeyi dəqiqlikdən uzaqdır. Belə ki, sessiya da qanunda nəzərdə tutulan hüquqi faktlardan əmələ gələ bilər. Məsələn, universal hüquq varisliyi belə fakta misal ola bilər. Bu, RF-in MM-inin 387-ci maddəsində nəzərdə tutulur.

[2] bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 128; *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999; *Пухан И., Поленак-Акимовская М.* Римское право. М., 2000.

[3] *H.Heinrichs // Palandt.* Bürgerliches Gezetzbuch. Kommentar. München. 1999, s. 427; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 356.

kimin üçün — yeni, yoxsa əvvəlki kreditor üçün icra edilməsinin borclu şəxs üçün əhəmiyyəti və təvafütü yoxdur. Buna görə də, əvvəldə qeyd etdiyimiz kimi, müəyyən istisnalarla, kreditorun tələb hüquqlarının başqa kreditora güzəşti üçün borclunun razılığı tələb olunmur (MM-in 194-cü maddəsinin 1-ci bəndi), yəni sessiyaya onun razılıq verib-verməməsi soruşulmur. Tələb hüququnun sessiyası barədə borcluya yalnız xəbər verilir. Öhdəlikdə borclu şəxs əvəz edildikdə isə iş tamamilə başqa cür olur. Belə ki, kreditor üçün borclunun şəxsiyyəti mühüm əhəmiyyət kəsb edir. Borclunun şəxsiyyəti vəzifənin icrası üçün vacib elementdir[1]. Kreditor borclu ilə öhdəlik münasibətlərinə girərkən həmin borcluya etimad göstərir, etibar edir, onun öhdəliyi icra etməyə imkanı və ödəmək qabiliyyətinə malik olduğunu güman edir. Borclunun əvəzinə öhdəlikdə başqa borclu iştirak etdikdə isə yeni şəxs kreditorda onun öhdəliyi lazımınca icra etməsinə inam yaratmaya da bilər. Buna görə də qanun müəyyən edir ki, öhdəlikdə borclunu üçüncü şəxs əvəz edərsə, bu, yalnız kreditorun icazəsi ilə etibarlı olur (MM-in 522-ci maddəsinin 2-ci bəndi). Bu, onunla izah olunur ki, kreditorun borclunun ödəmə qabiliyyətinə malik olmasında və onun öhdəliyi lazımınca icra etməsində marağı vardır. Beləliklə, öhdəlikdə borclunun üçüncü şəxslə əvəz edilməsinə kreditor icazə verməsə, borc köhnə borcludan yeni borcluya köçürülməmiş hesab edilir; kreditorun icazəsi olmadan heç kəs özünü üzərinə düşən öhdəlikdən azad edə bilməz[2].

Borcun köçürülməsi üçün icazə müəyyən qayda əsasında alınır. Belə ki, hər şeydən əvvəl, borcun köçürülməsi barədə kreditora məlumat verilir. Bu məlumatı həm borclu, həm də üçüncü şəxs (yeni borclu) verə bilər. İcazə vermək məqsədilə kreditora müəyyən vaxt müddəti verilir. Kreditor icazəni bu müddət ərzində verməlidir. Elə hallar da olur ki, kreditor bu müddət qurtarana-dək icazə vermək barədə niyyətini bildirmir, susur. Bu, kreditorun icazə verməkdən imtina etməsini ifadə edir.

Borcun köçürülməsinin əsasını, hər şeydən əvvəl, əqdlər (müqavilələr) təşkil edir. Bununla belə, borcun köçürülməsinin əsası kimi qanunda nəzərdə tutulan hüquqi faktlar da çıxış edə bilər. Məsələn, universal hüquq varisliyi bu cür fakta misal ola bilər. Ata qonşudan borc alır. O, sağlığında borcu qaytarmır. Ata ölür. Borc öhdəliyində atanın (köhnə borclunun) yerini onun vərəsəsi (yeni borclu) tutur. Belə ki, vərəsə həmin borc məbləğini qonşuya ödəməlidir. Deməli, borcun köçürülməsi universal hüquq varisliyi (vərəsəlik) əsasında həyata keçirilir.

Borcun köçürülməsi halında öhdəliyin məzmunu (tərəflərin hüquq və vəzifələri) dəyişilmir. Buna görə də yeni borclu kreditorla əvvəlki borclunun hüquq münasibətlərindən irəli gələn etirazları kreditora qarşı irəli sürə bilər (MM-in 524-cü maddəsi).

Beləliklə, yeni borclu əvvəlki borclunun əvəzinə öhdəlik hüquq münasibətinə daxil olur. Bununla əvvəlki borclu öhdəlikdən azad edilir. O, öhdəlik hüquq münasibətindən çıxır.

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 322.
[2] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 221.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Иоффе О.С. Обязательственное право. М., 1975 (гл. «Обязательственное право и обязательства»).

Советское гражданское право. Учебник. Том 1 / Под ред. **О.А.Красавчикова**. М., 1985 (гл. 20, 22).

Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. **Е.А.Суханова**. М., 1986 (гл. 28).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И.Масляева**. М., 1997 (гл. 21).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого**. М., 1998 (гл. 24).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой**. М., 1998 (гл. 15, 16, 17).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко**. М., 1998 (гл. 20).

Новицкий И.Б., Лунц Л.А. Общее учение об обязательстве. М., 1950.

Обязательственное право. Учебник. Часть 1 / Под ред. **В.В.Залесского**. М., 1998 (гл.1).

Агарков А.А. Обязательство по советскому гражданскому праву. М., 1940.

Донсов С., Телюшкин М. Долевые и солидарные обязательства // Советская юстиция. 1973. №17.

Егоров Н.Д. Классификация обязательств // Советское государство и право. 1989. № 3.

Гавзе Ф.И. Обязательственное право. Общие положения. Минск. 1968.

А.Жалинский, А.Рёрихт. Введение в немецкое право. М., 2001.

Westermann H.P., Bydlinski P. BGB – Schuldrecht. Allgemeiner Teil. Heidelberg. 1999.

Brox H. Allgemeines Schuldrecht. München. 1999.

Medicus D. Schuldrecht I. Allgemeiner Teil. München. 1999.

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983.

XXVII FƏSİL
MÜQAVİLƏ (VERTRAG) HÜQUQU

§ 1. Müqavilənin anlayışı, əhəmiyyəti və əsas xüsusiyyətləri

1. Müqavilənin anlayışı və mahiyyəti

Müqavilə anlayışı hüququn müxtəlif sahələrində işlədilir. Beynəlxalq hüquqda müqavilə, saziş, konvensiya, pakt, protokol, məktubların və ya notaların mübadiləsi və başqa adlı beynəlxalq müqavilələrdən istifadə olunur. Beynəlxalq müqavilə dedikdə, dövlətin xarici dövlətlər və beynəlxalq təşkilatlarla yazılı şəkildə bağladığı razılaşma başa düşülür[1]. Əmək hüququ sahəsində əmək müqaviləsi (kontraktı) adlı hüquqi konstruksiya tətbiq olunur. Əmək müqaviləsi vətəndaşların Konstitusiyada təsbit edilmiş əmək hüququnun həyata keçirilməsinin əsas forması olub, işçi ilə işəgötürən arasında bağlanan sazişdir[2]. Ailə hüququ sferasında, əsasən, nikah kontraktı konstruksiyasından, ekologiya hüququnda təbiət obyektlərindən istifadə olunması haqqında müqavilə formasından istifadə edilir[3].

Mülki hüquq münasibətləri sferasında da müqavilələrdən geniş səviyyədə istifadə olunur. Geniş spektrli mülki hüquq və vəzifələrin əmələ gəlməsi məhz bilavasitə müqavilələrlə bağlıdır. Mülki hüquqla tənzimlənən münasibətlər sahəsində tətbiq olunan müqavilələr **mülki-hüquqi müqavilələr anlayışı** ilə əhatə olunur. Mülki hüquqda «müqavilə» termini, əsasən, üç mənada işlədilir[4]:

- hüquqi fakt mənasında;
- müqavilə öhdəliyi (hüquq münasibəti) mənasında;
- sənəd mənasında.

Hüquqi fakt mənasında müqavilə bir çox xüsusiyyətlərə malikdir. Belə ki, o, hüquqi fakt kimi mülki hüquq və vəzifələr əmələ gətirir, dəyişdirir və ya xitam edir. Bu baxımdan müqavilələr öhdəlik hüquq münasibətlərinin (öhdəliklərin) əmələ gəlməsini şərtləndirən hüquqi fakt kimi çıxış edir. Yaponiya mülki hüquq elmində göstərildiyi kimi, müqavilənin məqsədi, adətən, öhdəlik yaratmaqdan ibarətdir[5]. Məsələn, tərəflər öz aralarında alqı-satqı müqaviləsi bağlayırlar. Bu müqavilə əsasında alqı-satqı öhdəliyi adlı mülki hüquq münasibəti

[1] bax: «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında» qanunun 1-ci maddəsi (AR QK, II cild, s. 474).

[2] bax: *İ.İsmayılov, M.Rəsulov, A.Qasımov.* Əmək hüququ. Bakı. 1996, s. 125; *Rəsulov M.B.* Sovet əmək müqaviləsi. Bakı. 1987, s. 8.

[3] «Təbiəti mühafizə və təbiətdən istifadə haqqında» qanunun 21-ci maddəsi təbiət obyektlərindən istifadə haqqında müqaviləni təbiətdən istifadə hüququnun əsası hesab edir (AR QK, I cild, s. 347). Ailə hüququ və ekologiya hüququ sahəsində bu cür müqavilələrə, adətən, mülki hüquq normaları tətbiq edilir. Bu müqavilələr mülki-hüquqi xarakterli müqavilələr hesab edilir.

[4] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова.* М., 1969 (гл. «Общие положения о гражданско-правовом договоре»); *Иоффе О.С.* Обязательственное право. М., 1975, с. 26-27.

[5] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 19.

əmələ gəlir.

Lakin bütün hüquqi faktların hamısını, istisnasız olaraq, müqavilə hesab etmək olmaz. Elə hüquqi faktlar vardır ki, onlar müqavilə hesab edilmir. İnsan iradəsindən asılı olmayaraq baş verən hüquqi faktlar, yəni hadisələr (məsələn, tufan, təbii fəlakət, zəlzələ, təbii yanğın və s.) mülki hüquq və vəzifələr əmələ gətirsə də və ya onları ləğv etsə də, müqavilə sayılmır. Ona görə ki, müqavilə həmişə iki və daha artıq şəxsin öz iradələrini ifadə etmələri nəticəsində bağlanır. Həmin şəxslərin iradə ifadəsi qarşılıqlı razılığa əsaslanır. Bu, onu göstərir ki, müqavilə **iradəvi aktdır**.

Bununla bərabər, şəxslərin istənilən hər hansı bir razılaşması və sazişi müqavilə hesab edilmir. Məsələn, iki və daha artıq şəxsin teatra, muzeyə, sərgiyə getməsi barədə razılığa gəlmələri halını mülki-hüquqi müqavilə hesab etmək olmaz. Tərəflərin sazişini və razılığını yalnız o halda müqavilə saymaq olar ki, həmin saziş və razılıq xüsusi olaraq hüquqi nəticə əldə edilməsinə (yəni mülki hüquq münasibətlərinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına) yönəldilmiş olsun[1]. Vətəndaşların kinoya, teatra və s. getmələri barədə sazişi hüquqi nəticə əmələ gətirmir, onlar üçün hər hansı bir hüquq və vəzifə yaratmır. Ona görə də bu cür saziş müqavilə sayılmır. Tərəflərin əmlakın alqı-satqısı, ev tikintisi, yük daşınması, borc verilməsi, əşyanın saxlanması və s. barədə sazişi isə müqavilədir. Belə ki, bu cür hallarda tərəflər (alıcı-satıcı, sifarişçi-podratçı, yük göndərən-daşıyıcı və s.) arasında hüquq və vəzifələr əmələ gəlir. Həmin hüquq və vəzifələr isə mülki hüquq normaları ilə tənzimlənir. Deməli, müqavilə tərəflər arasında mülki hüquq münasibətlərinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına, yəni hüquqi nəticə əldə olunmasına yönəldildiyinə görə əqddir. Bu xüsusiyyət **əqd kimi müqavilənin birinci əsas əlamətidir.**

Müqavilə əqd kimi öhdəlik hüquq münasibətlərinin əmələ gəlmə əsası kimi çıxış edir. Bütün ikitərəfli və çoxtərəfli əqdlər müqavilə hesab edilir. Ona görə də müqavilənin özünə əqdlər və onun forması barədə müvafiq qaydalar tətbiq edilir. Dediklərimizdən belə çıxır ki, **istənilən hər hansı bir müqavilə həmişə əqddir**. Lakin istənilən əqd müqavilə hesab edilmir. Birtərəfli əqdlər müqavilə deyildir. Məsələn, vəsiyyət etmək, miras əmlakdan imtina, etibarnamə vermək, xüsusi mükafatlandırma, müsabiqə, oyunların və mərclərin keçirilməsi və s. birtərəfli əqdlər sayılır və buna görə də müqavilə kateqoriyasına aid edilmir. Ona görə aid edilmir ki, birtərəfli əqdlərdə bir tərəfin iradəsi ifadə olunur. Müqavilələr isə bir tərəfin yox, iki və daha artıq (çox) tərəfin iradə ifadəsinə əsaslanır. Özü də müqavilə onların qarşılıqlı razılaşdırılmış iradə ifadəsini bildirir. Bu, **əqd kimi müqavilələrin ikinci əsas əlamətidir**.

Beləliklə, **bağlanması üçün iki və ya daha çox tərəfin razılaşdırılmış iradə ifadəsi tələb olunan əqdlərə müqavilə deyilir** (MM-in 324-cü maddə-

[1] Bu fəsildə əşya hüquqları (əşya hüquq münasibətləri) yox, yalnız öhdəlik hüquqları (öhdəlik hüquq münasibətləri, yəni öhdəliklər) yaradan müqavilələrdən söhbət gedir. Bildiyimiz kimi, bəzi xarici ölkələrin (məsələn, Almaniyanın, Yaponiyanın və s.) qanunvericiliyi və sivilistika doktrinası öhdəlik yaradan müqavilələrdən başqa, əşya hüquqları müəyyən edən müqavilələr də fərqləndirir. Azərbaycan Respublikasının yeni mülki qanunvericiliyi də belə müqavilə növünü nəzərdə tutur. Məsələn, servitut haqqında müqavilə və s. ona misal ola bilər.

sinin 4-cü bəndi)[1]. Müqavilə daha geniş yayılmış əqd növüdür. Mülki hüquqda rast gəlinən əqdlərin əksəriyyəti müqavilələrdir. Buna uyğun olaraq, müqavilə bütün əqdlərin hamısına şamil edilən ümumi qaydalara tabe olur.

«Müqavilə» termini təkcə hüquqi faktı (əqdi) ifadə etmək üçün işlədilmir. O, həm də müqavilədən əmələ gələn öhdəlik hüquq münasibətini (öhdəliyi) ifadə etmək üçün tətbiq olunur. Başqa sözlə desək, **ikinci mənada «müqavilə» termini ilə müqavilə öhdəliyi anlayışı əhatə edilir**. Məsələn, icarə öhdəliyi, kirayə öhdəliyi, daşıma öhdəliyi, podrat öhdəliyi və s. Müqavilə öhdəliyi tərəflərin subyektiv hüquq və vəzifələrini nəzərdə tutur, onların həyata keçirilməsini müəyyən edir. Müqavilənin icrası, onu icra etməməyə görə məsuliyyət, müqavilənin qiyməti, müddəti və digər məsələlər müqavilə öhdəliyi ilə həll olunur. Ona görə də bu cür hüquq münasibətinə, yəni müqavilə öhdəliyinə öhdəliklər haqqında ümumi müddəalar tətbiq edilir.

Üçüncü mənada «müqavilə» termini ilə «yazılı sənəd» anlayışı əhatə olunur ki, bu sənəd hüquqi faktı, yəni tərəflərin sazişini, onların hüquq və vəzifələrini obyektiv formada ifadə edir. Başqa sözlə desək, müqavilə dedikdə, elə bir sənəd başa düşülür ki, bu sənəd öhdəlik hüquq münasibətinin əmələ gəlməsi faktını əks etdirir. Sənəd mənasında müqavilə bəndlərin və zəruri formal rekvizitlərin məcmusundan ibarətdir. Bəndlərdə müvafiq müqavilə şərtləri əks olunur. Bundan əlavə, müqavilə (sənəd) öz məzmununda giriş hissəni də əhatə edir.

Müqavilə **iqtisadi-hüquqi kateqoriyadır,** yəni həm iqtisadi mənada, həm də hüquqi mənada işlədilən kateqoriyadır. K.Marks öz «Kapital» əsərində müqaviləyə məhz bu cür yanaşmışdır[2]. Müqavilə hüquq münasibətlərinin formasıdır. O, əmtəə dövriyyəsinin hüquqi rəsmiləşdirmə vasitəsi kimi çıxış edir. Bu baxımdan müqavilə **hüquqi kateqoriyadır**. O, həm də iradəvi münasibətlərdir ki, bu, iqtisadi münasibətlərin, əmtəə dövriyyəsinin məzmununu ifadə edir. Bu aspektdən isə müqavilə **iqtisadi kateqoriya** kimi çıxış edir. İqtisadi-hüquqi kateqoriya kimi müqavilə dedikdə, iqtisadi münasibətlərin məzmununu ifadə edən hüquqi rəsmiləşdirmə forması (vasitəsi) başa düşülür.

Almaniya Mülki Qanunnaməsində müqaviləyə (Vertrag) leqal anlayış verilmir. Müqaviləni xarakterizə edərkən tez-tez qanunnamənin 305-ci paraqrafına istinad edirlər: müqavilə öhdəliyin əmələ gəlməsi və ya dəyişməsi üçün zəruri olan əqddir[3].

Almaniya mülki hüquq doktrinasında müqaviləyə müxtəlif elmi (doktrinal) anlayışlar verilir. Professor Q.Y.Muselyakın fikrincə, müqavilə partnyorların arasındakı hüquq münasibətinin razılıq əsasında tənzimlənməsidir[4]. Professor H.Haynriks müqaviləyə hüquqi nəticəyə nail olmaq barədə iki və ya daha artıq

[1] Müqaviləyə analoji, anlayışı bəzi əcnəbi ölkələrin sivilistika doktrinası da verir. Məsələn, Almaniya doktrinasına görə, müqavilə iki və ya daha çox şəxsin qarşılıqlı iradəsini ifadə edən ikitərəfli əqddir (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 120). Yaponiya doktrinası müqaviləyə iki və ya daha çox tərəfin iradə ifadəsinin bir-birinə uyğun gəlməsinə əsaslanan əqd kimi anlayış verir (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 102).

[2] *К.Маркс.* Капитал. Том 1. М., 1931, с. 41.

[3] Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

[4] *Musielak H.J.* Grandkurs BGB. München. 1999, s. 6.

şəxsin razılaşdırılmış iradəsi kimi anlayış verir[1]. O, müqavilənin üç əlamətini fərqləndirir: birincisi, müqavilə əqddir; ikincisi, müqavilə hüquqi nəticə əldə edilməsinə yönəlir; üçüncüsü, müqavilə, iradə vəhdətinin olmasını tələb edir.

2. Müqavilənin funksiyaları və əhəmiyyəti

Müqavilənin əhəmiyyəti onun funksiyalarında təzahür edir. **Müqavilənin funksiyası** dedikdə, hüquqi akt kimi müqavilənin ictimai münasibətlərə qanunla müəyyən edilən və ya yol verilən təsir göstərməsi başa düşülür. O, bir neçə funksiya həyata keçirir: tənzimetmə funksiyasını; təşkilati funksiyanı; təşəbbüskarlıq funksiyasını; təminat funksiyasını; müdafiə funksiyasını; informasiya funksiyasını.

Müqavilənin tənzimetmə funksiyası onun ictimai münasibətləri qaydaya salmasından ibarətdir. O, elə bir zəruri vasitədir ki, onun köməyilə əmtəə-pul dövriyyəsi sferasında yaranan ictimai münasibətlərin geniş dairəsi qaydaya salınır və rəsmiləşdirilir. İqtisadiyyat, sosial-iqtisadi, mədəni həyat sahələrində müqavilə kateqoriyasından geniş səviyyədə istifadə olunur.

Öhdəlik hüququ bazarı, bazar əmtəə dövriyyəsini rəsmiləşdirir. Onun əsas təyinatı iqtisadi dövriyyəni, yəni əmtəə mübadiləsini tənzim etməkdən ibarətdir.

Bazar daim təkrar olunan alqı-satqı aktlarının və mübadilə sahəsində sosial-iqtisadi münasibətlərin məcmusudur. Həmin münasibətlər nəticəsində mallar realizə edilir. Bazar məhsul istehsalçıları ilə onu istehlak edənlər arasında yaranan münasibətləri xarakterizə edir. Bu münasibətlər məhsulun (malın) və xidmətlərin alqı-satqısı prosesində təzahür edir. Mahiyyətinə görə bazar istehsal olunmuş nemətlərin sərbəst ekvivalent mübadiləsidir. O, istehsalı istehlakla bilavasitə əlaqələndirir, istehlakçının tələbatını istehsala yönəldir.

Bazarın bir-birilə qarşı-qarşıya duran iki subyekti vardır: alıcı və satıcı. Mübadilə sahəsində həmin subyektlər arasında əmələ gələn iqtisadi münasibətlər bazar münasibətlərinin mahiyyətini təşkil edir. Bu cür münasibətlər hüquqi cəhətdən müqavilə vasitəsilə rəsmiləşdirilir. Müqavilə ən münasib, ən effektiv və ən əlverişli hüquqi alətdir. Bazar münasibətlərini qaydaya salmaq üçün müqavilədən savayı səmərəli vasitə yoxdur. Ona görə ki, müqavilə əmtəə dövriyyəsi iştirakçılarına öz mənafe və iradələrini ifadə etməkdə geniş imkanlar verir. Belə ki, əmtəə dövriyyə iştirakçıları müstəqil əmtəə sahibləridirlər. Onlar bazar əmtəə mübadiləsini həyata keçirirlər. Bərabərhüquqlu əmtəə sahibləri öz mənafelərini və qarşılıqlı razılığa əsaslanan iradələrini ifadə etmək üçün müqavilədən istifadə edirlər. Buna görə də müqavilə iqtisadi mübadilə və dövriyyə münasibətlərinin hüquqi formasıdır. O, bazar əmtəə dövriyyəsini, bazarı qaydaya salır. Müqavilənin tənzimetmə funksiyası da məhz bundan ibarətdir.

Müqavilənin təşkilati funksiyasına gəldikdə qeyd etmək lazımdır ki, bu funksiya müqaviləni bağlayan tərəflərin qarşılıqlı münasibətlərinin təşkil edilməsində müqavilənin ən effektiv üsul olmasını ifadə edir. Müqavilə bağlamaq və onu icra etmək yolu ilə əmtəə istehsalçıları müstəqil olaraq məhsulların (malın, işin, xidmətin) istehsalını və satışını təşkil edirlər. Bununla onlar iqtisadi dövriyyə münasibətlərinin məzmununu və xarakterini müəyyənləşdirirlər.

[1] *H.Heinrichs // Palandt.* Bürgerliches Gezetzbuch. Kommentar. München. 1999, s. 139.

Müqavilənin təşkilati funksiyası onda təzahür edir ki, o, təsərrüfat fəaliyyətinin təşkilinin səmərəli üsuludur. Onun köməyilə iqtisadi dövriyyə münasibətləri tərəflərin öz-özünü tənzimləməsinə məruz qalır. Təsadüfi deyildir ki, müqaviləni «iki tərəf üçün qanun» adlandırırlar.

Müqavilənin təşəbbüskarlıq funksiyasının mahiyyəti ondan ibarətdir ki, o, müqavilədə iştirak edən tərəflərin təşəbbüskarlığının təzahür aktıdır. Məhz müqavilə əsasında mülki hüquq münasibəti əmələ gəlir.

Müqavilənin təminat funksiyası onda ifadə olunur ki, o, tərəflərin öz vəzifələrini lazımınca icra etmələrini stimullaşdırmaq üçün müvafiq qarantiya tədbirləri nəzərdə tutur. Söhbət girov, beh, zaminlik və dəbbə pulu haqqında sazişlərdən gedir. Məsələn, müqavilə bağlayan tərəflər beh haqqında razılığa gəlirlər. Beh isə müqavilənin icrasını, yəni tərəflərin öz vəzifələrini icra etmələrini təmin edən pul məbləğidir.

Müqavilənin müdafiə funksiyası tərəflərin müqavilə intizamını gücləndirməyin və ona əməl etməyin vacib vasitəsidir. Müqavilə intizamının mahiyyəti tərəflərin onun bütün şərtlərinə dəqiq və dönmədən riayət etmələrindən ibarətdir. Göstərilən funksiya məcburi icra, müdafiə və məsuliyyət tədbirlərindən istifadə etmək kimi formalarda həyata keçirilir.

Müqavilənin informasiya funksiyasının mahiyyəti ondan ibarətdir ki, məhz bu funksiya sayəsində müqavilənin bütün şərtləri barədə razılığa gələn tərəflərin iradələri dəqiq olaraq ifadə edilir. Bu isə imkan verir ki, tərəflər öz hüquqi mövqelərini bilsinlər, habelə mübahisəli hallarda yurisdiksiya orqanları əsaslı və qanuni qərarlar qəbul etsinlər.

Müqavilənin əhəmiyyəti və rolu kifayət qədər böyükdür. Müqavilənin **birinci əhəmiyyəti** ondan ibarətdir ki, o, **əmtəə istehsalçıları ilə istehlakçıların ümumi iradəsini ifadə edən formadır**. Müqavilə onların xüsusi maraq və mənafelərinin balansını əks edən konstruksiyadır.

Müqavilənin **ikinci əhəmiyyəti** ondan ibarətdir ki, o, **iqtisadi dövriyyədə sabitliyi, mütəşəkkilliyi və qaydanı** təmin edir. Müqavilə tərəflərin qarşılıqlı maraq və mənafe prinsipinə əsaslanır. O, hər iki tərəfin mənafeyinin təmin olunmasına imkan verir. Müqavilənin hüdudlarında hər bir tərəfin tələbatı (mənafeyi) yalnız digər tərəfin mənafeyinin təmin olunması vasitəsilə ödənilir.

Müqavilənin **üçüncü əhəmiyyəti** ondan ibarətdir ki, onun əsasında **tələb ilə təklif arasındakı zəruri balans təmin edilir**, bazar istehlakçının ehtiyacı olduğu mallarla doldurulur. Müqavilə vasitəsilə subyekt, artıq və ya ona lazım olmayan əmlak növlərini özgəninkiləşdirir, bunun müqabilində pul ekvivalenti və ya natural formada zəruri olan əmlak alır.

Müqavilənin **dördüncü əhəmiyyəti** mülki (əmlak) dövriyyə, **bazar münasibətlərinin inkişafı** ilə bağlıdır. Bu sahədə müqavilədən əsas hüquqi tənzimetmə alət və vasitələrindən biri kimi istifadə olunur. Belə ki, bazar iqtisadiyyatı şəraitində, habelə əmtəə-pul münasibətlərindən istifadə şəraitində istehsal olunan məhsullar (yəni mal, iş və xidmətlər) əmtəəyə çevrilir. Ona görə ki, onlar satılmaq (realizə edilmək) üçün istehsal olunur. Məhsulun realizəsi isə onu pula və ya başqa mala dəyişmək və mübadilə etmək yolu ilə həyata keçirilir. Müqavilə bu cür mübadilənin obyektiv cəhətdən zəruri və əsas hüquqi formasıdır.

Müqavilənin **beşinci əhəmiyyəti** ondan ibarətdir ki, o, **sahibkarlıq fəaliyyətinin tənzimlənməsində mühüm rol oynayır**. Sahibkarlıq fəaliyyəti və bu fəaliyyətdə hər hansı bir kommersiya təşkilatının (sahibkar statuslu vətəndaşın) iştirakı möhkəm müqavilə bazası olmadan həyata keçirilə bilməz. Müqavilə sahibkarların müxtəlif iqtisadi əlaqələrinin əsas hüquqi forması kimi çıxış edir. Hər bir kommersiya təşkilatının və sahibkar statuslu vətəndaşın həyata keçirdiyi normal sahibkarlıq fəaliyyətində müqavilə mərkəzi yer tutur. Onlar öz fəaliyyəti prosesində qanuna zidd olmayan istənilən müqavilə bağlaya bilərlər.

Müqavilənin **altıncı əhəmiyyəti** ondan ibarətdir ki, o, **əqli mülkiyyət obyektlərinin**, yəni əsərlərin, ixtiraların, faydalı modellərin, sənaye nümunələrinin, əmtəə nişanlarının və s. **yaradılması və istifadə olunması ilə bağlı əmələ gələn münasibətləri qaydaya salır**. Söhbət müəllif, patent-lisenziya və françayzinq kimi müqavilələrdən gedir.

Ümumiyyətlə, müqavilələrdən mülki qanunvericiliklə tənzimlənən münasibətlərdə iştirak edən bütün subyektlər geniş səviyyədə istifadə edirlər. Bu subyektlər arasında yaranan münasibətlər alqı-satqı, icarə, kirayə, bağışlama, dəyişmə, borc, daşıma, podrat, bank hesabı, depozit (bank əmanəti), lizinq, faktorinq və s. müqavilələr tətbiq edilə bilər[1].

3. Müqavilə azadlığı

Öhdəlik hüququ iki institutdan ibarətdir ki, müqavilə hüququ institutu bunlardan biridir. **Müqavilə hüququ institutu** müqavilənin anlayışı və şərtləri, onun bağlanması, dəyişdirilməsi və ləğv edilməsi və s. haqqında hüquq normalarını birləşdirir. Bu normaların sistemi və məcmusu **müqavilə hüququ** adlanır. Rusiya mülki hüquq doktrinasında mülki-hüquqi müqavilələrə aid olan materialın bir hissəsi öhdəliklər haqqında müddəa kimi başa düşülür. Almaniya mülki hüquq ədəbiyyatında «müqavilə hüququ» anlayışından çox nadir hallarda istifadə olunur[2]. Müqavilələr haqqında normalar Almaniya MQ-nin «Ümumi hissə»sinin (birinci kitabının) «Əqdlər» adlı üçüncü bölməsində «Müqavilə» fəslinə (§ 145-157) daxil edilmişdir. Müqavilənin ayrı-ayrı növləri MQ-nin digər fəsillərində ifadə olunan normalarla qaydaya salınır (məsələn, qanunnamənin ikinci kitabının ikinci bölməsinin birinci və ikinci fəsillərinə aid olan normalarla və s.)[3]. Belə təsəvvür yaranır ki, Almaniya MQ-də müqavilə haqqında normalar tam sistem halında birləşməmişdir. Almaniya hüquq ədəbiyyatında mülki hüquq sistemində müqavilələr haqqında materialın yeri müxtəlif cür müəyyənləşdirilir. K.Larens müqavilələr haqqında müddəaları MQ-nin ümumi hissəsində şərh edir[4]. Başqa müəlliflər, MQ-nin strukturuna əsaslanmaqla, müqavilə haqqında materialı əqdlər barədə müddəalarda, habelə öhdəlik hüququnun xüsusi hissəsində izah edirlər[5]. Yaponiya doktrinasında «müqavilə hüququ» anlayışından yox, «müqavilə» anlayışından istifadə olu-

[1] bax: *Кабалкин А.* Понятие и условия договора // Российская юстиция. 1996. № 6.
[2] *Messerzchmidt B.* Schuldrecht, s. 24. Burada «müqavilə hüququ» termini işlədilir.
[3] Германское право. Гражданское уложение. Часть 1. М., 1996.
[4] *Larenz K.* Allgemeiner Teil des Deutschen bürgerlichen Rechts.1989, s. 515 ff.
[5] *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 515 ff.

nur. Burada müqavilə barədə normalar öhdəlik hüququnda nəzərdən keçirilir[1]. Yaponiya MM-in 521-548-ci maddələri müqavilənin bağlanması, pozulması və onun nəticələrini müəyyənləşdirir.

Müqavilə hüququnun əsas və fundamental prinsipi **müqavilə azadlığı prinsipidir**. Bu prinsip MM-in 6-cı maddəsində təsbit edilmişdir. Həmin prinsip müqavilə bağlayan tərəflərin könüllü olaraq müqavilə münasibətlərinə girmələrini nəzərdə tutur. Müqavilə bağlamaq və onun şərtlərini müəyyənləşdirmək müstəsna olaraq tərəflərin razılığına və sazişinə əsaslanır ki, bu, onların xüsusi mənafeyi ilə şərtlənir. Bu isə təsadüfi deyildir. Axı, müqavilə münasibətlərinə daxil olan mülki hüquq subyektləri hüquq bərabərliyinə malikdirlər. Onların iştirak etdiklərin həmin münasibətlər hakimiyyət-tabeçilik əlaqəsi hesab edilmir.

Müqavilə azadlığı sosial-iqtisadi əhəmiyyətə malik olan prinsipdir. Bu prinsipin vacib rola malik olmasını nəzərə alaraq, mülki qanunvericilik onu təmin edən bir neçə qayda müəyyən etmişdir (MM-in 390-cı maddəsi). Bu qaydalara əsasən, müqavilə azadlığı prinsipi dörd müxtəlif aspektlərdə təzahür edir.

Birinci aspekt ondan ibarətdir ki, mülki hüquq subyektlərinə müstəqil olaraq, **heç kəsin iradəsindən asılı olmadan, öz mülahizə və istəklərinə görə, mənafelərini nəzərə almaqla müqavilə bağlamaq imkanı verilir**. Belə ki, müqavilə azadlığı prinsipinə görə, həmin subyektlər müqavilə bağlamaq və ya bağlamamaq məsələsini həll etməkdə tam azad və sərbəstdirlər. Qanun müəyyən edir ki, fiziki və hüquqi şəxslər azad surətdə müqavilələr bağlaya bilərlər (MM-in 390-cı maddəsinin 1-ci bəndi). Bununla bərabər, müqavilə azadlığı prinsipinə görə mülki hüquq subyektlərini onların istək və iradələrinin ziddinə olaraq müqavilə bağlamağa vadar etmək olmaz. Qanun nəzərdə tutur ki, müqavilə bağlamağa məcbur etməyə yol verilmir (MM-in 390-cı maddəsinin 3-cü bəndi). Bəzi hallarda bu qayda məhdudlaşır. Belə ki, MM-də və ya könüllü götürülmüş öhdəlikdə **subyektin müqavilə bağlamaq vəzifəsi** nəzərdə tutula bilər. Məsələn, pul məbləği və ya başqa daşınar əşya renta ödənilməsi üçün verildiyi hallarda, renta ödəyicisinin öhdəliyi lazımınca icra etməsi məqsədilə onun məsuliyyət risqini renta alanın xeyrinə sığortalamaq vəzifəsi müəyyənləşdirilir. Belə hallarda renta ödəyicisinin borcudur ki, sığorta təşkilatı ilə sığorta müqaviləsi bağlasın (MM-in 869-cu maddəsinin 2-ci bəndi). Başqa bir misalda girov qoyanın borcu və vəzifəsidir ki, girov qoyulmuş əmlakı sığorta etdirsin (MM-in 283-cü maddəsinin 1-ci bəndi). Göstərilən hər iki məqamda mülki hüquq subyekti qanunun göstərişləri əsasında müqavilə bağlamağa məcbur edilir. Bununla da müqavilə azadlığı prinsipinin birinci təzahür forması məhdudlaşır.

Müqavilə azadlığı prinsipinin birinci təzahür formasının hüquqi əhəmiyyətə malik olması nəticəsində planlı təsərrüfat həyatı şəraitinə uyğun gələn «təsərrüfat müqavilələri» adlı konstruksiyanın tətbiqi aradan qaldırıldı. Bu cür müqavilələr «əmrə əsaslanan» sovet iqtisadiyyatı üçün xarakterik idi. Əvvəlki sovet qanunvericiliyinə görə, mülki hüquq subyektləri təsərrüfat müqavilələri bağlamağa məcbur edilirdilər. Təsərrüfat müqaviləsi bağlamaq vəzifəsi müxtəlif

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 19-28.

plan və inzibati-hüquqi aktlarda nəzərdə tutulurdu. Məsələn, təsərrüfat müqavilələrinin əsası hesab edilən tədarük müqavilələri hər iki tərəf üçün məcburi olan məhsul bölgüsünə dair plan aktı ilə bağlı idi (1964-cü il MM-in 254-cü maddəsi).

Müqavilə azadlığı prinsipinin **ikinci təzahür forması (aspekti)** ondan ibarətdir ki, müqavilə bağlanarkən tərəflər **öz partnyorlarını seçməkdə tam sərbəstliyə və müstəqilliyə malikdirlər**. Subyekti onun arzulamadığı və istəmədiyi hər hansı bir mülki (əmlak) dövriyyə iştirakçısı ilə müqavilə bağlamağa, onu özünə partnyor, yəni tərəf müqabili seçməyə məcbur etmək olmaz. O öz mülahizəsinə və istəyinə görə mümkün olan subyektlər dairəsindən birini özünə partnyor seçir. Məsələn, vətəndaş pul vəsaitini əmanətə qoyarkən öz partnyorunu, yəni kredit təşkilatını (bankı) seçməkdə müstəqildir. O, istədiyi banka əmanətə pul qoya və bunun üçün bank əmanəti (depozit) müqaviləsi bağlaya bilər.

Müqavilə azadlığı prinsipinin **üçüncü təzahür forması (aspekti)** ondan ibarətdir ki, mülki hüquq subyektləri **müqavilə növünü seçməkdə tam müstəqilliyə malikdirlər**. Başqa sözlə desək, mülki (əmlak) dövriyyə iştirakçılarına şans verilir ki, onlar öz istəyinə uyğun gələn müqavilə növünü bağlasınlar. Subyektlər həm **MM-də nəzərdə tutulan, həm də nəzərdə tutulmayan müqavilələr bağlaya bilərlər**. Məsələn, tender müqaviləsi MM-də nəzərdə tutulmamışdır və yaxud MM rabitə xidməti, baytarlıq xidməti, tibbi xidmət, hüquqi xidmət, auditor xidməti, birgə fəaliyyət və digər hüquqi konstruksiyaları tənzimləmir. Subyektlər bu cür müqavilələrdən də istifadə edə bilərlər. Lakin bu cür hüquqi konstruksiyalar MM-ə zidd ola bilməz (MM-in 390-cı maddəsinin 1-ci bəndi).

Mövcud qanunvericilik bütün müqavilə növlərini nəzərə almaq və tənzimləmək iqtidarında deyil. Ona görə ki, formalaşmaqda olan bazar münasibətləri dinamik surətdə inkişaf edir. Bu münasibətləri qaydaya salmaq və rəsmiləşdirmək üçün, şübhəsiz ki, yeni-yeni müqavilə növlərinin yaranmasına həmişə ehtiyac olacaqdır. Ona görə də **mülki qanunvericilik mülki-hüquqi müqavilə növlərinin dəqiq və qəti siyahısını yox, təxmini siyahısını verir**. Lakin subyektlər buna baxmayaraq, həmin siyahıda adı çəkilməyən və nəzərdə tutulmayan müqavilə növlərindən istifadə edə bilərlər. Onlar öz aralarındakı münasibətə həm də qarışıq (kompleks) müqavilə adlı hüquqi konstruksiyanı tətbiq edə bilərlər. Qarışıq (kompleks) müqavilə elə bir hüquqi formadır ki, o özündə müxtəlif müqavilələrin elementlərini birləşdirir (MM-in 390-cı maddəsinin 4-cü bəndi).

Müqavilə azadlığı prinsipinin **dördüncü təzahür forması (aspekti)** ondan ibarətdir ki, **müqavilənin şərtlərini müəyyən etməkdə müqavilə bağlayan tərəflərə tam sərbəstlik və müstəqillik verilmişdir**. Kənardan hər hansı bir şəxs müqavilə şərtləri barədə müqavilə iştirakçılarına göstəriş verə bilməz. Onlar müqavilə şərtlərini özlərinin mənafelərini nəzərə almaqla, özlərinin mülahizəsinə görə müəyyən edirlər. Müqavilə şərtləri tərəflərin istəyi ilə müəyyənləşdirilir (MM-in 390-cı maddəsinin 5-ci bəndi). Lakin bəzi hallarda müqavilə şərtlərini tərəflərin öz istəyi əsasında müəyyən etmək hüququ məhdudlaşdırılır. Bu, o deməkdir ki, MM-də müqavilənin hər hansı bir şərtinin məzmunu barədə konkret göstəriş olduğu hallarda, tərəflər sərbəst və müstəqil surətdə

həmin müqavilə şərtinin məzmununu özləri müəyyən edə bilməzlər (MM-in 390-cı maddəsinin 5-ci bəndi). Məsələn, dövlət inhisarında olan mallar (neft məhsulları) satılarkən müqavilənin şərti kimi qiymət dövlət tərəfindən tənzimlənən tariflər əsasında müəyyən edilir. Yaşayış evinin alqı-satqı müqaviləsi yazılı formada bağlanır və notariat qaydasında təsdiqlənir, habelə daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınır (MM-in 647-ci maddəsi). Faktoring müqaviləsi yazılı formada bağlanır (MM-in 655-ci maddəsinin 5-ci bəndi). Bu, o deməkdir ki, tərəflər forma barədə müqavilə şərtini pozaraq, bu müqaviləni şifahi formada bağlamaq barədə razılığa gələ bilməzlər.

Müqavilə azadlığı prinsipi, şübhəsiz ki, mütləq xarakter daşımır. Tərəflər müqavilə şərtlərini müəyyənləşdirərkən mütləq hüquqlara malik deyillər. Belə ki, onların bağladıqları müqavilə şərtləri mövcud qanunvericilikdə ifadə olunan imperativ normalara (məcburi qaydalara) uyğun gəlməlidir (MM-in 390-cı maddəsinin 2-ci bəndi). Mövcud qanunvericilik dedikdə, həm qanunlar, həm də digər hüquqi aktlar (prezident fərmanları, Nazirlər Kabinetinin qərarları və s.) başa düşülür. Əgər müqavilə **onun bağlandığı vaxt qüvvədə olan normativ hüquqi aktlarda ifadə olunan imperativ normalara zidd olarsa, onda həmin müqavilə etibarsız hesab edilir**.

Bəzən də elə olur ki, müqavilə bağlandıqdan sonra yeni qanun qəbul edilir. Bu qanun müqavilə bağlanarkən qüvvədə olmuş qaydalardan fərqlənən, tərəflər üçün məcburi olan başqa qaydalar (imperativ normalar) müəyyən edə bilər. Belə halda bağlanmış müqavilə hansı qanunla — köhnə, yoxsa yeni qanunla tənzimlənəcəkdir? Həmin vəziyyətdə müqaviləyə **«qanunun geriyə qüvvəsi yoxdur»** kimi ümumi qayda tətbiq ediləcəkdir. Bu, o deməkdir ki, həmin müqavilə yeni qanunla yox, köhnə qanunla qaydaya salınır, yəni bağlanmış müqavilənin şərtləri öz qüvvəsini saxlayır. Bununla mülki dövriyyənin möhkəmliyi təmin edilir. Bu cür məqamlarda müqaviləyə qəbul olunan yeni qanun da tətbiq oluna bilər. Bunun üçün zəruridir ki, **həmin qanunda onun əvvəllər bağlanmış müqavilələrdən əmələ gələn münasibətlərə şamil edilməsi barədə birbaşa göstəriş olsun**[1]. Yeni qanun tətbiq olunanda əvvəlki müqavilə şərtləri öz hüquqi qüvvəsini itirir. Bu yolla mülki dövriyyənin inkişafına mane olan müqavilə şərtləri aradan qaldırılır və iqtisadi dövriyyə münasibətlərinin dinamikliyi təmin edilir.

Belə təsəvvür yaranır ki, sivil və inkişaf etmiş bazar iqtisadiyyatı şəraitində müqavilə azadlığı prinsipi mütləq (qeyri-məhdud) xarakterə malik ola bilməz. Belə ki, bu prinsip dövlət mənafeyi üçün və ya ictimai mənafe üçün məhdudlaşa bilər. Bu, onu ifadə edir ki, normativ aktlarda subyektlərin həyata keçirdiyi müqavilə azadlığı prinsipinin məhdudlaşdırılmasını şərtləndirən məcburi qaydalar (imperativ normalar) nəzərdə tutula bilər. Müqavilə azadlığının hədlərini müəyyənləşdirməyin vacib, sözün həqiqi mənasında, gündəlik praktiki əhəmiyyəti vardır[2].

[1] Əgər müqavilə bağlandıqdan sonra qanun qüvvəli normativ aktlar, yəni prezident fərmanları, hökumət qərarları və s. qüvvəyə minərsə, bağlanmış müqavilələrin şərtlərini dəyişə bilməz. Ona görə ki, yalnız qanunlar əvvəllər bağlanmış müqavilələrdən əmələ gələn münasibətlərə şamil olunması barədə qayda müəyyən edə bilər.

[2] *Medicus D.* Schuldrecht, s. 34 ff.

Müqavilə azadlığı prinsipi inhisarçılıq fəaliyyəti ilə əlaqədar olaraq məhdudlaşdırıla bilər. Belə ki, bəzi təsərrüfat subyektləri özlərinin hökmran mövqeyindən sui-istifadə edərək, inhisarçılıq fəaliyyəti göstərirlər. Bu cür hərəkətləri ilə onlar rəqabətin məhdudlaşmasına və istehlakçıların mənafeyinin pozulmasına səbəb olurlar. Həmin təsərrüfat subyektləri istehlakçılarla müqavilə bağlayarkən qiymət barədə müqavilə şərtini sərbəst surətdə müəyyənləşdirə bilməzlər. Onların məhsullarının (xidmətlərinin) qiymətləri üzərində dövlət nəzarəti müəyyən olunur, bəzi hallarda isə bazar qiymətinin yol verilən həddi tətbiq edilir. Əgər zəruri olarsa, müvafiq dövlət orqanları həmin təsərrüfat subyektləri tərəfindən barter əməliyyatlarının aparılmasını, yəni dəyişmə müqaviləsi bağlanmasını qadağan edə bilər («Antiinhisar fəaliyyəti haqqında» qanunun 14-cü maddəsi)[1]. Həmin orqanların ixtiyarı vardır ki, müqavilələrin məhdudlaşdırıcı bəndlərini (şərtlərini) ləğv etsin.

Müqavilə azadlığı prinsipinin mütləq, yəni qeyri-məhdud dərəcədə tətbiqi **hüquqdan sui-istifadə halına səbəb olur**. Hüquqdan sui-istifadə xüsusi xarakterli mülki hüquq pozuntusudur. Subyekt formal olaraq müqavilə azadlığı prinsipinə əsaslanaraq, onu konkret şəkildə həyata keçirərkən öz hərəkəti ilə başqa şəxsin qanunla qorunan mənafeyini və hüququnu pozur. Məsələn, vətəndaş aylıq 10%-lə qonşusuna borc pul verir. Hal-hazırda banklar aylıq 2%-lə kredit verir və aylıq 10 %-lə borc vermək bank faizinin dərəcəsinə uyğun gəlmir. Ona görə də bu cür borc müqaviləsi bağlamaq hüquqdan sui-istifadədir, yəni hüquq pozuntusudur.

Almaniya Mülki Qanunnaməsi müqavilə azadlığı barədə ayrıca paraqraf nəzərdə tutmur (Azərbaycan Respublikası MM-inin 390-cı maddəsinin müəyyənləşdirdiyi qaydada). Amma buna baxmayaraq, sivilistika doktrinası MQ-də ifadə olunan göstərişlərə əsaslanmaqla müqavilə azadlığı prinsipini formulə edir[2]. Bu prinsip əhatə edir:

- müqavilə bağlamaq azadlığını (Abschlussfreiheit);
- müqavilənin məzmununu müəyyənləşdirmək azadlığını (Gestaltungsfreiheit);
- müqavilə tipini seçmək azadlığını (Formfreiheit).

Bununla belə, müqavilə azadlığı prinsipini sui-istifadə hallarından qorumaq və sosial dövlətin mənafeyini müdafiə etmək üçün bu prinsip məhdudlaşdırıla bilər[3]. Yaponiya MM-də də müqavilə azadlığı prinsipini ifadə edən ayrıca maddəyə rast gəlmirik. Amma Yaponiya mülki hüquq doktrinası müqavilə bağlama azadlığı prinsipini müəyyənləşdirir, onun məhdudlaşdırılması qaydasını göstərir[4].

§ 2. Müqavilənin məzmunu və forması

1. Müqavilənin məzmunu

Mülki-hüquqi müqavilə anlayışı üç vacib elementdən ibarətdir:

- subyekt tərkibindən;

[1] bax: AR QK, II cild, s. 50.

[2] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 376.

[3] *Musielak H.-J.* Grandkurs BGB. München. 1999, s. 40; *Brox H.* Allgemeines Schuldrecht. München. 1993, s. 20.

[4] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 20.

• məzmundan;
• formadan.

Subyekt tərkibi dedikdə, müəyyən müqavilənin bağlanmasında və ya onun həyata keçirilməsində iştirak edən şəxslər başa düşülür. Buraya, əsasən, müqavilədən yaranan qarşılıqlı hüquq və vəzifələrin daşıyıcıları olan şəxslər daxildir. Söhbət kreditor və borclu şəxsdən gedir. Onlar **müqavilənin tərəfləri** adlanırlar. Bununla bərabər, həm kreditor tərəfində, həm borclu tərəfində çıxış edən şəxslər müqavilənin subyekt tərkibinə aiddirlər.

Müqavilənin məzmununa gəldikdə isə, hər şeydən əvvəl, qeyd edək ki, hüquqi fakt kimi müqavilənin məzmunu anlayışını, öhdəlik hüquq münasibətini əhatə və ifadə edən müqavilənin məzmunu anlayışından fərqləndirmək lazımdır. **Öhdəlik hüquq münasibətini əhatə edən müqavilənin məzmunu** dedikdə, müqavilə bağlayan tərəflərin hüquq və vəzifələri başa düşülür. Məsələn, alqı-satqı müqavilə öhdəliyində satıcının əşyanı alıcıya vermək, onu sığortalamaq vəzifəsi, alıcının əşyanı qəbul edib, əvəzində pul məbləği ödəmək vəzifəsi, habelə onların hər ikisinin hüquqları (məsələn, satıcının əşyanın pulunu alıcıdan tələb etmək hüququ, alıcının əşyanın verilməsini satıcıdan tələb etmək hüququ və s.) müqavilənin məzmununu təşkil edir.

Hüquqi fakt (əqd) kimi müqavilənin məzmununa gəldikdə isə qeyd etmək lazımdır ki, müqavilə bağlayan tərəflərin öz aralarında razılığa gəldikləri və nail olduqları şərtlərin məcmusu müqavilənin məzmununu təşkil edir. Bəzi müəlliflər tərəflərin hüquq və vəzifələrini də hüquqi fakt (əqd) rolunda çıxış edən müqavilənin məzmununa daxil edirlər[1]. Bu fikir, şübhəsiz ki, həqiqətdən uzaqdır. Ona görə ki, tərəflərin hüquq və vəzifələri, yuxarıda göstərdiyimiz kimi, öhdəlik hüququ münasibətini ifadə edən müqavilənin (hüquqi fakt rolunda çıxış edən müqavilənin yox) məzmununa daxildir.

Beləliklə, **hüquqi fakt (əqd) rolunda çıxış edən müqavilənin məzmunu dedikdə, şərtlərin elə bir məcmusu başa düşülür ki, bu şərtlər müqavilə bağlayan tərəflərin razılığı ilə müəyyən edilir**. Tərəflərin barəsində razılığa gəldikləri həmin şərtlər əsasında müqavilənin məzmunu açıqlanır. Müqavilə şərtləri müvafiq hüquq münasibətini, onun subyektini və predmet tərkibini, habelə qiyməti və müddəti və s. konkretləşdirməyə imkan verir.

Müqavilənin şərtləri **tərəflərin davranışının iradəvi modelidir**. Ona görə ki, müqavilə tərəflərin sazişi deməkdir. K.Marksın göstərdiyi kimi, müqavilə tərəflərin öz iradələrini hüquqi cəhətdən ifadə etdikləri son nəticədir[2]. Digər tərəfdən iqtisadi münasibətlər, hər şeydən əvvəl, mənafe və maraq kimi təzahür edir, yəni bu münasibətlər özlərini mənafe və maraq anlayışında ifadə edir[3]. Ayrı-ayrı şərtlər isə tərəflərin konkret mənafe və maraqlarının hüquqi cəhətdən iradəvi ifadəsidir. Bu, tərəflər arasında hüquqi əlaqə yaradan müqavilənin müəyyən komponentinə aid olan maraqdır. Məsələn, alıcı üçün əldə olunan əşyanın keyfiyyəti, sərnişin üçün təyyarənin uçuş vaxtı və s. xüsusi maraq doğurur.

MM-in 390-cı maddəsinin 5-ci bəndinə əsasən, **müqavilə şərtləri tərəflərin istəyi və razılığı ilə müəyyənləşdirilir**. Bəzi istisna hallarda müqavilənin konkret şərtinin məzmunu qanunla və digər hüquqi aktlar ilə müəyyən olunur. Biz bu barədə bundan əvvəlki paraqrafda danışmışıq.

[1] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *П.Е.Орловского* и *С.М.Корнеева*. М., 1969, с. 458.

[2] *Маркс К., Энгельс Ф.* Соч., Том 23, с. 187.

[3] *Маркс К., Энгельс Ф.* Соч., Том 18, с. 271.

Hüquq ədəbiyyatında **öz hüquqi əhəmiyyətinə görə** bütün müqavilə şərtlərini üç yerə bölürlər[1]:

• mühüm şərtlərə;
• adi şərtlərə;
• təsadüfi şərtlərə[2].

Müqavilənin bağlanması üçün zəruri olan və kifayət edən şərtlərə **müqavilənin mühüm şərtləri** deyilir. Bu, müqavilənin məcburi şərti hesab edilir. Bu, o deməkdir ki, müqavilənin bağlanmış sayılması üçün onun bütün mühüm şərtləri barədə tərəflərin razılığa gəlmələri tələb olunur. Tərəflər müqavilənin bütün mühüm şərtləri barəsində razılığa gəldikdə, müqavilə bağlanmış sayılır (MM-in 405-ci maddəsinin 1-ci bəndi). Əgər müqavilənin mühüm şərtlərindən heç olmazsa, biri barədə tərəflər razılığa gəlməzsə, onda müqavilənin bağlanmasından söhbət gedə bilməz. Ona görə də zəruridir ki, hansı müqavilə şərtlərinin mühüm şərt hesab edilməsi müəyyənləşdirilsin. Bunun üçün mülki qanunvericilik müəyyən qayda müəyyən edir ki, bu, MM-in 405-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulmuşdur. Həmin qaydaya görə, müqavilənin mühüm şərtlərinə üç qrup şərt daxil edilir:

• müqavilənin predmetinə dair şərtlər;
• MM-də həmin növ müqavilələr üçün mühüm və ya zəruri adlandırılmış şərtlər;
• tərəflərdən birinin müraciəti ilə barəsində razılaşma əldə edilməli olan bütün şərtlər.

Müqavilənin predmeti bütün müqavilələrin mühüm şərti hesab olunur. Onun müəyyən edilməsi barədə tərəflər razılığa gəlməsələr, onda bu hal müqavilənin bağlanmamış sayılmasına dəlalət edir. Başqa sözlə desək, əgər müqavilənin predmetinin nədən ibarət olması müəyyən edilməsə, bu, o deməkdir ki, müqavilə bağlanmamışdır. Ona görə də müqavilə iştirakçılarının borcudur ki, müqavilənin predmeti kimi çıxış edən obyekti müəyyən etsinlər. Müqavilənin bu kimi mühüm şərti predmetin adını, onun kəmiyyət və keyfiyyət xarakteristikasını əhatə edir. Əgər satıcı ilə alıcı hansı əşyanın satılmasını müəyyənləşdirsələr, onda alqı-satqı müqaviləsi bağlanmış hesab edilir. Əgər podratçı (tikinti təşkilatı) ilə sifarişçi hansı obyektin tikintisi barədə razılığa gəlməsələr, onda podrat müqaviləsinin bağlanmasından söhbət gedə bilməz. Əgər borc verənlə borc alan hansı məbləğdə pulun borc verilməsi barədə razılığa nail olmasalar, bu halda müqavilə bağlanmamış hesab edilir. Əgər daşıyıcı (nəqliyyat təşkilatı) ilə yük göndərən hansı yükün göndərilməsi barədə öz aralarında razılıq əldə etməsələr, onda daşıma müqaviləsi bağlanmamış sayılır.

[1] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1969, с. 423-425; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 499; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 369-370.

[2] Bu şərtlər ölkələrin çoxuna məlumdur (bax: Гражданское и торговое право капиталистических государств. Учебное пособие / Отв. ред. К.К. Яичков. М., 1966, с. 180).

Müqavilənin predmeti kimi çox vaxt əşyalar çıxış edir. Məsələn, alqı-satqı, pərakəndə alqı-satqı, mal göndərmə, icarə, kirayə, lizinq və s. müqavilələrin predmetini əşya (mal) təşkil edir. Müqavilənin predmetini borclu tərəfin etməli olduğu hərəkətlər də təşkil edə bilər. Hərəkətlər dedikdə, həm hüquqi xarakterli (məsələn, komissiya müqaviləsinin predmetini hüquqi hərəkətlər təşkil edir), həm də faktiki xarakterli hərəkətlər (məsələn, saxlama müqaviləsinin, daşıma müqaviləsinin predmeti kimi faktiki hərəkətlər çıxış edir) başa düşülür. Hüquqi xarakterli və faktiki xarakterli hərəkətlər birlikdə bəzi müqavilələrin (məsələn, ticarət agenti müqaviləsinin) predmeti kimi çıxış edə bilər. Bəzi müqavilələrin (məsələn, borc və kredit müqavilələrinin və s.) predmetini pul təşkil edir. Elə müqavilə növü ilə (məsələn, faktorinq müqaviləsi ilə) rastlaşırıq ki, onun predmeti tələb hüququndan ibarətdir.

İkinci qrup şərtlər o şərtlərdir ki, onlar **MM-də bəzi müqavilə növləri üçün zəruri[1] və ya mühüm şərtlər adlandırılmış olsun**. Məsələn, MM-in 869-cu maddəsinin 2-ci bəndi nəzərdə tutur ki, renta ödəyicisinin öz öhdəliklərinin icrasına təminat vermək vəzifəsini müəyyənləşdirən şərti renta müqaviləsinin (pul məbləğinin və ya digər daşınar əşyanın renta ödənilməsi üçün verilməsini nəzərdə tutan müqavilənin) mühüm şərti hesab edilir.

Üçüncü qrup mühüm şərtlər odur ki, **tərəflərdən birinin müraciəti ilə həmin şərt barəsində razılıq əldə edilsin**. Bu, onu ifadə edir ki, tərəflərdən birinin istəyi və arzusu ilə müqavilənin hüquqi təbiətini ifadə etməyən, MM-də mühüm sayılmayan hər hansı bir şərt mühüm şərt hesab edilir. Məsələn, satılan əşyanın çeşidi alqı-satqı müqaviləsinin mühüm şərti hesab edilmir. Bunu MM nəzərdə tutmur. Lakin satılan əşyanın çeşidi alıcı üçün mühüm və vacib əhəmiyyət kəsb edə bilər. Ona görə də alıcı satılan əşyanın çeşidi barədə şərti müqavilənin mühüm şərti hesab edilməsi barədə satıcıya müraciət edir. Tərəflərin razılığı ilə əşyanın çeşidi müqavilənin mühüm şərti hesab olunur.

Müqavilənin mühüm şərtləri iki yerə ayrılır: qanuna əsaslanan mühüm şərtlər; təşəbbüsə əsaslanan mühüm şərtlər. **Qanuna əsaslanan mühüm şərtlər** (obyektiv şərtlər) dedikdə, MM ilə təyin edilən və müəyyənləşdirilən şərtlər başa düşülür. Məsələn, müqavilənin predmeti haqqında şərt bu cür şərtə misal ola bilər. **Təşəbbüsə əsaslanan mühüm şərtlərə** (subyektiv şərtlər) gəldikdə isə qeyd etmək lazımdır ki, bu cür şərtlər tərəflərin razılığı və istəyi ilə müəyyənləşdirilir. Məsələn, müvafiq müqavilə növü üçün müddət mühüm şərt kimi nəzərdə tutulmuş olmasa da, tərəflər razılığa gəlirlər ki, müddət müqavilənin mühüm şərti sayılsın.

[1] Bu məsələ barəsində qanunverici ciddi qüsura yol verir. Analoji qüsura RF MM-inin 432-ci maddəsində də yol verilmişdir. Qanunvericinin qüsuru ondan ibarətdir ki, o, iki qrup müxtəlif, bir-birindən fərqli olan mühüm şərti bir qrupda vermişdir. Burada iki qrup mühüm şərtlərdən söhbət gedir: MM ilə mühüm sayılan şərtlərdən; həmin müqavilə növü üçün zəruri olan şərtlərdən. Bunu nəzərə alaraq, bəzi müəlliflər onları ayrı-ayrı şərtlər qrupu kimi nəzərdən keçirmişlər (bax: Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 164; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 500). 1964-cü il MM-in 152-ci maddəsində də iki qrup müqavilə şərtindən söhbət gedir. Ona görə də «bu Məcəllədə həmin növ müqavilələr üçün mühüm və ya zəruri adlandırılmış şərtlər» ifadəsinin «bu Məcəllə ilə mühüm sayılan və ya həmin müqavilə üçün zəruri olan şərtlər» kimi ifadə ilə əvəz edilməsini təklif edirik. Həmin normanın qüsurlu olması bəzi müəlliflər tərəfindən də göstərilmişdir (bax: Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 164; Комментарий части первой Гражданского кодекса Российской Федерации для предпринимателей. М., 1996, с. 347).

Müqavilənin adi şərti dedikdə, onun hüquqi qüvvəyə malik olmasına dəlalət etməyən şərtlər başa düşülür. Adi şərtlərin hüquqi əhəmiyyət kəsb etməsi üçün tərəflərin razılığa gəlmələri tələb olunmur. Müqavilənin adi şərti müvafiq öhdəlik hüquq münasibətini tənzim edən **dispozitiv normalarla müəyyənləşdirilir**. Ona görə də əksəriyyət müqavilələr üçün dispozitiv normalarda nəzərdə tutulan şərtləri ənənəvi olaraq müqavilənin adi şərtləri hesab edirlər. Belə zənn edilir ki, bütün mühüm şərtlər barədə razılığa gələrək müqavilə bağlayan tərəflər avtomatik olaraq həm də adi müqavilə şərtləri barədə sazişə nail olurlar. Beləliklə, müqavilə bağlanarkən **adi şərtlər barədə tərəflərin hər hansı bir xüsusi razılıq əldə etmələri tələb olunmur**. Bundan əlavə, əgər tərəflər adi müqavilə şərtləri barədə razılığa gələrsə, onda bu cür razılıq heç bir praktiki nəticəyə səbəb olmur. Belə ki, **qanunda ifadə olunan göstərişə görə müqavilənin adi şərtləri razılıq olmadan da müqaviləyə daxil edilmiş hesab olunur**. Belə təsəvvür yaranır ki, adi şərtlər müvafiq normativ aktda nəzərdə tutulur və bu şərtlər müqavilə bağlanan anda avtomatik olaraq qüvvəyə minir. Güman edilir ki, əgər tərəflər hər hansı bir müqavilə bağlamaq barədə razılıq əldə edərlərsə, bu hərəkətlə onlar həmin növ müqaviləni tənzimləyən qanunvericilik aktlarında nəzərdə tutulan şərtlər barədə sazişə nail olurlar. Məsələn, podrat müqaviləsi bağlanarkən sifarişçi ilə podratçı (tikinti təşkilatı) görülmüş işin (məsələn, yaşayış evinin) təsadüfən məhv olması risqi barədə razılığa gəlmirlər. Lakin bu şərt barədə tərəflərin xüsusi saziş və razılığının olmaması müqavilənin bağlanmış sayılmasına və hüquqi qüvvəyə minməsinə dəlalət etmir. Belə halda həmin şərti tənzimləmək üçün MM-in 772-ci maddəsinə istinad etmək lazımdır. Bu maddəyə görə, görülmüş işin təsadüfən məhv olması risqi işin sifarişçiyə verildiyi vaxtadək podratçının üzərinə düşür. İşin nəticəsinin sifarişçiyə verilməsi ilə bir vaxtda təsadüfi məhv olma risqi də ona keçir. Deməli, görülmüş işin təsadüfən məhv olması risqi barədə şərt podrat müqaviləsinin adi şərtidir.

Başqa bir misalda vətəndaş öz qonşusuna mebel satır və onunla alqı-satqı müqaviləsi bağlayır. Lakin müqavilədə mebelin qiyməti göstərilmir. Müqavilədə bu cür şərtin nəzərdə tutulmaması onun bağlanmış sayılmasına və hüquqi qüvvəyə malik olmasına təsir göstərmir. Ona görə ki, belə halda MM-in 597-ci maddəsinin 1-ci bəndində və 398-ci maddəsinin 3-cü bəndində ifadə olunan göstəriş tətbiq edilir. Belə ki, mebellə müqayisəyə gələn və ona oxşar olan malların qiyməti əsas götürülür və nəzərə alınır. Göründüyü kimi, qiymət barədə şərt müqavilədə nəzərdə tutulmasa da, müqavilə hüquqi qüvvəyə və əhəmiyyətə malik oldu. Deməli, **qiymət müqavilənin adi şərtidir**.

Ümumiyyətlə, qiymət bütün əvəzli müqavilələrin adi şərti hesab edilir[1]. Əgər qanunda nəzərdə tutularsa, onda qiymət əvəzli müqavilənin mühüm şərti hesab edilir. Qiymət, bir qayda olaraq, tərəflərin razılığı ilə müəyyən edilir.

[1] Bəzi müəlliflər göstərir ki, qiymət bütün əvəzli müqavilələrin mühüm şərtidir (bax: Комментарий части первой, Гражданского кодекса Российской Федерации для предпринимателей / Под ред. *В.Д.Карповича*. М., 1995, с. 337). Bu fikirlə çətin ki razılaşmaq olar. Belə ki, müqavilədə qiymətin göstərilməməsi heç də onun bağlanmamış sayılmasına dəlalət etmir.

Qanunda nəzərdə tutulan hallarda iki qaydada qiymət müəyyən edilir: müəyyənləşdirmə qaydasında; tənzimetmə qaydasında. Birinci halda qiymət müvafiq dövlət orqanı tərəfindən müəyyənləşdirilir. Müəyyənləşdirilən qiymətlər konkret qiymətləri ifadə edir. Tənzimlənən qiymətləri də dövlət orqanı müəyyən edir. Bu, qiymətlərin müəyyən bir hədd səviyyəsini ifadə edir. Əgər dövlət orqanı tariflər, normalar, dərəcələr müəyyən edərsə, bu, tənzimlənən qiymətlər hesab edilir. Onlar tərəflər üçün məcburidir.

Qiymət haqqında şərt konkret qiyməti müəyyənləşdirmək yolu ilə nəzərdə tutula bilər. Tərəflər başqa variant da seçə bilərlər. Belə ki, onlar bu halda ancaq qiymətin müəyyən edilməsi qaydası barədə razılığa gəlirlər. Bu, müqavilənin qiyməti barədə tərəflərin razılığa gəlmələrini ifadə edir. Qiymət manatla ifadə edilir. Əgər münasibətlərdə xarici şəxslər (heç olmazsa, biri) çıxış edərsə, onda müqavilənin qiyməti xarici valyutada da ifadə oluna bilər. Əgər bu, qanunla qadağan edilibsə, qiymət xarici valyutada müəyyənləşdirilə bilməz (MM-in 439-cu maddəsinin 1-ci bəndi).

Elə hallar da olur ki, müqavilədə qiymət göstərilmir və müqavilə şərtlərinə əsasən onu müəyyənləşdirmək mümkün olmur. Belə halda qiymət müqavilənin predmeti olan əşyaya (və ya hərəkətlərə, yəni işlərə, xidmətlərə) müqayisəyə gələ bilən oxşar mallar (və ya oxşar hərəkətlər) üçün alınan qiymət əsasında müəyyənləşdirilir (MM-in 398-ci maddəsinin 3-cü bəndi).

Bəzi münasibətlərdə müqavilənin qiyməti bazar qiymətini ifadə edir. Məsələn, komisyonçu komitentin ona verdiyi malı (məsələn, komisyon mağazasına qoyulmuş minik avtomobilini) özü üçün ala bilər. Belə halda malların bazar qiymətindən istifadə etməklə müqavilənin qiymətini müəyyənləşdirmək olar (MM-in 816-cı maddəsinin 1-ci bəndi). **Bazar qiymətləri** dedikdə, bazarda satılan malın faktiki qiymətləri başa düşülür[1].

İcra müddəti haqqında şərt də müqavilənin adi şərti hesab edilir. Bu şərt əgər müqavilədə nəzərdə tutulmazsa, onda MM-in 427-ci maddəsində müəyyənləşdirilən qayda tətbiq edilir. Belə ki, müqavilədə icranın müddəti təyin edilməyibsə və ya şəraitə görə onu təyin etmək mümkün deyildirsə, onda kreditor öhdəliyin dərhal icra edilməsini borcludan tələb edə bilər, kontragent (tərəf müqabili) isə onu ağlabatan müddətdə icra etməyə borcludur[2]. Ağlabatan müddət normal müddəti ifadə edir. Məsələn, vətəndaş qonşuya borc verir. Müqavilədə qonşunun hansı müddətdə borcu geri qaytaracağı göstərilmir. Belə halda yuxarıda göstərdiyimiz qayda tətbiq edilir.

İşgüzar dövriyyə adətləri də müqavilənin adi şərtinə şamil edilir. Bəzi hallarda o, müqavilənin adi şərti kimi müqavilə bağlayan tərəflərin münasibətini tənzim edə bilər. Lakin bunun üçün vacibdir ki, müqavilə şərti onun iştirakçıları tərəfindən və ya dispozitiv norma ilə müəyyənləşdirilməsin (MM-in 390-cı maddəsinin 7-ci bəndi).

Təsadüfi şərtlər dedikdə, ümumiyyətlə, hüquq normaları ilə tənzimlənmə-

[1] bax: *Feyzullabəyli İ.Ə.* Real bazara doğru. Bakı. 1993, s. 63.

[2] Müqavilənin icra müddəti və qiyməti haqqında şərtlərin aid şərtlərə aid edilməsi beynəlxalq ticarət dövriyyəsini tənzimləyən əsas sənəd olan «Beynəlxalq mal alqı-satqı müqavilələri haqqında» Vyana konvensiyasında ifadə olunmuşdur (Венская конвенция о договорах международной купли - продажи товаров. Комментарий. М., 1994, с. 94-96, 146-147).

yən məsələlər barəsində tərəflərin razılığa gəldikləri şərtlər və ya dispozitiv normalarda ifadə olunan ümumi qaydalardan kənaraçıxma haqqında onların sazişi başa düşülür. Bu şərtlər müqavilə bağlayan subyektlərin özləri tərəfindən formulə edilir. Özü də həmin şərtlər qanunda ifadə olunan ümumi qaydaları dəyişdirmək və ya onlara əlavə etmək niyyətilə müqaviləyə daxil edilir. Bu cür şərtin müqaviləyə daxil edilməsi güman edilmir və zənn olunmur, yəni ehtimala əsaslanmır. Adi şərtlərdən fərqli olaraq, **təsadüfi şərtlər yalnız müqaviləyə daxil edildikdə hüquqi qüvvəyə malik olur**. Bu şərtlərin təyinatı adi şərtləri dəyişdirməkdən və ya ona əlavələr etməkdən ibarətdir.

Belə təsəvvür yaranır ki, adi şərtlərdən fərqli olaraq, təsadüfi şərtlər barədə tərəflərin razılığa gəlmələri məcburi xarakter daşıyır. Bu şərtlər hökmən müqavilənin mətninə daxil edilməlidir. Əgər bu şərtlər müqavilədə nəzərdə tutulmazsa, adi şərtlər kimi avtomatik olaraq hüquqi qüvvəyə malik olmur. Məsələn, alqı-satqı müqaviləsi haqqında normalar (MM-in 29-cu fəslinin 1-ci paraqrafı) satılmış əşyanın alıcıya çatdırılmasını təmin edən nəqliyyat vasitəsi və onun növü haqqında məsələni qaydaya salmır. Alıcı və satıcı əşyanın hava yolu ilə çatdırılması barədə razılığa gəlirlər. Bu, alqı-satqı müqaviləsinin təsadüfi şərtidir.

MM-in 571-ci maddəsinin 1-ci bəndinə görə, alqı-satqı müqaviləsinə əsasən satılan əşyanın təsadüfən məhv olması risqi əşya alıcıya təhvil verildiyi andan alıcıya keçir. Bu, dispozitiv normadır. Özü də müqavilənin adi şərtini nəzərdə tutur və ümumi qayda müəyyən edir. Alıcı və satıcı bu ümumi qaydadan kənara çıxaraq, belə razılığa gəlirlər ki, satılan əşyanın təsadüfən məhv olması risqi alqı-satqı müqaviləsi bağlandığı andan alıcıya keçsin. Bax, bu şərt adi şərti dəyişdirir və müqavilənin təsadüfi şərti hesab edilir. Beləliklə, bu cür şərt müəyyən etməklə tərəflər ümumi qaydadan kənara çıxırlar. Qanun tərəflərə bu cür imkan verir. Belə ki, müqavilənin şərti dispozitiv norma ilə müəyyənləşdirildiyi hallarda, tərəflər qarşılıqlı razılıq əsasında onun tətbiqindən imtina etmək və yaxud onun nəzərdə tutduğundan fərqli şərt müəyyənləşdirmək hüququna malikdirlər (MM-in 390-cı maddəsinin 6-cı bəndi).

Mühüm, adi və təsadüfi şərtlərdən başqa, müqavilənin standart şərtləri də mövcuddur.

2. Müqavilənin standart şərtləri

Müqavilənin standart şərtləri onun xüsusi xarakterə malik olan şərtləri hesab edilir[1]. Bu şərtlər ilk dəfədir ki, bizim ölkə qanunvericiliyində nəzərdə tutulur. Əvvəlki köhnə qanunvericiliyə müqavilənin standart şərtləri adlı anlayış məlum deyildi. Müasir əmlak dövriyyəsində müqavilənin standart şərtlərinin rolunu nəzərə alaraq Azərbaycan Respublikasının yeni MM-i onların tənzimlənməsinə xüsusi diqqət yetirir. Belə ki, MM-in 20-ci fəslinin 3-cü paraqrafında (417-420-ci maddələrdə) ifadə olunan normalar həmin şərtlərin nizama salınmasına həsr edilmişdir.

Standart (nümunəvi) şərtlərin tarixi kökləri qədim Roma hüququ ilə bağlıdır. Roma hüquqşünasları müəyyən hallarda bu cür şərtlər formulə edirdilər. Bu-

[1] Hüquq doktrinasında onlar «nümunəvi müqavilə şərtləri» də adlandırılır (*А.Жалинский. А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 383).

nunla onlar hüquq münasibətlərini hərtərəfli sığortalamağa cəhd göstərirdilər.

Standart (nümunəvi) şərtlərin sonrakı inkişafı XIX əsrdə Avropada sənaye inqilabı ilə bağlıdır. Bu şərtlər məhz həmin inqilab nəticəsində yaranmışdır. Belə ki, XIX əsrin ikinci yarısında Avropada sənaye inqilabı sayəsində malların fərdi istehsalının yerini malların kütləvi istehsalı tutur. Kütləvi istehsal malların seriyalarla buraxılmasına əsaslanır və nisbətən çoxsaylı alıcılar üçün nəzərdə tutulur.

İlk dəfə olaraq xidmət sahəsində fəaliyyət göstərən müəssisələr standart şərtlərdən istifadə etməyə başladılar. Söhbət, hər şeydən əvvəl, sığorta, nəqliyyat və bank müəssisələrindən gedir. Tədricən müqavilə azadlığı prinsipinin məhdudlaşdırılmasının vacibliyi etiraf edilir.

Birinci dünya müharibəsindən sonra malların kütləvi istehsalının yüksəlməsi şəraitində standart şərtlərdən istifadə edilməsi daha da artır. Müasir dövrdə bu şərtlərin cəmiyyətin iqtisadi həyatına dərindən nüfuz etməsinin şahidi oluruq.

Müqavilənin standart şərtləri xarici Qərb ölkələrinin qanunvericiliyində geniş yayılmışdır[1]. Həmin ölkələrdə xeyli müddətdir ki, sahibkarlar (satıcılar, xidmət və iş icraçıları) standart və ya birtipli müqavilələrdən kütləvi surətdə istifadə edirlər. Bu müqavilələrdə standart şərtlər nəzərdə tutulur ki, bu şərtlər əsasında onlar istehlakçılara mal satırlar, iş görürlər və ya xidmət göstərirlər. Məhz standart (birtipli) müqavilələr və onların ümumi (standart) şərtləri istehlakçıların hüquqlarının pozulmasına geniş şərait və imkan yaradır. Belə ki, istehlakçılar, bir qayda olaraq, ticarət palatalarında, korporasiya və kompaniyaların iqamətgahlarında (ofislərdə) işlənib hazırlanan və istinad şərtləri kimi müqaviləyə daxil edilən ümumi (standart) şərtlərə bələd ola bilmirlər. İstehlakçıların standart müqavilənin tam mətni ilə tanış olmaq imkanı əldə etmələrinə baxmayaraq, bu mətnin şrifti və həcmi, adətən, istehlakçılarda həmin mətnin diqqətlə oxunmasına istək yaratmır. Digər tərəfdən, mal və xidmət təklif edən sahibkarlar məlum məsələdir ki, standart müqavilələrdə özü üçün sərfəli, haqsız və əsassız şərtlər nəzərdə tuturlar (məsələn, qiymət, məsuliyyət, müqavilədən imtina, müqavilənin dəyişdirilməsi və digər məsələlər barəsində). Bundan əlavə, çox vaxt istehlakçılar müqaviləyə dəyişiklik etmək imkanına malik olmurlar. Belə ki, istehlakçılarla müqavilə bağlayan firmanın işçisinin standart müqaviləyə dəyişiklik etmək səlahiyyəti yoxdur.

Bütün bu hallar mal və xidmət təklif edən sahibkarlara özlərinin üstün mövqeyindən və vəziyyətindən istehlakçıların mənafeyi ziddinə olaraq, istifadə etmək imkanı verir. Belə vəziyyətdə standart müqavilələr və onların standart şərtləri istehlakçıların hüquqlarını pozmaq vasitəsinə çevrilir. Məhz bu səbəbdən standart (birtipli) müqavilələrin haqsız və əsassız şərtlərindən, ədalət və vicdan kateqoriyaları ilə bir araya sığmayan və onlara zidd olan müddəalarından istehlakçıların hüquqlarının müdafiə edilməsinə ehtiyac yaranır[2]. Bunun

[1] Xarici ölkələrin (Almaniyanın, Yaponiyanın, Böyük Britaniyanın və s.) qanunvericiliyində müqavilənin standart şərtlərinin tənzimlənməsi barədə ətraflı məlumat üçün bax: Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 401-416.

[2] Almaniya müəllifi Lüdviq Rəyzer göstərir ki, nümunəvi (standart) şərtlər müqavilə azadlığını məhdudlaşdırır. Belə məhdudlaşdırmanı o, istehlakçıların mənafeyi ilə yox, iqtisadi subyektlərin müqavilə azadlığı prinsipindən sui-istifadə edərək cəmiyyətə zərər vurması ilə izah edir (*Raiser L.* Das Recht der AGB. 1953). Flume adlı başqa bir müəllif Rayzerin mövqeyini ictimai mistisizm adlandırır (*Flume.* Allgermeiner Teil Bürgerliches Recht. § 37)

üçün Qərb ölkələrinin qanunvericiliyi standart (birtipli) müqavilələrin tənzimlənməsinə xüsusi diqqət verir.

Müqavilənin standart şərtlərini tənzimləyən ilk Avropa ölkəsi İtaliya sayılır. İtaliyanın 1942-ci il MM-inin üç maddəsi (1341-ci, 1342-ci və 1370-ci maddələri) bu məsələnin nizama salınmasına həsr edilmişdir. Bundan sonra İsraildə standart şərtlər barədə xüsusi qanunvericilik aktı qəbul olundu. Belə ki, 1964-cü ildə bu ölkədə standart müqavilələr haqqında qanun qüvvəyə mindi. Həmin qanunda sahibkarların işləyib hazırladıqları standart müqavilələri inzibati məhkəmələrdə təsdiq etdirmək vəzifəsi nəzərdə tutulur. Qanun prokurorluq orqanlarına hüquq verir ki, onlar standart müqavilələrin məzmunu üzərində nəzarəti həyata keçirsinlər.

XX əsrin 70-ci illərində Danimarkada qəbul edilən müqavilələr haqqında qanunda ilk dəfə olaraq belə bir norma nəzərdə tutuldu ki, bu norma sahibkarlar tərəfindən əvvəlcədən işlənib hazırlanan standart şərtlərdən hansılarının etibarsız sayılmasını müəyyənləşdirməyə imkan verir. Analoji qayda digər Avropa ölkələrinin qanunvericiliyində də yarandı. 1976-cı ildə Almaniyada müqavilənin standart şərtləri haqqında qanun qəbul edildi[1]. Bu qanunda nəzərdə tutulan qayda etibarsız hesab edilən standart müqavilə şərtlərini müəyyənləşdirməyə imkan verir. Həmin qaydaya görə, istehlakçıların mənafeyini mühüm dərəcədə pozan standart şərtlərə yol verilmir[2].

Avropa ölkələrinin, hər şeydən əvvəl, Almaniyanın qanunvericilik təcrübəsini və ənənəsini nəzərə alaraq bizim ölkə qanunvericiliyi MM-ə müqavilənin standart şərtləri barədə müvafiq normalar daxil etmişdir. **Məqsəd isə istehlakçıların hüquqlarını standart müqavilələrin haqsız və əsassız olan, vicdanlılıq prinsipinə zidd gələn şərtlərindən müdafiə etməkdən ibarətdir.** Bildiyimiz kimi, bizim ölkə qanunvericiliyi — qoşulma müqaviləsi kimi hüquqi konstruksiya nəzərdə tutur. Bu müqaviləyə verilən anlayışdan bəlli olur ki, istənilən hər bir kommersiya təşkilatının standart müqavilələr işləyib hazırlamaq hüququ vardır[3]. Məlum məsələdir ki, həmin müqavilələrə daxil edilən standart şərtlər istehlakçıların hüquqlarının pozulması vasitəsinə çevrilə bilər. Məhz bu cür pozuntulara yol verməmək üçün qanunvericilik müqavilənin standart şərtlərinin tənzimlənməsinə xüsusi diqqət yetirir.

Müqavilənin standart şərtləri dedikdə, mal və ya xidmət təklif edən sahibkar tərəfindən qabaqcadan və əvvəlcədən işlənib hazırlanan, dəfələrlə istifadə üçün nəzərdə tutulan, tanış olmaq üçün istehlakçıya təqdim olunan şərtlər başa düşülür. Bu şərtlər dəfələrlə müqaviləyə daxil edilmək üçün irəlicədən və qabaqcadan formulə edilir. Onlar müəyyən partnyorun digər partnyorun mənafeyinə xələl gətirmək hesabına müqavilədən birtərəfli qaydada fayda əldə etməsi imkanının qarşısını almaq məqsədini güdür. **Standart şərtlər fər-**

[1] Gesetz zur Regelung des Rechts der Allgemeinen Geschäftsbedingungen // BGB1. 1976. IS. 3317; BGB1. 1996. IS. 1013.

[2] Bundesgesetzblatt. I, s. 3317; *Зименкова О.Н., Орлов Л.Н.* О регулировании условий стандартных договоров // Гражданское, торговое и семейное право капиталистических стран. Сборник нормативных актов. М., 1989, с. 31-34.

[3] Предпринимательское (хозяйственное) право. Учебник. Том 1 / Под ред. *О.М.Олейника.* М., 1999, с. 426.

di-şəxsi danışıqların nəticəsində yaranmır. Əgər müqavilə şərtlərini tərəflər danışıqlar yolu ilə bilavasitə razılaşma əsasında müəyyənləşdirərlərsə, onda bu şərtlər standart müqavilə şərtləri sayılmır (MM-in 417-ci maddəsinin 2-ci bəndi). Standart şərtlərin istehlakçıya təqdim olunmasına gəldikdə isə qeyd etmək lazımdır ki, bu, müqavilə şərtlərinin razılaşdırılması məqsədilə yox, həmin şərtlərlə onların tanış olmaları niyyətilə edilir. Razılaşma məqsədi ilə verilərsə, bu, onu ifadə edir ki, müqavilə standart şərtlər əsasında yox, fərdi surətdə bağlanır[1].

Bizim ölkə qanunvericiliyi ümumi qayda formulə edir: **müqavilənin standart şərtlərində istehlakçının (yəni digər müqavilə iştirakçısının) mənafeyinə xələl gətirən və ziyan vuran, vicdanlılıq prinsipinə zidd olan müddəalar olmamalıdır**. Əgər bu cür müddəaları ifadə edən standart şərtlər müqaviləyə daxil edilərsə, həmin şərtlər etibarsız sayılır (MM-in 420-ci maddəsinin 2-ci bəndi)[2]. Məqsəd, hər şeydən əvvəl, sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan fiziki şəxslərin (yəni sahibkar statusu olmayan fiziki şəxslərin) hüquq və mənafeyini qorumaqdan ibarətdir. Həmin müddəalara aiddir (bu müddəalar Almaniyanın standart müqavilə şərtləri haqqında qanununda da nəzərdə tutulmuşdur):

- müqavilə təklif etmiş tərəfə əsassız olaraq və müqavilədə göstərilmiş əsaslar olmadan öz öhdəliyinin icrasından imtina etmək hüququ verən müddəalar (məsələn, standart sığorta müqaviləsində belə bir şərt nəzərdə tutulur ki, sığortaçı sığorta müqaviləsində göstərilməyən əsaslar olmadan öhdəliyin icrasından imtina edə bilər);
- müqavilə təklif etmiş tərəfə müqavilənin digər tərəfindən çəkilmiş xərclər üçün qeyri-münasib və uyğun olmayan şəkildə yüksək əvəz (kompensasiya) tələb etmək hüququ verən müddəalar (məsələn, standart saxlama müqaviləsində belə bir şərt nəzərdə tutulur ki, tapşıran saxlanca verilmiş əşyanın xarakteri ilə əlaqədar saxlayıcının düşdüyü zərərin əvəzini ikiqat məbləğdə ödəsin. Bu şərt etibarsız sayılır);
- müqavilə qiymətlərinin əsassız olaraq qısa müddətdə artırılmasını nəzərdə tutan müddəalar (məsələn, standart yük daşıma müqaviləsində belə bir şərt göstərilir ki, nəqliyyat təşkilatı daşıma haqqını istənilən vaxt artıra bilər. Bu şərt etibarsız hesab edilir);
- müqavilə tərəfinin öhdəliklərin icrasından imtina etmək hüququnu və ya müqavilənin digər tərəfi öz öhdəliklərini yerinə yetirənə qədər müqavilənin icrasından imtina etmək hüququnu məhdudlaşdıran və ya istisna edən müddəalar (məsələn, standart pərakəndə alqı-satqı müqaviləsində nəzərdə tutulur ki, satıcı öz vəzifəsini icra edənə kimi alıcı müqavilənin icrasından imtina edə bilməz. Bu şərt etibarsız sayılır);
- müqavilənin tərəfini tələblərin əvəzləşdirilməsi hüququndan məhrum edən müddəalar (məsələn, standart bank hesabı müqaviləsində müştərini onun banka olan tələblərini əvəzləşdirmək hüququndan məhrum edən şərt nəzərdə tutulur. Bu şərt etibarsız hesab edilir);
- zərərin miqdarından çox olan məbləğin tələb edilməsinə dair razılaşmanı nəzərdə tutan müddəalar (məsələn, standart kirayə müqaviləsində belə bir şərt nəzərdə tutulur ki, əgər kirayəçi kirayəyə götürülmüş qab-qacağı sındırarsa, onların dəyərini üçqat ödəyəcəkdir. Bu cür şərt etibarsız sayılır);
- təklif etmiş tərəfin və ya onun təmsilçisinin kobud ehtiyatsızlığı üzündən tələbin pozulması nəticəsində vurulan zərər üçün məsuliyyəti istisna edən və ya məhdudlaşdıran müddəalar (məsələn, standart daşıma müqaviləsində belə bir şərt göstərilir ki, daşıyıcı kobud ehtiyatsızlığa görə məsuliyyət daşımır. Bu şərt etibarsız hesab edilir);
- təklif etmiş tərəfin əsas öhdəliyi pozduğu halda müqavilənin digər tərəfinin müqavilədən imtina etmək hüququnu məhdudlaşdıran və ya onu bu hüquqdan məhrum edən və ya müqavilənin digər tərəfini icra etməmə nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququndan məhrum edən müddəalar və s. (məsələn, MM-in 645-ci maddəsinin 1-ci bəndinə uyğun olaraq mal göndərmə müqaviləsi üzrə satıcı öhdəliyi pozarsa, onda alıcı ona vurulmuş zərərin əvəzinin ödənilməsini tələb edə bilər. Əgər satıcı standart müqavilədə alıcını bu cür hüquqdan məhrum edən şərt müəyyənləşdirərsə, həmin şərt etibarsız hesab ediləcəkdir).

Bununla bərabər, qeyd etmək lazımdır ki, standart müqavilə şərtləri istehlakçıların hüquqlarını pozmaq vasitəsi deyildir. Əksinə, sivilistika doktrinasında müqavilənin standart şərtlər əsasında bağlanmasının üstünlüyü göstərilir[1]. Belə ki, bu cür qayda danışıqların aparılması və müqavilənin bağlanması mərhələsində tərəflərə vaxta və enerjiyə qənaət etmək imkanı verir.

Müqavilənin standart şərtləri tanış olmaq üçün müqavilə bağlamaq niyyətində olan şəxsə təqdim olunur. Əgər həmin şəxs bu şərtlərlə razılaşarsa və onları qəbul etmək imkanına malik olarsa, onda şərtlər müqavilənin tərkib hissəsinə çevrilir; müqavilənin standart şərtlərini təklif edən tərəf isə həmin şərtlərə istinad etməsini müvafiq qeydlə təsdiqləməlidir.

İnkişaf etmiş xarici ölkələrin qanunvericiliyi standart müqavilə şərtlərinin tənzimlənməsinə xüsusi əhəmiyyət verir. Bunu qeyd etmək kifayətdir ki, Avropa İqtisadi Birliyi Şurası 1993-cü ilin aprel ayında istehlakçılarla bağlanan müqavilələrin haqsız şərtləri barədə Direktivi bəyənmişdir. Bu Direktiv Avropa İqtisadi Birliyi ölkələrinin milli qanunvericiliyində məcburi implementasiya edilə-

[1] Almaniya Federal Ali Məhkəməsi öz izahatında göstərir ki, əgər tərəflər müqavilə şərtlərini bütün detalları ilə müfəssəl şəkildə razılaşma əsasında müəyyənləşdirərlərsə, bu şərtlər standart şərtlər hesab edilmir (Osnovnie instituti qrajdanskoqo prava zarubejnıx stran. M., 1999, c. 406). Məhkəmə «razılaşma» (Aushandeln) termininin təfsirini verərək qeyd edir ki, əvvəlcədən formulə olunmuş şərtlər barədə «razılaşma» sadə «müzakirə»yə (Verhandeln) nisbətən daha çox məna ifadə etməlidir (*Dörner H.* Negotiated Standard Contract Terms: Judgements of the Federal Supreme Court of October 10. 1991. February 26. 1992 and June 25. 1992 // Consumer Law Journal. 1993. Vol. 1. № 2. P. CS15).

[2] Göstərilən qayda Almaniyanın müqavilənin standart (nümunəvi) şərtləri haqqında qanunun 9-cu və MQ-nin 242-ci paraqraflarından iqtibas olunmuşdur. Hüquq doktrinasında həmin qayda baş (əsas) şərt adlanır (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 395).

[1] *Зименкова О.Н.* Охрана прав потребителя в капиталистических странах. Научно-аналитический обзор. М., 1987, с. 16.

rək qüvvəyə minmişdir[1]. Həmin sənəd standart müqavilə şərtlərinin hüquqi tənzimlənməsində mühüm rol oynayır. Direktivdə standart müqavilə şərtlərinə belə anlayış verilir: müqavilənin standart şərtləri odur ki, bu şərtlər fərdi razılaşma yolu ilə yox, əvvəlcədən işlənib hazırlanır və buna görə də istehlakçı həmin şərtlərin məzmununa təsir göstərə bilmir[2]. Direktiv istehlakçılarla bağlanan bütün müqavilə şərtlərini yox, yalnız standart müqavilə və ya birtipli müqavilə şərtlərini tənzimləyir.

Standart müqavilə şərtləri **normativ xarakter daşımır**[3]. Bu şərtlər konkret müqavilənin yalnız bir hissəsidir. Amma bəzi xarici ölkələrdə (məsələn, Yaponiyada) standart müqavilə şərtləri normativ xarakterə malik ola bilər, bir şərtlə ki, onlar müvafiq dövlət orqanı (nazirlik və ya idarə) tərəfindən qabaqcadan bəyənilsin. Belə halda onlar ümumi məcburi qüvvəyə malik olur. Məsələn, əhalinin elektrik enerjisi ilə (qazla, su ilə) təchiz edilməsinin standart (birtipli, ümumi) şərtləri normativ xarakter daşıyır.

Müqavilənin standart şərtləri məsələsinə Almaniya mülki hüquq ədəbiyyatı səhifələrində geniş yer verilir. Bu məsələ, adətən, Mülki Qanunnaməyə verilən kommentariyalarda, monoqrafiyalarda, məlumat kitabçalarında və s. şərh olunur[4].

3. Müqavilənin forması

Müqavilənin bağlanmış sayılması üçün tərəflərin təkcə müqavilənin bütün mühüm şərtləri barəsində razılığa gəlmələri kifayət etmir və yetərli deyildir. Bunun üçün həm də **tərəflərin razılığının tələb edilən formada ifadə olunması gərəkdir**. Qanun müəyyən edir ki, tərəflər müqavilənin bütün mühüm şərtləri barəsində tələb olunan formada razılığa gəldikdə müqavilə bağlanmış sayılır (MM-in 405-ci maddəsinin 1-ci bəndi).

Müqavilənin forması qanunla tənzimlənir (MM-in 406-cı maddəsi). Qanun bu barədə müəyyən qayda müəyyən edir. Hər şeydən əvvəl, MM-də bəzi müqavilə növləri üçün müəyyən forma təyin edilə bilər. Məsələn, faktorinq müqaviləsi yazılı formada bağlanır (MM-in 655-ci maddəsinin 5-ci bəndi). Qanun daşınmaz əşyaların alqı-satqı müqaviləsinin yazılı formada bağlanmasını və notariat qaydasında təsdiqlənməsi nəzərdə tutur, yəni bu növ müqavilə üçün notarial forma müəyyən edir (MM-in 647-ci maddəsi). Qanun renta müqaviləsi üçün yazılı forma, daşınmaz əmlakın rentaya verilməsi hallarında isə renta müqaviləsi üçün notarial forma nəzərdə tutur (MM-in 865-ci maddəsi).

Bununla bərabər, elə müqavilə növləri vardır ki, onlar üçün Mülki Məcəllə müəyyən forma müəyyən etmir. Belə hallarda həmin müqavilə növlərinə əqdlərin forması barədə ümumi qaydalar tətbiq edilir (MM-in 329-334-cü maddələri). Bu, onunla izah olunur ki, müqavilə əqdin bir növüdür. Bunu nəzərə alaraq, qanun müəyyən edir ki, müqavilə əqdlərin bağlanması üçün nəzərdə tutulan hər hansı formada bağlana bilər (MM-in 406-cı maddəsinin 1-ci bəndi).

Müqavilələr, əsasən, **sadə yazılı formada** bağlanır. Bu cür formalı əqdin etibarlı olması üçün müqavilə bağlayan tərəflərin imzaları olmalıdır. İmzalandığı andan sadə yazılı müqavilə bağlanmış sayılır (MM-in 407-ci maddəsinin 2-ci bəndi). Sadə yazılı formada bağlanan müqavilələrə aiddir:

- zaminlik müqaviləsi (MM-in 471-ci maddəsi);
- faktorinq müqaviləsi (MM-in 655-ci maddəsinin 5-ci bəndi);
- françayzinq müqaviləsi (MM-in 727-ci maddəsi);
- lizinq müqaviləsi (MM-in 748-ci maddəsinin 1-ci bəndi);
- ticarət nümayəndəsi haqqında müqavilə (MM-in 789-cu maddəsinin 3-cü bəndi);
- bank əmanəti müqaviləsi (MM-in 946-cı maddəsinin 1-ci bəndi);
- bank hesabı müqaviləsi (MM-in 955-ci maddəsinin 1-ci bəndi) və s.

Müqavilələr **notarial formada** da bağlana bilər, yəni yazılı formada bağlanmış müqavilələr notariat qaydasında təsdiqlənir. Təsdiqetmə müqavilənin şərtlərini ifadə edən sənədə notariusun (və ya digər vəzifəli şəxslərin) təsdiqləyici qeyd etməsi yolu ilə həyata keçirilir. İki halda müqavilə notariat qaydasında təsdiqlənir:

- birincisi, əgər müqavilənin notarial qaydada təsdiq edilməsi **MM-də nəzərdə tutulmuşsa** (məsələn, MM daşınmaz əşyaların alqı-satqı müqaviləsi, daşınmaz əmlakın rentaya verilməsini nəzərdə tutan renta müqaviləsi üçün notarial forma müəyyənləşdirir);
- ikincisi, **müqavilə bağlayan tərəflərin qarşılıqlı razılığı ilə** (MM ilə həmin növ müqavilələr üçün notarial forma nəzərdə tutulmuş olmasa da).

Elə müqavilələr vardır ki, həmin müqavilələrdən irəli gələn hüquqların dövlət qeydiyyatına alınması tələb olunur. Başqa sözlə desək, bu hüquqlar hökmən **daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata** alınır. Məsələn, daşınmaz əşyaların alqı-satqı müqaviləsi (o cümlədən daşınmaz əşyalar üzrə renta müqaviləsi) dövlət reyestrində qeydiyyata götürülür. Əgər bu müqavilələr dövlət qeydiyyatına alınmazsa, onda müqavilə puç (əhəmiyyəti olmayan) əqd kimi etibarsız sayılacaqdır.

Tərəflər müqavilənin forması barədə əlavə tələblər də müəyyən edə bilərlər. Bu cür tələblərə aiddir: müqavilənin müəyyən formalı blanklardan istifadə etməklə bağlanması; müqaviləni möhürlə təsdiqləmə və s. Möhürlə təsdiqlənmiş müqavilə bəzi ölkələrdə, məsələn, ABŞ-da əsas müqavilə növlərindən biri kimi tanınır. Bu müqaviləyə görə, tərəflər müqaviləni tərtib etdikdən sonra onu imzalayır və möhürlə təsdiqləyirlər[1].

Yazılı formalı müqavilələr iki üsulla bağlanır:

---

[1] Avropa İqtisadi Birliyinə üzv olan dövlətlərə tapşırılmışdır ki, onlar Direktivin müddəalarını 31 dekabr 1994-cü il tarixindən gec olmayaraq özlərinin milli hüququna daxil etsinlər. Bunun üçün Almaniyada standart (nümunəvi) müqavilə şərtləri haqqında qanuna dəyişikliklər edilməsi barədə qanun qəbul olundu. Həmin qanun 25 iyul 1996-cı il tarixində qüvvəyə minmişdir.

[2] *Зименкова О.Н.* Законодательство Европейского экономического сообщества о защите прав потребителей. Вып. 1. М., 1994, с. 5.

[3] *H.Heinrichs // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 2380.

[4] bax: ***Heinrichs***. Die Entwicklung des Recht der AGB im Jahre 1997 // NJW. 1998. №20; ***Hammelbek***. Regriff, Arten und Verbindlichkeit der AGB. 1930; ***Locher***. Das Recht der AGB. 1997; ***Raiser L.*** Das Recht der AGB. 1953; ***Rehbinder***. Das Kaufrecht in AGB der deutshen Wirtschaft. 1970.

[1] *Белов А.П.* Международное предпринимательское право. М., 2001, с. 96; *Бушев А.Ю., Макарова О.А., Попондопуло В.Ф.* Коммерческое право зарубежных стран. Учебник. М., 2003, с. 224.

• birinci üsul bir sənəd tərtib etməkdən ibarətdir;
• ikinci üsul sənədlər mübadiləsindən ibarətdir.

Sənəd tərtibi yolu ilə bağlanan müqavilə onun məzmununu ifadə edir. Müqavilə bağlayan tərəflər onu imzalayırlar. Tərəflərin vəkil etdikləri şəxslər də müqaviləni imzalaya bilərlər.

Sənədlər mübadiləsi yolu ilə müqavilə bağlanarkən poçt, teleqraf, teletayp, telefon, elektron və digər rabitə vasitələrindən istifadə edilir. Yalnız zəruridir ki, həmin rabitə vasitələri sənədin müqavilə iştirakçısından (tərəfindən) gəlməsini dürüst müəyyənləşdirməyə imkan versin. Bu yolla müqavilə bağlanarkən elektron rabitəsindən də istifadə oluna bilər; belə müqavilə **elektron formada bağlanmış müqavilə** adlanır. Bu müqavilənin bağlanması zamanı **elektron imzadan** istifadə olunur. Onların bağlanması ilə bağlı məsələlər «Elektron imza və elektron sənəd haqqında» qanunla (2004), habelə «Elektron ticarət haqqında» qanunla (2005) tənzimlənir.

Bəzən də elə olur ki, tərəflər müqaviləni müəyyən formada bağlamaq barəsində razılığa gəldikləri halda, həmin müqavilə növü üçün Mülki Məcəllədə bu cür forma nəzərdə tutulmur. Belə məqamda tərəflərin borcudur ki, müqaviləni nəzərdə tutduqları formaya salsınlar. Yalnız bundan sonra müqavilə bağlanmış sayılır (MM-in 403-cü maddəsinin 2-ci bəndi).

Müqavilənin **sadə yazılı formasına riayət edilməməsi onun etibarsızlığına dəlalət** edir. Müqavilənin notarial formasına riayət edilməməsi də onun etibarsızlığına səbəb olur. Bu cür müqavilələr puç əqd kimi hüquqi əhəmiyyətə malik olmur; çünki qanunla və ya tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilmiş forma tələblərinə riayət etməməklə bağlanmış əqd etibarsızdır (MM-in 329-cu maddəsinin 1-ci bəndi)

§ 3. Müqavilələrin təsnifi və növləri

1. Müqavilələrin təsnifi anlayışı

Müqavilələrin təsnifi dedikdə, onların bu və ya digər meyar (əlamət, xüsusiyyət) əsasında müxtəlif qruplara (növlərə) bölünməsi başa düşülür. Bu meyarlar ayrı-ayrı müqavilə qruplarının məzmununu müəyyənləşdirməyə, habelə onları bir-birindən fərqləndirməyə imkan verir. Mülki hüquqda müqavilələrin çoxsaylı olması və müxtəlifliyi onların təsnif edilməsini şərtləndirir. Belə ki, həmin müqavilələr həm ümumi cəhətlərə, həm də fərqli xüsusiyyətlərə malikdir. Çoxsaylı müqavilələrə yaxından bələd olmaq və düzgün istiqamət götürmək üçün onlar müxtəlif növlərə bölünür. Bunun isə həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır. Mülki hüquq subyekti öz praktiki fəaliyyətində onun ehtiyac və tələbatını ödəyən müqavilə növünü seçib, ondan istifadə edir.

Müqavilə, hər şeydən əvvəl, birincisi, əqddir. Ona görə də əqdlərin müxtəlif növlərə bölünməsi müqavilələrə də şamil edilir. Bu aspektdən müqavilələrin real və konsensual, əvəzli və əvəzsiz, kauzal və abstrakt, müddətli və müddətsiz, şərti və adi, habelə fidusiar müqavilə kimi növləri fərqləndirilir.

Müqavilə, ikincisi, öhdəlik hüquq münasibətlərini ifadə edir, yəni müqavilə öhdəliyi anlayışı ilə əhatə olunur. Təsadüfi deyildir ki, tərəflər öz aralarında müqavilə bağlayarkən öhdəlik yaratmaq məqsədi güdürlər[1]. Bu baxımdan da müqavilələr müxtəlif qruplara (növlərə) bölünür. Belə halda müqavilələr hüquqi nəticə əldə olunmasına və nail olunmasına yönələn istiqamətə görə təsnif edilir. Qədim Roma hüququ da bu meyara görə müqavilələri müxtəlif qruplara bölürdü. Roma hüququ ənənələrinə uyğun olaraq, Azərbaycan Respublikasının MM-i göstərilən meyara (əlamətə) görə müqavilələrin dörd qrupunu fərqləndirir:

- **əşyanın mülkiyyətə və digər əşya hüququna verilməsinə yönələn müqavilələr** (alqı-satqı, dəyişmə, bağışlama və renta müqavilələri);
- **əşyanın istifadəyə verilməsinə yönələn müqavilələr** (əmlak kirayəsi, icarə, əvəzsiz istifadə və lizinq müqavilələri);
- **iş görülməsinə yönələn müqavilələr** (podrat müqaviləsi);
- **xidmət göstərilməsinə yönələn müqavilələr** (tapşırıq, komissiya, ticarət agenti, daşıma[2], bank əmanəti, bank hesabı, turist xidməti haqqında müqavilələr)[3].

Bundan əlavə, bizim ölkə qanunvericiliyi əqli mülkiyyət obyektlərindən istifadəyə yönələn müqavilə növlərini də nəzərdə tutur. Bu növ müqavilələrə aiddir: müəllif müqavilələri; patent-lisenziya müqavilələri; françayzinq müqaviləsi.

Hüquq ədəbiyyatında müqavilələrin müxtəlif təsnifi aparılır. Bu təsnif əsasında mülki-hüquqi müqavilələrin əsas cəhətləri və xüsusiyyətləri haqqında düzgün təsəvvür əldə edilir.

2. Əmlak və təşkilati müqavilələr

Müqavilələr, **onların əmələ gəlməsinə, dəyişməsinə və ya xitam olunmasına yönələn ictimai münasibətlərin xarakterinə görə** iki yerə bölünür: əmlak müqavilələri; təşkilati müqavilələr.

Əmlak müqavilələri odur ki, bu müqavilələr iqtisadi dövriyyə münasibətlərini (əmtəə mübadiləsini) rəsmiləşdirir və maddi nemətlərin (və ya digər nemətlərin) bir şəxsdən digərinə keçməsinə yönəlir. Başqa sözlə desək, bu müqavilələr maddi nemətlərin mübadilə prosesinə toxunur və əmlakın verilməsi ilə bağlı (məsələn, alqı-satqı, dəyişmə), xidmət göstərilməsilə bağlı (məsələn, daşıma, saxlama, sığorta), iş görülməsi ilə bağlı (məsələn, podrat) əmələ gələn münasibətləri tənzimləyir. Belə təsəvvür yaranır ki, əmlak müqavilələri maddi nemətlərin mübadilə prosesi ilə əlaqədar olaraq tərəflər üçün bilavasitə hüquq və vəzifələr əmələ gətirir. Onların hüquqi səmti və istiqaməti əmtəə mübadiləsi ilə bağlı hüquqi nəticə əldə edilməsindən ibarətdir.

---

[1] *Л. Жюллио де ла Морандьер.* Гражданское право Франции. М., 1960, с. 197 (часть 2).

[2] Müəlliflərdən prof. Z.İ.Sıbulenko daşıma müqaviləsini iş görülməsinə yönələn müqaviləyə aid edir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 367). Bu fikir həqiqətdən uzaqdır. Daşıma müqaviləsindən xidmət göstərilməsi üzrə öhdəlik yaranır. Görünür müəllif inqilabaqədərki rus mülki qanunvericiliyinin mövqeyinə əsaslanır. Belə ki, həmin dövrün qanunvericiliyi daşıma müqaviləsinə podrat (iş görmə) müqaviləsinin bir növü kimi baxırdı (Свод законов Российской империи. Том X. Часть 1, ст. 1738; *В.В.Витрянский.* Договор перевозки. М., 2001, с. 6).

[3] Almaniya mülki hüququnda müqavilələrin buna oxşar təsnifi aparılır: əmlak nemətlərinin qəti olaraq verilməsi üzrə müqavilələr (alqı-satqı və s.); istifadəyə vermə müqavilələri (kirayə, icarə, lizinq və s.); fəaliyyət haqqında müqavilələr (podrat, turist xidməti haqqında müqavilələr və s.) və digərləri (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 375).

Müqavilələrin əksəriyyəti əmlak müqavilələridir. Bu müqavilələrə **əsas müqavilələr** daxil edilir. Alqı-satqı, icarə, kirayə, daşıma, sığorta, kredit və digər müqavilələr əsas müqavilələr hesab edilir və ona görə də onlar əmlak müqavilələrinə şamil olunurlar.

Təşkilati müqavilələr odur ki, bu müqavilələr bilavasitə maddi (əmlak) nəticə əmələ gətirmir; onlar yalnız bunun üçün zəruri şərait və zəmin yaradır. Bu cür müqavilələr əmtəə mübadiləsinə yönəlmir; onlar ancaq əmtəə mübadiləsinin təşkilinə səmtlənir. Təşkilati müqavilələr əsasında gələcəkdə əmtəə mübadiləsinin həyata keçirilməsi üçün şərait yaradılır və iştirakçılar arasında qarşılıqlı əlaqələr müəyyən edilir.

Təşkilati müqavilələr əsasında meydana gələn münasibətlər maddi yox, təşkilati xarakter daşıyır. Bu cür müqavilələrə real həyatda az-az hallarda rast gəlmək olur. Onların sayı əmlak müqavilələrinə nisbətən olduqca azdır.

Təşkilati müqavilələrin əsas növünü daşımaların təşkili haqqında müqavilə təşkil edir[1]. Bu müqavilə növü «Nəqliyyat haqqında» qanunun 9-cu maddəsinin 3-cü bəndində nəzərdə tutulmuşdur. Belə ki, müntəzəm daşımaların həyata keçirilməsi zərurəti yarandıqda, daşıyıcı və yük göndərən bu müqavilə növündən istifadə edirlər.

Çoxtərəfli əqdlər də təşkilati müqavilələrə aid edilə bilər. Söhbət hüquqi şəxslərin yaradılması haqqında təsis müqaviləsindən gedir. Bu müqavilə təsisçilərin gələcəkdə əmlak dövriyyəsində iştirakını təmin etmək üçün onlar arasındakı qarşılıqlı münasibətlərin təşkilini müəyyənləşdirir. Belə ki, əgər hüquqi şəxs bir neçə təsisçi tərəfindən yaradılarsa, təsisçilər müqavilə bağlayaraq hüquqi şəxsin nizamnaməsini, onun yaradılması üzrə birgə fəaliyyət qaydasını, özlərinin əmlakının ona verilməsi və onun fəaliyyətində iştirak edilməsi şərtlərini müəyyənləşdirir (MM-in 45-ci maddəsinin 2-ci bəndi). Həmin müqavilə birgə fəaliyyət göstərmək məqsədilə təsisçilər arasında bağlanılır ki, bu fəaliyyət hüquqi şəxsin təşkilinə yönəlir[2]. Odur ki, o, **birgə fəaliyyət haqqında müqavilənin** növü hesab edilir[3], bu müqavilə hüquqi şəxsi təşkil etmək, yaratmaq və təsis etmək məqsədi güdür.

Təşkilati müqavilələrin başqa bir növü ilkin müqavilə hesab olunur ki, sonrakı növbəti yarımbaşlıqda məhz bu barədə söhbət açacağıq.

3. Əsas və ilkin müqavilələr

Məqsəd, nəticə və hüquqi istiqamət kimi meyara və əlamətə görə müqavilələrin iki növü fərqləndirilir: əsas müqavilələr; ilkin müqavilələr. Bu müqavilələr müqavilə sistemində müstəqil yer tutur.

Əsas müqavilələr odur ki, iqtisadi (əmlak) dövriyyəni tənzimləyir və tərəflər üçün əmtəə mübadiləsi ilə bağlı bilavasitə hüquqi nəticə (hüquq və vəzifələr) yaradır. Bu müqavilələr maddi nemətlərin bir şəxsdən digərinə keçmə prosesini rəsmiləşdirir. Daşıma, podrat, icarə, kirayə, alqı-satqı və digər müqavilələr əsas müqavilələrə şamil edilir. Özü də müqavilələrin kütləsi içərisində əsas müqavilələrin çəkisi müqayisəedilməz dərəcədə çoxdur. Ona görə ki, əmlak xarakterli olan əsas müqavilələr bilavasitə hüquqi nəticə əldə edilməsinə (əmlakın mülkiyyətə verilməsinə, iş görülməsinə, xidmət göstərilməsinə, əmlakın istifadəyə verilməsinə) yönəlir.

İlkin müqavilələr odur ki, bu müqavilələr gələcəkdə əsas müqavilə bağlanması barədə tərəflərin razılığını ifadə edir. Əsas müqavilələrə nisbətdə bu cür müqavilələrin xüsusi çəkisi olduqca azdır. İlkin müqavilələrə görə, tərəflər həmin müqavilədə nəzərdə tutulmuş şərtlərlə əmlakın verilməsi, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi barədə gələcəkdə müqavilə (əsas müqavilə) bağlamağı öhdələrinə götürürlər (MM-in 402-ci maddəsinin 1-ci bəndi). Məsələn, tərəflər gələcəkdə minik avtomobilinin satışı haqqında müqavilə (əsas müqavilə) bağlayırlar. Başqa bir misalda kənd sakini ilə kəndli (fermer) təsərrüfatının başçısı arasında gələcəkdə torpaq sahəsinin icarəyə verilməsi barədə müqavilə (əsas müqavilə) bağlanır. Deməli, ilkin müqavilənin başlıca mahiyyəti tərəflərin gələcəkdə əsas müqavilə bağlamaq barədə razılığa gəlmələrindən ibarətdir.

Tərəflər ilkin müqaviləni elə qayda və məzmunda bağlamalıdırlar ki, bu, əsas müqavilənin predmetini, habelə onun digər mühüm şərtlərini müəyyənləşdirməyə imkan verən şərtləri nəzərdə tuta bilsin. Əgər ilkin müqavilə bu xüsusiyyətdən məhrum olarsa, o, hüquqi əhəmiyyət kəsb etmir və etibarsız hesab olunur. Yuxarıda çəkdiyimiz misallarda gələcəkdə bağlanan əsas müqavilənin predmetini təşkil edən minik avtomobili və ya icarəyə verilən torpaq sahələri, onların kəmiyyət və keyfiyyət xarakteristikası hökmən ilkin müqavilədə göstərilməlidir.

İlkin müqavilənin müddətini qanun xüsusi olaraq tənzimləyir (MM-in 402-ci maddəsinin 4-cü bəndi). **İlkin müqavilənin müddəti** dedikdə, tərəflərin əsas müqaviləni hansı müddətdə bağlamalarını müəyyənləşdirməyə imkan verən vaxt dövrü başa düşülür. Bu müqavilədə həmin müddət göstərilir. Elə hallar da olur ki, ilkin müqavilədə bu müddət müəyyənləşdirilmir. Belə hallarda əsas müqavilə ilkin müqavilənin bağlandığı andan bir il müddətinə bağlanır.

Qanun ilkin müqavilənin formasına xüsusi olaraq toxunur (MM-in 402-ci maddəsinin 2-ci bəndi). Bu **müqavilənin forması əsas müqavilənin forması ilə şərtlənir, yəni əsas müqavilənin formasından asılıdır**. Belə ki, ilkin müqavilə əsas müqavilə üçün nəzərdə tutulmuş formada bağlanır. Bu, o deməkdir ki, əsas müqavilə üçün sadə yazılı forma müəyyənləşdirilibsə, onda ilkin müqavilə də həmin formada bağlanacaqdır. Məsələn, daşınar əşyanın renta müqaviləsi üçün qanun sadə yazılı forma müəyyən edir Əgər tərəflər gələcəkdə bu cür renta müqaviləsi bağlamaq barədə razılığa gələrsə, onda ilkin müqavilə də sadə yazılı formada bağlanacaqdır. Yox, əgər əsas müqavilə üçün notarial forma müəyyənləşdirilərsə (məsələn, daşınmaz əşyaların alqı-satqı müqaviləsi, daşınmaz əşyaların renta müqaviləsi üçün bu cür forma nəzərdə tutulur), onda ilkin müqavilə də notariat qaydasında təsdiq olunacaqdır.

Qanun əsas müqavilə üçün konkret forma nəzərdə tutmaya da bilər. Məsələn, podrat müqaviləsinin formasını MM müəyyənləşdirmir. Belə hallarda da ilkin müqavilə əsas müqavilə hansı formada tərtib edilərsə, o formada da bağ-

[1] Bu müqavilə barədə dərsliyin 3-cü cildinin «Nəqliyyat öhdəlikləri» adlı fəslinə bax.

[2] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров.* М., 2004, с. 215.

[3] Комментарий к Гражданскому кодексу Российской Федерации. Часть 1 /Отв. ред. *Н.Д.Егоров, А.П.Сергеев.* М., 2005, с. 186.

lanır. İlkin müqavilənin forması barədə qaydalara əməl olunmaması onun etibarsızlığına səbəb olur. Bu cür ilkin müqavilələr hüquqi əhəmiyyət kəsb etmir və puç (mütləq etibarsız) əqd sayılır.

İlkin müqavilə icra olunduqda, yəni **əsas müqavilə bağlandıqda, o ləğv edilir**. Bəzən elə olur ki, əsas müqavilə ilkin müqavilədə nəzərdə tutulan müddətdə bağlanmır. Eyni zamanda bu müddət ərzində tərəflərdən biri digər tərəfə əsas müqaviləni bağlamaq barədə müraciət etmir və təklif göndərmir. Bu halda ilkin müqavilədə nəzərdə tutulan öhdəliklərə xitam verilir.

İlkin müqavilə mülki dövriyyədə məhdud dairədə tətbiq edilir. Onların sayı azdır. İlkin müqavilələrə öhdəliyin icrasını təmin etmək üçün bağlanan zaminlik müqaviləsini, daşımaların təşkili müqaviləsini və s. misal göstərmək olar. **Niyyət protokolunu** ilkin müqavilə hesab etmək olmaz. Lakin bəzi məqamlarda niyyət protokolu (və ya niyyət sazişi) ilkin müqavilə sayıla bilər. Bunun üçün zəruridir ki, niyyət protokolunda tərəflərin ona ilkin müqavilə qüvvəsi vermək iradəsi birbaşa ifadə olunsun (MM-in 402-ci maddəsinin 6-cı bəndi).

Dediklərimizdən belə nəticə çıxara bilərik ki, **ilkin müqavilənin funksiyası** bu müqaviləni bağlayan tərəflərin fəaliyyətini planlaşdırmaqdan ibarətdir. Belə ki, ilkin müqaviləni bağlayan tərəflər bir-birinin qarşısında hansısa bir müqavilə bağlamaq öhdəliyi götürürlər[1].

4. Ümumi müqavilələr

Ümumi müqavilə Azərbaycan Respublikasının müasir mülki qanunvericiliyində yeni müqavilə növüdür. Sovet dövrünün mülki qanunvericiliyi belə müqavilə növünü tənzimləmirdi. Amma buna baxmayaraq, sovet dövründə ümumi müqavilədən praktikada istifadə olunurdu. Belə ki, sovet mağazalarından özünə hər hansı bir şey (məsələn, ərzaq məhsulu, geyim şeyləri, ev avadanlıqları, məişət predmetləri və s.) alan şəxs məhz ümumi müqavilə bağlamış olurdu; alınmış malın pulunu ödəyən kimi həmin şəxs mağazada bağlanmış ümumi müqavilənin iştirakçısına (tərəfinə) çevrilirdi.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 400-cü maddəsi ümumi müqavilənin hüquqi tənzimlənməsinə həsr edilmişdir. 24 iyun 2005-ci il tarixli qanunla MM-ə dəyişiklik və əlavələr edilənə kimi həmin maddənin bir neçə bəndində ümumi müqaviləyə leqal anlayış verilirdi, onun hüquqi əlamətləri müəyyənləşdirilirdi. İndi həmin bəndlər MM-dən çıxarılmışdır. Məcəlləyə tam başqa məzmunlu iki bənd daxil edilmişdir ki, həmin bəndlərdə ümumi müqaviləni xarakterizə edən bir neçə əlamət formulə edilmişdir.

Ümumi müqavilənin birinci əlaməti ondan ibarətdir ki, bu müqavilənin bir tərəfində **sahibkarlıq fəaliyyətini həyata keçirən şəxs** çıxış edir. Söhbət, hər şeydən əvvəl, kommersiya təşkilatından gedir; bu təşkilat öz fəaliyyətinin xarakterinə görə mallar satır, işlər görür və ya xidmətlər göstərir; bu zaman o, istehlakçılarla müxtəlif məzmunlu müqavilələr bağlayır (məsələn, pərakəndə alqı-satqı müqaviləsi və s.). Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququ əldə etmiş qeyri-kommersiya təşkilatları bu müqavilədə tərəf qismində iştirak edə bilməz; belə təşkilatların bu müqavilənin bağlanmasında yalnız istehlakçı (kontragent) qismində iştirakı mümkündür.

İkinci əlamətə görə, ümumi müqaviləni bağlayan tərəflərdən biri, yəni kommersiya təşkilatı **əmtəə bazarında üstün mövqe tuta bilər**; onun tutduğu mövqe müqavilənin qiyməti və digər şərtlərini istehlakçılara diqtə etməyə imkan verir. Lakin kommersiya təşkilatı üstün mövqeyindən sui-istifadə etməməlidir.

Üçüncü əlamətə görə, bazarda üstün mövqe tutan **tərəfin fəaliyyəti ümumi xarakterdə olmalıdır; o, hər bir istehlakçı ilə müqavilə bağlamağa borcludur.** Bu baxımdan ümumi müqavilə bəzi xarici ölkələrin (məsələn, ABŞ-ın və s.) qanunvericiliyinə məlum olan məcburi müqaviləyə oxşayır[1].

Dördüncü əlamət ondan ibarətdir ki, bazarda üstün mövqe tutan tərəf **istehlakçılarla müqavilə bağlamaqdan əsassız olaraq imtina etməməlidir.** Başqa sözlə desək, bazarda üstün mövqe tutan tərəf üçün istehlakçılarla müqavilə bağlamaq məcburidir; yalnız üzrlü və obyektiv əsaslar olduqda, o, müqavilə bağlamaqdan imtina edə bilər (məsələn, satılan mallar qurtardıqda və s.).

Beşinci əlamətə görə, bazarda üstün mövqe tutan tərəf **istehlakçılara qeyri-bərabər şərtlər təklif etməməlidir**; belə şərtlər, əlbəttə, istehlakçıların mənafeyinə zidd olub, hüquqdan sui-istifadə (xüsusi xarakterli mülki hüquq pozuntusu) hesab edilir.

Ümumi müqavilə konstruksiyasının məqsədi istehlakçıların hüquqlarını iqtisadi cəhətdən nisbətən güclü olan və bazarda üstün tutan şəxslərdən qorumaqdan ibarətdir. Söhbət əmtəə bazarını inhisarlaşdıran inhisarçı şəxslərdən istehlakçıları müdafiə etməkdən gedir.

Ümumi müqavilə RF və MDB üzvü olan digər ölkələrin qanunvericiliyinə də məlumdur; onu MDB ölkələri üçün Model Mülki Məcəlləsi də tanıyır. Amma Avropa ölkələrinin və ABŞ-ın qanunvericiliyində bu müqavilə növünə təsadüf olunmur[2].

5. Qarşılıqlı razılığa əsaslanan və qoşulma müqavilələri

Müqavilənin bağlanma qaydası və onun şərtlərinin müəyyən edilməsində tərəflərin iştirakı kimi əlamətə görə müqavilələr iki cür olur: qarşılıqlı razılığa əsaslanan müqavilələr; qoşulma müqavilələri. **Qarşılıqlı razılığa əsaslanan müqavilələr** odur ki, bu cür müqavilələrin şərtlərini həmin müqavilədə iştirak edən tərəflərin hər ikisi müəyyənləşdirir.

Qoşulma müqavilələri odur ki, bu müqavilələr bağlanarkən onların şərtlərinin müəyyən edilməsində yalnız bir tərəf iştirak edir, ikinci tərəf isə həmin müqaviləyə əlavə və dəyişiklik etmək imkanından məhrum olur. İkinci tərəf bu müqaviləni onun şərtləri ilə razılaşması yolu imzalayır. Deməli, ikinci tərəf müqavilə şərtlərinin müəyyən edilməsində iştirak etmir. O, müqavilənin zəif tərəfi hesab edilir. Bununla müqavilə şərtlərini müəyyən etməkdə müqavilə azadlığı prinsipi

[1] *Л. Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2, М., 1960, с. 219.

[1] Гражданское и торговое право капиталистических государств. Учебное пособие / Отв. ред. *К.К.Яичков.* М., 1966, с. 218.

[2] Гражданское и торговое право капиталистических стран. Учебное пособие / Отв. ред. *В.П.Мозолин, М.И.Кулагин.* М., 1980, с. 168-169; *Бушев А.Ю., Макарова О.А., Попондопуло В.Ф.* Коммерческое право зарубежных стран. Учебник. М., 2003, с. 224-225.

pozulur[1], kontragent seçməkdə isə bu prinsip pozulmur. Belə ki, müqavilənin zəif tərəfi kontragent seçməkdə sərbəstdir. O, həm də eyni zamanda müqavilə bağlamaq və ya bağlamamaq məsələsini həll etməkdə müstəqildir.

Qeyd etmək lazımdır ki, qoşulma müqaviləsindən Qərbi Avropa ölkələrində geniş istifadə olunur; bu müqavilə növü bazarların inhisarlaşdırılması şəraitində yaranmışdır. Belə ki, bazarda üstün iqtisadi mövqe tutan tərəf və ya müvafiq spesifik malın (elektrik enerjisinin, qazın, dəmir yolu, su və ya hava daşıycısının göstərdiyi nəqliyyat xidmətinin) yeganə satıcısı olan şəxslər kontragentlərə (müqavilənin digər tərəflərinə) təklif edirlər ki, onlar eyni olan müqavilə şərtlərini, yəni standart müqavilə şərtlərini müzakirə etmədən qəbul etsinlər və bu yolla müqaviləyə qoşulsunlar. Özü də hesab edilir ki, kontragent müqaviləyə könüllü surətdə qoşulur.

Göründüyü kimi, qoşulma müqaviləsinə görə, iqtisadi cəhətdən üstün mövqe tutan tərəf kontragentə özünün formulə etdiyi müqavilə şərtlərini diqtə edir. Kontragent ya ona diqtə olunmuş şərtlərlə müqavilə bağlamalı, ya da müqavilə bağlamaqdan imtina etməlidir. Kontragentin müqavilə şərtlərini müzakirə etmək və yaxud onlardan hər hansısa birini dəyişdirmək hüququ yoxdur. Elə bir vəziyyət yaranır ki, iqtisadi-maddi ehtiyacını təmin etmək üçün kontragentin diqtə olunmuş müqavilə şərtlərini müzakirəsiz qəbul etməkdən başqa çarəsi qalmır; həmin vəziyyətdə o, digər davranış variantı seçmək imkanına malik olmur və bu səbəbdən müqaviləni bağlamaqdan imtina edə bilmir.

Belə müqavilələr, adətən, tərəflərin doldurduqları standart formada tərtib edilir. Buna görə ABŞ, İngiltərə və digər ölkələrin müqavilə praktikasında qoşulma müqaviləsi **standart formalı müqavilə** adlanır[2].

Xeyli müddət qoşulma müqaviləsi kapitalist təsərrüfatının dəmiryol və su nəqliyyatı, şəhərdaxili nəqliyyat, bank və sığorta işi, kommunal xidmət və s. kimi sahələrində geniş istifadə olunmuşdur[3]. Bu müqavilənin məhz belə sahələrdə geniş tətbiq olunması onunla izah edilir ki, həmin sahələr hesabına kontragentin maddi-iqtisadi tələbatı təmin olunur; bu kimi sahələr onun həyati mənafeləri ilə bağlıdır. Odur ki, məhz həmin sahələrdə kontragent digər davranış variantını seçmək imkanına malik olmur və qoşulma müqaviləsi bağlamağa məcbur olur.

Müasir Qərb ölkələrində qoşulma müqaviləsi kifayət qədər geniş yayılmışdır. Xüsusilə universamda malların sabit qiymətlə alqı-satqı, nəqliyyatın müxtəlif növləri ilə daşıma (belə daşıma şirkətlərin təsdiq etdiyi tariflər əsasında həyata keçirilir), sığorta və digər müqavilələr qoşulma müqaviləsi formasında bağlanır[1].

Qoşulma müqaviləsi Fransa hüquq ədəbiyyatında daha müfəssəl şəkildə işıqlandırılır[2]. Burada onun əsas xüsusiyyətləri müəyyənləşdirilir.

O ki, qaldı Azərbaycan Respublikasının qanunvericiliyinə, qeyd etmək lazımdır ki, 23 dekabr 2003-cü il tarixli qanunla MM-ə əlavələr və dəyişikliklər edilməsinə kimi qoşulma müqaviləsi məcəllənin ayrıca olaraq 401-ci maddəsi ilə tənzimlənirdi; həmin maddə bütövlükdə bu müqavilənin hüquqi nizamlanmasına həsr olunmuşdu. Yuxarıda göstərdiyimiz qanunla 401-ci maddə MM-dən çıxarılmışdır. Lakin bu o demək deyildir ki, artıq Mülki Məcəllə qoşulma müqaviləsini nəzərdə tutmur. Əksinə, məcəllə həmin müqavilənin tənzimlənməsinə xüsusi diqqət yetirir. Hətta MM-in 452-ci maddəsinin 2-ci bəndində «qoşulma müqaviləsi» termini işlədilir. Lakin məcəllə qoşulma müqaviləsinə leqal anlayış vermir. Amma buna baxmayaraq onun bəzi əlamətləri məcəllədə nəzərdə tutulmuşdur (MM-in 417-418-ci maddələri).

Birinci əlamətə görə, qoşulma müqaviləsi standart formalarda bağlanır; bu forma iqtisadi-sosial cəhətdən güclü olan müqavilə tərəfinin maraq və mənafeyinə xidmət edir və kontragent üçün məcburidir. Biz, praktikada kredit, bank əmanəti, sığorta, sərnişin daşıma və digər müqavilələrin standart formalarda bağlanmasının şahidi oluruq.

Qoşulma müqaviləsinin **ikinci əlaməti** ondan ibarətdir ki, bu müqavilə özündə tərkib hissəsi kimi **standart şərtləri birləşdirir** (MM-in 417-418-ci maddələri). Bu şərtləri iqtisadi-sosial cəhətdən üstün olan müqavilə tərəfi (banklar, sığorta təşkilatı, nəqliyyat təşkilatı və s.) hazırlayır. Bu cəhəti ilə qoşulma müqaviləsi birtipli müqavilədən fərqlənir. Belə ki, birtipli müqavilələrə də standart şərtlər daxil edilir; lakin həmin şərtlər müqavilə tərəfi sayılmayan və müqaviləyə bilavasitə heç bir aidiyyəti olmayan dövlət orqanı tərəfindən hazırlanır[3].

Üçüncü əlamətə görə, qoşulma müqaviləsinin **standart şərtlərini kontragentlər müzakirə etmirlər** (onlara birtipli və ya ümumi şərtlər də deyilir); onlar həmin şərtlərdən hər hansı birini dəyişdirə bilməzlər. Belə ki, iqtisadi-sosial cəhətdən üstün olan müqavilə tərəfi (bank, sığorta təşkilatı, nəqliyyat təşkilatı və s.) öz peşə fəaliyyətini həyata keçirmək üçün çoxsaylı kontragentlərlə müqavilələr (məsələn, kredit, bank əmanəti, sərnişin daşıma, sığorta və s. müqavilələr) bağlayır və bu zaman həmin müqavilələr üçün eyni, standart şərtlər hazırlayır. Onlar hər dəfə müqavilə bağlayarkən kontragentlərə təklif edirlər ki, onlar həmin şərtlərə qoşulsunlar. Əgər kontragentlər onlara təklif olunmuş standart şərtlərə qoşulsalar, müqavilə bağlanmış hesab olunur.

Qoşulma müqaviləsi konstruksiyasının əsas məqsədi iqtisadi-sosial cəhətdən nisbətən zəif olan çoxsaylı kontragentlərin (istehlakçıların) hüquqlarını qorumaqdan ibarətdir. Belə ki, qoşulma müqaviləsinin standart şərtləri əgər onların mənafeyi üçün zərərli olarsa, belə müqavilə etibarsız hesab edilir (MM-in 420-ci maddəsinin 2-ci bəndi).

---

[1] Müəlliflərdən N.İ.Kleyn göstərir ki, bu halda müqavilə azadlığı prinsipi pozulmur (bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 690). Hörmətli professorun bu fikri ilə çətin ki razılaşmaq olar. Əgər müvafiq tərəf müqavilə şərtlərinin müəyyən edilməsinə təsir göstərə bilmirsə, onda bu, müqavilə azadlığı prinsipinin məhdudlaşdırılması demək deyildirmi?

[2] Гражданское и торговое право капиталистических стран. Учебное пособие / Отв. ред. *В.П.Мозолин, М.И.Кулагин*. М., 1980, с. 166.

[3] Гражданское и торговое право капиталистических государств. Учебное пособие / Отв. ред. *К.К.Яичков*. М., 1966, с. 217.

[1] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров*. М., 2004, с. 490.

[2] *Л.Жюллио де ла Морандьер*. Гражданское право Франции. Часть 2. М., 1960, с. 213; 220.

[3] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров*. М., 2004, с. 499.

Qoşulma müqaviləsi bazarların inhisarlaşdırılması şəraitində iqtisadi cəhətdən bərabər olmayan tərəflər arasında bağlanır. Əlbəttə, bu növ müqavilənin bağlanması müqavilə azadlığı prinsipinin məhdudlaşdırılmasına və mümkün hüquqi risqlərə gətirib çıxarır. Lakin buna baxmayaraq müasir mülki və ticarət (kommersiya) dövriyyəsində qoşulma müqaviləsi geniş tətbiq olunur. Malların kütləvi surətdə satışı, eləcə də kütləvi xidmət göstərilməsi sahələrində istifadə olunan bu müqavilə müvafiq xərclərin azaldılmasına, danışıqların aparılma vaxtının qısaldılmasına, sahibkarların işlərinin və maliyyə hesablaşmalarının asanlaşdırılmasına imkan verir.

Qoşulma müqaviləsi konstruksiyası Qərb ölkələrinin qanunvericiliyindən iqtibas olunmuşdur. Özü də həmin ölkələrin qanunvericiliyi onu «standart müqavilə (ing. «standard» – nümunə, etalon, model) və ya «birtipli müqavilə» adı altında nəzərdə tutur[1]. İtaliya, Almaniya, İsrail, İsveç, ABŞ, Böyük Britaniya, Hollandiya, İsveçrə, Yaponiya və digər əcnəbi dövlətlərin mülki qanunvericiliyi bu növ müqavilənin tənzimlənməsinə xüsusi diqqət yetirir[2]. Məsələn, 1964-cü ildə İsraildə «Standart müqavilələr haqqında» xüsusi qanun qəbul edilmişdir. ABŞ-ın Vahid Ticarət Məcəlləsi standart müqavilə üzrə münasibətləri nizama salır[3].

6. Müqavilə iştirakçısının (tərəfinin) mənafeyi üçün və üçüncü şəxsin xeyrinə müqavilə

Kimin mənafeyi üçün müqavilə bağlanması əlamətinə və meyarına görə müqavilələrin iki növü fərqləndirilir: müqaviləni bağlayan tərəfin xeyrinə müqavilə; üçüncü şəxsin xeyrinə müqavilə[4]. İkinci növ müqaviləyə nisbətən birinci növ müqaviləyə real həyatda daha çox hallarda rast gəlinir. Onların xüsusi çəkisi müqayisəedilməz dərəcədə daha çoxdur.

Müqaviləni bağlayan tərəfin xeyrinə müqavilə odur ki, bu müqavilədə hüquq və vəzifələr yalnız onu bağlayan tərəflər üçün əmələ gəlir və həmin tərəflər də, bir qayda olaraq, müqavilənin icrasını tələb etmək ixtiyarına malik olurlar. Məsələn, alqı-satqı, icarə, dəyişmə, kirayə, daşıma və s. müqavilələrdə iki tərəf iştirak edir, hüquq və vəzifələr də həmin tərəflər üçün əmələ gəlir və bu cür müqavilələrin icrasını tələb etmək hüququ onlara məxsus olur. Bununla bərabər, real həyatda elə müqavilələrə rast gəlirik ki, bu müqavilə növləri onların bağlanmasında iştirak etməyən, lakin onların icrasını tələb etmək hüququna malik olan şəxslərin mənafeyi üçün bağlanır. Bu cür müqavilələr üçüncü şəxsin xeyrinə müqavilə adlanır.

[1] *Кулагин М.И.* Предпринимательство и право. Опыт запада. М., 1992, с. 79.

[2] Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 401-416.

[3] Единообразный торговый кодекс США. М., 1996, с. 65.

[4] Müəlliflərdən prof. N.D.Yeqorov göstərilən müqavilə növlərini «müqavilənin icrasını kim tələb edə bilər» kimi meyar əsasında bir-birindən fərqləndirir. Bu fikir bir o qədər də dəqiq deyil. Müəyyən tərəfin xeyrinə bağlanan elə müqavilə növünə rast gəlmək olur ki, onun icrası üçüncü şəxsə həvalə edilə bilər. Məsələn, ev sahibi xarici vətəndaşla bağladığı mənzilin alqı-satqı müqaviləsinin icrasını etibarnamə əsasında üçüncü şəxsə həvalə edə bilər. Lakin bu, üçüncü şəxsin xeyrinə müqavilə hesab edilmir. Yalnız «müqavilə kimin xeyrinə bağlanır» kimi meyar düzgün əlamət sayıla bilər (Гражданское право. Учебник / Под ред. А.П.Сергеева, Ю.К.Толстого. М., 1998, с. 506).

Üçüncü şəxsin xeyrinə müqavilə odur ki, bu müqaviləni bağlayan tərəflər borclunun icranı adı müqavilədə göstərilmiş və ya göstərilməmiş üçüncü şəxsə həyata keçirməli olması barədə razılığa gəlirlər və bu, həmin şəxsə öhdəliyin öz xeyrinə icrasını borcludan tələb etmək hüququ verir (MM-in 403-cü maddəsinin 1-ci bəndi)[1]. Belə təsəvvür yaranır ki, üçüncü şəxs adlı fiqur müqavilənin bağlanmasında iştirak etmir, müqaviləni tərəflər bağlayırlar və o, üçüncü şəxsin mənafeyinə xidmət edir[2]. Məsələn, valideynlər öz uşaqlarının adına 18 yaşına çatması üçün banka pul qoyurlar (məqsədli uşaq əmanəti) və bu məqsədlə onlar bankla bank əmanəti (depozit) müqaviləsi bağlayırlar. Bu müqavilədə uşaq üçüncü şəxs rolunda çıxış edir. Göründüyü kimi, o, bank əmanəti müqaviləsinin bağlanmasında iştirak etmir. Müqaviləni tərəflər, yəni valideynlər və bank imzalayırlar. 18 yaşına çatdıqda, o, həmin müqavilənin icrasını, yəni əmanətin verilməsini bankdan tələb edir. Bununla öhdəlik onun xeyrinə icra olunur. Başqa bir misalda yük göndərənlə daşıyıcı (nəqliyyat təşkilatı) arasında daşıma müqaviləsi bağlanır. Onlar göndərilən yükün yük alana verilməsi barədə razılığa gəlirlər. Daşıma müqaviləsinin bağlanmasında iştirak etməyən yük alan üçüncü şəxsdir. Başqa bir misalda valideynlər öz uşaqlarını yetkinlik yaşına çatmaları halı üçün sığortalayır və bu məqsədlə sığortaçı (sığorta təşkilatı) ilə sığorta müqaviləsi bağlayırlar. 18 yaşı tamam olduqda, sığorta ödənişini sığortaçıdan uşaqlar alacaqdır.

Üçüncü şəxsin xeyrinə bağlanmış **müqavilənin icrasını həm kreditor, həm də üçüncü şəxs tələb edə bilər** (MM-in 403-cü maddəsinin 2-ci bəndi). Bu qayda dispozitiv xarakterə malikdir. Belə ki, qanunda və ya müqavilədə başqa qayda da nəzərdə tutula bilər. Bundan əlavə, öhdəliyin mahiyyətindən hər hansı ayrı hal irəli gələrsə, göstərilən qayda tətbiq edilmir. Əgər tərəflərin razılaşmasında nəzərdə tutularsa, işin hallarına, o cümlədən onun məqsədinə əsasən müqavilənin tərəflərinin ixtiyarı var ki, üçüncü şəxsin razılığı olmadan onun öhdəliyin icrasını tələb etmək hüququnu ləğv etsin və ya bu hüququ dəyişdirsin. Tərəflər üçüncü şəxsin öhdəliyin icrasını tələb etmək hüququnun dərhal və ya müəyyən ilkin şərtlər əsasında yaranması barədə öz aralarında razılığa gələ bilərlər.

Bununla bərabər, qanun üçüncü şəxsin mənafeyini müdafiə etmək üçün qayda müəyyən edir (MM-in 403-cü maddəsinin 5-ci bəndi). Bu qayda əmlak dövriyyəsinin sabitliyini təmin edir. Belə ki, üçüncü şəxslər öz təsərrüfat fəaliyyətində onun xeyrinə bağlanmış müqavilə əsasında keçən hüquqdan istifadəyə güvənə və ümid edə bilərlər. Üçüncü şəxsin xeyrinə bağlanan müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi müqavilə əsasında verilmiş hüquqdan istifa-

[1] Bu anlayış müəyyən qüsura malikdir. Belə ki, üçüncü şəxsin xeyrinə müqavilə üçüncü şəxs üçün təkcə hüquq əmələ gətirmir. O, həm də vəzifə də yarada bilər. Məsələn, daşıma müqaviləsində (bu müqavilə yük göndərənlə daşıyıcı arasında bağlanır) yük alan, yəni üçüncü şəxs üçün yükün daşıma haqqını ödəmək vəzifəsi nəzərdə tuta bilər. Ona görə də müqaviləyə anlayış verən maddəyə üçüncü şəxsin həm də vəzifə daşıması barədə göstəriş daxil edilsin.

[2] Bu müqavilə növü həm Almaniya, həm də Yaponiya qanunvericiliyinə məlumdur. Məsələn, Yaponiya MM-in 537-ci maddəsi həmin müqaviləyə leqal anlayış verir (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 2. М., 1983, с. 41). Almaniya mülki hüquq elmində bu müqavilə növü ətraflı nəzərdən keçirilir (*Westermann H.P., Bydlinski P.* BGB – Schuldrecht. Allgermeiner Teil. Heidelberg: Müller. 1999).

də etmək qərarına gələn üçüncü şəxsi çətin vəziyyətdə qoya bilər. Ona görə də üçüncü şəxsin mənafeyini qorumaq və təmin etmək məqsədilə qanun müəyyən edir ki, **üçüncü şəxsin müqavilə üzrə öz hüququndan istifadə etmək niyyətini borcluya bildirdiyi andan tərəflər bağladıqları müqaviləni üçüncü şəxsin razılığı olmadan ləğv edə və ya dəyişdirə bilməzlər**. Bu imperativ yox, dispozitiv normadır. Belə ki, qanunda və ya müqavilədə başqa qayda da nəzərdə tutula bilər.

Elə hallar da olur ki, üçüncü şəxs müqavilə əsasında ona keçən hüquqdan istifadədən imtina edir. Belə halda istifadə hüququ, əgər qanuna və müqaviləyə zidd olmazsa, kreditora keçir (MM-in 403-cü maddəsinin 7-ci bəndi).

7. Konsensual və real müqavilələr

Müqavilələrin bağlanmış hesab edilməsi anına görə, yəni müqavilə üzrə tərəflərin hüquq və vəzifələrinin yaranması anına görə onların iki növü fərqləndirilir: konsensual müqavilələr; real müqavilələr[1]. Müqavilələrin bu cür təsnifinə Roma hüququnda da rast gəlinirdi. Konsensual və real kontraktlar Roma hüququna əsas müqavilələr kimi məlum idi[2].

Konsensual müqavilələr odur ki, bu cür müqavilələrin bağlanmış hesab edilməsi üçün müqavilənin bütün mühüm şərtləri barədə tərəflərin razılığa gəlmələri yetərlidir. Başqa sözlə desək, bu müqavilələrin bağlanması üçün yalnız tərəflərin razılığı kifayətdir. Tərəflər razılıq əldə etdikləri andan onlar üçün hüquq və vəzifələr əmələ gəlir. Onların hüquq və vəzifələrinin yaranması üçün tərəflərin razılığa gəlmələri və sazişə nail olmalarından savayı, hər hansı hərəkətin edilməsi (məsələn, digər müqavilə tərəfinə əmlak verilməsi) tələb olunmur.

Konsensual müqavilələrin dairəsi kifayət qədər genişdir. Bu müqavilələrin xüsusi çəkisi real müqavilələrə nisbətən xeyli dərəcədə çoxdur. Alqı-satqı, pərakəndə alqı-satqı, mal göndərmə, dəyişmə, tapşırıq, kirayə, icarə, borc[3], kredit, əvəzsiz istifadə, komissiya, podrat, turist xidmətlərinin göstərilməsi haqqında, renta və digər müqavilələr konsensual müqavilə növünə şamil edilir.

Real müqavilələrin bağlanmış hesab edilməsi üçün tərəflərin razılığından əlavə, həm də onlardan biri tərəfindən müəyyən hərəkətin yerinə yetirilməsi, yəni əmlakın verilməsi tələb olunur. Əmlakın verildiyi andan müqaviləni bağlayan tərəflər üçün hüquq və vəzifələr əmələ gəlir[1]. Əgər əmlak qarşı tərəfə verilməzsə, müqavilə bağlanmış hesab edilmir və tərəflərin hüquq və vəzifələri əmələ gəlmir. Real müqavilələrin dairəsi bir o qədər də geniş deyil. Yük daşıma, bank əmanəti (depozit) və saxlama kimi müqavilə konstruksiyaları bu cür müqavilələrə misal ola bilər.

Bununla belə, elə müqavilələr var ki, **bağlanma qaydasından asılı olaraq, onlar həm konsensual, həm də real müqavilə ola bilər**[2]. Bu müqavilələrin dairəsi də bir o qədər əhatəli və geniş deyil. Faktorinq, bağışlama, sığorta kimi hüquqi konstruksiyalar bu cür müqavilələrə misal ola bilər. Götürək faktorinq müqaviləsini. Əgər faktor müştəriyə pul vəsaiti verirsə, onda bu, real faktorinq müqaviləsi hesab edilir. Yox, əgər faktor müştəriyə pul vəsaiti verməyi öhdəsinə götürürsə, müştəri isə pul tələbini faktora güzəşt etməyi öhdəsinə götürərsə, belə halda söhbət konsensual faktorinq müqaviləsindən gedəcəkdir (MM-in 655-ci maddəsinin 1-ci bəndi). Əgər hədiyyə verən nəyi isə bağışlamağı vəd edərsə, yəni öhdəsinə götürərsə, onda bu, konsensual bağışlama müqaviləsi sayılır. Qalan hallarda müqavilə real bağışlama müqaviləsi kimi qiymətləndirilir.

Nəzərə almaq vacibdir ki, konsensual müqavilələrdə (məsələn, alqı-satqı müqaviləsində) əmlakın verilməsi (məsələn, alqı-satqı üzrə satıcının əmlakı alıcıya verməsi, alıcının isə pulu satıcıya verməsi) **artıq bağlanmış müqavilə üzrə vəzifələrin icra edilməsini ifadə edir**. Bəzi hallarda müqavilənin bağlanma anı ilə onun icra edilməsi anı üst-üstə düşür. Bu cür məqamlarda da əmlakın verilməsi müqavilə üzrə vəzifələrin icrasını nümayiş etdirir və şərtləndirir.

Real müqavilələrdə isə **əmlakın verilməsi müqavilə üzrə vəzifələrin icra edilməsinə dəlalət etmir**. Belə ki, bu cür müqavilələrdə əmlakın verilməsi ilə müqavilə üzrə tərəflərin hüquq və vəzifələri əmələ gəlir. Məsələn, vətəndaş əmlakı saxlanca verməyənə kimi saxlama müqaviləsi bağlanmış hesab edilmir və tərəflər üçün hüquq və vəzifələr, yəni əşyanı geri qaytarmaq vəzifəsi, saxlamaya görə haqq ödəmək vəzifəsi və s. əmələ gəlmir.

Göstərilən müqavilə növlərini bir-birindən fərqləndirmək üçün MM-in onlara leqal anlayış verən müvafiq maddəsinin mətninə diqqət yetirmək lazımdır; əgər bir tərəf digər tərəfə əmlak verməyi və digər hərəkət etməyi öhdəsinə götürürsə, belə halda söhbət konsensual müqavilə bağlanmasından gedə bilər. Məsələn, MM-in borc müqaviləsinə leqal anlayış verən 739-cu maddəsinin 1-ci bəndində göstərilir ki, borc verən pula və ya digər əvəz edilən əşyalara mülkiyyət hüququnu borc alana keçirməyi öhdəsinə götürür. Deməli, belə halda konsensual borc müqaviləsi bağlanır. Amma 1964-cü ilə sovet MM-in borc müqaviləsinə leqal anlayış verən 266-cı il maddəsində isə göstərilirdi ki, borc

[1] Müəlliflərdən A.M.Martemyanova müqavilələrin belə bölgüsünü «müqavilənin bağlanma üsulu» kimi meyar əsasında aparır. Bu fikir bir o qədər də dəqiq deyil. Belə ki, bağlanma üsuluna görə müqavilələr, bir qayda olaraq, ümumi müqavilələrə aynlır (Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 343).

[2] bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 144, 157.

[3] Borc müqaviləsi 1964-cü il MM-inə görə, real müqavilə hesab edilirdi. RF MM-inə görə, borc real müqavilədir. Qədim Roma hüququ da borcu real kontrakt hesab edirdi. Azərbaycan Respublikasının yeni MM-inə görə, borc real yox, konsensual müqavilə sayılır. Bununla bizim ölkə qanunvericiliyi klassik Roma hüququ ənənələrindən uzaqlaşmışdır. Bu, bəzi kontinental Avropa ölkələrinin qanunvericilik ənənələrinə uyğundur. Məsələn, İsveç qanunvericiliyinə görə, borc konsensual müqavilə sayılır.

[1] Bu sətirlərin müəllifi dərsliyin 2-ci cildində (I nəşr) mehmanxanalarda əşyaların saxlanması müqaviləsini düzgün olaraq real müqavilə növünə aid edir. Sonra göstərilir: həmin müqavilə ona görə real müqavilədir ki, tərəflərin hüquq və vəzifələri yalnız müqavilə bağlandıqdan sonra əmələ gəlir. Zənn edirik ki, bu sətirlərin müəllifi burada elmi yox, texniki səhvə və diqqətsizliyə yol verir (s. 432).

[2] Müəlliflərdən V.S.Yem renta müqaviləsini həm konsensual, həm də real müqavilə hesab edir (bax: Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 356). Professor M.İ.Braginski isə rentanı real müqavilə sayır (bax: Комментарий части второй ГК РФ для предпринимателей. М., 1996, с. 53).

verən borc alanın mülkiyyətinə pul və ya cinsi əlamətləri ilə müəyyən edilən əşya verir. Belə halda isə yalnız real borc müqaviləsi bağlanmasından Roma hüququ dövründən bəri borc müqaviləsi klassik real əqd sayılır.

8. Əvəzli və əvəzsiz müqavilələr

Müqavilənin əvəzli-ekvivalentli olub-olmaması kimi meyara görə onların iki növü vardır: əvəzli müqavilələr; əvəzsiz müqavilələr. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, əvəzli müqavilələrin dairəsi əvəzsiz müqavilələrin dairəsinə nisbətən müqayisəedilməz dərəcədə xeyli genişdir. Əvəzsiz müqavilələrin dairəsi isə olduqca məhduddur. Bu, onunla izah olunur ki, cəmiyyətdə yaranan münasibətlərin çoxu əmtəə-pul münasibətləridir, mülki dövriyyə əmtəə-əmlak xarakterlidir.

Əvəzli müqavilələr odur ki, müqaviləni bağlayan tərəf öz vəzifəsinin icrası müqabilində qarşı tərəfdən haqq və ya digər qarşılıqlı əvəz alır. Qarşılıqlı əvəz iki formada ifadə olunur: qiymətin (pul məbləğinin) ödənilməsi formasında; mal verilməsi və ya iş görülməsi, xidmət göstərilməsi formasında. Məsələn, alqı-satqı müqaviləsində satıcı öz vəzifəsinin (əşyanı vermək vəzifəsinin) icrası müqabilində alıcıdan müəyyən pul məbləğində ifadə olunan haqq alır. Alıcı isə öz vəzifəsini (pulu ödəmək vəzifəsini) icra etməsinin əvəzində satıcıdan əşyanı alır. Dəyişmə müqaviləsində isə müvafiq tərəf öz vəzifəsinin (əşyanı qarşı tərəfə vermək vəzifəsinin) icrası müqabilində digər tərəfdən əmlak alır. Alqı-satqı, icarə, podrat, daşıma, bank hesabı, bank əmanəti, kirayə, turist xidmətləri göstərilməsi haqqında, françayzinq, faktorinq, lizinq və digər müqavilələr bütün hallarda, istisnasız olaraq, əvəzli müqavilələrə şamil edilir.

Əvəzsiz müqavilələr odur ki, bu müqavilələrdə bir tərəfin etdiyi hərəkətə görə digər tərəfdən haqq və ya digər qarşılıqlı əvəz alması nəzərdə tutulmur. Bu cür müqavilələrdə bir tərəfin digər tərəf üçün hər hansı bir hərəkət etməsi (əmlak verməsi, iş görməsi, xidmət göstərməsi) qarşı tərəfdən heç bir cavab xidməti ilə şərtləndirilmir. Əvəzsiz müqavilələrin dairəsi olduqca məhduddur. Bu cür müqavilələrə bağışlama müqaviləsini və əvəzsiz istifadə (ssuda) müqaviləsini misal göstərmək olar. Onlar qədim Roma hüququ dövründən bəri əvəzsiz müqavilənin klassik növləri hesab olunur[1]. Bütün hallarda istisnasız olaraq, bu müqavilələr əvəzsiz müqavilə növünə aid edilir.

Bununla bərabər, elə müqavilələr vardır ki, onlar **həm əvəzli, həm də əvəzsiz ola bilər**. Bu cür müqavilələrə tapşırıq, borc, saxlama kimi hüquqi konstruksiyaları misal göstərmək olar. Borc müqaviləsinin əvəzli və ya əvəzsiz olması tərəflərin razılığı ilə müəyyən edilir (MM-in 741-ci maddəsi). Tapşırıq müqaviləsinin əvəzli və ya əvəzsiz olması da tərəflərin sazişindən asılıdır. Əgər tapşırıq müqaviləsində vəkalət verənin tapşırığın icrası müqabilində vəkalət alana haqq ödəməsi nəzərdə tutularsa, belə halda əvəzli tapşırıq müqaviləsindən söhbət gedə bilər. Yox, əgər tapşırığın yerinə yetirilməsinin əvəzində haqq verilməsi müəyyənləşdirilməzsə, onda tapşırıq müqaviləsi əvəzsiz olur. İki halda tapşırıq müqaviləsi istinasız olaraq əvəzli olur: birincisi, haqq

[1] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 404; Дождев Д.В. Римское частное право. Учебник М., 1999, с. 555; *Novitski I.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 148, 186.

verilməsi hamılıqla qəbul edilmiş adət normasına çevrildiyi hallarda (məsələn, hamıya bəllidir ki, sahibkarlıq fəaliyyəti ilə bağlı olan tapşırığın icrası müqabilində hökmən haqq ödəniləcəkdir); ikincisi, vəkalət alan tapşırığı müstəqil peşə fəaliyyəti formasında icra etdiyi hallarda (məsələn, hamıya bəllidir ki, vəkillər, patent müvəkkilləri tapşırığı yalnız haqq almaqla icra edə bilər).

Mülki qanunvericilik mülki-hüquqi müqavilələrin **əvəzlilik prezumpsiyasını** müəyyən edir (MM-in 397-ci maddəsinin 3-cü bəndi), yəni müqavilədə onun əvəzli olması barədə şərtin göstərilməsindən asılı olmayaraq, əksi sübut edilənədək o, əvəzli müqavilə sayılır. Bu, o deməkdir ki, əgər müqavilədə onun əvəzsiz olması barədə konkret göstəriş yoxdursa, həmin müqavilə əvəzli müqavilə kateqoriyasına aid olunur. Məsələn, tapşırıq müqaviləsində müqavilənin qiyməti, yəni vəkalət alana onun göstərdiyi xidmətə görə ödəniləcək haqq barədə şərt göstərilmir. Deməli, o, əvəzli müqavilədir. Belə halda haqqın məbləğini müəyyən etmək üçün mülki qanunvericiliyin müəyyən etdiyi qaydadan istifadə etmək lazımdır (MM-in 398-ci maddəsinin 3-cü bəndi). Bu qaydaya görə, vəkalət alana pul müqayisəyə gələ bilən oxşar xidmət üçün, adətən, alınan qiymət üzrə ödənilir.

Bəzi hallarda həmişə əvəzli müqavilələr kimi çıxış edən müqavilələr üzrə (alqı-satqı, icarə, daşıma, podrat, kirayə və s. kimi müqavilələrdə) tərəflər razılığa gəlirlər ki, müvafiq tərəf öz vəzifəsinin icrası müqabilində qarşı tərəfdən haqq almasın. Məsələn, alıcı və satıcı razılığa gəlirlər ki, satıcı verdiyi əşyaya görə alıcıya haqq ödəməsin. Bu halda müqavilə bağışlama müqaviləsinə çevrilir. Əşya həmin müqavilənin predmeti kimi çıxış edir. Başqa misalda daşıyıcı və yük göndərən daşıma müqaviləsində belə bir şərt nəzərdə tuturlar ki, daşıma xidmətinə görə daşıyıcı daşıma haqqı almasın. Belə halda daşıma müqaviləsi bağışlama müqaviləsinə çevrilir. Xidmət bu müqavilənin predmeti olur. Kirayə, icarə, podrat və s. müqavilələr də əvəzsiz olduqda, bağışlama müqaviləsinə çevrilir. Bu, o deməkdir ki, əvəzsiz alqı-satqı, daşıma, kirayə, icarə, podrat və s. müqavilələrinin mövcud olması mümkün deyil.

9. İkitərəfli və çoxtərəfli müqavilələr

Müqaviləni bağlayan tərəflərin iradələrini ifadə etmək əlamətinə görə müqavilələr iki cür olur: ikitərəfli müqavilələr; çoxtərəfli müqavilələr. Bu bölgü «müqavilənin bağlanması üçün neçə tərəfin iradə ifadəsi gərəkdir» kimi meyardan asılı olaraq aparılır.

İkitərəfli müqavilələr odur ki, bu cür müqavilələrin bağlanması üçün iki tərəfin iradə ifadəsi kifayətdir. Alqı-satqı, podrat, daşıma, icarə, kirayə, borc, bank hesabı, bank əmanəti, sığorta, lizinq, faktorinq və digər müqavilələr ikitərəfli müqavilələr hesab edilir.

Bağlanması üçün iki tərəfdən çox olan tərəfin iradə ifadəsi tələb olunan və kifayət edən müqavilələrə **çoxtərəfli müqavilələr** deyilir. Məsələn, üç nəfərdən ibarət olan təsisçilərin hüquqi şəxs yaratmaq barədə təsis müqaviləsi çoxtərəfli müqaviləyə misal ola bilər. Başqa bir misalda borcun köçürülməsi barədə əvvəlki borclu, yeni borclu (üçüncü şəxs) və kreditor öz aralarında razılığa gəlirlər (MM-in 522-ci maddəsi).

İkitərəfli və çoxtərəfli müqavilələr onların əmələ gətirdiyi hüquqi nəticəyə

görə bir-birindən fərqlənir. İkitərəfli müqavilələr hər iki tərəf üçün subyektiv hüquq və vəzifələr əmələ gətirir. Özü də onlar qarşılıqlı istiqamətə malikdir. Bir tərəfin subyektiv hüquq və vəzifələri digər tərəfin subyektiv hüquq və vəzifələrinə uyğun gəlir. Məsələn, podrat müqaviləsi üzrə podratçının əsas vəzifəsi işi görüb, onun nəticəsini sifarişçiyə təhvil verməkdən ibarətdir. Onun bu vəzifəsinə sifarişçinin işin nəticəsinin verilməsini tələb etmək hüququ uyğun gəlir. Sifarişçinin isə əsas vəzifəsi görülmüş işin haqqını (qiymətini) ödəməkdən ibarətdir. Onun bu vəzifəsinə podratçının işin haqqının ödənilməsini tələb etmək hüququ uyğun gəlir. Bu sözləri alqı-satqı, icarə, daşıma, kirayə və digər müqavilələr üzrə tərəflərin hüquq və vəzifələri haqqında da demək olar.

Çoxtərəfli müqavilələr bu xüsusiyyətdən, yəni tərəflərin hüquq və vəzifələrinin qarşılıqlı olması kimi əlamətdən məhrumdur. Bu müqavilələrdə tərəflərin subyektiv hüquq və vəzifələri qarşılıqlı istiqamətə yox, eyni bir səmtə yönəlir.

Göstərilən meyara görə müqavilələrdən fərqli olaraq, əqdlər iki növə yox, üç növə ayrılır: birtərəfli əqdlərə; ikitərəfli əqdlərə; çoxtərəfli əqdlərə. Müqavilələrin birtərəfli müqavilə kimi növünün mövcud olması tamamilə, qeyd-şərtsiz istisna edilir. Axı, ikitərəfli və ya çoxtərəfli əqdə müqavilə deyilir. Biz müqaviləyə məhz bu cür anlayış veririk. Bu, onu göstərir ki, heç bir halda əqdlərin təsnifi baxımından müqavilənin birtərəfli müqavilə kimi növü ola bilməz. Öz növbəsində birtərəfli əqdlərin (məsələn, vəsiyyət etmənin, etibarnamə verməyin və s.) müqavilə rolunda çıxış etməsi istisna edilir.

10. Birtərəfli və ikitərəfli müqavilələr

Müqaviləni bağlayan tərəflər arasında hüquq və vəzifələrin bölünməsinin xarakterindən asılı olaraq müqavilələr iki növə ayrılır: birtərəfli müqavilələrə; ikitərəfli müqavilələrə.

Birtərəfli müqavilələr odur ki, bu cür müqavilələr bir tərəf üçün yalnız vəzifə yaradır, digər tərəf üçün isə ancaq hüquq əmələ gətirir. Məsələn, real bağışlama müqaviləsi, renta müqaviləsi, bank əmanəti (depozit) müqaviləsi və s. birtərəfli müqavilələrə misal ola bilər. Götürək bank əmanəti müqaviləsini. Bu müqavilə əmanətçinin bankdan pulun verilməsini tələb etmək hüququnu, bankın isə əmanəti faizi ilə birlikdə əmanətçiyə qaytarmaq vəzifəsini yaradır. Beləliklə, bank yalnız vəzifə daşıyır, əmanətçi isə yalnız hüquqa malik olur. Bu sözləri renta müqaviləsi barədə də söyləmək olar. Belə ki, həmin müqavilədə renta alan yalnız hüquqa (renta ödənilməsini tələb etmək hüququna), renta ödəyicisi isə ancaq vəzifə (rentanı vaxtında ödəmək vəzifəsi) daşıyır. Renta alan vəzifə daşımır, renta ödəyicisi isə hüquqa malik deyil.

İkitərəfli müqavilələr odur ki, bu cür müqavilələr hər iki tərəf üçün hüquq və vəzifələr əmələ gətirir. Həmin müqavilələrdə hər iki tərəf həm hüquqlara malik olur, həm də vəzifələr daşıyırlar. Belə ki, müqavilə nəticəsində hüquq əldə edən tərəf, həm də eyni zamanda digər tərəfə münasibətdə vəzifə daşıyır. Başqa sözlə desək, bu müqavilədə hər iki tərəf bir-birinə münasibətdə borclu və kreditor rolunda çıxış edirlər. Ona görə də ikitərəfli müqavilələrə **qarşılıqlı və ya sinallaqmatik müqavilələr** (yunanca «synallagma» - dəyişmə, dövriyyə, müqavilə deməkdir) də deyilir[1]. Məsələn, alqı-satqı müqaviləsində satıcı həm kreditordur, həm də borclu şəxsdir. Alıcı isə hər borclu şəxsdir, həm də kreditordur. Başqa sözlə desək, satıcı satdığı əşyanın pulunun verilməsini alıcıdan tələb etmək hüququna malikdir. Bu baxımdan o, kreditor rolunda çıxış edir. Satıcı da satdığı əşyanı alıcıya vermək vəzifəsini daşıyır. Bu aspektdən o, borclu şəxs hesab edilir. Alıcı aldığı əşyanın pulunu ödəmək vəzifəsini daşıyır. Bu cəhətdən o, borclu şəxsdir. Alıcı satılan əşyanın ona verilməsini satıcıdan tələb etmək hüququna malikdir. Bu baxımdan o, kreditor rolunda çıxış edir. Bu sözləri podrat, sığorta, dəyişmə, daşıma, icarə, kirayə və digər müqavilələr haqqında da söyləmək olar. Axı, həmin müqavilələr qarşılıqlı müqavilə növünə şamil edilir.

Birtərəfli müqavilələrin sayı məhduddur. Bu cür müqavilələrə nadir hallarda rast gəlmək olur. İkitərəfli (qarşılıqlı) müqavilələrə gəldikdə isə qeyd etmək lazımdır ki, müqavilələrin əksəriyyəti qarşılıqlı müqavilə növünə şamil edilir. Onların sayı kifayət qədər çoxdur.

Birtərəfli müqavilələri birtərəfli əqdlərdən fərqləndirmək lazımdır; onları bir-biri ilə qarışdırmaq olmaz. Birtərəfli əqd bildiyimiz kimi, yalnız bir tərəfin iradəsini ifadə edir (məsələn, vəsiyyət etmək, etibarnamə vermək və s.). Birtərəfli müqavilə isə bundan fərqli olaraq iki tərəfin iradəsi ilə bağlanır; o, kreditorun borclu ilə bağladığı sazişdir[2]. Lakin buna baxmayaraq, birtərəfli müqavilə yalnız bir tərəf üçün vəzifə yaradır.

11. Əşya və öhdəlik müqavilələri

Əmələ gətirdiyi hüququn növünə görə müqavilələr iki yerə bölünür: əşya müqavilələrinə; öhdəlik müqavilələrinə. Müqavilələrin bu cür bölgüsünə Almaniya və Yaponiya sivilistika doktrinasında rast gəlirik[3].

Əşya müqavilələri dedikdə, əşya hüquqları müəyyən edən müqavilələr başa düşülür. Bu kateqoriya müqavilələrin əsas təyinatı və məqsədi əşya hüquq münasibətləri (mülkiyyət hüquq münasibətləri, servitut hüquq münasibətləri, superfitsi hüquq münasibətləri və s.) yaratmaqdan, yəni əşya hüquqları əmələ gətirməkdən ibarətdir. Həmin müqavilə növlərinə aiddir: tradisiya, yəni daşınar əşyanın verilməsi (MM-in 181-ci maddəsinin 1-ci bəndi); superfitsi (tikiliyə vərəsəlik hüququ) haqqında müqavilə (MM-in 251-ci maddəsi); servitut verilməsinə dair müqavilə (MM-in 256-cı maddəsinin 2-ci bəndi)[4]. Almaniya mülki hüquq doktrinasında tradisiya əsas əşya müqaviləsi hesab edilir. Bunun nəticəsində daşınar əşyaya mülkiyyət hüququ (mülkiyyət hüquq münasibəti) yaranır. Tradisiya konstruksiyası Almaniya MQ-nin 929-cu paraqrafının 1-ci

[1] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А. Васильев, А.С. Комаров.* М., 2004, с. 497.

[2] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 206.

[3] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950. с.121; *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 2. М., 1983, с. 19.

[4] M.Braginski bağışlama müqaviləsini əşya müqaviləsi hesab edir [*Брагинский М.И., Витрянский В.В.* Договорное право. Отделные виды договоров. М., 1999 (гл. «Дарение»)].

hissəsində nəzərdə tutulmuşdur[1].

Öhdəlik müqavilələri odur ki, bu müqavilələr nəticəsində öhdəlik hüquqları yaranır. Onların əsas təyinatı öhdəlik hüquq münasibətləri (öhdəliklər) əmələ gətirməkdən ibarətdir. Alqı-satqı, kirayə, icarə, daşıma, podrat və digər müqavilələr öhdəlik müqaviləsi kateqoriyasına aid edilir.

Elə müqavilələr var ki, onlar ikili təbiətə malikdir. Söhbət həmin müqavilələrin bir tərəfdən əşya müqavilə növünə, digər tərəfdən isə öhdəlik müqavilə növünə şamil edilməsindən gedir. Başqa sözlə desək, göstərilən hüquqi konstruksiyalar həm əşya müqaviləsi, həm də öhdəlik müqaviləsi hesab edilir. Məsələn, girov müqaviləsi, ipoteka müqaviləsi bu növ müqavilələrə misal ola bilər.

12. Müqavilələrin digər növləri

Müqavilələrin **qarışıq müqavilə** kimi növü fərqləndirilir. Bunlara kompleks müqavilələr də deyilir. **Kompleks müqavilələr** odur ki, bu müqavilələr özündə iki və daha artıq müxtəlif müqavilənin elementlərini birləşdirir (MM-in 390-cı maddəsinin 4-cü bəndi). Qarışıq (kompleks) müqavilə bağlamaq tərəflərin razılığı ilə müəyyən edilir. Məsələn, mal göndərmə müqaviləsinin tərəfləri (mal göndərən və alıcı) öz aralarında satılan malların daşınması, saxlanması və sığorta edilməsi barədə razılığa gəlirlər. Mal göndərən malların təyinat yerinə çatdırılması üçün daşıyıcı (nəqliyyat təşkilatı) ilə daşıma müqaviləsi bağlayır. O, yükü sığortalayır və bu məqsədlə sığorta təşkilatı ilə sığorta müqaviləsi bağlayır. Mal göndərən yükü saxlama kamerasına verir və saxlama müqaviləsi bağlayır. Belə halda dörd cür müxtəlif müqavilənin — mal göndərmə, sığorta, daşıma və saxlama kimi müqavilələrin elementlərini birləşdirən qarışıq (kompleks) müqavilə əmələ gəlir. Bu halda tərəflərin münasibətlərinə qarışıq müqavilədə elementləri olan müqavilələrə dair qaydalar müvafiq hissələrdə tətbiq edilir (MM-in 390-cı maddəsinin 4-cü bəndi). Bu, o deməkdir ki, tərəflər arasında əmələ gələn mal göndərmə münasibətləri mal göndərmə müqaviləsi haqqında normalarla, sığorta münasibətləri sığorta müqaviləsi haqqında normalarla, daşıma münasibətləri daşıma müqaviləsi haqqında normalarla, saxlama münasibətləri saxlama müqaviləsi haqqında normalarla tənzimlənir.

Subyekt tərkibinə görə müqavilələrin iki növü fərqləndirilir: sahibkarlıq müqavilələri; qeyri-sahibkarlıq müqavilələri. Sosial-iqtisadi məqsədi sahibkarlıq fəaliyyəti həyata keçirməkdən ibarət olan, habelə iştirakçılardan (tərəflərdən) heç olmazsa biri, sahibkar olan müqavilələrə **sahibkarlıq müqavilələri** deyilir. Françayzinq, lizinq, ticarət agenti, kommersiya konsessiyası, broker və digər müqavilələr sahibkarlıq müqaviləsinə aid edilir. Mal göndərmə müqaviləsi «xalis», «təmiz» sahibkarlıq müqaviləsi hesab edilir. İştirakçıları (tərəfləri) qeyri-sahibkar statuslu istehlakçı vətəndaşlar olan müqavilələrə **qeyri-sahibkarlıq müqavilələri** deyilir. Kirayə, xüsusi mənada alqı-satqı və digər müqavilələr qeyri-sahibkarlıq müqaviləsinə misal ola bilər. Məsələn, vətəndaş öz minik avtomobilini ailə-məişət ehtiyaclarını ödəmək məqsədilə qonşusuna satır. Onlar arasında bağlanan alqı-satqı müqaviləsi qeyri-sahibkarlıq müqaviləsidir.

[1] *Дернбург Г.* Пандекты. Том 1. Часть 2. Вещное право. СПб., 1905, с. 112-114; *Шапп Ян.* Основы гражданского права Германии. М., 1996, с. 66; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 375; *Musielak H.-J.* Grundkurs BGB. München. 1994. s. 39.

Bu müqavilə növü xarici hüquq doktrinasında **«istehlak müqaviləsi»** adlanır[1].

Bir-birinə münasibətdə malik olduqları əhəmiyyətə və müstəqil olub-olmamasına görə müqavilələr iki cür olur: əsas müqavilələr; aksessor (əlavə) müqavilələr. Hər hansı bir müqavilədən asılı olmadan müstəqil surətdə mövcud olan müqavilələrə **əsas müqavilələr** deyilir.

Alqı-satqı, daşıma, podrat, sığorta və digər müqavilələr əsas müqavilələr hesab edilir. **Aksessor (əlavə) müqavilələr** odur ki, bu cür müqavilələr əsas müqavilələrdən törəyir və onun taleyi həmin müqavilələrdən asılı olur. Bu müqaviləyə girov, zaminlik haqqında və beh barədə sazişi misal göstərmək olar. Məsələn, vətəndaş bankdan kredit alır və onunla kredit müqaviləsi bağlayır. Bu, əsas müqavilədir. Kreditin qaytarılmasını təmin etmək məqsədilə o, yaşayış evinə olan hüququnu girov qoyur və bu barədə bankla girov müqaviləsi bağlayır. Girov müqaviləsi aksessor, yəni törəmə müqavilədir. Başqa bir misalda vətəndaş öz qonşusu ilə televizor satılması barədə alqı-satqı müqaviləsi bağlayır. Bu, əsas müqavilədir. Vətəndaş müqavilənin icrasını təmin etmək məqsədilə qonşudan beh alır və bu barədə müqavilə bağlayır. Bu, əlavə (aksessor) müqavilədir. Digər bir misalda vətəndaş kənd sakininə borc verir və onunla borc müqaviləsi bağlayır. Bu, əsas müqavilədir. Borcun qaytarılmasını təmin etmək məqsədilə qonşu zamin durur və bunun üçün zaminlik müqaviləsi bağlanır. Bu isə aksessor müqavilədir. Aksessor müqavilə hüquqi cəhətdən əsas müqaviləyə bağlıdır. Belə ki, onun mövcud olması əsas müqavilədən asılıdır.

Normativ aktda nəzərdə tutulması kimi əlamətə görə müqavilələr iki cür olur: nəzərdə tutulan müqavilələr; nəzərdə tutulmayan müqavilələr. **Nəzərdə tutulan müqavilələr** odur ki, onların bütün hüquqi parametrləri normativ aktda müəyyənləşdirilir. Hüquqi parametrləri normativ aktda göstərilməyən, lakin mülki qanunvericiliyin prinsiplərinə, ümumi əsaslarına və mənasına zidd olmayan müqavilələrə **nəzərdə tutulmayan müqavilələr** deyilir. Bu müqavilələr bəzi hallarda «sui generis» də, yəni xüsusi növ müqavilə də adlanır.

Bağlanma əsaslarına görə bütün müqavilələr iki yerə bölünür: azad (sərbəst) müqavilələr; məcburi müqavilələr. Bağlanması tərəflərin mülahizələrindən, istəklərindən və sazişindən asılı olan müqavilələrə **azad (sərbəst) müqavilələr** deyilir. Müqavilələrin əksəriyyəti azad (sərbəst) müqavilələr hesab edilir.

Bağlanması, heç olmazsa, tərəflərdən biri üçün məcburi olan müqavilələrə **məcburi müqavilələr** deyilir. Bu cür müqavilələrin bağlanmasında tərəflərin arzu və istəkləri əsas rol oynamır. Məcburi müqavilələrə misal olaraq bank hesabı müqaviləsini misal göstərmək olar. Bankın borcu və vəzifəsidir ki, o, hesab açmaq təklifi ilə ona müraciət etmiş müştəri ilə bank hesabı müqaviləsi bağlasın. Bankın həmin hesabın açılmasından imtina etməyə ixtiyarı çatmır (MM-in 956-cı maddəsinin 2-ci və 3-cü bəndləri). Əgər bank hesabı müqaviləsinin bağlanmasından bank əsassız boyun qaçırarsa, onda müştəri onu müqavilə bağlamağa məcbur etmək tələbi ilə məhkəməyə müraciət edə bilər.

Ümumi müqavilələr də məcburi müqavilələrə şamil edilir. Ona görə ki, müvafiq tərəf kontragentlə müqavilə bağlamaqdan əsassız imtina edə bilməz

[1] Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 404.

(MM-in 400-cü maddəsinin 1-ci bəndi). Bu müqavilələr məcburi müqavilələr arasında xüsusi əhəmiyyətə malikdir.

Fidusiar müqavilə mülki-hüquqi müqavilələrin xüsusi qrupunu təşkil edir. Müqaviləni bağlayan tərəflərin şəxsi etimad münasibətlərinə əsaslanan müqavilə **fidusiar müqavilə** adlanır. Bu müqavilə iki əsas əlamətlə xarakterizə olunur. Birinci əlamət müvafiq tərəfin ölməsi ilə müqaviləyə xitam verilməsindən ibarətdir. Belə halda həmin tərəfin müqavilə üzrə öhdəlikləri hüquqi varislik qaydasında vərəsələrə keçmir. İkinci əlamət isə tərəflərin hər hansı bir motiv, dəlil olmadan birtərəfli qaydada müqaviləni pozmalarından ibarətdir. Belə ki, fidusiar müqavilə iştirakçıları istənilən vaxt müqaviləni ləğv edə bilərlər. Göstərilən hər iki əlamətə cavab verdiyinə və uyğun gəldiyinə görə həm tapşırıq müqaviləsi, həm də komissiya müqaviləsi fidusiar müqavilə növünə şamil edilir.

Mülki-hüquqi müqavilənin xüsusi xarakterli növlərindən biri aleator müqavilə adlanır. **Aleator müqavilə** dedikdə, tərəfləri risq elementini qəbul edən elə bir müqavilə başa düşülür ki, həmin element bu və ya digər tərəfin faktik əldə etdiyi qarşılıqlı əvəzin onun özünün verdiyi qarşılıqlı əvəzin həcmindən az olması ehtimalından ibarətdir[1]: bu növ müqaviləni bağlayan tərəflərdən hər biri müəyyən risqdən öz xeyri üçün istifadə edir. Ona görə də bu müqavilə çox vaxt **«risqə əsaslanan müqavilə»** adlanır. Aleator (risqli) müqavilənin ən geniş yayılmış növü ömürlük renta müqaviləsi hesab edilir. Bu müqavilənin aleator müqavilə kateqoriyasına aid edilməsi Fransa MM-in 1964-cü maddəsində rəsmən qanunvericilik qaydasında təsdiqlənir və Fransa sivilistika doktrinasında əsaslandırılır[2]. Renta müqaviləsindən başqa, oyun və mərclərin keçirilməsi ilə bağlı müqavilə, habelə sığorta müqaviləsi də aleator müqavilə növünə daxil olunur.

Nümayəndəlik müqavilələri mülki-hüquqi müqavilələrin bir növünü təşkil edir. Nümayəndəlik hüquq münasibətləri yaradan müqavilələrə **nümayəndəlik müqavilələri** deyilir. Bu müqavilələr nümayəndəlik münasibətini – nümayəndəliyi rəsmiləşdirir. Nümayəndəlik isə elə bir münasibətdir ki, bu münasibətə görə bir tərəf (nümayəndə) digər tərəfin (tapşıranın) hesabına və onun mənafeyi üçün üçüncü şəxslərlə əqd bağlayır və bu əqd tapşıran üçün mülki hüquq və vəzifələr yaradır, dəyişdirir və ya xitam edir.

Nümayəndəlik müqavilələri iki cür olur: klassik (açıq, birbaşa) nümayəndəlik müqavilələri; gizli (dolayı) nümayəndəlik müqavilələri. **Klassik nümayəndəlik müqavilələri** odur ki, bu müqavilələrə görə, nümayəndə təmsil olunanın adından, tapşıranın mənafeyi üçün və onun hesabına üçüncü şəxslərlə əqd bağlayır. Bu zaman birbaşa, bilavasitə, düzünə və avtomatik olaraq tapşıran üçün hüquqi nəticə yaranır, yəni mülki hüquq və vəzifələr yaranır, dəyişir və ya xitam olunur. Göstərilən növ nümayəndəlik müqaviləsinə ticarət nümayəndəsi (agenti) haqqında müqaviləni misal göstərmək olar (MM-in 789-cu maddəsi).

Gizli (dolayı) nümayəndəlik müqavilələri odur ki, bu müqavilələrə görə nümayəndə təmsil olunanın hesabına və onun mənafeyi üçün, lakin öz adından üçüncü şəxslərlə əqd bağlayır. Bu zaman hüquqi nəticə nümayəndə üçün yaranır[1]. Sonra o, bunu tapşırana (təmsil olunana) verir. Komissiya müqaviləsi gizli nümayəndəlik müqaviləsinin ən geniş yayılmış növüdür. Belə ki, bu müqavilə üzrə nümayəndə (komisyonçu) öz adından üçüncü şəxslə əqd bağlayır. Həmin əqd üzrə hüquq və vəzifələri o özü əldə edir. Sonra isə onu təmsil olunana, yəni tapşırana (komitentə) verir. Almaniya ticarət hüququ müəyyən etmişdir ki, gizli (dolayı) nümayəndəlik komissiya müqaviləsinin mühüm əlamətidir (Almaniya Ticarət Qanunnaməsinin 383-cü paraqrafı). Tapşırıq müqaviləsini də bu növ müqaviləyə aid etmək olar. Özü də dərhal qeyd etməliyik ki, tapşırıq müqaviləsinin predmeti rolunda faktiki hərəkətlər çıxış etdikdə, nümayəndəlik münasibəti yaranmır. Yalnız o tapşırıq müqaviləsi gizli (dolayı) nümayəndəlik əmələ gətirir ki, onun predmetini hüquqi hərəkətlər təşkil etsin[2].

Dövlət satınalmaları müqaviləsi xüsusi xarakterli müqavilə növüdür. Bu müqavilə ilə bağlı münasibətlər «Dövlət satınalmaları haqqında» qanunla (2001) tənzimlənir. Dövlət satınalma müqaviləsi elə bir sənəddir ki, bu sənəd satınalan təşkilatla tender qalibi (qalibləri) arasında yaranan münasibətləri rəsmiləşdirir və malların (işlərin və xidmətlərin) satınalınması ilə əlaqədar tərəflərin öhdəliklərini müəyyənləşdirir.

Almaniya mülki hüququnda da mülki-hüquqi müqavilələrin təsnifinə xüsusi əhəmiyyət verilir. Hər şeydən əvvəl, mülki-hüquqi müqavilələr bölünür: **Veräusserungsverträge** (əmlakın qəti olaraq verilməsinə yönələn müqavilələrə), yəni Kaufvertrag (alqı-satqı müqaviləsinə), Tausch (dəyişmə müqaviləsinə), Schenkung (bağışlama müqaviləsinə); **Gebrauchsüberlassungen** (istifadəyə vermək müqavilələrinə), yəni Mietvertrag (kirayə müqaviləsinə), Pacht (icarə müqaviləsinə), Darlehen (borc müqaviləsinə), Leihe (əvəzsiz ssuda müqaviləsinə), Lising (lizinq müqaviləsinə); **Verträge über Tatigkeit** (fəaliyyət haqqında müqavilələrə), yəni Dienstvertrag (əmək müqaviləsinə), Werkvertrag (podrat müqaviləsinə), Reisevertrag (turist xidməti haqqında müqaviləyə), Auftrag (tapşırıq müqaviləsinə), Maklervertrag (makler müqaviləsinə), Verwahring (saxlanc müqaviləsinə) və s[3].

Professor Q.Y.Muselyak predmetinə görə müqavilələri dörd qrupa bölür: öh-

---

[1] *Иоффе О.С.* Обязательственное право. М., 1975, с. 295; Французский гражданский кодекс / Перевод *И.С.Перетерского.* М., 1941.

[2] *Годеме Е.* Общая теория обязательств. М., 1948, с. 32; *Морандьер Л.Ж.* Гражданское право Франции. Книга 3, с. 333-338; *Саватье Р.* Теория обязательств. М., 1972, с. 223-225.

[1] Almaniya sivilistika doktrinasında dolayı (gizli) nümayəndəlik əsaslandırılmışdır (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 233).

[2] Hüquq ədəbiyyatı səhifələrində göstərilir ki, tapşırıq müqaviləsinin predmeti yalnız faktiki hərəkətlərdən ibarət ola bilər («Qanun» jurnalı. 2002-ci il. №3). Buradan belə çıxır ki, tapşırıq müqaviləsi nümayəndəlik yaratmır. Belə mövqe ilə razılaşmaq olmaz. Belə ki, bizim ölkə qanunvericiliyinin tapşırıq müqaviləsi haqqında qaydaları Almaniya mülki qanunvericiliyindən götürülmüşdür. Almaniya qanunvericiliyinə görə isə tapşırıq müqaviləsindən dolayı (gizli) nümayəndəlik münasibətləri yaranır (Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 20). Yaponiya mülki hüququna görə, tapşırıq müqaviləsinin predmeti rolunda hüquqi hərəkətlər çıxış edə bilər və belə halda nümayəndəlik münasibətləri yaranır (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 2. М., 1983, с. 106). Fransa, İtaliya, RF və digər ölkələrin qanunvericiliyinə görə, tapşırıq müqaviləsi nümayəndəlik əmələ gətirir. Roma hüququnda da gizli nümayəndəlik tapşırıq müqaviləsindən əmələ gəlirdi (*Нерсесов Н.О.* Представительство и ценные бумаги в гражданском праве. М., 2000, с. 100).

[3] *Schlechtriem P.* Schuldrecht. Besonderer Teil. Tübingen: Morh Siebeck, 1998; *Brox H.* Besonderer Schuldrecht. München. 1997; *Medicus D.* Schuldrecht II. Besonderer Teil. München. 1997.

dəlik müqavilələri; əşya müqavilələri; ailə-nikah müqavilələri; vərəsəlik müqavilələri[1]. H.Haynriks birtərəfli məcburedici (bağışlama, zaminlik) və natamam ikitərəfli məcburedici (alqı-satqı, icarə) və s. müqavilə növlərini fərqləndirir[2].

Almaniya mülki hüququnda **«diktə olunan müqavilə» (diktierter Vertrag)** adlı xüsusi müqavilə növü fərqləndirilir. Bu müqavilə növünü qoşulma müqaviləsi və ya standart müqavilə (nümunəvi müqavilə) ilə qarışdırmaq olmaz. Diktə olunan müqavilə dedikdə, elə bir müqavilə növü başa düşülür ki, həmin müqavilə hakimiyyət orqanının göstərişi əsasında məcburi surətdə bağlanılır[3]. Məsələn, ər-arvadın hər ikisinin adına bağlanmış kirayə müqaviləsi boşanma zamanı məhkəmə qərarı əsasında məcburi surətdə yalnız onlardan birinin adına yenidən bağlanır[4].

Yaponiya mülki hüququ da müqavilələri müxtəlif növlərə bölür: ikitərəfli və birtərəfli müqavilələrə; əvəzli və əvəzsiz müqavilələrə; real və konsensual müqavilələrə; adlı (tipik), adsız (qeyri-tipik) və qarışıq müqavilələrə[5].

§ 4. Müqavilənin bağlanması

1. Müqavilənin bağlanmasının anlayışı və mərhələləri

Qanunun müəyyən etdiyi göstərişə görə. müqavilə bağlandığı andan qüvvəyə minir və hər iki tərəf üçün məcburi qüvvəyə malik olur. Deməli, tərəflərin sazişinin və razılığının onlar üçün hüquqi əhəmiyyət kəsb etməsi üçün müqavilənin bağlanması gərəkdir. **Müqavilənin bağlanması** dedikdə, müqavilənin bütün mühüm şərtləri barədə tərəflərin lazımi formada nail olduqları saziş və razılıq başa düşülür ki, bu. qanunvericilikdə nəzərdə tutulan qaydada həyata keçirilir. Belə təsəvvür yaranır ki, müqavilə tərəflərin sazişidir. Tərəflərin müəyyən sazişə nail olmaları və bununla müqavilə bağlamaları üçün zəruridir ki, **tərəflərdən biri müqavilə bağlamaq barədə təklif versin**, digər tərəf isə **bu təklifi qəbul etsin**. Qanun müəyyən edir ki, müqavilə tərəflərdən birinin müqavilə bağlamaq təklifi göndərməsi və digər tərəfin təklifi qəbul etməsi vasitəsilə bağlanır (MM-in 405-ci maddəsinin 2-ci bəndi). Qanunun nəzərdə tutduğu göstərişdən belə məlum olur ki, müqavilənin bağlanması müəyyən bir prosesdir və bu proses iki mərhələdən ibarətdir:

- **birinci mərhələ** müqavilə bağlamaq **təklifinin göndərilməsindən** (verilməsindən) ibarətdir;
- **ikinci mərhələ** digər tərəfin (kontragentin) bu **təklifi qəbul etməsindən** ibarətdir.

Müqavilə bağlamağın hər iki mərhələsi Almaniya mülki hüququnda da nəzərdə tutulur: birinci mərhələ uyğun təklif göndərilməsindən ibarətdir («Angebot»); ikinci mərhələ isə təklifin qəbul edilməsindən və ona razılıq verilməsindən ibarətdir («Annahme»)[1]. Nə vaxt ki, bir partnyor digər partnyora müqavilə bağlamaq barədə təklif göndərir, digər partnyor isə həmin təklifi qəbul edir, onda müqavilə sazişi qüvvəyə minir[2].

Yaponiya mülki hüququna görə, müqavilə bir tərəfin digər tərəfə təklif göndərməsi, digər tərəfin isə bu təklifə razılığını bildirməsi yolu ilə bağlanılır[3].

Göstərilən hər iki mərhələ müqavilə bağlamağın bütün halları üçün zəruridir. Mülki hüquq doktrinası və qanunvericilik ənənəvi olaraq müqavilə bağlamağın iki halını fərqləndirir[4]: «iştirakçılar» arasında müqavilə bağlama halı; «qeyri-iştirakçılar» arasında müqavilə bağlama halı. Birinci halda, yəni «iştirakçılar» arasında müqavilə bağlananda tərəflər üzbəüz, bir-birilə bilavasitə əlaqədə olurlar, bu əlaqə nəticəsində müqavilənin şərtlərini hazırlayırlar, onun mətnini müəyyənləşdirirlər, sonra isə hər iki tərəf müqaviləni imzalayır. Göstərilən halda müqavilə bağlanması prosesi geniş səviyyədə, necə deyərlər, bütün təfərrüatı ilə, müfəssəl şəkildə tənzimlənməyi tələb etmir.

İkinci halda, yəni «qeyri-iştirakçılar» arasında müqavilə bağlananda isə müqavilə bağlanması prosesinin əhatəli tənzimlənməsinə zərurət yaranır. Ona görə ki, müqaviləni bağlayanlar bir-birilə üzbəüz, bilavasitə əlaqədə olmurlar. Belə ki, məkan və ərazi baxımından tərəflər bir-birindən ayrı yerlərdə yaşayırlar və ya yerləşirlər. Bu isə onlara öz iradələrini bilavasitə bir-birinin ardınca ifadə etməyə imkan vermir, yəni tərəflərin öz iradələrini ifadə etmələri müddət baxımından üst-üstə düşmür. Beləliklə, bu cür hallarda tərəflərin öz iradələrini ifadə etmələrində vaxt baxımından uyğunsuzluq yaranır. Bu isə müqavilə bağlanmasının ikinci halının geniş təfsilatı ilə tənzimlənməsini tələb edir. Bu cür qayda ilə müqavilə bağlanma prosesində elə məsələlər əmələ gəlir ki, həmin məsələlərin bütün detalları ilə, müfəssəl şəkildə hüquqi nizamlanmasına tələbat yaranır. Bu cür məsələlərə aiddir: müqavilə bağlanması haqqında təklif etmiş tərəf həmin təklifi geri götürə bilərmi?; qarşı tərəfin əsas məsələlər barəsində razılıq verməsini, digər məsələlər haqqında isə fərqli şərtlər müəyyənləşdirməsini necə qiymətləndirmək olar?; müqavilə hansı andan bağlanmış hesab edilir? və s.

Göstərilən iki mərhələ, yəni müqavilə bağlamaq haqqında təklifin verilməsi və bu təklifin qəbul edilməsi mərhələləri müqavilə bağlanmasının bütün halları üçün məcburidir. Müqavilə bağlanmasının məcburi xarakterə malik olan birinci mərhələsi oferta (latınca «offertus» – təklif edilən)[5] adlanır. **Oferta dedikdə, müqavilə bağlanması haqqında təklif başa düşülür**. O, bir və ya bir neçə şəxsə ünvanlana bilər. Müqavilə bağlamaq barədə təklif edən şəxsə isə **oferent** deyilir.

Müqavilə bağlanmasının məcburi xarakterə malik olan ikinci mərhələsi aksept (latınca «acceptus» – qəbul olunan)[6] adlanır. **Aksept dedikdə, bir tərə-**

[1] *Musielak H.-J.* Grundkurs BGB. München. 1994, s. 39.
[2] *H.Heinrichs // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 139.
[3] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 377.
[4] *Brox H.* Allgemeines Schuldrecht, s. 23.
[5] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 2. М., 1983, с. 24-25.

[1] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 378.
[2] *Musielak H.-J.* Grundkurs BGB. München. 1994. s. 41.
[3] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 2. М., 1983, с. 28.
[4] Гражданское и торговое право капиталистических стран. Учебное пособие / Отв. ред. *В.П. Мозолин, М.И. Кулагин.* М., 1980, с. 177.
[5] Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова.* М., 1954, с. 504.
[6] Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова.* М., 1954. s. 35.

fin digər tərəfin müqavilə bağlamaq barədə təklifini qəbul etməsi başa düşülür. Ofertanın ünvanlandığı şəxsin ofertanı qəbul etməsi haqqında cavabı aksept sayılır (MM-in 409-cu maddəsinin 1-ci bəndi). Təklifi qəbul edib, ona cavab verən tərəfə **akseptant** (latınca «acceptans» – qəbul edən) deyilir.

Bununla bərabər, müqavilə bağlanmasının göstərilən iki mərhələsindən savayı, elə bir mərhələsi də vardır ki, bu mərhələ bəzi müqavilələrin bağlanmasında (bütün müqavilələrin bağlanmasında yox) məcburi mərhələ kimi çıxış edir. Bu mərhələ ofertaya baxılması adlanır. **Ofertaya baxılması mərhələsi** yalnız o hallarda mümkündür ki, qanunvericilik bəzi müqavilə növləri üçün ofertaya (müqavilənin layihəsinə) baxmaq müddəti və qaydası müəyyən etsin. Məsələn, mal göndərmə müqaviləsi bağlanarkən müqavilə bağlanması barədə təklif almış tərəf həmin təklifi aldığı gündən otuz gün ərzində müqavilənin müvafiq şərtlərinin razılaşdırılması üçün tədbirlər görməli idi, yəni həmin müddət ərzində o, ofertaya baxmalı idi (MM-in 628-ci maddəsinin 1-ci bəndi). Deməli, ofertaya baxılması mal göndərmə müqaviləsinin bağlanmasının ikinci müstəqil məcburi mərhələsini təşkil edirdi. İndi bu norma MM-dən çıxarılmışdır.

Müqavilə bağlanmasının məcburi mərhələlərindən başqa, fakultativ mərhələsi də vardır. Bu, **danışıqlar mərhələsi** adlanır. Danışıqlar tərəflərin müqaviləqabağı əlaqələrini ifadə edir. Bu cür danışıqlar müqavilənin bağlanması haqqında aparılır və onun gedişində, adətən, sənədlər tərtib edilir. Bu sənəd **niyyət haqqında saziş** və ya **niyyət protokolu** və yaxud **niyyət məktubu** adlanır. Burada gələcəkdə bağlanılması gözlənilən müqavilə haqqında məlumat verilir. Lakin həmin sənədlər müqavilə bağlamaq niyyətində olan tərəflər üçün hüquqi vəzifələr yaratmır. Bununla belə, sənədin məzmununu və həmin sənədi imzalayan şəxslərin statusunu nəzərə alaraq, ona hüquqi əhəmiyyət və qiymət verilə bilər. Belə ki, həmin sənəddə tərəflərin **ona ilkin müqavilə qüvvəsi vermək iradəsi** birbaşa ifadə oluna bilər (MM-in 402-ci maddəsinin 6-cı bəndi). Bu vasitə ilə sənəd ilkin müqaviləyə çevrilir. Belə halda o, müqavilə bağlanmasının mərhələsi kimi çıxış etmir.

Danışıqlar mərhələsi müqavilə bağlanmasının məcburi xarakter daşımayan mərhələsidir. O, qeyri-məcburi (fakultativ) mərhələdir. Həmin mərhələdən müqavilə münasibətlərinə girmək niyyətində olan şəxslər yalnız öz istək və arzuları əsasında istifadə edirlər.

Beləliklə, müqavilə bağlanması prosesi ümumən dörd mərhələdən ibarətdir:

- danışıqlar mərhələsi;
- oferta;
- ofertaya baxılması;
- aksept.

Tərəflərin son zamanlar İnternet kanallarından istifadə etməklə elektron poçtu vasitəsilə sənədlər mübadiləsi yolu ilə müqavilə bağlamaları geniş yayılmışdır. Müasir şəraitdə onların İnternetin və digər kompüter rabitəsinin köməyi ilə müqavilə bağlamaq halları xeyli çoxalmışdır. Bəzən tərəflər bir-birinə aydın və məlum olan elə hərəkətlər edirlər ki, bu hərəkətlərdən onların müqavilə bağlamağa razı olduğu açıq-aşkar görünür. Bunlara **konklyudent hərəkətlər**, müqaviləyə isə **konklyudent hərəkətlə bağlanmış müqavilə** deyilir. Məsələn, metro ilə gediş zamanı konklyudent hərəkətlə daşıma müqaviləsi bağlanır.

2. Oferta

Müqavilə bağlamaq barədə hər hansı bir təklif, şübhəsiz ki, oferta sayıla bilməz. Bu cür təklifin oferta kimi hüquqi əhəmiyyət kəsb etməsi üçün zəruridir ki, o, qanunun müəyyən etdiyi məcburi tələblərə uyğun gəlsin. Bu cür tələblər qanunda göstərilmişdir (MM-in 408-ci maddəsi).

Qanunun nəzərdə tutduğu **birinci tələb** ondan ibarətdir ki, **oferta konkret olmalıdır**. Konkretlik dedikdə, ofertanın konkret olaraq bir və ya bir neçə şəxsə ünvanlanması başa düşülür[1]. Əgər müqavilə bağlamaq barədə təklif dairəsi məlum olmayan, yəni qeyri-müəyyən dairədən olan şəxslərə ünvanlanarsa, bu, oferta kimi qəbul edilmir. Bu təklif **ofertaya dəvət** sayılır (MM-in 408-ci maddəsinin 2-ci bəndi). Məsələn, ticarət firması yerli mətbuatda elan vasitəsilə qeyri-müəyyən şəxslərə belə bir təklif verir ki, müştərilər onun dükanına gəlib ondan mal alsınlar. Bu təklif müqavilənin bütün mühüm şərtlərini əks etdirsə də, oferta hesab olunmur. Ona görə ki, o, dairəsi naməlum olan şəxslərə ünvanlanır və ofertaya dəvət hesab edilir. Ofertaya dəvət etmək isə reklam kimi qiymətləndirilir. Reklam qeyri-müəyyən şəxslərə ünvanlanır və bir qayda olaraq, müqavilə bağlamaq üçün kifayət etmir. **Reklam** əmtəə (mal, iş, xidmətlər) haqqında maraq formalaşdırmaq, onun satılmasına kömək göstərmək məqsədilə yayılan informasiyadır[2]. O, gələcək müqavilənin mühüm şərtləri barəsində müştəriyə məlumat vermək məqsədi güdmür. Reklamın əsas qayə və məqsədi əmtəənin başlıca xüsusiyyət və xassələrini müştərilərə nümayiş etdirməkdən ibarətdir. Buna görə də şəxslərin qeyri-müəyyən dairəsinə ünvanlanmış reklam ofertaya dəvət sayılır, bu şərtlə ki, reklamda ayrı qayda birbaşa göstərilməsin (MM-in 408-ci maddəsinin 2-ci bəndi). Bu cür yanaşma Almaniya sivilistika doktrinasında da nəzərdə tutulur. Professor H.Haynriks yazır ki, reklam elanları, vitrinlərdə yerləşdirilmiş və qoyulmuş elanlar və s. mülki-hüquqi mənada təklif hesab olunmur. Bu cür elanlar ofertaya (təklifə) dəvətdir (invivatio ad offerendum)[3].

Bununla bərabər, bu qaydadan müəyyən istisnaya yol verilir. Belə ki, bəzi məqamlarda **dairəsi məlum olmayan şəxslərə ünvanlanan təklif ofertaya dəvət yox, oferta hesab edilir**. Axı, şəxslərin qeyri-müəyyən dairəsinə ünvanlanmış təklifin ofertaya dəvət hesab edilməsini nəzərdə tutan norma imperativ yox, dispozitiv normadır (MM-in 408-ci maddəsinin 2-ci bəndi). Bu, o deməkdir ki, həmin təklifdə bilavasitə ayrı qayda nəzərdə tutula bilər. Başqa sözlə desək, göstərilən bu cür təklif müəyyən şərtlər əsasında ümumi oferta hesab edilə bilər. Bunun üçün zəruridir ki, birincisi, **təklif müqavilənin bütün**

---

[1] Almaniya mülki hüquq doktrinasında göstərilir: təklif (Antrag, Angebot, Offerte) müəyyən ünvana yönəlməli və konkret olmalıdır (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 379). Yaponiya mülki hüququna görə isə ofertanın konkret şəxsə ünvanlanması məcburi deyil. Oferta bütövlükdə hamıya da ünvanlana bilər. Məsələn, mükafatın açıq vəd edilməsi və müsabiqə elan olunması hallarında (Yaponiya MM-in 529-532-ci maddələri) ofertanın ünvanı hamı və hər kəsdir (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 2. М., 1983, с. 29).

[2] bax: «Reklam haqqında» qanunun 1-ci maddəsi (AR QK, V cild, s. 9).

[3] *H.Heinrichs // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 143; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 379.

mühüm şərtlərini əks etdirsin. Şübhəsiz ki, söhbət, hər şeydən əvvəl, müqavilənin predmetindən gedir.

İkincisi, həmin təklifdən onu irəli sürmüş şəxsin təklifdə göstərilmiş şərtlər ilə müqaviləni **ona cavab verən istənilən şəxslə bağlamaq iradəsi aydın görünsün**. Bu iki şərt mövcud olduqda, şəxslərin qeyri-müəyyən dairəsinə ünvanlanmış təklif onu irəli sürən şəxsin iradəsini və müqavilənin bütün mühüm şərtlərini ifadə etdiyinə görə ümumi oferta hesab edilir. **Ümumi oferta** dedikdə, müqavilənin bütün mühüm şərtlərini əks etdirən elə bir təklif başa düşülür ki, bu təklifdən onu irəli sürmüş şəxsin həmin təklifdə göstərilmiş şərtlərlə müqaviləni ona cavab verən istənilən şəxslə bağlamaq iradəsi aydın görünür (MM-in 408-ci maddəsinin 7-ci bəndi). Bu oferta şəxslərin qeyri-müəyyən dairəsinə, yəni istənilən hər bir kəsə ünvanlanır.

Ümumi oferta həm yazılı, həm də şifahi formada ola bilər. Əgər təklif mətbuatda, ictimai yerlərdən asılmış elanlarda və s. irəli sürülərsə, onda bu yazılı formalı ümumi ofertadır. Təklif radio, televiziya, mikrofon vasitəsilə verilərsə, belə halda söhbət şifahi formalı ümumi ofertadan gedə bilər. Ümumi oferta istər yazılı, istərsə də şifahi formada olsun, fərqi yoxdur, bütün hallarda müqavilənin bütün mühüm şərtlərini əks etdirməlidir.

Ümumi ofertaya çoxlu misallar çəkmək olar: yaşıl işığını yandırıb dayanacaqda duran taksi; sərin içkiləri konklyudent hərəkətlə satan avtomat; nəşriyyatın özünün buraxdığı kitabı geniş oxucu auditoriyasına təklif etməsi; malın qeyri-müəyyən şəxslər dairəsinə ünvanlanmış reklamda, kataloqda və malların təsvirlərində təklif edilməsi (MM-in 616-cı maddəsinin 1-ci bəndi). Almaniya mülki hüquq doktrinası da bu mövqedə dayanır. Burada ofertanın xüsusi halları fərqləndirilir: malların satışını həyata keçirən avtomat; internet xidməti; öz-özünə xidmət[1].

Qanunun müəyyən etdiyi **ikinci tələb** ondan ibarətdir ki, **təklif müqavilənin bütün mühüm şərtlərini ifadə etməlidir**. Bu tələb MM-in 405-ci maddəsinin 1-ci bəndində ifadə olunan belə bir göstərişdən irəli gəlir ki, tərəflər müqavilənin bütün mühüm şərtləri barəsində razılığa gəldikdə, müqavilə bağlanmış sayılır. Əgər təklifdə müqavilənin mühüm şərtlərindən heç olmazsa, biri göstərilməzsə, həmin təklif oferta kimi qəbul edilə bilməz. Ofertada müqavilənin mühüm şərtləri əks olunmalıdır (MM-in 408-ci maddəsinin 1-ci bəndi).

Qanunun nəzərdə tutduğu **üçüncü tələb** ondan ibarətdir ki, **təklif kifayət qədər müəyyən olmalı və şəxsin müqavilə bağlamaq niyyətini açıq-aşkar ifadə etməlidir**. Şəxsin müqavilə bağlamaq niyyətini ifadə etməyən təklif qeyri-müəyyən təklif hesab edilir və müqavilənin bütün mühüm şərtlərini əks etdirsə də, oferta kimi qəbul edilmir[2].

Qanunun nəzərdə tutduğu **dördüncü tələb** ondan ibarətdir ki, təklifdə onu vermiş şəxsin təkcə müqavilə bağlamaq niyyəti yox, həm də onun təklifə kontragent (qarşı tərəf) razılıq verdikdə, **öz təklifinin icrasına hazır olduğu ifadə olunmalıdır**. Əgər təklifdə bu təklifi vermiş şəxsin öz təklifinin icrasına hazır olduğu əks olunmazsa, bu cür təklif oferta kimi tanınmır.

[1] *H.Heinrichs // Palandt*. Op. cit, s. 144

[2] Müəyyən hallarda oferta mübahisəli, şübhəli və qeyri-aydın olduğu hallarda, o təfsir edilməlidir (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 379).

Qanunun nəzərdə tutduğu **beşinci tələb** ondan ibarətdir ki, **təklif geri götürülə bilməz**, yəni geri götürülməzlik prinsipi tətbiq edilir. Bu prinsip müqaviləyə bağlamaq barədə təklif vermiş şəxsin öz təklifini geri götürə bilməməsi imkanını ifadə edir. **Geri götürülməzlik prinsipinin** mahiyyəti ondan ibarətdir ki, ünvan sahibinin aldığı oferta onun aksepti üçün müəyyənləşdirilmiş müddət ərzində geri götürülə bilməz (MM-in 408-ci maddəsinin 6-cı bəndi). Beləliklə, Azərbaycan Respublikasının mülki qanunvericiliyi təklifin geri götürülməzliyi prinsipini müəyyənləşdirir. Bu, kontinental hüquq ailəsinin ənənələrinə uyğundur. Belə ki, kontinental (roman-german) hüquq sistemləri ofertanın geri götürülməzliyi prinsipini təsbit edir. Analoji prinsipi Yaponiya mülki hüququ da nəzərdə tutur. Bu prinsipə görə, oferta imperativ xarakterə malikdir: müqavilə bağlanana kimi ofertanın geri götürülməsinə yol verilmir. Yaponiya MM-inə görə, aksept üçün müddət müəyyənləşdirilərsə, həmin müddət ərzində oferta geri götürülə bilməz (MM-in 521-ci maddəsinin 1-ci bəndi)[1]. Ümumi hüquq (ingilis-amerikan) ailəsi isə bundan fərqli olaraq, ofertanın geri götürülməsi qaydasını nəzərdə tutur[2].

Belə təsəvvür yaranır ki, Azərbaycan Respublikasının mülki qanunvericiliyi ofertanın onun aksepti üçün müəyyənləşdirilmiş müddət ərzində geri götürülməzliyi prinsipini təsbit edir. Bu cür oferta **qəti oferta** hesab edilir. Aksept üçün müddət ya qanunvericiliklə müəyyən edilə bilər, ya da ofertanın özündə nəzərdə tutula bilər. Məsələn, qanunla malların göndərilməsi müqaviləsi üzrə aksept üçün otuz gün müddət müəyyənləşdirilirdi (MM-in qüvvədən düşmüş 628-ci maddəsinin 1-ci bəndi). Bəzi hallarda aksept üçün müddət nəzərdə tutulmaya da bilər. Bu cür məqamlarda aksept üçün normal zəruri müddət tətbiq edilir (MM-in 409-cu maddəsinin 8-ci bəndi).

Ofertanın geri götürülməzliyi prinsipini təsbit edən qanun norması imperativ yox, dispozitiv xarakter daşıyır. Bu, o deməkdir ki, ofertada ayrı qayda da nəzərdə tutula bilər, yəni ofertanın qəti olmaması, onun geri götürülə bilməsinin mümkünlüyü qaydası göstərilə bilər.

Ofertanın geri götürülməsi təklifin mahiyyətindən də irəli gələ bilər. Məsələn, tez xarab olan və korlanan malların satışı müqaviləsini bağlamaq təklifinin, şübhəsiz ki, geri götürülməsi onun verildiyi şəraitlə bağlı ola bilər. Məsələn, oferta göndərilən vaxt milli zəmində münaqişə baş verir və ya gərgin ictimai-sosial vəziyyət yaranır. Bu vəziyyətdə oferta geri götürülərsə, bu, ədalətsiz hal və pozuntu hesab edilə bilməz.

Oferta geri götürüləndə bu barədə bildiriş göndərilir (və ya verilir). Elə hallar olur ki, təklif verilən kimi onu dərhal geri götürmək haqqında qərar qəbul edilir. Belə məqamlarda bildiriş ofertadan əvvəl və ya onun özü ilə eyni vaxtda daxil olur. Bu, o deməkdir ki, oferta verilməmişdir. Ona görə ki, oferta ünvan sahibi tərəfindən alınmamış onun geri götürülməsi barədə bildiriş verilir.

Beləliklə, oferent ünvan sahibinin aldığı ofertanı onun aksepti üçün müəy-

[1] *Сакаэ Вагацума, Тору Арииdзуми.* Гражданское право Японии. Книга 2. М., 1983, с. 29.

[2] Beynəlxalq kommersiya müqavilələrinin prinsipləri bu iki mövqeyi barışdıraraq, ofertanın həm geri götürülməsi, həm də geri götürülməsinin mümkün olmaması haqqında qayda müəyyən edir (bax: Принципы международных коммерческих договоров / Пер. с англ. *А.С.Комарова*. М., 1996, с. 24).

yənləşdirilmiş müddət ərzində geri götürə bilməz. Məsələn, bağ evini kirayəyə verən mülkiyyətçinin ixtiyarı yoxdur ki, bu evi kirayəyə götürmək arzusunda olan vətəndaşın təklifi qəbul etməsi (razılıq verməsi) üçün müəyyənləşdirilmiş müddət ərzində həmin təklifi geri götürsün. Elə hesab edək ki, mülkiyyətçi bu müddəti gözləmir və bağ evini digər şəxsə kirayəyə verir. Nəzərdə tutulmuş müddətdə təklifə razılıq verən vətəndaş bağ üçün lazım olan şeyləri bağa daşıyır və bunun üçün daşınmaya kifayət qədər xərclər çəkir. Bağ evini başqasına verdiyini görən vətəndaş ona vurulmuş zərərin (məsələn, daşıma xərclərini və s.) əvəzinin ödənilməsini tələb edə bilər. Belə təsəvvür yaranır ki, ünvan sahibinin aldığı ofertanı birtərəfli qaydada geri götürən oferent çəkilmiş xərclərin əvəzini öz kontragentinə ödəməlidir.

Yuxarıda göstərilən əlamətlərə uyğun gəldikdə, təklif oferta kimi qəbul edilir. **Həmin əlamətlərdən biri olmazsa, təklif oferta yox, ofertaya dəvət hesab olunur**. Tələb olunan zəruri əlamətlərə malik olan oferta onu verən şəxs üçün müəyyən hüquqi nəticəyə səbəb olur. Ofertanın hüquqi qüvvəyə malik olması və hüquqi əhəmiyyət kəsb etməsi üçün vacibdir ki, o, ünvan sahibi tərəfindən alınsın. Oferta ünvan sahibi tərəfindən alındığı andan onu ofertanı göndərmiş şəxslə bağlı edir (MM-in 408-ci maddəsinin 3-cü bəndi). Bu, o deməkdir ki, ünvan sahibi tərəfindən oferta alındığı andan ofertaya razılıq verilməsi üçün müəyyənləşdirilmiş müddət qurtarana kimi oferta göndərmiş şəxsin analoji təklifi başqasına etməmək, habelə oferta ilə razı olan digər şəxslərlə müqavilə bağlamağa ixtiyarı çatmır.

Beləliklə, **oferta dedikdə, müqavilə bağlamaq niyyətində olan şəxsin bir və ya bir neçə konkret şəxsə ünvanlanan, müqavilənin mühüm şərtlərini ifadə edən və bu şəxsin təklifinə cavab verən hər bir şəxslə onun müqavilə bağlamaq iradəsində olduğunu göstərən təklif başa düşülür**.

3. Aksept

Müqavilənin bağlanmasının əsas məcburi mərhələlərindən biri aksept adlanır. Ofertada yalnız bir tərəfin iradəsi ifadə olunur. Müqavilənin bağlanması üçün iki tərəfin iradə ifadəsi tələb edilir. Buna görə də vacibdir ki, ofertanı alan tərəfin iradəsi ifadə olunsun. Bu isə müqavilə bağlanmasının aksept adlı mərhələsində müəyyənləşdirilir. Aksept tərəflər arasında müqavilə münasibətlərinin əmələ gəlməsində həlledici əhəmiyyətə malikdir. Belə ki, oferta alan şəxsin müqavilə bağlamağa razılıq verilməsi haqqında cavabının müqavilə münasibətlərinin rəsmiləşdirilməsində rolu böyükdür.

Aksept dedikdə, ofertanın ünvanlandığı şəxsin ofertanı tam və qeyd-şərtsiz qəbul etməsi haqqında cavabı başa düşülür. Bu cavabın hüquqi əhəmiyyət kəsb etməsi və onu verən şəxs üçün hüquqi nəticə doğurması üçün vacibdir ki, o, müəyyən əlamətlərə uyğun gəlsin. Həmin əlamətləri özündə əks etdirməyən cavab aksept kimi qəbul edilmir və tanınmır. Bu əlamətlər qanunda nəzərdə tutulmuşdur.

Almaniya mülki hüququna görə, təklifin (ofertanın) qəbul edilməsi «Annahme» adlanır ki, o, aksept mənasını bildirir. «Annahme» elə bir iradə ifadəsidir

ki, bunun vasitəsilə akseptant müqavilə bağlamağa öz razılığını bildirir[1]. O, bir tərəfdən iradə bildirmə prosedurudur, digər tərəfdən isə təsdiqetmə cavabıdır, razılıq vermədir[2]. «Annahme» Almaniya Mülki Qanunnaməsinin 150-152-ci paraqrafları ilə tənzimlənir[3]. Yaponiya mülki hüququnda akseptə oferta ilə birlikdə müqavilə bağlanmasına səbəb olan iradə ifadəsi kimi anlayış verilir[4].

Akseptin birinci əlaməti ondan ibarətdir ki, o, **tam və qeyd-şərtsiz olmalıdır** (MM-in 409-cu maddəsinin 1-ci bəndi). Bu, o deməkdir ki, müqavilə bağlamaq barədə təklif alan şəxs, yəni ofertanın ünvanlandığı şəxs həmin təklifə prinsipial razılıq verməli və onu qəbul etməlidir. Əgər razılıq və cavab ofertada göstərilən şərtin dəyişdirilməsi, məhdudlaşdırılması və ya ona əlavələr edilməsi ilə müşayiət olunarsa, onda bu cür razılıq və cavab aksept kimi qəbul edilmir. Elə hallar olur ki, təklif alan şəxsin verdiyi cavabda müqaviləni ofertada nəzərdə tutulduğundan fərqlənən başqa şərtlərlə bağlamağa razılığı ifadə olunur. Bu, o deməkdir ki, oferta tam və qeyd-şərtsiz qəbul edilməmişdir. Belə cavab **ofertadan imtina və eyni zamanda yeni təklif** sayılır[5]. Buna **qarşılıqlı oferta** da deyilir. Yeni (qarşılıqlı) ofertada tərəflər öz yerlərini dəyişirlər. Belə ki, əvvəlki təklifi verən şəxs yeni ofertada təklif alan şəxs rolunda, əvvəlki təklif alan şəxs isə təklif verən şəxs qismində çıxış edir.

Bəzi hallarda ofertanın tam və qeyd-şərtsiz qəbul edilməsindən müəyyən istisna hala yol verilir. Belə ki, bu cür hallarda ofertanın şərtləri tam həcmdə icra olunmur, lakin **ofertada göstərilən şərtlərdən birinin yerinə yetirilməsi üçün müvafiq hərəkətlər edilməsi aksepti ifadə edir**[6]. Bu cür hərəkətlərin aksept kimi tanınması üçün vacibdir ki, o, aksept üçün müəyyənləşdirilmiş müddətdə icra edilsin. Göstərilən hərəkətlərin dairəsi kifayət qədər genişdir: malları yola salmaq; xidmətlər göstərmək; işlər görmək; müvafiq məbləği ödəmək və s. üçün hərəkətlər edilməsi. Məsələn, dəmir-beton məmulatı (DBM) müəssisəsi sement istehsal edən müəssisəyə ona sement göndərmək barədə müqavilə bağlamaq təklifi ilə müraciət edir. Sement müəssisəsi təklifi (ofertanı) alan kimi vaqonlarda dəmir yolu vasitəsilə kifayət qədər sement göndərir. Onun etdiyi bu cür hərəkət aksepti ifadə edir. Tərəflərin münasibəti isə müqa-

---

[1] *Musielak H.-J.* Grundkurs BGB. München. 1994, s. 49 ff.

[2] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 380.

[3] Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

[4] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 2. М., 1983, с. 30.

[5] Professor H.Haynriks yazır ki, təklifin qəbul edilməsinin məzmunu təklifi qeyd-şərtsiz bəyənməkdən ibarətdir; təklifi dəyişikliklə qəbul etmək təklifdən imtina sayılır (*H.Heinrichs // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 144-145).

[6] Müqavilə layihəsində (ofertada) onun qüvvədə olduğu müddət ərzində dəfələrlə malların yola salınması, xidmətlər göstərilməsi, işlər görülməsi nəzərdə tutula bilər. Belə müqavilə layihəsini alan şəxs yalnız müqavilənin qüvvədə olmasının birinci dövrü üçün öz vəzifəsini icra edir, yəni hərəkətlər edir (mal yola salır, iş görür, xidmət göstərir). Həmin hərəkətlərin aksept hesab edilməsi barədə məhkəmə-arbitraj praktikasında mübahisəli məsələ yaranmışdır. Bu məsələyə RF Ali Məhkəməsi və Ali Arbitraj Məhkəməsi Plenumu öz münasibətini bildirmişdir. Plenum izah etmişdir ki, həmin hərəkətləri aksept saymaq üçün oferta (müqavilənin layihəsini) alan şəxsin ofertada göstərilən şərtlər əsasında, habelə onun aksepti üçün nəzərdə tutulan müddətdə öz vəzifəsinin icrasına başlaması kifayətdir. Plenum göstərmişdir ki, belə hərəkətləri aksept saymaq üçün ofertada göstərilən şərtlərin hamısını tam həcmdə yerinə yetirmək tələb olunmur (bax: n. 58 постоновления от 1 июля 1996 г. № 6/8. «О некоторых вопросах, связанных с применением части первой Гражданского кодекса Российской Федерации»).

vilə münasibəti hesab olunur. Alıcı, yəni DBM müəssisəsi ödənişi gecikdirərsə və ya verməzsə, o, müqavilə öhdəliyinin pozulmasına görə məsuliyyət daşıyır.

Beləliklə, oferta almış şəxsin onun aksepti üçün müəyyənləşdirilmiş müddətdə ofertada göstərilən müqavilə şərtlərini yerinə yetirmək üçün hərəkətlər etməsi aksept sayılır (MM-in 409-cu maddəsinin 4-cü bəndi). Buna konklyudent hərəkətlər deyilir. Göstərilən bu qayda dispozitiv xarakter daşıyır. Belə ki, ofertada ayrı qayda nəzərdə tutula bilər.

Bununla belə, təklifi alan şəxsin **faktiki hərəkətləri də aksept sayıla bilər**. Təklif ümumi oferta formasında ifadə edildiyi hallarda, alıcı ödənişi həyata keçirməklə faktiki hərəkətlər edir. Məsələn, satış yerində (piştaxtalarda, vitrinlərdə və s.) malların qoyulması, onların nümunələrinin nümayiş etdirilməsi və ya satılan mallara dair məlumatların (malların təsvirlərinin, kataloqlarının, fotoşəkillərinin və s.) təqdim edilməsi ümumi oferta sayılır. Alıcı malı alarkən onun pulunu ödəyir və təklifi aksept edir. Qarşı tərəfin müqavilə üzrə hərəkətləri də aksept hesab edilə bilər. Məsələn, vətəndaşın avtobusda bilet alması, qonağın mehmanxanada qalması üçün qəbz alması və s. aksept kimi qəbul edilir.

Susmaq aksept hesab edilmir (MM-in 409-cu maddəsinin 3-cü bəndi). Təklifə razılıq verilməsində məşhur kəlamdan istisnaya yol verilir. Məşhur kəlamda deyilir ki, susmaq razılıq əlamətidir. Təklifə münasibət bildirilərkən, bundan fərqli olaraq, susmaq razılıq əlaməti hesab edilmir. Bu, o deməkdir ki, müqavilə bağlamaq barədə təklif alan şəxs ona münasibət bildirməyib susursa, bu, aksept sayılmır.

Susmağı aksept hesab etməyən qanun norması imperativ yox, dispozitiv xarakter daşıyır. Belə ki, MM-dən, işgüzar adətdən və ya tərəflərin əvvəlki işgüzar münasibətlərindən ayrı qayda da irəli gələr bilər (MM-in 409-cu maddəsinin 3-cü bəndi). Məsələn, ticarət agenti haqqında müqavilənin müddəti başa çatır. Ticarət agenti yenidən müqavilə bağlamaq təklifi ilə tapşırana müraciət edir. Əgər tapşıran dinmirsə, susursa və ticarət agenti öz fəaliyyətini davam etdirirsə, müqavilə qeyri-müəyyən müddətə bağlanmış hesab edilir (MM-in 794-cü maddəsinin 1-ci bəndi). Bu halda aksept susmaq formasında həyata keçirilir. İcarə müqaviləsinin müddəti qurtardıqdan sonra ona xitam vermək haqqında tərəflərdən birinin (icarəyə verənin və ya icarəçinin) ərizəsi olmadıqda, o, müqavilədə nəzərdə tutulmuş eyni müddət üçün və eyni şərtlərlə uzadılmış hesab edilir[1]. Bu halda da həm oferta, həm də aksept yenidən bağlanmış müqavilə üzrə susmaq formasında həyata keçirilir[2].

Akseptin ikinci əsas əlaməti ondan ibarətdir ki, **o, vaxtlı-vaxtında, tələb olunan müddətdə həyata keçirilməlidir**[3]. Müqavilənin bağlanma praktikasında aksept üçün müddətin böyük əhəmiyyəti vardır. Yalnız tələb olunan müddətdə, vaxtlı-vaxtında həyata keçirilən aksept hüquqi əhəmiyyətə malik olur və hüquqi nəticə əmələ gətirir, yəni müqavilənin bağlanmasını şərtləndirir. Akseptin vaxtlı-vaxtında həyata keçirilməsi onun aşağıdakı müddətlərdə yerinə yetirilməsini əhatə edir:

- ofertada aksept üçün nəzərdə tutulmuş müddətdə;
- qanunda aksept üçün müəyyənləşdirilmiş müddətdə;
- aksept üçün zəruri olan müddət ərzində;
- aksept dərhal bildirildikdə.

Birinci halda oferent, yəni müqavilə bağlamaq barədə təklif edən şəxs **ofertada aksept üçün müddət müəyyənləşdirir**. Təklifi alan şəxsin, yəni akseptantın borcudur ki, aksepti bu müddət ərzində həyata keçirsin (MM-in 409-cu maddəsinin 2-ci bəndi). Akseptin göstərilən müddət ərzində həyata keçirilməsi hüquqi əhəmiyyət kəsb edir. Belə ki, oferent (ofertanı göndərmiş şəxs) aksepti ofertada nəzərdə tutulan müddət ərzində aldıqda, müqavilə bağlanmış sayılır (MM-in 409-cu maddəsinin 7-ci bəndi). Özü də dərhal qeyd etməliyik ki, aksept haqqında bildirişin oferentə göndərildiyi vaxt müddəti yox, ancaq həmin bildirişin oferent tərəfindən alındığı vaxt müddəti hüquqi əhəmiyyətə malik olur, yəni müqavilənin bağlanmasını şərtləndirir. Ona görə də akseptant aksept barədə bildirişi elə hesabla göndərməyə çalışmalıdır ki, həmin bildiriş ofertada nəzərdə tutulan müddətdə oferentə çatsın.

İkinci halda akseptant **qanunda aksept üçün müəyyənləşdirilmiş müddətdə** oferentə cavab verməlidir, yəni aksept barədə bildiriş göndərməlidir. Bu cür müddət yazılı oferta üçün xarakterikdir. Belə ki, yazılı ofertada aksept üçün müddət nəzərdə tutulmur. Bu halda aksept üçün müddəti müəyyən etmək üçün qanunda göstərilən müddət əsas kimi götürülür. Məsələn, qanun mal göndərmə müqaviləsi bağlanarkən aksept üçün otuz gün müddət müəyyən edirdi (MM-in qüvvədən düşmüş 628-ci maddəsinin 1-ci bəndi). Akseptant mal göndərmə müqaviləsi bağlamaq barədə təklifi aldığı otuz gün ərzində müqavilənin müvafiq şərtlərinin razılaşdırılması üçün tədbirlər görməli, yəni aksept barədə oferentə bildiriş göndərməli idi. Oferta göndərmiş şəxs aksepti 30 gün qurtarana qədər aldıqda, müqavilə bağlanmış hesab edilirdi.

Üçüncü halda akseptant **aksept üçün zəruri olan müddət ərzində** oferentə aksept barədə bildiriş göndərməlidir. Bu cür müddətdən oferta yazılı formada verildiyi hallarda istifadə edilir. Bundan əlavə, həmin müddət o halda tətbiq olunur ki, birincisi, yazılı ofertada aksept üçün müddət müəyyənləşdirilməsin, ikincisi, aksept üçün müddət qanunda nəzərdə tutulmasın. **Aksept üçün zəruri olan müddət** dedikdə, normal (ağlabatan) lazımi müddət başa düşülür. Zəruri olan müddəti təyin edərkən ofertanın predmeti, təklif verən şəxsdən təklif alan şəxsə poçtun getməsi müddəti, həmin növ korrespondensiyanın (poçtla göndərilən yazışmalar, məktublar, teleqramlar və başqalarının) hər iki tərəfə çatması üçün yetərli olan vaxt, verilmiş təklifin məzmunu ilə tanış olmaq və ona cavab vermək üçün kifayət edən vaxt, təklif alan şəxsin iş icraatının təşkili və digər amillər nəzərə alınır[1]. Oferta göndərmiş şəxs aksepti aksept üçün zəruri olan müddət ərzində almış olduqda, müqavilə bağlanmış hesab olunur.

Dördüncü halda aksept üçün müddət **təklif alan şəxsin aksept barədə**

[1] «İcarə haqqında» qanunun 13-cü maddəsinin 5-ci bəndi (bax: AR QK, I cild, s. 437).

[2] Almaniya mülki hüququna görə, susmaq aksept hesab olunmur. Amma istisna hallarda susmaq aksept sayıla bilər (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 378).

[3] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с.181.

[1] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 516; Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова.* М., 1999, с. 709.

bildirişin dərhal verməsi ilə bağlı olaraq müəyyən edilir. Bu cür müddətdən o halda istifadə olunur ki, hər şeydən əvvəl, oferta şifahi formada verilsin. Vətəndaşlar məişət münasibətləri sferasında konsensual müqavilələr bağladıqları zaman, bir qayda olaraq, əsasən şifahi formada oferta verirlər. Real müqavilələr bağlanarkən bu cür oferta göndərilmir. Bundan əlavə, vacibdir ki, şifahi formalı ofertada aksept üçün müddət göstərilməsin. Hər iki şərt olduqda, akseptant aksept barədə dərhal bildiriş verir. Bununla da müqavilə bağlanmış sayılır. Bu xüsusi qayda ilə o müqavilələr bağlanır ki, onların barəsində qanun yazılı forma tələb etmir və nəzərdə tutmur[1].

Göstərdiyimiz hallardan başqa, qalan hallarda akseptin vaxtında həyata keçirilməsi ofertanın ünvanında olan şəxsə verilməsindən asılı olaraq müəyyən edilir. Belə ki, **ünvanında olan şəxsə verilmiş oferta** dərhal qəbul edilməli və ya ondan imtina olunmalıdır (MM-in 409-cu maddəsinin 10-cu bəndi). **Ünvanında olmayan şəxsə verilmiş oferta** isə yalnız oferta verilmiş şəxsin, adətən, cavab gözləyə biləcəyi müddətədək qəbul edilə bilər (MM-in 409-cu maddəsinin 11-ci bəndi).

Bəzən oferta vermiş şəxs aksepti tələb olunan müddətdə almır. Başqa sözlə desək, akseptantdan aksept alınması gecikdirilir. Buna **alınması gecikdirilən aksept** deyilir. Bu cür aksept, ümumi qaydaya görə, müqavilənin bağlanmasına gətirib çıxarmır. Lakin müəyyən tələb olunan şərt əsasında oferentə gec çatan aksept müqavilənin bağlanmasına dəlalət edə bilər. Başqa sözlə desək, müqavilənin taleyi bu halda oferentdən asılı olur. Belə ki, oferent ya gecikdirilən cavaba məhəl qoymayaraq, müqavilənin bağlanması ilə razılaşır, ya da onun təklifinə verilən cavabın gecikdirilməsinə görə müqavilə bağlanmaqdan imtina edir.

Qanunun müvafiq norması oferentə gec çatan aksept (alınması gecikdirilən aksept) ilə bağlı əmələ gələn münasibətləri tənzimləyir (MM-in 409-cu maddəsinin 5-ci bəndi). Mülki qanunvericilik bu münasibətlərdə gecikmənin iki halını fərqləndirir və onları müxtəlif qaydada nizama salır. Birinci hal ondan ibarətdir ki, aksept akseptant tərəfindən vaxtında göndərilir (vaxtında göndərilmə akseptdən məlum olur)[2], lakin oferent tərəfindən gec alınır, yəni ona gec çatır. Gec çatmanın səbəbi müxtəlif amillərlə bağlı ola bilər: rabitə təşkilatlarının, yəni poçtun təqsiri olduqda; ünvanı düzgün göstərməyən akseptantın təqsiri olduqda. Belə hallarda, **əgər oferent akseptin gec alınması barədə digər tərəfə dərhal məlumat vermiş olarsa, müqavilə bağlanmamış hesab edilir**. Akseptin gec çatması barədə yalnız oferentin xəbəri olur. Akseptant isə belə güman edir ki, aksept oferent tərəfindən vaxtında alınmışdır, artıq müqavilə bağlanmışdır və buna görə də müqavilənin icrasına, müvafiq xərclər çəkməyə başlamaq lazımdır. Bu cür xərclərin çəkilməsinin qarşısını almaq üçün müqaviləni bağlamaq arzusunda olmayan oferentə **akseptin gec çatması barədə dərhal akseptanta məlumat vermək vəzifəsi həvalə edilir.**

[1] Telefon danışıqları zamanı akseptant təklifi qəbul etməsini dərhal bildirməlidir (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 380).

[2] Gecikdirilən akseptin alınması müəyyən edilərkən aksept barədə bildirişin vaxtında göndərilməsi nəzərə alınır. Aksept haqqında bildirişin göndərilmə anı təyin edilərkən poçt ştempelində, teleqramda və s. göstərilən tarix əsas kimi götürülür.

Bununla belə, göstərilən halda oferent akseptin gec alınması barədə qarşı tərəfə dərhal məlumat vermir, susur. **Oferentin susması müqavilənin bağlanmış hesab edilməsini şərtləndirir**.

Gecikdirmənin ikinci halı ondan ibarətdir ki, aksept akseptantın təqsiri üzündən oferentə gec çatır, yəni oferent aksepti gec alır. Bu halda, əgər oferent gec alınmış akseptin qəbul edilməsi barədə akseptanta **dərhal məlumat verərsə, müqavilə bağlanmış hesab edilir**. Əgər oferent məlumat verməyib susarsa, bu, müqavilənin bağlanmamasını şərtləndirir.

Beləliklə, alınması gecikdirilən aksept, əgər oferent onu qəbul etməsə, hüquqi nəticə yaratmır, yəni müqavilənin bağlanmasına dəlalət etmir. Oferta üçün gecikmiş aksept yeni oferta sayılır (MM-in 410-cu maddəsinin 1-ci bəndi).

Akseptantın **aksepti geri götürmək hüququ** vardır. Bu, onu ifadə edir ki, o, müqavilənin bağlanmasına verdiyi razılıqdan imtina edə bilər. Akseptant göstərilən həmin hüququnu həyata keçirərkən akseptin geri götürülməsi haqqında bildiriş verir. İki halda bildiriş akseptin geri götürülməsinə dəlalət edir. Birinci halda, **əgər bildiriş oferentə akseptdən əvvəl çatarsa**, bu, akseptin geri götürülməsinə səbəb olur. Əksinə, əgər bildiriş akseptdən sonra oferentə çatarsa, bu, akseptin geri götürülməsi üçün əsas olmur. Bu halda aksept oferent tərəfindən alınmış hesab edilir.

İkinci halda akseptin geri götürülməsi haqqında **bildiriş akseptlə eyni vaxtda oferentə çatır**. Bu cür məqam da akseptin geri götürülməsini ifadə edir. Bu, onu göstərir ki, aksept oferent tərəfindən alınmamışdır, akseptant tərəfindən geri götürülmüşdür.

Sahibkarlıq fəaliyyəti sferasında müqavilə bağlanması praktikasında elə hallara rast gəlinir ki, bir tərəf aksept almaq üçün müqavilənin layihəsini (ofertanı) qarşı tərəfə göndərir. Qarşı tərəf müqavilənin əsas və əksər şərtlərini qəbul edir və prinsipial razılığını ifadə edir. Bəzi bir və ya bir neçə müqavilə şərti barəsində isə o, razılaşmır və ixtilaf (fikir ayrılığı) haqqında protokol imzalayır. Akseptant müqavilənin layihəsini də imzalayır və protokolla birlikdə oferentə göndərir. Bu hal müqavilənin bağlanmış sayılmasına dəlalət etmir. Tərəflərin borcudur ki, onlar yaranmış ixtilafı nizama salsınlar. Məsələn, qanun müəyyən edirdi ki, sahibkarlıq müqaviləsi hesab edilən mal göndərmə müqaviləsi bağlanarkən tərəflər ixtilafları tənzimləsinlər (MM-in qüvvədən düşmüş 628-ci maddəsi). Bununla belə, müqaviləni digər şərtlərlə bağlamağa razılıq vermək haqqında cavab yeni oferta hesab edilir.

4. Müqavilənin bağlanması anı və müqavilənin bağlandığı yer

Müqavilələr bağlanarkən müqavilənin bağlanması anının və müqavilənin bağlandığı yerin çox vacib əhəmiyyəti vardır. Müqavilənin bağlanması anı ona görə mühüm əhəmiyyət kəsb edir ki, **müqavilə bağlayan tərəflərin hüquq və vəzifələrinin əmələ gəlməsi bu anla şərtlənir**. Məhz bu andan müqavilə iştirakçıları üçün hüquqi nəticə yaranır, yəni mülki hüquq münasibətləri əmələ gəlir, dəyişir və ya xitam olunur. Müqavilənin bağlanması anını təyin etmədən müqavilədə nəzərdə tutulan hüquq və vəzifələrin yaranma məqamını müəyyənləşdirmək qeyri-mümkündür. Buna görə də qüvvədə olan mülki qanunvericilik müqavilənin bağlanması anına xüsusi əhəmiyyət verir və onun tənzimlən-

məsinə ayrıca norma həsr edir (MM-in 407-ci maddəsi).

Müqavilənin bağlanması anını müəyyənləşdirmək üçün üç qayda mövcuddur:

- konsensual müqavilələrin bağlanması haqqında qayda;
- real müqavilələrin bağlanması haqqında qayda;
- dövlət qeydiyyatına alınması tələb olunan müqavilələrin bağlanması haqqında qayda.

Konsensual müqavilələrin bağlanması haqqında qaydanın mahiyyəti ondan ibarətdir ki, konsensual müqavilələr oferta göndərmiş şəxsin onun akseptini aldığı anda bağlanmış sayılır. Bu, o deməkdir ki, tərəflər, yəni oferent və akseptant sazişə və razılığa gəldikləri andan konsensual müqavilə bağlanmış hesab edilir. **Tərəflərin sazişə və razılığa gəlmələri anı oferentin aksepti aldığı məqamdır**. Məsələn, alqı-satqı, mal göndərmə, pərakəndə alqı-satqı, kirayə, icarə, françayzinq, lizinq və s. müqavilələrin bağlanması anı tərəflərin sazişə və razılığa gəlmələri vaxtı ilə şərtlənir.

Real müqavilələrin bağlanması haqqında qaydanın mahiyyəti ondan ibarətdir ki, real müqavilələr tərəflərin sazişindən (yəni oferentin aksepti almasından) əlavə, əmlakın verildiyi andan bağlanmış sayılır. Belə ki, real müqavilələrin bağlanması üçün oferentlə akseptantın təkcə müqavilənin şərtləri barədə razılığa gəlmələri və sazişi yetərli deyildir. Müqavilənin bağlanmış hesab edilməsi üçün həm də zəruridir ki, müvafiq tərəf müqavilənin predmeti olan əmlakı digər tərəfə versin. Əmlak həmin tərəfə verildiyi andan müqavilə bağlanmış hesab edilir. Deməli, **real müqavilələrin bağlanma anı əmlakın verilmə məqamı ilə şərtlənir**. Məsələn, yükdaşıma, saxlama, bank əmanəti və renta müqavilələri real müqavilə sayılır. Bu müqavilələrin bağlanması üçün qeyd etdiyimiz kimi, oferta göndərmiş şəxsin onun akseptini alması kifayət etmir; bunun üçün həm də eyni zamanda tələb edilir ki, tərəflərdən biri müvafiq əmlakı digər tərəfə versin (məsələn, yükdaşıma müqaviləsi üzrə yük göndərən yükü daşıyıcıya, saxlama müqaviləsi üzrə saxlanca verən şəxs əmlakı saxlayıcıya, bank əmanəti müqaviləsi üzrə əmanətçi pulu banka və s. təhvil verməlidir). Oferta göndərmiş şəxsin onun akseptini aldığı andan yox, məhz əmlakın verildiyi andan real müqavilə bağlanmış hesab edilir; həmin andan tərəflər üçün hüquq və vəzifələr əmələ gəlir. Məsələn, saxlama müqaviləsi üzrə əmlakı saxlamaq və onu sahibinə qaytarmaq kimi vəzifələr əmlak saxlayıcıya verildiyi andan yaranır; bank əmanəti müqaviləsi üzrə pulu əmanətçiyə geri qaytarmaq vəzifəsi pul banka təhvil verildiyi andan əmələ gəlir.

Roma hüququ dövründən bəri real müqavilələr müvafiq əmlak verildiyi andan bağlanmış sayılır. Xarici ölkələrin müasir mülki hüququ da məsələyə bu cür yanaşır[1]. **Özü də müqavilənin real müqavilə şəklində bağlanması tərəflərin sazişi ilə yox, məhz qanunla müəyyən edilir[2].** Məsələn, tərəflər alqı-satqı müqaviləsini real müqavilə şəklində bağlaya bilməzlər, yəni onlar əmlak alıcıya verildiyi andan alqı-satqı müqaviləsinin bağlanması barədə razılığa

[1] *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Часть 2. М., 1960, с. 210; Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров.* М., 2004, с. 498.

[2] Комментарий к Гражданскому кодексу Российской Федерации. Часть 1 /Отв. ред. *Д.Егоров, А.П.Сергеев.* М., 2005, с. 824.

gələ bilməzlər. Amma bundan fərqli olaraq tərəflər bağışlama müqaviləsini real müqavilə və ya konsensual müqavilə şəklində bağlaya bilərlər. Buna görə də qanunvericinin MM-in 407-ci maddəsinin 2-ci bəndində ifadə olunan «müqavilə müvafiq əmlakın verildiyi andan bağlanmış sayılır» göstərişini «sadə yazılı müqavilə müvafiq qaydada imzalandığı, notarial qaydada təsdiq edilməli müqavilə isə müvafiq qaydada təsdiq edildiyi andan bağlanmış sayılır» göstərişi ilə əvəz etməsinin heç bir əsası yoxdur. Ona görə ki, bir qayda olaraq, konsensual müqavilə imzalandığı andan bağlanmış sayılır, eləcə də tərəflər üçün hüquq və vəzifələr əmələ gətirir. **Real müqavilələr isə imzalandığı andan yox, əmlak qarşı tərəfə verildiyi andan bağlanmış sayılır.** Məsələn, tərəflər (bank və əmanətçi) sənəd tərtib edərək bank əmanəti müqaviləsi bağlamaq məqsədilə onu imzalayırlar; lakin bu andan yox, məhz pul banka təhvil verildiyi andan müqavilə bağlanmış sayılır. Ona görə ki, bank əmanəti müqaviləsi real müqavilədir.

Notarial qaydada təsdiq edilməli real müqavilə (məsələn, daşınmaz əmlakın rentaya verilməsi müqaviləsi) təsdiq edildiyi andan bağlanmış sayıla bilməz; bunun üçün, şübhəsiz, əmlakın müvafiq tərəfə verilməsi tələb olunur.

Dövlət qeydiyyatına alınması tələb olunan müqavilələrin bağlanması haqqında qaydanın mahiyyəti ondan ibarətdir ki, müqavilə üzrə hüquqların dövlət qeydiyyatına alınması nəzərdə tutulan müqavilələr, bu hüquqların qeydə alındığı andan bağlanmış sayılır. Dövlət qeydiyyatı daşınmaz əmlakın dövlət reyestrində aparılır. Dövlət reyestrində qeydə alınmalı olan müqavilələrin dairəsi qanunla müəyyən edilir: daşınmaz əmlakın alqı-satqı müqaviləsi (MM-in 647-ci maddəsi); daşınmaz əmlakın özgəninkiləşdirilməsini nəzərdə tutan renta müqaviləsi (MM-in 866-cı maddəsi); daşınmaz əmlakın ipotekası haqqında müqavilə (MM-in 309-cu maddəsinin 1-ci bəndi) və s. Bu cür müqavilələrin dövlət reyestrində qeydiyyata alınması anı həmin müqavilələrin bağlanması məqamını ifadə edir. Özü də dərhal qeyd etməliyik ki, dövlət reyestrində dövlət qeydiyyatına alınması tələb olunan müqavilələr onların notariat qaydasında təsdiqlənməsi ilə müşayiət edilir[1]. Məsələn, yuxarıda göstərdiyimiz renta və alqı-satqı kimi müqavilələr dövlət reyestrində dövlət qeydiyyatına alınmamışdan əvvəl hökmən notariat qaydasında təsdiqlənir. Lakin belə hallarda müqavilənin notariat qaydasında təsdiqlənməsi müqavilənin bağlanmış hesab edilməsinə dəlalət etmir və müqaviləni bağlayan tərəflər üçün hüquq və vəzifələr yaratmır[2].

Notarial formalı elə müqavilələr vardır ki, bu müqavilələr onların dövlət re-

[1] Elə müqavilələr vardır ki, qanunvericilikdə onların dövlət qeydiyyatına alınması tələb edilsə də, notariat qaydasında təsdiqlənməsi nəzərdə tutulmur. Məsələn, Meşə Məcəlləsi müəyyən edir ki, meşə fondu sahələrinin icarə müqaviləsi dövlət qeydiyyatına alınır (15-ci maddə). Həmin sənəd icarə müqaviləsinin notariatda təsdiqlənməsi barədə heç bir göstəriş ifadə etmir.

[2] Çox vaxt vətəndaşlar elə hesab edirlər ki, yaşayış evinin alqı-satqı müqaviləsinin bağlanmış hesab edilməsi üçün onun notariat qaydasında təsdiqlənməsi kifayətdir və bu andan yaşayış evinə mülkiyyət hüququ onlara keçir. Buna görə də müqavilə notariat qaydasında təsdiqləndikdən dərhal sonra vətəndaşlar yaşayış evinin pulunu ödəyirlər. Bu qayda ilə evin mülkiyyətçisi onu bir neçə şəxsə satır. Dələduzluqda mahir olan ev sahibi bu qayda ilə mübahisəli və müşkül bir məsələnin ortaya çıxmasına səbəb olur. Bunun nəticəsində o, bir neçə vətəndaşın pulunu mənimsəyir. Məhkəmə praktikasında belə hallara tez-tez rast gəlmək olur.

yestrində qeydə alınması ilə müşayiət olunmur, yəni bu müqavilələrin notariat qaydasında təsdiqlənməsindən sonra daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması tələb edilmir. Bu cür müqavilələrə misal olaraq MM-in 329-cu maddəsinin 1-ci bəndində nəzərdə tutulan qaydada tərəflərin qarşılıqlı razılığı ilə bağlanan müqavilələri göstərmək olar. Belə ki, MM-də bəzi müqavilələr üçün notarial forma nəzərdə tutulmur. Lakin müqavilə bağlayan tərəflərin qarşılıqlı razılığı ilə müqavilə notariat qaydasında təsdiqlənə bilər. Məsələn, MM borc müqaviləsi üçün notarial forma müəyyənləşdirmir. Lakin borc verənlə borc alan borc müqaviləsinin notariat qaydasında təsdiqlənməsi barədə razılığa gəlirlər. Belə hallarda, yəni tərəflərin qarşılıqlı razılığı ilə müqavilə notarial formada bağlandıqda, müqavilə notariat qaydasında təsdiqləndiyi andan bağlanmış hesab edilir.

Müqavilənin bağlandığı yer də mühüm əhəmiyyətə malik olan məsələlərdəndir. MM-in 411-ci maddəsi bu məsələnin nizama salınmasına həsr edilmişdir. **Müqavilənin bağlandığı yer tərəflərin razılığı ilə müqavilədə göstərilməklə təyin edilə və müəyyənləşdirilə bilər**. Çox vaxt müqavilə bağlayan tərəflərdən birinin olduğu yer müqavilənin bağlandığı yer kimi nəzərdə tutulur. Bununla belə, tərəflər razılığa gələ bilərlər ki, müqavilənin predmeti olan əmlakın yerləşdiyi yer və ya müqavilə bağlamaq barədə danışıqların aparıldığı yer müqavilənin bağlandığı yer kimi müəyyənləşdirilsin.

Müqavilədə onun bağlandığı yer göstərilməyə də bilər. Bu halda qanun **müqavilənin bağlandığı yeri oferentin (ofertanı göndərmiş şəxsin) yaşayış yeri (və ya olduğu yer) ilə bağlayır və əlaqələndirir**. Əgər oferent fiziki şəxs olarsa, onun yaşayış yeri müqavilənin bağlandığı yer hesab edilir. Yox əgər oferent rolunda hüquqi şəxs çıxış edərsə, onun olduğu yer müqavilənin bağlandığı yer sayılır.

Müqavilənin bağlandığı yerin müəyyən edilməsinin əhəmiyyəti bir neçə amillə şərtlənir. **Birincisi**, müqavilənin bağlandığı yeri müəyyənləşdirməklə **müqaviləyə tətbiq edilən normativ aktı təyin etmək mümkün olur**. **İkincisi**, əvəzli müqavilələrdə **qiyməti müəyyən edərkən müqavilənin bağlandığı yer böyük əhəmiyyətə malik olur**. Belə ki, bəzi hallarda əvəzli müqavilədə qiymət nəzərdə tutulmur və onu müqavilə şərtlərinə əsasən müəyyənləşdirmək mümkün olmur. Bu cür vəziyyətdə müqavilə bağlandığı yerdə müqayisəyə gələ bilən oxşar mallar, işlər və ya xidmətlər üçün, adətən, alınan qiymət əsas kimi götürülür. **Üçüncüsü, müqavilə şərtlərinin təfsirində müqavilənin bağlandığı yer böyük rol oynaya bilər**.

Vacib əhəmiyyətə malik olan məsələlərdən biri müqavilənin qüvvədə olma müddətinin başlanğıcını və sonunu müəyyənləşdirməkdən ibarətdir. Müqavilə bağlandığı andan qüvvəyə minir (MM-in 399-cu maddəsinin 1-ci bəndi). Deməli, **qanun müqavilənin hüquqi qüvvəyə minməsi anını müqavilənin bağlanması anı ilə əlaqələndirir**. Konsensual müqavilələrin bağlanması anı tərəflərin sazişə gəlmələri (oferentin aksepti alması) anı ilə, real müqavilələrin bağlanması anı əmlakın verilməsi anı ilə, müqavilə üzrə hüquqların dövlət qeydiyyatına alınması tələb edilən müqavilələr isə bu hüquqların qeydə alındığı anla şərtlənir. Biz bu barədə yuxarıda danışmışıq.

Müqavilə qüvvəyə mindikdən sonra tərəflər üçün məcburi xarakter daşıyır.

Tərəflər müqavilədən əmələ gələn öhdəliyi icra etməyə və onun pozulmasını aradan qaldırmağa borcludurlar. Beləliklə, mülki qanunvericilik **müqavilənin məcburiliyi və icra olunması prinsipini** təsbit edir (pacta sunt servanda)[1]. Bu prinsip müqavilə hüququnun əsas və fundamental prinsiplərindən biridir.

Müqavilənin onun bağlanması anından qüvvəyə minməsi haqqında qaydadan müəyyən hallarda istisnaya yol verilir (MM-in 399-cu maddəsinin 2-ci bəndi). Belə ki, tərəflər bağladıqları **müqavilənin hüquqi qüvvəsinin müqavilə bağlanana qədər yaranan real faktiki münasibətlərə də şamil edilməsi barədə razılığa gələ bilərlər**. Məsələn, mülkiyyətçi əmlakı icarəçiyə icarəyə verir və onlar arasında faktiki icarə münasibətləri (hüquq münasibətləri yox) əmələ gəlir. Bir müddətdən sonra onlar öz aralarında icarə müqaviləsi bağlayırlar. Bu müqavilənin şərtləri tərəflərin razılığı ilə müqavilə bağlanana qədər yaranmış faktiki, yəni real icarə münasibətlərinə tətbiq edilə bilər. Adətən, tərəflərin bu cür razılaşması əmlakın verilməsi üzrə real münasibətlərlə bağlı olur.

Müqavilənin qüvvədə olma müddəti tərəflərin sazişi və razılığı ilə müəyyən edilir. Bu müddət konkret təqvim tarixi ilə və ya illər, aylar, həftələr, günlər və s. hesablanan vaxtın bitməsi ilə müəyyənləşdirilir. Müqavilə həm də qeyri-müəyyən müddətə bağlana bilər. Tərəflər müqavilədə nəzərdə tuta bilərlər ki, o, qeyri-müəyyən müddətə bağlanır. Ticarət agenti, tapşırıq, icarə, kirayə, əvəzsiz istifadə, borc və digər müqavilələr müddətsiz (yəni qeyri-müəyyən müddətə) bağlana bilər.

Müqavilənin hüquqi qüvvəyə minməsi tərəflər üçün hüquq və vəzifələr yaradırsa, müqavilənin qüvvədə olma müddətinin başa çatması isə tərəflərin müqavilə üzrə öhdəliklərinin xitamına səbəb olur. Tərəflərin müqavilə üzrə öhdəlikləri müqavilənin qüvvədə olma müddətinin qurtarması ilə yalnız o halda ləğv edilə bilər ki, bu, tərəflərin razılığı ilə müqavilədə nəzərdə tutulsun. Lakin bu cür razılıq müqavilədə nəzərdə tutulmaya da bilər. Belə halda müqavilənin qüvvədə olma müddətinin bitməsi və qurtarması tərəflərin müqavilə üzrə öhdəliklərinin avtomatik olaraq ləğv edilməsinə səbəb olmur. Belə ki, müqavilədən irəli gələn hər hansı bir vəzifə (öhdəlik) lazımınca icra edilməsə, müvafiq tərəf müqavilənin qüvvədə olma müddətinin başa çatmasına baxmayaraq, həmin vəzifəni icra etməyə borcludur. Məsələn, elə hesab edək ki, yaşayış evinin tikintisi üzrə podrat müqaviləsi bir il müddətinə bağlanmışdır. Bir il tamam olan kimi podrat müqaviləsinin qüvvədə olma müddəti başa çatır. Lakin podratçı müqavilə qüvvədə olma müddətinin başa çatmasına baxmayaraq, yaşayış evini tikib qurtarmır. Belə halda, podratçı evi tikib sifarişçiyə təhvil vermək vəzifəsini daşıyır. O, bu vəzifəni yerinə yetirənə kimi podrat müqaviləsi qüvvədə olur. Belə hallarda müqavilədə nəzərdə tutulmuş öhdəliyin icrasının qurtarması anına kimi müqavilə qüvvədə olur (MM-in 399-cu maddəsinin 3-cü bəndi).

Ümumi qayda belədir ki, tərəflər müqavilənin qüvvədə olma müddəti bitənədək müqavilə üzrə öhdəliklərini lazımınca icra edirlər. Belə halda öhdəliyin

[1] Müqavilənin məcburiliyi prinsipi beynəlxalq kommersiya dövriyyəsində «pacta sunt servanda» adlanır. Bu, onu ifadə edir ki, müqavilələrə əməl olunmalıdır (bax: Принципы международных коммерческих договоров. М., 1996, с. 10-11). Roma hüququnda kontraktlardan fərqli olaraq, paktlar iddia müdafiəsilə təmin olunmurdu.

lazımınca icra edilməsi anı ilə müqavilənin qüvvədə olma müddətinin başa çatması məqamı bir-birinə uyğun gəlib üst-üstə düşür. Göstərilən vəziyyətdə müqavilənin qüvvədə olma müddətinin başa çatması avtomatik olaraq müqavilə üzrə tərəflərin öhdəliklərinə xitam verir (şübhəsiz ki, hər hansı bir şərtdən asılı olmayaraq).

Nəhayət, müqavilənin qüvvədə olma müddətinin başa çatması avtomatik olaraq həmin müqavilədən irəli gələn öhdəliklərin pozulmasına görə tərəfləri məsuliyyətdən azad etmir. Özü də dərhal qeyd etməliyik ki, tərəflər müqavilənin qüvvədə olma müddəti bitənədək yol verdikləri pozuntulara görə məsuliyyət daşıyırlar (MM-in 399-cu maddəsinin 4-cü bəndi). Məsələn, mal göndərmə müqaviləsi üzrə mal göndərən (satıcı) müqavilənin qüvvədə olma müddətinin qurtarmasından sonra da satılmış malların qüsurlarına görə alıcılar qarşısında məsuliyyət daşıyır.

5. Müqavilənin hərracda bağlanması

Mülki qanunvericilik müqavilənin hərracda bağlanmasının mümkünlüyünü nəzərdə tutur. Müqavilənin hərracda bağlanması müəyyən xüsusiyyətlərə malikdir. Belə ki, o, **müqavilə münasibətlərinin rəsmiləşdirilməsinin xüsusi xarakterli üsuludur**. Müqavilənin bu üsulla bağlanmasının tətbiq sferası kifayət qədər əhatəlidir. Xüsusən dövlət əmlakının özəlləşdirilməsi prosesində müqavilələr bağlanarkən həmin üsuldan geniş səviyyədə istifadə olunur.

Müqavilənin hərracda bağlanması dedikdə, hərracın təşkilatçısı ilə hərracı udan şəxs arasındakı saziş başa düşülür. Müqavilə hərracı udan şəxslə bağlanır (MM-in 414-cü maddəsinin 1-ci bəndi). Hərrac keçirilməsi yolu ilə istənilən müqavilə bağlana bilər. Lakin bu qaydadan müəyyən istisna hala yol verilir. Belə ki, bəzi müqavilələrin mahiyyəti onların hərrac keçirilməsi yolu ilə bağlanması imkanını aradan qaldırır və istisna edir, yəni **müqavilələrin hərrac yolu ilə bağlanması bu müqavilələrin mahiyyəti ilə ziddiyyət təşkil edir** və onunla bir araya sığmır. Məsələn, hərrac nəşriyyat, bağışlama və birgə fəaliyyət haqqında müqavilələrin bağlanması üçün yaramır.

Hərrac keçirilməsi yolu həm əmlakın (o cümlədən daşınmaz əmlakın), həm qiymətli kağızların, həm də əmlak hüququnun satışı barədə müqavilələr bağlana bilər. Qanun bu barədə hər hansı bir məhdudiyyət müəyyən etmir. Bununla belə, girov qoyulmuş əşya hərracda satış yolu ilə satıla bilər (MM-in 297-ci maddəsi).

Hərrac keçirilməsi yolu ilə bağlanan müqavilə iştirakçılarından biri hərracın təşkilatçısıdır. **Hərracın təşkilatçısı** rolunda, bir qayda olaraq, əmlakın mülkiyyətçisi və ya əmlak hüququnun sahibi çıxış edir. İxtisaslaşdırılmış təşkilatlar da hərrac keçirilməsini təşkil edə bilərlər. Məsələn, dövlət əmlakı özəlləşdirilərkən İqtisadi İnkişaf Nazirliyi ixtisaslaşdırılmış təşkilat kimi çıxış edir. İxtisaslaşdırılmış təşkilat əmlakın mülkiyyətçisi və ya əmlak hüququnun sahibi ilə müqavilə bağlayır və o, bu müqavilə əsasında hərəkət edir. İxtisaslaşdırılmış təşkilat ya həmin şəxslərin adından, ya da öz adından çıxış edir.

Hərrac **iki formada həyata keçirilir: auksion formasında; müsabiqə formasında**. Hərracın formasının müəyyən edilməsi satılan əmlakın mülkiyyətçisinin və ya satılan əmlak hüququnun sahibinin iradəsindən asılıdır. Belə

ki, hərracın hansı formada həyata keçirilməsini onlar müəyyənləşdirirlər (MM-in 414-cü maddəsinin 5-ci bəndi). Bununla belə, qanunda birbaşa nəzərdə tutulduğu halda da hərrac keçirilməsi yolu ilə müqavilə bağlana bilər (məsələn, girov qoyulmuş əmlakın hərracda satılması və s.), yaxud qanun dövlət əmlakını özəlləşdirərkən hərrac keçirilməsinin zəruriliyini nəzərdə tutur. Deməli, **hərrac keçirilməsi yolu ilə müqavilə həm tərəflərin iradəsi ilə, həm də qanunun birbaşa göstərişi əsasında bağlana bilər**.

Auksion hərracın keçirilməsinin elə bir formasıdır ki, onun məqsədi hərracı udmuş şəxsi, yəni ən yüksək qiymət təklif etmiş şəxsi müəyyən etməkdən ibarətdir. **Müsabiqə** isə hərracın keçirilməsinin elə bir formasıdır ki, onun məqsədi hərracı udmuş şəxsi, yəni hərracın təşkilatçısının qabaqcadan təyin etdiyi müsabiqə komissiyasının rəyinə əsasən, ən yaxşı şərtlər təklif etmiş şəxsi müəyyən etməkdən ibarətdir. Bu iki formanı birləşdirən cəhət ondan ibarətdir ki, onların hər ikisinin məqsədi də hərracın qalibini, yəni hərracı udan şəxsi aşkar etməkdən ibarətdir.

Auksion və müsabiqə iki cür olur: açıq auksion və açıq müsabiqə; qapalı auksion və qapalı müsabiqə. **Açıq auksion və açıq müsabiqə** odur ki, burada istənilən şəxs çıxış edə bilər. Qanun bu barədə hər hansı bir məhdudiyyət müəyyən etmir. **Qapalı auksion və qapalı müsabiqə** odur ki, burada yalnız bu məqsəd üçün dəvət olunan şəxslər iştirak edir. Deməli, birinci halda iştirakçıların dairəsi əhatəli, qeyri-məhduddursa, ikinci halda onların sayı xeyli dərəcədə azalır, məhdudlaşır.

Hərrac qanunda nəzərdə tutulan qaydada təşkil edilir və keçirilir (MM-in 415-ci maddəsi). Hər şeydən əvvəl, təşkilatçı **hərracın keçirilməsi barədə bildiriş** verir. Bildiriş hərracın keçirilməsinə ən geci otuz gün qalmış verilir. Öz hüquqi xarakterinə və təbiətinə görə **bildiriş birtərəfli əqddir**. Ona görə də o, hüquqi nəticə əmələ gətirir. Bildirişdə zəruri sayılan bu və ya digər məlumatlar göstərilir: hərracın vaxtı, yeri və forması; hərracın predmeti və keçirilmə qaydası; hərracda iştirakın rəsmiləşdirilməsi; başlanğıc qiyməti haqqında məlumat; qanunvericiliklə müəyyənləşdirilmiş digər məlumatlar. Əgər hərracın predmeti müqavilə bağlamaq hüququdursa, qarşıdakı hərrac barəsində bildirişdə bunun üçün verilən müddət göstərilməlidir (MM-in 415-ci maddəsinin 2-ci bəndi). Deməli, hərracın keçirilməsi haqqında bildiriş vermək hərrac təşkilatçısının daşımalı olduğu əsas vəzifədir.

Hərrac təşkilatçısına təkcə vəzifə həvalə olunmur. O, həm də hüquqlara malikdir. Belə ki, **hərrac təşkilatçısının istədiyi vaxt hərracın keçirilməsindən imtina etmək ixtiyarı vardır** (MM-in 415-ci maddəsinin 3-cü bəndi). Özü də dərhal qeyd etməliyik ki, bu hüquqdan yalnız açıq hərrac təşkilatçısı, yəni açıq auksion və açıq müsabiqə təşkilatçısı istifadə edə bilər. Qanun qapalı hərrac (qapalı auksion və qapalı müsabiqə) təşkilatçısına bu cür hüquq vermir. Əgər qapalı hərrac təşkilatçısı bildiriş göndərdikdən sonra hərracın keçirilməsindən imtina edərsə, onda bu hal pozuntu hesab edilir və o, dəvət etdiyi iştirakçılara dəyən real zərərin əvəzini ödəyir.

Açıq hərrac təşkilatçısına gəldikdə isə qeyd etmək lazımdır ki, qanun ona istənilən vaxt hərracın keçirilməsindən imtina etmək hüququ vermişdir. Lakin bu hüquq mütləq, qeyri-məhdud xarakter daşımır. Belə ki, onun bu hüququ

qanunla nəzərdə tutulan müddətlə məhdudlaşır. Açıq auksion təşkilatçısı auksionun keçirilməsi gününə yalnız ən geci üç gün qalmış, açıq müsabiqə təşkilatçısı isə müsabiqənin keçirilməsinə yalnız ən geci otuz gün qalmış imtina etmək hüququndan istifadə edə bilərlər. Əgər göstərilən müddətləri pozmaqla təşkilatçı hərracın keçirilməsindən imtina edərsə, onda bu hal **mülki hüquq pozuntusu** hesab edilir. Təşkilatçı bu cür məqamlarda **iştirakçılara dəyən real zərərin əvəzini ödəyir**. İmtina barədə qanunun göstərişi dispozitiv xarakterə malikdir. Belə ki, hərracın keçirilməsi barədə bildirişdə ayrı qayda da nəzərdə tutula bilər. Beləliklə, açıq hərrac təşkilatçısı yalnız nəzərdə tutulan müddətlərdə, yəni tələb olunan müddətə əməl etməklə hərracın keçirilməsindən imtina edə bilər. Qapalı hərrac təşkilatçısı isə müddətdən asılı olmayaraq, bu cür hüquqdan məhrumdur.

Təkcə hərrac təşkilatçısı yox, həm də iştirakçılar müəyyən vəzifə daşıyırlar. **Beh vermək** onların daşımalı olduğu əsas vəzifədir. Bu cür vəzifə, əsasən, iki təyinatla şərtlənir. Beh verilməsinin birinci təyinatı hərracın keçirilməsi nəticəsində əmələ gələn öhdəliyin icrasını təmin etməkdən ibarətdir. Onun ikinci təyinatı hərracda ciddi olmayan subyektlərin iştirakının qarşısını almaqdan ibarətdir.

Behin məbləği, onun verilmə müddəti və qaydası hərracın keçirilməsi haqqında bildirişdə göstərilir. Elə hallar olur ki, hərrac keçirilmir. Belə halda beh qaytarılır. Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin də behi onların özlərinə qaytarılır.

Hərracı udmuş şəxsin verdiyi beh məbləği ona qaytarılmır. Belə ki, onunla müqavilə bağlanır və həmin **beh məbləği bağlanmış müqavilə üzrə öhdəliklərin icrası hesabına daxil edilir.** Məsələn, əşya açıq hərracda hərracı udmuş şəxsə satılır. Onun əvvəlcə verdiyi beh məbləği əşya üçün satış pulu na daxil edilir, yəni əgər beh məbləği 2 min manatdan, əşyanın satış pulu 20 min-dən ibarət olarsa, onda hərracı udan şəxs 18 min (20 min - 2 min) manat ödəyəcəkdir.

Hərrac keçirilməsinin nəticələri **protokolla rəsmiləşdirilir**. Protokol hərrac keçirilməsi yolu ilə müqavilənin bağlanmasını ifadə edir. Ona görə ki, həmin sənəd müqavilə qüvvəsinə malikdir (MM-in 415-ci maddəsinin 5-ci bəndi). Protokolu hərracı udmuş şəxs və hərracın təşkilatçısı imzalayırlar. Müqavilə qüvvəsinə malik olan həmin sənəd hərracın — auksionun və ya müsabiqənin keçirildiyi gün tərtib edilir. Beləliklə, hərrac təşkilatçısı ilə hərracı udan şəxs arasında bağlanan müqavilə hərracın nəticələri haqqında protokolla rəsmiləşdirilir.

Protokolu imzalamaq hər iki tərəfin vəzifəsidir. Bu vəzifəni yerinə yetirməmək onlar üçün arzuolunmaz və xoşagəlməz nəticələrə səbəb olur. Belə ki, əgər hərracı udmuş şəxs protokolu imzalamaqdan boyun qaçırarsa, verdiyi beh məbləği ona qaytarılmır. O, **behi itirir**. Əgər protokolu imzalamaqdan hərrac təşkilatçısı boyun qaçırarsa, o, hərracı udan şəxsə **behi ikiqat məbləğdə qaytarır**. Bununla belə, hərrac təşkilatçısının protokolu imzalamaq vəzifəsini yerinə yetirməməsi **mülki-hüquqi məsuliyyətə səbəb olur**. O, hərracda iştirak etmək nəticəsində dəyən zərərin əvəzini ödəyir (MM-in 415-ci maddəsinin 5-ci bəndi).

Hərracın predmeti yalnız müqavilə bağlamaq hüququndan ibarət ola bilər. Məsələn, binanı icarəyə vermək müqaviləsini bağlamaq hüququ hərracın predmeti kimi çıxış edə bilər. Belə hallarda tərəflərin borcudur ki, həmin müqaviləni onlar hərrac qurtardıqdan və protokol rəsmiləşdirildikdən sonra iyirmi gündən gec olmayaraq imzalasınlar (MM-in 415-ci maddəsinin 6-cı bəndi). Bildirişdə bu müqaviləni imzalamaq üçün başqa müddət də nəzərdə tutula bilər.

Hərracın predmeti kimi çıxış edən müqavilə bağlamaq hüququnun həyata keçirilməməsinə görə hər iki tərəf mülki-hüquqi məsuliyyət daşıyırlar. Axı, bu müqaviləni bağlamaq hər iki tərəfin vəzifəsi hesab edilir. Bu vəzifənin yerinə yetirilməməsi **mülki-hüquqi məsuliyyətə səbəb olur**. Belə ki, onlardan biri müqavilə bağlamaqdan boyun qaçırdıqda, müvafiq tərəfin həmin müqaviləni bağlamağa **digər tərəfi məcbur etmək tələbi ilə məhkəməyə müraciət etmək hüququ vardır.** Məhkəmə həmin tələbə baxaraq, boyun qaçıran tərəfin müqavilə bağlamasına məcbur edilməsini nəzərdə tutan qərar qəbul edir. Bu qərarda boyun qaçıran tərəfin müqaviləni bağlamaqdan imtina etməsi nəticəsində vurduğu zərərin əvəzini ödəmək vəzifəsi nəzərdə tutula bilər (MM-in 415-ci maddəsinin 7-ci bəndi).

Hərrac yalnız qanunda nəzərdə tutulan qaydada keçirilə bilər. Bu qaydanın pozulması hərracın etibarsız hesab edilməsinə səbəb ola bilər. Belə ki, həmin qaydalar pozulduqda, **maraqlı şəxs məhkəməyə iddia ilə** müraciət edir. Məhkəmə iddiaya baxaraq, kifayət qədər əsaslar olduqda, hərracın etibarsız hesab edilməsi barədə qərar qəbul edir. Hərracın etibarsız sayılması barədə məhkəmə qərarı hüquqi fakt kimi müəyyən hüquqi nəticəyə səbəb olur. Belə ki, bu, hərracı udmuş şəxslə bağlanan müqavilənin etibarsızlığına səbəb olur (MM-in 416-cı maddəsinin 2-ci bəndi). Hərrac keçirilməsi qaydalarının pozulmasının hüquqi nəticələri, bax, bunlardan ibarətdir.

§ 5. Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi

1. Müqavilənin dəyişdirilməsinin və ləğv edilməsinin əsasları (üsulları)

Qüvvədə olan mülki qanunvericilik, qeyd etdik ki, müqavilə şərtlərinin məcburiliyi və icra edilməsi prinsipini (pacta sunt servanda) təsbit edir. Bu prinsipə görə, bağlanmış müqavilələr onlarda göstərilən və tərəflərin nail olduqları, razılığa gəldikləri şərtlər əsasında da icra edilir. Həmin prinsip müəyyən edir ki, müqavilə bağlandığı andan qüvvəyə minir, tərəflər üçün məcburi xarakterə malik olur və onun şərtlərinin dəyişdirilməsi istisna edilir. Bu prinsipin qüvvəyə malik olması mülki dövriyyənin sabitliyini, möhkəmliyini və dayanıqlığını təmin edir.

Bununla belə, müqavilə hüququnda müqavilə azadlığı kimi fundamental prinsipdən də istifadə olunur. Bu prinsipə görə, subyektlər müqavilə əsasında öz hüquq və vəzifələrini müəyyənləşdirməkdə müstəqildirlər. Bu prinsip həm də belə bir halda təzahür edir ki, müqavilənin qüvvədə olma müddəti ərzində tərəflər öz istək və mülahizələri ilə qanuna uyğun olaraq müqaviləni dəyişdirə və ya ləğv edə bilərlər. Bunu nəzərə alaraq, mülki qanunvericilik müqavilənin qüvvədə olma müddəti ərzində onun dəyişdirilməsi və ləğv edilməsinin mümkünlüyünü müəyyən sərhədlərlə məhdudlaşdırır.

künlüyü haqqında qayda müəyyən edir (MM-in 421-424-cü maddələri)[1]. Bu qaydaya görə, qanunda nəzərdə tutulan hüquqi faktlar mövcud olduqda, bağlanmış müqavilələr dəyişdirilir və ya xitam edilir. Həmin hüquqi faktlara **müqavilənin dəyişdirilməsi və ləğv edilməsinin əsasları (üsulları) deyilir**. Beləliklə, mülki qanunvericilik göstərilən qaydanı müəyyənləşdirməklə bir tərəfdən müqavilə azadlığı prinsipinin təzahür formalarını genişləndirir, digər tərəfdən müqavilənin məcburiliyi və icra edilməsi prinsipini məhdudlaşdırır.

Müqavilənin dəyişdirilməsi dedikdə, müqavilənin bütövlükdə hüquqi qüvvəsini saxlamaqla onun bu və ya digər şərtinin, habelə müqavilə öhdəliyinin icrası ilə bağlı olan şərtin əvvəlki şərtlərə nisbətən yenidən formulə edilməsi başa düşülür. Müqaviləyə əlavələr edilməsi, onda dəqiqləşdirmələr aparılması və s. də müqavilənin dəyişdirilməsini ifadə edir. Müqavilənin dəyişdirilməsi nəticəsində onun əvvəlki məzmunu, əsasən, dəyişmir. Məsələn, tərəflərin razılığı ilə müqavilənin qiyməti dəyişdikdə, onun əvvəlki məzmunu, əsasən, saxlanır[2].

Müqavilənin ləğv edilməsi dedikdə, onun hüquqi qüvvəsinə xitam verilməsi başa düşülür. Müqavilənin ləğv edilməsi həmişə onun vaxtından əvvəl xitam olunmasına səbəb olur.

Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi əsasları (üsulları) qanunvericiliklə müəyyən edilir. Bu əsasların (üsulların) dairəsi bir o qədər də geniş və əhatəli deyil. Müqavilənin dəyişdirilməsi və ləğv edilməsinin ən başlıca əsası (üsulu) **tərəflərin sazişindən və razılaşmasından ibarətdir** (MM-in 421-ci maddəsinin 1-ci bəndi). Məsələn, şəhərdəki yaşayış evinin mülkiyyətçisi ilə tələbə arasında 3 il müddətinə evin kirayəyə verilməsi müqaviləsi bağlanır. Müqavilənin müddəti qurtarmamış tərəflər razılığa gəlirlər ki, müqavilə ləğv edilsin və ya onun müddəti iki il müəyyənləşdirilsin. Lakin tərəflərin razılığı ilə müqavilənin dəyişdirilməsi və ləğv edilməsinin mümkünlüyü qanunla və ya müqavilə ilə məhdudlaşdırıla bilər, yəni qanunda və ya müqavilədə bunun üçün başqa qayda müəyyən edilə bilər. Məsələn, qanun müəyyən edir ki, üçüncü şəxsin xeyrinə bağlanmış müqavilə üzrə üçüncü şəxsin müqavilə əsasında öz hüququndan istifadə etmək niyyətini borcluya bildirdiyi andan tərəflər bağladıqları müqaviləni üçüncü şəxsin razılığı olmadan ləğv edə və ya dəyişdirə bilməzlər (MM-in 403-cü maddəsinin 5-ci bəndi). Məsələn, səxavətli kommersant öz qonşusunun (üçüncü şəxsin) adına banka əmanət qoyur və bankla depozit (bank əmanəti) müqaviləsi bağlayır. Qonşu əmanətçi hüququndan istifadə etmək niyyətini bildirir (MM-in 952-ci maddəsinin 2-ci bəndi). Bu andan kommersant və bankın ixtiyarı çatmır ki, həmin müqaviləni üçüncü şəxsin (qonşunun) razılığı olmadan dəyişdirsin və ya ləğv etsin. Bu, yalnız üçüncü şəxs razılıq verdikdə mümkün ola bilər.

[1] Bu, onu nümayiş etdirir ki, mülki qanunvericilik «müqavilənin dəyişməzliyi» prinsipini ifadə etmir. RF MM-in 29-cu fəslinə daxil olan normalar (450-453-cü maddələr) müqavilənin dəyişdirilməsi və ləğv edilməsinin əsaslarını müəyyən edir. Ona görə də «müqavilənin dəyişməzliyi» prinsipi haqqında danışan rus müəlliflərinin fikri həqiqətdən uzaqdır (bax: Гражданское право России. Курс лекции. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1996, с. 285, 295).

[2] Müəlliflərdən A.M.Martemyanova qəti formada müəyyən edir ki, müqavilənin dəyişməsi nəticəsində o, başqa məzmuna malik olur (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 354). Söylənilən bu fikir, şübhəsiz ki, dəqiqlikdən çox uzaqdır.

Müqavilənin dəyişdirilməsinin və ləğv edilməsinin ikinci əsası (üsulu) **tərəflərdən birinin tələbindən** ibarətdir (MM-in 421-ci maddəsinin 2-ci bəndi). Bu üsul müqavilənin tərəflərdən birinin tələbi əsasında dəyişdirilməsini və ya ləğv edilməsini nəzərdə tutur. Qanunvericilik göstərilən qaydada müqavilənin dəyişdirilməsinin və ləğv edilməsinin iki halını nəzərdə tutur:

- tərəflərdən birinin müqaviləni mühüm (əhəmiyyətli) dərəcədə pozması nəticəsində müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi (MM-in 421-ci maddəsinin 2-ci bəndi);
- qanunda və ya müqavilədə nəzərdə tutulan hallar əsasında müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi (MM-in 421-ci maddəsinin 2-ci bəndi).

Birinci halda müqaviləni bağlayan tərəflərdən biri müqaviləni mühüm dərəcədə pozur. **Mühüm (əhəmiyyətli) dərəcədə pozuntu** digər tərəfə vurulan elə bir zərərdir ki, bu zərər nəticəsində həmin tərəf müqavilə bağlanarkən güman və ümid etməyə haqqı çatanlardan xeyli dərəcədə məhrum olur. Pozuntu o halda mühüm xarakterə malik olur ki, bu pozuntu, digər tərəfə müqavilənin məqsədinə nail olunmasına imkan vermir. Mühüm pozuntunun vurduğu zərər (ziyan) özündə həm çəkilən əlavə xərcləri, həm də nəzərdə tutulan mümkün gəlirlərin əldə edilməməsini, habelə müvafiq tərəfin mənafeyinə mühüm dərəcədə toxunan digər nəticələri birləşdirir. Deməli, «mühüm» anlayışı iqtisadi meyara əsaslanır. Məsələn, alqı-satqı müqaviləsinin mühüm dərəcədə pozulmasına misal olaraq əşyanın aradan qaldırıla bilməyən qüsurlarla alıcıya verilməsini göstərmək olar (MM-in 587-ci maddəsinin 2-ci bəndi). Başqa bir misalda ömürlük renta müqaviləsi üzrə (MM-in 877-ci maddəsi) renta ödəyicisi rentanı vaxtlı-vaxtında ödəmir. Bu, müqavilənin mühüm (əhəmiyyətli) dərəcədə pozulmasıdır. Digər misalda kirayə müqaviləsi üzrə kirayəçi iki ardıcıl müddət üçün kirayə haqqının ödənilməsini gecikdirir (MM-in 685-ci maddəsinin 2-ci bəndi). Bu hal da müqavilənin mühüm dərəcədə pozulmasına dəlalət edir[1]. Məhkəmələr özəlləşdirmə obyektini əldə edənin həmin obyektə görə pul ödəməməsi halını özəlləşdirmə obyektinin alqı-satqı müqaviləsinin mühüm dərəcədə pozulması kimi qiymətləndirir[2].

İkinci məqamda qanunda və ya müqavilədə nəzərdə tutulan hallar müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi üçün əsas olur. Məsələn, qanun müəyyən edirdi ki, qoşulma müqaviləsi qoşulmuş tərəf üçün açıq-aşkar ağır olan şərtlər nəzərdə tutarsa, müqaviləyə qoşulmuş tərəf müqavilənin ləğvini və dəyişdirilməsini tələb edə bilər (MM-in qüvvədən düşmüş 401-ci maddəsinin 2-ci bəndi). Burada qanunda ifadə olunan göstəriş müqavilənin dəyişdirilməsi və ya xitam olunması üçün əsas (üsul) rolunu oynayırdı.

Müqavilənin dəyişdirilməsinin və ya ləğv edilməsinin üçüncü əsası (üsulu) **müqavilənin tamamilə və ya hissə-hissə icrasından imtina edilməsi ad-**

[1] Müqavilənin mühüm dərəcədə pozulması halını müəyyənləşdirərkən arbitraj praktikasına istinad etmək lazımdır (bax: Информационное письмо ВАС РФ от 5 мая 1997 г. № 14. «Обзор практики разрешения споров, связанных с заключением, изменением и расторжением договора» (Вестник ВАС РФ, 1997. № 7, с. 108. 109).

[2] Пункт 59 постановления Пленума Верховного Суда Российской Федерации и Пленума Высшего Арбитражного Суда Российской Федерации от 1 июля 1996 г. № 6/8. «О некоторых вопросах, связанных с применением части первой Гражданского кодекса Российской Федерации» // ВВС РФ. 1996. № 9.

lanır (MM-in 421-ci maddəsinin 3-cü bəndi). Özü də dərhal qeyd etməliyik ki, belə imtinaya qanun və ya tərəflərin razılaşması ilə yol verildikdə, müqavilə ləğv edilə və ya dəyişdirilə bilər. Əgər qanunda və ya müqavilədə (tərəflərin razılaşmasında) imtina haqqında qayda nəzərdə tutulmazsa, müqavilənin göstərilən əsasla (üsulla) dəyişdirilməsindən və ləğv edilməsindən söhbət gedə bilməz. MM-də bəzi müqavilə növləri üçün birtərəfli imtina qaydasında müqavilənin ləğv edilməsi nəzərdə tutulmuşdur: tapşırıq müqaviləsinin hər bir iştirakçısı istənilən vaxt müqavilədən birtərəfli qaydada imtina edə bilər (MM-in 786-cı maddəsinin 1-ci bəndi); ticarət agenti haqqında müqavilənin hər bir iştirakçısı bəzi hallarda istənilən vaxt birtərəfli qaydada müqavilədən imtina edə bilər (MM-in 795-ci maddəsinin 1-ci bəndi); komissiya müqaviləsinin hər hansı iştirakçısı istənilən vaxt müqavilədən birtərəfli qaydada imtina edə bilər (MM-in 821-ci maddəsinin 2-ci bəndi); hədiyyə verən bağışlama müqaviləsindən birtərəfli qaydada imtina edə bilər (MM-in 673-cü maddəsi); əvəzsiz istifadə müqaviləsi üzrə kirayəyə verən müqavilədən birtərəfli qaydada imtina edə bilər (MM-in 737-ci maddəsi); borc verən bəzi hallarda borc müqaviləsindən birtərəfli qaydada imtina edə bilər (MM-in 743-cü maddəsi); bank hesabı müqaviləsi müştərinin tələbi ilə birtərəfli qaydada ləğv edilə bilər (MM-in 969-cu maddəsinin 1-ci bəndi); mal göndərmə müqaviləsi mühüm dərəcədə pozulduqda tərəflərdən hər biri müqavilənin birtərəfli dəyişdirilməsini və ya onun icrasından birtərəfli imtina olunmasını tələb edə bilərdi (MM-in qüvvədən düşmüş 644-cü maddəsi).

Müqavilənin dəyişdirilməsinin və ya ləğv edilməsinin üçüncü üsulunun mahiyyəti ondan ibarətdir ki, tərəflər müqavilə və ya qanunla onlara verilmiş hüququ gerçəkləşdirərək, müqavilədən birtərəfli qaydada heç bir dəlil, motiv, arqument gətirmədən imtina edirlər. Müqavilədən imtina müqavilənin icrasından imtina etməyi ifadə edir. Müqavilənin icrasından imtina isə iki cür olur: müqavilənin tamamilə icrasından birtərəfli imtina; müqavilənin hissə-hissə (qismən) icrasından birtərəfli imtina. **Müqavilənin tamamilə icrasından imtina** dedikdə, elə bir hüquqi fakt başa düşülür ki, bunun əsasında müqavilə ləğv edilir. **Müqavilənin qismən icrasından imtina** dedikdə, müqavilənin ləğv edilməsinə yox, ancaq onun dəyişdirilməsinə əsas olan hüquqi fakt başa düşülür. Beləliklə, birinci hal (tamamilə icradan imtina) müqavilənin ləğv edilməsinə, ikinci hal (qismən icradan imtina) isə müqavilənin dəyişdirilməsinə səbəb olur.

Yeri gəlmişkən, müqavilənin icrasından birtərəfli imtina hüququnu müqaviləni ləğv etmək haqqında tələb hüququndan fərqləndirmək lazımdır. Belə ki, müqavilənin icrasından birtərəfli imtina məhkəməyə müraciət olunmadan həyata keçirilir. O, imtina faktının özünün yerinə yetirilməsi ilə müqavilənin dəyişdirilməsinə və ya ləğv olunmasına səbəb olur.

Şəraitin mühüm (əhəmiyyətli) dərəcədə dəyişməsi müqavilənin dəyişdirilməsinin və ləğv edilməsinin dördüncü əsasıdır (MM-in 422-ci maddəsi). Tərəflər, bir qayda olaraq, müqavilə öhdəliklərini yerinə yetirməyə borcludurlar. Müqavilənin icrası onlar üçün məcburidir. Lakin müqavilə bağlanarkən tərəflərin əsas kimi götürdükləri şərait mühüm dərəcədə dəyişə bilər. Axı, yaşadığımız həyat qabaqcadan müəyyən edilməsi, habelə görünməsi mümkün olmayan qeyri-adi, təsadüfi, mənfi nəticələrə gətirib çıxaran hadisə və hallarla

doludur. Bu cür həyati hallara təbii fəlakəti, hərbi əməliyyatları, səlahiyyətli dövlət hakimiyyəti orqanlarının aktlarını, bağlanmış müqavilənin icrasının əvvəlcə nəzərdə tutulduğundan və müəyyənləşdirildiyindən daha çox xərclər tələb etməsini, inflyasiyanı və s. misal göstərmək olar. Şübhəsiz ki, mövcud olan həmin faktlar müqavilə iştirakçılarına onların öz müqavilə öhdəliklərini tamamilə və qismən icra etmələrinə imkan vermir. Bu faktların obyektiv olaraq təsir göstərməsi nəticəsində şərait mühüm (əhəmiyyətli) dərəcədə dəyişir. Bu isə, öz növbəsində, artıq müqavilə bağlayan tərəflərin əmlak (maddi) mənafeyinin tarazlığını və balansını pozur. Bu cür hal müqavilənin dəyişdirilməsini və ya ləğv edilməsini zərurətə çevirir. Ona görə də şəraitin dəyişməsi nəticəsində özünün mənafe balansı pozulan tərəf bağlanmış müqavilənin həmin şəraitə uyğunlaşdırılmasını, yəni dəyişdirilməsini və ya ləğv edilməsini qarşı tərəfdən tələb edir. Özü də şəraitin yalnız mühüm dərəcədə dəyişməsi həmin tərəfə bu cür hüquq verir. Şəraitin dəyişməsini mühüm dərəcədə dəyişmə hesab etmək üçün iki əlamətdən birinin olması tələb olunur:

- bu cür dəyişməni tərəflər əvvəlcədən görə bilsəydilər, müqaviləni, ümumiyyətlə, bağlamazdılar;
- bu cür dəyişməni tərəflər əvvəlcədən görə bilsəydilər, müqaviləni mühüm və xeyli dərəcədə fərqlənən şərtlərlə bağlayardılar.

Göstərilən hallardan biri olduqda, tərəflərin qarşılıqlı razılığı əsasında müqavilə dəyişdirilir və ya ləğv edilir. Əgər tərəflər razılığa gəlməsələr, maraqlı tərəf məhkəməyə müraciət edir. Məhkəmə müqavilənin ləğv edilməsi barədə qərar qəbul edir. Məhkəmənin bu cür qərar çıxarması üçün, yəni maraqlı şəxsin tələbini və iddiasını təmin etmək üçün dörd şərtin olması vacibdir:

- birincisi, müqavilə bağlanarkən tərəflər ümid və güman etmişlər ki, **şərait bu cür dəyişməyəcəkdir**;
- ikincisi, şəraitin dəyişməsini doğuran səbəbləri maraqlı tərəfin özündən asılı olan bütün zəruri tədbirləri görməsinə baxmayaraq, aradan qaldıra bilməməsi, yəni şəraitin dəyişməsini əmələ gətirən səbəblərin qarşısının alınmasında **maraqlı tərəfin təqsirinin olmaması**;
- üçüncüsü, müqavilənin əvvəlki şərtlərlə, yəni onun şərtlərini dəyişdirmədən icra edilməsi tərəflərin müqaviləyə uyğun **əmlak mənafeləri nisbətini pozması və maraqlı tərəfə zərər vurmasının güman edilməsi**, habelə zərərin vurulması ilə maraqlı tərəfin müqavilə bağlanarkən ümid etməyə haqqı çatanlardan xeyli dərəcədə məhrum olmasının ehtimal edilməsi;
- dördüncüsü, şəraitin dəyişməsi risqinə görə **maraqlı tərəfin məsuliyyət daşımaması** (bu, işgüzar adətlərdən və ya müqavilənin mahiyyətindən irəli gəlir).

Bu dörd şərt eyni vaxtda və bütövlükdə məcmu halında məhkəmənin müqavilənin ləğv edilməsi haqqında qərar qəbul etməsinə əsas verir. Məhkəmə şəraitin mühüm dərəcədə dəyişməsi əsasında müqavilənin dəyişdirilməsi haqqında qərar da çıxara bilər. Bunun üçün yuxarıda göstərilən məcmu halında dörd şərtdən savayı, həm də əlavə şərtlərdən birinin olması vacibdir:

- müqavilənin ləğvinin **ictimai mənafelərə zidd olması**;
- müqavilənin ləğvinin tərəflərə müqavilənin məhkəmə tərəfindən dəyişdi-

rilmiş şərtlərlə icrası üçün zəruri olan **xərclərdən çox zərər vura bilməsi**.

Birinci halda ictimai mənafe əsas götürülür. Məsələn, məktəb tikintisi və ya xəstəxananın tikintisi üzrə podrat müqaviləsini, şübhəsiz ki, məhkəmə ləğv edə bilməz. Bu, ictimai mənafeyə ziddir. O, yalnız həmin müqavilənin dəyişdirilməsi haqqında qərar qəbul edə bilər. İkinci halda isə hər iki tərəfin əmlak mənafeyi əsas götürülür, yəni müqavilənin ləğv edilməsi onların maddi mənafeyinə zərər vurur.

2. Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi qaydası

Qüvvədə olan qanunvericilik müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi haqqında qayda müəyyən edir (MM-in 423-cü maddəsi). Bu qayda əsasında müqavilələrin qüvvədə olma müddəti ərzində onların dəyişdirilməsi və ya ləğv edilməsi ilə əlaqədar əmələ gələn münasibətlər tənzimlənir.

Mülki qanunvericiliyin müqavilənin dəyişdirilməsi və ləğv edilməsi barədə müəyyənləşdirdiyi qayda müqavilənin dəyişdirilməsi və ləğv edilməsinin əsaslarından (üsullarından) asılıdır:

- tərəflərin razılığı və sazişi ilə müqavilə dəyişdirilərkən və xitam olunarkən tətbiq edilən qayda (birinci qayda);
- məhkəmə yolu ilə müqavilə dəyişdirilərkən və ləğv olunarkən tətbiq edilən qayda (ikinci qayda);
- birtərəfli imtina qaydasında müqavilə dəyişdirilərkən və ləğv edilərkən tətbiq edilən qayda (üçüncü qayda).

Birinci qaydanın mahiyyəti ondan ibarətdir ki, tərəflərin öz aralarında müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi haqqında razılığa gəlmələri, müqavilə ilə eyni formada rəsmiləşdirilir. Bu, o deməkdir ki, müqavilə hansı formada bağlanmışdırsa, onun dəyişdirilməsi və ya ləğv edilməsi barədə tərəflərin razılığı (sazişin) da o formada ifadə olunacaqdır. Məsələn, podratçı rolunda çıxış edən tikinti təşkilatı ilə sifarişçi vətəndaş arasında yaşayış evi tikilməsi barədə sadə yazılı formada podrat müqaviləsi bağlanır. Tərəflərin razılığı ilə müqavilə ləğv edilir. Podrat müqaviləsinin ləğv edilməsi barədə tərəflərin razılığı da sadə yazılı formada ifadə olunacaqdır. Başqa bir misalda vətəndaş öz qonşusuna iki illik müddətə hər ay üçün 1% ödəməklə borc pul verir. Onlar arasında əvəzli borc müqaviləsi bağlanır və bu müqavilə notariat qaydasında təsdiqlənir. Müqavilə hələ icra olunmamış tərəflər faizin azaldılaraq 0,5% müəyyən edilməsi, yəni müqavilənin dəyişdirilməsi barədə razılığa gəlirlər. Bu cür razılıq notarial forma ilə rəsmiləşdirilir. Lakin birinci qayda imperativ yox, dispozitiv xarakter daşıyır. Belə ki, qanun, müqavilə və ya işgüzar adətlərdə müqavilənin dəyişdirilməsi və ləğv edilməsi barədə nəzərdə tutulan qaydadan fərqli olan digər qayda da müəyyənləşdirilə bilər. Məsələn, parakəndə alqı-satqı müqaviləsində nəzərdə tutulur ki, mal alıcı tərəfindən müəyyən müddətə qəbul edilməsi şərtilə satılır. Bu məqsədlə sadə yazılı formada pərakəndə alqı-satqı müqaviləsi bağlanır. Lakin alıcı gəlib çıxmır, bununla müqavilənin icrasından imtina olunur və müqavilə ləğv edilir. Göründüyü kimi, belə halda müqavilənin ləğv edilməsi sadə yazılı formada yox, alıcının konklyudent hərəkəti ilə ifadə olunur. Müqavilənin bu cür fərqli qaydada ləğv edilməsi qanunda nəzərdə tutulmuşdur (MM-in 618-ci maddəsinin 2-ci bəndi).

İkinci qayda müqavilə məhkəmə yolu ilə dəyişdirildiyi və ləğv edildiyi hallara tətbiq olunur. Bu qaydanın mahiyyəti ondan ibarətdir ki, müqavilənin mühüm dərəcədə pozulduğu və ya qanunda və yaxud müqavilədə nəzərdə tutulan digər hallarda, habelə şəraitin mühüm dərəcədə dəyişdiyi məqamlarda maraqlı tərəflərdən birinin tələbi ilə müqavilə məhkəmənin qərarı əsasında dəyişdirilir və ya ləğv edilir. Məhkəmə qərarı olmasa, müqavilə dəyişdirilə və ya ləğv edilə bilməz. Lakin qanun məhkəməyə kimi müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi məsələnin müqavilə iştirakçılarının özləri tərəfindən həll edilməsi qaydasını müəyyənləşdirir (MM-in 423-cü maddəsinin 3-cü bəndi). Bu qayda **ixtilafın və mübahisənin nizama salınmasının məhkəmədənkənar (məhkəməyə qədər) proseduru adlanır**. Qanun bu proseduru müəyyənləşdirməklə tərəflərə imkan verir ki, onlar müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi üzrə öz aralarında yaranmış ixtilafı məhkəmənin iştirakı olmadan özləri qaydaya salsınlar və artıq xərclərə (məsələn, məhkəmə xərclərinə, vəkillər üçün, hüquqi yardım üçün çəkilən xərclərə və s.), yersiz narahatçılığa yol verməsinlər. Həmin prosedurun mahiyyəti də bundan ibarətdir.

Məhkəmədənkənar prosedura görə maraqlı tərəf məhkəmə icraatına kimi kontragentə (müqavilə üzrə müqabil tərəfə) müqaviləni dəyişdirmək və ya ləğv etmək barədə təklif verir. Bu təklifin hansı – şifahi və yazılı formada verilməsini qanun nəzərdə tutmur. Biz elə hesab edirik ki, yazılı forma nisbətən üstünlüyə malikdir. Ona görə ki, yazılı formalı müraciət maraqlı tərəfin qarşı tərəfə təklif etməsini sübut edir. Bunun isə məhkəmə tərəfindən iddianın qəbul edilməsində əhəmiyyəti vardır.

Müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi barədə maraqlı tərəfin təklifini alan kontragent mümkün olan üç alternativ variantdan birini seçir:

- birincisi, maraqlı tərəfin təklifini qəbul edir və onunla razılaşır;
- ikincisi, maraqlı tərəfin irəli sürdüyü təkliflə razılaşmır və ondan imtina edir;
- üçüncüsü, maraqlı tərəfin verdiyi təklifə münasibətini bildirmir, susur, yəni təklifdə göstərilmiş müddətdə, müddət göstərilmədikdə isə otuz gün müddətində maraqlı tərəf cavab vermir.

Birinci halda maraqlı tərəf məhkəməyə müraciət etmir. Ona görə ki, kontragent maraqlı tərəfin müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi haqqında tələbini ödəyir. Beləliklə də, məhkəməyə iddia verilməsinə ehtiyac qalmır.

İkinci və ya üçüncü hallarda isə ixtilaf və mübahisə həll edilmədiyinə görə maraqlı tərəf iddia ilə məhkəməyə müraciət edir. Məhkəmə tələb edir ki, maraqlı tərəf müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi barədə kontragentə təklif verməsini təsdiqləyən sübutlar təqdim etsin. Maraqlı tərəf təklif barədə yazılı bildirişin, teleqramın və digər yazışma növlərinin surətini məhkəməyə təqdim edə bilər. Axı, məhkəmədənkənar prosedur məcburi xarakter daşıyır. Əgər bu prosedurdan istifadə olunmazsa, məhkəmə maraqlı şəxsin verdiyi iddiaya baxmır və geri qaytarır. Yalnız iddiaçı (maraqlı tərəf) tərəfindən cavabdehlə ixtilafı nizamlamaq üçün onun tədbirlər görməsini təsdiqləyən sübutlar təqdim edildikdə, məhkəmə maraqlı tərəfin iddiasını qəbul edə və mahiyyətcə

ona baxa bilər[1].

Üçüncü qaydadan müqavilənin tamamilə və ya qismən icrasından birtərəfli imtina edildiyi və bununla müqavilə ləğv edildiyi və dəyişdirildiyi hallarda istifadə olunur. Bu qaydaya görə, müqaviləni dəyişdirmək və ya ləğv etmək üçün maraqlı tərəf kontragentə müqavilənin icrasından birtərəfli imtina edilməsi barədə yazılı və ya şifahi formada bildiriş verir. Məsələn, bank hesabı müqaviləsi müştərinin ərizəsi üzrə istənilən vaxt birtərəfli qaydada ləğv edilə bilər (MM-in 969-cu maddəsinin 1-ci bəndi). Bəzi hallarda müqavilənin birtərəfli qaydada ləğv edilməsi müvafiq tərəfin yazılı xəbərdarlıq edilməsi ilə müşayiət edilir, yəni əvvəlcə yazılı xəbərdarlıq edilir, bundan sonra müqavilə ləğv olunur. Məsələn, ticarət agenti müqaviləsinə görə, tərəflərdən biri öz vəzifələrini mühüm dərəcədə pozan digər tərəfə bu barədə yazılı xəbərdarlıq edir. O, müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra da öz vəzifələrini pozmaqda davam edərsə, müqavilə birtərəfli qaydada ləğv edilir (MM-in 795-ci maddəsinin 1-ci bəndinin 1-ci yarımbəndi).

Müqavilənin icrasından birtərəfli imtina edilməsi barədə maraqlı şəxsin kontragentə verdiyi bildiriş poçt, teleqraf, teletayp, telefon, elektron rabitəsi və ya bildirişin maraqlı şəxsdən gəldiyini dürüst müəyyənləşdirməyə imkan verən digər rabitə vasitəsilə çatdırıla bilər.

3. Müqavilənin dəyişdirilməsinin və ləğv edilməsinin nəticələri

Müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi üzrə hərəkətlər hüquqi faktdır. Bu fakt nəticəsində müqavilə üzrə tərəflərin hüquq və vəzifələri dəyişir və ya onlara xitam verilir. Deməli, müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi nəticəsində müəyyən hüquqi nəticə əmələ gəlir.

Müqavilənin dəyişdirilməsinin və ya ləğv edilməsinin **birinci hüquqi nəticəsi** ondan ibarətdir ki, müqavilədən əmələ gələn **öhdəlik dəyişir və ya ləğv edilir**. Müqavilə dəyişdikdə, həmin müqavilədən yaranan **öhdəliyin məzmunu da dəyişir**. Özü də öhdəliyin məzmunu tamamilə yox, qismən dəyişir, yəni müqavilədə edilən dəyişikliyə uyğun gəlir. Başqa sözlə desək, müqavilədə ediləri dəyişiklik hissəsində həmin müqavilədən irəli gələn öhdəliyin məzmunu dəyişir. Lakin bu halda öhdəlik saxlanılır. O, yalnız dəyişdirilmiş şəkildə mövcud olmaqda davam edir. Deməli, müqavilə dəyişdirilərkən tərəflərin öhdəlikləri dəyişdirilmiş şəkildə saxlanılır (MM-in 424-cü maddəsinin 1-ci bəndi). Məsələn, mal göndərmə müqaviləsinə görə, alıcıya birinci növ mal verilməsi nəzərdə tutulur. Müqavilə icra olunmamış tərəflər razılığa gəlirlər ki, alıcıya birinci növ yox, ikinci növ mal göndərilsin, yəni müqavilə dəyişdirilsin. Bu halda müqavilənin yalnız bir şərti, yəni növ haqqında şərti dəyişilir. Onun digər şərtləri (çeşid, say, tara, qablaşdırma və s.) isə əvvəlki kimi saxlanılır, yəni dəyişilmir. Buna uyğun olaraq, növ haqqında şərtdən başqa, tərəflərin digər öhdəlikləri olduğu kimi saxlanılır, dəyişmir.

[1] bax: пункт 60 постановления Пленума Верховного Суда Российской Федерации и Пленума Высшего Арбитражного Суда Российской Федерации от 1 июля 1996 г. № 6/8. «О некоторых вопросах, связанных в применением части первой Гражданского кодекса Российской Федерации» // ВВС РФ. 1996. № 9, с. 3.

Müqavilənin ləğv edilməsinə gəldikdə isə göstərmək lazımdır ki, bununla **tərəflərin öhdəliklərinə xitam verilir** (MM-in 424-cü maddəsinin 2-ci bəndi). Bu andan etibarən tərəflər öhdəlik əsasında onlara məxsus olan hüquqdan məhrum olurlar və həvalə edilmiş vəzifəni daşımaqdan azad edilirlər. Məsələn, tikinti təşkilatı (podratçı) ilə bağ evi tikmək barədə sahibkar (sifarişçi) arasında podrat müqaviləsi bağlanır. Tərəflərin razılığı ilə podrat müqaviləsi ləğv edilir. Bu isə tərəflərin bağ evi tikmək, tikilən evin pulunu ödəmək və s. öhdəliklərinə xitam verilməsinə səbəb olur.

Müqavilənin dəyişdirilməsinin və ya ləğv edilməsinin **ikinci hüquqi nəticəsi** ondan ibarətdir ki, **müqavilənin dəyişdirildiyi və ya ləğv edildiyi anadək öhdəlik üzrə icra olunanlar qaytarılmır** (MM-in 424-cü maddəsinin 4-cü bəndi). Tərəflərin ixtiyarı çatmır ki, öhdəlik üzrə icra etdiklərinin qaytarılmasını tələb etsinlər. Bununla öhdəliyin icra olunan hissəsinin hüquqi taleyi və müqəddəratı həll olunur. Məsələn, ev sahibi rayon yerindən şəhərə təhsil almaq üçün gəlmiş tələbəyə mənzil kirayəyə verir. Tərəflər beş aydan sonra razılığa gəlirlər ki, növbəti aydan başlayaraq, kirayə haqqı iyirmi faiz azaldılsın, yəni müqavilə dəyişdirilsin. Belə halda kirayəçi tələbənin ixtiyarı yoxdur ki, müqavilə dəyişildiyi aya kimi (yəni beş ay) kirayəyə verənə (ev sahibinə) ödədiyi artıq məbləğin qaytarılmasını tələb etsin. Bununla belə, göstərilən bu qayda dispozitiv xarakterə malikdir. Belə ki, qanunda və ya tərəflərin razılığı ilə ayrı qayda da nəzərdə tutula bilər. Məsələn, yuxarıdakı misalda tərəflər beş aylıq artıq məbləğin kirayəçiyə qaytarılması barədə razılığa gəlirlər.

Müqavilənin dəyişdirilməsinin və ya ləğv edilməsinin **üçüncü hüquqi nəticəsi** ondan ibarətdir ki, **pozuntu törədən təqsirkar tərəf mülki-hüquqi məsuliyyətə cəlb edilir**. Özü də dərhal qeyd etməliyik: yalnız o tərəf məsuliyyət daşıyır ki, o, müqaviləni mühüm (əhəmiyyətli) dərəcədə pozsun və bu, müqavilənin dəyişdirilməsinə və ya ləğv edilməsinə əsas versin. Bu halda təqsirkar tərəf digər tərəfə, yəni müqabil tərəfə müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi nəticəsində dəyən zərərin əvəzini ödəyir. Başqa sözlə desək, o, dəyən zərərin əvəzinin ödənilməsi formasında mülki-hüquqi məsuliyyət daşıyır.

Müqavilə dəyişdirildiyi və ya ləğv edildiyi halda həmin müqavilədən əmələ gələn öhdəliyin dəyişdirilməsi və ya xitam olunması anının müəyyən edilməsini mülki qanunvericilik xüsusi qaydada tənzimləyir (MM-in 424-cü maddəsinin 3-cü bəndi). Öhdəliyin dəyişdirilməsi və ya ləğv edilməsi anının müəyyənləşdirilməsi hüquqi əhəmiyyətə malik olan vacib məsələdir. Ona görə ki, öhdəlikdə iştirak edən tərəflərin hüquq və vəzifələrinin dəyişdirilməsi və ya ləğv edilməsi məhz bu anla bağlı olur.

Göstərilən an müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi əsaslarından (üsullarından) asılı olaraq müəyyən edilir. Belə ki, əgər müqavilə tərəflərin sazişi (razılığı) üsulu ilə dəyişdirilərsə və ya ləğv edilərsə, onda bu barədə tərəflərin saziş bağladıqları andan öhdəliklər dəyişdirilmiş və ya ləğv edilmiş hesab edilir. Belə ki, **müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi barədə tərəflər saziş bağladıqları andan öhdəlik də dəyişir və ya ləğv edilir**.

Müqavilə məhkəmə yolu (üsulu) ilə dəyişildiyi və ya ləğv edildiyi hallarda **məhkəmə qərarının qanuni qüvvəyə mindiyi andan öhdəlik dəyişdirilmiş və ya ləğv edilmiş hesab edilir**. Bu qərarın məzmunu müqavilənin dəyişdiril-

məsini və ya ləğv edilməsini nəzərdə tutur. O, qanuni qüvvəyə mindiyi andan öhdəliklər dəyişdirilir və ya ləğv edilir.

Tərəflərin sazişi və məhkəmə üsulu ilə müqavilə dəyişdirilərkən və ya ləğv edilərkən öhdəliklərin dəyişdirilməsi və ya ləğv edilməsi anının müəyyənləşdirilməsi haqqında qayda dispozitiv xarakterə malikdir. Belə ki, tərəflərin sazişindən və müqavilənin dəyişdirilməsi xarakterindən ayrı qayda irəli gələ bilər (MM-in 424-cü maddəsinin 3-cü bəndi).

Yeri gəlmişkən, bir məsələyə də toxunmağı lazım bilirik. **Artıq icra olunmuş müqaviləni dəyişmək və ya ləğv etmək olmaz**. Belə ki, həm müqavilə, həm də bu müqavilədən əmələ gələn öhdəlik onların lazımınca icra edilməsi nəticəsində ləğv edilir. Məsələn, mülkiyyətçi şəhərdə olan evini kənd sakininə satmaq üçün onunla alqı-satqı müqaviləsi bağlayır. Bu müqavilə notariat qaydasında təsdiq olunduqdan sonra, daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınır. Sonra isə bu müqavilə icra edilir, yəni satıcı evi alıcının mülkiyyətinə verir, alıcı isə onu qəbul edib pulunu ödəyir. Başqa bir misalda tikinti təşkilatı (podratçı) vətəndaşa podrat müqaviləsinə görə qaraj tikir. Tikinti təşkilatı qarajı tikib qurtarır və vətəndaşa təhvil verir. Vətəndaş isə onu qəbul edib pulunu (podrat haqqını) ödəyir. Göstərilən hər iki halda müqavilə bağlayan tərəflərin ixtiyarı yoxdur ki, onlar həmin müqavilələri dəyişdirsinlər və ya ləğv etsinlər. Lazımınca icra edildiyinə görə həmin müqavilələr və bu müqavilələrdən əmələ gələn öhdəliklər ləğv edilir. Axı, mövcud olmayan bir şeyi necə dəyişdirəsən və ya ləğv edəsən?

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Брагинский М.И., Витрянский В.В. Договорное право. Общие положения М., 1997.

Иоффе О.С. Обязательственное право. М., 1975.

Витрянский В.В. Новые типы гражданско-правовых договоров // Закон. 1995.

Гавзе Ф.И. Социалистический гражданско-правовой договор. М., 1972.

Маковский А.Л. Правовые основы рыночной экономики // Закон. 1996. № 4.

Тихомиров Ю.А. Договор как регулятор общественных отношений // Правоведение. 1990. № 5.

Халфина Р.О. Значение и сущность договора в советском социалистическом гражданском праве. М., 1954.

Кабалкин А. Изменение и расторжение договора // Российская юстиция. 1996. № 10.

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого**. М., 1998 (гл. 25).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко**. М., 1998 (гл. 21).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И.Масляева**. М., 1997 (гл. 22).

Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. **Е.А.Суханова**. М., 1999 (гл. 30).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой**. М., 1998 (гл. 18).

Гражданское право. Учебник / Под ред. **С.П.Гришаева**. М., 1999 (гл. 12).

Комментарий к Гражданскому кодексу Российской Федерации части первой / Под ред. **О.Н.Садикова**. М., 1999 (гл. 27, ст. 420-453).

Постановление Пленума Верховного Суда Российской Федерации и Пленума Высшего Арбитражного Суда Российской Федерации от 1 июля 1996; п. 54-60 // БВС РФ. 1996. № 9.

Эннекцерус Л. Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950.

А.Жалинский, А.Рёрихт. Введение в немецкое право. М., 2001.

Larens K. Allgemeiner Teil des Deutschen bürgerlichen Recht. München. 1989.

Klünzinger E. Einführung in das bürgerliche Recht. München. 1993.

Musielak H.-J. Grundkurs BGB. München. 1994.

Medicus D. Schuldrecht. München. 1999.

Brox H. Allgemeines Schuldrecht. München. 1999.

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 2. М., 1983.

XXVIII FƏSİL
ÖHDƏLİKLƏRİN İCRASI

§ 1. Öhdəliklərin icrası anlayışı və prinsipləri

1. Öhdəliklərin icrası anlayışı

Alqı-satqı müqaviləsindən əmələ gələn öhdəliyin bir tərəfi olan satıcı əşyanı alıcının mülkiyyətinə verir, qarşı tərəf rolunda çıxış edən alıcı isə əşyanı qəbul edib, onun əvəzində müəyyənləşdirilmiş pul məbləğini ödəyir. Tərəflərin — satıcının və alıcının hərəkətləri ilə (satılan əşyanı verməklə, əşyanın pulunu ödəməklə) alqı-satqı öhdəliyi icra edilir. Daşıma müqaviləsinə görə, nəqliyyat təşkilatı (daşıyıcı) yük göndərən tərəfindən ona tapşırılan yükü təyinat məntəqəsinə çatdırır və yükü almağa ixtiyarı çatan şəxsə verir. Yük göndərən isə yükün daşınması üçün müəyyən edilmiş haqqı ödəyir. Tərəflərin — nəqliyyat təşkilatının və yük göndərənin hərəkətləri ilə (yükü təyinat məntəqəsinə çatdırmaqla, daşıma haqqını ödəməklə) daşıma müqaviləsindən əmələ gələn daşıma öhdəliyi icra edilir. Podrat müqaviləsinə görə, podratçı (tikinti təşkilatı) sifarişçinin tapşırığı ilə ona yaşayış evi tikir, sifarişçi isə görülmüş işi qəbul edib haqqını ödəyir. Podratçının və sifarişçinin hərəkətləri ilə (yaşayış evi tikməklə, işin haqqını ödəməklə) podrat öhdəliyi icra edilir. Saxlama müqaviləsinə əsasən, vətəndaş əmlakı dəmir yolu vağzalındakı saxlama kamerasına saxlanca verir və buna görə nəzərdə tutulmuş məbləğdə saxlama haqqı ödəyir. Vətəndaşın (saxlanca verməklə, saxlama haqqı ödəməklə) və saxlama kamerasının hərəkətləri ilə saxlama öhdəliyi icra edilir. Sürücü avtomobili yüksək sürətlə idarə edərkən vətəndaşın əmlakını zədələyir və bununla delikt (zərər vurmaq nəticəsində əmələ gələn) öhdəliyi yaranır. Sürücü vurulmuş zərərin əvəzini ödəyir və bununla müqavilədənkənar (delikt) öhdəlik icra olunur. Çəkdiyimiz misallardan aydın olur ki, **öhdəliklərin icrası borclu tərəfindən fəal hərəkətlərin həyata keçirilməsində ifadə olunur**. Bu cür hərəkətlərin dairəsi kifayət qədər genişdir. Mülki qanunvericilik göstərilən hərəkətlərin qəti siyahısını müəyyənləşdirmir. O, yalnız geniş yayılmış tipik hərəkətləri nəzərdə tutur. Bu cür hərəkətlərə aiddir: əmlakın verilməsi; işin görülməsi; pulun verilməsi və s. Özü də həmin hərəkətlər borclunun daşıdığı vəzifənin məzmununu təşkil edir. Məsələn, yuxarıdakı misalda satılmış əşyanı alıcıya vermə kimi hərəkət satıcının (borclunun) vəzifəsinin məzmununu təşkil edir. Əşyaya görə pul vermək kimi hərəkət isə alıcının (borclunun) daşıdığı vəzifənin məzmununu əhatə edir. Həmin vəzifələr hüquqlarla birlikdə öhdəliklərin məzmununu təşkil edir.

Mülki qanunvericiliyin öhdəliklərin icrasını şərtləndirən fəal hərəkətlərin dəqiq və qəti yox, təxmini siyahısını müəyyənləşdirməsi müəyyən səbəblərlə izah olunur. Bu, hər şeydən əvvəl, onunla bağlıdır ki, qanun təkcə qanunvericilikdə birbaşa göstərilən hərəkətlərin yox, həm də qanunvericilikdə nəzərdə tutulmasa da, mülki qanunvericiliyin prinsiplərinə zidd olmayan hərəkətlərin öhdəliyin icrasını şərtləndirə bilməsi imkanını müəyyən edir.

Söylədiklərimizdən belə bir nəticə çıxır ki, öhdəliyin tərəfləri fəal hərəkətlər

həyata keçirməklə öhdəliyi icra edirlər. Özü də bu cür hərəkətləri borclu həyata keçirir (məsələn, daşıma müqaviləsi üzrə yük göndərən daşıyıcıya pul verir, saxlama müqaviləsinə görə saxlanca verən şəxs saxlama haqqı verir və s.). Belə təsəvvür yaranır ki, borclu tərəfindən həyata keçirilən hərəkətlər kreditorun (məsələn, daşıyıcı kimi çıxış edən nəqliyyat təşkilatının, əşyanı saxlayan şəxsin və s.) xeyrinədir. Beləliklə, **öhdəliyin icrası dedikdə, borclu şəxsin kreditorun xeyrinə öhdəliyin obyektini təşkil edən konkret fəal hərəkətləri həyata keçirməsi başa düşülür**. Öhdəliyin borclu şəxsin müəyyən hərəkətlərdən çəkinmək yolu ilə icrasına gəldikdə isə qeyd etmək lazımdır ki, bu cür passiv davranış müstəqil surətdə və xüsusi olaraq öhdəliyin icrasını şərtləndirmir. Müəyyən hərəkətdən çəkinmə yolu ilə öhdəliyin icrası istisna edilir. Ona görə ki, öhdəliklər maddi nemətlərin bu və ya digər formada bir şəxsdən digərinə keçməsi vasitəsidir. O, əmtəə mübadiləsi, əmlakın bir şəxsdən digərinə keçməsi prosesində əmələ gəlir. Əmtəə mübadiləsi üçün, maddi nemətlərin bir şəxsdən digərinə keçməsi üçün vacibdir ki, borclu şəxs hər hansı bir fəal hərəkət yerinə yetirsin. Axı, öhdəliklər münasibətlərin statikliyi ilə yox, dinamikliyi ilə əlaqədardır. Dinamiklik isə hərəkəti ifadə edir. Buna görə də borclu şəxsin passiv davranışı, passiv vəzifəsi, yəni müəyyən hərəkətdən çəkinməsi müstəqil olaraq öhdəliyin obyekti kimi çıxış edə bilmir. Bu, onu göstərir ki, onun müəyyən hərəkətdən çəkinməsi yolu ilə öhdəliyin icrası mümkün deyil[1]. Düzdür, borclunun müəyyən hərəkətdən çəkinmək vəzifəsi (passiv vəzifəsi) öhdəliyin məzmununu təşkil edə bilər. Məsələn, icarə müqaviləsində icarəçi, əmlak kirayə müqaviləsində kirayəçi, saxlama müqaviləsində saxlayıcı, yəni borclu şəxslər onlara verilmiş əmlakı başqa şəxslərə verməmək kimi passiv vəzifə daşıyırlar. Lakin bu cür vəzifə öhdəliyin mahiyyətini təşkil edən əsas vəzifə kimi yox, əlavə vəzifə kimi çıxış edir. Borclu şəxsin bu kimi əlavə vəzifəsi onun müəyyən fəal hərəkətləri yerinə yetirmək üzrə əsas vəzifəsini tamamlayır. Deməli, **passiv vəzifə ayrıca və müstəqil olaraq borclu şəxsin vəzifəsini təşkil etmir və buna görə öhdəliyin müstəqil obyektinə çevrilmir**.

Öhdəliyin icrası müəyyən xüsusiyyətlərə malikdir. **Birinci xüsusiyyət** ondan

[1] Müəlliflərdən Q.D.Otnyukova, M.Y.Şiminova, Y.A.Suxanov, Z.İ.Sıbulenko, Q.İ.Strelnikova, M.İ.Braginski borclu şəxsin müəyyən hərəkətdən çəkinməsi (passiv vəzifə) yolu ilə öhdəliyin icrasının mümkün olması barədə fikir söyləyirlər (Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева*. М., 1999, с. 132; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 402; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 383; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 41; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 357; Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 556). Hətta həmin müəlliflərdən bəziləri bu hala konkret misallar çəkirlər: saxlayıcının saxlanca verilmiş əmlakdan istifadə edə bilməməsi (Z.İ.Sıbulenko); ədəbi əsərini nəşriyyata vermiş müəllifin müəyyən müddət ərzində onu başqa nəşriyyata verə bilməməsi (M.Y.Şiminova); kommersiya konsessiya müqaviləsi (françayzinq müqaviləsi) üzrə istifadəçinin hüquq sahibinin istehsal sirrini və konfidensial xarakterli digər kommersiya informasiyasını yaymaması (M.İ.Braginski); iki bağçılıq ortaqlığının onların bir-birinin ərazisindən keçib meşəyə və çaya getməmək barədə müqavilə bağlamaları (Q.D.Otnyukova). Lakin borclunun müəyyən hərəkətdən çəkinməsi yolu öhdəliyin icrası üçün tipik, səciyyəvi və əsas vasitə deyil. Peterburq alimlərindən M.V.Krotov isə göstərir ki, yalnız borclunun fəal hərəkətləri ilə öhdəlik icra oluna bilər (Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 531).

ibarətdir ki, **öhdəliyin icrası onun, yəni öhdəliyin məqsədini təşkil** edir[1]. Belə ki, tərəflər öhdəliklərə, yəni öhdəlik hüquq münasibətlərinə müəyyən nəticəyə nail olmaq məqsədi ilə girirlər. Məsələn, əmlak əldə etmək (alqı-satqı öhdəliyində), əşyanı təmir etmək və ya ev tikmək (podrat öhdəliyində), əmlakı istifadəyə vermək (kirayə öhdəliyində) və s. bu cür nəticəyə misal ola bilər.

Müəyyən nəticəyə nail olmaq üçün tərəflər — kreditor və borclu hüquq və vəzifələrini həyata keçirirlər ki, bu hüquq və vəzifələr öhdəliyin məzmununu təşkil edir. Qeyd etdiyimiz kimi, borclu şəxs özünün daşıdığı vəzifənin məzmununu təşkil edən fəal hərəkətlər etmək yolu öhdəliyi icra edir. Öhdəliklərin icrasının vasitəsi və köməyi ilə mülki (əmlak) dövriyyə iştirakçılarının maddi və mənəvi tələbatı ödənilir və təmin edilir. Tərəflər öhdəliyi lazımınca icra etməklə qarşılarına qoyduqları məqsədə, müəyyən nəticəyə nail olurlar[2].

İkinci xüsusiyyət ondan ibarətdir ki, öz hüquqi təbiətinə və xarakterinə görə **öhdəliyin icrası əqddir**. Özü də çox vaxt öhdəliyin icrası birtərəfli əqd kimi çıxış edir. Tərəflərin nail olmaq istədikləri nəticə öhdəliyin icrası deməkdir. Nəzərdə tutulan müəyyən nəticəyə nail olmaq öhdəlik hüquq münasibətlərində iştirak edən tərəflərin əsas məqsədidir. Borclunun hərəkəti müəyyən bir istiqamətə, yəni hüquqi nəticəyə — öhdəlik hüquq münasibətinin xitam edilməsinə yönəlmişdir. Borclu öz iradəsi əsasında xüsusi olaraq öhdəlik hüquq münasibətinin xitam edilməsinə yönələn hərəkət edir. Bu, hüquqauyğun iradəvi hərəkətdir. Belə ki, borclu şəxs öhdəliyi icra etməklə həyata keçirilməsi ona həvalə edilmiş vəzifəni yerinə yetirməkdən azad edilir. O, öz iradəsi ilə kreditorun xeyrinə nəzərdə tutulan hərəkəti edir və buna cəhd göstərir. Başqa sözlə desək, borclunun öhdəliyin icrasını şərtləndirən və əhatə edən hərəkəti müəyyən nəticəyə nail olunmasına yönəlir. Beləliklə, söylədiklərimiz onu sübut edir ki, borclunun müəyyən hərəkətləri həyata keçirməsi — öhdəliyin icrası əqdin bütün əlamətlərinə, istisnasız olaraq, tamamilə uyğun gəlir. Buna görə də öz hüquqi təbiətinə görə əqd sayılan öhdəliyin icrasını hüquqi əməl hesab edən müəlliflərin mövqeyi həqiqətdən uzaqdır[3].

Öhdəliyin icrası əqd olduğuna görə onunla əlaqədar olan münasibətlərə

[1] Məhz bu səbəbdən Yaponiya mülki hüquq elmində öhdəliyin icrasına tərif verilərkən «öhdəliyin məqsədi» anlayışından çıxış olunur: öhdəliyin icrası dedikdə, borclunun öhdəliyin məqsədinin həyata keçirilməsinə yönələn hərəkəti başa düşülür (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 327).

[2] Öhdəliyin icrası barədə bax: *Отнюкова Г.* Исполнение обязательств // Российская юстиция. 1996. № 3, 4; *Брагинский М.* Обязательственные права // Экономика и жизнь. 1995. № 33; *Витрянский В.* Понятие и стороны обязательства. Исполнение обязателств // Хозяйство и право. 1995. № 8, с. 3-20.

[3] Bu fikri irəli sürən müəlliflərdən biri O.A.Krasavçikovdur. Görkəmli alim belə hesab edirdi ki, öhdəliyin icrası əqd deyildir. O, öz mövqeyini bununla əsaslandırırdı ki, hüquqi nəticə hərəkətin bu nəticənin əldə edilməsinə yönəlib-yönəlməməsindən asılı olmayaraq əmələ gəlir, hüquqi səmərəyə subyektiv andan asılı olmayaraq nail olunur (Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова.* М. 1985, с. 471). Müəlliflərdən V.V.Vitryanski də öhdəliyin icrasını hüquqi əməl hesab edir (bax: *Брагинский М.И., Витрянский В.В.* Договорное право. Общие положения. М., 1997, с. 360-361). Müəlliflərdən Y.A.Suxanov, M.V.Krotov öhdəliyin icrasını əqd sayırlar (bax: Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 41; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 533).

əqdlər haqqında müddəalar tətbiq edilir. Bu münasibətlərə həm də əqdlərin forması haqqında qaydalar şamil olunur.

Almaniya mülki hüquq doktrinasına görə, öhdəliyin icrası (die Erfulling) öhdəliyin ləğv edilməsinin normal halıdır. Öhdəliyin icrası öhdəliyin məzmunu ilə sıx surətdə bağlı olan məsələdir. Belə ki, öhdəliyi icra etmək, onun məzmununu həyata keçirmək deməkdir[1]. Professor E.Klyunsinger yazır ki, əgər borclu həqiqətən etməyə borclu olduğunu kreditor üçün icra edərsə, bu icra öhdəliyə xitam verir[2].

2. Öhdəliklərin icrasının prinsipləri

Öhdəliklərin icrasının mahiyyəti və məzmunu onun prinsiplərində təzahür edir. **Öhdəliklərin icrasının prinsipləri** dedikdə, onların hamısına aid olan ümumi qaydalar və tələblər başa düşülür.

Qüvvədə olan mülki qanunvericilik öhdəliyin icrasının bir neçə prinsipini nəzərdə tutur. Qanunun ayrı-ayrı normalarında ifadə olunan bu prinsiplərə aiddir:

- vicdanlılıq prinsipi;
- öhdəliklərin sabitliyi prinsipi;
- real icra prinsipi.

Hüquq ədəbiyyatında da ənənəvi öhdəliklərin icrasının üç prinsipi göstərilir. Müəlliflərdən bəziləri iki[3], bəziləri üç[4] prinsipin öhdəliyin icrasında vacib rola malik olmasını göstərirlər. Müəlliflərdən bəziləri real icranı[5], bəziləri isə lazımınca icranı[6] öhdəliklərin icrasının əsas prinsipi kimi nəzərdə tuturlar.

Öhdəliklərin icrasında vicdanlılıq və ya öhdəliklərin vicdanla icrası əsas və fundamental prinsipdir. Bu prinsip 1964-cü il MM-də, keçmiş sovet hüquq ədəbiyyatında öhdəliklərin lazımınca (lazımi qaydada) icrası prinsipi adı ilə nəzərdə tutulmuşdu. Müasir Rusiya mülki qanunvericiliyində və hüquq ədəbiyyatında öhdəliklərin lazımınca icrası prinsipi anlayışından istifadə olunur. Biz elə hesab edirik ki, «öhdəliklərin icrasında vicdanlılıq prinsipi» və «öhdəliklərin lazımınca icrası prinsipi» kimi iki anlayış sinonim anlayışlar olub, məna və məzmunca üst-üstə düşür.

Vicdanlılıq prinsipi (Treue und Glauben) Almaniya hüquq doktrinasında və məhkəmə praktikasında əsaslandırılmışdır. Professor H.Haynriks yazır ki, doktrina və məhkəmə praktikası Almaniya Mülki Qanunnaməsinin 242-ci paraqrafına əsaslanmaqla həmin prinsipi formulə etmişdir. 242-ci paraqrafa (inam və vicdanla icra) görə, borclu öz vəzifəsini vicdanla dövriyyənin «xoş

[1] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 344.

[2] *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 220.

[3] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 531; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 383; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 358.

[4] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 402-404; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 42-44.

[5] Гражданское право. Учебник. Том 1 / Под ред. *П.Е.Орловского* и *С.М.Корнеева.* М., 1969, с. 481-484.

[6] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова.* М., 1985, с. 473; Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева.* М., с. 133 и др.

məramlı adətləri»ni nəzərə almaqla həyata keçirməlidir (hərəkət etməlidir)[1]. Bu, ümumi norma olub, mahiyyətcə, Almaniyanın mülki hüququna bütövlükdə sirayət və nüfuz edərək, onun ayrı-ayrı institutlarına müxtəlif dərəcədə təsir göstərir, habelə hüquqi həyatı müəyyənləşdirən əsas prinsip sayılır. Vicdanlılıq prinsipinə görə, hər kəs öz hüquqlarını həyata keçirən və öz vəzifələrini icra edən zaman etimad (inam) və etibarlılıq əsasında (vicdanla) hərəkət etməlidir. Almaniya MQ-nin 242-ci paraqrafında ifadə olunan bu prinsip bizim ölkə qanunvericiliyi tərəfindən qəbul edilmişdir[2].

Öhdəliklərin vicdanla icrası prinsipi MM-in 425-ci maddəsində formulə edilmişdir. Bu prinsipə görə, öz hüquqlarını həyata keçirərkən və vəzifələrini yerinə yetirərkən, yəni öhdəlikləri icra edərkən tərəflərdən hər biri vicdanla hərəkət etməlidir. Bu hərəkətlər elə olmalıdır ki, onlar öhdəliyin şərtlərinə və qanunun tələblərinə, belə şərtlər və tələblər olmadıqda isə işgüzar adətlərə və ya irəli sürülən digər tələblərə uyğun gəlməlidir. Öhdəliklərin vicdanla icrasını şərtləndirən, onu xarakterizə edən tələb və şərtlər qanunlarda, digər normativ aktlarda, öhdəliyin tərəflərinin sazişində və razılaşmasında ifadə olunur. **Öhdəliklərin vicdanla icrası öhdəliklərin lazımınca icrası deməkdir**. Əgər öhdəliklər vicdanla icra olunmursa, bu, o deməkdir ki, öhdəliklər lazımınca icra edilmir. Əksinə, öhdəliklər lazımınca icra edilirsə, deməli, öhdəliklər vicdanla icra olunur[3], lazımınca icra edilmirsə, öhdəliklər vicdanla icra olunmur. Vicdanlılıq prinsipi öhdəliklərin **şərtləndirilmiş vaxtda, müəyyən olunmuş yerdə, vicdanlı subyektlərlə, lazımi predmetlə və lazımi qaydada icrasını nəzərdə tutur**. Həmin prinsipə görə, öhdəliklərin icrası zamanı aşağıdakı məsələlər yaranır və həll edilməlidir: öhdəliyi kim icra etməlidir və kim icra edə bilər; öhdəlik kimin qarşısında icra edilməlidir; öhdəlik nə vaxt icra olunmalıdır; öhdəlik harada icra edilməlidir; öhdəlik hansı üsulla icra olunmalıdır.

Qeyd etmək lazımdır ki, vacib və mühüm rola malik olan prinsiplərdən biri öhdəliklərin sabitliyi prinsipidir[4]. Hüquq ədəbiyyatında bu prinsip öhdəliyin icrasından birtərəfli imtinaya və onun şərtlərini birtərəfli dəyişdirməyə yol verilməməsi prinsipi də adlanır[5].

Öhdəliklərin sabitliyi prinsipi MM-in 430-cu maddəsində nəzərdə tutulmuşdur. Bu prinsipə görə, **öhdəliyin məzmunu sabitdir, dəyişilməzdir və öhdəliyin icrasından birtərəfli imtinaya və onun şərtlərini birtərəfli dəyişdirməyə yol verilmir**. Tərəflərin sazişində və razılaşmasında yox, yalnız qanunda (Mülki Məcəllədə) nəzərdə tutulduqda öhdəliklərin icrasından birtərəfli imtina etmək və onun şərtlərini birtərəfli dəyişdirmək mümkündür. Məsələn, qanun müəyyən edir ki, müştəri istənilən vaxt ərizə yazmaqla hər hansı bir dəlil, motiv və arqument gətirmədən bank hesabı müqaviləsini ləğv edə bilər (MM-in 969-cu maddəsinin 1-ci bəndi). Komissiya müqaviləsində tərəf rolunda çıxış edən komitentin və komisyonçunun istənilən vaxt müqaviləni ləğv etmək hüququ vardır (MM-in 821-ci maddəsinin 2-ci bəndi).

Bununla belə, qanun müqavilə bağlayan tərəflərdən birinə ixtiyar verir ki, digər tərəf müqaviləni mühüm dərəcədə pozduqda, o, müqavilənin ləğv edilməsini və ya dəyişdirilməsini tələb etsin (MM-in 421-ci maddəsinin 2-ci bəndi). Şəraitin mühüm dərəcədə dəyişməsi maraqlı tərəfə hüquq verir ki, o, müqaviləni məhkəmə qaydasında ləğv etsin və ya dəyişdirsin (MM-in 422-ci maddəsi).

Qanun öhdəliyin məzmununun birtərəfli qaydada dəyişdirilməsini də nəzərdə tutur. Belə ki, öhdəliyin bir tərəfi kontragentin (digər tərəfin) iradəsindən asılı olmayaraq öhdəliyi dəyişdirmək hüququna malik olur. Bu, o halda mümkün olur ki, kontragent öz vəzifəsini lazımınca və vicdanla icra etməsin. Məsələn, satıcı alıcıya adi qüsuru olan keyfiyyətsiz mal verir. Belə halda qanun alıcıya hüquq verir ki, o, alış qiymətini adi qüsura uyğun hissədə azaltsın (MM-in 587-ci maddəsinin 1-ci bəndinin 1-ci yarımbəndi).

Bundan fərqli olaraq, **sahibkarlıq öhdəliklərində** tərəflərin ixtiyarı vardır ki, **öhdəliyin icrasından birtərəfli imtinaya və ya belə öhdəliyin şərtlərinin birtərəfli dəyişdirilməsinə yol verilməsi hallarını özləri müəyyən etsinlər** və müqavilədə bu cür halları nəzərdə tutsunlar. Bunun üçün sahibkar statuslu tərəflər müqaviləyə müvafiq şərtlər daxil edə bilərlər. Belə təsəvvür yaranır ki, qanunverici sahibkarlıq öhdəliklərinə xüsusi mövqedən yanaşır. Onun bu cür mövqeyi təbiidir. Bu, onunla izah olunur ki, sahibkarlıq fəaliyyəti bazarda peşəkar kimi çıxış edən subyektlər, yəni sahibkarlıq dövriyyəsinin peşəkar iştirakçıları tərəfindən öz risqi əsasında həyata keçirilir. Sahibkarlıq müstəqil təşəbbüskarlıq fəaliyyətidir. Ona görə də sahibkarların əmlak mənafeyi balansının saxlanılmasını təmin edən şərtlərin onların özləri tərəfindən müəyyənləşdirilməsi daha məqsədəuyğundur. Bunu nəzərə alaraq qanun sahibkarlıq öhdəliyinin icrasından birtərəfli imtina və ya belə öhdəliyin şərtlərinin birtərəfli dəyişdirilməsi hallarını və şərtlərini müəyyən etməyi sahibkarların öz ixtiyarına və öhdəsinə buraxmışdır (MM-in 430-cu maddəsinin 2-ci bəndi). Müqavilədə birtərəfli imtina və ya dəyişdirmə haqqında qayda müəyyən etmək maraqlı tərəfə məhkəməyə müraciət etmədən vicdansız kontragentlə əməkdaşlıqdan imtina etmək imkanı verir. Vacibdir ki, müqavilədə imtinanın qaydası göstərilsin.

Sabitlik prinsipi həm borclunu, həm də kreditoru bir-biri ilə bağlayır: borclunun ixtiyarı çatmır ki, ona həvalə edilmiş vəzifəni lazımınca və vicdanla icra etməsin, kreditorun isə hüququ yoxdur ki, lazımınca icranı qəbul etməkdən boyun qaçırsın. Onların hüququ yoxdur ki, öhdəliyin icrasından birtərəfli qaydada imtina etsinlər və ya onun şərtlərini dəyişdirsinlər. Əgər onlar bu cür hərəkətlərə yol verərlərsə, onda bu, hüquq pozuntusu hesab edilir. **Təqsirkar tərəfə isə mülki-hüquqi məsuliyyət tədbirləri tətbiq edilir**. Sabitlik prinsipinin po-

---

[1] Германское право. Гражданское уложение. Часть 1. М., 1996; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 344.

[2] *H.Heinrichs // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999.

[3] Гражданское и торговое право зарубежных стран. Учебное пособие / Под ред. В.В. Безбах, В.К. Пучинский. М., 2004, с. 298.

[4] bax: *Яковлева В.Ф.* Принципы обязательственного права в Основах гражданского законодательства // Основы гражданского законодательства и Основы гражданского судопроизводства Союза ССР и союзных республик. Вопросы теории и практики. Саратов. 1981, с. 49; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, В.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 358.

[5] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М. 1997, с. 404; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М. 1999, с. 42 и др.

zulmasının hüquqi nəticəsi bundan ibarətdir.

Real icra prinsipi öhdəliklərin icrasının əsas prinsiplərindən biridir. Bu prinsip barədə hüquq ədəbiyyatında fikirlər birmənalı deyil. Bəzi müəlliflər belə hesab edirlər ki, real icra prinsipi öhdəlik hüququnun müstəqil prinsipi hesab olunmur, bu, yalnız öhdəliyin lazımınca icrasının predmeti barəsində onun xüsusi tələbi, şərti və aspektidir[1]. Digər müəlliflər isə real icranı öhdəlik hüququnun müstəqil prinsipi hesab edirlər[2]. Bizim fikrimizcə, ikinci qrup müəlliflərin mövqeyi həqiqətə daha yaxındır. Belə ki, öhdəliklərin lazımınca icrası prinsipi kimi real icra prinsipi də müstəqil əhəmiyyətə malikdir. Lazımınca icra prinsipini əsas, real icra prinsipini isə əlavə, törəmə prinsip hesab etmək olmaz. Özü də bu prinsiplərin bir-birinə münasibətdə hansının üstün mövqe tutması barədə söhbət açmaq məntiqsizlikdir. Yalnız həmin prinsiplərin qarşılıqlı əlaqəsindən danışmaq olar.

Real icra prinsipi MM-in 450-ci maddəsində formulə edilmişdir. **Bu prinsipə görə, borclu şəxs öhdəliyi naturada, faktiki olaraq icra etməli, yəni öhdəliyin məzmununu təşkil edən hərəkətləri** (əşya verilməsini, iş görülməsini, xidmət göstərilməsini) pul kompensasiyası ilə əvəz etmədən yerinə yetirməlidir. Real icra prinsipinə görə, borclu yalnız və yalnız öhdəliyin məzmununu təşkil edən hərəkətləri etməlidir: əşya verməli, iş görməli və ya xidmət göstərməlidir. Bu prinsip öhdəlikdə nəzərdə tutulan icranın pul kompensasiyası ilə əvəz edilməsini yolverilməz hesab edir. Məsələn, podrat müqaviləsinə görə podratçı (tikinti təşkilatı) sifarişçiyə yalnız müqavilədə nəzərdə tutulan əşyanı hazırlayıb verməlidir, yəni öhdəliyi naturada icra etməlidir. Borclu şəxsin (podratçının) real icra prinsipinə görə ixtiyarı yoxdur ki, sifariş olunan əşyanın əvəzinə, başqa əşya versin və ya kreditora (sifarişçiyə) əşyanın qiymətini pulla ödəsin (pulla kompensasiya etsin). O, yalnız sifariş edilmiş əşyanı faktiki olaraq kreditora verməlidir. Belə təsəvvür yaranır ki, bu prinsip daha çox kreditorların mənafeyinin təmin olunmasına xidmət edir. **Real icra prinsipinin mahiyyəti ondan ibarətdir ki, öhdəlik yalnız naturada icra olunmalıdır**[3].

Real icra prinsipi öhdəliklər lazımınca icra olunmadıqda da qüvvədə olur və hüquqi əhəmiyyət kəsb edir. Başqa sözlə desək, bu prinsip öhdəliklər lazımınca icra edilmədiyi hallarda da təzahür edir. Belə ki, borclu şəxs öhdəliyi vicdanla (lazımınca) icra etmir. **Lazımınca icra etməmə** dedikdə, müqavilənin

[1] *Толстой В.С.* Исполнение обязательств. М., 1973, с. 57; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, В.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 358.

[2] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И. Масляева.* М., 1997, с. 403; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 403; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 383; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 42-43; Гражданское право. Учебник. Том 1 / Под ред. *П.Е.Орловского* и *С.М.Корнеева.* М., 1969, с. 481-484.

[3] Yaponiya mülki hüquq elmində, ümumiyyətlə, «öhdəliklərin icrasının prinsipləri» anlayışından istifadə olunmur. Burada sadəcə olaraq öhdəliyin icrasının üsullarından söhbət açılır. Öhdəliyin real icrası bu üsullardan biri sayılır. Real icra dedikdə, borclunun kreditorun hər hansı bir köməyi olmadan öz şəxsi qüvvə və səyi ilə öhdəliyi icra etməsi başa düşülür. Məsələn, pul öhdəliyinin real icra olunması üçün gərəkdir ki, borclu müəyyən məbləğdə pulla gəlib, onu nəzərdə tutulan yerdə kreditora versin (*Сакаэ Вагацума, Тору Арииздуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 230).

ayrı-ayrı şərtlərinin (müddətin, qiymətin və s.) pozulması başa düşülür. Belə halda həmin öhdəlik bütövlükdə öz qüvvəsini saxlayır. Məsələn, mal göndərmə müqaviləsi (alqı-satqı müqaviləsinin bir növü) üzrə mal göndərən (satıcı) malları ikinci partiya malın göndərilməsi üzrə müqavilədə nəzərdə tutulan vaxtda alıcıya göndərmir, yəni malların göndərilməsini gecikdirir və bununla müqavilə şərtini pozur. Bu hal isə öhdəliyin lazımınca icra edilməməsinə səbəb olur. Mal göndərəndən dəbbə pulu tutulur (MM-in 642-ci maddəsi). Belə hallarda da real icra prinsipi öz qüvvəsini itirmir, əksinə, saxlayır. Belə ki, öhdəliyin lazımınca icra edilmədiyi halda dəbbə pulunun və zərərin əvəzinin ödənilməsi borclunu, öhdəliyin naturada icrasından azad etmir (MM-in 450-ci maddəsinin 1-ci bəndi). Bu, onu ifadə edir ki, öhdəliyin lazımınca icra edilməməsinə görə təqsirkar şəxsdən (borcludan) **dəbbə pulu tutulmasına və zərərin əvəzinin ödənilməsinə baxmayaraq, o, yenə də öhdəliyin məzmununu təşkil edən hərəkəti yerinə yetirməyə borcludur**. Yuxarıdakı misalda mal göndərən öhdəliyi naturada icra etməlidir, yəni göndərilməsi gecikdirilən malları alıcıya çatdırmalıdır. Beləliklə, real icra prinsipi tələb edir ki, öhdəlik lazımınca icra edilmədikdə, borclu faktiki və real olaraq onu icra etsin. Yalnız bir şərtlə ki, qanunda və ya müqavilədə bu barədə ayrı qayda nəzərdə tutulmasın (MM-in 450-ci maddəsinin 1-ci bəndi). Bu, onu göstərir ki, **öhdəliklərin lazımınca icra edilməməsinə münasibətdə real icra prinsipi dispozitiv xarakterə malikdir**.

Öhdəliklərin icra edilməməsi halına gəldikdə isə göstərmək lazımdır ki, bu cür hallara münasibətdə **real icra prinsipi öz hüquqi qüvvəsini itirir saxlamır** (MM-in 450-ci maddəsinin 2-ci bəndi). Yalnız bir şərtlə ki, qanunda və ya müqavilədə ayrı qayda nəzərdə tutulmasın. Bu, onu nümayiş etdirir ki, öhdəliklərin icra edilməməsi halına münasibətdə də göstərilən prinsip dispozitiv xarakterə malikdir.

Əgər öhdəlikləri lazımınca icra etməmə müqavilənin bəzi şərtlərinin yerinə yetirilməməsini nəzərdə tutursa (**qismən icra etməmə**), öhdəliklərin icra edilməməsi, ümumiyyətlə, müqavilənin bütün şərtlərinin həyata keçirilməməsini əhatə edir (**tam icra etməmə**). Bəzi hallarda borclu şəxs öhdəliyi icra etmir. Belə halda kreditorun tələbi ilə borclu şəxs öhdəliyin icra edilməməsinə görə vurulan **zərərin əvəzini ödəyir və ya borclu şəxsdən dəbbə pulu alınır**. Bu halda **borclu öhdəliyin naturada icrasından azad edilir**, yəni öhdəliyin məzmununu təşkil edən hərəkəti yerinə yetirməyə (əmlak verməyə, iş görməyə, xidmət göstərməyə) borclu olmur (MM-in 450-ci maddəsinin 2-ci bəndi). Bu isə tamamilə məntiqə uyğundur. Axı, öhdəliyi icra etməməyə görə borclu şəxsdən kreditora vurulan zərərin əvəzi alınmışdır və ya ondan dəbbə pulu tutulmuşdur. Kreditor bu yolla əldən çıxmış fayda da daxil olmaqla, düçar olduğu maddi (əmlak) itkini kompensasiya (əvəz) edir və bununla o, öhdəliyin faktiki icrasına yol vermədən mənfəət və gəlir götürür. Bu məsələyə konkret misal çəkək. Mal göndərmə müqaviləsinə görə, mal göndərən (satıcı) malları tam göndərmir və bununla öhdəliyi icra etmir. Buna görə ondan dəbbə pulu alınır. Bundan sonra borclu şəxs (mal göndərən) öhdəliyi naturada icra etməyə, yəni malları alıcıya göndərməyə borclu deyildir.

Real icra prinsipinin tətbiqi, **öhdəliyin icra predmetinə gecikdirilmə nəti-**

cəsində kreditorun marağının itdiyi hallarda, istisna edilir. Bu cür məqamlarda da həmin prinsip öz qüvvəsini itirir, yəni borclu şəxs öhdəliyi naturada icra etməyə borclu olmur (MM-in 450-ci maddəsinin 3-cü bəndi). Belə ki, bəzi hallarda borclu şəxs öhdəliyin predmeti olan əmlakı vaxtında hazırlamır, vaxtında göndərmir və s. Bununla o, öhdəliyin icrasını gecikdirir. Bunun nəticəsində kreditorun öhdəliyin icrasına marağı itir. Məsələn, podrat müqaviləsinə görə, dərzi gəlin üçün toy paltarını (libasını) toya kimi hazırlamır və buna görə də onun bu paltara marağı itir. Başqa bir misalda yeni il şənlikləri ərəfəsində univermaq əhaliyə satmaq üçün 200 ədəd yolka göndərməyi istehsal müəssisəsindən xahiş edir və onlar arasında mal göndərmə müqaviləsi bağlanır. Müəssisə yeni ilə kimi yolkaları göndərmir və kreditorun (univermağın) buna marağı itir. Daha bir misalda avqust ayının əvvəllərində mağaza ilə dərman bazası arasında əhaliyə satmaq məqsədilə ağcaqanadla mübarizə üçün dərman preparatları göndərmək barədə müqavilə bağlanır. Lakin baza həmin dərmanları avqust ayında göndərmir. Mağazanın (kreditorun) dərmanlara marağı itir. Bu cür hallarda kreditor icranın qəbulundan imtina edir. Bununla da borclu şəxs öhdəliyin naturada icrasından azad edilir.

Real icra prinsipi **peşman haqqı kimi müəyyənləşdirilmiş dəbbə pulunun ödənilməsi halında da tətbiq edilmir**. Belə ki, bu cür hallar borclu şəxsi öhdəliyin naturada icrasından azad edir (MM-in 450-ci maddəsinin 3-cü bəndi). Peşman haqqı öhdəliyə xitam verilməsinin üsullarından biridir (MM-in 529-cu maddəsinin 8-ci bəndi). Peşman haqqının mahiyyəti ondan ibarətdir ki, borclu ilə kreditorun razılaşması əsasında öhdəlik naturada icra edilmir, onun əvəzinə peşman haqqı verilir (pul ödənilir, əmlak verilir və s.). O, kompensasiya xarakteri daşıyır. Özü də o, dəbbə puluna oxşayır[1]. Məsələn, şəxs saxlanca fərdi-müəyyən əlamətləri ilə müəyyən edilən (yəni əvəz edilməsi mümkün olmayan) əşya verir və saxlayıcı ilə saxlama müqaviləsi bağlayır. Əşya itir. Onun əvəzinə saxlayıcı tərəflərin razılığı ilə pul formasında peşman haqqı verir. Başqa bir misalda icarə müqaviləsinin predmeti yanır. Tərəflərin razılığı ilə icarəçi yanan əşyaya oxşayan başqa əşya vermək formasında kreditora peşman haqqı verir.

Real icra prinsipinin tətbiqini məhdudlaşdıran hallardan biri öhdəliyin borclunun hesabına icrası halıdır (MM-in 451-ci maddəsi). Bu, kreditorların hüquqlarını müdafiə etmək vasitələrindən biridir. Belə ki, borclu ona həvalə edilmiş öhdəliyi icra etmir. Bu halda kreditor ağlabatan qiymətə və ağlabatan müddətə öhdəliyin icrasını üçüncü şəxsə tapşırır. O, öhdəliyi öz qüvvəsilə də icra edə bilər. İcra zamanı müvafiq zəruri xərclər çəkilir ki, borclu şəxs kreditorun tələbi ilə bu və ya digər xərclərin əvəzini ödəyir. Beləliklə, bu qayda real icra prinsipinin tətbiqi sferasını məhdudlaşdırır. Bununla belə, həmin qayda əsas öhdəliyin real icrasına nail olunmasına imkan verir.

Qeyd etdik ki, real icra prinsipi **dispozitiv xarakterə malikdir**. Bəzi hallarda bu prinsip **imperativ xarakter daşıyır**. Belə ki, qanun bəzi öhdəliklərin yalnız naturada icrası barədə məcburi qayda müəyyən edir. Söhbət, predmeti

[*] Peşman haqqı ilə dəbbə pulunun fərqli və oxşar cəhətləri ilə tanış olmaq üçün bu dərsliyin «Öhdəliklərə xitam verilməsi» adlı fəslinə bax.

fərdi əlamətləri ilə müəyyən edilən əşya olan öhdəliklərin icrasından gedir (MM-in 452-ci maddəsi). Bu əşyanı vermək öhdəliyi icra edilmədikdə, kreditor onu borclunun əlindən alır. Məsələn, icarə müqaviləsi bağlanmışdır. Lakin icarəyə verən bu müqavilənin predmeti olan əşyanı icarəçiyə vermir və bununla öhdəliyi icra etmir. İcarəçinin ixtiyarı çatır ki, müqavilədə nəzərdə tutulan şərtlərlə əşyanın ona verilməsini tələb etsin. Belə təsəvvür yaranır ki, imperativ xarakterə malik olan bu qayda öhdəliyin icrasının təmin edilməsinə yönəlmişdir.

Real icra prinsipinin əhəmiyyəti böyükdür. Onun bazar iqtisadiyyatı şəraitində rolu artır. Bu prinsip kreditorlara onların öz mənafelərini maksimum dərəcədə təmin etməyə imkan verir. Məsələn, bazarda inhisar mövqeyinə malik olan borclu şəxslə münasibətdə real icra prinsipinin əhəmiyyətini təsəvvürə gətirmək mümkün deyil.

Əvvəlki qanunvericiliyə görə, real icra prinsipi üstün mövqe tuturdu. Bu, onunla izah olunurdu ki, pul planlı təsərrüfat sistemində faktiki olaraq ümumi ekvivalent kimi rol oynamırdı. Müasir qanunvericilik isə bazar münasibətlərinə uyğun olaraq, bu prinsipin tətbiqi sferasını xeyli dərəcədə məhdudlaşdırmışdır.

3. Öhdəliklərin vicdanla (lazımınca) icra prinsipi. Öhdəliklərin icra şərtləri

Öhdəliklərin vicdanla (lazımınca) icra prinsipi tələb edir ki, öhdəliklər bir neçə şərtə (tələbə) əməl olunmaqla icra olunsun. Bu tələblərin məcmusu bütövlükdə **öhdəliklərin icra şərtləri** adlanır. Həmin şərtlər (tələblər) öhdəliklərin vicdanla (lazımınca) icra prinsipini xarakterizə edir. Beləliklə, öhdəliklərin vicdanla (lazımınca) icra prinsipi bir neçə tələbə (şərtə) aid öhdəliklərin məzmununu təşkil edən hərəkətlərin öhdəliyin şərtlərinə və qanunun tələblərinə tam uyğun və dəqiqliklə yerinə yetirilməsini nəzərdə tutur. Bu cür tələblərə (şərtlərə) aiddir[1]:

- öhdəliyin **icra subyektinə** aid olan tələb;
- öhdəliyin **icra predmetinə** aid olan tələb;
- öhdəliyin **icra üsuluna** aid olan tələb;
- öhdəliyin **icra yerinə** aid olan tələb;
- öhdəliyin **icra müddətinə** aid olan tələb.

Göstərilən tələblər (şərtlər), bir qayda olaraq, çox vaxt imperativ yox, dispozitiv xarakter daşıyır. Bu hal isə öhdəliyin tərəflərinə imkan verir ki, həmin tərəflər onların mənafeyinə cavab verən, uyğun gələn **mümkün alternativ icra variantlarından birini** seçsinlər.

Öhdəliklərin vicdanla (lazımınca) icra prinsipini xarakterizə edən tələblərdən (şərtlərdən) biri **öhdəliyin subyektinə aid olan tələbdir**. **Öhdəliyin icra subyekti** dedikdə, borclunun vəzifəsini təşkil edən hərəkətləri öz adından ye-

[1] Bu tələblər (şərtlər), əsasən, Almaniya Mülki Qanunnaməsi və hüquq doktrinası ilə bağlıdır. Burada göstərilir ki, öhdəliyin icrası əhatə edir: birincisi, öhdəliyin lazımi kreditor üçün icra edilməsini; ikincisi, öhdəliyin lazımi yerdə icra olunmasını; üçüncüsü, öhdəliyin lazımi müddətdə icra edilməsini (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 344). Professor Klyunsinger yazır ki, icra öhdəliyin ləğvinə səbəb olur, əgər o, kreditor üçün həqiqətən etməyə borclu olduğunu icra etmişsə: lazımi qaydada, lazımi yerdə və lazımi vaxtda (*Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 220).

rinə yetirən və ya icranı qəbul edən şəxs başa düşülür. Öhdəlik nisbi hüquq münasibətidir, yəni tərəflər öhdəlikdə həmişə konkret olaraq məlum olurlar. Ona görə də kreditor öhdəliyin icrasını bilavasitə borcludan tələb edir. Bir qayda olaraq, öhdəliklər əmələ gəldiyi anda borclu konkret olaraq məlum olur. Deməli, öhdəliyin subyekti kimi, adətən, borclu şəxs çıxış edir. Məsələn, podrat müqaviləsinə görə, podratçı (tikinti təşkilatı) evi tikib sifarişçiyə təhvil verir. Podratçı (tikinti təşkilatı) öhdəliyin icra subyektidir.

Ümumi qaydaya görə, öhdəlik borclu tərəfindən icra olunur. Çox vaxt öhdəliyin tərəfləri ilə öhdəliyin icra subyektləri üst-üstə düşürlər. Belə ki, öhdəliyi icra edən tərəf (borclu) öhdəliyin icra subyektinə çevrilir. Lakin bütün hallarda belə olmur. Belə ki, bir çox öhdəliklərdə icranın başqası tərəfindən yerinə yetirilməsinə yol verilir. Qanun müəyyən edir ki, öhdəliyi borclunun əvəzinə, üçüncü şəxs də icra edə bilər (MM-in 431-ci maddəsinin 1-ci bəndi)[1]. Özü də dərhal qeyd etməliyik: elə öhdəliklər vardır ki, onların icrası borclunun özündən asılı olur, yəni onun şəxsiyyəti ilə qırılmaz bağlı olur, habelə qanunda, müqavilədə və s. öhdəliyin borclunun şəxsən özü tərəfindən icra edilməsi nəzərdə tutulur. Belə hallarda öhdəliyi borclunun əvəzinə, üçüncü şəxsin icra etməsinə yol verilmir. Məsələn, tapşırıq müqaviləsi üzrə vəkalət alan, bəzi istisnalarla, tapşırığı şəxsən özü icra etməlidir (MM-in 780-ci maddəsi). Podrat müqaviləsi üzrə podratçı işi şəxsən yerinə yetirməyə borcludur, bir şərtlə ki, bu, müqavilədən, yaxud konkret hallardan və ya işin xarakterindən irəli gəlsin (MM-in 755-ci maddəsi). Əgər borclunun əvəzinə, öhdəliyin icrasını üçüncü şəxs təklif edərsə, kreditor icranı qəbul etməlidir. Borclu bunun əleyhinə olarsa, kreditor icranı qəbul etməyə də bilər.

Öhdəlikləri borclunun əvəzinə, üçüncü şəxslərin icra etməsi müəyyən dərəcədə təsərrüfat və sahibkarlıq fəaliyyətində ixtisaslaşma və vasitəçilik xidmətlərinin inkişafı ilə bağlıdır. Öhdəliklərin bu qaydada icrası sahibkarlıq fəaliyyətində xüsusilə geniş səviyyədə tətbiq edilir. Öhdəliyi borclunun əvəzinə icra edən üçüncü şəxslərə çox misallar çəkə bilərik. Məsələn, xalq istehlakı mallarını və ya məhsulları hazırlayan istehsalçılar həmin malları (və ya məhsulları) mal göndərənin (mal göndərmə müqaviləsi üzrə satıcının) əvəzinə, alıcılara (mal göndərmə müqaviləsinin digər tərəfinə) göndərir, yəni öhdəliyi icra edirlər. Başqa bir misalda güclü maliyyə imkanına malik olan firma alqı-satqı müqaviləsi üzrə alıcının əvəzinə malın pulunu ödəyir. Yük daşıma müqaviləsi üzrə yük daşıyıcının (nəqliyyat təşkilatının) əvəzinə, digər nəqliyyat təşkilatları (üçüncü şəxslər) tərəfindən daşına bilər. Belə hallarda borclu öhdəlikdən çıxmır. O, yenə də kreditor qarşısında məsuliyyət daşıyır. Borclunun əvəzinə öhdəliyin icrasını təklif edən üçüncü şəxs öhdəliyin icra edilməməsinə görə mülki-hüquqi məsuliyyətdən azaddır. Bu, üçüncü şəxs üçün hər hansı bir nəticə əmələ gətirmir. Üçüncü şəxs öhdəliyin tərəfinə çevrilmir.

Borclu şəxsin vəzifəsidir ki, **öz öhdəliyini kreditora və ya səlahiyyətli (ixtiyarlı) şəxsə icra etsin**. Səlahiyyətli şəxs dedikdə, qanunla və ya məhkəmənin qərarı ilə icranı qəbul etməyə ixtiyarı çatan şəxs başa düşülür (MM-in 433-cü maddəsinin 1-ci bəndi). Borclu öhdəliyi səlahiyyəti çatmayan şəxsə də icra edə bilər, yəni öhdəliyin icrasını **qeyri-səlahiyyətli şəxs qəbul edə bilər**. Bu halda yalnız iki şərtdən biri olduqda, öhdəlik icra edilmiş hesab edilir. **Birinci şərt** ondan ibarətdir ki, kreditor qeyri-səlahiyyətli şəxsin icranı qəbul etməsinə razılıq verdikdə, öhdəlik icra olunmuş sayılır (MM-in 433-cü maddəsinin 2-ci bəndi). Söhbət kreditorun icranı qəbul etməyi qeyri-səlahiyyətli şəxsə — üçüncü şəxsə tapşırmasından gedir. Buna **hüquq ədəbiyyatında icranın yeni ünvana göndərilməsi** deyilir[1]. Bu kimi halda kreditor öhdəliyin icrasının qeyri-səlahiyyətli şəxs (üçüncü şəxs) tərəfindən qəbul olunmasına razılıq verir[2]. Lakin **qeyri-səlahiyyətli şəxs borcluya münasibətdə hər hansı bir tələb hüququ əldə etmir**. Bu xüsusiyyəti ilə o, üçüncü şəxsin xeyrinə olan öhdəlikdən fərqlənir. Belə ki, bu öhdəliklərdə üçüncü şəxs borcluya münasibətdə tələb hüququna malik olur.

İkinci şərt ondan ibarətdir ki, öhdəliyin icrasını qeyri-səlahiyyətli şəxs qəbul etdiyi halda, **əgər kreditor bu icradan fayda götürərsə**, onda öhdəlik icra olunmuş sayılır (MM-in 433-cü maddəsinin 2-ci bəndi). Məsələn, borc alan aldığı borc məbləğini faizi ilə birlikdə uzaq şəhərlərin birində olan borc verənin (kreditorun) özünə yox, onun qonşusuna (üçüncü şəxsə, qeyri-səlahiyyətli şəxsə) qaytarır. Burada kreditorun icradan fayda götürməsi açıq-aşkar hamıya məlumdur. Göstərilən iki şərtdən biri olmazsa, öhdəlik icra edilməmiş hesab edilir.

Qanun öhdəliyin icra subyekti olan borclunun mənafeyinin müdafiə edilməsinə xüsusi diqqət yetirir (MM-in 433-cü maddəsinin 3-cü bəndi). Belə ki, qanun **borcluya öhdəliyin icra olunması barədə ona sübutlar verilməsini tələb etmək hüququ verir**. Bu sübutlar öhdəliyin icrasını kreditorun özünün və ya səlahiyyətli şəxsin qəbul etməsi haqqındadır. Çox vaxt kreditor və ya səlahiyyətli şəxs tərəfindən verilən qəbz sübut kimi çıxış edir. Qəbz öhdəliyin icrasının qəbul edilməsinə dair yazılı sənəddir. Özü də sübutedici əhəmiyyətə malikdir. Başqa variantlardan da istifadə oluna bilər. Qəbz və sübut əhəmiyyətinə malik olan digər sənədlər borcluya verilir. Bu, onu təsdiqləyir ki, borclu tərəfindən həyata keçirilən icranı kim qəbul etmişdir. Bununla borclu üçün baş verə biləcək arzuolunmaz və xoşagəlməz halların qarşısı alınır. Əgər borclu öhdəliyin icrasının qəbulu barədə sübut əhəmiyyətinə malik olan sənəd almasa və həmin hal arzuolunmaz nəticələrə səbəb olarsa, onda bu cür nəticələrin risqini o daşıyır. Borclu öhdəliyi qeyri-səlahiyyətli şəxsə icra etməsi risqinə görə məsuliyyət daşıyır. Göstərilən qayda Almaniya Mülki Qanunnaməsinin 368-ci

[1] Almaniya və Yaponiya qanunvericiliyinə görə, öhdəliyi icra edə bilən şəxslərin dairəsi təkcə borclu ilə məhdudlaşmır. Öhdəlik üçüncü şəxslər tərəfindən də icra oluna bilər.

[1] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 538; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 45; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 368.

[2] Almaniya qanunvericiliyi də öhdəliyin üçüncü şəxsə icra edilməsinə yol verir. Belə halda Mülki Qanunnamənin 185-ci paraqrafı tətbiq edilir (*А.Жалинский, А.Рёрихт*. Введение в немецкое право. М., 2001, с. 344). Yaponiya qanunvericiliyinə görə, öhdəlik yalnız kreditora və ya kreditor hüququna malik olan şəxsə icra edildikdə, etibarlı sayılır (*Сакаэ Вагацума, Тору Арииидзуми*. Гражданское право Японии. Книга 1. М., 1983, с. 336).

paraqrafında da nəzərdə tutulur[1]: kreditor icranı qəbul edən zaman borclunun tələbi ilə icranın qəbulu haqqında şəhadətnamə verməyə, habelə icra hüququnu əsaslandıran sənədləri qaytarmağa borcludur. Analoji qaydanı Yaponiya MM-i də müəyyənləşdirir (468-ci maddə): öhdəliyi icra edən icranı qəbul edən şəxsdən ona qəbz verilməsini tələb edə bilər[2].

Beləliklə, öhdəliyin icra subyektlərinin dairəsi kifayət qədər genişdir: borclu; üçüncü şəxs; kreditor; səlahiyyətli şəxs; qeyri-səlahiyyətli şəxs. Öhdəlikdə isə iki tərəf çıxış edir: kreditor; borclu[3]. Bu, onu göstərir ki, «öhdəliklərin icra subyektləri» anlayışı «öhdəliklərin tərəfləri» anlayışından daha geniş və əhatəlidir. Ona görə də öhdəliyin icra subyekti rolunda yalnız borclunun çıxış etməsi barədə fikir irəli sürən müəlliflərin mövqeyini bir o qədər də inandırıcı və ağlabatan hesab etmək olmaz[4].

Öhdəliyin vicdanla (lazımınca) icra prinsipini şərtləndirən və xarakterizə edən tələblərdən (şərtlərdən) biri **öhdəliklərin icra predmetinə aid olan tələbdir**. **Öhdəliklərin icra predmeti** dedikdə, əmlak başa düşülür. Predmet qismində əşyalar, işin nəticəsi, qiymətli kağızlar və pul və s. çıxış edə bilər. Mülki qanunvericilikdə bəzi məqamlarda öhdəliyin icra predmeti öhdəliyin predmeti adlanır. Bu iki anlayış analoji əhəmiyyətə malikdir. Hərəkətlərə gəldikdə isə qeyd etmək lazımdır ki, bu hərəkətlər öhdəliyin icra predmeti kimi çıxış edə bilmir. Hərəkətlər hüquq münasibətlərinin bir növü kimi öhdəliklərin obyektinin təşkil edir[5]. Beləliklə, öhdəliklərin icra predmeti dedikdə, elə bir əşya, iş və ya xidmət başa düşülür ki, borclu öhdəliyə əsasən, həmin əşyanı kreditora verməli, həmin işi kreditor üçün görməli və ya həmin xidməti ona göstərməlidir.

İcranın predmetinə aid olan tələbin (şərtin) lazımınca yerinə yetirilməsinin çox böyük əhəmiyyəti vardır. Belə ki, əgər bu tələb lazımi qaydada həyata keçirilərsə, onda bununla öhdəlik əmələ gələn vaxtı qarşıya qoyulan məqsədə, əsasən, nail olunur. Öhdəliyin lazımınca icra edilməsi üçün vacibdir ki, borclu kreditora yalnız nəzərdə tutulan predmeti versin. Nəzərdə tutulmayan predmetin verilməsi o deməkdir ki, öhdəlik lazımınca icra edilməmişdir. Məsələn,

[1] Германское право. Гражданское уложение. Часть 1.М.,1996; *А.Жалинский, А.Рёрих.* Введение в немецкое право. М., 2001, с. 344.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 344.

[3] «Öhdəlikdə şəxslər çoxluğu» və «öhdəlikdə şəxslərin dəyişməsi» kimi anlayışlar dərsliyin «Öhdəlik hüququnun anlayışı» adlı fəslində işıqlandırılmışdır.

[4] Belə fikir söyləyən müəlliflərdən biri Y.A.Suxanovdur (Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 44). İcra subyektinin təkcə borcludan ibarət olmaması barədə mövqe tutan müəlliflər də var (Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.,Масляева.* М., 1997, с. 412; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 366). Yaponiya qanunvericiliyində birbaşa göstərilir: öhdəliyin icra subyekti rolunda həm borclu şəxslər, həm də üçüncü şəxslər çıxış edə bilərlər (Yaponiya MM-in 474-cü maddəsinin 1-ci bəndi).

[5] Hərəkətlərin öhdəliklərin icra predmeti olması barədə mövqe tutanlar da var (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 393; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 362). Şübhəsiz ki, bu fikirlə çətin razılaşmaq olar. Almaniya hüquq doktrinasında öhdəliyin predmeti (icra predmeti) kimi, əsasən, əşya götürülür: fərdi əlamətləri ilə müəyyən edilən əşya; cinsi əlamətləri ilə müəyyən edilən əşya və s. (*Westermann H.P., Bydlinski P.* BGB – Schuldrecht. Allgemeiner Teil. Heidelberg, 1999, s. 30 ff).

podrat müqaviləsi üzrə podratçı sifariş edilmiş işin nəticəsini deyil, başqa işin nəticəsini verərsə, bu, öhdəliyin qüsurla icra edilməsini şərtləndirir (MM-in 762-ci maddəsinin 3-cü bəndi). Özü də borclunun vəzifəsidir ki, icranın predmetini lazımi keyfiyyətdə və müəyyənləşdirilmiş kəmiyyətdə versin. Məsələn, alqı-satqı müqaviləsi üzrə satıcı alıcıya keyfiyyəti alqı-satqı müqaviləsinə uyğun gələn əşya verməyə borcludur (MM-in 581-ci maddəsinin 1-ci bəndi). Bu müqavilədə əşyanın keyfiyyəti haqqında şərtlər nəzərdə tutulmaya da bilər. Belə halda satıcı alıcıya bu cür malın, adətən, istifadə edildiyi məqsədlərə yarayan əşya verməlidir (MM-in 581-ci maddəsinin 2-ci bəndi). Məsələn, televizor televiziya verilişlərinə baxmaq üçün, musiqi aləti onu çalmaq üçün yararlı olmalıdır və s. Podratçı işin (podratın) nəticəsini müqavilədə nəzərdə tutulmuş keyfiyyətdə sifarişçiyə verməlidir. Əgər keyfiyyət barədə şərt müqavilədə müəyyənləşdirilməzsə, işin nəticəsi müqaviləyə uyğun istifadə və ya adi istifadə üçün yararlı olmalıdır (MM-in 762-ci maddəsinin 2-ci bəndi). Bununla belə, qanun öhdəliyin icrasının keyfiyyəti barədə ümumi qayda müəyyən edir. Əgər icranın keyfiyyəti müqavilədə müəyyənləşdirilməyibsə, borclu ən azı orta keyfiyyətli iş görməli və orta keyfiyyətli əşya verməlidir (MM-in 436-cı maddəsi).

İcranın predmetinin tələb olunan kəmiyyətdə verilməməsi o deməkdir ki, öhdəlik lazımınca icra edilməmişdir. Məsələn, podrat müqaviləsi üzrə podratçı podratı kəmiyyətcə yerinə yetirməzsə, onda bu, qüsurlu icra sayılır (MM-in 762-ci maddəsinin 3-cü bəndi). İcra predmetinin kəmiyyəti (miqdarı) də müqavilədə nəzərdə tutulur. O, müvafiq ölçü vahidləri ilə ifadə olunur. Məsələn, metalın miqdarı tonlarla, kərpicin kəmiyyəti ədədlə və s. müəyyənləşdirilir.

Öhdəliyin predmetinə aid olan tələb ya müqavilənin şərtlərinə, ya qanunun göstərişlərinə uyğun gəlməklə müəyyən edilir. Əgər bu, mümkün olmazsa, onda icranın predmetinə aid şərt irəli sürülən adi tələblərə uyğun olaraq təyin edilir. İcra predmeti üçün dövlət standartları nəzərdə tutularsa, onda onun barəsində şərt standartların tələblərinə uyğun gəlməlidir.

Öhdəliyin icra predmeti kimi müəyyən hallarda **fərdi əlamətləri ilə təyin edilən əşyalar** (məsələn, binalar, yaşayış evləri, torpaq sahələri, ayrıca su obyektləri və s.) çıxış edir. Bu əşyaların hüquqi cəhətdən başqası ilə əvəz edilməsi mümkün deyil. Borclu kreditora **həmin əşyaların özünü verməklə öhdəliyi icra etməlidir**. Ona görə də qanun müəyyən edir ki, əgər müqavilənin predmeti fərdi-müəyyən əşyadırsa, kreditor başqa əşyanı, onun dəyəri daha yüksək olsa belə, qəbul etməyə borclu deyildir (MM-in 437-ci maddəsinin 1-ci bəndi).

Öhdəliyin icra predmeti kimi həm də **cinsi (növ) əlamətləri ilə müəyyən edilən əşyalar** (məsələn, 50 ton sement, 20 litr benzin, 500 ədəd kərpic, 100 ton pambıq, 10 litr süd və s.) çıxış edə bilər. Bu cür əşyaların hüquqi cəhətdən əvəz edilməsi mümkündür. Borclu həmin cinsdən (növdən) olan başqa əşya verməklə öhdəliyi icra edə bilər. Məsələn, qonşu (borc alan) o biri qonşudan 10 ədəd yumurta alır və onları istehlak edir. Borc alan qonşu həmin yumurtaların özünü yox, başqa 10 ədəd yumurtanı verməklə borcu geri qaytarır. Ona görə də müqavilənin predmeti cinsi (növ) əlamətləri ilə müəyyən edilən əşyalar olduqda, borclu **həmin növdən (cinsdən) olan əşya verməklə öhdəliyi həmişə icra edə bilər** (MM-in 438-ci maddəsi).

Öhdəliklərin icra predmeti kimi pul da çıxış edə bilər. Predmeti puldan ibarət olan öhdəliklər pul öhdəlikləri adlanır[1]. Bu öhdəliklərin icrası bəzi xüsusiyyətlərə malikdir[2]. Pul öhdəliklərinin icrası üçün qanun xüsusi tələblər nəzərdə tutur (MM-in 439-440-cı maddələri).

Pul öhdəliyi Azərbaycan manatı ilə ifadə olunur. Əgər tərəflərdən, heç olmazsa biri əcnəbi (xarici) şəxs olarsa, pul öhdəliyi xarici valyutada da müəyyənləşdirilə bilər. Qanun bunu qadağan edərsə, pul öhdəliyi xarici valyutada ifadə olunmur. Əgər qanun yasaqlamasa, tərəflər pul öhdəliyinin ödənişinin xarici valyutada ifadə olunması barədə müqavilədə şərt nəzərdə tuta bilərlər. Lakin xarici valyuta olan öhdəliyin icrası əgər Azərbaycan Respublikasının ərazisində həyata keçirilərsə, xarici valyuta ilə yox, Azərbaycan manatı ilə həyata keçirilir. Tərəflər müqavilədə ödənişin xarici valyutada aparılması barədə şərt müəyyən edə bilərlər (MM-in 439-cu maddəsinin 2-ci bəndi). Ödəniş müddəti çatanadək pul vahidinin (manatın) dəyəri (məzənnə) arta və ya azala bilər, yəni xarici valyutanın da kursu dəyişə bilər. Belə halda borclu ödənişi öhdəliyin əmələ gəldiyi vaxta uyğun məzənnə üzrə yerinə yetirir (MM-in 439-cu maddəsinin 7-ci bəndi). Lakin bu qayda dispozitiv xarakter daşıyır. Qanunda və ya müqavilədə ayrı qayda da nəzərdə tutula bilər.

Pul öhdəlikləri, bir qayda olaraq, özündə faizlərin ödənilməsi barədə şərt birləşdirə bilər. Belə ki, qanunda və ya müqavilədə borcun üstünə faizlər hesablanması nəzərdə tutula bilər. Məsələn, borc müqaviləsi bağlayarkən tərəflər borca görə faiz hesablanması barədə razılığa gəlirlər. Bu halda faiz hesablanarkən iki faiz bəndi əlavə edilməklə Azərbaycan Respublikası Milli Bankı tərəfindən müəyyən edilən uçot dərəcəsi tətbiq edilir. Lakin bu dərəcənin miqdarı illik beş faizdən aşağı olmamalıdır (MM-in 439-cu maddəsinin 3-cü bəndi).

Azərbaycan Respublikasının nəzərdə tutduğu pul öhdəlikləri və həmin öhdəliklər üzrə faiz konstruksiyası Almaniya qanunvericiliyinin müəyyənləşdirdiyi analoji konstruksiyaya (Geld und Zinsschuld), əsasən, uyğun gəlir (MQ-nin 244-cü paraqrafı). Pul öhdəliyini icra etmək vəzifəsi ya müəyyən məbləğdə pulun, ya da müəyyən növdən (cinsdən) olan müəyyən miqdarda pul nişanlarının ödənilməsi ilə həyata keçirilir[3]. Öhdəlik xarici valyutada ifadə edilə bilər. Amma buna baxmayaraq, ödəniş məcburi surətdə Almaniya valyutası ilə həyata keçirilir. Yalnız Mülki Qanunnamənin 244-cü paraqrafında nəzərdə tutulan hallarda, ödəniş xarici valyutada aparıla bilər.

Pul öhdəliyi (Geldschuld), bir qayda olaraq, faiz öhdəliyi (Zinsschuld) ilə bağlı olur. Almaniya mülki hüquq ədəbiyyatında faizə (Zinss) belə anlayış verilir: faiz verilmiş kapitala görə həyata keçirilən elə bir ödənişdir ki, o, kapital hissələrinə və müddətə görə hesablanır[4]. Faiz borcunu ödəmək vəzifəsi ya qanundan, ya da müqavilədən yaranır. Əgər tərəflər faiz haqqında razılığa gəlməsələr, onda MQ-nin 246-cı paraqrafına uyğun olaraq, faiz illik 4% müəyyən edilir. Sahibkarlar üçün Ticarət Məcəlləsinin 352-ci paraqrafına uyğun olaraq, illik 5% nəzərdə tutulur[1].

Yaponiya mülki hüququna görə, məqsədi müəyyən məbləğdə pul ödənilməsindən ibarət olan öhdəliyə pul öhdəliyi deyilir. Borclu istənilən növ pul nişanları vasitəsilə öhdəliyi icra edə bilər (MM-in 402-ci maddəsinin 1-ci bəndi). Onun hüququ var ki, xarici valyutada ifadə edilən öhdəliyi yapon iyeni ilə icra etsin, bir şərtlə ki, öhdəliyin icra yerində dəyişmə kursunu nəzərə alsın (MM-in 403-cü maddəsi). Yaponiya mülki hüququna görə, faiz öhdəliyi odur ki, onun məzmunu faiz ödəməkdən ibarətdir. Faizin iki növü fərqləndirilir: müqavilə faiz dərəcəsi (tərəflərin sazişi ilə müəyyən edilir); qanuni faiz dərəcəsi (qanunla müəyyən edilir). Qanuni faiz dərəcəsi illik 5%-dir (Yaponiya MM-in 404-cü maddəsi)[2].

Qanun **pul öhdəliklərinin ödənilməsinin növbəliyi haqqında qayda** müəyyən edir (MM-in 440-cı maddəsi). Bu qaydanın mülki (əmlak) dövriyyə iştirakçıları arasında münasibətlərin qaydaya salınmasında əhəmiyyəti böyükdür. Həmin qayda əmlak dövriyyəsində sabitliyi və möhkəmliyi təmin edir. Müəyyən hallarda kreditorun xeyrinə olaraq borcluya müxtəlif öhdəliklərdən irəli gələn bir neçə oxşar icra həvalə edilə bilər. Borclunun icra etməyə borclu olduğu bir neçə pul öhdəliyi yaranır. Lakin icra edilənlər bütün borcların ödənilməsi üçün kifayət etmir. Belə halda pul öhdəlikləri növbəlilik qaydasında icra edilir:

- birincisi, borclunun icra zamanı seçdiyi pul öhdəliyi birinci növbədə icra edilir;
- ikincisi, borclu seçməzsə, ödəniş müddəti birinci çatan pul öhdəliyi birinci növbədə icra edilir;
- üçüncüsü, əgər ödəniş müddətləri eyni vaxtda çatarsa, icrası borclu üçün daha ağır olan pul öhdəliyi birinci növbədə icra edilir;
- dördüncüsü, əgər tələblər eyni dərəcədə ağırdırsa, daha az təmin olunmuş tələb birinci növbədə icra olunur.

Bununla belə, mülki qanunvericilik bir neçə ödəniş üzrə pul öhdəliyi icra edilərkən tərəflərin qarşılıqlı münasibətlərinə aydınlıq gətirir. Belə ki, MM-in 440-cı maddəsinin 4-cü bəndi pul öhdəlikləri üzrə tələblərin icra edilməsi və ödənilməsində növbəlilik qaydası müəyyən edir. Müəyyən hallarda ödəniş müddəti çatmış bütün borclarını ödəmək, pul öhdəliklərini icra etmək üçün borclunun kifayət qədər maddi (əmlak) vəsaiti olmur. Bu halda birinci növbədə məhkəmə xərcləri, ikinci növbədə əsas icra (borc), üçüncü növbədə isə faizlər ödənilir[3].

Pul öhdəlikləri müəyyən hallarda müstəqil olur. Məsələn, borc müqaviləsindən yaranan öhdəlik müstəqil rola və əhəmiyyətə malikdir. Bu sözləri bank əmanəti (depozit), bank hesabı, kredit müqaviləsindən əmələ gələn öhdəliklər haqqında da demək olar. Müstəqil rola malik olan pul öhdəlikləri əsas öhdəlik-

[1] Əmlak dövriyyəsində pul xüsusi rol oynayır (bax: *Лунц Л.А.* Деньги и денежные обязательства в гражданском праве. М., 1999).

[2] Pul öhdəliklərinə biz dərsliyin «Öhdəlik hüququnun anlayışı» adlı fəslinin 3-cü paraqrafında toxunmuşuq. Ona görə də bu öhdəliyi geniş aspektdə nəzərdən keçirməyi lazım bilmirik.

[3] *Medicus D.* Burgerliches Recht. Köln; Berlin; Bonn; München. 1999, s. 184.

[4] *Brox H.* Allgemeines Schuldrecht. München. 1993, s. 68.

[1] HGB. Kommentar / Hrsg. Röhricht, Grab von Westphalen. Köln. 1998, s. 1695.

[2] *Сакаэ Вагацума, Тору Арииздуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 252-256.

[3] Konstitusiya Məhkəməsinin 27 dekabr 2002-ci il tarixli qərarı ilə MM-in 440-cı maddəsinin 4-cü bəndi Azərbaycan Respublikası Konstitusiyasının 12, 13, 29, 60 və 71-ci maddələrinə uyğun olmadığından qüvvədən düşmüşdür («Azərbaycan» qəzeti, 29 dekabr 2002-ci il, № 300).

lər hesab edilir. Pul öhdəlikləri əvəzli (alqı-satqı, daşıma, icarə, podrat, kirayə və s.) müqavilələrdən və ziyan vurmaq nəticəsində əmələ gələn (delikt) öhdəliklərdən də yarana bilər. Belə hallarda isə pul öhdəlikləri müstəqil əhəmiyyətə malik olmur və əlavə öhdəliklər sırasına daxil edilir.

Alternativ öhdəliklərin icra predmeti müəyyən xüsusiyyətlərə malikdir (MM-in 434-cü maddəsi). Bu növ öhdəliklərdə bir yox, bir neçə icra predmeti olur. Həmin predmetlər seçilmək üçün borcluya təklif edilir. Seçmək hüququ borcluya məxsusdur. Onun təklif olunan predmetlərdən birini seçməsi öhdəliyin lazımınca icra olunmasına dəlalət edir. Məsələn, borc müqaviləsi əsasında pul borc alana verilir. Bu müqavilədə tərəflər belə bir razılığa gəlirlər ki, borc alan aldığı borcu ya pul formasında, ya da soyuducu verməklə geri qaytara bilər. Müqavilədə öhdəliyi icra etmək üçün iki predmet (pul və ya soyuducu) təklif olunması nəzərdə tutulur. Sonradan birini seçmək hüququ borc alana məxsusdur. Başqa bir misalda mağaza satıcısı alıcıya eyni keyfiyyətli, müxtəlif rəngli dörd ədəd köynək təqdim edir. Alıcı öz istəyinə uyğun olaraq, həmin köynəklərdən birini seçir.

Seçmək hüququ kreditora da məxsus ola bilər[1]. Bu, qanunda və ya müqavilədə nəzərdə tutula bilər və ya öhdəliyin mahiyyətindən irəli gələ bilər. Məsələn, tərəflər müqavilədə nəzərdə tuta bilərlər ki, icra predmetini seçmək kreditora məxsusdur. Yuxarıdakı misalda borc müqaviləsində öhdəliyin icra predmetini seçmək hüququ kreditora (borc verənə) verilə bilər. Kreditorun öhdəliyi seçmək hüququ öhdəliyin təbiətindən də irəli gələ bilər. Məsələn, lotereyanı udan vətəndaşın (kreditorun) ya prizi, ya da onun pulunu (dəyərini) almaq hüququ vardır. Kreditor icra predmetini borclu tərəfindən təyin edilmiş ağlabatan müddətdə seçməlidir. Əgər o, həmin müddətdə bunu etməzsə, seçmək hüququ borcluya keçir (MM-in 434-cü maddəsinin 1-ci bəndi).

Alternativ öhdəliyin seçilməsi iki vasitə və yolla həyata keçirilir: birincisi, seçim barədə bir tərəfin digər tərəfə məlumat verməsi yolu ilə; ikincisi, icranın faktiki olaraq yerinə yetirilməsi yolu ilə.

Fakultativ öhdəliklərdə yalnız bir icra predmeti olur. Lakin borclu şəxsin ixtiyarı vardır ki, onu əvvəlcədən nəzərdə tutulmuş və müəyyənləşdirilmiş başqa bir predmetlə əvəz etsin. Fakultativ öhdəliklər odur ki, bu öhdəliklərə görə borclu nəzərdə tutulan əşyanı verməli, iş görməli və ya xidmət göstərməlidir, bunları etmək mümkün olmadığı hallarda isə borclunun icra predmetini qabaqcadan müqavilə yolu ilə müəyyənləşdirilmiş predmetlə əvəz etmək hüququ vardır. Məsələn, konsensual bağışlama müqaviləsinə görə, tərəflər razılığa gəlirlər ki, hədiyyə verən öz dostuna (hədiyyə alana) televizor versin və əgər bu, mümkün olmazsa, televizorun dəyəri məbləğində ona pul (və ya başqa bir əşya) hədiyyə versin. Başqa bir misalda kirayə müqaviləsi üzrə tərəflər belə bir qayda nəzərdə tuturlar ki, əgər müqavilənin predmeti olan musiqi aləti xarab olub sıradan çıxarsa, onda kirayəçi onun əvəzini pulla (və ya başqa bir əşya ilə) ödəsin. Bu misalda əsas predmet televizor və musiqi alətidir. Borclu onları əvvəlcədən müəyyənləşdirilmiş başqa bir predmetlə, yəni pulla (və ya başqa bir əşya ilə) əvəz edir. Onun bu cür hərəkəti **birtərəfli əqddir**. Predmetin dəyişdirilməsi qabaqcadan müqavilədə nəzərdə tutulduğuna görə bu cür dəyişməyə və əvəzetməyə kreditorun razılıq verməsi tələb edilmir.

Alternativ öhdəlikdə borclunun icra predmetini seçmək hüququ vardır. Fakultativ öhdəlikdə isə borclu icra predmetini başqa bir predmetlə əvəz etmək hüququna malikdir. Fakultativ öhdəliyin yalnız bir icra predmeti vardır. Həmin predmetin məhv edilməsi öhdəliyin xitam olunmasına səbəb olur. Bu xüsusiyyəti ilə fakultativ öhdəlik alternativ öhdəlikdən fərqlənir.

Öhdəliyin vicdanla (lazımınca) icra prinsipini xarakterizə edən tələblərdən (şərtlərdən) biri **öhdəliklərin icra üsuluna aid olan tələbdir. Öhdəliklərin icra üsulu** dedikdə, öhdəliyin icrası üzrə borclunun müvafiq hərəkətləri yerinə yetirmək qaydası başa düşülür ki, bu cür hərəkətlər onun vəzifəsinin məzmununu təşkil edir. Başqa sözlə desək, öhdəliklərin icra üsulu öhdəliklərin icrası prosesində borclunun müəyyən hərəkətləri həyata keçirmək qaydasıdır ki, bu qayda qanunda və ya müqavilədə nəzərdə tutulur. İcra üsulu icra üzrə hərəkətin həyata keçirilmə qaydasıdır.

İcra üsulları icra predmetindən və ayrı-ayrı öhdəliklərin xüsusiyyətlərindən asılıdır. Ona görə də bu üsullar müqavilə, kreditorun göstərişləri, qanunvericilik və işgüzar dövriyyə adətləri ilə müəyyən edilə bilər və ya öhdəliyin mahiyyətindən irəli gələ bilər. İcra üsulları, əgər qanunvericiliyin, müqavilənin, öhdəliyin mahiyyətinin və ya işgüzar dövriyyə adətlərinin tələblərinə uyğun gələrsə, bunlar lazımi icra üsulları sayılır.

Öhdəliklər müxtəlif üsullarla icra oluna bilər. Bu üsulların dairəsi kifayət qədər genişdir. Həmin üsullara aiddir:

- öhdəliyin predmetini bütöv halında və ya hissə-hissə vermək;
- öhdəliyin predmetini kreditora bilavasitə və ya üçüncü şəxsin vasitəsilə vermək;
- öhdəliyin predmetini nəqliyyat və poçtla göndərmək;
- öhdəliyin predmetini şəxsən kreditora təhvil vermək;
- öhdəliyi birdəfəlik və ya vaxtaşırı həyata keçirən hərəkətlərlə icra etmək;
- öhdəliyi qarşılıqlı icra yolu ilə həyata keçirmək və s.

Öhdəliklərin icra üsullarından biri **öhdəliyin predmetini kreditora bütöv və tam halında verməkdən** ibarətdir. Bu, o halda mümkün olur ki, öhdəliyin predmetini bölmək olmur, yəni öhdəliyin predmeti kimi bölünməz əşyalar (məsələn, minik avtomobili, bir otaqlı mənzil və s.) çıxış edir. Bu cür predmeti olan öhdəliyin özünün mahiyyətindən və ya təbiətindən irəli gəlir ki, onu yalnız tam halında (hissə-hissə yox) icra etmək olar. Məsələn, hamıya məlumdur ki, minik avtomobilini və ya bir otaqlı mənzili satarkən onları hissə-hissə bölmək olmaz. Ümumi qayda belədir ki, öhdəliklər tam halında icra edilir. Bu, həm də onunla izah olunur ki, öhdəliklərin hissə-hissə icra edilməsi kreditor üçün əlverişli olmur. Başqa sözlə desək, öhdəliklərin hissə-hissə icrası kreditor üçün əzab-əziyyətli bir işə çevrilir. Ona görə də kreditor öhdəliyin hissə-hissə icrasını qəbul etməyə də bilər, bir şərtlə ki, qanunda, öhdəliyin şərtlərində ayrı qayda nəzərdə tutulmasın və öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlməsin (MM-in 432-ci maddəsinin 2-ci bəndi).

Bununla bərabər, real həyatda **öhdəliklərin hissə-hissə icrası halları** ilə

[1] Bu qayda Almaniya Mülki Qanunnaməsinin 262-ci paraqrafına uyğundur: alternativ öhdəlikdə bir neçə öhdəlik nəzərdə tutulur. Borclu öz seçimi ilə bu və ya digər öhdəliyi icra edə bilər. İcra kreditor tərəfindən də seçilə bilər.

rastlaşmaq olar. Əgər öhdəliyin özünün mahiyyəti tələb edirsə, onda öhdəlik hissə-hissə icra olunmalıdır. Məsələn, materiallar, xammal və geniş surətdə istifadə olunan istehlak mallarının ayrı-ayrı partiyalarla (hissə-hissə) alıcılara satılması (göndərilməsi) mal göndərmə müqaviləsində nəzərdə tutula bilər. Mal göndərmə müqaviləsində göstərilə bilər ki, xammal hər ay bərabər partiyalarla satıcıdan (mal göndərəndən) alıcıya göndərilsin. Podrat müqaviləsində nəzərdə tutula bilər ki, əsaslı tikintinin texniki cəhətdən mürəkkəb olan obyektləri mərhələ-mərhələ istismara verilsin. Daşınma müqaviləsinə görə, daşıyıcı (nəqliyyat təşkilatı) yükü hissə-hissə təyinat yerinə çatdırır. Öhdəliyin hissə-hissə icrası qanunda da nəzərdə tutula bilər. Belə ki, zərərçəkənin əmək qabiliyyətinin azalması və ya ölümü nəticəsində dəyən zərərin əvəzi aylıq ödənişlər yolu ilə ödənilir (MM-in 1125-ci maddəsi). Öhdəliyin hissə-hissə icrası öhdəliyin özünün mahiyyətindən də irəli gələ bilər. Məsələn, vaxtaşırı nəşrlərə abunə yazılışı və s. Yuxarıda göstərilən bütün hallarda borclu tərəfindən həyata keçirilən hissə-hissə icra öhdəliyin lazımınca icrasına dəlalət edir və kreditor üçün məcburidir. Beləliklə, əgər kreditor razıdırsa, borclu öhdəliyi hissə-hissə icra edə bilər (MM-in 432-ci maddəsinin 1-ci bəndi).

Bəzi hallarda borcluya kreditora bir neçə eyni növlü öhdəlik icra etmək vəzifəsi həvalə edilir. Bu cür məqamlarda elə vəziyyət yaranır ki, bütün öhdəliklərin ödənilməsi üçün borclunun maddi vəsaiti çatmır. Bu halda qanun öhdəliklərin ödənilməsinin növbəliliyi qaydasını müəyyən edir (MM-in 432-ci maddəsinin 3-cü bəndi). Belə ki, birinci növbədə icra zamanı borclunun özünün müəyyənləşdirdiyi və seçdiyi öhdəlik icra edilir. Əgər borclu bunu etməzsə, birinci növbədə ödəniş müddəti çatmış öhdəliklərdən müvafiq olaraq kreditora daha az təminatı olan öhdəlik yerinə yetirilir. Əgər öhdəliklər bərabər təminatlı olarsa, onda birinci növbədə borclu üçün daha ağır olan öhdəlik icra edilir. Əgər öhdəliklər borclu üçün eyni dərəcədə ağır olarsa, belə halda yaranma və əmələ gəlmə müddətinə görə əvvəlki (nisbətən köhnə müddətli) öhdəlik birinci növbədə ödənilir və s. Sonra isə birinci növbədə eynimüddətli öhdəliklərin hamısı ödənilir.

Bəzi məqamlarda borclu əsas öhdəliyin icrasından əlavə, həm də faizlər və xərclər ödəməli olur. Lakin borclunun maddi vəsaiti onların hamısının ödənilməsi üçün kifayət etmir. Belə hallarda da öhdəliyin icrasında növbəlilik qaydası tətbiq edilir. Əvvəlcə xərclər, sonra faizlər, son məqamda isə əsas öhdəlik icra edilir. Bu qayda dispozitiv xarakter daşımır. Belə ki, borclu öz istəyi və seçimi ilə bu barədə başqa variant və qayda müəyyən edə bilməz. Əgər edərsə, bu qayda etibarsız hesab ediləcəkdir (MM-in 432-ci maddəsinin 4-cü bəndi).

Öhdəliklərin icra üsullarından biri onların **qarşılıqlı icra yolu ilə həyata keçirilməsindən** ibarətdir (MM-in 441-ci maddəsi). Buna öhdəliklərin qarşılıqlı icrası deyilir. **Öhdəliklərin qarşılıqlı icrası** odur ki, tərəflərdən birinin öhdəliyi icra etməsi müqaviləyə uyğun olaraq, digər tərəfin öz öhdəliklərini icra etməsilə şərtləndirilir və əlaqələndirilir. Özü də dərhal qeyd etməliyik ki, bu cür icra yalnız müqavilə öhdəliklərinə aiddir. Daha da konkretləşdirsək, öhdəliklərin qarşılıqlı icrası **«do ut oles» (yəni «verirəm ki, sən də verəsən») prinsipinə** əsaslanan ikitərəfli müqavilələrdən əmələ gəlir. Məsələn, alqı-satqı, dəyişmə, podrat, daşıma və s. müqavilələrdən əmələ gələn öhdəliklər, əsasən, qarşılıqlı

icra yolu ilə həyata keçirilir. Elə müqavilələr vardır ki, həmin müqavilələrdən əmələ gələn öhdəliklər bu üsulla icra edilə bilmir. Məsələn, əvəzli, lakin birtərəfli müqavilələrdən (əvəzli borc müqaviləsindən) yaranan öhdəliklərin göstərilən üsulla icra edilməsi istisna olunur. Belə təsəvvür yaranır ki, əvəzli ikitərəfli (qarşılıqlı) müqavilələrdən ikitərəfli (qarşılıqlı) öhdəliklər yaranır. Bu cür öhdəliklərdə hər bir öhdəlik iştirakçısı eyni vaxtda bir-birinə münasibətdə həm borclu, həm də kreditor rolunda çıxış edirlər. Ümumi qaydaya görə, qarşılıqlı (ikitərəfli) öhdəliklər, əgər qanunda və ya müqavilədə ayrı qayda nəzərdə tutulmazsa, eyni vaxtda icra olunur. Bununla bərabər, konkret müqavilədə belə bir qayda nəzərdə tutula bilər ki, öhdəliyi tərəflər eyni vaxtda yox, ardıcıl (bir-birinin ardınca) olaraq icra etsinlər, yəni tərəflərdən birinin öhdəliyi icra etməsi digər tərəfin öz öhdəliyini icra etməsilə şərtləndirilsin (MM-in 441-ci maddəsinin 1-ci bəndi). Bu cür qarşılıqlı müqavilə öhdəlikləri bəzi hallarda **qarşılaşan (müqabil) öhdəliklər** adlanır. Bu keyfiyyəti ilə qarşılaşan (müqabil) öhdəliklər qarşılıqlı (ikitərəfli) öhdəliklərdən fərqlənir[1]. Beləliklə, MM-in 441-ci maddəsinin 1-ci bəndi qarşılaşan (müqabil) öhdəlik adlı öhdəlik növünü nəzərdə tutur.

Qarşılaşan (müqabil) öhdəliklərdə tərəflərdən birinin öhdəliyi (vəzifəsini) icra etməsi digər tərəfin öz öhdəliyini (vəzifəsini) icra etməsinə kimi mümkün olmur. Məsələn, podrat müqaviləsində nəzərdə tutulan şərtə görə, podratçı tikinti işini yerinə yetirmək kimi vəzifəsinin icrasını yalnız o haldan sonra başlaya bilər ki, sifarişçi tərəfindən layihə-smeta (və ya digər sənədlər) sənədlərini verməkdən ibarət olan vəzifə icra edilsin. Başqa bir misalda alqı-satqı müqaviləsində nəzərdə tutulan şərtə görə, satıcı əmlakı alıcıya vermək kimi vəzifəsini yalnız o haldan sonra icra edə bilər ki, alıcı əşyanın pulunu ödəməkdən ibarət olan vəzifəsini icra etsin. Əgər vəzifə həvalə olunmuş tərəf[2] (alıcı, sifarişçi) bu vəzifəni icra etməsə (yəni əşyanın pulunu qabaqcadan ödəməsə, layihə-smeta sənədlərini verməsə), onda kontragent (yəni satıcı, podratçı) mümkün olan iki alternativdən və variantdan birini seçir:

- öz vəzifəsinin (öhdəliyinin) icrasını dayandırmaq (yəni əşyanı alıcıya verməmək, tikinti işinə başlamamaq);
- öhdəliyin icrasından imtina edib (əşyanı alıcıya verməkdən, tikinti işinə başlamaqdan imtina edib) zərərin əvəzinin ödənilməsini tələb etmək (MM-in 441-ci maddəsinin 2-ci bəndi).

Göstərilən iki variantdan birini seçmək hüququnu kontragent başqa halda da əldə edə bilər. Belə ki, vəzifə həvalə olunmuş tərəfin (alıcının, sifarişçinin) ona tapşırılmış vəzifəsini nəzərdə tutulmuş müddətdə açıq-aşkar həyata keçirilməyəcəyinə dəlalət edən əsas yaranır. Məsələn, yuxarıdakı misalda alıcı müflisləşir və ya ona qarşı böyük məbləğdə tələb irəli sürülür. Həmin alternativlərdən birini seçməklə kontragent hüquq pozuntusu törətmir və onun bu hərəkəti (öhdəliyin icrasından birtərəfli imtina etmək və ya onun icrasını birtərəfli dayandırmaq) mülki hüquqi məsuliyyətə səbəb olmur.

Vəzifə həvalə olunmuş tərəf (alıcı, sifarişçi) ona tapşırılmış vəzifəni, yəni şərtləndirilmiş öhdəliyi tam həcmdə icra etməyə bilər. Belə halda da kontra-

[1] «Qarşılıqlı» ifadəsinin rus dilində ekvivalenti kimi «взаимный», «qarşılaşan» ifadəsinin ekvivalenti kimi «встречный» sözü işlədilir.

[2] Qanunverici çox münasib və əlverişli olmayan «mükəlləfiyyətli şəxs» ifadəsini işlədir.

gentə (satıcıya, podratçıya) iki alternativdən birini seçmək hüququ verilir (MM-in 441-ci maddəsinin 3-cü bəndi);

- öz öhdəliyinin (vəzifəsinin) icrasını dayandırmaq;
- həyata keçirilməmiş icraya müvafiq hissədə icradan imtina etmək (qismən icradan imtina etmək, qismən icra etmək).

Sonuncu halda, məsələn, mal göndərmə müqaviləsində alıcıya 100 ədəd soyuducu göndərilməsi nəzərdə tutulmuşdur. Alıcıya soyuducuların əvvəlcədən pulunu ödəmək vəzifəsi həvalə edilir. Alıcı pulun hamısını yox, yalnız yarı hissəsini (50 faizini) ödəyir. Mal göndərən belə halda, ödənişin yarı hissəsinə (50 faizinə) uyğun olaraq, 50 ədəd soyuducu göndərir. Yerdə qalan 50 soyuducunu göndərməkdən imtina edir. Elə hallar olur ki, vəzifə həvalə olunmuş tərəf şərtləndirilmiş öhdəliyi icra etmir. Məsələn, alıcı pulu ödəmir, sifarişçi layihə-smeta sənədlərini vermir və s. Lakin buna baxmayaraq, kontragent (satıcı, podratçı və s.) öhdəliyi lazımınca icra edir (məsələn, satıcı əşyanı alıcıya verir və s.). Belə halda kontragentin ixtiyarı vardır ki, vəzifə həvalə edilmiş tərəfdən (alıcıdan və s.) öhdəliyin icra edilməsini tələb etsin (MM-in 441-ci maddəsinin 4-cü bəndi).

Qarşılaşan (müqabil) öhdəliklər haqqında qayda dispozitiv xarakterə malikdir. Yalnız müqavilədə nəzərdə tutulduqda, müqavilə öhdəliyi qarşılaşan (müqabil) öhdəlik kimi çıxış edə bilər. Əgər müqavilədə tərəflər öhdəliyin qarşılaşan (müqabil) öhdəlik olması barədə şərt müəyyənləşdirməzsə, belə halda qarşılaşan (müqabil) öhdəliyin mövcudluğundan söhbət gedə bilməz.

Öhdəlik **depozitə qoyma üsulu ilə də icra edilə bilər** (MM-in 532-ci maddəsi). Bu üsuldan yalnız iki halda istifadə oluna bilər: birinci halda kreditor öhdəliyin icrasının qəbulunu yubandırır; ikinci halda kreditorun olduğu yer məlum olmur[1]. Bu hallardan biri olduqda, borclu icra predmetini saxlamaq üçün məhkəməyə və ya notariata verir. O, pul və ya qiymətli kağızları isə notariusun depozit hesabına qoyur. Borclu depozitə qoyma barədə dərhal kreditora bildiriş göndərir. Bununla o, öhdəliyi icra etmiş olur.

4. Öhdəliklərin icrası yeri

Öhdəliklərin lazımınca (vicdanla) icrası prinsipini xarakterizə edən şərtlərdən biri **öhdəliklərin icra yeri haqqında tələbdir**. Əgər öhdəlik lazımi yerdə icra edilməmişsə, həmin öhdəlik lazımınca icra edilməmiş sayılır. Bunun nəzərə alaraq, mülki qanunvericilik öhdəliklərinin icrası yerinin müəyyən edilməsi

[1] Depozitə qoyma üsulunu Yaponiya MM-i də tanıyır (494-cü maddə). Yapon qanunvericiliyinə görə, üç şərtdən biri olduqda bu üsuldan istifadə edilir: birincisi, kreditor icranın qəbulundan açıq-aşkar imtina etdikdə; ikincisi, icranın qəbulu mümkün olmadıqda; üçüncüsü, kreditor haqqında borclu dəqiq məlumata malik olmadıqda (*Закаэ Вагацума, Тору Арииндзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 337). Depozitə qoyma üsulu ilə öhdəliyin icra üsulunu Almaniya Mülki Qanunnaməsi də tanıyır (§ 372). Belə ki, borclu şəxs iki halda pulu, qiymətli kağızları və digər sənədləri, qiymətli şeyləri müəyyən dövlət idarəsinə depozitə qoya bilər: birinci halda kreditor öhdəliyin icrasını gecikdirir; ikinci halda kreditorun şəxsiyyəti ilə bağlı elə vəziyyət yaranır ki, bu vəziyyət öhdəliyin icrasını və ya öhdəliyin inamla icrasını qeyri-mümkün edir. Normativ akta uyğun olaraq depozitə qoymanın qaydasını müəyyən edən rəsmi qurum məhkəmə (Amtsgericht) hesab edilir (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 347).

ilə bağlı münasibətə xüsusi diqqət yetirir. Bunun ifadəsidir ki, qanun həmin məsələnin tənzimlənməsinə ayrıca norma həsr etmişdir (MM-in 426-cı maddəsi).

Öhdəliklərin icrası yerinin düzgün müəyyənləşdirilməsinin böyük əhəmiyyəti vardır. Hər şeydən əvvəl, **öhdəliklərə tətbiq edilən qanunun seçilməsi onların icrası yerindən asılı olaraq** müəyyən edilir. İkincisi, öhdəliklərin icrası yeri əmlakın nəzərdə tutulan yerə çatdırılması ilə əlaqədar **çəkilən xərclərin düzgün bölüşdürülməsinə imkan verir**. Üçüncüsü, öhdəliklərin icrası yeri ilə **əmlakın verilməsi və qəbul edilməsi yerini müəyyənləşdirmək mümkün** olur və s. **Öhdəliklərin icrası yeri** dedikdə, elə bir yer başa düşülür ki, bu yerdə borclu əşya verir, iş görür, xidmət göstərir, pul ödəyir, kreditor isə borclu tərəfindən təklif olunan lazımınca icranı qəbul etmək vəzifəsini daşıyır.

Öhdəliklərin icrası yeri qanunla müəyyənləşdirilə bilər. Məsələn, qanun nəzərdə tutur ki, yük daşınması müqaviləsinə görə, yükü yola salan daşıyıcının olduğu yerdə yükü ona verir (MM-in 850-ci maddəsi). Bununla belə, bu, tərəflərin razılığı ilə müqavilədə də nəzərdə tutula bilər. Məsələn, alqı-satqı müqaviləsində tərəflər belə bir şərt nəzərdə tuturlar ki, əşyanın verilməsi üzrə öhdəlik alıcının və ya satıcının olduğu yerdə icra edilsin. Öhdəliklərin icra yerinin müəyyənləşdirilməsi öhdəliyin özünün mahiyyəti ilə şərtlənə bilər. Məsələn, evin təmir edilməsi barəsində podrat müqaviləsindən məlum olur ki, öhdəlik ancaq evin olduğu yerdə icra edilə bilər. Hamıya məlumdur ki, vətəndaş pulu əmanətə ancaq müvafiq bank müəssisəsində qoya bilər. Dəmir yolu vağzalından yola düşmək istəyən sərnişin yükü ancaq həmin vağzalda yerləşən saxlama kameralarında saxlamağa verə bilər. Əgər öhdəliklərin icrası yerini müqavilə əsasında və ya öhdəliyin mahiyyəti ilə müəyyənləşdirmək mümkün olmasa, belə halda bu, qanunla təyin edilir, yəni MM-in 426-cı maddəsində nəzərdə tutulan qayda tətbiq edilir.

Qanun daşınmaz əmlakın verilməsi öhdəliklərinin icrası yeri haqqında ayrıca qayda müəyyən edir. Belə ki, daşınmaz əmlak verilərkən (məsələn, alqı-satqı, icarə, dəyişmə və s. müqavilələr əsasında), yəni əqdin predmeti kimi binalar, torpaq sahəsi, qurğu, ayrıca su obyekti, meşə sahələri və s. çıxış etdiyi hallarda əmələ gələn **öhdəliyin icra yeri daşınmaz əmlakın olduğu yer hesab edilir**. Məsələn, Bakı şəhərində olan yaşayış evinin satılmasından əmələ gələn öhdəliyin icra yeri Bakı şəhəri sayılır.

Daşınar əşyaların verilməsindən əmələ gələn öhdəliklərin icrası yeri haqqında qanun bundan fərqli qayda müəyyən edir[1]. Belə ki, bu cür **öhdəliklərin icrası yeri müqavilənin bağlandığı an daşınar əşyanın olduğu yerlə** təyin edilir. Məsələn, Bakı şəhərində iki vətəndaş Gəncədə olan mebel dəstinin alqı-satqısı barədə müqavilə bağlayırlar. Söz yox ki, belə halda öhdəliyin icrası yeri Gəncə şəhəri sayılır. Ona görə ki, müqavilə bağlandığı an həmin daşınar

[1] Düzdür, MM-də konkret olaraq daşınar əşyaların verilməsi üzrə öhdəlikdən söhbət açılmır. MM yalnız daşınmaz əşyaların verilməsi üzrə öhdəliklərin icrası yeri haqqında qayda nəzərdə tutur. Belə halda məntiqi təfsir üsulu tətbiq edilir. Bu üsula görə, əgər qanunda daşınmaz əşyaların verilməsi üzrə öhdəliklərin icrası yeri haqqında qayda nəzərdə tutulursa, onda daşınar əşyaların verilməsi üzrə öhdəliklərin icrası yeri barədə də, söz yox ki, qayda müəyyənləşdirilməlidir. Ona görə də MM-də göstərilən «müəyyən əşya» ifadəsini «daşınar əşya» kimi başa düşmək lazımdır.

əşya (mebel dəsti) Gəncə şəhərində olmuşdur.

Bütün digər öhdəliklər üçün qanun onların icrası yerinin borclunun yaşayış yeri və ya olduğu yerdən asılı olaraq müəyyən edilməsi haqqında qayda müəyyən edir. Belə ki, borclu fiziki şəxsdirsə, fiziki şəxsin yaşayış yeri, borclu şəxs rolunda hüquqi şəxs çıxış edərsə, öhdəliyin yarandığı vaxt onun olduğu yer həmin öhdəliklərin icrası yeri hesab edilir. Elə hallar da olur ki, borclunun xüsusi mülkiyyətə əsaslanan istehsal müəssisəsi və onun yaşayış yeri eyni coğrafi ərazidə yerləşmir. Məsələn, yaşayış yeri Bakıda olan vətəndaşın rəhbər və başçısı (təsisçisi) olduğu firmanın (istehsal müəssisəsinin) yerləşdiyi (olduğu) yer Quba şəhəridir. Borclunun istehsal müəssisəsində öhdəlik əmələ gələ bilər. Belə hallarda borclunun yaşayış yeri yox, onun müəssisəsinin olduğu yer (sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yer) həmin öhdəliyin icra yeri hesab edilir[1].

Elə hallar olur ki, malların göndərilməsi xərclərini ödəmək borcluya həvalə edilir. Məsələn, iki başqa şəhərdə olan mal göndərən müəssisə ilə firma (alıcı) arasında bağlanan mal göndərmə müqaviləsində belə bir şərt nəzərdə tutulur ki, malların daşınıb aparılması (göndərilməsi) xərclərini firma (alıcı) çəksin. Belə halda firmanın olduğu yer, yəni malların təyinat yeri öhdəliyin icrası yeri hesab edilmir. Göndərilən mallar daşınar əşya olduğuna görə bu kimi məqamlarda daşınar əşyaların verilməsi üzrə öhdəliklərin icrası yeri haqqında qayda tətbiq ediləcəkdir. Belə ki, müqavilə bağlandığı an malların olduğu yer öhdəliyin icrası yeri hesab edilir. Lakin tərəflərin razılığı ilə göndərilən malların təyinat yeri öhdəliyin icrası yeri kimi nəzərdə tutula bilər.

Pul öhdəliklərinin icrası yerinin müəyyən edilməsi müəyyən xüsusiyyətlərə malikdir (MM-in 439-cu maddəsinin 5-ci və 6-cı bəndləri). Bu öhdəliklərin icrası yeri **kreditorun olduğu yerlə** şərtlənir. Belə ki, əgər kreditor fiziki şəxs olarsa, fiziki şəxsin yaşayış yeri, yox, əgər kreditor rolunda hüquqi şəxs çıxış edərsə, hüquqi şəxsin olduğu yer pul öhdəliklərinin icrası yeri sayılır.

Borclu şəxs pul öhdəliyini kreditorun olduğu yerdə yox, onun bank hesabının açıldığı (olduğu) yerdə də icra edə bilər. Belə ki, kreditor ödənişin aparılmalı olduğu yerdə və ya ölkədə bank hesabına malik olur. Əgər kreditor etiraz etməzsə, borclu şəxs pul vəsaitini həmin hesaba köçürməklə pul öhdəliyini icra edir. Belə təsəvvür yaranır ki, bəzi məqamlarda pul öhdəliyinin icrası yeri kreditorun olduğu yer yox, **onun bank hesabının açıldığı yer hesab edilir**.

[1] Almaniya Mülki Qanunnaməsinin 269-cu paraqrafı öhdəliklərin icra yerinin tənzimlənməsinə həsr edilmişdir: əgər icra yeri müəyyənləşdirilməyibsə və ya öhdəliyin özünün mahiyyətindən irəli gəlmirsə, onda öhdəlik ya borclunun yaşayış yerində, ya da sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerdə icra olunur. Almaniya hüquq ədəbiyyatında qeyd edilir ki, bu göstərişi müasir reallıqları nəzərə almaqla tətbiq etmək lazımdır. Öhdəliklərin icra yerinin müəyyənləşdirilməsi nəzərə alınır: müddəti ötürməni təsdiq etmə zamanı; borclunun vəzifəsinin konkretləşdirilməsi zamanı; məhkəmə aidiyyətinin müəyyənləşdirilməsi zamanı; əşyanın təsadüfi tələf olma riski barədə məsələnin həlli zamanı (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 347). Yaponiya qanunvericiliyinə görə (MM-in 484-cü maddəsi), öhdəliklərin icra yeri xüsusi sazişlə və ya adətlə müəyyən edilir. Əgər belə göstəriş olmazsa, fərdi-müəyyən əşyanın verilməsi üzrə öhdəlik əşyanın olduğu yerdə, qalan öhdəliklər isə icra anında kreditorun olduğu yerdə icra edilir (*Сакаэ Вагацума, Тору Арииидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 330).

5. Öhdəliklərin icrası müddəti

Öhdəliklərin vicdanla (lazımınca) icrasını şərtləndirən və ona dəlalət edən əsaslardan biri öhdəliklərin icrası müddətidir. **Öhdəliklərin icrası müddəti** dedikdə, elə bir gün və ya vaxt dövrü başa düşülür ki, həmin gün və ya vaxt dövrü ərzində öhdəlik icra olunmalıdır. Məsələn, podrat müqaviləsində tikilən obyektin sifarişçiyə təhvil verilmə müddəti konkret və dəqiq olaraq göstərilir. Borc müqaviləsi ilə borc verilən pulun geri qaytarılma müddəti müəyyənləşdirilir. Kredit müqaviləsində kreditin üç aydan sonra banka qaytarılması nəzərdə tutulur. Tərəflər razılığa gəlirlər ki, yük naviqasiya mövsümünün açılması (hadisənin baş verməsi ilə) ilə daşınsın. Beləliklə, öhdəliklərin icrası müddəti təqvim tarixi ilə, illər, aylar, həftələr, günlər və s. ilə hesablanan vaxtın bitməsilə, habelə hökmən baş verməli olan hadisənin göstərilməsi kimi üsulla təyin edilir.

Öhdəliklərin **icrası müddəti qanunla müəyyənləşdirilir**. Məsələn, mülki qanunvericilikdə göstərilir ki, bank müştərinin hesabına daxil olmuş pul vəsaitini müvafiq ödəniş sənədinin banka daxil olduğu günün ertəsi günündən gec olmayaraq hesaba salmalıdır (MM-in 959-cu maddəsinin 1-ci bəndi). Qanun öhdəliklərin icrası müddətinin müəyyən edilməsi haqqında ümumi qayda nəzərdə tutur (MM-in 427-429-cu maddələri). Öhdəliklərin **icrası müddəti tərəflərin razılığı ilə müqavilə əsasında da təyin edilə** bilər. Məsələn, bank kredit müqaviləsi əsasında müştəriyə bir illik müddətə kredit verir. Tərəflər daşıma müqaviləsində belə bir şərt nəzərdə tuturlar ki, yük beş ay ərzində daşınıb təyinat yerinə çatdırılsın. Öhdəliklərin icrası müddəti öhdəliyin özünün mahiyyətindən irəli gələ bilər. Məsələn, avtomatlardan istifadə etməklə pərakəndə alqı-satqı müqaviləsi bağlanarkən alıcının malı almaq üçün zəruri hərəkətləri yerinə yetirməsindən dərhal sonra mal alıcıya verilir. Bu cür öhdəlikdə müddət öhdəliyin mahiyyəti ilə şərtlənir.

İcra müddətinə görə, öhdəliklərin iki növü fərqləndirilir: icra müddəti müəyyənləşdirilən öhdəliklər; icra müddəti müəyyənləşdirilməyən öhdəliklər[1]. **İcra müddəti müəyyənləşdirilən öhdəliklər** odur ki, bu cür öhdəliklərdə onun icrası günü və ya icra edilməli olduğu vaxt dövrü nəzərdə tutulur və ya onları müəyyənləşdirmək mümkün olur. Məsələn, qanun müəyyən edir ki, renta müqaviləsinə görə, renta alan ömrü boyu renta ödənişi alır (MM-in 864-cü maddəsi). Göstərilən bu növ öhdəliklər həmin gün və ya bu cür dövr ərzində istənilən an icra edilə bilər. Məsələn, podrat müqaviləsinə görə, podratçı işi nəzərdə tutulan müəyyən ay müddəti ərzində yerinə yetirməyi öhdəsinə götürürsə o, müəyyən edilmiş aylıq müddət çərçivəsində özünün istəyi və mülahizəsi ilə istənilən gün işi görə, yəni öhdəliyi icra edə bilər. Bu, öhdəliyin lazımınca icrasına dəlalət edir.

İcra müddəti müəyyənləşdirilməyən öhdəliklər odur ki, bu cür öhdəliklərdə icra müddəti nəzərdə tutulmur və ya şəraitə görə onu müəyyənləşdirmək mümkün olmur, habelə icra müddəti tələb etmə anı ilə müəyyənləşdirilir. Bu növ öhdəliklərin iki yarımnövü fərqləndirilir: ağlabatan müddətli öhdəliklər;

[1] Almaniya hüquq doktrinasında öhdəliyin icrasının iki növ müddəti fərqləndirilir: kreditor üçün müddət (bu müddət ərzində o, öhdəliyin icrasını tələb edə bilər); borclu üçün müddət (bu müddət ərzində o, icranın qəbul olunmasını tələb edə bilər).

tələb etmə anı ilə müəyyənləşdirilən öhdəliklər.

Ağlabatan müddətli öhdəliklər odur ki, bu öhdəliklərin dərhal icrasını kreditor tələb edə bilər, borclu şəxs isə onu ağlabatan müddətdə icra etmək vəzifəsini daşıyır[1]. Ağlabatan müddət müəyyən edilərkən öhdəliyin predmeti, onun icra şərti, kreditorla olan məsafə, nəqliyyatın növü, öhdəliyin mahiyyəti və s. amillər nəzərə alınır. **Ağlabatan müddət** dedikdə, öhdəliyin icrası üçün obyektiv cəhətdən zəruri və mümkün olan normal müddət başa düşülür. Bu müddət, adətən, öhdəlikdə nəzərdə tutulan hərəkətləri yerinə yetirmək üçün lazımdır və onları həyata keçirməyə kifayət edir. Borclu ağlabatan müddətdə öhdəliyi icra etməyə bilər. Belə halda onun borcu və vəzifəsidir ki, öhdəliyi yeddi gün müddətində icra etsin. Yeddi gün müddəti kreditorun icra tələbini irəli sürdüyü gündən hesablanır. Məsələn, borc müqaviləsində müddət göstərilmir. Borc verən tələb edir ki, borc alan onu qaytarsın. Borc alan şəxs ağlabatan müddətdə borcu qaytarmalıdır. Əgər bunu etməzsə, o, borc verənin icra tələbini irəli sürdüyü gündən yeddi gün müddətində borcu qaytarmalıdır.

Tələbetmə anı ilə müəyyənləşdirilən öhdəliklər odur ki, bu öhdəliklərin icra müddəti kreditorun tələbi ilə şərtlənir. Həmin öhdəlikləri borclu kreditorun icra tələbini irəli sürdüyü gündən yeddi gün müddətində icra etməlidir, bir şərtlə ki, qanundan, öhdəliyin şərtlərindən, işgüzar adətlərdən və ya öhdəliyin mahiyyətindən icranı başqa müddətdə həyata keçirmək vəzifəsi irəli gəlməsin (MM-in 427-ci maddəsinin 4-cü bəndi). Məsələn, qanun tələbli əmanət müqaviləsini nəzərdə tutur (MM-in 947-ci maddəsinin 1-ci bəndi). Bu öhdəliyin icra müddəti əmanətçinin tələb etmə anı ilə müəyyən edilir. Bank əmanətçinin əmanəti geri qaytarmaq barədə tələbini həmin tələbin irəli sürüldüyü gündən yeddi gün müddətində icra etmir. Ona görə ki, bununla bağlı qanun başqa müddət müəyyən edir. Belə halda bank (borclu) əmanəti əmanətçinin ilk tələbi üzrə verir.

Öhdəliyin **icrası müddəti hər hansı şərtin baş verməsindən asılı ola bilər**. Məsələn, şərti əqdlərdən əmələ gələn öhdəliklərin icra müddəti nəzərdə tutulan şərtlə bağlıdır. Ata onun itmiş uşağını tapan şəxsə xüsusi mükafat vermək barədə televiziyada və yerli mətbuatda elan verir. Atanın hərəkəti birtərəfli şərti əqddir. Uşağı hər hansı bir vətəndaş tapır və bununla öhdəlik yaranır. Bu öhdəlikdə ata borclu, uşağı tapan vətəndaş isə kreditordur. Həmin öhdəliyə görə, ata vətəndaşa xüsusi mükafat verməlidir. Deməli, belə halda öhdəlik uşaq tapıldığı andan, yəni şərtin baş verdiyi gündən icra edilməlidir (MM-in 427-ci maddəsinin 5-ci bəndi).

Bir qayda olaraq, öhdəliklər qanunda və ya müqavilədə nəzərdə tutulduğu müddətlərdə icra edilir. Bununla belə, qanun **öhdəliklərin vaxtından əvvəl icrasına** yol verir (MM-in 428-ci maddəsi). Öhdəliyin vaxtından əvvəl icrası borclunun vəzifəsi yox, hüququdur. Borclunun öhdəliyi vaxtından əvvəl icra etməsi kreditorun istəyi və mülahizəsi ilə şərtlənir. Belə ki, kreditor icranı qəbul etməyə də bilər. Bunu kreditor yalnız o halda edə bilər ki, onun icranın qəbulundan imtina etməsi üzrlü səbəblə bağlı olsun. Əlində tutarlı əsas və dəlil olmazsa, kreditor icranın qəbulundan imtina etməyə haqlı deyildir.

Elə öhdəliklər vardır ki, onları borclu şəxs vaxtından əvvəl icra edə bilməz. Bu, öhdəliyin özünün mahiyyətindən irəli gəlir. Məsələn, evin təmiri ilə bağlı ev avadanlığını və məişət predmetlərini vətəndaş saxlanca verir. Hamıya məlumdur ki, evin təmiri qurtarana kimi saxlayıcı həmin şeyləri vətəndaşa qaytara bilməz.

Tərəflərin sahibkarlıq fəaliyyəti (yükün daşınması, kredit verilməsi və s.) ilə bağlı olan öhdəlikləri, yəni sahibkarlıq öhdəliklərini borclu vaxtından əvvəl icra edə bilməz. Bu, onunla izah edilir ki, sahibkarlıq risqə əsaslanan müstəqil təşəbbüskarlıq fəaliyyətidir. Borclunun öhdəliyi vaxtından əvvəl icra etməsi və icranın qəbulu kreditoru pis vəziyyətə sala bilər. Axı, elə vəziyyət yarana bilər ki, kreditorun anbarı, malları saxlamaq üçün lazımi yerləri olmasın və anbarı, yük daşımaq üçün nəqliyyat vasitəsini icarəyə götürməsin və s. Malların vaxtından əvvəl qaytarılması həmişə kreditor üçün sərfəli olmur. Bütün bu hallar kreditora zərər vura bilər. Bununla belə, qanunda, öhdəlik şərtlərində və s. nəzərdə tutulduqda, borclu sahibkarlıq fəaliyyəti ilə bağlı öhdəliyi vaxtından əvvəl icra edə bilər.

Bir məsələyə də toxunmağı lazım bilirik. Sual olunur: icra müddəti müəyyənləşdirilən öhdəliklərin icrasını kreditor müddət çatanadək vaxtından əvvəl tələb edə bilərmi? Mülki qanunvericilik bu suala konkret formada cavab verir: kreditor müddət çatanadək bu cür öhdəliyin icrasını tələb edə bilməz (MM-in 427-ci maddəsinin 1-ci bəndi). Məsələn, podrat müqaviləsində evin tikilib sifarişçiyə təhvil verilməsi üçün bir illik müddət nəzərdə tutulur. Sifarişçinin (kreditorun) ixtiyarı yoxdur ki, bir illik müddət çatanadək vaxtından əvvəl evin təhvil verilməsini tələb etsin. Amma bundan fərqli olaraq, borclu öhdəliyi vaxtından əvvəl icra edə bilər (MM-in 427-ci maddəsinin 1-ci bəndi)[1].

Nəzərdə tutulmuş müddətdə öhdəliklər icra edilmədikdə, bu, hüquq pozuntusunun əmələ gəlməsinə səbəb olur. Bu, öhdəliklərin pozulmasına dəlalət edir. Göstərilən pozuntu **müddəti ötürmə və ya gecikdirmə** adlanır. Buna görə borclu mülki-hüquqi məsuliyyət daşıyır.

[1] Bu, Almaniya Mülki Qanunnaməsinin 271-ci paraqrafında ifadə edilən göstərişə uyğun gəlir: əgər öhdəliyin icra müddəti müəyyənləşdirilməyibsə, kreditor onun dərhal icrasını tələb edə bilər, borclu isə həmin tələbi yerinə yetirməlidir (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 348). Yaponiya MM-i isə öhdəliklərin icrası müddəti barədə düzünə göstəriş ifadə etmir (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 330).

[1] Göstərilən qaydalar Almaniya Mülki Qanunnaməsinin 271-ci paraqrafında ifadə olunan hüquqi göstərişə uyğundur: əgər öhdəliyin icrası müddəti təyin edilibsə, kreditor müddət çatanadək onun icrasını tələb edə bilməz, amma borclu onu vaxtından əvvəl icra edə bilər (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 346). Yaponiya qanunvericiliyinə görə də öhdəliyin vaxtından əvvəl icrasına yol verilir. Bu barədə MM-in 136-cı maddəsində göstəriş vardır (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 330).

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Отнюкова Г. Исполнение обязательств // Российская юстиция. 1996. № 3, 4.

Витрянский В. Понятие и стороны обязательства. Исполнение обязательств // Хозяйство и право. 1995. №8.

Маковский А.П. Общие правила об обязательствах в Гражданском кодексе // Вестник ВАС. 1995. №9.

Толстой В.С. Исполнение обязательств. М., 1973.

Юртаева М. Изменение скоров исполнения обязательств // Советская юстиция. М., 1978. №6.

Гражданское право. Учебник. Часть1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого**. М., 1998 (гл. 26).

Гражданское право. Учебник. Том 2 Полутом 1/ Под ред. **Е.А.Суханова**. М., 1999 (гл. 29, §1).

Гражданское право. Учебник. Часть1 / Под ред. **А.Г.Калпина** и **А.И.Масляева**. М., 1997 (гл. 23).

Гражданское право. Учебник. Часть1 / Под ред. **З.И.Цыбуленко**. М., 1998 (гл. 22).

Гражданское право. Учебник. Часть1 / Под ред. **Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой**. М., 1998 (гл. 19).

Гражданское право. Учебник / Под ред. **С.П.Гришаева**. М., 1999 (гл. 9, §3).

А.Жалинский, А.Рёрихт. Введение в немецкое право. М., 2001.

Brox H. Allgemeines Schuldrecht. München. 1993.

Westermann H.P., Bydlinski P. BGB – Schuldrecht. Allgemeiner Teil. Heidelberg, 1999.

Klünzinger E. Einführung in das bürgerliche Recht. München. 1993.

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983.

XXIX FƏSİL
ÖHDƏLİKLƏRİN İCRASININ TƏMİN EDİLMƏSİ

§ 1. Öhdəliklərin icrasının təmin edilməsinin anlayışı, mahiyyəti, əhəmiyyəti, üsulları və sistemi

1. Öhdəliklərin icrasının təmin edilməsinin anlayışı və əhəmiyyəti

İqtisadiyyatın, iqtisadi (əmlak) dövriyyə münasibətlərinin və əmtəə mübadiləsinin normal fəaliyyət göstərməsi üçün zəruridir ki, öhdəliklər vicdanla (lazımınca) icra edilsin. Müqavilə və digər öhdəliklərin yerinə yetirilməməsi, lazımınca icra olunmaması və bununla mülki hüquq pozuntusuna yol verilməsi nəinki bazar əmtəə-pul münasibətlərinin, habelə bütövlükdə iqtisadiyyatın inkişafına mənfi təsir göstərir. Əksinə öhdəliklərin lazımınca icra edilməsi istehsalın sabitliyinə, iqtisadi (əmlak) dövriyyənin möhkəmliyinə və əmtəələrin, yəni məhsulların (malların, işlərin, xidmətlərin) realizə edilməsinə, onların istehlakçılara çatdırılmasına dəlalət edir.

Bunu, yəni iqtisadi (əmlak) dövriyyədə sabitlik və dayanıqlığın öhdəliklərin lazımınca icra edilməsindən birbaşa asılı olmasını nəzərə alaraq, **dövlət özünün məcburetmə qüvvəsi ilə** (ya məsuliyyət tədbiri, ya da müdafiə tədbiri kimi formalarda) öhdəliklərin lazımınca icra olunmasını təmin edir. Hər şeydən əvvəl, dövlət iradəsinin ifadəsi olan qanun iqtisadi dövriyyə iştirakçılarına, əmtəə-pul mübadiləsi subyektlərinə tətbiq edilən **əmlak xarakterli təsir tədbirlərini** (zərərin əvəzini ödəmə) nəzərdə tutur. Məcburi – təminat xarakteri daşıyan həmin tədbirlər **ümumi tədbirlər** adlanır. Bu tədbirlərə görə, borclu öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi nəticəsində vurulmuş zərərin əvəzini ödəməlidir. Qanun göstərir ki, öhdəliyini icra etməyən borclu kreditora dəymiş zərərin əvəzini ödəməyə borcludur (MM-in 443-cü maddəsinin 1-ci bəndi). Bununla bərabər, ümumi tədbirlərə görə öhdəliyi lazımınca yerinə yetirmədiyi halda borclu onu naturada icra etməlidir (MM-in 450-ci maddəsi).

Qeyd etmək lazımdır ki, ümumi xarakter daşımasına baxmayaraq, bu tədbirlər əksər hallarda realizə olunmur və həyata keçirilmir. Bu, onunla izah edilir ki, bəzi məqamlarda kreditora zərər vurulur və ya vurulan zərərin konkret və dəqiq həcmini müəyyənləşdirmək mümkün olmur və bu, çox mürəkkəb bir işə çevrilir, ya da öhdəliyin icra edilməməsi faktı ilə zərərli nəticə arasında səbəbli əlaqəni sübuta yetirmək qəlizləşir. Elə hallar da yaranır ki, borclunun əmlakı olmadığına görə zərərin əvəzinin ödənilməsi barədə məhkəmə qərarının praktiki olaraq həyata keçirilməsi çox müşkül bir məsələyə çevrilir. Bundan əlavə, həmişə borclu şəxsi ona həvalə edilmiş vəzifənin icrasına məcbur etmək mümkün olmur. Başqa sözlə desək, dövlətin məcbur etmə qüvvəsini ifadə edən həmin ümumi tədbirlər kreditorların əmlak mənafeyinin müdafiə olunmasında hərtərəfli, münasib, effektiv və əlverişli hüquqi vasitə kimi çıxış edə bilmir. O, borclunun lazımi qaydada davranması üçün yetərli deyildir. Belə vəziyyət öhdəliklərin icrasına zəmanət vermək üçün, habelə onların lazımınca

icrasına təkan vermək məqsədilə mülki-hüquqi tənzimetmə mexanizmində yeni əlavə təminat tədbirlərinin yaradılmasını tələb edir və şərtləndirir. Bu məqsədlə qanun mülki qanunvericiliyə ümumi xarakterə malik olmayan **xüsusi təminat tədbirləri** daxil edir ki, bu tədbirlər öhdəliklərin icrasının təmin edilməsi üsulları adlı konstruksiya ilə əhatə olunur. Həmin konstruksiya elə bir hüquqi vasitədir ki, bu vasitə borclunun tələb yönələ bilən əmlakı olub-olmamasından və kreditora zərər vurulub-vurulmamasından asılı olmayaraq, onu lazımınca davranmağa məcbur edir. Bu konstruksiyanı tənzimləyən mülki hüquq normaları öhdəliklərin icrasının təmin edilməsi kimi xüsusi institutda birləşir. MM həmin konstruksiyanı nizama salmaq üçün ayrıca fəsil (XXIV fəsil, 460-492-ci maddələr) nəzərdə tutur.

Öhdəliklərin icrasının təmin edilməsi üsulları, hər şeydən əvvəl, **qanunvericiliklə müəyyən edilir**. Məsələn, qanun mal göndərmə müqaviləsi üzrə malların tam göndərilməməsi və ya göndərilməsinin gecikdirilməsi üçün dəbbə pulu (öhdəliklərin icrasının təmin edilməsi üsullarından biri) alınmasını nəzərdə tutur (MM-in 642-ci maddəsi). Qanunda ifadə edilən başqa bir göstərişə görə, torpaq sahəsi və ya digər daşınmaz əşya renta ödənilməsi üçün verildikdə (belə halda renta müqaviləsi bağlanır), renta ödəyicisi tərəfindən öhdəliyin lazımınca icra olunmasından ötrü renta alan həmin əşyaya ipoteka hüququ (həmin üsullardan biri) əldə edir, yəni həmin əşya renta alan şəxsdə ipoteka qoyulmuş hesab edilir (MM-in 869-cu maddəsinin 1-ci bəndi). Öhdəliklərin icrasının təmin edilməsi üsulları **tərəflərin razılığı ilə müqavilə əsasında da müəyyənləşdirilə bilər**. Məsələn, vətəndaş bağ evi tikintisi üçün bankdan kredit alır. Həmin kreditin qaytarılmasından ötrü, yəni öhdəliyi icra etmək üçün üçüncü şəxs (məsələn, vətəndaşın səxavətli qohumlarından biri) məsuliyyəti öz üzərinə götürür – zamin durur. Bu məqsədlə qohum və bank arasında zaminlik (həmin üsullardan biri) müqaviləsi bağlanır (MM-in 470-ci maddəsinin 1-ci bəndi). Başqa bir misalda vətəndaş qonşudan borc pul alır və borcu qaytarmaq (öhdəliyi icra etmək) üçün əmlakını girov qoyur. Bu niyyətlə girov müqaviləsi bağlanır.

Beləliklə, **öhdəliklərin icrasının təmin edilməsi üsulları dedikdə, qanunda və ya müqavilədə nəzərdə tutulan əmlak xarakterli elə xüsusi tədbirlər başa düşülür ki, bu tədbirlər öhdəliyin icrasını kifayət qədər təmin edir, borclunun lazımınca davranmasına (hərəkət etməsinə və ya hərəkətdən çəkinməsinə) təkan verir**. Bu üsullardan istifadə olunmaqla borclu tərəfindən öhdəliklərin icra edilməməsi və ya lazımınca icra edilməməsi nəticəsində əmələ gələ bilən mümkün mənfi nəticələrin həcmi ya azaldılır, ya da bu cür nəticələrin yarana bilməsinin qarşısı alınır. Onlar **öhdəliklərin icrasının əlavə təminat vasitələri** adlanır.

Öhdəliklərin icrasının təmin edilməsi üsulları konstruksiyasının tarixi çox qədim zamanlara gedib çıxır. Bu konstruksiya ilə əhatə olunan ənənəvi üsulların çoxu (girov, beh, dəbbə pulu, zaminlik) hələ Roma xüsusi hüququna məlum idi[1]. Öhdəliklərin icrasının təmin edilməsi üsulları institutu, demək olar ki, əksər xarici milli hüquq sistemlərində nəzərdə tutulmuşdur[1].

[1] *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 295-301 (перевод с македонского); Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 335-348.

2. Öhdəliklərin icrasının təmin edilməsi üsullarının məqsədi, funksiyaları, xüsusiyyətləri və əhəmiyyəti

Hər bir hüquqi konstruksiya kimi öhdəliklərin icrasının təmin edilməsi üsulları institutu da müəyyən təyinata malikdir. O, müəyyən məqsəd güdür. **Öhdəliklərin icrasının təmin edilməsi üsullarının əsas məqsədi** bu üsulların yaranmasına dəlalət edən öhdəliyin (yəni əsas öhdəliyin) lazımınca icrasına köməklik göstərməkdən, bu icranı təmin etməkdən və ona zəmanət verməkdən ibarətdir. Lakin bu məqsədə nail olunmasının vasitələri müxtəlifdir. Bəzi hallarda dəbbə pulu (cərimə, penya) ödəməkdən yaxa qurtarmaq istəyi borclu şəxsi öhdəliyi lazımınca icra etməyə təşviq edir. Digər hallarda öz əmlakını itirmək qorxusu (girov, saxlama kimi üsullar tətbiq edildiyi məqamlarda) borclunu vadar edir ki, o, lazımi qaydada davransın. Beləliklə, göstərilən üsullar öhdəlik icra olunmadığı və ya lazımınca icra olunmadığı hallarda borclu üçün arzuolunmaz və mənfi nəticələr yaranacağı qorxusu altında onu öhdəliyi lazımınca icra etməyə meyilləndirir və təşviq edir.

Öhdəliklərin icrasının təmin edilməsi üsulları **müəyyən funksiya** yerinə yetirir. Bu üsulların ən **əsas və başlıca funksiyası stimullaşdırmaqdan**, yəni **təkan verməkdən (meyil yaratmaqdan)** ibarətdir. Həmin funksiyanın əsas mahiyyəti bundan ibarətdir ki, onun nəticəsində öhdəliyi icra etməkdən ötrü borclu şəxs lazımınca davranmağa təşviq edilir. Başqa sözlə desək, həmin üsullar öhdəliyi lazımi qaydada icra etməkdən ötrü borcluya təkan verir, onda həvəs və meyil yaradır. Məsələn, vətəndaş qonşusundan televizor almaq məqsədilə alqı-satqı müqaviləsi bağlayır, beh kimi ona müəyyən məbləğdə pul verir. Nəzərdə tutulur ki, müqavilə bir həftədən sonra icra edilsin, yəni televizor qonşudan vətəndaşa verilsin. Əgər vətəndaş bir həftədən sonra televizoru qonşudan götürməsə (yəni öhdəliyi icra etməsə), beh kimi verdiyi pul məbləği ona qaytarılmır. Bax, bu məbləği itirmək qorxusu vətəndaşı (borclu şəxsi) televizoru vaxtında götürməyə meyilləndirir, yəni öhdəliyi lazımınca icra etməyə təkan verir. Təkan vermək funksiyası **təminat funksiyası** da adlanır.

Bununla bərabər, bəzi hallarda təkan vermək (meyil yaratmaq) funksiyasından başqa, təminat üsulları **digər funksiyalar (ödəniş, sübut etmə və s. funksiyaları)** da yerinə yetirir. Məsələn, təminat üsullarından biri olan beh təminat funksiyasından əlavə, sübut etmə funksiyasını da yerinə yetirir. Yuxarıdakı misalda vətəndaşın qonşuya verdiyi beh onlar arasında alqı-satqı müqaviləsinin bağlanması faktını sübut edir və təsdiqləyir.

Təminat üsulları bir sıra xüsusiyyətlərə malikdir. Bu üsulların ən **birinci xüsusiyyəti** ondan ibarətdir ki, **onlar əmlak xarakterlidir**. Təminat üsullarının

[1] RF MM-in 23-cü fəslinə daxil olan normalar (329-381-ci maddələr) öhdəliklərin icra edilməsinin üsullarına həsr edilmişdir. Bir çox əcnəbi ölkələrin qanunvericiliyində nəzərdə tutulan bu institutun əsas cəhətləri ilə tanış olmaq üçün bax: Гражданское и торговое право капиталистических государств. Учебное пособие / Под ред. *Е.А.Васильева*. М., 1993; Гражданское и торговое право капиталистических государств. Учебник / Под ред. *К.К.Яичкова*. М., 1966; Гражданское и торговое право. Учебное пособие / Под ред. *В.П.Мозолина, М.И.Кулагина*. М., 1980.

əmlak xarakteri daşıması dörd müxtəlif formada təzahür edir:

- birinci forma öhdəliyi icra etməyən və ya lazımınca icra etməyən borclunun müəyyən pul məbləği ödəməsində ifadə olunan **əlavə əmlak itkisinə** məruz qalmasını nəzərdə tutur (beh, dəbbə pulu);
- ikinci forma borclu tərəfindən öhdəlik icra edilmədiyi hallarda onun **əmlakına tələb yönəldilməsini** nəzərdə tutur (girov);
- üçüncü forma borclu öhdəliyi icra etmədiyi və ya lazımınca icra etmədiyi hallarda **üçüncü şəxsin əmlakına tələb yönəldilməsini nəzərdə tutur** (qarantiya, zaminlik);
- dördüncü forma özünümüdafiə hüququnu həyata keçirmək üçün kreditorun borclunun əmlakını **müvafiq öhdəlik icra edilənədək saxlamaq ixtiyarına** malik olmasını nəzərdə tutur (saxlama).

Təminat üsullarının hamısı həm kreditora, həm də borclu şəxsə əmlak xarakterli təsir göstərir. Yuxarıda göstərilən formalar kreditora onun əmlak mənafeyinin müdafiəsini təmin edən əlavə hüquqlar verilməsini, borclu şəxsin isə əmlak itkisi kimi əlavə yük daşımasını nəzərdə tutur. Bu vəziyyət borclu şəxsi öz vəzifəsini lazımınca icra etməyə meyilləndirir.

Təminat üsullarının **ikinci xüsusiyyəti** ondan ibarətdir ki, bu üsulların hamısı **öhdəlik hüquq xarakterinə malikdir**. Həmin üsulların tətbiq edilməsi nəticəsində öhdəlik hüquq münasibəti (öhdəlik) yaranır. Bu öhdəliyin kreditoru qismində əsas öhdəliyin kreditoru çıxış edir. Təminat üsullarının yaranmasına dəlalət edən və səbəb olan öhdəlik **əsas öhdəlik** adlanır. Məhz əsas öhdəliyi icra etmək məqsədilə həmin təminat üsulları yaranır. Bu üsullarla bağlı yaranan öhdəlikdə borclu şəxs rolunda isə öhdəliyi təmin edən şəxs (çox vaxt əsas öhdəlikdəki borclu) çıxış edir. Məsələn, kənd sakini sahibkardan borc pul alır və bu məqsədlə borc müqaviləsi bağlanır. Bu müqavilədən əmələ gələn öhdəlik əsas öhdəlik hesab olunur. Borcu qaytarmaq öhdəliyini lazımınca icra etmək üçün üçüncü şəxs zamin durur və bu halda onunla borc verən (sahibkar) arasında zaminlik müqaviləsi bağlanır. Həmin müqavilədən, yəni zaminlik kimi təminat üsulunun tətbiq edilməsi nəticəsində zaminlik hüquq münasibəti əmələ gəlir. Bu münasibətdə kreditor kimi əsas öhdəliyin kreditoru (borc verən sahibkar), borclu şəxs rolunda isə öhdəliyi təmin edən şəxs (zamin duran üçüncü şəxs) çıxış edir. Başqa bir misalda vətəndaş bankdan kredit alır (əsas öhdəlik). Kreditin qaytarılmasını təmin etmək üçün vətəndaş öz zinət əşyalarını banka girov qoyur (girov öhdəliyi). Göründüyü kimi, təminat üsullarından biri olan girovun tətbiq edilməsi nəticəsində girov hüquq münasibəti (girov öhdəliyi) yaranır. Bu öhdəlikdə kreditor rolunda əsas öhdəliyin kreditoru (bank), öhdəliyi təmin edən şəxs rolunda isə kredit alan vətəndaş (əsas öhdəlikdəki borclu şəxs) çıxış edir.

Təminat üsullarının tətbiq edilməsi ilə əlaqədar əmələ gələn münasibətlərin dairəsi kifayət qədər genişdir: dəbbə pulu alınması ilə bağlı yaranan hüquq münasibətləri (öhdəliklər); ipoteka hüquq münasibətləri; girov hüquq münasibətləri (girov öhdəlikləri); beh hüquq münasibətləri (beh öhdəlikləri); zaminlik hüquq münasibətləri (zaminlik öhdəlikləri); qarantiya hüquq münasibətləri (qarantiya öhdəlikləri); saxlama hüquq münasibətləri (saxlama öhdəlikləri).

Təminat üsullarının **üçüncü xüsusiyyəti** ondan ibarətdir ki, bu üsulların

tətbiqi nəticəsində əmələ gələn **öhdəliklər aksessor (əlavə) öhdəliklərdir**; onlar müstəqil iqtisadi məqsəd güdmür. Məsələn, tərəflər alqı-satqı müqaviləsi bağlayırlar. Bu, əsas öhdəlikdir. Onlar alqı-satqı öhdəliyini, yəni əsas öhdəliyi lazımınca icra etmək üçün icranın gecikdirildiyi halda dəbbə pulu alınması barədə razılığa gəlirlər və bu barədə saziş bağlayırlar. Dəbbə pulu haqqında saziş əlavə öhdəlikdir. **Əlavə öhdəliyin taleyi və müqəddəratı əsas öhdəlikdən asılıdır**. Ona görə də əlavə öhdəlik əsas öhdəlikdən törəmədir, ondan asılıdır və müstəqil əhəmiyyətə malik deyildir. O, **təmin edən öhdəlik** adlanır.

Təmin edən öhdəliyin əlavə xarakter daşıması onda təzahür edir ki, bu öhdəlik faktiki cəhətdən mövcud olan, yəni xitam olunmayan öhdəliyi təmin edir. Bundan əlavə, təmin edən öhdəliyin əlavə xarakterə malik olması həm də onda təzahür edir ki, əsas öhdəliyin etibarsızlığı onu təmin edən öhdəliyin etibarsızlığına səbəb olur (MM-in 460-cı maddəsinin 3-cü bəndi). Təminat üsullarından biri olan qarantiya bu ümumi qaydadan istisnaya yol verilməsini şərtləndirir. Qarantiya əsas öhdəlikdən asılı deyildir (MM-in 480-ci maddəsi).

Əlavə öhdəliyin etibarsızlığı əsas öhdəliyin hüquqi taleyinə və müqəddəratına təsir göstərmir. Belə ki, öhdəliyin icrasının təmin edilməsi barədə razılaşmanın etibarsızlığı əsas öhdəliyin etibarsızlığına səbəb olmur (MM-in 460-cı maddəsinin 2-ci bəndi). Belə halda əsas öhdəlik öz hüquqi qüvvəsini saxlayır, lakin təmin edən öhdəlikdən məhrum olur.

Əsas öhdəlik üzrə kreditorun tələb hüququ başqa şəxsə güzəşt edilə bilər. Bu halda öhdəliyin icrasını təmin edən hüquqlar (girov hüququ, beh, zaminlik və s.) yeni kreditora keçir (MM-in 196-cı maddəsi). Belə təsəvvür yaranır ki, **tələblərin güzəşti formasında əsas öhdəlikdə şəxslərin dəyişməsi təmin edən öhdəliyin hüquqi taleyinə təsir göstərmir, yəni onun ləğvinə səbəb olmur**. Bu halda təmin edən öhdəliyin mahiyyəti dəyişmir. Məsələn, hər hansı bir şəxs tanışına borc pul verir; belə halda borc öhdəliyi yaranır. Üçüncü şəxs borcun qaytarılması üçün zamin durur və buna görə onunla borc verən arasında zaminlik müqaviləsi bağlanır (zaminlik öhdəliyi). Borc verən borcun qaytarılmasını tələb etmək hüququnu öz qonşusuna güzəşt edir, yəni ona verir. Bu zaman yeni kreditora (qonşuya) zaminliklə bağlı hüquq da keçir. Buna görə də borc alan borcu yeni kreditora (qonşuya) qaytarmadıqda yeni kreditor zaminə tələb irəli sürə bilər ki, o, borcu qaytarsın. Odur ki, belə halda zaminlik öz qüvvəsini saxlayır, ləğv olunmur.

Təminat üsullarının **dördüncü xüsusiyyəti** ondan ibarətdir ki, **bu üsulların hamısı borclu üçün birbaşa və ya dolayı yolla əlavə yük yaradır**. Məsələn, kreditor (məsələn, borcluya kredit vermiş bank) girov qoyulmuş əmlakın hesabına borcluya olan tələbini təmin edə bilər.

Öhdəliklərin icrasının təmin edilməsi üsulları institutunun əhəmiyyəti böyükdür. Kreditorun mənafeyinin təmin edilməsinə xidmət edən həmin üsullar iqtisadiyyatın normal fəaliyyət göstərməsində, istehsalda sabitliyin bərqərar olunmasında, əmtəələrin (məhsulların) realizə edilməsində, iqtisadi (əmlak) dövriyyədə möhkəmliyin və dayanıqlığın yaradılmasında böyük rola malikdir.

3. Öhdəliklərin icrasının təmin edilməsi üsullarının sistemi

Qüvvədə olan mülki qanunvericilik öhdəliklərin icrasının təmin edilməsi

üsullarının dairəsini müəyyən edir (MM-in 460-cı maddəsinin 1-ci bəndi). Bu üsulların dairəsi kifayət qədər geniş və əhatəlidir. Özü də müasir qanunvericilik təminat üsullarının siyahısını xeyli dərəcədə genişləndirmişdir. Belə ki, **indiki qanunvericilik bu siyahıya qarantiya və borclunun əmlakının saxlanması kimi yeni üsullar da** əlavə edir. 1964-cü il MM-i bu cür üsullar nəzərdə tutmamışdı. Təminat üsullarının siyahısına daxildir:

- dəbbə pulu;
- borclunun əmlakının saxlanması;
- zaminlik;
- qarantiya;
- beh;
- girov;
- ipoteka;
- qanunda və ya müqavilədə nəzərdə tutulan digər üsullar.

Təminat üsullarını nəzərdə tutan bu siyahının mühüm xüsusiyyəti ondan ibarətdir ki, o, **qəti və dəqiq yox, nümunəvi və təxmini xarakter daşıyır**. Bu cəhəti ilə həmin siyahı 1964-cü il MM-in nəzərdə tutduğu siyahıdan fərqlənir. Belə ki, qüvvədən düşmüş MM təminat üsullarının qəti və dəqiq siyahısını müəyyənləşdirirdi.

Təminat üsullarını nəzərdə tutan siyahının nümunəvi və təxmini xarakterə malik olması onu ifadə edir ki, təminat üsulu kimi digər hüquqi konstruksiyalardan da istifadə edilməsinə yol verilir. Bu, qanunla qadağan edilmir. Belə təsəvvür yaranır ki, həmin siyahını genişləndirmək olar. Hər şeydən əvvəl, göstərilən siyahını qanunda (MM-də) nəzərdə tutulan digər üsulların hesabına genişləndirmək mümkündür. Məsələn, faktorinq müqaviləsi üzrə müştərinin borcluya olan pul tələbini faktora güzəşt etməsi onun faktor qarşısında öhdəliyinin icrasını təmin etmək üsuludur (MM-in 655-ci maddəsinin 3-cü bəndi). Siyahıda göstərilməyən, lakin qanunda nəzərdə tutulan təminat üsullarına operativ təsir tədbirləri adlı hüquqi konstruksiyanı da aid etmək olar. Bu hüquqi konstruksiya operativ sanksiya da adlanır[1].

Göstərilən siyahı müqavilədə nəzərdə tutulan digər üsullar hesabına da genişləndirilə bilər. Müqavilə bağlayan tərəflər digər hüquqi konstruksiyalardan təminat üsulu kimi istifadə olunması barədə öz aralarında razılığa gələ bilərlər. Bu cür hüquqi konstruksiyaları qanun siyahıda təminat üsulu kimi nəzərdə tutmur. Təminat xüsusiyyətinə və təbiətinə malik olan həmin hüquqi konstruksiyalara aiddir: **əmtəə (məhsul) formasında dəbbə pulu**; mübahisə predmeti olan **əmlakın üçüncü şəxsə saxlamaya verilməsi**; geri çağırılmayan **akkreditiv üzrə hesablaşma**; mübahisəli pul məbləğinin və ya qiymətli kağızın **üçüncü şəxsin depozitinə qoyulması**; **inkasso üzrə hesablaşma**; bank

[1] Bu barədə dərsliyin «Mülki hüquqların müdafiəsi» adlı fəslinə bax. Operativ təsir tədbirləri haqqında konsepsiyanın əsasını prof. V.P.Qribanov qoymuşdur (bax: *Грибанов В.П.* Пределы осуществления и защиты гражданских прав. М.1972; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П. Грибанова, С.М. Корнеева*. М., 1979). Onun şagirdlərindən olan V.S.Yem. hələ 80-ci illərin əvvəllərində operativ təsir tədbirlərinin, qanunun öhdəliklərin icrasının təmin edilməsi üsulları haqqında müəyyən etdiyi siyahıya daxil edilməsi fikrini irəli sürmüşdü (bax: *Ем В.С.* Категория обязанности в советском гражданском праве (вопросы теории). Автореферат дис. канд. юрид. наук. М., 1981, с. 21).

hesabından pul vəsaitinin **akseptsiz silinməsi**; **qabaqcadan ödəniş** və s.

Siyahıda göstərilməyən, lakin müqavilə əsasında müəyyənləşdirilən təminat tədbirlərinə **təxirəsalıcı şərtlə bağlanan əqdləri** də aid etmək olar. Təxirəsalıcı şərtlə bağlanmış əqdlər odur ki, bu cür əqdlərdə tərəflərin hüquq və vəzifələrinin əmələ gəlməsi müəyyən şərtdən, yəni baş verməsi və ya verməməsi məlum olmayan haldan asılı olur. Məsələn, vətəndaş (kirayəyə verən, kreditor) öz qoşqu heyvanını istifadə etmək məqsədilə qonşusuna (kirayəçiyə, borcluya) kirayəyə verir, onlar arasında kirayə müqaviləsi bağlanır və bunun əsasında öhdəlik əmələ gəlir. Bu öhdəliyin icrasını, yəni qoşqu heyvanının qaytarılmasını təmin etmək üçün qonşu (kirayəçi) televizoru təxirəsalıcı şərtlə satır (təxirəsalıcı şərtlə bağlanan alqı-satqı müqaviləsi). Tərəflər kirayəyə verən vətəndaşın televizor üzərində mülkiyyət hüququ əldə etməsini kirayə müqaviləsinin predmeti olan qoşqu heyvanının satıcı – kirayəçi tərəfindən qaytarılmaması şərtindən asılı etmək barədə razılığa gəlirlər. Tərəflər həm də nəzərdə tuturlar ki, təxirəsalıcı şərt baş verdikdə (yəni qoşqu heyvanı qaytarılmadıqda) qoşqu heyvanı televizorun qiyməti kimi götürülsün[1].

Siyahıda nəzərdə tutulmayan, lakin müqavilə əsasında müəyyənləşdirilən təminat üsullarından biri **repo müqaviləsidir**[2]. Bu hüquqi konstruksiyadan RF-də müqavilə təcrübəsində tez-tez hallarda istifadə edirlər. Repo müqaviləsi qiymətli kağızların alqı-satqı müqaviləsi haqqında əqddir. Bu əqd satıcının qiymətli kağızı müəyyən müddətdən sonra qabaqcadan müəyyənləşdirilmiş qiymətlə geri almaq vəzifəsini nəzərdə tutur. Qiymətli kağız üçün alıcının verdiyi ödəniş kredit məbləğini ifadə edir. Bu kağızın satış qiyməti faktiki olaraq həmin kredit məbləğindən ibarətdir. Satıcının ödədiyi alış qiyməti isə kredit məbləğini və ondan istifadəyə görə faizi ifadə edir. Bu cür əqdlərin bağlanması nəticəsində kreditor qiymətli kağızlara mülkiyyət hüququ formasında təminat əldə edir.

Xarici milli hüquq sistemlərində elə təminat üsulları vardır ki, bu üsullar Azərbaycan Respublikasının mülki qanunvericiliyinə məlum deyildir. İngilis-amerikan hüquq ailəsinə daxil olan ölkələrin qanunvericiliyi **mülkiyyət titulunun ehtiyatda saxlanması kimi təminat üsulunu** nəzərdə tutur. Məsələn, ABŞ-ın Vahid Ticarət Məcəlləsinin 2-401-ci maddələri bu cür hüquqi konstruksiyanı müəyyənləşdirir[3].

Təminat üsulu kimi istifadə olunan həmin konstruksiyanın mahiyyəti ondan ibarətdir ki, alıcıya mal göndərən və ya yük yola salan satıcı ödəniş həyata keçirilənədək mal üzərində titulu (mülkiyyət hüququnu) özündə və ya ehtiyatda saxlayır.

Bəzi xarici hüquq sistemlərində təminat üsulu kimi **mülkiyyət hüququnun**

[1] Öhdəliklərin icrasının təmin edilməsi üsulu kimi təxirəsalıcı əqdlər barədə bax: *Ем В.С., Синельников А.М.* Ипотечное кредитование в России. Вып. 1. М., 1995, с. 57-63;

[2] Repo müqavilələri haqqında bax: Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 54; *Авалиани В.* Операции репо: международные стандарты и Российские особенности // Рынок ценных бумаг. № 2. 1997, с.14-18.

[3] bax: Единообразный торговый кодекс США. М., 1996, с. 78-79.

qarantiyalı verilməsi adlı hüquqi konstruksiya müəyyənləşdirilir[1]. Bu konstruksiyaya görə, müəyyən əşya üzərində mülkiyyət hüququ borcun ödənilməsini təmin etmək üçün kreditora keçir, borc geri qaytarıldığı və bununla öhdəlik lazımınca icra edildiyi halda həmin əşya üzərində mülkiyyət hüququ yenidən borcluya keçir. Buna oxşayan hüquqi konstruksiyaya bizim qanunvericilikdə də rast gəlmək olur. Belə ki, satıcı mülkiyyət hüququnu özündə saxlamaq şərtilə əşyanı sata bilər (MM-in 606-cı maddəsi). Bu halda alıcıya verilmiş əşyaya mülkiyyət hüququ onun pulu ödənilənədək satıcıda qalır. Əşyanın pulunu ödədikdə əşya üzərində mülkiyyət hüququ alıcıya keçir. Əgər əşyanın pulu ödənilməzsə, satıcı alıcıdan əşyanı ona qaytarmağı tələb edir.

Təminat üsulları müxtəlif əsaslara görə təsnif edilir. Roma hüququ ənənələrinə uyğun olaraq, bu üsulları iki yerə ayırmaq olar[2]: real təminat üsulları; şəxsi təminat üsulları. **Real təminat üsulları** odur ki, bu üsullar əsasında borclunun əmlakı üzərində kreditorun sahibliyi yaranır və borclu öhdəliyi icra etmədiyi halda onun tələbi həmin əmlaka yönəlir. Bu üsullar real kreditin formaları kimi çıxış edir. **Real kredit** odur ki, o, öhdəlik borclu tərəfindən icra edilmədiyi halda xüsusi olaraq ayrılmış əmlakın hesabına kreditorun öz tələbini təmin etməsini nəzərdə tutur. Real kredit formalarına, yəni **real təminat üsullarına aiddir**: **beh**; **girov**; **ipoteka; saxlama**. Bu üsulların hamısı üçün belə bir prinsip xarakterikdir: kreditor borclunun şəxsiyyətinə yox, onun əmlakına inanır.

Öhdəliyə onun icrası üçün məsuliyyət daşıyan üçüncü şəxslərin cəlb edilməsini nəzərdə tutan təminat üsulları **şəxsi təminat üsulları** adlanır. Bu üsulların tətbiq olunması nəticəsində öhdəliyin icra olunmasına əlavə məsul şəxslər cəlb edilirlər. Həmin təminat üsulları şəxsi kreditin formaları hesab edilir. **Şəxsi kredit** odur ki, o, kreditor qarşısında öhdəliyin icra edilməsi üçün borclu şəxsdən əlavə, üçüncü şəxsin də öz üzərinə məsuliyyət və cavabdehlik götürməsini nəzərdə tutur. Şəxsi kredit formalarına, yəni **şəxsi təminat üsullarına şamil edilir: zaminlik; qarantiya**. Bu üsullar üçün belə bir prinsip xarakterikdir: kreditor həm borclunun, həm də öhdəliyin icrasını təmin edən şəxsin (zaminin, qarantın) şəxsiyyətinə inanır.

Təminat üsulları onların məzmunundan asılı olaraq **iki yerə ayrılır**: **mülki-hüquqi məsuliyyət tədbirlərinə aid edilən üsullar; mülki-hüquqi müdafiə tədbirlərinə şamil edilən üsullar**. Dəbbə pulu mülki-hüquqi məsuliyyət tədbirlərinə, girov, zaminlik, saxlama, beh isə mülki-hüquqi müdafiə tədbirlərinə aid edilən üsullardır.

Sanksiya xarakteri daşıması xüsusiyyətlərinə görə **təminat üsulları iki cür olur**: **sanksiya sayılan təminat üsulları; sanksiya hesab edilməyən təminat üsulları**. Təminat üsullarından yalnız dəbbə pulu (o, nə şəxsi, nə də real kredit hesab edilir) sanksiya sayılan təminat üsulu hesab edilir. O, öhdəlikdə sanksiyanın bir formasıdır. Yerdə qalan təminat üsulları isə sanksiya hesab edilmir.

[1] bax: Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 53; Гражданское и торговое право капиталистических стран. Учебное пособие / Под ред. *В.П.Мозолина, М.И.Кулагина.* М., 1980, с. 196.

[2] *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 505-513; *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник / Перевод с македонского. М., 2000, с. 296-297.

§ 2. Dəbbə pulu (Vertragsstrafe)

1. Dəbbə pulunun anlayışı, mahiyyəti, funksiyası və əsas cəhətləri

Dəbbə pulu öhdəliklərin icrasının təmin edilməsinin üsullarından biridir. Bununla bərabər, yuxarıda qeyd etdiyimiz kimi, dəbbə pulu öhdəlikdə tətbiq edilən sanksiya formalarından biri kimi çıxış edir; bu baxımdan o, öhdəliklərin pozulmasına görə məsuliyyət formasıdır. Dəbbə pulu həm də subyektiv hüquqların müdafiə üsuludur. Göstərilən cəhətlər dəbbə pulunun ikili təbiətə və xarakterə malik olmasını nümayiş etdirir.

Azərbaycan Respublikası MM-in 462-ci maddəsi dəbbə puluna anlayış verir. **Müqavilə ilə müəyyənləşdirilən, öhdəliyin icra edilmədiyi və ya lazımınca icra edilmədiyi, o cümlədən icranın gecikdirildiyi halda borclunun kreditora ödəməli olduğu pul məbləğinə dəbbə pulu deyilir**. Dəbbə pulu öhdəliklərin icrasının təmin edilməsinin ən geniş yayılmış üsullarından biridir. Xüsusən sahibkarlıq fəaliyyəti sferasında əmələ gələn öhdəliklərin icrasında dəbbə pulundan münasib təminat üsulu kimi geniş miqyasda istifadə edirlər. Mal göndərmə, daşıma, podrat və s. kimi müqavilələrin icrası dəbbə pulu ilə təmin olunur. Vətəndaşların iştirak etdiyi öhdəliklərdə də bu təminat üsulunun tətbiqi geniş xarakterə malikdir. Borc, icarə əmlak kirayəsi və digər müqavilələrin icrasının təmin edilməsində dəbbə pulunun köməyinə tez-tez bel bağlayırlar.

Dəbbə pulu kimi təminat üsulu təkcə bizim ölkə qanunvericiliyində nəzərdə tutulmamışdır. Bu hüquqi konstruksiyanı bir çox ölkələrin qanunvericiliyi də tanıyır. Almaniya Mülki Qanunnaməsi dəbbə puluna zərərin əvəzinin ödənilməsinin minimum məbləği kimi anlayış verir (paraqraf 340)[1]. Fransa qanunvericiliyi dəbbə pulunu zərərin müqavilə əsasında müəyyən edilməsi kimi nəzərdə tutur[2]. İngilis-amerikan hüquq ailəsinə daxil olan ölkələrin qanunvericiliyi dəbbə pulunu öhdəliyin icrasını təmin edən üsul kimi müəyyənləşdirmir. Həmin ölkələrin qanunvericiliyinə görə, dəbbə puluna yalnız zərərə qabaqcadan qiymət qoyma forması kimi yol verilir[3]. RF-in mülki qanunvericiliyi dəbbə pulunu həm təminat üsulu kimi, həm də sanksiya forması (məsuliyyət forması) kimi nəzərdə tutur. RF-in 23-cü fəslinin 2-ci paraqrafına daxil olan normalar (330-333-cü maddələr) dəbbə pulu ilə bağlı münasibətləri tənzimləyir[4].

Dəbbə pulu bir neçə xüsusiyyətə malikdir. Dəbbə pulunun **birinci və əsas xüsusiyyəti** ondan ibarətdir ki, o, **təkan vermək (meyilləndirmək) və ya təminat funksiyasını yerinə yetirir**. Bu funksiya onda ifadə olunur ki, öhdəlik icra olunmayacağı və ya lazımınca icra olunmayacağı halda, borclu şəxs qey-

[1] bax: Германское право. Гражданское уложение. Часть 1. М., 1996, с. 76.

[2] bax: *Годеме Е.* Общая теория обязательств. М., 1948, с. 395.

[3] bax: *Вильям Р.* Ансон. Основы договорного права М., 1947, с. 321-325; Гражданское и торговое право капиталистических стран. Учебник. Часть 2 / Под ред. *Р.Л.Нарышкиной.* М., 1984, с. 68-69.

[4] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова.* М., 1999, с. 577-580.

ri-sərfəli əmlak (maddi) xarakterli mənfi nəticələr əmələ gələcəyi qorxusu altında öhdəliyi vaxtında icra etməyə təşviq edilir və meyilləndirilir. Gələcəkdə arzuolunmaz, xoşagəlməz nəticələrlə üzləşəcəyindən qorxan, əmlak xarakterli itkiyə məruz qalacağından ehtiyatlanan, maddi zərərə düşəcəyindən çəkinən borclu şəxs məcburdur ki, lazımi qaydada davranıb, kreditor qarşısında daşıdığı vəzifəni vicdanla icra etsin. Məsələn, tərəflər yanvar ayında öz aralarında yayda dincəlmək üçün bağ evi tikmək barədə podrat müqaviləsi bağlayırlar. Onlar həm də bağ evinin tikilib təhvil verilməməsi üçün, yəni öhdəliyin icrasının gecikdirilməsi üçün dəbbə pulunun alınması barədə saziş bağlayırlar. Başqa bir misalda öz aralarında alqı-satqı müqaviləsi bağlayan tərəflər satılan əşyanın alıcıya çatdırılmasının gecikdirilməsi üçün dəbbə pulu alınması haqqında razılığa gəlirlər.

Beləliklə, dəbbə pulunun təkan vermək (meyilləndirmək) funksiyası onda ifadə edilir ki, o, öhdəlik icra olunmadığı və ya lazımınca icra olunmadığı halda tətbiq edilən **əlavə sanksiyadır**. Bu, zərərin əvəzinin ödənilməsi kimi ümumi sanksiyaya münasibətdə əlavə sanksiya rolunu oynayır. Əlavə sanksiya kimi nəzərdə tutulmaq elə özlüyündə dəbbə pulunun təminat funksiyası yerinə yetirməsini ifadə edir.

Dəbbə pulunun **ikinci xüsusiyyəti** ondan ibarətdir ki, o, **kreditoru ödənilməli olan zərərin əvəzinin hansı məbləğdə və həcmdə olmasını müəyyənləşdirmək və onları sübuta yetirmək vəzifəsindən və qayğısından azad edir**. Belə ki, öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi nəticəsində kreditorun mənafeyi pozulur. Elə hallar olur ki, pozulmuş bu mənafeyi pulla qiymətləndirmək mümkün olmur və ya son dərəcə çətin olur. Belə vəziyyətdə dəbbə pulu kreditorun pozulmuş mənafeyini kompensasiya etməyə imkan verir. Bu, onunla bağlıdır ki, dəbbə pulunun mahiyyəti müəyyən pul məbləği müəyyənləşdirməkdən ibarətdir. Özü də həmin məbləğ öhdəliyi icra etməyən borclu tərəfindən vurulan zərərin həcmindən asılı olmayaraq ödənilir.

Qeyd etmək lazımdır ki, dəbbə pulu öhdəlik pozulduğu halda kreditorun borclu şəxsdən onun vurduğu zərərin əvəzinin alınmasını asanlaşdırır. Belə ki, kreditor yalnız öhdəliyin borclu tərəfindən pozulma faktını və dəbbə pulu ödənilməsi barədə müqavilə şərtinin olmasını sübut etməlidir; onun **zərərin vurulması faktını və həcmini (miqdarını) sübut etməsi tələb olunmur**[1]. Məhz bu cəhət dəbbə pulunu effektiv təminat üsulu kimi xarakterizə edir[2].

Lakin bunlar o demək deyildir ki, dəbbə pulu qiymət qoyma funksiyasını yerinə yetirir. Bu funksiya «dəbbə pulunun qiymət qoyma nəzəriyyəsi» ilə bağlıdır. Həmin nəzəriyyə bəzi xarici ölkələrin doktrinasında (məsələn, ingilis-amerikan ölkələrinin qanunvericiliyində və s.) inkişaf etdirilmişdir. «Dəbbə pulunun qiymət qoyma nəzəriyyəsi» elə bir nəzəriyyədir ki, o, gələcəkdə mümkün ola biləcək zərərə qabaqcadan və əvvəlcədən şərtləşdirilmiş qiymət qoyma ideyasına əsaslanır; məhz həmin nəzəriyyə əsasında ABŞ-da dəbbə pulu «razılaşdırılmış və qiymətləndirilmiş zərər» (agreed and liquidated damages) adlanır[1]. Azərbaycan Respublikasının MM-in dəbbə puluna verdiyi anlayışdan belə məlum olur ki, bizim ölkə qanunvericiliyi bu nəzəriyyəyə mənfi münasibət bəsləyərək, onu qəbul etmir. **Azərbaycan Respublikasının mülki qanunvericiliyində dəbbə pulu qiymət qoyma funksiyasını yerinə yetirən vasitə kimi yox**, təminat, təkan vermək (meyilləndirmək) funksiyasını həyata keçirən hüquqi konstruksiya kimi nəzərdə tutulur. Dəbbə pulunda təmin etmək, təkan vermək potensialı həmişə yüksək olmuşdur.

Dəbbə pulunun **üçüncü xüsusiyyəti** ondan ibarətdir ki, təminat üsulları içərisində yalnız dəbbə pulu öhdəliklərin pozulmasına görə, yəni **öhdəliklərin icra edilməməsinə və ya lazımınca icra edilməməsinə görə əmlak məsuliyyətinin forması kimi çıxış edir**. Bu baxımdan dəbbə pulu mülki hüquqların müdafiəsi üsullarından birinə çevrilir.

Dəbbə pulunun **dördüncü xüsusiyyəti** ondan ibarətdir ki, **əgər dəbbə pulu cərimə xarakterinə malik olarsa, onda onun təminat potensialı cərimə xarakterindən yüksək olacaqdır**. Dəbbə pulunun bütün növləri cərimə təbiətinə malikdir[2]. Onun kumulyativ (latınca «cumulatio» — çoxalma, artma, yığılma) kimi növü (yəni cərimə dəbbə pulu da deyilir) müstəsna olaraq, yəni yalnız cərimə xarakteri daşıyır. Lakin buna baxmayaraq, dəbbə pulunun həmin növü daha yüksək təminedici qüvvəyə malikdir.

Dəbbə pulunun **beşinci xüsusiyyəti** ondan ibarətdir ki, o, **həm kompensasiya, həm də cərimə funksiyasını** yerinə yetirir. Onun kompensasiya funksiyası onda ifadə edilir ki, öhdəliyin pozulması nəticəsində kreditorun mənafeyi pozulur və nəzərdə tutulan pul məbləği ödənilməklə pozulmuş mənafe kompensasiya edilir. Yalnız kumulyativ dəbbə pulundan savayı, dəbbə pulunun bütün növləri həm cərimə, həm də kompensasiya funksiyalarını yerinə yetirir[3].

Dəbbə pulu hüquqi konstruksiyasının tarixi qədim dövrlərlə bağlıdır. Roma hüququna bu konstruksiya «stipulatio peonae» adı altında məlum idi[4]. Roma hüququna görə, dəbbə pulu dedikdə, öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda borclunun müəyyən pul məbləği ödəmək kimi vəzifə daşıması başa düşülürdü[5].

2. Dəbbə pulunun növləri

Dəbbə pulu müxtəlif əsas və meyarlara görə ayrı-ayrı növlərə bölünür. **Əmələ gəlmə və müəyyənləşdirilmə əsasına görə** dəbbə pulunun üç növü fərqləndirilir:

- qanuni dəbbə pulu (Gesetzliche vertragsstrafe);
- müqavilə dəbbə pulu (Vereinbarte vertragsstrafe);
- qarışıq dəbbə pulu.

---

[1] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров*. М., 2004, с. 479-480.

[2] Гражданское и торговое право зарубежных стран. Учебное пособие / Под ред. *В.В.Безбаха, В.К.Пучинского*. М., 2004, с. 317.

[1] *Бушев А.Ю.* и другие. Коммерческое право зарубежных стран. М., 2003, с. 354.

[2] *Райхер В.К.* Правовые вопросы договорной дисциплины в СССР. М., 1958, с. 174-185.

[3] bax: *Иоффе О.С.* Обязательственное право. М., 1975, с. 166.

[4] bax: *Пухан И.Поленак-Акимовская М.* Римское право. Учебник / Перевод с македонского. М., 2000, с. 297.

[5] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 336.

Qanuni dəbbə pulu odur ki, o, qanunla müəyyənləşdirilir. Dəbbə pulunun bu növü tərəflərin iradəsindən asılı olmayaraq tətbiq edilir. Qanuni dəbbə pulu borclu şəxsdən tərəflərin razılaşmasında onun ödənilməsi vəzifəsinin nəzərdə tutulub-tutulmadığından asılı olmayaraq alınır (MM-in 464-cü maddəsinin 1-ci bəndi).

Qanuni dəbbə pulu onunla xarakterizə olunur ki, hansı öhdəliyin dəbbə pulu ilə təmin olunması, hansı vəzifənin pozulmasına görə dəbbə pulu ödənilməsi və dəbbə pulunun hansı məbləğdə alınması hüquq norması ilə müəyyənləşdirilir. Bu növ dəbbə pulu yüklərin müxtəlif nəqliyyat vasitələri ilə daşınması, mal göndərmə və s. öhdəliklərin icrasının təmin edilməsində geniş tətbiq edilir. Qanuni dəbbə puluna aiddir: mal göndərmə müqaviləsi üzrə malların tam göndərilməməsi və ya göndərilməsinin gecikdirilməsi üçün dəbbə pulu (MM-in 642-ci maddəsi); bank hesabı müqaviləsi üzrə hesab əməliyyatlarının bank tərəfindən lazımınca aparılmamasına görə dəbbə pulu (MM-in 966-cı maddəsi); hava yolu ilə yükün çatdırılma müddətinin gecikdirilməsinə görə daşıyıcı alıcıya gecikdirilmiş hər gün üçün daşıma haqqının 5 faizi qədər cərimə ödəyirdi (qüvvədən düşmüş Hava Məcəlləsinin 108-ci maddəsi)[1]; müəyyən edilmiş müddətdə mühüm qüsurlar aradan qaldırılmadıqda və s. hallarda icraçı istehlakçıya bir faiz məbləğində dəbbə pulu ödəyir («İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» qanunun 8-ci maddəsinin 5-ci bəndi) və s.

Tərəflər öz razılığı ilə qanuni dəbbə pulunun miqdarını azalda bilməzlər. Qanun onlara belə hüquq vermir. Bundan fərqli olaraq, tərəflər qanuni dəbbə pulunun miqdarının artırılması barədə öz aralarında saziş bağlaya bilərlər, bir şərtlə ki, bu, qanunla qadağan edilməsin (MM-in 464-cü maddəsi).

Müqavilə dəbbə pulu odur ki, bu növ dəbbə pulunu tərəflər özləri müəyyənləşdirirlər. Tərəflər dəbbə pulunun bu növündən o halda istifadə edirlər ki, qanunda hər hansı bir pozuntuya görə bu və ya digər sanksiya nəzərdə tutulmasın. Müqavilə dəbbə pulunun miqdarı, ödəniş və hesablanma qaydası, onun tətbiq şərtləri müstəsna olaraq, yalnız tərəflərin öz istək və mülahizələri ilə müəyyən olunur. Dəbbə pulunun bu növündə hansı pozuntuya görə borclu şəxsdən hansı miqdarda dəbbə pulu alınmasını tərəflərin özləri təyin edirlər.

Qarışıq dəbbə pulu odur ki, bu cür dəbbə pulu həm qanun, həm də müqavilə əsasında əmələ gəlir. Bu növ dəbbə pulunun mahiyyəti ondan ibarətdir ki, qanunla müəyyənləşdirilən dəbbə pulunun miqdarını tərəflər öz sazişi və razılığı ilə artırırlar (MM-in 464-cü maddəsinin 2-ci bəndi). Əgər qanun tərəflərə qanuni dəbbə pulunu artırmaq hüququ verməzsə, belə halda qarışıq dəbbə pulunun yaranmasından söhbət gedə bilməz.

Hesablaşma metodundan asılı olaraq dəbbə pulunun üç növü fərqləndirilir:

- məhdud (xüsusi) mənada dəbbə pulu;
- cərimə;
- penya.

Məhdud (xüsusi) mənada dəbbə pulu, cərimə və penya eyni hüquqi təbiətə malik olub, vahid təyinat və istiqamətlə şərtlənir. Bu növlərin hər üçü də təminat funksiyasını həyata keçirir. Onların arasında mühüm fərqlər yoxdur. Onlar

[1] AR QK, II cild, s. 187.

eyni bir təminat üsulunun ayrı-ayrı növləri hesab olunur. Qanunvericilik də bu növlər arasında dəqiq sərhəd müəyyən etmir. Ona görə də həmin bölgünü şərti xarakter daşıyan bölgü hesab etmək lazımdır.

Məhdud (xüsusi) mənada dəbbə pulu odur ki, bu növ dəbbə pulu, bir qayda olaraq, müqavilə öhdəlikləri pozulduqda, yəni icra edilmədiyi və ya lazımınca icra edilmədiyi, o cümlədən onun icrası gecikdirildiyi hallarda alınır[1]. Bu cür dəbbə pulunun miqdarı öhdəliyin gecikdirilmə müddətindən asılı deyildir. O, hər bir öhdəlik pozuntusu faktına görə hesablanır. Məsələn, RF-də yazılan mülki hüquq barədə dərsliklərin birində göstərilən misala görə, avtomobil nəqliyyatı vasitələrinin təmiri üzrə sifarişin icrasının gecikdirilməsi üçün icraçı hər ötürülən gün üçün xidmətin dəyərinin 3%-i məbləğində məhdud (xüsusi) mənada dəbbə pulu ödənilir[2].

Penya (latınca «poena» – cəza) müqavilə öhdəlikləri və digər öhdəliklərdə müddət gecikdirildikdə tətbiq edilən dəbbə pulu növüdür. Penya elə bir dəbbə puludur ki, o, müddəti gecikdirilmiş və ötürülmüş öhdəliyin məbləğindən (qiymətindən) tutulan faiz kimi müəyyən edilir və ötürülmüş (gecikdirilmiş) hər bir gün üçün hesablanır. Adətən, penyanın hesablanması dövrü 30 günlə məhdudlaşır. Bu müddətdən sonra birdəfəlik cərimə tətbiq olunur. Penyanın ya bir gün üçün (sabit məbləğdə), ya da bütün müddət üçün son həddi müəyyən edilə bilər. Bütün müddət üçün penyanın son həddi müəyyənləşdirilərkən vaxtı gecikdirilmiş öhdəliyin qiymətinin faizi əsas götürülür. Kreditin qaytarılması, kommunal xidmətlərin ödənilməsi, yaşayış evlərinin və qeyri-yaşayış evlərinin kirayə haqqının verilməsi, işıq pulunun çatdırılması və s. gecikdirildikdə, hər bir ötürülən gün üçün penya müəyyənləşdirilə bilər.

Cərimə dedikdə, elə bir dəbbə pulu növü başa düşülür ki, o, öhdəliklər pozulduqda, qanunda və ya müqavilədə nəzərdə tutulmuş hallarda və qaydada tətbiq edilən maddi təsir tədbiri, yəni pul tənbehi kimi çıxış edir. **Penyadan fərqli olaraq, cərimə, birdəfəlik alınan və tutulan dəbbə puludur**. O, ya pozulmuş öhdəlik məbləğinin faizi ilə, ya da sabit pul məbləği ilə müəyyən edilə bilər. Cərimə elə bir məsuliyyət tədbiridir ki, öhdəliklərin icrasını təmin edir[3].

Qeyd etdik ki, zərərin əvəzinin ödənilməsi ümumi mülki hüquqi məsuliyyət tədbiridir. Dəbbə pulu isə əlavə (xüsusi) mülki-hüquqi məsuliyyət tədbiri kimi

[1] Hüquq ədəbiyyatında məhdud mənada dəbbə puluna eyni cür anlayış verilir. Müəlliflərdən V.S.Konstantinova göstərir ki, məhdud mənada dəbbə pulu, adətən davam edən öhdəlik pozuntusu üçün alınır və icra olunmamış öhdəlik məbləğinə faiz hesablamaqla müəyyənləşdirilir və ya sabit (qəti) pul məbləği ilə hesablanır (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 401). Müəlliflərdən B.M.Qonqalo göstərir ki, məhdud mənada dəbbə pulu ilə cərimə arasında praktiki olaraq fərq yoxdur. Onlar eyni anlayışlar olub, lakin müxtəlif terminlərlə ifadə olunur (Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 374).

[2] Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 401-402; Правила предоставления услуг по техническому обслуживанию и ремонту автотранспортных средств // СЗ РФ. 1994. №12. ст. 1395.

[3] Dəbbə pulunun bu cür üç növə bölünməsinin heç bir əsası yoxdur. Ona görə ki, bu bölgü hüquqi əhəmiyyət kəsb etmir. Biz elə hesab edirik ki, dəbbə pulunun bu üç növünü şərti olaraq müxtəlif terminlə ifadə etmək hüquqi məna və məzmun daşımadığına görə məqsədəmüvafiq deyildir.

çıxış edir. Elə hallar yaranır ki, kreditor həm zərərin əvəzinin, həm də dəbbə pulunun ödənilməsini tələb etmək hüququna malik olur. Belə məqamlarda kreditor hansı hüquqdan – zərərin əvəzinin ödənilməsini tələb etmək hüququndan, yoxsa, dəbbə pulunun ödənilməsini tələb etmək hüququndan istifadə edə bilər? Bu vəziyyətdə **zərərlə dəbbə pulu arasında münasibət yaranır və bu münasibətə görə** dəbbə pulunun dörd növü fərqləndirilir (MM-in 466-cı maddəsi):

- əvəzləşdirmə dəbbə pulu (anzurechnende vertragsstrafe);
- cərimə dəbbə pulu (ecthe vertragsstrafe);
- müstəsna dəbbə pulu (ausschließliche vertragsstrafe);
- alternativ dəbbə pulu (alternativ vertragsstrafe).

Əvəzləşdirmə dəbbə pulu odur ki, bu cür dəbbə pulu zərərin dəbbə pulu çatmamış hissəsinin əvəzinin ödənilməsini nəzərdə tutur (MM-in 466-cı maddəsinin 1-ci bəndi). Belə halda zərər ancaq dəbbə pulu ilə ödənilməmiş hissədə ödənilir. Məsələn, mal göndərmə müqaviləsində tərəflər 1 min manat məbləğində dəbbə pulu tutulması barədə şərt nəzərdə tuturlar. Mal göndərən (satıcı) malı göndərmir, yəni öhdəliyi icra etmir və bununla alıcıya 4 min manat məbləğində zərər vurur. Belə halda zərərin əvəzi dəbbə pulunun çatmamış miqdarında (3 min manat məbləğində) ödənilir, yəni 4 min – 1 min = 3 min manata. Dəbbə pulu bütün hallarda əvəzləşdirmə dəbbə pulu hesab edilir, bir şərtlə ki, qanunda və ya müqavilədə başqa qayda nəzərdə tutulmasın. Bu, o deməkdir ki, nə qanun, nə də müqavilə zərərlə dəbbə pulu arasındakı münasibəti müəyyənləşdirmək barədə göstəriş ifadə edirsə, onda bu, əvəzləşdirmə dəbbə pulu hesab edilir. Dəbbə pulunun bu növü praktikada daha çox tətbiq edilir.

Cərimə dəbbə pulu odur ki, o, dəbbə pulundan artıq zərərin tam məbləğdə (həcmdə) tutulmasını nəzərdə tutur (MM-in 466-cı maddəsinin 2-ci bəndinin 2-ci yarımbəndi). Bu cür dəbbə pulu **kumulyativ dəbbə** (latınca «cumulatio» — çoxalma, yığılma) pulu da adlanır[1]. Cərimə dəbbə pulundan yalnız qanunda və ya müqavilədə nəzərdə tutulduğu hallarda istifadə olunur. Onun mahiyyəti ondan ibarətdir ki, öhdəlik pozulduğu hallarda **borclu dəbbə pulunu və zərərin əvəzini tam məbləğdə ödəyir**. Başqa sözlə desək, belə hallarda borcludan dəbbə pulundan əlavə, zərərin pulla məbləği də tam həcmdə alınır. Yuxarıdakı misalda borclu həm dəbbə pulunu (1 min manatı), həm də zərərin əvəzini (4 min manatı) tam həcmdə, yəni cəmi 5 min (1 min +4 min) manat ödəyir.

Planlı təsərrüfat sistemində cərimə dəbbə pulu geniş səviyyədə tətbiq edilirdi. Xüsusən tədarük müqaviləsi üzrə keyfiyyətsiz mal göndərildiyi hallarda ondan tez-tez istifadə olunurdu. İndiki dövrdə cərimə dəbbə pulunun tətbiq sferası xeyli dərəcədə məhdudlaşmışdır.

Müstəsna dəbbə pulu odur ki, bu dəbbə pulu zərərin deyil, yalnız dəbbə pulunun tutulmasını nəzərdə tutur (MM-in 466-cı maddəsinin 2-ci bəndinin 1-ci yarımbəndi). Bu növ dəbbə pulu kreditoru zərərin əvəzinin ödənilməsini tələb

[1] *Тархов В.А.* Ответственность по советскому гражданскому праву. Саратов. 1973, с. 168; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 59; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 402.

etmək hüququndan məhrum edir. O, borcludan ancaq dəbbə pulunun ödənilməsini tələb edə bilər. Yuxarıdakı misalda alıcı satıcıdan (mal göndərəndən) yalnız 1 min manat məbləğində dəbbə pulu alır. Beləliklə, müstəsna dəbbə pulunda borclunun məsuliyyəti dəbbə pulu ilə məhdudlaşır.

Müstəsna dəbbə pulu nəqliyyat münasibətlərində geniş səviyyədə tətbiq olunur. Yük daşıma öhdəliyi icra edilmədiyi, yükün nəqliyyat vasitəsindən vaxtında boşaldılmaması nəticəsində boşdayanmaya yol verildiyi hallarda və s. müstəsna dəbbə pulundan istifadə edirlər. Bu növ dəbbə pulu vətəndaşların iştirak etdiyi münasibətlərdə (məsələn, mənzil, işıq pulunun verilməsinin gecikdirilməsi və s. hallarda) tətbiq edilir.

Alternativ dəbbə pulu odur ki, o, kreditorun istəyinə və seçiminə görə ya dəbbə pulunun, yaxud da öhdəliyin pozulması nəticəsində vurulmuş zərərin əvəzinin alınmasını nəzərdə tutur (MM-in 466-cı maddəsinin 2-ci bəndinin 3-cü yarımbəndi). Yuxarıdakı misalda alıcı mümkün olan iki alternativ variantdan birini seçir: ya dəbbə pulu; ya da zərərin əvəzi. Beləliklə, satıcı 1 min manat və yaxud da 4 min manat ödəyir. Alternativ dəbbə puluna praktikada nadir hallarda rast gəlinir.

Öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün **məhdud məsuliyyət** müəyyənləşdirilə bilər. Hal-hazırda rabitə və nəqliyyat orqanları üçün öhdəliklərin icra edilməməsinə və ya lazımınca icra edilməməsinə görə məhdud məsuliyyət nəzərdə tutulur. Məsuliyyətin məhdudlaşdırılması halına beynəlxalq müqavilələrdə də rast gəlmək olar. Belə ki, beynəlxalq sərnişin, yük və baqaj daşımaları həyata keçirərkən nəqliyyat təşkilatlarının məsuliyyəti Beynəlxalq hava daşımalarına aid bəzi qaydaların unifikasiya edilməsi barədə Varşava konvensiyası (1929), Konosament haqqında bəzi qaydaların unifikasiya edilməsi haqqında Brüssel konvensiyası (1924), Avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşıma haqqında müqavilə barədə Cenevrə konvensiyası (1956) və digər sənədlərlə müəyyən edilir[1].

Neftlə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyət haqqında Beynəlxalq konvensiya (1969), Xarici hava gəmiləri tərəfindən üçüncü şəxslərə vurulan zərər haqqında Roma konvensiyası (1952) da məsuliyyətin məhdudlaşdırılmasını nəzərdə tutur. Məhdud məsuliyyət müəyyənləşdirildiyi hallarda dəbbə pulu çatmayan və ya dəbbə pulundan yuxarı hissədə və ya onun əvəzinə ödənilməli olan zərər, həmin məhdudiyyətlə müəyyənləşdirilmiş həddə qədər tutula bilər (MM-in 466-cı maddəsinin 3-cü bəndi). Məsələn, daşıma müqaviləsi bağlayarkən tərəflər razılığa gəlirlər ki, dəyəri 2 min manat olan yük itirildiyi halda, daşıyıcı həm vurulmuş zərərin əvəzini, həm də 1 min manat dəbbə pulu ödəsin. Vurulmuş zərərin həcminin 3 min manatdan ibarət olması müəyyənləşdirilir. Hesaba əsasən, daşıyıcı yük sahibinə 4 min (3 min + 1 min = 4 min) manat ödəməlidir. Amma daşıyıcı 2 min manat verir. Ona görə

[1] Bu sənədlərin əsas cəhətləri ilə tanış olmaq üçün bax: *Гафаров З.М., Алиев Э.А.* Применение современного международного транспортного права в Азербайджанской Республике. Баку. 2002, с. 150; *Богуславский М.М.* Международное частное право. Учебник. М., 1994. Azərbaycan Respublikası həm Varşava konvensiyasına (1999-cu ildə), həm də Cenevrə konvensiyasına (2000-ci ildə) qoşulmuşdur (Əliyev E.Ə. Beynəlxalq nəqliyyat daşımalarının konvension təsbiti. Bakı. 2002, s. 147-148).

ki, qanunla daşıyıcının məsuliyyəti məhdudlaşdırılmışdır. Belə ki, o, yük itirildiyi halda onun tam dəyərini, yəni 2 min manat ödəyir (MM-in 859-cu maddəsinin 1-ci bəndi).

Bəzən elə hallar olur ki, müəyyənləşdirilmiş dəbbə pulunun məbləği öhdəliyin pozulmasının əmələ gətirdiyi nəticələrə açıq-aşkar uyğun gəlmir. Bu cür dəbbə puluna **tənasübsüz surətdə müəyyənləşdirilən yüksək dəbbə pulu** deyilir. Tənasübsüz surətdə müəyyənləşdirilən yüksək dəbbə pulu onu ifadə edir ki, ödənilməli olan dəbbə pulu kreditorun həqiqi çəkdiyi zərərə nisbətən son dərəcə çoxdur. Belə hallarda hələ dəbbə pulu ödənilməmiş maraqlı tərəf dəbbə pulunun azaldılması barədə məhkəməyə müraciət edir. Məhkəmə işin hallarını nəzərə alaraq, dəbbə pulunun azaldılması barədə qərar qəbul edir (MM-in 467-ci maddəsi). Bu halda məhkəmə nəzərə alır: öhdəliyin borclu tərəfindən yerinə yetirilmə dərəcəsini; öhdəlikdə iştirak edənlərin əmlak vəziyyətini; kreditorun həm əmlak, həm də bütün əsaslı (diqqətəlayiq) mənafelərini. Məhkəmə xüsusən öhdəliyin pozulmasından əmələ gələn nəticələrlə birbaşa əlaqəsi olmayan halları nəzərdən keçirməlidir[1]. Dəbbə pulu ödənildikdən sonra məhkəmə onun azaldılması barədə qərar qəbul edə bilməz. Ona görə ki, dəbbə pulu ödənildikdən sonra onun miqdarının azaldılması istisna edilir (MM-in 467-ci maddəsi). Bununla belə, **məhkəmə borclu şəxsi dəbbə pulu ödəməkdən tam azad edə bilməz**. O, yalnız dəbbə pulunun miqdarını azaltmaq ixtiyarına malikdir.

Dəbbə pulu haqqında razılaşma barədə qanun **yazılı forma** tələb edir (MM-in 463-cü maddəsinin 1-ci bəndi). Bu razılaşma yazılı formada ifadə olunur. Tərəflərin qarşılıqlı razılığı ilə dəbbə pulu haqqında saziş (razılaşma) notariat qaydasında təsdiqlənə bilər. Bununla belə, göstərmək lazımdır ki, **dəbbə pulu haqqında sazişin forması əsas öhdəliyin formasından asılı deyil**. Məsələn, əsas öhdəliyin yaranmasına səbəb olan müqavilə notariat qaydasında təsdiqlənərsə, onda dəbbə pulu haqqında sazişin notarial formada bağlanması tələb olunmur, o, sadə yazılı formada da bağlana bilər.

Yazılı formaya riayət edilməməsi **dəbbə pulu haqqında razılaşmanın etibarsızlığına səbəb olur** (MM-in 463-cü maddəsinin 2-ci bəndi). Bu, o deməkdir ki, həmin razılaşma şifahi formada bağlana bilməz. Əgər tərəflər dəbbə pulu barədə şifahi formada razılığa gələrlərsə, onda bu cür sazişin hüquqi əhəmiyyəti və mənası olmayacaqdır.

§ 3. Saxlama (Zurückbehaltung, Abzug)

1. Saxlama hüququnun anlayışı, əmələ gəlmə əsası, funksiya və növləri

Saxlama hüquqi konstruksiyası öhdəliklərin icrasının təmin edilməsi üsullarından biri kimi Azərbaycan Respublikasının mülki qanunvericiliyi üçün yeni haldır. Yeni MM-də nəzərdə tutulduğu müddətə kimi bu konstruksiya hüquq ədəbiyyatında operativ təsir tədbirlərinin (operativ sanksiyaların) bir növü kimi müəyyən edilmişdi[1].

Saxlama institutunun tarixi mənşəyi çox qədim dövrlərlə bağlıdır. Bu konstruksiya «jus retentionis» adı altında hələ Roma hüququnda nəzərdə tutulmuşdu[2]. Saxlama konstruksiyası bir çox ölkələrin (məsələn, Almaniyanın[3], Hollandiyanın[4] və s.) qanunvericiliyinə məlumdur. Bu institut ingilis-amerikan mülki hüquq ailəsində də tanınır. Yaponiya MM-də göstərilir ki, əşya barəsində saxlama öhdəlik tam icra olunana kimi həyata keçirilə bilər (296-cı maddə). Bu ölkənin sivilistika doktrinası saxlama hüququnu öhdəliklərin icrasının əşya təminatı növlərindən biri hesab edir[5]. Saxlama konstruksiyasını RF-in MM-i də nəzərdə tutur. Həmin məcəllənin 23-cü fəslinin 4-cü paraqrafına daxil olan normalar (359-360-cı maddələr) bu konstruksiyanı tənzimləyir[6]. Özü də saxlamanı RF-in mülki qanunvericiliyi Azərbaycan Respublikasının qanunvericiliyi kimi analoji qaydada nizama salır.

Saxlamanın anlayışı MM-in 468-ci maddəsində verilmişdir. **Saxlama hüququ elə bir təminat üsuludur ki, bu üsul kreditora borclu tərəfindən müvafiq vəzifə icra edilənədək onun əmlakını özündə saxlamaq hüququ verir**. Məsələn, daşıyıcı yükü təyinat yerinə çatdırır; o, daşıma hüququnun ödənilməsini yük sahibindən (borcludan) tələb etmək hüququna malik olan kreditordur. Daşıyıcı yük sahibi tərəfindən daşıma haqqını ödəmək vəzifəsi icra edilənədək yükü özündə saxlayır. Saxlama təminat üsullarının siyahısında (MM-in 460-cı maddəsinin 1-ci bəndi) nəzərdə tutulan yeganə elə bir üsuldur ki, o, **yalnız bilavasitə qanun əsasında əmələ gəlir**. Bu təminat üsulunun müqavilə əsasında əmələ gəlməsi tamamilə istisna edilir. Məhz bu səbəbdən Yaponiya mülki hüquq elmi saxlama hüququnu qanuni (qanun əsasında əmələ gələn) təminat üsulu hesab edir. Saxlama hüququnun birtərəfli əqddən yaranması

---

[1] bax: постановление Пленума Верховного Суда РФ и Пленума Высшего Арбитражного Суда РФ от 1 июля 1996 г. №6/8. «О некоторых вопросах, связанных с применением части первой Гражданского кодекса Российской Федерации» (ВВС РФ. 1996. №9, с. 1).

[1] Müəlliflərdən S.V.Sarbaş göstərir ki, yeni MM-də nəzərdə tutulana kimi saxlamanı operativ təsir tədbirlərinə şamil etmək yerinə düşərdi. Onun fikrincə, yeni MM-də meydana gəldikdən sonra isə saxlamanı operativ təsir tədbiri hesab etmək olmaz (bax: *Сарбаш С.В.* Право удержания как способ обеспечения исполнения обязательств. М., 1998, с. 192-195). Müəllifin fikri, şübhəsiz ki, həqiqətdən uzaqdır. Belə ki, saxlama konstruksiyasında operativ təsir tədbirlərinin əlamətləri vardır. Operativ təsir tədbirləri odur ki, bu tədbirlər müdafiə üçün səlahiyyətli dövlət orqanlarına müraciət edilmədən müstəqil olaraq həyata keçirilir (təkcə bu əlamət saxlama hüququnu operativ təsir tədbirlərinə aid etməyə əsas vermir. Özünümüdafiə də belə əlamətə malikdir. Bunun üçün digər əlamətlərin də olması gərəkdir ki, biz bu əlamətlərə toxunmuşuq. Bu paraqrafın 1-ci yarımbaşlığını izləyin). Saxlamada da belədir. Deməli, əlamətlər uyğun gəldiyinə görə saxlama təminat üsulundan əlavə, həm də operativ təsir tədbiridir. Bu həmin Sarbaşdır ki, vaxtilə saxlama hüququnu operativ təsir tədbiri hesab edirdi (*Сарбаш С.* Способы обеспечения исполнения обязательств // Хозяйство и право. 1995. №10, с. 133). Moskva alimlərindən V.S.Yem də bu mövqedə dayanır (bax: Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 133).

[2] *Катков М.М.* Понятие право удержания в римском праве. Киев. 1910.

[3] bax: Германское право. Гражданское торговое уложение и другие законы. Часть 2. М., 1996, с. 134 (§ 369. Германского торгового уложения).

[4] bax: Гражданский кодекс Нидерландов. Новая кодификация / Под ред. *Ф.Й.М. Фельдбрюгге*. Лейден. 1996, с. 267 (5-ci kitabın 100-cü maddəsi).

[5] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 200.

[6] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 610-613.

qənaətinə də gəlmək olmaz. Saxlama hüququndan kreditorun istifadə etməsi bizdə belə bir təsəvvür yaratmasın ki, guya o, kreditorun birtərəfli iradəsi əsasında əmələ gəlir və buna görə də birtərəfli əqddir. Qəti formada göstərmək lazımdır ki, saxlama hüququnun özü qanun əsasında yaranır[1]. Bu **hüquqdan kreditorun istifadə etməsinə gəldikdə isə qeyd etmək zəruridir ki, bu cür hərəkət kreditorun iradəsi ilə bağlı olduğuna görə birtərəfli əqddir**[2]. Kreditor isə yalnız üç şərt mövcud olduqda saxlama hüququndan istifadə edə bilər. **Birinci şərt** ondan ibarətdir ki, **saxlama hüququnun predmeti kimi borcluya məxsus olan əmlak** çıxış etməlidir. Kreditor bu əmlakı ya borcluya və ya da borclunun göstərdiyi şəxsə verməlidir. Yaponiya sivilistika doktrinası və mülki qanunvericiliyi bundan fərqli olaraq, müəyyən edir ki, saxlanılan əşyanın hökmən borclunun mülkiyyətində olması vacib deyil, yəni borclunun mülkiyyətində olmayan əşya da saxlama hüququnun predmeti ola bilər (Yaponiya MM-in 295-ci maddəsi)[3]. **İkinci şərt** onunla bağlıdır ki, **saxlama hüququ ilə kreditor əsas öhdəliyin icrasını** təmin etməlidir. Bu öhdəliyə görə, borclunun vəzifəsidir ki, əmlakın qiymətini və bununla bağlı xərclərin və digər zərərin (məsələn, əşyanın saxlanması, heyvanın bəslənməsi, daşıma və s. xərclər) əvəzini ödəsin. **Üçüncü şərt** isə ondan ibarətdir ki, saxlama hüququ ilə təmin edilən öhdəlik **borclu tərəfindən nəzərdə tutulan müddətdə icra olunmamalıdır**.

Öz hüquqi təbiətinə görə girov hüququna yaxın olan **saxlama hüququ məhdud əşya hüququnun xüsusi qrupuna** daxildir[4]. Borclunun əşyasını saxlayan kreditor özgəyə məxsus olan həmin əşya üzərində elə bir hüquqa malikdir ki, bu hüquq kreditora öz əmlak mənafeyini təmin etməyə imkan verir. Belə ki, o, mülkiyyətçinin (borclunun) iradəsindən asılı olmayaraq, özgə əşyasından istifadə edə bilər. Bu xüsusiyyət və əlamət məhdud əşya hüququ üçün xarakterikdir. Bundan əlavə, saxlama hüququ girov hüququ kimi özündə əşya hüququna (o cümlədən məhdud əşya hüququna) xas olan başqa bir cəhəti – **«əşyanın arxasınca getmək» («əşyanı izləmək») kimi əlaməti** ehtiva edir. Belə ki, kreditorun saxladığı əşya üzərində hüququ mülkiyyət və ya digər əşya hüququ əsasında üçüncü şəxs əldə edə bilər. Əldə etmənin əsasları müxtəlif ola bilər: əvəzli özgəninkiləşdirmə (məsələn, alqı-satqı müqaviləsi); əvəzsiz özgəninkiləşdirmə (məsələn, bağışlama müqaviləsi); universal hüquq varisliyi qaydasında (məsələn, vərəsəlik, hüquqi şəxslərin yenidən təşkili). Məsələn, borclu şəxs ölür və saxlamanın predmeti olan əmlak üzərində vərəsə mülkiyyət hüququ əldə edir. Belə hallarda saxlama hüququ «əşyanın arxasınca gedir», kreditor həmin əşya üzərində saxlama hüququnu itirmir, əksinə, saxlayır. Əldə edən üçüncü şəxs üçün mülkiyyət və ya digər əşya hüququ ilə

[1] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 517.

[2] Prof. Sıbulenkonun çox da dəqiq olmayan belə bir fikri ilə razılaşmaq olmaz ki, guya saxlama birtərəfli hərəkətdir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 416). Professorun nəzərinə çatdırırıq ki, «saxlama hüququndan istifadə birtərəfli hərəkətdir (əqddir)» kimi fikir həqiqətə daha yaxındır.

[3] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. М., Книга 1. 1983, с. 201.

[4] *Маттеи У., Суханов Е.А.* Общие положения право собственности. М., 1999, с. 324; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 597.

bərabər yük də əmələ gəlir, yəni saxlamanın predmeti olan əmlak kreditor tərəfindən saxlanmaqda davam edir. Kreditorun saxlama hüququ, saxlanılan əşya üzərində əmlak hüquqlarının üçüncü şəxs tərəfindən əldə edildiyi hallarda da, öz hüquqi qüvvəsini itirmir, əksinə, saxlayır (MM-in 468-ci maddəsinin 4-cü bəndi). Başqa bir əlamət də saxlama hüququnu məhdud əşya hüququna aid etməyə imkan verir. Bu əlamət ondan ibarətdir ki, əşyanı öz sahibliyində saxlayan kreditor məhdud əşya hüququnun subyekti kimi həmin əşyanın mülkiyyətçisi hesab edilmir. Kreditor mülkiyyətçi olmayan şəxsdir. O, özgəsinin qanunsuz sahibliyindən əşyanı geri tələb edə bilər. Bununla bərabər, kreditor pozulmuş hüquqlar sahiblikdən məhrum edilmə ilə əlaqədar olmadıqda da özünün pozulmuş hüquqlarını müdafiə edə bilər (MM-in 157-ci maddəsi). Məhz bu cür xüsusiyyətlərinə görə Yaponiya mülki hüquq elmində saxlama hüququ əşya hüququ qrupuna şamil edilir. O, əşya-hüquqi təminat üsullarından biridir[1]. Burada haqlı olaraq göstərilir ki, saxlama müəyyən öhdəlik hüququnu təmin edir və bu hüquq verildikdə, saxlama hüququ da həmin öhdəlik hüququnun arxasınca gedir.

Almaniya mülki hüququna görə də saxlama hüququ məhdud əşya hüququnun bir növü hesab edilir. O, əşya-hüquqi təminat vasitəsi sayılır. Buna görə də saxlama hüququnu tənzim edən normalar Almaniya Mülki Qanunnaməsinin «Əşya hüququ» adlı ikinci kitabına daxil edilmişdir. Həmin kitabın «Saxlama hüququ» adlı yeddinci bölməsi özündə saxlama münasibətlərini nizama salan paraqrafları birləşdirir[2]. Həmin ölkələrin nəzərdə tutduğu saxlama hüququ konstruksiyaları arasında oxşar cəhətlər çoxdur.

Saxlama yuxarıda qeyd etdiyimiz kimi, **operativ təsir tədbirlərinin bir növüdür**. Belə ki, saxlamada operativ təsir tədbirlərinin bir sıra əlamətləri vardır. Birincisi, saxlama hüququ **kreditorun özü tərəfindən, səlahiyyətli dövlət orqanlarına müraciət edilmədən tətbiq olunur**. İkincisi, operativ təsir tədbirləri kimi saxlama hüququ faktiki yox, **hüquqi xarakter daşıyır**, yəni hər şeydən əvvəl, borclunun hüquq və vəzifəsinin dəyişməsinə səbəb olur. Üçüncüsü, operativ təsir tədbirləri kimi saxlama hüququ **hüquqqoruyucu xarakterə** malikdir. Belə ki, saxlama hüququndan kreditor yalnız borclu şəxs öhdəliyi icra etmədiyi hallarda istifadə edir. Dördüncüsü, saxlama hüququnun tətbiqi operativ təsir tədbirləri kimi **birtərəfli xarakterə malikdir**. Beşincisi, onların hər ikisinin təyinatı eynidir: borclu şəxs tərəfindən ona həvalə edilmiş **vəzifənin lazımınca icrasını təmin etmək**.

Bununla belə, saxlama hüququnu özünümüdafiə tədbiri hesab etmək olmaz. Ona görə ki, saxlama hüququ hüquqi xarakterli, özünümüdafiə isə faktiki xarakterli tədbirdir. Bu, bizə saxlama hüququnu özünümüdafiə tədbiri hesab edən bəzi müəlliflərin fikri ilə razılaşmamağa əsas verir[3].

Saxlama hüququnun əmələ gəlməsi üçün vacibdir ki, qanunda tələb olunan hüquqi faktlar olsun. Bu hüquqi faktlara aiddir:

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. М., Книга 1. 1983, с. 201.

[2] Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 6; Германское право. Гражданское уложение. М., 1996.

[3] Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 417; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 430.

- borclu tərəfindən əşyanın qiymətinin ödənilməsi üzrə **öhdəliyin nəzərdə tutulan müddətdə icra edilməməsi**; saxlama məhz öhdəliyi icra etmək məqsədi ilə əşyanın yüklənməsidir[1].
- borclu tərəfindən əşyanın qiymətinin ödənilməsi ilə bağlı **xərclərin və digər zərərin əvəzini ödəmək öhdəliyinin vaxtında icra edilməməsi**;
- sahibkarlıq öhdəliklərinin, yəni tərəfləri **sahibkarlar kimi fəaliyyət göstərən öhdəliklərin icra edilməməsi**.

Saxlama hüququ iki funksiya yerinə yetirir: təkan vermək və ya təminat funksiyasını; kompensasiya funksiyasını. Saxlama hüququnun **təkan vermək (təminat) funksiyasının** əsas mahiyyəti ondan ibarətdir ki, bunun vasitəsilə borclu tərəfindən pul öhdəliyinin lazımınca icrası təmin edilir, o, öhdəliyi icra etməyə təşviq olunur. Saxlama hüququnun **kompensasiya funksiyasının** isə əsas mahiyyəti ondan ibarətdir ki, bununla kreditorun borcluya olan tələbləri saxlanan əmlak hesabına təmin edilir, yəni saxlanılan əmlakın dəyərindən ödənilir (MM-in 469-cu maddəsi). Belə hallarla əlaqədar yaranan münasibətlərə girov qoyulmuş əşyaya tələbin yönəldilməsi haqqında qaydalar tətbiq edilir (MM-in 296-cı maddəsi).

Qüvvədə olan mülki qanunvericilik saxlama hüququnun iki növünü müəyyənləşdirir:

- ümumi mülki saxlama hüququ;
- sahibkarlıq saxlama hüququ.

Ümumi mülki saxlama hüququnun anlayışı MM-in 468-ci maddəsinin 1-ci bəndində, sahibkarlıq saxlama hüququnun anlayışı isə həmin maddənin 2-ci bəndində nəzərdə tutulur. Bu iki növ saxlama, hər şeydən əvvəl, əmələ gəlmə əsaslarına (hüquqi faktlara) görə, habelə həyata keçirdikləri funksiyanın məzmununa görə bir-birindən fərqlənir.

Ümumi mülki saxlama hüququ odur ki, o, borclunun əmlakın qiymətini ödəmək və ya kreditora bununla bağlı xərclərin və ya digər zərərin əvəzini ödəmək öhdəliyini vaxtında icra etməməsi kimi hüquqi fakt əsasında əmələ gəlir. Bu cür saxlama hüququnun subyekti həm sahibkarlar, həm də qeyri-sahibkarlar ola bilərlər. Başqa sözlə desək, bu növ saxlama hüququnun əsas funksiyası həm sahibkarlıq, həm də istehlakçı vətəndaşların iştirak etdikləri öhdəliklərin icrasını təmin etməkdən ibarətdir. Məsələn, kənd sakini uzun müddətə xarici ölkələrdən birinə işləməyə gedir və özünə məxsus olan mal-qaranı qonşusuna saxlamağa verir. Kənd sakini qayıtdıqdan sonra qonşu tələb edir ki, o, mal-qaranın bəslənməsi və onlara qulluq göstərilməsi xərclərini ödəsin. Kənd sakini bundan boyun qaçırır. Qonşu saxlama hüququndan istifadə edir. Bu misalda saxlama hüququnun subyekti sahibkar deyildir. Mal göndərmə müqaviləsi üzrə satıcı (mal göndərən) malları borclunun (alıcının) həmin malların pulunu ödəməsi müddətinə kimi göndərmir, özündə saxlayır. Bu halda isə saxlama hüququnun subyekti kimi sahibkar çıxış edir.

Sahibkarlıq saxlama hüququ odur ki, o, əmlakın və ya ona çəkilən xərclərin və digər zərərin əvəzinin ödənilməsi ilə bağlı yox, tərəfləri sahibkar statusuna malik olan öhdəlikdən əmələ gələn tələblərlə əlaqədar yaranır. Məsələn,

[1] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 517.

sahibkarlıq fəaliyyəti ilə məşğul olan kəndli (fermer) təsərrüfatı başçısı böyük ərazidə yetişən taxıl zəmisini biçmək üçün kommersiya təşkilatından sürücüsü ilə birlikdə kombaynı kirayəyə götürür. İşə başlamamışdan əvvəl onların razılığı ilə kombayna fermer təsərrüfatı başçısına məxsus olan yeni mühərrik qoyulur. Kombaynın sürücüsünün təqsirli hərəkəti nəticəsində mühərrik xarab olur və tamamilə yararsız hala düşür. Kəndli (fermer) təsərrüfatı başçısı kombaynı saxlayır və tələb edir ki, kommersiya təşkilatı kombayna yeni mühərrik qoysun.

2. Saxlama hüququnun subyektləri, predmeti və müddəti

Saxlama hüququnun subyekti dedikdə, borclunun əmlakını saxlayan kreditor başa düşülür. Subyekt rolunda mülki hüququn istənilən subyekti çıxış edə bilər. Xüsusən fiziki və ya hüquqi şəxslər saxlama hüququndan tez-tez hallarda istifadə edirlər. Dövlətin saxlama hüququnu tətbiq etməsi prinsip etibarilə istisna edilmir, bu, mümkündür. Kreditor Roma hüququ ənənələrinə uyğun olaraq «retentor» adlanır[1]. Saxlama hüququnun subyekti qismində həm sahibkar statusuna malik olan, həm də istehlakçı vətəndaşlar (qeyri-sahibkarlar), həmçinin həm kommersiya təşkilatları, həm də qeyri-kommersiya təşkilatları iştirak edə bilərlər.

Saxlama hüququnun predmetinə gəldikdə qeyd etmək lazımdır ki, qanun onun barəsində hər hansı bir tələb və ya məhdudiyyət müəyyən etmir. Bu, o deməkdir ki, kreditor **dövriyyə qabiliyyətli istənilən əşyanı saxlaya bilər**. Özü də dərhal göstəririk ki, saxlama hüququnun predmeti olan əşya kreditor üçün özgəsinin (başqasının) əşyası hesab edilir. Bu əşya mülkiyyət hüququ əsasında borcluya məxsusdur. Bir qayda olaraq, borclu kreditorun saxladığı əşyanın mülkiyyətçisi olur. Bununla belə, saxlama hüququnun predmeti olan əşya başqa titul əsasında da borclu şəxsə məxsus ola bilər. Borclunun əşyanın mülkiyyətçisi və ya titul sahibi olmasının hüquqi əhəmiyyəti və mənası yoxdur. Ona görə ki, saxlama hüququnun predmeti olan əşyanı kreditor borcluya və ya borclunun göstərdiyi şəxsə verməlidir.

Saxlama hüququnun predmeti kimi məhdud dövriyyə qabiliyyətli əşya da çıxış edə bilər. Bunun üçün zəruridir ki, kreditorun onda olan əşyaya sahibliyinə qanunda nəzərdə tutulan xüsusi icazə əsasında yol verilsin. Məsələn, mülki silah saxlama hüququnun predmeti kimi çıxış edə bilər. Bunun üçün kreditorun mülki silahdan istifadə etməyə müvafiq icazə alması tələb olunur. Beləliklə, kreditorun yalnız titul (qanuni əsası olan) sahibliyində olan əşya saxlama hüququnun predmeti ola bilər.

Kreditorun saxladığı əşyadan əmələ gələn bəhər, əşyadan götürülən gəlir və ondan əldə edilən məhsulun hüquqi taleyini qanun müəyyənləşdirmir. Elə hesab edirik ki, **saxlanılan əşyanın bəhəri, gəliri və məhsulu saxlama hüququnun predmetinə daxil edilir**. Amma Yaponiya mülki qanunvericiliyi bu məsələni xüsusi olaraq tənzimləyir (Yaponiya MM-in 297-ci maddəsi). Belə ki, saxlama hüququnu həyata keçirən şəxs saxlanan əşyadan bəhər əldə bilər və bu bəhər isə öhdəliyin icrası ilə əvəzləşdirilir. Saxlanan əşyadan mülki gəlir götürmək lazım olanda, məsələn, əşya icarəyə veriləndə, belə halda borclu-

[1] bax: *Удинцев В.А.* Понятие права удержания в римском праве. Киев. 1910; *Катков М.М.* Понятие права удержания в римском праве. Киев. 1910.

nun buna razılıq verməsi tələb olunur (Yaponiya MM-in 298-ci maddəsinin 2-ci bəndi)[1].

Saxlama hüququnun predmeti kimi, **əsasən, daşınar əşyalar çıxış edir. Daşınmaz əşyalara gəldikdə** isə qeyd etmək lazımdır ki, prinsip etibarilə bu cür əşyaların saxlama hüququnun predmeti olması istisna edilmir, **bu, mümkündür**[2], qanun bunu yasaqlamır. Məsələn, kirayəyə verən kirayəyə verilmiş evin bərpası üçün kirayəçinin çəkdiyi zəruri xərclərin əvəzini ona ödəmir (MM-in 680-ci maddəsinin 1-ci bəndi). Kirayəçi bu vəzifə icra edilənədək evi özündə saxlayır. Bunun üçün vacibdir ki, saxlama hüququ daşınmaz əşyaların dövlət reyestrində dövlət qeydiyyatına alınsın. Axı, saxlama hüququndan istifadə birtərəfli əqddir. Əqddən irəli gələn hüquqlar isə dövlət qeydiyyatına alınmalıdır (MM-in 336-cı maddəsinin 1-ci bəndi). Əgər saxlama hüququnun dövlət qeydiyyatına alınması tələbinə riayət edilməsə, onda o, etibarsız hesab olunur və məcburi qüvvəyə malik olmayaraq, hüquqi əhəmiyyət kəsb etmir.

Saxlama hüququnun predmeti kimi, əsasən, **fərdi əlamətləri ilə müəyyən edilən əşyalar** çıxış edir. Bununla bərabər, **cinsi (növ) əlamətləri ilə müəyyən edilən əşyalar** da kreditor tərəfindən saxlanıla bilər. Məsələn, kənd sakini üç il müddətinə saxlamaq məqsədilə çobana 20 ədəd qoyun verir. Onlar belə razılığa gəlirlər ki, çoban üç ildən sonra həmin qoyunların özünü yox, eyni cinsli başqa 20 ədəd qoyun versin. Çoban 20 ədəd qoyunu kənd sakininin onların bəsləmə və qulluq xərclərini ödəməsinə kimi vermir, özündə saxlayır. Bu halda saxlama hüququnun predmeti kimi cinsi (növ) əlamətləri ilə müəyyən edilən əmlak çıxış edir.

Saxlama hüququnun predmeti kimi pulun çıxış etməsi müəyyən xüsusiyyətlərə malikdir. Özü də dərhal qeyd edirik ki, pulun saxlama hüququnun predmeti olması onun növündən asılıdır. Belə ki, **ümumi mülki saxlama hüququnda pul bu hüququn predmeti kimi çıxış edə bilmir**[3]. Bu, onunla izah olunur ki, bu növ saxlama hüququ ilə təmin edilən tələb həmişə pul xarakterinə malikdir. Borcluya məxsus olan pulu saxlayan kreditorun borcluya pul tələbi irəli sürməsinin nə mənası var? Əgər saxlama hüququnun predmeti pul olsaydı, onda kreditor və borclunun bir-birinə qarşılıqlı (müqabil) eyni növlü (cinsli) pul tələbləri yaranardı, yəni kreditorun borcludan əşyanın pulunun, müvafiq xərclərin və s. ödənilməsini tələb etmək hüququ, borclunun isə ona məxsus və kreditorun saxladığı pulun verilməsini tələb etmək hüququ əmələ gələrdi. Belə halda eyni növlü iki pul tələbi əvəzləşdirilir və bununla öhdəlik tam və ya qismən xitam olunur.

Sahibkarlıq saxlama hüququ kimi növdə isə pul saxlama hüququnun predmeti kimi çıxış edə bilər. Bu, onunla izah edilir ki, saxlama hüququnun bu növü ilə təmin edilən tələb həmişə pul xarakterinə malik olmur. Məsələn,

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. М., Книга 1. 1983, с. 202.

[2] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 517.

[3] Söylədiklərimiz onu nümayiş etdirir ki, pul saxlama hüququnun predmeti kimi çıxış etmir. Ona görə də pulun saxlama hüququnun predmeti olması barədə qəti formada fikir söyləyən bəzi müəlliflərin mövqeyi həqiqətdən uzaqdır (bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова.* М., 1999, с. 612. Fəslin müəllifi prof. *M.İ.Braginskidir).*

mal göndərmə müqaviləsi sahibkarlıq müqaviləsidir. Bu müqavilədə iştirak edən tərəflərin hər ikisi, bir qayda olaraq, sahibkar statusuna malik olur. Bu müqavilə üzrə tərəflər belə bir razılığa gəlirlər ki, mal göndərən (satıcı) tərəfindən mal göndərildikdən sonra alıcı onun pulunu ödəsin. Satıcı iki partiyadan sonra mal göndərməni dayandırır. Alıcı göndərilmiş malların pulunu saxlayır və satıcıdan tələb edir ki, qalan malları da göndərsin. Bu misalda kreditorun (alıcının) tələbi pul yox, əmlakdan (maldan) ibarətdir. Saxlama hüququnun predmetini isə pul təşkil edir[1].

Bununla belə, **xarici valyuta və sənədli qiymətli kağızlar da saxlama hüququnun predmeti** ola bilər. Məsələn, vətəndaş özünə məxsus olan istiqraz vərəqələrini saxlanc üçün banka verir. O, saxlanc haqqını vermədikdə, bank istiqraz vərəqələrini saxlayır. Sənədsiz qiymətli kağızlar, müəyyən əmlak hüquqları[2], informasiyalar, işlər və xidmətlər, əqli fəaliyyətin nəticələri və qeyri-maddi nemətlərin saxlama hüququnun predmeti ola bilməsi istisna edilir.

Saxlama hüququnun müddəti dedikdə, borcluya və ya borclunun göstərdiyi şəxsə verilməli olan əmlakın kreditor tərəfindən saxlanması müddəti başa düşülür. Başqa sözlə desək, bu müddət saxlama hüququnun mövcud olma müddətini ifadə edir. Saxlama hüququnun mövcud olma müddəti qanunla müəyyənləşdirilmişdir[3]. Özü də bu müddət məhdudlaşdırılmışdır[4]. Belə ki, **kreditor əşyanı borclunun öhdəliyi icra etməsi vaxtına kimi saxlayır** (MM-in 468-ci maddəsinin 1-ci bəndi). Lakin bu, o demək deyildir ki, kreditor əşyanı qeyri-müəyyən müddətə saxlaya bilər.

Qanun **saxlama hüququnun həyata keçirilməsinin başlanğıc müddətini** də müəyyən edir[5]. Belə ki, saxlama hüququnun əmələ gəlməsi üçün əsas olan qanunun müəyyən etdiyi hüquqi faktlar yarandığı andan, yəni **borclunun öhdəliyi tələb olunan müddətdə icra etmədiyi andan kreditor saxlama hüququnu həyata keçirə bilər**. Bu an saxlama hüququnun həyata keçirilməsinin başlanğıc müddətidir. Həmin andan kreditor saxlama hüququndan istifadə edir. Bu hüquqdan kreditor yalnız o halda istifadə edə bilər ki, təmin olunan **əsas öhdəlikdən irəli gələn tələb üzrə iddia müddəti ötməsin**. Əgər iddia müddəti ötürülərsə, kreditor əşyanı saxlaya bilməz, habelə onun tələbi saxlanılan bu əşya hesabına ödənilə bilməz.

Tələb olunan iddia müddəti ötürülməzsə, kreditor mümkün olan iki variantdan birini seçir: birinci halda o, ya əşyanı borcluya və ya borclunun göstərdiyi

[1] Dediklərimiz onu sübut edir və təsdiqləyir ki, pul saxlama hüququnun predmeti ola bilər. Buna görə də pulun saxlama hüququnun predmeti ola bilməməsi haqqında qəti fikir söyləyən bəzi müəlliflərin mövqeyi ilə razılaşmaq olmaz (bax: Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* 1999, с. 135. Fəslin müəllifi *V.S.Yemdir*).

[2] Əmlak hüquqlarının bir növü olan nağdsız pul saxlama hüququnun predmeti ola bilər.

[3] Müəlliflərdən V.S.Yemin bu fikri ilə razılaşmaq olmaz ki, guya qanun saxlama hüququnun mövcud olma müddətini müəyyən etmir (bax: Гражданское право. Учебник. Том 1. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 135).

[4] Müəlliflərdən B.M.Qonqalo göstərir ki, guya saxlama hüququnun müddəti məhdudlaşmır. Söz yox ki, bu fikir dəqiqlikdən uzaqdır (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 404).

[5] V.S.Yemin belə bir fikri dəqiqliyə malik deyildir ki, guya qanun saxlama hüququnun həyata keçirilməsinin başlanğıc müddətini müəyyən etmir (bax: Гражданское право / Под ред. *Е.А.Суханова, с.* 135).

şəxsə verir; ikinci halda o öz tələbini saxlanan əmlak hesabına təmin edir. Hər iki halda saxlama hüququ ləğv edilir. Bəzən də elə bir vəziyyət yaranır ki, əşyanı uzun müddət saxlayan kreditor hərəkət etmir. Yaranan bu cür münasibəti qaydaya salmaq üçün qanun hər hansı bir göstəriş nəzərdə tutmur. Qanun belə halda saxlanılan əşyanın hüquqi taleyini müəyyənləşdirmir. Əgər borclu saxlanılan əşyanı tələb etmirsə, kreditor isə yuxarıda göstərilən variantlardan istifadə etmirsə, bu, o deməkdir ki, kreditor saxlanan əşya üzərində mülkiyyət hüququ ədə edir.

3. Kreditor və borclunun hüquq və vəzifələri

Kreditorun əsas vəzifəsi saxlama hüququnun predmeti olan **əşyanın salamatlığını təmin etməkdən** ibarətdir. O, əşyanın itməsinə, korlanmasına, zədələnməsinə, xarab olmasına və ya normal istifadə üçün yararsız hala düşməsinə görə məsuliyyət daşıyır. Kreditor saxlanan əşyaya vurulan zərərin əvəzini ödəməlidir. Özü də belə halda təqsirə görə məsuliyyət prinsipi tətbiq edilir. Bu, o deməkdir ki, **kreditor yalnız təqsiri olduqda məsuliyyət daşıyır**. Əgər onun təqsiri yoxdursa, əmlaka vurulan zərərin əvəzini ödəmir. Bu qayda ümumi mülki saxlama hüququna aiddir. Saxlama hüququnun ikinci növünə gəldikdə qeyd etmək lazımdır ki, təmin olunan əsas öhdəliyin sahibkarlıq öhdəliyi olmasına baxmayaraq kreditor yenə də təqsirdən asılı olaraq məsuliyyət daşıyır. Deməli, sahibkarlıq saxlama hüququ ilə təmin olunan əsas öhdəliyin iştirakçılarının (tərəflərin) sahibkar statusuna malik olmaları məsələnin mahiyyətini dəyişmir.

Kreditorun ikinci əsas vəzifəsi saxlama hüququnun predmeti olan **əşyadan istifadə etməməkdən** ibarətdir. Bu vəzifəni yerinə yetirməmək kreditor üçün mənfi nəticələrə səbəb ola bilər. Belə ki, o, bu cür qanunsuz istifadə nəticəsində əşyanın mülkiyyətçisinə və ya digər titul sahibinə vurulan zərərin əvəzini ödəməlidir. Əgər qanunsuz istifadə nəticəsində kreditor fayda götürərsə və bununla əsassız varlanarsa, o, götürülən faydanı borcluya qaytarmalıdır (MM-in 1092-ci maddəsi). Bununla belə, kreditorla borclu arasında razılaşma əsasında kreditor əşyadan istifadə edə bilər.

Kreditor vəzifə daşımaqla bərabər, həm də **hüquqlara** malikdir. Kreditor **məhdud əşya hüququ əsasında əşyaya sahiblik** edir. O, mülkiyyətçi olmayan şəxsdir. Ona görə də kreditor mülkiyyətçi olmayan şəxsin hüquqlarından istifadə edə bilər (MM-in 157-158-ci maddələri): özgəsinin qanunsuz sahibliyindən əşyanı geri tələb etmək hüququndan (MM-in 157-ci maddəsinin 2-ci bəndi); sahiblikdən məhrum etmə ilə bağlı olmayan hərəkətlərə (pozuntulara) son qoymağı tələb etmək hüququndan (MM-in 157-ci maddəsinin 4-cü bəndi); saxlanılan əşya üzərində sahibliyin istənilən şəxs, o cümlədən mülkiyyətçi tərəfindən pozulmaqdan müdafiə etmək hüququndan (MM-in 158-ci maddəsinin 4-cü bəndi).

Kreditorun ikinci əsas hüququ öz tələbini **saxlanan əmlak hesabına təmin etmək hüququdur**. Bu hüquq girovla təmin edilmiş tələblərin ödənilməsi üçün nəzərdə tutulan həcmdə və qaydada həyata keçirilir (MM-in 469-cu maddəsi). Həmin maddə **göndərici maddədir**. Belə ki, qanunvericilik saxlama hüququnu həyata keçirən kreditorun irəli sürdüyü tələblərin saxlanan əmlak hesabına ödənilməsini nizama salan xüsusi qayda müəyyən etmir. Bu halda qanunverici girov qoyulmuş əşyaya tələbin yönəldilməsi haqqında məlum qaydadan istifadə etməyi nəzərdə tutur[1]. Bu, o deməkdir ki, qanunvericilikdə müəyyənləşdirilən həmin qayda əmlakı saxlayan kreditorun tələblərinin saxlanan əmlak hesabına ödənilməsi ilə bağlı yaranan münasibətlərə də şamil edilir. Lakin məlum olan bu qaydanın tətbiq olunması saxlama hüququnun girov hüququna çevrilməsinə dəlalət etmir və əsas vermir[2]. Öz hüquqi təbiətinə və xarakterinə görə bu iki hüquqi konstruksiya bir-birinə çox oxşayır. Belə ki, həm girov hüququ, həm də saxlama hüququ məhdud əşya hüququna aid edilir. Bundan əlavə, hər iki institut kreditorun tələbinin girov qoyulmuş və ya saxlanan əmlak hesabına təmin edilməsi qaydasını müəyyən edir. Həm girov hüququ, həm də saxlama hüququ öhdəliklərin icrasının təminat üsullarıdır.

Bununla belə, **girov hüququ və saxlama hüququ bir-birindən fərqli olan anlayışlardır**. **Birinci fərq** ondan ibarətdir ki, girov hüququnun əmələ gəlmə əsası kimi girov müqaviləsi[3] və ya qanunda ifadə edilən göstəriş (qanuni girov) çıxış edir. **Saxlama hüququ isə qanunda nəzərdə tutulan hüquqi faktlardan**, yəni borclu tərəfindən müvafiq öhdəliyin vaxtında icra edilməməsi kimi haldan əmələ gəlir. **İkinci fərq** ondan ibarətdir ki, girov kreditorun tələbini borclu tərəfindən əsas (təmin olunan) öhdəliyin pozulmasına kimi təmin edir. Saxlama hüququ isə kreditorun tələbini əsas (təmin olunan) öhdəlik **borclu tərəfindən pozulduqdan sonra təmin edir**. Amma bunlardan fərqli olaraq, Yaponiya mülki hüququ saxlama hüququnu girov hüququnun bir növü kimi nəzərdə tutur. Belə ki, o, qanuni girov hüququ kateqoriyasına aid edilir[4].

Borclu da saxlama hüququna münasibətdə müəyyən vəzifə daşıyır, həm də hüquqlara malikdir. **Borclunun əsas vəzifəsi** öhdəliyi lazımınca icra edib, saxlama hüququnun predmeti olan **əşyanı kreditorun sahibliyindən götürməkdən ibarətdir**. Onun malik olduğu hüquqların dairəsinə aiddir: kreditor tərəfindən əşyanın salamat saxlanmasını tələb etmək hüququ: əşya xarab olduqda, korlandıqda, istifadə üçün yararsız hala salındıqda, zədələndikdə və s. hallarda əşyaya vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ;

---

[1] Qanunvericilik girov qoyulmuş əşyaya girov saxlayanın tələbinin yönəldilməsi haqqında bir neçə norma həsr etmişdir (MM-in 295-299-cu maddələri). Bu barədə geniş məlumat almaq üçün dərsliyin bu fəslinin «Girov hüququ» adlı müvafiq paraqrafına bax.

[2] bax: *Брагинский М.И., Витрянский В.В.* Договорное право. Общие положения. М., 1997, с. 449; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 140.

[3] Saxlama hüququndan istifadə birtərəfli əqddir. Özü də bu hüquq operativ təsir tədbirlərindən biridir. Deməli, tərəflərin razılaşması ilə müqavilə əsasında saxlama hüququnu müəyyənləşdirmək olmaz. Əgər saxlama hüququ müəyyənləşdirmək barədə kreditor ilə borclu öz aralarında razılığa gələrsə, onda bu saziş girov hüququnun yaranmasına dəlalət edir. Bu baxımdan qanun müəyyən edir ki, borclu ilə kreditor arasında bağlanan müqavilədə nəzədə tutularsa, saxlama haqqında qaydalar tətbiq edilmir, yəni saxlama hüququ belə halda girov hüququna çevrilir. Deməli, saxlama hüququ tərəflərin razılığı ilə müqavilə əsasında müəyyənləşdirilə bilməz. Ona görə ki, bu hüquqdan istifadə ikitərəfli əqd yox, birtərəfli əqddir. Bu nöqteyi-nəzərdən saxlama hüququnun tərəflərin sazişi əsasında müəyyənləşdirilməsi barədə fikir söyləyən T.V.Boqaçovanın mövqeyi alabatan deyil (bax: Гражданское право. Учебник. М., 1997, с. 430).

[4] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. М., Книга 1. 1983, с. 165.

kreditorun tələbi saxlanan əmlak hesabına ödənildiyi məqamlarda girov qoyanın hüquqlarından istifadə etmək və s.

§ 4. Zaminlik (Bürgschaftsleistung)

1. Zaminliyin anlayışı

Öhdəliklərin icrasının təmin edilməsi üsullarından biri zaminlik adlanır. Bu üsulun «tarixi yaşı» çox qədim vaxtlara gedib çıxır. Hələ Roma hüququ zaminlik hüquqi konstruksiyasını **«adpromissio»** adı altında nəzərdə tutmuşdu[1]. Roma hüququna görə, öhdəliyin şəxsi təminatı «adpromissio» formasında müəyyənləşdirilmişdi. «Adpromissio» öhdəlik hüquq münasibətinə əlavə məsul və cavabdeh şəxsin daxil olma forması hesab edilirdi. Roma hüququna görə, «adpromissio» üçüncü şəxsin elə bir əlavə stipulyasiyası idi ki, o, əsas öhdəliyin müəyyənləşdirilməsi ilə eyni vaxtda bağlanırdı[2]. Bizim zaminliyin forması haqqında təsəvvürlərimiz başlıca olaraq Qayın institusiyalarında nəzərdə tutulan məlumatlara əsaslanır. Qay zaminliyə onun bütün formaları üçün ümumi olan anlayış verir. «Adpromissio» elə bir zaminlik və ya müqavilədir ki, buna görə üçüncü şəxs kreditoru təmin etmək məqsədilə borclunun öhdəliyi (əsas öhdəlik) üzrə öz üzərinə məsuliyyət götürür[3]. Roma hüququna görə, zaminliyin üç halı fərqləndirilirdi: qismən intersessiya (intersessiya hər hansı bir şəxsin digər şəxsin, yəni özgənin borcunu öz üzərinə götürməsi deməkdir); kumulyativ intersessiya; subsidiar intersessiya[4].

Zaminlik hüquqi konstruksiyası bir çox Avropa ölkələrinin qanunvericiliyində də nəzərdə tutulur. Özü də həmin ölkələrin hüquq sistemlərinin əksəriyyəti zaminin subsidiar məsuliyyətini (subsidiar intersessiya) müəyyənləşdirir[5]. Zaminlik Rusiya hüquq sistemi üçün ənənəvi institutdur[6]. Bu institutu inqilabaqədərki rus qanunvericiliyi də tanıyırdı. Mülki Qanunnamənin 2448-ci maddəsi zaminliyin anlayışını formulə edirdi[7]. İnqilabaqədərki rus hüquqşünaslarından bəziləri zaminliyi müstəsna olaraq pul öhdəliyi kimi izah edirdilər[8]. Zaminlik

[1] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 377. Romada zaminlik öhdəliyin icrasının təmin edilməsinin ən geniş yayılmış forması hesab olunurdu. Bu, Roma cəmiyyətinin sosial-iqtisadi şəraiti ilə izah edilirdi. Kredit almağa ehtiyacı olan kasıblar girov hüququ vasitəsilə kreditoru təmin edə bilmirdilər.

[2] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 505.

[3] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 337.

[4] *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник / Перевод с македонского. М., 2000, с. 298. İntersessiyanın anlayışı və məzmunu barədə bax: *Нолькен А.* Учение о поручительстве по римскому и новейшим законодательствам СПб., 1881, с. 61-80.

[5] bax: Гражданское и торговое право капиталистических государств. Учебник / Под ред. *Е.А.Васильева.* М., 1993, с. 307.

[6] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова.* М., 1996, с. 613-619. RF MM-in 23-cü fəslinin 5-ci paraqrafına daxil olan normalar (361-367-ci maddələr) zaminliyin tənzimlənməsinə həsr edilmişdir.

[7] bax: *Брагинский М.И., Витрянский В.В.* Договорное право. Общие положения. М., 1997, с. 452-453.

[8] bax: *Гуляев А.М.* Русское гражданское право. Обзор действующего законодательства, кассационной политики Правительствующего Сената и проекта гражданского уложения. СПб., 1913, с. 348).

D.İ.Meyer[1], K.P.Pobedonostsev[2], G.F.Şerşeneviç[3] kimi alimlərin əsərlərində geniş səviyyədə və ətraflı olaraq nəzərdən keçirilir və işıqlandırılırdı. Zaminlik sovet qanunvericiliyində də nəzərdə tutulmuşdu. Elmi-praktiki kommentariyalarda bu hüquqi konstruksiya geniş təhlil olunurdu[4]. Azərbaycan Respublikasının 1964-cü il MM-in 192-197-ci maddələri zaminlik institutunun tənzimlənməsinə həsr edilmişdi. Ölkəmizin yeni MM-i də zaminlik konstruksiyasını tanıyır. MM-in 24-cü fəslinin 4-cü paraqrafına daxil olan normalar (470-478-ci maddələr) zaminlik münasibətlərini qaydaya salır. Özü də həm Azərbaycan Respublikasının, həm RF-in, həm də Avropa ölkələrinin qanunvericiliyinin zaminliyə aid normaları Roma hüququnun müəyyən etdiyi qaydalara, ənənələrə və prinsiplərə, əsasən, uyğun gəlir.

MM-in 470-ci maddəsi zaminliyə anlayış verir. **Zaminlik elə bir hüquq münasibətidir ki, buna görə zamin başqa şəxsin kreditoru qarşısında həmin şəxsin öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti öz üzərinə götürür**. Anlayışdan görünür ki, zaminliyə verilən bu definisiyanın (tərifin) əsasını Qayın institusiyalarında nəzərdə tutulan qayda və normalar təşkil edir. Almaniya mülki hüququ da zaminliyə mahiyyətcə eyni anlayış verir. Zaminlik Almaniya hüququna görə, şəxsi (personal) kredit, yəni öhdəliklərin icrasının şəxsi təminat üsulu kateqoriyasına aid edilir: zamin (başqa şəxs) öhdəliyi öz üzərinə götürür[5]. Zaminlik münasibətləri Almaniya Mülki Qanunnaməsinin birinci kitabının yeddinci bölməsinə daxil olan normalarla tənzimlənir. Həmin bölmə «Zaminlik» adlanır[6].

Zaminlik münasibətləri Yaponiya qanunvericiliyi tərəfindən də analoji qaydada tənzimlənir. Yaponiya MM-in 446-465-ci maddələri həmin münasibətlərin nizama salınmasına həsr edilmişdir[7].

Zaminlik bir sıra xüsusiyyətlərlə xarakterizə olunur. Onun ən **başlıca xüsusiyyəti** ondan ibarətdir ki, o, **öhdəlik hüquq münasibətidir** (öhdəlikdir). Bu öhdəlik zaminlik müqaviləsindən əmələ gəlir. Buna görə də o, zaminlik müqavilə öhdəliyi hesab olunur.

Zaminliyin **ikinci xüsusiyyəti** ondan ibarətdir ki, zaminlik üzrə münasibətlərdə **üç kateqoriya subyekt (tərəf) iştirak edir**: borclu; kreditor; zamin. **Borclu** odur ki, o, əsas öhdəlik üzrə öhdəliyi icra etmək vəzifəsini daşıyır. **Kreditor** dedikdə, əsas öhdəlik üzrə tələb etmək ixtiyarına malik olan şəxs başa düşülür. **Zamin** isə elə bir üçüncü şəxsdir ki, o, kreditor qarşısında borc-

[1] bax: *Мейер Д.И.* Русское гражданское право. Учебник. Часть 2. М., 1997, с. 187, 190.

[2] bax: *Победоносцев К.П.* Курс гражданского права. Обязательственное право. Сделки. Часть 3. СПб., 1890, с. 296-297.

[3] bax: *Шершеневич Г.Ф.* Учебник русского гражданского право (по изданию 1907 г.) М., 1995, с. 295.

[4] bax: Гражданский кодекс советских республик. Текст и практический комментарий / Под ред. *А.Малицкого.* М., с. 378; Комментарий к Гражданскому кодексу РСФСР / Под ред. *С.Н.Братуся* и *О.Н.Садикова*, с. 250.

[5] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 443.

[6] Основные институты гражданского права зарубежных стран. М., 1999; Германское право. Гражданское уложение. М., 1999.

[7] *Сакаэ Вагацума, Тору Арииздуми.* Гражданское право Японии. М., Книга 1. 1983, с. 305-312.

lunun öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti öz üzərinə götürür. Zamin borclu tərəfindən öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi hallarda kreditor qarşısında əmlak məsuliyyəti daşıyır.

Zaminlik ilə bağlı münasibət **iki cür münasibəti** əhatə edir. Birinci növ münasibət **borclu ilə zamin arasında** əmələ gəlir. Belə halda əsas öhdəlik üzrə borclu sayılan şəxs zaminlə belə bir saziş bağlayır ki, zamin borclu tərəfindən öhdəliyi icra etməmək risqini öz üzərinə götürsün. Onlar arasındakı münasibətlər **zaminliklə bağlı xidmət göstərilməsi barədə müqavilə** ilə rəsmiləşdirilir. İkinci növ münasibətlər **zaminlə kreditor arasında** yaranır. Bu cür məqamda isə zaminliklə bağlı xidmət göstərilməsi barədə müqaviləyə əsasən, zaminlə kreditor belə bir razılığa gəlirlər ki, borclu şəxs öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə zamin kreditor qarşısında əmlak məsuliyyəti daşısın. Həmin münasibətlər **zaminlik müqaviləsi ilə** rəsmiləşdirilir; zamin ona görə belə müqavilə bağlayır ki, borclunun öhdəliyi icra etməsinə görə məsuliyyət daşısın[1]. Dediklərimizdən belə çıxır ki, zaminlik müqaviləsinin bağlanmasında iki tərəf-zamin və kreditor çıxış edir. Baxmayaraq ki, bir qayda olaraq, kreditorun tələbi ilə zaminlik müqaviləsinin bağlanmasını borclu şəxs təşkil edir, o, həmin müqavilənin bağlanmasında iştirak etmir.

Bununla belə, praktikada elə hallara təsadüf olunur ki, **zaminlik müqaviləsinin bağlanmasında üç tərəfin hamısı, yəni zamin, borclu və kreditor eyni vaxtda iştirak edirlər**. Bu halda üç tərəfin iradəsini ifadə edən həmin hüquqi konstruksiya özündə iki müqavilənin elementini birləşdirir: zaminliklə bağlı xidmət göstərilməsi barədə müqavilənin; zaminlik müqaviləsinin. Buna görə də göstərilən konstruksiya **qarışıq (kompleks) müqavilə** təbiətinə və xarakterinə malik olur (MM-in 390-cı maddəsinin 4-cü bəndi).

Zaminliyin **üçüncü xüsusiyyəti** ondan ibarətdir ki, o, **geri çağırılmayan müqavilə öhdəliyidir**. Belə ki, zaminin öhdəliyin icrasından birtərəfli imtina etmək və ya onun şərtlərini birtərəfli dəyişdirmək hüququ yoxdur. Bu öhdəlik hüququnda sabitlik prinsipinin qüvvədə olması və fəaliyyət göstərməsi ilə izah olunur. Bu prinsipə görə, öhdəliyin (o cümlədən zaminlik öhdəliyinin) icrasından birtərəfli imtinaya və onun şərtlərini birtərəfli dəyişdirməyə yol verilmir (MM-in 430-cu maddəsinin 1-ci bəndi).

Zaminliyin **dördüncü xüsusiyyəti** ondan ibarətdir ki, o, **aksessor (əlavə) törəmə öhdəlikdir**. Onun taleyi əsas öhdəlikdən asılıdır. O, əsas (təmin olunan) öhdəliyin icrasını təmin edən öhdəlikdir. Zaminlik öhdəliyinin yaranması əsas (təmin olunan) öhdəliyin əmələ gəlməsilə şərtlənir. Bu öhdəlik üzrə tərəflərin hüquq və vəzifələri əsas (təmin olunan) öhdəlik meydana gəldikdən sonra yaranır. Axı, mövcud olmayan öhdəliyin icrasını necə təmin etmək olar. Öhdəlik mövcud deyilsə, həmin öhdəliyin icrasını təmin edən öhdəliyin yaranmasından da söhbət gedə bilməz. Belə təsəvvür yaranır ki, **zaminlik öhdəliyi yalnız mövcud olan əsas öhdəliyi təmin edir**. Lakin qanun bu qaydadan müəyyən istisna hala yol verir. Belə ki, **zaminlik müqaviləsi gələcəkdə yaranacaq öhdəliyin təmin edilməsi üçün də bağlana bilər** (MM-in 470-ci maddəsinin 2-ci bəndi). Bu halda zaminlik müqaviləsi üzrə tərəflərin hüquq və

[1] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 536.

vəzifələri gələcək öhdəliyin yaranması anına kimi təxirə salınır, yubadılır. Onların hüquq və vəzifələrinin əmələ gəlməsi gələcəkdə müvafiq öhdəliyin meydana gəlməsi kimi şərtdən asılı olur. Deməli, gələcəkdə yaranacaq öhdəliyin təmin edilməsi üçün bağlanan zaminlik müqaviləsi təxirəsalıcı şərtlə bağlanan əqd təbiətinə və xarakterinə malik olur (MM-in 328-ci maddəsinin 4-cü bəndi).

Zaminliyin aksessor (əlavə) öhdəlik olması onunla izah olunur ki, əsas (təmin olunan) öhdəliyin etibarsızlığı zaminliyin etibarsızlığına səbəb olur. Zaminlik müqaviləsinin etibarsızlığı isə, əksinə, əsas öhdəliyin etibarsız hesab edilməsinə dəlalət etmir. Zamin əsas öhdəliyin etibarlı olması üçün məsuliyyət daşımır. Onun cavabdehliyi əsas öhdəliyin icrası ilə məhdudlaşır. Zaminliyin törəmə, asılı öhdəlik olması həm də onunla bağlıdır ki, əsas (təmin olunan) öhdəliyin xitam edilməsi zaminliyin ləğv olunmasına səbəb olur.

Zaminliyin **beşinci xüsusiyyəti** ondan ibarətdir ki, zaminliklə, bir qayda olaraq, **borc və kredit müqavilələrindən əmələ gələn pul öhdəlikləri təmin edilir**[1]. Bəzi hallarda zaminliklə alqı-satqı müqaviləsi üzrə alıcının satılan əşyanın pulunu ödəmək vəzifəsi, podrat müqaviləsi üzrə sifarişçinin podratın (işin) nəticəsini, yəni podrat haqqını ödəmək vəzifəsi də və s. zaminliklə təmin oluna bilər. Zamin vicdansız borclunun yerinə öhdəliyi naturada icra etmək vəzifəsini daşımır. Adətən o, bu cür imkana malik olmur, bir şərtlə ki, öhdəlik pul öhdəliyi olmasın. Buna görə də zamin, ümumi qaydaya görə, borclu tərəfindən icra olunmamış öhdəliyi pul formasında yerinə yetirə bilər. Belə halda zaminlik, demək olar ki, müstəsna olaraq, yalnız pul öhdəliklərinin icrasının üsulu kimi çıxış edir.

2. Zaminlik müqaviləsinin hüquqi təbiəti, əsas xüsusiyyətləri və elementləri

Zaminlik, daha doğrusu, zaminlik öhdəliyi (zaminlik hüquq münasibəti) **zaminlik müqaviləsindən əmələ gəlir**. Deməli, zaminlik müqaviləsi zaminliyin əmələ gəlməsi üçün əsas olan hüquqi faktdır.

Zaminlik müqaviləsi dedikdə, kreditorla zamin arasında bağlanan elə bir saziş başa düşülür ki, bu sazişə görə, zamin kreditor qarşısında, borclu tərəfindən öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda, həmin öhdəliyi tamamilə və ya hissə-hissə icra etməsi üçün öz üzərinə əmlak məsuliyyəti götürür. Anlayışdan görünür ki, bu müqavilə iki tərəf arasında bağlanır. Başqa sözlə desək, zaminlik müqaviləsinin bağlanması üçün iki tərəfin – əsas öhdəlik üzrə kreditorla zaminin iradə ifadəsi tələb olunur. Ona görə də əqdlərin bölgüsü baxımından bu müqavilə **ikitərəfli əqddir**. Deməli, dediklərimizdən belə çıxır ki, zaminlik müqaviləsinin bağlanması üçün borclu şəxsin iradə ifadəsi tələb olunmur. Bu hal isə onu sübut edir və

[1] Yaponiya mülki hüququna görə, zaminlik pul öhdəliyinin qarantiyası hesab ediiir və bu baxımdan o, şərti öhdəlik sayılır. Bu qəbildən olan zaminlik həm də şəxsi zaminlik adlanır. Yaponiya mülki hüquq elmində zaminliyin üç əsas xüsusiyyəti göstərilir: birincisi, zaminlik əsas öhdəliyə tabedir, yəni əsas öhdəlik olmadan zaminlik də yoxdur; ikincisi, zaminlik əsas öhdəliyin «arxasınca gedir»; üçüncüsü, zaminlik yalnız o halda icra edilir ki, əsas öhdəlik icra olunmasın (*Сакаэ Вагацума, Тору Арииидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 305-306).

təsdiqləyir ki, zaminlik müqaviləsinin etibarlı olması borclunun bu müqavilənin bağlanmasına razılıq verib-verməməsindən asılı deyildir. Zaminlik müqaviləsinin bağlanmasında borclunun xahişi yalnız **əqdin motivi** rolunu oynaya bilər. Əqdin motivi isə onun zəruri yox, fakultativ (qeyri-zəruri, qeyri-məcburi) elementidir və buna görə əqdin etibarlı olmasına təsir göstərmir[1].

Müqavilələrin təsnifi baxımından isə **zaminlik müqaviləsi birtərəfli müqavilədir**. Ona görə ki, bu müqavilənin iştirakçısı olan kreditor yalnız tələb etmək hüququna malikdir. Onun ixtiyarı vardır ki, borclu öhdəliyi icra etmədiyi və ya lazımınca icra etmədiyi hallarda zamindən öhdəliyin tamamilə və yaxud da hissə-hissə icrasını tələb etsin. Kreditor zaminlik müqaviləsi üzrə vəzifə daşımır. Müqavilə üzrə vəzifəni zamin daşıyır. Onun əsas vəzifəsi kreditor qarşısında borclunun öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etmək üçün məsuliyyəti öz üzərinə götürməsindən ibarətdir.

Zaminlik müqaviləsi bağlandığı andan qüvvəyə minir və tərəflər üçün məcburi qüvvəyə malik olur. Başqa sözlə desək, bu müqavilə, tərəflər müqavilənin bütün mühüm şərtləri barəsində razılığa gəldikdə, bağlanmış hesab edilir. Bu andan tərəflərin hüquq və vəzifələri əmələ gəlir. Deməli, zaminlik müqaviləsi **konsensual müqavilədir**.

Zaminlik müqaviləsinə görə, zamin kreditordan haqq və ya digər qarşılıqlı əvəz almadan öz üzərinə məsuliyyət daşımaq öhdəliyi götürür. Başqa sözlə desək, bu müqavilə zaminin öz vəzifəsinin icrası müqabilində haqq və ya digər qarşılıqlı əvəz almamasını nəzərdə tutur. Deməli, zaminlik müqaviləsi **əvəzsiz müqavilədir**[2]. Bundan fərqli olaraq, zaminlə borclu arasında bağlanan **zaminliklə bağlı xidmət göstərilməsi barədə müqavilə əvəzlidir**. Belə ki, zaminin borcluya göstərdiyi xidmətlər üçün haqq almaq hüququ vardır (MM-in 473-cü maddəsi). Müqavilədə onun əvəzsiz olması barədə tərəflərin razılığı da ifadə oluna bilər, yəni bu müqavilə tərəflərin razılığı ilə **əvəzsiz də ola bilər**.

Zaminlik müqaviləsinin bağlanmasında iki tərəf iştirak edir: kreditor; zamin. Qanun onlar üçün hər hansı bir xüsusi tələb irəli sürmür. **Həm kreditor, həm də zamin rolunda fiziki və ya hüquqi şəxslər çıxış edə bilərlər**[3]. Lakin bəzi hüquqi şəxslərin zamin rolunda çıxış etməsi istisna olunur. Məsələn, büdcə təşkilatları, məhdud əşya hüququnun — operativ idarəetmə hüququnun, tam təsərrüfatçılıq səlahiyyəti hüququnun subyektləri, söz yox ki, zamin rolunda zaminlik müqaviləsi bağlaya bilməzlər. Hüquqi şəxsin filial və nümayəndəlikləri də zamin qismində çıxış edə bilməz.

Zaminlik müqaviləsində zamin tərəfində iki və daha çox şəxs çıxış edə bilər. Həmin zaminlərə **birgə zamin durmuş şəxslər (birgə zaminlər)** deyilir.

[1] Əqdin motivi barədə bu dəsliyin «Əqdlər» adlı fəslinin müvafiq paraqrafına bax.

[2] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 608; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 418; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 69.

[3] Yaponiya mülki hüququna görə, zaminlik müqaviləsinin tərəfləri zamin və kreditordan ibarətdir. İstənilən şəxs zamin rolunda çıxış edə bilər, bu şərtlə ki, birincisi, zamin tam fəaliyyət qabiliyyətinə malik olsun, ikincisi, öhdəliyin icrası üçün ödəniş qabiliyyətli sayılsın (*Сакаэ Вагацума, Тору Ариидзуми*. Гражданское право Японии. М., Книга 1. 1983, с. 306).

Bu halda öhdəlikdə şəxslər çoxluğu — özü də passiv şəxslər çoxluğu konstruksiyası yaranır. Birgə zamin durmuş şəxslər kreditor qarşısında birgə məsuliyyət daşıyırlar (MM-in 472-ci maddəsinin 3-cü bəndi). Bu maddə dispozitiv xarakter daşıyır. Belə ki, tərəflərin razılığı ilə zaminlik müqaviləsində ayrı qayda, yəni **paylı (hissə-hissə) məsuliyyət** də nəzərdə tutula bilər.

Zaminliklə bağlı yaranan münasibətlərdə təkrar (ikiqat) zaminlər adlı fiqur da çıxış edə bilər. **İkiqat (təkrar) zaminlər** odur ki, onlar bir-birindən asılı olmayaraq, müxtəlif zaminlik müqavilələri bağlamaqla kreditor qarşısında eyni bir borclu şəxsin öz öhdəliyini icra etməsi üçün məsuliyyəti öz üzərinə götürürlər. İkiqat (təkrar) zaminlər birgə zaminlər hesab olunmurlar. Məsələn, vətəndaş bankdan kredit alır. Onun dayısı bankla zaminlik müqaviləsi bağlayır. Vətəndaşın əmisi də bankla digər zaminlik müqaviləsi bağlayır. Vətəndaşın dayı və əmisi ikiqat zaminlər hesab edilirlər. İkiqat zaminlərin iştirak etdikləri zaminlik **ikiqat (təkrar) zaminlik** adlanır. Yaponiya mülki hüququna müştərək (şərikli) zaminlik adlı konstruksiya məlumdur. Bu konstruksiyaya görə, eyni bir öhdəliyin icrası üçün bir neçə zamin öz üzərlərinə məsuliyyət götürürlər. Hər bir zaminin statusu həm vahid bir müqavilə ilə, həm də ayrı-ayrı bir neçə müqavilə ilə müəyyən edilə bilər. Axırıncı halda öhdəliyin ümumi məbləği bütün zaminlər arasında bərabər bölünür (MM-in 456-cı maddəsi)[1].

Zaminlik üzrə münasibətlərdə zaminin zamini adlı subyekt də çıxış edə bilər. **Zaminin zamini** elə bir üçüncü şəxsdir ki, o, kreditor qarşısında borclunun öhdəliyi üçün məsuliyyət daşıyan zaminin cavabdehliyini öz üzərinə götürür. Bunun üçün üçüncü şəxs (zaminin zamini) kreditorla zaminlik müqaviləsi bağlayır. Bu halda **yenidən zaminlik — zamin üçün zaminlik adlı hüquqi konstruksiya** yaranır. Zamin və onun zamini kreditor qarşısında **subsidiar (əlavə) məsuliyyət daşıyırlar**. Bu, o deməkdir ki, əgər kreditor qarşısında zamin öz öhdəliyini icra etməzsə, onda zaminin zamini öhdəliyi yerinə yetirməyə borcludur. Məsələn, vətəndaş sahibkardan borc pul alır. Vətəndaşın qonşusu zamin durur və sahibkarla zaminlik müqaviləsi bağlayır. Kənddə yaşayan fermer təsərrüfatı başçısı zamin olan qonşunun əvəzinə zamin durur və sahibkarla zaminlik müqaviləsi bağlayır. Qonşu zamin, fermer təsərrüfatı başçısı isə zaminin zaminidir. Əgər qonşu sahibkar qarşısında öz vəzifəsini icra etməzsə, onda bu vəzifəni zaminin zamini icra edəcəkdir.

Zaminlik müqaviləsinin elementlərindən biri onun **formasıdır**. Qanun bu müqavilənin formasını xüsusi olaraq tənzimləyir (MM-in 471-ci maddəsi). Qanun zaminlik müqaviləsi üçün **yazılı forma** tələb edir. Belə ki, bu müqavilə yazılı formada bağlanır. Tərəflər zaminlik müqaviləsini, bir qayda olaraq, onun məzmununu ifadə edən **sənədin tərtibi yolu** ilə bağlayırlar. Bu sənədi kreditor və zamin duran şəxs imzalayırlar. Zaminlik müqaviləsi rabitə vasitələrilə **sənədlərin mübadiləsi yolundan** istifadə etməklə də bağlana bilər[2].

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми*. Гражданское право Японии. М., Книга 1. 1983, с. 312.

[2] RF Ali Arbitraj Məhkəməsi Plenumunun qərarında göstərilir ki, zaminlik müqaviləsi bu yolla bağlananda zaminliyin kreditor tərəfindən qəbul edilməsi barədə sübutun olması vacibdir. Əgər sübut yoxdursa, müqavilə bağlanmamış hesab edilir (bax: постановление от 31 октября 1995 г. №7331/95. Президиума ВАС РФ // Вестник ВАС РФ. 1996. №1, с. 75).

Zaminlik müqaviləsinin forması barədə qanunun göstərişi imperativ xarakter daşıyır. Bu, o deməkdir ki, müqavilənin forması barədə tərəflər başqa qayda nəzərdə tuta bilməzlər və o, şifahi formada bağlana bilməz. Zaminlik müqaviləsinin yazılı formasına riayət edilməməsi mənfi hüquqi nəticələrə səbəb olur. Belə ki, yazılı formada bağlanmayan zaminlik müqaviləsi etibarsız əqd hesab edilir (MM-in 471-ci maddəsi).

3. Zaminlik öhdəliyinin məzmunu və icrası

Zaminlik öhdəliyinin məzmunu kreditorun tələb etmək hüququndan və zaminin öz üzərinə götürdüyü məsuliyyət daşımaq vəzifəsindən ibarətdir. Zaminin məsuliyyət daşımaq vəzifəsinin icrası borclunun əsas (təmin olunan) öhdəlik üzrə öz vəzifəsini yerinə yetirməsilə şərtlənir. Borclu öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə zamini məsuliyyətə cəlb etmək üçün əsas yaranır.

Ümumi qaydaya görə, **kreditor qarşısında borclu və zamin birgə məsuliyyət daşıyırlar**. Kreditorun ixtiyarı var ki, o, öhdəliyin icrasını öz arzusu ilə həm borcludan, həm də zamindən tələb etsin (MM-in 472-ci maddəsinin 1-ci bəndi, 501-ci maddəsi). Lakin birgə məsuliyyət zaminliyin mühüm və zəruri şərti deyildir. Belə ki, qanunda və ya zaminlik müqaviləsində **zaminin subsidiar məsuliyyəti nəzərdə tutula bilər** (MM-in 472-ci maddəsinin 1-ci bəndi). Kreditor zaminə qarşı tələb irəli sürməmişdən əvvəl borcluya tələb irəli sürür. Borclu kreditorun tələbini ödəməkdən imtina edə bilər. O, kreditorun irəli sürdüyü tələbə ağlabatan müddətdə cavab verməyə də bilər. Belə halda kreditor subsidiar məsuliyyət daşıyan zaminə qarşı tələb irəli sürür.

Zaminin daşıdığı məsuliyyətin həcmini qanun xüsusi olaraq tənzimləyir. Belə ki, zamin **kreditor qarşısında borclu ilə eyni həcmdə məsuliyyət** daşıyır (MM-in 472-ci maddəsinin 2-ci bəndi). Bu, o deməkdir ki, zaminlik öhdəliyi üzrə zaminin kreditor qarşısında öhdəliyi borclunun əsas (təmin olunan) öhdəlik üzrə öhdəliyi ilə həcm etibarilə bərabər olub, üst-üstə düşür. Bu halda əsas öhdəlikdən (borcdan) əlavə, zamin kreditora ödəməlidir: faizləri; borc tutulması üzrə məhkəmə xərclərini; borclunun öhdəliyi icra etməməsi və ya lazımınca icra etməməsi nəticəsində kreditora dəyən digər zərərin əvəzini; dəbbə pulu. Ümumi qayda bundan ibarətdir. Lakin bu qayda imperativ yox, dispozitiv xarakter daşıyır. Belə ki, zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutula bilər (MM-in 472-ci maddəsinin 2-ci bəndi). Zaminlik müqaviləsində tərəflər belə bir razılığa gələ bilərlər ki, zamin kreditor qarşısında öhdəliyi qismən (yəni tamamilə yox, hissə-hissə) icra etsin, yəni onun məsuliyyəti məhdudlaşdırılsın. Məsələn, zaminlik müqaviləsində zaminin ancaq əsas borc məbləğini (faizləri, cərimələri və s. yox) ödəmək və yaxud borc məbləğinin yarısını ödəmək vəzifəsi nəzərdə tutula bilər. Bu cür vəziyyətdə zaminlik müqaviləsi üzrə zaminin öhdəliyi (məsuliyyəti) borclunun öhdəliyinə (məsuliyyətinə) həcm etibarilə uyğun gəlmir, yəni azalır, daralır. Ümumiyyətlə, zaminin məsuliyyət predmeti əsas öhdəliyin həcmini aşa bilməz[1].

Zaminin **kreditorun tələblərinə qarşı etiraz hüququ** vardır. Zaminin ixtiyarı çatır ki, o, kreditorun tələbinə qarşı borclunun irəli sürə biləcəyi etirazları irəli sürsün. Borclunun etiraz etmək hüququndan imtina etməsi və ya onun öz borcunu etiraf etməsi zamini bu cür hüquqdan məhrum etmir.

Zaminin etirazı müxtəlif məsələləri əhatə edə bilər: əsas öhdəliyin əsasını təşkil edən əqdin etibarlı olub-olmaması barədə mübahisə etmək; məsuliyyətdən azad olmaqla və ya məsuliyyətin həcmini azaltmaqla bağlı olan etiraz etmək; borcluya məxsus olan eyni növlü (cinsli) qarşılıqlı tələbin əvəzləşdirilməsi ilə bağlı etiraz etmək və s. Xüsusən o, puç əqdlərin etibarsız hesab edilməsini tələb edə bilər.

Zaminin daşıdığı əsas vəzifələrdən biri **borcluya məlumat vermək vəzifəsindən** ibarətdir. Bu məlumatın əsasını zaminin kreditorun tələbini ödəməsi barədə borcluya xəbər verməsi təşkil edir. Belə ki, kreditor pretenziyanın ödənilməsi barədə zaminə tələb verir. Zamin həmin tələbi ödəməmişdən qabaq bu barədə borclunu xəbərdar edir. Məlumat vermək vəzifəsini o, müxtəlif formalarda – yazılı və ya şifahi formalarda yerinə yetirə bilər. Qanun bu barədə konkret göstəriş ifadə etmir (MM-in 474-cü maddəsinin 2-ci bəndi). Zamin üçün bu cür vəzifənin müəyyən edilməsi **kreditor qarşısında ikiqat icranın qarşısını almaq məqsədini** güdür. Bu, onu ifadə edir ki, borclu və zaminin hər ikisi öhdəliyi yerinə yetirməsin.

Zaminin icra etməyə borclu olduğu vəzifələrdən biri **borclunu işdə iştirak etməyə cəlb etməkdən ibarətdir** (MM-in 474-cü maddəsinin 2-ci bəndi). Bu vəzifə yalnız o halda əmələ gəlir ki, kreditor zaminə qarşı məhkəmə qaydasında iddia irəli sürsün. Belə ki, zamin kreditorun tələbini könüllü qaydada yerinə yetirmir. Buna görə də kreditor mübahisəni həll etmək üçün iddia vermək vasitəsi ilə məhkəməyə müraciət edir. Bu halda zaminin vəzifəsidir ki, o, borclunu mülki prosesə, yəni həmin işdə iştiraka cəlb etsin (MM-in 474-cü maddəsinin 2-ci bəndi).

Zaminin malik olduğu əsas hüquqlardan biri onun kreditorun borcluya olan əsas tələb hüququnu, habelə kreditorun girov hüququnu əldə etməsilə bağlıdır (MM-in 475-ci maddəsinin 1-ci bəndi). Belə ki, əgər zamin könüllü və ya məhkəmə qərarı əsasında borclunun əsas (təmin olunan) öhdəlik üzrə vəzifəsini icra edərsə, onda **kreditorun borcluya olan başlıca (əsas) tələb hüququ, həmçinin kreditorun girov hüququ zaminə keçir**. Kreditorun girov hüququ o halda əmələ gəlir ki, əsas öhdəlik zaminlikdən əlavə, əmlakın (əmlak hüquqlarının) girov qoyulması ilə təmin edilsin. Öhdəliyi icra etdiyi halda kreditorun girov hüququ da zaminə keçir. Bu halda zamin girov qoyulmuş əmlak hesabına öz tələbini təmin edir.

[1] Bu, Yaponiya mülki hüququnun müəyyən etdiyi qaydaya uyğun gəlir. Məsələn, əsas öhdəliyin məbləğinin 100 min iyen, zaminliyin məbləğinin isə 120 min iyen olmasına yol verilmir. Amma zaminliyin məbləği əsas öhdəliyin məbləğindən az ola bilər. Məsələn, əsas öhdəliyin məbləğinin 120 min iyen, zaminliyin məbləğinin isə 100 min iyen olması mümkündür. Bundan əlavə, zaminlik müqaviləsində nəzərdə tutula bilər: vurulan zərərin əvəzinin ödənilməsi; dəbbə pulu (MM-in 447-ci maddəsinin 2-ci bəndi) // *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. М., Книга 1. 1983, с. 306).

Kreditorun borcluya olan tələb hüququnun və onun malik olduğu girov hüququnun zaminə hansı həcmdə keçməsi onun kreditor qarşısında öhdəliyi hansı həcmdə icra etməsi ilə, yəni kreditorun tələbini hansı həcmdə ödəməsi ilə şərtlənir. Əgər zamin borclunun əvəzinə kreditorun əsas öhdəlik üzrə tələbini tam həcmdə ödəmişsə, onda kreditorun bu öhdəlik üzrə əsas tələb hüququ bütövlükdə ona keçir. Yox, əgər zamin kreditorun tələbini qismən icra edərsə, onda kreditorun hüquqlarının hamısı yox, yalnız bir hissəsi (qismən) ona keçir. Kreditorun zaminə keçən girov hüququnun həcmi də, yuxarıda qeyd etdiyimiz kimi, zaminin kreditorun tələbini ödəməsi həcmindən asılı olaraq müəyyən edilir.

Zaminin əsas hüquqlarından biri ondan ibarətdir ki, o, **borcluya reqres (geriyə tələb) hüququna malikdir** (MM-in 474-cü maddəsinin 3-cü bəndi, 476-cı maddəsi)[1]. **Reqres tələbin əsas mahiyyəti** zaminin borclunun əvəzinə kreditora ödədiyi pul vəsaitini geri almaqdan ibarətdir. Kreditor qarşısında əsas öhdəlik üzrə borclunun vəzifəsinin (əsas borcu) ödədikdən sonra zaminin bu cür hüququ əmələ gəlir. Reqres tələbin həcmi zaminin kreditorun tələbini ödədiyi həcmdən asılı olaraq müəyyən edilir. Əgər zamin kreditorun tələbini tam həcmdə ödəmişsə, onda reqres tələb də tam həcmə malik olacaqdır. Yox, əgər kreditorun tələbini o, qismən icra etmişsə, onda reqres tələb natamam (qismən) xarakter daşıyacaqdır. Lakin reqres tələb verilməsini əsaslandırmaq üçün kreditorun borcudur ki, o, zəruri və lazımi sənədləri zaminə versin. Zəruri sənədlər dedikdə, kreditorun borcluya qarşı tələbini təsdiqləyən və sübutetmə əhəmiyyətinə malik olan sənədlər (məsələn, müqavilənin surəti və s.) başa düşülür. Bununla belə, kreditor onun borcluya olan tələbini təmin edən hüquqları (məsələn, girov qoyulmuş əmlakı) da zaminə verməyə borcludur (MM-in 475-ci maddəsinin 4-cü bəndi).

Zaminin malik olduğu hüquqlardan biri ondan ibarətdir ki, o, **borcludan faizlər ödənilməsini tələb etmək ixtiyarına malikdir** (MM-in 475-ci maddəsinin 1-ci bəndi). Zaminə bu cür hüquq verilməsi ona imkan verir ki, o, borclunun əvəzinə əsas öhdəlik üzrə vəzifəni icra edərkən müəyyən məbləğdə pul vəsaitinin təsərrüfat dövriyyəsindən çıxması nəticəsində düşdüyü zərərin əvəzini kompensasiya etsin. Faiz zaminin kreditora ödədiyi məbləğ üzrə hesablanır. Məsələn, elə hesab edək ki, əsas öhdəlik üzrə borclunun kreditora ödəməli olduğu məbləğ 10 min manatdır. Zamin borclunun əvəzinə həmin məbləği kreditora ödəyir. Həmin andan zaminin borclu şəxsdən 10 min manata görə faiz almaq hüququ yaranır. Bu faiz qanunun müəyyən etdiyi qayda əsasında hesablanır (MM-in 449-cu maddəsinin 1-ci və 2-ci bəndləri). Həmin qaydaya görə, faizlərin miqdarı zaminin pul öhdəliyini icra etdiyi gün üçün tətbiq edilən bank uçot dərəcəsi ilə müəyyənləşdirilir. Bank uçot dərəcəsini isə Milli Bank təyin edir.

Bununla belə, zamin borclunun əvəzinə onun kreditor qarşısında daşıdığı məsuliyyətlə bağlı xərclər çəkə bilər. Şübhəsiz ki, bu xərcləri çəkdiyi halda zaminə zərər vurulur. Zamin borcludan həmin **zərərin əvəzini ödəməyi tələb edə bilər** (MM-in 475-ci maddəsinin 1-ci bəndi).

Göstərdiyimiz bu qaydalar (kreditorun tələb hüququnun zaminə keçməsi, faizlərin alınması və s. barədə qaydalar) dispozitiv xarakterə malikdir. Bu, onu ifadə edir ki, həmin münasibətlərə ayrı qayda da tətbiq edilə bilər (MM-in 475-ci maddəsinin 3-cü bəndi).

Borclu da öhdəliyin icrası ilə bağlı müəyyən vəzifə yerinə yetirə bilər. Belə ki, **öhdəliyi icra etməsi barədə zaminə məlumat vermək borclunun əsas vəzifəsi hesab edilir** (MM-in 476-cı maddəsi). Özü də borclu bu barədə dərhal zaminə məlumat verməlidir. Bu vəzifəni borclu o halda yerinə yetirir ki, kreditor qarşısında əsas öhdəliyi o, icra etmiş olsun. Borclunun məlumat vermək vəzifəsi, adətən, ikiqat icraya yol verilməməsi məqsədini güdür. Elə hallar da olur ki, borclu öhdəliyi özü icra edir və bu barədə zaminə məlumat vermir. Öhdəliyin icrasından xəbəri olmayan zamin də onu yerinə yetirə bilər. Bu cür məqamda **ikiqat icra halı** əmələ gəlir. Göstərilən vəziyyətdə zamin mümkün olan iki variantdan birini seçir: birinci halda, o, ya kreditora kondikasiya (əsassız varlanma) tələbi irəli sürür, yəni o, kreditordan onun əsassız aldığı məbləğin geri qaytarılmasını tələb edir; ikinci halda, zamin borcluya qarşı reqres tələb irəli sürür. Borclu da öz növbəsində kreditora kondikasiya (əsassız varlanma) tələbi verir.

4. Zaminlik öhdəliyinin icra edilməsinin hüquqi nəticələri

Zamin əsas (təmin olunan) öhdəlik üzrə kreditorun tələbini ya könüllü olaraq, ya da məhkəmə qərarı əsasında ödəyir, yəni kreditora müvafiq məbləğdə pul verir. Bununla təmin edən öhdəlik – zaminlik öhdəliyi icra edilmiş sayılır. Zaminlik öhdəliyinin icra edilməsi isə **müəyyən hüquqi nəticələrə** səbəb olur. Bu hüquqi nəticələr, əsasən, iki cür olur.

Birinci hüquqi nəticə ondan ibarətdir ki, zaminlik öhdəliyinin icra edilməsi ilə **kreditorun əsas (təmin olunan) öhdəlik üzrə hüquqları və girov hüququ zaminin kreditorun tələbini ödədiyi həcmdə ona keçir**. Beləliklə, əsas öhdəlik əsasında kreditorun ona mənsub olan tələb hüququ zaminə keçir və zamin yeni kreditor rolunda çıxış edir. Lakin əsas (təmin olunan) öhdəlik bu halda dəyişmir, saxlanılır. Deməli, söylədiklərimiz onu sübut edir və təsdiqləyir ki, kreditorun tələb hüququnun qanun əsasında zaminə keçməsi nəticəsində **öhdəliklərdə şəxslərin dəyişməsi hüquqi konstruksiyası** əmələ gəlir (MM-in 194-cü maddəsinin 1-ci bəndi). Başqa sözlə desək, əsas (təmin olunan) öhdəlikdən kreditor çıxır, onun yerini isə zamin adlı yeni kreditor tutur və əvəz edir. Kreditorun hüquqları, beləliklə, zaminə keçir. Hüquqların zaminə keçməsi isə müqaviləyə yox, qanuna, yəni qanunda ifadə edilən göstərişə əsaslanır. Belə təsəvvür yaranır ki, bu halda tələblərin güzəşti formasında (növündə) öhdəliklərdə şəxslərin dəyişməsi konstruksiyası göz qabağındadır. Borcluya olan tələb hüququnu qanun əsasında güzəşt edən kreditor sedent, həmin kreditordan tələb hüququnu əldə edən zamin sessionar hesab edilir.

Kreditorun borcluya olan tələb hüquqlarının güzəşt edilməsi barədə **borcluya yazılı formada bildiriş verilməlidir** (MM-in 195-ci maddəsi). Müəyyən edilən bu qaydanın məqsədi ikiqat icranın qarşısını almaqdan ibarətdir. Əgər

[1] ABŞ mülki hüququna görə, bu, subroqasiya hesab edilir (bax: *Ласк Г.* Гражданское право США. М., 1961, с. 538).

yazılı formada bildiriş verilməzsə, bunun doğurduğu arzuolunmaz əlverişsiz nəticələrin baş vermə risqinə görə zamin məsuliyyət daşıyır. Əgər yazılı formada məlumat almayan borclu öhdəliyi kreditor qarşısında icra edərsə, onda bu cür icra qeyri-münasib (lazımi olmayan) kreditora icra etmə sayılır. Deməli, zaminin vəzifəsi və borcudur ki, kreditorun hüquqları ona keçdikdə, bu barədə borcluya yazılı formada bildiriş versin.

Beləliklə, dediklərimizdən belə nəticəyə gələ bilərik ki, MM-in 475-ci maddəsinin 1-ci bəndində əsas (təmin olunan) öhdəlik üzrə kreditorun tələblərinin öhdəliyi icra etmiş zaminə keçməsi barədə xüsusi qayda müəyyən edilir. Bu qayda hələ Roma hüququnda istifadə edilən və tətbiq olunan hüquqi konstruksiyaya uyğundur. Çox vaxt bu hüquqi konstruksiyanı şəxsi subroqasiya adlandırırlar[1]. Şəxsi subroqasiya institutunun mahiyyəti ondan ibarətdir ki, borclunun əvəzinə və yerinə ödəniş həyata keçirən şəxs kreditora məxsus olan tələb hüququnu və bu hüququ təmin edən hüququ əldə edir[2]. Yeri gəlmişkən, qeyd edək ki, bu institut MM-in 431-ci maddəsinin 3-cü bəndində ifadə olunmuşdur.

Zaminlik öhdəliyinin icrasının **ikinci hüquqi nəticəsi** ondan ibarətdir ki, bunun nəticəsində əsas (təmin olunan) öhdəlik üzrə **borclunun vəzifəsini icra etmiş (borcu ödəmiş) zaminlə borclu arasında hüquq münasibəti** əmələ gəlir. Belə ki, öhdəliyi icra etmiş zamin, qeyd etdiyimiz kimi, borcluya reqres (geriyə tələb) hüququna, yəni kreditora ödədiyi məbləğ həcmində borcludan ödəniş almaq ixtiyarına malikdir. Bu hüququ həyata keçirərkən zaminlə borclu şəxs arasında hüquq münasibəti yaranır ki, bu münasibət öhdəlik formasında olur. Belə təsəvvür yaranır ki, zaminin reqres (geriyə tələb) hüququndan istifadə etməsi və bu hüququ yerinə yetirməsi ilə bağlı yaranan münasibət öz hüquqi təbiətinə və xarakterinə görə reqres öhdəliyidir. Lakin bu, həqiqətdə belə deyildir. Belə ki, **həmin münasibəti reqres öhdəliklərə aid etməkdən söhbət gedə bilməz**. Ona görə ki, tələblərin güzəşt olunması haqqında qaydalar reqres tələblərə tətbiq edilmir. Bu cür mövqe əsaslı və həqiqətə uyğundur. Reqres öhdəliyi o halda yaranır ki, əsas öhdəlik üzrə borclu üçüncü şəxsin yerinə və ya üçüncü şəxsin təqsiri üzündən öhdəliyi icra edir. Sonradan borclu şəxs üçüncü şəxsə reqres tələb vermə və bununla əlaqədar olaraq onlar arasında reqres öhdəlik əmələ gəlir. Bu öhdəlikdə əsas öhdəliyi icra etmiş borclu kreditor, üçüncü şəxs isə borclu şəxs rolunda çıxış edir. Reqres öhdəliyi yeni və müstəqil rola və əhəmiyyətə malik olur. Bu öhdəlik əsas öhdəlikdə kreditorun əvəz edilməsinə (öhdəlikdə şəxslərin dəyişməsinə) səbəb olmur. Reqres öhdəlik əsas öhdəlik ləğv edildiyi halda əmələ gəlir.

Zaminlə borclu şəxs arasında əmələ gələn öhdəlik reqres öhdəliyə xas olan göstərilən əlamətlərdən məhrumdur. Belə ki, zaminlə borclu arasında meydana gələn öhdəlik kreditorla borclu arasında əmələ gələn əsas (təmin olunan) öhdəliyin mahiyyətcə özüdür. Bu öhdəlikdə yalnız kreditoru zamin əvəz edir, yəni **öhdəlikdə şəxslərin dəyişməsi institutu əmələ gəlir**, ancaq təkcə dəyişən öhdəliyin özü yox, kreditordur. Buna görə də zaminlə borclu arasında yaranan hüquqi konstruksiyanı reqres öhdəliklərə şamil edən müəl-

[1] bax: *Годеме Е.* Общая теория обязательств. М., 1948, с. 395.
[2] bax: *Саватье Р.* Теория обязательств. М., 1972, с. 382.

liflərin fikri əsassız və həqiqətdən uzaq[1], bu konstruksiyanı öhdəlikdə şəxslərin dəyişməsi halına müncər edən müəlliflərin mövqeyi isə ağlabatan və inandırıcıdır[2].

5. Zaminliyin xitam olunması (ləğv edilməsi)

Zaminlik öhdəliyi həm ümumi əsaslarla, həm də xüsusi əsaslarla ləğv edilə bilər. **Zaminliyin ləğv edilməsinin ümumi əsasları** odur ki, bu cür əsaslar bütün öhdəliklərin hamısının xitam olunmasında istifadə olunur. Bu əsaslar (novasiya, icra nəticəsində öhdəliyin xitam olunması və s.) qanunda göstərilmişdir (MM-in 27-ci fəslinə daxil olan 527-559-cu maddələr). Şübhəsiz ki, ümumi əsasların hamısı ilə zaminlik öhdəliyinə xitam vermək mümkün deyildir. Bu əsaslardan bəziləri həmin öhdəliyin ləğv edilməsi üçün məqbul sayılmır.

Yalnız zaminlik öhdəliyinin xitam olunması üçün nəzərdə tutulan əsaslar **zaminliyin ləğv edilməsinin xüsusi əsasları** adlanır. Xüsusi əsaslar qanunda göstərilmişdir (MM-in 477-ci maddəsi).

Zaminliyin ləğv edilməsini şərtləndirən xüsusi əsaslardan biri **zaminliyin təmin etdiyi əsas (təmin olunan) öhdəliyə xitam verilməsi halıdır** (MM-in 477-ci maddəsinin 1-ci bəndi). Bu, zaminliyin törəmə, təmin edən, əlavə, aksessor və qeyri-müstəqil öhdəlik olması ilə izah edilir. Zaminliyin hüquqi taleyi və müqəddəratı əsas öhdəlikdən asılı olub, onunla şərtlənir. Əsas (təmin olunan) öhdəlik əsasında yaranan və bu öhdəlikdən törəyən zaminlik, həmin öhdəliyin ləğv olunması ilə də xitam edilir[3]. Əgər əsas öhdəlik ləğv edilmişsə, onda zaminliyin mövcud olmaqda davam etməsi mənasını itirir. Əsas (təmin olunan) öhdəlik isə öhdəliyə xitam verilməsinin ümumi əsasları ilə ləğv edilir. Bu barədə növbəti fəsillərin birində söhbət açacağıq.

Zaminliyin ləğv edilməsinə dəlalət edən əsaslardan biri **zaminin razılığı olmadan əsas (təmin olunan) öhdəliyin dəyişdirilməsidir** (MM-in 477-ci maddəsinin 1-ci bəndi). Özü də dərhal qeyd etməliyik ki, bütün dəyişdirmələr yox, yalnız zaminin məsuliyyətinin artmasına və ya onun üçün digər əlverişsiz (arzuolunmaz) nəticələrə səbəb olan dəyişdirmələr zaminliyə xitam verilməsini şərtləndirə bilər. Bu əsas mülki qanunvericilikdə novelladır.

Beləliklə, yalnız o dəyişdirmələr zaminliyin ləğv edilməsinə səbəb ola bilər ki, bu dəyişdirmələr əsas (təmin olunan) öhdəliyin həcmini (məbləğini) artırsın. Əsas öhdəliyin məbləğinin artmasına dəlalət edən dəyişdirmə hallarının dairəsi müxtəlifdir: əsas öhdəlik üzrə borclu ilə kreditorun razılığı ilə dəbbə pulunun artırılması (bu, zaminin məsuliyyət predmetini artırır); özgəsinin pul vəsaitindən istifadə etməyə və buna görə faizlər ödənilməsini nəzərdə tutan öhdəliyin (məsələn, əvəzli borc müqaviləsinin, kredit müqaviləsinin və s.) qüvvədə olma müddətinin uzadılması (şübhəsiz ki, müddət uzadılanda bu müddətə uyğun

[1] bax: *Белов В.А.* Поручительство. Опыт теоретической конструкции и обобщения арбитражной практики. М., 1998, с. 89-90.
[2] bax: Гражданское право. Учебник. Том 2. Полутом1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 79-80.
[3] Yaponiya mülki hüquq elmində göstərilir: əsas öhdəlik xitam olunan kimi zaminlik də ləğv edilir (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. М., Книга 1. 1983, с. 305).

olaraq, faizlər ödənilməsi də artacaq və bu da zaminin məsuliyyət həcmini genişləndirir)[1]; əsas öhdəlik üzrə (məsələn, kredit, əvəzli borc müqavilələri üzrə və s.) faiz dərəcələrinin birtərəfli qaydada artırılması (bu halın da zaminin məsuliyyət predmetinə mənfi mənada təsir göstərməsi açıq-aşkar hamıya aydındır)[2].

Bəzi hallarda zaminliklə təmin olunmuş əsas (təmin olunan) öhdəlik üzrə **borcun başqa şəxsə köçürülməsi (borcun köçürülməsi) zaminliyin ləğv edilməsi əsaslarından biri** kimi çıxış edir (MM-in 477-ci maddəsinin 2-ci bəndi). Borcun köçürülməsi kreditorun razılığı ilə borclunun öz borcunu digər üçüncü şəxsə köçürməsini ifadə edir. Bunun nəticəsində üçüncü şəxs əvvəlki borclunu əvəz edir, yeni borclu hesab edilir. Bu halda zaminin yeni borclunun kreditor qarşısında daşıdığı məsuliyyəti öz üzərinə götürməsi onun öz istək və mülahizəsindən asılı olur. Zamin istənilən hər hansı borclunun yox, yalnız onun istək və mülahizəsinə uyğun olan konkret borclunun öhdəliyinə görə məsuliyyət daşıya bilər. Əgər zamin yeni borclu üçün cavabdeh olmaq barəsində kreditora razılıq verməsə, onda zaminliyə xitam verilir.

Zaminliyə xitam verilməsinə səbəb olan əsaslardan biri **kreditorun lazımınca icranı qəbul etməkdən boyun qaçırması halıdır** (MM-in 477-ci maddəsinin 3-cü bəndi). Belə ki, borclu və ya zamin kreditora lazımınca icra təklif edə bilərlər. Əgər kreditor ona təklif olunmuş icranı qəbul etmirsə, bu, icranın gecikdirilməsi sayılır (MM-in 446-cı maddəsi). Belə halda kreditorun icranı gecikdirməsi borcluya və ya zaminə ixtiyar verir ki, onlar gecikdirmə nəticəsində dəymiş zərərin əvəzinin ödənilməsini tələb etsin. Bu hal həm də zaminliyin ləğv edilməsinə səbəb olur.

Zaminliyin ləğv edilməsinə dəlalət edən hallardan biri **zaminliyin qüvvədə olma müddətinin başa çatmasından ibarətdir** (MM-in 477-ci maddəsinin 3-cü bəndi). Zaminliyin qüvvədə olma müddəti zaminlik müqaviləsində göstərilir. Zaminlik **müddətli öhdəlikdir**. Ona görə də müqavilə bağlanarkən tərəflər zaminliyin müddətini göstərirlər. Bu müddət başa çatdıqda, zaminlik ləğv edilir.

Zaminlik müddətsiz (qeyri-müəyyən müddətli) öhdəlik də ola bilər. Müddətsiz zaminlik odur ki, bu cür zaminlikdə onun hansı müddətə qüvvədə olması göstərilmir, yəni zaminlik müqaviləsində onun verilmə müddəti nəzərdə tutulmur. Bu cür zaminliyə bir il ərzində kreditor tərəfindən zaminə qarşı iddia irəli sürülmədiyi halda xitam verilir. Bir illik müddət əsas öhdəliyin icrası vaxtının çatdığı gündən hesablanır.

Elə hallar da olur ki, bir illik müddəti hesablamaq üçün əsas olan əsas öhdəliyin icrası müddəti göstərilmir və onu müəyyənləşdirmək mümkün olmur və yaxud da həmin öhdəliyin icrası müddətini tələb etmə anı ilə müəyyənləşdirmək mümkün olur. Belə halda, əgər kreditor zaminə qarşı iki il ərzində iddia irəli sürməzsə, onda zaminliyə xitam verilir. İki il müddəti zaminlik müqaviləsi bağlandığı gündən hesablanır. Göstərilən həmin müddətlər xəbərdaredici müddətlər hesab edilir. Bu müddətlər kəsilə, dayandırıla və ya bərpa oluna bilməz[1].

Beləliklə, zaminlik haqqında söhbətimizi yekunlaşdırırıq. Qeyd etmək lazımdır ki, zaminlik **təminat funksiyasını** yerinə yetirir. Zaminlik münasibətlərinin spesifik cəhəti ondan ibarətdir ki, kreditor qarşısında iki kateqoriya subyekt məsuliyyət daşıyır: əsas (təmin olunan) öhdəlik üzrə borclu hesab edilən şəxs; əlavə (təmin edən) öhdəlik üzrə zamin. Münasibətlərin bu cür konstruksiyası kreditorda əsas öhdəliyin icra edilməsinə böyük inam yaradır. Öhdəliyin icrası ehtimalının dərəcəsi artır. Zaminliyin təminat funksiyası da məhz bunlarda ifadə olunur.

Zaminliyin, əsasən, iki cür növü fərqləndirilir: aval; müddətlə məhdudlaşdırılan zaminlik. **Aval** birtərəfli abstrakt əqddir[2]. **Müddətlə məhdudlaşdırılan zaminlik** odur ki, o, borclunun öhdəliyi icra etməsi üçün zaminin özünün məsuliyyətini müəyyən müddətlə məhdudlaşdırmaqla öz üzərinə cavabdehlik götürməsini nəzərdə tutur. Müəlliflərdən V.S.Yem[3], Y.A.Suxanov[4] delkredereni (italyanca — «del credere» inama) də zaminliyin bir növü hesab edirlər. Bu fikrin əsassız və həqiqətdən uzaq olmasına heç kim şübhə edə bilməz. Həmin müəlliflərin fikrincə, komissiya müqaviləsi üzrə komisyonçunun komitent qarşısında üçüncü şəxslərlə bağladığı əqdin icrası üçün zəmanət verməsi, zamin durma (delkredere) zaminliyin bir növüdür. Lakin o zaminliklə bu zaminliyi qarışdırmaq olmaz. Belə ki, komisyonçu üçüncü şəxslərə münasibətdə kreditor rolunda çıxış edir. Bu isə təminat üsullarından biri olan zaminliyin təbiətinə uyğun gəlmir[5].

§ 5. Qarantiya

1. Qarantiyanın anlayışı, mahiyyəti, əsas cəhətləri və xüsusiyyətləri

Qarantiya (fransızca «garantie», «garantir» – təmin etmək sözündən) öhdəliyin icrasının təmin edilməsi üsullarından biridir. Qarantiya hüquqi konstruksiyası Azərbaycan Respublikasının 1964-cü il MM-in 200-cü maddəsində (RSFSR-in 1964-cü il MM-in 210-cu maddəsində) və 1991-ci il Mülki Qanunvericiliyinin Əsaslarının 68-ci maddəsinin 6-cı bəndində təminat adı altında nəzərdə tutulmuşdu. Əvvəlki qanunvericiliyə görə, təminat yalnız dövlət təşkilatları arasındakı münasibətlərdə tətbiq edilirdi. Yazılı formada bağlanan təminat müqaviləsinə görə, təminat verən təşkilat kredit verən təşkilat qarşısında borclu təşkilatın borcunu ödəmək (əgər o, borcu ödəməzdisə) haqqında öhdə-

[1] bax: RF Ali Arbitraj Məhkəməsi Plenumu özünün 11 dekabr 1996-cı il tarixli 1832/96 saylı qərarında göstərir ki, kredit müqaviləsinin müddətinin zaminin razılığı olmadan uzadılması zaminin məsuliyyətinin həcmini artırır və bu hal zaminlik müqaviləsinin xitam olunmasına səbəb olur (bax: Вестник ВАС РФ. 1997. № 5, с. 93).

[2] bax: RF Ali Arbitraj Məhkəməsi göstərir ki, zaminliklə təmin olunmuş kredit müqaviləsinin faiz dərəcəsinin birtərəfli qaydada dəyişdirilməsi zaminliyin ləğv edilməsinə səbəb olur (Обзор практики разрешения споров, связанных с применением арбитражными судами норм Гражданского кодекса Российской Федерации о поручительстве, приложения к Информационному письму Высшего Арбитражного Суда РФ от 20 января 1993 г. № 28. п. 10).

[1] Постановление Пленума Высшего Арбитражного Суда РФ «О внесении изменений в постановление Пленума Высшего Арбитражного Суда РФ от 22 декабря 1992 г. №23. «О некоторых вопросах применения арбитражными судами, Основ гражданского законодательства СССР и республик на территории РФ» от 23.02.1994 г. №8 (ВВАС РФ. 1994. №5, с. 52).

[2] Aval barədə dərsliyin III cildinin «Hesablaşma öhdəlikləri» adlı fəslinə bax.

[3] Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 73.

[4] Гражданское право. Учебник. Том 2. Полутом 2 / Под ред. *Е.А.Суханова*. М., 2000, с. 101.

[5] Delkredere konstruksiyası barədə dərsliyin III cildinin «Komissiya müqaviləsi» adlı fəslinə bax.

lik götürürdü. Bu hüquqi konstruksiyadan yalnız banklar, əsasən, kredit münasibətlərində, bir qayda olaraq, istifadə edirdilər.

Müasir mülki qanunvericilik bu hüquqi konstruksiyanın hüquqi təbiətini və xarakterini tamamilə dəyişdirərək, onu yeni məzmunlu bir instituta çevirmişdir[1]. Belə ki, indiki qanunvericilikdə nəzərdə tutulan qarantiya keçmiş qanunvericilikdə işlənən təminat anlayışından prinsipial surətdə fərqlənir. Bu, onunla izah edilir ki, Azərbaycan Respublikasının yeni MM-i (o cümlədən RF-in MM-i) qəbul olunarkən və qarantiya haqqında qaydalar formulə edilərkən beynəlxalq təcrübə, həmçinin beynəlxalq xarakterli hüquqi sənədlər nəzərə alınmışdır. Bu isə onu göstərir və təsdiqləyir ki, bizim ölkə qanunvericiliyinin qarantiya haqqında müəyyən etdiyi normalar beynəlxalq standartlara cavab verən qaydalara çevrilmiş, mütərəqqi xarici ölkələrin qanunvericilik ənənələrinə və təcrübəsinə xeyli dərəcədə yaxınlaşmış, habelə sivil qaydada inkişaf etmişdir.

Qarantiyadan bir çox xarici ölkələrdə geniş səviyyədə istifadə olunur. Beynəlxalq kommersiya dövriyyəsində qarantiya öhdəliklərin icrasının təmin edilməsi üsullarına şamil olunur. Qarantiya haqqında qaydalar beynəlxalq ticarət münasibətlərində də tətbiq edilir. Beynəlxalq ticarətdə qarantiya öhdəliklərin icrasının təmin edilməsinin ən fəal üsullarından biri kimi rol oynayır[2]. Belə ki, xarici ticarət münasibətlərində tərəflər çox vaxt bir-birini yaxşı tanımırlar. Ona görə də öhdəliklərin icrasının təmin edilməsinə zərurət yaranır. Özünün populyarlaşmasına görə qarantiya Yaxın Şərqdə neft çıxarılması, yolların və mühüm iri sənaye obyektlərinin tikilməsi ilə bağlı həyata keçirilən böyük investisiya layihələrinə, necə deyərlər, minnətdar olmalıdır.

Qarantiya institutu dünyanın bir çox ölkələrinin qanunvericiliyinə məlumdur. ABŞ və RF kimi ölkələrin qanunvericiliyi bu institutu xüsusi olaraq tənzimləyir. Qarantiya haqqında qaydaları Beynəlxalq Ticarət Palatası (BTP) beynəlxalq ticarət adətlərini sistemləşdirməklə unifikasiya etmişdir. BTP 1991-ci ildə «İlk tələb üzrə qarantiya haqqında unifikasiya edilmiş qaydalar (ICC Uniform Rules for Demand Quarantees)» adlı sənəd qəbul etmişdir[3]. Bu sənəd qarantiyanın beynəlxalq-hüquqi tənzimlənməsində mühüm rol oynayır. Lakin bu qaydalar qarantiyanın hüquqi təbiətini dəqiq olaraq müəyyənləşdirmir. Lakin buna baxmayaraq, Azərbaycan Respublikasının yeni MM-in qarantiya haqqında formulə etdiyi normalar həmin qaydalara, əsasən, uyğun gəlir. Bu qaydaların müəyyənləşdirdiyi müddəalar müasir qanunvericilikdə nəzərdə tutulan qarantiya institutunun əsasını təşkil edir.

MM-in 478-ci maddəsi qarantiya hüquqi konstruksiyasına anlayış verir. **Qarantiyaya əsasən qarant (bank, digər kredit idarəsi və ya sığorta təşkilatı) digər şəxsin (prinsipalın) xahişi ilə prinsipalın kreditoruna (benefisiara) qarantiya öhdəliyinin şərtlərinə uyğun olaraq benefisiar pul məbləğinin ödənilməsi barədə yazılı tələb təqdim etdikdə, həmin məbləği ödəyəcəyi barədə yazılı öhdəlik verir.** Bu konstruksiyaya verilən anlayış Beynəlxalq Ticarət Palatasının unifikasiya edilmiş qaydalarının 2-ci maddəsində qarantiyaya verilən definisiyaya (tərifə) əsasən uyğun gəlir. Qarantiya xüsusi xarakterli elə bir üsuldur ki, o, öhdəliklərin icrasını daha etibarlı surətdə təmin edir.

Qarantiya müəyyən əlamətlərə və xüsusiyyətlərə malikdir. Qarantiyanın ən **başlıca və əsas xüsusiyyəti** ondan ibarətdir ki, o, **öhdəlik hüquq münasibəti, yəni öhdəlikdir**. Bu öhdəlik benefisiar ilə qarant arasında əmələ gəlir. Qarantiya öhdəliyi o halda yaranır ki, qarant qarantiya verir. Deməli, qarantiya verilməsi qarant öhdəliyinin meydana gəlməsini şərtləndirən hüquqi fakt rolunu oynayır. **Qarantiya verilməsi** dedikdə, qarant tərəfindən bu və ya digər üsulla (bilavasitə «əldən-ələ verməklə», poçtla, teletaypla, teleqrafla, elektron rabitəsi ilə və ya digər rabitə vasitəsilə) lazımi qaydada rəsmiləşdirilmiş qarantın prinsipala və ya benefisiara çatdırılması başa düşülür. Qarantiya öhdəliyinin yaranması üçün vacibdir ki, benefisiar tərəfindən qarantiyanın qəbul edilməsi barədə qarant bildiriş versin. Qarantiya öhdəliyinin meydana gəlməsini şərtləndirən qarantiyanın verilməsi müəyyən hüquqi fakt əsasında əmələ gəlir. Belə ki, **qarantiyanın verilməsi yalnız prinsipalın xahişi ilə həyata keçirilir**. Deməli, prinsipalın xahişi qarantiya verilməsi üçün əsas rolunu oynayır.

İkinci xüsusiyyət ondan ibarətdir ki, **qarantiya öhdəliyi təmin edən və əlavə öhdəlikdir**. Onun vacib funksiyası əsas öhdəliyin icrasını təmin etməkdən ibarətdir. Qanun müəyyən edir ki, qarantiya prinsipalın benefisiar qarşısında öhdəliyini (əsas öhdəliyini) lazımınca icra etməsini təmin edir (MM-in 479-cu maddəsinin 1-ci bəndi). Qarant verdiyi qarantiyanın şərtlərinə uyğun olaraq, öz üzərinə müəyyən pul məbləğini ödəmək öhdəliyini götürür. Beləliklə, prinsipalın öhdəliyinin qarantiya ilə təmin edilməsi **qarantiya öhdəliyinin əsas (təminat) funksiyasını** təşkil edir. Qarantiyanın təminat xüsusiyyəti onda təzahür edir ki, zaminlikdə olduğu kimi əsas öhdəliyin kreditoru qarşısında həm borclu, həm də qarant məsuliyyət daşıyır.

Üçüncü xüsusiyyət ondan ibarətdir ki, **qarantiya öhdəliyi müstəqil, qeyri-asılı öhdəlikdir**. Qarantın benefisiar qarşısında qarantiya ilə nəzərdə tutulan öhdəliyi müstəqil öhdəlikdir və icrasının təminatı üçün verildiyi əsas öhdəlikdən asılı deyildir (MM-in 480-ci maddəsi). Hüquq ədəbiyyatında bu xüsusiyyəti qarantiyanın əsas və başlıca hüquqi əlaməti hesab edirlər[1]. Hətta qarantiya öhdəliyində əsas (təmin olunan) öhdəliyə istinad edilsə belə, o, müstəqil, qeyri-asılı əhəmiyyətini itirmir. Bu xüsusiyyəti ilə o, aksessor (asılı, qeyri-müstəqil) xarakterə malik olan digər təminat üsullarından fərqlənir. Qarantiya öhdəliyinin müstəqil olması onda təzahür edir ki, **əgər əsas (təmin olunan) öhdəlik ləğv edilərsə, onda qarantiya öhdəliyi öz hüquqi qüvvə-**

---

[1] Qarantiyanın indiki qanunvericilik üçün yeni anlayış olması fikrini irəli sürən müəlliflərin fikri bir o qədər də dəqiq deyil (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 611; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 413; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 434; *Меломед А.* Банковская гарантия новый институт в российском законодательстве // Российская юстиция. 1995. №7). Şübhəsiz ki, əvvəlki qanunvericiliyə məlum olan qarantiya konstruksiyasının məzmunu tamamilə dəyişdirilmişdir.

[2] Qarantiyanın anlayışı, beynəlxalq ticarətdə onun tətbiq edilməsi, xarici ticarət dövriyyəsində qarantiyanın hüquqi tənzimetmə mənbələri, onun əlamətləri və növləri barədə məlumat almaq üçün bax: *Тынель А., Функ Я., Хвалей В.* Курс международного торгового право. Минск. 2000, с. 377-401.

[3] bax: Унифицированные правила для гарантий по требованию. М., 1996; Публикация МТП №458 / Пер. *Н.Ю.Ерпылевой* // Законодательство и экономика. 1994. №5-6.

[1] Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 85.

sini itirmir, saxlayır. Bundan əlavə, əgər əsas (təmin olunan) öhdəlik etibarsız hesab edilərsə, onda qarantiya hüquqi əhəmiyyətini itirmir, əksinə, hüquqi qüvvəyə malik olur. Başqa sözlə desək, əsas öhdəliyin predmeti, qarant üçün hüquqi əhəmiyyət kəsb etmir və vacib deyil.

Bununla belə, qarantiya öhdəliyinin əsas (təmin olunan) öhdəlikdən asılı olmaması barədə qanunun qəti formada ifadə etdiyi göstəriş mütləq xarakterə malik deyil, yəni **qarantiya öhdəliyi mütləq müstəqil öhdəlik hesab edilmir**. Hamıya məlumdur ki, «işıq üzü görməsinə görə», yəni əmələ gəlməsinə və yaranmasına görə qarantiya hər bir konkret halda əsas (təmin olunan) öhdəliyə «borclu» və «minnətdar» olmalıdır. Qarantiya öhdəliyi ona görə yaranmışdır ki, o, əsas öhdəliyin icrasını təmin etsin. Əgər əsas öhdəlik olmasaydı, onda, söz yox ki, qarantiya öhdəliyi də yaranmazdı. Lakin qarantiya verildikdən sonra həmin qarantiyada benefisiara müəyyən pul məbləğinin ödənilməsinin nəzərdə tutulması və bu pul məbləğinin ödənilməsi əsas (təmin olunan) öhdəliyin dinamikasından asılı deyildir. Ona görə də, əgər əsas öhdəlik ləğv edilsə və ya etibarsız hesab edilsə belə, qarant öz vəzifəsini icra etməkdən azad olmur. Bu halda qarantiya öz hüquqi qüvvəsini saxlayır.

Dördüncü xüsusiyyət ondan ibarətdir ki, qarantiya öhdəliyi **əvəzli öhdəlikdir**. Belə ki, qarantiya verilməsinə görə prinsipal qaranta müəyyən edilmiş miqdarda haqq ödəyir (MM-in 479-cu maddəsinin 2-ci bəndi). Qarantiya verilməsinə görə haqqı prinsipal ödəyir. Haqqın məbləği qarantiyanın məbləğindən və əsas (təmin olunan) öhdəliyin xarakterindən asılıdır. Qarantiya verilməsinə görə verilən haqqın məbləği barədə verilən məlumat, bir qayda olaraq, konfidensial (məxfi) xarakter daşıyır. Beləliklə, prinsipalın borcudur ki, qarantiya verilməsinə görə qaranta nəzərdə tutulmuş haqq ödəsin. Bu, onu ifadə edir ki, qarantiya öhdəliyi əvəzsiz ola bilməz. O, bütün hallarda istisnasız olaraq əvəzli öhdəlikdir.

Beşinci xüsusiyyət ondan ibarətdir ki, qarantiya **müddətli öhdəlikdir**. Qarantiya öhdəliyin özündə göstərilən müddətə verilir. Benefisiarın tələbi qarantiyada göstərilən müddətdə irəli sürülür. Bu müddət xəbərdaredici müddət hesab edilir. Ona görə də həmin müddəti kəsmək, dayandırmaq və ya bərpa etmək olmaz. Qarantiyanın qüvvəyə minməsi günü onun verildiyi günlə müəyyənləşdirilir. Belə ki, qarantiya verildiyi gündən qüvvəyə minir (MM-in 483-cü maddəsi). Qarantiyanın özündə qarantiyanın qüvvəyə minməsinin başqa müddəti də göstərilə bilər.

Altıncı xüsusiyyət ondan ibarətdir ki, qarantiya **qarant tərəfindən geri götürülə bilməz** (MM-in 481-ci maddəsi). Bu, öhdəliklərin icrasında tətbiq olunan sabitlik prinsipinin qüvvədə olması ilə bağlıdır. Bu prinsipə görə, öhdəliyin icrasından birtərəfli imtinaya və onun şərtlərini birtərəfli dəyişdirməyə yol verilmir. Beynəlxalq kommersiya dövriyyəsində bu prinsip «müqavilənin məcburiliyi» — «pacta sunt servanda» («müqavilələrə əməl olunmalıdır») kimi adlanır[1]. Lakin qarantiyanın geri götürülməməsi haqqında **qayda imperativ yox, dispozitiv xarakter daşıyır**. Belə ki, tərəflərin razılığı ilə qarantiyanın geri götürülməsi barədə qayda müəyyənləşdirilə bilər.

[1] bax: Принципы международных коммерческих договоров. М., 1996, с. 10-11.

Yeddinci xüsusiyyət ondan ibarətdir ki, **qarantiya üzrə hüquqlar başqasına verilə bilməz** (MM-in 482-ci maddəsi). Bu, o deməkdir ki, qarantiya öhdəliyi benefisiara müəyyən hüquqlar verir. Bunun əsasını qaranta qarşı müəyyən pul məbləğinin ödənilməsi barədə tələb irəli sürmək hüququ təşkil edir. **Benefisiar ona məxsus olan bu cür tələb hüququnu başqa şəxsə verə bilməz**. Onun buna ixtiyarı çatmır. Lakin qanunun qarantiya üzrə hüquqların başqasına verilə bilməməsi haqqında müəyyən etdiyi qayda dispozitiv xarakterə malikdir. Belə ki, əgər qarantiyada nəzərdə tutularsa, benefisiar ona məxsus olan tələb hüququnu üçüncü şəxsə güzəşt edə bilər. Belə halda tələbin güzəşti (sessiya) haqqında qaydalar tətbiq edilir. Belə təsəvvür yaranır ki, **tələbin güzəşti yalnız qarantın razılığı ilə mümkün ola bilər**. Bu hal isə ümumi qaydaya uyğun gəlmir. Belə ki, ümumi qaydaya görə, kreditorun tələblərinin güzəşti üçün borclunun razılığı tələb olunmur (MM-in 194-cü maddəsinin 1-ci bəndi).

Beləliklə, müasir mülki qanunvericilik qarantiya institutunun hüquqi təbiətini, məzmununu və mahiyyətini tamamilə, prinsipial surətdə dəyişdirmişdir. Əvvəlki qanunvericilikdə nəzərdə tutulan təminat zaminliyin bir növü hesab edilirdi. İndiki qanunvericiliyə görə, qarantiya müstəqil əhəmiyyətə malik olan hüquqi konstruksiya kimi çıxış edir.

2. Qarantiya ilə bağlı münasibətlərin əmələ gəlmə əsası və subyektləri

Qarantiya ilə bağlı münasibət iki həlqədən ibarətdir: əsas (təmin olunan) öhdəlik münasibətləri; qarantiya (təmin edən) münasibətləri. Əsas (təmin olunan) öhdəlik benefisiarla prinsipal arasında əmələ gəlir. Qarantiya isə qarantla benefisiar arasında yaranır. Ümumən götürsək, qarantiya ilə bağlı (qarantiya üzrə) yaranan münasibətdə **üç kateqoriya subyekt çıxış edir: benefisiar; prinsipal; qarant**. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Respublikasının MM-i həmin subyektləri adlandırarkən beynəlxalq praktikada rast gəlinən və istifadə olunan terminləri tətbiq edir və işlədir[1]. Benefisiar və prinsipal kimi terminlərin tarixi kökü və mənşəyi Roma hüququ ilə bağlıdır. Həmin anlayışlar Roma hüququndan iqtibas edilmişdir[2].

Benefisiar (latınca «beneficium» — kömək, əl tutma)[3] dedikdə, icrası qarantiya ilə təmin olunan öhdəliyin elə bir kreditoru başa düşülür ki, onun tələbi ilə və onun xeyrinə olaraq qarant müəyyən pul məbləğini ödəyir. O, prinsipalın kreditorudur. **Mülki hüququn istənilən subyekti benefisiar rolunda çıxış edə bilər**. Nəzərdə tutulan münasibətdə çox vaxt benefisiar qismində fiziki və ya hüquqi şəxslər iştirak edirlər.

Prinsipal (latınca «principalic» — əsas, başlıca)[4] dedikdə, icrası qarantiya ilə təmin olunan əsas öhdəliyin borclu şəxsi başa düşülür. Məhz onun xahişi

[1] *Тынель А., Функ Я., Хвалей В.* Курс международного торгового право. Минск 2000, с. 378.

[2] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского* М., 1999; *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999.

[3] Словарь иностранных слов / Под ред. *И.А.Акчуриным* и др. М., 1985, с. 75.

[4] Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова*. М., 1954, с. 563.

ilə qarantiya verilir. Belə ki, o, qarantiya verilməsi barədə xahişlə qaranta müraciət edir. Prinsipal kredit, alqı-satqı, icarə, podrat və s. müqavilələrdən əmələ gələn öhdəlikdə borclu rolunda çıxış edən şəxsdir. Qarantiya da onun xahişi ilə verilir. Əgər qarantiya bu cür xahiş olmadan verilərsə, onda o, etibarsız hesab ediləcəkdir. Ona görə ki, belə hallarda MM-in müəyyənləşdirdiyi qayda pozulur (MM-in 337-ci maddəsinin 1-ci bəndi). **Mülki hüququn istənilən subyekti prinsipial rolunda** çıxış edə bilər.

Qarant (fransızca «garant» — təmin edən) dedikdə, elə bir subyekt başa düşülür ki, o, müəyyən pul məbləğinin ödənilməsi barədə benefisiar tərəfindən yazılı tələb təqdim olunduğu halda həmin məbləği ödəyəcəyi barədə yazılı öhdəlik verir. O, prinsipalın xahişi ilə əsas öhdəliyin icrasını təmin etmək üçün qarantiya verən şəxsdir. Məhz onunla prinsipal arasında qarantiya öhdəliyi yaranır. Bu öhdəlik onunla xarakterizə olunur ki, o, **spesifik subyekt tərkibinə** malikdir, yəni qarant rolunda spesifik hüquq subyektliyinə malik olan şəxslər çıxış edirlər. Qanun qarant qismində qarantiya öhdəlik münasibətlərində çıxış edən subyektlərin dairəsini dəqiq olaraq müəyyən edir (MM-in 478-ci maddəsi):

- bank;
- digər kredit idarəsi;
- sığorta təşkilatı.

Bank dedikdə, fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxs başa düşülür[1]. **Digər kredit idarəsi** dedikdə, bank olmayan kredit təşkilatı başa düşülür. Bank olmayan kredit təşkilatı isə ayrı-ayrı bank əməliyyatlarını həyata keçirmək üçün Milli Bankdan lisenziya almış hüquqi şəxsdir[2]. Kredit təşkilatının qarantiya verməsi bank əməliyyatlarının bir növüdür. Bu, birbaşa qanunda göstərilmişdir[3].

Qarant rolunda təkcə kredit təşkilatları (banklar, bank olmayan digər kredit idarələri) yox, həm də sığorta təşkilatları çıxış edə bilər. **Sığorta təşkilatı** dedikdə, yalnız sığorta və təkrar sığorta fəaliyyəti göstərmək məqsədilə yaradılmış, qanunvericiliklə müəyyənləşdirilmiş qaydada xüsusi razılıq almış hüquqi şəxs başa düşülür. Sığorta təşkilatı sığortaçıdır. Sığortaçı rolunda isə həm hüquqi şəxslər, həm də hüquqi şəxs yaratmadan sığorta fəaliyyəti ilə məşğul olan fiziki şəxslər çıxış edə bilərlər.

Qanunvericilik qarant rolunda çıxış edən subyektlərin dəqiq və qəti siyahısını müəyyən edir. Bu siyahının genişləndirilməsinin mümkün olması barədə hüquq ədəbiyyatında fikirlər mübahisəlidir. Moskva alimlərindən V.S.Yem göstərir ki, bu siyahı qəti xarakter daşıyır, onu genişləndirmək olmaz. Onun fikrincə, RF-in qanunvericiliyi qarant rolunda çıxış edən subyektlərin dairəsinin məhdud olmasını nəzərə alaraq, «qarantiya» yox, «bank qarantiyası» hüquqi

[1] bax: «Banklar haqqında» qanunun 1-ci maddəsi.
[2] bax: yenə orada.
[3] bax: həmin qanunun 32-ci maddəsi.

konstruksiyasını nəzərdə tutur[1]. Müəlliflərdən B.M.Qonqalo qeyd edir ki, qarant rolunda yalnız bank, digər kredit idarəsi və ya sığorta təşkilatı çıxış edə bilər. Müəllif bu qənaətə gəlir ki, əgər qarantiya hər hansı bir subyekt (kommersiya və ya qeyri-kommersiya hüquqi şəxsləri, dövlət hakimiyyəti və ya yerli özünüidarəetmə orqanları və s.) tərəfindən verilərsə, onda bu qarantiya etibarsız hesab ediləcəkdir. Alimin fikrincə, bu subyektlərin hüquq qabiliyyəti onların bank qarantiyası vermək imkanını əhatə etmir və özündə birləşdirmir[2].

Göstərilən siyahının təxmini, qeyri-qəti xarakter daşıması, onun genişləndirilməsinin mümkün olması barədə fikir söyləyən müəlliflərə də rast gəlmək mümkündür. Müəlliflərdən Q.V.Boqaçova göstərir ki, təminat üsulunun «bank qarantiyası» adlandırılması şərti xarakter daşıyır və bu cür qarantiya vermək hüququna təkcə banklar malik deyil[3]. Professor O.N.Sadikovun fikrincə, qarantiya subyektlərini nəzərdə tutan siyahını qəti siyahı hesab etmək olmaz[4].

Bizim fikrimizcə, **qarantiya subyektlərinin dairəsini nəzərdə tutan siyahını hərfi mənada yox, geniş mənada təfsir etmək lazımdır**. Belə ki, qarant rolunda təkcə banklar, digər kredit idarələri və ya sığorta təşkilatları yox, həm də digər subyektlər çıxış edə bilər. Məsələn, Azərbaycan Respublikası (dövləti) və ya bələdiyyələr dövlət və ya bələdiyyə bankları tərəfindən şəxslərin əmanətlərinin qaytarılmasına subsidiar məsuliyyətlə qarantiya verir (MM-in 950-ci maddəsinin 1-ci bəndi)[5]. RF-in qanunvericilik aktlarında mülki hüququn digər subyektləri tərəfindən qarantiya verilməsi haqqında göstəriş ifadə olunur. Məsələn, kiçik sahibkarlığa yardım üzrə Federal Fond qarantiya vermək hüququna malikdir[6]. Biz bu qənaətə gəlirik ki, mülki hüququn digər subyektləri MM-in 24-cü fəslinin 5-ci paraqrafında nəzərdə tutulan şərtlərlə və qaydada qarantiya vermək imkanına malikdir. Belə ki, qanuna görə tərəflər təminat üsullarını sərbəst və müstəqil surətdə tətbiq edirlər (MM-in 460-cı maddəsinin 1-ci bəndi). Bundan əlavə, qarantiya subyektlərinin dairəsinin genişləndirilməsi beynəlxalq hüquqi xarakterli sənədlərə də uyğundur. Söhbət, hər şeydən əvvəl, Beynəlxalq Ticarət Palatasının unifikasiya edilmiş qaydalarından gedir[7]. Həmin qaydalara görə, istənilən hüquqi və fiziki şəxs qarant rolunda çıxış edə

[1] bax: Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 84.
[2] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 413.
[3] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 434. Qeyd etmək lazımdır ki, RF-in MM-i bank qarantiyası adlı hüquqi konstruksiya nəzərdə tutur.
[4] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 620.
[5] Dövlət və ya bələdiyyə bankları dedikdə, iki növ bank nəzərdə tutulur: birincisi, nizamnamə kapitalında iştirak payları dövlət və ya bələdiyyələrə məxsus olan bank; ikincisi, səhmlərin 50 faizindən çoxunun dövlətə və ya bələdiyyələrə məxsus olduğu bank. Əslinə qalsa, burada söhbət zaminlikdən gedir. Belə ki, qarantiya öhdəliyi heç bir vaxt subsidiar məsuliyyət nəzərdə tutmur (zaminliklə qarantiya arasındaşı fərqli cəhətlər barədə bu paraqrafın axırına bax).
[6] bax: ст. 6. Устава Федерального Фонда поддержки малого предпринимательства, утв. Постановлением Правительства РФ от 12 апреля 1996 г. № 424 (СЗ РФ, 1996. № 16. ст. 1901).
[7] bax: Унифицированные правила для гарантий по требованию. М., 1996.

bilər.

Qarantiya üzrə münasibətin əmələ gəlmə əsası kimi **mürəkkəb hüquqi tərkib** çıxış edir. Bu tərkib bir-birinin ardınca yaranan iki hüquqi faktdan ibarətdir. **Birinci hüquqi fakt** rolunda prinsipal və qarant arasında qarantiya verilməsi barədə müqavilə bağlanması çıxış edir. Bu, əvəzli müqavilədir. Lakin qanun prinsipal və qarant arasında məcburi olaraq yazılı formada müqavilə bağlanması barədə hər hansı bir göstəriş ifadə etmir. Buna görə də yazılı formada müqavilənin olmaması qarantiya öhdəliyinin etibarsızlığına dəlalət etmir. Məhkəmə praktikası da bu mövqeni tutur[1]. Bu, onunla izah olunur ki, qarantiya verilməsi barədə müqavilənin forması əqdlərin forması haqqında ümumi normalarla müəyyən edilir (MM-in 329-cu maddəsi). Həmin normalara görə, birincisi, əqdlər şifahi formada bağlana bilər. İkincisi, qarantiya verilməsi barədə müqaviləni bağlayan tərəflər sənəd tərtib olunması barədə razılığa gələ bilərlər. Belə halda isə **qarantiya verilməsi barədə müqavilə sadə yazılı formada bağlanmalıdır**. Lakin həmin müqavilənin sadə yazılı formasına əməl edilməməsi onun etibarsız sayılmasına dəlalət edir. Ona görə ki, tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilmiş forma tələblərinə riayət etməməklə bağlanmış əqd etibarsızdır (MM-in 329-cu maddəsinin 1-ci bəndi).

Qarantiya verilməsi barədə müqavilə müəyyən məzmuna malikdir. Onun məzmunu ibarətdir: qarantiyanın verilməsi qaydasının müəyyən edilməsi; təmin olunan əsas öhdəlik barədə məlumat verilməsi; ödənilməli olan pul məbləğinin miqdarı; qarantiya verilməsinə görə prinsipalın qaranta ödədiyi haqqın məbləği; qarşılıqlı hesablaşmalar haqqında məlumat; qarantın prinsipala reqres hüququnun olması; reqres hüququnun həcmi; reqres hüququnun həyata keçirilməsi qaydası; qarantiyanın verilməsi müddəti; qarant tərəfindən ödənişin verilməsinə əsas olan sənədlərin dairəsi; qarantiyanın geri götürülməsi barədə şərt; benefisiara ödənilməli olan pul məbləğinin miqdarı və s.

Qarantiya üzrə münasibətin əmələ gəlməsinə səbəb olan mürəkkəb hüquqi tərkibə daxil edilən **ikinci hüquqi fakt** xüsusi mənada qarantiyanın verilməsidir. **Qarantiyanın verilməsi** öz hüquqi təbiətinə və xarakterinə görə **birtərəfli əqddir**[2]. Ona görə ki, bu əqdin bağlanması üçün yalnız bir tərəfin — qarantın iradə ifadəsi gərəkdir və zəruridir[3]. Qarantiyanın verilməsi qarantın birtərəfli öhdəliyinin əmələ gəlməsinə səbəb olur. Bununla qarantın əsas (təmin olunan) öhdəliklə hüquqi cəhətdən əlaqəsi yaranır. Belə ki, qarantiya verilməsi əsas öhdəliyi icra etmək — müəyyən pul məbləğini ödəmək barədə benefisiar tərəfindən tələb irəli sürmək imkanı ilə qarant arasında hüquqi əlaqə və bağlılıq yaradır[1].

Qarantiyanın formasına gəldikdə isə qeyd etmək lazımdır ki, qanun qarantla prinsipal arasında bağlanan qarantiya verilməsi haqqında müqavilədən fərqli olaraq, qarantiyanın forması haqqında konkret göstəriş ifadə edir. Belə ki, **qarantiya yazılı formada verilir** (MM-in 478-ci maddəsi). Bir qayda olaraq, qarantiya verilməsi «qarantiya məktubu» adlı sənədlə rəsmiləşdirilir. Bir çox xarici dövlətlərdə praktikada qarantiya verilməsi «qarantiya məktubu» formasında həyata keçirilir. Beynəlxalq ticarət dövriyyəsində qarantiya əksər hallarda «qarantiya məktubu» formasında verilir[2]. **Qarantiya məktubu** dedikdə, elə bir sənəd başa düşülür ki, bu sənədə görə, qarant həmin sənəddə göstərilən hal yarandıqda, benefisiarın xeyrinə nəzərdə tutulmuş məbləğdə və müddətdə pul öhdəliyini icra etməsini öz üzərinə götürür[3]. Bu sənəd əsasında benefisiar pul verilməsini tələb etmək hüququ əldə edir. Qarantiya məktubu qarant rolunda çıxış edən hüquqi şəxsin rəhbəri (rəisi, müdiri, sədri, direktoru və s.) tərəfindən imzalanır. Bu sənədin baş mühasib tərəfindən imza edilməsi məcburi və zəruridir[4]. Əgər qarantiya məktubu baş mühasibin imzası olmadan verilərsə, o, etibarsız hesab edilir[5].

Qarantiya məktubu imzalandıqdan sonra benefisiara və ya prinsipala göndərilir. Onun qarantın öhdəliyi qəti və aydın formada formulə edilməlidir. Qarantiyanın mətnində aksessor və subsidiar şərtlər olmamalıdır. Bu, benefisiar üçün çox vacibdir. Əgər qarantiyanın mətnində anlaşılmaz cəhətlər olarsa, onda, şübhəsiz ki, qarantiyanın gələcəkdə həyata keçirilməsi çətinləşər və müşkül bir işə çevrilər. Ona görə də Beynəlxalq Ticarət Palatasının qəbul etdiyi unifikasiya edilmiş qaydaların 3-cü maddəsində tələb olunur ki, qarantiyanın mətni aydın və dəqiq olmalı, hər hansı bir mübahisəli məsələnin mümkünlüyünü istisna etməlidir.

Qarantiya məktubu verilərkən xüsusən onun məzmununa diqqət yetirilməlidir. **Qarantiya məktubunun məzmunu** dedikdə, qarantiyanın şərtləri başa düşülür. Benefisiara ödənilməli olan pul məbləğinin miqdarı, qarantiyanın verilməsi müddəti əsas şərtlər hesab edilir. Bundan əlavə, qarantiya məktubun-

---

[1] bax: Вестник Высшего Арбитражного Суда РФ. 1997. № 6, с. 81-83.

[2] Müəlliflərin, demək olar ki, hamısı qarantiya verilməsinin birtərəfli əqd olması fikrini irəli sürürlər (Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 421; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 435; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 86).

[3] Müəlliflərdən N.Y.Yerpıleva göstərir ki, qarantiya qarantla benefisiar arasında bağlanan ikitərəfli sazişdir (bax: *Ерпылева Н.Ю.* Международное банковское право. М., 1998, с. 90). Bu fikirlə çətin ki razılaşmaq olar. Müəlliflərdən A.Tınel qarantiya verilməsinin müqavilə kimi rəsmiləşdirilməsi haqqında fikir söyləyir (bax: *Тынель А., Функ Я., Хвалей В.* Курс международного торгового права. Учебник. Минск. 2000, с. 394).

[1] Müəlliflərdən V.V.Vitryanskinin belə bir fikri ilə çətin razılaşmaq olar ki, guya qarantın öhdəliyi ilə əsas öhdəlik arasında hər hansı bir əlaqə yoxdur (bax: *Витрянский В.* Обеспечение исполнения обязательств // Хозяйство и право. 1995. № 9, с. 13). Əgər hər hansı bir əlaqə yaranmazsa, onda qarantiya verilməsinə nə ehtiyac var? Qarantiyanın qüvvəyə minməsi ilə qarantiya öhdəliyi ilə əsas öhdəlik arasında hüquqi əlaqə yaranır. Qarantiya isə, bir qayda olaraq, qarantiya verildiyi gündən qüvvəyə minir. Qarantiyada ayrı müddət də nəzərdə tutula bilər.

[2] bax: *Тынель А., Функ Я., Хвалей В.* Курс международного торгового права. Учебник. Минск. 2000, с. 395.

[3] Peterburq alimlərindən T.A.Fadeyeva göstərir ki, qarantiya məktubu bank qarantiya müqaviləsinin bağlanmasını təsdiqləyir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1997, с. 614.). Bu fikirlə razılaşmaq olmaz. Qarantiya məktubu qarantiyanın verilməsini ifadə edir. Qarantiya verilməsi isə birtərəfli əqddir.

[4] «Mühasibat uçotu haqqında» qanunun 10-cu maddəsinin 6-cı bəndində göstərilir ki, əmtəələrin, materialların və başqa sərvətlərin, pul vəsaitlərinin qəbulu və verilməsi üçün əsas olan sənədlərə, habelə hesablaşma, kredit və maliyyə öhdəliklərinə baş mühasib imza edir (bax: AR QK, II cild, s. 441).

[5] «Mühasibat uçotu haqqında» qanunun 10-cu maddəsinin həmin bəndində göstərilən sənədlərin baş mühasibin imzası olmadan verilməsinin onun etibarsızlığına səbəb olması barədə göstəriş vardır.

da qarantın, prinsipalın və benefisiarın adı, ödənişin həyata keçirilməsi qaydası və s. göstərilməlidir.

3. Qarantiyanın növləri

Qarantiya müxtəlif əsaslara və meyarlara görə təsnif edilir[1]. **Qarantiyanın predmetindən və təmin olunan (əsas) öhdəliyin xarakterindən asılı olaraq**, onun dörd növü fərqləndirilir:

- tender qarantiyası;
- icra qarantiyası;
- avansın (ödənişin) geri qaytarılması qarantiyası;
- ödəniş qarantiyası.

Tender qarantiyası odur ki, bu qarantiya tender keçirən təşkilatın düşdüyü zərərin əvəzinin ödənilməsini təmin etmək məqsədini güdür. Bu təşkilatın düşdüyü zərər iki halda yaranır: birinci halda müsabiqə təklifinin qüvvədə olma müddəti ərzində tender iştirakçısı tenderdə iştirak etməkdən imtina edir; ikinci halda tenderin qalibi müqavilə bağlamaqdan boyun qaçırır. Tender qarantiyası, adətən, ofertada nəzərdə tutulan məbləğin 2-5%-i həddində verilir. Buna **müsabiqə qarantiyası** da deyilir.

İcra qarantiyası odur ki, bu qarantiya lazımınca mal göndərilməsini və ya lazımınca iş görülməsini və yaxud da lazımınca xidmət göstərilməsini təmin edir. Məsələn, mal göndərmə müqaviləsi üzrə qüsursuz mal göndərilməsinə qarantiya verilir. Bu cür qarantiyadan, bir qayda olaraq, komplekt malların göndərilməsində istifadə olunur. İcra qarantiyası, adətən, müqavilənin 10%-i məbləğində verilir. Bu qarantiya, bir qayda olaraq, importçunun (alıcının və ya sifarişçinin, yəni xaricdən mal alan şəxslərin, idxalçının) mənafeyini müdafiə edir.

Avansın (ödənişin) geri qaytarılması qarantiyası odur ki, bu cür qarantiya eksportçu (mal göndərən satıcı və ya podratçı, yəni xarici ölkələrə mal göndərən ixracatçı) tərəfindən öhdəlik icra edilmədikdə, avans kimi verilən ödənişin geri qaytarılmasını təmin edir. Bu qarantiya importçunun (alıcının və ya sifarişçinin) mənafeyini təmin edir.

Ödəniş qarantiyası odur ki, bu qarantiya istənilən hər hansı bir əvəzli müqavilə üzrə ödənişi təmin edir. Bu cür qarantiyadan, hər şeydən əvvəl, eksport əməliyyatlarında istifadə olunur. Belə hallarda qarant göndərilən mala görə və ya görülən işə görə və ya da göstərilən xidmətə görə eksportçunun vaxtında ödəniş almasını təmin edir.

Qarantiyanın bu növlərindən xarici iqtisadi əlaqələrdə və beynəlxalq ticarət dövriyyəsində geniş miqyasda istifadə edilir. Həmin qarantiya növlərinin beynəlxalq hüquqi tənzimlənməsinə xüsusi diqqət yetirilir. Beynəlxalq Ticarət Palatasının qəbul etdiyi «Müqavilə qarantiyaları üzrə unifikasiya edilmiş qaydalar» tender, icra və avansın geri qaytarılması kimi qarantiya növlərini tənzimləyir.

Qarantiyanın birbaşa verilməsi kimi əlamətə görə qarantiyanın iki növü fərqləndirilir: düzünə (birbaşa) qarantiya; dolayı (yanakı) qarantiya. **Birbaşa qarantiya** odur ki, bu qarantiyanı bilavasitə qarantın özü verir. **Dolayı qarantiyanı** isə qarantın (bankın) özü vermir. Belə ki, qarantiya verilməsi barədə müraciət edildiyi halda, bank onun həyata keçirilməsini müxbir banka tapşırır. Buna **qarşılıqlı (qarşılaşan) qarantiya** da deyilir.

Ödənişin ilk tələb əsasında verilməsi əlamətinə görə qarantiyanın iki növü fərqləndirilir: tələb üzrə qarantiya; şərti qarantiya. Tələb üzrə qarantiya odur ki, bu qarantiyaya görə, qaranta benefisiarın ilk tələbi üzrə ödənişi həyata keçirmək vəzifəsi həvalə edilir. Özü də bu tələb yazılı formada verilməlidir. Məhz bu cür qarantiyanı Azərbaycan Respublikasının MM-i nəzərdə tutur.

Şərti qarantiya isə ödənişini yalnız benefisiar tərəfindən hər hansı bir sənədin təqdim olunması və ya başqa bir şərtin yerinə yetirilməsi ilə həyata keçirilməsini nəzərdə tutan qarantiya növünə deyilir. Bu cür qarantiya növündə tələb olunur və zəruridir ki, benefisiar prinsipalın öz müqaviləsi öhdəliyini lazımınca yerinə yetirməməsi barədə məhkəmə qərarı və ya digər sübutlar təqdim etsin.

Geri götürülmək kimi əlamətə görə qarantiya iki növə ayrılır: geri götürülən (geri çağırılan) qarantiya; geri götürülməyən (geri çağırılmayan qarantiya). **Geri götürülən qarantiya** odur ki, bu cür qarantiya qaranta qarantiyanı geri götürmək ixtiyarı verilməsini nəzərdə tutur. Geri götürmək hüququ hər hansı bir halla şərtlənə də bilər, şərtlənməyə də bilər. Məsələn, qarantiyada göstərilə bilər ki, prinsipalın ödəniş qabiliyyəti olmadıqda, əsas (təmin olunan) öhdəliyin məzmunu dəyişdikdə və s. qarant qarantiyanı geri götürə bilər. Başqa sözlə desək, qarant nəzərdə tutulan müəyyən şərtlərin baş verməsindən asılı olaraq, qarantiyanı geri götürmək hüququnu həyata keçirir.

Geri götürülməyən qarantiya odur ki, bu cür qarantiya növü qaranta qarantiyanı geri götürmək hüququ verməməsini nəzərdə tutur. Aydın məsələdir ki, məhz geri çağırılmayan qarantiya benefisiarın mənafeyinə daha çox cavab verir və uyğundur. Bu cür qarantiya əgər qarant tərəfindən geri götürülərsə, bu, qarantiya öhdəliyinin xitamına səbəb olmur. O, yenə də verdiyi qarantiyaya görə məsuliyyət daşıyır.

Benefisiarın qaranta olan tələbini başqa şəxsə vermək hüququna malik olması kimi əlamətə görə qarantiyanın iki növü fərqləndirilir: başqasına verilən qarantiya; başqasına verilməyən qarantiya. **Başqasına verilən qarantiya** odur ki, bu cür qarantiya növü qaranta olan tələb hüququnun benefisiar tərəfindən hər hansı bir üçüncü şəxsə verilə bilmək imkanını nəzərdə tutur. Benefisiar ona məxsus olan tələb hüququnu üçüncü şəxsə tələbin güzəşti (sessiya) qaydasında verir. Tələbin üçüncü şəxslərə verilməsinin qayda və şərtləri qarantiyada göstərilməlidir. Bu hüququn üçüncü şəxsə verilməsi imkanı qarantla prinsipal arasında bağlanan sazişdə ifadə olunmalıdır. Əgər tələb hüququnun benefisiar tərəfindən üçüncü şəxsə verilməsi hüququ bu sazişdə əks olunmasa, onda qarant prinsipala olan reqres hüququnu itirir. Qarantiya isə abstrakt əqdə çevrilir.

Başqasına verilə bilməyən qarantiya odur ki, bu növ qarantiya tələb hüququnun benefisiar tərəfindən üçüncü şəxsə verilməsinin mümkünlüyünü istisna edir. Bu halda benefisiarın ixtiyarı yoxdur ki, o, qaranta olan tələb hüququnu başqasına versin.

Risqin növündən asılı olaraq, qarantiyanın gömrük, məhkəmə, iddianın

[1] Qarantiyanın təsnifi barədə bax: *Тынель А., Функ Я., Хвалей В.* Курс международного торгового права. Учебник. Минск. 2000, с. 390-394; *Ерпылева Н.Ю.* Международное банковское право. М., 1998, с. 90.

təmini və konosament qarantiyası kimi növləri fərqləndirilir. **Gömrük qarantiyası** gömrük ödənişlərinin həyata keçirilməsini təmin edir. **Məhkəmə qarantiyası** məhkəmə icrası gedişində tərəflərin çəkdiyi və məhkəmə prosesi xərclərini təmin etmək məqsədini güdür. Bu növ qarantiya bəzi ölkələrin qanunvericiliyində nəzərdə tutulmuşdur. **İddianın təmini qarantiyası** odur ki, buna görə əmlaka (mala) həbs qoyulduğu hallarda şəxs qarantiya verir və bununla həmin əmlaka (mala) öz istəyi ilə sərəncam vermək hüququ əldə edir. **Konosament qarantiyası** odur ki, o, yük daşıyıcısına mal konosamentsiz verildiyi hallarda, öhdəliyin icrasını nəzərdə tutur.

Qarantiya **konsorsium qarantiyası** növündə də verilə bilər. Bu qarantiya növü konsorsium iştirakçılarının öhdəliyini faktiki təmin edir. Bundan əlavə, qarantiya **kontrqarantiya növündə** də ola bilər. Kontrqarantiya o halda tətbiq edilir ki, benefisiar prinsipala xidmət edən bankın verdiyi qarantiyanı yetərli hesab etmir. Belə halda o, nisbətən daha çox nüfuzu olan və tanınan bankın qarantiya verməsini xahiş edir. Bunu nəzərə alaraq, prinsipalın bankı həmin tanınmış banka öz müştərisinə bank qarantiyası vermək barədə müraciət edir. Bu bankın özü isə nüfuzlu hesab edilən banka kontrqarantiya verir.

4. Qarantiya öhdəliyinin icrası

Qarantiya öhdəliyinin məzmununu **qarant tərəfindən müəyyən pul məbləğini ödəmək vəzifəsi** təşkil edir. Qarant bu vəzifəni o halda yerinə yetirir ki, əsas (təmin olunan) öhdəlik prinsipal tərəfindən icra edilməsin və ya lazımınca icra edilməsin. Beləliklə, qarantın müəyyən pul məbləğini benefisiara ödəməsi ilə qarantiya öhdəliyi icra edilmiş sayılır.

Qarantiya öhdəliyinin icrası bir neçə mərhələni əhatə edir. Bu mərhələlər bir-birilə qarşılıqlı əlaqədə olub, tam və bütöv halında birləşir. **Birinci mərhələ** başlanğıc mərhələsi olub, **qarantiya üzrə tələbin təqdim edilməsi mərhələsi** adlanır. Bu mərhələni qanun xüsusi olaraq tənzimləyir (MM-in 484-cü maddəsi). Hər şeydən əvvəl, benefisiar prinsipal tərəfindən əsas (təmin olunan) öhdəlik icra edilmədiyi halda, dərhal lazımi və zəruri sənədləri toplayır. Lazımi sənədlər dedikdə, qarantiyada göstərilmiş və nəzərdə tutulmuş sənədlər başa düşülür. Bundan sonra benefisiar qarantiya üzrə pul məbləği ödənilməsi haqqında tələb hazırlayır. Özü də bu tələb **yazılı formada** olmalıdır. Tələbin şifahi formada olması tamamilə istisna edilir. Tələbdə və ya sənədlərdə benefisiar prinsipalın əsas (təmin olunan) öhdəliyi icra etməməsini və ya lazımınca icra etməməsini, yəni mülki hüquq pozuntusuna yol verməsini şərtləndirən halları geniş təfsilatı ilə göstərməlidir. Daha sonra qarantiyada nəzərdə tutulmuş sənədlər yazılı formalı tələbə əlavə edilir və qaranta göndərilir. Belə halda benefisiar qarantiyanın müddət barədə şərtinə əməl etməlidir. Belə ki, o, tələbi qarantiyada müəyyənləşdirilmiş verilmə müddəti başa çatanadək təqdim etməlidir (MM-in 484-cü maddəsinin 2-ci bəndi). Əgər bu müddət ötdükdən sonra tələb verilərsə, belə halda qarantiya öhdəliyinin icrasından söhbət gedə bilməz. Bu, benefisiar üçün arzuolunmaz mənfi nəticələrə səbəb olur (bu barədə növbəti yarımbaşlığa bax).

İkinci mərhələ benefisiar tərəfindən tələb verilməsindən və qarantın bu tələbi almasından sonra başlayır. Bu, **benefisiarın tələbinə baxılması mərhələsi** adlanır. Qanun bu mərhələnin tənzimlənməsinə xüsusi əhəmiyyət verir (MM-in 485-ci maddəsi). Tələbi alan kimi qarantın ən birinci vəzifəsi tələbin ona çatması barədə ləngimədən dərhal prinsipala məlumat verməsindən ibarətdir. Bundan əlavə, qarantın borcudur ki, o, tələbin surətini ona aid bütün sənədlərlə birlikdə prinsipala təqdim etsin və ya göndərsin. Bu vəzifə qarantla prinsipal arasındakı münasibətlərdə vacib rol oynayır. Belə ki, qarant tərəfindən prinsipala reqres tələb verildiyi halda, bu vəzifənin icrası nəzərə alınır. Həmin vəzifənin yerinə yetirilməməsi reqres tələbin ödənilməsini istisna edə bilər.

Benefisiarın tələbinə baxılması mərhələsində qarant tələbin və ona qoşulmuş sənədlərin qarantiya şərtlərinə uyğun gəlib-gəlmədiyini yoxlayır. **Yoxlama sənədlərin xarici (zahiri) əlamətinə görə aparılır**. Burada prinsipalın təqsirinin aşkar edilməsi, onunla benefisiar arasındakı münasibətin təhlil edilməsi yox, tələbin bu sənədlərin qarantiya şərtlərinə formal uyğunluğu həlledici əhəmiyyətə malikdir. Qarant yoxlamaya ciddi diqqət göstərməlidir. Belə təsəvvür yaranır ki, göstərilən mərhələdə qarantın əsas vəzifəsi yoxlama və müəyyənləşdirmə hərəkətlərini yerinə yetirməkdən ibarətdir. Ona görə də ikinci mərhələni tələbin və ona qoşulmuş sənədlərin qarantiya şərtlərinə uyğun gəlib-gəlmədiyini müəyyənləşdirmək mərhələsi də adlandırmaq olar.

Qarant benefisiarın tələbinə və ona qoşulmuş sənədlərə tələb olunan müddətdə baxır. Bu müddət qarantiyada nəzərdə tutulur və göstərilir. Əgər qarantiya müddəti müəyyənləşdirilməzsə və göstərilməzsə, onda qarant tələbə və ona qoşulmuş sənədlərə ağlabatan müddətdə baxır. Ağlabatan müddət tələbə və ona qoşulmuş sənədlərə baxmaq üçün kifayət edən normal müddətdir. Bu müddət hər bir konkret vəziyyətin bütün halları nəzərə alınmaqla müəyyən edilir.

Üçüncü mərhələnin əsas mahiyyəti ikinci mərhələdə müəyyənləşdirilən hallara və aparılan yoxlamanın nəticəsinə qiymət verməkdən ibarətdir. Bu, **benefisiarın tələbini ödəmək barədə qərar qəbul etmək mərhələsi** adlanır. Qanun bu mərhələnin tənzimlənməsinə ayrıca norma həsr etmişdir (MM-in 487-ci maddəsi).

Qarant üçüncü mərhələdə mümkün olan iki variantdan birini seçir: benefisiarın tələbini ödəməkdən imtina edilməsi barədə qərar qəbul etmək (birinci variant); benefisiarın tələbini ödəmək barədə qərar qəbul etmək (ikinci variant). Birinci variantda qarant imtina haqqında qərar qəbul edir. İki hal mövcud olduqda, imtina barədə qərar çıxarılması üçün əsas yaranır. Birinci halda, əgər benefisiarın tələbi və ya ona qoşulmuş sənədlər qarantiya şərtlərinə uyğun deyildirsə, qarant benefisiarın tələbini təmin etməkdən imtina edir. İkinci halda, əgər benefisiarın tələbi və ya ona qoşulmuş sənədlər qarantiyanın özündə göstərilən müddət qurtardıqdan sonra qaranta təqdim edilmişdirsə, o, bu tələbi ödəməkdən boyun qaçırır. **İmtina haqqında qərar qəbul etdikdən** sonra qarantın borcu və vəzifəsidir ki, bu barədə o, benefisiara dərhal məlumat versin (MM-in 486-cı maddəsinin 1-ci bəndi).

İkinci variantda, əgər benefisiarın tələbi və ya ona qoşulmuş sənədlər qarantiya şərtlərinə uyğun gələrsə, habelə qarantiyada göstərilmiş müddət başa çatmazsa, onda **qarant benefisiarın tələbini ödəmək barədə qərar qəbul**

edir. Bu qərar nəticəsində qarantiya öhdəliyində nəzərdə tutulmuş pul məbləği qarant tərəfindən benefisiara ödənilir. Pul məbləğinin benefisiara ödənilməsi isə qarantiya öhdəliyinin icrasını, yəni qarantın ona həvalə edilmiş vəzifənin yerinə yetirilməsini ifadə edir. Buna görə də benefisiar qarşısında qarantın öhdəliyi qarantiya verilmiş məbləğin ödənilməsilə məhdudlaşır (MM-in 487-ci maddəsinin 1-ci bəndi). Bu, o deməkdir ki, qarant yalnız qarantiyada göstərilmiş, yəni **qarantiya verilmiş məbləğ həcmində məsuliyyət daşıyır**. Qarant bu məbləğdən yuxarı olan hər hansı bir məbləği ödəməyə borclu deyildir. O, **vurulmuş zərərin əvəzini ödəməməyə görə, habelə dəbbə pulu verməməyə görə və s. benefisiar qarşısında məsuliyyət daşımır**.

Qarantın qarantiya öhdəliyini icra etməməsi və ya lazımınca icra etməməsi onun üçün arzuolunmaz mənfi nəticələrə səbəb olur. Bu, o deməkdir ki, qarant əsassız olaraq müvafiq pul məbləğini benefisiara tamamilə ödəmir və ya qismən ödəyir. Belə halda benefisiar iddia ilə məhkəməyə müraciət edir. Qarant isə mülki hüquqi məsuliyyətə cəlb edilir. Onun benefisiar qarşısında məsuliyyəti qarantiya verilmiş məbləğlə məhdudlaşmır, yəni qarant benefisiara təkcə qarantiyada nəzərdə tutulmuş pul məbləğini ödəməklə məsuliyyətdən azad olmur. Onun məsuliyyət həcmi artır. Belə ki, qarantiya pul öhdəliyidir və onun vaxtında ödənilməməsi və ya ümumiyyətlə, ödənilməməsi benefisiara zərər vura bilər. Bu halda qarant pul öhdəliyini qanunsuz saxlamağa və ya pul məbləğinin ödənilməsini gecikdirdiyinə görə məsuliyyət daşıyır. Belə vəziyyətdə MM-in 449-cu maddəsinin müəyyən etdiyi qayda tətbiq edilir. Bu qaydaya görə, qarant benefisiara faizlər ödəyir. Bundan əlavə, o, qarantiya öhdəliyini icra etməməyə və ya lazımınca icra etməməyə görə, benefisiara vurulan zərərin əvəzini də ödəyir. Əgər zərər faizlərin məbləğindən çox olarsa, qarant həmin məbləğdən çox olan hissədə zərərin əvəzini ödəyir (MM-in 449-cu maddəsinin 3-cü bəndi). Beləliklə, qarantın benefisiara ödədiyi məbləğ bərabərdir: **qarantiya verilmiş məbləğ, üstəgəl faizlərin məbləği, üstəgəl faiz məbləğindən çox olan hissədə zərərin əvəzi**. Məhkəmə praktikası da bu qaydanı düzgün hesab edir[1].

Qarantiya verilmiş məbləğlə məhdudlaşdırma haqqında qayda dispozitiv xarakter daşıyır. Bu, o deməkdir ki, qarantiyada ayrı hal da nəzərdə tutula bilər (MM-in 487-ci maddəsinin 2-ci bəndi).

Bəzən elə vəziyyət yaranır ki, benefisiarın tələbini ödəyənə kimi qaranta bəzi hallar məlum olur. Qaranta məlum olur ki, əsas (təmin olunan) öhdəlik tamamilə və ya qismən icra olunmuşdur və ya digər əsaslara görə ləğv edilmişdir və yaxud etibarsız hesab edilmişdir. Belə halda qarant bu barədə dərhal benefisiara və prinsipala məlumat verir. Özü də o, benefisiara pul məbləği ödəmir. Əgər bu cür məlumat verildikdən sonra benefisiar təkrarən tələb təqdim edərsə, onda qarant həmin tələbi ödəməlidir (MM-in 486-cı maddəsinin 2-ci bəndi). Bu qayda benefisiara imkan verir ki, o öz hüququndan sui-istifadə etsin. Belə ki, benefisiarın tələbini ödəyənə kimi əsas öhdəlik ya həqiqətən ləğv edilə, ya lazımınca icra oluna və ya da etibarsız hesab edilə bilər. Bunu bilə-bilə benefisiar ona verilmiş hüquqdan istifadə edərək, təkrarən qaranta

[1] bax: Вестник Высшего Арбитражного Суда РФ. 1997. № 4, с. 87.

tələb təqdim edir. Qarant bu tələbi yerinə yetirir. O, qarantiya verilmiş pul məbləğini benefisiara ödəyir. Bununla benefisiar hüquqi əsas olmadan, qanunsuz olaraq pul vəsaiti əldə edir. Bu halda əsassız varlanma (kondikasiya) öhdəliyi göz qabağındadır (MM-in 58-ci fəsli). Qarant kondikasiya iddiası verməklə əsassız olaraq alınan pul vəsaitinin geri qaytarılmasını, pul öhdəliyi üzrə faizlərin ödənilməsini və vurulmuş zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

5. Qarantın reqres tələbi

Benefisiarın tələbini ödədikdən sonra qarantın ixtiyarı vardır ki, o, **reqres qaydasında prinsipala tələb irəli sürsün**. Bu tələbin mahiyyəti qarantın qarantiya üzrə benefisiara verdiyi pul məbləğinin əvəzini prinsipaldan almaqdan, onun düçar olduğu əmlak itkisinin yerini doldurmaqdan, çəkilən xərcləri kompensasiya etməkdən ibarətdir. Beləliklə, benefisiara qarantiya məbləğini ödəmiş qarantın əmlak mənafeyini müdafiə etmək və nəzərə almaq məqsədilə ona reqres tələb irəli sürmək ixtiyarı verilir (MM-in 489-cu maddəsinin 1-ci bəndi). Bu hüquqdan istifadə etməklə o öz əmlak mənafeyini təmin edir. Özü də dərhal qeyd edirik ki, **qarantın reqres qaydasında tələb vermək hüququ** zaminlikdən fərqli olaraq[1], qanunla yox, **qarantiya verilməsi barədə prinsipalla qarant arasında bağlanmış sazişlə (müqavilə ilə) müəyyən edilir**. Qarantın qarantiya üzrə benefisiara vermiş olduğu pul məbləğinin əvəzinin ödənilməsini prinsipaldan reqres qaydasında tələb etmək hüququ qarantla prinsipal arasında bağlanmış sazişlə müəyyənləşdirilir (MM-in 489-cu maddəsinin 1-ci bəndi). Əgər bu sazişdə qarantın reqres hüququ nəzərdə tutulmazsa, onda onun prinsipala reqres qaydasında tələb irəli sürməsindən söhbət gedə bilməz. Bu halda prinsipal üçün reqres məsuliyyəti yaranmır.

Qarantiya verilməsi barədə prinsipalla qarant arasında bağlanmış sazişdə prinsipalın reqres məsuliyyətini müəyyənləşdirən şərtlər nəzərdə tutula bilər. Bu sazişdə qarantın reqres tələbi üzrə prinsipalın məhdud məsuliyyətinin nəzərdə tutulması mümkündür. Məsələn, qaranta qarantiya verməsinə görə ödənilən haqqın əvəzləşdirilməsi ilə məsuliyyət müəyyənləşdirilə bilər. Sazişdə göstərilə bilər ki, prinsipal reqres məsuliyyətindən azad edilsin.

Qarantın prinsipala **reqres qaydasında tələb irəli sürmək hüququ iki halda məhdudlaşır**. Belə ki, həmin hallar mövcud olduqda, qarantın reqres tələbi verməsi istisna edilir. O, bu cür hüquqdan məhrum olur. **Birinci hal** ondan ibarətdir ki, **qarant benefisiara qarantiya şərtlərinə uyğun olmayan pul məbləği** ödəyir. Bu hərəkəti ilə qarant mülki hüquq pozuntusuna yol verir. Həmin hərəkət isə öz növbəsində qarantın reqres qaydasında tələb irəli sürmək hüququnun itirilməsinə səbəb olur. **İkinci hal** ondan ibarətdir ki, **qarant benefisiar qarşısında öhdəliyi pozur**. Bu pozuntu qarantı reqres qaydasında tələb vermək hüququndan məhrum edir (MM-in 489-cu maddəsinin 2-ci bəndi). Bu norma dispozitiv xarakter daşıyır. Belə ki, tərəflərin saziş və razılığı ilə bundan fərqli qayda da nəzərdə tutula bilər. Məsələn, müəyyənləşdirilə bilər ki, qarantın prinsipala qarşı reqres qaydasında tələb vermək hüququ istisnasız olaraq bütün hallarda saxlansın, bu hüquq istənilən hər hansı bir mə-

[1] Qeyd etdiyimiz kimi, zaminə tələb hüququ reqres qaydasında yox, tələbin güzəşti formasında keçir. Bu barədə əvvəlki paraqrafda söhbət açılır.

qamda məhdudlaşmasın və s.

6. Qarantiya öhdəliyinin ləğv edilməsi

Qarantiya öhdəliyi müxtəlif əsaslarla ləğv edilir. Bu əsasları ümumi və xüsusi adlı iki yerə bölmək olar. **Qarantiyanın ləğv edilməsinin ümumi əsasları** odur ki, bu əsaslar MM-in 27-ci fəslində nəzərdə tutulmuşdur. Ümumi əsaslara aid etmək olar:

- novasiyanı (MM-in 531-ci maddəsi);
- peşman haqqı verilməsini (MM-in 529-cu maddəsinin 8-ci bəndi);
- əvəzləşdirmə yolunu (MM-in 540-cı maddəsinin 1-ci bəndi);
- qarantla benefisiarın eyni şəxs olmasını (MM-in 555-ci maddəsi);
- öhdəliyin icra edilməsinin mümkün olmamasını (MM-in 556-cı maddəsi).

Öhdəliyin ləğv edilməsinin ümumi əsaslarına dərsliyin bundan sonrakı fəsillərinin birində — «Öhdəliklərə xitam verilməsi» adlı fəslində toxunacağıq. Ona görə də bu məsələni burada geniş və ətraflı surətdə işıqlandırmağı zəruri hesab etmirik.

Qarantiyanın ləğv edilməsinin xüsusi əsasları odur ki, bu əsaslar MM-in 488-ci maddəsində göstərilmişdir. Qarantiyanın ləğv edilməsini şərtləndirən əsaslardan biri **qarantiya verilmiş məbləğin benefisiara ödənilməsi halıdır** (MM-in 488-ci maddəsinin 1-ci bəndinin 1-ci yarımbəndi). Qarantın qarantiya öhdəliyi üzrə öz əsas vəzifəsini yerinə yetirməsilə bu öhdəlik lazımınca icra olunur. Bununla da qarantiya öhdəliyinə xitam verilir.

Qarantiya öhdəliyinin ləğv edilməsinə dəlalət edən əsaslardan biri **qarantiyada müəyyənləşdirilmiş müddətin başa çatması halıdır** (MM-in 488-ci maddəsinin 1-ci bəndinin 2-ci yarımbəndi). Qarantiya müddətli öhdəlikdir. Buna görə də qarantiyada onun qüvvədə olma müddəti dəqiq olaraq göstərilir. Bu müddət ötüb keçdikdən sonra, yəni qarantiya öhdəliyinin qüvvədə olma müddəti başa çatdıqdan sonra həmin öhdəliyə xitam verilir. Buna görə də qarantiya öhdəliyinin qüvvədə olma müddəti başa çatdıqdan sonra benefisiarın qaranta verdiyi tələb ödənilmir. Ona görə ki, qüvvədə olma müddəti ötmüş öhdəliyin hüquqi əhəmiyyəti olmur. Bu cür öhdəlik özünün hüquqi məna və mahiyyətini itirir.

Benefisiarın qarantiya üzrə hüquqlarından imtina etməsi və onu qaranta qaytarması qarantiya öhdəliyinə xitam verilməsinin əsaslarından biridir[1] (MM-in 488-ci maddəsinin 1-ci bəndinin 3-cü yarımbəndi). Qarantiya üzrə öz hüquqlarından benefisiar **iki formada** imtina edə bilər. Birinci formaya görə, benefisiar hüquqlardan imtina barədə **qaranta yazılı məlumat verir** (yazılı bildiriş göndərir). Məlumat (bildiriş) ərizə formasında verilir. Ərizədə benefisiarın qarantı onun öhdəliyindən azad etməsi göstərilir. Bu yolla benefisiar qarantiya üzrə hüquqlarından imtina edir (MM-in 488-ci maddəsinin 1-ci bəndinin 4-cü yarımbəndi). İkinci forma **benefisiarın konklyudent hərəkət etməsilə** hüquqlardan imtina olunmasını nəzərdə tutur. Bu halda o, qarantiya məktubunun əslini qaranta qaytarır. Benefisiarın qarantiya üzrə öz hüquqlarından imtina etməsi müxtəlif amillərlə, xüsusən də borcun bağışlanması kimi halla bağlı ola bilər.

Qarantiyaya xitam verildikdən sonra qarantın borcudur ki, o, dərhal prinsipala məlumat versin. Bu vəzifəni yerinə yetirməməyə görə qarant üçün qanunla hər hansı bir məsuliyyət nəzərdə tutulmur. Məlumat vermək kimi vəzifəni icra etməməyin hüquqi əhəmiyyəti yoxdur.

Müasir bank qarantiyası (çox vaxt qarantiyanı belə adlandırırlar) zaminlik institutundan yaranmışdır. Bank praktikasında bəzən elə «qarantiya»ya rast gəlmək olur ki, bu, öz mahiyyətinə görə zaminlik olur. Zaminlik institutu bank qarantiyasının proobrazıdır. Bu iki institut üçün ümumi cəhət ondan ibarətdir ki, həm zamin, həm də qarant başqa şəxs öhdəliyi icra etmədiyi halda müəyyən pul məbləği ödəməyi öz öhdələrinə götürürlər. Onların hər ikisi də öhdəliklərin icrasının təmin edilməsi üsullarıdır. Həm zamin, həm də qarant əsas öhdəliyin kreditorları qarşısında məsuliyyət daşıyırlar[1]. Bununla belə, qarantiya və zaminlik kimi hüquqi konstruksiyalar bir-birindən fərqlənir.

Birinci fərq ondan ibarətdir ki, zaminlik əsas öhdəliyə münasibətdə aksessor öhdəlikdir. Qarantiya isə müstəqil öhdəlik hesab edilir. **İkinci fərq** ondan ibarətdir ki, zaminlik ikitərəfli, qarantiya isə birtərəfli əqddir. **Üçüncü fərq** ondan ibarətdir ki, əksər hallarda qarant rolunda xüsusi subyektlər (bank, digər kredit idarəsi, sığorta təşkilatı) çıxış edir. Zamin rolunda isə istənilən subyekt çıxış edə bilər. **Dördüncü fərq** ondan ibarətdir ki, qarantiya öhdəliyi heç bir vaxt birgə və ya subsidiar (əlavə) məsuliyyət nəzərdə tutmur. Zaminlik isə hər iki məsuliyyət növünü müəyyənləşdirir.

Qarantiyanın məzmununun fərqli xüsusiyyətləri, qarantiya üzrə tələblərin təmin edilməsi qaydası onu ən etibarlı və vacib təminat üsullarından birinə çevirir. Bu isə onun tətbiq sferasının genişləndirilməsini şərtləndirir. Hüquq ədəbiyyatında qarantiya hüquqi konstruksiyasının işıqlandırılmasına kifayət qədər geniş yer verilir[2].

§ 6. Beh (Vorschuß)

1. Behin anlayışı, mahiyyəti və predmeti

Öhdəliklərin icrasının təmin edilməsi üsullarından biri behdir. Beh hüquqi konstruksiyası hələ neçə-neçə əsr bundan əvvəl Roma hüququna məlum idi. Roma hüququ beh institutunu «arra» adı ilə tanıyırdı[3]. Klassik dövrdə beh müqavilənin bağlanma faktını təsdiqləmək məqsədi güdürdü (arra

[1] İngilis-sakson hüquq doktrinasında belə bir fikir söylənilir ki, qarantiyanın qüvvədə olma müddəti başa çatdıqdan sonra da benefisiar qarantiyanın icra olunmasını tələb etmək hüququna malikdir (bax: *Тынель А., Функ Я., Хвалей В.* Курс международного торгового права. Учебник. Минск. 2000, с. 397).

[1] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 535.

[2] bax: *Лазебо А.* Банковская гарантия // Экономика и жизнь. 1995. № 10; *Ефимова Л.* Банковская гарантия: понятие и практическая применимость // Хозяйство и право. 1996. № 3, с. 116; *Аванесова Г.* Применение банковской гарантии и договора поручительства в банковской практике // Хозяйство и право; *Павлодский Е.* Банковская гарантия // Экономика и жизнь. 1995. № 43; *Меломед А.* Банковская гарантия – новый институт в Российском законодательстве // Российская юстиция. 1995. №7, с. 13; *Витрянский В.* Обеспечение исполнения обязательств // Хозяйство и право. 1995. № 9 i dr.

[3] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник / Перевод с македонского. М., 2000, с. 296.

confirmatoria)[1]. Klassik Roma hüququ xalqdan belə bir adət götürmüşdü ki, bu adətə görə, alqı-satqı müqaviləsi bağlanarkən bir tərəf müqavilənin həqiqətən bağlanmasını nümayiş etdirmək üçün o biri tərəfə hər hansı bir əşya və ya çox olmayan məbləğdə pul verirdi. Bu adətdən xüsusilə alqı-satqı müqaviləsi bağlandığı hallarda istifadə olunurdu. Verilən əşya və ya pul məbləği beh (arra) adlanırdı. Beh (arra) Yaxın Şərq mənşəyinə malikdir. Roma hüququ girovla bərabər, behi də **real təminat üsullarına** aid etmişdi. Beh borclu tərəfindən kreditorun real təminatı kimi çıxış edirdi.

Beh hüquqi konstruksiyası bir çox xarici ölkə milli hüquq sistemlərində tanınır. O, Almaniyanın, İtaliyanın, Fransanın, İsveçin və digər dövlətlərin qanunvericiliyinə məlum olan institutdur[2]. RF-in MM-i behi öhdəliklərin icrasının təminat üsullarından biri kimi nəzərdə tutur. Həmin məcəllənin 23-cü fəslinin 7-ci paraqrafına daxil olan normalar (380-381-ci maddələr) beh hüquqi konstruksiyasını tənzimləyir[3]. İnqilabaqədərki Rusiya qanunvericiliyi də behi nəzərdə tuturdu. Həmin dövrün Rusiya mülki hüquq doktrinası behə müqavilə bağlanarkən bir tərəfin şərtləşdirilmiş hərəkəti yerinə yetirdiyinə görə digər tərəfə müəyyən hissədə pul məbləğini ödəməsi kimi anlayış verirdi[4]. Beh konstruksiyasını sovet qanunvericiliyi də tanıyırdı[5]. RF-in 1964-cü il MM-inin 209-cu maddəsi, Azərbaycan Respublikasının 1964-cü il MM-inin 198-ci maddəsi beh institutunun mülki hüquqi tənzimlənməsinə həsr edilmişdi.

Azərbaycan Respublikasının yeni MM-i də beh hüquqi konstruksiyasını nəzərdə tutur. Həmin məcəllənin 24-cü fəslinin altıncı paraqrafına daxil olan normalar (491-492-ci maddələr) beh münasibətlərini tənzimləyir. Özü də dərhal qeyd edirik ki, 1964-cü il MM-dən fərqli olaraq, **yeni MM behin tətbiq sferasını və əhatə sahəsini xeyli dərəcədə genişləndirir**. Belə ki, qüvvədən düşmüş MM-in 198-ci maddəsinə görə, behdən yalnız vətəndaşlar arasında və ya onların iştirakı ilə əmələ gələn öhdəliklərin icrasının təmin edilməsində istifadə oluna bilərdi. Bir qayda olaraq, beh məişət sahəsində tətbiq olunurdu. Hüquqi şəxslər arasında əmələ gələn öhdəliklərin icrasının təmin edilməsində isə beh konstruksiyasının tətbiqi tamamilə istisna edilmişdi və bu, mümkün deyildi. İndiki mülki qanunvericilik bu cür məhdudiyyətləri tamamilə aradan qaldırmışdır. Beh özünün məişət xarakterini itirmişdir. Bu konstruksiya **təkcə məişət münasibətlərində yox, həm də sahibkarlıq əlaqələrində tətbiq edilir**. İndiki dövrdə sahibkar statuslu hüquqi şəxslər — kommersiya təşkilatları öz fəaliyyətlərində behdən tez-tez istifadə edirlər. Məsələn, hərrac iştirakçıları hərracın təşkilatçısına beh verir (MM-in 415-ci maddəsinin 4-cü bəndi).

MM-in 491-ci maddəsi beh konstruksiyasına anlayış verir. **Beh dedikdə, müqavilənin bağlanmasını təsdiq etmək və icrasını təmin etmək məqsədilə razılığa gələn tərəflərdən birinin müqavilə üzrə digər tərəf üçün həyata keçirəcəyi ödəniş hesabına verdiyi pul məbləği başa düşülür**. Anlayışdan görünür ki, beh müqavilə öhdəlikləri ilə əlaqədar olaraq meydana gəlir. Bu institutun əsas xüsusiyyəti ondan ibarətdir ki, o, təminat üsulu kimi yalnız **müqavilədən əmələ gələn pul öhdəliklərinin icrasında** istifadə oluna bilər. Çox vaxt behlə vətəndaşlar arasında bağlanan müqavilələrdən (bağ evlərinin və mənzillərin kirayə müqaviləsi, torpaq sahələrinin icarəsi müqaviləsi, alqı-satqı müqaviləsi və s.) yaranan öhdəliklər təmin edilir.

Behin predmeti kimi yalnız müəyyən pul məbləği çıxış edə bilər. Bu, o deməkdir ki, əşyalar, maddi sərvətlər və s. behin predmeti ola bilməz. Bu, Roma hüququ ənənələrinə uyğun gəlmir. Roma hüququna görə, həm əşyalar, həm də pul məbləği behin predmeti ola bilərdi[1]. Behin predmetinin yalnız puldan ibarət olması bizim ölkə qanunvericiliyinin behə verdiyi leqal anlayışdan məlum olur. Amma buna baxmayaraq, digər maddi sərvətlərin behin predmeti kimi çıxış etməsi üçün nəzəri cəhətdən hər hansı bir maneçilik yoxdur[2]. Belə ki, əşyanın, qiymətli kağızların və s. behin predmeti olması nəzəri cəhətdən mümkündür.

Behin predmeti olan pul məbləği tərəflərin razılığı ilə müəyyənləşdirilir. **Behin miqdarı qanunla məhdudlaşdırılmır**. Qanun behin miqdarı haqqında yalnız belə bir göstərişlə kifayətlənmişdir ki, onun həcmi tərəflər arasında bağlanan müqavilənin qiymətinin, yəni bir tərəfin digər tərəfə verməli olduğu ödənişin müəyyən hissəsini əhatə edir.

Beh münasibətlərində iki tərəf iştirak edir: beh alan; beh verən. **Beh alan** müqavilə bağlayan tərəflərdən biri olub, nəyi isə verməsinin müqabilində o biri tərəfdən ödəniş almaq hüququ olan şəxsdir. O, müqavilə öhdəliyində kreditor rolunda çıxış edir. **Beh verən** isə müqavilə öhdəliyində borclu şəxs qismində iştirak edən tərəfdir. O, beh alanın nəyi isə verməsinin əvəzində ödənişi həyata keçirməyə, müəyyən haqq verməyə borclu olan şəxsdir. Məsələn, iki tərəf arasında alqı-satqı müqaviləsi bağlanır. Satıcı beh alandır. Alıcı isə beh verəndir. Alıcının müəyyən məbləğdə satıcıya beh verməsi ilə onlar arasında beh münasibətləri əmələ gəlir.

Beh münasibətləri **saziş (razılaşma) formasında** rəsmiləşdirilir. Bu sazişin formasını isə qanun xüsusi qaydada tənzimləyir. Belə ki, beh haqqında saziş (razılaşma) **behin məbləğindən asılı olmayaraq yazılı formada** olmalıdır (MM-in 491-ci maddəsinin 2-ci bəndi). Deməli, beh haqqında saziş üçün qanun yazılı forma tələb edir və müəyyənləşdirir. Lakin dəbbə pulu, girov və zaminlikdən fərqli olaraq, qanun müəyyən etmir ki, yazılı formaya riayət edilməməsi bu sazişin etibarsızlığına səbəb olmur. MM-də bu barədə göstəriş yox-

[1] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 336.

[2] bax: *Годеме Е.* Общая теория обязательств. М., 1948; *Вильям Р.* Ансон. Основы договорного права. М., 1947; Гражданское и торговое право капиталистических стран. Учебник. Часть 2 / Под ред. *Р.Л.Нарышкиной.* М., 1984; Гражданское и торговое право капиталистических государств. Учебник / Под ред. *Е.А.Васильева.* М., 1993; Германское право. Часть 1. М., 1996.

[3] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова.* М., 1999, с. 627-628.

[4] bax: *Шершеневич Г.Ф.* Учебник русского гражданского права (по изданию 1907 г.). М., 1995, с. 291.

[5] Гражданский кодекс советских республик. Текст и практический комментарий / Под ред. *А.Малицкого.* Харков. 1927, с. 241; Комментарий к Гражданскому кодексу РСФСР / Под ред. *С.Н.Братуся* и *О.Н.Садикова.* М., 1982, с. 256 və s.

[1] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 335; *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 296.

[2] bax: Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 60.

dur. Amma Mülki Məcəllə göstərir ki, qanunla müəyyən edilmiş forma tələblərinə riayət etməməklə bağlanmış əqd etibarsızdır (329-cu maddənin 1-ci bəndi). Odur ki, yazılı formada bağlanmayan beh sazişi etibarsızdır.

Beh haqqında sazişin yazılı formada bağlanmasının mühüm əhəmiyyəti vardır. Bu, əgər belə olmazsa, ödənilən pul məbləğinin beh və ya avans (fransızca «avance» — gələcək ödənişin hesabına əvvəlcədən verilən pul məbləği) kimi verilməsini sübut etmək çətin olardı və müşkül məsələyə çevrilərdi. Lazımsız mübahisələrdən və yersiz ixtilaflardan qaçmaq üçün vacibdir ki, **beh haqqında sazişin sənədi dəqiq tərtib olunsun, ödənilən məbləğin beh kimi verilməsi orada hökmən göstərilsin**. Əgər belə olmasa, beh verən iddia edə bilər ki, guya o, müvafiq məbləği beh kimi yox, avans kimi vermişdir və ona görə də avans kimi verilən məbləğ geri qaytarılsın (beh verilən hallarda isə o, bu cür tələb irəli sürə bilməz).

Behin hüquqi mahiyyəti, mənası və rolu onun funksiyalarında təzahür edir. **Behin funksiyaları** dedikdə, onun hansı rol oynaması başa düşülür. Hüquq ədəbiyyatında behin üç əsas funksiyaya malik olması göstərilir[1]:

- təminat (cərimə) funksiyasına;
- sübutetmə və ya təsdiqləmə funksiyasına;
- ödəniş funksiyasına.

Beh yerinə yetirdiyi funksiyaların çoxluğuna görə digər təminat üsullarından (zaminlikdən, qarantiyadan, dəbbə pulundan, saxlamadan və s.) fərqlənir. Təminat üsullarından hər hansı biri beh kimi bir neçə funksiya yerinə yetirmək iqtidarında deyil. Bundan əlavə, behin dördüncü — **kompensasiya (əvəz ödəmə) adlı funksiyasını** da fərqləndirmək olar ki, bu funksiyanın işıqlandırılmasına və nəzərdən keçirilməsinə nadir hallarda rast gəlinir[2].

2. Behin təminat funksiyası

Təminat və ya təkan vermək (meyilləndirmək) funksiyası behin əsas və başlıca funksiyasıdır. Beh əsas öhdəliyin icrasını təmin etmək üçün verilir. Özü də dərhal göstəririk ki, behlə yalnız müqavilə öhdəliklərinin icrası təmin edilə bilər. Bu, behə verilən leqal anlayışdan məlum olur.

Behin təminat funksiyası qanunun müəyyən etdiyi qayda ilə şərtlənir (MMin 492-ci maddəsinin 2-ci bəndi). Qanunun nəzərdə tutduğu bu qaydaya görə, müqavilənin icra edilməməsinə görə beh verən tərəf məsuldursa, beh digər tərəfdə (kontragentdə) qalır, əksinə, kontragent (digər tərəf) məsuldursa, o, behi qarşı tərəfə ikiqat məbləğdə qaytarmalıdır. Məsələn, iki vətəndaş arasında hər hansı bir məişət predmetinin (soyuducunun, televizorun, kondisionerin və s.) alqı-satqı müqaviləsi bağlanır. Alıcı bir min manat məbləğində satıcıya

[1] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 437; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 409; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 61; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1997, с. 615; Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева.* М., 1999, с. 157; *Гонгало Б.М.* Обеспечание исполнения обязательств. М., 1999, с. 128.

[2] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1997, с. 616; .Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева.* М., 1999, с. 157-158.

beh verir. Onlar qərara alırlar ki, müqavilə bir həftədən sonra icra edilsin, yəni predmeti satıcı alıcıya versin. Alıcı (beh verən tərəf) gəlmir və beləliklə, onun təqsiri üzündən müqavilə icra edilmir. Belə halda satıcı behi qaytarmır. Yox, əgər, alqı-satqı müqaviləsi satıcının (beh alanın) təqsiri üzündən icra edilməzsə (yəni satılmış predmeti verməzsə), onda satıcı alıcıya behi ikiqat məbləğdə (1 min manat + 1 min manat), yəni 2 min manat məbləğində qaytarır. Deməli, müqaviləni icra etməkdən boyun qaçıran hər bir tərəf **behin məbləğinə bərabər həcmdə məsuliyyət daşıyırlar**. Beh münasibətinin iştirakçıları (beh verən və beh alan) şüurlu surətdə dərk edirlər ki, onlar müqaviləni icra etməsələr, qanunun müəyyən etdiyi qayda əsasında əmlak itkisinə məruz qala, yaxud müvafiq pul məbləğindən məhrum ola bilərlər. Müvafiq pul məbləğini itirməyin, arzuolunmaz mənfi nəticələrin yaranmasının mümkünlüyünün dərk olunması və nəzərə alınması beh iştirakçılarını əsas müqavilə öhdəliyini lazımınca icra etməyə təşviq edir və meyilləndirir. Müqavilə öhdəliyini icra etmədikləri təqdirdə beh miqdarı həcmində pul məbləğini itirmək qorxusu tərəfləri meyilləndirir ki, onlar müqavilə üzrə öz vəzifələrini lazımi qaydada yerinə yetirsinlər. Behin təminat (təkan vermək) funksiyasının mahiyyəti də məhz bundan ibarətdir.

Beləliklə, Azərbaycan Respublikasının mülki qanunvericiliyi behin təminat funksiyasının mahiyyətini şərtləndirən qayda (behin beh alanda qalması və ya behin ikiqat məbləğdə beh verənə qaytarılması qaydası) müəyyənləşdirmişdir. Bu qaydanın tarixi Roma hüququ ilə bağlıdır[1]. Bizim eranın 6-cı əsrində (528-ci ildə) imperator Yustinianın fərmanı ilə behin cərimə funksiyası (arra poenalis) müəyyənləşdirildi[2]. Bu funksiyanın əsas məqsədi borclunu öhdəliyi icra etməyə meyilləndirməkdən ibarət idi. Roma hüququna görə, behin cərimə funksiyasının mahiyyəti ondan ibarət idi ki, müqaviləni icra etməkdən imtina edən alıcı behi itirirdi, müqaviləni yerinə yetirməkdən boyun qaçıran satıcı isə behi ikiqat məbləğdə qaytarırdı. Belə təsəvvür yaranır ki, bizim ölkə qanunvericiliyinin beh haqqında müəyyən etdiyi qaydanın əsasını Roma hüququ ənənələri təşkil edir.

Roma hüququ ənənələrinə uyğun olaraq, behin özü və onun təminat funksiyası **cərimə xarakterinə malikdir**. Belə ki, behin alınması və ya verilməsi müqaviləni icra etməməyə görə qabaqcadan müəyyən edilmiş cərimə kimi nəzərdə tutulur. Behin təminat funksiyasının cərimə xarakteri daşıması qanunun yuxarıda barəsində danışdığımız məlum qaydası ilə bağlıdır: «əgər alıcı müqaviləni icra etməsə, verdiyi beh ona qaytarılmayacaq və bununla da cərimələnəcək. Əksinə, əgər satıcı müqaviləni icra etməsə, onda aldığı behi ikiqat məbləğdə qaytarmalı olacaq və bununla cərimələnəcək». Bu qayda behi sanksiyaya, yəni öhdəlik icra edilmədiyi hallarda **məsuliyyət tədbiri kimi müəyyənləşdirilən sanksiyaya yaxınlaşdırır**. Belə ki, sanksiya kimi cərimə tətbiq edilən hallarda əsas öhdəliyi icra etməyən tərəf beh məbləği həcmində əmlak itkisinə məruz qalır. Tərəflərin hüquqi vəziyyəti isə müxtəlif olur. Belə ki, beh alan sadəcə olaraq beh məbləğini özündə saxlayır. Beh verən isə iki-

[1] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 297.

[2] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 336.

qat beh məbləğini qarşı tərəfdən tələb etməyə məcbur olur[1].

Söylədiklərimizdən belə qənaətə gəlirik ki, beh Roma hüququ ənənələrinə uyğun olaraq, **cərimə funksiyası da yerinə yetirir**. Bu funksiyanın mahiyyəti ondan ibarətdir ki, əsas öhdəliyi icra etməyən tərəf beh məbləği həcmində cərimələnir, yəni həmin tərəfə pul tənbehi, maddi təsir tədbiri tətbiq edilir. Deməli, behlə təmin olunan öhdəliyin icra olunmamasının nəticəsi cərimə tətbiq edilməkdən ibarətdir.

Göstərilən mənfi nəticələr **yalnız təqsir olduqda meydana gəlir**. Əgər öhdəliyi icra etməyən tərəfin təqsiri olmazsa, onda beh qaytarılır. İki halda öhdəliyin icra edilməməsi beh münasibəti iştirakçısının təqsirli olmamasına dəlalət edir: öhdəliyin icrasına başlanana kimi öhdəliyə tərəflərin razılaşması ilə xitam verilməsi; icranın mümkün olmaması nəticəsində öhdəliyin ləğv edilməsi (MM-in 492-ci maddəsinin 1-ci bəndi).

3. Behin təsdiqetmə funksiyası

Behin təsdiqetmə funksiyası onda ifadə olunur ki, o, müqavilənin bağlanmasını təsdiq etmək üçün verilir (MM-in 491-ci maddəsinin 1-ci bəndi). Bu funksiya beh haqqında sazişin aksessor (əlavə) xarakterə malik olması ilə şərtlənir. Belə ki, əgər əsas öhdəlik yaranmamışdırsa və yoxdursa, onda beh haqqında sazişin mövcudluğundan da söhbət gedə bilməz, yəni bu cür saziş də əmələ gəlmir. Beləliklə, behin təsdiqetmə funksiyası əsas öhdəliyin yaranmasına dəlalət edən müqavilənin (məsələn, alqı-satqı müqaviləsinin) bağlanmasını sübut etməkdə təzahür edir. Ona görə də behin bu funksiyası bəzi hallarda həm də **sübutetmə funksiyası** adlanır[2]. Roma hüququ ənənələrinə uyğun olaraq, behin təsdiqetmə funksiyasına **konfirmativ funksiya** (latınca «confirmatio» — təsdiqetmə) da deyirlər. Konfirmativ (təsdiqləmə) əhəmiyyətə malik olan behi Roma hüququ «arra confirmatoria» adlandırırdı[3]. «Arra confirmatoria» klassik dövrdə müqavilə bağlamaq faktını təsdiqləmək və möhkəmləndirmək məqsədini güdürdü. Çox vaxt alıcı, bəzi hallarda isə kirayəçi digər tərəfə müqavilə bağlandığı an pul məbləği və ya qiymətli şey (məsələn, üzük və s.) verirdi. Klassik Roma hüquqşünası Qay göstərirdi ki, beh verilməzsə, müqavilənin qüvvəsi olmur. Qayın fikrincə, beh ona görə verilir ki, müqavilənin bağlanmasını əyani surətdə sübut etsin[4].

Behin sübutetmə funksiyası **şifahi formalı müqavilələr üçün mühüm əhəmiyyət kəsb edir** və vacib rol oynayır. Müqavilə şifahi formada bağlananda yazılı sübut olmur. Belə halda əgər beh verilərsə, onda o, şifahi formalı müqavilənin bağlanmasını sübut edir və təsdiqləyir. Beh alınması və verilməsi həmin müqavilənin bağlanmış sayılmasına dəlalət edir.

Behin alınması və verilməsi **yazılı formalı müqavilələrin bağlanmasında**

[1] *Иоффе О.С.* Советское гражданское право. Курс лекций. Часть 1, Л., 1958, с. 485.

[2] Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 61; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 410.

[3] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 296.

[4] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 336.

da sübutetmə vasitəsi kimi çıxış edir. Başqa sözlə desək, behin təsdiqləmə funksiyası o müqavilələr bağlananda da əhəmiyyət kəsb edir ki, həmin müqavilənin rəsmiləşdirilməsi üçün yazılı forma tələb olunur. Behin təsdiqləmə funksiyası həm tərəflərin imzaladığı bir sənədin tərtibi yolu ilə, həm də poçt, teleqraf, teletayp, telefon, elektron rabitəsi və digər rabitə vasitəsilə sənədlər mübadiləsi yolu ilə bağlanan yazılı formalı müqavilələr üçün eyni dərəcədə mühüm rol oynayır. Məsələn, sənədin tərtibi yolu ilə və ya sənədlərin mübadiləsi yolu ilə bağlanan müqavilə itir. Belə halda beh verilməsi müqavilənin bağlanmasını təsdiq edən sübut kimi çıxış edir.

Bildiyimiz kimi, elə müqavilələr vardır ki, həmin müqavilələr üzrə hüquqların **dövlət qeydiyyatına alınması tələb olunur**. Məsələn, daşınmaz əşyaların alqı-satqısı müqaviləsi bu müqavilə növünə aid edilə bilər. Belə müqavilələr onlardan irəli gələn hüquqların dövlət qeydiyyatına alındığı andan bağlanmış hesab edilir. Ona görə də bu cür müqavilələrin **behlə təsdiqlənməsi mümkün deyil və istisna edilir**. Həmin növ müqavilələr bağlandığı halda bir tərəfin digər tərəfə verdiyi pul məbləği **beh qismində yox, avans rolunda çıxış edəcəkdir**. Həmin pul məbləğinin verilməsinin müqavilənin bağlanması faktının təsdiq olunması üçün sübutetmə əhəmiyyəti olmur. Yalnız dövlət qeydiyyatına alınma müqavilənin bağlanması faktını sübut edir və təsdiqləyir.

Beləliklə, tərəflər müqaviləni qanunda tələb olunan yazılı formada bağlamadıqları halda, verilən beh məbləği həmin müqavilənin bağlanması faktını təsdiqləyir. Behin sübutetmə funksiyasının mahiyyəti də məhz bundan ibarətdir.

4. Behin ödəmə (ödəniş) funksiyası

Ödəmə behin yerinə yetirdiyi funksiyalardan biridir. **Behin ödəmə funksiyası** onda ifadə olunur ki, beh verməklə müvafiq tərəf (alıcı, kirayəçi, icarəçi və s.) müqavilə üzrə ona həvalə edilmiş digər tərəfə (satıcıya, kirayəyə verənə, icarəyə verənə) ödənişi həyata keçirmək vəzifəsinin bir hissəsini icra etmiş olur. Belə ki, müqavilə bağlayan tərəflərdən birinin ödədiyi beh məbləği onun digər tərəfə müqavilə üzrə verəcəyi ödənişin hesabına daxildir. Beh verən müqavilə iştirakçısı ödənişin bir hissəsini, bir qismini kontragentə vermiş olur. Behin ödəmə funksiyasının mahiyyəti də məhz bundan ibarətdir. Məsələn, vətəndaş öz qonşusuna 6 min manata mebel dəsti satmaq üçün onunla müqavilə bağlayır. Tərəflər razılığa gəlirlər ki, bağlanmış alqı-satqı müqaviləsi on gündən sonra icra edilsin. Qonşu həmin vətəndaşa 1 min manat beh verir. On gündən sonra mebel dəstini götürəndə isə ona 5 min manat ödəyir. Beləliklə, vətəndaş mebel dəstinə görə cəmi 6 min manat (1 min manat beh məbləği + 5 min manat) pul alır.

Söylədiklərimizdən belə çıxır ki, behin ödəmə funksiyası verilən beh məbləğinin mal satılmasına, xidmət göstərilməsinə, iş görülməsinə və s. görə bağlanan müqavilələr (alqı-satqı, podrat, daşıma, kirayə, icarə və s. müqavilələr) üzrə həyata keçirilən **ödənişin hesabına daxil edilməsində təzahür edir**. Beh yalnız o müqavilə iştirakçısından alınır ki, o, müqavilə üzrə ödənişi həyata keçirməyə borclu olsun. Məsələn, alıcı, sifarişçi, yük göndərən (yola salan), kirayəçi, icarəçi və s. bu cür müqavilə iştirakçısına misal ola bilər. Sonradan ödəniş həyata keçirilərkə və tərəflər arasında hesablaşma aparılanda müqa-

vilə iştirakçısı (yəni beh verən tərəf) beh məbləğini veriləcək ödəniş məbləğindən çıxır. Məsələn, müqavilə üzrə ödənişin məbləği 10 min manat, beh məbləği 2 min manat olarsa, onda müqavilə iştirakçısı kontragentə 8 min (10 min – 2 min) manat pul ödəyir. Lakin beh müqavilə üzrə ödənişdən onunla fərqlənir ki, o, müqavilə üzrə kontragentə (kreditora) qabaqcadan ödənilir, yəni borclunun ödənişi həyata keçirmək vəzifəsi icra olunduğu vaxta kimi verilir. **Qabaqcadan verilmək xüsusiyyəti** behi avansa (fransızca — «avance») yaxınlaşdırır.

Behlə avans arasında ümumi cəhətlər və xüsusiyyətlər çoxdur. Birinci ümumi cəhət ondan ibarətdir ki, **beh kimi avans da sübutetmə funksiyasına malikdir**[1]. Belə ki, beh kimi avans da müqavilənin bağlanmasını təsdiq edir.

İkinci ümumi cəhət ondan ibarətdir ki, **beh kimi avans da ödəmə funksiyasını həyata keçirir**. Belə ki, o, əmlakın verilməsi, iş görülməsi, yaxud xidmət göstərilməsi üzrə müqavilələrə görə borclunun kreditora gələcəkdə verməli olduğu ödəmənin bir hissəsidir.

Üçüncü ümumi cəhət ondan ibarətdir ki, müqavilə öhdəlikləri lazımınca icra edildikdə, **beh kim avans da son ödəmə hesabına daxil edilir** (yəni hesablanır). Məsələn, podrat müqaviləsinə görə, görülən iş üçün sifarişçi podratçıya 10 min manat məbləğində avans verir. Podrat müqaviləsinin qiyməti, yəni podratçının gördüyü işin qiyməti 50 min manatdır. Sifarişçi son hesablaşmada podratçıya 40 min (50 min – 10 min) manat ödəyir. Ona görə ki, əvvəlcədən verilmiş avans hesaba alınır.

Bununla belə, **behlə avans arasında fərqli cəhətlər və əlamətlər** də vardır. Ən başlıca fərq ondan ibarətdir ki, **behdən fərqli olaraq, avans təminat (cərimə) funksiyası yerinə yetirmir**. Belə ki, əsas müqavilə öhdəliyi icra olunmadıqda, həm avansın, həm də behin ödəmə funksiyası itir. Beh və avans yalnız əsas öhdəlik lazımınca icra olunduqda ödəmə funksiyasına malik olur. Əsas öhdəlik icra olunmadıqda isə beh cərimə funksiyasını yerinə yetirməyə başlayır. Qeyd etdiyimiz kimi, bu funksiya onda ifadə olunur ki, əsas öhdəliyi icra etməməyə görə ya təqsirkar sayılan tərəf cərimə olunur, yəni beh məbləği ona qaytarılmır və ya ikiqat məbləğdə digər tərəfə qaytarılır. Bundan fərqli olaraq, **əsas öhdəlik icra olunmadıqda, avans cərimə funksiyasını yerinə yetirmir**. Bu, o deməkdir ki, avans geri qaytarılır.

Göründüyü kimi, avans və beh kimi verilən pul məbləğlərinin hüquqi taleyi əsas öhdəlik icra olunmadığı halda müxtəlif olur. Belə ki, göstərilən halda beh qaytarılmır (və ya ikiqat məbləğdə qaytarılır), bundan fərqli olaraq, avans isə qaytarılır. Həmin halların yaratdığı hüquqi nəticələr bir-birindən fərqlənir. Behlə təmin olunan müqavilə icra edilmədikdə, təqsirkar şəxs üçün arzuolunmaz mənfi nəticələr yaranır. Avans verilməsi ilə bağlı olan müqavilə yerinə yetirilmədikdə isə bu, mənfi nəticələrə səbəb olmur, yəni avans geri qaytarılır. Bəzən praktikada elə hallara rast gəlirik ki, beh verən müqavilə iştirakçısı beh məbləği həcmində zərərə düşməmək, həmin məbləği itirməmək üçün ödədiyi pul məbləğini guya beh kimi yox, avans kimi verdiyini söyləyir. Xüsusən beh haqqında saziş yazılı formada bağlanmadığı məqamlarda bu cür hallarla tez-tez

[1] bax: *Иоффе О.С.* Обязательственное право. М., 1975, с. 168.

rastlaşmaq olur. Ona görə də behi avansdan fərqləndirmək zərurəti yaranır.

Göstərilən hallarda şübhə yarandıqda, müqavilə üzrə müvafiq tərəfin həyata keçirəcəyi ödənişlər hesabına kontragentə verdiyi pul məbləğinin beh və ya avans olmasını sübut etmək lazımdır. Yaranan şübhələrə aydınlıq gətirmək üçün qanun prezumpsiya müəyyən edir (MM-in 491-ci maddəsinin 3-cü bəndi). Bu prezumpsiyaya görə, əksi sübut olunana kimi, müqavilə üzrə verilən pul məbləği beh yox, avans hesab edilir[1]. Əgər həmin məbləğin beh kimi verilməsi sübut olunarsa, onda o, avans kimi ödənilmiş sayılmır, yəni beh hesab olunur. Daha doğrusu, əksi sübut olunana kimi, ödənilmiş məbləğ avans sayılır.

Yeri gəlmişkən, mülki hüquq elmi və doktrinası mülki-hüquqi anlayış kimi avansa definisiya (tərif) vermir. Bunu nəzərə alaraq, avansa tərif verilməsinə təşəbbüs və cəhd göstərmək yerinə düşərdi. **Avans** əmlakın verilməsinə, xidmət göstərilməsinə, yaxud iş görülməsinə yönələn müqavilə üzrə borclunun kreditora gələcəkdə həyata keçirəcəyi ödəniş hesabına verdiyi elə bir pul məbləği və ya maddi nemətdir ki, o, həmin müqavilə lazımınca icra edildikdə son ödəniş hesabına daxil edilir, müqavilə icra edilmədiyi halda isə geri qaytarılır.

5. Behin kompensasiya funksiyası

Behin kompensasiya funksiyasının mahiyyəti onda ifadə olunur ki, müqaviləni icra etməyən tərəf bununla qarşı tərəfə vurduğu zərərin əvəzini ödəyir. Əgər müqavilənin icra edilməsi üçün beh vermiş tərəf məsuliyyət daşıyırsa, o, zərərin əvəzini digər tərəf ödəməyə borcludur. Əksinə, əgər müqavilənin icra edilməməsi üçün beh almış tərəf məsuliyyət daşıyırsa, onda zərərin əvəzini digər tərəfə ödəmək vəzifəsi ona həvalə olunur. Belə təsəvvür yaranır ki, **müqaviləni icra etməməkdə təqsirkar şəxs zərərin əvəzini ödəmək formasında məsuliyyət daşıyır**. Behin kompensasiya funksiyasının mahiyyəti də məhz bundan ibarətdir.

Öhdəliyi icra etməyən təqsirkar tərəf, bununla belə, qarşı tərəfə zərər vurub-vurmamasından asılı olmayaraq, behi itirir. Deməli, əgər zərər vurularsa, onda zərərin əvəzi digər tərəfə ödənilir, həmçinin beh geri qaytarılmır və ya ikiqat məbləğdə qaytarılır. Bu halda beh məbləği hesaba alınmalıdır, yəni **behlə zərərin əvəzinin ödənilməsi əvəzləşdirilir**. Başqa sözlə desək, zərərin beh çatmamış hissəsinin əvəzi ödənilir. Verilmiş beh məbləği təqsirkar şəxsi zərərin əvəzini ödəməkdən azad etmir. Məsələn, əsas müqavilə öhdəliyi bir min manatlıq beh məbləği ilə təmin edilir. Beh verənin (alıcının) təqsiri nəticəsində öhdəlik icra edilmir və bununla kontragentə (beh alana, satıcıya) beş min manat məbləğində zərər vurulur. Belə halda kontragentə zərərin beh çatmamış hissəsinin əvəzi ödənilir. Beh məbləği kontragentə qalır və üstəlik bu məbləğ hesaba alınmaqla 4 min manatlıq (5 min – 1 min) zərərin əvəzi ödənilir[2]. Göstərilən bu qayda dispozitiv xarakter daşıyır. Tərəflər müqavilədə ayrı qayda da nəzərdə tuta bilərlər (MM-in 493-cü maddəsinin 2-ci bəndi). Məsə-

[1] Bu qayda xarici ölkələrin qanunvericiliyinə də məlumdur (bax: Гражданское и торговое право зарубежных стран. Учебное пособие. М., 2004, с. 318).

[2] Bu qayda bəzi ölkələrin qanunvericiliyinə də məlumdur (bax: Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А. Васильев, А.С. Комаров.* М., 2004, с. 488).

lən, tərəflər müqavilədə nəzərdə tuta bilərlər ki, əsas öhdəliyi icra etməyən tərəfin beh məbləği miqdarında qarşı tərəfə pul ödəməsi (behin beh alanda qalması və ya beh verənin behin iki mislini ödəməsi) peşman haqqı hesab edilsin[1]. Elə bil ki, beh məbləğini verməklə müvafiq tərəf peşman haqqı ödəyir. Belə halda əsas öhdəliyə peşman haqqı verilməsi qaydasında xitam verilir (MM-in 529-cu maddəsinin 8-ci bəndi). Peşman haqqı kimi beh məbləğini əldə edən tərəf zərərin əvəzini ödəməyi digər tərəfdən tələb edə bilməz. Beləliklə, müqavilə bağlayan tərəflər göstərilən halda belə razılığa gəlirlər ki, müqavilənin icrasından imtina edən tərəfin məsuliyyəti beh məbləği ilə məhdudlaşsın. Bu halda beh peşman haqqı rolunu oynayır[2]. Peşman haqqı qismində çıxış edən beh konstruksiyasını Roma hüququ da tanıyırdı. Roma hüququ bu cür behi «arra poenitentialis» adlandırırdı[3]. Göstərilən bu halda behin kompensasiya funksiyası öz əhəmiyyətini itirir.

§ 7. Girov hüququ

1. Girovun anlayışı və mahiyyəti

Girov hüquqi konstruksiyasının tarixi mənşəyi çox qədim dövrlərlə bağlıdır[4]. Bu konstruksiya hələ Roma hüququnda ən zəruri institutlardan biri kimi tanınırdı. Roma hüququ girov hüququ institutunu özgə əşyasına hüququn (jura in re aliena) bir növü hesab edirdi[5]. Roma hüququ girovun üç əsas formasını nəzərdə tuturdu: fidusiya (fiducia); piqnus (pignus); ipoteka (hypotheca)[6]. **Fidusiya** girovun ilkin forması sayılırdı. Bu instituta görə, borcun təmin olunması üçün borclu öz mülkiyyətində olan əşyanı müvəqqəti olaraq kreditorun mülkiyyətinə verirdi, yəni girov qoyurdu, girovla təmin edilmiş öhdəlik yerinə yetirildiyi halda isə həmin əşya borclunun mülkiyyətinə qaytarılırdı. Fidusiya institutu öhdəliyin real qarantiyasının qədim forması idi[7].

Fidusiya institutu borclunun kreditora tamamilə etibar etməsinə əsaslanırdı. Bu, onun adından da görünürdü (fiducia — etibar, inam). Borclu şəxs kreditora qarşı əşyanın qaytarılması haqqında iddia (actio fiduciae) qaldırmaq hüququna malik idi. Lakin buna baxmayaraq, fidusiya institutu effektiv deyildi. Belə ki, girov qoyulmuş əşyanı mülkiyyətçi — kreditor sata bilərdi. Bu halda borclu «actio fiduciae» iddiası verməklə əşyanın qaytarılmasına nail olmurdu. O, yalnız zərərin əvəzinin ödənilməsinə nail ola bilərdi ki, bu, çox vaxt müvəffəqiyyətlə nəticələnmirdi.

Fidusiyanın effektiv olmaması pretor hüququ çərçivəsində girovun **piqnus** adlı yeni formasının inkişafını şərtləndirdi. Piqnus bəzi hallarda **əl girovu** da adlanırdı. Girovun bu forması borcluya məxsus əşyanın kreditorun mülkiyyətinə deyil, yalnız onun sahibliyinə verilməsini nəzərdə tuturdu. Piqnusa görə, öhdəlik yerinə yetirildikdə əşya geri qaytarılırdı. Kreditor borcun tamamilə ödənilməsinə kimi əşyanı saxlaya bilərdi. Lakin girovun piqnus forması girov qoyan borclunun əmlakdan istifadə etməsini nəzərdə tutmurdu. Bu isə iqtisadi-təsərrüfat baxımından onun üçün sərfəli deyildi. Əgər borclu girov qoyulmuş əmlakdan istifadə edə bilsəydi, gəlir götürərdi və bu gəliri borcun ödənilməsinə yönəldərdi.

Təsərrüfat həyatının inkişafı, iqtisadi dövriyyənin tələbatı girovun yeni formalarının yaranmasını tələb edirdi. Elə bir forma ki, o, borclunun girov qoyulmuş əmlakdan həm istifadə etməsini, həm də bu əmlak üzərində sahibliyini təmin edə biləydi. Bu məqsədlə də klassik dövrdə pretor ediktində Roma girov hüququnun daha inkişaf etmiş üçüncü forması — **ipoteka (hypotheca) yarandı**[1]. Bu forma ilk dəfə olaraq yunan əyalətlərində meydana gəlmişdi. Bununla bərabər, ipotekanın yaranmasına yunan-misir hüququ təsir göstərirdi. Bu hüquqa görə, girov qoyulmuş əmlakın mülkiyyətçisi kimi yenə də borclu şəxsin özü qalırdı, bu əmlak üzərində o, mülkiyyət hüququnu itirmirdi, Girov qoyulmuş əmlak həm də onun sahibliyində qalırdı. Əgər borclu öhdəliyi icra etməsə idi, onda kreditor (girov saxlayan) əşyanın kimdə olmasından asılı olmayaraq onu tələb etmək, satmaq və əldə edilmiş məbləğdən borcluya qarşı olan tələbini ödəmək ixtiyarına malik idi.

Girov hüququ institutunu inqilabaqədərki Rusiya qanunvericiliyi də tanıyırdı[2]. Girovla əlaqədar ilk qanunvericilik aktları Rusiyada XIII və XIV əsrlərdə və XV əsrin əvvəllərində qəbul edilmişdi[3]. XIX əsrin axırlarında — XX əsrin əvvəllərində hüquq ədəbiyyatında Rusiyanın o dövr girov hüququ ətraflı surətdə nəzərdən keçirilirdi[4]. Həmin dövrdə girov hüququnun əsas xüsusiyyətləri və cəhətləri tanınmış müəlliflərin əsərlərində geniş səviyyədə işıqlandırılırdı. Girov haqqında Rusiya qanunvericiliyi Roma hüququnun bir çox müddəa və anlayışlarını ifadə edirdi. Bununla belə, Rusiya girov hüququ bəzi yeni hüquqi konstruksiyalar da nəzərdə tuturdu ki, bu konstruksiyaları başqa dövlətlərin hüquq sistemi tanımırdı. Məsələn, xəzinə ilə müqavilə üzrə daşınmaz əmlakın girovu haqqında qayda başqa dövlətlərin qanunvericiliyinə məlum deyildi[5].

Girov haqqında inqilabaqədərki Rusiya qanunvericiliyinə daxil olan norma-

---

[1] Peşman haqqı vermək öhdəliyin xitam edilməsinin əsaslarından biridir. Bu barədə dərsliyin «Öhdəliklərə xitam verilməsi» adlı növbəti fəsillərindən birində söhbət açılmışdır.

[2] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 336; *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 297.

[3] Римское частное право. Учебник. М., 1999, с. 336.

[4] Girovun əsas formalarının tarixi inkişafı Azərbaycan müəlliflərindən İ.Vəliyevin işində geniş təfsilatı ilə işıqlandırılmışdır (И.Велиев. Основные формы залога в историческом развитии и проблемы залога недвижимости в современных условиях. Баку. 1998, с. 6-32. гл. 1).

[5] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 204.

[6] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 188-193.

[7] bax: *Дождев. Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 510. Roma hüquqşünası Qay fidusiyanın iki növünü fərqləndirirdi: saxlanc, əvəzsiz istifadə (ssuda), tapşırıq kimi müqavilələri rəsmiləşdirən fidusiya; öhdəliyin real qarantiyasını müəyyənləşdirən fidusiya.

---

[1] bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 99.

[2] İnqilabaqədərki Rusiya girov hüququnun əsas cəhətləri ətraflı işıqlandırılmışdır (bax: *И.Велиев.* Указ. соч, с. 14-26).

[3] Qədim Rusiya girov hüququ haqqında bax: *Звоницкий А.С.* О залоге по русскому праву. Киев. 1912, с. 25; *Мейер Д.И.* Древнее русское право залога. Казань. 1955; *Велиев И.* Указ. соч, с. 14-20.

[4] bax: *Кассо. Л.А.* Понятие о залоге в современном праве. Юрьев; *Шершеневич Г.Ф.* Учебник русского гражданского права. М., 1911; *Анненков К.Н.* Система русского гражданского права. Том 3. СПб., 1898; *Звоницкий А.С.* Указ. соч.

[5] bax: *И.Велиев.* Указ. соч, с. 24.

lar kifayət qədər çoxsaylı idi. Lakin bu normaların hüquqi tənzimetməsi sabit və qəti prinsiplərə əsaslanmırdı. Tanınmış rus alimi G.F.Şerşeneviç o dövr Rusiya girov hüququ haqqında haqlı olaraq yazırdı ki, bu, inkişaf etməmiş, mükəmməl olmayan, mühüm ziddiyyətlərlə şərtlənən girovdur[1].

Girov hüququ institutu sovet qanunvericiliyinə də məlum idi. RSFSR-in ilk MM-i (1922) və Azərbaycan SSR-in ilk MM-i (1923) girov münasibətlərinin tənzimlənməsinə 20 maddə həsr etmişdi. Özü də bu məcəllələr girov haqqında normaları «Əşya hüququ» adlı bölməyə daxil etmişdi. Bununla sovet hüququ Roma hüququ ənənələrinə uyğun olaraq, girovu əşya hüququnun bir növü hesab etdi. Qanunvericinin bu cür mövqeyi sovet mülki hüququnda əsaslandırılırdı. Bununla belə, hüquq ədəbiyyatında belə bir fikir vurğulanırdı ki, sovet həyatında əşya hüququnun bir növü kimi girovun xüsusi çəkisi çox da böyük deyil və ona görə də əşya hüququ kateqoriyasını yalnız mülkiyyət hüququ ilə məhdudlaşdırmaq, girovu isə öhdəliklərin icrasının təmin edilməsi üsullarına aid etmək lazımdır[2]. Qanunverici bu fikri və mövqeyi nəzərə alaraq, girovu RSFSR-in Mülki Məcəlləsinin və Azərbaycan SSR-in 1964-cü il Mülki Məcəlləsinin (o cümlədən digər müttəfiq sovet respublikalarının məcəllələrinin) «Öhdəliklərin icrasının təmini» adlı fəslinə daxil etdi. Bununla həmin məcəllələr də girov öhdəliklərin icrasının təminat üsullarından biri hesab olundu.

Sosialist iqtisadiyyatı şəraitində girov münasibətlərini tənzimləyən normalar geniş surətdə tətbiq edilmirdi. Bəzi müəlliflərin fikrincə, sosialist cəmiyyəti şəraitində, ümumiyyətlə, girovun geniş surətdə tətbiq edilməsinə əsas yoxdur[3]. O.S. İoffenin mövqeyinə görə, təşkilatların bir-birinə kredit verməsi qadağan edildiyi üçün onlar arasındakı münasibətlərdə girovdan geniş surətdə istifadə olunmasının əsası yoxdur[4].

Girov konstruksiyasını Azərbaycan Respublikasının yeni MM-i də nəzərdə tutur. Bu məcəllə Roma hüququ, habelə bir çox sivil ölkələrin qanunvericilik ənənələrinə uyğun olaraq girov haqqında normaları (MM-in 269-323-cü maddələri) özünün «Əşya hüququ» adlı üçüncü bölməsinin 12-ci fəslində («Əşya təminat hüququ. Girov və ipoteka hüququ») yerləşdirmişdir. Bununla qanunverici girov hüququnu əşya hüququnun (daha dəqiq desək, məhdud əşya hüququnun) bir növü kimi izah etmişdir[5]. Qanunverici girovu həm də öhdəliklərin icrasının təmin edilməsi üsullarından biri kimi müəyyənləşdirir (MM-in 269-cu və 460-cı maddələrinin 1-ci bəndləri). RF-in yeni MM-i girov haqqında normaları «Əşya hüququ» adlı bölmədə yox, «Öhdəliklərin icrasının təmin edilməsi» fəslində (23-cü fəsildə) yerləşdirmişdir[6].

Girov konstruksiyasını bir çox xarici dövlətlərin milli hüquq sistemləri də nəzərdə tutur. Fransa MM-in üçüncü kitabının («Mülkiyyət hüququnun əldə edilməsinin üsulları haqqında») 19-cu bölməsinə («Girov haqqında») daxil olan normalar girov münasibətlərini tənzimləyir[1]. Almaniya Mülki Qanunnaməsinin «Əşya hüququ» adlı üçüncü kitabı doqquz bölmədən ibarətdir ki, bu bölmələrdən səkkizincisi («İpoteka. Əşya borcu. Renta borcu») ipoteka münasibətlərinə, doqquzuncu bölməsi isə («Daşınar əşyaların və hüquqların girovu») girovun qaydaya salınmasına həsr edilmişdir[2]. Həmin qanunnamənin 1204-1258-ci və 1273-1296-cı paraqraflarında ifadə olunan normalar girov hüququnun (Pfandrecht), 1113-1190-cı paraqraflarında ifadə olunan normalar isə ipoteka hüququnun (Hypotek) tənzimlənməsini həyata keçirir. Hollandiya Mülki Məcəlləsinin «Əmlak hüquqları barədə ümumi müddəalar» adlı üçüncü kitabı on bir bölmədən ibarətdir ki, bu bölmələrdən doqquzuncusu («Girov və ipoteka hüququ») özündə girov və ipoteka münasibətlərini nizama salan normaları birləşdirir[3]. İtaliya MM-in 6-cı kitabının 3-cü fəslinə daxil olan normalar girovun hüquqi tənzimlənməsinin əsas və başlıca mənbəyi hesab edilir[4]. Girov institutu Yaponiya qanunvericiliyinə də məlumdur. Yaponiya MM-in 295-398-ci maddələri girov münasibətlərini nizama salır[5].

Azərbaycan Respublikasının yeni MM-i **girov hüququnu öhdəliklərin icrasının əşya təminatı üsullarından biri kimi** müəyyən edir. Girov hüququ ilə bərabər, ipoteka hüququ da əşya təminatı üsulu kimi nəzərdə tutulur. Deməli, bizim müasir ölkə qanunvericiliyi həm girov hüququ institutunu, həm də ipoteka hüququ institutunu müstəqil olaraq, ayrı-ayrılıqda öhdəliklərin icrasının əşya təminatı üsulları hesab edir. Onlar **müstəqil əşya təminatı üsullarıdır**. Bu bir çox xarici Avropa ölkələrinin (Almaniya, Fransa, Hollandiya və s. dövlətlərin) qanunvericilik ənənələrinə uyğun gəlir. Belə ki, həmin ölkələrin qanunvericiliyi bu institutları ənənəvi formada saxlasa da, onları, yəni həm girovu, həm də ipotekanı öhdəliklərin icrasının əşya təminatının müstəqil üsulları kimi tanıyır[6]. Bunu nəzərə alaraq, bizim ölkənin indiki MM-i müstəqil institutlar kimi girovun və ipotekanın tənzimlənməsinə ayrı-ayrı paraqraflar həsr etmişdir. Belə ki, MM-in «Əşya təminat hüququ. Girov və ipoteka hüququ» adlı 12-ci fəslinin 2-ci paraqrafına daxil olan normalar girov münasibətlərini, 3-cü paraqrafına daxil olan normalar isə ipoteka münasibətlərini nizama salır. Beləliklə, ölkəmizin müasir qanunvericiliyi girov hüququ və ipoteka kimi iki hüquqi konstruksiyanı müstəqil anlayışlar kimi nəzərdə tutur. Bu, o deməkdir ki, Azərbaycan Respublikasının MM-i ipotekanı girovun forması kimi müəyyənləşdirmir. Bu, Roma hüququ ənənələrinə zidd olsa da, bəzi Avropa ölkələrinin qanunvericiliyinə uyğun gəlir. Bundan fərqli olaraq, RF-in mülki hüququ ipotekanı girovun

---

[1] bax: *Шершеневич Г.Ф.* Учебник русского гражданского права. Том 1. М., 1914.

[2] bax: *Новицкий И.Б., Лунц Л.А.* Общее учение об обязательстве. М., 1950, с. 250.

[3] bax: yenə orada, s. 244, 253.

[4] bax: *Иоффе О.С.* Обязательственное право. М., 1975, с. 176.

[5] Biz bu dərsliyin «Məhdud əşya hüququ» adlı fəslində əşya hüququ kimi girov konstruksiyasının xarakteristkasını vermişik. Həmin fəsildə müəyyənləşdirilmişdir ki, girov institutu nə üçün əşya hüququnun anlayışı kimi yox, öhdəlik hüququnun anlayışı kimi nəzərdən keçirilir.

[6] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 580-609 (334-358-ci maddələr).

[1] bax: Основные институты гражданского права зарубежных стран. Сравнительно-правовое исследование / Под ред. *В.В.Залесского*. М., 1999, с. 3.

[2] bax: yenə orada, s. 6.

[3] bax: yenə orada, s. 9.

[4] Codice civile. Editio Minor. 1990. Editore Ulrico Hoepli. Milano.

[5] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 165.

[6] Bir çox Avropa ölkələrinin (Almaniya, Fransa, İtaliya, İspaniya, Macarıstan və s. dövlətlərin), habelə ABŞ və İngiltərənin girov və ipoteka haqqında qanunvericiliyinə bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999. гл. 10, 16.

bir növü kimi müəyyən edir (RF-in MM-in 334-cü maddəsi). Analoji sistem bəzi Avropa ölkələrində də (məsələn, Çexiyada, Macarıstanda, Yuqoslaviyada və s.) qəbul edilmişdir. Yaponiya mülki hüququ girovu öhdəliyin əşya təminatı hüququ kimi, ipotekanı isə girovun bir növü kimi nəzərdə tutur. Yeri gəlmişkən qeyd edək ki, «Girov haqqında» qanunumuz ipotekanı girovun bir forması hesab edir (1-ci maddə)[1].

Bununla belə, girov və ipoteka institutlarının müstəqil hüquqi konstruksiyalar kimi nəzərdə tutulmasına baxmayaraq[2], bizim mülki qanunvericilik onların hər ikisini bir-birinə həddən artıq yaxın institutlar kimi müəyyənləşdirir. Bu yaxınlığı nəzərə alaraq, MM girov və ipoteka hüququnu tənzimləyən normaları özünün 12-ci fəslində yerləşdirmişdir.

Müasir hüquqda girov konstruksiyası bəzi dəyişikliyə məruz qalsa da, onun Roma hüquqşünasları tərəfindən qurulmuş təməli və yaradılmış əsası indiyə kimi sabit qalmışdır, necə deyərlər qorunub saxlanılmışdır. Roma hüququnda işlənib hazırlanan prinsip və qaydalar həm kontinental hüquq ailəsi, həm də ingilis-amerikan ümumi hüququ tərəfindən qəbul edilmişdir. Xarici dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının girov haqqında qanunvericiliyinin əsas müddəaları Roma hüququnun müəyyənləşdirdiyi bu qaydalar və prinsiplərlə sıx surətdə bağlıdır.

Azərbaycan Respublikasının MM-in 269-cu maddəsinin 7-ci bəndində, «Girov haqqında» qanunun (1998) 1-ci maddəsində girovun definisiyası (tərifi) formulə edilir. **Girov dedikdə, elə bir hüquq münasibəti başa düşülür ki, bu münasibətə görə borclu girovla təmin olunmuş öhdəliyi icra etmədikdə, kreditor (girov saxlayan) qanunla müəyyən edilmiş qaydada girov qoyulmuş əmlakın dəyərindən təminat almaqda başqa kreditorlar qarşısında üstünlük hüququna malikdir**. Girovdan kredit müqavilələri bağlanan hallarda, borc münasibətlərində, lombarddan ssuda alınan məqamlarda və s. geniş səviyyədə istifadə olunur. O, digər təminat üsullarına nisbətən mühüm üstünlüyə malikdir[3]. Girovla borc müqavilələrindən, o cümlədən bank krediti, alqı-satqı, əmlak kirayəsi, yük daşımaları müqavilələrindən və başqa müqavilələrdən irəli gələn həqiqi tələblər təmin edilir («Girov haqqında» qanunun 3-cü maddəsinin 1-ci bəndi).

2. Girovun əsas xüsusiyyətləri və cəhətləri

Girov hüquqi konstruksiyası bir sıra xüsusiyyətlərə malikdir. Girovun ən

[1] bax: AR QK, V cild, s. 529.

[2] Bizim zənnimizcə, bu məsələ barəsində belə bir fikir söyləsək ki, girovun iki forması vardır, bu, heç də əsassız olmaz. Belə ki, girov həm geniş mənaya, həm də məhdud mənaya malikdir. Geniş mənada girov dedikdə, həm xüsusi mənada girov, həm də ipoteka başa düşülür. Bu baxımdan girovun iki forması fərqləndirilir: xüsusi mənada girov; ipoteka. Məhdud mənada girov dedikdə, xüsusi mənada girov başa düşülür. Xüsusi mənada girov daşınar əşyaların və hüquqların girovudur. İpoteka isə daşınmaz əşyaların girovudur. İtaliya MM-i bu qayda ilə girovun iki formasını fərqləndirir. Fransa qanunvericiliyi girova və ipotekaya öhdəliklərin əşya təminatının iki müxtəlif forması kimi baxır. Fransa hüququnda girov məhdud mənada başa düşülür. O, özündə ipotekanı birləşdirmir və əhatə etmir. Fransa hüququna görə, girov iki növə bölünür: saxlanc girovu (daşınar əşyaların girovu); antikrez (daşınmaz əşyaların girovu).

[3] *Витрянский В.* Обеспечение исполнения обязательств // Хозяйство и право. 1995. № 9.

əsas və başlıca xüsusiyyəti ondan ibarətdir ki, o, **öhdəlik formasında hüquq münasibətidir, yəni girov öhdəliyidir**. Bu barədə qanunda göstəriş vardır (MM-in 269-cu maddəsinin 1-ci bəndi). Bundan əlavə, hüquq ədəbiyyatında girovun öhdəlik hüquq münasibəti olması fikri vurğulanır[1].

Girovun **ikinci əsas xüsusiyyəti** ondan ibarətdir ki, o, **məhdud əşya hüququnun bir növüdür**. Girovun əşya hüququ və ya öhdəlik hüquq kateqoriyasına aid edilməsi uzun müddətdir ki, nəzəri mübahisələrin predmetinə çevrilmişdir[2]. Azərbaycan Respublikasının müasir mülki qanunvericiliyi girovu əşya hüququ kateqoriyasına aid edir. Girov hüququ girov qoyanın əşyası barəsində girov saxlayanın əşya hüququdur (MM-in 269-cu maddəsinin 1-ci bəndi). Almaniya sivilistika doktrinasında girov hüququ (Pfandrecht) əşya hüquqlarının (Dingliche Recht) bir növü hesab edilir[3]. Yaponiya mülki hüququna görə, girov əşya hüququ kateqoriyasına şamil olunur[4].

Girovun **üçüncü xüsusiyyəti** ondan ibarətdir ki, o, **öhdəliyin icrasının təmin edilməsi üsullarından biridir**. Girov hüququ borclunun girov saxlayan qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üsuludur (MM-in 269-cu maddəsinin 1-ci bəndi). Qanun müəyyən edir ki, girov öhdəliyin icrasının təmin edilməsi üsuludur («Girov haqqında» qanunun 1-ci maddəsi). Hüquqi kateqoriya kimi girov, öhdəliklərin icrasının əsas və vacib təminat üsulu kimi çıxış edir. Təmin etmək onun əsas funksiyasıdır. Girovun təminat funksiyası onda ifadə olunur ki, borclu əsas öhdəliyi icra etmədiyi halda kreditor tələbini əvvəlcədən müəyyənləşdirilmiş əmlaka yönəldir. Yaponiya mülki hüquq elmində girovun göstərilən xüsusiyyəti haqqında qeyd edilir ki, öhdəliyin lazımınca icra olunmasından ötrü girov saxlayana təminat vermək yolu ilə girov hüququ öz məqsədinə çatır. Girov öhdəliklərin təminat üsuludur[5].

Girovun **dördüncü xüsusiyyəti** ondan ibarətdir ki, o, girov qoyanın (borclunun) girov saxlayan (kreditor) qarşısında əsas öhdəliyinin icrasının təmin edilməsi üçün **əlavə (aksessor) öhdəlikdir**. Başqa sözlə desək, girov öhdəliyi əsas (təmin olunan) öhdəlikdən törəyən, ondan asılı olan, qeyri-müstəqil öhdəlikdir. Onun hüquqi taleyi əsas öhdəlikdən asılıdır. Bu asılılıq onda ifadə olunur ki, əsas (girovla təmin olunan) öhdəliyə xitam veriləndə, girov da ləğv edilir (MM-in 294-cü maddəsinin 1-ci bəndi). Bu asılılıq həm də onda təzahür edir ki, girov haqqında sazişin etibarsızlığı girovla təmin edilmiş öhdəliyin etibarsızlığına səbəb olmur («Girov haqqında» qanunun 3-cü maddəsinin 2-ci bəndi). Girov hüququ müstəqil olaraq mövcud ola bilməz. Girovun əlavə (ak-

[1] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 597; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 119; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 420.

[2] bax: *Анненков. К.Н.* Система русского гражданского права. Том 3. СПб., 1898, с. 210-335; *Звоницкий А.С.* О залоге по русскому праву. Киев. 1912, с. 174-250; *И.Велиев.* Указ. соч., с. 70-77. Azərbaycan Respublikasının yeni MM-i girovu həm öhdəlik, həm də əşya hüququ hesab edir. Bu, onu ifadə edir ki, bizim mülki qanunvericilik girovu ikili təbiətə malik olan kateqoriya kimi müəyyənləşdirir.

[3] *Wieling H.J.* Sachenrecht. Berlin; Heidelberg; New –York; Tokyo, 1997, s. 6.

[4] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 161.

[5] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 165.

sessor) münasibət olması da mübahisə predmetinə çevrilmişdir.

İnqilabaqədərki bəzi rus müəllifləri Roma hüququ ənənələrinə uyğun olaraq girova əlavə konstruksiya kimi baxırdılar[1]. Roma hüququ girova əsas yox, əlavə institut kimi əhəmiyyət verirdi. Girovun əlavə (aksessor) anlayış olmasına bəzi müəlliflər şübhə ilə yanaşırdılar[2]. Girov törəmə, asılı, təmin edən öhdəlikdir.

Girovun **beşinci xüsusiyyəti** ondan ibarətdir ki, o, **real kreditdir**. Zaminlik və qarantiya kimi üsullar real kredit hesab olunmurlar. Onlar şəxsi kredit forması sayılır[3]. Girovun real kredit formasında olması onu ifadə edir ki, əvvəlcədən məlum şəxsin əmlakından ayrıca bir obyekt (predmet) ayrılır və borclu əsas öhdəliyi icra etmədikdə kreditor həmin əmlak hesabına öz tələbini təmin edir və ödəyir. Bu halda girovun **«şəxsə inanmaq yox, əşyaya inanmaq» kimi prinsipi** tətbiq edilir[4]. Bu, borcludan lazım olan məbləğin alınmasında kreditorda böyük inam yaradır.

3. Girovun funksiyaları

Girovun funksiyaları anlayışı onun hansı rolu yerinə yetirməsi kimi başa düşülür. Onun **iki əsas funksiyası** fərqləndirilir: stimullaşdırmaq (təkan vermək, meyilləndirmək) funksiyası, yəni təminat funksiyası; kompensasiya funksiyası. Bu funksiyaların vasitəsilə girov əsas (təmin olunan) öhdəliyin icrasını təmin edir.

Stimullaşdırmaq (təkan vermək, meyilləndirmək) funksiyasının mahiyyəti ondan ibarətdir ki, bu funksiyanın vasitəsi ilə borclu əsas öhdəlik üzrə öz vəzifəsini icra etməyə təşviq edilir. Əks təqdirdə borclu üçün arzuolunmaz mənfi nəticələr yarana bilər. Belə ki, borclu öhdəliyi icra etməsə, kreditorun tələbi borclunun girov qoyduğu əmlaka (girovun predmetinə) yönələ bilər, habelə çəkilmiş əlavə xərclər bu əmlak hesabına ödənilə bilər.

Stimullaşdırmaq funksiyasının əsas mahiyyətini dərk etmək üçün girovla təmin olunan öhdəliyin icrasının təminatı mexanizmini aydınlaşdırmaq lazımdır. Elə hesab edək ki, bankla sahibkar arasında kredit müqaviləsi bağlanmışdır. Bu müqavilə əsasında kredit öhdəliyi əmələ gəlir. Həmin öhdəliyin icrasını təmin etmək üçün, yəni alınan kredit məbləğinin geri qaytarılmasını təmin etmək üçün sahibkar (borclu) özünün xarici ölkənin istehsalı olan bahalı minik avtomobilini banka (kreditora) girov qoyur. Sahibkara (borcluya) məlumdur ki, əgər o, aldığı kredit məbləğini vaxtında banka qaytarmasa, onda kreditorun (bankın) tələbi minik avtomobilinə (girovun predmetinə) yönələcəkdir, yəni minik avtomobili satılacaq, satışdan əldə edilən məbləğ isə banka olan borcun (kredit məbləğinin) ödənilməsinə sərf olunacaqdır. Borclu (sahibkar) həm də əlavə xərcləri ödəməli olacaqdır. Belə ki, işə məhkəmədə baxılması, girovun predmeti olan minik avtomobilinin satışı, şübhəsiz ki, əlavə xərclərin çəkilməsini tələb edir. Bundan əlavə, kreditin vaxtında qaytarılmasını gecikdirdiyinə görə borcludan dəbbə pulu tutula bilər. Söz yox ki, dəbbə pulu satışdan əldə edilən puldan tutulacaqdır. Bütün bunların hamısının sahibkar üçün mənfi nəticələr yaratması göz qabağındadır və bu halı sübut etməyə ehtiyac yoxdur. Ona görə də bu cür nəticələrdən yaxa qurtarmaq meyli sahibkarı krediti vaxtında qaytarmağa, yəni əsas öhdəliyi vaxtında icra etməyə təşviq edir və ona təkan verir. Girovun stimullaşdırmaq funksiyasının mahiyyəti də məhz bununla bağlıdır.

Girovun kompensasiya funksiyasının əsas mahiyyəti ondan ibarətdir ki, borclu tərəfindən əsas öhdəliyin yerinə yetirilməməsi nəticəsində kreditora zərər vurularsa, bu zərərin əvəzini o ödəməlidir. Belə ki, borclu əsas öhdəlik üzrə öz vəzifəsinin icrasını gecikdirir və bunun nəticəsində kreditor maddi itkiyə düçar olur, yəni ona zərər vurulur. Borclu əsas öhdəliyin icrasının gecikdirilməsi ilə vurulmuş zərərin əvəzini ödəməlidir (MM-in 279-cu maddəsi). Zərərin əvəzi girov qoyulmuş əmlak hesabına ödənilir. Başqa sözlə desək, kreditora vurulan zərər girovun predmeti olan əmlakın satışından əldə edilən pul məbləği hesabına kompensasiya edilir. Girovun kompensasiya funksiyasının mahiyyəti də məhz bundan ibarətdir.

4. Girov haqqında qanunvericilik

Girov münasibətlərini tənzimləyən əsas hüquqi sənəd **Azərbaycan Respublikasının Mülki Məcəlləsidir**. MM girov hüququ institutunun əsas mənbəyi hesab edilir. Bir çox Avropa ölkələrinin girov haqqında qanunvericiliyi arasında mülki məcəllələr (məcəllələşdirilmiş aktlar) mühüm yer tutur. Almaniya Mülki Qanunnaməsinin müvafiq paraqrafı (§ 1113-1191, 1204-1273) girov hüququnun tənzimlənməsinə həsr edilmişdir. İtaliyada girovun hüquqi tənzimlənməsinin əsas mənbəyini 1942-ci il Mülki Məcəlləsi təşkil edir. Polşada girov münasibətlərini nizama salan başlıca normativ akt 1964-cü il Mülki Məcəlləsidir. Həmin məcəllənin 4-cü fəsli «Girov» adlanır. Bu fəsil «Daşınar əşyaların girovu» və «Hüquqların girovu» adlı iki bölməyə ayrılır. Fransada girov hüququ 1804-cü il MM-i və 1807-ci il Ticarət Məcəlləsi ilə, Çexiyada 1969-cu il Mülki Məcəlləsi və 1991-ci il Ticarət Məcəlləsi ilə tənzimlənir. İsveçrədə girov münasibətlərini nizama salan əsas müddəalar 1907-ci il Mülki Məcəlləsində ifadə olunur və s[1]. Yaponiya Mülki Məcəlləsi girov münasibətlərini tənzim edən əsas normativ aktdır[2].

Azərbaycan Respublikası MM-inin 12-ci fəslinin 2-ci paraqrafına daxil olan normalar girov münasibətlərini nizama salır. Həmin fəslin «Ümumi müddəalar» adlı 1-ci paraqrafına aid olan normaların girov hüququnun qaydaya salınmasında mühüm rolu və əhəmiyyəti vardır.

---

[1] bax: *Гримм Д.Д.* Лекции по догме римского права. Киев. 1919, с. 216; *Шершеневич Г.Ф.* Учебник русского гражданского права. Том 1. СПб. 1914, с. 427; *Гантовер Л.В.* Залоговое право. СПб., 1890, с. 119.

[2] *Звоницкий А.С.* О залоге по русскому праву. Киев. 1912. Azərbaycan müəlliflərindən İ.Vəliyevin fikrincə, girov hüquq münasibəti əsas öhdəlikdən tam, «yüz faiz» deyil, qanuna əsaslanan müəyyən aspektdə asılı olub, ondan tərəyir. O göstərir ki, aksessor (əlavə) olmaq mütləq xarakter daşımır, o, müəyyən sərhədə malikdir (bax: *И.Велиев.* Указ. соч, 81).

[3] Şəxsi və kredit anlayışlarını Roma hüququ da tanıyırdı (bax: *Хвостов В.М.* Система римского права. Учебник. М., 1996, с. 326-327). Almaniya hüquq doktrinasında da öhdəliyin icrasını təmin edən hüquqi vasitələr şəxsi kredit və real kredit adlı iki yerə bölünür (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 433).

[4] *Нестерова С., Ткаченко Н.* Верит не лицу, а вещи // Экономика и жизнь. 1995. № 14; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 51.

[1] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 342-346.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 165.

Girov münasibətlərini tənzimləyən normativ aktlar içərisində **Azərbaycan Respublikasının qanunları** vacib əhəmiyyətə malikdir. Söhbət, hər şeydən əvvəl, **«Girov haqqında» qanundan** gedir. Bu qanunda girov hüququ institutunun əsas anlayışlarının məzmununa aydınlıq gətirilir. Qanun girovun tətbiq sahəsi, predmeti, subyektləri, növləri, dövlət qeydiyyatı, tərəflərin hüquq və vəzifələri və s. haqqında zəruri qaydalar müəyyən edir. Qanun MM-dən fərqli olaraq, ipotekanı girovun forması kimi müəyyən edir.

Girov münasibətlərini tənzimləyən normalara **Məşə Məcəlləsində** də rast gəlmək olar[1]. Bu məcəllənin 8-ci maddəsində ifadə edilən belə bir göstərişin xüsusilə mühüm əhəmiyyəti vardır ki, meşə fondu sahələrinin girov qoyulmasına yol verilmir.

Girovla bağlı münasibətlərə toxunan müddəalar **«Azərbaycan Respublikasının Milli Bankı haqqında» qanunda** da ifadə olunur. Həmin qanuna görə, Milli Bank qanunvericiliklə qadağan edilməyən mülki-hüquqi əqdlər bağlaya bilər (qanunun 54-cü maddəsinin 7-ci bəndi). Burada söhbət həm də girovdan gedir.

Girov münasibətlərinin nizama salınmasında **«Banklar haqqında» qanunun** müəyyən rolu vardır. Kredit təşkilatının ixtiyarı vardır ki, əmlakı, əmlak hüquqlarını, qiymətli kağızları girov götürməklə kredit versin. Bu halda kredit öhdəliyi girovla təmin edilir. Borc alan həmin öhdəliyi icra etmədikdə, yəni krediti geri qaytarmadıqda, kredit təşkilatının tələbləri girov qoyulmuş əmlaka yönəlir. Belə ki, həmin əmlak satılır. Satışdan əldə edilən pul kreditin ödənilməsinə yönəlir. Belə hallarda münasibətlər MM, Milli Bankın normativ aktı və müqavilə ilə həyata keçirilir (Qanunun 36-cı maddəsinin 1-ci bəndi). Qanunun 77-ci maddəsinin 3-cü bəndi bank aktivlərinin girov qoyulmasının mümkünlüyünə, 81-ci maddəsi girovla təmin edilmiş tələblərə aiddir.

Girov münasibətləri **qanundan aşağı qüvvəli aktlarla** (prezident fərmanları və hökumət qərarları ilə), habelə mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları ilə tənzimlənə bilər. Məsələn, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 3 yanvar 2000-ci il tarixli normativ aktı qiymətli kağızlarla girovun, habelə borc öhdəliklərinin girovunun dövlət qeydiyyatına alınması qaydalarını müəyyənləşdirir[2].

5. Girovun əmələ gəlmə əsasları

Girovun əmələ gəlmə əsasları dedikdə, girov öhdəliyinin yaranmasına dəlalət edən hüquqi faktlar başa düşülür. Bu cür əsaslar həm də **girov öhdəliyinin əmələ gəlmə üsulları** adlanır. Girov öhdəliyi iki cür hüquqi fakt əsasında yaranır. Başqa sözlə desək, girov öhdəliyinin əmələ gəlməsinin **iki cür əsası (üsulu) vardır: müqavilə; qanun**. Almaniya mülki hüququna görə, girov öhdəliyi həm əqdlərdən, həm də qanunda nəzərdə tutulan əsaslardan

[1] bax: AR QK, V cild, s. 162.

[2] bax: Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 1 saylı əmri ilə təsdiq olunmuş «Bütün növ qiymətli kağızlarla girovun və qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəliklərinin girovunun dövlət qeydiyyatına alınması qaydaları» // Qiymətli kağızlar bazarı. Normativ sənədlər toplusu. Bakı. 2000, c. 78 (tərtibçi *A.H.Abbasovdur*).

əmələ gəlir[1]. Bu cür qanuni əsaslar Almaniya Mülki Qanunnaməsində göstərilmişdir. Məsələn, mehmanxana sahibi qanuna görə qonağın əmlakına, təmir işi görən şəxs müştərinin (sifarişçinin) əmlakına, kirayəyə verən (icarəyə verən) kirayəçinin (icarəçinin) əmlakına və s. girov hüququna malikdir. Qanuni girov hüququ Almaniya Ticarət Qanunnaməsində də nəzərdə tutulmuşdur: komisyonçu komissiya müqaviləsini yerinə yetirərkən çəkdiyi xərcləri təmin etmək üçün onun sahibliyində olan əmlaka girov hüququna malikdir (§397)[2]. Bu cür qanuni girov hallarını bizim ölkə qanunvericiliyi Almaniya qanunvericiliyindən iqtibas etmişdir.

Yaponiya qanunvericiliyi də girovun əmələ gəlməsinin iki əsasını müəyyən edir: müqavilə; qanun. Məsələn, saxlama hüququ kimi girov növü qanundan, ipoteka adlı girov növü isə müqavilədən yaranır[3]. Qanuni girovun üstünlük hüququ adlı növü də fərqləndirilir. Almaniya mülki hüququ üstün hüquq institutunu tanımır. Yaponiya qanunvericiliyi onu Fransa mülki hüququndan götürmüşdür. Üstünlük hüququna görə, qanunda nəzərdə tutulan hallarda səlahiyyətli şəxs borclunun müəyyən əmlakı hesabına öz tələbini təmin etməkdə üstün hüquqa malik olur.

Girov münasibətləri Azərbaycan Respublikasının qanunvericiliyinə görə, əksər hallarda, bir qayda olaraq, **müqavilə əsasında əmələ gəlir**. Belə ki, tərəflər arasında girov müqaviləsi bağlanır və həmin müqavilə girov öhdəliyinin yaranmasının əsası (üsulu) kimi çıxış edir. Qanun xüsusi olaraq qeyd edir ki, girov müqavilə üzrə əmələ gəlir (MM-in 270-ci maddəsi). Məsələn, bank bağ tikintisi məqsədləri üçün vətəndaşa kredit verir. Vətəndaş özünə məxsus olan qiymətli zinət-qızıl məmulatlarını girov qoyur. Bankla vətəndaş arasında kredit müqaviləsindən əlavə, həm də girov müqaviləsi bağlanır. Bax, həmin girov müqaviləsi girov öhdəliyinin yaranma əsası (üsulu) — hüquqi fakt kimi çıxış edir. Bu müqavilə bağlandığı andan girov öhdəliyi yaranır. Söhbət **konsensual girov müqaviləsindən** gedir. Elə hallar olur ki, müqavilə bağlanmamışdan əvvəl girov predmeti girov saxlayana verilir. Bu cür məqamda girov öhdəliyi girov predmeti olan əmlak verildiyi andan yox, yenə də girov müqaviləsinin bağlandığı andan əmələ gəlir (MM-in 281-ci maddəsinin 1-ci bəndi).

Elə girov müqaviləsi bağlanır ki, bu müqavilə girov predmetinin girov saxlayana verilməsini və onda olmasını nəzərdə tutur. Söhbət **real girov müqavilələsindən** gedir. Göstərilən bu cür vəziyyətdə girov öhdəliyi girov müqaviləsinin bağlandığı andan yox, girov predmetinin girov saxlayana verildiyi andan əmələ gəlir (MM-in 281-ci maddəsinin 2-ci bəndi).

Bəzi hallarda girov müqaviləsindən yaranan girov hüququnun dövlət qeydiyyatına alınması tələb edilir. Bu kimi məqamlarda girov öhdəliyi müqavilə bağlandığı andan yox, onun **dövlət qeydiyyatına alındığı andan əmələ gəlir** (MM-in 281-ci maddəsinin 1-ci bəndi).

Bəzi hallarda **girov öhdəliyi qanun əsasında da yarana bilər**. Qanun

[1] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 427; *Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999.

[2] HGB: Kommentar / Hrsg. Röhricht, Grof von Westphalen. Köln, 1998.

[3] *Сакаэ Вагацума, Тору Арииdзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 165.

əsasında əmələ gələn girov öhdəliklərinə nadir hallarda təsadüf olunur. Bu cür öhdəliklərin dairəsi geniş olmayıb, məhduddur. Qanun əsasında yaranan öhdəliklər, bir qayda olaraq, MM-də göstərilən üsullarla əmələ gəlir. Bu cür öhdəliklərə aiddir:

- alıcının malın pulunu ödəmək vəzifəsini icra etməsini təmin etmək üçün **nisyə satılmış əşyanın satıcının yanında girov qoyulmuş** hesab edilməsi (MM-in 600-cü maddəsinin 6-cı bəndi); bu bənd hal-hazırda MM-dən çıxarılmışdır və buna görə də həmin girov öz qüvvəsini itirmişdir;
- torpaq sahəsi icarəçisinin icarəyə verənə qarşı tələbi olduqda, o, torpaqla birlikdə **icarəyə götürülmüş yardımçı obyektlərə (əşyalara) girov** hüququna malikdir (MM-in 702-ci maddəsi);
- torpaq icarəsi müqaviləsi üzrə icarəyə verənin icarəçiyə tələbi olduqda, icarəyə verən icarəçinin **icarəyə götürülmüş torpaqda qurulmuş əşyalarına, bəhərinə girov hüququna malikdir** (MM-in 716-cı maddəsi);
- podrat müqaviləsi üzrə **podratçı hazırladığı və ya təmir etdiyi sifarişçiyə məxsus daşınar əşyaya**, öz tələblərinin təminatı üçün **girov hüququna malikdir** (MM-in 757-ci maddəsi);
- komisyonçunun komissiya müqaviləsi üzrə komitentə qarşı tələbi olduqda, həmin tələbi təmin etmək üçün **komisyon malına girov hüququna malikdir** (MM-in 820-ci maddəsinin 1-ci bəndi);
- saxlanc (saxlama) müqaviləsindən irəli gələn bütün tələblər üzrə anbar sahibi saxladığı mallara, yəni **tapşıranın mallarına girov hüququna malikdir** (MM-in 830-cu maddəsinin 3-cü bəndi);
- qonağın mehmanxanada yaşayışı, ona qulluq üçün göstərilmiş xidmətlərdən və digər xidmətlərdən irəli gələn tələbləri, o cümlədən çəkilmiş xərclər üzrə **mehmanxana və restoran sahibinin qonağın saxlamaya verilmiş əşyalarına girov hüququna malikdir** (MM-in 836-cı maddəsi);
- daşıyıcı (nəqliyyat təşkilatı) yük daşıma müqaviləsi üzrə ona çatası daşıma haqqına və xərclərin kompensasiyasına əsasən **yükə girov hüququna malikdir** (MM-in 860-cı maddəsinin 1-ci bəndi);
- renta müqaviləsi üzrə torpaq sahəsi və ya digər daşınmaz əşya renta ödənilməsi üçün verildikdə, öhdəliyi təmin etmək üçün **renta alanın həmin əşyaya girov hüququ vardır** (MM-in 869-cu maddəsinin 1-ci bəndi)[1].

Beləliklə, qanunda ifadə olunan göstəriş hüquqi fakt kimi girov öhdəliyinin əmələ gəlmə əsası (üsulu) kimi çıxış edir. Özü də qanunda göstərilməlidir: qanun əsasında avtomatik olaraq girov öhdəliyinin yaranmasına səbəb olan hüquqi faktlar (məsələn, podrat müqaviləsi üzrə sifarişçinin podrat haqqını ödəməməsi və s.); girovun predmeti (məsələn, podratçının hazırladığı və ya təmir etdiyi sifarişçiyə məxsus daşınar əşya və s.); girovla təmin edilən öhdəlik (məsələn, podrat müqaviləsindən yaranan podrat öhdəliyi və s.).

Qanun əsasında yaranan öhdəlik **qanuni girov öhdəliyi və ya qanuni girov hüququ**, müqavilə əsasında əmələ gələn öhdəlik isə **müqavilə girov öhdəliyi və ya müqavilə girov hüququ** adlanır.

[1] Burada qanunverici səhvə yol verir. Belə ki, daşınmaz əşyalar girov hüququnun yox, ipoteka hüququnun predmeti ola bilər. Bu halda yalnız qanuni ipotekadan söhbət gedə bilər.

§ 8. Girov öhdəliyinin elementləri

1. Girov öhdəliyinin tərəfləri

Girov öhdəliyinin tərəfləri bu öhdəlik münasibətlərində iştirak edən şəxslərdir. Girov hüquq münasibətlərində iki tərəf iştirak edir. Qanun onları girov saxlayan və girov qoyan adlandırır.

Girov saxlayan şəxs borclunun onun qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üçün girov qoyanın əşyası barəsində müqavilədə göstərilmiş əsaslarla girov hüququ olan şəxsdir (MM-in 272-ci maddəsi). Başqa sözlə desək, girov saxlayan elə bir şəxsdir ki, əmlak ona girova verilir. O, girovla təmin olunan **əsas öhdəliyin kreditorudur**. Bütün hallarda kreditor və girov saxlayan eyni şəxs olurlar. Bu, o deməkdir ki, girov saxlayan rolunda yalnız əsas (təmin olunan) öhdəliyin kreditoru çıxış edə bilər. Hər hansı bir üçüncü şəxsin girov münasibətlərində girov saxlayan qismində iştirakı tamamilə istisna edilir. Beləliklə, girov saxlayan dedikdə, borclunun öhdəliyinin lazımi qaydada icra edilməsini təmin etmək məqsədi ilə girovu qəbul edən şəxs başa düşülür («Girov haqqında» qanunun 1-ci maddəsi).

Girov saxlayan rolunda girov münasibətlərində **istənilən hüquqi və fiziki şəxs** çıxış edə bilərlər. Bu münasibətlərdə girov saxlayan kimi, bir qayda olaraq, Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri iştirak edirlər. Bununla belə, xarici dövlətlərin fiziki və hüquqi şəxslərinin girov öhdəliyində girov saxlayan qismində iştirakı mümkündür, bu, istisna edilmir. Girov saxlayan kimi bankların, digər kredit təşkilatlarının, lombardların və s. girov münasibətlərində iştirak etmələrinin tez-tez şahidi oluruq. Söylədiklərimizdən belə qənaətə gəlirik ki, girov saxlayan girov hüququna malik olan şəxsdir.

Girov münasibətlərində iştirak edən ikinci tərəf girov qoyan adlanır. **Girov qoyan** elə bir şəxsdir ki, o, girovun predmeti olan əmlakı girov saxlayana verir. Bir qayda olaraq, girov qoyan rolunda **əsas və girovla təmin olunan öhdəliyin borclu** şəxsi çıxış edir. Məsələn, vətəndaş qonşuya borc pul verir və onlar arasında borc müqaviləsi bağlanır. Bu müqavilədən borc öhdəliyi yaranır ki, borc alan qonşu həmin öhdəliyin borclu şəxsi hesab edilir. O, minik avtomobilini girov qoyur və bu barədə girov müqaviləsi bağlanır. Bununla girov öhdəliyi əmələ gəlir ki, qonşu (əsas öhdəlikdə borclu şəxs) bu öhdəlikdə girov qoyan qismində iştirak edir.

Bəzi hallarda girov qoyan və əsas öhdəlikdəki borclu şəxs eyni şəxs olmurlar. Bu, o deməkdir ki, **girov qoyan qismində üçüncü şəxslər də çıxış edə bilər**. Məsələn, yuxarıdakı misalda girovu borc alan qonşu yox, onun dostu olan sahibkar qoyur. Bu halda sahibkar girov qoyan rolunda çıxış edir. Sahibkar əsas öhdəlikdə çıxış etmir. Deməli, girov qoyan həm borclu, həm də üçüncü şəxs ola bilər (MM-in 271-ci maddəsinin 2-ci bəndi). Yaponiya mülki hüququna görə, girov qoyan qismində üçüncü şəxs çıxış edə bilər. Bu şəxs əşya zamini adlanır[1]. Almaniya mülki qanunvericiliyinə görə, girov öhdəliyində girov qoyan qismində həm təmin edilən öhdəlik üzrə borclu, həm də digər şəxs —

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 211.

girov qoyulan əşyanın mülkiyyətçisi çıxış edə bilər[1].

Girov qoyan rolunda üçüncü şəxs çıxış etdikdə, yəni girovun predmeti üçüncü şəxsin girov qoyduğu əmlak olduqda, o, borclunun adından yox, öz adından girov əqdi bağlayır. Bu halda girov qoyan üçüncü şəxslə əsas (təmin olunan) öhdəlikdəki borclu arasında yaranan münasibətlər girov müqaviləsindən kənarda qalır[2]. Bu münasibətlər girov öhdəliyinin məzmununa daxil olmur. Onlar arasındakı həmin münasibətlər ayrıca olaraq müqavilə bağlamaq yolu ilə rəsmiləşdirilə bilər. Bu müqavilədə göstərilir ki, kreditorun tələbi girov qoyulmuş əmlak hesabına təmin edildiyi halda, girov qoyan rolunda çıxış edən üçüncü şəxsin düşdüyü zərərin əvəzi ödənilsin. Əgər belə bir müqavilə bağlanmadıqda və kreditorun tələbi girov qoyulmuş əmlak hesabına təmin edildikdə, əsassız varlanma (kondikasiya) öhdəliyi yaranır. Girov qoyan üçüncü şəxs borcluya əsassız varlanma (kondikasiya) tələbi irəli sürməklə ona vurulmuş zərərin əvəzinin ödənilməsini tələb edə bilər (MM-in 58-ci fəsli)[3].

Əgər kreditor girov qoyulmuş əşyaya məcburi olaraq tələb irəli sürərsə, onda, şübhəsiz ki, bunun nəticəsində həmin əşyaya mülkiyyət hüququ itə bilər. Bu vəziyyətdən qaçmaq üçün MM-in 431-ci maddəsinin 3-cü bəndində nəzərdə tutulan qaydada girov qoyan üçüncü şəxs kreditor qarşısında əsas (təmin olunan) öhdəliyi icra edir. Məsələn, yuxarıdakı misalda sahibkar (üçüncü şəxs) qonşunun aldığı borc məbləğini onun əvəzinə vətəndaşa qaytarır və əşyanı girovdan götürür. Kreditorun borcluya olan tələb hüququ öhdəliyi icra etmiş üçüncü şəxsə keçir. Bu halda üçüncü şəxs borcluya münasibətdə yeni kreditor kimi çıxış edir. Yuxarıdakı misalda borc alan qonşunun kreditoru vətəndaş yox, sahibkar olur.

Bildiyimiz kimi, subyektiv mənada mülkiyyət hüququ üç cür səlahiyyətdən («üçlükdən») ibarətdir. Bunlardan biri sərəncam səlahiyyətidir. Bu səlahiyyət əsasında əşyanın hüquqi taleyi və müqəddəratı həll olunur. Girov qoymaq əşya üzərində çoxsaylı sərəncam aktlarından (məsələn, satmaq, bağışlamaq, renta ödənişi üçün vermək və s.) biridir. Əşya üzərində sərəncam səlahiyyətini isə mülkiyyətçi həyata keçirə bilər. Ona görə qanun xüsusi olaraq qeyd edir ki, əşyanı girov qoyan yalnız onun mülkiyyətçisi ola bilər (MM-in 271-ci maddəsinin 1-ci bəndi). Lakin bu qaydadan müəyyən istisnaya yol verilir. Belə ki, mülkiyyətçi statusuna malik olmayan məhdud əşya subyekti — tam təsərrüfatçılıq səlahiyyəti hüququ olan şəxslər də əşyanı girov qoya bilər. Bu halda tam təsərrüfatçılıq səlahiyyətində olan əmlak girov qoyulur. Bunun üçün zəruridir ki, mülkiyyətçi və ya onun tərəfindən müvəkkil edilən müvafiq orqan əşyanın girov qoyulmasına razılıq versin («Girov haqqında» qanunun 1-ci və 4-cü maddəsinin 2-ci bəndi)[4].

[1] Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 366; *Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999; *Jauering O.* Bürgerliches Gesetzbuch.Erlauterungen. München. 1997.

[2] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова.* М., 1999, с. 583; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 101.

[3] bax: Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 101.

[4] bax: AR QK, V cild, s. 530.

Bununla bərabər, mülki qanunvericilik girov öhdəliyinin möhkəmliyini və sabitliyini təmin etmək məqsədilə **girov hüququnun dəyişməzliyi haqqında qayda** müəyyən edir. Bu qaydaya əsasən, girov qoyulmuş əşyanın mülkiyyətçisi dəyişdikdə, bu, girov hüququnun dəyişməsinə səbəb olmur (MM-in 274-cü maddəsi). Məsələn, ata bankdan kredit alır və qızıl əşyalarını girov qoyur. O ölür və həmin əşyaların mülkiyyətçisi onun vərəsəsi olur. Buna baxmayaraq, girov hüququ dəyişmir.

Ümumi mülkiyyətdə olan əşyanın girov qoyulması müəyyən xüsusiyyətlərə malikdir (MM-in 277-ci maddəsinin 1-ci bəndi). Bu cür əşya yalnız mülkiyyətçilər razılıq verdikdə girov qoyula bilər. Özü də onların razılığı **yazılı formada** ifadə olunmalıdır. Əgər bu cür razılıq yoxdursa, bağlanan girov əqdi etibarsız hesab olunur. Bəzi hallarda qanun tələb edir ki, ümumi birgə mülkiyyətdə olan əşya girov qoyularkən mülkiyyətçilərin razılığı notariat qaydasında təsdiq olunsun. Məsələn, ər-arvadın ümumi birgə mülkiyyətində olan daşınmaz əşyanın girov qoyulması barədə əqd bağlandığı zaman onların razılığı üçün notarial formanın olması gərəkdir (AM-in 33-cü maddəsi).

Bundan fərqli olaraq, **ümumi paylı mülkiyyətin mülkiyyətçilərindən hər biri** ümumi əşyaya hüquqdakı payını müstəqil surətdə, heç kəsdən asılı olmadan girov qoya bilər. Bu halda digər mülkiyyətçilərin razılığı tələb olunmur. Girov saxlayanın tələbi həmin paya yönələ bilər. Bu tələb nəticəsində pay satıldıqda, digər mülkiyyətçilərin üstünlük hüququ vardır (MM-in 277-ci maddəsinin 2-ci bəndi).

Girov qoyan rolunda, bir qayda olaraq, Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri çıxış edirlər. Bununla belə, xarici dövlətlərin fiziki və hüquqi şəxsləri girov qoyan qismində girov hüquq münasibətlərində iştirak edə bilərlər.

Girov qoyan **əmlak hüquqlarını da girov qoya bilər**. Əmlak hüquqları yalnız o halda girovun predmetinə çevrilə bilər ki, həmin hüquqların sahibi girov qoyan olsun. Hüququ girov qoyan həmin hüququn məxsus olduğu şəxs ola bilər (MM-in 271-ci maddəsinin 3-cü bəndi). Lakin qanun bu qaydadan müəyyən istisna hala yol verir. Belə ki, icarəçi özünün icarə hüququnu icarəyə verənin razılığı olmadan girov qoya bilər. Bir şərtlə ki, icarə müqaviləsində icarə hüququnun girov qoyulması qadağan edilməsin («İcarə haqqında» qanunun 4-cü maddəsinin 1-ci bəndi). Əşyanın mülkiyyətçisinin razılığı olmadan icarə hüququnun girov qoyulmasına yol verilmir (MM-in 276-cı maddəsinin 3-cü bəndi).

2. Girovun predmeti

Girovun predmeti girov öhdəliyinin əsas və mühüm elementidir. MM-in 276-cı maddəsi, «Girov haqqında» qanunun 4-cü maddəsi girovun predmetinin tənzimlənməsinə həsr edilmişdir.

Girovun predmeti dedikdə, əsas öhdəlik üzrə borcluya və ya hər hansı bir üçüncü şəxsə məxsus olan maddi (əmlak) xarakterli elə nemətlər başa düşülür ki, borclu əsas (təmin olunan) öhdəliyi icra etmədiyi halda, həmin öhdəliyin kreditoru (girov saxlayan) başqa kreditorlar qarşısında girov qoyulmuş nemətin (əmlakın) dəyərindən təminat almaqda üstünlük hüququna malikdir. Girovun predmet tərkibi kifayət qədər genişdir. Onun predmeti kimi çıxış edən

maddi xarakterli nemətləri iki yerə bölmək olar:

- əşyalar;
- əmlak hüquqları[1].

Girovun predmet tərkibinin əsasını **əşyalar** təşkil edir. Özü də dərhal qeyd etməliyik ki, yalnız dövriyyə qabiliyyətli istənilən əşya bəzi istisnalarla, girovun predmeti ola bilər. **Yalnız daşınar əşyalar girov qoyula bilər**. Daşınmaz əşyalar girov qoyulmur. Dövriyyədə olan əmlakın — mal ehtiyatlarının, xammal materiallarının, yarımfabrikatların və s. girov qoyulması istisna edilmir. Biz tez-tez qiymətli kağızların[2], qızıl məmulatlarının, avtomobillərin və s. girovun predmeti olmasının şahidi oluruq.

Əşyanın girov qoyulması mülkiyyətin formasından asılı deyil. Bu, o deməkdir ki, girovun predmeti qanuna müvafiq olaraq həm dövlət, həm xüsusi, həm də bələdiyyə mülkiyyətində olan əmlak ola bilər. Məhdud əşya hüququnun obyekti olan əmlakın da girovun predmeti ola bilməsi istisna edilmir. Məsələn, tam təsərrüfatçılıq səlahiyyətində olan əmlak girov kimi qoyula bilər. Lakin bu halda mülkiyyətçinin və ya onun tərəfindən müvəkkil edilən müvafiq orqanın razılıq verməsi tələb olunur.

Girovun predmeti kimi **ümumi mülkiyyətdə olan əşya da** çıxış edə bilər. Bu halda qanun tələb edir ki, həmin əşyanın girov qoyulmasına **bütün mülkiyyətçilər yazılı formada razılıq versinlər**. Ümumi paylı mülkiyyətin mülkiyyətçilərindən hər hansı birinin ümumi əşyaya hüquqdakı payının da girov qoyulması mümkündür. Belə halda payın girov qoyulmasına digər mülkiyyətçilərin razılıq verməsi tələb olunmur. Lakin payın müstəqil surətdə girovun predmeti kimi çıxış etməsi üçün vacibdir ki, pay naturada ayrıla bilsin.

Daşınar əşya hesab olunan **qiymətli kağız** girovun müstəqil predmeti ola bilər[3]. Veksel, istiqraz, səhm, sertifikat, konosament, anbar şəhadətnaməsi və digər qiymətli kağızların girov qoyulması hallarına tez-tez rast gəlirik. Order vekselinin girov qoyulması indossament (həvalə qeydi) vasitəsilə həyata keçirilir. Adlı veksel və digər qiymətli kağızlar girov haqqında müqavilənin şərtlərinə uyğun olaraq girov qoyulur. Bu müqavilədə girov qoyulan qiymətli kağızın konkret parametrləri göstərilməlidir. Adsız qiymətli kağızların girov qoyulması həmin qiymətli kağızların girov saxlayana verilməsi vasitəsilə həyata keçirilir. Bu məsələyə xüsusilə diqqət yetirmək lazımdır. Belə ki, bəzi qiymətli kağızlar (məsələn, konosament, veksel və s.) bir neçə nüsxədə tərtib olunur. Bu cür qiymətli kağızlar girov qoyulduğu halda girov saxlayanın borcudur ki, qiymətli kağızın bütün nüsxələrinin verilməsini tələb etsin. Bu, mümkün olan bəzi sui-istifadə hallarının qarşısını almağa imkan verir. Belə ki, qiymətli kağızın digər bir nüsxəsi başqa öhdəliyi təmin etmək üçün girov qoyula bilər.

Girovun müstəqil predmetlərindən biri **sənədsiz qiymətli kağızlardır**. Bu cür qiymətli kağızların girov qoyulması mümkündür. Sənədsiz qiymətli kağızların girovu haqqında qeyd depozitarda depo hesabında olan yazının köməyi ilə aparılır.

Girovun predmeti kimi girov qoyan tərəfindən **gələcəkdə əldə edilə bilən əmlak** da çıxış edə bilər («Girov haqqında» qanunun 4-cü maddəsinin 1-ci bəndi)[1]. Bu cür əmlak girov qoyulan məqamda mövcud və hazır olmur. Həmin əmlakın yaranması, necə deyərlər, «işıq üzü görməsi» gələcək üçün planlaşdırılır. Məsələn, vətəndaş bankdan kredit götürür və tikintisinə başlanmış, lakin gələcəkdə hazır olacaq yaşayış evini girov qoyur. Başqa bir misalda vətəndaş alqı-satqı müqaviləsi əsasında gələcəkdə əldə edəcəyi əşyanı girov qoymaqla qonşusundan borc alır[2].

Girov hüququ təkcə **əsas əşyaya yox, həm də yardımçı əşyaya** şamil edilir. Hamımıza məlumdur ki, yardımçı əşyanın təyinatı baş (əsas) əşyaya xidmət etməkdən ibarətdir və onunla ümumi təsərrüfat və sair təyinat üçün əlaqədardır. Yardımçı əşya baş əşyanın təyinatını tamamlayır. Ona görə də əsas əşya girov qoyulduğu halda, yardımçı əşya da girov qoyulmuş hesab edilir, yəni girov hüququnun əhatə və təsir dairəsinə yardımçı əşya da daxil edilir. Beləliklə, girov saxlayanın girov predmeti olan əşyaya girov hüququ, onun yardımçı əşyasına da şamil edilir (MM-in 278-ci maddəsi). Bu norma dispozitiv xarakter daşıyır. Belə ki, girov müqaviləsində girov hüququnun əsas (baş) əşyanın yardımçı əşyasına şamil edilməməsi barədə qayda da nəzərdə tutula bilər və yaxud müqavilədə müəyyənləşdirilə bilər ki, girov hüququnun təsir sferasına bütün yardımçı əşyalar yox, yalnız onlardan bəziləri daxildir.

Həm bölünən əşyalar, həm də bölünməz əşyalar girovun predmeti ola bilər. Taxıl, tikinti materialları, benzin və s. bölünən əşyalar kimi girov qoyulur. Bölünməz əşyaların (minik avtomobilinin, musiqi alətinin, mebel qarnitumun və s.) girov qoyulması müəyyən xüsusiyyətə malikdir. Belə ki, bu cür əşyalar hissə-hissə girov qoyula bilməz (MM-in 276-cı maddəsinin 2-ci bəndi).

Girov qoyulmuş əmlakdan istifadə nəticəsində əldə edilmiş **bəhər, məhsul və gəlir** girovun predmeti ola bilər. Məsələn, kənd sakini kəndli (fermer) təsərrüfatı başçısından borc pul alır və borc öhdəliyini təmin etmək üçün mülkiyyətində olan qoyunu və mal-qaranı girov qoyur. Qoyunun və mal-qaranın bəhəri — yunu, südü və balası girov hüququna daxildir. Başqa bil misalda podratçı (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs) tikinti təşkilatından on ton sement borc alır və öhdəliyi təmin etmək

[1] Yaponiya mülki hüququna görə də girovun predmeti həm əşyalar, həm də əmlak hüquqları ola bilər (Yaponiya MM-in 343-cü, 362-ci maddələri) // *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 211. Almaniya qanunvericiliyinə görə, girovun predmeti qismində daşınmaz əşyalar (MQ-nin 1204-cü paraqrafı) və hüquqlar (MQ-nin 1273-cü paraqrafı) çıxış edə bilər. Hüquqlar isə əşya tələblərinə, öhdəlik tələblərinə və qiymətli kağızlara bölünür (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 427; Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 350).

[2] Yaponiya mülki hüquq elmində göstərilir ki, qiymətli kağızların bir növü olan səhmlərin girovu müasir dövrdə iqtisadi münasibətlərdə böyük rol oynayır. Səhmlərin girovunun etibarlı olması üçün onların real (faktiki) surətdə girov saxlayana verilməsi tələb edilir (Yaponiya MM-in 207-ci maddəsinin 1-ci bəndi) // *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 217.

[3] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 522.

[1] Bu, Roma hüququ ənənələrinə uyğun gəlir. Roma hüququ da gələcəkdə əldə edilən əmlakın girov qoyulmasının mümkünlüyünü nəzərdə tuturdu (bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 347).

[2] ABŞ mülki hüququna görə, mövcud olmayan əmlakın girovuna yol verilmir (bax: *Ласк Г.* Гражданское право США. М., 1961, с. 521).

üçün adsız (təqdim edənə) əmanət kitabçasını girov qoyur. Tikinti təşkilatının hüququ vardır ki, bankdan həmin kitabça üzrə aylıq gəliri (faizi) alsın. Lakin bəhərin, məhsulun və gəlirin girov hüququna aid edilməsi üçün zəruridir ki, bu hal girov müqaviləsində nəzərdə tutulsun. Əgər bu hal müqavilədə müəyyənləşdirilməzsə, girov qoyulmuş əmlakdan istifadə nəticəsində əldə edilmiş bəhər, məhsul və gəlir girov predmeti ola bilməz.

Girovun predmeti kimi **girovda olan əmlak** da çıxış edə bilər. Bu, o deməkdir ki, girovda olan əmlak digər girovun predmeti olur (MM-in 282-ci maddəsinin 1-ci bəndi). Bu cür girova **sonrakı girov** deyilir. Sonrakı girov yalnız o halda yarana bilər ki, bu hal əvvəlki girov müqaviləsində qadağan edilməsin. Sonrakı girov **yenidən girov və ya ikinci əldən girov** da adlanır. Bu cür hallarda əmlaka tələb yönələrsə, ilk növbədə, birinci girov saxlayanın tələbi, ikinci növbədə isə sonrakı girov saxlayanın tələbi təmin edilir. Bu qaydaya **birincilik prinsipi** deyilir. Sonrakı girovun yaranması onunla izah olunur ki, girov qoyulmuş əşyanın dəyəri girovla təmin olunan əsas öhdəlik üzrə borc məbləğindən xeyli dərəcədə çox olur.

Girovun müstəqil predmeti kimi **əmlak hüquqları** da çıxış edə bilər[1]. Girovun predmeti qismində çıxış edən əmlak hüquqları həm əşya hüququ, həm öhdəlik hüququ, həm korporativ hüququ, həm də müstəsna (əqli mülkiyyət) hüquq növündə ola bilər.

Əşya hüquqlarının girov qoyulması mümkündür. Biz xüsusilə təcrübədə əsas əşya hüququ olan mülkiyyət hüququnun girov qoyulması faktına tez-tez hallarda rast gəlirik. Bəzi hallarda vətəndaşlar özlərinə məxsus olan əşyaya mülkiyyət hüququnu girov qoymaqla bankdan kredit götürürlər. Məsələn, şəxs minik avtomobilinə olan mülkiyyət hüququnu (avtomobilin özünü yox) girov qoyur və öz qonşusundan borc pul alır.

Əşya hüquqlarının bir növü olan **məhdud əşya hüquqlarına** gəldikdə isə qeyd etmək lazımdır ki, bu cür hüquqlar **girovun müstəqil predmeti ola bilmir**. Məsələn, məhdud əşya hüququna aid edilən servitut hüququ girovun müstəqil predmeti qismində çıxış edə bilməz (MM-in 253-cü maddəsinin 3-cü bəndi). Qanun uzufruktuara uzufruktu (əşya və hüquqları) girov qoymaq hüququ vermir (MM-in 265-ci maddəsi). Yaşayış binasının tərkib hissəsindən istifadə hüququ (məhdud əşya hüququ) girovun müstəqil predmeti ola bilməz (MM-in 228-ci maddəsinin 3-cü bəndi). Amma Yaponiya mülki hüququna görə, məhdud əşya hüququnun superfitsi (tikiliyə vərəsəlik hüququ) və emfitevzis kimi növləri girov qoyula bilər. Belə hallar daşınmaz əşyanın girovuna bərabər tutulur[2].

Bununla belə, qanun **sahiblik və istifadə hüququnun girovun predmeti olmasına yol verir** («Girov haqqında» qanunun 4-cü maddəsinin 1-ci bəndi). Məsələn, çoban qoyun və mal-qara sürüsündən istifadə hüququnu (yunu, südü, dərini, balanı və s. əldə etmək hüququnu) girov qoymaqla kənd sakinindən borc pul alır. Başqa bir misalda vətəndaş xüsusi mülkiyyətə əsaslanan

[1] Гражданское и торговое право капиталистических государств. Учебное пособие / Отв. ред. К.К. Яичков. М., 1966, с. 165.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 217

daş karxanasından istifadə hüququnu girov qoyur.

Girov qoyulan əmlak hüquqları **tələb hüquqları (tələblər) növündə** də ola bilər[1]. İstənilən tələbin (tələb hüququnun) girov predmeti ola bilməsi mümkündür (MM-in 276-cı maddəsinin 1-ci bəndi). Lakin bəzi tələb hüquqlarının girov qoyulması tamamilə istisna edilir. Belə ki, kreditorun şəxsiyyəti ilə qırılmaz bağlı olan tələblər, o cümlədən alimentlər, həyata və ya sağlamlığa vurulmuş zərərin əvəzinin ödənilməsi haqqında tələblər və digər şəxsə güzəşt olunması qanunla qadağan edilmiş sair hüquqlar girov predmeti ola bilməz (MM-in 276-cı maddəsinin 1-ci bəndi).

Girov predmeti ola bilən tələblərin (tələb hüquqlarının) əsasını **öhdəlik hüquqları** təşkil edir. Öhdəliklərdən irəli gələn əmlak hüquqları girovun predmeti ola bilər («Girov haqqında» qanunun 4-cü maddəsinin 1-ci bəndi). Bu cür öhdəlik (tələb) hüquqları çox vaxt müqavilələrdən əmələ gəlir. Özü də həmin tələblər həm pul formasında (pul tələbləri), həm də natura formasında (natura tələbləri) ola bilər. Məsələn, mal göndərmə müqaviləsi üzrə (alqı-satqı müqaviləsinin bir növü) mal göndərən (satıcı) satış məqsədi ilə univermağa 500 ədəd soyuducu göndərir. Univermaqla mal göndərən satıcı belə bir razılığa gəlirlər ki, soyuducuların pulu bir ildən sonra ödənilsin. Belə halda mal göndərənin pul formasında tələb hüququ yaranır. O, həmin pul tələbini girov qoya bilər. Başqa bir misalda ev tikən tikinti təşkilatı (podratçı) podrat müqaviləsi əsasında sifarişçi vətəndaş üçün bağ evi tikərkən işin haqqını əvvəlcədən alır. Sifarişçi natura formasında tələb (bağ evini tələb etmək) hüququ əldə edir. O, bu hüququ girov qoymaq ixtiyarına malikdir. İcarə hüququ da girovun predmeti ola bilər. Lakin bunun üçün vacibdir ki, əşyanın mülkiyyətçisi icarə hüququnun girov qoyulmasına razılıq versin (MM-in 276-cı maddəsinin 3-cü bəndi). İcarəyə verənin hüququ da girov qoyula bilər. Məsələn o, icarə haqqını almaq hüququnu hər hansı malı satın alarkən girov qoyur.

Tələb hüquqları həm də birtərəfli hərəkətlərdən (əqdlərdən) əmələ gələn öhdəliklərdən də irəli gələ bilər. Məsələn, «Поле чудес» oyununu udan şəxs (bu münasibətlər birtərəfli hərəkətlərdən əmələ gələn öhdəlikdir) prizin verilməsini tələb etmək hüququnu girov qoya bilər. Başqa bir misalda vətəndaş lotereya bileti əsasında udduğu (bu münasibətlər də öhdəlikdir) müəyyən pul məbləğini tələb etmək hüququnu girov kimi verə bilər.

Korporativ hüquqlar da girovun predmeti ola bilər. Məsələn, məhdud məsuliyyətli cəmiyyətin iştirakçısının cəmiyyətin nizamnamə kapitalındakı payının girov qoyması mümkündür. Başqa bir misalda tam ortaqlı (şərikli) müəssisənin iştirakçısı qalan iştirakçılarının razılığı ilə şərikli kapitaldakı payını girov kimi qoya bilər.

Girov kimi qoyulan əmlak hüquqlarının bir növü də **müstəsna (əqli mülkiyyət) hüquqlardır**. Bu hüquqlar əqli mülkiyyət obyektlərindən — elm, ədəbiyyat və incəsənət əsərlərindən, ixtiralardan, faydalı modellərdən, sənaye

[1] Tələb hüquqlarının girov qoyulması qaydasını Roma hüququ da tanıyırdı. Roma hüququ tələb hüququnun girovunu «pignus nominis» adlandırırdı. Məsələn, kirayəçilərdən kirayə haqqını tələb etmək hüququnu girov qoymaqla ev sahibinin təmir məqsədilə kredit alması halı qədim Romada geniş yayılmışdı (bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 346).

nümunələrindən və s. istifadə hüquqlarıdır. Müəlliflik hüququnun və patent hüququnun girov qoyulması prinsip etibarilə mümkündür. Bu halın qadağan edilməsi qanunda nəzərdə tutulmur. Məsələn, patent sahibinin ixtiradan istifadə hüququ girovun predmeti ola bilər. Yaponiya mülki hüququna görə, qeyri-maddi yaradıcılıq məhsullarına olan hüquqlar girov qoyula bilər. Xüsusən, patent hüquqlarının, sənaye nümunələrinə olan hüquqların girovu vacib funksiya yerinə yetirir[1].

Pul vəsaitinin və pulun girovun predmeti ola bilməsi mübahisə doğuran məsələlərdəndir[2]. Pul vəsaiti tələb hüququnu ifadə edir. O, nağdsız pul deməkdir. Bununla belə, pul vəsaiti hesablaşma vasitəsidir. Pul isə daşınar əşyaların bir növü olub, nağd pul deməkdir. O, qanuni ödəniş vasitəsidir. Pul vəsaitinin və pulun girovun predmeti olub-olmaması barədə iki müxtəlif mövqe vardır. Bir qrup müəlliflərin fikrincə, pul (həm nağd, həm də nağdsız pul) girovun predmeti ola bilməz. Onlar belə hesab edirlər ki, girovun mənası girovun predmeti olan əşyanın satışından əldə edilən pul məbləği hesabına girov saxlayanın tələbini təmin etməkdən ibarətdir. Bu hal isə pulun girovun predmeti kimi çıxış etməsini istisna edir[3]. RF Ali Arbitraj Məhkəməsinin Rəyasət Heyəti öz qərarında göstərir ki, pulun realizə edilməsi mümkün olmadığına görə o, girovun predmeti kimi çıxış edə bilməz[4]. İkinci mövqe tərəfdarlarının fikrincə, qüvvədə olan qanunvericilik pulun girovun predmeti kimi çıxış etməsini qadağan etmir və buna görə o, girovun predmeti ola bilər[5]. Biz elə hesab edirik ki, ikinci qrup müəlliflərin mövqeyi daha ağlabatan, daha əsaslı və inandırıcıdır. Belə ki, **pul girovun predmeti ola bilər**[6]. Bizim ölkə qanunvericiliyi pul vəsaiti barədə girovun mümkünlüyünü müəyyən edir (MM-in 300-cü və 304-cü maddələri).

Pulun girovun predmeti qismində çıxış edə bilməməsi barədə mövqeyin əsasını belə bir fikir təşkil edir ki, girovla təmin edilən tələb guya pul xarakterində olmalıdır[7]. Bu fikir həqiqətdən çox uzaqdır. Belə ki, girov borclunun girov saxlayan qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üsuludur (MM-in 269-cu maddəsinin 1-ci bəndi). Belə təsəvvür yaranır ki, girovla təmin edilən tələb təkcə pul formasında yox, həm də natura formasında ola bilər. Məsələn, kənd sakini kəndli (fermer) təsərrüfatı başçısından bir ton taxıl borc alır. Aldığı taxılın geri qaytarılmasını təmin etmək üçün kənd sakini iki min

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 217.

[2] bax: *Гонгало Б.М.* Обеспечение исполнения обязательств. М., 1999, с. 82-84.

[3] bax: Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 106-107.

[4] bax: постановления от 2 июля 1996 г. № 7965/95 (Вестник ВАС РФ № 10, с. 68).

[5] bax: Комментарий к новому Гражданскому кодексу РФ. М., 1995, с. 55 (автор главы – *М.И. Брагинский*); Комментарий к Гражданскому кодексу РФ, части первой / Под ред. *О.Н.Садиков.* М., 1999, с. 585 (автор главы - *Е.А.Павлодский*); Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 590 (автор главы - *Т.А.Фадеева*).

[6] Qazaxıstan Respublikasının MM-i pulu girovun müstəqil predmeti kimi qəbul edir (301-ci maddənin 4-cü bəndi).

[7] bax: Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 98 (автор главы – В.С.Ем).

manat məbləğində pulu girov qoyur. Burada girovla təmin edilən tələb natura xarakterli tələbdir. Başqa bir misalda əmanətçi bir il müddətinə (müddətli əmanət növünə) banka pul qoyur və hər ay faiz alır. Doqquzuncu ayda əmanətçiyə evini təmir etdirmək məqsədilə pul lazım olur. O, əmanətini bir il tamam olana kimi geri götürə bilmir. Ona görə ki, əgər o, bunu edərsə, doqquz ay ərzində verilən faizlər geri alınacaqdır. Bu, müddətli əmanət növlərinin əsas xüsusiyyətlərindən biridir. Əmanətçi mümkün olan itkidən yaxa qurtarmaq üçün ona lazım olan pul məbləğini qonşudan borc alır və bankdakı pul vəsaitini girov qoyur. Başqa bir misalda torpaq sahəsini icarəyə verən icarəçidən almalı olduğu icarə haqqını girov qoymaqla özünə nisyə mebel alır[1].

Bundan əlavə, bizim ölkə qanunvericiliyi birbaşa və konkret formada müəyyən edir: pul vəsaiti girovun predmeti ola bilər (MM-in 304-cü maddəsi). Bununla o, göstərilən diskussiyaya yekun vurur.

Xarici valyuta girovun müstəqil predmeti kimi çıxış edə bilər[2]. Azərbaycan Respublikasında həm rezidentlər, həm də qeyri-rezidentlər xarici valyuta ilə hər hansı bir əqd, o cümlədən girov əqdi bağlamaq hüququna malikdirlər («Valyuta tənzimi haqqında» qanunun 4-cü maddəsinin 1-ci bəndi).

Girovun predmeti kimi təkcə mövcud olan tələb hüquqları yox, **həm də gələcək tələb hüquqları** çıxış edə bilər. Girov həm də gələcək tələb üçün verilə bilər (MM-in 269-cu maddəsinin 11-ci bəndi)[3]. Bu qayda Almaniya mülki qanunvericiliyindən götürülmüşdür: girov hüququ gələcək tələblər barəsində də həyata keçirilə bilər (MQ-nin 1205-ci paraqrafı). Həmin qayda Yaponiya qanunvericiliyinə də məlumdur. Yaponiya mülki hüquq elmində göstərilir ki, girov yalnız yaranmış öhdəliklər barəsində yox, həm də gələcək öhdəliklər barəsində müəyyənləşdirilə bilər[4]. Analoji göstəriş RF-in 340-cı maddəsinin 6-cı bəndində də ifadə olunmuşdur. Ona görə də RF-in Ali Arbitraj Məhkəməsinin Rəyasət Heyətinin 13 avqust 1996-cı il tarixli qərarı girov qanunvericiliyinə ziddir[5]. Kənd sakini böyük torpaq sahəsini kəndli (fermer) təsərrüfatı başçısına icarəyə vermək üçün torpaq icarəsi müqaviləsi bağlayır. O, gələcəkdə icarə haqqını tələb etmək hüququ qazanır. Bu hüququ girov qoymaqla özünə nisyə soyuducu alır. Başqa bir misalda vətəndaş özünə yaşayış evi tikdirmək məqsədilə tikinti təşkilatı ilə podrat müqaviləsi bağlayır. O, yaşayış evinin verilməsindən ibarət olan gələcək tələb hüququ əldə edir. O, bu cür tələb hüququnu

[1] Bu sətirlərin müəllifi dərsliyin 2-ci cildində (I nəşr) pul vəsaitinin yox, pul vəsaitinə olan hüququn girov qoyulmasının mümkünlüyü barədə fikir irəli sürür. Bu, yanlış fikirdir (bax: dərsliyin 2-ci cildinin «Bank hesabı müqaviləsi» fəsli, 601-ci səhifə). Həm pul vəsaiti, həm də pul vəsaitinə olan hüquq girovun predmeti qismində çıxış edə bilər.

[2] bax: AR QK, II cild, s. 372.

[3] Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 350.

[4] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 350. Həm Almaniya, həm də Yaponiya mülki hüququna görə, şərti öhdəliklər (tələblər) də girov hüququnun predmeti qismində çıxış edə bilər.

[5] RF-in Ali Arbitraj Məhkəməsinin Rəyasət Heyəti 13 avqust 1996-cı il tarixli 3238/96 №-li 9-30K işi üzrə göstərmişdir ki, girov müqaviləsi bağlanan məqamda girov qoyan girov predmetinin mülkiyyətçisi olmamışdır. O, mülkiyyət hüququnu alqı-satqı müqaviləsi bağlanandan sonra əldə etmişdir. Ona görə də Ali Arbitraj Məhkəməsi girov müqaviləsini etibarsız hesab etmişdir (bax: Вестник ВАС РФ. 1996. № 10, с. 72). Bu, əsası olmayan və həqiqətdən uzaq olan bir qərardır. Ona görə ki, gələcək tələb də girovun predmeti ola bilər.

girov qoymaq ixtiyarına malikdir. Daha başqa bir misalda iki vətəndaş arasında minik avtomobili barədə alqı-satqı müqaviləsi bağlanır. Alıcı minik avtomobilinin verilməsini gələcəkdə tələb etmək hüququ əldə edir. Həmin gələcək tələb hüququ girovun predmeti ola bilər[1].

Girovun predmeti kimi **girov saxlayanın girov qoyana olan borcları** da çıxış edə bilər («Girov haqqında» qanunun 4-cü maddəsinin 1-ci bəndi). Bu borclar müxtəlif mülki-hüquqi əqdlərdən yarana bilər. Məsələn, fermer təsərrüfatı başçısı kənd sakinindən borc pul alır. Kənd sakini həmin borc məbləğini girov qoymaqla fermer təsərrüfatı başçısından torpaq sahəsini icarəyə götürür.

Bununla bərabər, bütün əşyalar, şübhəsiz ki, girovun predmeti ola bilməz. Dövriyyə qabiliyyəti olmayan əşyaların girov qoyulması istisna edilir. Məsələn, meşə fondu, habelə meşə fondu sahələri girov qoyula bilməz[2]. Döyüş təyinatlı hərbi texnika, döyüş sursatları, hərbi səfərbərlik təyinatlı əmlak, müdafiə, milli təhlükəsizlik və daxili işlər nazirliklərinin əmlakı və s. vətəndaşa məxsus ola bilməyən əmlak növləridir[3].

İpoteka predmeti olan əşyaların girovun predmeti kimi çıxış etməsi istisna edilir. Bu cür əşyalar girov qoyula bilməz (MM-in 276-cı maddəsinin 1-ci bəndi). İpoteka kimi, bir qayda olaraq, daşınmaz əşyalar — yaşayış evləri, torpaq, müəssisələr və s. çıxış edir. Daşınar əşyaların bəzi növləri də ipotekanın predmeti ola bilər (bu barədə dərsliyin «İpoteka» adlı növbəti paraqrafına bax).

3. Girov öhdəliyinin məzmunu

Girov öhdəliyinin məzmununu tərəflərin hüquq və vəzifələri təşkil edir. Hər iki tərəf — həm girov saxlayan, həm girov qoyan hüquqlara malik olub, vəzifələr daşıyırlar. Bu, onunla izah olunur ki, girov **ikitərəfli öhdəlikdir**. Bu cür öhdəliklərdə isə hər iki tərəf həm hüquqlara malikdir, həm də vəzifələr daşıyırlar.

MM və «Girov haqqında» qanun girov öhdəliyində tərəflərin hüquq və vəzifələrini geniş təfsilatı ilə tənzimləyir. Bu hüquq və vəzifələrin xarakter və həcmi çox vaxt girovun növündən və predmetindən asılı olur.

Girov saxlayanın ən əsas və başlıca vəzifəsi **girov qoyulmuş əmlakın saxlanmasını və salamatlığını təmin etməkdən** ibarətdir (MM-in 283-cü maddəsi)[4]. O, girovun predmetini lazımi qaydada saxlamalıdır. Yeri gəlmişkən, bu vəzifə girov qoyulmuş əşyanın kimdə olmasından asılı olaraq müəyyənləşdirilir. Belə ki, əgər həmin əşyanı girov qoyan saxlayarsa, onda bu vəzifə ona həvalə edilir.

[1] Əslinə qalsa, gələcəkdə əldə edilə bilən tələbin və ya gələcəkdə əldə edilə bilən əmlakın girovun predmeti ola bilməsi haqqında göstəriş həqiqətdə qanunun müəyyənləşdirdiyi belə bir qaydaya ziddir ki, əşyanı girov qoyan yalnız onun mülkiyyətçisi və ya hüququ girov qoyan həmin hüququn mənsub olduğu şəxs ola bilər (MM-in 271-ci maddəsinin 1-ci və 3-cü bəndləri).

[2] bax: Azərbaycan Respublikası Meşə Məcəlləsinin 8-ci maddəsi (AR QK, V cild, s. 162).

[3] bax: «Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında» Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli qanunu.

[4] Analoji norma Almaniya Mülki Qanunnaməsində də nəzərdə tutulur (§1213): daşınar əşyanın girovu ilə təmin edilən öhdəliyin icrası müddəti çatana kimi girov saxlayan əşyanı saxlamağa borcludur (Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 390).

Girov saxlayanın əmlakın saxlanmasını və salamatlığını təmin etmək vəzifəsi bir neçə tələbi (şərti) əhatə edir:

- əşyanı sığorta etdirmək tələbi;
- əşyanın fiziki və hüquqi cəhətdən salamat olmasına yönələn tədbirlər görmək tələbi;
- dərhal xəbərdar etmək tələbi.

Sığorta etdirmək tələbinin mahiyyəti ondan ibarətdir ki, girov saxlayan girov qoyulmuş əşyanı itirilmə və zədələnmə risqlərindən sığorta etdirməlidir. Bu məqsədlə o, sığorta təşkilatı ilə zərərdən sığorta (qeyri-həyat sığortası) müqaviləsi bağlayır, sığorta haqqı ödəyir. Özü də girov saxlayan əşyanı onun tam dəyərində sığorta etdirməlidir. Elə hallar da olur ki, əşyanın tam dəyəri girovla təmin edilən tələbin həcmindən çox olur. Belə vəziyyətdə girov saxlayanın borcudur ki, o, əşyanı onun tam dəyərində yox, tələbin həcmindən az olmayan məbləğdə sığorta etdirsin.

Əşyanın fiziki cəhətdən salamat olmasına yönələn tədbirlər dedikdə, əşyanın xarab olmaması, korlanmaması, yararlı və saz vəziyyətdə saxlanması, onun qeyri-normal köhnəlməsinin qarşısının alınması və s. məqsədlə edilən hərəkətlər başa düşülür. Məsələn, girovun predmeti minik avtomobili olarsa, vacibdir ki, gücdən düşməmək üçün onun mühərriki arabir işə salınsın və s. Əgər girov qoyulmuş əşyanın cari təmir edilməsi zərurəti yarandıqda, girov saxlayan profilaktik tədbirlər görməlidir.

Əşyanın hüquqi cəhətdən salamat olmasına yönələn tədbirlər dedikdə, girov saxlayanın əşyanı üçüncü şəxslərin qəsdlərindən və tələblərindən müdafiə etməsi başa düşülür. Üçüncü şəxslər girov predmetini qanunsuz olaraq əldə edən (qanunsuz sahib), həmçinin müqavilə şərtlərinə görə girov saxlayana ona verilmiş girov predmetindən istifadə hüququnu pozan və bu hüququn həyata keçirilməsinə mane olan şəxslərdir. Deməli, üçüncü şəxslərin qəsdləri qanunsuz sahiblikdə və ya girov saxlayanın girov predmetindən istifadə hüququnun həyata keçirilməsinə mane olmada ifadə olunur. Əgər girovun predmeti özgəsinin (üçüncü şəxsin) qanunsuz sahibliyində olarsa, onda **girov saxlayan vindikasiya iddiası verə bilər** (MM-in 288-ci maddəsinin 1-ci bəndi). Yox, əgər, pozuntu sahiblikdən məhrum etmə ilə yox, girov qoyulmuş əşyadan istifadə hüququnun həyata keçirilməsinə mane olma ilə əlaqədar olarsa, onda **girov saxlayan üçüncü şəxsə neqator iddiası vermək hüququna malikdir** (MM-in 288-ci maddəsinin 2-ci bəndi). Bu cür əlamət onu göstərir ki, girov öhdəliyində əşya hüququnun elementləri vardır[1].

Dərhal xəbərdar etmək tələbinin mahiyyəti ondan ibarətdir ki, girov qoyulmuş əşyanın itirilməsi və ya zədələnməsi, xarab olması, korlanması ehtimalı və təhlükəsi yarandığı hallarda, girov saxlayan dərhal bu barədə girov

[1] Bu qayda Almaniya mülki qanunvericiliyinə də məlumdur. Belə ki, girov saxlayan əşyaya sahiblik və ondan istifadə etmək hüquqları pozulduqda iki cür iddia verə bilər: Herausgalcanspruch – rei vindicatio – vindikasiya iddiası; Beseitigungs und Unterllassungsansprush – actio negatoria – neqator iddia. Yaponiya mülki hüququna görə isə girov saxlayan əşyaya sahiblikdən məhrum edildikdə, o, sahibliyin qorunması barədə iddia verə, həmin əşyanın geri qaytarılmasını tələb edə bilər (*Сакаэ Вагацума, Тору Арииздуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 213).

qoyana məlumat verməlidir. Məlumat istənilən rabitə vasitəsindən istifadə etməklə (telefon, teleqraf və s.) verilə bilər. Xəbərdar etmək vəzifəsi ləngimədən həyata keçirilməlidir.

Girov saxlayanın **girov predmetinin saxlanmasını təmin etmək vəzifəsini kobudcasına pozması** müəyyən hüquqi nəticələrə səbəb olur. Belə ki, onun öz vəzifəsini kobudcasına pozması nəticəsində girov qoyulmuş əşyanın itirilməsi və ya zədələnməsi təhlükəsi yarana bilər. Bu cür vəziyyət yaranan halda girov qoyanın ixtiyarı var ki, girov **müqaviləsinin vaxtından əvvəl ləğv edilməsini tələb etsin** (MM-in 283-cü maddəsinin 3-cü bəndi). Göstərilən əsasa görə girov müqaviləsinə xitam verilməsi əsas öhdəliyin etibarlı olmasına təsir göstərmir və dəlalət etmir.

Girov saxlayanın **ikinci vəzifəsi** onun **girovun predmetindən istifadə etməməsindən ibarətdir** (MM-in 284-cü maddəsinin 3-cü bəndi). Onun girov qoyulan əmlakdan istifadə etməyə hüququ yoxdur. Bununla belə, girov müqaviləsində nəzərdə tutulduğu hallarda girov saxlayan ona verilmiş girov predmetindən istifadə edə bilər. O, girov qoyanın tələbi ilə əşyadan istifadə etmək haqqında hesabat verməyə borcludur.

Girov saxlayanın **üçüncü vəzifəsi girov predmetindən bəhər və gəlir götürməkdən** ibarətdir (MM-in 284-cü maddəsinin 3-cü bəndi). Özü də dərhal göstəririk ki, bu vəzifə yalnız girov müqaviləsində nəzərdə tutulduğu hallarda yaranır. Girov qoyulmuş əmlakdan bəhər və gəlir götürmək vəzifəsi girov saxlayanı varlandırmaq və zənginləşdirmək, onun maddi-maliyyə imkanını artırmaq məqsədini güdmür. Bu vəzifənin əsas təyinatı və məqsədi girovla təmin olunan əsas öhdəliyin icra edilməsini və ya girov qoyanın mənafelərini təmin etməkdən ibarətdir. Belə ki, girov saxlayan (kreditor) girov predmeti olan əşyadan götürülən **gəlirə və bəhərə tələb yönəltməklə onun hesabına borclunun, yəni girov qoyanın əsas öhdəlik üzrə borcunun ödənilməsini təmin edir**. Azərbaycan Respublikasının MM-in nəzərdə tutduğu bu qayda bəzi ölkələrin, məsələn, Fransanın mülki hüquq sisteminin müəyyənləşdirdiyi antikrez hüquqi konstruksiyasına çox oxşayır[1]. Antikrez Fransa girov qanunvericiliyinə görə, girovun bir növü hesab edilir. O, daşınmaz əşyaların girovudur. Antikrezə görə, girovun predmeti girov saxlayanın (kreditorun) sahibliyinə verilir və kreditor əmlakdan gəlir (və ya bəhər) əldə edir. Hər il o, özünün borcluya (girov qoyana) olan faiz tələbini müəyyən faizlə həmin gəlir və ya bəhərin hesabına ödənilməsini təmin edir. Sonra isə tələbin əsas məbləği ödənilir. Buna oxşar qayda Almaniya mülki qanunvericiliyində də ifadə olunmuşdur. Əgər razılaşma olarsa, girov saxlayan əşyadan istifadə edə bilər (Almaniya MQ-nin 1215-ci paraqrafı). O, əşyadan istifadə nəticəsində əldə etdiyi gəliri borcun (Todsatzung), hər şeydən əvvəl, faizlərin ödənilməsinə (Ewigsatzung) yönəltməlidir[2].

[1] bax: *Жюллио де ла Морандьер Л.* Гражданское право Франции. Том 3. М., 1961, с. 382; Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М. 1999, с. 355.

[2] Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 390.

Antikrez hüquqi konstruksiyasının tarixi mənşəyi Roma hüququ ilə bağlıdır[1]. Belə ki, Bizans dövrünə yaxın olan vaxtlarda torpağı girov qoyub faizi ilə (sələmi ilə) borc pul almaq xeyli çətinləşmişdi. Bu, həmin dövrdə iqtisadi vəziyyətin pisləşməsi ilə izah edilirdi. Çox vaxt borclular aldığı borc məbləğini geri qaytarmaq iqtidarında olmurdular. Onlar əksəriyyət hallarda faizi ödəməkdə çətinlik çəkirdilər. Buna görə də borclular kreditora (girov saxlayana) icazə verirdilər ki, o, torpaqdan istifadə etsin və istifadə nəticəsində əldə edilən bəhəri faizin ödənilməsinə yönəltsin. Bu münasibət «antixrezis» (yunanca — «nəyinsə əvəzində istifadə») adını aldı. Bu konstruksiya faizlərin əvəzinə, bəhərlərdən istifadə etməyi nəzərdə tuturdu.

Girov saxlayanın **dördüncü vəzifəsi ondan ibarətdir**, o, **girov qoyulmuş əşya üzərində sərəncam verə bilməz**. Onun ixtiyarı çatmır ki, girov qoyulmuş əmlakı müxtəlif əqdlər (alqı-satqı, dəyişmə və s. müqavilələr) əsasında özgəninkiləşdirsin, onun barəsində vəsiyyət sərəncamı etsin və s[2].

Girov saxlayanın **beşinci vəzifəsi** girov qoyulmuş **əmlakın məhv olması, itirilməsi və ya zədələnməsi üçün məsuliyyət daşımaqdan ibarətdir** (MM-in 285-ci maddəsinin 2-ci bəndi). Özü də dərhal göstəririk ki, girov saxlayanın yalnız təqsiri olduqda o, mülki-hüquqi məsuliyyətə cəlb edilir. Təsadüfi risqə görə o, məsuliyyət daşımır. Beləliklə, girov saxlayan ona verilmiş girov predmetinin tamamilə və ya qismən məhv olması, itirilməsi və ya zədələnməsi üçün **təqsirə görə cavabdehlik prinsipi əsasında** məsuliyyətə cəlb edilir. Mülki qanunvericilik belə hallarda təqsir prezumpsiyası müəyyənləşdirir. Belə ki, girov saxlayan girov predmetinin məhv edilməsində, itirilməsində və ya zədələnməsində özünün təqsiri olmadığını sübuta yetirməzsə, məsuliyyət daşıyır. Əgər o, bu halı sübut edərsə, məsuliyyətdən azad edilir. Əgər girov saxlayan sahibkarlıq fəaliyyətini həyata keçirən subyekt olarsa (məsələn, kommersiya bankı və s.) o da təqsirdən asılı olaraq (qarşısıalınmaz qüvvə istisna olmaqla) məsuliyyət daşıyır.

Girov saxlayanın göstərilən halda məsuliyyəti **real zərərlə məhdudlaşır**. Belə ki, əgər girov qoyulmuş əmlak itirilərsə, onda girov saxlayan əmlakın real (həqiqi) dəyərini ödəyir, yəni o, əmlakın həqiqi dəyəri məbləğində məsuliyyət daşıyır. Girov qoyulmuş əmlak girov saxlayanın təqsiri üzündən zədələndikdə isə girov saxlayan zədələnmə nəticəsində əmlakın dəyərinin azaldığı məbləği ödəyir, yəni əmlakın dəyərinin azaldığı məbləğdə məsuliyyət daşıyır (MM-in 285-ci maddəsinin 3-cü bəndi).

Bəzi hallarda girov saxlayan girov qoyulmuş əmlakın zədələnməsinə görə də əmlakın həqiqi dəyəri məbləğində məsuliyyət daşıyır. Belə ki, zədələnmə nəticəsində əmlakın vəziyyəti dəyişir və ondan birbaşa təyinatı üzrə istifadə etmək mümkün olmur. Bu, əmlakın itirilməsinə bərabər tutulur. Buna görə də girov qoyan əmlakdan imtina edir. Girov saxlayan əmlakın həqiqi dəyərini ödəməlidir (MM-in 285-ci maddəsinin 4-cü bəndi).

[1] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 513; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 344.

[2] Yaponiya mülki hüquq elmində göstərilir ki, yalnız əsas öhdəlik icra olunmadıqda girov saxlayan əşya barəsində sərəncam verə bilər (*Сакаэ Вагацума, Тору Ариидзуми*. Гражданское право Японии. Книга 1. М., 1983, с. 213).

Girov saxlayanın **altıncı vəzifəsi** girov qoyana vurulan **zərərin əvəzini ödəməkdən ibarətdir** (MM-in 285-ci maddəsinin 4-cü bəndi). Bu zərər girov predmetinin itirilməsi və ya zədələnməsi nəticəsində vurulur. Zərər dedikdə, əldən çıxmış fayda və digər xərclər başa düşülür. Girov saxlayan zərərin əvəzini ödəmək vəzifəsini yalnız girov müqaviləsində nəzərdə tutulduğu halda icra edir. Əgər girov müqaviləsində müəyyənləşdirilməzsə, girov saxlayan bu cür vəzifə daşımır.

Zərərin əvəzinin ödənilməsi barədə girov qoyanın girov saxlayana olan tələbi əsas öhdəlik üzrə girov saxlayanın girov qoyana olan tələbi ilə əvəzləşdirilə bilər. Məsələn, elə hesab edək ki, əsas öhdəlik üzrə borclunun (girov qoyanın) ödəməli olduğu məbləğ 10 min manatdır. Girov saxlayan əşyanı itirir. Belə halda o, əşyanın həqiqi dəyəri məbləğini (7 min manat real zərəri) və girov qoyana vurulmuş zərərin əvəzini (3 min manatlıq əldən çıxmış fayda) ödəməyə borcludur (cəmi 10 min manat). Bu tələblər əvəzləşdirilir, yəni hesablar çürüdülür və bunun nəticəsində tərəflər bir-birinə heç nə ödəmirlər .

Vəzifə daşımaqla bərabər[1], girov saxlayan həm də müəyyən hüquqlara malikdir. **Girov saxlayanın əsas və başlıca hüququ** onun **girov hüququna malik olmasıdır**. Onun malik olduğu girov hüququ **məhdud əşya hüququdur**. Bu, onu ifadə edir ki, o, girov qoyulmuş əmlaka yalnız sahiblik hüququna və ya girov müqaviləsində nəzərdə tutulduğu halda ondan istifadə etmək hüququna malikdir. O, əşya üzərində sərəncam vermək hüququndan məhrumdur. Belə təsəvvür yaranır ki, girov saxlayan üçlü səlahiyyətdən ya birinə (sahiblik səlahiyyətinə), ya da ikisinə (həm sahiblik, həm də istifadə səlahiyyətlərinə) malik olur. Bununla belə, girov saxlayanın girov hüququ **onun öhdəlik, yəni tələb etmək hüququna malik olmasını** ifadə edir. O, lazım olduqda, girov qoyulmuş əmlaka tələb irəli sürə bilər.

Girov saxlayanın malik olduğu hüquqlardan biri **girov qoyanda olan girov qoyulmuş əşyanı yoxlamaqdan ibarətdir** (MM-in 283-cü maddəsinin 2-ci bəndi, «Girov haqqında» qanunun 16-cı maddəsinin 3-cü bəndinin 1-ci yarımbəndi). Yoxlama sənədlər üzrə məlumatlarla faktiki halları müqayisə etməklə aparılır və həyata keçirilir. Yoxlamanın məqsədi girov qoyulmuş əşyanın mövcudluğunu, miqdarını, vəziyyətini və saxlanma şəraitini müəyyənləşdirməkdən ibarətdir. Bununla mümkün olan mənfi halların baş verməsinin qarşısı alınır. Bu hüquqdan girov qoyan da istifadə edə bilər. Belə ki, girov predmeti girov saxlayanda olarsa, o, yoxlama aparmaq hüququnu həyata keçirir.

Girov saxlayanın girov qoyandan **girov predmetini lazımi vəziyyətdə saxlanması üçün zəruri tədbirlər görməyi tələb etmək hüququ** vardır («Girov haqqında» qanunun 16-cı maddəsinin 3-cü bəndinin 2-ci yarımbəndi). Girov qoyan (borclu) əsas öhdəliyi icra etmədiyi hallarda, girov saxlayanın (kreditorun) tələbi, söz yox ki, girov qoyulmuş əmlaka yönəlir. Belə ki, bu əmlak məcburi surətdə satıla bilər. Ona görə də girov saxlayan (kreditor) maraqlıdır ki, girovun predmeti normal vəziyyətdə, lazımi qaydada saxlansın, istehlak xüsusiyyətlərini və keyfiyyətlərini itirməsin, hər hansı bir fiziki qüsura malik olmasın və s. Axı, normal vəziyyətdə, lazımi qaydada saxlanmayan əmlakın realizə edilməsi və satılması müşkül bir məsələyə çevrilərdi.

Girov saxlayanın hər hansı bir şəxsdən **girov predmetinə edilən qəsdin dayandırılmasını tələb etmək hüququ vardır** («Girov haqqında» qanunun 16-cı maddəsinin 3-cü bəndinin 3-cü yarımbəndi). Bu cür qəsd, bir qayda olaraq, girov qoyulmuş əşyanın itirilməsi və ya zədələnməsi təhlükəsi yaradır. Əşyanın itirilməsi və ya zədələnməsi təhlükəsi əmələ gələn kimi girov saxlayan qəsdlə müşayiət olunan hərəkətlərin dayandırılmasını tələb edir.

Girov saxlayanın malik olduğu hüquqlardan biri **girovla təmin olunmuş əsas öhdəliyin icrasını vaxtından əvvəl tələb etməkdən ibarətdir** («Girov haqqında» qanunun 3-cü maddəsinin 3-cü bəndinin 4-cü yarımbəndi). O, bu hüquqdan o halda istifadə edir ki, girovun predmeti itirilsin və girov qoyan onu bərpa etməsin. Elə vəziyyət yaranır ki, girov qoyulmuş əmlakı bərpa etmək mümkün olmur. Belə halda girov saxlayanın razılığı ilə itirilmiş əmlak ona bərabər miqdarda eyni cinsli (növlü) əmlakla əvəz edilir. Əgər girov qoyan bunu etməsə, girov saxlayan əsas (təmin olunan) öhdəliyin vaxtından əvvəl icrasını tələb edə bilər.

Girov saxlayanın **girov qoyulmuş əmlaka ödəniş (tələb) yönəltmək hüququ vardır** («Girov haqqında» qanunun 16-cı maddəsinin 3-cü bəndinin 5-ci yarımbəndi). Bu, onu ifadə edir ki, girov saxlayan girov predmetini məcburi satdırmaq hüququna malikdir. O, bu hüquqdan o halda istifadə edir ki, girov qoyan (borclu) əsas öhdəliyi icra etməsin.

Girov qoyan da müəyyən vəzifələr daşıyır. **Girov qoyanın əsas vəzifəsi** girov qoyulmuş **əşyanın təsadüfən məhv olması, itirilməsi və ya təsadüfən zədələnməsi risqinə görə məsuliyyət daşımaqdan** ibarətdir (MM-in 285-ci maddəsinin 1-ci bəndi). Bu qayda mülkiyyət hüququnun belə bir ümumi prinsipinə əsaslanır ki, əmlakın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi risqi, əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, mülkiyyətçisinin üzərinə düşür (MM-in 152-ci maddəsinin 10-cu bəndi). Girov predmetinin mülkiyyətçisi isə girov qoyandır. Deməli, təsadüfi risqə görə də o, məsuliyyət daşıyır. Lakin təsadüfi risqi nəzərdə tutan norma imperativ yox, dispozitiv xarakter daşıyır. Bu, o deməkdir ki, təsadüfi risqə görə məsuliyyət daşımaq vəzifəsi, əgər girov müqaviləsində nəzərdə tutularsa, girov saxlayana da həvalə edilə bilər. Girov qoyan həm də əgər girov qoyulmuş əmlak girov saxlayanın təqsiri olmadan itərsə və ya zədələnərsə, zərərə görə risq daşıyır[1].

Girov qoyanın **ikinci əsas vəzifəsi** girov qoyulmuş **əmlaka dair sərəncam verməməkdən** ibarətdir (MM-in 284-cü maddəsinin 2-ci bəndi). Bu, o deməkdir ki, o, əmlakı müxtəlif əqdlər (alqı-satqı, renta, bağışlama, dəyişmə müqavilələri) əsasında özgəninkiləşdirə, başqa şəxsin icarəsinə və ya əvəzsiz istifadəsinə verə, əmlaka dair digər sərəncamlar verə bilməz. Onun girov qo-

[1] Yaponiya mülki hüququna görə, girov saxlayan girov öhdəliyi ləğv edildikdə, əşyanı qaytarmaq vəzifəsi daşıyır (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 213). Bizim ölkə qanunvericiliyi konkret formada birbaşa bu cür vəzifə nəzərdə tutmur. Amma məntiqi təfsir üsulunu tətbiq etməklə girov saxlayanın göstərilən vəzifəni daşımasını müəyyənləşdirə bilərik.

[1] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 523.

yulmuş hüququ başqasına güzəşt etməyə ixtiyarı çatmır («Girov haqqında» qanunun 16-cı maddəsinin 4-cü bəndinin 3-cü yarımbəndi).

Bununla bərabər, girov qoyan girov saxlayanın razılığı ilə girov qoyulmuş əmlaka dair sərəncam verə bilər: girovun predmetini özgəninkiləşdirə bilər; onu kirayəyə və ya başqa şəxsin icarəsinə və yaxud da əvəzsiz istifadəsinə verə bilər.

Girov qoyanın **üçüncü vəzifəsi girovun predmetini bərpa və əvəz etməkdən ibarətdir** (MM-in 287-ci maddəsi). Onun bu vəzifəsinin yaranması müxtəlif amillərlə bağlı ola bilər: girov qoyulmuş əmlakın məhv olması; əmlakın zədələnməsi; əmlaka mülkiyyət hüququna xitam verilməsi (yəni başqa şəxsə satılması, bağışlanması, dəyişdirilməsi). Əgər girovun predmeti zədələnərsə, girov qoyan həmin zədələnmə halını aradan qaldıraraq əmlakı bərpa etməlidir. Qalan hallarda (əmlak məhv olduqda, onun üzərində mülkiyyət hüququna xitam verildikdə) isə əmlak eyni dəyərli başqa əmlakla əvəz edilir. Əmlak ağlabatan müddətdə əvəz olunmalı və ya bərpa edilməlidir. Bu halda edilən dəyişiklik girov müqaviləsində əks olunur.

Girov qoyanın daşıdığı **dördüncü vəzifə** ondan ibarətdir ki, o, **girovun predmetinin qorunmasını təmin etməli və onu lazımi vəziyyətdə saxlamaq üçün zəruri tədbirlər görməlidir**. Girov qoyan girov qoyulmuş əmlakı lazımi qaydada saxlamalıdır. Onun vəzifəsidir ki, əmlakın tələf edilməməsi, itməməsi və ya xarab olmaması üçün müvafiq tədbirlər görsün. Girov qoyan girov qoyulan əmlakın salamat qorunub saxlanılmasını təmin etmək üçün profilaktik tədbirlər görməyə borcludur. Əgər girovun predmetini təmir etmək zərurəti yaranarsa, o, həmin əmlakı təmir etdirməlidir.

Girov qoyanın **beşinci vəzifəsi bildiriş verməkdən** ibarətdir. Göstərilən vəzifənin mahiyyəti ondan ibarətdir ki, girov qoyulmuş əmlak üzrə girov hüququ üçüncü şəxslər tərəfindən pozulduğu hallarda, həmçinin üçüncü şəxslər həmin hüquqa dair iddialar verdiyi məqamlarda girov qoyan bu barədə girov saxlayana məlumat verir.

Xəbərdarlıq etmək girov qoyanın **altıncı vəzifəsidir**. Bu vəzifə o halda yerinə yetirilir ki, girov saxlayanın icazə və razılığı ilə girov predmeti özgəninkiləşdirildiyi hallarda, girov qoyan bu barədə girov saxlayana xəbər verir. Özü də xəbər dərhal verilir.

Saxlanc və ya əl girovu adlı girov növündə girov qoyan **əşyanı girov saxlayanın sahibliyinə vermək kimi vəzifə daşıyır**. Yaponiya mülki hüququna görə, əşyanın girov qoyanın sahibliyində qalması qadağan olunur (Yaponiya MM-in 345-ci maddəsi). Məhz əşyanın real surətdə girov saxlayana verilməsi girovun əmələ gəlməsinin əsasıdır (Yaponiya MM-in 344-cü maddəsi)[1]. Girov qoyanın əşyanı hökmən girov saxlayanın sahibliyinə verməsi Almaniya girov hüququnun ümumi prinsipi hesab edilir. Bu prinsip Almaniya MQ-nin 1205-ci paraqrafında formulə edilmişdir[2]. Fransada həm maddi əşya, həm də qeyri-maddi əşya girov saxlayanın sahibliyinə verilməlidir[3]. ABŞ mülki hüququna

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 210.
[2] Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 250.
[3] *Л. Жюллио де ла Морандьер.* Гражданское право Франции. Том 3. М., 1961, с. 384-386.

görə, maddi əşyalar faktiki olaraq girov saxlayana verilməlidir[1].

Girov qoyan vəzifələr daşımaqla bərabər, həm də **hüquqlara malikdir**. Onun malik olduğu əsas hüquqlardan biri **girov predmetini dəyişdirməkdən** ibarətdir (MM-in 286-cı maddəsi). Bu, o deməkdir ki, zərurət yarandıqda, girov qoyan girovun predmetini götürüb, onun yerinə girova başqa bir əmlak qoya bilər, yəni girov predmetini başqası ilə dəyişdirə bilər. Məsələn, girovun predmeti minik avtomobilidir. Girov qoyanın yay istirahətini keçirmək üçün öz ailəsini başqa şəhərdə yerləşən istirahət evinə aparmaq zərurəti meydana gəlir. O, buna görə də minik avtomobilini girovdan götürür və onun yerinə təzə xalça, televizor və soyuducu qoyur. Girov predmetinin dəyişdirilməsini şərtləndirən səbəb və amillər müxtəlif ola bilər.

Girov qoyanın malik olduğu hüquqlardan biri onun **girov predmeti üzərində sərəncam vermək hüququna malik olmasıdır** (MM-in 284-cü maddəsinin 2-ci bəndi). Sərəncam vermək dedikdə, girov qoyulan əmlakın özgəninkiləşdirilməsi, başqa şəxsin icarəsinə və ya əvəzsiz istifadəsinə verilməsi və s. başa düşülür. Bu hüquq yalnız o halda həyata keçirilə bilər ki, girov saxlayan buna razılıq vermiş olsun. Girov qoyulan əmlak özgəninkiləşdirildikdə, girov qoyanın borcudur ki, onun əvəzinə eyni dəyərli başqa əmlak qoysun.

Girov qoyan **girov predmetini vəsiyyət etmək** hüququna malikdir (MM-in 284-cü maddəsinin 2-ci bəndi). Bu, o deməkdir ki, girov qoyan girov qoyulan əmlakı ölüm halı üçün qanun üzrə vərəsələr dairəsinə həm daxil olan, həm də daxil olmayan vətəndaşlara, habelə dövlətə, hüquqi şəxslərə vəsiyyət edə bilər. Özü də girov saxlayanın ixtiyarı çatmır ki, o, girov qoyanı bu cür hüquqdan məhrum etsin. Girov qoyanın girov qoyulmuş əmlakı vəsiyyət etmək hüququnu məhdudlaşdıran razılaşmanın və sazişin hər hansı bir hüquqi əhəmiyyəti yoxdur.

Girov qoyanın **girov qoyulmuş əmlakı sonradan girov qoymaq hüququ** vardır (MM-in 282-ci maddəsi). Bu hüquqdan yalnız o halda istifadə oluna bilər ki, bu, girov müqaviləsində qadağan edilməsin. Girov qoyan başqa tələbi təmin etmək üçün girov predmetini sonradan girov qoyur.

Girov qoyanın malik olduğu hüquqlardan biri **girov predmetindən istifadə hüququdur** (MM-in 284-cü maddəsinin 1-ci bəndi). O, girov qoyulmuş əmlakdan yalnız o halda istifadə edə bilər ki, bu cür hüququn həyata keçirilməsinin mümkünlüyü girov müqaviləsində qadağan edilməsin. Girov qoyan girov predmetindən ancaq onun təyinatına uyğun istifadə edə bilər. Girov qoyanın ixtiyarı var ki, o, girov qoyulan əmlakdan istifadə etməkdən əlavə, həm də ondan **bəhər və gəlir götürsün**. Məsələn, girovun predmeti mal-qaradır. Mal-qaranın balası (bəhəri) girov qoyana məxsusdur. Başqa bir misalda minik avtomobili girova qoyulur. Onun sahibi avtomobildən gəlir götürmək məqsədilə sərnişin daşıyır və gəlir götürür.

4. Girov müqaviləsi

Girov öhdəliyinin yaranma əsaslarından biri **girov müqaviləsidir**[2]. Girov

[1] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 521.
[2] Həm Almaniya, həm də Yaponiya mülki hüququna görə, girov müqaviləsi girovun əmələ gəlmə əsaslarından biridir. Burada həmin müqavilə üçün xüsusi forma müəyyən edilmir.

müqaviləsi girov hüquq münasibətlərinin əmələ gəlməsinin ən vacib əsasıdır. Qanun məhz bu səbəbdən girov müqaviləsinin tənzimlənməsinə xüsusi diqqət yetirir. Belə ki, MM-in 280-ci maddəsi, «Girov haqqında» qanunun 10-cu maddəsi bu hüquqi konstruksiyanın nizama salınmasına həsr edilmişdir.

Girov müqaviləsi əmlakın girov qoyulması barədə girov qoyanla girov saxlayan arasında bağlanan elə bir sazişdir ki, bu sazişə görə, girov qoyan (əsas öhdəlik üzrə borclu şəxs) əsas öhdəliyi icra etmədikdə, girov saxlayan (əsas öhdəlik üzrə kreditor) qanunla müəyyən edilmiş qaydada girov qoyulmuş həmin əmlakın dəyərindən təminat almaqda başqa kreditorlar qarşısında üstünlük hüququna malikdir. Anlayışdan görürük ki, bu müqavilə əsas öhdəliyin (borc, bank krediti, alqı-satqı, əmlak kirayəsi, yük daşıması, podrat və s. müqavilələrdən irəli gələn tələblərin) icrasını təmin etmək məqsədilə bağlanır. Ona görə də girov müqaviləsi müstəqil xarakter daşımır. Lakin buna baxmayaraq, girov müqaviləsi təmin etdiyi əsas öhdəliyin əmələ gəlməsi üçün əsas olan müqaviləyə münasibətdə ayrıca olaraq bağlanır. Bu baxımdan o, müstəqil xarakter daşıyır. Bununla belə, girov haqqında şərt əsas müqaviləyə daxil edilə bilər.

Girov müqaviləsi öz hüquqi təbiətinə görə həm konsensual, həm də real müqavilə ola bilər. **Konsensual girov müqaviləsi** odur ki, bu müqavilə əmlakın girov qoyanda qalmasını nəzərdə tutur və bağlandığı andan qüvvəyə minir. Bu cür müqaviləyə görə, tərəflərin hüquq və vəzifələri, girov hüququ girov müqaviləsinin bağlandığı (müqavilənin imzalandığı) andan əmələ gəlir.

Real girov müqaviləsi odur ki, bu müqavilə girov predmetinin girov saxlayanda olmasını nəzərdə tutur və həmin predmet ona verildiyi andan girov hüququ yaranır. Belə ki, tərəflərin hüquq və vəzifələri girov predmetinin girov saxlayana verildiyi andan əmələ gəlir. Məsələn, əl girovu real müqavilədir.

Girov müqaviləsinin predmetini girov qoyulmuş əmlak təşkil edir. Girovun predmeti və girov müqaviləsinin predmeti kimi iki anlayış məna və məzmunca eyni olub, üst-üstə düşür. Ona görə də girovun predmeti haqqında söylədiyimiz fikirlər bu müqavilənin predmetinə də aiddir. **Predmet girov müqaviləsinin mühüm şərtidir**. Bu müqavilədə girov qoyulan əmlakın adı (tərkibi), kəmiyyət və keyfiyyət xarakteristikası və yaxud həmin əmlakı ona oxşar olan digər əşyalardan ayırmağa və fərqləndirməyə imkan verən digər əlamətlər göstərilməlidir. Girov müqaviləsinin predmeti əmlak hüquqları olduqda, onda müəyyənləşdirilməlidir ki, məhz hansı hüquqlar girov qoyulur, bu hüquqlar hansı öhdəlikdən irəli gəlir və onun məzmunu nədən ibarətdir və s.

Xüsusən girov predmetinin girov qoyanda saxlanılmasını nəzərdə tutan müqavilədə girov qoyulan əmlak barədə zəruri məlumatların verilməsi mühüm əhəmiyyət kəsb edir. Müqavilədə həmin əmlak barədə elə məlumatlar göstərilməlidir ki, bu məlumatlar onu girov qoyana məxsus olan digər əmlak növlərindən ayırmağa imkan verə bilsin. Əgər bu məlumatlar həmin əmlakı eyniləşdirməyə və fərqləndirməyə imkan verməsə, onda girov müqaviləsi bağlanmamış sayılır[1].

[1] bax: p. 5. Обзора практики рассмотрения споров, связанных с применением арбитражными судами норм Гражданского кодекса о залоге, подготовленного ВАС РФ в 1997 г. (Вестник ВАС РФ. 1997).

Predmetdən savayı, **girovun predmetinin qiyməti, girovla təmin edilən əsas öhdəliyin mahiyyəti, ölçüsü və icra müddəti də girov müqaviləsinin mühüm şərtləri hesab edilir**[1]. Əgər tərəflər heç olmazsa, bu şərtlərdən biri barədə razılığa gəlməsələr, onda müqavilə bağlanmamış hesab edilir.

Girov qoyulan əmlakın qiyməti girov müqaviləsinin mühüm şərtlərindən biridir. O, tərəflərin razılığı ilə müəyyən edilir. Əgər bu barədə tərəflər razılığa gəlməsələr, onda girov qoyulan əmlakın qiyməti qiymətləndirici tərəfindən müəyyənləşdirilir. Girov predmeti «Qiymətləndirmə fəaliyyəti haqqında» qanuna uyğun olaraq qiymətləndirilir[2]. Dövlət və bələdiyyə əmlakı girov məqsədləri üçün istifadə olunduqda, həmin əmlak məcburi olaraq qiymətləndirilir.

Girov müqaviləsinin mühüm şərtlərindən biri **girovla təmin edilən öhdəliyin mahiyyətidir**. Məsələn, girovla alqı-satqı müqaviləsindən əmələ gələn əsas öhdəlik təmin edilərsə, onda müqavilədə satıcı və alıcı haqqında, alqı-satqı müqaviləsinin predmeti barədə (hansı əşyanın satılması barədə) məlumatlar verilməlidir.

Girovla təmin edilən öhdəliyin (tələbin) həcmi (ölçüsü) girov müqaviləsinin mühüm şərtlərindən biridir. Yuxarıdakı misalda alqı-satqı müqaviləsinin qiyməti, yəni satılan əşyanın qiyməti girovla təmin edilən tələbin həcmini ifadə edir. Başqa bir misalda əgər girovla kredit müqaviləsindən əmələ gələn əsas öhdəlik təmin edilərsə, onda girov müqaviləsində kreditin məbləği və kreditdən istifadəyə görə ödənilən faizin miqdarı göstərilməlidir. Bu, girovla təmin edilən öhdəliyin (tələbin) həcmini ifadə edir.

Girovla təmin edilən əsas öhdəliyin icra müddəti də girov müqaviləsinin mühüm şərti hesab edilir. Yuxarıdakı misallarda əşyanın alıcıya verilməsi müddəti, əşyanın pulunun ödənilməsi müddəti, kreditin və faizlərin ödənilməsi müddəti əsas öhdəliyin icra müddətini ifadə edir.

Qanun **girov müqaviləsinin yazılı formada bağlanma qaydasını** müəyyən edir (MM-in 280-ci maddəsinin 1-ci bəndi, «Girov haqqında» qanunun 10-cu maddəsinin 2-ci bəndi). Bir qayda olaraq, girov müqaviləsi onun məzmununu ifadə edən və müqaviləni bağlayan **şəxslər tərəfindən imzalanmış sənədin tərtibi yolu ilə** bağlanır. Girov müqaviləsi **sənədlərin mübadiləsi yolu** ilə də bağlana bilər. Belə halda poçt, teleqraf, teletayp, telefon, elektron rabitəsi və ya sənədin müqavilə üzrə bilavasitə tərəfdən gəldiyini dürüst müəyyənləşdirməyə imkan verən digər rabitə vasitəsindən istifadə edilir. Sənədlərin mübadiləsi yolu ilə girov müqaviləsinin bağlanması halına təcrübədə nadir hallarda rast gəlinir.

Ümumi qaydaya görə, girov müqaviləsi sadə yazılı formada bağlanır. MM-də nəzərdə tutulan hallarda girov müqaviləsi notariat qaydasında təsdiqlənməli, girov hüququ isə dövlət qeydiyyatına alınmalıdır (MM-in 280-ci maddəsinin 3-cü bəndi). Məsələn, qiymətli kağızlar girov qoyulduğu və girov saxlayanla girov qoyan arasında girov müqaviləsi bağlandığı hallarda, bu müqavilə

[1] bax: p. 42 и 43 постановления Пленума Верховного Суда РФ и ВАС РФ от 1 июля 1996 г. № 6/8. «О некоторых вопросах, связанных с применением части первой Гражданского кодекса Российской Федерации» // Вестник ВАС РФ. 1996. № 9; ВВС РФ. 1996. № 9.

[2] Bu qanun 28 sentyabr 1998-ci ildə qüvvəyə minmişdir. Qanunun tam mətni verilmişdir: AR QK, V cild, s. 677-681.

Azərbaycan Respublikasının prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınır. Məhz bu andan qiymətli kağızlarla bağlı girov hüququ (girov hüquq münasibəti) yaranır. Dövlət qeydiyyatına alınma müvafiq qaydalar əsasında həyata keçirilir[1].

Girov müqaviləsinin forması haqqında qanunun müəyyənləşdirdiyi **formaya riayət edilməməsi onun etibarsızlığına dəlalət edir**. Bu cür müqavilə puç əqd, mütləq etibarsız əqd hesab edilir və hüquqi əhəmiyyətə malik olmur, heç bir hüquqi nəticə doğurmur.

Girov müqaviləsi **müxtəlif əsaslara görə ləğv edilir**. Bu əsaslar qanunda göstərilmişdir (MM-in 294-cü maddəsi, «Girov haqqında» qanunun 35-ci maddəsi).

Girov müqaviləsinə xitam verilməsinin birinci əsası **girovla təmin edilmiş əsas öhdəliyin ləğv edilməsidir**. Bu, onunla izah olunur ki, əvvəllər qeyd etdiyimiz kimi, girov müqaviləsindən əmələ gələn girov öhdəliyi aksessor (əlavə), əsas öhdəlikdən asılı və ondan törəyən öhdəlikdir. Onun hüquqi taleyi əsas öhdəlikdən asılıdır. Belə ki, əsas öhdəlik ləğv edilərsə, onda bu öhdəliyi təmin edən girov öhdəliyi də xitam olunacaqdır. Əsas öhdəlik isə müxtəlif əsaslara görə ləğv edilə bilər. Məsələn, əsas öhdəlik icra nəticəsində xitam edilir. Kredit müqaviləsindən əmələ gələn əsas öhdəlik icra olunur, yəni kredit alan şəxs krediti vaxtında qaytarır və bununla həmin öhdəliyə xitam verilir.

Girov müqaviləsinin ləğv edilməsinə dəlalət edən əsaslardan biri **girov saxlayanın öz vəzifələrini kobudcasına pozaraq girov qoyulmuş əşyanı sığortalamamasından, salamatlığını təmin etməməsindən, onun itirilməsi və ya zədələnməsi təhlükəsi yarandıqda, digər tərəfi dərhal xəbərdar etməməsindən** ibarətdir. Belə halda girov qoyanın tələbi ilə girov müqaviləsi ləğv edilir.

Girov müqaviləsinin ləğv edilməsinin əsaslarından biri **girov qoyulmuş əşyanın məhv olması və ya girov qoyulmuş hüquqa xitam verilməsidir**. Girov predmeti məhv olduqda, girov qoyan onu ağlabatan müddətdə eyni dəyərli başqa əmlakla əvəz etməlidir. Əgər o, bunu etməzsə, girov müqaviləsinə xitam verilir.

Girov müqaviləsinin ləğv edilməsinə dəlalət edən əsaslardan **biri girov qoyulmuş əmlakın açıq hərracdan satılmasıdır**[2]. Belə ki, girov predmeti açıq hərracdan satış yolu ilə realizə edilir (satılır) və bununla girov müqaviləsinə xitam verilir.

5. Girov qoyulmuş əmlaka tələbin yönəldilməsi

Girov qoyulmuş əmlaka girov saxlayanın tələbi yalnız o halda yönələ bilər ki, bunun üçün tələb olunan müvafiq əsas olsun. **Girov qoyulmuş əşyaya tələbin yönəldilməsinin əsası** dedikdə, qanunda nəzərdə tutulan hüquqi fakt başa düşülür (MM-in 295-ci maddəsi). Bu hüquqi fakt isə **əsas öhdəlik üzrə borclu şəxsin (girov qoyanın) girovla təmin olunan öhdəliyi icra etməməsi və ya lazımınca icra etməməsindən ibarətdir**. Özü də dərhal qeyd edirik ki, borclunun əsas (girovla təmin olunan) öhdəliyi icra etməməsi və ya lazımınca icra etməməsi onun cavabdeh olduğu səbəblərlə əlaqədar olmalıdır. Əgər həmin hallar borclunun cavabdeh olduğu səbəblərlə bağlı olmazsa, onda girov qoyulmuş əmlaka kreditorun (girov saxlayanın) tələb irəli sürməsi istisna edilir. Məsələn, firma bank müəssisəsindən kredit alır və minik avtomobilini girov qoyur. Vaxt tamam olduqda, o, aldığı krediti qaytarmır, yəni kredit öhdəliyini icra etmir. Bu hal əsas verir ki, bank (girov saxlayan, kreditor) tələbini girovun predmetinə — minik avtomobilinə yönəltsin. Burada firmanın kredit öhdəliyini icra etməməsi onun cavabdeh olduğu səbəblərlə bağlıdır. Başqa variantda firma bankdan aldığı kredit hesabına əldə etdiyi malları satmaq üçün nəqliyyat vasitəsilə başqa yerə apararkən qarşısıalınmaz qüvvə — zəlzələ baş verir, bunun nəticəsində nəqliyyat vasitəsi aşır, daşınan mallar məhv olur və beləliklə, o, krediti geri qaytara bilmir. Bu halda firmanın (borclu şəxsin) kredit öhdəliyini icra etməməsi onun cavabdeh olduğu səbəblərlə bağlı deyildir. Ona görə də bank (kreditor, girov saxlayan) minik avtomobilinə tələb yönəldə bilməz.

Qanun nəinki girov qoyulmuş əşyaya tələbin yönəldilməsinə dəlalət edən əsasları, həm də həmin əşyaya tələbin yönəldilməsi qaydasını müəyyən edir (MM-in 296-cı maddəsi). Girov qoyulmuş əşyaya tələbin yönəldilməsinin iki qaydası fərqləndirilir: məhkəmədənkənar qayda; məhkəmə qaydası[1].

Girov qoyulmuş əşyaya tələbin yönəldilməsinin məhkəmədənkənar qaydası odur ki, bu qayda girov saxlayanın tələbinin girov qoyulmuş əşya hesabına ödənilməsinə girov saxlayanla girov qoyanın notariat qaydasında təsdiqlənmiş razılaşması əsasında, məhkəməyə müraciət edilmədən yol verilməsini nəzərdə tutur. Başqa sözlə desək, girov qoyanla girov saxlayan arasında xüsusi xarakterli yazılı saziş bağlanılır və bu saziş notariat qaydasında təsdiq olunur. Borclu (girov qoyan) əsas öhdəlik üzrə vəzifəsini icra etmədikdə, girov saxlayan (kreditor) məhkəməyə müraciət etmədən öz pretenziyasını girov qoyulmuş əmlak hesabına təmin edir. **Sazişin notariat formasına riayət edilməməsi onun etibarsızlığına səbəb olur**.

Girov qoyulmuş əşyaya tələbin yönəldilməsinin məhkəmə qaydası odur ki, bu qayda girov saxlayanın tələbinin məhkəməyə müraciət edilməklə girov qoyulmuş əşya hesabına ödənilməsini nəzərdə tutur. Belə ki, maraqlı tərəf (girov saxlayan) məhkəməyə iddia verir. Məhkəmə həmin iddiaya baxıb, girov saxlayanın pretenziyasının girov predmeti hesabına ödənilməsi barədə müvafiq qərar qəbul edir. Üç halda girov predmetinə tələb yalnız məhkəmə qərarı əsasında yönəldilə bilər:

- birinci hal girov saxlayanın tələbinin məhkəməyə müraciət edilmədən, girov qoyulmuş əşya hesabına ödənilməsi barədə girov saxlayanla girov

[1] bax: Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 3 yanvar 2000-ci il tarixli, 01 saylı əmri ilə təsdiq edilmiş «Bütün növ qiymətli kağızlarla girovun və qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəliklərinin girovunun dövlət qeydiyyatına alınması qaydaları» (Qiymətli kağızlar bazarı. Normativ sənədlər toplusu / Tərtibçi *A.H.Abbasovdur*. Bakı. 2000, s. 78).

[2] ABŞ-da girov qoyulmuş əmlak auksionda satıla bilər (bax: *Ласк Г.* Гражданское право США. М., 1961, с. 524).

[1] Bəzi ölkələrdə, məsələn, Fransada ancaq məhkəmə yolundan istifadə olunur (bax: *Л. Жюллио де ла Морандьер*. Гражданское право Франции. М., Том 3, 1961, с. 392).

qoyan arasında **notarial formalı xüsusi sazişin olmamasından ibarətdir**;

- ikinci hal girov müqaviləsinin bağlanması üçün **başqa şəxsin razılığı və icazəsinin tələb olunmasından ibarətdir** (məsələn, ümumi birgə mülkiyyətdə olan əşyanın girov qoyulması barədə müqavilə bağlanarkən bütün mülkiyyətçilərin yazılı razılığı tələb olunur; qəyyumluqda və ya himayədə olanın əmlakının girov qoyulması barədə müqavilə qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsi alınmaqla bağlanılır; ər-arvadın birgə əmlakı barədə girov müqaviləsi bağlanarkən ərin və ya arvadın razılıq verməsi gərəkdir və s.);
- üçüncü hal girov predmetinin **cəmiyyət üçün mühüm tarixi, bədii və ya mədəni dəyərli əşya olmasından ibarətdir**.

Yaponiya mülki hüququna görə, girov qoyan (borclu) öhdəliyi icra etmədikdə, girov qoyulmuş daşınar əşya realizə edilir. Bunun üçün qanun sadələşdirilmiş qayda nəzərdə tutur. Belə ki, girov saxlayan öz tələbinin girov qoyulmuş əşya hesabına təmin olunması barədə iddia ilə məhkəməyə müraciət edir. Əşya qabaqcadan ekspert tərəfindən qiymətləndirilir[1].

Almaniya mülki hüququna görə, girovla təmin olunan öhdəliyin icra müddəti keçdikdə, girov saxlayan girov qoyulmuş əşyanı sata bilər. Bunun iki qaydası nəzərdə tutulur. Birinci qaydaya görə, girov saxlayanın tələbi ilə əşyanın satılması barədə məhkəmə qərar çıxarır. Bu qərar əsasında əşya satılır. İkinci qayda xüsusi xarakterə malik olub, Almaniya Mülki Qanunnaməsi tərəfindən müəyyənləşdirilmiş yolla həyata keçirilir (§1234-1240).

Girov saxlayan girov qoyanı əşyanın satılması barədə xəbərdar etməlidir. Yalnız bundan bir ay ötdükdən sonra əşya satıla bilər. Əşya açıq hərracdan satılır. Hərracın yeri və vaxtı barədə rəsmi elan verilir. Bu barədə girov qoyan xüsusi olaraq xəbərdar edilir[2].

6. Girov qoyulmuş əşyanın satılması və satışdan götürülmüş məbləğin bölüşdürülməsi

Girovla təmin edilmiş əsas öhdəlik icra olunmadıqda **girovun predmeti girov saxlayanın mülkiyyətinə keçə bilməz**. Qüvvədə olan qanunvericilik bu cür qaydanın tətbiq edilməsini nəzərdə tutmur. Əgər tərəflər arasında girov qoyulmuş əşyanın girov saxlayanın mülkiyyətinə keçməsini müəyyənləşdirən hər hansı bir saziş bağlanarsa, onda bu cür saziş etibarsız hesab ediləcəkdir[3]. Bu qayda girov öhdəliyində **zəif tərəf hesab olunan girov qoyanın mənafeyini müdafiə edir**. Belə ki, bununla girov predmetinin **bazar qiyməti ilə satılması təmin edilir**. Girov saxlayan girov qoyulmuş əmlakın mümkün olan yüksək qiymətlə satılması üçün vicdanla səy göstərməlidir[4].

Qüvvədə olan qanunvericilik girov predmetinin realizə edilməsinin (satışının) iki yolunu göstərir: bazarda satış; açıq hərracda satış. **Bazarda satış yolu** girov qoyulmuş əmlakın müqavilə əsasında satılmasını nəzərdə tutur. Bu yolu «Girov haqqında» qanun nəzərdə tutur (30-cu maddənin 3-cü bəndi).

Açıq hərracdan satış yolu girov qoyulmuş əşyanın, bir qayda olaraq, ixtisaslaşdırılmış təşkilatlar tərəfindən realizə edilməsini nəzərdə tutur. Bu cür şəxslər kommersiya təşkilatı olub, müvafiq lisenziyaya malikdir. Həmin təşkilat açıq hərrac keçirir, yəni hərracın təşkilatçısı kimi çıxış edir. Ən yüksək qiymət təklif etmiş şəxs hərracı udmuş sayılır və onunla alqı-satqı müqaviləsi bağlanılır. Hərracın təşkili və keçirilmə qaydası qanunla tənzimlənir (MM-in 415-ci maddəsi). Girov qoyulmuş əmlakın açıq hərracdan satılması həmin əşyanın ən yüksək qiymətlə realizə edilməsinə imkan verir və bununla girov qoyanın mənafeyi təmin edilir. Deməli, belə təsəvvür yaranır ki, MM girov qoyulmuş əşyanın komisyon satışı imkanını istisna edir.

Bununla belə, bütün hallarda girov qoyulmuş əşyanın hüquqi taleyi və müqəddəratı onun açıq hərracdan satışı ilə nəticələnmir. Belə ki, qanun girov predmetinə tələbin yönəldilməsini və onun satışına xitam verilməsini təmin etmək məqsədilə maraqlı tərəflərə imkan verir. Borclu şəxs əsas (girovla təmin edilən) öhdəliyi və ya öhdəliyin icrası gecikdirilmiş hissəsini icra edir. Bu cür hərəkəti girov qoyan rolunda çıxış edən üçüncü şəxs də yerinə yetirə bilər. Bununla girov qoyulmuş əmlaka tələbin yönəldilməsinin və onun satışının qarşısı alınır, yəni əsas öhdəlik lazımınca icra olunmaqla girov predmetinə tələbin yönəldilməsinə və onun satışına xitam verilir. Maraqlı tərəflər bu hüquqdan istənilən vaxt istifadə edə bilərlər. Özü də girov saxlayanla girov qoyanın ixtiyarı yoxdur ki, bu hüquqdan istifadəni istisna edən saziş bağlasınlar. Əgər onlar bu cür saziş bağlasalar, onun hüquqi əhəmiyyəti və məzmunu olmayacaqdır (MM-in 299-cu maddəsinin 1-ci bəndi). Bəzi ölkələrdə, məsələn, Fransada məhkəmənin qərarı ilə girov qoyulmuş əmlak girov saxlayanın mülkiyyətinə keçə bilər[1]; girov qoyan isə heç bir ödəniş həyata keçirmir. Bu, girov qoyulmuş əmlakın satılmasından daha sadə və ucuz üsuldur[2].

Məlum məsələdir ki, girov saxlayan girov predmetinə tələbin yönəldilməsi və onun satışı ilə bağlı bəzi xərclər çəkə bilər. Girov qoyulmuş əşyaya tələbin yönəldilməsinə və ya onun satışına xitam verilməsini tələb edən şəxs çəkilmiş həmin xərclərin əvəzini girov saxlayana ödəməyə borcludur (MM-in 299-cu maddəsinin 2-ci bəndi).

Girov predmeti açıq hərrac keçirilməsi yolu ilə realizə edildikdə, ən yüksək qiymət təklif etmiş şəxs hərracı udmuş sayılır. Hərracı udmuş şəxslə hərracın təşkilatçısı (ixtisaslaşdırılmış təşkilatlar) hərracın nəticələri barədə protokol imzalayırlar. Bundan sonra isə onlar alqı-satqı müqaviləsi bağlayırlar (MM-in 415-ci maddəsinin 5-ci və 6-cı bəndləri).

Açıq hərracdan satış nəticəsində müvafiq məbləğ əldə edilir. Əvvəlcə bu **məbləğdən zəruri xərclərin əvəzi tutulur**. Zəruri xərclər dedikdə, tələbin girov qoyulmuş əşyaya yönəldilməsinə və onun satılmasına çəkilmiş xərclər ba-

---

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 214.

[2] Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 390.

[3] bax: п. 46 постановления Пленума Верховного Суда РФ и ВАС РФ от 1 июля 1996 г. № 6/8. «О некоторых вопросах, связанных с применением части первой Гражданского кодекса Российской Федерации» (БВС РФ. 1996. № 9).

[4] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 524.

[1] Гражданское и торговое право зарубежных стран. Учебное пособие / Отв. ред. *В.В. Безбах, В.К. Пучинский.* М., 2004, с. 252.

[2] *Л. Жюллио де ла Морандьер.* Гражданское право Франции. М., Том 3, 1961, с. 392.

şa düşülür. İkinci növbədə girov predmetinin satışı nəticəsində **əldə edilən məbləğdən girov saxlayanın tələbləri ödənilir**. Əgər bundan sonra müəyyən məbləğdə pul qalarsa, o, **girov qoyana verilir**.

Elə hallar da yaranır ki, girov predmetinin satışından əldə edilən pul məbləği girov saxlayanın tələbindən çox yox, az olur. Bu məbləğ isə, şübhəsiz ki, girov saxlayanın **tələbini ödəmək üçün kifayət etmir**. Belə halda girov saxlayanın tələbi **borclunun hər hansı bir digər əmlakına yönəlir**. Başqa sözlə desək, o, çatışmayan və kifayət etməyən məbləği **borclunun mülkiyyətində olan başqa əşyadan** almaq hüququna malikdir. Bu əmlaka münasibətdə girov saxlayanın üstünlük hüququ yoxdur (MM-in 298-ci maddəsinin 2-ci bəndi). Beləliklə, girov qoyulmuş əşya satılır və bununla girov öhdəliyinə xitam verilir.

7. Girovun növləri

Girovun müxtəlif növləri vardır. Qanun girovun növlərini xüsusi olaraq tənzimləyir (MM-in 300-306-cı maddəsi). **Girov predmetinin girov saxlayana verilməsi əlamətinə görə** girovun iki növü fərqləndirilir: saxlanc girovu; qeyri-saxlanc girovu[1].

Saxlanc girovu odur ki, onun predmeti girov saxlayanın sahibliyinə verilir. Bu halda girov qoyulmuş əmlak girov saxlayanın mülkiyyətinə keçmir. Tərəflər arasında bağlanan və girov predmetinin girov saxlayanın mülkiyyətinə keçməsini nəzərdə tutan hər hansı bir saziş etibarsızdır (peşman haqqı kimi vermək və girovla təmin edilmiş əsas öhdəliyin novasiyası istisna edilir). Girov saxlayan ona verilmiş girov predmetindən, əgər müqavilədə nəzərdə tutularsa, istifadə edə bilər. Bununla belə, girov saxlayanın üzərinə girov predmetindən bəhər və gəlir götürmək vəzifəsi də qoyula bilər ki, Roma hüququ bu konstruksiyanı «antixreza» adlandırırdı (biz əvvəlki yarımbaşlıqların birində bu barədə söhbət açmışıq).

Saxlanc girovunda girov qoyulmuş əmlakın qorunmasını təmin etmək girov saxlayanın ən əsas və başlıca vəzifəsi hesab edilir. Əsas (girovla təmin edilmiş) öhdəlik lazımınca icra olunduqda isə o, girov predmetini təxirə salmadan girov qoyana qaytarmalıdır.

Saxlanc girovu **«əl girovu»** da adlandırılır. Bu girov növünə ABŞ, Fransa, İngiltərə, RF və digər dövlətlərin hüquq sistemlərində də rast gəlmək olar[2]. Almaniya MQ-nə görə, girov hüququnun (Pfandrecht) əsas prinsipi əşyanın məcburi surətdə və hökmən girov saxlayanın sahibliyinə verilməsindən ibarətdir (§ 1205)[3]. Reyestrə daxil edilən gəlirlərin girovu istisna təşkil edir (§ 1260-1265). Yapon MM-i də əşyanın girov saxlayanın sahibliyinə verilməsini nəzərdə tutur (342-ci, 347-ci maddələr)[4].

Qeyri-saxlanc girovu odur ki, o, girov predmetinin girov qoyanda qalmasını nəzərdə tutur. Əgər girov müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, girov qoyan girov predmetindən onun təyinatına uyğun istifadə edə bilər, o cümlədən ondan bəhər və gəlir götürə bilər.

Əşyanın lombardda girovu girovun növlərindən biridir. Bu növ girov müəyyən xüsusiyyətlərə malikdir. Həmin xüsusiyyətlər, hər şeydən əvvəl, girovun subyekt tərkibi, predmeti və əsas öhdəliyin xarakterinə aiddir. Belə ki, bu girov növündə istənilən hər hansı hüquqi şəxs yox, yalnız ixtisaslaşdırılmış təşkilat olan lombard çıxış edir. Lombard xüsusi icazə (lisenziya) əsasında fəaliyyət göstərən hüquqi şəxs idi. Xüsusi icazəni (lisenziyanı) Azərbaycan Respublikasının Maliyyə Nazirliyi verirdi[1]. İndiki qanunvericiliyə görə, lombard fəaliyyəti xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinə aid deyil[2]. Girov qoyan qismində isə yalnız fiziki şəxslər çıxış edə bilər. Girovun predmeti isə yalnız şəxsi istehlak üçün nəzərdə tutulan daşınar əşyalar ola bilər. Əşyanın lombardda girovunun əsas məqsədi vətəndaşlara verilən qısamüddətli kreditləri təmin etməkdən ibarətdir.

Əşyanın lombardda girovu saxlanc girovunun yarımnövlərindən biridir. Belə ki, bu girov saxlanca qoyulan əşyaların lombarda verilməsini nəzərdə tutur. Girov predmeti olan daşınar əşya lombardın — girov saxlayanın sahibliyində olur. Lakin lombardın girov qoyulmuş əşyadan istifadə etmək və ona dair sərəncam vermək ixtiyarı yoxdur. Lombardın vəzifəsidir ki, o, girov predmetini saxlasın.

Lombard girov qoyulmuş əmlakın saxlanılmasını və salamatlığını təmin etməlidir. O, girov predmetinin itirilməsi və zədələnməsi üçün məsuliyyət daşıyır. Özü də onun məsuliyyəti təqsirə görə müəyyənləşdirilir. Məsuliyyət məsələsi belə haldan asılı deyildir ki, professional saxlayıcı olan lombard sahibkar statusuna malik olan təşkilatdır və sahibkarlıq fəaliyyətinin subyekti hesab olunur. Lombard qarşısılınmaz qüvvə nəticəsində girov predmetinin itirilməsinə və zədələnməsinə görə məsuliyyət daşımır.

Lombardın daşıdığı əsas vəzifələrdən biri girov qoyulmuş əşyanı sığortalamaqdan ibarətdir. Lombard girov predmetini onun girova qəbul olunduğu anda eyni növlü və keyfiyyətli əşyanın bazar qiymətinə uyğun müəyyənləşdirilən qiymətinin tam məbləğində girov qoyanın xeyrinə sığorta etdirməlidir (MM-in 302-ci maddəsinin 4-cü bəndi).

Əşya lombardda girov qoyulanda vətəndaşa **girov bileti** verilir. Girov bileti əşyanın lombardda girovu haqqında müqavilənin bağlanmasını rəsmiləşdirir. O, əşyanın lombarda girova qəbul edilməsini təsdiqləyir, habelə girov müqaviləsinin sadə yazılı formasını ifadə edir; o, müqavilə sənədidir.

Əşyanın lombardda girovu haqqında müqaviləni bağlayan tərəflər girov predmetinin qiymətini öz razılıqları əsasında müəyyənləşdirmək hüququna malik deyillər. Bu əşya qiymətləndirilərkən onun lombarda girova qəbul olun-

---

[1] Almaniya qanunvericiliyi girovun bu növlərini tanıyır (Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 350). Yaponiya qanunvericiliyinə isə yalnız saxlanc (əl) girovu məlumdur.

[2] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 348, 354, 375.

[3] Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

[4] *Сакаэ Вагацума, Тору Ариидзуми*. Гражданское право Японии. Книга 1. М., 1983, с. 209.

[1] bax: Sahibkarlıq fəaliyyəti haqqında. Normativ aktlar toplusu. Bakı. 1999.

[2] Prezidentin 2 sentyabr 2002-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı»nda (2 saylı Əlavədə) lombard fəaliyyəti həmin siyahıya daxil deyildir (bax: «Respublika» qəzeti, 3 sentyabr 2002-ci il). Təəssüfləndirici haldır ki, MM-in 302-ci maddəsindən «lombardlar xüsusi icazəsi (lisenziyası) olan ixtisaslaşdırılmış təşkilatlardır» kimi göstəriş indiyə kimi çıxarılmamışdır.

duğu anda eyni növlü və keyfiyyətli əşyanın bazar qiyməti əsas götürülür.

Lazımi və zəruri əsaslar olduqda, **lombardda girov qoyulmuş əşyaya tələb yönəlir**. Bu əsas fiziki şəxsin aldığı qısamüddətli krediti müəyyənləşdirilmiş müddətdə geri qaytarmamasından, yəni girovla təmin olunmuş kredit öhdəliyini icra etməməsindən ibarətdir. Belə halda **lombardın notariusa və ya məhkəməyə müraciət etməsi tələb olunmur**. Lombard girov qoyulmuş əşyanı açıq hərracdan satır. Bununla əşyanın lombardda girov müqaviləsinə xitam verilir. Girov qoyulmuş əşyanın satışından götürülən məbləğ hesabına lombardın girov qoyana (borcluya) qarşı tələbləri ödənilir.

Dövriyyədəki malların girovu girovun növlərindən biridir (MM-in 306-cı maddəsi). Bu girovun **əsas və başlıca xüsusiyyəti** ondan ibarətdir ki, onun predmeti kimi fərdi əlamətləri ilə müəyyən edilən əşyalar (məsələn, avtomobil, ev və s.) yox, **cinsi (növ) əlamətləri ilə müəyyən edilən istehsal-texniki təyinatlı məhsullar** (əmtəə ehtiyatları, xammal, materiallar, yarımfabrikatlar, hazır məhsullar və s.) çıxış edir. Həmin girov növü girov predmetinin tərkibinin və natural formasının dəyişdirilməsinə yol verilməsini nəzərdə tutur. Lakin qanun əsas şərt kimi müəyyən edir ki, girov qoyulmuş əmlakın tərkibi və natural forması dəyişdirilərkən onların ümumi dəyəri girov müqaviləsində göstərilən dəyərindən aşağı düşməməlidir. Əsas öhdəlik qismən icra edildiyi halda girov qoyulmuş dövriyyədəki malların dəyərinin azalmasına yol verilir. Bu cür azalma zamanı mütənasiblik prinsipi gözlənilir.

Dövriyyədəki malların girovunun **ikinci əsas xüsusiyyəti** ondan ibarətdir ki, bu girov növündə **girov hüququ «əşyanın arxasınca getmir», «əşyanı izləmir»**. Bu, o deməkdir ki, **dövriyyədəki mal özgəninkiləşdirildikdə, girov hüququ qüvvəsini itirir** və hüquqi əhəmiyyətə malik olmur. Göstərilən həmin xüsusiyyəti ilə dövriyyədəki malların girovu digər girov növlərindən fərqlənir. Başqa sözlə desək, bu girov növündə girov hüququ «əşyanı izləmir». Belə ki, girov qoyan dövriyyədəki malları özgəninkiləşdirdiyi halda həmin mallar üzərində o, mülkiyyət hüququnu itirir. Əldə edən isə bu mallar üzərində mülkiyyət hüququ qazanır. Mallar əldə edənin mülkiyyətinə keçdiyi andan girov predmeti olmur. Girov müqaviləsində göstərilən mallar girov qoyanın mülkiyyətinə keçdiyi andan avtomatik olaraq girov qoyulmuş əmlak (girovun predmeti) hesab edilir. Belə təsəvvür yaranır ki, girov qoyulmuş dövriyyədəki malların mülkiyyətçisinin başqası ilə əvəz edilməsi, yəni onların yeni mülkiyyətçinin sərəncamına keçməsi girov hüququnu ləğv edir. Bu məhsulları yeni mülkiyyətçi girov yükü olmadan əldə edir.

Dövriyyədəki malların girov növündə girov qoyan **müəyyən vəzifələr** daşıyır. **Girovların qeydiyyatı kitabını tərtib etmək** onun vəzifələrindən biridir. Bu kitab girov saxlayana imkan verir ki, o, girovun şərtlərinə əməl edilməsinə nəzarət etsin. Kitabda girov qoyulmuş malların tərkibinin və ya natural formasının dəyişməsinə səbəb olan bütün əməliyyatlar əks olunur. Buraya həmçinin malların emalı haqqında sonuncu əməliyyat günü üçün qeydlər də daxil edilir.

Girov qoyanın borcu və vəzifəsidir ki, girov müqaviləsinin şərtlərini pozmasın. Bəzi hallarda o, pozuntuya yol verir. Bu cür məqamlarda girov saxlayan girov predmetinə öz nişanlarını vurur. Bununla o, mallarla bağlı əməliyyatları pozuntu aradan qaldırılanadək dayandırır.

Beləliklə, **dövriyyədəki malların girovu zamanı girov qoyulan mallar girov qoyanda saxlanılır**. Bu, o deməkdir ki, bu cür girov qeyri-saxlanc (yəni əmlakın girov saxlayana verilməsini nəzərdə tutmayan) girovunun yarımnövüdür. Bundan əlavə, anbarda olan mallar və ya yolda olan, yəni daşınan mallar (yüklər) da girov qoyula bilər[1]; bunun üçün girov qoyan qiymətli kağızları (anbar şəhadətnaməsini və ya konosamenti) girov saxlayana verməlidir.

Girovun növlərindən biri sabit girov adlanır. Bu girov qeyri-saxlanc girovunun yarımnövü hesab edilir. Girov qoyulmuş əmlak girov saxlayanın qıfıllı altında və ya girovu ifadə edən nişanlar vurulmaqla girov qoyanda saxlanılarsa, bu cür girova **sabit girov** deyilir. Sabit girov girov predmetinin girov saxlayanın sahibliyində qalmasını nəzərdə tutur. Bu cür girov girov qoyulmuş əmlakdan istifadə edilməsini tamamilə istisna edir. Girov saxlayanın qıfıllı altında olan və ya girovu ifadə edən nişanlar vurulmuş əşyadan necə istifadə etmək olar?

Hüququn girovu girovun növlərindən biri hesab olunur. Biz girovun predmetinə həsr edilmiş yarımbaşlıqda bu məsələyə toxunmuşuq. Bir daha xatırladırıq ki, girovun predmeti kimi həm əşya, həm öhdəlik (əsasən tələb), həm korporativ, həm də müstəsna (əqli mülkiyyət) hüquqları girov qoyula bilər. Xüsusən icarə hüququ, mülkiyyətdəki paya hüquq, borc tələbi girovun predmeti kimi çıxış edir. Müstəsna (əqli mülkiyyət) hüquqlar da girovun predmeti ola bilər. Məsələn, patent sahibi ixtiradan istifadə etmək üçün haqq almaq hüququnu banka girov qoyur və kredit alır.

Hüququn girovu bir neçə şərtə riayət olunmasını tələb edir. Birinci şərt ondan ibarətdir ki, **müddəti ötmüş hüquq girovun predmeti ola bilməz**. Müddətli hüququ yalnız onun qüvvədə olma müddəti başa çatanadək girov qoymaq olar. İkinci şərtə görə, hüquq girov qoyulduqda, bu barədə **hüquq borclusuna dərhal bildiriş verilməlidir**. Üçüncü şərt ondan ibarətdir ki, əgər dövlət qeydiyyatına alınmalı olan hüquq girov qoyularsa, onda **hüququn girovu dövlət orqanında qeydə alınır**. Əgər o, qeydə alınmazsa, bu cür girov etibarsız hesab edilir.

Qiymətli kağızla təsdiqlənmiş hüquq girov qoyularkən **qiymətli kağız girov saxlayana və ya bankın və ya notariusun depozitinə verilir**[2]. Bu qayda dispozitiv xarakterə malikdir. Belə ki, girov müqaviləsində ayrı qayda da nəzərdə tutula bilər.

Girovun növlərindən biri **pul vəsaitinin girovu** adlanır. Bu girovun predmeti rolunda pul vəsaiti çıxış edir. Həmin pul vəsaiti bankın və ya notariusun depozit hesabında saxlanılır. Bu, pul vəsaitinin girova qoyulmasını ifadə edir. Biz girovun predmeti barədə yarımbaşlıqda bu məsələni işıqlandırdığımıza gö-

---

[1] *Ласк Г.* Гражданское право США. М., 1961, с. 522.

[2] Qiymətli kağız girov qoyularkən girovun predmeti rolunda qiymətli kağızın özünün və ya qiymətli kağızla təsdiqlənmiş əmlak hüququnun çıxış etməsi kimi məsələ mürəkkəb xarakterli nəzəri problemdir. Qüvvədə olan qanunvericilik bu suala konkret olaraq cavab vermir. Belə ki, bank qanunvericiliyinə görə kredit təşkilatı qiymətli kağızları girov götürərək kredit vermək hüququna malikdir. MM-in 303-cü maddəsinin 5-ci bəndi isə qiymətli kağızla təsdiqlənmiş hüququn girovunu nəzərdə tutur. Bu nəzəri məsələ barədə bax: *Маковская А.А.* Залог денежных средств и ценных бумаг. М., 1999. Moskva alimlərindən V.S.Yem göstərir ki, qiymətli kağızın girov qoyulması əmlak hüquqlarını yox, əmlakın girov qoyulmasını ifadə edir (Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова*. М., 1999, с. 105).

rə ondan bir daha söhbət açmağa ehtiyac duymuruq. Qeyd etmək lazımdır ki, pul vəsaitinin girovun predmeti olması hüquq ədəbiyyatında mübahisə doğuran məsələlərdəndir. Azərbaycan Respublikasının mülki qanunvericiliyi düzünə və birbaşa olaraq pul vəsaitinin girovun predmeti ola bilməsi haqqında qayda müəyyən edir (MM-in 304-cü maddəsi).

Girov kimi qoyulmuş pul vəsaiti məbləğinin üstünə faizlər hesablana bilər (MM-in 304-cü maddəsi). Həmin faizləri girov saxlayan yox, girov qoyan almaq hüququna malikdir. Lakin bu qayda dispozitiv xarakter daşıyır. Belə ki, girov predmeti olan pul vəsaiti məbləğinin üstünə hesablanan faizlərin girov saxlayana çatması da nəzərə tutula bilər. Bunun üçün zəruridir ki, həmin hal girov müqaviləsində nəzərdə tutulsun.

§ 9. İpoteka hüququ

1. İpotekanın anlayışı

Azərbaycan Respublikasının mülki qanunvericiliyi ipotekanı müstəqil institut kimi nəzərdə tutur. RF-in qanunvericiliyindən fərqli olaraq, Azərbaycan Respublikasının MM-i **ipotekanı girovun bir forması hesab etmir**[1]. Lakin bu institutların müstəqil olmalarına baxmayaraq, onlar arasında həddən ziyadə yaxınlıq və bağlılıq vardır. Təsadüfi deyildir ki, «İpoteka haqqında» qanuna görə, ipoteka daşınmaz əşyaların, habelə bəzi daşınar əşyaların girovudur.

Girov hüququ kimi ipoteka hüququ da **məhdud əşya hüququnun bir növüdür**. İpoteka hüququ əşya hüquqlarının məhdudlaşdırılmasından ibarətdir (MM-in 269-cu maddəsinin 2-ci bəndi). Belə ki, ipoteka hüququ ipotekanın predmeti olan əşyanın «arxasınca gedir», «əşyanı izləyir». Başqa sözlə desək, ipoteka ilə yüklü edilmiş əşyanın mülkiyyətçisinin dəyişməsi (məsələn, həmin əşyanın vərəsəlik qaydasında mülkiyyətçinin vərəsələrinə keçməsi) ipoteka hüququna xitam verilməsinə səbəb olmur, bu hüququ dəyişdirmir (MM-in 274-cü maddəsi). İpotekanın bu xüsusiyyəti barədə Yaponiya mülki hüququnda göstərilir ki, girov kimi ipoteka öhdəliyin «arxasınca gedir», onu «izləyir». Fransa mülki hüququna görə, ipoteka predmeti olan əmlakın kimin mülkiyyətinə (sahibliyinə) keçməsinə baxmayaraq, o, yenə də ipoteka ilə yüklənmiş sayılır[2].

Girov hüququ kimi ipoteka hüququ **özgə əşyasına olan hüquqdur**. Bu hüquq ipoteka predmeti olan əşya məhv olduqda ləğv edilir.

Girov hüququ kimi ipoteka hüququ da **əlavə (aksessor) öhdəlikdir**. İpoteka qoyan (əsas öhdəlik üzrə borclu) ipoteka saxlayan (kreditor) qarşısında əsas öhdəliyi icra etmədikdə, kreditorun tələbi ipoteka predmetinə yönəlir. Beləliklə, girov hüququ kimi ipoteka hüququ da **öhdəliklərin icrasının əşya təminatı üsuludur**. İpoteka elə bir üsuldur ki, o, borclunun girov saxlayan qarşısında pul və ya başqa öhdəliyinin icrasını təmin edir (MM-in 269-cu maddəsinin 1-ci bəndi). İpoteka hüququnun əlavə (aksessor) öhdəlik olması onunla

[1] Yaponiya mülki hüququna görə, ipoteka girovun bir növü sayılır (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 165).

[2] *Л. Жюллио де ла Морандьер.* Гражданское право Франции. М., Том 3, 1961, с. 481.

şərtlənir ki, **ipoteka ilə təmin edilən əsas öhdəlik ləğv edildiyi halda ipoteka hüququna da xitam verilir**. Analoji göstəriş Almaniya mülki hüququnda ifadə olunmuşdur: öhdəlik ləğv edildikdə ipoteka da xitam olunur[1]. İpotekanın törəmə xarakterli olması Yaponiya mülki hüquq elmində də göstərilir[2].

İpoteka hüququnun anlayışı MM-in 269-cu maddəsinin 7-ci bəndində verilmişdir. **İpoteka dedikdə, borclu (ipoteka qoyan) tərəfindən ipoteka ilə təmin edilmiş əsas öhdəlik icra edilmədikdə, kreditorun (ipoteka saxlayanın) borclunun başqa kreditorları qarşısında ipoteka ilə yüklü edilmiş əmlakın dəyərindən təminat almaqda üstünlük hüququna malik olması başa düşülür**. Bu institutun müasir bazar iqtisadiyyatında müstəsna dərəcədə böyük əhəmiyyəti vardır. Normal bazar iqtisadiyyatı ipotekasız mövcud ola və fəaliyyət göstərə bilməz. İpotekanın əsas və başlıca rolu bundan ibarətdir ki, o, mühüm və vacib kredit alətidir. Belə ki, iqtisadi dövriyyə subyektləri təsərrüfat fəaliyyətini həyata keçirmək üçün öz əmlakını ipotekaya qoyur və banklardan kredit alırlar.

Son zamanlar Azərbaycan Respublikasında **ipoteka kreditlərindən** geniş istifadə olunur. Bu sahədə prezidentin «Azərbaycan Respublikasında ipoteka kreditləri sisteminin yaradılması haqqında» fərmanı xüsusilə qeyd edilməlidir. 16 sentyabr 2005-ci il tarixində qəbul olunan bu fərman əhalinin yaşayış şəraitini yaxşılaşdırmaq, mənzil tikintisinin effektiv maliyyələşdirmə mexanizmini yaratmaq, ipoteka kreditləşməsinə yerli və xarici investorları cəlb etmək məqsədi güdür.

İpoteka (hypotheca) qədim yunan hüququnda meydana gəlmişdi[3]. Yunan hüququ Romada girovun üçüncü formasının – ipotekanın yaranmasına güclü təsir göstərmişdi[4]. B.e.ə. II əsrdən başlayaraq ipoteka Romada inkişaf etməyə başladı[5]. «İpoteka» termini məşhur Afina islahatçısı Solonun qanunlarında istifadə edilirdi. O vaxtlar qədim yunan əyalətlərində borclunun torpağına basdırılmış xüsusi dirək ipoteka adlanırdı. Bu dirəyi görən hər bir kəsin təsəvvüründə belə bir fikir yaranırdı ki, dirəyin basdırıldığı torpaq sahəsi girov qoyulmuşdur və o, kreditorun hüquqlarını təmin edir.

Romada ipoteka girovun üçüncü – daha inkişaf etmiş forması hesab edilirdi[6]. O, iqtisadi və ticarət dövriyyəsinin tələbatı ilə meydana gəlmişdi. Belə ki, girovun fidusiya və piqnus kimi əvvəlki iki forması iqtisadi-ticarət dövriyyəsinin inkişaf ehtiyaclarını ödəyə bilmirdi. Məsələn, girovun piqnus forması borclunun (girov qoyanın) öz əşyasından istifadə etmək imkanını nəzərdə tutmurdu. Bu hal isə onun üçün iqtisadi cəhətdən sərfəli deyildi. İpoteka isə girov qoyulmuş əşyanın borclunun sahibliyində qalmasına, onun həmin əşyadan istifadə etməsinə, gəlir götürməsinə və bununla öhdəliyin təmin olunmasına imkan ve-

[1] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 424.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 218.

[3] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 191.

[4] bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı 1999, s. 99.

[5] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 514.

[6] Roma hüququnda ipoteka institutunun əsas cəhətləri ilə tanış olmaq üçün bax: *И.Велиев.* Основные формы залога в историческом развитии и проблемы залога недвижимости в современных условиях. Баку. 1998, с. 9-12.

rirdi. Girov qoyulmuş əşya ipoteka kreditorunun sahibliyinə keçmirdi. Kreditorun mənafeyi ona əşya hüququ verilməklə müdafiə olunurdu. Bu hüquq isə kreditora ipoteka predmetinə tələb yönəltməyə, zəruri olduqda, onu üçüncü şəxsdən almağa imkan verirdi.

Müasir hüquqda ipoteka institutu şəklini dəyişmişdir. Lakin bu hüquqi konstruksiyanın Roma hüquqşünasları tərəfindən qoyulan əsası dəyişikliyə uğramayaraq sabit qalmışdır. Roma hüququnda işlənib hazırlanmış prinsiplər həm roman-german (kontinental) hüquq ailəsi, həm də ingilis-amerikan (ümumi) hüquq ailəsi tərəfindən qəbul edilmişdir. Kontinental hüquqda ipoteka anlayışı ümumi hüquqda (yəni ingilis-amerikan hüququnda) ipoteka anlayışı ilə üst-üstə düşmür[1]. İngilis-amerikan hüququnda ipoteka «mortgage» adlanır[2]. Özü də «mortgage» konstruksiyası ilə klassik Roma institutu olan fidusiya arasında ümumi cəhətlər çoxdur. Başqa sözlə desək, ingilis-amerikan hüquq ailəsi Roma hüququnun fidusiya konstruksiyasına bənzəyən «mortgage» anlayışını nəzərdə tutur. «Mortgage» öhdəliklərin icrasının fidusiya tipli üsuludur. Bu üsula görə, girov (ipoteka) qoyulmuş əşya üzərində mülkiyyət hüququ kreditora keçir. Öhdəlik icra olunduqdan sonra kreditor bu hüququ borclunun özünə qaytarır.

Kontinental hüquq isə Roma hüququndan miras kimi öhdəliklərin icrasının fidusiya tipli təminat üsulunu yox, girov və ipoteka kimi sistemlərini götürmüşdür.

Azərbaycan Respublikasında ipoteka münasibətləri **ipoteka qanunvericiliyi** ilə tənzimlənir. İpoteka qanunvericiliyinə, hər şeydən əvvəl, **Mülki Məcəllə** daxildir. Məcəllənin 307-323-1-ci maddələri məhz ipotekanın hüquqi tənzimlənməsinə həsr edilmişdir.

İpoteka qanunvericiliyində **«İpoteka haqqında» qanun** xüsusi yer tutur; bu qanun əsas mülki-hüquqi öhdəlikləri (borc, kredit, alqı-satqı, podrat və digər mülki-hüquqi öhdəlikləri) təmin etmək məqsədinə xidmət edən ipoteka öhdəliklərini tənzim edir.

Qanun 7 fəsil və 59 maddədən ibarətdir. I fəsildə ümumi müddəalar formulə edilir. Qanunun II fəsli ipotekanın yaranması və dövlət qeydiyyatı, III fəsli ipoteka kağızı, IV fəsli tərəflərin hüquq və vəzifələri, V fəsli ipoteka predmetinə tutmanın yönəldilməsi və ona xitam verilməsi, VI fəsli torpaq sahəsi ipotekasının, VII fəsli yaşayış evi və mənzillərinin ipotekası ilə bağlı münasibətləri tənzim edir.

[1] Kontinental və ümumi hüquq ölkələrinin ipoteka qanunvericiliyinin əsas cəhətləri ilə tanış olmaq üçün bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 583-644 (гл. 16).

[2] Professor Sakae Vaqasuma göstərir ki, ingilis-amerikan hüququnun tanıdığı mortgage konstruksiyası Roma hüququna məlum olan fidusiya institutu əsasında işlənib hazırlanmışdır. Amma Roma hüququndan kontinental hüquqa yalnız ipoteka və piqnus (əl girovu) konstruksiyaları miras qalmışdır. Yaponiyada Mülki Məcəllə qəbul edilənə kimi, əsasən, fidusiya tətbiq edilirdi. Yeni MM-in qəbul olunması ilə öhdəliyin icrasının əl girovu və ipoteka kimi üsulları da nəzərdə tutuldu. Axı, Yaponiya MM-i kontinental hüquq nümunəsində tərtib olunmuşdur. Amma Yaponiyada kapitalizmin inkişafı fidusiya tipli təminat üsulunun geniş səviyyədə tətbiq olunmasını zərurətə çevirdi. Ona görə də bu təminat üsulu hazırda Yaponiyada vacib rol oynayır (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 234).

2. İpoteka öhdəliyinin elementləri

İpotekanın predmeti ipoteka öhdəliyinin əsas elementlərindən biridir. İpotekanın predmeti elə bir elementdir ki, o, ipotekanı girovdan fərqləndirməyə imkan verir. Girovun predmeti yalnız daşınar əşyalar ola bilər. İpotekanın predmeti kimi **yalnız daşınmaz əşyalar çıxış edə bilər** (MM-in 269-cu maddəsinin 4-cü bəndi). Yaşayış evlərinin, torpaq sahələrinin, binaların, mənzillərin, əmlak kompleksi olan müəssisələrin və s. tez-tez ipoteka predmeti kimi çıxış etməsinin şahidi oluruq. Almaniya qanunvericiliyinə görə, ipotekanın predmeti daşınmaz əşyadan (torpaqdan) ibarətdir. İpoteka torpaq sahəsinə əşya hüququdur[1]. İpoteka yalnız torpaq sahəsinə, habelə ondan ayrılan bəhərlərə və digər tərkib hissələrinə şamil edilir. Özü də onlar ipoteka kreditorunun xeyrinə ayrılmış hesab olunur (Almaniya MQ-nin 1121-ci paraqrafı)[2]. Yaponiya mülki hüququna görə, ipoteka daşınmaz əşya barəsində nəzərdə tutulur (Yaponiya MM-inin 369-cu maddəsinin 1-ci bəndi).

Daşınar əşyalar da ipoteka predmeti ola bilər. Özü də dərhal qeyd etməliyik ki, bütün daşınar əşyalar yox, **yalnız rəsmi reyestrdə qeydə alınmalı olan daşınar əşyalar ipoteka predmeti qismində çıxış** edə bilər (MM-in 269-cu maddəsinin 4-cü bəndi). Məsələn, Azərbaycan Respublikasının mülki hava gəmiləri daşınar əşya hesab edilir. Bu cür gəmilər Azərbaycan Respublikası mülki hava gəmilərinin dövlət reyestrində qeydiyyata götürülməlidir[3]. Ona qeydiyyata götürüldüyü barədə şəhadətnamə verilir. Bu kimi daşınar əşyalar ipoteka predmeti ola bilər. Bu qayda bəzi xarici ölkələrin qanunvericilik ənənələrinə uyğundur. Məsələn, Fransa qanunvericiliyinə görə, dəniz, hava və çay gəmiləri daşınar əşya kateqoriyasına aid edilir və onların ipotekanın predmeti qismində çıxış etməsinə yol verilir[4]. Yaponiya qanunvericiliyinə görə, qeydiyyata alınmış çay və dəniz gəmiləri ipotekaya qoyula bilər (MM-in 848-ci maddəsi). ABŞ hüquq praktikasında hər hansı istənilən əşya – həm daşınar, həm də daşınmaz əşyalar ipoteka predmeti ola bilər[5]. Əşyanın növü (daşınar və ya daşınmaz əşya) ipotekanın əsas, başlıca və fərqləndirici əlaməti hesab edilmir. ABŞ hüquq doktrinası əşyanın borclunun sahibliyində qalmasını ipotekanın əsas əlaməti kimi nəzərdə tutur. Bu əlaməti ilə ipoteka girovdan fərqləndirilir. ABŞ hüququndan fərqli olaraq, bizim mülki qanunvericilik əşyanın növünü (daşınar və ya daşınmaz əşyanı) girovu ipotekadan fərqləndirməyə imkan verən əsas meyarlardan biri kimi götürür. ABŞ hüququna görə, girov əşyanın kreditora (girov saxlayana) verilməsini nəzərdə tutur.

Yaponiya sivilistika doktrinası və qanunvericiliyi predmet əlamətinə görə yox, əsasən, üç cür başqa əlamətə (meyara) görə girovu ipotekadan fərqlən-

[1] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 427-428.

[2] Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

[3] bax: «Aviasiya haqqında» qanun.

[4] bax: *Л.Жюллио де ла Морандьер.* Гражданское право Франции. Том 3. М., 1961, с. 519-520. Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 588.

[5] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 595.

dirir[1]: birincisi, ipoteka predmeti həmişə borclu şəxsdə (ipoteka qoyanda) qalır; ikincisi, borclu şəxs (ipoteka qoyan) əşyadan istifadə edib, fayda götürmək hüququna malikdir; üçüncüsü, girovun əmələ gəlmə əsası əşyanın real olaraq girov saxlayana verilməsindən ibarətdir. İpotekanın əmələ gəlməsi üçün isə onun qeydiyyata alınması tələb olunur. Bu əlamətlər (meyarlar) təxmini olaraq bizim ölkə qanunvericiliyinin girov və ipotekanı fərqləndirmək üçün istifadə etdiyi əlamətlərə uyğun gəlir.

Azərbaycan Respublikasının mülki qanunvericiliyi ipotekanı girovdan fərqləndirmək üçün ipoteka predmetinin ipoteka verənin (yəni əsas öhdəlik üzrə borclu şəxsin) sahibliyində qalması əlamətini ikinci meyar kimi götürür. Girov predmeti girov saxlayanın sahibliyinə verilə də bilər (məsələn, saxlanc girov növündə), verilməyə də. Girov qoyulmuş əşya girov saxlayanın sahibliyinə verilmədiyi hallarda, o, girov qoyanın sahibliyində qalır (məsələn, sabit girov növündə). Lakin bunlardan fərqli olaraq, **ipoteka predmeti ipoteka verənin (qoyanın) sahibliyində saxlanılır**. İpoteka predmetini saxlamaq vəzifəsi ipoteka verənə həvalə edilir (MM-in 312-ci maddəsi). Əgər bu vəzifəni icra edə bilməsə, məhkəmə qərarı əsasında ipoteka predmeti ipoteka saxlayanın sahibliyinə keçə bilər. Almaniya qanunvericiliyi də ipoteka predmetinin ipoteka qoyanın sahibliyində qalması qaydasını nəzərdə tutur.

Girovu ipotekadan fərqləndirən üçüncü əlamət ondan ibarətdir ki, **ipoteka verən (qoyan) ipoteka predmetindən ipoteka saxlayanın razılığı və icazəsi olmadan istifadə edə, onu özgəninkiləşdirə** bilər (məsələn, sata, dəyişdirə, bağışlaya, renta üçün verə bilər və s.)[2]. İpoteka verəni bu cür hüquqdan məhrum edən hər hansı bir sazişin hüquqi əhəmiyyəti və mənası yoxdur. Əgər onun bu kimi hüquqlarını istisna edən saziş bağlanarsa, onda həmin saziş etibarsız əqd hesab ediləcəkdir (MM-in 312-ci maddəsinin 4-cü bəndi). Girov qoyan isə yalnız girov saxlayanın razılığı ilə girov predmetini özgəninkiləşdirə bilər və ya ona dair digər sərəncamlar verə bilər (MM-in 284-cü maddəsinin 1-ci bəndi).

İpoteka predmeti barədə üçüncü şəxslər ipoteka saxlayanın razılığı olmadan əqdlər bağlaya bilər. İpoteka saxlayanın bu cür əqdlərin bağlanmasına razılıq verməməsi onların etibarsız hesab edilməsinə dəlalət etmir (MM-in 312-ci maddəsinin 4-cü bəndi).

İpotekanın predmeti qismində hüquqlar da çıxış edə bilər. O hüquqlar ipoteka ilə yüklü edilə bilər ki, bu cür hüquqları başqasına vermək mümkün olsun (MM-in 269-cu maddəsinin 9-cu bəndi). İtaliya MM-inə görə, daşınmaz əmlak üçün müəyyənləşdirilən uzufrukt, superfitsi, emfitevzis kimi məhdud əşya hüquqları ipotekanın predmeti ola bilər[3]. Fransa qanunvericiliyinə görə, daşınmaz əşya üzərində əşya hüquqları (uzufrukt, titul mülkiyyət hüququ, emfitevzis) ipoteka ilə yüklü edilə bilər[1]. Polşa qanunvericiliyinə görə, əşyadan istifadə hüququ ipotekaya verilə bilər[2]. Almaniya qanunvericiliyinə görə, ipotekanın predmeti qismində torpaq sahəsinin kirayəyə və icarəyə verilməsindən yaranan tələblər (tələb hüquqları) da çıxış edə bilər. Daşınmaz əşyalara olan hüquqların (uzufrukt və superfitsinin) da ipoteka predmeti olması mümkündür. Yaponiya mülki hüququna görə, superfitsi və emfitevzisə münasibətdə ipoteka nəzərdə tutula bilər (Yaponiya MM-in 369-cu maddəsinin 2-ci bəndi)[3]. Bizim ölkə hüququ müəyyən edir ki, **tələb hüquqları (öhdəlik hüquqları) ipotekanın predmeti** ola bilər. Özü də həm mövcud, həm də gələcəkdə əldə edilə bilən tələb ipotekaya verilə bilər. Məsələn, əgər torpaq sahəsi icarəyə verilərsə, onda ipotekanın predmeti icarə haqqını vermək üzrə tələb olacaqdır. Həmin tələb ipotekaya qoyula bilər.

İpoteka öhdəliyinin **subyekt tərkibi** onun elementlərindən biridir. Bu öhdəlikdə iki tərəf iştirak edir: ipoteka qoyan (ipoteka verən); ipoteka saxlayan. **İpoteka qoyan** dedikdə, ipoteka ilə təmin edilən əsas öhdəlik üzrə borclu şəxs başa düşülür. Əşyanı ipoteka qoyan yalnız onun mülkiyyətçisi ola bilər (MM-in 271-ci maddəsinin 1-ci bəndi). Mülkiyyətçi rolunda, adətən, əsas öhdəlik üzrə borclu şəxs çıxış edir. Çox vaxt borclu və mülkiyyətçi eyni şəxs olurlar. İpoteka qoyan (mülkiyyətçi) **üçüncü şəxs** də ola bilər. Məsələn, sahibkar bankdan kredit alır. Kredit öhdəliyinin icrasını təmin etmək məqsədi ilə kəndli (fermer) təsərrüfatı başçısı torpaq sahəsini ipoteka ilə yüklü edir. Kəndli (fermer) təsərrüfatı başçısı – torpaq sahəsinin mülkiyyətçisi ipoteka qoyan rolunda çıxış edən üçüncü şəxsdir. Yaponiya doktrinası ipoteka qoyan rolunda çıxış edən üçüncü şəxsi «əşya zamini» adlandırır[4].

İpoteka öhdəliyində iştirak edən ikinci tərəf ipoteka saxlayan adlanır. **İpoteka saxlayan** dedikdə, ipoteka hüququ olan şəxs başa düşülür. Ona **ipoteka kreditoru** da deyilir. İpoteka kreditoru (ipoteka saxlayan) dedikdə, borclunun onun qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üçün ipoteka predmeti olan əşyaya tələb yönəltmək, həmin tələbi göstərilən əşya hesabına təmin etmək ixtiyarına malik olan şəxs başa düşülür. Yuxarıdakı misalda sahibkara kredit verən bank ipoteka saxlayandır (və ya ipoteka kreditorudur).

Mülki hüququn əsas subyektləri – **fiziki və hüquqi şəxslər həm ipoteka saxlayan, həm də ipoteka qoyan rolunda** çıxış edə bilərlər. Bütün hallarda kreditor və ipoteka saxlayan eyni şəxs olurlar, yəni ipoteka saxlayan rolunda yalnız kreditor çıxış edə bilər. İpoteka qoyan qismində isə həm borclunun özü, həm də üçüncü şəxs iştirak edə bilər.

İpoteka öhdəliyinin məzmunu onun elementlərindən biridir. İpoteka saxlayanın və ipoteka qoyanın hüquq və vəzifələri bu öhdəliyin məzmununu təşkil edir. İpoteka müqaviləsi ipoteka predmetinin kreditorun sahibliyinə verilməsini nəzərdə tutmur. Ona görə də **ipoteka predmetini saxlamaq vəzifəsi** ipoteka qoyana (verənə) həvalə edilir (MM-in 312-ci maddəsi). İpoteka ilə yüklü edil-

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 209-210. Yaponiya qanunvericiliyinə görə, ipoteka predmeti kreditorun sahibliyinə verilmir (MM-in 369-cu maddəsi).

[2] «İpoteka haqqında» qanunun 30-cu maddəsində isə göstərilir ki, ipoteka müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, ipoteka predmeti ipoteka qoyan tərəfindən yalnız ipoteka saxlayanın yazılı razılığı ilə digər şəxsə özgəninkiləşdirə bilər və ya ona sərəncamlar verə bilər (istifadə, icarə və s.). Bununla qanunverici ipotekanı onun əsas əlamətlərinin birindən məhrum edir.

[3] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 586.

[1] yenə orada, s. 357.

[2] yenə orada, s. 587.

[3] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 210.

[4] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 218.

miş əşyanı saxlamaq ipoteka qoyanın (verənin) əsas və başlıca vəzifəsidir. Əşya onun sahibliyinə verilir. Bu, bir çox xarici ölkələrin qanunvericilik ənənəsinə uyğun gəlir. Məsələn, Yaponiya qanunvericiliyinə görə, ipoteka öhdəliyin əşya təminatının elə bir sistemidir ki, bu sistem əşyanın real olaraq verilməsini nəzərdə tutmur (MM-in 369-cu maddəsi).

İpoteka verənin (qoyanın) daşıdığı vəzifələrdən biri onun **ipoteka predmetinin real dəyərini qorumasından** ibarətdir. İpoteka verən əşyanın real dəyərini qorumağa borcludur (MM-in 312-ci maddəsinin 1-ci bəndi). Şəraitin pisləşməsi nəticəsində ipoteka üçün təhlükə yarana bilər. İpoteka saxlayan bu halda təhlükəni aradan qaldırmaq üçün müvafiq müddət verir. İpoteka bu müddət ərzində təhlükənin mövcudluğuna son qoymaq üçün lazımi tədbirlər görməlidir[1].

İpoteka qoyanın (verənin) əşyanı saxlamaq vəzifəsini yerinə yetirə bilməməsi müəyyən nəticəyə səbəb olur. Belə ki, bu kimi halda ipoteka saxlayan əşyanın ona verilməsini məhkəmə qaydasında tələb edə bilər (MM-in 312-ci maddəsinin 3-cü bəndi).

Zərərin əvəzini ödəmək vəzifəsi ipoteka qoyanın (verənin) daşıdığı vəzifələrdən biridir (MM-in 269-cu maddəsinin 10-cu bəndi). Belə ki, ipoteka predmeti məhv ola və ya zədələnə bilər. Məsələn, borclu şəxs ipotekaya qoyulmuş meyvə bağının ağaclarını yersiz kəsir. Bu halda ipoteka saxlayanın ixtiyarı var ki, vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etsin.

İpoteka predmetini sığortalamaq ipoteka qoyanın vəzifələrindən biridir (MM-in 312-ci maddəsinin 2-ci bəndi). Bunun üçün o, sığorta təşkilatı ilə sığorta müqaviləsi bağlayır, habelə müvafiq sığorta haqqı ödəyir. Bununla ipoteka qoyan sığortalı rolunda çıxış edir. Sığorta hadisəsi baş verdikdə, ipoteka qoyan bu barədə ipoteka saxlayana məlumat verməlidir. Məlumat vermək vəzifəsinin böyük hüquqi mənası vardır. Belə ki, yalnız sığorta hadisəsinin baş verməsi və bunun nəticəsində əşyaya zərər vurulması faktının ipoteka saxlayana bildirildiyi hallarda, sığorta təşkilatı sığortalıya (yəni ipoteka qoyana) sığorta ödənişi verir. Əgər bu cür məlumat verilməzsə, sığorta ödənişinin verilməsindən söhbət gedə bilməz.

İpoteka qoyan (sığortalı) sığorta təşkilatından aldığı sığorta ödənişindən təyinatına uyğun surətdə istifadə etməlidir. Daha doğrusu, o, sığorta təşkilatından aldığı məbləği sığorta hadisəsi nəticəsində zərər vurulmuş əşyanı (ipoteka predmetini) bərpa etməyə xərcləməlidir. Əgər ipoteka saxlayan tərəfindən buna hər hansı bir şübhə yaranarsa, onda o, sığorta ödənişinin verilməsinə mane ola bilər. Bunun üçün ipoteka saxlayan, hər şeydən əvvəl, sığorta təşkilatına məlumat verir. Yeri gəlmişkən, qeyd edək ki, əşyanı sığortalamaq vəzifəsi ipoteka saxlayana da həvalə edilə bilər. Qanun əşyanı sığortalamaq vəzifəsinin kimə tapşırılması barədə konkret göstəriş ifadə etmir. Lakin onun ifadə

[1] Almaniya MQ-nə görə, kreditor istənilən hər kəsdən tələb edə bilər ki, o, əşya üçün təhlükə törədən hərəkəti dayandırsın. Əgər ipoteka qoyan şəxs əşyanın pisləşməsinə yönələn hərəkətlər edərsə, kreditor neqator iddia verir (§1134). Əşyanın pisləşdiyi halda, kreditor həmin vəziyyətin aradan qaldırılması üçün müddət təyin edir. Əgər bu müddət ərzində ipoteka qoyan vəziyyəti aradan qaldırmazsa, kreditor dərhal əşya hesabına öz tələbinin təmin olunmasını tələb edə bilər (§1133) // Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

etdiyi göstərişdən başa düşmək olur ki, bu vəzifəni, əsasən, ipoteka qoyan yerinə yetirir. Axı, əşyanın mülkiyyətçisi odur və əşya onun sahibliyində qalır[1].

İpoteka qoyan ipoteka ilə yüklü edilmiş əşyanı saxlamaq vəzifəsini lazımınca icra etməlidir. Bu vəzifənin lazımi qaydada icra edilməməsi onun üçün arzuolunmaz nəticələrə səbəb ola bilər. Belə ki, bu cür hallar müəyyənləşdirilərsə və aşkar edilərsə, ipoteka predmeti olan əşya ipoteka qoyanın sahibliyindən məcburi olaraq çıxır. Lakin bu, yalnız o halda mümkün ola bilər ki, məhkəmə bu barədə müvafiq qərar qəbul etsin. Məhkəmə qərarı olmadan əşyanın ipoteka saxlayanın sahibliyinə verilməsi istisna edilir.

İpoteka qoyan vəzifə daşımaqla bərabər, həm də **hüquqlara** malikdir. Onun ipoteka predmeti olan **əşyanı özgəninkiləşdirmək (satmaq, dəyişdirmək, bağışlamaq, renta ödənişi üçün vermək və s.) hüququ vardır**. Belə halda, qeyd etdiyimiz kimi, ipoteka saxlayanın buna razılıq verməsi tələb olunmur. Söz yox ki, ipoteka ilə yüklü edilmiş əşya özgəninkiləşdirilərkən onun üzərində yeni mülkiyyətçi mülkiyyət hüququ əldə edir, yəni köhnə mülkiyyətçinin yerini yeni mülkiyyətçi tutur. Lakin **əşyanın mülkiyyətçisinin dəyişməsi ipoteka hüququna xitam vermir, onu dəyişdirmir**. Bu halda da **əşya ipoteka ilə yüklü olmaqda davam edir**. Bu, onunla izah edilir ki, ipoteka məhdud əşya hüququdur və bu hüquqa «əşyanı izləmək hüququ», «əşyanın arxasınca getmək hüququ» xasdır[2].

İpoteka qoyan əşyadan **istifadə etmək hüququna** malikdir. Bu halda o, ipoteka saxlayandan icazə və razılıq almağa borclu deyildir. İpoteka qoyan əşyadan yalnız normal və təyinatına uyğun surətdə istifadə edə bilər. İstifadə nəticəsində əldə edilən gəlir onun mülkiyyətinə keçir. Bu gəlir hesabına ipoteka qoyan çox vaxt əsas öhdəliyi icra edir (məsələn, aldığı borcu geri qaytarır və s.). Bundan əlavə, o, əşyanı kirayəyə, icarəyə verə, ipoteka predmeti barəsində üçüncü şəxslərlə hər hansı əqd bağlaya və s. bilər. Beləliklə, ipotekanın şərtlərinə görə, ipoteka predmeti olan əşya ipoteka saxlayanın sahibliyinə verilmir. O, ipoteka qoyanın sahibliyində qalır. Əgər mülkiyyətçi üçüncü şəxsdirsə, əşya onun sahibliyinə verilir. Mülkiyyətçi əşya üzərində bütün hüquqlarını (özgəninkiləşdirmək hüququ da daxil olmaqla) saxlayır. Əgər ipoteka saxlayan və mülkiyyətçi ipoteka müqaviləsində bu hüququ məhdudlaşdıran hər hansı bir şərt nəzərdə tutarlarsa, onda bu şərtin hüquqi qüvvəsi və əhəmiyyəti olmayacaqdır. Ona görə ki, qanunun müəyyən etdiyi göstərişə görə bu cür şərt nəzərdə tutan razılaşma etibarsızdır (MM-in 312-ci maddəsinin 4-cü bəndi).

İpoteka qoyanın (mülkiyyətçinin) borcudur ki, əgər zəruri olarsa, ipoteka predmeti olan əşyaya etdiyi dəyişiklik və əlavələri tələbin təmin olunması üçün versin. Əgər bu dəyişiklik və əlavələrin tələbin təminatı kimi verilməsi lazım olmazsa, onda ipoteka qoyan həmin dəyişiklik və əlavələri geri götürə bilər. Onunla əşyanın əvvəlki vəziyyəti bərpa edilir. Lakin onun bu cür hərəkətləri əşyanın dəyərini azaltmamalıdır. Əgər azaldarsa, mülkiyyətçi vurulan zərəri ödəyir.

[1] «İpoteka haqqında» qanunda göstərilir ki, əmlak ipoteka saxlayanın sahibliyində olarsa, o, ipoteka saxlayanın hesabına sığortalanmalıdır və bu ipoteka müqaviləsində nəzərdə tutulmalıdır (27-ci maddənin 4-cü bəndi).

[2] *Л. Жюллио де ла Морандьер.* Гражданское право Франции. М., Том 3, 1961, с. 480.

İpoteka qoyanın (borclunun) daşıdığı vəzifələrdən biri **əşyanın ipotekaya qoyulması (verilməsi) ilə bağlı çəkilən xərcləri ödəməkdən ibarətdir**. Söz yox ki, əşyanın ipotekaya qoyulması müvafiq xərclərin (məsələn, ipoteka müqaviləsinin notariat qaydasında təsdiqlənməsi ilə bağlı olan xərclər, daşınmaz əmlakın qeydiyyatı üçün rüsum və s.) çəkilməsini tələb edir. Bu xərcləri borclu ödəməlidir (MM-in 318-ci maddəsi). Bu norma dispozitiv normadır. Belə ki, xərc çəkmək vəzifəsi müqavilə əsasında ipoteka saxlayana həvalə edilə bilər.

Mülki qanunvericilik ipoteka hüquq münasibətində iştirak edən ikinci tərəf, yəni ipoteka saxlayan üçün də müəyyən hüquq və vəzifələr müəyyən edir. Onun əsas vəzifəsi ipoteka predmetini ipoteka verənin (qoyanın) lazımınca saxlamaması ilə əlaqədardır. Belə ki, ipoteka verən əşyanı lazımi qaydada saxlamadıqda, ipoteka predmeti ipoteka saxlayanın tələbi ilə məhkəmə qərarı əsasında ona verilir. Bu kimi halda ipoteka saxlayanın vəzifəsi ipoteka predmetini saxlamaqdan ibarətdir. O, əşya üzərində sahiblik hüququnu həyata keçirir. Lakin ipoteka saxlayan mülkiyyətçi statusu əldə etmir. Əşyanın mülkiyyətçisi kimi yenə də ipoteka verən olmaqda davam edir.

Əgər ipoteka predmeti sığortalanmamışdırsa, onda əşyanı sığortalamaq vəzifəsi ipoteka saxlayana həvalə edilə bilər. Onun bu cür vəzifə daşımasını qanunvericilik konkret olaraq müəyyən etmir. Lakin tərəflərin razılığı ilə bu vəzifənin icra edilməsi ipoteka saxlayanın üzərinə qoyula bilər.

İpoteka saxlayan qanunvericiliklə müəyyən edilən **hüquqlara** malikdir. **Əsas öhdəlikdən irəli gələn tələb hüququnu (tələbi)** üçüncü şəxsə (yeni kreditora, yeni ipoteka saxlayana) vermək onun əsas hüquqlarından biridir[1]. Qanun müəyyən edir ki, ipoteka saxlayan tələbi üçüncü şəxsə verə bilər (MM-in 313-cü maddəsi). Üçüncü şəxs bu halda yeni ipoteka saxlayan kimi çıxış edir. Əvvəlki ipoteka saxlayan ilə yeni ipoteka saxlayan arasında münasibətlər tələbin güzəşti (sessiya) formasında rəsmiləşdirilir.

Azərbaycan Respublikasının hüququ ipoteka öhdəliyini aksessor (əlavə, törəmə) öhdəliyi hesab edir. Onun taleyi əsas öhdəlikdən, yəni ipoteka ilə təmin olunan öhdəlikdən asılıdır. Bu, o deməkdir ki, əgər əsas öhdəlikdən irəli gələn tələb üçüncü şəxsə verilərsə (güzəşt edilərsə), onda əlavə öhdəlik olan ipoteka hüququ da üçüncü şəxsə keçir. Tələb güzəşt edildikdə, yeni kreditora ipoteka hüququ da keçir (MM-in 196-cı maddəsi). **İpoteka hüququ ilə təmin edilən tələb hüququnu ipotekanın özünü vermədən üçüncü şəxsə güzəşt etmək olmaz**. Həmçinin **tələb hüququ olmadan ipotekanın üçüncü şəxsə verilməsi yolverilməzdir**[2]. Ona görə də tələb və bu tələbi təmin edən ipoteka üçüncü şəxsə yalnız birlikdə və eyni vaxtda verilir. Tələb hüququ üçüncü şəxsə verildikdə, ipoteka hüququ da avtomatik olaraq həmin şəxsə keçir (MM-in 313-cü maddəsi). Özü də ipoteka və tələb yeni kreditora köhnə (ilkin) kreditorda olduğu kimi keçir (MM-in 309-cu maddəsinin 3-cü bəndi). Başqa sözlə desək, köhnə (ilkin) kreditorun tələbi və ipoteka hüququ yeni kreditora hüququn keçdiyi məqamda mövcud olmuş həcmdə və şərtlərlə keçir (MM-in 196-cı maddəsi). İpoteka saxlayanın tələb hüququnun və ipotekanın üçüncü şəxsə (yeni kreditora) eyni vaxtda verilməsi haqqında qayda Almaniya, Polşa və bəzi ölkələrin qanunvericiliyinə uyğundur[1]. Məsələn, Almaniya Mülki Qanunnaməsi ipoteka saxlayanın hüquqlarını üçüncü şəxslərə verə bilmək imkanını nəzərdə tutur (§1153-1156).

Tələb üçüncü şəxsə verildikdə bəzi hərəkətlərin edilməsi lazımdır. Birinci hərəkət ipoteka qoyulması (verilməsi) haqqında notariat qaydasında təsdiqlənmiş sənədin (ipoteka müqaviləsinin) üçüncü şəxsə (yeni ipoteka saxlayana) verilməsindən ibarətdir. İkinci hərəkət isə tələbin güzəştinin (verilməsinin) dövlət qeydiyyatına alınmasını nəzərdə tutur. Belə ki, tələbin güzəşti yazılı formada həyata keçirilir, notariat qaydasında təsdiqlənir və bundan sonra daşınmaz əmlakın dövlət reyestrində və ya daşınar əmlakın rəsmi reyestrində qeydə alınır (MM-in 313-cü və 194-cü maddələri). Yalnız bu hərəkətlərə əməl edildikdə tələbin güzəşti etibarlı sayılır. Almaniya mülki hüququna görə, tələbin güzəşti yazılı ərizə əsasında həyata keçirilir və ipoteka şəhadətnaməsinin verilməsi ilə müşayiət olunur. Yazılı ərizə forması güzəşt faktının torpaq kitabında qeydiyyata alınma qaydası ilə əvəz edilə bilər.

İpoteka saxlayanın malik olduğu hüquqlardan biri **imtina hüququdur** (MM-in 316-cı maddəsi). Bu hüquqa görə, ipoteka saxlayan ipoteka ilə təmin olunan tələbdən və ipoteka hüququndan imtina edə bilər. Bu halda mülkiyyətçi ipoteka hüququ əldə edir[2].

İpoteka saxlayanın ipotekadan imtina etməsi birtərəfli əqddir. Bunun vasitəsilə o, qeyd-şərtsiz və danışıqsız öz xeyrinə müəyyən edilmiş ipotekadan imtina edir. İpoteka saxlayanın imtina (əl çəkmə) aktı bəzi xarici ölkələrin, məsələn, Almaniyanın, Fransanın qanunvericiliyində nəzərdə tutulmuşdur[3]. Fransa qanunvericiliyinə görə, imtina aktı ipoteka hüquq münasibətinə xitam verilməsi əsaslarından biridir[4].

İmtina aktı daşınmaz əmlakın dövlət reyestrində və ya daşınar əmlakın rəsmi reyestrində qeydə alınır. Əgər bu əqd qeydiyyata alınmazsa, hüquqi əhəmiyyətə malik olmayacaqdır.

İpoteka saxlayanın malik olduğu hüquqlardan biri **ipoteka predmeti olan əşyanı satmağı** tələb etməkdən ibarətdir (MM-in 317-ci maddəsi). Bu hüquqa ipoteka saxlayan o halda malik olur ki, borclu ipoteka ilə təmin olunan öhdəliyi icra etməsin və ya lazımınca icra etməsin. Göstərilən bu cür məqamda o, daşınmaz əşyanın satılmasını tələb edə bilər.

---

[1] ABŞ mülki hüququna görə, ipoteka kreditoru ipoteka predmeti olan əmlaka hüququnu başqa şəxsə güzəşt edə bilər (bax: *Ласк Г.* Гражданское право США. М., 1961, с. 542).

[2] Analoji qayda Almaniya mülki qanunvericiliyində nəzərdə tutulmuşdur: tələbin güzəşt edilməsi ilə yeni kreditora (üçüncü şəxsə) həm də ipoteka keçir. Özü də tələb ipotekasız, ipoteka isə tələbsiz verilə bilməz (Германское право. Гражданское уложение. Часть 1. М., 1996).

[1] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 631-632.

[2] MM-in 316-cı maddəsində ipoteka saxlayanın imtina hüququ nəticəsində «kreditorun mülkiyyətçiyə çevrilməsi barədə» göstəriş ifadə edilir. Bu ifadəni başa düşmək və anlamaq çox müşkül məsələdir. Bu barədə Almaniya Mülki Qanunnaməsində belə bir göstəriş nəzərdə tutulmuşdur: kreditor ipotekadan imtina etdikdə, mülkiyyətçi ipoteka hüququ əldə edir (bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 619).

[3] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 621.

[4] yenə orada, s. 622.

Qeyd etməliyik ki, ipoteka saxlayan və ipoteka qoyan üçün «İpoteka haqqında» qanunda digər hüquq və vəzifələr də nəzərdə tutulmuşdur; həmin qanunun 25-ci maddəsi ipoteka qoyanın, 26-cı maddəsi isə ipoteka saxlayanın hüquq və vəzifələrinin müəyyənləşdirilməsinə həsr olunmuşdur. İpoteka müqaviləsində tərəflərin əlavə hüquq və vəzifələri də nəzərdə tutula bilər.

3. İpotekanın əmələ gəlmə əsasları

İpotekanın əmələ gəlmə əsasları dedikdə, ipoteka hüquq münasibətinin (ipoteka öhdəliyinin) yaranmasını şərtləndirən hüquqi faktlar başa düşülür. Qanunvericiliyə uyğun olaraq ipotekanın iki cür əmələ gəlmə əsası var:

- müqavilə ipotekası;
- qanun ipotekası (qanuni ipoteka).

Müqavilə ipotekası odur ki, bu cür ipoteka müqavilə əsasında yaranır. Bu növ ipoteka müqavilə üzrə əmələ gəlir (MM-in 270-ci maddəsinin 1-ci bəndi). Müqavilə ipoteka hüququnun yaranmasının ən vacib və mühüm əsasıdır. Bu cür ipoteka bir çox xarici ölkələrin qanunvericiliyində başlıca yer tutur. Macarıstanın, İspaniyanın, Polşanın, Fransanın, Çexiyanın, İsveçrənin, ABŞ-ın, İngiltərənin və digər dövlətlərin qanunvericiliyi müqaviləni ipoteka hüququnun yaranmasının ən geniş yayılmış əsası hesab edir. Yaponiya qanunvericiliyinə görə, ipoteka müqavilə əsasında müəyyən edilir[1].

Azərbaycan Respublikasının qanunvericiliyində qanuni ipoteka da nəzərdə tutulmuşdur. **Qanuni ipoteka** odur ki, bu cür ipoteka qanunda xüsusi olaraq nəzərdə tutulan hüquqi faktlar əsasında yaranır. Bu ipoteka ipoteka predmeti olan əşyanın mülkiyyətçisinin iradə ifadəsindən asılı deyil. Qanuni ipotekaya daşınmaz əşyanın nisyə satılması halını misal göstərmək olar. Bu halda daşınmaz əşyanın alıcıya verildiyi andan ödənildiyi anadək nisyə satılmış əşya satıcının yanında ipoteka qoyulmuş hesab edilir. Məqsəd nisyə satılmış daşınmaz əşyanın pulunun alıcı tərəfindən ödənilməsini təmin etməkdən ibarətdir (MM-in 600-cü maddəsinin 6-cı bəndi; bu bənd əsassız olaraq MM-dən çıxarılmışdır). Başqa bir misalda torpaq sahəsi və ya digər daşınmaz əşya renta ödənilməsi üçün verildikdə (bunun üçün renta müqaviləsi bağlanır), renta alan həmin əşyaya ipoteka hüququ əldə edir. Məqsəd öhdəliyin icrasını, yəni renta ödəyicisinin rentanı ödəməsini təmin etməkdən ibarətdir (MM-in 869-cu maddəsinin 1-ci bəndi)[2]. Bundan əlavə, torpaq icarəsi müqaviləsi üzrə icarə verən icarəçinin icarəyə götürülmüş torpaqda qurulmuş daşınmaz əşyalarına ipoteka hüququna malikdir (MM-in 716-cı maddəsi). Məqsəd torpaq icarəsi müqaviləsi üzrə hüquq münasibətindən irəli gələn tələblərin icrasını təmin etməkdən ibarətdir.

Bəzi xarici ölkələrin, məsələn Fransanın qanunvericiliyinə görə, ipoteka birtərəfli əqdlərdən də əmələ gələ bilər. Bu halda ipoteka aktı birtərəfli əqd formasında ifadə olunur. Belə ki, qanun notariat qaydasında təsdiqlənən ipoteka aktında kreditorun (ipoteka saxlayanın) adının məcburi olaraq çəkilməsini və

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 218.

[2] MM-in 869-cu maddəsinin 1-ci bəndində daşınmaz əşyaya girov hüququndan söhbət açılır. Azərbaycan Respublikasının müasir qanunvericiliyinə görə, daşınmaz əşya girov hüququnun predmeti ola bilməz. Ona görə də qanunvericinin həmin göstərişi qüsurludur.

göstərilməsini tələb etmir. Beləliklə, Fransa qanunvericiliyinə görə, ipoteka «təqdim edənə» (adsız) formasında rəsmiləşdirilə bilər[1]. İsveçrə hüququnda da birtərəfli əqd ipoteka hüququnun əmələ gəlməsinin spesifik əsası hesab edilir[2]. Bu cür əsas məhkəmə praktikasında yaranmışdır. İtaliya qanunvericiliyi əmələ gəlmə əsasına görə ipotekanın könüllü ipoteka kimi növünü fərqləndirir. Bu növ ipoteka bir tərəfin iradə ifadəsi ilə müəyyənləşdirilir. Bu cür akt üçün qanun notarial forma nəzərdə tutur. İtaliya qanunvericiliyi məhkəmə qərarı əsasında əmələ gələn ipoteka növünü də fərqləndirir.

4. İpotekanın rəsmiləşdirilməsi

İpoteka hüquq münasibəti ipoteka müqaviləsi adlı hüquqi konstruksiya ilə rəsmiləşdirilir. Qanun bu müqavilənin tənzimlənməsinə xüsusi olaraq ayrıca norma həsr etmişdir (MM-in 307-ci maddəsi).

İpoteka müqaviləsinə görə, bir tərəf (ipoteka verən) əsas öhdəliyin icrasını təmin etmək məqsədilə öz mülkiyyətində olan daşınmaz əşyanı və ya rəsmi reyestrdə qeydə alınmalı olan daşınar əşyanı ipotekaya qoyur, digər tərəf (ipoteka saxlayan) isə borclunun həmin öhdəliyi icra etmədiyi halda ipoteka ilə yüklü edilmiş əşyanın dəyərindən digər kreditorlara nisbətən üstün qaydada təminat almaq hüququ əldə edir. Bu müqavilə, bir qayda olaraq, ikitərəfli əqd hesab edilir. Ona görə ki, ipoteka müqaviləsinin bağlanması üçün iki tərəfin, yəni ipoteka verənlə ipoteka saxlayanın iradə ifadəsi tələb olunur. Bundan əlavə, ipoteka müqaviləsi bəzi məqamlarda çoxtərəfli əqdin bir növü kimi də çıxış edə bilər. Bu kimi halda müqavilənin bağlanması üçün zəruridir ki, üç tərəfin – ipoteka verənin (üçüncü şəxsin), ipoteka saxlayanın və əsas öhdəliyin subyekti olan borclunun iradələri ifadə olunsun. Belə vəziyyət ipoteka verən (qoyan) rolunda borclu yox, üçüncü şəxs çıxış etdiyi halda yaranır («İpoteka haqqında» qanunun 10-cu maddəsinin 2-ci bəndi). Bildiyimiz kimi, ipoteka qoyan həm borclu, həm də üçüncü şəxs ola bilər (MM-in 271-ci maddəsinin 2-ci bəndi). İpotekanı məhz üçüncü şəxs qoyduqda ipoteka müqaviləsi üçtərəfli əqd kimi bağlana bilər. Amma çox vaxt ipoteka müqaviləsi ikitərəfli əqd şəklində bağlanılır: bu, elə bir əqddir ki, həmin əqd əsas öhdəliyin icrasının təmin edilməsi üçün ipoteka saxlayan və ipoteka qoyan arasında bağlanılır («İpoteka haqqında» qanunun 1-ci maddəsi).

İpoteka müqaviləsində bəzi müqavilə şərtləri vacib əhəmiyyətə malikdir. Ona görə də bu şərtlər hökmən ipoteka müqaviləsində göstərilməlidir. Həmin şərtlərə qanun aid edir (MM-in 307-ci maddəsinin 1-ci bəndi):

- **ipotekanın predmeti**, yəni ipoteka ilə yüklü edilən əşya (ipotekaya verilən əşya);
- ipoteka ilə təmin edilən **əsas öhdəliyin mahiyyəti**. Məsələn, əgər ipoteka ilə alqı-satqı müqaviləsi təmin edilərsə, onda alıcı, satıcı və nəyin alqı-satqının predmeti olması (hansı əşyanın satılması) göstərilir;
- **ipoteka ilə təmin edilən tələbin ölçüsü (həcmi)**. Yuxarıdakı misalda al-

[1] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 603.

[2] bax: *Scyboz J., Gillieron P.-R.* Code civil suisse et Code des obligatinos annotes. Lausanne, 1999, p. 410.

qı-satqı müqaviləsinin predmeti olan əşyanın qiyməti tələbin ölçüsü (həcmi) hesab edilir. Məsələn, əgər ipoteka ilə kredit öhdəliyi təmin edilərsə, onda kreditin (əsas borcun) və faizin miqdarı tələbin ölçüsünü ifadə edir; əsas borcdan və faizdən başqa, ipoteka ilə təmin edilən tələbin həcminə daxildir («İpoteka haqqında» qanunun 4-cü maddəsinin 1-ci bəndi): dəbbə pulu; vurulmuş zərərin əvəzinin ödənilməsi; ipoteka predmetinə tutmanın yönəldilməsi ilə əlaqədar məhkəmə xərclərinin və digər xərclərin ödənilməsi. Bu, dispozitiv qaydadır. Belə ki, ipoteka müqaviləsi ilə ayrı qayda da nəzərdə tutla bilər;

- ipoteka ilə təmin olunan **öhdəliyin icra müddəti**. Göstərilən misallarda əşyanın alıcıya verilməsi, qiymətin ödənilməsi, kreditin və faizlərin qaytarılması müddətləri öhdəliyin icra müddətini ifadə edir.

Göstərilən şərtlər **ipoteka müqaviləsinin mühüm şərti** hesab edilir[1]. Əgər bu şərtlər barədə tərəflər razılığa gələrlərsə, ipoteka müqaviləsi bağlanmış sayılır.

İpoteka müqaviləsində ipoteka predmeti – ipoteka ilə yüklü edilmiş əşyanın müəyyənləşdirilməsi barədə qanun xüsusi tələb irəli sürür. Müqavilədə, hər şeydən əvvəl, ipoteka predmetinin adı, olduğu yer göstərilir. Bundan əlavə, əşyanın təsviri verilməlidir. Müqavilədə əşya elə təsvir edilməlidir ki, bu təsvir ipoteka predmetini eyniləşdirməyə imkan verə bilsin, onun eyniləşdirilməsi üçün yetərli olsun. Əgər təsvir əşyanı eyniləşdirmək üçün kifayət etməzsə, onda müqavilə bağlanmamış hesab edilir[2].

İpoteka müqaviləsində ipoteka predmeti olan əşyanın hansı hüquqa əsasən ipoteka verənə (qoyana) mənsub olması da göstərilməlidir. Burada söhbət əşya üzərində mülkiyyət hüququnu təsdiqləyən hüquqmüəyyənedici sənəddən – **qeydiyyat vəsiqəsindən (küpçədən) gedir**. Qeydiyyat vəsiqəsi şəxsin əşya üzərində mülkiyyət hüququnu sübut edən sənəddir. Müqavilədə bu sənədin seriya və nömrəsi göstərilməlidir. Bu, onunla izah olunur ki, əşyanı ipoteka qoyan yalnız onun mülkiyyətçisi ola bilər. Bununla belə, müqavilədə ipoteka verənin (qoyanın) mülkiyyət hüququnu qeydə almış dövlət orqanı (daşınmaz əmlakın dövlət reyestrini aparan orqan) göstərilməlidir.

Qanun ipoteka müqaviləsi üçün **yazılı forma** müəyyən edir (MM-in 307-ci maddəsinin 6-cı bəndi). Bu, o deməkdir ki, ipoteka müqaviləsi şifahi formada bağlana bilməz. Tərəflər bu müqaviləni adətən bir sənədin tərtibi yolu ilə bağlayırlar. Onlar müqaviləni imzalayırlar. Belə ki, ipoteka müqaviləsi ipoteka qoyan və ipoteka saxlayan tərəfindən, habelə ipoteka qoyan borclu deyildirsə, borclu tərəfindən imzalanmış bir sənədin tərtibi yolu ilə yazılı formada bağlanılır («İpoteka haqqında» qanunun 10-cu maddəsinin 2-ci bəndi). Bundan sonra ipoteka müqaviləsi notariat qaydasında təsdiqlənir. Belə təsəvvür yaranır ki,

[1] bax: п. 42 постоновления Пленума Верховного Суда РФ и ВАС РФ от 1 июля 1996 г. №6/8. «О некоторых вопросах, связанных с применением части первой Гражданского кодекса Российской Федерации» // Вестник ВАС РФ. 1996. №9; ВВС РФ. 1996. №9.

[2] bax: п. 5. Обзора практики рассмотрения споров, связанных с применением арбитражными судами норм Гражданского кодекса Российской Федерации о залоге, подготовленного ВАС РФ в 1997 г.

qanun ipoteka müqaviləsi üçün **notarial forma** müəyyən edir[1]. Lakin müqavilənin hüquqi əhəmiyyət kəsb etməsi üçün onun dövlət qeydiyyatına alınması tələb olunur (MM-in 309-cu maddəsi). Belə ki, ipotekanın predmeti daşınmaz əşya olduqda, müqavilə daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata götürülür. Yox, əgər ipoteka ilə yüklü edilmiş əşya daşınar əşya olduqda müqavilə daşınar əşyanın rəsmi reyestrində qeydə alınır. Məhz bu andan ipoteka hüquq münasibəti əmələ gəlir[2]. Dövlət qeydiyyatına alınmayan ipoteka müqaviləsi bağlanmış hesab edilmir. Ona görə ki, qanuna əsasən, məhz ipoteka müqaviləsi dövlət qeydiyyatına alındığı andan qüvvəyə minir və ipoteka hüququnun yaranmasına səbəb olur («İpoteka haqqında» qanunun 10-cu maddəsinin 4-cü bəndi, 11-ci maddəsinin 2-ci bəndi). Müqavilənin dövlət qeydiyyatına alınması tələbinə riayət edilməsi onun etibarsızlığına səbəb olur. Bu cür müqavilə puç əqd sayılır (MM-in 337-ci maddəsinin 1-ci bəndi).

Qeyd etmək lazımdır ki, ipotekanın rəsmiləşdirilməsi zamanı ipoteka kağızı verilir. «İpoteka haqqında» qanunun III fəsli məhz ipoteka kağızının hüquqi tənzimlənməsinə həsr edilmişdir.

İpoteka kağızı dedikdə, ipoteka hüququnu təsbit edən adlı qiymətli kağız başa düşülür. O, ipoteka müqaviləsinin qüvvədə olduğu müddətdə verilə bilər.

İpoteka kağızı bir nüsxədə tərtib edilir və ipoteka saxlayana verilir. İpoteka saxlayan onun qanuni sahibidir. **İpoteka kağızının qanuni sahibi** dedikdə, ipoteka kağızı üzərində sahiblik hüququ əldə edən şəxs başa düşülür. İpoteka saxlayandan başqa, digər şəxslər də ipoteka kağızının qanuni sahibi ola bilər. Belə ki, ipoteka saxlayan ipoteka kağızı üzrə hüquqları başqa şəxsə vermək hüququna malikdir; o, bu hüququ həyata keçirmək üçün ipoteka kağızında indossament qeydi (ipoteka kağızı üzrə hüquqların digər şəxsə verilməsi barədə qeyd) etməli və ipoteka kağızını yeni sahibinə verməlidir. Həmin şəxs ipoteka kağızının qanuni sahibi olur və ipoteka müqaviləsi üzrə ipoteka saxlayanın bütün hüquq və vəzifələrini həyata keçirir. Bu kimi hallarda ipoteka kağızının yeni sahibinə həm də ipoteka müqaviləsi verilir.

İpoteka kağızı öz qanuni sahibinin aşağıdakı hüquqlarını təsdiq edir:

- ipoteka predmeti olan əmlak üzərində ipoteka hüququnu;
- əsas öhdəliyin icrasını tələb etmək hüququnu;
- ipoteka predmeti olan əmlaka tutma yönəltmək hüququnu.

İpoteka kağızı ipoteka qoyanın və ipoteka saxlayanın adı və ünvanı (hüquqi şəxs olarsa, onun olduğu yer), ipoteka müqaviləsinin bağlandığı yer və tarix, əsas öhdəliyin mahiyyəti, həcmi (ölçüsu, məbləği), ipoteka predmetinin təsviri və yerləşdiyi yer və digər məsələlər barədə məlumatları əks etdirməlidir. Həmin məlumatların məcmusu **ipoteka kağızının məzmununu** təşkil edir.

[1] «İpoteka haqqında» qanunda (10-cu maddənin 2-ci bəndində) isə daşınmaz əşyanın ipotekası haqqında müqavilənin notariat qaydasında təsdiqlənməsi göstərilir.

[2] Almaniya Mülki Qanunnaməsinə görə, ipoteka hüquq münasibəti ya kreditora ipoteka şəhadətnaməsi verildiyi andan (§1117), ya da torpaq kitabında qeydiyyata alınma anından əmələ gəlir (§1115) // Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 599. Yaponiya mülki hüququ ipoteka hüquq münasibətinin onun qeydiyyata alınması anından əmələ gəlməsi barədə qayda müəyyənləşdirir (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 210).

İpoteka kağızı müəyyən formada tərtib olunur. Həmin forma qiymətli kağızlar üzrə Dövlət Komitəsi tərəfindən müəyyənləşdirilir. İpoteka kağızı dövlət qeydiyyatına alınmalıdır.

5. İpoteka saxlayanın tələbinin ipoteka predmeti hesabına təmin edilməsi

Əsas öhdəliyin tərəflərindən biri olan borclu şəxs öhdəliyi icra etmir, bu, öhdəliyin yerinə yetirilməsini gecikdirir. Bu hal ipoteka saxlayana (əsas öhdəliyin kreditoruna) əsas verir ki, öz tələbini ipoteka predmeti olan əşya hesabına təmin etsin. Məsələn, borclu (kredit alan) bankdan (kreditordan) aldığı krediti və faizi qaytarmır, yəni öhdəliyi icra etmir. Bu halda bank (kreditor) kredit alan şəxsin ipotekaya qoyduğu torpaq sahəsinin hesabına öz tələbini ödəmək hüququ əldə edir.

Qanunvericilik ipoteka qoyulmuş **əşyanın məhkəmədənkənar (qeyri-məhkəmə) yolla realizə edilməsi haqqında qayda** müəyyən edir (MM-in 319-cu maddəsi). Bu qaydaya görə, ipoteka ilə yüklü edilmiş əşyaya kreditorun öz tələbini yönəltməsi üçün məhkəmə qərarının qəbul edilməsi zəruri deyil və tələb olunmur. Başqa sözlə desək, kreditor məhkəməyə müraciət etmədən tələbini təmin edir. Bundan əlavə, tələbin ipoteka qoyulmuş əşya hesabına ödənilməsinə ipoteka saxlayanla ipoteka qoyanın notariat qaydasında təsdiqlənmiş razılaşması da tələb edilmir. Qanunvericilikdə bu barədə hər hansı bir göstəriş ifadə olunmur.

Borclu öhdəliyi icra etmədikdə, ipoteka saxlayan ipoteka predmeti olan **əşyanı açıq hərracdan satmaq hüququ əldə edir;** satış MM-in 414-416-cı maddələrinə uyğun olaraq həyata keçirilir. Qanun bu yoldan başqa, digər yolla da ipoteka saxlayanın ipoteka predmeti hesabına tələbin təmin edilməsini nəzərdə tutur. Belə ki, ipoteka saxlayan hər hansı üsulla öz tələbini ipoteka ilə yüklü edilmiş əşya hesabına təmin edə bilər. Mülki Məcəllə göstərir ki, ipoteka saxlayan və ipoteka qoyan (borclu) satışın açıq hərracdan fərqli olan başqa formaları barədə razılığa gələ bilərlər (319-cu maddənin 2-ci bəndi). Lakin mülkiyyət hüququnun keçməsi barədə üsulun tətbiq olunması barədə ipoteka saxlayanla ipoteka qoyan arasında, əgər saziş bağlanarsa, onda bu cür razılaşmanın hüquqi əhəmiyyəti olmayacaqdır. Həmin saziş etibarsız hesab edilir (MM-in 319-cu maddəsinin 1-ci bəndi). Məsələn, onlar öz aralarında belə bir razılığa gələ bilərlər ki, borclu əsas öhdəliyi icra etmədikdə, ipoteka saxlayan ipoteka predmeti olan əşya üzərində mülkiyyət hüququ əldə edir və bu yolla o, öz tələbini təmin edir. Söz yox ki, bu cür sazişin hüquqi qüvvəsi və əhəmiyyəti olmayacaqdır. Deməli, Azərbaycan Respublikasının mülki qanunvericiliyi **ipoteka predmeti olan əşya üzərində mülkiyyət hüququnun ipoteka saxlayana keçməsinə yol vermir**. Bu qayda isə bəzi xarici ölkələrin (məsələn, Macarıstanın, İsveçrənin, Polşanın, İspaniyanın və s.) qanunvericiliyinə uyğundur[1]. Məsələn, Almaniya MQ-nə görə, ipoteka predmeti olan əşya üzərində mülkiyyət hüququnun kreditora keçməsi barədə saziş etibarsızdır. İngiltərə qanunvericiliyinə görə isə borclu əsas öhdəliyi icra etmədikdə, əşyaya olan hüququnu itirir və əşya ipoteka kreditorunun mülkiyyətinə keçir[1]. Analoji qaydanı Yaponiya qanunvericiliyi də nəzərdə tutur. Belə ki, tərəflər əşyanın ipoteka saxlayanın mülkiyyətinə keçməsi barədə razılığa gələ bilərlər[2].

Beləliklə, **ipoteka predmeti açıq hərracdan satılır**. Bu üsulu bəzi xarici ölkələrin, məsələn, Almaniyanın, Yaponiyanın qanunvericiliyi də tanıyır. Almaniya qanunvericiliyinə görə, ipoteka saxlayan əşyanın məcburi satışını həyata keçirmək hüququna malikdir (Almaniya MQ-nin 1147-ci paraqrafı). Həmin hüquq əşyanın hərracdan satışı yolu ilə gerçəkləşdirilir. Satışdan əldə edilən pul məbləği ipoteka saxlayana verilir. Bu məbləğ ipoteka saxlayanın tələbindən artıq ola bilər. Tələbin ölçüsündən çox olan məbləğ borcluya (mülkiyyətçiyə) verilir, yəni qalıq (fərq) satılmış əşyanın mülkiyyətçisinə çatdırılır. Bu üsulla ipoteka saxlayanın tələbi ipoteka predmeti hesabına təmin edilir.

Buna oxşar qayda Azərbaycan Respublikasının MM-də də nəzərdə tutulmuşdur. Belə ki, ipoteka predmetinin açıq hərracdan satışından götürülən məbləğ ipoteka saxlayana verilir; bununla onun tələbləri təmin edilir. Əgər həmin məbləğ ipoteka saxlayanın tələblərini ödəməyə kifayət etmirsə, onda borclu çatışmayan məbləği ipoteka saxlayana ödəməlidir. Satışdan götürülmüş məbləğ ipoteka saxlayanın tələblərindən artıq ola bilər. Belə halda həmin artıq məbləğ borcluya verilir (MM-in 319-cu maddəsinin 6-cı bəndi).

Qeyd etmək lazımdır ki, ipoteka predmetinə tutmanın yönəldilməsi həm də «İpoteka haqqında» qanunla tənzimlənir: qanunun V fəsli məhz bu məsələnin hüquqi nizamlanmasına həsr olunmuşdur. Qanun ipoteka predmetinə tutmanın yönəldilməsinin iki yolunu müəyyən edir:

- məhkəməyə müraciət edilmədən ipoteka predmetinə tutmanın yönəldilməsi;
- məhkəmənin qərarı ilə ipoteka predmetinə tutmanın yönəldilməsi.

Aşağıdakı hallarda məhkəməyə müraciət edilmədən ipoteka predmetinə tutma yönəldilə bilər:

- ipoteka predmetinə müraciət edilmədən tutmanın yönəldilməsi **ipoteka müqaviləsində nəzərdə tutulduqda**;
- **ipoteka kağızı verildiyi halda** (burada ipoteka saxlayanın ipoteka predmetinə tutmanın yönəldilməsinə dair hüququnun məhkəməyə müraciət edilmədən həyata keçirilməsi barədə qeyd olmalıdır);
- ipoteka predmetinə tutmanın yönəldilməsi əsası yarandıqdan sonra ipoteka saxlayanla ipoteka qoyanın **notariat qaydasında təsdiqlənmiş razılaşması olduqda** (borclu əsas öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə ipoteka predmetinə tutmanın yönəldilməsi üçün əsas yaranır;
- bütün ümumi paylı mülkiyyətçilərin **notariat qaydasında təsdiqlənmiş razılaşması olduqda** (əgər ipotekanın predmeti qismində ümumi paylı mülkiyyətdə olan əmlak çıxış edərsə).

Əgər göstərdiyimiz hallar olmazsa və ya ipoteka qoyanın yaşadığı (olduğu) yeri müəyyən etmək mümkün deyilsə, ipoteka predmetinə tutma yalnız məh-

[1] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 634, 635, 636, 639.

[1] yenə orada, s. 640.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми*. Гражданское право Японии. Книга 1. М., 1983, с. 221.

kəmənin qərarı əsasında yönəldilə bilər. Bundan ötrü ipoteka saxlayan iddia ilə məhkəməyə müraciət etməlidir. Məhkəmə iddia ərizəsi daxil olduğu gündən 1 ay müddətində işə baxmalıdır.

Tərəflərin qarşılıqlı razılığına əsasən ipoteka predmeti **açıq bazarda və ya hərracda satıla bilər**. Məhkəmə qərarına əsasən isə ipoteka predmeti hərracda satılır. Hərrac **açıq auksion formasında** həyata keçirilir («İpoteka haqqında» qanunun 41-ci maddəsinin 5-ci bəndi).

İpoteka predmeti bir neçə əşyadan ibarət ola bilər (ümumi ipoteka). Bu cür ipoteka növündə ipoteka saxlayanın tələbinin ödənilməsi müəyyən xüsusiyyətlərə malikdir. Belə ki, onun tələbi istənilən əşya hesabına təmin edilə bilər. Tələb yönələn əşyanı seçmək və müəyyənləşdirmək hüququ ipoteka saxlayana (kreditora) məxsusdur. O, öz tələbini istənilən əşya hesabına ödəyə bilər. Bu, onun arzusu ilə həyata keçirilir (MM-in 308-ci maddəsinin 1-ci bəndi).

Eyni bir predmet (əşya) barəsində bir neçə (iki və daha artıq) şəxs ipoteka hüququnu həyata keçirə bilər. Başqa sözlə desək, eyni bir əşya ipoteka ilə bir neçə dəfə yüklü edilə bilər. Buna **sonrakı (təkrar) ipoteka deyilir**. Məsələn, sahibkar on hektar torpaq sahəsini üç müxtəlif müqavilədən – alqı-satqı, kredit və podrat müqavilələrindən əmələ gələn pul öhdəliklərinin icrasını təmin etmək üçün satıcıya, kredit verən banka və podrat işi görən tikinti təşkilatına ipotekaya qoya bilər. Mahiyyətcə borclunun bir neçə öhdəliyi yaranır. Bu münasibətlərdə üç nəfər ipoteka saxlayan iştirak edir. İpoteka predmeti isə eyni bir əşyadır, yəni torpaq sahəsidir. Belə hallarda ipoteka saxlayanların torpaq sahəsi hesabına tələbləri **növbəlilik prinsipi əsasında təmin edilir və ödənilir** (MM-in 320-ci maddəsi). Belə ki, ipoteka predmeti açıq hərracdan satılır. Əldə edilən satış pulu ipoteka saxlayanlar arasında növbəlilik qaydasında bölüşdürülür.

Növbəlilik qaydasının mahiyyətini **ipoteka saxlayanların ipoteka hüququnun dövlət qeydiyyatına alınmasının birinciliyi (ilkinliyi)** təşkil edir. Buna hüquq ədəbiyyatında ilkinlik (birincilik) prinsipi deyilir[1]. Bu prinsip Almaniyanın, Yaponiyanın və digər xarici ölkələrin qanunvericiliyinə məlumdur. Məsələn, Yaponiya mülki qanunvericiliyinə görə, növbəlilik ipoteka saxlayanların qeydiyyata alınmalarının xronoloji ardıcıllığı ilə müəyyən edilir (Yaponiya MM-in 373-cü maddəsi)[2]. İlkinlik prinsipinə əsasən, birinci olaraq özünün ipoteka hüququnu dövlət qeydiyyatına aldıran kreditora (ipoteka saxlayana) hamıdan əvvəl satış pulundan müvafiq məbləğ verilir. İkinci növbədə özünün ipoteka hüququnu dövlət qeydiyyatına aldıran kreditora (ipoteka saxlayana) nəzərdə tutulan pul məbləği ödənilir. Beləliklə, növbə əsasında ipoteka saxlayanların tələbləri təmin edilir.

Növbəlilik və ya satış pulundan verilən məbləğ barədə ipoteka saxlayanlar arasında mübahisə və ixtilaflar yarana bilər. Bu cür hallarda satış pulundan ipoteka saxlayanlara ödəniş həyata keçirilmir. Göstərilən məqamda ipoteka saxlayanların borcudur ki, növbəlilik və ya onlardan hər birinə çatası məbləğ barədə öz aralarında razılığa gəlsinlər və bununla mübahisəyə son qoysunlar.

[1] *Покровский И.А.* Основные проблемы гражданского права. М., 1998, с. 220.
[2] *Сакаэ Вагацума, Тору Арииздуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 223.

Daha doğrusu, zəruridir ki, ipoteka saxlayanların növbəliliyi və ya onlardan hər birinə çatası məbləğ dəqiq və konkret olaraq müəyyənləşdirilsin. Yalnız bundan sonra ipoteka saxlayanlar arasında satış pulu bölüşdürülür.

Satış pulunun məbləği ipoteka saxlayanlara çatan ümumi məbləğdən çox ola bilər. Belə halda bu məbləğlər arasında fərq (qalıq) ipoteka qoyana (əşyanın mülkiyyətçisinə) verilir (MM-in 320-ci maddəsi).

6. İpotekanın növləri

İpoteka müxtəlif əlamətlərə görə müəyyən növlərə bölünür. Hər şeydən əvvəl, ipoteka **öz predmetinə** görə üç növə ayrılır:

- müəssisələrin ipotekasına;
- torpaq sahələrinin ipotekasına;
- yaşayış evlərinin və mənzillərin ipotekasına.

Müəssisələrin ipotekası müəyyən xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər «Girov haqqında» qanunun V fəslinə daxil olan normalarda (36-40-cı maddələr) nəzərdə tutulmuşdur.

Bütövlükdə əmlak kompleksi kimi müəssisə ipoteka predmeti ola bilər. Müəssisə mülki hüquqda iki mənada başa düşülür. Birinci mənada o, mülki hüququn subyekti kimi çıxış edir. Bu baxımdan müəssisə mənfəət almaq məqsədilə yaradılan və mal istehsal edən, xidmət göstərən və ya iş görən hüquqi şəxs statuslu təsərrüfat subyektidir.

İkinci mənada müəssisə mülki hüquq münasibətlərinin obyekti kimi çıxış edir. Bu baxımdan o, bölünməyən, mürəkkəb, istehlak olunmayan və nəhayət, daşınmaz əşyadır, habelə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində mühüm vasitə olan əmlak kompleksidir. Mülki hüququn obyekti kimi müəssisə müxtəlif mülki-hüquqi əqdlərin alqı-satqı, icarə və digər müqavilələrin predmeti ola bilər. Müəssisə həm də ipoteka predmeti kimi çıxış edə bilər.

Müəssisə özünün **yalnız bütün əmlak tərkibi** ilə ipotekaya verilə bilər. Bu əmlak tərkibinə daxildir: maddi aktivlər; qeyri-maddi aktivlər; binalar, tikililər, qurğular; avadanlıq; inventar; xammal; hazır məhsul; tələb hüquqları; patentlər və digər müstəsna hüquqlar.

Müəssisə ipotekaya verilərkən ən əsas vəzifələrdən biri onun **əmlak tərkibinin dəyərini qiymətləndirməkdən** ibarətdir. Bu, müəssisənin **əmlakının tam inventarlaşdırılması əsasında** müəyyənləşdirilir. İnventarlaşdırmanın nəticələri barədə akt tərtib olunur. Müəssisənin əmlakının tərkibi və dəyəri haqqında mühasibat balansı tərtib edilir. İnventarlaşdırma aktı və mühasibat balansı müəssisənin ipotekası haqqında müqaviləyə əlavə olunur. Bu, qanunun müəyyən etdiyi məcburi tələbdir.

Müəssisə ipotekaya qoyularkən hökmən onun mülkiyyətçisinin razılıq verməsi tələb olunur. Buna müəssisənin mülkiyyətçisinin müvəkkil etdiyi orqan da icazə verə bilər. Əgər göstərilən tələb pozulmaqla müəssisənin ipotekası haqqında müqavilə bağlanarsa, onda bu cür müqavilənin hüquqi əhəmiyyətə malik olmasından söhbət gedə bilməz. Bu müqavilə, şübhəsiz ki, etibarsız sayılacaqdır.

İpoteka qoyan (mülkiyyətçi) müəssisənin əmlakı barədə sərəncam vermək hüququnu saxlayır. Onun ixtiyarı var ki, müəssisənin əmlakını satsın, dəyişsin,

icarəyə versin və s.

Almaniyada **təminatlı yiyəlik (Sicherungsübereinigung)** adlı institut mövcuddur. Həmin institut məhkəmə praktikası tərəfindən sanksiyalaşdırılmışdır. Bu institut əsasında ticarət və sənaye müəssisələri ipotekaya qoyulur. Təminatlı yiyəlik fidusiar əqddir. Bu əqdə görə, kreditor öhdəliyi təmin etmək üçün ipoteka qoyulan müəssisənin mülkiyyətçisinə çevrilir. Amma müəssisə borclu şəxsin istifadəsində qalır. Borclu öhdəliyi icra etdikdən sonra kreditor müəssisəni yenidən onun mülkiyyətinə verir. Bu cür institutu bizim ölkə qanunvericiliyi tanımır[1].

Torpaq sahələrinin ipotekasının xüsusiyyətləri «İpoteka haqqında» qanunun VI fəslinə daxil olan normalarda (49-55-ci maddələrdə) ifadə olunmuşdur. Özü də dərhal qeyd edirik ki, bəzi kateqoriya torpaqlar – yaşayış məntəqələrində ümumi istifadədə olan torpaqların, şəhərsalma qaydalarına uyğun olaraq binalar və tikililər ucaldılmasına yol verilməyən şəhər torpaqlarının və s. ipotekasına yol verilmir. İpoteka qoyanın torpaq sahəsində ipoteka saxlayanın razılığı olmadan bina, tikili və qurğular tikdirmək hüququ vardır.

Yaşayış evlərinin və mənzillərin ipotekası «İpoteka haqqında» qanunun VII fəslinə daxil olan normalarla (56-59-cu maddələrlə) tənzimlənir. Yaşayış evi dedikdə, daimi yaşayış üçün istifadə edilən daşınmaz əmlak növü başa düşülür. Yaşayış evləri fərdi və çoxmənzilli ola bilər. Bu cür evlər həm fiziki şəxslərin, həm də hüquqi şəxslərin mülkiyyətində olur. Onların ipotekasına yol verilir. Lakin bundan fərqli olaraq. dövlət və ya bələdiyyə mülkiyyətində olan fərdi və çoxmənzilli yaşayış evlərinin və mənzillərin ipotekaya qoyulmasını qanun qadağan edir. Bu cür yaşayış evlərinin və mənzillərin ipotekasına yol verilmir.

Çoxmənzilli yaşayış evlərində mənzillərin ipotekası müəyyən xüsusiyyətlərə malikdir. Bu cür evlərdəki mənzil ipoteka qoyularkən təkcə mənzil ipoteka qoyulmuş hesab edilmir. Həmin halda mənzillə yanaşı, həm də ev üzərində ümumi mülkiyyət hüququnda ipoteka qoyanın müvafiq payı ipoteka qoyulmuş sayılır.

Yaşayış evinin (mənzilin, onların bir hissəsinin) ipotekası haqqında müqavilə bağlanarkən ipoteka qoyan bəzi hərəkətlər etməyə borcludur. Söz yox ki, yaşayış evində mülkiyyətçi (ipoteka qoyan) ilə bərabər, digər şəxslər də (məsələn, ailə üzvləri və s.) yaşaya bilərlər və ya qeydiyyatda ola bilərlər. İpoteka qoyan (mülkiyyətçi) əsas öhdəliyi icra etmədikdə, ipoteka saxlayanın (kreditorun) tələbinin yaşayış evi hesabına təmin edilməsi heç kəsdə şübhə doğurmur. Yaşayış evinə (mənzilə) tələb yönələndə, ipoteka qoyanla (mülkiyyətçi ilə) evdə yaşayan digər şəxslər arasında ixtilaf və mübahisə yaranması məlum məsələdir. Gələcəkdə yarana biləcək bu cür xoşagəlməz və arzuolunmaz hallardan yaxa qurtarmaq üçün ipoteka qoyanın borcudur ki, **həmin şəxslərdən gələcəkdə evə (mənzilə) tələb yönəldiyi zaman evi tərk etmək barədə qabaqcadan razılıq alsın**. Alınan razılıq barədə o, ipoteka saxlayana məlumat verir. Beləliklə, ipoteka qoyan gələcəkdə evə (mənzilə) tələb yönəldiyi halda onunla yaşayan ailə üzvlərinin evi tərk etmək barədə ailə üzvlərindən öhdəlik almağa borcludur.

[1] Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 352.

Ailə üzvlərinin evi tərk etmək barədə öhdəliyi (razılığı) olarsa, ipoteka saxlayanın (kreditorun) tələbi yaşayış evi (mənzil) hesabına təmin edilir. Yaşayış evi satılır. Satışdan sonra evin (mənzilin) yeni mülkiyyətçisinin tələbi ilə ipoteka qoyan (mülkiyyətçi) və onunla birlikdə yaşayan ailə üzvləri tutduqları yaşayış sahəsini tərk edirlər. Bunun üçün maksimum bir ay müddət nəzərdə tutulur. Bu qayda o halda tətbiq olunur ki, yaşayış evi (mənzil) ipoteka haqqında müqavilə üzrə həmin evin (mənzilin) alınması və ya tikintisi üçün verilmiş kreditin qaytarılmasının təminatı üçün ipoteka qoyulmuş olsun.

Göstərilən iki şərt olmadıqda, yəni ailə üzvləri tərk etmək haqqında razılıq vermədikdə, öhdəlik götürmədikdə (birinci şərt), habelə kreditin qaytarılmasının təminatı üçün ipoteka qoyulmadıqda (ikinci şərt), evdən (mənzildən) ipoteka qoyanın və onun ailə üzvlərinin evi (mənzili) alan şəxs tərəfindən çıxarılması mümkün olmur. Belə ki, ipoteka saxlayan tələbini yaşayış evinə (mənzilə) yönəldir. Ev (mənzil) satılır. Bu, evin (mənzilin) yeni mülkiyyətçisinə əsas vermir ki, evdən (mənzildən) ipoteka qoyanı və onun ailə üzvlərini çıxarsın. Bu halda yaşayış evinin (mənzilin) yeni mülkiyyətçisi ilə keçmiş mülkiyyətçisi (ipoteka qoyan) arasında həmin evin (mənzilin) kirayəsi barədə müqavilə bağlanır. Kirayə müqaviləsi bağlamaq barədə tərəflər razılığa gəlməyə də bilərlər. Belə vəziyyətdə maraqlı tərəf məhkəməyə müraciət edir. Mübahisə və ixtilaf məhkəmə qaydasında həll olunur. Beləliklə, kirayə müqaviləsi və onun şərtləri məhkəmə qaydasında müəyyənləşdirilir. Məhkəmə qərarı hər iki tərəf üçün məcburi qüvvəyə malikdir.

İpoteka predmeti olan əşyaların sayına görə ipotekanın iki növü fərqləndirilir: ümumi ipoteka; xüsusi ipoteka. **Ümumi ipoteka** odur ki, bu cür ipotekanın predmeti kimi bir neçə əşya çıxış edir (MM-in 308-ci maddəsinin 1-ci bəndi). Bu ipoteka növündə kreditorun tələbi onun arzusu və seçimi ilə istənilən əşya hesabına təmin edilir. Ümumi ipoteka bəzi xarici ölkələrin, məsələn, Fransanın hüququnda da nəzərdə tutulmuşdur. Fransa hüququna görə, ümumi ipoteka borcluya məxsus olan bütün daşınmaz əmlakın növlərini (o cümlədən ipoteka müəyyən edildikdən sonra əldə edilən əmlak növlərini) yüklü edir. Ümumi ipoteka məhkəmə qərarı əsasında və ya qanunun bilavasitə qüvvəsinə əsasən əmələ gəlir[1]. Fransa MM-in 2121-ci maddəsi ümumi ipotekanın qanun əsasında əmələ gələn beş növünü nəzərdə tutur[2]. Məsələn, arvadın öz ərinin əmlakına ipotekası, qeyri-fəaliyyət qabiliyyətli şəxslərin qəyyumun əmlakına ipotekası və s. **Almaniya MQ-nə görə, ümumi ipoteka (Qesamthypothek)** dedikdə, müvafiq tələbi təmin etmək məqsədilə bir neçə torpaq sahəsinin ipotekaya verilməsi başa düşülür. Bu halda kreditor öz tələbini tam və bütöv halda və ya hər bir ayrıca torpaq sahəsi hesabına təmin edə bilər (§1132)[3]. Ümumi ipotekanı Yaponiya mülki qanunvericiliyi də nəzərdə tutur. Əgər bir öhdəlik bir neçə daşınmaz əşyanın ipotekası ilə təmin edilərsə, buna

[1] bax: *Жюллио де ла Морандьер Л.* Гражданское право Франции. Том 3. М., 1961, с. 250; Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999.

[2] bax: Французский гражданский кодекс / Перевод *И.С.Перетерского*. М., 1941.

[3] Германское право. Гражданское уложение. Часть 1. М., 1996; Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 586.

ümumi ipoteka deyilir[1].

Xüsusi ipoteka odur ki, bu növ ipoteka yalnız fərdi əlamətləri ilə müəyyən edilən əşyanı yüklü edir. Bu cür ipotekanın predmeti bir neçə yox, yalnız bir əşyadan ibarətdir. Fransa hüququ da xüsusi ipotekanı nəzərdə tutur. Fransa MM-inin 2129-cu maddəsi bu ipoteka növünə anlayış verir.

İpotekanın növlərindən biri **mülkiyyətçinin ipotekası** adlanır. Bu cür ipotekanı Azərbaycan Respublikasının mülki qanunvericiliyi də nəzərdə tutmuşdur (MM-in 308-ci maddəsinin 2-ci bəndi). Yeri gəlmişkən qeyd edək ki, bu növ ipoteka növünə Almaniya mülki qanunvericiliyində də rast gəlmək olur. Almaniya Mülki Qanunnaməsinin 1142-1143-cü və 1163-1167-ci paraqrafları mülkiyyətçinin ipotekası adlı hüquqi konstruksiyanın tənzimlənməsinə həsr edilmişdir. **Almaniya qanunvericiliyinə görə, mülkiyyətçinin ipotekası (Eigentümerhypothek və ya Eigentümergrundschuld)** dedikdə, mülkiyyətçinin öz şəxsi əşyasına, yəni xüsusi mülkiyyətində olan əşyasına, öz xeyrinə müəyyənləşdirilən ipoteka başa düşülür. Bu konstruksiyanı İsveçrə MM-i nəzərdə tutur (§813-814). Həmin konstruksiyanı bəzi ölkələrin, məsələn, Fransa, RF, İtaliya və digərlərinin mülki qanunvericiliyi tanımır. Bu konstruksiya Yaponiya mülki qanunvericiliyinə də məlum deyildir.

Almaniya mülki qanunvericiliyində mülkiyyətçinin ipotekası konstruksiyasının yaranması, hər şeydən əvvəl, mülkiyyətçinin eyni bir əşyanı bir neçə kreditora ipotekaya qoyması ilə bağlıdır[2]. Bu halda, bildiyimiz kimi, kreditorların tələbləri üstünlük (birincilik) prinsipi əsasında ödənir. Bu prinsipə görə, əvvəlcə birinci kreditorun tələbi, daha sonra növbə ilə ikinci, üçüncü, dördüncü və s. kreditorların tələbləri ödənilir. Əgər kreditorlardan biri növbədən çıxarsa, onda həmin növbədən sonra gələn növbə onun yerini tutur: ikinci növbəli kreditor birinci növbəli kreditorun, üçüncü növbəli kreditor ikinci növbəli kreditorun və s. yerini tutur. Roma hüququ ənənələrinə uyğun gələn bu qaydanın əksinə olaraq, Almaniya MQ **kreditorların öz yerlərini dəyişməməsi prinsipini** müəyyənləşdirir. Bu prinsipə görə, hətta birinci kreditorun tələbi ödənilsə də, ikinci kreditor onun yerinə, üçüncü kreditor isə ikinci kreditorun və s. yerinə keçmir, yəni sonrakı kreditorlar öz yerlərində qalırlar. Belə halda yeri boşalmış birinci kreditorun yerini mülkiyyətçinin özü tutur. Həmin prinsip bizim ölkə qanunvericiliyində belə ifadə edilmişdir: mülkiyyətçinin ipotekası zamanı digər hüquqların (kreditorların hüquqlarının) növbəliliyi dəyişmir (MM-in 308-ci maddəsinin 2-ci bəndi).

Mülkiyyətçinin ipotekasının **iki forması** vardır. **Birinci formanın** mahiyyəti ondan ibarətdir ki, əgər ipoteka ilə təmin olunan, yəni təminatı üçün ipoteka müəyyənləşdirilən tələb əmələ gəlməzsə, ona xitam verilərsə, onda ipoteka mülkiyyətçiyə məxsus olur (MM-in 308-ci maddəsinin 2-ci bəndi). Almaniya Mülki Qanunnaməsinin 1163-cü paraqrafı da göstərilən ipoteka formasına eyni cür anlayış verir. Kreditor (ipoteka saxlayan) tələbdən və ya ipotekadan imtina etdikdə, mülkiyyətçi ipoteka hüququ əldə edir.

Mülkiyyətçinin ipotekasının ikinci formasının isə mahiyyəti ondan ibarətdir

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 224.
[2] *Покровский И.А.* Основные проблемы гражданского права. М., 1998, с. 219-220.

ki, ipoteka ilə təmin olunan tələb əşyanın mülkiyyətçisinə keçdikdə, ipoteka da ona keçir (MM-in 308-ci maddəsinin 2-ci bəndi). Almaniya MQ-nin 1142-1143-cü paraqrafları həmin forma ipotekanın tənzimlənməsinə həsr edilmişdir[1]. Bu formalı ipoteka əmlakın mülkiyyətçisinin ipoteka üzrə tələbi nəzərdə tutulan müddətdə ödəməsini və təmin etməsini nəzərdə tutur. O, göstərilən tələb üzrə şəxsi borclu olmadığı hallarda da tələbi təmin edə bilər. Belə ki, çox vaxt əsas öhdəliyin iştirakçısı olan şəxsi borclu ilə əşyanı ipotekaya qoyan mülkiyyətçi eyni şəxs olmurlar[2]. Əgər mülkiyyətçi tələbi icra etməsə, onda kreditorun tələbi ipoteka predmeti olan əşyaya yönələ və bunun nəticəsində bu əşyaya onun mülkiyyət hüququ itə bilər. Məsələn, bankdan (kreditordan, ipoteka saxlayandan) kredit alan kəndli (fermer) təsərrüfatı başçısı (şəxsi borclu) yox, sahibkar (mülkiyyətçi) öz mülkiyyətində olan torpaq sahəsini ipotekaya qoyur (verir). Əşyanın mülkiyyətçisi (şəxsi borclu olmayan subyekt) torpaq üzərində mülkiyyət hüququnu itirməmək üçün ipoteka ilə təmin olunan tələbi onun icra müddəti çatdıqda təmin edir. Yuxarıdakı misalda sahibkar (mülkiyyətçi) kredit məbləğini banka (kreditora) qaytarır, yəni kreditorun tələbini təmin edir. Bu halda tələb hüququ (yəni kredit məbləğinin verilməsini tələb etmək hüququ) mülkiyyətçiyə keçir. Tələb hüququ mülkiyyətçiyə onun kreditoru təmin etdiyi vaxt keçir (MM-in 311-ci maddəsinin 2-ci bəndi). İpoteka törəmə və aksessor öhdəlikdir. Onun hüquqi taleyi əsas öhdəlikdən asılıdır. Bu, o deməkdir ki, əsas öhdəlik üzrə tələb hüququ mülkiyyətçiyə keçdikdə, ipoteka da mülkiyyətçiyə keçir. Mülkiyyətçinin ipotekasının ikinci formasının mahiyyəti də məhz bundan ibarətdir.

Kreditoru mülkiyyətçi təmin etdiyi və tələb hüququnun ona keçdiyi hallarda daşınmaz əmlakın dövlət reyestrində və ya daşınar əmlakın digər rəsmi reyestrində müvafiq qeydlər edilir. Bu məqsədlə müvafiq qeydlər yazılması üçün zəruri olan sənədlər mülkiyyətçiyə verilir. Bununla ipotekaya xitam verilir (MM-in 311-ci maddəsinin 3-cü bəndi).

İpotekanın növlərindən biri **üçüncü şəxsin ipotekasıdır**. Üçüncü şəxs dedikdə, əsas öhdəlikdə tərəf olmayan şəxs başa düşülür. O, nə kreditor, nə borclu şəxs, nə də mülkiyyətçidir. Əsas öhdəlik üzrə borclu şəxs (ipotekaya qoyulan əşyanın mülkiyyətçisi) tələbi icra etmir. Bunun nəticəsində kreditorun öz tələbini ipoteka predmeti olan əşyaya yönəltmək hüququ yaranır. Bu hüququn reallaşdırılması və həyata keçirilməsi isə borcluya məxsus olan əşyaya (ipoteka predmetinə) olan mülkiyyət hüququnun itirilməsinə səbəb ola bilər. Bu halda hər hansı üçüncü şəxs kreditoru təmin edə, yəni öhdəlik üçüncü şəxs tərəfindən icra edilə bilər. Başqa sözlə desək, əsas öhdəliyi borclunun (mülkiyyətçinin) əvəzinə, üçüncü şəxs icra edir. Buna borclunun razılığı tələb olunmur (MM-in 431-ci maddəsinin 1-ci bəndi).

[1] Германское право. Гражданское уложение. Часть 1. М., 1996; Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 618.
[2] Almaniya Mülki Qanunnaməsinə görə, ipoteka qoyan qismində, adətən, ipoteka ilə təmin olunan tələb üzrə borclu (şəxsi borclu) çıxış edir. İpoteka qoyan qismində ipoteka münasibətlərində başqa şəxslər də çıxış edə bilər. Həmin şəxslər ipoteka qoyulan əşyanın mülkiyyətçisi adlanır (Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 366). Deməli, bəzi məqamlarda şəxsi borclu ilə mülkiyyətçi eyni şəxs olmurlar.

Üçüncü şəxs kreditoru (ipoteka saxlayanı) təmin etdikdə, tələb hüququ həmin şəxsə keçir (MM-in 431-ci maddəsinin 3-cü bəndi). Tələb hüququ ilə bərabər, ipoteka da üçüncü şəxsə keçir (MM-in 315-ci maddəsinin 1-ci bəndi). Ona görə ki, qeyd etdiyimiz kimi, ipoteka hüququ aksessor (törəmə) öhdəlik olub, əsas öhdəlikdən asılıdır. Bu yolla üçüncü şəxs ipotekanı özünə keçirir. Daşınmaz əmlakın dövlət reyestrində və ya daşınar əmlakın digər rəsmi reyestrində üçüncü şəxs ipoteka saxlayan kimi qeydə alınır. Bundan əlavə, ipotekaya aid bütün zəruri və lazımi sənədlər üçüncü şəxsə verilir. Üçüncü şəxsin ipotekasının mahiyyəti də bundan ibarətdir. Məsələn, kənd sakini öz qonşusuna bir il müddətinə əlli min manat məbləğində borc pul verir. Borcun qaytarılmasını təmin etmək üçün qonşu (borclu, mülkiyyətçi) öz yaşayış evini ipotekaya qoyur. Bir illik müddət tamam olur. Qonşu (borclu, ipoteka verən) borcu qaytarmır. Kənd sakini öz tələbini ipoteka predmeti olan yaşayış evinin hesabına təmin etmək istəyir. Beləliklə, qonşunun yaşayış evinə mülkiyyət hüququnu itirmək təhlükəsi yaranır. Bunun qarşısını almaq üçün kəndli (fermer) təsərrüfatı ilə məşğul olan sahibkar (üçüncü şəxs) qonşunun əvəzinə borc pul məbləğini qaytarır, yəni tələbi icra edir. Bundan sonra tələb hüququ və ipoteka üçüncü şəxsə (sahibkara) keçir. O, ipoteka saxlayan rolunda çıxış edir.

İpotekanın növlərindən biri **sonrakı (təkrar) ipoteka** hesab edilir (MM-in 310-cu maddəsi). Sonrakı (təkrar) ipoteka dedikdə, ipotekaya qoyulan əşyanın yenidən digər ipotekaya verilməsi başa düşülür. Başqa sözlə desək, bu ipoteka növünə görə, eyni bir əşya ipoteka ilə bir neçə dəfə yüklü edilir. Bu ipoteka növü ilə kreditorların bir neçə tələbi təmin olunur. Onların tələbləri növbə ilə ödənilir. Növbə isə ipotekanın dövlət qeydiyyatına alınması anı ilə müəyyən edilir (MM-in 310-cu maddəsi).

İpoteka borcu ipotekanın növlərindən biri hesab olunur. Bu konstruksiya ipotekanın abstrakt (mücərrəd) formasıdır. Bəzi hüquq sistemlərində, xüsusən də Almaniya və İsveçrə mülki qanunvericiliyində ipoteka borcu konstruksiyası nəzərdə tutulmuşdur. Almaniya hüququ bu konstruksiyanı «Qrundschuld» (torpaq borcu) adlandırır[1]. **Qrundschuld** konstruksiyasına Almaniya Mülki Qanunnaməsinin 1192-ci paraqrafında anlayış verilmişdir. Bizim mülki qanunvericilik bu konstruksiyaya eyni (analoji) anlayış verir: **torpaq sahəsi elə yüklü edilə bilər ki, xeyrinə yüklülük müəyyənləşdirilən şəxsə torpaq sahəsi hesabına müəyyən pul məbləği (ipoteka borcu) ödənilməli olar**. Bu ipoteka forması hər hansı bir əsas öhdəliklə bağlı olmur. Torpaq sahəsi hesabına pul məbləği almaq hüququ öz-özünə mövcud olur. O mücərrəddir, yəni hər hansı bir əsas öhdəlikdən törəmir və ondan asılı olmur, habelə onun müəyyən olunmaq məqsədindən də asılı olmur. Bu cür abstrakt ipoteka forması bizim qanunvericiliyə məlum olsa da, bəzi dövlətlərin, məsələn RF-in qanunvericiliyinə yaddır.

Qrundschuld konstruksiyası mücərrəd girov forması kimi «votçina (mülk) borcu» adı altında 1848-ci il Meklenburq ipoteka nizamnaməsində nəzərdə tutulmuşdu. O, tamamilə müstəqil, hər hansı şəxsi öhdəlikdən asılı olmayan elə bir əşya hüququdur ki, bu hüquq əsasında torpaq hesabına müəyyən pul məbləği alınır. Bu hüququn nədən ötrü və hansı məqsəd üçün müəyyən edilməsinin heç bir əhəmiyyəti yoxdur: həmin hüquq öz-özünə mövcuddur; bu hüququn formal əsası vardır; o, öz-özünə bir əldən digərinə keçir və s. Ona görə bu, «əşya vekseli» adlanır.

İpotekanın növlərindən (formalarından) biri **renta borcu** adlanır. Bu konstruksiyanı Almaniya mülki qanunvericiliyi **Rentenschuld** adı altında nəzərdə tutmuşdur. Bizim ölkə qanunvericiliyi Rentenschuld (renta borcu) konstruksiyasına eyni (analoji) anlayış verir: **ipoteka borcu elə verilə bilər ki, vaxtaşırı təkrarlanan müddətlərdə daşınmaz əmlak üzrə müəyyən pul məbləği (renta borcu) ödənilməli olar** (MM-in 322-ci maddəsi).

Rentenschuld torpaq borcunun (Orundschuld) çevrilmiş formasıdır. Belə ki, torpaq borcunun məzmunu müəyyən məbləğdə pulun dərhal alınmasından ibarətdir. Bununla belə, onun məzmunu vaxtaşırı müəyyən ödənişlərin alınmasından da ibarət ola bilər. Belə halda torpaq borcu renta borcuna çevrilir. İsveçrə qanunnaməsi özü də onları «Qult» (torpaq sahəsindən gəlir) kimi ümumi ad altında birləşdirmişdir.

Almaniya Mülki Qanunnaməsinə görə, həm ipoteka borcu, həm də renta borcu **əşya borcuna (əşya yüklüyünə)** çevrilə bilər (§1198, 1203). Bu konstruksiyanı bizim ölkə qanunvericiliyi də nəzərdə tutur (MM-in 323-cü maddəsi): **daşınmaz əşya yüklülüyü xeyrinə yük müəyyən edilmiş şəxsə torpaq sahəsi üzrə vaxtaşırı müəyyən öhdəliklər icra edilməsini nəzərdə tutur**.

Almaniya Mülki Qanunnaməsi ipotekanın iki növünü fərqləndirir: dövriyyə ipotekası; təminat ipotekası (§1116). Dövriyyə ipotekası (Briefhypothek) ipoteka saxlayana girov şəhadətnaməsi (Pfandbrief) verilməsi yolu ilə müəyyənləşdirilir. Bu sənəd torpaq kitabını aparan qurum tərəfindən verilir. Təminat ipotekası «Kitab ipotekası»dır (Buchhypothek) və girov şəhadətnaməsinin verilməsi ilə müşayiət olunmur.

7. İpoteka krediti

İpoteka krediti ipotekanın xüsusi xarakterli növü sayılır. Bu anlayış Azərbaycan Respublikasının elmi dövriyyəsinə və normativ materialına lap yaxın vaxtlarda, 3-4 il bundan əvvəl daxil olmuşdur. Belə ki, respublika prezidentinin 16 sentyabr 2005-ci il tarixində qəbul etdiyi fərman məhz ipoteka kreditlərinə həsr edilmişdir[1]. Bu fərmanla Azərbaycan Respublikasında **ipoteka kreditləri sisteminin** yaradılmasının başlanğıcı qoyuldu.

İpoteka kreditləri sistemi ölkədə əhalinin yaşayış şəraitini yaxşılaşdırmaq, vətəndaşları mənzillə (yaşayış sahəsi ilə) təmin etmək və mənzil tikintisi üçün effektiv maliyyələşdirmə mexanizmi yaratmaq məqsədinə xidmət edir. Buna görə də ipoteka krediti sosial əhəmiyyəti olan hüquqi vasitədir. Əhalinin müxtəlif sosial təbəqələrini, xüsusilə də gənc ailələrin yaşayış sahəsinə olan tələ-

[1] Qrundschuld konstruksiyasının mahiyyəti barədə bax: *Кассо Л.А.* Понятие о залоге в современном праве (по изданию 1898 г.). М., 1999, с. 163-175; *Покровский И.А.* Основные проблемы гражданского права (по изданию 1917 г.). М., 1998, с. 218-219; Германское право. Часть 1 / Под ред. *В.В.Залесского.* М., 1996, с. 261-262; Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 551.

[1] Bax: «Azərbaycan Respublikasında ipoteka sisteminin yaradılması haqqında» Azərbaycan Respublikası prezidentinin fərmanı.

batının ödənilməsində o, böyük rol oynayır.

İpoteka krediti dedikdə, yaşayış sahəsinin alınması məqsədilə daşınmaz əmlakla təmin olunmaq şərti ilə müvəkkil kredit təşkilatı tərəfindən verilən borc başa düşülür.

İpoteka krediti, hər şeydən əvvəl, **Azərbaycan Respublikasının Mülki Məcəlləsi** ilə tənzimlənir; ipoteka kreditinin verilməsi qaydaları məhz MM-in normalarına əsaslanır. MM-dən başqa, «Azərbaycan Respublikasının Milli Bankı haqqında», «Banklar haqqında» və «İpoteka haqqında» Azərbaycan Respublikası qanunları da ipoteka kreditinin hüquqi tənzimetmə mənbəyi sayılır. Belə ki, ipoteka kreditlərinin verilməsi qaydaları bu qanunlara uyğun hazırlanmışdır. Digər tərəfdən ipoteka kreditləri verilən zaman həm də həmin qanunlar tətbiq olunur.

İpoteka kreditlərinin hüquqi tənzimlənməsində **qanunqüvvəli aktların** rolu xüsusilə böyükdür. Söhbət ilk növbədə **prezident fərmanlarından** gedir. Belə ki, prezidentin müvafiq fərmanları ilə Azərbaycan Respublikasının Milli Bankı nəzdində Azərbaycan İpoteka Fondu haqqında əsasnamə, Azərbaycan İpoteka Fondunun vəsaiti hesabına ipoteka kreditlərinin verilməsi qaydaları, habelə güzəştli ipoteka kreditlərinin verilməsi qaydaları təsdiq olunmuşdur.

İpoteka kreditlərinin verilməsi ilə bağlı yaranan münasibətlər kifayət qədər mürəkkəb xarakterə malikdir. Bu münasibətlərdə üç kateqoriya subyekt iştirak edir:

- Azərbaycan İpoteka Fondu;
- müvəkkil kredit təşkilatları;
- borcalan.

Azərbaycan İpoteka Fondu (AİF) dedikdə, Azərbaycan Respublikasının Milli Bankı nəzdində yaradılan dövlət təsisatı (idarəsi) başa düşülür; onun hüquqi şəxs statusu vardır. Buna görə də AİF dövlət hüquqi şəxsləri kateqoriyasına aid edilir. AİF-in hüquqi statusu, funksiya və səlahiyyətləri müvafiq əsasnamə ilə müəyyən edilir[1]. Onun **əsas və başlıca funksiyası** ipoteka kreditlərini maliyyələşdirməkdən ibarətdir. İpoteka kreditləri məhz AİF-in vəsaiti hesabına verilir ki, həmin vəsait əsasən **Azərbaycan Respublikasının dövlət büdcəsindən ayırmalar hesabına** formalaşır. Belə ki, hər il üçün dövlət büdcəsində AİF-ə vəsait ayrılması nəzərdə tutula bilər ki, bu vəsait ipoteka kreditlərini maliyyələşdirmək məqsədinə xidmət edir; bu məqsədlə də həmin vəsait Maliyyə Nazirliyi tərəfindən AİF-in hesabına köçürülür.

Lakin qeyd etməliyik ki, AİF əhaliyə bilavasitə və birbaşa ipoteka kreditlərinin verilməsi ilə məşğul olmur. Bu işi müvəkkil kredit təşkilatları görürlər ki, onlar ipoteka krediti ilə bağlı yaranan münasibətlərin əsas iştirakçılarından biridir. Söhbət ipoteka krediti sistemində iştirak edən müvəkkil kredit təşkilatlarından gedir.

Müvəkkil kredit təşkilatları odur ki, onlar ipoteka kreditlərinin verilməsində iştirak edən bank və bank olmayan kredit təşkilatlarıdır; əhaliyə birbaşa və bilavasitə ipoteka kreditləri verilməsi ilə məhz onlar məşğul olur. Belə ki, ayrı-ayrı şəxslərə ipoteka kreditlərini müvəkkil kredit təşkilatları verirlər. Belə səlahiyyətə malik olmaq üçün onlar **ipoteka kreditlərinin verilməsində iştirak edəcək kredit təşkilatlarının siyahısına** daxil olmalıdırlar. Bu siyahını Milli Bank təsdiq edir.

Müvəkkil kredit təşkilatı AİF ilə iki növ müqavilə bağlayır:

- baş saziş;
- xidmət müqaviləsi.

Baş saziş AİF ilə müvəkkil kredit təşkilatı arasında bağlanan elə bir müqavilədir ki, bu müqavilə ipoteka kreditləri üzrə tələb hüquqlarının əldə edilməsi qaydalarını və bununla bağlı yaranan münasibətləri tənzimləyir.

Xidmət müqaviləsi AİF ilə müvəkkil kredit təşkilatı arasında bağlanan elə bir müqavilədir ki, bu müqaviləyə görə, müvəkkil kredit təşkilatı ipoteka kreditləri üzrə borcalanın (ipoteka krediti alan şəxsin) ödənişlərini qəbul edir və AİF-in hesabına köçürür, ipoteka predmetinin vəziyyətini yoxlayır, habelə digər xidmətlər göstərir; hansı növ xidmətlərin göstərilməsini AİF müəyyənləşdirir. Özü də müvəkkil kredit təşkilatı borcalandan (ipoteka krediti alan şəxsdən) geri qaytarılan pul məbləğini annuitent ödənişi şəklində qəbul etməlidir. **Annuitent ödənişi** dedikdə, borc alanın ipoteka krediti üzrə əsas borcu və hesablanmış faizləri hər ay bərabər hissələrlə ödəməsi başa düşülür.

Borcalan ipoteka kreditləri ilə bağlı yaranan münasibətlərdə iştirak edən üçüncü kateqoriya şəxsdir. Müvəkkil kredit təşkilatından ipoteka krediti almış şəxsə borcalan deyilir; yalnız Azərbaycan Respublikasının vətəndaşı ipoteka krediti ala bilər. Xarici vətəndaşların ipoteka krediti alan şəxs – borcalan qismində çıxış etmələrini qanunvericilik nəzərdə tutmur.

AİF-in vəsaiti hesabına ipoteka kreditləri müvafiq normativ akt əsasında verilir[1]. Bu akt ipoteka kreditlərinin verilməsi ilə bağlı yaranan münasibətləri tənzimləyir. Həmin akt, hər şeydən əvvəl, AİF-in vəsaiti hesabına müvəkkil kredit təşkilatları tərəfindən ipoteka kreditlərinin verilməsi şərtlərini müəyyən edir.

Birinci şərt ondan ibarətdir ki, ipoteka krediti borcalana **yalnız yaşayış sahəsi almaq üçün verilir.** Belə ki, qaydalara görə, ipoteka krediti müvəkkil kredit təşkilatı tərəfindən yaşayış sahəsinin alınması məqsədilə verilən borcdur (qaydaların 2-ci bəndi). Odur ki, ipoteka krediti ilə torpaq sahəsi və digər növ daşınmaz əmlak almaq mümkün deyil.

İpoteka krediti hesabına həm əvvəllər, həm də yeni tikilən binalarda yaşayış sahəsi almaq olar. Lakin borcalan **ipoteka krediti hesabına yaşayış sahəsinin alınmasını təsdiq edən sənədlər** (yaşayış evinin alqı-satqı müqaviləsi və s.) təqdim etməlidir.

İkincisi, ipoteka krediti **daşınmaz əmlakın ipotekası ilə təmin** olunmalıdır. Belə ki, müvəkkil kredit təşkilatı AİF-in vəsaiti hesabına yaşayış sahəsi almaq məqsədilə borcalana kredit verir və onlar arasında **kredit müqaviləsi** bağlanır; bu müqavilədən kredit öhdəliyi yaranır ki, həmin öhdəliyin icrasını (yəni alınmış kreditin qaytarılmasını) təmin etmək üçün borcalan daşınmaz əmlakı hökmən ipotekaya qoyur. Bu zaman müvəkkil kredit təşkilatı ilə borcalan arasında **ipoteka müqaviləsi** bağlanır; bu müqavilədən ipoteka öhdəliyi

[1] Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2005-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Milli Bankı nəzdində Azərbaycan İpoteka Fondu haqqında Əsasnamə».

[1] Bax: Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2005-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Milli Bankı nəzdində Azərbaycan İpoteka Fondunun vəsaiti hesabına ipoteka kreditlərinin verilməsi qaydaları».

əmələ gəlir ki, o, əsas öhdəliyi – kredit öhdəliyini təmin edir. Belə halda borcalan ipoteka qoyan, müvəkkil kredit təşkilatı isə ipoteka saxlayan hesab edilir.

Borcalan öz mülkiyyətində olan torpaq sahəsini və digər növ daşınmaz əmlakı ipotekaya qoya bilər. Üçüncü şəxsin də öz daşınmaz əmlakını ipotekaya qoyması mümkündür. Şübhəsiz, **ipoteka dövlət qeydiyyatına alınmalıdır.**

Əgər borcalanın ipotekaya qoymaq üçün daşınmaz əmlakı olmazsa, onda onun aldığı yaşayış sahəsi ipotekaya qoyulur. Belə halda ipoteka krediti hesabına alınmış yaşayış sahəsi ipoteka qoyulmuş əmlak qismində çıxış edir.

Üçüncüsü, ipoteka krediti Azərbaycan manatı ilə verilməlidir; xarici valyuta (məsələn, ABŞ dolları və s.) ilə ipoteka krediti verilməsini qaydalar nəzərdə tutmur. Odur ki, xarici valyuta ilə ipoteka krediti verilə bilməz.

Dördüncüsü, ipoteka krediti **Azərbaycan Respublikasının vətəndaşlarına** verilməlidir. Bu səbəbdən Azərbaycan Respublikasında nə xarici ölkə vətəndaşlarına, nə də vətəndaşlığı olmayan şəxslərə ipoteka krediti verilə bilər. Bu, məlum məsələdir. Belə ki, Azərbaycan Respublikasında ipoteka kreditləri sistemi bizim ölkə əhalisinin yaşayış şəraitini yaxşılaşdırmaq məqsədinə xidmət edir. Sosial dövlət kimi tanınan Azərbaycan Respublikası ipoteka krediti hesabına öz vətəndaşlarının yaşayış sahəsinə olan tələbatını təmin edir. Bu isə dövlətimizin yeritdiyi və həyata keçirdiyi sosial siyasətin tərkib hissəsi sayılır.

Beşincisi, ipoteka krediti **müddətli öhdəlikdir**; o, müddətsiz verilə bilməz. Ona görə ki, müəyyən müddətə verilmək (müddətlilik) kreditin əsas əlamətlərindən biridir.

Müddət baxımından ipoteka kreditini şərti olaraq üç növə bölmək olar:

- qısamüddətli ipoteka krediti;
- orta müddətli ipoteka krediti;
- uzunmüddətli ipoteka krediti.

Qısamüddətli ipoteka krediti 3 ildən 5 ilə kimi verilən borca deyilir. **Orta müddətli ipoteka krediti** odur ki, bu növ kredit 5 ildən 10 ilə kimi verilir. 10 ildən 25 ilə kimi verilən borc isə **uzunmüddətli ipoteka krediti** adlanır.

Beləliklə, ipoteka kreditinin minimum müddəti 3 il, maksimum müddəti isə 25 ildir. Qaydalar göstərir ki, ipoteka krediti 3 ildən 25 ilədək müddətə verilir (qaydaların 3-cü bəndi). Lakin ipoteka kreditinin müddəti borcalanın qanunvericiliklə müəyyən olunmuş pensiya yaş (kişilər üçün 62 yaş; qadınlar üçün 57 yaş) həddindən çox olmamalıdır. Belə ki, qaytarılan kreditin son ödəniş tarixində borcalan elə yaş səviyyəsində olmalıdır ki, həmin səviyyə onun pensiya yaş həddini aşmasın, bu həddi ötməsin. Odur ki, məsələn, 45 yaşlı və ya 50 yaşlı şəxsə 25 illik müddətə ipoteka krediti vermək olmaz; bu müddətə kredit almaq üçün şəxsin yaş həddi 37 yaşdan çox olmamalıdır (qadınların yaşı isə 32 yaşdan artıq olmamalıdır).

Altıncısı, ipoteka kreditinin məbləği **50.000 manatdan çox olmamalıdır**; 50.000 min manatdan artıq məbləğə ipoteka krediti verilə bilməz.

Əlli min manat ipoteka kreditinin maksimum məbləğidir. Buna görə də ipoteka kreditinin məbləği 45 min, 40 min, 30 min və s. ola bilər. Bu, ipoteka qoyulmuş daşınmaz əmlakın bazar qiymətindən asılıdır. Belə ki, ipoteka kreditinin məbləği kreditin verildiyi tarixə ipoteka ilə yüklü edilən daşınmaz əmlakın bazar qiymətinin 85%-dən çox olmamalıdır. Məsələn, əgər ipoteka kreditinin

qaytarılmasını təmin etmək üçün ipoteka qoyulmuş daşınmaz əmlakın bazar qiyməti 40.000 manat olarsa, onda ipoteka kreditinin məbləği 34.000 manatdan ($\frac{40.000 \times 85}{100}$) çox ola bilməz.

Bununla belə, bəzən ipoteka kreditinin məbləği ipoteka qoyulmuş daşınmaz əmlakın bazar qiymətinin 100%-ni təşkil edə bilər. Bunun üçün ipoteka krediti öhdəliyinin icrasına, yəni kreditin qaytarılmasına İpoteka Kreditlərinin Zəmanət Fondu tərəfindən zəmanət verilməsi tələb olunur (ən azı kreditin məbləğinin 20%-i həcmində).

O ki qaldı, ipoteka qoyulmuş daşınmaz əmlakın qiymətinin müəyyənləşdirilməsinə, qeyd etməliyik ki, bu məsələ **müstəqil qiymətləndirici** tərəfindən həll olunur; müstəqil qiymətləndirici həmin əmlakın dəyərini müəyyənləşdirərək **qiymətləndirmə aktı** tərtib edir.

Yeddincisi, ipoteka kreditləri üzrə ödəniləcək aylıq məbləğ borcalanın **aylıq məcmu gəlirin 75%-dən çox olmamalıdır.** Məsələn, əgər borcalanın aylıq gəliri 1000 manatdırsa, onda onun hər ay ödəyəcəyi məbləğ 750 manatdan çox ola bilməz.

Səkkizincisi, kredit üzrə illik faiz dərəcəsi 8%-dən çox olmamalıdır. Məsələn, əgər borcalana 40.000 məbləğində kredit verilmişdirsə, o, illik 3200 ($\frac{40.000 \times 8}{100}$) manat məbləğində faiz ödəməlidir.

Doqquzuncusu, ipoteka qoyulmuş **əmlak sığortalanmalıdır**; bundan ötrü ipoteka qoyan (borcalan) sığortaçı ilə sığorta müqaviləsi bağlamalıdır. Bu zaman ipoteka predmeti kreditin həcmindən az olmamaq şərtilə sığortalanmalıdır və onun bazar qiyməti əsas götürülməlidir.

İpoteka krediti almaq üçün aşağıdakı sənədlərin tərtib edilməsi tələb olunur:

- kredit müqaviləsi (bu müqavilə müvəkkil kredit təşkilatı ilə borcalan arasında bağlanır);
- ipoteka müqaviləsi (bu müqavilə müvəkkil kredit təşkilatı ilə borcalan arasında bağlanır);
- ipoteka kağızı (adlı qiymətli kağız);
- ipotekanın dövlət qeydiyyatını təsdiq edən sənəd;
- borcalan haqqında sənədlər;
- ipoteka krediti hesabına yaşayış sahəsinin alınmasını təsdiq edən sənəd;
- borcalan tərəfindən aparılan ödənişləri təsdiq edən sənədlər;
- ipoteka predmetinin müstəqil qiymətləndirici tərəfindən qiymətləndirmə aktı;
- ipoteka predmetini sığorta müqaviləsi.

Göstərilən sənədlər olduqda müvəkkil kredit təşkilatı borcalana ipoteka krediti verir; bundan sonra müvəkkil kredit təşkilatı verdiyi ipoteka kreditlərinin yenidən maliyyələşdirilməsi üçün ərizə ilə AİF-ə müraciət edir. AİF verilmiş ipoteka kreditlərinin qanunvericiliklə (ipoteka kreditlərinin verilməsi haqqında qaydalarla) müəyyən edilmiş tələblərə uyğunluğunu yoxlayır; əgər yoxlama müsbət nəticələnərsə, AİF 10 iş günü ərzində müvəkkil kredit təşkilatına yazılı formada icazə (razılıq) verir; yoxlamanın nəticəsi mənfi olarsa, o, müvəkkil kredit təşkilatına razılıq verməkdən yazılı formada imtina edir.

Bəzi kateqoriya şəxslərə güzəştli ipoteka kreditləri verilir. **Güzəştli ipoteka kreditlərinin verilməsi** ilə bağlı münasibətlər müvafiq normativ aktla tənzimlənir[1]. Bu akt (qaydalar) iki qrup şəxslərin sosial vəziyyətinin yaxşılaşdırılması və yaşayış sahəsinin alınması məqsədilə verilən ipoteka kreditləri üzrə güzəştlərin tətbiqi qaydalarını müəyyən edir. Bu qrup şəxslərə aiddir:

- gənc ailələr;
- hərbi qulluqçular.

Qaydalara görə, yalnız onlar ipoteka kreditləri üzrə güzəştlərdən istifadə edə bilərlər; başqa kateqoriya şəxslər üçün ipoteka kreditləri üzrə güzəştlər müəyyən edilmir. Özü də gənc ailələrə və hərbi qulluqçulara ipoteka kreditləri **dövlət büdcəsindən ayrılmış vəsaitlər hesabına verilir.**

Gənc ailənin üzvü olan aşağıdakı şəxslər ipoteka kreditləri üzrə güzəştlərdən istifadə edə bilər.

- şəhid ailəsinin üzvü (ər, arvad və ya övlad);
- Milli Qəhrəman (özü, əri, arvadı və ya övladı);
- məcburi köçkün və ya ona bərabər tutulan şəxs;
- üç ildən az olmayan müddətdə dövlət qulluqçusu işləyən şəxs;
- elmlər namizədi və ya doktoru elmi dərəcəsi olan şəxs;
- idman sahəsində xüsusi xidmətləri olan şəxslər (fəxri bədən tərbiyəsi və idman xadimi, ölkə miqyaslı yarışların qalibi (1-ci yer), beynəlxalq miqyaslı yarışların mükafatçıları (I, II və III yerlər).

Güzəştli ipoteka krediti almaq hüququna malik olan şəxs, əgər bu hüquqdan istifadə etmək istəsə, müvəkkil kredit təşkilatına müraciət edir; həmin şəxs kredit təşkilatına həm də eyni zamanda belə hüquqa malik olmasını təsdiqləyən sənəd təqdim etməlidir.

Əgər müsbət qərar qəbul olunarsa, müvəkkil kredit təşkilatı müraciət edən şəxsə güzəştli ipoteka krediti verir; bu zaman ipoteka kreditinin verilməsi qaydalarına əməl olunmalıdır.

Güzəştli ipoteka krediti aşağıdakı əlamətlərlə xarakterizə olunur:

- güzəştli ipoteka krediti 35.000 manatdan çox ola bilməz;
- güzəştli ipoteka krediti 3 ildən 30 ilədək verilir;
- güzəştli ipoteka krediti üzrə illik faiz dərəcəsi 4%-dən çox olmamalıdır.

İpoteka krediti dövlət büdcəsindən ayırmalar hesabına verilir. Buna görə də həmin məsələ effektiv maliyyə nəzarətinin obyekti olmalıdır.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Гражданское право. Учебник. Том 1. Полутом 2 / Под ред. **Е.А.Суханова**. М., 1997 (гл. 29).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого**. М., 1998 (гл. 28).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И.Масляева**. М., 1997 (гл. 24).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко**. М., 1998 (гл. 23).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой и др**. М., 1998 (гл. 20).

Покровский И.А. Основные проблемы гражданского права. 'М., 1998 (гл. XII).

Кассо Л.А. Понятие залого в современно праве. М., 1999.

Сарбаш С.В. Право удержания как способ обеспечения исполнения обязательтсв. М., 1998.

Катков М.М. Понятие право удержания в римском праве. Киев. 1910.

Белов В.А. Поручительство. М., 1998.

Велиев И. Основные формы залога в историческом развитии и проблемы залога недвижимости в современных условиях. Баку. 1998.

Лазебо А. Банковская гарантия // Экономика и жизнь. 1995. № 10.

Витрянский В. Обеспечение исполнения обязательств // Хозяйство и право. 1995. № 9.

Основные институты гражданского права зарубежных стран. М., 1999.

А.Жалинский, А.Рёрихт. Введение в немецкое право. М., 2001.

Baur J.F., Stürner R. Lehruch des Sachenrechts. München. 1999.

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983.

Шапп Ян. Основы гражданского права Германии. Учебник. М., 1996.

Wolf M. Sachenrecht. München. 1997.

Wieling H.J. Sachenrecht. Berlin. 1997.

[1] Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında güzəştli ipoteka kreditlərinin verilməsi qaydaları».

XXX FƏSİL
ÖHDƏLİKLƏRƏ XİTAM VERİLMƏSİ

§ 1. Öhdəliklərə xitam verilməsinin anlayışı, əsasları və ayrı-ayrı üsulları

1. Öhdəliklərə xitam verilməsinin anlayışı

Əşya hüquq münasibəti mütləq xarakterə malik olub, müddətsiz hüquq münasibəti sayılır, yəni müddət kateqoriyası ilə məhdudlaşmır. Məsələn, vətəndaş öz mülkiyyətində olan yaşayış evinə müddətsiz olaraq əşya hüququna malikdir. Öhdəlik hüquq münasibəti isə nisbi xarakterə malik olub, **müddətli hüquq münasibətidir**. Öhdəlik hüquq münasibətləri (öhdəliklər) müəyyən vaxt müddəti hüdudlarında mövcud olur. Başqa sözlə desək, bütün öhdəliklərin özlərinin mövcud olma həddi vardır. Məsələn, sahibkar öz əmlakını vətəndaşa icarəyə verir və bununla icarə öhdəliyi əmələ gəlir. İcarə müqaviləsinin müddəti başa çatdıqda, vətəndaş əmlakı sahibkara qaytarır. Borc alan şəxs nəzərdə tutulan müddətdə aldığı borcu qaytarır. Daşıyıcı (nəqliyyat təşkilatı) yükü daşıma müqaviləsində göstərilən müddətə təyinat məntəqəsinə çatdırır və yük göndərənə verir. Podrat müqaviləsi üzrə podratçı (tikinti təşkilatı) müəyyənləşdirilmiş müddətdə evi tikib sifarişçiyə verir. Depozit müqaviləsi üzrə banka əmanət qoyan vətəndaş bir ildən sonra pulu götürür və s. Belə təsəvvür yaranır ki, öhdəliklər əbədi deyil, onlar müddətli hüquq münasibətidir. Elə bir məqam gəlib çatır ki, öhdəliklərin mövcud olmasına son qoyulur, yəni onlar ləğv edilir.

Öhdəliklər mülki hüquq münasibətlərinin bir növüdür. Hər bir mülki hüquq münasibəti kimi onlar üç elementdən — subyektlərdən, obyektdən və məzmundan (tərəflərin subyektiv hüquq və vəzifələrindən) ibarətdir. Nə qədər ki, bütün bu elementlər mövcuddur, onda öhdəliklər də qüvvədə olur. Göstərilən elementlərdən, heç olmazsa, hər hansı birinin mövcudluğuna son qoyularsa, onda bu, bütövlükdə öhdəliklərin ləğv edilməsinə səbəb olur. Məsələn, əmək qabiliyyəti olmayan arvad boşanmış ərindən aliment alır. Bu, şəxsi xarakterli öhdəlikdir. Ər ölür. Bununla həmin öhdəliyə xitam verilir. Ona görə ki, öhdəliyin elementlərindən birinin — **subyekt tərkibinin mövcudluğuna** son qoyulur. Başqa bir misalda hüquqi şəxs ləğv edilir, onun bankdakı hesablaşma hesabı bağlanır və bununla hesab üzrə mülki hüquq münasibətinə xitam verilir. Bu halda da öhdəliyin subyekt tərkibinin mövcudluğuna son qoyulur.

Yanğın nəticəsində kirayəyə verilmiş taxta materialdan tikilən yaşayış evi məhv olur. Başqa bir misalda icarəyə verilən fərdi-müəyyən əlamətli əşya (məsələn, torpaq sahəsi) dövriyyədən çıxarılır. **Öhdəliyin predmetinin** (yaşayış evi, torpaq sahəsinin) mövcudluğuna son qoyulması nəticəsində hər iki öhdəliyə (kirayə öhdəliyinə və icarə öhdəliyinə) xitam verilir.

Sahibkar öz qonşusuna borc pul verir. Qonşu isə öz minik avtomobilin sahibkara satır, lakin alqı-satqı müqaviləsi icra olunmur, yəni avtomobil sahibkara, avtomobilin pulu isə qonşuya hələlik verilmir. Onlar bir-birinə olan qarşılıqlı

pul tələblərini əvəzləşdirmək barədə razılığa gəlirlər. **Öhdəliyin məzmununun** (tərəflərin hüquq və vəzifələrinin) mövcudluğuna son qoyulur və öhdəliyə xitam verilir. Söylədiklərimizdən biz belə bir qənaətə və nəticəyə gələ bilərik ki, **öhdəliyin elementlərindən birinin mövcudluğuna son qoyulması tərəflər (kreditor və borclu) arasında hüquqi əlaqənin itməsinə və kəsilməsinə səbəb olur**. Bunun nəticəsində kreditorun borcluya olan tələb hüququ itir, borclunun isə vəzifə daşıması ləğv edilir. Bu isə o deməkdir ki, tərəflərin — kreditorun və borclunun hüquq və vəzifələrindən ibarət olan öhdəliyin məzmunu ləğv edilir.

Beləliklə, **öhdəliyə xitam verilməsi dedikdə, öhdəliyin məzmununun ləğv edilməsi başa düşülür**. Qüvvədə olan qanunvericilik öhdəliklərə xitam verilməsinin iki növünü fərqləndirir: tamamilə xitam vermə; qismən xitam vermə. Öhdəliyə MM-də və ya müqavilədə nəzərdə tutulan əqdlər üzrə tamamilə və ya qismən xitam verilir (MM-in 527-ci maddəsi). **Tamamilə xitam vermə** odur ki, bunun nəticəsində tərəflərin bütün hüquq və vəzifələri ləğv edilir. **Qismən xitam vermə** isə tərəflərin bəzi hüquq və vəzifələrinin ləğv edilməsini nəzərdə tutur. Məsələn, borc verən borcun yarısını borc alana bağışlayır.

Öhdəliklərə xitam verilməsi anlayışı (Beendung des Schulverhältnisses) Almaniya qanunvericiliyinə də məlumdur. MQ-nin 2-ci kitabının («Schuldrecht») üçüncü bölməsində ifadə olunan normalar (§ 362-397) həmin məsələnin tənzimlənməsinə həsr edilmişdir[1].

Öhdəliklərə xitam verilməsi konstruksiyasını Yaponiya mülki qanunvericiliyi də tanıyır. Yaponiya MM-in öhdəlik hüququ bölməsinin ümumi hissəsinin beşinci paraqrafı (474-520-ci maddələr) öhdəliklərə xitam verilməsi üzrə münasibətləri nizama salır[2].

2. Öhdəliklərə xitam verilməsinin əsasları və sistemi

Öhdəliklər avtomatik olaraq öz-özünə ləğv edilmir. Bunun üçün zəruridir ki, **müəyyən ləğvedici (xitamedici) hüquqi faktlar** yaransın. Hüquqi faktlar real gerçəkliyin qanunda nəzərdə tutulan və göstərilən hallarıdır. Bu hallar öhdəliklərə xitam verilməsinin əsasları adlanır. Məsələn, firma bankdan kredit alır. Kredit müqaviləsində nəzərdə tutulan müddət başa çatdıqda, firma aldığı krediti faizi ilə birlikdə banka qaytarır, yəni kredit öhdəliyini lazımınca icra edir. Bununla həmin öhdəliyə xitam verilir. Öhdəliyin lazımınca icra edilməsi hüquqi fakt kimi həmin öhdəliyə xitam verilməsinə əsas olur ki, bu fakt qanunda, yəni Mülki Məcəllədə (528-ci maddədə) nəzərdə tutulmuşdur. Deməli, öhdəliklərin icra edilməsi onlara xitam verilməsinin əsasıdır.

Öhdəliklərə xitam verilməsinin əsasları dedikdə, qanunda nəzərdə tutulan və göstərilən elə hüquqi faktlar başa düşülür ki, bu faktların nəticəsində öhdəliklərin mövcud olmasına son qoyulur, yəni öhdəliklər ləğv edilir. Bu əsaslar ya öhdəliyin məzmunu ilə (məsələn, qarşılıqlı tələblərin əvəzləşdirilməsi haqqında tərəflərin razılaşması ilə), ya öhdəliyin subyekt tərkibi ilə (mə-

[1] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 331, 342; Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 6; Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 243.

sələn, şəxsi xarakterli öhdəliklərdə kreditorun və borclunun ölməsi ilə), ya da öhdəliyin obyekti ilə (məsələn, öhdəliyin obyekti olan fərdi-müəyyən əlamətli əşyanın yanması ilə) bağlı ola bilər. Başqa sözlə desək, öhdəliklərin xitam edilməsinə əsas olan hüquqi faktlar onların elementlərilə əlaqədardır.

Öhdəliklərə xitam verilməsinin əsasları öhdəliklərin **ləğv edilməsinin üsulları** sayılır. Məsələn, yuxarıda çəkdiyimiz misalda öhdəliklərin icrası həm öhdəliklərə xitam verilməsinin əsasıdır, həm də öhdəliklərə xitam verilməsinin üsuludur. Dediklərimizdən belə çıxır ki, «öhdəliklərə xitam verilməsinin əsasları» və «öhdəliklərə xitam verilməsinin üsulları» kimi iki anlayış mənaca eyni olub, üst-üstə düşür.

Qüvvədə olan mülki qanunvericilik öhdəliklərə xitam verilməsinin əsaslarının (üsullarının) siyahısını verir. MM-in 27-ci fəslinə daxil olan normalar (527-559-cu maddələr) bu əsasları müəyyənləşdirir və tənzimləyir. Bu əsaslara aiddir:

- öhdəliklərə icra nəticəsində xitam verilməsi;
- öhdəliklərin peşman haqqı verilməsi ilə xitam olunması;
- öhdəliklərə depozitə qoyma nəticəsində xitam verilməsi;
- öhdəliklərə novasiya nəticəsində xitam verilməsi;
- öhdəliklərə qarşılıqlı tələblərin əvəzləşdirilməsi ilə xitam verilməsi;
- öhdəliklərə borcun bağışlanması ilə xitam verilməsi;
- öhdəliklərə müddətin keçməsinə görə xitam verilməsi;
- borclu və kreditorun eyni şəxs olması ilə öhdəliklərə xitam verilməsi;
- öhdəliklərə dövlət və ya bələdiyyə orqanının aktına əsasən xitam verilməsi;
- borclunun ölümü nəticəsində öhdəliklərə xitam verilməsi;
- hüquqi şəxsin ləğvi nəticəsində öhdəliklərə xitam verilməsi;
- icra mümkün olmadığına görə öhdəliklərə xitam verilməsi;
- öhdəliklərə xitam verilməsinin digər əsasları.

Öhdəliklərə xitam verilməsinin üsullarını (əsaslarını) nəzərdə tutan siyahı qeyri-qəti xarakterə malikdir[1]. Mülki qanunvericilik bu əsasların (üsulların) **təxmini siyahısını** müəyyənləşdirir. Belə ki, bu siyahı real həyatda mövcud olan bütün əsasları (üsulları) əhatə etmir. Məsələn, müqavilə öhdəlikləri tərəflərin sazişi ilə ləğv edilə bilər ki, bu üsul həmin siyahıda nəzərdə tutulmur. Bundan əlavə, müqavilədə iştirak edən tərəflərdən biri müqaviləni mühüm dərəcədə pozduqda, digər tərəfin tələbi ilə müqavilə öhdəliyi ləğv edilə bilər (MM-in 421-ci maddəsinin 2-ci bəndi). Öhdəliyin yaranmasını şərtləndirən məqsədə nail olunmasını və ya bu məqsədə çatmağın qeyri-mümkünlüyünü öhdəliklərin ləğv edilməsinin əsaslarından hesab etmək olar ki, bu, həmin siyahıda göstərilmir. Yaponiya mülki hüquq elmində iddia müddətinin ötməsi halı öhdəliyə xitam verilməsinin əsası kimi nəzərdə tutulur[2]. Vacibdir ki, **siyahıda nəzərdə tutulmayan bu cür əsaslar (üsullar) mülki hüququn prinsiplərinə zidd olmasın**.

Öhdəliklərə xitam verilməsinin əsasları (üsulları) müxtəlif meyar və əlamətlərə görə təsnif edilir. **Əsasın (üsulun) əqd olub-olmaması əlamətinə** görə həmin üsullar iki cür olur:

- **əqd olan əsaslar** (lazımınca icra, peşman haqqı verilməsi, əvəzləşdirmə, novasiya, borcun bağışlanması). Bu üsullar öhdəlik iştirakçılarının iradəsindən asılı olan əsaslardır.
- **əqd olmayan əsaslar** (borclunun və kreditorun bir şəxsdə birləşməsi, icranın mümkün olmaması, dövlət və ya bələdiyyə orqanının akt qəbul etməsi, şəxsi öhdəliklərdə borclunun ölümü, hüquqi şəxsin ləğvi). Bu üsullar öhdəlik iştirakçılarının iradəsindən asılı olmayan əsaslardır.

Bütün öhdəliklərə aid olub-olmaması əlamətinə görə əsaslar (üsullar) iki yerə bölünür:

- **bütün öhdəliklərə şamil edilən** əsaslar (məsələn, icra);
- **yalnız bəzi öhdəlik növlərinə aid olan** əsaslar (məsələn, borclunun ölümü kimi üsul yalnız şəxsi xarakterli öhdəliklər üçün xarakterikdir).
- **həyata keçməsi üçün hər iki tərəfin razılıq** verməsini tələb edən əsaslar (məsələn, novasiya, peşman haqqı vermək);
- **həyata keçməsi yalnız bir tərəfin razılıq** verməsini tələb edən əsaslar (məsələn, əvəzləşdirmə).

Öhdəliklərə xitam verilməsi əsasları (üsulları) tam və vahid halında birləşərək sistem yaradır. Həmin sistemə daxil olan bütün əsasların hamısı bu və ya digər öhdəliyin mövcud olmasını sona çatdırır. Özü də bu əsasların çoxu Roma hüququnda nəzərdə tutulmuşdu[1]. Həmin əsaların əksəriyyəti Almaniya və Yaponiya qanunvericiliyinə də məlumdur. Almaniya professoru E.Klyuntsinger öhdəliyin xitam olunması əsaslarını müəyyənləşdirən ayrıca sxem işləyib hazırlamışdır[2]. Yaponiya mülki hüquq elmi öhdəliyin xitam edilməsi əsaslarının təsnifatını verir[3].

§ 2. Öhdəliklərə xitam verilməsinin ayrı-ayrı əsasları (üsulları)

1. İcra nəticəsində öhdəliklərə xitam verilməsi

Öhdəlik hüquq münasibəti (öhdəlik) kreditorla borclu arasında əmələ gəlir. Bu münasibətə görə, kreditor tələb etmək hüququna malik olur, borclu isə müəyyən hərəkəti yerinə yetirir. Bu münasibət o anda ləğv edilir ki, borclu kreditorun xeyrinə nəzərdə tutulan və tələb edilən hərəkəti yerinə yetirsin, yəni ona həvalə edilmiş vəzifəni icra etsin. Bunun nəticəsində isə kreditorun tələb etmək hüququ artıq mövcud olmur və beləliklə, öhdəliyə xitam verilir. Məsələn, evi tikən podrat təşkilatı evi tikib qurtardıqdan sonra sifarişçiyə verir, si-

[1] Göstərilən üsulları xarici ölkələrin qanunvericiliyi də tanıyır (bax: Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А. Васильев, А.С. Комаров.* М., 2004, с. 489).

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 327.

[1] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 280-302; *Dojdev D.V.* Rimskoe çastnoe pravo. Uçebnik. M., 1999, c. 516-533; *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 1999, с. 302-309; *Novitski İ.B.* Roma hüququ. Dərslik / *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 137-138.

[2] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 331, 342; *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993. s. 221.

[3] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 326-327.

farişçi isə görülən işin haqqını ödəyir. Bununla podrat öhdəliyi ləğv edilir. Dediklərimizdən belə çıxır ki, **öhdəliklərin icra edilməsi onlara xitam verilməsinin əsasıdır (üsuludur).**

İcra öhdəliklərə xitam verilməsinin nisbətən daha sadə və təbii üsuludur. Bu, həm də nisbətən daha geniş yayılmış üsuldur. Qədim Roma hüququ da bu cür əsası nəzərdə tutmuşdu[1]. Roma hüququ öhdəliklərin icrası üsulunu «solutio» anlayışı ilə əhatə edirdi[2]. Roma hüquqşünasları icranı öhdəliklərə xitam verilməsinin təbii və asan üsulu hesab edirdilər[3]. Klassik Roma hüququ dövründə öhdəliklər, əsasən, «solutio» üsulu ilə xitam olunurdu.

Azərbaycan Respublikasının yeni müasir qanunvericiliyi icranı öhdəliklərə xitam verilməsinin əsaslarından (üsullarından) biri hesab edir (MM-in 528-ci maddəsi). 1964-cü il MM-də də bu cür əsas nəzərdə tutulmuşdu. Həmin məcəllənin 219-cu maddəsində göstərilirdi ki, öhdəlik lazımi qaydada icra edildikdə, ona xitam verilir. İcra üsulunu, demək olar ki, bütün xarici dövlətlərin (Almaniyanın[4], Yaponiyanın[5], Fransanın, İtaliyanın, Hollandiyanın, RF-in və s.) milli qanunvericiliyi də tanıyır. Azərbaycan Respublikası MM-inin 27-ci fəslinin 1-ci paraqrafına daxil olan normalar (528-530-cu maddələr) öhdəliklərə xitam verilməsinin icra üsulunu tənzimləyir.

Hər bir mülki hüquq münasibəti kimi öhdəliklər də müəyyən təyinata malikdir, yəni onlar nəzərdə tutulan məqsədə nail olmaq niyyəti güdür. Məsələn, torpağın icarəyə götürülməsinin əsas məqsədi torpaqdan istifadə etməklə orada müxtəlif tərəvəz və s. məhsullar yetişdirməkdən və fayda əldə etməkdən ibarətdir. Yaşayış evinin kirayəsinin əsas məqsədi evdən gecələmək, dalğalanmaq, bir sözlə, yaşamaq üçün istifadə etməkdən ibarətdir. Yaşayış evinin tikilməsini nəzərdə tutan podrat öhdəliyinin əsas məqsədi yaşayış evi tikməkdən ibarətdir və s. Öhdəliyin qarşısında duran məqsədə nail olmaq üçün o icra olunmalıdır. **Əsas məqsədə çatmaq, elə öhdəliyin icrası deməkdir**. Hər bir öhdəliyin praktiki mənası onun icra olunmasından ibarətdir. Məhz bu səbəbdən Yaponiya sivilistika doktrinasında göstərilir ki, öhdəliyin icrası öhdəliyin məqsədinə çatması deməkdir.

Öhdəliyin icrası dedikdə, borclu tərəfindən kreditorun tələblərini təmin edən hərəkətlərin yerinə yetirilməsi başa düşülür. Bu hərəkət əmlakın verilməsindən (məsələn, alqı-satqı, icarə, kirayə öhdəliklərində), borcun ödənilməsindən (məsələn, borc öhdəliyində), iş görülməsindən (məsələn, podrat öhdəliyində), xidmət göstərilməsindən (məsələn, yükün və ya sərnişinin təyinat məntəqəsinə çatdırılmasını nəzərdə tutan daşıma öhdəliyində) ibarətdir. Lakin öhdəliyin qarşısında duran məqsədə nail olmaq üçün sadəcə olaraq öhdəliyin icrası kifayət etmir. Bunun üçün vacibdir ki, öhdəlik lazımınca (lazımi qaydada) icra olunsun. Yalnız lazımınca icra əsas məqsədə nail olunmasının və öhdəliyə xitam verilməsinin üsulu ola bilər. Qanun birbaşa göstərir ki, öhdəliyə onun kreditorun xeyrinə lazımınca icrası nəticəsində xitam verilir (MM-in 528-ci maddəsi). Başqa sözlə desək, öhdəlik lazımi qaydada icra edildikdə, ona xitam verilir.

Öhdəliyin lazımınca icrası dedikdə, birincisi, kreditorun tələbini tamamilə təmin edən, ikincisi, müqaviləyə və ya qanuna tam uyğun gələn icra başa düşülür. Bu cür icra əhatə edir: öhdəliyin lazımi şəxsə icra edilməsini (yəni kreditora və ya onun göstərdiyi şəxsə); lazımi yerdə öhdəliyin icrasını (yəni müqavilədə və ya qanunda — MM-in 426-cı maddəsində göstərilən yerdə); lazımi müddətdə öhdəliyin icrasını (müqavilədə və ya qanunda — MM-in 427-ci maddəsində nəzərdə tutulan müddətdə); öhdəliklərin icrasının prinsiplərinə uyğun olaraq öhdəliyin icrasını (vicdanlılıq, real icra, sabitlik kimi prinsiplərə)[1]. Kreditorun irəli sürdüyü bütün tələblərin hamısını, əgər borclu şəxs yerinə yetirməzsə, onda bu, lazımınca icra sayılmır. Bu cür icra öhdəliyin qismən icrası hesab olunur. **Qismən icra** öhdəliyə xitam vermir. Bu icra borclu üçün əlavə öhdəliklər yarada bilər (məsələn, dəbbə pulunun, zərərin əvəzinin ödənilməsi, behin batması və s.). Bununla belə, qanunda nəzərdə tutulan bəzi hallarda, qismən icra da öhdəliyə xitam verilməsinə dəlalət edə bilər. Məsələn, satıcı satılan əşyanın kəmiyyəti (sayı, miqdarı), keyfiyyəti, çeşidi, komplektləşdirici məmulatı, dəsti, tara və qabı barədə alqı-satqı müqaviləsinin şərtini pozur, yəni alqı-satqı müqaviləsini lazımınca icra etmir, qismən icra edir. Alıcı bu barədə satıcıya alqı-satqı müqaviləsində nəzərdə tutulan müddətdə, belə müddət müəyyənləşdirilmədikdə isə, ağlabatan müddətdə bildiriş (məlumat) verməlidir (MM-in 595-ci maddəsinin 1-ci bəndi). Əgər alıcı həmin müddətlərdə satıcıya bildiriş verməzsə, onda qismən icra alqı-satqı öhdəliyinin xitam edilməsinə səbəb olur.

Öhdəliyin lazımınca icrası **birtərəfli əqddir**[2]. Bu, o deməkdir ki, öhdəliyə onda iştirak edən şəxsin — borclunun iradəsi əsasında xitam verilir. Özü də əsas (təmin olunan) öhdəliyə xitam veriləndə, onu təmin edən aksessor (əlavə) öhdəliyi də ləğv edilir. Məsələn, sahibkar aldığı krediti banka qaytarır, yəni öhdəliyi lazımınca icra edir. Bununla əsas öhdəliyə — kredit öhdəliyinə xitam verilir. Sahibkar kredit götürərkən öz minik avtomobilini banka girov qoymuşdu və bununla əlavə öhdəlik — girov öhdəliyi yaranmışdı. Əsas öhdəliyə xitam veriləndə avtomatik olaraq girov öhdəliyi də ləğv edilir.

Əsas məsələlərdən biri lazımınca **icra nəticəsində öhdəliklərə xitam verilməsini rəsmiləşdirməkdən ibarətdir**. Bu cür rəsmiləşdirmə öhdəliyin icrasını təsdiqləyir və sübut edir. Ümumi qaydaya görə, şifahi formada həyata keçirilən icra aktının yazılı təsdiqə ehtiyacı yoxdur. Bununla belə, yazılı formada bağlanmış müqavilənin icrası üçün əqdlər də tərəflərin razılaşması ilə şifahi bağlana bilər. Məsələn, iki vətəndaş öz aralarında televizorun satılması barədə yazılı formada alqı-satqı müqaviləsi bağlayırlar. Tərəflər alqı-satqı müqavi-

[1] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 280.

[2] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 518.

[3] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 303.

[4] Bu üsul (die Erfüllung) Almaniya MQ-nin 362-ci paraqrafında nəzərdə tutulur (*Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 220, 221).

[5] Bu üsul Yaponiya MM-in 474-cü maddəsində nəzərdə tutulmuşdur (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 326).

[1] Borclunun lazımi qaydada, lazımi yerdə və lazımi vaxtda etdiyi icra öhdəliyin xitam olunmasına səbəb olur (*Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993. s. 220).

[2] Bəzi müəlliflər onu kreditorla borclunun sazişi və ya hüquqi əqd hesab edirlər (Məsələn, bax: *Л. Жюллио де ла Морандьер.* Гражданское право Франции. Том 2. М., 1961, с. 524)

ləsinin icra aktını (yəni televizorun alıcıya verilməsini, alıcının isə televizorun pulunu satıcıya ödəməsini) şifahi formada həyata keçirirlər. Göstərilən qayda o halda etibarlı sayılır ki, bu, MM-ə və müqaviləyə zidd olmasın.

Bununla bərabər, bəzi hallarda öhdəliyin icrası aktı yazılı surətdə təsdiqlənə bilər. Belə ki, əgər borclu tələb edərsə, kreditor **icranı tamamilə və ya hissə-hissə qəbul etdiyini təsdiqləyən sənəd** verməlidir (MM-in 529-cu maddəsinin 1-ci bəndi)[1]. Təsdiqləyici sənədin verilməsi kreditorun hüququ yox, vəzifəsidir. Sənəd dedikdə, qəbz, qaimə, malın qəbul edilməsi aktı, arayış və s. başa düşülür. Məsələn, mal göndərmə (tədarük) müqaviləsinə görə, mal göndərən (satıcı) alıcıya bir partiya mal göndərir. Malın alıcıya çatması və onun tərəfindən qəbul edilməsi faktı (yəni icra aktı) qaimə ilə təsdiqlənir. Mal göndərən (satıcı) isə malın pulunun alıcıdan alınması barədə qəbz verir. Əgər borclu kreditordan öhdəliyin icrası faktı barədə sənəd almazsa, onda əmələ gələ biləcək arzuolunmaz mənfi nəticələrin risqinə görə o, məsuliyyət daşıyacaq. Bundan əlavə, öhdəliyin icrası barədə kreditorla mübahisə və ixtilaf yarandığı halda, borclunun üzərinə icra faktını sübuta yetirmək yükü düşür. Bunun üçün vacibdir ki, o, icra faktını sübut edən yazılı sübutlar təqdim etsin. Bu isə çətin bir işdir.

İcra haqqında sənəd kreditor tərəfindən tərtib edilir. O, bu sənədin tərtibini digər şəxsə də tapşıra bilər. Həmin sənəddə göstərilir: borcun məbləği (həcmi); borclunun adı; əgər borcu üçüncü şəxs ödəyərsə, onun adı; icranın vaxtı və yeri haqqında məlumatlar.

Elə öhdəliklər vardır ki, bu öhdəliklərin mövcud olmasını təsdiqləmək və sübut etmək üçün borclu kreditora **borc sənədi** verir. Məsələn, vətəndaş (borclu) sahibkardan (kreditordan) müəyyən məbləğdə borc pul alır. Borc öhdəliyini təsdiq etmək üçün vətəndaş sahibkara borc qəbzi (sənədi) verir. Bu sənəd onlar arasında öhdəlik hüquq münasibətinin mövcud olmasını və yaranmasını sübut edir. Borclu öhdəliyi icra edəndə (məsələn, vətəndaş aldığı borc pulu sahibkara qaytaranda və s.) **kreditorun vəzifəsidir ki, borc sənədini borclunun özünə qaytarsın**. Həmin sənədin borcluda olması onu təsdiq edir ki, öhdəliyə xitam verilmişdir (MM-in 529-cu maddəsinin 3-cü bəndi). Əgər bundan fərqli hal sübuta yetirilərsə, onda bu, öhdəliyə xitam verilməməsinə dəlalət edir.

Kreditor borc sənədini borcluya qaytararkən həmin sənədin üstündə qeyd edir. Üstündə qeyd edilmiş borc sənədi icranı təsdiqləyən sənədi əvəz edir. Bu cür hallarda, söz yox ki, icranı təsdiqləyən sənəd tərtib edilmir.

Bəzən də elə hallar yaranır ki, kreditor borc sənədini borcluya qaytara bilmir və ya bu, qeyri-mümkün olur. Onda kreditor borclunun tələbi ilə ona **öhdəliyin xitam olunması barədə rəsmən təsdiqlənmiş arayış verir**. Bu arayış öhdəliyin icra sənədini əvəz edir.

Pul öhdəliyi icra ediləndə borcun alınması barədə sənəd tərtib olunur. Bu sənəd pul öhdəliyinə tamamilə xitam verilməsinə dəlalət edir. Həmin sənəddə faizlərin alınması barədə də məlumat göstərilməlidir. Əgər borcun alınması

[1] Analoji qayda Almaniya MQ-nin 368-ci paraqrafında da nəzərdə tutulmuşdur (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 344). Həmin qaydaya Yaponiya qanunvericiliyində də rast gəlirik (Yaponiya MM-in 486-cı maddəsi).

barədə sənəddə faizlər haqqında məlumat nəzərdə tutulmazsa, bu, onu ifadə edir ki, borclu faizləri də kreditora ödəmişdir.

Kreditor yalnız lazımınca icranı qəbul etməyə borcludur. Onun hüququ vardır ki, başqa öhdəliyin, qismən (natamam) öhdəliyin icrasını qəbul etməsin. Kreditorun ixtiyarı var ki, borclunun öhdəliyin icrası kimi təklif etdiyi hərəkəti qəbul etməsin və bununla bu cür hərəkəti öhdəliyin icrası kimi təsdiqləməsin. Bunun üçün vacibdir ki, o, belə halları sübut etsin (MM-in 529-cu maddəsinin 2-ci bəndi).

2. Öhdəliklərin peşman haqqı verilməsi ilə xitam olunması

Peşman haqqı vermək öhdəliklərə xitam verilməsinin əsaslarından (üsullarından) biridir. Özü də bu, bizim müasir qanunvericilik üçün yeni üsuldur. 1964-cü il MM-i belə bir üsul tanımırdı. Peşman haqqı verməklə öhdəliklərə xitam verilməsi kimi üsul bir çox xarici ölkə (məsələn, Yaponiya, RF və s.) qanunvericiliyinə də məlumdur.

Göstərilən üsuldan çox qədim zamanlarda istifadə olunurdu. Qədim Roma hüququ peşman haqqı verməyi öhdəliklərə xitam verilməsinin əsas üsullarından biri hesab edirdi[1]. Roma hüququ göstərilən üsulu «datio in solutum» anlayışı ilə əhatə etmişdi ki, bu, «icranın əvəz edilməsi» mənasını ifadə edirdi. Hərfən isə «datio in solutum» «ödəniş üçün vermək» mənasını bildirirdi. Roma hüququnun müəyyən etdiyi ümumi qaydaya görə, icra dəqiq olaraq öhdəliyə uyğun gəlməli idi. Kreditorun razılığı olmadan ona hər hansı bir digər əşya verməklə öhdəliyi icra etmək olmazdı[2]. Lakin klassik Roma hüququ nəzərdə tuturdu ki, əgər borclu borc aldığının əvəzinə kreditora hər hansı bir digər əşya versəydi, kreditor isə həmin əşyanı qəbul etsəydi, onda borclu vəzifə daşımaqdan azad olunurdu, yəni öhdəliyə xitam verilirdi. Borclunun bu cür hərəkəti, yəni aldığının əvəzinə, kreditora başqa əşya verməsi «datio in solutum» (icranın əvəz edilməsi) adlanırdı və öhdəliyə xitam verilməsinin üsulu hesab edilirdi. Beləliklə, **Roma hüququ öhdəliyin icra predmetini başqası ilə əvəz etməklə öhdəliyin xitam olunmasını nəzərdə tuturdu** və buna yol verirdi. Çox vaxt borclu kreditora pul əvəzinə, əşya verirdi. Qədim Romada xüsusilə torpaq sahəsindən pulu əvəz edən əşya kimi daha tez-tez hallarda istifadə olunurdu. Belə ki, pul borc alan torpaq mülkiyyətçiləri kreditora pul əvəzinə, torpaq sahəsi verirdilər. Bu üsulla da öhdəlik ləğv olunurdu.

Qədim Romada «datio in solutum» institutunun yaranması iqtisadi zərurətlə bağlı idi. O vaxt Romada faizlə borc pul verən sələmçilər yaşayırdılar. Onlardan borc pul alan şəxslər borcu geri qaytara bilmirdilər. Həmin şəxslərin mülkiyyətində daşınmaz əşyalar, xüsusən də torpaq sahəsi olurdu. Mülkiyyətçilər torpağı və digər əşyaları alıcı tapmaqda çətinlik çəkdiklərinə görə sata bilmirdilər. Belə halda onlar sələmçilərə pul əvəzinə əşya (xüsusən də torpaq

[1] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 523; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 282-284; *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 1999, с. 304-305.

[2] Göstərilən üsul xarici ölkələrin (Almaniyanın, Fransanın, İsveçrənin, Avstriyanın, RF-in və s.) qanunvericiliyinə məlumdur. Bu barədə daha ətraflı: *Шилохвост О.Ю.* Отступное в гражданском праве России. М., 1999, с. 31-53.

sahəsi) vermək barədə razılığa gəlirdilər. Bu üsulla da öhdəlik xitam olunurdu[1]. Yustinianın dövründə qanun qəbul edildi. Bu qanuna görə, kreditor pul əvəzinə verilən daşınmaz əşyanı qəbul etməyə borclu idi.

Peşman haqqı verməklə öhdəliyin xitam olunması dedikdə, tərəflərin razılaşması ilə öhdəliyə icra əvəzinə, peşman haqqı verilməsi ilə xitam verilməsi başa düşülür (MM-in 529-cu maddəsinin 8-ci bəndi)[2]. Peşman haqqı tərəflərin seçimi və razılığı ilə müəyyənləşdirilən konkret üsuldur. Bu üsul nəticəsində kreditorun tələbi təmin edilir və bununla da öhdəlik ləğv olunur. Peşman haqqı verilməsi üsulunun mahiyyəti kreditorun razılığı ilə borcluya elə bir imkan verməkdən ibarətdir ki, bununla o, **öhdəliyin əvvəlki icra predmetini başqası ilə əvəz etmək şansı qazanır**. Bununla kreditora peşman haqqını qəbul etmək vəzifəsi həvalə edilir. Əgər kreditor peşman haqqını qəbul etməkdən boyun qaçırarsa, onda bu, kreditorun icranı gecikdirməsi sayılır. Bu isə qanunda göstərilən nəticələrə səbəb olur (MM-in 446-cı maddəsi).

Peşman haqqının **formaları** müxtəlifdir. **Pul ödənilməsi** onun əsas formalarından biridir. Buna misal olaraq **müstəsna dəbbə pulunu** misal göstərmək olar[3]. Qanun müəyyən edir ki, peşman haqqı kimi müəyyənləşdirilən dəbbə pulunun ödənilməsi borclunu öhdəliyin naturada icrasından azad edir (MM-in 450-ci maddəsinin 3-cü bəndi). Dəbbə pulu vermək öhdəliyin real icrasını əvəz edir. Real icra odur ki, bu icra borclu tərəfindən müəyyən olunmuş hərəkətlərin yerinə yetirilməsini nəzərdə tutur. Məsələn, şəhərdə yaşayan ev sahibi mənzillərdən birini ali məktəb müəssisəsində oxumaq üçün kənddən gələn tələbəyə kirayəyə verir. Tələbənin təqsiri üzündən taxtadan tikilmiş mənzil yanır. Yanmış mənzili sahibinə qaytarmaq mümkün olmadığına görə öhdəliyin real icrasından (naturada icrasından) söhbət gedə bilməz. Ev sahibi ilə tələbə peşman haqqı kimi müəyyənləşdirilən dəbbə pulu ödənilməsi barədə razılığa gəlirlər. Tələbə dəbbə pulunu ödəyir, bununla o, öhdəliyin real icrasını əvəz edir və beləliklə, kirayə öhdəliyi xitam olunur.

Bununla belə, peşman haqqını dəbbə pulundan fərqləndirmək lazımdır.

[1] Roma hüququna görə, kreditorun razılığı olmadan «datio in solutum» mümkün deyildi. Əgər o, razılıq verməydi, icranın əvəz edilməsi nəticəsində öhdəliyə xitam verilirdi. Bu məsələ barəsində sabinyan və prokulyan məktəbinin tərəfdarları mübahisə edirdilər. Sabinyan məktəbinin tərəfdarları belə hesab edirdilər ki, «datio in solutum» nəticəsində öhdəliyə xitam verilir. Prokulyan məktəbinin tərəfdarları isə bunun əksi olan fikri irəli sürürdülər. Onların fikrincə, «datio in solutum» öhdəliyin ləğv edilməsinə səbəb olmur, öhdəlik mövcud olmaqda davam edir (Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 283).

[2] Almaniya mülki hüquq ədəbiyyatında peşman haqqı ilə öhdəliyə xitam verilməsinə rast gəlmirik (*Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993. s. 221; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 343). Əgər vəziyyətin borclu üçün çətinlik yaratması nəticəsində öhdəliyin icrası qeyri-mümkün olarsa, onda borclu Mülki Qanunnamənin 280-ci paraqrafının 1-ci hissəsinə görə, vurulmuş zərərin əvəzini ödəyir. Amma Yaponiya mülki hüququ həmin üsulu icranın əvəz edilməsi üsulu adı altında nəzərdə tutur (MM-in 482-ci maddəsi) // *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 326-347.

[3] Müstəsna dəbbə puluna verilən anlayışı xatırlayaq (dərsliyin «Öhdəliklərin icrasının təmin edilməsi üsulları» fəslinin «Dəbbə pulu» adlı paraqrafına bax). Müstəsna dəbbə pulu odur ki, o, kreditoru zərərin əvəzini almaq hüququndan məhrum edir, borclunun məsuliyyətini dəbbə pulu ödənilməsi ilə məhdudlaşdırır (MM-in 466-cı maddəsinin 2-ci bəndinin 1-ci yarımbəndi).

Düzdür, onlar bir-birinə çox oxşayırlar. Onların hər ikisi kompensasiya xarakterinə malikdir. Peşman haqqı verilməklə həm əsas öhdəlik, həm də əlavə öhdəlik ləğv edilir. Dəbbə pulu ödənilməsi ilə öhdəliyə xitam verilmir. Dəbbə pulu həmişə müəyyən pul məbləğində ifadə olunur. Peşman haqqı isə istənilən hər hansı formada (pul, iş, xidmət formasında) ifadə oluna bilər. Dəbbə pulu haqqında saziş həmişə yazılı formada bağlanır. Peşman haqqında razılaşma isə həm şifahi, həm də yazılı formada bağlana bilər.

Beh də peşman haqqı rolunda çıxış edə bilər (MM-in 491-492-ci maddələri). Müqavilə bağlayan tərəflər razılığa gələ bilərlər ki, müqavilənin icra edilməməsi üçün təqsirkar tərəfin məsuliyyəti beh məbləği həcmində məhdudlaşdırılsın. Belə ki, əgər müqavilənin icra edilməməsində beh vermiş tərəf təqsirkar olarsa, beh o biri tərəfdə qalır. Yox, əgər müqavilənin icra edilməməsində beh alan tərəf təqsirkar olarsa, onda o, digər tərəfə behin iki mislini ödəyir. Bununla müqavilə öhdəliyinə xitam verilir. Bu halda beh peşman haqqı rolunu oynayır. Hələ Roma hüququ peşman haqqı rolunu oynayan behi nəzərdə tutmuşdu. Roma hüququ onu «arra poenitentialis» anlayışı ilə əhatə edirdi[1].

Pul ödənilməsi formasında peşman haqqına başqa bir misal da çəkə bilərik. Minik avtomobilinin sahibi (zərərvuran) avtomobili yüksək sürətlə idarə edərkən başqa bir vətəndaşa (zərərçəkənə) məxsus olan avtomobili əzir və onun əmlakına zərər vurur. Bununla onlar arasında delikt (zərər vurmaq nəticəsində əmələ gələn) öhdəliyi əmələ gəlir. Bu öhdəliyə görə, zərərvuran (borclu) zərərçəkənin (kreditorun) əmlakına vurulan zərərin əvəzini ödəməlidir, yəni öhdəliyi real (naturada) icra etməlidir. Real icra minik avtomobilinin təmir edilməsini nəzərdə tutur. Tərəflər razılığa gəlirlər ki, təmir əvəzinə zərərvuran şəxs peşman haqqı kimi pul ödəsin.

Peşman haqqı **əmlak verilməsi formasında** da ifadə oluna bilər. Torpaq sahəsi, müxtəlif əşyalar, predmetlər, obyektlər və s. peşman haqqı rolunda çıxış edə bilər. Məsələn, firma bankdan kredit alır. Lakin o, krediti qaytara bilmir. Tərəflər peşman haqqı kimi firmaya məxsus binanın banka verilməsi barədə razılığa gəlirlər. Başqa bir misalda kənd sakini qonşusundan aldığı borcun əvəzinə, peşman haqqı kimi minik avtomobilini ona verir.

Peşman haqqı verilməsi barədə saziş **ikitərəfli əqddir**. Ona görə ki, bu saziş kreditorla borclunun iradəsini ifadə edir. Bu, o deməkdir ki, təkcə borclunun iradəsini ifadə edən aktın hüquqi əhəmiyyəti olmur. Bu akt etibarsız hesab edilir. Dediklərimizdən belə nəticəyə gələ bilərik ki, borclunun icra əvəzinə, peşman haqqı verməsinə kreditor razılığını bildirməlidir. Bu cür razılıq öhdəliyin icrasının istənilən mərhələsində verilə bilər. Məsələn, dəbbə pulu haqqında saziş bağlananda tərəflər dəbbə puluna peşman haqqı funksiyası vermək barədə razılığa gələ bilərlər. Öhdəliyin icrası gecikdirildiyi və müqavilənin digər şərtləri pozulduğu məqamlarda da tərəflər peşman haqqı verilməsi barədə öz aralarında saziş bağlaya bilərlər. Lakin bu saziş bağlandığı anda öhdəlik ləğv edilmir. Öhdəlik yalnız icra əvəzinə, peşman haqqı verildiyi anda xitam olunur.

Peşman haqqı barədə sazişin əsas məqsədi kreditorun tələbini təmin et-

[1] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 336.

məkdən və bununla öhdəliyə xitam verməkdən ibarətdir. Bu saziş bir öhdəliyin başqası ilə əvəz olunmasına dəlalət etmir. Həmin sazişin hüquqi nəticə yaratması üçün vacibdir ki, burada tərəflər peşman haqqının miqdarını, onun verilməsi müddətlərini və qaydasını müəyyənləşdirsinlər.

3. Novasiya

Öhdəliklərə xitam verilməsinin əsaslarından (üsullarından) biri novasiya adlanır. **Novasiya** (latınca «novatio» — yeniləşmə, dəyişmə) dedikdə, ilkin öhdəliyin başqa bir öhdəliklə əvəz edilməsi barədə tərəflərin sazişi başa düşülür. Yeni MM-in 531-ci maddəsi öhdəliyə novasiya nəticəsində xitam verilməsi ilə bağlı münasibətlərin tənzimlənməsinə həsr edilmişdir. 1964-cü il MM-i də novasiya üsulunu tanıyırdı. Həmin məcəllənin 224-cü maddəsi tərəflərin razılığı ilə öhdəliyin xitam olunması haqqında qayda müəyyən edirdi. Lakin 1964-cü il MM-də novasiya anlayışı işlədilmirdi.

Novasiyanı Roma hüququ öhdəliklərə xitam verilməsinin əsas üsullarından biri hesab edirdi[1]. Roma hüququna görə, novasiya (novatio) bir öhdəliyin xitam edilməsini və onun başqa öhdəliklə əvəz olunmasını ifadə edirdi. Bu üsulu bir çox xarici ölkələrin (məsələn, Almaniyanın, Yaponiyanın, Fransanın, İtaliyanın, RF-in və s.) qanunvericiliyi də nəzərdə tutur[2]. ABŞ hüququna görə, novasiya müqaviləyə xitam verilməsinin üsullarından biridir. Novasiya nəticəsində müəyyən müqavilənin ləğv edilməsi digər müqavilənin bağlanmasına səbəb olur. Kaliforniya MM-in 1531-ci paraqrafına uyğun olaraq, novasiya dedikdə, başa düşülür: köhnə öhdəliyi ləğv etmək üçün həmin öhdəliyin tərəfləri arasında yeni öhdəlik müəyyənləşdirmək; köhnə borclunu vəzifə daşımaqdan azad etmək məqsədilə onu yeni borclu ilə əvəz etmək; köhnə kreditorun hüquqlarını yeni kreditora vermək üçün köhnə kreditoru yeni kreditorla əvəz etmək[3]. Novasiya müqavilə vasitəsilə həyata keçirilir[4].

Bizim ölkə qanunvericiliyinə görə, **novasiyanın mahiyyəti** köhnə (ilkin) öhdəliyi yeni öhdəliklə əvəz etmək yolu ilə köhnə (ilkin) öhdəliyi ləğv etməkdən ibarətdir. Başqa sözlə desək, bu halda söhbət bir öhdəliyin digəri ilə əvəz edilməsindən gedir. Özü də yeni öhdəlik **köhnə (ilkin) öhdəlikdə tərəf qismində çıxış edən kreditor və borclu şəxs arasında əmələ gəlir**. Məsələn, qonşu (satıcı) o biri qonşuya (alıcıya) xalça satır. Alıcı xalçanın pulunu bir ildən

[1] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 529; Римское частное право. Учебник / Под ред. *И.С.Перетерского, И.Б.Новицкого.* М., 1999, с. 295; *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 305; *Novitski İ.B.* Roma hüququ. Dərslik / *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 126.

[2] Bu üsul Almaniya Mülki Qanunnaməsinə məlumdur (*Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 221). Yaponiya MM-in 513-cü maddəsi novasiya konstruksiyasını nəzərdə tutur (*Сакаэ Вагацума, Тору Арииздуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 327).

[3] Соединенные Штаты Америки: Конституция и законодательные акты. Перевод с англ. М., 1999, с. 565; Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 324. Göründüyü kimi, ABŞ hüququna görə, novasiya daha geniş və əhatəli anlayışdır. O özündə həm də tələbin güzəştini və borcun köçürülməsini birləşdirir.

[4] ABŞ mülki hüququna görə kreditorun razılığı ilə borcun köçürülməsi öhdəliyin novasiyasıdır; bu zaman əvvəlki borclu müqavilə üzrə məsuliyyətdən azad edilir (bax: *Ласк Г.* Гражданское право США. М., 1961, с. 221).

sonra ödəmək barədə vəd verir. Onlar razılığa gəlirlər ki, alqı-satqı müqaviləsindən əmələ gələn borc münasibətləri haqqında borc müqaviləsi bağlansın. Beləliklə, alqı-satqı öhdəliyi (ilkin öhdəlik) borc öhdəliyi ilə (yeni öhdəliklə) əvəz olunur. Yeni öhdəlikdə satıcı borc verən, xalçanın pulunu ödəməyən alıcı isə borc alan rolunda çıxış edir. Alqı-satqı öhdəliyi ləğv edilir ki, bunun əsası (üsulu) novasiyadır. Başqa bir misalda tələbə kirayə müqaviləsi üzrə mənzildən istifadəyə görə bir illik kirayə haqqını ödəyə bilmir. Tələbə ilə mənzilin sahibi bir illik kirayə haqqını borc kimi rəsmiləşdirmək üçün borc müqaviləsi bağlayırlar. Kirayə öhdəliyi (ilkin öhdəlik) borc öhdəliyi (yeni öhdəlik) ilə əvəz edilir və bunun nəticəsində həmin öhdəliyə xitam verilir. Bu halda kirayə öhdəliyinə xitam verilməsinə dəlalət edən əsas (üsul) novasiyadır. Belə təsəvvür yaranır ki, **novasiya nəticəsində yeni predmetə malik olan yeni öhdəlik əmələ gəlir**. Bu öhdəliyin məzmunu əvvəlki öhdəliklə bağlı olub, ondan asılıdır. O mənada asılıdır ki, ilkin öhdəlikdən yaranan, lakin təmin edilməyən tələb (məsələn, satılan xalça pulunu və ya kirayə haqqını ödəmək tələbi) öz həcmini saxlayır. Həm də köhnə öhdəliyin yerini yeni öhdəlik tutanda **subyekt tərkibi dəyişmir, sabit qalır**. Bununla bərabər, icra predmeti və üsulu dəyişir.

Yeni öhdəlik köhnə (ilkin) öhdəliklə bağlı olub, ondan asılıdır. Bu, həm də onda ifadə olunur ki, **köhnə (ilkin) öhdəliyin etibarsızlığı yeni öhdəliyin etibarsızlığa səbəb olur**. Əgər yeni öhdəlik etibarsız sayılarsa, onda köhnə (ilkin) öhdəlik qüvvədə qalır. Bu isə onu göstərir ki, novasiya baş tutmamışdır.

Novasiya nəinki köhnə (ilkin) öhdəliyin (bu, əsas və təmin olunan öhdəlikdir) xitam olunmasına, həm də bu öhdəliklə bağlı olan əlavə öhdəliklərə xitam verilməsinə səbəb ola bilər. Ona görə ki, novasiya yeni razılaşmadır. Odur ki, köhnə öhdəliklə bağlı olan əlavə öhdəliklər öz qüvvəsini itirməlidir[1]. Məsələn, novasiya nəticəsində girov öhdəliyi, zaminlik, dəbbə pulu haqqında saziş və s. ləğv edilə bilər. Lakin bu qayda imperativ yox, dispozitiv xarakter daşıyır. Belə ki, novasiya barədə sazişdə tərəflər əlavə öhdəliklərin saxlanması və qüvvədən düşməməsi barədə razılığa gələ bilərlər. Əgər bu cür razılıq olarsa, əlavə öhdəliklərə xitam verilmir.

Novasiya aktı kreditorla borclunun iradəsini ifadə edir. Ona görə də o, **ikitərəfli əqddir**. Novasiya ona görə həyata keçirilir ki, köhnə (ilkin) öhdəliyin güddüyü məqsədə nail olunmur.

Novasiya peşman haqqı, tələbin güzəşti və borcun köçürülməsi kimi konstruksiyalara oxşayır. Lakin onlar bir-birindən fərqlənir. Novasiyanı, hər şeydən əvvəl, peşman haqqı ilə qarışdırmaq olmaz. Əgər peşman haqqı icranın əvəz olunmasıdırsa, novasiya öhdəliyin əvəz edilməsidir. Peşman haqqı tərəflər arasında hüquqi əlaqənin tamamilə ləğv edilməsinə səbəb olur. Novasiya isə tərəflər arasında hüquqi əlaqəyə xitam verilməsinə səbəb olmur. Novasiya nəticəsində ilkin (köhnə) öhdəliyin tərəfləri (subyektləri) başqa predmeti olan yeni öhdəliyin iştirakçılarına çevrilirlər, yəni bu öhdəliyin yerini eyni şəxslər arasında yaranan yeni öhdəlik tutur.

Novasiyanı tələbin güzəşti və borcun köçürülməsi kimi anlayışlardan da

[1] Гражданское и торговое право капиталистических стран. Учебное пособие / Отв. ред. *В.П. Мозолин, М.И. Кулагин.* М., 1980, с. 208.

fərqləndirmək lazımdır. Belə ki, tələbin güzəşti və borcun köçürülməsi hallarında öhdəliyin predmeti dəyişmir, tərəflərin hüquq və vəzifələri isə yeni şəxslərə keçir, öhdəlik mahiyyətcə qalmaqda davam edir.

Novasiya bütün öhdəliklərə münasibətdə tətbiq edilir. Lakin elə öhdəlik növləri vardır ki, qanun bu öhdəliklərin novasiya üsulu ilə xitam olunmasını yolverilməz hesab edir. Bu cür öhdəliklərə aiddir:

- həyata və ya sağlamlığa vurulmuş zərərin əvəzinin ödənilməsi üzrə öhdəliklər;
- alimentlərin ödənilməsi üzrə öhdəliklər.

Göstərilən öhdəliklər barəsində novasiyaya yol verilmir. Məsələn, vətəndaş mübahisə zəminində öz qonşusu ilə dalaşarkən ona xəsarət yetirir. Xəsarət nəticəsində sağlamlığı pozulan qonşu işə çıxmır və əmək haqqından, habelə digər qazancdan (gəlirdən) məhrum olur. O, həm də sağlamlığın pozulması ilə bağlı əlavə xərclər (müalicəyə, dava-dərman alınmasına və s.) çəkir. Vətəndaş qonşuya vurulan zərərin əvəzini ödəməlidir. Onlar zərərin əvəzinin ödənilməsini borc müqaviləsi kimi rəsmiləşdirə bilməzlər. Ona görə ki, bu halda novasiyaya yol verilmir.

4. Öhdəliklərə qarşılıqlı tələblərin əvəzləşdirilməsi ilə xitam verilməsi (əvəzləşdirmə)

Öhdəliklərə xitam verilməsinin əvəzləşdirmə üsulu MM-in 27-ci fəslinin 3-cü paraqrafında nəzərdə tutulmuşdur. Həmin paraqrafa daxil olan normalar (540-545-ci maddələr) bu üsulun tənzimlənməsinə həsr edilmişdir. 1964-cü il MM-ə də əvəzləşdirmə üsulu məlum idi. Lakin həmin məcəllə bu üsulu əvəzləşdirmə yox, **hesabların çürüdülməsi** adlandırırdı (220-222-ci maddələr).

Əvəzləşdirmə üsulu qədim vaxtlarda Roma hüququna da məlum idi. Roma hüququ həmin üsulu «compensatio» (bərabərləşdirmə, tarazlaşdırma) adı altında nəzərdə tutmuşdu[1]. «Compensatio» dedikdə, kreditorun borcluya, borclunun isə kreditora olan qarşılıqlı tələbi üzrə hesabların çürüdülməsi başa düşülürdü[2]. Əgər kreditor borcludan tələb etmək hüququna malik idisə, borclunun da kreditordan qarşılıqlı tələb etmək ixtiyarı vardısa, onda eyni növ olan bu cür qarşılıqlı tələblər üzrə hesablar çürüdülürdü. Bir tələbin məbləği digər tələbin məbləğindən çox olduqda, qalıq ödənilirdi. Roma hüququna görə, «compensatio» borcun borcla ödənilməsi və təmin edilməsi demək idi[3]. Klassik Roma hüququnda compensatio üsulunun üç növü fərqləndirilirdi: müqavilə əvəzləşdirməsi; qanuni əvəzləşdirmə; məhkəmə əvəzləşdirməsi. Yustinian klassik hüquqda yaranan «compensatio» institutunu olduğu kimi qəbul etdi və onun məzmununu xeyli genişləndirdi.

Əvəzləşdirmə (hesabların çürüdülməsi) üsulunu bir çox xarici ölkələrin (məsələn, Almaniyanın, Fransanın, Yaponiyanın, İtaliyanın, RF-in və s.) qanunvericiliyi də nəzərdə tutur. RF-in MM-inin 410-412-ci maddələri bu üsulu

[1] bax: Римское частное право. Учебник / Под ред. *И.С.Перетерского, И.Б.Новицкого*. М., 1999, с. 285.

[2] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 525.

[3] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 307.

tənzimləyir[1]. Almaniya MQ-nin 387-ci paraqrafı, Yaponiya MM-in 505-ci maddəsi əvəzləşdirmə konstruksiyasını müəyyənləşdirir.

Əvəzləşdirmə (hesabların çürüdülməsi) dedikdə, öhdəliyə xitam verilməsinin elə bir üsulu başa düşülür ki, bunun vasitəsilə iki şəxs arasında mövcud olan və icra müddəti çatan qarşılıqlı tələb hüquqlarına xitam verilir (MM-in 540-cı maddəsinin 1-ci bəndi). Özü də bu üsul vasitəsilə dərhal iki öhdəlik, yəni əsas öhdəlik və müqabil (qarşılıqlı) öhdəlik, əgər həcm etibarilə bərabərdirsə, ləğv edilir. Məsələn, tikinti təşkilatı topdansatış ticarət müəssisəsindən on min manat məbləğində tikinti materialı alır. Onlar arasında alqı-satqı müqaviləsi bağlanır və öhdəlik əmələ gəlir (əsas öhdəlik). Bu öhdəlik əsasında ticarət müəssisəsinin tikinti təşkilatından on min manat məbləğində tələb etmək hüququ yaranır. Həmin tikinti təşkilatı podrat müqaviləsi əsasında ticarət müəssisəsi üçün on min manat məbləğində təmir işi görür. Onlar arasında podrat öhdəliyi yaranır (müqabil öhdəlik). Bu öhdəlik əsasında tikinti təşkilatı ticarət müəssisəsindən on min manat məbləğində tələb hüququna malik olur. Beləliklə, qarşılıqlı tələblər, yəni ticarət müəssisəsinin tikinti təşkilatına olan tələbi və tikinti təşkilatının ticarət müəssisəsinə olan tələbi eyni həcmli və bərabərdir. Həmin tələblər əvəzləşdirmə üsulu ləğv edilir, yəni hesablar çürüdülür. Bununla həm əsas öhdəliyə, həm də müqabil (qarşılıqlı) öhdəliyə xitam verilir. Bu cür əvəzləşdirməyə **tam əvəzləşdirmə** deyilir.

Bəzi hallarda əvəzləşdirilən tələblər eyni və bərabər həcmə malik olmur. Məsələn, alqı-satqı müqaviləsi üzrə ticarət müəssisəsinin tələbinin həcminin beş min manat məbləğində, tikinti təşkilatının podrat müqaviləsi üzrə tələbinin həcminin isə on min manat məbləğində olması müəyyənləşdirilir. Bu halda qarşılıqlı tələblər bir-birini tam ödəmir. Lakin buna baxmayaraq, əvəzləşdirmə üsulu tətbiq etmək mümkündür. Belə ki, bu kimi halda yalnız həcmcə az olan tələb əvəzləşdirilir. Çünki qanunun göstərişinə görə, əgər əvəzləşdirilən tələblər bir-birini tam ödəmirsə, yalnız həcmcə az olan tələbə əvəzləşdirmə üsulu ilə xitam verilir (MM-in 543-cü maddəsi). Göstərilən misalda az həcmli alqı-satqı öhdəliyinə xitam verilir. Çoxhəcmli podrat öhdəliyi isə xitam edilmir. Bu öhdəlik az həcmli öhdəlikdən çox olan həcmdə, yəni 5 min manat məbləğində (10 min – 5 min = 5 min) mövcud olmaqda davam edir. Belə təsəvvür yaranır ki, podrat öhdəliyi qismən icra edilir. Buna **qismən əvəzləşdirmə** deyilir[2].

Əvəzləşdirmə üsulu yalnız tələb olunan şərtlər əsasında tətbiq edilə bilər[3].

[1] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 662-663; *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993. s. 221; *Сакаэ Вагацума, Тору Арииидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 345; Гражданское и торговое права капиталистических государств. Учебное пособие / Отв. ред. *К.К. Яичков*. М., 1966, с. 252.

[2] *Brox H.* Allgermeines Schuldrecht. München. 1993, s. 107.

[3] Bizim ölkə qanunvericiliyinin əvəzləşdirmənin tətbiqi barədə nəzərdə tutduğu üç şərti 20 əsr bundan əvvəl Roma hüququ müəyyənləşdirmişdi. Yustinian dövründə əvəzləşdirmənin tətbiq olunmasının üç şərti əsas rol oynayırdı: tələblərin qarşılıqlı olması; tələblərin icra müddətinin çatması; tələblərin eyni növlü olması (bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 307; Римское частное право. Учебник / Под ред. *И.С.Перетерского, И.Б.Новицкого*. М., 1999, с. 289-290).

Bu cür şərtlərə aiddir[1]:

• birinci şərtə görə, **əvəzləşdirilən tələblər müqabil (qarşılıqlı) tələblər olmalıdır**. Bu, o deməkdir ki, əsas (birinci) öhdəlik üzrə kreditor müqabil (ikinci) öhdəlik üzrə borclu olmalıdır, həmçinin əsas (birinci) öhdəlik üzrə borclu müqabil (ikinci) öhdəlik üzrə kreditor rolunda çıxış etməlidir. Başqa sözlə desək, hər bir tərəf bir-birinə münasibətdə borclu və kreditor olmalıdır. Həmin tərəflər arasında iki öhdəlik yaranır. Üçüncü şəxsin tələbinin əvəzləşdirilməsi mümkün deyil və istisna edilir[2].

• ikinci şərtə görə, yalnız o tələblər əvəzləşdirilə bilər ki, **bu tələblərin icra müddəti çatsın**. İcra müddəti çatmayan tələbləri əvəzləşdirmək olmaz. Bu, onunla izah edilir ki, əgər öhdəliyin icrası müddəti təyin edilibsə, kreditor, müddət çatanadək onun icrasını tələb edə bilməz (MM-in 427-ci maddəsinin 1-ci bəndi). Lakin qanun göstərilən qaydadan istisna hala da yol verir. Belə ki, bəzən tələblərdən birinin icrası müddəti hələ çatmazsa, belə halda tələblərin əvəzləşdirilməsi mümkündür. Bunun üçün zəruri və vacibdir ki, icra müddəti hələ çatmayan tələb hüququnun sahibi olan tərəf əvəzləşdirməyə tərəfdar olsun və razılıq versin (MM-in 540-cı maddəsinin 2-ci bəndi).

• üçüncü şərtə görə, **əvəzləşdirilən qarşılıqlı tələblər eyni növlü (cinsli) tələblər olmalıdır**. Başqa sözlə desək, əsas (birinci) və müqabil (ikinci) öhdəliyin icra predmeti eyni növlü olmalıdır[3]. Eyni növlü öhdəliklər dedikdə, icra predmeti pul və ya əşya, iş (xidmət) olan öhdəliklər başa düşülür. Xüsusilə pul öhdəlikləri tez-tez hallarda əvəzləşdirilir. Məsələn, vətəndaş öz qonşusuna borc pul verir (birinci pul öhdəliyi). Sonra isə o, həmin qonşudan soyuducu alır (ikinci pul öhdəliyi). Öhdəliklərin icra predmeti həm əşya, həm iş, həm də xidmət ola bilər. Lakin vacibdir ki, onları pulla qiymətləndirmək mümkün olsun. Öhdəliklərin eyninövlülüyü həm də onların eyni təbiətə və xarakterə malik olmasında ifadə olunur. Məsələn, birinci müqavilə üzrə alınmış mala görə avans ödənişinin köçürülməsi barədə tələb ikinci müqavilə üzrə mal göndərməməyə görə penya alınması barədə tələblə eyni növlü deyil və buna görə də onlar

[1] Almaniya professoru N.Broks həmin şərtləri əvəzləşdirmənin zəmini hesab edir (*Brox H.* Allgermeines Schuldrecht. München. 1993, s. 106-107; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 347). Analoji şərtləri Yaponiya qanunvericiliyi də nəzərdə tutur (Yaponiya MM-in 505-ci maddəsi) // *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 346.

[2] *Brox H.* Allgermeines Schuldrecht. München. 1993, s. 106.

[3] Yeni MM-də əvəzləşdirmənin tətbiqi barədə üçüncü şərt, yəni əvəzləşdirilən qarşılıqlı tələblərin eyni növlü olması barədə şərt göstərilmir. 1964-cü il MM-də bu şərt konkret olaraq ifadə olunurdu (220-ci maddə). RF-in yeni MM-də göstərilir ki, yalnız qarşılıqlı eyni növlü tələblər əvəzləşdirilə bilər (410-cu maddə). Azərbaycan Respublikasının MM-də göstərilən şərtin konkret olaraq ifadə edilməsinə ehtiyac yoxdur. Ona görə ki, öhdəlik hüququnda real icra (naturada icra) prinsipi qüvvədədir. Real icra prinsipinə görə, borclu yalnız öhdəliyin məzmununda nəzərdə tutulan hərəkəti etməlidir: pul verməlidir, iş görməlidir, əşya verməlidir və s. Bu prinsipə görə, məsələn, borclu pul öhdəliyini pul verməklə (əşya verməklə yox) icra edə bilər. Roma hüququ da tələblərin eyninövlülüyü şərtini nəzərdə tutmuşdu (bax: Римское частное право. Учебник / Под ред. *И.С.Перетерского, И.Б.Новицкого.* М., 1999, с. 290; *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 307). Almaniya professoru N.Broks göstərir ki, əvəzləşdirilən öhdəliklər məzmunca eyni növlü olmalıdır. Buna görə də əvəzləşdirmə yalnız cinsi əlamətləri ilə müəyyən edilən predmetlərə şamil edilir (*Brox H.* Allgermeines Schuldrecht. München. 1993, s. 106),

əvəzləşdirilə bilməz[1]. Beləliklə, eyni növ olmayan tələbləri əvəzləşdirmək olmaz. Belə ki, icra predmeti pul olan öhdəlikdən əmələ gələn tələbi icra predmeti əşya olan öhdəlikdən yaranan tələblə əvəzləşdirmək istisna olunur. Çünki bu, öhdəlik hüququnda tətbiq edilən öhdəliklərin lazımınca icra prinsipinə (həm də real icra prinsipinə) zidd olardı. Həmin prinsipi xarakterizə edən şərtlərdən biri öhdəliyin icra predmetinə aid olan tələbdir. Bu tələbə görə, borclu şəxs kreditorun xeyrinə yalnız öhdəliyin məzmununda nəzərdə tutulan hərəkəti etməyə borcludur: pul verməli, iş görməli, əşya verməli və s. Məsələn, pul öhdəliyini əşya verməklə xitam etmək olmaz və s.

• dördüncü şərtə görə, əvəzləşdirilən tələblər **həyata keçirilə bilən, real, etirazlardan azad olan tələblər** olmalıdır[2].

Əvəzləşdirmənin həyata keçirilməsi üçün zəruridir ki, bir tərəf digər tərəfə bu barədə məlumat versin (MM-in 540-cı maddəsinin 2-ci bəndi). Başqa sözlə desək, əvəzləşdirmə üsulunun tətbiq olunması üçün kifayətdir ki, bir tərəfin iradəsi ifadə edilsin. Bu, onu göstərir ki, **əvəzləşdirmənin həyata keçirilməsi birtərəfli əqddir**. Ona görə də ikinci tərəfin razılıq verməsi tələb olunmur və lazım deyil. Əvəzləşdirmə bəzi hallarda **ikitərəfli əqd kimi də çıxış edə bilər**. Məsələn, öhdəliklərdən birinin icra müddəti çatır, o biri öhdəliyin isə yox. İcra müddəti çatan öhdəliyin kreditoru tələbləri əvəzləşdirmək istəyir. Bunun üçün zəruridir ki, icra müddəti çatmayan öhdəliyin kreditoru buna razılıq versin (MM-in 540-cı maddəsinin 2-ci bəndi). Bu halda əvəzləşdirmənin həyata keçirilməsi üçün gərəkdir ki, hər iki tərəfin iradəsi ifadə olunsun. Əgər icra müddəti hələ çatmayan öhdəliyin kreditoru əvəzləşdirməyə razılıq verməzsə, onda tələblərin əvəzləşdirilməsinin həyata keçirilməsindən söhbət gedə bilməz. Bundan əlavə, əvəzləşdirmə tərəflərin razılığı əsasında məhkəmə qaydasında qarşılıqlı iddia vermək yolu ilə də həyata keçirilə bilər.

Bəzi hallarda eyni növlü öhdəliklərin icrası üçün müxtəlif yerlər müəyyənləşdirilir. Məsələn, kənd sakini şəhər sakininə Göy-göl rayonundakı Hacıkənd kəndində yayda dincəlmək üçün ev satır. Şəhər sakini kənd sakininə Bakıda (Novxanıda) bağ evi satır. Birinci öhdəliyin icra yeri Göy-göl rayonu, ikinci öhdəliyin icra yeri Bakı şəhəri müəyyən edilir. Hər iki öhdəlikdən yaranan pul tələbləri əvəzləşdirilir. Ona görə ki, öhdəliklərin icrası üçün müxtəlif yerlər nəzərdə tutulduğu hallarda, qanun onların əvəzləşdirilməsinə yol verir (MM-in 544-cü maddəsi).

Tələbin güzəşti zamanı qanun əvəzləşdirməyə yol verir (MM-in 541-ci maddəsi). Belə ki, tələb güzəşt edilərkən (verilərkən) ilk kreditorun yerini yeni kreditor tutur. Lakin öhdəlik dəyişmir, saxlanır. Bu öhdəlik üzrə borclunun ilk kreditora qarşı qarşılıqlı tələbi ola bilər. Borclu özünün bu tələbini yeni kreditorun tələbi ilə əvəzləşdirə bilər. Məsələn, vətəndaş (kreditor) öz qonşusuna (borcluya) borc pul verir (borc öhdəliyi). Həmin vətəndaş bu qonşudan televizor alır (alqı-satqı öhdəliyi). Qonşunun bu öhdəlikdən vətəndaşa pul tələbi yaranır. Vətəndaş borc öhdəliyindən yaranan pul tələbini sahibkara (yeni kreditora) güzəşt edir (verir). Bu halda vətəndaş alqı-satqı öhdəliyindən yaranan

[1] bax: Вестник ВАС РФ, 1996. № 4, с. 14-15.

[2] *Brox H.* Allgermeines Schuldrecht. München. 1993, s. 107.

pul tələbini sahibkarın (yeni kreditorun) həmin vətəndaşa olan pul tələbi ilə əvəzləşdirir. Pul tələbinin məbləği eyni olduğuna görə həm borc öhdəliyi, həm də alqı-satqı öhdəliyi xitam edilir.

Bununla belə, tələbin güzəşti zamanı əvəzləşdirmə üsulunun tətbiq edilməsi üçün bir neçə əlavə şərtə (şübhəsiz ki, həm də əvəzləşdirmənin tətbiqinin ümumi şərtlərinə) əməl olunmalıdır. Bildiyimiz kimi, tələb güzəşt ediləndə bu barədə borcluya bildiriş verilməlidir (MM-in 195-ci maddəsi). Borclunun **qarşılıqlı tələbi onun bildiriş aldığı anda mövcud olmuş əsasa görə əmələ gəlməlidir**. Yuxarıdakı misalda alqı-satqı müqaviləsi bildiriş alınan ana kimi bağlanmalıdır, yəni qonşunun (borclunun) vətəndaşa qarşılıqlı pul tələbi bildiriş aldığı anda artıq bağlanmış alqı-satqı müqaviləsi əsasında əmələ gəlməlidir. Bu, birinci əlavə şərtdir.

Borclunun köhnə kreditora qarşılıqlı tələbinin (yuxarıdakı misalda qonşunun vətəndaşa alqı-satqı müqaviləsindən yaranan pul tələbinin) icra müddəti bildiriş alınana kimi çatmalıdır və ya həmin tələbin icra müddəti göstərilməməlidir və ya tələb etmə anı ilə müəyyənləşdirilməlidir. Bu isə ikinci əlavə şərtdir.

Elə tələblər var ki, onların əvəzləşdirilməsi istisna edilir və yolverilməzdir. Bu cür tələblərin dairəsi qanunda müəyyən edilmişdir (MM-in 545-ci maddəsi).

Birinci hal ondan ibarətdir ki, öhdəlikdə iştirak edən **tərəflər qabaqcadan əvəzləşdirmə üsulunun tətbiq edilməməsi barədə razılığa gəlirlər**. Onlar bu barədə saziş bağlayırlar. Sazişdə nəzərdə tutulur ki, əvəzləşdirmədən istifadə etməklə öhdəliyə xitam verilməsi istisna edilir.

İkinci hal ondan ibarətdir ki, **əgər öhdəliyin predmetinə tələb yönəltmək olmazsa və ya öhdəliyin predmeti yaşayış vasitəsi olarsa, əvəzləşdirmə üsulu tətbiq edilmir**. Tələb yönəldilə bilməyən əmlak növlərinin siyahısı qanunla müəyyən edilir. Yaşayış vasitəsi dedikdə, mənzil, ev, yaşayış sahəsi və s. başa düşülür. Məsələn, qonşu əvvəlcədən pulunu verib vətəndaşdan yaşayış evi alır. Onun alqı-satqı müqaviləsindən yaşayış evinin verilməsini tələb etmək hüququ yaranır. Həmin vətəndaşın başqa bir öhdəlikdən qonşuya bağ evinin verilməsini tələb etmək hüququ yaranır. Tələblər bu halda əvəzləşdirilə bilməz. Ona görə ki, öhdəliyin predmeti yaşayış vasitəsidir.

Üçüncü hala görə, **əgər öhdəlik sağlamlığa vurulan zərərin əvəzinin ödənilməsini nəzərdə tutarsa, əvəzləşdirməyə yol verilmir**. Sağlamlığa vurulmuş zərər fiziki şəxsə xəsarət yetirilməsində, peşə xəstəliyində, əmək şikəstliyində və s. ifadə olunur. Fiziki şəxsə xəsarət yetirilərdə və ya onun sağlamlığı başqa formada pozulanda, o, qazancı (gəliri) itirir, əlavə xərclər çəkir (müalicəyə, dava-dərman alınmasına və s.). Belə halda fiziki şəxs onun sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malikdir. Bu cür tələb əvəzləşdirilə bilməz. Sağlamlığa vurulmuş zərəri məhdud mənada yox, genişləndirici mənada təfsir etmək lazımdır. Belə ki, bu anlayış fiziki şəxsin həyatına vurulmuş zərəri də əhatə edir[1].

Dördüncü hala görə, **əgər tələb üzrə iddia müddəti tətbiq edilməli olarsa və bu müddət keçərsə (yəni ötərsə), tələblər əvəzləşdirilmir**. Bunun üçün vacibdir ki, maraqlı tərəf əvəzləşdirmənin həyata keçirilməsinə razı olmaması barədə ərizə versin. Ərizədə o, tələb üzrə iddia müddətinin keçməsi halını əvəzləşdirmə üsulunun tətbiq edilməməsinə dəlalət edən əsas motiv kimi göstərsin. Əgər maraqlı tərəf bu cür ərizə verməzsə, əvəzləşdirmə mümkündür.

Beşinci hala görə, **əgər tələblər alimentlərin tutulması ilə bağlı olarsa, əvəzləşdirmə üsulu tətbiq edilmir**. Alimentlər müxtəlif əsaslara görə alına bilər: əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan yetkinlik yaşına çatmış övladların valideynlərdən aliment alması; valideynlərin öz övladlarından aliment alması və s. Alimentlərin alınması üzrə tələblərin əvəzləşdirilməsi yolverilməzdir.

Altıncı hala görə, **əgər tələb dövlətin (Azərbaycan Respublikasının) və ya bələdiyyənin olarsa, əvəzləşdirmə üsulunun tətbiq edilməsindən söhbət gedə bilməz**.

MM-də nəzərdə tutulan digər hallarda da tələblər əvəzləşdirilmir. Bu, onu göstərir ki, MM-in 545-ci maddəsində göstərilən siyahı tələblərin əvəzləşdirilməsini istisna edən halların qəti yox, təxmini siyahısını verir. Əvəzləşdirmədən o halda istifadə edilir ki, iki şəxs arasında iki qarşılıqlı öhdəlik mövcud olsun[1]. Əvəzləşdirmə hər iki öhdəliyə xitam verilməsinə səbəb olur.

5. Borcun bağışlanması ilə öhdəliyin xitamı

Hər şeydən əvvəl, qeyd edək ki, öhdəliyə xitam verilməsinin üsullarından biri kimi borcun bağışlanması Azərbaycan Respublikasının mülki qanunvericiliyində novelladır. 1964-cü il MM-i bu cür üsulu nəzərdə tutmamışdı. Yeni MM-in 27-ci fəslinin 4-cü paraqrafına daxil olan normalar (546-549-cu maddələr) borcun bağışlanması konstruksiyasının tənzimlənməsinə həsr edilmişdir. Özü də dərhal qeyd etməliyik ki, bu konstruksiyanı bir çox xarici mülki hüquq sistemləri də nəzərdə tutur. Almaniya, Yaponiya, Fransa, İtaliya, RF və digər ölkələrin qanunvericiliyi borcun bağışlanmasını öhdəliyə xitam verilməsinin əsas üsullarından biri kimi tanıyır. Borcun bağışlanması Almaniya mülki hüquq ədəbiyyatında borclunun öhdəlikdən azad edilməsi və ya kreditorun imtinası (Erlass) da adlanır[2]. Mülki Qanunnamənin 397-ci paraqrafı öhdəliyə xitam verilməsinin göstərilən üsulunu tənzimləyir[3]. Yaponiya mülki qanunvericiliyi borcun bağışlanması üsulunu öhdəlikdən azad etmə adı altında nəzərdə tutur. Yaponiya MM-in 519-cu maddəsi həmin üsulun tənzimlənməsinə həsr edilmişdir[4].

Roma hüququ borcun bağışlanmasını öhdəliyə xitam verilməsinin xüsusi xarakterli üsulu kimi nəzərdə tuturdu. Bu üsulla tələb hüququndan imtina edən kreditorun iradəsilə öhdəlik xitam olunurdu. Roma hüququ borcun bağışlanması konstruksiyasını «pastum de non petendo» anlayışı ilə əhatə edirdi[5].

[1] RF MM-in 411-ci maddəsində göstərilir ki, fiziki şəxsin həyatına və ya sağlamlığına vurulan zərərin əvəzinin ödənilməsi üzrə tələblər əvəzləşdirilə bilməz. Bizim qanunvericilikdə yalnız sağlamlığa vurulan zərərin əvəzinin ödənilməsi üzrə tələbin əvəzləşdirilməsinin yolverilməzliyindən söhbət açılır. Elə hesab edirik ki, bu anlayışı genişləndirici təfsir etmək lazımdır.

[1] *Л. Жюллио де ла Морандьер.* Гражданское право Франции. Том 2. М., 1960, с. 567.

[2] *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 221; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 348.

[3] Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

[4] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 347.

[5] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 523; *Пухан И., Полена-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 308-309.

Qeyd etməliyik ki, müasir xarici ölkələrin mülki hüququnda o, «kreditorun hüququndan könüllü imtina etməsi» üsulu kimi tanınır[1].

Borcun bağışlanması dedikdə, kreditorun borclunun onun üzərinə düşən vəzifədən azad etməsi başa düşülür. Bu hərəkəti ilə kreditor özünün borcluya olan tələb hüququndan imtina edir. Məsələn, vətəndaş (kreditor) öz yaxın qohumuna (borcluya) nisyə minik avtomobili satır. Qohumun əsas vəzifəsi avtomobilin pulunu ödəməkdən ibarətdir. Vətəndaş onu bu cür vəzifədən azad edir, yəni borcu bağışlayır və bununla alqı-satqı öhdəliyinə xitam verilir. Başqa bir misalda podrat müqaviləsi üzrə podratçı (tikinti təşkilatı, kreditor) yaşayış evini tikib qurtarır. Yaşayış evinin tikilməsini sifariş edən ikinci müqavilə tərəfinin (borclunun) əsas vəzifəsi tikilmiş evə görə podratçıya (kreditora) haqq verməkdən ibarətdir. Podratçı onu bu vəzifədən azad edir, yəni borcu bağışlayır. Başqa bir misalda sahibkar öz dostuna bir illik müddətə borc pul verir. O, borcu bağışlayır və öhdəliyə xitam verilir. Lakin borcun bağışlanması üçün qanun müəyyən şərt nəzərdə tutur. Həmin şərtə görə, kreditor borcun bağışlanması aktını həyata keçirərkən bu, onun əmlakı barəsində başqa şəxslərin hüquqlarını pozmamalıdır (MM-in 546-cı maddəsi). Bu, o deməkdir ki, əgər borcun bağışlanması aktı başqa şəxslərin hüquqlarını pozursa, onda bu cür aktın tətbiqinə yol verilmir. Məsələn, kreditor borcu bağışlamaqla özünü müflis vəziyyətinə gətirib çıxarır. Bu hal isə imkan vermir ki, üçüncü şəxslər kreditorun əmlakına tələb yönəltsinlər. Bu cür borcun bağışlanması aktı üçüncü şəxslərin hüquqlarını pozduğuna görə məhkəmə tərəfindən etibarsız hesab edilə bilər. Kreditor müflis elan edildiyi halda da, borcun bağışlanması tətbiq edilə bilməz. Çünki bu, kreditorun əmlakını azaltmış olardı. Bu isə kreditorun əmlakı barəsində tələb hüququna malik olan şəxslərin hüquqlarını pozardı.

Qeyd etmək lazımdır ki, **birtərəfli müqavilələr üzrə borcun bağışlanması aktı nəticəsində dərhal öhdəliyə xitam verilir.** Məsələn, birtərəfli müqavilə olan bank əmanəti (depozit) müqaviləsi üzrə əmanətçi (kreditor) bankı (borclunu) əmanəti qaytarmaq vəzifəsindən azad edir, yəni borcu bağışlayır. Bununla həmin müqaviləyə xitam verilir. İkitərəfli (qarşılıqlı) müqavilələr üzrə borcun bağışlanması isə müəyyən xüsusiyyətlərə malikdir. İkitərəfli (qarşılıqlı) müqavilələr odur ki, bu müqavilələrdə kreditor həm borclu, borclu isə həm də kreditor rolunda çıxış edir. Özü də onlardan hər birinin tələb hüququ digər tərəfin daşıdığı vəzifəyə uyğundur. Bu cür müqavilələrdə tərəflərdən birinin borcu bağışlaması digər tərəfi qarşılıqlı vəzifəni icra etməkdən azad etmir. Bu isə öhdəliyin xitam edilməsinə səbəb olmur (MM-in 549-cu maddəsi). Aydın olsun deyə misala müraciət edək. Podrat müqaviləsi ikitərəfli (qarşılıqlı) müqavilədir. Bu müqavilədə iki tərəf iştirak edir: podratçı; sifarişçi. Elə hesab edək ki, müqavilənin predmeti yaşayış evinin tikilməsindən ibarətdir. Podratçı tikilən evin pulunun verilməsini tələb etmək hüququna malikdir. Bu baxımdan o, kreditordur. Podratçı evi tikib sifarişçiyə vermək vəzifəsini daşıyır. Bu baxımdan isə o, borcludur. Sifarişçi kreditor kimi evin verilməsini tələb etmək hüququna malikdir, borclu kimi tikilən evə görə podrat haqqı verməyə borcludur. Elə hesab

[1] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А. Васильев, А.С. Комаров.* М., 2004, с. 489.

edək ki, podratçı sifarişçini podrat haqqını ödəmək vəzifəsindən azad edir, yəni borcu bağışlayır. O, bu hərəkəti tikilən evi sifarişçiyə təhvil verməmişdən əvvəl edir. Bu halda podrat öhdəliyi xitam olunmur. Ona görə ki, podratçı yaşayış evini sifarişçiyə vermək vəzifəsini daşıyır. Müqavilənin ləğv edilməsi (öhdəliyə xitam verilməsi) üçün zəruridir ki, podratçı evi sifarişçiyə versin, sonra isə onu podrat haqqını ödəməkdən azad etsin, yəni borcu bağışlasın. Belə halda isə öhdəlik xitam olunacaqdır. Deməli, ikitərəfli öhdəliyə xitam vermək üçün vacibdir ki, borcu bağışlayan tərəf (yəni podrat haqqının verilməsi tələbindən imtina edən podratçı) borcu sifarişçiyə bağışlamasına qədər (yəni podrat haqqının verilməsi tələbindən imtina etməsinə kimi) müqavilədə nəzərdə tutulmuş öhdəliyi, yəni tikilmiş yaşayış evini sifarişçiyə vermək vəzifəsini icra etsin (MM-in 549-cu maddəsi).

Borcun bağışlanması **əsas (təmin olunan) öhdəliyi xitam edir.** Əsas öhdəliyin ləğv olunması **əlavə öhdəliklərin də (dəbbə pulu, zaminlik və girov öhdəliklərinin) xitam edilməsinə səbəb olur**. Ona görə ki, əlavə öhdəliklərin taleyi əsas öhdəlikdən asılıdır.

Borcun bağışlanması kreditorun **borclunu əmlak vəzifəsindən azad etməsi** formasında ifadə olunur. Özü də kreditor borclunu əmlak vəzifəsindən azad edərkən bunun əvəzində hər hansı bir qarşılıqlı əvəz almır. Həm də borclunu əmlak vəzifəsindən azad etmək üçün hökmən onun razılığı gərəkdir[1]. Əgər kreditorun etdiyi hərəkətə borclu razılıq verməsə, borcun bağışlanmasından, yəni borclunun əmlak vəzifəsindən azad edilməsindən söhbət belə gedə bilməz. Deməli, bu halda kreditorla borclu arasında **bağışlama münasibətləri yaranır, yəni bağışlama müqaviləsi bağlanır**. Belə ki, kreditorun hərəkəti nəticədə borclunun əmlakının artmasına səbəb olur. Bundan əlavə, borclunun əmlak vəzifəsindən azad edilməsi bağışlama müqaviləsinin predmetindən biridir (MM-in 666-cı maddəsinin 1-ci və 2-ci bəndi). Dediklərimizdən belə nəticəyə gəlmək mümkündür ki, **borcun bağışlanması ikitərəfli əqddir**[2]. Ona görə ki, onun həyata keçirilməsi üçün təkcə kreditorun birtərəfli aktı kifayət etmir[3]. Həm də borclunun buna razılıq verməsi lazımdır ki, borc yükü ondan götürülsün. Borclu öz razılığını formal cəhətdən ifadə etmir. O, **susmaq yolu ilə (dinməz razılıq) borcun bağışlanmasına öz razılığını bildirir**[4]. Axı, məşhur atalar sözünə görə, susmaq razılıq əlamətidir. Buna görə də borcun bağışlanması aktını birtərəfli əqd hesab edən müəlliflərin fikri ilə razı-

[1] *Л. Жюллио де ла Морандьер.* Гражданское право Франции. Том 2. М., 1960, с. 577.

[2] Müəlliflərin çoxu borcun bağışlanması aktını ikitərəfli əqd hesab edirlər (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1997, с. 592; Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева.* М., 1999, с. 161; Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. *Е.А.Суханова.* М., 1999, с. 146; Комментарий к Гражданскому кодексу РФ, части первой / Под ред. *О.Н.Садикова.* М., 1999, с. 666 və s.

[3] Yaponiya mülki hüququna görə, öhdəlikdən azad etmə dedikdə, tələb hüququnun əvəzsiz olaraq xitam olunmasına yönələn hərəkət başa düşülür. O, kreditorun birtərəfli hərəkətindən ibarətdir və onun borclu tərəfindən bəyənilməsi tələb olunmur (Yaponiya MM-in 519-cu maddəsi) // *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 347).

[4] Peterburq alimlərindən T.A.Fadeyevanın fikrincə, borclu razılığını konklyudent hərəkət etmək yolu ilə bildirir. Bu fikirlə razılaşmaq olmaz (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1997, с. 592).

laşmaq olmaz[1].

Kreditor öhdəlikdən əmələ gələn tələb hüququndan imtina etməklə borcu bağışlayır. Bundan sonra kreditorla borclu arasında münasibətlər bağışlama müqaviləsi ilə rəsmiləşdirilir, yəni bağışlama müqaviləsi bağlanır. Belə təsəvvür yaranır ki, bu halda novasiya baş verir. Lakin həqiqətən novasiya halı yaranmır. Ona görə ki, kreditorun borcun bağışlanması kimi aktı borclu tərəfindən hər hansı bir cavab xidməti ilə şərtləndirilmir, yəni kreditor borcun bağışlanması müqabilində haqq və ya digər qarşılıqlı əvəz almır. Birinci (əsas) öhdəliyin tərəfləri buna görə də bağışlama müqaviləsi üzrə kreditor və borclu şəxs kimi çıxış edə bilmirlər. Axı, novasiya zamanı birinci öhdəlik üzrə kreditor və borclu, ikinci öhdəlik üzrə də kreditor və borclu rolunda çıxış edirlər. Deməli, novasiya baş vermir[2].

6. Müddətin keçməsinə görə öhdəliyin xitamı

Öhdəliklərə xitam verilməsinin əsaslarından biri müddətin keçməsi adlanır. MM-in 27-ci fəslinin 5-ci paraqrafına daxil olan normalar (550-554-cü maddələr) bu əsasla bağlı yaranan münasibətləri tənzimləyir. Müddətin keçməsi elə bir əsasdır ki, bunun ötməsi nəticəsində öhdəliyə xitam verilir. Daha doğrusu, öhdəliklərdən əmələ gələn tələblər müddətin keçməsinə görə ləğv edilir. Burada söhbət hansı müddətdən gedir? Axı, mülki hüquqda müddətlər müxtəlif növlərə bölünür.

Mülki hüquq elmində (sivilistika doktrinasında) təyinatına görə müddətlərin bir neçə növü fərqləndirilir. Mülki hüquqların həyata keçirilmə müddəti onun bir növü hesab edilir. **Mülki hüquqların həyata keçirilmə müddəti** odur ki, bu müddət ərzində səlahiyyətli şəxs (kreditor, subyektiv hüquq daşıyıcısı) özünün subyektiv hüquqlarını həyata keçirmək imkanına malik olur. Bu müddətlər həm normativ aktla, həm də tərəflərin sazişi ilə müəyyən edilə bilər. Mülki hüquqların mövcud olma müddətləri həmin müddətlərin əsas və başlıca növünü təşkil edir. **Mülki hüquqların mövcud olma müddəti** odur ki, bu müddət ərzində subyektiv hüquqlar qüvvədə olur. Bu müddət növü mülkiyyət hüququna, habelə müəlliflik hüququna (əsərin müəllifi kimi tanınmaq hüququna) şamil edilmir. Ona görə ki, həmin hüquqlar müddətsiz olaraq qüvvədədir[3].

Burada məhz söhbət mülki hüquqların mövcud olma müddətindən gedir. O mülki hüquqların mövcud olma müddətindən ki, həmin hüquqlar öhdəlik hüquq münasibətlərindən (öhdəliklərdən) əmələ gəlir və tələblər (tələb hüquqları) adlanır. Əgər səlahiyyətli şəxs (kreditor) **həmin müddət ərzində bu hüquqları həyata keçirməsə, onda onlara xitam verilir**. Başqa sözlə desək, həmin müddət ötürülərsə, səlahiyyətli şəxs (kreditor) tələbi, yəni borclu şəxsdən müəyyən hərəkətin edilməsini və ya edilməməsini tələb etmək hüququnu itirir və buna görə də o ləğv edilir. Nəticədə tələb etmək hüququnu yaradan öhdəliyin özü xitam olunur, borclu isə öhdəlikdən azad edilir. Buna görə də tələb üçün müddət «öhdəlikdən borclunu azad edən müddət»də adlanır. Mülkiyyət hüququna isə mülki hüququn mövcud olma müddəti tətbiq olunmur. Belə ki, heç bir vaxt bu hüquq həyata keçirilməməsi nəticəsində ləğv olunmur.

Çox vaxt təcrübədə müddətin bu növünü iddia müddəti ilə qarışdırırlar. İddia müddəti, hər şeydən əvvəl, müdafiə müddəti növünə aiddir. Müdafiə müddəti odur ki, bu müddət ərzində hüququ pozulmuş şəxs öz hüquqlarının müdafiə edilməsini tələb edə bilər. Pozulmuş mülki hüquqların əsas müdafiə vasitəsi iddia olduğuna görə həmin müddət iddia müddəti adını almışdır.

Mülki qanunvericilik öhdəlik hüquqlarına (tələblərə) münasibətdə iki cür mövcud olma müddəti nəzərdə tutur: ümumi (adi) müddət; xüsusi (adi olmayan) müddət.

Bütün öhdəliklərə (tələblərə) aid olan müddətlərə **ümumi (adi) müddətlər** deyilir. Həmin öhdəliklər (tələblər) göstərilən müddət keçdikdən sonra qüvvəsini itirir və onlara xitam verilir. Öhdəlik hüquqlarının (tələblərin) mövcud olmalarının **ümumi müddəti on il** müəyyənləşdirilir. Bu, bəzi xarici ölkələrin, məsələn, Yaponiyanın qanunvericilik ənənələrinə uyğundur. Yaponiya MM-i öhdəlik hüquqlarının ümumi mövcud olma müddətini on il müəyyən edir[1]. Fransada ümumi müddət 30 ildir.

Xüsusi (adi olmayan) müddətlərin iki növü fərqləndirilir: beş illik müddət; otuz illik müddət. **Xüsusi müddətlər** odur ki, bu cür müddətlər qanunda nəzərdə tutulan ayrı-ayrı növ öhdəliklərə (tələblərə) şamil edilir. Göstərilən müddətlər keçdikdə, öhdəliklərə xitam verir.

Kirayə haqqı, icarə haqqı, ərzaq məhsulları və içki satışı, mallar satışı, daşımalar və s. barədə tələblər üçün **beş illik müddət** müəyyən edilmişdir. Bu müddət keçdikdən sonra həmin tələblərə xitam verilir.

Otuz illik müddət məhkəmə qərarına əsasən əmələ gələn tələblərə aiddir. Otuz il ötdükdən sonra həmin tələblərə xitam verilir. Xüsusi müddətlər xarici ölkə qanunvericiliyinə məlumdur. Məsələn, Yaponiya qanunvericiliyi, əsasən, iki cür xüsusi müddət nəzərdə tutur: ticarət əqdlərindən irəli gələn hüquqlar üçün — 5 il; müddətli öhdəliklər (pensiya, alimentlər və s.) üçün — 20 il[2].

Öhdəliklərin xitamı üçün müddətin axımının başlanmasının düzgün müəyyən edilməsi böyük əhəmiyyətə malikdir. Bu, həmin müddətin düzgün hesablanması üçün həlledici rol oynayır. Belə ki, göstərilən müddəti düzgün hesablamamaq və səhvə yol vermək hökmən onun süni olaraq uzadılmasına və ya qısaldılmasına gətirib çıxaracaqdır. MM-in 552-ci maddəsinin 1-ci bəndinə görə, öhdəliklərin xitamı üçün **müddətin axımı tələbin icrası müddətinin çatması ilə başlanır**. Məsələn, icarə müqaviləsi üzrə tərəflər sentyabr ayının 1-dən başlayaraq, hər ay icarə haqqının ödənilməsi barədə razılığa gəlirlər. İca-

---

[1] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 451.

[2] Müəlliflərdən T.İ.İllarionova göstərir ki, göstərilən halda novasiya baş verir. Bu fikir, söz yox ki, həqiqətdən uzaqdır (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 451).

[3] Yaponiya MM-i birbaşa göstərir ki, mülkiyyət hüququnun mövcud olma müddəti yoxdur (167-ci maddənin 2-ci bəndi). Doğrudan da, əgər mülkiyyətçi on illərlə torpaq sahəsini taleyin hökmünə buraxsa belə, onun mülkiyyət hüququna xitam verilmir. L.Ennekserus yazır ki, Almaniya Mülki Qanunnaməsinə əşya (mülkiyyət) hüququna bu hüququn həyata keçirilməməsinə və ondan istifadə edilməməsinə görə xitam verilməsi kimi halı, ümumiyyətlə məlum deyil (*Эннекцерус Л.* Курс германского гражданского права. М., Том 1. Полутом 2. 1950, с. 405).

---

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 157.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 158-159.

rə haqqı barədə tələbin xitamı üçün müddətin axımı sentyabr ayının 1-dən başlayır. Lakin müddət hesablanarkən müddətin başlandığı gün, yəni sentyabrın 1-i nəzərə alınmır; faktiki olaraq müddətin axımı sentyabrın 2-dən başlanacaqdır. Əgər öhdəliyin məzmunu hərəkətsizlik olarsa, müddət hərəkətsizliyin yerinə yetirilmədiyi gündən hesablanır. Beləliklə, qanun müddət axımının başlanmasını tələbin icra müddətinin çatması və ya hərəkətsizliyin yerinə yetirilməməsi anı ilə əlaqələndirir.

Çox vaxt öhdəlik hüquqlarının mövcud olma müddətinin axımı fasiləsiz xarakter daşıyır. Lakin qanun nəzərə alır ki, real həyatda baş verən hallar həmin müddətin axımına mane ola və ya onu çətinləşdirə bilər. Bu hallar müxtəlif olub, həmin müddətin dayandırılması və kəsilməsi üçün əsas ola bilər.

Müddətin dayandırılmasının mahiyyəti ondan ibarətdir ki, müddətin axımının başlanmasına mane olan halın mövcud olduğu vaxt müddəti həmin müddətə hesablanmır. Bu hallar aradan qalxdıqda, müddətin axımı davam edir. Bu hallar qanunda nəzərdə tutulmuşdur (MM-in 552-ci maddəsinin 2-ci bəndi):

- **öhdəliyin icrasına möhlət verilərsə**, möhlət vaxtı müddətə hesablanmır. Möhlət götürüldükdə, müddətin axımı davam edir;
- əgər borclu şəxs öhdəliyin icrasından müvəqqəti imtina etmək hüququna malik olarsa və bu hüquqdan istifadə edərsə, **müvəqqəti imtina müddəti müddətə hesablanmır**. O, öhdəliyi icra etməyə başlayanda müddətin axımı davam edir;
- ərlə arvad arasındakı tələblər **nikah pozulana kimi** dayandırılır. Nikah pozulduqdan sonra müddətin axımı davam edir.
- əgər müddətin son altı ayı ərzində məhkəmə baxışı dayandırılarsa və buna görə səlahiyyətli **şəxs məhkəmə yolu ilə öz hüququnu müdafiə etmək imkanından məhrum olduğu hallarda**. İmkandan məhrum olma vaxtı müddətə hesablanmır. Məhkəmə baxışı və müdafiə etmək imkanı bərpa olunduqda, müddətin axımı davam edir;
- nümayəndəsi (təmsilçisi) olmayan məhdud fəaliyyət qabiliyyətli və ya qeyri-fəaliyyət qabiliyyətli şəxslərin tələbləri üzrə müddət **onların fəaliyyət qabiliyyətini itirdiyi andan altı ay keçənədək dayandırılır**. Bu, müddətə hesablanmır. Altı ay keçəndən sonra müddətin axımı davam edir.

Bəzi hallarda müddətin axımı kəsilir. **Müddətin axımının kəsilməsi** onu ifadə edir ki, kəsilmə anınadək, yəni müddətin kəsilməsinə dəlalət edən halın yaranması vaxtınadək keçən vaxt nəzərə alınmır, müddətə hesablanmır və müddətin axımının kəsilməsi qurtardıqdan (həmin hal aradan qalxdıqdan) sonra yeni müddət başlayır. Əgər müddətin dayandırılması, adətən, maraqlı şəxslərin iradəsindən asılı deyilsə, müddətin kəsilməsi isə maraqlı şəxslərin iradəvi hərəkətlərindən asılıdır. Qanun müddətin kəsilməsinə dəlalət edən **iki cür əsas** müəyyən edir (MM-in 553-cü maddəsi)[1].

Birinci əsas **borclu şəxsin öhdəliyin (tələbin) icrasını sübut edən hərəkət etməsindən** ibarətdir. Borclunun bu cür hərəkəti müxtəlif formalarda (üsullarda) ifadə oluna bilər. Həmin formalara aid edilir: tələbin səlahiyyətli

[1] Bu əsaslar barədə bax: *Л. Жюллио де ла Морандьер.* Гражданское право Франции. Том 2. М., 1960, с. 590.

şəxsə (kreditora) hissə-hissə ödənilməsi; tələb üzrə faizlər ödənilməsi; tələbin icrası üçün təminat vermək (girov, zaminlik, qarantiya); digər icra üsulları.

Müddətin kəsilməsini şərtləndirən ikinci əsas **səlahiyyətli şəxsin (kreditorun) məhkəməyə iddia verməsindən** ibarətdir. Özü də dərhal qeyd etməliyik ki, yalnız qanunla müəyyən edilmiş qaydada məhkəməyə edilən, yəni mülki-prosessual qanunvericiliyin tələblərinə uyğun gələn müraciət müddətin axımını kəsə bilər. İddianın verildiyi gündən etibarən müddətin axımı kəsilir. Müddətin kəsilməsi iddia üzrə məhkəmə qərarı qəbul edilənədək yox, həmin qərar qanuni qüvvəyə mindiyi ana kimi davam edir.

Öhdəliklərin xitamı üçün müddətin keçməsi **müəyyən hüquqi nəticələrə** səbəb olur (MM-in 554-cü maddəsi). Müddətin keçməsinin **birinci nəticəsi** ondan ibarətdir ki, bu, **borclu şəxsə öhdəliyin icrasından imtina etmək hüququ verir**. Borclunun ixtiyarı var ki, öhdəliyi icra etməsin. Başqa sözlə desək, müddətin keçməsi kreditorun **maddi mənada iddia vermək hüququna xitam verir**. Lakin bundan fərqli olaraq, kreditor **prosessual mənada iddia hüququnu itirmir**. Müddətin keçməsinə baxmayaraq, kreditor istənilən vaxt iddia ilə məhkəməyə müraciət edə bilər. İddiaya baxarkən aydın olur ki, kreditor öhdəliklərin xitamı üçün qanunda nəzərdə tutulan müddəti ötürmüşdür. Buna görə də məhkəmə iddianı təmin etmir.

Bəzən elə hallar olur ki, borclu öhdəliyin xitamı üçün nəzərdə tutulan müddətin keçməsini bilmir. O, öhdəliyi icra edir. Bu halda borclu kreditora icra etdiklərini geri tələb edə bilməz (MM-in 554-cü maddəsi). Məsələn, icarə haqqı barədə tələb üçün beş illik müddət nəzərdə tutulmuşdur. Beş il keçdikdən sonra icarəçinin icarə haqqını ödəməmək hüququ yaranır. Lakin o, müddətin ötməsini bilmir, icarə haqqını ödəyir. Bundan sonra ona məlum olur ki, müddət keçmişdir. İcarəçi verdiyi icarə haqqının geri qaytarılmasını tələb edir. Borclunun tələbi göstərilən halda yerinə yetirilmir. Deməli, müddətin keçməsinin **ikinci nəticəsi** ondan ibarətdir ki, **borclu icra olunmuşların geri qaytarılmasını tələb edə bilməz**.

Müddətin keçməsinin **üçüncü nəticəsi** ondan ibarətdir ki, **müddətin ötməsi həm əsas öhdəliyə, həm də əlavə öhdəliyə xitam verir** (MM-in 554-cü maddəsinin 3-cü bəndi). Əlavə öhdəliyin hüquqi müqəddəratı əsas öhdəlikdən asılıdır. Müddətin keçməsi əsas öhdəliklə bərabər, həm də girov, zaminlik, dəbbə pulu kimi əlavə öhdəliklərin ləğv edilməsi üçün əsas olur.

Öhdəliklərin xitamı üçün müddətlərin keçməsi barədə qanunun müəyyən etdiyi qayda imperativ xarakter daşıyır. Belə ki, tərəflər öz aralarında müddətin keçməsi barədə qaydanın tətbiq edilməməsi barədə razılığa gələ bilməzlər. Məsələn, tərəflərin ixtiyarı yoxdur ki, icarə müqaviləsində beş illik müddətin keçməsi barədə qaydanın tətbiq edilməməsi barədə şərt nəzərdə tutsunlar. Bundan fərqli olaraq, **tərəflər öhdəliklərin xitamı üçün müddətin qısaldılması barədə razılığa gələ bilərlər**. Məsələn, onların ixtiyarı vardır ki, icarə haqqı barədə tələb üçün beş illik müddət yox, üç illik müddət müəyyənləşdirsinlər. Belə təsəvvür yaranır ki, müddətin qısaldılması barədə qayda dispozitiv

xarakterə malikdir[1].

Öhdəliklərin xitamı üçün müddətlər sosial əmin-amanlığı (asayişi) və ümum-ictimai mənafeyi təmin edir; həmin müddətlər ərzində tələb hüquqlarını həyata keçirməmək bunu ifadə edir ki, bu hüquqların sahibləri (daşıyıcıları) onlardan imtina etmişdir. Bu müddətlər həm də həlli çətin olan çoxsaylı məhkəmə işlərinin yaranmasının qarşısını alır.

§ 3. Öhdəliyin xitamının digər əsasları

1. Borclu və kreditorun eyni şəxs olması

Öhdəliyə xitam verilməsinin əsaslarından biri **borclu və kreditorun eyni şəxs olmasıdır**. Qanun müəyyən edir ki, borclu və kreditor eyni şəxs olduqda, öhdəliyə xitam verilir (MM-in 555-ci maddəsi). Bu cür əsası Roma hüququ da nəzərdə tutmuşdu. Bu hüquqa görə, həmin əsas **konfuzi — confusio (birləşmə, qovuşma, qarışma) adlanırdı**[2]. Romada bu üsulla öhdəliyə xitam verilməsinə vərəsəlik hüququnda daha tez-tez hallarda rast gəlinirdi. Belə ki, borclu kreditorun vərəsəsi olurdu və əksinə. Vərəsəlik nəticəsində borclu kreditorun bütün əmlakını (kreditorun borclunun özünə olan tələb hüququ da daxil olmaqla) alırdı və o, öhdəlikdən azad olurdu.

Borclu və kreditorun eyni şəxs olması halı müxtəlif əsaslardan yarana bilər. **Universal (ümumi) hüquq varisliyi** kimi əsasa daha tez-tez hallarda rast gəlmək olar. Göstərilən varisliyə misal olaraq müəssisələrin birləşmə (qovuşma) yolu ilə yenidən təşkil edilməsini göstərmək olar. Birləşən müəssisələrdən biri borclu, digəri isə kreditordur. Bu halda yeni yaradılmış hüquqi şəxs (müəssisə) borclunu və kreditoru bir şəxs halında özündə birləşdirir. Göstərilən variantda öhdəlik, şübhəsiz ki, mövcud ola bilməz. Bu öhdəliyə xitam verilir. Belə ki, hər bir öhdəlikdə iki tərəf iştirak edir: borclu; kreditor. Elə bir öhdəlik tapılmaz ki, bu öhdəlikdə yalnız bir tərəf kimi eyni vaxtda həm kreditor, həm də borclu qalsın. Müəssisələr birləşəndə **öhdəliyin ikinci tərəfi itir və buna görə də öhdəliyin özünə xitam verilir**. Məsələn, xidmət firmasına topdansatış ticarəti müəssisəsi mal satır və onlar arasında alqı-satqı öhdəliyi yaranır. Bu öhdəliyə görə, firmanın müəssisəyə müəyyən məbləğdə pul vermək vəzifəsi yaranır. Müəssisə kreditor, firma isə borclu qismində çıxış edir. Yenidən təşkiletmə qaydasında firma və müəssisə birləşir. Bununla kreditor və borclu eyni şəxs olur, alqı-satqı öhdəliyi ləğv edilir.

Universal (ümumi) hüquq varisliyinin ikinci halı **vərəsəlikdir** ki, bunun nəticəsində kreditor və borclu eyni şəxsə çevrilir, öhdəliyə xitam verilir. Məsələn, qardaş (kreditor) öz bacısına (borcluya) borc pul verir. Bir ildən sonra qardaş ölür. Onun borc alan bacısından savayı vərəsəsi yoxdur. Qardaşın bütün mi-

[1] Almaniya professoru E.Klyuntsinger öhdəliklərin ləğvinin əsaslarını nəzərdə tutan təsnifat sxemində, nədənsə, müddətin ötməsi kimi əsas göstərmir (*Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 221). Amma buna baxmayaraq, Almaniya qanunvericiliyində belə əsas nəzərdə tutulur.

[2] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 308; *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 529; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 346.

ras əmlakı (o cümlədən borcu tələb etmək hüququ da) vərəsəlik qaydasında yeganə vərəsə olan bacısına keçir. Borc öhdəliyi üzrə kreditor və borclu eyni şəxs olur. Bununla borc öhdəliyi ləğv edilir. Qismən və ya xüsusi (sinqulyar) hüquqi varislik öhdəliyin xitam edilməsinə səbəb olmur. Yaponiya sivilistika doktrinası borclunun və kreditorun bir şəxsdə birləşməsinə borclunun, məsələn, vərəsəlik əsasında eyni zamanda kreditor statusu alması halı kimi baxır. Bu halda öhdəliyin bundan sonra mövcud olmasına zərurət qalmır. Buna görə də ona xitam verilir[1]. Borclu və kreditorun eyni şəxs olmasının mahiyyəti ondan ibarətdir ki, öhdəliyin kreditorunun özü həmin öhdəliyin borclusuna çevrilir. Bunun nəticəsində öhdəlik ləğv edilir. Ona görə ki, kreditorun özü öz borclusu ola bilməz.

Öhdəliyə xitam verilməsinin bu əsası (üsulu) köhnə MM-də nəzərdə tutulmuşdu (223-cü maddə). Bəzi xarici ölkələrin (məsələn, Almaniyanın, İtaliyanın, Fransanın, İsveçrənin, RF-in və s.) qanunvericiliyində də göstərilən üsula rast gəlmək olar. Almaniya hüquq doktrinasında və qanunvericiliyində həmin üsul konsolidasiya (borclunun və kreditorun bir şəxsdə birləşməsi) və ya borc və tələbin eyni bir şəxsdə üst-üstə düşməsi (Kon fusion und Konsalidation) adı altında nəzərdə tutulur[2]. Burada vərəsəlik göstərilən üsula misal çəkilir. Yaponiya MM-in 520-ci maddəsi kreditorun və borclunun eyni şəxs olması üsulu ilə öhdəliyə xitam verilməsi qaydasını müəyyənləşdirir[3].

2. İcranın mümkün olmamasına görə öhdəliyin xitamı

İcranın mümkün olmaması öhdəliyə xitam verilməsinin əsaslarından biridir. Bu cür əsası Roma hüququ da nəzərdə tutmuşdu[4]. Roma hüququna əsasən, icranın mümkün olmamasına görə öhdəliyin xitamının başlıca əsası öhdəliyin predmeti kimi çıxış edən fərdi-müəyyən əşyanın (species) məhv edilməsindən ibarət idi. 1964-cü il MM-də də icranın mümkün olmaması nəticəsində öhdəliyin xitamı nəzərdə tutulmuşdu (226-cı maddə).

Müasir qanunvericilik də icranın mümkün olmamasını öhdəliyin xitam olunmasına dəlalət edən əsaslardan (üsullardan) biri hesab edir. İcra mümkün olmadıqda, öhdəliyə xitam verilir (MM-in 556-cı maddəsinin 1-ci bəndi).

İcranın mümkün olmaması dedikdə, öhdəliyin məzmununu təşkil edən hərəkətin həyata keçirilmək imkanının olmaması başa düşülür[5]. Həyatda elə hallar yaranır ki, bu hallar artıq əmələ gəlmiş öhdəlik hüquq münasibətinin icra olunmasını qeyri-mümkün edir. Buna görə də öhdəliyin mövcudluğu mənasız bir şeyə çevrilir və bu səbəbdən o ləğv edilir.

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 347-348.

[2] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 342, 348; *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 221.

[3] *Brox H.* Allgermeines Schuldrecht. München. 1993, s. 115.

[4] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 516; Римское частное право. Учебник / Под ред. *И.Б. Новицкого, И.С. Перетерского.* М., 1999, с. 301.

[5] Almaniya hüquq doktrinasına görə, icranın qeyri-mümkünlüyü dedikdə, elə fiziki və ya hüquqi səbəblər başa düşülür ki, borclu bu səbəblərə görə öhdəliyi icra edə bilmir (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 351; *Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 311).

İcranın mümkün olmaması iki cür səbəblə bağlı ola bilər: faktiki və ya fiziki səbəb (əsas); hüquqi səbəb (əsas). Əgər faktiki səbəblər icranın qeyri-mümkünlüyünə dəlalət edərsə, buna **icranın faktiki (fiziki) cəhətdən mümkün olmaması** deyilir. Buna misal olaraq öhdəliyin predmeti qismində çıxış edən fərdi-müəyyən əşyanın fiziki cəhətdən mövcudluğuna son qoyulmasını, məhv olmasını göstərmək olar. Məsələn, vətəndaş öz dostuna taxtadan tikilmiş bağ evini (ev fərdi əlamətləri ilə müəyyən edilən əşyadır) satır və onunla alqı-satqı müqaviləsi bağlayır. Yanğın baş verir və ev yanır. Alqı-satqı müqaviləsinin icrası belə halda, söz yox ki, mümkün deyil. Belə halda öhdəlik ləğv edilir. Özü də dərhal qeyd etməliyik ki, **öhdəliyin predmeti yalnız fərdi-müəyyən əşya olduğu hallarda icranın fiziki cəhətdən mümkün olmamasından söhbət gedə bilər**. Əgər öhdəliyin predmetini cinsi (növ) əlamətləri ilə müəyyən edilən əşyalar (məsələn, benzin, kartof, buğda, sement, un, taxta-şalban və s.) təşkil edərsə, onda icranın fiziki cəhətdən mümkün olmaması kimi halı yarana bilməz. Ona görə ki, həmin əşyaları onların aid olduğu növdən (cinsdən) olan başqa əşya ilə əvəz etmək mümkündür. Məsələn, kənd sakini öz qonşusuna 50 kq kartof borc verir və onlar arasında borc öhdəliyi yaranır. Kartofu naməlum şəxs oğurlayır. Belə halda borc öhdəliyinin ləğv edilməsindən söhbət gedə bilməz. Ona görə ki, borc alan aldığı kartofun çəkisinə bərabər olan kartof verməklə öhdəliyi ləğv edəcəkdir.

Əgər hüquqi səbəblər icranın qeyri-mümkünlüyünə əsas olarsa, buna icranın **hüquqi cəhətdən mümkün olmaması** deyilir[1]. Məsələn, hüquqi qadağa və ya məhdudiyyətlər öhdəliyin icrasını hüquqi cəhətdən qeyri-mümkün edə bilər. Valyuta dəyişmə məntəqəsi ilə vətəndaş xarici valyutanın alqı-satqısı barədə və müqavilənin 5 gündən sonra icra olunması barədə razılığa gəlirlər. Xarici valyutanın dövriyyədən çıxarılması barədə normativ akt qəbul edilir. Öhdəlik ləğv olunur.

İcranın qeyri-mümkünlüyü nəticəsində öhdəliyə xitam verilməsi üçün bir neçə şərtin olması vacibdir. Birinci şərt ondan ibarətdir ki, **icranın qeyri-mümkünlüyü obyektiv** olmalıdır. Bu, o deməkdir ki, ümumiyyətlə, icra istənilən hər bir mülki hüquq subyekti üçün qeyri-mümkün olur və onların şəxsi iradəsindən asılı deyildir. Məsələn, öhdəliyin predmeti kimi çıxış edən fərdi-müəyyən əşyanın məhv olması icranın qeyri-mümkünlüyünə dəlalət edir.

İkinci şərt ondan ibarətdir ki, **icranın qeyri-mümkünlüyü təsadüfi olmalıdır**. Bu, o deməkdir ki, icranın qeyri-mümkünlüyünə **kreditorun və ya borclunun təqsirli hərəkətləri səbəb olmamalıdır**. Başqa sözlə desək, icranın edilməməsi tərəflərdən hər birinin cavabdeh olmadığı və məsuliyyət daşımadığı haldan irəli gəlməlidir[2]. Belə hallara qarşısıalınmaz qüvvəni (yanğını, zəlzələni, müharibə vaxtı bomba zərbələrini və s.), hüquqi-normativ qadağanları

[1] Bu hallar Roma hüququ ənənələrinə uyğun gəlir. Belə ki, Roma hüququ dövründə icranın fiziki (faktiki) cəhətdən mümkün olmaması və icranın hüquqi cəhətdən mümkün olmaması kimi iki halı fərqləndirilirdi (bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 301).

[2] Almaniya qanunvericiliyində isə yalnız borclunun cavabdeh olmadığı haldan söhbət gedir: öhdəlik əmələ gəldikdən sonra borclunun cavab vermədiyi hala görə onun icrası qeyri-mümkün olduqda, borclu icradan azad olunur (Almaniya MQ-nin 375-ci paraqrafı) // *Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 311.

(məsələn, alqı-satqı, icarə, kirayə və s. müqavilələrin predmeti olan əşyaların qanunla dövriyyədən çıxarılmasını), fors-major hadisəsini, yəni fövqəladə və həmin şəraitdə qarşısı alına bilməyən hadisəni (məsələn, təbii fəlakəti, ictimai hadisəni və s.) şamil etmək olar. Tərəflərin məsuliyyət daşımasını istisna edən belə hallara üzrlü səbəbləri də aid etmək olar. Məsələn, müəssisədə qəza baş verir və bunun nəticəsində yük göndərən yükü daşıma üçün vermir; nəticədə yükdaşıma öhdəliyi icra olunmur.

Göstərilən hallar öhdəlik iştirakçılarının iradəsindən asılı deyil. Buna görə də öhdəlik iştirakçıları hərəkətsizlik göstərməyə məcbur olurlar. Onların belə hallarda öz vəzifə və öhdəliklərini icra etmələrinə imkanı olmur. Bu kimi halda kreditor borcludan öhdəliyin icrasını tələb etmək hüququnu itirir.

Elə hallar yaranır ki, **öhdəliyin icrasının mümkün olmamasına borclunun təqsirli davranışı dəlalət edir və səbəb olur. Belə halda öhdəliyə xitam verilmir, o, yalnız dəyişir**. Məsələn, alqı-satqı müqaviləsi üzrə satıcı çilçırağı, yəni müqavilənin predmetini ehtiyatsızlıqdan (təqsirin forması) sındırır. Onun bu cür təqsirli hərəkəti alqı-satqı öhdəliyinin ləğv edilməsinə əsas vermir. Satıcı etdiyi hərəkət nəticəsində alıcıya vurduğu zərərin əvəzini ödəmək vəzifəsini daşıyır.

Bəzi hallarda kreditor təqsirli hərəkətlər edir. Bunun nəticəsində borclu tərəfindən öhdəliyin icrası mümkün olmur. Bu halda da öhdəliyə xitam verilir. Əgər kreditor öhdəliyi tam və ya qismən icra etmişsə, onda necə? Öhdəliyə xitam verilir, yoxsa öhdəlik mövcud olmaqda davam edir? Bu halda da öhdəlik ləğv edilir. Özü də kreditor borcludan özünün icra etdiklərini qaytarmağı tələb edə bilməz. O, bu hüququ itirir. Restitusiya hadisəsi baş vermir. İcra olunanların borcluda qalması isə əsassız varlanma halının yaranmasına səbəb olmur (MM-in 1093-cü maddəsi). Ona görə ki, kreditor özünün təqsirli hərəkəti ilə məqsədə çatmağa, yəni öhdəliyin icra olunmasına vicdansızcasına mane olur (MM-in 1093-cü maddəsinin 2-ci bəndinin 2-ci yarımbəndi). Məsələn, yük göndərən (kreditor) ilə daşıyıcı (nəqliyyat təşkilatı, borclu) arasında malların təyinat yerinə çatdırılması barədə daşıma müqaviləsi bağlanır. Yük göndərən qabaqcadan daşıma haqqını daşıyıcıya ödəyir. Müqaviləyə görə, mallar vaqonlara yük göndərənin (kreditorun) vasitələri ilə yüklənir. Yükləmə prosesində yük göndərənin təqsiri nəticəsində həmin vasitələr daşıyıcıya məxsus olan vaqonları mühüm dərəcədə zədələyir. Buna görə də daşıyıcının (borclunun) daşıma öhdəliyini icra etməsi mümkün olmur. Daşıma öhdəliyi ləğv edilir və yük göndərənin (kreditorun) daşıyıcıya verdiyi daşıma haqqı geri qaytarılmır. Bu halda əsassız varlanma (kondikasiya) öhdəliyi əmələ gəlmir. Ona görə də yük göndərən verilmiş daşıma haqqının geri qaytarılması barədə tələb (əsassız varlanma, yəni kondikasiya tələbi) irəli sürə bilməz.

Üçüncü şərtə görə, icranın **qeyri-mümkünlüyü öhdəlik əmələ gəldikdən sonra müəyyənləşdirilməlidir**[1]. Bu, o deməkdir ki, öhdəlik yaranan zaman

[1] Professor E.Klyuntsinger yazır ki, öhdəliyin icra olunmamasını şərtləndirən halın yaranma müddətini müəyyənləşdirmək olduqca vacib məsələdir. Öhdəlik yaranan anda mövcud olan halı (yəni başlanğıc anını) öhdəlik əmələ gəldikdən sonra yaranan haldan (yəni baş vermiş haldan) fərqləndirmək lazımdır (*Klünzinger E.* Einführung in das bürgerliche Recht. München 1993, s. 234).

onun icrasının qeyri-mümkünlüyünü qabaqcadan görmək mümkün olmasın. Məsələn, alqı-satqı müqaviləsi bağlayan tərəflər əvvəlcədən bilməli deyillər ki, müqavilənin predmeti olan yaşayış evi (taxtadan tikilmiş) ildırımın zərbəsindən yanacaqdır.

İcranı qeyri-mümkün edən faktlar üç cür olur: fors-major (qarşısıalınmaz qüvvə); hüquqi faktlar; fiziki (faktiki) hallar.

Almaniya hüquq doktrinasında «öhdəliyin icrasının mümkün olmaması» anlayışına nisbətən «Leistungsstörungen» adlı daha geniş kateqoriya işlədilir. Leistungsstörungen dedikdə, öhdəliyin icrasına mane olan hallar və ya öhdəliyi pozma başa düşülür[1]. Professor E.Klyuntsinger özünün işləyib hazırladığı sxemdə həmin kateqoriyaya aid edir: öhdəliyin icrasının mümkün olmamasını; borclu tərəfindən icranın gecikdirilməsini; müqavilənin pozitiv pozuntusunu (keyfiyyətsiz icranı); kreditorun icranı gecikdirməsini (kreditorun icranı qəbul etməməsini)[2].

Borclunun təqsiri üzündən icranın mümkün olmaması üsulu ilə öhdəliyin ləğvi Yaponiya mülki hüququna da məlumdur[3].

3. Dövlət və ya bələdiyyə orqanının aktına əsasən öhdəliyin xitamı

Öhdəliklərə xitam verilməsini şərtləndirən əsaslardan (üsullardan) biri **dövlət və ya bələdiyyə orqanı aktıdır**. Bu əsas icranın hüquqi cəhətdən mümkün olmaması halına ən yaxşı nümunədir. Belə ki, dövlət və ya bələdiyyə orqanı müvafiq akt qəbul edir və bunun nəticəsində öhdəliyin icrası hüquqi cəhətdən mümkün olmur. Həmin akt ya hüquqi qadağa qoyur, yəni öhdəliyin məzmununu təşkil edən hərəkəti qadağan edir, ya da məhdudiyyət müəyyənləşdirir. Bununla icra mümkün olmur və öhdəliyə xitam verilir. Belə təsəvvür yaranır ki, hər hansı bir öhdəliyin icrasını qadağan edən və ya onun icrasına mane olan **dövlət və ya bələdiyyə orqanının aktı icranın mümkün olmamasının xüsusi halıdır**.

Göstərilən üsul (əsas) öhdəliyə həm tamamilə, həm də müvafiq hissədə xitam verilməsinə dəlalət edə bilər. Əgər dövlət və ya bələdiyyə orqanının qəbul etdiyi akt nəticəsində öhdəliyin icrası tamamilə qeyri-mümkün olarsa, onda **öhdəliyə tamamilə xitam verilir**. Yox, əgər bu akt nəticəsində öhdəliyin icrası qismən qeyri-mümkün olarsa, onda **öhdəliyə müvafiq hissədə xitam verilir**. Bu üsulla öhdəliyə xitam verilməsinə predmeti dövriyyədən çıxarılan əşya olan alqı-satqı müqaviləsinin icrasının mümkün olmamasını misal göstərmək olar. Tərəflər əşyanın satılması barədə alqı-satqı müqaviləsi bağlayırlar. Müqavilə bağlandıqdan sonra alqı-satqının predmeti olan əşyanın dövriyyədə satışını qadağan edən qanun (ali dövlət qanunvericilik orqanının, yəni parlamentin qəbul etdiyi akt) qəbul edilir. Bunun nəticəsində alqı-satqı müqaviləsi icra edilmir. Ona görə ki, icra mümkün olmur. Başqa bir misalda bələdiyyənin ehtiyat fondunun kənd təsərrüfatına yararlı torpaqları xarici ölkənin vətəndaşına icarəyə verilir və bu barədə onunla icarə müqaviləsi bağlanır. Müqavilə bağlandıqdan az sonra bələdiyyə orqanı bələdiyyə torpaqlarının xarici şəxslərə icarəyə verilməsini qadağan edən müvafiq akt qəbul edir. İcarə müqaviləsi icranın mümkün olmamasına görə icra edilmir.

Dövlət və ya bələdiyyə orqanının öhdəliyə xitam verən müvafiq aktı mülki qanunvericiliyə uyğun gəlməli, öhdəlik iştirakçılarının mülki hüquqları və qanunla qorunan mənafelərini pozmamalıdır. Əgər bu akt qanunvericiliyə zidd olarsa, habelə tərəflərin hüquq və mənafelərini pozarsa, onda bu cür akt maraqlı şəxslərin tələbləri əsasında məhkəmə tərəfindən etibarsız hesab edilə bilər (MM-in 19-cu maddəsi). Şübhəsiz ki, qanunvericiliyə zidd olan, şəxslərin hüquq və mənafeyini pozan və buna görə də etibarsız sayılan dövlət və ya bələdiyyə orqanının aktları öhdəlik iştirakçılarına zərər vurur. Başqa sözlə desək, onlar etibarsız sayılan bu cür aktların əsasında öhdəliyə xitam verilməsi nəticəsində zərərə düşürlər. Belə hallarda öhdəlik (iştirakçıları zərərin əvəzinin) ödənilməsini tələb edə bilərlər (MM-in 1100-cü maddəsi). Onlara dəyən zərərin əvəzi dövlətin (Azərbaycan Respublikasının) və ya müvafiq bələdiyyənin hesabına ödənilir. Söhbət dövlət və ya yerli büdcədən gedir. Zərərin əvəzini ödəmiş dövlət və ya bələdiyyə aktı qəbul etmiş dövlət və ya bələdiyyə orqanına geriyə tələb (reqres) irəli sürə bilər. Bu zaman onlar arasında reqres öhdəlik əmələ gəlir. Bu öhdəlikdə dövlət və ya bələdiyyə reqredient (reqressant), aktı qəbul edən orqan isə reqressat qismində çıxış edir. Aktla öhdəliyin icrası müddəti uzandıqda eyni hüquqi nəticələrə səbəb olur.

Öhdəliyin xitamına dəlalət edən aktın etibarsız sayılması digər nəticəyə də səbəb olur. Belə ki, müvafiq akt məhkəmə qaydasında etibarsız sayıldıqda, öhdəlik bərpa edilir (MM-in 557-ci maddəsinin 2-ci bəndi). Bir şərtlə ki, öhdəliyin icrasına kreditorun marağı itməsin. Məsələn, öz toyuna hazırlaşan qız tikiş atelyesinə toy libası hazırlanması barədə sifariş verir və podrat müqaviləsi bağlanır. Bələdiyyə orqanı qanunsuz və əsassız olaraq tikiş atelyesini bağlamaq barədə akt (sərəncam) qəbul edir. Bu akt məhkəmə qaydasında etibarsız sayılır. Əgər bu, toydan sonrakı vaxta düşərsə, söz yox ki, qızın toy libasının hazırlanmasına marağı itəcəkdir[1].

4. Borclunun və ya kreditorun ölümü nəticəsində öhdəliyin xitamı

Borclunun ölümü nəticəsində öhdəliyin xitamını 1964-cü il MM-i də nəzərdə tutmuşdu (227-ci maddə). Yeni MM-in 558-ci maddəsi bu hüquqi məsələnin tənzimlənməsinə həsr edilmişdir. Öhdəliyə xitam verilməsinə dəlalət edən bu cür əsası hələ Roma hüququ da tanıyırdı[2]. Roma hüququna görə, borclunun ölümü nəticəsində bütün öhdəliklər yox, yalnız delikt (ziyan vurmaq nəticəsində əmələ gələn) öhdəlikləri xitam olunurdu[3].

---

[1] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 349; *H.Heinrichs // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 322; *Westermann H.P., Bydlinski P.* BGB – Schuldrecht Allgemeiner Teil. Heidelberg: Müller. 1999, s. 56.

[2] *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 234.

[3] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 326.

[1] Öhdəliyə xitam verilməsinin göstərilən əsası Avropa ölkələrinin qanunvericiliyində rast gəlmirik (bax: Гражданское и торговое право зарубежных государств. Учебник . М., 2004).

[2] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 290.

[3] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 308.

Hamımıza aydındır ki, ümumi qaydaya görə, öhdəlik iştirakçılarının — kreditor və ya borclunun ölümü öhdəlik hüquq münasibətinə xitam vermir. Onların hüquq və vəzifələri vərəsəlik qaydasında keçir. Belə ki, ölən kreditor və ya ölən borclunun vərəsələri prinsip etibarilə universal (ümumi) hüquq varisləridirlər. Onların yerini öhdəlik hüquq münasibətində vərəsələr tuturlar. Başqa sözlə desək, bu halda **öhdəlikdə şəxslərin dəyişməsi (tələbin güzəşti və ya borcun köçürülməsi) baş verir**. Məsələn, tərəflər borc müqaviləsi bağlayırlar. Həm borc verən (kreditor), həm də borc alan eyni vaxtda və ya onlardan biri ölür. Belə halda borc müqaviləsinə xitam verilmir. Müqavilədə onların yerini vərəsələr (həm kreditorun, həm də borc alanın vərəsələri) tuturlar.

Bununla belə, elə öhdəliklər vardır ki, yuxarıda göstərdiyimiz bu ümumi qaydanı həmin öhdəliklərə tətbiq etmək olmur. Bu cür öhdəliklərə şəxsi xarakterli öhdəliklər deyilir. **Şəxsi xarakterli öhdəliklər** odur ki, bu cür öhdəliklərin borclunun şəxsi iştirakı olmadan icrası mümkün deyil və ya bu öhdəliklərin icrası şəxsən kreditor üçün nəzərdə tutulur. Beləliklə, şəxsi xarakterli öhdəliklərdə bir tərəfin və ya hər iki tərəfin əvəz edilməsinə və dəyişdirilməsinə yol verilmir, ümumi (universal) hüquq varisliyi yaranmır. Bu öhdəliklərdə tərəflərdən biri itirsə, onlara xitam verilir.

Şəxsi xarakterli öhdəliklərin üç növü fərqləndirilir:

- borclunun şəxsi iştirakı olmadan icrası mümkün olmayan öhdəliklər;
- icrası şəxsən kreditor üçün nəzərdə tutulan öhdəliklər;
- şəxsi etimad xarakterli (fidusiar) öhdəliklər.

Borclunun şəxsi iştirakı olmadan icrası mümkün olmayan öhdəliklər odur ki, həmin öhdəliklər borclunun ölməsi ilə xitam olunur. Əgər borclunun şəxsi iştirakı olmadan icra mümkün deyilsə, onun ölümü öhdəliyin xitamına səbəb olur (MM-in 558-ci maddəsinin 1-ci bəndi). Bu öhdəlikdə tərəf qismində çıxış edən borclu ölür və beləliklə, öhdəlik iştirakçılarından biri itir, onun vəzifəsi (borcu) isə vərəsələrə keçmir[1]. Bununla da öhdəlik ləğv edilir. Məsələn, nəşriyyat təşkilatı ilə müəllif arasında ədəbiyyat əsərinin yaradılması barədə nəşriyyat müqaviləsi (müəllif müqaviləsi) bağlanır. Qəflətən yazıçı (müəllif, borclu) ölür. Ədəbiyyat əsəri yaratmaq vəzifəsi müəllifin vərəsələrinə keçmir. Müəllif müqaviləsi ləğv edilir. Başqa bir misalda rəssamla sifarişçi arasında sifarişçinin portretinin çəkilməsi barədə müqavilə bağlanır. Rəssam (və ya sifarişçi) ölür. Müqaviləyə xitam verilir. Başqa bir misalda zaminlik müqaviləsi (MM-in 470-ci maddəsi) üzrə çıxış edən zamin (borclu) ölür. Zaminlik öhdəliyi ləğv edilir.

İcrası şəxsən kreditor üçün nəzərdə tutulan öhdəliklər kreditorun ölümü nəticəsində ləğv olunur. Əgər icra şəxsən kreditor üçün nəzərdə tutulmuşsa, onun ölümü öhdəliyini xitamına səbəb olur (MM-in 558-ci maddəsinin 2-ci bəndi). Bu öhdəliklərdə tərəf kimi çıxış edən kreditor ölür və bunun nəticəsində o itir. Onun borcludan tələb etmək hüququ isə vərəsələrə keçmir. Beləliklə, kreditorun ölümü öhdəliyin xitam olunmasına səbəb olur. Məsələn, qonşu (zərərvuran) vətəndaşa (zərərçəkənə) xəsarət yetirir. Bunun nəticəsində onun

[1] Bu qayda kredit müqaviləsindən yaranan öhdəliklərə tətbiq edilmir. Əgər kredit müqaviləsi üzrə kredit alan fiziki şəxs (borclu) ölərsə, krediti geri qaytarmaq vəzifəsi onun vərəsələrinə keçir. RF Ali Arbitraj Məhkəməsi də belə hesab edir (Вестник ВАС, 1997. № 4, с. 86).

sağlamlığı pozulur, işə çıxmır və əmək haqqını (qazancını) itirir. Belə halda delikt öhdəliyi yaranır. Zərərçəkən (kreditor) yaranmış delikt (zərər vurmaq nəticəsində yaranan) öhdəliyinə görə onun sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malikdir. Kreditor şəkər xəstəliyindən ölür. Onun zərərvurandan zərərin əvəzini tələb etmək hüququ vərəsələrə keçmir. Buna görə də delikt öhdəliyinə xitam verilir. Başqa bir misalda ömürlük renta müqaviləsi üzrə yaşayış evi renta ödənişi üçün vətəndaşın mülkiyyətinə verilir (MM-in 877-ci maddəsi). Vətəndaş (renta ödəyicisi, borclu) hər ayın sonunda renta alana (kreditora) pul (renta) verir. Renta alan (kreditor) ölür. Bununla renta müqaviləsinə xitam verilir. Ona görə ki, bu müqaviləyə görə, renta (pul) yalnız renta alanın həyatı (ömrü) boyu ödənilir. Başqa bir misalda aliment alan kreditor ölür. Aliment öhdəliyinə xitam verilir. Başqa bir misalda dərzi sifarişçiyə (kreditora) kostyum tikir. Sifarişçi ölür. Podrat öhdəliyi xitam olunur.

Şəxsi etimad xarakterli öhdəliklər (fidusiar öhdəliklər), əsasən, tapşırıq müqaviləsindən əmələ gəlir. Vəkalət verən (kreditor) və ya vəkalət alan öldükdə, tapşırıq müqaviləsinə xitam verilir (MM-in 786-cı maddəsinin 2-ci bəndi). Bu müqavilə üzrə tərəflər arasındakı qarşılıqlı münasibətlər şəxsi etimad və etibara əsaslanır. Tərəflərdən biri öldükdə, müqavilə üzrə onların hüquq və vəzifələri vərəsəlik qaydasında keçmir. Belə halda tapşırıq öhdəliyi ləğv edilir.

5. Hüquqi şəxsin ləğvi nəticəsində öhdəliyin xitamı

Öhdəliklərin xitam olunmasını şərtləndirən əsaslardan biri **hüquqi şəxsin ləğvidir**. Hüquqi şəxsin ləğvi nəticəsində onun öhdəliklərinə xitam verilir (MM-in 559-cu maddəsi). Hüquqi şəxsin ləğvi dedikdə, onun mövcudluğuna və fəaliyyətinə elə xitam verilməsi başa düşülür ki, bunun nəticəsində hüquqi şəxsin əmlakı (hüquq və vəzifələri) hüquq varisliyi qaydasında başqa şəxslərə keçmir. Hüquqi şəxs müxtəlif hallarda ləğv edilə bilər: hüquqi şəxsin yaradılması zamanı qarşıya qoyulan məqsədə nail olunması; hüquqi şəxsin qeydiyyatının məhkəmə tərəfindən etibarsız sayılması; hüquqi şəxsin mövcudluğu üçün nəzərdə tutulan müddətin başa çatması; hüquqi şəxsi təsis edənlərin qərarı ilə; müflis olma nəticəsində.

Hüquqi şəxslər müxtəlif öhdəliklərdə həm kreditor rolunda, həm də borclu rolunda çıxış edə bilər. O, göstərilən və digər əsaslara görə ləğv edildikdə, həmin öhdəliklərə xitam verilir. Bu zaman hüquqi şəxsin öhdəlik üzrə hüquq və vəzifələri hüquqi varislik qaydasında başqalarına keçmir.

Hüquqi şəxsin iştirak etdiyi öhdəliklərin xitamı anı **hüquqi şəxsin ləğvinin qeydə alındığı anla** şərtlənir. Ləğvetmə qeydə alındığı andan hüquqi şəxsin öhdəliklərinə xitam verilir (MM-in 559-cu maddəsi). Hüquqi şəxsin ləğvi barədə qeyd hüquqi şəxslərin dövlət reyestrinə daxil edilir. Bu andan onun ləğvi başa çatmış sayılır.

Bəzi halda qanun hüquqi şəxsin ləğvi nəticəsində öhdəliyin xitamı barədə qaydadan istisna hala yol verir. Belə ki, hüquqi şəxslər həyata və ya sağlamlığa vurulmuş zərərə görə delikt məsuliyyətinə cəlb edilə bilər. Bu məqamda əgər hüquqi şəxs ləğv olunarsa, delikt öhdəliyinə xitam verilmir. Zərərçəkənə verilmək üçün müvafiq ödənişlər (pul məbləği) **kapitallaşdırılır və əlaqədar**

təşkilatlara verilir[1]. Həmin təşkilat isə öz növbəsində ödənişləri zərərçəkənə çatdırır (MM-in 1126-cı maddəsinin 2-ci bəndi). Belə təsəvvür yaranır ki, qanun, mahiyyətcə, bu halda sinqulyar (xüsusi) hüquq varisliyi nəzərdə tutur.

6. Öhdəliyə depozitə qoyma nəticəsində xitam verilməsi

Depozitə qoyma üsulunu Roma hüququ da tanıyırdı[2]. Roma hüququ öhdəliyin icra predmetinin saxlanca (depositio) qoyulmasını həmin öhdəliyə xitam verilməsinin əsası hesab edirdi. B. e. III əsrində borclunun şahidlərin iştirakı ilə pulu möhürləyib xəzinəyə depozitə qoymaq hüququ vardı.

Həyatda elə hallar yaranır ki, kreditorun olduğu yer məlum olmur və ya o, icranın qəbulunu gecikdirir. Buna görə də öhdəliyin icrası mümkün olmur. Məsələn, borc alan borc pulu borc verənə qaytarmaq istəyir. Lakin borc verənin (kreditorun) harada olmasını müəyyənləşdirmək müşkül məsələyə çevrilir. Bu halda borclu icra predmetini saxlanmaq üçün məhkəməyə və ya notariata verir. Əgər icra predmeti pul və ya qiymətli kağızlardan ibarət olarsa, onda borclu onları notariusun depozit hesabına qoyur. Deməli, göründüyü kimi, borclu icra predmetini depozitə qoyur. Bununla o, kreditor qarşısında öhdəlikdən azad edilir. Daha doğrusu, borclunun icra predmetini depozitə qoyma kimi hərəkəti öhdəliyə xitam verilməsinə dəlalət edir. Bunun nəticəsində öhdəlik xitam olunur.

MM depozitə qoymanı öhdəliyə xitam verilməsinin əsaslarından (üsullarından) biri hesab edir (MM-in 532-ci maddəsi). Həmin məcəllənin 27-ci fəslinin 2-ci paraqrafına daxil olan normalar (532-539-cu maddələr) bu üsulun tətbiqi ilə bağlı əmələ gələn münasibətləri tənzimləyir. **Depozitə qoyma** dedikdə, öhdəliyin icra predmetinin saxlanmaq üçün məhkəməyə və ya notariata vermək yolu ilə, habelə pulları və ya qiymətli kağızları isə notariusun depozit hesabına qoymaq yolu ilə öhdəlikdən azad olmaq başa düşülür. Qanun onun iki cür əsasını müəyyən edir ki, bunlara depozitə qoymanın əsasları deyilir: kreditorun icranın qəbulunu yubandırması (bu cür yubandırma təqsirin həm qəsd, həm də kobud ehtiyatsızlıq formasında ola bilər); kreditorun olduğu yerin məlum olmaması. Bununla belə, kreditorun fəaliyyət qabiliyyətli hesab edilməsi və onun nümayəndəsinin olmaması, kreditorun qəsdən icranı qəbul etməkdən boyun qaçırması və digər hallar depozitə qoymanın əsası hesab edilə bilər.

Öhdəliyin xitam olunmasının göstərilən əsasını Almaniya və Yaponiya qanunvericiliyi də tanıyır. Yaponiya MM-in 494-cü maddəsi borclu tərəfindən depozitə qoymanın qaydasını müəyyənləşdirir. Almaniya Mülki Qanunnaməsinin 372-ci paraqrafı borcluya ixtiyar verir ki, kreditor öhdəliyin icrasını gecikdirdiyi hallarda, o, pulu, qiymətli kağızları və digər sənədləri, qiymətli əşyaları müəyyən dövlət idarəsində depozitə qoysun[3].

Depozitə qoymanın predmeti rolunda həm daşınar əşyalar, həm pul, həm

[1] Dərsliyin I nəşr 2-ci cildinin 41-ci fəslinin 11-ci paraqrafının 6-cı yarımbaşlığına bax (səh. 790).

[2] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 284.

[3] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 342, 347; *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 221.

də qiymətli kağızlar çıxış edə bilər. Daşınmaz əmlakın (torpağın, binanın, yaşayış evinin və s.) depozitə qoyulması prinsip etibarilə mümkündür. Bu, bəzi xarici ölkələrin qanunvericilik ənənələrinə uyğun gəlir. Məsələn, Yaponiya qanunvericiliyinə görə, daşınmaz əmlak depozitə qoyula bilər[1]. Almaniya qanunvericiliyinə görə, pul, qiymətli kağızlar və digər sənədlər, qiymətli əşyalar depozitə qoyula bilər. Burada daşınmaz əşyanın depozitə qoyulması nəzərdə tutulmur[2].

Depozitə qoyma iki cür hüquqi nəticəyə səbəb olur. **Birinci hüquqi nəticə** kreditorun depozitə qoyulmuş əşyanı almaq hüququ əldə etməsindən ibarətdir. Bu baxımdan depozitə qoyma **üçüncü şəxsin xeyrinə bağlanan saxlama müqaviləsi kimi** çıxış edir. Bu müqavilədə borclu şəxs saxlanca verən, məhkəmə (və ya notarius) isə saxlayıcı hesab edilir. Kreditor isə xeyrinə saxlama müqaviləsi bağlanan şəxsdir. Yaponiya sivilistika doktrinasında depozitə qoymaya məhz üçüncü şəxsin xeyrinə bağlanan müqavilə kimi baxırlar[3]. Almaniya qanunvericiliyinə görə isə depozitə qoyma qaydasını məhkəmə (Amtsgericht) müəyyən edir. Məhkəmə əşyanın depozitə qəbul edilməsi barədə inzibati akt verir. Bunun nəticəsində məhkəmə kreditorla depozitə qoyulmuş əşyanın saxlanması barədə ümumi (xüsusi yox) münasibətə girir.

Depozitə qoymanın **ikinci hüquqi nəticəsi** borclunun öhdəlikdən azad olmasından ibarətdir. Belə ki, onun nəticəsində borclu kreditor qarşısında öhdəlikdən azad edilir.

Depozitə qoyma borclu tərəfindən həyata keçirilən **icra üsuludur**. Bu üsul öhdəliyin lazımınca icrasını ifadə edir ki, bunun nəticəsində müvafiq öhdəlik ləğv olunur. Daha doğrusu, borclunun bu aktı öhdəliyin kreditora icra edilməsinə bərabər tutulur. Lakin borclunun vəzifəsidir ki, icra predmetinin depozitə qoyulması barədə kreditora məlumat versin. Özü də dərhal.

Depozitə qoyma aktı, ümumi qaydaya görə, öhdəliyin icra edildiyi yerin məhkəməsində və ya notariatında həyata keçirilir. Bununla belə, borclunun ixtiyarı var ki, bu aktı başqa yerdəki məhkəmədə və ya notariatda yerinə yetirsin. Bu halda kreditor zərərə düşə bilər (yol pulu, əşyanı daşıyıb aparmaq xərcləri və digər məsrəflər). Həmin xərclərin əvəzini borclu ödəyir.

Depozitə qoyma aktı poçt vasitəsilə də həyata keçirilə bilər. Belə ki, bu halda depozitə qoyulan əşya məhkəməyə və ya notariata poçtla göndərilir. Bunun üçün əşya poçta təhvil verilir. Poçta (rabitə təşkilatına) verildiyi andan əşya depozitə qoyulmuş hesab edilir.

Depozitə qoyulan icra predmeti — əşya saxlanmaq üçün yararlı olmalıdır. Yararsız, tez xarab olan və korlanan əşyalar saxlanmağa qəbul edilmir. Elə hallar yaranır ki, öhdəlik predmeti olan daşınar əşya tez xarab olmaq və korlanmaq xüsusiyyətinə malik olur. Bundan əlavə, öhdəlik predmeti olan əşyanın saxlanması ilə bağlı xərclər qeyri-münasib və yüksək olur. Şübhəsiz ki, bu cür əşyaların depozitə qoyulması sərfəli deyil. Belə vəziyyətdə borclu həmin əşyaları depozitə qoymur, öhdəliyin icra yerində onları açıq hərracdan satır. Əldə edilmiş satış pulunu o, depozitə qoyur. Bu, öhdəliyin lazımınca icra edil-

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 339.

[2] *Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999; Германское право Гражданское уложение. Часть 1. М., 1996.

[3] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 340.

məsini ifadə edir.

Borclu depozitə qoyma aktı ilə bağlı bəzi hüquqlara malikdir. Onun ixtiyarı var ki, kreditorun depozitə qoyulmuş əşyanı almaq hüququnu qarşılıqlı öhdəliyin icrası ilə bağlı etsin, yəni ondan asılı etsin (MM-in 532-ci maddəsinin 4-cü bəndi). O, bu hüquqdan ikitərəfli (qarşılıqlı) öhdəliklərin (məsələn, alqı-satqı, dəyişmə, podrat, daşıma və s. öhdəliklərin) icrasında istifadə edə bilər. Məsələn, dəyişmə müqaviləsi bağlayan tərəflərdən biri müqavilənin icra müddəti çatdıqda, dəyişdirilən əşyanı depozitə qoyur. O, belə şərt müəyyənləşdirir ki, digər tərəf yalnız əşyanı ona verdiyi halda, depozitə qoyulmuş əşyanı ala bilər. Daşıma müqaviləsi üzrə tərəflər razılığa gəlirlər ki, yük göndərən daşıma haqqını ödədikdən sonra daşıyıcı yükü ona versin. Daşıyıcı yükü təyinat yerinə çatdırır və onu depozitə qoyur. Yük göndərənin (kreditorun) daşıma haqqını ödəməyincəyə kimi depozitə qoyulmuş yükü almaq hüququ yoxdur. Göstərilən qayda o halda tətbiq edilir ki, qarşılıqlı icra barədə tərəflər razılığa gəlsinlər.

Borclunun saxlanmaq üçün **depozitə qoyduğu əşyanın qaytarılmasını tələb etmək hüququ** vardır (MM-in 538-ci maddəsi). Özü də o, bu hüquqdan əşya kreditor tərəfindən qəbul edildiyi müddətədək istifadə edə bilər. Kreditor əşyanı qəbul edərsə, o, əşyanın qaytarılmasını tələb edə bilməz.

Depozitə qoyma ilə bağlı **məhkəmə və ya notarius müəyyən vəzifələr daşıyırlar. Məlumat vermək** onların daşıdığı vəzifələrdən biridir (MM-in 536-cı maddəsi). Belə ki, əşya saxlanma üçün depozitə qoyulduqda, məhkəmə və ya notarius bu barədə kreditora məlumat verirlər. Bundan əlavə, onların borcudur ki, icra predmetini qəbul etməyi kreditordan tələb etsinlər.

Məhkəmə və ya notariusun daşıdığı vəzifələrdən biri depozitə qoyulmuş **əşyanı kreditora verməkdən** ibarətdir (MM-in 533-cü maddəsinin 1-ci bəndi). İcra predmetinin saxlanmaq üçün depozitə qoyulması barədə məlumat alan kreditor icra predmetini qəbul edir. Əmlak ona verilir. Kreditor əşyanın saxlanması ilə bağlı bütün xərcləri ödəyir. Bu cür xərclər borclunun yox, kreditorun üzərinə düşür (MM-in 537-ci maddəsi).

Depozitə qoyulmuş əşyanı saxlamaq məhkəmə və ya notariusun daşıdığı vəzifələrdən biridir (MM-in 539-cu maddəsi). Onlar əşyanı üç ilədək müddətə saxlayırlar. Üç illik saxlama müddəti onunla izah olunur ki, bu müddət ərzində məhkəmə və ya notarius kreditorun depozitə qoyma aktına olan münasibətini müəyyənləşdirə bilsin. Əgər bu müddət ərzində kreditor əşyanı qəbul edərsə, onda əşya ona verilir. Yox, əgər göstərilən müddət ərzində o, icra predmetini qəbul etməzsə, yəni icra predmetindən imtina edərsə, onda məhkəmə və ya notarius bu barədə borcluya məlumat verir və ondan əşyanı geri götürmək tələb olunur. Bu halda borclu üç illik saxlama müddətinin tamam olmasını gözləmədən icra predmetini geri götürür. Deməli, kreditor icra predmetindən imtina edərsə, borclu üç illik müddətin başa çatmasını gözləmədən onu geri götürür.

Bəzən məhkəmə və ya notarius üç illik saxlama müddəti ərzində kreditorun əşyanı qəbul etməsini və ya ondan imtina etməsini müəyyənləşdirə bilmir. Söhbət həmin müddət ərzində kreditorun əşyanı qəbul etməməsindən gedir. Daha doğrusu, kreditor əşyanı götürmək üçün gəlib çıxmır. Belə halda məhkəmə və ya notarius bu barədə borcluya məlumat verir və ondan əşyanın geri

götürülməsini tələb edir. Bunun üçün, yəni əşyanın geri götürülməsi üçün müddət təyin edilir. Bu müddət ərzində borclu əşyanı geri götürür, habelə onun saxlanma xərclərini ödəyir.

Borclu icra predmetini nəzərdə tutulan müddət ərzində geri götürməyə də bilər. Bu halda icra predmeti **dövlət mülkiyyətinə** keçir (MM-in 539-cu maddəsi).

Göstərilən üsullardan savayı, digər üsullarla da öhdəliyə xitam verilə bilər. Məsələn, Almaniya hüquq doktrinasında öhdəliyin məqsədinə çatmaq (nəticəyə nail olmaq) kimi üsul nəzərdə tutulur. Bu üsula görə, nəticəyə borclunun səyi olmadan başqa qaydada nail olunur və bununla öhdəlik ləğv edilir[1]. Öhdəliyə xitam verilməsinin bu cür üsulunu Yaponiya qanunvericiliyi də tanıyır (MM-in 474-cü maddəsi)[2]. Bundan əlavə, Almaniya qanunvericiliyində öhdəlikdən imtina üsulu da nəzərdə tutulur. Bu üsula görə, əgər müqavilədə bir tərəfə imtina hüququ verilərsə, onda imtina halında tərəflər aldıqlarını bir-birinə qaytarırlar (§ 346)[3].

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого**. М., 1997 (гл. 29).

Гражданское право. Учебник. Том 2. Полутом 1 / Под ред. **Е.А.Суханова**. М., 1997 (гл. 29, § 9).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И.Масляева**. М., 1997 (гл. 26).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко**. М., 1998 (гл. 25).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой, Б.М.Гонгало, В.А. Плетневой**. М., 1998 (гл. 22).

Гражданское право. Учебник / Под ред. **С.П.Гришаева**. М., 1999 (гл. 11).

Комментарий к Гражданскому кодексу РФ, части первой / Под ред. **О.Н.Садикова**. М., 1999 (гл. 26, ст. 407-419).

Горбунов М.П. Невозможность исполнения обязательств. Автореф. канд. дис. М., 1977.

Новицкий И.Б., Лунц Л.А. Общее учение об обязательстве. М., 1950 (гл. 8).

А.Жалинский, А.Рёрихт. Введение в немецкое право. М., 2001.

Brox H. Allgermeines Schuldrecht. München. 1993.

Westermann H.P., Bydlinski P. BGB – Schuldrecht Allgemeiner Teil. Heidelberg: Müller. 1999.

Palandt. Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999.

Klünzinger E. Einführung in das bürgerliche Recht. München. 1993.

[1] *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 326.

[3] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 348.

XXXI FƏSİL
MÜLKİ HÜQUQ MƏSULİYYƏTİ

§ 1. Mülki hüquq məsuliyyətinin anlayışı, növləri, formaları, funksiyaları, prinsipləri və əhəmiyyəti

1. Mülki hüquq məsuliyyətinin anlayışı

Məsuliyyətin müxtəlif növləri fərqləndirilir: sosial məsuliyyət; mənəvi məsuliyyət; siyasi məsuliyyət; hüquqi məsuliyyət. Sosial məsuliyyət daha əhatəli və ümumiləşdirilmiş anlayışdır. Bu məsuliyyət cəmiyyətdəki bütün məsuliyyət növlərini özündə birləşdirir. Bu baxımdan hüquqi məsuliyyət sosial məsuliyyətin bir növü kimi çıxış edir.

Hüquqi məsuliyyətin dörd əsas növü vardır: cinayət məsuliyyəti; inzibati məsuliyyət; intizam məsuliyyəti və nəhayət, mülki hüquq məsuliyyəti[1]. Mülki hüquqda hüquqi məsuliyyət **mülki hüquq məsuliyyəti anlayışı** ilə əhatə olunur.

Mülki (əmlak) dövriyyənin normal inkişafı və fəaliyyət göstərməsi üçün əsas şərtlərdən biri mülki hüquq subyektlərinin öz vəzifə və öhdəliklərini vicdanla, lazımınca yerinə yetirmələrindən ibarətdir. Bu şərtin iqtisadiyyatın normal fəaliyyət göstərməsi üçün mühüm əhəmiyyəti vardır. Bəzi hallarda mülki hüquq subyektləri müqavilə və digər öhdəlikləri ya yerinə yetirmirlər, ya da lazımınca icra etmirlər. Bununla onlar mülki hüquq pozuntusu (mülki xətalar) törətmiş olurlar. Müqavilə və digər öhdəliklərin pozulması — törədilmiş mülki hüquq pozuntuları nəinki subyektlərin əmlak sferasına, habelə bütövlükdə ölkə iqtisadiyyatına və vətəndaş cəmiyyətinə mənfi təsir göstərir. Bunun nəticəsində istehsalın sabitliyi pozulur, cəmiyyətin əmtəə-pul münasibətləri mexanizmində qeyri-müntəzəmlik, fasilə, boş dayanma və pozuntu halları yaranır. Bu cür pozuntuların qarşısını almaq və onların doğurduğu mənfi nəticələri aradan qaldırmaq üçün mülki qanunvericilik mülki hüquq məsuliyyəti müəyyən edir. Belə hallarda mülki hüquq məsuliyyəti törədilmiş hüquq pozuntusuna görə tətbiq edilən sanksiya (latınca «sanctio» — ciddi qərar) rolunda çıxış edir. **Mülki hüquq sanksiyası** qanunda və ya müqavilədə nəzərdə tutulan elə bir tədbirdir ki, bunun tətbiqi öhdəliyi lazımınca icra etməyən və ya icra etməyən borclu üçün müəyyən nəticə yaradır. Sanksiyalar müxtəlif olur. Onları iki qrupa bölmək olur[2]:

- müdafiə tədbirləri;
- məsuliyyət tədbirləri.

Müdafiə tədbirləri dedikdə, ya hüququn pozulmasının qarşısının alınmasına və aradan qaldırılmasına və yaxud artıq pozulmuş hüquq və mənafeyin bərpa edilməsinə yönələn sanksiya başa düşülür. Müdafiə tədbirlərinin tətbiq

[1] Bəzən ədəbiyyatda maddi məsuliyyət kimi məsuliyyət növü göstərilir (*V.N.Xropanyuk.* Dövlət və hüquq nəzəriyyəsi. Bakı. 1995, c. 163; Аграрное право. Учебник / Под ред. *Г.Е.Быстрова, М.И.Козыря.* М., 1998, с. 410).

[2] *Красавчикова О.А.* Ответственность, меры защиты и санкции в советском гражданском праве // Сборник ученых трудов. Вып. № 3. Свердловск. 1975, с. 11-12.

edilməsi, bir qayda olaraq, **hüquq pozuntusu törədən subyekt üçün mənfi əmlak nəticələri (əlavə yük) yaratmır**. Özü də onların bəziləri məhkəmə tərəfindən, bəziləri isə səlahiyyətli şəxslərin (vətəndaşların, hüquqi şəxslərin) özləri tərəfindən həyata keçirilir. Lakin bütün hallarda müdafiə tədbirləri dövlətin məcburetmə qüvvəsi ilə təmin edilir. Bəzi hallarda onlar təqsirkar davranışın tənbeh edilməsi və töhmətləndirilməsi ilə bağlı olmur. Bundan əlavə, müdafiə tədbirləri hüquq pozuntusu törədən şəxsin təqsirindən asılı olmayaraq tətbiq edilə bilər.

Mülki qanunvericiliyə bir çox müdafiə tədbirləri məlumdur. Bu tədbirlərə aiddir: hüququn tanınması; mübahisə edilən əqdin etibarsız hesab edilməsi; öhdəliyin icrasının natura ilə müəyyən edilməsi; hüquqların pozulmasınadək mövcud olan vəziyyətin bərpa edilməsi və hüquqları pozan hərəkətlərin qarşısının alınması və s. Məsələn, vətəndaş özü üçün yaşayış evi tikir. O, qonşunu köməyə çağırır. Ev tikilib qurtardıqdan sonra qonşu iddia edir ki, yaşayış evi ona məxsusdur. Vətəndaş məhkəməyə müraciət edir. Məhkəmə vətəndaşın yaşayış evinə mülkiyyət hüququnun tanınması barədə qərar qəbul edir. Bu halda hüququn tanınması kimi müdafiə tədbiri tətbiq olunur.

Sanksiyaların ikinci qrupunu məsuliyyət tədbirləri təşkil edir. **Məsuliyyət tədbirləri** dedikdə, qanunla müəyyənləşdirilən, dövlətin məcburetmə qüvvəsi ilə təmin edilən elə tədbirlər başa düşülür ki, bunun tətbiqi hüquq pozuntusu törədən subyekt üçün əmlak xarakterli arzuolunmaz mənfi nəticələr yaradır. Müdafiə tədbirlərindən fərqli olaraq, ümumi qaydaya görə məsuliyyət tədbirləri **hüquq pozuntusu törədən subyektin təqsiri olduqda tətbiq edilir**. Həmin subyekt üçün sərf etməyən nəticəyə səbəb olur[1]. Məsuliyyət tədbirlərinin tətbiqinə çox misal çəkə bilərik. Alqı-satqı müqaviləsi bağlanır. Müqavilənin icrasını təmin etmək üçün alıcı satıcıya beh verir. Lakin alıcının təqsiri üzündən müqavilə icra edilmir. Beh ona qaytarılmır. Bu halda alıcıya behin itirilməsi formasında məsuliyyət tədbiri tətbiq edildi. Mal göndərmə (tədarük) müqaviləsi üzrə mal göndərən (satıcı) malların (məsələn, yüz ədəd soyuducunun) univermağa (alıcıya) göndərilməsini gecikdirir və bununla mülki hüquq pozuntusuna yol verir. Bu hərəkətə görə satıcı univermağa penya formasında dəbbə pulu ödəyir. Göstərilən halda satıcıya dəbbə pulu (penya) formasında məsuliyyət tədbiri tətbiq edilir. Başqa bir misalda qonşu sənətçidən musiqi alətini kirayəyə götürür. Kirayəçi (qonşu) musiqi alətini xarab edir və bunun nəticəsində ondan normal istifadə mümkün olmur. Kirayə verən (sənətçi) ona vurulmuş zərərin əvəzinin ödənilməsini tələb edir. Bu halda kirayəçiyə musiqi alətini xarab etdiyinə görə zərərin əvəzinin ödənilməsi formasında məsuliyyət tədbiri tətbiq edilir.

Mülki qanunvericilik **məsuliyyət tədbirlərinin bir çox formasını** müəyyənləşdirir və nəzərdə tutur: **dəbbə pulu (cərimə, penya) verilməsi; zərərin əvəzinin ödənilməsi; behin itirilməsi** və s. Bunların hamısı hüquq pozuntusu törədənlərə tətbiq edilən məsuliyyət tədbirləri formasında mülki hüquq sanksiyalarıdır. Bax, hüquq pozuntusu törədiləndə istifadə edilən bu sanksiya-

[1] Советское гражданское право. Учебник. Том 1/ под ред. *В.П. Грибанова, С.М. Корнеева.* М., 1976, с. 508.

lar mülki hüquq məsuliyyətini ifadə edir. Deməli, mülki hüquq sanksiyalarının məsuliyyət tədbirləri kimi ikinci qrupu mülki hüquq məsuliyyəti anlayışı ilə əhatə olunur. Buna görə də mülki hüquqi məsuliyyət hüquq pozuntusu törədən şəxsə məsuliyyət tədbiri olan sanksiya tətbiq etmək deməkdir.

Yuxarıda çəkdiyimiz misallardan aydın oldu ki, mülki hüquq məsuliyyəti hüquq pozuntusu törədən şəxslər üçün əmlak xarakterli arzuolunmaz mənfi nəticələr əmələ gətirdi[1]: kirayəçi musiqi alətini xarab etdiyi üçün pul formasında zərərin əvəzini ödədi; beh verən alıcı müqaviləni icra etmədiyinə görə beh məbləğini itirdi; mal göndərən malların göndərilməsini gecikdirdiyinə görə alıcıya (univermağa) dəbbə pulu (penya) verdi və s. Daha doğrusu, mülki hüquq məsuliyyəti hüquq pozuntusu törədən şəxs üçün **əlavə yük (mənfi nəticə) yaradır**. Bu məsuliyyət törədilən hüquq pozuntusuna görə subyektə verilən «tənbehdir», «cəzadır», «töhmətdir». Subyekt üçün əmələ gələn yük (mənfi nəticə) özünü **iki formada göstərir**: **hüquq pozuntusu törədən şəxsə əlavə mülki-hüquqi vəzifə həvalə etmək formasında** (məsələn, yuxarıdakı misalda mal göndərənin dəbbə pulunu ödəmək vəzifəsi); **hüquq pozuntusu törədən şəxsi məxsus olduğu subyektiv mülki hüquqdan məhrum etmək formasında** (məsələn, yuxarıdakı misalda behin qaytarılmasını tələb etmək hüququndan məhrum etmək). Hüquq pozuntusu törədən şəxs üçün əlavə yük (mənfi nəticə) yaratmayan sanksiya mülki hüquq məsuliyyəti hesab edilmir. Sanksiyanın müdafiə tədbirləri kimi qrupu, yuxarıda göstərdiyimiz kimi, bir qayda olaraq, əlavə yük (mənfi nəticə) yaratmır. Ona görə də bu cür tədbirlər mülki hüquq məsuliyyəti sayılmır. Dediklərimizdən belə çıxır ki, bütün mülki hüquq sanksiyaları mülki hüquq məsuliyyəti demək deyildir. Bu isə onu ifadə edir ki, mülki hüquq məsuliyyəti bütün hallarda sanksiyadır, sanksiyalar isə bütün hallarda mülki hüquq məsuliyyəti anlayışı ilə əhatə olunmur.

Beləliklə, mülki hüquq məsuliyyətinə sanksiya kimi anlayış verə bilərik: **mülki hüquq məsuliyyəti dedikdə, elə bir sanksiya başa düşülür ki, bu sanksiyanın tətbiqi nəticəsində hüquq pozuntusu törədən şəxs üçün əmlak xarakterli arzuolunmaz nəticə — əlavə yük yaranır**.

Mülki hüquq məsuliyyəti həyata keçirilərkən hüquq münasibəti yaranır. Buna **məsuliyyət hüquq münasibəti** deyilir. Bu münasibətin **subyektləri** borclu (hüquq pozuntusu törədən) və kreditordur. Təqsirkar borclu müəyyən hərəkəti etmək vəzifəsi daşıyır. Kreditor isə bu vəzifənin icrasını tələb etmək hüququna malikdir. Borclunun daşıdığı vəzifə və kreditorun malik olduğu hüquq **məsuliyyət hüquq münasibətinin məzmununu** təşkil edir. **Məsuliyyət subyekti** borclu (hüquq pozuntusu törədən, zərər vuran) hesab edilir. Bəzi hallarda bilavasitə zərərvuran (hüquq pozuntusu törədən) şəxslə məsuliyyət subyekti eyni şəxs olmurlar. Məsələn, 12 yaşlı uşaq vətəndaşın əmlakını zədələyir. Uşaq bilavasitə zərərvuran (hüquq pozuntusu törədən) şəxsdir. Vurulmuş zərərin əvəzini uşağın özü yox, onun valideynləri ödəyir. Valideynlər məsuliyyət subyekti hesab edilirlər. Başqa bir misalda daşıma müqaviləsi üzrə daşıyıcı daşımanı başqa daşıyıcının (cəlb edilən daşıyıcının) vasitəsilə həyata keçirir. Cəlb edilən daşıyıcı yükün təyinat yerinə çatdırılmasını gecikdirir və bununla

[1] *Иоффе О.С.* Советское гражданское право. Курс лекций. Л., 1958, Часть 1, с. 436.

hüquq pozuntusu törədir. Lakin vurulmuş zərərin əvəzini daşıyıcı ödəyir (MM-in 850-ci maddəsinin 4-cü bəndi). Cəlb edilən daşıyıcı bilavasitə zərərvuran, daşıyıcı isə məsuliyyət subyekti hesab edilir. Bunları nəzərə alaraq, mülki hüquq məsuliyyətinə hüquq münasibəti kimi anlayış verə bilərik: **mülki hüquq məsuliyyəti elə bir hüquq münasibətidir ki, bu münasibətə görə bir tərəf (hüquq pozuntusu törədən) digər tərəf (zərərçəkən) qarşısında öz hüquqazidd əməlinə görə cavab verir**.

2. Mülki hüquq məsuliyyəti anlayışı haqqında diskussiya

Hüquq ədəbiyyatında mübahisə predmetlərindən biri hüquq məsuliyyətinin anlayışı barədə məsələdir[1]. Bu məsələ haqqında bir sıra müəlliflərin fikirləri inandırıcı görünmür. Bəzi alimlərin mövqeyincə, hüquqi məsuliyyət dedikdə, öz hərəkətlərinə görə cavab vermək vəzifəsi başa düşülür ki, bu kimi vəzifə hüquqla tənzimlənir[2]. Bu anlayışın uğursuz olması açıq-aşkar hamıya bəllidir. Ona görə ki, hüquqi məsuliyyətə bu cür tərif verilməsi məsələyə birtərəfli yanaşmaq deməkdir. Həmin anlayış hüquq pozuntusu törədən şəxs üçün mənfi nəticələr yaranmasını əks etdirmir. Axı, hüquq pozuntusu törədən şəxs üçün arzuolunmaz mənfi nəticələr yaranması mülki hüquq məsuliyyətini xarakterizə edir. Bundan əlavə, mülki hüquq məsuliyyəti hüquq pozuntusunun nəticəsidir[3]. Hüquqi məsuliyyət həmişə hüquqi göstərişlərin pozulmasının nəticəsində yaranır. Öz hərəkətlərinə görə cavab vermək vəzifəsi hüquq pozuntusu törədilməyən halda da mövcud ola bilər. Göstərilən anlayış və tərif bəzi müasir müəlliflər tərəfindən də uğursuz sayılır[4].

Alimlərdən professor S.N.Bratus 1976-cı ildə hüquqi məsuliyyətə «vəzifənin dövlət məcburiyyəti vasitəsilə həyata keçirilməsi» kimi anlayış vermişdir[5]. O, yazırdı ki, öhdəlik icra olunmadıqda, kreditorun təşəbbüsü ilə məcburiyyət aparatı işə düşür, məsuliyyət mexanizmi hərəkətə gəlir. Müəllifin verdiyi bu cür anlayış, şübhəsiz ki, qüsurludur. Ona görə ki, mülki hüquq məsuliyyəti bəzi hallarda dövlət məcburiyyəti vasitəsilə ifadə olunmur. Məsələn, hüquq pozuntusu törədən şəxs hüquq orqanlarının vasitəsi olmadan könüllü surətdə

[1] Hüquq məsuliyyətinin, o cümlədən mülki hüquq məsuliyyətinin problemləri barədə bax: *Иоффе О.С.* Ответственность по советскому гражданскому праву. Л., 1955; *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР (часть II) // Гражданское право. Избранные труды. М., 2000; *Самощенко Н.С., Фарукшин М.Х.* Ответственность по советскому законодательству. М., 1971; *Матвеев Г.К.* Основание гражданско-правовой ответственности М., 1970; *Грибанов В.П.* Пределы осуществления и защиты гражданских прав. М., 1972; *Грибанов В.П.* Ответственность за нарушение гражданских прав и обязанностей. М., 1973; *Красавчиков О.А.* Ответственность, меры защиты и санкции в советском гражданском праве // Уч. труд. Свердловс. юрид. ин-та, 1971. вып. 27; *Братусь С.Н.* Юридическая ответственность и законность М., 1976; *Малеин Н.С.* Правонарушение: понятие, причины, ответственность М., 1970.

[2] *Тархов В.А.* Ответственность по советскому гражданскому праву. Саратов. 1973, с. 11; *Карпекин Ю.Б., Макаров О.В., Сердюк Л.В.* Человек и право. Хабаровск. 1993, с. 223; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 425.

[3] bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 2 // Гражданское право. Избранные труды. М., 2000, с. 476.

[4] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1997, с. 528; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 429.

[5] bax: *Братусь С.Н.* Юридическая ответственность и законность М., 1976, с. 85, 89-90.

vurulmuş zərərin əvəzini ödəyir və ya dəbbə pulu (cərimə, penya) verir. Göstərilən konsepsiyanın çatışmazlığı ondan ibarətdir ki, müəlliflər hüquq pozuntusu törədən subyektin könüllü surətdə kreditora zərərin əvəzini və ya dəbbə pulunu ödəməsini mülki hüquq məsuliyyəti anlayışına aid etmirlər. S.N.Bratus əsassız olaraq yazır ki, borclu öhdəliyi könüllü surətdə icra edərsə, onda məsuliyyət haqqında danışmağa dəyməz[1].

Elə müəlliflər var ki, onların fikrincə, hüquq məsuliyyəti hüquq normasının sanksiyasının həyata keçirilməsidir[2]. Bu konsepsiya da məsələyə birtərəfli yanaşmanı ifadə edir. Ona görə ki, birincisi, bütün sanksiyaların hamısı məsuliyyət tədbiri müəyyənləşdirmir. İkincisi, elə hüquq normaları vardır ki, həmin normalarda sanksiya nəzərdə tutulmur. Bu isə o demək deyildir ki, normada sanksiyanın göstərilməməsi həmin normanın pozulmasına görə məsuliyyəti istisna edir. Göstərilən konsepsiyadan belə çıxır ki, hüquq normasında sanksiya nəzərdə tutulmayıbsa, onda məsuliyyət də yoxdur.

Hüquq ədəbiyyatında mübahisə doğuran məsələlərdən biri «məsuliyyət» terminin ifadə etdiyi mənadır. Biz elə hesab edirik ki, qanunvericilikdə və ədəbiyyatda məsuliyyət kateqoriyası iki mənada işlədilir. Birinci mənada məsuliyyət «mənəvi məsuliyyət» anlayışını ifadə edir. Mənəvi məsuliyyət anlayışı ilə şəxsin digər cəmiyyət üzvləri qarşısında, öz qarşısında vəzifə borcu, öz hərəkətlərinə görə cavab verməyə hazır olması əhatə olunur. Bu məsuliyyət cəmiyyət üçün faydalı fəaliyyət göstərmək və sosial rolu yerinə yetirmək üzrə vəzifədən əmələ gəlir. O, müvafiq şəxsi nümunəvi davranmağa təşviq edir və onun gələcək hərəkətlərinin formalaşmasına təsir göstərir. Ona görə də məsuliyyəti birinci mənada mənəvi məsuliyyət və ya **pozitiv məsuliyyət** və ya **perspektiv məsuliyyət** adlandırırlar.

İkinci mənada məsuliyyət hüquq pozuntusu ilə əlaqədar əmələ gəlir və hüquq pozuntusu törədən şəxsə müvafiq sanksiyalar tərtib edilməsi ilə bağlı olur. Bu cür məsuliyyət artıq baş vermiş hüquq pozuntusuna qiymət verməkəsasında yaranır. O, hüquq və vəzifələrin pozulmasına görə əmələ gələn məsuliyyətdir. Göstərilən məsuliyyət hüquq ədəbiyyatında **neqativ və ya retrospektiv məsuliyyət** adlanır.

Almaniya mülki hüquq ədəbiyyatında məsuliyyət (Haftung) iki mənada işlədilir. Birinci mənada məsuliyyət dedikdə, kreditorun öz tələbini məcburi surətdə həyata keçirməsi imkanı başa düşülür[3]. İkinci mənada məsuliyyət borclunun öz təqsirinə görə nə isə etmək vəzifəsini daşımasını ifadə edir (Entstehenmüssen)[4].

3. Mülki hüquq məsuliyyətinin əsas xüsusiyyətləri və cəhətləri

Mülki hüquq məsuliyyəti elə bir hüquqi vasitədir ki, o, cəmiyyətdə mövcud

[1] S.N.Bratusun irəli sürdüyü konsepsiyanın tənqidi təhlili barədə bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 2. М., 1978 (глава 2. § 3).

[2] bax: *Лейст О.Э.* Санкции и ответственность по советскому праву. М., 1981.

[3] *H.Heinrichs // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 221; *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1999, s. 168.

[4] *Brox H.* Allgemeines Schuldrecht. München. 1999, s. 11 ff.

olan hüquq qaydasını təmin edir. Mülki dövriyyənin hər hansı bir iştirakçısının hüququ və ya qanunla qorunan mənafeyi pozulduqda, mülki hüquq məsuliyyəti tətbiq olunur. Bu məsuliyyət hüquq pozuntusu törədən şəxsə müəyyən vəzifə həvalə etməkdən ibarətdir. Həmin vəzifənin icra olunması hüquq pozuntusu törədən şəxs üçün mənfi nəticələr yaradır. Sanksiyanın müdafiə tədbirləri kimi qrupu, bir qayda olaraq, həmin şəxslər üçün mənfi nəticələr əmələ gətirmir. Deməli, **borclu (hüquq pozuntusu törədən şəxs) üçün mənfi nəticələr yaratmaq** mülki hüquq məsuliyyətinin (yəni sanksiyanın ikinci qrupunun) əsas və başlıca xüsusiyyətidir. Bu cür mənfi nəticələr borclu üçün əlavə yük yaradılmasında və ya onun mülki hüquqlardan məhrum edilməsində ifadə olunur.

Mülki hüquq məsuliyyətinin ikinci xüsusiyyəti ondan ibarətdir ki, **o, əmlak xarakterinə malikdir**, yəni hüquq pozuntusu törədən şəxsə əmlak xarakterli tədbirlər tətbiq edilməsini nəzərdə tutur. Başqa sözlə desək, hüquq pozuntusu törədən şəxs (borclu) üçün əmələ gələn mənfi nəticə əmlak xarakterlidir. Həmin şəxsdən pul formasında dəbbə pulu alınır, əqdin predmeti dövlətin mülkiyyətinə keçirilir, verilmiş beh məbləği batır, vurulmuş zərərin əvəzi pulla kompensasiya edilir və s. Bununla hüquq pozuntusu törədən şəxs maddi itkiyə məruz qalır. Onun əmlak kütləsi əvəzsiz olaraq azalır. Belə təsəvvür yaranır ki, mülki hüquq məsuliyyəti iqtisadi məzmuna malikdir: borcluya (hüquq pozuntusu törədən şəxsə) əmlak sanksiyası tətbiq olunur.

Mülki hüquq məsuliyyətinin üçüncü xüsusiyyəti ondan ibarətdir ki, **tətbiq olunan əmlak sanksiyası zərərçəkən tərəfin xeyrinə olur**[1]. Bu, onunla izah olunur ki, mülki hüquqda məsuliyyət, hüquq pozuntusu törədən şəxsin zərərçəkmiş şəxs qarşısında daşıdığı məsuliyyətdir[2]. Mülki hüquq münasibətlərində bir tərəfin (borclunun) daşıdığı vəzifənin pozulması digər tərəfin (kreditorun) hüquqlarının pozulmasına dəlalət edir. Məsələn, bank (kreditor) sahibkara (borcluya) kredit verir. Sahibkar krediti qaytarmaq vəzifəsini icra etmir, hüquq pozuntusuna yol verir. Bu hal isə, şübhəsiz ki, bankın kreditin qaytarılmasını tələb etmək hüququnun pozulması deməkdir. Sahibkara tətbiq edilən əmlak sanksiyası (penya formasında hər gecikdirilən gün üçün faizlər alınması) bankın (kreditorun) xeyrinə olur. Bu cür xüsusiyyəti ilə mülki hüquq məsuliyyəti cinayət və inzibati hüquq məsuliyyətlərindən fərqlənir. Həm cinayət, həm də inzibati hüquq məsuliyyəti əmlak xarakterli məsuliyyət tədbirləri nəzərdə tutur. Məsələn, dövlət yol polisi yol hərəkəti qaydalarını pozan sürücünü cərimələyir. Başqa bir misalda cinayət yolu ilə əldə edilmiş əmlak müsadirə olunur. Lakin cinayət hüququ və inzibati hüquq kimi sahələrdə istifadə olunan məsuliyyət tədbirləri nəticəsində alınan əmlak dövlət mədaxilinə keçirilir. Söylədiklərimizdən belə təsəvvür yaranır ki, mülki hüquq məsuliyyəti, bir qayda olaraq, ümumi (hakimiyyət) hüquq xarakterinə yox, xüsusi hüquq xarakterinə malikdir. Cinayət hüquq məsuliyyəti isə ümumi (hakimiyyət) hüquq xarakteri daşıyır.

[1] Bu hal Almaniya mülki hüquq ədəbiyyatında «Opferausglich», yəni zərərçəkmiş şəxsin xeyrinə kompensasiya adlanır (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 365).

[2] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П. Грибанова, С.М. Корнеева.* М., 1979, с. 509.

Mülki hüquq məsuliyyətinin dördüncü xüsusiyyəti ondan ibarətdir ki, **o, kompensasiya (əvəz etmə, qarşılıq vermə) xarakterinə malikdir**. Belə ki, mülki hüquq münasibətində iştirak edən bir tərəf öz vəzifəsini icra etmir, bununla hüquq pozuntusu törədir və o biri tərəfə ziyan vurur. Ziyan vurulan tərəfin düşdüyü zərər kompensasiya edilməlidir, yəni zərərin əvəzi ödənilməlidir. Bu isə zərərvuranın (hüquq pozuntusu törədənin) əmlakının azaldılması hesabına həyata keçirilir. Bununla zərərçəkən (borclu) üçün yaranan mənfi nəticə aradan qaldırılır.

Mülki hüquq məsuliyyətinin beşinci xüsusiyyəti ondan ibarətdir ki, **onun əhatə dairəsinə mənəvi (qeyri-əmlak) zərərlə bağlı olan münasibətlər də daxildir**. Qüvvədə olan qanunvericilik mənəvi zərərə görə mülki-hüquqi məsuliyyət nəzərdə tutur. Belə ki, vurulan mənəvi zərərin əvəzi pulla ödənilir. Belə təsəvvür yaranır ki, mənəvi zərər vuran şəxs üçün də əmlak xarakterli mənfi nəticələr yaranır.

Mülki hüquq məsuliyyətinin altıncı xüsusiyyəti ondan ibarətdir ki, o, **təqsir və zərər vurmaq kimi prinsiplərə** əsaslanır. Bu prinsipə görə, zərər vurulduqda və zərərin vurulmasında şəxsin təqsiri olduqda, mülki hüquq məsuliyyəti yaranır.

4. Mülki hüquq məsuliyyətinin funksiyaları, prinsipləri və əhəmiyyəti

Mülki hüquq məsuliyyətinin funksiyaları onun yerinə yetirdiyi rolu ifadə edir. Hüquq ədəbiyyatında mülki hüquq məsuliyyətinin bir neçə funksiyası fərqləndirilir[1]. Bu funksiyalarda onun əhəmiyyəti təzahür edir:

- qarşısını almaq – tərbiyə etmək funksiyası;
- repressiv funksiya;
- kompensasiya – bərpaedici funksiya;
- stimullaşdırmaq (təkan vermək, meyilləndirmək) funksiyası;
- siqnal vermək funksiyası[2].

Qarşısını almaq — tərbiyə etmək funksiyasının mahiyyəti ondan ibarətdir ki, mülki hüquq məsuliyyəti özünün bu funksiyasının vasitəsilə gələcəkdə mümkün ola biləcək hər hansı hüquq pozuntusunun qarşısını alır, habelə mülki hüquq subyektlərinə tərbiyəvi təsir göstərir. Bu funksiya **preventiv** funksiya da adlanır. Əgər funksiya gələcəkdə hüquq pozuntusu törədənin bu cür pozuntu törətməsinin qarşısının alınmasına yönələrsə, onda bu, **qismən (natamam) prevensiya** (latınca «praeventio» — qarşısını alan) adlanır. Yox, əgər funksiya mülki hüquq subyektlərinin (digər şəxslərin) gələcəkdə hüquq pozuntusu törətməsinin qarşısının alınmasına səmtlənərsə, onda bu, **ümumi prevensiya** adlanır. Bəzi mülki hüquq normalarında mülki hüquq məsuliyyətinin bu funksiyası öz ifadəsini tapır. Məsələn, öhdəliyin icrasından birtərəfli imtinaya və onun şərtlərini birtərəfli dəyişdirməyə yol verilmir (MM-in 430-cu maddəsi). Əgər gələcəkdə zərər vurulması təhlükəsi yaranarsa, onda bu cür təhlükəni yaradan fəaliyyətin qadağan edilməsi barədə iddia verilə bilər (MM-in 1098-ci maddəsi).

Repressiv funksiyanın (latınca «repressio» — sıxmaq, əzmək) mahiyyəti ondan ibarətdir ki, mülki hüquq məsuliyyəti özünün bu funksiyasının vasitəsilə hüquq pozuntusu törətdiyinə görə şəxsi «cəzalandırır», ona «tənbeh verir». «Cəza», «tənbeh» hüquq pozuntusu törədən şəxsi hüquqdan məhrum etmədə, onun üçün arzuolunmaz mənfi nəticə (əlavə yük) yaratmaqda ifadə olunur. Mülki hüquq məsuliyyətinin bu funksiyası **cərimə və ya cəzaverici funksiya** da adlanır.

Repressiv funksiya hüquq pozuntusu törədən şəxsə mülki hüquq sanksiyaları tətbiq edilməsini nəzərdə tutur. **Mülki hüquq sanksiyaları** dedikdə, elə məsuliyyət tədbirləri başa düşülür ki, bu tədbirlər zərərçəkənin məruz qaldığı maddi itkinin əvəzinin ödənilməsi məqsədilə tətbiq edilir və hüquq pozuntusu törədən şəxs üçün əmlak xarakterli mənfi nəticələr əmələ gətirir. Bu sanksiyalar qanunda nəzərdə tutulan əmlak tədbirləridir.

Mülki-hüquqi sanksiyaların üç növü fərqləndirilir:

- kompensasiya xarakterli sanksiyalar;
- cərimə sanksiyaları;
- müsadirə xarakterli sanksiyalar.

Kompensasiya xarakterli sanksiyalar odur ki, bu sanksiyaların əsas məqsədi törədilmiş hüquq pozuntusu nəticəsində zərərçəkənin düşdüyü zərərin əvəzinin ödənilməsindən ibarətdir. Məsələn, zərərin əvəzinin ödənilməsi (MM-in 21-ci maddəsi) kompensasiya xarakterli sanksiyaya misal ola bilər. Bu sanksiya universal təbiətə malikdir. Öhdəliklərin pozulmasının bütün hallarında həmin sanksiya tətbiq edilir. Kompensasiya xarakterli sanksiyalardan istifadə olunmasının əsasını zərərçəkənin hüquq pozuntusundan ziyana düşməsi təşkil edir.

Cərimə sanksiyası odur ki, bu sanksiyanın tətbiq edilməsi zərərin əvəzinin ödənilməsindən asılı olmur. Məsələn, **cərimə (kumulyativ) dəbbə pulu** bu cür sanksiyaya misaldır[1]. Belə ki, hüquq pozuntusu törədildikdə, hüquq pozuntusu törədən şəxs (borclu) həm dəbbə pulunu, həm də vurulmuş zərərin əvəzini tam həcmdə ödəyir. Məsələn, borclu müqavilə öhdəliyini icra etmir. Bunun nəticəsində kreditor 4 min manat zərərə düşür. Dəbbə pulu isə 1 min manat müəyyənləşdirilir. Belə halda borclu (hüquq pozuntusu törədən şəxs) həm dəbbə pulunu, həm də zərərin əvəzini tam həcmdə ödəyir (yəni, 4 min

---

[1] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г. Калпина*. М., 1997, с. 441-442; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 420-421; Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева*. М., 1999, с. 178-179; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 431-432.

[2] Almaniya mülki hüquq ədəbiyyatında məsuliyyətin yalnız həyata keçirmə funksiyasının olması göstərilir. Stimullaşdırma və digər funksiyalar barəsində söhbət açılmır (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 367).

[1] Dəbbə pulunun növlərini xatırlayaq: əvəzləşdirmə dəbbə pulu; müstəsna dəbbə pulu; alternativ dəbbə pulu; cərimə dəbbə pulu. Cərimə (kumulyativ) dəbbə pulu müstəsna olaraq cərimə xarakterinə malikdir. Bununla bərabər, dəbbə pulunun əvəzləşdirmə, müstəsna və alternativ kimi növləri də cərimə funksiyası yerinə yetirir (bax: *Иоффе О.С.* Обязательственное право. М., 1975, с. 166). Alimlərdən V.K.Rayxer sübut edirdi ki, hər hansı dəbbə pulu cərimə xarakterlidir (bax: *Райхер В.К.* Правовые вопросы договорной дисциплины в СССР. М., 1958, с. 174-185).

manat + 1 min manat = 5 min manat).

Müsadirə xarakterli sanksiya odur ki, bu sanksiyanın tətbiqi nəticəsində müəyyən əmlak məcburi surətdə əvəzsiz olaraq hüquq pozuntusu törədən şəxsdən alınıb dövlət mədaxilinə keçirilir. Bu cür sanksiyalardan mülki hüquqda nadir hallarda istifadə olunur[1]. Müsadirə qanunda nəzərdə tutulmuş hallarda mülkiyyətçidən əmlakın, törədilmiş cinayətə görə sanksiya kimi məhkəmənin hökmü ilə əvəzsiz alınmasını nəzərdə tutur (MM-in 212-ci maddəsi). Bu sanksiya əmlak üzərində şəxsin mülkiyyət hüququna xitam verilməsinə dəlalət edir.

Kompensasiya — bərpaedici funksiyanın mahiyyəti ondan ibarətdir ki, mülki hüquq məsuliyyəti bu funksiyanın vasitəsilə zərərçəkənin hüquq pozuntusundan düşdüyü ziyanın əvəzinin ödənilməsini təmin edir. Bu funksiya sayəsində zərərçəkən şəxs üçün əmələ gələn mənfi nəticələr hüquq pozuntusu törətmiş şəxsin malik olduğu əmlakın azalması hesabına aradan qaldırılır, onun pozulmuş hüquq və mənafeyi bərpa edilir. Kompensasiya — bərpaedici funksiya mülki-hüquqi funksiyanın əsas və başlıca funksiyasıdır.

Stimullaşdırıcı (təkanverici) funksiyanın mahiyyəti ondan ibarətdir ki, mülki hüquq məsuliyyəti bu funksiyanın vasitəsilə mülki hüquq münasibətləri iştirakçılarını lazımınca davranmağa meyilləndirir. Bu münasibətlərdə çıxış edən tərəflər başa düşürlər ki, əgər vəzifə lazımi qaydada icra edilməsə, bunun nəticəsində hüquq pozuntusu (əmlak itkisi, qarşı tərəf üçün mənfi nəticələr) törənə bilər. Bu hal isə onlarda lazımınca davranmağa yönələn meyil və həvəs yaradır.

Siqnal vermək funksiyasının mahiyyəti ondan ibarətdir ki, mülki hüquq məsuliyyəti bu funksiyanın köməyi sayəsində hüquq pozuntusunun yaranmasına şərait yaradan davranışın qüsuru barəsində məlumat verir. Əgər bu cür məlumat verilməzsə, hüquq pozuntusuna yol verilə bilər. Məsələn, podrat müqaviləsi üzrə podratçı sifarişçidən alınmış material keyfiyyətsiz və yararsız olduqda, sifarişçini xəbərdar etməyə borcludur (MM-in 768-ci maddəsinin 1-ci bəndinin 1-ci yarımbəndi). Podratçının etdiyi xəbərdarlıq nəticəsində sifarişçi müvafiq müddətdə yararsız və ya keyfiyyətsiz materialı əvəz edir. Bununla da hüquq pozuntusunun törədilməsinə səbəb olan hal aradan qaldırılır. Bu funksiyanı **xəbərdarlıq etmək funksiyası** da adlandırmaq olar.

Mülki hüquq məsuliyyətinin əsas mahiyyəti və sosial istiqaməti onun **prinsiplərində** təzahür edir. Bu prinsiplər qanunvericilikdə öz əksini tapmışdır:

- labüdlük prinsipi;
- məsuliyyətin fərdiləşdirilməsi prinsipi;
- zərərin tam həcmdə ödənilməsi prinsipi;
- təqsirə görə məsuliyyət prinsipi.

Labüdlük prinsipi onu ifadə edir ki, hər hansı bir hüquq pozuntusu törədən istənilən şəxs hökmən mülki hüquq məsuliyyətinə cəlb edilməlidir. Bu prinsipə görə, mülki hüquq pozuntusu törədən şəxs məsuliyyətdən kənarda qala bilməz. Bəzi hallarda labüdlük prinsipinin tətbiqi məhdudlaşır. Məsələn, üzrlü səbəb olmadan iddia müddətinin ötürülməsi labüdlük prinsipinin tətbiqini istisna edir. Bu halda subyektin pozulmuş hüququ məhkəmə yolu ilə müdafiə edilmir. Məsələn, podrat müqaviləsi üzrə sifarişçinin binaya aid tələbi üzrə beş illik iddia müddəti nəzərdə tutulur (MM-in 776-cı maddəsinin 1-ci bəndi). Əgər o, bu müddəti üzrlü səbəb olmadan ötürərsə, onda podratçıya mülki hüquq məsuliyyətinin tətbiqi mümkün olmur.

Məsuliyyətin fərdiləşdirilməsi prinsipi onu ifadə edir ki, mülki hüquq məsuliyyəti törədilmiş hüquq pozuntusunun ictimai təhlükəlilik xarakteri və dərəcəsi, hüquq pozuntusu törədənin təqsir forması, hərəkətin zərərlilik dərəcəsi, zərərvuranın əmlak vəziyyəti və digər amillər nəzərə alınmaqla tətbiq edilir. Bu prinsipə görə, təqsirkar şəxs məsuliyyətə cəlb edilərkən konkret hər bir hal nəzərə alınır. Məsələn, istehlakçıların hüquqları satıcı tərəfindən pozularsa, istehlakçıya dəyən mənəvi ziyan təqsirkar tərəfindən ödənilir. Ödənilən ziyanın dəyəri məhkəmə tərəfindən müəyyən edilir («İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» qanunun 12-ci maddəsi)[1]. Bu halda məhkəmə zərərin həcmini müəyyənləşdirərkən məsuliyyətin fərdiləşdirilməsi prinsipini əldə əsas tutur. O, işin konkret hallarını nəzərə alır.

Bəzi hallarda məsuliyyətin fərdiləşdirilməsi prinsipinin tətbiqi məhdudlaşır. Məsələn, standart formalarda sığorta, bank hesabı və s. müqavilələr bağlananda, bu prinsipin qismən məhdudlaşdırılması halına rast gəlirik. Söhbət qoşulma müqaviləsinin ayrı-ayrı növlərindən gedir. Belə ki, bu cür müqavilələrdə məsuliyyət haqqında və digər məsələlər barəsində müqavilə şərtləri əvvəlcədən standart formalarda formulə edilir. Bu şərtlər müzakirə olunmur.

Zərərin tam həcmdə ödənilməsi prinsipi onu ifadə edir ki, hüquq pozuntusu törədildikdə, zərər vuran zərərin əvəzini ya naturada ödəyir (eyni keyfiyyətli və eyni növlü əşyanın verilməsi, xarab olan və korlanan əşyanı bərpa etmək), ya da kompensasiya edir (zərərin kompensasiyası real zərərdən və əldən çıxmış faydadan ibarətdir)[2]. Bu prinsipə görə, mülki hüquq pozuntusu törədilməsi nəticəsində zərərçəkənin əmlak vəziyyəti sahəsində yaranan bütün mənfi nəticələr aradan qaldırılır. Bununla onun əmlak vəziyyəti bərpa olunur.

Qanunda nəzərdə tutulan hallarda göstərilən prinsip məhdudlaşır. Məsələn, mehmanxana sahibi qonağın mehmanxanaya saxlanca verdiyi əşyaların oğurlanması üçün şərti maliyyə vahidinin min mislindən çox olmayan miqdarda məsuliyyət daşıyır (MM-in 833-cü maddəsinin 1-ci bəndi). Əgər oğurlanan əşyanın qiyməti göstərilən məbləğdən çox olarsa, mehmanxana sahibi həmin məbləğdən artıq olan məbləği ödəməyəcəkdir. Daşıma müqaviləsi üzrə daşıyıcı yük itirildikdə, onun tam dəyərini, yəni yük sahibinə vurulmuş real zərərin əvəzini ödəyir. Əldən çıxmış faydaya görə o, məsuliyyət daşımır.

Təqsirə görə məsuliyyət prinsipi onu ifadə edir ki, mülki hüquq pozuntu-

[1] Almaniya hüquq ədəbiyyatında məsuliyyətin müsadirə funksiyası barədə danışılmır (*Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999; *Larenz K., Conaric C.W.* Lehbuch des Schuldrechts. München. 1994). Dövlət mədaxilinə keçirilmək formasında cərimə sanksiyaları, pul cərimələri və s. Almaniya mülki qanunvericiliyi ilə müəyyən edilmir. Belə sanksiyalar cinayət əməli törədildiyi və ya ümumi hüquq normaları pozulduğu hallarda mümkündür (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 367).

[1] bax: AR KQ, II cild, s. 556.

[2] *Иоффе О.С.* Советское гражданское право. Курс лекций. Л., 1958, Часть 1, с. 439.

su törədən şəxs yalnız təqsiri olduqda bu pozuntuya görə məsuliyyət daşıyır[1]. Əgər həmin şəxsin təqsiri yoxdursa, o, mülki hüquq məsuliyyətinə cəlb edilə bilməz. Lakin o, təqsiri olmadığını sübut etməlidir. Deməli, sübut etmə yükünü hüquq pozuntusu törədən şəxs çəkir. O, təqsirsizliyini sübut etməyənə kimi, təqsirli sayılır. Bununla mülki qanunvericilik **təqsir prezumpsiyası** müəyyən edir.

Bəzi hallarda təqsirə görə məsuliyyət prinsipi məhdudlaşır. Bu, o deməkdir ki, şəxs təqsiri olub-olmamasından asılı olmayaraq, mülki hüquq pozuntusuna görə məsuliyyət daşıyır. Məsələn, təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının vəzifəli şəxslərinin qanunsuz məhkum etmə, cinayət məsuliyyətinə qanunsuz cəlb etmə və s. nəticəsində fiziki şəxsə vurulmuş zərərin əvəzi onların təqsirindən asılı olmayaraq, tam həcmdə ödənilir (MM-in 1101-ci maddəsinin 1-ci bəndi).

§ 2. Mülki hüquq məsuliyyətinin forma və növləri

1. Mülki hüquq məsuliyyətinin formaları

Mülki hüquq məsuliyyətinin formaları dedikdə, hüquq pozuntusu törətdiyinə görə zərərvuran şəxs üçün yaranan mənfi əmlak nəticəsinin ifadə formaları başa düşülür. Bu formalar hüquq pozuntusu törədən şəxsin daşıdığı əlavə yükü ifadə edir. Başqa sözlə desək, mülki hüquq məsuliyyətinin formaları hüquq pozuntusu törədən şəxs barəsində görülən təsir tədbiridir (üsuludur). Bu cür tədbirlərin (üsulların) dairəsi kifayət qədər geniş və əhatəlidir. Mülki qanunvericilik onların müxtəlif növlərini nəzərdə tutur. Bu üsulların (tədbirlərin) iki növü fərqləndirilir:

- ümumi məsuliyyət tədbiri;
- xüsusi məsuliyyət tədbiri.

Ümumi məsuliyyət tədbiri odur ki, bu cür tədbir, qanunda və ya müqavilədə bəzi məqamlar istisna olmaqla, mülki hüquqların pozulmasının bütün hallarında tətbiq edilir. Bu tədbir universal xarakterə malikdir. **Zərərin əvəzinin ödənilməsi kimi məsuliyyət forması** göstərilən məsuliyyət tədbirini əhatə edir[2].

Xüsusi məsuliyyət tədbiri odur ki, bu tədbir yalnız müqavilədə və ya qanunda konkret olaraq nəzərdə tutulan hallarda müvafiq mülki hüquq pozuntusu növünə tətbiq edilir. Bu məsuliyyət tədbirindən konkret hüquq pozuntusuna yol verildiyi məqamlarda istifadə olunur. Dəbbə pulu (cərimə, penya) ödənilməsi, behin batması və s. xüsusi məsuliyyət tədbiri hesab olunur.

Bütün məsuliyyət tədbirlərini üç cür məsuliyyət formasında qruplaşdırmaq olar:

[1] Almaniya qanunvericiliyində də təqsir prinsipi (Verschulden) müəyyənləşdirilir. Amma MQ «Verschulden» anlayışının mənasını aydınlaşdırmır. Hüquq doktrinası ona şəxsin qəsdi və ehtiyatsızlığı kimi baxır (*H.Heinrichs // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 327).

[2] Almaniya mülki qanunvericiliyi zərərin əvəzini ödəməni «Schadenersatz» anlayışı ilə əhatə edir. Schadenersatz dedikdə, zərərçəkmiş şəxsin xeyrinə kompensasiya (Opferausgleich) başa düşülür (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 335, 365; *Medicus D.* Bürgerliches Recht. Köln; Berlin; Bonn. 1999, s. 3; *Brox H.* Allgemeines Schuldrecht. München. 1999, s. 11).

- aradan qaldırıcı-məhdudlaşdırıcı məsuliyyət forması;
- cərimə xarakterli məsuliyyət forması;
- kompensasiya xarakterli məsuliyyət forması.

Aradan qaldırıcı-məhdudlaşdırıcı məsuliyyət formasına hüquqdan məhrum etməni, müsadirəni, hüququn tanınmasından imtinanı və s. misal göstərə bilərik. **Cərimə xarakterli məsuliyyət formasına** dəbbə pulunun bütün növlərini (əvəzləşdirmə dəbbə pulunu, cərimə dəbbə pulunu, müstəsna dəbbə pulunu, alternativ dəbbə pulunu) şamil etmək olar. Mənəvi zərərin kompensasiyası da bu məsuliyyət formasına aid edilir.

Kompensasiya xarakterli məsuliyyət forması universal xarakterə malikdir. Zərərin əvəzinin ödənilməsi kompensasiya xarakterli məsuliyyət formasıdır. Mənəvi zərərin kompensasiyası da bu məsuliyyət formasına aiddir. Məbləğin təyin edilməsi qaydasına və onun ödənilməsi əsasına görə mənəvi zərərin kompensasiyası, yuxarıda qeyd etdiyimiz kimi, cərimə xarakterli məsuliyyət forması sayılır.

Qeyd etmək lazımdır ki, zərərin əvəzinin ödənilməsi ümumi məsuliyyət tədbiri olub, kompensasiya xarakterinə malikdir. Buna görə də bu məsuliyyət forması mülki hüquq pozuntusuna yol verildiyi istənilən halda tətbiq olunur. Mülki məsuliyyət formaları içərisində zərərin əvəzinin ödənilməsi forması xüsusi yer tutur. Bu forma ümumi əhəmiyyətə və rola malikdir. Mülki hüquqların pozulmasının bütün məqamlarında ondan istifadə olunur. Bu, onunla izah olunur ki, mülki hüquq pozuntusunun ən geniş yayılmış və başlıca mənfi nəticəsi zərərdir (ziyandır).

Zərərin əvəzinin ödənilməsi kimi məsuliyyət forması bir sıra əlamətlərlə xarakterizə olunur. Bu formanın əsas və başlıca xüsusiyyəti ondan ibarətdir ki, **o, əmlak xarakterinə malikdir**. Bu, onunla izah olunur ki, hüquq pozuntusu törədən şəxs zərərçəkənə pul və ya hər hansı bir əmlak verir.

Göstərilən formanın ikinci xüsusiyyəti ondan ibarətdir ki, o, **həmişə kompensasiya xarakterinə malikdir**. Bu, o deməkdir ki, bu formanın tətbiqi nəticəsində zərərçəkənin əmlak vəziyyəti bərpa olunur. Zərərçəkənin əmlak vəziyyətinin bərpa olunması dedikdə, onun hüquq pozuntusu törədilənə kimi mövcud olan əmlak vəziyyətinə gətirilməsi və qaytarılması başa düşülür. Bu, zərərvuranın əmlakı hesabına həyata keçirilir.

Zərərin əvəzinin ödənilməsinin üçüncü xüsusiyyəti ondan ibarətdir ki, bu məsuliyyət forması nəticəsində **zərərvuranın əmlak kütləsi azalır və bunun hesabına zərərçəkənin düşdüyü ziyan aradan qaldırılır**. Deməli, zərərin əvəzinin ödənilməsi bir tərəfin digər tərəf qarşısında məsuliyyətidir. Özü də zərərçəkən tərəfin xeyrinə olan məsuliyyətdir.

2. Mülki hüquq məsuliyyətinin növləri

Mülki hüquq məsuliyyəti müxtəlif əsaslara görə ayrı-ayrı növlərə bölünür. **Əmələ gəlmə əsasına və məzmununa görə** onun iki növü fərqləndirilir[1]:

- müqavilə məsuliyyəti;
- müqavilədənkənar məsuliyyət.

[1] Almaniya mülki hüququnda məsuliyyət həm müqavilə, həm də müqavilədənkənar öhdəlikləri əhatə edir (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 366).

Müqavilə məsuliyyəti odur ki, bu məsuliyyət artıq tərəflər arasında mövcud olan nisbi hüquq münasibəti üzrə (əqd əsasında əmələ gələn öhdəlik münasibəti üzrə)[1] borclu öz vəzifəsini pozduğu hallarda yaranır. Nisbi hüquq münasibəti konkret borclu və kreditor arasında yaranan münasibətdir. Bu münasibətdə borclu və kreditor konkret olaraq məlum olur. Məsələn, müqavilə münasibəti nisbi hüquq münasibətidir. Podrat müqaviləsi üzrə podratçı (tikinti təşkilatı) öz vəzifəsini lazımınca icra etmir, yəni, məsələn, yaşayış evini qüsurla tikir (və yaxud, ümumiyyətlə, tikmir). Başqa bir misalda daşıyıcı daşıma müqaviləsi üzrə öz vəzifəsini lazımınca icra etmir, yəni yükü təyinat yerinə vaxtında çatdırmır. Belə təsəvvür yaranır ki, müqavilə məsuliyyəti müqavilə öhdəliklərinin (məsələn, alqı-satqı, icarə, kirayə, saxlama, borc və s.) pozulduğu hallarda yaranır. Bu münasibətlərdə öz vəzifəsini icra etməyən və ya lazımınca icra etməyən borclu zərərvuran, kreditor isə zərərçəkən hesab edilir.

Müqavilə məsuliyyəti qanunla müəyyənləşdirilir. Məsələn, «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» qanunun 7-ci maddəsinin 1-ci hissəsinə görə, istehlakçı müqavilə və ya digər qaydalarla müəyyən edilmiş zəmanət (təminat) müddəti ərzində aldığı malda qüsur aşkar edərsə, o, satıcıdan müqavilənin ləğv edilməsini və çəkdiyi zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malikdir (o, digər alternativ hüquqlara da malikdir)[2]. Müqavilə məsuliyyəti həm də tərəflər konkret müqavilə bağladıqları hallarda müəyyənləşdirilir. Məsələn, bank sahibkara kredit verir. Onlar kredit müqaviləsində kreditin qaytarılmasının hər gecikdirilən günü üçün kredit məbləğinin 1%-i miqdarında dəbbə pulu (penya) barədə şərt nəzərdə tuturlar.

Tərəflərin ixtiyarı var ki, onlar öz aralarında bağladıqları müqavilədə **mövcud qanunvericilikdə birbaşa sanksiyalarla təmin edilməyən mülki hüquq pozuntusuna görə məsuliyyət nəzərdə tutsunlar**. Məsələn, tərəflər borc müqaviləsi üzrə borca görə ödənilən faizə görə faiz verilməməsi üçün məsuliyyət barədə razılığa gələ bilərlər. Bundan əlavə, onlar qanunda nəzərdə tutulan məsuliyyət həcminin azaldılması və ya artırılması barədə müqavilədə şərt müəyyənləşdirə bilərlər. Bu, onunla izah olunur ki, mülki hüquqda müqavilə azadlığı prinsipi fəaliyyət göstərir. Bu prinsipə görə, müqavilə bağlayan tərəflər məsuliyyət barədə müqavilə şərtini (ümumiyyətlə, müqavilə şərtlərini) öz istəkləri ilə müəyyənləşdirirlər, bir şərtlə ki, qanun bu barədə imperativ göstəriş ifadə etməsin (MM-in 390-cı maddəsinin 5-ci bəndi). Müqavilə məsuliyyəti institutu barədə normaların çoxu dispozitiv xarakterə malikdir.

Beləliklə, müqavilə məsuliyyəti müqavilə üzrə borclu şəxsin öz vəzifəsini lazımınca icra etməməsi və ya icra etməməsi nəticəsində yaranır. Bu məsuliyyət müqavilə öhdəliklərinin pozulmasına görə borcluya tətbiq edilən əmlak sanksiyası kimi çıxış edir. Müqavilə məsuliyyətinin əsasını təşkil edir: tərəflərin fəaliyyət qabiliyyətli olmasını müəyyənləşdirmək; tərəflərdən birinin təqsirini müəyyən etmək. Bu məsuliyyət öhdəliyin və pozuntu növünün xarakteri ilə müəyyən edilir[3].

[1] *Medicus D.* Bürgerliches Recht. Berlin. 1999, s. 3.

[2] bax: AR KQ, II cild, s. 550.

[3] *Fürich E.* Wirtschafsprivatrecht Grundzüge des Zivil. München. 1999, s. 222 ff; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 368.

Müqavilədənkənar məsuliyyət **ziyan (zərər) vurmaq nəticəsində əmələ gələn məsuliyyət** də adlanır. Bu cür məsuliyyət fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına və işgüzar nüfuzuna ziyan vurulması nəticəsində əmələ gəlir. Məsələn, vətəndaş öz qonşusuna xəsarət yetirir və bununla onun sağlamlığını pozur. Sürücü minik avtomobilini yüksək sürətlə idarə edərkən kənd sakininin əmlakını zədələyir və bununla əmlaka zərər vurur. Başqa bir misalda mənzil sahibi işə gedərkən su kranlarını bağlamağı unudur. Bunun nəticəsində aşağı mərtəbədə yaşayan qonşunun mənzilini su basır və ev predmetlərini tamamilə korlayıb sıradan çıxarır. Göstərilən hallarda ziyan (zərər) vurmaq nəticəsində əmələ gələn məsuliyyət göz qabağındadır. Müqavilədənkənar məsuliyyət çox vaxt **delikt məsuliyyəti** adlanır. Ona görə ki, bu məsuliyyət delikt, yəni mülki hüquq pozuntusu nəticəsində vurulmuş əmlak zərərinə görə məsuliyyətdir. Delikt məsuliyyəti başqasına zərər vurmaq nəticəsində əmələ gəlir. Bu halda zərərçəkmiş şəxs (yuxarıdakı misallarda qonşu, kənd sakini, aşağı mərtəbədə yaşayan qonşu) **kreditor**, zərər vurmuş şəxs isə (yuxarıdakı misallarda vətəndaş, sürücü, yuxarı mərtəbədə yaşayan mənzil sahibi) **borclu** adlanır. Dediklərimizdən belə təsəvvür yaranır ki, delikt məsuliyyəti, yəni müqavilədənkənar məsuliyyət bir-birilə müqavilə münasibətində olmayan zərərçəkənlə (kreditorla) zərərvuran (borclu) arasında əmələ gəlir. Biz gördük ki, yuxarıdakı misallarda vətəndaş – qonşu, sürücü – kənd sakini, mənzil sahibi – aşağı mərtəbədəki evin sahibi bir-birilə müqavilə münasibətində olmayan tərəflərdir.

Beləliklə, **müqavilədənkənar (delikt) məsuliyyət** odur ki, bu məsuliyyət bir-birilə müqavilə münasibətində olmayan zərərvuranla (borclu ilə) zərərçəkən (kreditor) arasında əmələ gəlir[1]. Bu cür məsuliyyətin müqavilə əsasında əmələ gəlməsi mümkün deyil. O, yalnız **qanunda birbaşa nəzərdə tutulan hallar əsasında** yaranır. Bu məsuliyyət zərərçəkənlə müqavilə münasibətində olmayan zərərvurana əmlak sanksiyası tətbiq edilməsini nəzərdə tutur. Qanunun bu məsuliyyət barədə müəyyənləşdirdiyi şərtlər isə imperativdir. Müqavilədənkənar (delikt) məsuliyyətin forma və ölçüsü yalnız qanunla müəyyən edilir. Tərəflər həmin məsuliyyətin forma və ölçüsünü təyin etmək ixtiyarına malik deyillər. Müqavilədənkənar (delikt) məsuliyyət haqqında qaydalar tərəflərin razılığı və sazişi əsasında dəyişdirilə bilməz. Həmin qaydalar MM-in 9-cu bölməsində (1096-1132-ci maddələr) — 59-cu, 60-cı və 61-ci fəsillərində ifadə olunan normalarda öz əksini tapmışdır.

[1] Almaniya mülki hüququ üzrə müqavilədənkənar məsuliyyət icazə verilməyən davranışdan, yəni zərər vurmaq nəticəsində əmələ gələn öhdəlikdən (Unerlaubte Handlungen) yaranır. Bu cür hüquqazidd davranış qanun əsasında öhdəlik münasibəti əmələ gətirir. Almaniya Mülki Qanunnaməsində göstərilir: başqa şəxsin həyatına, fiziki toxunulmazlığına, sağlamlığına, azadlığına, əmlakına və ya digər hüquqlarına qəsdən və ya ehtiyatsızlıqdan hüquqazidd qaydada qəsd edən şəxs vurduğu zərərin əvəzini ödəməlidir (§ 823). Göstərilən növ məsuliyyət hüquq pozuntusu nəticəsində zərərçəkmiş şəxsin vurulan zərərin əvəzini ödəməyə yönəlir. Bu sahədə münasibətlərin hüquqi tənzimlənməsi mürəkkəb xarakter daşıyır (*Schlechtiem P.* Schuldrecht Besonderer Teil. Tübingen: Mohr Siebeck Verlag. 1998, s. 344; *H.Thomas II Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 935 ff; *Brox H.* Allgemeines. Schuldrecht. München. 1999, s. 336 ff; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 362).

Bununla belə, müqavilədənkənar (delikt) məsuliyyət həm də müqavilə bağlamış şəxslər arasında əmələ gələ bilər. Belə ki, müqavilə öhdəliklərinin icrası zamanı fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzi delikt məsuliyyəti haqqında qaydalar əsasında ödənilir. Bu qaydalar MM-in 60-cı fəslinə daxil olan normalarda (1117-1122-ci maddələrdə) göstərilmişdir. Həmin qaydalar yalnız o halda tətbiq edilə bilər ki, qanunda və ya müqavilədə daha yüksək məsuliyyət ölçüsü nəzərdə tutulmasın. Məsələn, daşıma müqaviləsinin icrası zamanı daşıyıcı sərnişinin sağlamlığına zərər vurur. Yuxarıdakı şərtə əməl olunmaqla sərnişinlə müqavilə münasibətində olan daşıyıcı delikt məsuliyyətinə cəlb edilə bilər.

Elə müqavilə münasibətləri vardır ki, bu münasibətlərdən müqavilə məsuliyyətinin və ya müqavilədənkənar (delikt) məsuliyyətin əmələ gəlməsi zərərçəkən (hüququ pozulmuş) tərəfin istək və mülahizəsindən asılı olur. Məsələn, «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» qanunda göstərilir ki, istehlakçı zəmanət (təminat) müddəti ərzində aldığı malda qüsur və ya saxtalaşdırma aşkar edərsə, öz istəyinə görə satıcıdan və ya istehsalçıdan həmin malı lazımi keyfiyyətli mala dəyişdirməyi və ya satış qiymətini münasib surətdə azaltmağı və digər alternativləri tələb edə bilər[1]. Əgər istehlakçı bu halda müvafiq hərəkətlərin edilməsini satıcıdan tələb edərsə, onda müqavilə məsuliyyəti göz qabağındadır. Ona görə ki, satıcı istehlakçı ilə müqavilə bağlayan tərəfdir. Yox, əgər o, müvafiq hərəkətlərin edilməsini istehsalçıdan tələb edərsə, belə halda, şübhəsiz ki, müqavilədənkənar (delikt) məsuliyyət yaranır. Bununla istisna hal kimi mövcud qanunvericilik iddiaların rəqabətinə yol verir[2]. **İddiaların rəqabəti** dedikdə, eyni bir mənafeyin müdafiəsi üçün bir neçə müxtəlif tələblərin verilməsi imkanı başa düşülür. Azərbaycan Respublikasının mülki qanunvericiliyi yuxarıdakı məqam istisna olmaqla, ümumiyyətlə, iddiaların rəqabətinə yol vermir. Bu cür hal ingilis-amerikan hüququ üçün xarakterikdir.

Mülki hüquq münasibəti üzrə borclu tərəfində çıxış edən **məsuliyyət subyektlərinin sayına və vəzifənin icra üsuluna** görə mülki hüquq məsuliyyətinin üç növü fərqləndirilir:

- paylı mülki hüquq məsuliyyəti;
- solidar mülki hüquq məsuliyyəti;
- subsidiar mülki hüquq məsuliyyəti.

Özü də dərhal qeyd edirik ki, bu bölgü həm müqavilə məsuliyyətinə, həm də müqavilədənkənar məsuliyyətə aiddir. Bu cür bölgü məsuliyyətin bir neçə şəxs arasında bölüşdürülməsi xarakterindən asılı olaraq aparılır. Bundan əlavə, mülki hüquq məsuliyyətinin göstərilən növləri öhdəlikdə borcluların çoxluğu anlayışı ilə bağlıdır (MM-in 500-512-ci maddəsi)[3].

Paylı məsuliyyət odur ki, bu məsuliyyət müqavilədən və ya qanundan

[1] bax: «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» qanunun 14-cü maddəsinin 1-ci hissəsi (AR QK, II cild, s. 550).

[2] İddiaların rəqabəti hələ Roma xüsusi hüququna məlum idi (bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 230; *Хвостов В.М.* Система римского права. Учебник. М., 1996, с. 87-88).

[3] Paylı məsuliyyətin əsas cəhətləri Almaniya MQ-nin 420-ci paraqrafında ifadə edilmişdir. Daha ətraflı tanış olmaq üçün bax: *Brox H.* Allgemeines Schuldrecht. München. 1993, s. 257 ff.

başqa hal əmələ gəlməzsə, borclulardan hər birinin öhdəliyi başqaları ilə bərabər payda (hissədə) icra etməsini nəzərdə tutur. Bu məsuliyyət növü paylı öhdəlik mövcud olduqda yaranır. Həmin öhdəlikdə bir neçə (iki və daha artıq) borclu çıxış edir ki, onlardan hər birinin payı dəqiq olaraq müəyyən edilir. Onlara paylı borclular deyilir. Məsələn, beş qardaş qonşudan on min manat məbləğində borc alır. Borc müqaviləsində qardaşlardan hər birinin qaytaracağı borc məbləğinin miqdarı göstərilmir. Deməli, onda hər bir qardaşın payına düşən borc məbləği iki min manat olacaqdır (10 min : 5 = 2 min). Deməli, paylı məsuliyyətdə hər bir borclu öhdəliyi digər borclularla bərabər payda icra edir, bir şərtlə ki, müqavilədə və ya qanunda başqa hal müəyyən edilməsin. Əgər müqavilədə və ya qanunda başqa hal nəzərdə tutularsa, hər bir borclunun öhdəliyi bərabər payda icra etməsindən söhbət gedə bilməz. Belə halda, borclulardan hər birinə düşən icra payı dəqiq olaraq göstərilir. Məsələn, yuxarıdakı misalda borc müqaviləsində nəzərdə tutulur ki, qardaşlardan birincisi qonşuya üç min, ikincisi bir min manat, üçüncüsü dörd min manat və s. qaytarsın. Qanuna görə də hər bir borclu öhdəliyi digər borclu ilə qeyri-bərabər payda icra edə bilər. Məsələn, vərəsələr miras qoyanın borclarını bərabər paylarla ödəmirlər. Onlar vərəsəlik qaydasında nə qədər əmlak alırlarsa, ona da uyğun və mütənasib olaraq məsuliyyət daşıyırlar. Vərəsələr miras qoyanın borclarını (kreditorun tələblərini) alınmış aktivdə özlərindən hər birinin payına mütənasib surətdə ödəməyə borcludurlar (MM-in 1306-cı maddəsinin 1-ci bəndi).

Paylı məsuliyyət delikt öhdəliklərindən də yarana bilər. Məsələn, bir neçə şəxs birlikdə mülki hüquq pozuntusu (delikt) törədirlər (vətəndaşın minik avtomobilini qaçırarkən onu aşırırlar). Belə halda zərərçəkənin ərizəsi ilə və onun mənafeyi üçün paylı məsuliyyət müəyyənləşdirilə bilər. Belə ki, məhkəmə zərəri birlikdə vurmuş şəxslərin üzərinə məsuliyyəti paylar şəklində qoya bilər (MM-in 1113-cü maddəsinin 2-ci bəndi).

Paylı məsuliyyətin yaranması üçün iki şərtin olması tələb olunur. Birinci şərt ondan ibarətdir ki, öhdəliyin (mülki hüquq münasibətinin) **predmetini bölmək mümkün olsun**. Əgər predmetin bölünməsi mümkün olmazsa, onda paylı məsuliyyətdən söhbət gedə bilməz. İkinci şərt ondan ibarətdir ki, **qanunda və ya müqavilədə solidar və ya subsidiar məsuliyyət nəzərdə tutulmasın**.

Solidar məsuliyyət (latınca «solidus» — tam, bütöv) odur ki, bu məsuliyyət paylı məsuliyyətdən fərqli olaraq, qanunda, yaxud müqavilədə nəzərdə tutulan hallarda əmələ gəlir və yaxud da öhdəlik predmetinin bölünməzliyi əsasında yaranır (MM-in 500-cü maddəsinin 2-ci bəndi). Bu məsuliyyət növü **birgə məsuliyyət** adlanır[1]. Birgə məsuliyyət birgə öhdəlik mövcud olduqda yaranır. Bu öhdəlikdə bir neçə (iki və daha artıq) borclu çıxış edir ki, onlara **birgə borclular** deyilir. Bu məsuliyyət növünə çox misal çəkmək olar ki, bunlar qanunda nəzərdə tutulmuşdur. Məsələn, borclu zaminliklə təmin olunmuş əsas öhdəliyi icra etmədikdə (məsələn, krediti banka qaytarmadıqda və s.), onda zamin və borclu kreditor qarşısında birgə məsuliyyət daşıyırlar (MM-in 472-ci maddəsinin 1-ci bəndi). Başqa bir misalda renta ödəyicisi renta ilə yüklü olan

[1] Birgə məsuliyyətin əsas cəhətləri Almaniya MQ-nin 428-ci paraqrafında nəzərdə tutulur (*Brox H.* Allgemeines Schuldrecht. München. 1993, s. 257 ff).

daşınmaz əşyanı (məsələn, mənzili) başqa şəxsin (əldə edənin) mülkiyyətinə verə bilər (məsələn, sata bilər). Renta müqaviləsində nəzərdə tutula bilər ki, belə halda əldə edən və renta ödəyicisi renta alan qarşısında birgə məsuliyyət daşıyır (MM-in 868-ci maddəsinin 2-ci bəndi). Tam ortaqlığın iştirakçıları ortaqlığın öhdəlikləri üzrə özlərinin əmlakı ilə birgə məsuliyyət daşıyırlar (MM-in 75-ci maddəsi).

Birgə məsuliyyət delikt (müqavilədənkənar) öhdəliklərdən də əmələ gələ bilər. Məsələn, bir neçə şəxs birlikdə mülki hüquq pozuntusu (delikt) törədirlər. Həmin şəxslər vurulmuş zərər üçün zərərçəkən qarşısında birgə məsuliyyət daşıyırlar (MM-in 1113-cü maddəsinin 1-ci bəndi).

Birgə (solidar) məsuliyyət bir neçə xüsusiyyətlə şərtlənir. Bu məsuliyyətin ən əsas və başlıca cəhəti ondan ibarətdir ki, göstərilən məsuliyyət növü yarandığı halda **kreditor (zərərçəkən) öz istəyi və mülahizəsi ilə istənilən borclunu (zərərvuranı) həm tam məsuliyyətə, həm də qismən məsuliyyətə cəlb edə bilər**. Məsələn, Əli, Cəfər və Nadir birlikdə mülki hüquq pozuntusu törədərək, mülkiyyətçinin əmlakını korlayırlar və bunun nəticəsində əmlak istifadə üçün yaramır. Mülkiyyətçiyə vurulan zərərin məbləği 6 min manat müəyyən olunur. Mülkiyyətçinin (zərərçəkənin) ixtiyarı var ki, ya Əliyə, ya Nadirə, ya da Cəfərə 6 min manat məbləğində tələb irəli sürsün. Bu isə onu sübut edir ki, birgə məsuliyyət kreditor (zərərçəkən) üçün daha münasib hüquqi vasitədir. Belə ki, bu məsuliyyət kreditorun (zərərçəkənin) birgə borclulara (birgə zərərvuranlara) olan tələbinin real olaraq təmin edilməsinə daha çox imkan verir. Ona görə ki, birgə borclulardan hər biri tam həcmdə mülki hüquq məsuliyyətinə cəlb edilmək hədəsi altında olur. Birgə borclular, bu hədədən ehtiyatlanırlar. Ehtiyatlanırlar ki, birdən kreditor (zərərçəkən) onlardan birinə zərərin əvəzinin tam həcmdə ödənilməsi barədə tələb irəli sürə bilər.

Birgə (solidar) məsuliyyətin ikinci cəhəti ondan ibarətdir ki, birgə **borclulardan birinin vurulmuş zərərin əvəzini tam həcmdə ödəməsi qalan borcluları kreditor (zərərçəkən) qarşısında məsuliyyətdən azad edir**. Məsələn, yuxarıdakı misalda zərər vuranlardan biri olan Əli 6 min manatı zərərçəkənə ödəyir. Digər zərərvuranlar — Cəfər və Nadir mülki-hüquqi məsuliyyətdən azad olurlar. Əgər o, zərərin əvəzini tam həcmdə ödəməzsə, qalan borclular məsuliyyətə cəlb olunmaqdan azad edilmirlər.

Birgə (solidar) məsuliyyətin üçüncü cəhəti ondan ibarətdir ki, bu məsuliyyətə görə vurulmuş zərərin əvəzini **kreditora tam həcmdə ödəmiş borclu (zərərvuranlardan biri) qalan borclulara reqres qaydasında tələb irəli sürə bilər**. Reqres tələbi qalan borcluların paylarına mütənasib surətdə, lakin zərərin əvəzini ödəmiş borclunun payı çıxılmaqla verilir. Məsələn, yuxarıdakı misalda 6 min manat məbləğində zərərin əvəzini zərərçəkənə ödəyən Əli Cəfərə və Nadirə reqres qaydasında tələb irəli sürür. Əlinin payı çıxılır, yəni 6 min - (6 min : 3) = 6 min – 2 min = 4 min. Cəfər və Nadir reqres qaydasında hər biri Əliyə 2 min (4 min : 2) manat pul qaytarmalıdır.

Bəzən də elə vəziyyət yaranır ki, birgə borclulardan birinin (məsələn, yuxarıdakı misalda Cəfərin) ödəniş qabiliyyəti olmur. Belə halda ona düşən pay ödəniş qabiliyyəti olan digər zərərvuranlar arasında mütənasib surətdə bölüşdürülür. Cəfərə düşən 2 mini Əli və Nadir ödəyir, yəni onlardan hər biri əlavə olaraq 1 min manat, yəni cəmi 3 min manat = (2 min manat + 1 min manat) ödəyirlər.

Subsidiar məsuliyyət (latınca «subsidiarius» — ehtiyat, köməkçi)[1] odur ki, subsidiar borclu kreditor qarşısında əsas borclunun məsuliyyətinə əlavə məsuliyyət daşıyır. Subsidiar məsuliyyət **əlavə məsuliyyət** deməkdir. Bu növ məsuliyyət o halda yaranır ki, öhdəlikdə kreditor qarşısında iki kateqoriya borclu dayanır. Birinci borclu **əsas borclu** adlanır. İkinci borcluya **əlavə (subsidiar) borclu** deyilir. Subsidiar borclu kreditor qarşısında əsas borclunun məsuliyyətinə əlavə məsuliyyət daşıyır (MM-in 453-cü maddəsi). Deməli, ikinci borclu subsidiar məsuliyyət daşıyır.

Subsidiar məsuliyyətin yaranması üçün bir neçə şərtin olması gərəkdir. Hər şeydən əvvəl, əsas borclu öhdəliyi icra etmir. Bu halda kreditor əsas borcluya qarşı tələb irəli sürür. Əsas borclu bu tələbi təmin edərsə, kreditor subsidiar borcluya tələb irəli sürmür. Beləliklə, subsidiar məsuliyyət yaranmır. Bundan əlavə, subsidiar məsuliyyət digər halda da əmələ gələ bilməz. Belə ki, bəzi hallarda əsas borclu kreditora qarşılıqlı tələb hüququna malik olur. Bu tələb kreditorun əsas borcluya olan tələbi ilə əvəzləşdirilir. Bu yolla öhdəliyə xitam verilir, yəni kreditorun əsas borcluya tələbi əvəzləşdirmə yolu ilə ödənilir. Bundan sonra kreditor bu tələbin ödənilməsini subsidiar borcludan tələb edə bilməz. Bununla da subsidiar məsuliyyət yaranmır.

Elə hallar olur ki, əsas borclu kreditorun tələbini ödəməkdən imtina edir[2] və ya kreditor irəli sürdüyü tələb üçün ondan ağlabatan müddətdə cavab almır. Belə vəziyyət yarandıqda, kreditor bu tələbi subsidiar borcluya qarşı irəli sürür. O, kreditorun tələbini ödəyir. Tələbi ödəyənədək subsidiar borclu əsas borcluya məlumat verir. Bundan sonra kreditorun tələbini ödəyən **subsidiar borclu əsas borcluya reqres qaydasında tələb irəli sürür**. Məsələn, Azərbaycan Respublikası (dövləti) dövlət bankının əmanətçi qarşısında məsuliyyətinə subsidiar məsuliyyət daşıyır (MM-in 950-ci maddəsinin 1-ci bəndi). Əgər bank əmanətləri qaytarmasa, onda əmanətçilərin tələblərini dövlət (Azərbaycan Respublikası) təmin edəcəkdir. Bu misalda bank əsas borclu, Azərbaycan Respublikası subsidiar (əlavə) borclu, əmanətçi isə kreditordur. Bundan əlavə, borclu zaminliklə təmin edilmiş öhdəliyi icra etmədikdə, zaminlik müqaviləsində zaminin subsidiar məsuliyyəti nəzərdə tutula bilər (MM-in 472-ci maddəsi). Məsələn, bank vətəndaşa kredit verir. Kreditin qaytarılmasını təmin etmək məqsədilə vətəndaşın qohumu zamin durur və onunla bank arasında zaminlik müqaviləsi bağlanır. Bu müqavilədə nəzərdə tutulur ki, zamin subsidiar məsuliyyət daşıyır. Bank kreditor, vətəndaş əsas borclu, zamin isə subsidiar borcludur. Əgər vətəndaş krediti qaytarmazsa, bank əvvəlcə ona tələb irəli sürür. Vətəndaş bankın tələbini ödəməkdən imtina etdikdə, onda kreditor (bank) zaminə bu tələbi (subsidiar borcluya) irəli sürür. Zamin bu tələbi ödə-

[1] Словарь иностранных слов. М., 1985, с. 478.

[2] Əgər kreditor əsas borcluya yazılı tələb verərsə, bu, onu ifadə edir ki, kreditorun əsas borcluya ilkin müraciət qaydasına əməl edilmişdir (bax: п. 53 постановления Пленума Верховного Суда РФ и Пленума Высшего Арбитражного Суда РФ «О некоторых вопросах, связанных с применением части первой Гражданского кодекса Российской Федерации» от 1 июля 1996 года // (Вестник ВАС РФ, 1996. № 9).

yir, yəni kreditin məbləğini banka ödəyir. Bundan sonra zamin əsas borcluya, yəni vətəndaşa reqres qaydasında tələb irəli sürür.

Renta ilə yüklü olan daşınmaz əşya (renta müqaviləsinin predmeti) özgəninkiləşdirildikdə, köhnə mülkiyyətçi renta alanın tələbləri üzrə yeni mülkiyyətçi ilə subsidiar məsuliyyət daşıyır (MM-in 868-ci maddəsinin 2-ci bəndi). Məsələn, ev sahibi (renta alan, kreditor) yaşayış evini renta ödəyicisinin (qonşusunun) mülkiyyətinə verir. Renta ödəyicisi (köhnə mülkiyyətçi) yaşayış evini kənd sakininə (yeni mülkiyyətçiyə) satır. Kənd sakini (yeni mülkiyyətçi) renta ödənişi (pul) verməyə borcludur. Onun verilməsini təmin etmək üçün köhnə mülkiyyətçi əsas borclunun (yeni mülkiyyətçinin) məsuliyyətinə əlavə olaraq subsidiar məsuliyyət daşıyır. Köhnə mülkiyyətçi subsidiar borcludur. Əgər yeni mülkiyyətçi renta alana (kreditora) renta ödənişi (pul) verməkdən imtina edərsə, onda tələb subsidiar borcluya – köhnə mülkiyyətçiyə qarşı irəli sürür.

Hüquqi şəxslər (kommersiya təşkilatları və ya qeyri-kommersiya təşkilatları) özlərinin sahibkarlıq fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi mənafelərinin təmsil və müdafiə edilməsi məqsədilə ittifaqlar (hüquqi şəxslərin ittifaqları) yarada bilər. Həmin ittifaqın iştirakçıları ittifaqın öhdəlikləri üçün nizamnamədə nəzərdə tutulmuş miqdarda və qaydada subsidiar məsuliyyət daşıyır (MM-in 117-ci maddəsinin 5-ci bəndi).

Subsidiar məsuliyyət delikt öhdəliklərində də yarana bilər. Məsələn, on dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayan şəxs (zərərvuran) vətəndaşa (zərərçəkənə, kreditora) zərər vurur. Zərərvuranın zərərin əvəzini ödəmək üçün yetərli gəliri və ya başqa əmlakı olmur. Belə halda zərərin hamısını, ya çatışmayan hissəsini onun valideynləri (övladlığa götürənlər) və ya himayəçisi ödəyir (MM-in 1104-cü maddəsinin 2-ci bəndi). Deməli, qanun belə halda subsidiar məsuliyyət müəyyən edir. Belə ki, yetkinlik yaşına çatmayanın valideynləri (övladlığa götürənlər) və ya himayəçisi subsidiar borclu hesab edilirlər.

Bəzən **birgə və subsidiar məsuliyyət** birlikdə yaranır. Qanunda bu cür məsuliyyətin əmələ gəlməsinin mümkünlüyü göstərilir. Belə ki, tam ortaqlığın iştirakçıları ortaqlığın öhdəlikləri üçün özlərinin əmlakı ilə birgə subsidiar məsuliyyət daşıyırlar (MM-in 75-ci maddəsinin 1-ci bəndi).

3. Mülki hüquq məsuliyyətinin digər növləri

Mülki hüquq məsuliyyətinin növlərindən biri reqres məsuliyyət (latınca «reqressus» - qayıtma, geriyə hərəkət) adlanır[1]. **Reqres məsuliyyət** odur ki, bu məsuliyyət əsas öhdəlik üzrə borclunun bilavasitə zərərvuranın yerinə zərərin əvəzini kreditora (zərərçəkənə) ödəməsini və bundan sonra onun bilavasitə zərərvurana geriyə tələb (reqres) irəli sürməsini nəzərdə tutur. Bu məsuliyyət reqres öhdəliklərindən yaranır. **Reqres öhdəliklər** həmişə digər öhdəliyin – əsas öhdəliyin icrası əsasında əmələ gəlir. Özü də əsas öhdəlik üzrə borclu reqres öhdəlik üzrə kreditora çevrilir, bilavasitə zərərvuran şəxs (üçüncü şəxs) isə borclu rolunda çıxış edir. Reqres öhdəliklər **üçüncü şəxslərin iştirak etdiyi öhdəliklərdir**. Üçüncü şəxslər dedikdə, bilavasitə zərər vuranlar

[1] Словарь иностранных слов. М., 1985, с. 423.

(hüquq pozuntusu törədənlər) başa düşülür.

Qüvvədə olan qanunvericilik reqres məsuliyyətinin ayrı-ayrı hallarını nəzərdə tutur. Məsələn, müəssisənin (hüquqi şəxsin) işçisi olan sürücü öz xidməti vəzifəsini icra edərkən yük maşını ilə vətəndaşa xəsarət yetirir və onun sağlamlığını pozur. Belə halda delikt (ziyan vurmaq nəticəsində əmələ gələn) öhdəliyi (əsas öhdəlik) yaranır. Zərərçəkən vətəndaş bu öhdəlikdə kreditor, müəssisə (hüquqi şəxs) isə borclu rolunda çıxış edir. Belə ki, hüquqi şəxs öz işçisinin törətdiyi mülki hüquq pozuntusu (delikt) üçün məsuliyyət daşıyır və əmək (qulluq) vəzifələrinin icrası zamanı işçisinin vurduğu zərərin əvəzini ödəməlidir (MM-in 1099-cu maddəsinin 1-ci bəndi). Zərərin əvəzini ödəyən hüquqi şəxs (müəssisə) zərəri vurmuş şəxsə, yəni sürücüyə (üçüncü şəxsə) reqres tələb irəli sürür. Bununla onlar arasında reqres öhdəlik yaranır ki, bu öhdəlikdə hüquqi şəxs kreditor, sürücü (üçüncü şəxs) isə borclu şəxs qismində iştirak edir. Bu öhdəlik reqres məsuliyyətin əmələ gəlməsinə dəlalət edir.

Başqa bir misalda təhqiqat (ibtidai istintaq, prokurorluq və ya məhkəmə) orqanının vəzifəli şəxsi qətimkan tədbiri kimi həbsə almanı (qanunsuz cinayət məsuliyyətinə cəlb etmə, qanunsuz məhkum etmə və s.) qanunsuz olaraq tətbiq edir. Bunun əvəzində fiziki şəxsə zərər vurulur. Həmin zərərin əvəzini Azərbaycan Respublikası (dövləti) ödəməlidir (MM-in 1101-ci maddəsinin 1-ci bəndi). Belə halda delikt öhdəliyi yaranır. Bu öhdəliyin kreditoru zərərçəkən fiziki şəxs, borclu isə dövlətdir (Azərbaycan Respublikasıdır). Dövlət vurulmuş zərərin əvəzini fiziki şəxsə ödəyir. Bundan sonra dövlət təhqiqat orqanının vəzifəli şəxsinə reqres qaydasında tələb irəli sürür (MM-in 1114-cü maddəsinin 3-cü bəndi). Belə halda da reqres məsuliyyəti yaranır.

Başqa bir misalda birgə öhdəlik üzrə birgə borclulardan biri öhdəliyi tam icra edir. Bundan sonra öhdəliyi tam icra edən borclu qalan borclulara reqres qaydasında tələb irəli sürür (MM-in 509-cu maddəsinin 1-ci bəndi).

Beləliklə, reqres məsuliyyəti bilavasitə zərərvuranın (hüquq pozuntusu törədən şəxsin) yerinə zərərin əvəzini ödəyən şəxsin (o, əsas öhdəlik üzrə borcludur) əmlak sferasının bərpa olunmasına yönəlir. Onun əsas təyinatı zərərçəkənə verilən məbləği bilavasitə zərərvurandan almaqdan ibarətdir.

Məsuliyyətin növlərindən biri qarışıq məsuliyyətdir[1]. Bir qayda olaraq, məsuliyyət hüquq pozuntusu törədən şəxsin hüquqazidd davranışı ilə bağlı olur. Lakin bəzən elə vəziyyət yaranır ki, zərərçəkən tərəfin davranışı da hüquqi əhəmiyyətə malik olur. Belə hallarda zərərvuranın törətdiyi hüquq pozuntusu ilə bərabər, zərərçəkən tərəfin hüquqazidd təqsirli davranışı əsas kimi nəzərə alınır. Zərərçəkən tərəfin təqsirli davranışının nəzərə alınması kompensasiya edilməli olan zərərin həcminə təsir göstərir. Göstərilən hallarda qarışıq məsuliyyət yaranır.

Qarışıq məsuliyyət odur ki, bu məsuliyyət həm zərərvuranın (borclunun), həm də zərərçəkənin (kreditorun) təqsiri olduqda yaranır və onlar arasında bölüşdürülür. Qanun öhdəliyin hər iki tərəfin (həm kreditorun, həm də borclunun) təqsiri üzündən pozulmasını qarışıq məsuliyyətin əmələ gəlmə əsası kimi

[1] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П. Грибанова, С.М. Корнеева.* М., 1979, с. 515.

nəzərdə tutur (MM-in 458-ci maddəsinin 1-ci bəndi). Əgər öhdəlik hər iki tərəfin təqsiri üzündən icra edilməzsə və ya lazımınca icra edilməzsə, onda qarışıq məsuliyyət göz qabağındadır. Bu halda **borclunun məsuliyyətinin ölçüsü** müvafiq surətdə azaldılır. Məsələn, podrat müqaviləsi üzrə podratçı (təmir-tikinti təşkilatı) sifarişçinin materiallarından qaraj tikir. Sifarişçinin verdiyi materiallar keyfiyyətsiz və yararsız olur. Podratçı bu barədə sifarişçini xəbərdar edir. Lakin sifarişçi materialları dəyişdirmir. Bununla belə, podratçı (təmir-tikinti təşkilatı) işi özünün kifayət qədər ixtisası olmayan qeyri-professional işçisinə gördürür. Hər iki tərəfin təqsiri üzündən işin nəticəsi qüsurlu olur və podrat öhdəliyi lazımınca icra olunmur. Belə halda, həm podratçı, həm də sifarişçi məsuliyyət daşıyırlar. Söhbət qarışıq məsuliyyətin yaranmasından gedir. Başqa bir misalda daşıyıcı təqsirli hərəkətlərə yol verərək, yükün (tez xarab olan ərzaq məhsullarının) təyinat yerinə çatdırılmasını gecikdirir. Yük sahibi isə yükün stansiyadan anbara daşınmasını gecikdirir və beləliklə, ərzaq məhsulları xarab olur. Belə halda da qarışıq məsuliyyət göz qabağındadır.

Üçüncü şəxslərin hərəkətləri üçün borclunun məsuliyyəti[1] müəyyən xüsusiyyətlərə malikdir. Çox vaxt bu məsuliyyəti subsidiar məsuliyyətlə qarışdırırlar. Üçüncü şəxs subsidiar (əlavə) borclu deyildir. Belə ki, subsidiar borclu kreditorla müəyyən bir hüquq münasibəti ilə (öhdəliklə) bağlı olur. Bundan fərqli olaraq, üçüncü şəxs kreditorla hər hansı bir mülki hüquq münasibəti ilə (öhdəliklə) bağlı olmur. Məsələn, daşıma müqaviləsi üzrə daşıyıcı yükün daşınmasını başqa daşıyıcıya həvalə edir ki, bu daşıyıcı üçüncü şəxs hesab edilir. O, yük göndərənlə (kreditorla) daşıma öhdəliyi əsasında bağlı olmayan şəxsdir. Başqa bir misalda podrat müqaviləsi üzrə podratçı (məsələn, tikinti təşkilatı) ona sifariş olunmuş işin texniki cəhətdən mürəkkəb olan hissələrinin görülməsini başqa tikinti təşkilatına tapşırır ki, bu təşkilat üçüncü şəxs (subpodratçı) adlanır. O, sifarişçi ilə (kreditorla) podrat öhdəliyi əsasında bağlı olmayan tərəfdir. Belə təsəvvür yaranır ki, borclu öhdəliyin icrasını hər hansı bir üçüncü şəxsə həvalə edə bilər. Üçüncü şəxs, qeyd etdiyimiz kimi, kreditorla müəyyən öhdəliklə (hüquq münasibəti ilə) əlaqəsi olmayan fiqurdur. Buna görə də, ümumi qaydaya əsasən, öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün kreditor öz tələbini üçüncü şəxsə yox, ona borclu olan verir. Məsələn, yuxarıdakı misallarda üçüncü şəxslər – cəlb edilmiş daşıyıcı və ya cəlb edilmiş subpodratçı icrası onlara həvalə edilmiş öhdəliyi (daşıma və ya podrat öhdəliyini) icra etmirlər və ya lazımınca icra etmirlər. Bu halda kreditor qarşısında üçüncü şəxslər yox, borclu məsuliyyət daşıyır. Belə ki, borclu öhdəliyin icra edilməməsi nəticəsində kreditora vurulmuş zərərin əvəzini ödəyir. Bundan sonra **borclu üçüncü şəxsə reqres qaydasında tələb irəli sürür**. Məsələn, daşıyıcının daşıma üçün cəlb etdiyi və yükü verdiyi daşıyıcıya, yəni üçüncü şəxsə reqres tələbi vermək hüququ vardır (MM-in 859-cu maddəsinin 4-cü bəndi). Söhbət belə halda reqres məsuliyyətindən gedir.

Borclunun öz işçilərinin hərəkətləri üçün məsuliyyəti də müəyyən xüsusiyyətlərə malikdir (MM-in 456-cı maddəsi). Borclu dedikdə, işə götürən (iş verən) başa düşülür. İşə götürən rolunda isə həm hüquqi şəxslər (müəssisələr, təşkilatlar, idarələr və s.), həm də fiziki şəxslər (məsələn, şəxsi katibə, sürücü, dayə, bağban və s. işə götürən fiziki şəxslər) başa düşülür.

Hüquqi şəxslər (və ya fiziki şəxslər) mülki dövriyyədə öz işçiləri vasitəsilə çıxış edirlər. İşçi dedikdə, əmək və ya mülki hüquq müqaviləsi üzrə iş görən fiziki şəxs başa düşülür[1]. İşçilərin borcu öz əmək (qulluq, mənsəb) vəzifələrini icra etməkdən ibarətdir. Bu vəzifələrin icrası zamanı işçilərin yerinə yetirdikləri hərəkətlər hüquqi şəxsin (və ya fiziki şəxsin) hərəkətləri sayılır. Bu hərəkətlər hüquqi şəxsin (və ya fiziki şəxsin) iştirak etdiyi öhdəliyi icra etməyə yönəlir. Əgər həmin hərəkətlər öhdəliyin icra edilməməsinə və ya lazımınca icra edilməməsinə səbəb olarsa, onda hüquqi şəxs bu hərəkətlər üçün məsuliyyət daşıyır[2]. Məsələn, sifarişçi (məsələn, hər hansı bir təşkilat) bina tikmək üçün podratçı (tikinti təşkilatı) ilə müqavilə bağlayır. Sifarişçi təşkilatı onun işçisi təmsil edir. Tikinti materiallarını vermək sifarişçiyə həvalə olunur. İşçi podratçıya yararsız və keyfiyyətsiz material verir. Podratçı işçidən materialların dəyişdirilməsini tələb edir. Lakin o, müvafiq müddətdə yararsız və ya keyfiyyətsiz materialı əvəz etmir. Podratçı müqavilədən imtina edir və bununla vurulan zərərin əvəzini ödəməyi tələb edir (MM-in 768-ci maddəsinin 2-ci bəndi). Sifarişçi həmin zərərin əvəzini ödəyir.

Beləliklə, borclu öz işçilərinin hərəkətləri üçün məsuliyyət daşıyır. O, öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi nəticəsində kreditora dəymiş zərərin əvəzini ödəyir. Bundan sonra borclu öz işçisinə əmək qanunvericiliyinin normaları əsasında reqres tələb irəli sürür.

[1] Üçüncü şəxslərin hərəkətləri üçün borclunun məsuliyyəti konsepsiyasını (təşkil edilmiş sahə üçün məsuliyyət nəzəriyyəsini) ilk dəfə olaraq S.İ.Asknazi işləyib hazırlamışdır. O yazırdı ki, öhdəlik üzrə borclu müəyyən təsərrüfat sahəsini təşkil etmək üçün üçüncü şəxsləri öhdəliyin icrasına cəlb edir. Buna görə də bütün hallar üçün risqi borclu daşımalıdır. Alimin fikrincə, öhdəliyin icra edilməsində üçüncü şəxsin (icraçının) təqsiri olmadıqda belə, kreditor qarşısında borclu cavab verməlidir (bax: *Аскиназий С.Н.* Некоторые вопросы гражданско-правовой ответственности // Уч. зап. Ленингр. Ун-та, 1951. вып. 3, с. 171-172). Bu nəzəriyyəni E.A. Fleyşits inkişaf etdirmişdir. O yazırdı ki, əsas borclu özünün və üçüncü şəxsin (faktiki icraçının) təqsirindən asılı olmayaraq, kreditor qarşısında məsuliyyət daşımalıdır (bax: *Флейщиц Е.А.* Общие начала ответственности по основам гражданского законодательства СССР и союзных республик // Советское государство и право, 1962. №3, с. 34-43). Bu barədə «üçüncü şəxsin (icraçının) birbaşa məsuliyyəti və borclunun birbaşa məsuliyyəti» kimi nəzəriyyə də mövcuddur. Bu nəzəriyyənin tənqidi təhlili barədə bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 2 // Гражданское право. Избранные труды. М., 2000, с. 504-505.

[1] Bəzi müəlliflərin fikrincə, işçi dedikdə, borclu ilə əmək münasibətində olan vətəndaşlar başa düşülür. Onlar mülki-hüquqi müqavilə əsasında işləyənləri borclunun işçisi kateqoriyasına aid etmirlər. Bu mövqe həqiqətə uyğun gəlmir. Belə ki, RF MM-in 1068-ci maddəsi (Azərbaycan Respublikası MM-in 1099-cu maddəsi) hüquqi və ya fiziki şəxsin öz işçisi tərəfindən törədilmiş mülki hüquq pozuntusu üçün məsuliyyət daşımasını nəzərdə tutur. Bu maddədə işçiyə anlayış verilir. İşçi dedikdə, həm əmlak müqaviləsi əsasında, həm də mülki hüquq müqaviləsi üzrə iş görən fiziki şəxs başa düşülür (həmin müəlliflərin mövqeyinə bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1997, с. 533; Комментарий к Гражданскому кодексу РФ, части первой / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 402).

[2] Hüquqi şəxsin öz işçilərinin hərəkətlərinə görə məsuliyyət daşıması konsepsiyası ilk dəfə olaraq tanınmış alim S.N.Bratus tərəfindən əsaslandırılmışdır. O, 1950-ci ildə yazırdı ki, hüquqi şəxsin məsuliyyəti onun işçisinin hərəkətinə görə məsuliyyətdir (*Братусь С.Н.* Субъекты гражданского право. М., 1950, с. 211-212; *Братусь С.Н.* Некоторые вопросы учения о субъектах право // Советское государство и право. 1949. №11, с. 78). O.S.İoffe yazırdı ki, hüquqi şəxsin kollektivinə daxil olan iştirakçının hərəkəti hüquqi şəxsin özünün hərəkətini ifadə edir (*Иоффе О.С.* Ответственность по советскому гражданскому праву. Л., 1955, с. 66-67).

İqtisadiyyatın bazar münasibətləri əsasında inkişafı şəraitində pul öhdəliklərinin lazımınca icrası böyük əhəmiyyət kəsb edir. Bunu nəzərə alaraq, Azərbaycan Respublikasının mülki qanunvericiliyi **pul öhdəliklərinin icra edilməməsi üçün məsuliyyət** nəzərdə tutur. MM-in 449-cu maddəsi bu məsuliyyət haqqında qaydalar müəyyən edir. Bu isə təsadüfi deyil. Belə ki, keçid dövrü adlandırdığımız indiki şərait inflyasiya prosesi ilə müşayiət edilir. Təsərrüfat subyektləri arasında ödəniş-hesablaşma intizamı tamamilə zəifləmişdir. Qarşılıqlı surətdə ödənişi həyata keçirməmək hallarına tez-tez rast gəlirik. Bəzi müəssisələr mülki dövriyyədə vicdansızcasına iştirak edir. Məsələn, müəyyən bir obyektin tikilməsini sifariş edən təşkilat podratçıya podrat haqqını vaxtında ödəmir. Həmin pulu o, banka qoyur və faiz alır. Bununla sifarişçi təşkilat özünü mülki dövriyyənin vicdansız iştirakçısı kimi aparır. Belə ki, o, özgəsinin pulundan qanunsuz olaraq istifadə edir, gəlir götürür və bununla qarşı tərəfə (kreditora) zərər vurur. Puldan qanunsuz olaraq istifadə edən tərəf həmin pulu kreditora o zaman ödəyir ki, artıq pul inflyasiya nəticəsində alıcılıq qabiliyyətini xeyli itirir. Mülki dövriyyə, şübhəsiz ki, möhkəm ödəniş intizamı olmadan inkişaf edə və fəaliyyət göstərə bilməz. Bu halı və əmlak dövriyyəsində pul öhdəliklərinin xüsusi rolunu nəzərə alaraq, Azərbaycan Respublikasının mülki qanunvericiliyi, yuxarıda göstərdiyimiz kimi, pul öhdəliklərinin icra edilməməsi üçün məsuliyyət müəyyənləşdirir.

Pul öhdəliklərinin obyektini həm nağd pul, həm də nağdsız pul ödənilməsinə yönələn hərəkətlər təşkil edir. Bu öhdəliklərin predmeti rolunda pul (həm nağd, həm də nağdsız) çıxış edir. Həmin öhdəliklər delikt öhdəliklərindən, kondikasiya (əsassız varlanma) öhdəliklərindən, habelə alqı-satqı, daşıma, podrat, sığorta, bank əmanəti, bank hesabı, kredit, borc və s. mülki-hüquqi müqavilələrdən əmələ gəlir. Məsələn, alqı-satqı müqaviləsi üzrə satıcı əşyanı alıcıya verir. Alıcı əşyanın əvəzində satıcıya müəyyənləşdirilmiş məbləğdə pul ödəməlidir. Podrat müqaviləsi üzrə podratçı tikdiyi bağ evini sifarişçiyə verir. Sifarişçinin vəzifəsidir ki, podrat haqqını ödəsin. Daşıma müqaviləsi üzrə daşıyıcı (nəqliyyat təşkilatı) yükü təyinat yerinə çatdırır. Yük alanın borcudur ki, yükü alıb daşıma haqqını ödəsin və s.

Bəzən elə hallar da yaranır ki, birincisi, **borclu pul öhdəliklərini icra etmir**. Məsələn, alıcı aldığı və ödəniş müddəti çatan əşyanın pulunu satıcıya vermir. Yük alan daşıma haqqını nəzərdə tutulan müddətdə ödəmir. Sahibkar bankdan aldığı krediti vaxtında qaytarmır. Sifarişçi bağ evi tikən podratçının haqqını müəyyənləşdirilmiş müddətdə vermir və s. Bundan əlavə, ikincisi, pul öhdəliyini icra etməyən borclu qanunsuz **saxladığı özgəsinin pul vəsaitindən istifadə edir və faydalanır**. Məsələn, verilmiş mal, görülmüş iş və ya göstərilmiş xidmət üçün borclunun ödənişi gecikdirməsi özgəsinin pul vəsaitindən istifadəni ifadə edir[1].

Borclunun özgəsinin pul vəsaitindən istifadə etməsinə və faydalanmasına müxtəlif hallar əsas ola bilər. Bu cür əsasların dairəsi kifayət qədər geniş olub, qanunla müəyyənləşdirilir (MM-in 449-cu maddəsinin 1-ci bəndi): borclunun

[1] bax: постановления Пленумов ВС РФ и ВАС РФ № 6/8 от 1 июля 1996 г. «О некоторых вопросах, связанных с применением части первой Гражданского кодекса Российской Федерации» (Вестник ВАС РФ, 1996. №9).

özgəsinin pul vəsaitini qanunsuz saxlaması (məsələn, bank qanunsuz olaraq müştərinin tapşırığını yerinə yetirməyərək onun pul vəsaitin təyinatı üzrə köçürmür); borclunun özgəsinin pul vəsaitini qaytarmaqdan boyun qaçırması (məsələn, borc müqaviləsi üzrə borc alan müddəti başa çatmış borc pulu qaytarmır); borclunun pul vəsaitinin ödənilməsini gecikdirməsi (məsələn, alıcı aldığı əşyanın pulunun satıcıya verilməsini gecikdirir); şəxsin başqa şəxsin hesabına pul vəsaitini əsassız əldə etməsi və ya toplaması (əsassız varlanma, yəni kondikasiya öhdəliyi yarandığı halda, məsələn, oğul vərəsənin öz ölmüş və borcu ödəmiş atasının əvəzinə, borcun ikinci dəfə borc verən qonşuya ödəməsi, qonşunun isə həmin pulu banka əmanətə qoyması). Belə təsəvvür yaranır ki, borclunun qanunsuz davranışı iki halla ifadə olunur: birincisi, əvəzli müqavilələrdən əmələ gələn pul öhdəliyini icra etməmək halı ilə; ikincisi, başqasının hesabına əsassız varlanma halı ilə. Bununla da borclu mülki hüquq pozuntusuna yol verir. Şübhəsiz ki, belə halda ona mülki hüquq sanksiyası tətbiq olunur. Belə ki, **borclu özgəsinin pul vəsaitindən istifadə etməyə və faydalanmağa görə faizlər ödəyir** (MM-in 449-cu maddəsinin 1-ci bəndi).

Qeyd etmək lazımdır ki, həmin faizlər öz hüquqi təbiətinə görə pul öhdəliyini icra etmədiyinə görə, mülki hüquq pozuntusuna yol verdiyi üçün **borcluya tətbiq edilən mülki hüquq sanksiyasıdır**. Daha doğrusu, bu faizlər sanksiyanın «məsuliyyət tədbiri» adlı ikinci qrupuna (qeyd edək ki, sanksiyanın birinci qrupuna müdafiə tədbirləri şamil edilir) aid olunur. Buna **sanksiya faizi** və **ya məsuliyyət faizi** deyilir[1].

Faizlər borclunun istifadə etdiyi özgəsinin pul vəsaitinə görə hesablanır. Onun miqdarı bank uçot dərəcəsi ilə müəyyənləşdirilir. Yalnız pul öhdəliyinin və ya onun müvafiq hissəsinin icra edildiyi gün üçün qüvvədə olan bank uçot dərəcəsi əsas kimi götürülür. Bu dərəcə isə Azərbaycan Respublikasının Milli Bankı tərəfindən müəyyən olunur. Məsələn, elə hesab edək ki, alıcı alqı-satqı müqaviləsinə görə aldığı əşyanın pulunu ödəniş müddəti çatdığına baxmayaraq ödəmir, 1 il gecikdirir. Əşyanın qiyməti 5 min manatdır. Bank uçot dərəcəsi isə illik 2 faizdir. Alıcı əşyanın pulunu verərkən 5.100 manat ödəməlidir (yəni 5 min + (5 min x 2): 100%).

Elə hallar olur ki, borc məhkəmə qətnaməsi əsasında tutulur. Belə ki, borcun ödənilməsi barədə kreditor iddia ilə məhkəməyə müraciət edir. Məhkəmə iddiaya baxaraq, kreditorun tələbini təmin edir. Bu halda kreditorun tələbinin ödənilməsi barədə məhkəmə qətnaməsinin qəbul olunduğu gün qüvvədə olan bank uçot dərəcəsi əsas götürülür.

Bəzi vaxtlarda borclu kreditor qarşısında öhdəliyi icra etmir və onun pul vəsaitindən qanunsuz istifadə edir. Söz yox ki, pul vəsaitindən borclunun qanunsuz istifadə etməsi nəticəsində kreditora zərər dəyir. Belə halda borclu kreditorun tələbi ilə ona **dəymiş zərərin əvəzini ödəyir**. Bundan əlavə, borclunun

[1] Bəzi müəlliflər göstərirlər ki, bu faizi nə dəbbə pulu, nə zərər, nə də hüquq pozuntusuna görə tətbiq edilən məsuliyyət tədbiri hesab etmək olar. Onların fikrincə, həmin faiz özgəsinin pul vəsaitindən istifadə etməyə görə alınan haqdır. Bu fikrin həqiqətdən uzaq olmasını sübut etmək lazım deyil. Axı, mülki qanunvericilik açıq-aşkar göstərilən faizi pul öhdəliyinin icra edilməsi üçün məsuliyyət tədbiri kimi nəzərdə tutur (RF MM-in 395-ci, AR MM-in 449-cu maddələri). Bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 457.

vəzifəsidir ki, bank uçot dərəcəsi nəzərə alınmaqla kreditora **məsuliyyət faizi (və ya sanksiya faizi) ödəsin**. Kreditora dəyən zərər məsuliyyət faizindən çox ola bilər. Onda kreditora həm məsuliyyət faizinin məbləği, həm də məsuliyyət faizinin məbləğindən çox olan hissədə zərərin əvəzi ödənilir. Məsələn, sahibkar bankdan kredit alır. O, kreditin qaytarılmasını bir il gecikdirir və kredit vəsaitindən qanunsuz istifadə edir. Bunun nəticəsində kreditora 5 min manat zərər vurulur. Məsuliyyət faizi isə 2 min manat məbləğində müəyyən edilir. Borclu (sahibkar) kreditora (banka) ödəyir: 2 min manat məbləğində məsuliyyət faizi + (5 min – 2 min), yəni məsuliyyət faizinin məbləğindən çox olan = 2+3=5 min manata.

Məsuliyyət faizinin hansı müddət üçün ödənilməsi də qanunla tənzimlənir (MM-in 449-cu maddəsinin 4-cü bəndi). Belə ki, məsuliyyət faizi borclunun özgəsinin pul vəsaitini verməli olduğu gündən (yəni borclu tərəfindən mülki hüquq pozuntusuna yol verildiyi gündən) həmin vəsait məbləğinin kreditora faktiki ödənildiyi günə qədər tutulur. Məsələn, sahibkar aldığı krediti 2000-ci ilin sentyabr ayının 1-də (hüquq pozuntusunun yol verildiyi müddət) qaytarmalı olduğu halda, onu bir ildən sonra — 2001-ci ilin sentyabr ayının 1-də (faktiki ödənilmə günü) ödəyir. Məsuliyyət faizi bir il müddəti üçün hesablanır. Lakin bu qayda dispozitiv xarakter daşıyır. Belə ki, müqavilədə faizlərin hesablanması üçün daha qısa müddət müəyyənləşdirilə bilər.

§ 3. Mülki hüquq məsuliyyətinin əmələ gəlmə əsası və şərtləri

1. Mülki hüquq məsuliyyətinin əsası anlayışı

Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, «mülki hüquq məsuliyyətinin əsasları» və «mülki hüquq məsuliyyətinin şərtləri» kimi iki anlayış eynimənalı (sinonim) anlayışlar hesab edilmir. Ədəbiyyatda göstərilir ki, çox vaxt «məsuliyyətin əsası» və «məsuliyyətin şərtləri» kimi iki anlayış bir-birilə qarışdırılır və eynimənalı anlayışlar kimi işlədilir[1]. Bu iki anlayış bir-birilə nə qədər qarşılıqlı əlaqədə olsa da, onlar məna və məzmunca üst-üstə düşmürlər.

Mülki hüquq elmində mülki hüquq məsuliyyətinin əsası mübahisəli məsələlərdən biridir. Bir çox müəlliflər **mülki hüquq pozuntusu tərkibi konsepsiyasını** irəli sürür və dəstəkləyirlər[2]. Bu konsepsiyaya görə, mülki hüquq pozuntusu tərkibi mülki hüquq məsuliyyətinin əsasıdır. Həmin konsepsiya tərəfdarları göstərirlər ki, yalnız qanunda nəzərdə tutulan müəyyən şərtlər olduqda, şəxs mülki hüquq məsuliyyətinə cəlb edilə bilər. Bu şərtlərin məcmusu mülki hüquq pozuntusu tərkibini yaradır. Həmin şərtlərə aiddir: hüquqazidd davranış; zərərin olması; hüquqazidd davranışla zərərin yaranması arasında səbəbli əlaqə; zərər vuranın təqsiri.

Göstərilən konsepsiya qüsurludur. Mülki hüquq pozuntusu tərkibini mülki hüquq məsuliyyətinin əsası hesab etmək olmaz[1]. Belə ki, bəzi hallarda bu tərkibə daxil olan şərtlərdən birinin – təqsirin olmadığına baxmayaraq, mülki hüquq məsuliyyəti yaranır. Belə hallar qanunda nəzərdə tutulmuşdur. Məsələn, məhkəmə orqanlarının vəzifəli şəxsləri təqsirdən asılı olmayaraq məsuliyyət daşıyırlar (MM-in 1101-ci maddəsinin 1-ci bəndi).

Bəzi müəlliflər **hüquq pozuntusu konsepsiyasını** irəli sürürlər[2]. Bu konsepsiyaya görə, hüquq pozuntusu mülki hüquq məsuliyyətinin əsası kimi çıxış edir. Məsələn, prof. T.İ.İllarionova yazır ki, hüquq pozuntusu mülki hüquq məsuliyyətinin yaranmasına əsas olan hüquqi faktdır və bu fakt qanunda, başqa normativ aktda və ya müqavilədə nəzərdə tutulur[3]. Bu konsepsiya müddəaları da qüsurludur. Belə ki, şəxsin davranışını (hərəkət və hərəkətsizliyini) mülki hüquq pozuntusu hesab etmək üçün bu davranışa hüquqi qiymət vermək lazımdır. Şəxsin davranışına isə yalnız qanunda nəzərdə tutulan məsuliyyət şərtləri əsasında hüquqi qiymət vermək olar. Davranışı hüquq pozuntusu hesab etmək üçün gərək olan, qanunla müəyyənləşdirilən zəruri məsuliyyət şərtləri isə bunlardır: qeyri-hüquqilik; səbəbli əlaqə; təqsir. Bu üç şərt əsasında şəxsin davranışına hüquqi qiymət verilir və bunun nəticəsində o, hüquq pozuntusu kimi tanınır. Deməli, **hüquq pozuntusu mülki hüquq məsuliyyətinin əsası ola bilməz**. Hüquq pozuntusu mülki hüquq məsuliyyətinin əmələ gəlmə əsası yox, bu məsuliyyətin tətbiq edilməsinin əsası kimi çıxış edir.

İkinci tərəfdən, mülki hüquqda məsuliyyət bəzən məsuliyyət daşıyan şəxs tərəfindən hüquq pozuntusu törədilmədiyi hallarda da yarana bilər. Məsələn, borclu öhdəliyin icrasını üçüncü şəxsə həvalə edir. Üçüncü şəxs öhdəliyi icra etmir və hüquq pozuntusuna yol verir. Belə halda üçüncü şəxs yox, borclu şəxs məsuliyyətə cəlb edilir. Borclu hüquq pozuntusuna yol vermir, amma o, məsuliyyətə cəlb edilir. Bu isə onu göstərir ki, hüquq pozuntusu törətməyən borclu məsuliyyət daşıyır. Deməli, mülki hüquq pozuntusu mülki hüquq məsuliyyətinin əsası ola bilməz. Məsələn, daşıyıcı yükü daşımaq üçün üçüncü şəxsi

---

[1] bax: *Смирнов В.Т., Собчак А.А.* Общее учение о деликтных обязательствах в советском гражданском праве. Л., 1983, с. 56.

[2] *Алексеев С.С.* О составе гражданского правонарушения // Правоведение. 1958. №1; *Матвеев Г.К.* Основания гражданско-правовой ответственности М., 1970; *Калмыков Ю.Х.* Об элементах состава гражданского правонарушения // Уч. зап. Саратовского юрид. инста. Вып. X. 1962; *Иоффе О.С.* Ответственность по советскому гражданскому праву. Л., 1955, с. 94; *Малеин Н.С.* Имущественная ответственность в хозяйственных отношениях. М., 1968, с. 22; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Ю.К.Толстого, А.П.Сергеева*. М., 1997, с. 536; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 439; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 427; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 444; Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева*. М., 1999, с. 180.

[1] Cinayət hüququnda cinayət məsuliyyətinin əsası kimi cinayət tərkibi qəbul edilir. Mülki hüquq pozuntusu tərkibi konsepsiyasının əleyhdarlarından biri olan V.V.Vitryanski göstərir ki, cinayət tərkibi haqqında cinayət hüququnun nəzərdə tutduğu müddəaları mülki hüquq münasibətlərinə şamil etmək olmaz. Müəllifin gətirdiyi belə arqumenti bir o qədər tutarlı və inandırıcı hesab etmək olmaz. Belə ki, həm cinayət hüquq tərkibi, həm mülki hüquq pozuntusu tərkibi, həm də inzibati hüquq pozuntusu tərkibi hüquq pozuntusu kimi ümumi kateqoriyaya daxildir (bax: *Брагинский М.И., Витрянский В.В.* Договорное право. М., 1997, с. 568).

[2] bax: *Smirnov V.T., Sobçak A.A.* Obщее учение о деликтных обязательствах в советском гражданском праве. Л., 1983, с. 56. *Малеин Н.С.* Правонарушение: понятие, причины, ответственность. М., 1985, с. 130; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 421.

[3] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 421.

cəlb edir. Üçüncü şəxs ona tapşırılmış yükü daşımır və bununla hüquq pozuntusuna yol verir. Yük göndərən (kreditor) qarşısında üçüncü şəxs yox, daşıyıcı (borclu) məsuliyyət daşıyır.

Mülki hüquq məsuliyyətinin əsası barədə üçüncü konsepsiya da mövcuddur. Bu konsepsiyanı V.V.Vitryanski irəli sürür. Onun fikrincə, mülki hüquq məsuliyyətinin əsasını **subyektiv mülki hüquqların pozulması** təşkil edir[1]. Lakin alim mülki hüquq məsuliyyətinin əsası kimi «subyektiv mülki hüquqların pozulması» anlayışının məzmun və mənasını açıqlamır.

Moskva alimlərindən V.S.Yem və N.V.Kozlova **zərər vurulması faktı konsepsiyasını** irəli sürürlər[2]. Onlar göstərirlər ki, V.V.Vitryanskinin konsepsiyası maraq doğurur. Müəlliflərin fikrincə, subyektiv mülki hüquqlann pozulması dedikdə, zərər vurulması faktı başa düşülür. Biz elə hesab edirik ki, bu konsepsiya tərəfdarlarının mövqeyi daha əsaslı və inandırıcıdır. Doğrudan da, zərər vurulması faktı yoxdursa, onda mülki hüquq məsuliyyətinin yaranmasından söhbət gedə bilməz. Zərərin mövcudluğu kreditorun (zərərçəkənin) subyektiv hüquqlarının pozulmasını ifadə edir. Beləliklə, **zərər vurulması faktını mülki hüquq məsuliyyətinin əsası hesab etmək olar**[3]. Bu fakt hüquqi fakt rolunu oynayır. Elə bir fakt ki, bunun nəticəsində məsuliyyət yaranır. Deməli, **mülki hüquq məsuliyyətinin əsası dedikdə, kreditorun (zərərçəkənin) subyektiv mülki hüquqlarının pozulmasına dəlalət edən hüquqi fakt – zərərin mövcudluğu başa düşülür**.

2. Mülki hüquq məsuliyyətinin şərtləri

Borclunun (zərərvuranın) öhdəliyi icra etməməsi nəticəsində kreditorun (zərərçəkənin) subyektiv mülki hüququ pozulur və bununla ona zərər vurulur. Zərər vurulması faktı göz qabağındadır. Bu fakt mülki hüquq məsuliyyətinin əsası kimi çıxış edir. Lazımdır ki, borcluya (zərərvurana) mülki hüquq məsuliyyəti tətbiq edilsin. Bunun üçün mülki hüquq məsuliyyətinin əsası, yəni zərərin mövcudluğu (zərər vurulması) faktı kifayət etmir. Mülki hüquq məsuliyyətinin tətbiq edilməsi üçün həm də qanunda nəzərdə tutulan şərtlərin olması zəruridir. Belə ki, qanunda nəzərdə tutulan həmin şərtlər əsasında zərər vurulması faktına hüquqi qiymət verilməsi, yəni bu faktın tövsif edilməsi gərəkdir. Bu cür hüquqi qiymət vermənin əsas məqsədi və təyinatı müvafiq faktı mülki hüquq pozuntusu kimi tövsif etməkdir. Əgər həmin fakt mülki hüquq pozuntusu kimi tövsif olunsa, mülki hüquq məsuliyyəti tətbiq edilir. Bu, bir daha onu göstərir ki, mülki hüquq pozuntusu məsuliyyətin tətbiq edilmə əsasıdır.

Belə təsəvvür yaranır ki, zərər vurmaq faktına qanunda nəzərdə tutulan şərtlər əsasında hüquqi qiymət verilir. Bu şərtlərin vasitəsilə zərərvuran şəxsə (borcluya) sanksiya (məsuliyyət tədbiri formasında) tətbiq edilir. Həmin şərtlər

[1] bax: *Брагинский М.И., Витрянский В.В.* Договорное право. Общие положения. М., 1997, с. 568.

[2] Гражданское право. Учебник. Том 2. Полутом 2 / Под ред. *Е.А.Суханова*. М., 2000, с. 369.

[3] Almaniya sivilistika doktrinasında «Tatbestand», yəni əməl (məlum məsələdir ki, hüquqazidd əməl) məsuliyyətin əsası götürülür (*Medicus D.* Bürgerliches Recht. Berlin. 1999, s. 3; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 366).

mülki hüquq məsuliyyətinin şərtləri adlanır.

Mülki hüquq məsuliyyətinin şərtləri dedikdə, qanunda nəzərdə tutulan elə tələblər başa düşülür ki, bu tələblər əsasında zərər vurmaq faktına hüquqi qiymət verilir və zərərvuran şəxsə (borcluya) məsuliyyət tədbiri formasında müvafiq sanksiya tətbiq edilir. Bu şərtlər mülki hüquq məsuliyyəti tətbiq etmək üçün lazımdır. Həmin şərtlər mülki hüquq məsuliyyətinin əsasını – zərər vurulması faktını xarakterizə edir. Onlar bu faktın mülki hüquq pozuntusu kimi tanınmasına və qiymətləndirilməsinə imkan verir.

Mülki hüquq məsuliyyətinin şərtlərini müəyyən etməklə hüquq pozuntusu törədən şəxsə (zərərvurana) müvafiq sanksiya – məsuliyyət tədbiri tətbiq edilir. Bu şərtlər qanunda nəzərdə tutulan ümumi məcburi tələblərdir. Həmin şərtlərin dairəsinə şamil edilir[1]:

- borclunun (zərərvuranın) hüquqazidd, yəni qeyri-hüquqi davranışı;
- borclunun (zərərvuranın) hüquqazidd davranışı ilə vurulmuş zərər faktı arasında səbəbli əlaqə;
- borclunun (zərərvuranın) təqsiri.

Göründüyü kimi, zərər (zərər vurulması faktı) mülki məsuliyyətin şərtlərinə daxil deyil. Müəlliflərin əksəriyyəti zərəri mülki hüquq məsuliyyətinin şərtlərindən biri hesab edir[2]. Bu cür mövqe özlüyündə ziddiyyət təşkil edir. Belə ki, əgər zərər mövcuddursa, onda həmin zərərə zərər adlı məsuliyyət şərti əsasında hüquqi qiymət vermək məntiqsizlik olmazdımı? Məsuliyyət tətbiq etmək nə deməkdir? O deməkdir ki, vurulmuş zərər faktı mülki hüquq pozuntusu kimi qiymətləndirilsin. Zərər faktı mülki hüquq pozuntusu kimi necə qiymətləndirilməlidir? Qeyd etməliyik ki, həmin fakta qanunun nəzərdə tutduğu məsuliyyət şərtləri (hüquqazidd davranış; səbəbli əlaqə; təqsir) əsasında hüquqi qiymət verməklə məsələ həll olunmalıdır. Deməli, məsuliyyət şərtləri zərərə (zərər vurulması faktına) hüquqi qiymət vermək üçündür. Onda belə halda sual olunur: zərəri, zərərə hüquqi qiymət vermək üçün lazım olan məsuliyyət şərtlərinə necə daxil etmək olar? Bu cür fikrin əsaslı və inandırıcı olmasını təsəvvürə gətirmək qeyri-mümkündür. Zərər (zərər vurulması faktı) mülki hüquq

[1] Almaniya sivilistika doktrinası da həmin şərtləri nəzərdə tutur (*Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 208-209; *Thomas H. // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 935 ff; *Brox H.* Allgemeines Schuldrecht. München. 1993, s. 336 ff; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 362, 369).

[2] bax: *Белякова А.М.* Имущественная ответственность за причинение вреда. М., 1979, с. 7, 27; *Смирнов В.Т., Собчак А.А.* Общее учение о деликтных обязательствах в советском гражданском праве. Л., 1983, с. 31; Советское гражданское право. Учебник. Том 2 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 353; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 491; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Ю.К.Толстого, А.П.Сергеева*. М., 1997, с. 536 (часть 2, с. 702); Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 427; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 444; Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева*. М., 1999, с. 180-181. Müəlliflərdən V.V.Vitryanski «subyektiv mülki hüquqların pozulmasını» mülki hüquq məsuliyyətinin əsası hesab edir. Lakin o, «subyektiv mülki hüquqların pozulmasını» zərərin vurulması faktı kimi izah etmir. Vitryanski zərəri məsuliyyət şərti sayır (bax: *Брагинский М.И., Витрянский В.В.* Договорное право. Общие положения. М., 1997, с. 570, 574).

məsuliyyətinin şərti yox, əsasıdır. Görkəmli və tanınmış alim O.S.İoffe də zərəri məsuliyyət şərtlərinə aid etmir[1]. Müasir müəlliflər arasında da bu cür mövqedə duranlar var[2]. Məsələn, vətəndaş öz qonşusunun əmlakını yandıraraq ona zərər vurur. Qonşuya belə halda sanksiya — məsuliyyət tədbiri tətbiq edilməlidir. Zərər vurulması faktı – əmlakın yandırılması faktı göz qabağındadır. Bununla mülki hüquq məsuliyyətinin əsası yaranır. Bircə qalır məsuliyyətin tətbiq edilməsi məsələsi. Bunun üçün lazımdır ki, zərər vurulması faktına qanunda nəzərdə tutulan şərtlər əsasında hüquqi qiymət verilsin, yəni həmin fakt hüquqa ziddirmi, zərər vurulması faktı ilə hüquqazidd hərəkət arasında səbəbli əlaqə vardırmı, habelə vətəndaşın təqsiri vardırmı? Zərər vurmaq faktına həmin şərtlər əsasında hüquqi qiymət verilir və o, mülki hüquq pozuntusu kimi tövsif olunur. Buna görə də vətəndaşa məsuliyyət tədbiri tətbiq edilir. Açıq-aşkar görürük ki, zərər, bu zərərə hüquqi qiymət vermək üçün qanunun nəzərdə tutduğu məsuliyyət şərtlərinə daxil deyil.

Beləliklə, «mülki məsuliyyətin əsası» və «mülki məsuliyyətin şərtləri» kimi iki kateqoriya bir-biri ilə məna və məzmunca üst-üstə düşmür. Amma buna baxmayaraq eynimənalı (sinonim) olmayan həmin kateqoriyalar bir-biri ilə qarşılıqlı əlaqədədir.

3. Zərər mülki hüquq məsuliyyətinin əsasıdır

Zərər (zərər vurulması faktı) yoxdursa, mülki hüquq məsuliyyəti də yoxdur. Əgər zərər olmazsa, mülki hüquq məsuliyyəti də yarana bilməz[3]. Bu, onu söyləməyə əsas verir ki, **zərər mülki hüquq məsuliyyətinin məcburi, zəruri və labüd əsasıdır.**

Borclu (zərərvuran) özünün davranışı ilə (hərəkət və ya hərəkətsizliyi ilə) kreditorun (zərərçəkənin) əmlak sahəsində mənfi nəticələr yaradır. Məsələn, podratçı (borclu) yaşayış evini nəzərdə tutulan müddətdə tikib sifarişçiyə (kreditora) vermir. Borc alan aldığı borc məbləğini borc verənə qaytarmır. Daşıyıcı (nəqliyyat təşkilatı) yükü təyinat yerinə çatdırmır. Bank əmanəti əmanətçiyə qaytarmır. Bu cür hallarda kreditor (zərərçəkən) üçün maddi xarakterli mənfi nəticə əmələ gəlir. Bununla o, zərərə düşür. Bu, müxtəlif formalarda ifadə olunabilər: kreditora (zərərçəkənə) məxsus olan əmlakın məhv edilməsi və ya korlanması; zərərçəkənə (kreditora) xəsarət yetirilməsi; zərərçəkənin əmlakdan məhrum edilməsi; zərərçəkənin (kreditorun) gəlirinin azalması və ya itirilməsi; kreditorun (zərərçəkənin) şərəf və ləyaqətinə, şəxsiyyət toxunulmazlığına, sağlamlığına, həyatına qəsd edilməsi və s.

Beləliklə, **mülki hüquqda zərər dedikdə, hüququ pozulmuş (zərər çəkmiş) şəxsin düşdüyü və düçar olduğu elə maddi itki başa düşülür ki, bunun nəticəsində onun əmlakı və ya şəxsi qeyri-maddi nemətləri azalır**. Zərər hüququ pozulmuş (zərər çəkmiş) şəxs üçün arzuolunmaz mənfi nəticədir. Zərərə düşməklə şəxsin qanunla qorunan nemətiəskilir. Zərər ya əmlaka, ya da fiziki şəxsin malik olduğu qeyri-maddi nemətlərə – həyat və sağlamlığa, şəxsiyyətə, şərəf və ləyaqətə və s. vurulur.

Hüquq ədəbiyyatında, qanunvericilikdə və məhkəmə təcrübəsində biz tez-tez «zərər» və «ziyan» kimi anlayışların istifadə edilməsinə rast gəlirik. Məsələn, MM-in 21-ci maddəsində, habelə IX bölməsində (1096-1127-ci maddələrdə) «zərər» anlayışından istifadə olunur. MM-in 1096-cı maddəsində həm «ziyan», həm də «zərər» anlayışları ilə qarşılaşırıq. MM-in 563-cü və 564-cü maddələrində isə «ziyan» anlayışı işlədilir. Konstitusiyanın 68-ci maddəsində, «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» qanunun 7-ci maddəsində «zərər» anlayışından istifadə edilir.

Göstərilən iki anlayışın münasibəti barədə Rusiya müəlliflərinin hüquq ədəbiyyatında irəli sürdüyü fikirlər üst-üstə düşür. Həmin müəlliflərin fikrincə, «zərər» («вред») və «ziyan» («ущерб») kimi kateqoriyalar eynimənalı ifadələrdir[1]. Alimlərdən V.A.Tarxov göstərir ki, «ziyan» («ущерб») və zərər» («вред») kimi sözlər sinonim (eynimənalı) sözlərdir[2]. O, bu fikri söyləyərkən rus dili sinonimləri lüğətinə istinad edir. Bəzi müəlliflərin fikrincə, «əmlak zərəri» çox vaxt «ziyan» adlanır, yəni «ziyan» kateqoriyası əmlak zərərinin sinonimi kimi işlədilir[3].

Biz elə hesab edirik ki, rusca «вред» və «ущерб» kimi sözlərin azərbaycanca qarşılığı və ekvivalenti olan **«zərər» və «ziyan» kimi ifadələr eynimənalı olub, sinonim sözlərdir**. Onlar məna və məzmunca üst-üstə düşür[4]. Bununla bərabər, RF-in mülki hüququnda, hüquq ədəbiyyatında və qanunvericiliyində «убыток» kateqoriyası işlədilir ki, bu kateqoriya «вред» («zərər») və «ущерб» («ziyan») kimi anlayışlardan fərqlənir. Bu anlayışlar üst-üstə düşmür. Belə ki, Rusiya mülki hüququnda «убыток» dedikdə, zərərin pulla qiymətləndirilməsi başa düşülür. Bu ifadə isə Azərbaycan dilinə «ziyan», «zərər» kimi tərcümə edilir[5]. Terminoloji qarşılığa yol verməmək üçün rusca «убыток» sözünün azərbaycanca qarışıqlığı (dolaşıqlığı) və ekvivalenti kimi «itki» ifadəsinin işlədilməsini məqsədəmüvafiq və zəruri hesab edirik. Deməli, **mülki hüquqda itki dedikdə, pulla ifadə olunan zərər (ziyan) başa düşülür**. Daha doğrusu, itki əmlak zərərinin pulla qiymətləndirilməsidir.

Zərərə (Schaden) Almaniya mülki hüquq ədəbiyyatında da anlayış verilir. Professor E.Klyuntsinger zərərin hamılıqla qəbul edilmiş və geniş yayılmış tərifini verir: zərər dedikdə, şəxsin əmlakına və ya hüquqi cəhətdən qorunan di-

---

[1] bax: *Иоффе О.С.* Обязательственное право. М., 1975, с. 798.

[2] bax: Гражданское право. Учебник. Том 2. Полутом 2 / Под ред. *Е.А.Суханова*. М., 2000, с. 370.

[3] bax: *Белякова А.М.* Гражданско-правовая ответственность за причинение вреда (теория и практика). М., 1987, с. 19.

[1] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 495.

[2] *Тархов В.А.* Ответственность по советскому гражданскому праву. Саратов. 1973, с. 141.

[3] bax: Гражданское право. Учебник. Том 2. Полутом 2 / Под ред. *Е.А.Суханова*. М., 2000, с. 371; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.П.Плетневой*. М., 1998, с. 427.

[4] «Вред» rus sözü azərbaycan dilinə «zərər», «ziyan» kimi tərcümə edilir (bax: Rusca-azərbaycanca lüğət. IV nəşr. I cild / *Ə.Ə.Orucovun* redaktəsi ilə. Bakı. 1982, c. 179). «Ущерб» rus sözü azərbaycanca «zərər», «ziyan» mənasını bildirir (bax: Rusca-azərbaycanca lüğət. III nəşr. III cild / Ə.Ə.Orucovun redaktəsi ilə. Bakı. 1978, s. 422).

[5] bax: Rusca-azərbaycanca lüğət. III nəşr. III cild / *Ə.Ə.Orucovun* redaktəsi ilə. Bakı. 1978, c. 366. Rus dilinin lüğətində «вред» «ущерб» mənasında, «убыток» «ущерб» mənasında, «ущерб» «убыток» mənasında işlədilir (*С.И.Ожегов.* Словарь русского языка / Под ред. *Н.Ю.Шведевой.* М., 1988, с. 84, 670, 692).

gər nemətlərinə göstərilən müəyyən təsir nəticəsində onun düşdüyü ziyan (mənfi, yük yaradan nəticə) başa düşülür[1]. H.Broksa görə, zərər bu və ya digər nemətə vurulan elə bir ziyandır (Einbusse) ki, bu ziyanın vurulması şəxsin öz istəyi ilə bağlı olmur[2]. Özü də bilavasitə zərər vasitəli zərərdən fərqləndirilir. **Bilavasitə zərər** zədələnmiş obyektdə əmələ gələn zərərdir. **Vasitəli zərər** isə bilavasitə zərərin nəticəsi kimi yaranır.

Mülki hüquqda zərər daha geniş anlayışdır. Onun iki növü fərqləndirilir:

- əmlak zərəri;
- qeyri-əmlak zərəri.

Əmlak zərəri dedikdə, hüququ pozan şəxsin (borclunun, zərər vuranın) davranışının elə bir maddi (iqtisadi) xarakterli nəticəsi başa düşülür ki, bu nəticə dəyər formasına malik olur. Bu cür zərər itkidir. İtki isə, yuxarıda qeyd etdiyimiz kimi, əmlak zərərinin pulla qiymətləndirilməsidir, pul formasında ifadə olunan ziyandır[3]. Əmlak zərərinə **maddi zərər** də deyilir. Bu zərərə misal olaraq zədələnmiş əşyanın qiymətinin azalmasını, qazancın və gəlirin itirilməsini və ya azalmasını, yeni xərclərin çəkilməsi zərurətini və s. göstərmək olar.

Almaniya mülki hüquq ədəbiyyatında da zərər iki yerə bölünür: maddi zərərə (Vermögensschaden); qeyri-maddi zərərə (Nichtver mögensschaden) və ya materieller; immaterieller. **Maddi zərər** dedikdə, əmlaka (əmlak qiyməti olan nemətə) vurulan və əvəzinin ödənilməsi mümkün olan itki (Ersatzfahigkeit) başa düşülür. Əgər əmlakın faktiki dəyəri azalarsa, bu, o deməkdir ki, həmin əmlaka maddi zərər vurulmuşdur[4].

Zərərin (itkinin) iki növü vardır (MM-in 21-ci maddəsinin 2-ci bəndi):

- real zərər (damnum emergens);
- əldən çıxmış fayda (lucrum cessans)[5].

Real zərər dedikdə, zərər çəkənin (hüququ pozulmuş şəxsin) şəxsi əmlakının azalması başa düşülür. Bu halda hüquq pozuntusu nəticəsində zərərçəkənin əmlakı real zərər həcmində azalır. Real zərər (itki) **birbaşa zərər** (itki) də adlanır.

Real zərərə, hər şeydən əvvəl, **çəkilən xərclər** aiddir. Zərərçəkən bu cür xərcləri çəkməyə məcburdur. Ona görə ki, zərərvuranın hərəkəti nəticəsində o, pozulmuş hüququnu (mənfi nəticələri) bərpa etməlidir. Məsələn, vətəndaş öz qonşusuna xəsarət yetirir və bununla onun sağlamlığına zərər vurur. Belə halda çəkilən xərclər qonşunun sağlamlığının pozulması ilə bağlı olur. Bu cür xərclər müalicəyə, əlavə qidalanmaya, dava-dərman alınmasına, protezləşdirməyə, başqasının qulluğuna, sanatoriya-kurort müalicəsinə, xüsusi nəqliyyat

[1] *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 210.

[2] *Brox H.* Allgemeines Schuldrecht. München. 1993, s. 384.

[3] Советское гражданское право. Учебник. Том 1 / Отв. ред. *В.П. Грибанов, С.М. Корнеев.* М., 1979, с. 522.

[4] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 362, 369.

[5] Belə bölgü Roma hüququna uyğun gəlir. Roma hüquqşünasları zərərin iki hissədən ibarət olması fikrini irəli sürürdülər. Birinci hissə «damnum emergens» (müsbət itkilər) adlanırdı. Bu, zərər çəkənin əmlakının azalmasını ifadə edirdi. İkinci hissə isə «lucrum cessans» (əldən çıxmış fayda) adlanırdı. Bu, normal şəraitdə, əgər hüquq pozulmasaydı, zərər çəkənin əmlakına daxil olmalı olan əmlakın itirilməsini, ondan məhrum olunmasını ifadə edirdi (bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik / *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 136-137).

vasitələri əldə edilməsinə və s. çəkilən xərclərdə ifadə olunur.

Real zərərə (itkiyə) zərərçəkənin **gələcəkdə çəkməli olduğu xərclər** də daxildir. Məsələn, yuxarıdakı misalda vətəndaşın yetirdiyi xəsarətin nəticələrini aradan qaldırmaq üçün qonşunun (zərərçəkənə) sanatoriya-kurort müalicəsinə getməsi tələb olunur. Şübhəsiz ki, bu halda putyovkanın alınması, sanatoriya-kurort yerinə getmək üçün gediş haqqının ödənilməsi və s. üçün xərclər çəkilməlidir. Deməli, putyovkanın alınması, gediş haqqının verilməsi və s. üçün qabaqcadan ödəniş həyata keçirilməsi zərurəti yaranır. Bu cür zərərə **gələcək zərər və ya abstrakt (mücərrəd) zərər** deyilir. Mücərrəd zərərə misal olaraq mal göndərmə müqaviləsi üzrə satıcının öhdəliyi icra etməməsi nəticəsində müqavilənin pozulması halını göstərmək olar (MM-in 645-ci maddəsinin 3-cü bəndi). Belə ki, satıcı malı göndərmir. Onun əvəzinə alıcı həmin malı başqasından almır. Alıcı bu halda malın müqavilədə müəyyənləşdirilmiş qiyməti ilə (məsələn, 1000 dollar) müqavilənin ləğv edildiyi məqamdakı cari qiymət (məsələn, 2000 dollar) arasındakı fərq şəklində (2000 dollar -1000 dollar =1000 dollar) zərərin əvəzinin ödənilməsini tələb edə bilər[1].

Real zərərə (itkiyə), ikincisi, **zərərçəkənin əmlakdan məhrum olması** aiddir. Bu, onu ifadə edir ki, zərərvuranın (borclunun) öhdəliyi icra etməməsi, ümumiyyətlə, hüquq pozuntusuna yol verməsi nəticəsində zərərçəkən (kreditor) malik olduğu əmlakı, daha doğrusu, bu əmlakın dəyərini itirir. Məsələn, yükdaşıma müqaviləsi üzrə daşıyıcı (nəqliyyat təşkilatı) yolda ikən yükü itirir. Belə halda yük göndərən (zərərçəkən) yükdən məhrum olur, yəni yükü itirir. Bu itki isə yükün dəyərində ifadə olunur. Başqa bir misalda kənd sakini sərxoş vəziyyətdə öz qonşusunun ot tayasına od vurub yandırır. Qonşu (zərərçəkən) bunun nəticəsində əmlakdan məhrum olur, ot tayasını itirir.

Real zərərə (itkiyə), üçüncüsü, **zərərçəkənin (kreditorun) malik olduğu əmlakın zədələnməsi** aiddir. Əmlakın zədələnməsi dedikdə, əmlakın fiziki xüsusiyyətlərinin elə bir dəyişməsi başa düşülür ki, bunun nəticəsində onun keyfiyyəti pisləşir. Belə halda əmlakdan təyinatına görə istifadə etmək mümkün olmur. Zədələnmə nəticəsində əmlakın dəyəri azalır. Məsələn, daşıyıcı daşıma müqaviləsi üzrə yükü təyinat yerinə çatdırarkən yükü zədələyir. Başqa bir misalda yüksək sürətlə yük maşınını idarə edən sürücü vətəndaşın küçədə dayanmış minik avtomobilini zədələyir. Bunun nəticəsində avtomobil sahibinə zərər vurulur ki, bu real zərər (itki) sayılır.

Zərərin (itkinin) ikinci növü, qeyd etdiyimiz kimi, əldən çıxmış fayda (gəlir) adlanır. **Əldən çıxmış fayda (gəlir)** dedikdə, zərərçəkənin (kreditorun) hüququ pozulmasaydı, onun adi mülki dövriyyə şəraitində əldə edə biləcəyi gəlirlər başa düşülür. Məsələn, istehsalçı (satıcı, mal göndərən) mal göndərmə müqaviləsi üzrə nəzərdə tutulan iki yüz ədəd soyuducunu univermağa göndərmir. Bunun nəticəsində univermaq əldən çıxmış fayda (gəlir) növündə zərərə (itkiyə) düşür. Başqa bir misalda kənd sakini dalaşma zəminində öz qonşusuna xəsarət yetirir və onun sağlamlığını pozur. Bunun nəticəsində zərər çəkən qonşu işə çıxmır və ala biləcəyi əmək haqqından məhrum olur. Başqa bir mi-

[1] Abstrakt (mücərrəd) zərər barədə bax: *S.S.Allahverdiyev.* Azərbaycan Respublikasının mülki hüququ. Dərslik. I nəşr II cild. Bakı. 2001, s. 125.

salda vətəndaşın sərnişin daşıyan avtomobili zədələnir. O, avtomobili təmir məqsədi ilə profilaktoriyaya qoyur. Bu halda təmir müddəti dövründə vətəndaş sərnişin daşıyıb pul qazanmaq imkanından məhrum olur. Bunun nəticəsində ona əldən çıxmış fayda (gəlir) növündə zərər (itki) vurulur. Şübhəsiz ki, vətəndaş avtomobilin təmirinə və bərpa olunmasına xərclər çəkir. Bu isə ona vurulmuş real zərəri (itkini) ifadə edir. Deməli, əldən çıxmış fayda (gəlir) dedikdə, əldə edilməsi güman edilən, qazanılması mümkün ola bilən qazancın və ya mənfəətin itirilməsi başa düşülür. Özü də bu cür qazancın və ya mənfəətin real olmasının müəyyən edilməsi əldən çıxmış faydanın miqdarının hesablanmasında böyük əhəmiyyəti vardır[1]. Əldən çıxmış faydanın əldə edilməsi imkanı subyektiv təsəvvür yox, real olmalıdır.

Elə təşkilati əlaqələr vardır ki, bu cür əlaqələri pulla ifadə edib qiymətləndirmək olmur. Lakin buna baxmayaraq, həmin təşkilati əlaqələrin pozulması subyektin əmlak sferasına mənfi təsir göstərir. Buna görə də o, əmək zərərinə aid edilir. Məsələn, yük daşımasının təşkili haqqında müqavilə üzrə yük göndərən yükü daşınma üçün müqavilədə nəzərdə tutulan müddətdə daşıyıcıya təqdim etmir. Bununla təşkilati əlaqələr pozulur. Bu isə bütün hallarda zərərin (itkinin) əmələ gəlməsinə səbəb olmur. Lakin buna baxmayaraq, mülki hüquqda bu cür zərər nəzərə alınır. Belə ki, pozuntu törədən şəxsin üzərinə dəbbə pulu ödənilməsi formasında məsuliyyət qoyulur.

Mülki qanunvericilik **mülki hüququn əsas prinsipini – zərərin (itkinin) əvəzinin tam həcmdə ödənilməsi prinsipini** müəyyənləşdirir. Bu prinsipə görə hüququ pozulmuş şəxs ona vurulmuş zərərin əvəzinin tam ödənilməsini tələb edə bilər (MM-in 21-ci maddəsinin 1-ci bəndi). Delikt nəticəsində fiziki şəxsin və hüquqi şəxsin əmlakına vurulmuş zərərin əvəzi zərərvuran tərəfindən tam həcmdə ödənilməlidir (MM-in 1097-ci maddəsinin 1-ci bəndi). Zərərin əvəzinin tam həcmdə ödənilməsi o deməkdir ki, hüququ pozulmuş şəxs (zərərçəkən) ona vurulmuş zərərin (itkinin) hər iki növünün – həm real zərərin, həm də əldən çıxmış faydanın əvəzinin ödənilməsini tələb edir. Məsələn, kənd sakini (kirayəçi) yay aylarında şəhərdəki bağ evini kirayəyə götürür. Taxtadan tikilmiş evin bir otağı kirayəçinin təqsiri üzündən yanır. Kirayəyə verən bağ evini bərpa-təmir etmək üçün zəruri xərc çəkir. Bu xərc real zərəri ifadə edir. Söz yox ki, ev təmir-bərpa olunduğu müddət ərzində kirayəyə verən kirayə haqqı almaq imkanından məhrum olur, bu imkanı itirir. Bu isə əldən çıxmış faydadır. Kirayəçi həm real zərəri, həm də əldən çıxmış faydanı ödəməlidir.

Bəzi hallarda mülki hüququn zərərin əvəzinin tam həcmdə ödənilməsi prinsipi məhdudlaşa bilər. Belə ki, müqavilədə və ya qanunda zərərin əvəzinin daha az miqdarda ödənilməsi nəzərdə tutula bilər (MM-in 21-ci maddəsinin 1-ci bəndi). Məsələn, qanunda göstərilir ki, daşıma müqaviləsi üzrə daşıyıcının məsuliyyəti yükün həqiqi qiyməti ilə məhdudlaşır («Nəqliyyat haqqında» qanunun 18-ci maddəsinin 3-cü bəndi). Bu halda daşıyıcı əldən çıxmış faydaya görə məsuliyyət daşımır[1].

Zərərin ikinci növü qeyri-əmlak zərəri adlanır. Bu zərər növü Almaniya hüquq doktrinasında «Nichtver mögensschaden» və ya «immaterieller» (qeyri-maddi zərər) anlayışı ilə əhatə olunur. Qeyri-maddi zərər əmlak dəyəri olmayan nemətlərə vurulan zərərdir. Bu cür nemətlərə aiddir: həyat; fiziki toxunulmazlıq; sağlamlıq; azadlıq; qeyri-maddi hüquqlar (patent hüquqları; müəlliflik hüquqları; əmtəə nişanına olan hüquqlar və s.); şəxsiyyət (Pesönlichkeit). Məhkəmə praktikası insanın şərəfinə edilən qəsdlərə xüsusi əhəmiyyət verir. Məhkəmə praktikası həm də sahibkarlıq fəaliyyətini müdafiə olunan və qorunan nemət kimi tanıyır. Buraya müəssisənin təsərrüfat qiyməti, sabitlik vəziyyəti, fəaliyyət sahəsi, istehlakçıların tərkibi və s. daxildir[2].

Qeyri-əmlak zərəri dedikdə, zərərvuranın (hüquq pozuntusu törədənin) davranışının elə bir nəticəsi başa düşülür ki, bu nəticə iqtisadi məzmuna və dəyər formasına malik olmur. Bu zərər iki yerə ayrılır:

- mənəvi zərər;
- fiziki zərər[3].

Mənəvi zərər qüvvədə olan qanunvericilikdə yeni haldır. Keçmiş SSRİ dövründə mülki qanunvericilik yalnız əmlak zərərini nəzərdə tutmuşdu. Mənəvi zərər anlayışı sovet qanunvericiliyi üçün yad idi. SSRİ qanunvericiliyi mənəvi zərərin əvəzinin əmlak formasında ödənilməsini müəyyən etmirdi. Belə hesab edilirdi ki, mənəvi zərərə düçar olan şəxs pul kompensasiyası tələb edə bilməz. Bu şəxs məsələni ya cinayət mühakimə qaydasında, ya da inzibati qaydada həll edə bilərdi. Lakin buna baxmayaraq, o dövrün sovet hüquq ədəbiyyatında mənəvi zərərin əvəzinin ödənilməsi və kompensasiya edilməsi barədə fikirlər səslənirdi[4]. 60-70-ci illərdə Y. Kalmıkov, M.Şiminova, N.Malein, A.Belyakova və digər tanınmış alimlərin əsərlərində mənəvi zərərin kompensasiya edilməsinin zəruriliyi vurğulanırdı. Həmin alimlər bunun üçün kifayət qədər tutarlı arqumentlər də gətirirdilər. Lakin, çox təəssüflər olsun ki, o dövrün qanunvericiliyi bu müəlliflərin inadlı təklifini nəzərə almadı. Yalnız 90-cı illərin əvvəllərindən başlayaraq mənəvi zərərin ödənilməsi barədə təkliflər qanunvericilikdə öz əksini tapdı. 1991-ci il tarixli SSRİ Mülki Qanunvericiliyinin Əsaslarının 131-ci maddəsi mənəvi zərərin əvəzinin ödənilməsi barədə qayda müəyyən etdi. Bunun ardınca, Azərbaycan Respublikasının «Kütləvi informasiya

[1] Zərərin (itkinin) həcminin təyin olunmasında iki sənədə istinad edilməsini məqsədəmüvafiq hesab edirik. Bu sənədlərdən biri «Təsərrüfat müqavilələrinin pozulması nəticəsində vurulan zərərin (itkinin) həcminin müəyyən edilməsinin müvəqqəti metodikası» adlanır. Həmin sənəd keçmiş SSRİ Nazirlər Sovetinin iqtisadi islahatlar üzrə Dövlət Komissiyası tərəfindən bəyənilmişdir (bax: Письмо госарбитража СССР от 28 декабря 1990 г // Хозяйство и право. 1991. №2, с. 19; БНА. 1991. №8, с. 3). İkinci sənədə bax: п. 10-12, 49-52 постановления Пленума Верховного Суда РФ и Пленума Высшего Арбитражного Суда РФ от 1 июля 1996 г. «О некоторых вопросах, связанных с применением части первой Гражданского кодекса Российский Федерации» // ВВС РФ. 1996. №9.

[1] bax: *S.S.Allahverdiyev*. Azərbaycan Respublikasının mülki hüququ. Dərslik. II cild. Bakı. 2001, s. 460.

[2] *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 389.

[3] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 446.

[4] bax: *Калмыков Ю.Х.* Возмещение вреда, причиненного имуществу. Саратов. 1965, с. 22; *Шиминова М.Я.* Имущественная ответственность за моральный вред // Советское государство и право. 1970. №1; *Малеин Н.С.* Возмещение вреда, причиненного личности. М., 1965; *Белякова А.М.* Возмещение причиненного вреда. М., 1972, с. 26-29.

vasitələri haqqında» (1992)[1], «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» (1994) iki qanunda bu qayda öz ifadəsini tapdı. «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında» qanun (1998) mənəvi zərər anlayışının əhatə dairəsini daha da genişləndirir. Hətta bu qanunda mənəvi zərərə (ziyana) anlayış da verilir: şəxsin barəsində mənfi fikrin formalaşmasına, onu əhatə edən şəxslərlə münasibətlərin pisləşməsinə gətirib çıxaran və digər mənəvi xarakterli mənfi nəticələr mənəvi ziyan hesab edilir (həmin qanunun 7-ci maddəsi). Lakin yeni MM mənəvi zərər anlayışına tərif vermir. Ümumiyyətlə, MM mənəvi zərər kateqoriyasını işlətmir[2]. Bu, onun qüsurlu cəhətidir.

Mənəvi zərərin nisbətən dolğun, müfəssəl və ətraflı anlayışı RF-in Ali Məhkəməsi Plenumunun 20 dekabr 1994-cü il tarixli 10 saylı qərarında verilmişdir[3]. Buna əsasən hüquq ədəbiyyatında mənəvi zərərə tərif verilir. **Mənəvi zərər dedikdə, vətəndaşın qeyri-maddi nemətlərinə qəsd edən və ya onun şəxsi qeyri-əmlak hüquqlarını pozan və yaxud da ki vətəndaşın əmlak hüquqlarını pozan hərəkətlərlə (hərəkətsizliklə) vətəndaşa verilən mənəvi və ya fiziki iztirab (əzab-əziyyət, sarsıntı) başa düşülür**. Belə anlayış Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenum qərarında da verilir. **Qeyri-maddi nemətlər** dedikdə, vətəndaşın həyatı, sağlamlığı, işgüzar nüfuzu, şərəf və ləyaqəti, şəxsi həyatının toxunulmazlığı, şəxsi və ailə sirri və s. başa düşülür. **Şəxsi qeyri-əmlak hüquqlarına** vətəndaşın öz adından istifadə hüququ, müəlliflik hüququ və s. aiddir. **Əmlak hüquqları** dedikdə, istehlakçıların hüquqları başa düşülür ki, bu, «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» qanunda nəzərdə tutulmuşdur[4]. Məsələn, istehlakçı (alqı-satqı müqaviləsi üzrə alıcı, daşıma müqaviləsi üzrə sərnişin, podrat müqaviləsi üzrə sifarişçi, icarə müqaviləsi üzrə icarəçi, kirayə müqaviləsi üzrə kirayəçi və s.), əgər istehlak etdiyi mal (iş, xidmət) lazımi keyfiyyətdə olmazsa, onda o dəymiş mənəvi zərərin əvəzinin ödənilməsini tələb edə bilər («İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» qanunun 12-ci maddəsi).

Mənəvi zərərə çoxlu misallar çəkmək olar. Məsələn, jurnalist mətbuatda alimin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar yayır. Alimə mənəvi zərər vurulur. Pasiyent həkimin həkim sirrinin üstünü açır. Bununla həkim mənəvi zərərə düşür. Müəllim əsassız olaraq imtahan götürmək hüququndan məhrum edilir. Belə halda müəllim mənəvi zərərə düçar olur. Satıcı alıcıya televiziya vasitəsilə verilən reklamdakı məlumatlara uyğun gəlməyən keyfiyyətsiz mal satır. Alıcıya mənəvi zərər vurulur. Həkim məlumat yayır ki, onun pasiyenti impotentdir (yəni cinsi gücdən məhrumdur) və buna görə də övladı olmur. Bununla pasiyentin ailə-şəxsi sirri açılır və ona mənəvi zərər vurulur və s.

Mənəvi zərər birbaşa maddi itkiyə səbəb olmur. Bu cür zərər özlüyündə mülki-hüquqi (əmlak) üsulla kompensasiya edilmir və yaxud dəqiq olaraq pulla qiymətləndirilmir. Amma buna baxmayaraq mənəvi zərər əmlak zərərinə səbəb ola bilər. Məsələn, jurnalist şəxsin şərəf və ləyaqətini ləkələyən yalan, doğru olmayan məlumatlar yayır. Bundan sarsılan, mütəəssir olan və iztirab keçirən həmin şəxs bərk xəstələnir, işə çıxmır, müalicəyə pul xərcləyir və bununla zərərə düşür.

Almaniya hüquq doktrinasında «mənəvi zərər» anlayışı işlədilmir. Bu anlayışa nisbətən yaxın olan «Schmerzensgeld» kateqoriyasından istifadə olunur. Lakin həmin kateqoriyanı Azərbaycan dilinə «mənəvi zərər» kimi tərcümə etmək olmaz[1]. Almaniya MQ-nin 847-ci paraqrafında nəzərdə tutulan Schmerzensgeld qeyri-maddi (mənəvi) zərərin ədalətli surətdə pulla kompensasiyası (əvəz ödəməsi) barədə tələbin əsasıdır[2]. Həmin paraqraf qeyri-maddi (mənəvi) zərər üzrə yalnız bəzi deliktləri tənzim edir.

Qeyri-əmlak zərərinin ikinci növü fiziki zərər adlanır. **Fiziki zərər** dedikdə, fiziki şəxslərə fiziki ağrılar verilməsi başa düşülür. RF Ali Məhkəməsi Plenumunun qərarında verilən anlayış fiziki zərəri mənəvi zərər anlayışı ilə əhatə edir. Hüquq ədəbiyyatında da bu cür hala rast gəlmək olur[3]. Fiziki zərəri mənəvi zərərə şamil etmək həqiqətə uyğun gəlmir və inandırıcı deyil. Mənəvi zərər mənəvi iztirabla, fiziki zərər isə fiziki ağrılarla bağlı olur.

Fiziki zərər **çox vaxt əmlak itkisinə səbəb olur**. Məsələn, zərər vuranın yetirdiyi şikəstlik işçinin əmək qabiliyyətinin itirilməsinə səbəb olur. O, işə çıxmır və əmək fəaliyyəti ilə məşğul olmur. Bununla zərərçəkən qazancdan (əmək haqqından) məhrum olur. Bundan başqa, o, fiziki şikəstliyi aradan qaldırmaq üçün müalicəyə, dava-dərman alınmasına, qidalanmaya əlavə xərclər çəkir. Bu cür zərərin əvəzi əmlak zərərinin (itkisinin) kompensasiyası vasitəsi ilə ödənilir.

4. Hüquqazidd davranış (əməl) mülki hüquq məsuliyyətinin şərti kimi

Mülki hüquq məsuliyyətinin şərtlərindən biri hüquqazidd davranış (əməl) adlanır. **Hüquqazidd davranış (əməl) odur ki, bu cür davranış (əməl) obyektiv hüquq normaları və başqa şəxslərin subyektiv hüquqları ilə ziddiyyət təşkil edir**. Deməli, əməlin (davranışın) hüquqazidd olmasını müəyyənləşdirmək üçün iki şərtin olması zəruridir:

- birinci şərtə görə, davranış (əməl) **obyektiv hüquq normasını pozmalıdır**;
- ikinci şərtə görə, davranış (əməl) **subyektiv hüququ pozmalıdır**[4].

Obyektiv hüquq normasının pozulması dedikdə, hüquqi aktın (mülki qa-

[1] Bu qanun qüvvədən düşmüşdür. Hazırda «Kütləvi informasiya vasitələri haqqında» yeni qanun (2000-ci il) tətbiq edilir (AR QK, III xüsusi buraxılış, s. 367).

[2] Konstitusiya Məhkəməsi öz qərarında göstərir ki, MM-in 23-cü maddəsində nəzərdə tutulmuş zərər anlayışına daxildir: şərəfin, ləyaqətin və işgüzar nüfuzun ləkələnməsi ilə bağlı şəxsə dəymiş mənəvi zərər; maddi zərər // «Qanun» jurnalı, №6-7, s. 96.

[3] bax: n. 2 постановления «Некоторые вопросы применения законадательства о компенсации морального вреда» (Бюллетень ВС РФ, 1995. №3, с. 9).

[4] bax: AR QK, II cild, s. 548.

[1] «Schmerzensgeld» Azərbaycan dilinə hərfən «ağrıya, incitməyə görə pul» kimi tərcümə olunur (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 368).

[2] *Schlechtreim P.* Schuldrecht. Beson derer Teil. Tübingen: Morh Siebeck. 1998. s. 208-209.

[3] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 443.

[4] Dövlət və hüquq nəzəriyyəsində «obyektiv hüquq» və «subyektiv hüquq» barədə anlayışları xatırlayaq.

nunvericilik aktının) pozulması başa düşülür. **Subyektiv hüququn pozulması** dedikdə isə konkret subyektin malik olduğu hüququn pozulması başa düşülür. Məsələn, kənd sakini tikinti təşkilatına Novxanı bağlarında ev tikməyi sifariş edir. Podratçı (tikinti təşkilatı) keyfiyyətsiz (qüsurlu) iş görür. Bununla o, Mülki Məcəllənin 762-ci maddəsinin tələblərini pozur. Belə ki, bu maddədə ifadə olunan göstərişə görə, podratçı işi qüsursuz və keyfiyyətli icra etməyə borcludur. Beləliklə, podratçı obyektiv hüquq normasını pozur. O, həm də sifarişçinin (kənd sakininin) subyektiv hüququnu pozur. Müqavilə öhdəliklərinin lazımınca icra edilməməsi həm obyektiv hüquq normasını, həm də müvafiq tərəfin subyektiv hüquqlarını pozur. Ona görə də əməlin hüquqazidd olmasına dəlalət edən iki şərtin, yəni obyektiv hüquq normasının və subyektiv hüququn pozulmasını əsas kimi qəbul edən müəlliflərin fikirləri ağlabatan və inandırıcıdır[1]. Yalnız bu iki şərt əsasında əməlin hüquqazidd əməl olması müəyyənləşdirilə bilər. Bəzi müəlliflər isə əməlin hüquqazidd sayılması üçün təkcə obyektiv hüquq normasının pozulmasının kifayət etdiyini göstərirlər ki, bu cür mövqe həqiqətdən uzaqdır və məsələyə birtərəfli yanaşmanı ifadə edir[2]. Belə ki, bu müəlliflər subyektiv hüququn pozulması şərtini nəzərə almırlar. Bəzi müəlliflər isə əməlin hüquqazidd sayılması üçün subyektiv hüququn pozulmasını əsas kimi götürürlər[3]. Bu cür mövqe də həqiqətə uyğun gəlmir. Əsas və həqiqətə uyğun ümumi qayda ondan ibarətdir ki, əməlin hüquqazidd sayılması üçün yuxarıda göstərdiyimiz hər iki şərtin mövcudluğu zəruridir.

Bununla bərabər, bəzi hallarda göstərilən bu cür ümumi qaydadan istisnaya yol verilir. Belə ki, həyatda yaranan bəzi məqamlarda vətəndaşın (subyektin) subyektiv hüququnun pozulmasına baxmayaraq, əməl (davranış) hüquqazidd əməl kimi qəbul edilmir və vurulmuş zərərin əvəzi ödənilmir. Ona görə ki, bu halda obyektiv hüquq norması pozulmur. Məsələn, zəruri müdafiə və son zərurət vəziyyətində subyektin subyektiv hüququ pozulur, amma obyektiv hüquq norması pozulmur. Obyektiv hüquq, yəni mülki qanunvericilik müəyyən edir ki, hüquqauyğun hərəkətlə vurulmuş zərərin əvəzi, əgər qanunda nəzərdə tutulmazsa, ödənilmir. **Zəruri müdafiə və son zərurət vəziyyətində edilən** hərəkətlər hüquqa uyğundur, yəni hüquqazidd hesab edilmir (MM-in 563-cü və 564-cü maddələri). Özünəyardım hərəkəti də hüquqauyğun sayılır və buna görə də həmin hərəkətlə vurulmuş zərərin əvəzi ödənilmir (MM-in 565-ci maddəsi).

[1] bax: *Агарков М.М.* Обязательство по советскому гражданскому праву. М., 1940, с. 140; Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева*. М., 1999, с. 181; Гражданское право. Учебник. Том 2. Полутом 2 / Под ред. *Е.А.Суханова*. М., 2000, с. 374; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 444; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 427.

[2] bax: *Смирнов В.Т., Собчак А.А.* Общее учение о деликтных обязательствах в советском гражданском праве. Л., 1983, с. 64; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Ю.К.Толстого, А.П.Сергеева*. М., 1997, с. 536; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 440; Гражданское право. Учебник. Часть 2. М., 1938, с. 390; Советское гражданское право. Учебник для юридических школ. М., 1950, с. 516. Yeri gəlmişkən, qeyd edək ki, bu sətirlərin müəllifi dərsliyin 2-ci cildində (I nəşr) bu mövqeləri qarışıq salır və səhvə yol verir (s. 724).

[3] bax: *Кофман В.И.* Соотношение вины и противоправности в гражданском праве // Правоведение. 1957. №1, с. 65-76.

Bəzi ixtisaslar üzrə **şəxslərin öz professional funksiyasını – əmək vəzifəsini icra edərkən digərlərinin subyektiv hüququnu pozması halı da hüquqauyğun əməl olub, hüquqazidd deyildir**. Məsələn, yanğından mühafizənin şəxsi heyəti yaşayış evində baş vermiş yanğını söndürərkən mebeli zədələyir və o, istifadə üçün yararsız hala düşür. Bu davranış hüquqazidd hesab edilmir. Ona görə ki, həmin davranış obyektiv hüquq normasını pozmur. Obyektiv hüquqa görə, yəni «Yanğın təhlükəsizliyi haqqında» qanuna görə yanğından mühafizənin şəxsi heyəti öz əmək vəzifələrini yerinə yetirərək yanğını söndürərkən əmlaka zərər vurarlarsa, onların hərəkəti hüquqazidd olmayıb, hüquqa uyğundur (həmin qanunun 18-ci maddəsi)[1]. Başqa bir misalda heyvanların xüsusi təhlükəli xəstəlik mənbələrini ləğv etmək üçün Baş Dövlət Baytar müfəttişi qərar verir ki, heyvandarlıq məhsulları məhv edilsin. Müfəttişin bu cür davranışı hüquqazidd olmayıb, hüquqa uyğundur («Baytarlıq təbabəti haqqında» qanunun 17-ci maddəsi)[2]. Belə halda da obyektiv hüquq norması pozulmur.

Əgər zərər, zərərçəkənin xahişi və ya razılığı ilə vurularsa, onda zərərvuranın hərəkəti hüquqazidd yox, hüquqauyğun davranış hesab edilir. Belə halda vurulan zərərin əvəzi ödənilmir (MM-in 1097-ci maddəsinin 5-ci bəndi). Məsələn, transplantasiya məqsədi ilə insan toxumaları və orqanları zərərçəkənin razılığı ilə tibbi göstərişlər əsasında götürülərsə, həkimin əməli hüquqazidd hesab edilmir («Əhalinin sağlamlığının qorunması haqqında» qanunun 48-ci maddəsi)[3]. Tibbi sterilizasiya (yəni insanı nəsil artımı vermək qabiliyyətindən məhrum edən, yaxud qadını hamiləlikdən qoruyan tibbi əməliyyat) zərərçəkənin yazılı ərizəsi və tibbi göstərişlərə əsasən həyata keçirilərsə, həkimin davranışı hüquqazidd yox, hüquqauyğun əməl sayılır («Əhalinin sağlamlığının qorunması haqqında» qanunun 31-ci maddəsi). Göstərilən hallarda obyektiv hüquq, yəni MM-in, «Əhalinin sağlamlığının qorunması haqqında» qanununun göstərişləri pozulmur. Lakin evtanaziya əməli (yəni xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmək, həyatın davam etməsinə kömək edən süni tədbirlərin dayandırma) bütün hallarda hüquqazidd əməldir. Obyektiv hüquq – qanun bu cür əməli qadağan edir. Xəstəni evtanaziya edən şəxsin əməli hüquqa ziddir.

Bundan əlavə, **subyektin qanunda və ya digər hüquqi aktda nəzərdə tutulan həddə öz hüquqlarını həyata keçirməsi də hüquqazidd əməl sayılmır**. Məsələn, mülkiyyətçi özünə məxsus olan bağ evini tamamilə sökür. Avtomobil sahibi avtomobili hissələrə ayıraraq qaraja yığır. Bu cür hallarda mülkiyyətçinin davranışını hüquqauyğun olmayan davranış hesab etmək olmaz.

Hüquqazidd davranış iki formada ifadə olunur:

- hərəkət formasında;
- hərəkətsizlik formasında.

Hərəkət formasında hüquqazidd davranış borclunun öhdəliyi lazımınca icra etməməsində, fiziki şəxsin başqasına xəsarət yetirməsində, əmlakı zədələməkdə, əşyanı xarab etmədə və s. ifadə olunur. Məsələn, mal göndərən

[1] bax: AR QK, III cild, s. 454.

[2] bax: AR QK, II cild, s. 259.

[3] bax: AR QK, III cild, s. 806.

(satıcı) mal göndərmə müqaviləsi üzrə alıcıya qüsurlu (lazımi keyfiyyətdə olmayan) mal göndərir. **Hərəkətsizlik formasında hüquqi davranış** isə hüquqi aktda və ya müqavilədə ifadə olunan müəyyən göstərişdən çəkinmədə ifadə olunur. Məsələn, podratçı podrat müqaviləsinin icrasına başlamır.

Mülki hüquqda **zərərvuran aktın hüquqazidd olması prezumpsiyası** qüvvədədir, yəni əksi sübut edilənə kimi, zərərvuran akt hüquqazidd hesab edilir. Pozuntu törədən şəxs (zərərvuran) bu prezumpsiyanı təkzib edə bilər. Belə ki, o, zərərvuran hərəkətlər etməsinə ixtiyarı çatması barədə sübutlar gətirə bilər. Məsələn, yanğın söndürənlər yaşayış evində yanğın baş verərkən mebeli su ilə xarab edirlər. Yanğın söndürənlər sübut edirlər ki, qanunda onların bu cür hərəkət etmək hüququ nəzərdə tutulmuşdur.

5. Səbəbli əlaqə mülki hüquq məsuliyyətinin şərti kimi

Səbəbli əlaqə mülki hüquq məsuliyyətinin üç şərtindən biridir. **Səbəbli əlaqə dedikdə, zərərvuranın hüquqazidd davranışı ilə zərər arasında bağlılıq başa düşülür**. Borclunun öhdəliyi icra etməməsi, yəni hüquqazidd davranışı ilə kreditora dəymiş zərər arasında səbəbli əlaqə mövcud olmalıdır. Əgər bu cür əlaqə olarsa, onda borclu kreditora dəymiş zərərin əvəzini ödəyir. Qanun müəyyən edir ki, öhdəliyi icra etməyən borclu kreditora dəymiş zərərin əvəzini ödəməyə borcludur (MM-in 443-cü maddəsinin 1-ci bəndi). Bundan əlavə, ziyan vurmaq nəticəsində əmələ gələn öhdəliklərə (delikt öhdəliklərinə) münasibətdə qanun nəzərdə tutur ki, zərərin əvəzi zərərvuran tərəfindən ödənilir (MM-in 1097-ci il maddəsinin 1-ci bəndi). Əgər müvafiq zərər həmin şəxs tərəfindən vurulmamışsa, zərərin əvəzinin ödənilməsindən söhbət gedə bilməz. Deməli, **zərərvuran şəxsi mülki hüquq məsuliyyətinə cəlb etmək üçün zəruridir ki, səbəbli əlaqənin mövcudluğu müəyyənləşdirilsin**. Çox vaxt bu cür əlaqəni müəyyən etmək çətin bir işə çevrilmir. Məsələn, podratçı podrat müqaviləsi üzrə nəzərdə tutulmuş yaşayış evini tikmir. Daşıyıcı daşıma müqaviləsi üzrə yükü təyinat yerinə çatdırmır və s.

Bəzi hallarda isə səbəbli əlaqə haqqında məsələni həll etmək mürəkkəb bir işə çevrilir. Belə ki, bu cür hallarda hansı səbəbli əlaqənin hüquqi əhəmiyyət kəsb etməsini, konkret işin həllində nəzərə alınmasını müəyyənləşdirmək olduqca çətinləşir. Ona görə ki, ardıcıl olaraq inkişaf edən hadisələr bir-biri ilə zəncir kimi əlaqədə olur. Hadisələr arasında ümumi əlaqə və bağlılıq mövcuddur. Bu bağlılıq şəraitində hadisələr içərisindən müvafiq nəticənin əmələ gəlməsinə səbəb olan hadisəni seçib ayırmağın və müəyyənləşdirməyin vacib hüquqi əhəmiyyəti vardır. Məsələn, xəstə keyfiyyətsiz dərmandan, xroniki xəstəlikdən, yaxud tibb alətinin dezinfeksiya olunmamasından ölə bilər. Belə hallarda xəstənin ölümünə səbəb olan hadisəni konkret və dəqiq olaraq müəyyənləşdirməyin mülki-hüquqi məsuliyyət üçün mühüm rolu vardır.

Sivilistika elmində neçə müddətdir ki, səbəbli əlaqə haqqında məsələni həll etməyə təşəbbüs və cəhd göstərilir. Bu məqsədlə **bir neçə səbəbli əlaqə nəzəriyyəsi** işlənib hazırlanmışdır. Özü də əvvəlcədən qeyd edirik ki, bu nəzəriyyələrdən hər birinin özünün həm zəif, həm də güclü cəhətləri vardır[1]. Həmin

[1] bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 2 // Гражданское право. Избранные труды. М., 2000, с. 486.

nəzəriyyələrdən hansının üstün olması fikrini söyləmək də düzgün olmazdı. Əsas odur ki, bu nəzəriyyələrdən düzgün istifadə edib, pozuntu törədən şəxsi (zərərvuranı) məsuliyyətə cəlb etmək üçün lazım olan və kifayət edən, hüquqi əhəmiyyətə malik olan səbəbli əlaqəni tapmaq mümkün olsun. Həmin nəzəriyyələrə aiddir:

- birbaşa və dolayı səbəbli əlaqə nəzəriyyəsi;
- zəruri şərt nəzəriyyəsi;
- imkan və gerçəklik nəzəriyyəsi;
- zəruri və təsadüfi səbəbli əlaqə nəzəriyyəsi[1].

Birbaşa və dolayı səbəbli əlaqə nəzəriyyəsi «birbaşa səbəbli əlaqə» və «dolayı səbəbli əlaqə» kimi iki növ səbəbli əlaqənin bir-birindən ayrılmasına və fərqləndirilməsinə, onların arasında hədd qoyulmasına əsaslanır. Əgər hadisələr zəncirində (həlqəsində) şəxsin hüquqazidd davranışı ilə zərər (itki) arasında hüquqi əhəmiyyət kəsb edən hər hansı hal mövcud olmazsa, onda **birbaşa səbəbli əlaqə** yaranır. Birbaşa səbəbli əlaqə onu ifadə edir ki, zərərli nəticə (zərər) birbaşa (bilavasitə) zərərvuranın (pozuntu törədənin) davranışından əmələ gəlir. Ona görə də bu cür səbəbli əlaqəyə həm də **bilavasitə səbəbli əlaqə** deyilir. Beləliklə, birbaşa səbəbli əlaqə şəxsin hüquqazidd davranışının zərərin (nəticənin) səbəbi kimi çıxış etməsini və həmin davranışın bu zərərlə birbaşa (bilavasitə) bağlı olmasını nəzərdə tutur. Məsələn, sürücü küçədən keçən sərxoşu vurur. Onun hüquqazidd davranışı ilə zərər arasında bilavasitə (birbaşa) səbəbli əlaqə mövcuddur. Başqa bir misalda mal göndərmə müqaviləsi üzrə mal göndərən (satıcı) alıcıya lazımi keyfiyyəti olmayan mal göndərir və bununla zərər vurur (keyfiyyəti yoxlamaq xərcləri, həmin malı saxlamaq xərcləri və s.). Mal göndərənin hüquqazidd davranışı ilə zərər arasında birbaşa səbəbli əlaqə vardır. Podratçı podrat müqaviləsi üzrə sifariş edilmiş işi özünün keyfiyyətsiz materiallarından görür və sifarişçiyə zərər vurur. Belə halda da podratçının hüquqazidd davranışı ilə zərərli nəticə arasında səbəbli əlaqə mövcuddur.

Dolayı səbəbli əlaqə o halda mövcud olur ki, səbəb zərərli nəticəni hər hansı bir halın vasitəsilə yaradır. Belə ki, zərərin meydana gəlməsinə müəyyən vasitə ilə imkan yaradılır. Ona görə də bu cür səbəbli əlaqəni **vasitəli səbəbli əlaqə** də adlandırırlar. Zərərin yaranmaq imkanı faktiki olaraq ya təbii səbəblərlə (məsələn, qarşısıalınmaz qüvvə ilə), ya zərərçəkənin davranışı ilə, ya da üçüncü şəxsin hərəkəti ilə gerçəkləşdirilir. Başqa sözlə desək, şəxsin hüquqazidd əməli ilə zərər arasında vasitə mövcud olarsa, dolayı səbəbli əlaqə göz qabağındadır. Məsələn, balıq tutmaqla məşğul olan müəssisənin işçisi tilovu icazə olmadan brakonyerə satır. Brakonyer bu tilovdan istifadə etməklə qanunsuz olaraq balıq tutur. Bununla o, balıq ehtiyatlarına zərər vurur. İşçinin davranışı ilə zərər arasında dolayı səbəbli əlaqə vardır. Başqa bir misalda içərisində mal olan şüşə butulkaların qoyulduğu yeşikləri yük göndərən vaqonla-

[1] Göstərilən nəzəriyyələrin əsas cəhətləri nəzərdən keçirilmişdir: *Новицкий И.Б., Лунц Л.А.* Общее учение об обязательстве. М., 1950, с. 305; *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 2 // Гражданское право. Избранные труды. М., 2000, с. 480-487; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Ю.К.Толстого, А.П.Сергеева*. М., 1997, с. 538-543.

ra yükləyərkən yükləmə qaydalarını pozur. Yolda ikən yeşiklər aşır və şüşə butulkalar sınır. Bununla zərər vurulur. Amma daşıma müqaviləsi üzrə daşıyıcı öz vəzifəsini lazımınca edir. Belə təsəvvür yaranır ki, yük göndərənin hərəkəti ilə zərərin əmələ gəlmə imkanı daşıyıcı tərəfindən gerçəkləşir. Yük göndərənin davranışı ilə zərər arasında dolayı səbəbli əlaqə mövcuddur. Şəxsin hüquqazidd davranışı ilə zərər arasında dolayı səbəbli əlaqənin olması onu ifadə edir ki, həmin davranış konkret halın, həm də hüquqi cəhətdən əhəmiyyətli olan səbəbli əlaqənin hüdudlarından kənarda olur.

Zəruri şərt nəzəriyyəsi hüquqi cəhətdən əhəmiyyətli olan səbəbli əlaqə haqqında məsələnin həllinin təqsirdən və hüquqazidd davranışdan asılı olmasını nəzərdə tutur. Bununla səbəb-nəticə əlaqələrinin zənciri bu cür iki subyektiv meyarın (yəni təqsir və hüquqazidd davranışın) köməyi ilə məhdudlaşdırılır. Bu nəzəriyyə öz mənbəyini cinayət hüququndan götürmüşdür.

Zəruri şərt nəzəriyyəsinin iki variantı vardır. Birinci variantın tərəfdarları göstərirlər ki, «zərərin hər hansı bir şəxs tərəfindən vurulmasını sübut etmək şəxsin zərər vurulmasının səbəblərindən biri olmasını sübut etməkdir»[1], yəni bu halda **şəxsin təqsiri zərərin səbəbi kimi** götürülür. İkinci variantın tərəfdarları isə qeyd edirlər ki, «baş verən hadisələr zəncirindən hansı həlqənin zərərin səbəbi olmasını müəyyənləşdirmək üçün hər bir hadisəni ayrıca olaraq nəzərdən keçirmək lazımdır və əgər hadisə zərər vurulmasına əsas olarsa, onda həmin hadisə də zərərin səbəbi olacaqdır»[2], yəni bu halda **hüquqazidd davranış zərərin səbəbi kimi götürülür**. Məsələn, bu variantın tərəfdarlarından olan V.M.Volfson belə bir misal çəkir: vətəndaş tramvayın altında qalaraq ayağını itirir. Əgər zərərçəkənə normal tibbi xidmət göstərilərsə, onda o, ölməyəcək və yalnız əmək qabiliyyətini itirəcək[3]. Əgər həkim aləti normal dezinfeksiya etməsə, onda zərərçəkən vətəndaş həyatdan məhrum olar. Bu halda zərərçəkənin ölümünün və onun ailəsinə vurulan zərərin səbəbi həkimin hərəkəti olacaqdır. Müəllif burada tramvay sürücüsünün yox, həkimin hərəkətini zərərin səbəbi kimi qəbul edir. Əgər həkim qaydalara düzgün əməl etməklə hərəkət edərsə, onda sürücünün hərəkəti zərərin səbəbi kimi götürülməlidir.

Zəruri şərt nəzəriyyəsinin birinci variantı (təqsirin zərərin səbəbi kimi qəbul edilməsi barədə variant) birtərəfli konsepsiyadır. Ona görə ki, bu variant təqsirsiz məsuliyyət halında səbəbli əlaqəni axtarmaq yolunu bağlayır. Belə ki, mülki hüquqda təqsirdən asılı olmayaraq məsuliyyətə yol verilir, yəni təqsir olmayan bəzi hallarda da şəxs məsuliyyətə cəlb edilə bilər. İkinci variant isə hər bir faktiki halda zərərin həlledici səbəbinin axtarılmasını nəzərdə tutur[4].

Keçən əsrin 50-ci illərinin ortalarında O.S.İoffe tərəfindən imkan və gerçəklik nəzəriyyəsi irəli sürülür[5]. Bu nəzəriyyə «zəruri və təsadüfi səbəbli əlaqə» nəzəriyyəsinə uyğun olaraq yaradılmışdır. Həmin nəzəriyyənin əsasını imkan

[1] bax: *Раевич С.И.* Комментарий к ст. 403 ГК РСФСР 1922 г. // В кн: Гражданский кодекс РСФСР. Комментарий. Вып 3. М., 1924. п. 8.

[2] bax: *Вольфсон В.М.* Учебник гражданского права РСФСР. М, 1927, с. 104.

[3] yenə orada.

[4] Hər iki variantın tənqidi təhlili verilmişdir: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 2 // Гражданское право. Избранные труды. М., 2000, с. 481-482.

[5] bax: *Иоффе О.С.* Ответственность по советскому гражданскому праву. Л., 1955, с. 219-235; Обязательственное право. М., 1975, с. 113-128.

və gerçəklik kimi fəlsəfi kateqoriyalar təşkil edir.

İmkan və gerçəklik nəzəriyyəsinə görə, müəyyən bir fakt yalnız hüquqazidd nəticənin əmələ gəlməsinə imkan yaradır, o biri fakt isə bu imkanı gerçəkliyə çevirir. İmkanı gerçəkliyə çevirən fakt həmişə zərərli nəticə ilə əlaqədə olur. Zərərli nəticənin əmələ gəlməsinə imkan yaradan fakt isə zərərli nəticə ilə hüquqi əhəmiyyətli səbəbli əlaqədə ola da bilər, olmaya da. Əgər şəxsin davranışı ilə konkret imkan yaranarsa, onda şəxsi məsuliyyətə cəlb etmək üçün kifayət edən səbəbli əlaqə mövcud olur. Əgər şəxsin davranışı ilə zərərli nəticənin əmələ gəlməsinə abstrakt imkan yaradılarsa, onda hüquqi əhəmiyyətli səbəbli əlaqənin olmamasına görə mülki hüquq məsuliyyəti istisna edilir[1].

Göstərilən bu nəzəriyyə hüquq ədəbiyyatında kəskin tənqid edilmişdir[2]. Bəzi müəlliflərin fikrincə, imkan və gerçəklik nəzəriyyəsi təsadüf və zərurət nəzəriyyəsindən, demək olar ki, fərqlənmir. Digər müəlliflərin fikrincə, imkan və gerçəklik nəzəriyyəsi tipik səbəbiyyət nəzəriyyəsinə qayıtmaq deməkdir. Üçüncü mövqeyə görə, təsadüf və zərurət kateqoriyası kimi imkan və gerçəklik kateqoriyası da hüquqi əhəmiyyətli səbəbli əlaqə problemini həll edə bilmir.

40-cı illərdə səbəbiyyət problemi barədə elmi baxışlarda ciddi dönüş yarandı. Bu dönüş əvvəlcə cinayət hüquq ədəbiyyatında hiss olundu. Sonra isə o, mülki hüquq sahəsində yayıldı. Beləliklə, zəruri və təsadüfi səbəbli əlaqə nəzəriyyəsi yarandı. Onu kriminalistlər işləyib hazırlamışdı[3]. Sonradan həmin nəzəriyyəni mülki hüquq üzrə bir çox sovet alimləri dəstəklədi[4].

Zəruri və təsadüfi səbəbli əlaqə nəzəriyyəsinə görə, mülki hüquq məsuliyyətinin yaranması üçün hüquqazidd davranış ilə nəticə arasında zəruri səbəbli əlaqə olmalıdır. Təsadüfi səbəbli əlaqə isə əmələ gələn zərərli nəticəyə görə şəxsi mülki hüquq məsuliyyətinə cəlb etmək üçün əsas vermir. Belə ki, əgər təsadüfi səbəbli əlaqə olarsa, onda hüquqi məsuliyyətə cəlb olunmaq üçün yetərli olan obyektiv şərt mövcud olmur.

Biz səbəbli əlaqə haqqında mövcud olan nəzəriyyələri geniş təfsilatı ilə təhlil etmək niyyətində deyilik. Qeyd etmək lazımdır ki, bu nəzəriyyələr arasında prinsipial fərqlər yoxdur. Onlar bir-biri ilə ziddiyyət təşkil etmir, əksinə, biri digərini tamamlayır. Bu nəzəriyyələrdən heç biri çoxsaylı konkret hallar üzrə hü-

[1] Bu nəzəriyyənin əsas cəhətləri ilə tanış olmaq üçün bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 2 // Гражданское право. Избранные труды. М., 2000, с. 484; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1997, с. 542-543.

[2] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.А.Рясенцева.* М., 1965, с. 518-519; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова.* М., 1985, с. 489-490; Гражданское право. Учебник. Том 1 / Под ред. *П.Е.Орловского* и *С.М. Корнеева.* М., 1969, с. 534; *Матвеев Г.К.* Основания гражданской ответственности. М., 1970, с. 88.

[3] Уголовное право. Общая часть / Под ред. *А.А.Пионтковского.* М., 1948, с. 304; *Шаргородский М.Д.* Причинная связь в уголовном праве // Учен. труды ВИЮН. 1947. Вып. 10.

[4] bax: *Антимонов Б.С.* Значение вины потерпевшего при гражданском правонарушении. М., 1950, с. 132-203; *Новицкий И.Б., Лунц Л.А.* Общее учение об обязательстве. М., 1950, с. 300-319; *Флейшиц Е.А.* Обязательства из причинения вреда и из неосновательного обогащения. М., 1951, с. 52-72; *Матвеев Г.К.* Вина в советском гражданском праве. Киев. 1955, с. 51-96; *Тархов В.А.* Ответственность по советскому гражданскому праву. Саратов. 1973, с. 108-136.

quqi əhəmiyyətli səbəbli əlaqəni müəyyən etməyin «dəqiq formul»unu və «düsturu»nu vermir. Lakin onlar səbəbiyyət haqqında ümumi nəzəriyyənin inkişafına təkan verir.

Səbəbli əlaqə fəlsəfi kateqoriyadır. Səbəbiyyət haqqında ümumi fəlsəfi nəzəriyyə mövcuddur. Bu, səbəbiyyət nəzəriyyəsi adlanır. Həmin nəzəriyyəyə görə, obyektiv dünyada səbəbsiz nəticə yoxdur. Gerçəklikdə cisim və hadisələr arasında səbəb-nəticə əlaqəsi mövcuddur: səbəbi olmayan heç bir nəticə, nəticə ilə bağlı olmayan heç bir səbəb yoxdur. Onlar dialektik vəhdətdə olub, qarşılıqlı əlaqədədir. Səbəb nəticəni doğurur. Lakin nəticə passiv deyil. O, öz səbəbinə təsir göstərir. Səbəblə nəticə arasında daxili qanunauyğun əlaqə vardır. Hadisələrin səbəbli əlaqəsi obyektiv xarakter daşıyır[1]. Səbəb-nəticə əlaqələrinin fəlsəfi mahiyyəti bundan ibarətdir. Mülki hüquq məsuliyyətinin şərti olan səbəbli nəticə anlayışının əsasını səbəb və nəticə kimi fəlsəfi kateqoriyalar təşkil edir.

6. Təqsir mülki hüquq məsuliyyətinin şərti kimi

Mülki hüquq məsuliyyətinin şərtlərindən ikisi – hüquqazidd əməl və səbəbli əlaqə obyektiv xarakterə malikdir. Mülki hüquq məsuliyyətinin şərtlərindən biri olan təqsir isə, bunlardan fərqli olaraq, subyektiv təbiəti ilə seçilir. **Təqsir məsuliyyətin subyektiv şərtidir**.

Təqsir anlayışı mülki hüquq elmində ən mübahisəli məsələlərdən biridir. XX əsrin 30-cu illərinin sonuna kimi mülki hüquq məsuliyyəti haqqında doktrinada zərər vurmaq prinsipi üstün mövqe tuturdu. Buna görə də təqsir barədə sivilistika nəzəriyyəsi, demək olar ki, zəif inkişaf etmişdi. Bəzi sovet sivilist alimləri (S.İ.Asknazi, A.Q.Hoyxbarq, K.M.Varşavski) təqsir prinsipini müdafiə etmək üçün fraqmentar (yəni yarımçıq, natamam) fikirlər söyləyirdilər[2]. Xüsusilə K.M.Varşavski 30-cu illərin axırlarında tövsiyə edirdi ki, həm mülki təqsirin ümumi anlayışını, həm də onun ayrı-ayrı növlərinin xüsusiyyətlərini hərtərəfli tədqiq etmək lazımdır. Lakin alimin tövsiyəsini nə qanunvericilik təcrübəsi, nə də sivilistika doktrinası qəbul etdi[3].

Təqsir prinsipinin mülki hüququn hamılıqla qəbul edilmiş prinsipi kimi tanınmasında M.M.Aqarkov, M.S.Lipetsker və Z.İ.Şkundin kimi alimlərin rolu böyükdür. Onlar təqsiri sovet mülki hüququ üzrə məsuliyyətin başlanğıcı kimi xarakterizə edirdilər. Lakin həmin müəlliflər təqsirin kifayət qədər xarakteristikasını versələr də, ümumi anlayış kimi təqsirin tərifini formulə etmirdilər.

Mülki təqsirin ümumi anlayışının verilməsinə ilk dəfə olaraq 1939-cu ildə X.İ. Şvarts tərəfindən təşəbbüs göstərilmişdir. Müəllif təqsiri «fəaliyyət qabiliyyətli vətəndaşın sosialist cəmiyyəti vətəndaşının normal davranışından hər cür kənaraçıxma və uzaqlaşma» kimi izah edirdi[1]. Beləliklə, o, təqsiri mahiyyətcə qeyri-hüquqiliklə əvəz etmiş olurdu. Müəllifin fikrincə, təqsir dedikdə, qanunda nəzərdə tutulan diqqətə əməl etməmək başa düşülür.

Keçən əsrin 40-cı illərinin əvvəllərində M.M.Aqarkov təqsirin ümumi anlayışını verməyə cəhd göstərdi. O qeyd edirdi ki, «təqsir dedikdə, şəxsin hüquqazidd əməl törətməsini şərtləndirən qəsdi və ya ehtiyatsızlığı başa düşülür»[2]. Bu cür anlayış uzun müddət hüquq ədəbiyyatında üstünlüyə malik olmuşdur[3]. 1950-ci ildə sivilist alimlərdən L.A.Lunts yazırdı ki, mülki hüquqda təqsir dedikdə, hüquqazidd əməl törədən və bununla başqa şəxsə zərər vuran şəxsin qəsdi və ya ehtiyatsızlığı başa düşülür[4]. Tanınmış alim E.A.Fleyşitsə görə, təqsir hüquqzidd əməl törədən şəxsin qəsdini və ya ehtiyatsızlığını bildirir[5].

50-ci illərdən başlayaraq sivilist alimlər təqsirə kriminalistlər kimi anlayış verməyə başladılar. Onlar göstərdilər ki, təqsir hüquqazidd davranışa və onun mümkün olan nəticəsinə subyektiv münasibətdir. 1955-ci ildə Q.K.Matveyev qeyd edirdi ki, təqsir pozuntu törədən şəxsin öz hüquqazidd hərəkətinə və onun zərərli nəticəsinə qəsd və ya ehtiyatsızlıq formasında psixi münasibətidir[6]. 1955-ci ildə başqa bir müəllif O.S.İoffe yazırdı ki, təqsir sosial və psixoloji məzmuna malik olub, hüquq pozuntusu törədən şəxsin özünün hüquqazidd hərəkətinə və onun nəticəsinə münasibətini ifadə edir[7]. Onun fikrincə, təqsirin sosial məzmunu ondan ibarətdir ki, o, hüquq pozuntusu törədən şəxsin sosialist cəmiyyətinin və ya hər bir sovet vətəndaşının mənafeyinə mənfi münasibətini ifadə edir. Psixoloji məzmun isə törədilən hərəkətlə əmələ gələn nəticə arasındakı əlaqənin dərk olunmasını ifadə edir.

Beləliklə, təqsir haqqında qeyd etdiyimiz konsepsiyalarda bəzi ümumi cəhətlər vardır[8]. Lakin həmin konsepsiyalar əsasən bir-birindən fərqlənir. Təqsir haqqında diskussiya bu gün də davam edərək axıra çatmamışdır. İndiyə kimi çoxsaylı tədris ədəbiyyatlarında təqsirin ümumi anlayışı müxtəlif cür izah olunur[9]. Sovet ədəbiyyatında uzun müddət belə bir konsepsiya üstünlük təşkil et-

---

[1] Bəzi filosoflar hadisələrin səbəbli əlaqəsinin obyektiv xarakterə malik olmaması fikrini irəli sürürlər. Avstriya fizik-filosofu Ernest Max (1838-1916) belə filosoflardandır. O, yazırdı ki, təbiətdə həm səbəb yoxdur, həm də nəticə (bax: Краткий философский словарь / Под ред. *М.Розенталя, П.Юдина*. М., 1952, с. 405).

[2] bax: *Аскназий С.И.* Очерки хозяйственного права. Л., 1926, с. 62; *Гойхбарг А.Г.* Хозяйственное право РСФСР, М., 1921, с. 171; *Варшавский К.М.* Обязательства, возникающие вследствие причинения другому вреда. М. 1929, с. 86, 88.

[3] bax: *Варшавский К.М.* Обязательства, возникающие вследствие причинения другому вреда. М. 1929, с. 108, 111.

[1] *Шварц Х.И.* Значение вины в обязательствах из причинения вреда. М. 1939, с. 29.

[2] Гражданское право. Учебник. Часть 1 / Под ред. *М.М.Агаркова, Д.М.Генкина*. М., 1944, с. 322.

[3] Almaniya mülki hüquq doktrinasında təqsirə belə anlayış verilir: təqsir dedikdə elə iradə qüsuru başa düşülür ki, bunun nəticəsində şəxs törətdiyi pozuntuya görə məsuliyyətə cəlb edilə bilər (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 353).

[4] bax: *Новицкий И.Б., Лунц Л.А.* Общее учение об обязательстве. М. 1950, с. 330-336.

[5] bax: *Флейщиц Е.А.* Обязательства из причинения вреда и из неосновательного обогащения. М. 1951, с. 82-87.

[6] bax: *Матвеев Г.К.* Вина в советском гражданском праве. Киев. 1955, с. 178, 181.

[7] *Иоффе О.С.* Ответственность по советскому гражданскому праву. Л., 1955, с. 113-114.

[8] Həmin konsepsiyaların tənqidi təhlili verilmişdir: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 2. Л., 1978 (гл. 2. § 3).

[9] Гражданское право. Учебник. Том 1 / Под ред. *П.Е.Орловского* и *С.М. Корнеева*. М., 1969, с. 534-537; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.С.Иоффе, Ю.К.Толстого, Б.Б.Черепахина*. Л., 1971, с. 427-430; Советское гражданское право Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1972, с. 428-429; Советское гражданское право. Учебник / Под ред. *Ю.Г.Басина* и *М.А.Ваксберга*. Алма-Ата. 1971, с. 143-145; Гражданское право. Учебник / Под ред. *В.Ф.Чигира*. Минск, Том 1, с. 345-350; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.А.Рясенцева*, с. 524-530.

mişdir ki, **təqsir qəsd və ya ehtiyatsızlıq formasında şəxsin öz davranışına psixi münasibətidir**[1]. Bu cür fikrə müasir dərsliklərdə də rast gəlmək olur[2]. Belə təsəvvür yaranır ki, mülki hüquq təqsirə anlayış verərkən cinayət hüququnun nəzərdə tutduğu definisiyadan (tərifdən) istifadə edir və ona əsaslanır. Cinayət hüququna görə təqsir şəxsin törətdiyi ictimai təhlükəli hərəkətə və onun nəticələrinə qəsd və ya ehtiyatsızlıq formasında psixi münasibətidir. Təqsirin formaları törədilmiş ictimai təhlükəli hərəkətə və onun nəticələrinə təqsirli psixi münasibətin formalarıdır[3]. İndiyə kimi qüvvədən düşmüş mülki qanunvericilik, o cümlədən mülki hüquq doktrinası təqsir anlayışına münasibətdə cinayət-hüquqi aspektdən çıxış etmişdir. Lakin indiki müasir qanunvericilik təqsir anlayışına münasibətdə **əvvəlki qanunvericilikdən fərqli olaraq cinayət-hüquqi yanaşmadan imtina etmişdir**. Belə ki, **müasir mülki qanunvericiliyə görə mülki hüquqda təqsirə şəxsin öz davranışına subyektiv psixi münasibəti kimi baxılmır**. Təqsir haqqında yeni elmi baxışlar formalaşır. Bu elmi baxışlara görə təqsiri «şəxsin öz davranışına və onun nəticəsinə psixi münasibəti kimi» izah etmək olmaz. Hüquq ədəbiyyatında yaranmış həmin baxışlar son illərdə daha da inkişaf etmişdir[4].

Bir neçə səbəbə görə mülki hüquqda təqsirə anlayış verərkən cinayət hüququnun nəzərdə tutduğu tərifdən istifadə etmək olmaz. **Birincisi**, indiki mülki qanunvericilik müəyyən edir ki, borclu öhdəliyin lazımınca icrası üçün özündən asılı olan bütün tədbirləri gördüyünü və pozuntunun onun cavabdeh olmadığı haldan irəli gəldiyini sübuta yetirərsə, təqsirsiz sayılır (MM-in 448-ci maddəsinin 4-cü bəndi). Bu, o deməkdir ki, **əgər şəxs özündən asılı olan bütün tədbirləri görərsə, lakin buna baxmayaraq mülki hüquq pozuntusuna yol verərsə, belə halda həmin şəxsin hüquq pozuntusuna görə təqsirli bilinməsindən söhbət gedə bilməz**. Deməli, belə təsəvvür yaranır ki, məsələni həll edərkən **şəxsin özünün işinə və vəzifəsinə** münasibətini təhlil etmək lazımdır. Əgər şəxs vəzifəsinin icrası üçün özündən asılı olan bütün tədbirləri görmüşsə və pozuntu həmin şəxsin cavabdeh olmadığı haldan irəli gəlmirsə, o, pozuntu törətməkdə təqsirsiz sayılacaqdır. Yox, əgər həmin şəxs vəzifəsinin icrası üçün özündən asılı olan bütün tədbirləri görməmişsə və pozuntu bu şəxsin cavabdeh olduğu haldan irəli gələrsə, belə halda o, pozuntuya yol verməkdə təqsirli hesab ediləcəkdir. Qeyd etməliyik ki, pozuntunun borclunun cavabdeh olduğu haldan irəli gəlməsi onun öhdəliyin lazımınca icrası üçün

[1] bax: *Матвеев Г.К.* Вина в советском гражданском праве. Киев. 1955, с. 178; *Иоффе О.С.* Обязательственное право. М., 1975, с. 128.

[2] bax: Гражданское право. Учебник. Часть1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1997, с. 544; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой. Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 424; Гражданское право. Учебник / Под ред. *С.П. Гришаева.* М., 1999, с. 181; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 448; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 148.

[3] bax: *A.V.Naumov.* Cinayət hüququ. Mühazirə kursu. Bakı. 1998, s. 235.

[4] *Брагинский М.И., Витрянский В.В.* Договорное право. Общие положения. М., 1997, с. 604; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 1447-449; Гражданское право. Учебник. Том 2. Полутом 2 / Под ред. *Е.А.Суханова.* М., 2000, с. 379.

özündən asılı olan bütün tədbirləri görməməsi deməkdir. Bu, onu sübut edir ki, mülki hüquqda təqsirə hüquq pozuntusuna yol verilməməsi və ya mənfi nəticələrin aradan qaldırılması üçün şəxsin obyektiv cəhətdən mümkün olan tədbirlər görməməsi kimi baxılır. Bu isə bizə belə bir fikir söyləməyə əsas verir ki, **mülki hüquqda təqsir şəxsin öz davranışına subyektiv, psixi münasibətini ifadə etmir**. Qanunun məna və məzmununa görə, mülki hüquqda təqsir məsələsini həll edərkən konkret şəxsin davranışını işin real halları ilə müqayisə etmək lazımdır. Daha doğrusu, təqsir konkret şəxsin yaranmış konkret vəziyyətin halları və faktları ilə diqtə olunan davranışı ilə bağlıdır. Konkret vəziyyətin halları və faktları elə ola bilər ki, bu cür vəziyyətdə şəxs ona həvalə edilmiş vəzifənin icrası üçün əlindən gələni və özündən asılı olan bütün tədbirləri görə bilməsin. Ona görə də həmin şəxs mənfi nəticələrin yaranmasında təqsirli sayılır.

İkincisi, cinayət hüququnda yalnız fiziki şəxslər cinayətin subyekti ola bilərlər. Ona görə də yalnız fiziki şəxslərin təqsirindən söhbət gedə bilər. Hüquqi şəxslər — müəssisələr, təşkilatlar və idarələr, həmçinin dövlət və bələdiyyələr cinayət hüququna görə cinayətin subyekti sayılmır. Hüquqi şəxsləri, bələdiyyələri və dövləti cinayət hüquq məsuliyyətinə cəlb etmək olmaz. Deməli, **hüquqi şəxslərə, bələdiyyələrə və dövlətə təqsir anlayışı şamil edilmir**. Onlar cinayət hüquq məsuliyyətinin subyekti hesab olunmur. Bundan fərqli olaraq, mülki hüququn dövlət, bələdiyyələr və hüquqi şəxslər kimi subyektləri mülki hüquq məsuliyyətinin subyekti ola bilər. Hüquqi şəxslər, bələdiyyələr və dövlət mülki hüququn kollektiv subyekti kateqoriyasına aid edilir. Onlar fiziki şəxslər kimi psixi-fiziki və fizioloji xüsusiyyətlərə malik deyil. Onlar bioloji-psixoloji varlıq hesab edilmir. Qeyd etdiyimiz kimi, cinayət hüququna görə təqsir fiziki şəxsin özünün hüquqazidd davranışına və onun nəticələrinə olan psixi münasibətidir, öz davranışının və onun törətdiyi nəticələrin hüquqazidd olmasını dərk etməsidir. Subyektiv şərt kimi təqsir fiziki şəxsin (insanın) şüurunda baş verən psixi proseslərlə bağlıdır. Daha doğrusu, təqsir fiziki şəxsin psixi münasibətidir. Psixi münasibət bəsləmək, dərk etmək kimi əlamətlər ancaq fiziki şəxslərə məxsus ola bilər. Hüquqi şəxslər, bələdiyyələr və dövlət psixi-fiziki və fizioloji xüsusiyyətlərə malik olmadıqları üçün onların psixi münasibət bildirmələri, dərk etmələri məntiqsizlikdir. Ona görə də dövlətin (və ya bələdiyyənin, hüquqi şəxsin) təqsirinə «onların öz hüquqazidd davranışına və onun nəticələrinə olan psixi münasibəti, davranışın və mənfi nəticələrin hüquqazidd olmasını dərk etməsi» kimi anlayış verilməsi həqiqətə uyğun gəlmir.

Üçüncüsü, cinayət hüququ ümumi qaydaya görə, təqsirin formasına, dərəcəsinə və ya ağırlığına həmişə əhəmiyyət verir. **Mülki hüquqda isə məsuliyyət ümumi qaydaya görə təqsirin dərəcəsi və formasından asılı deyil**. Ona görə ki, mülki-hüquqi məsuliyyətin əsas və başlıca funksiyası kompensasiya-bərpaedici funksiyadır. Kompensasiya funksiyasının mahiyyəti hüquq pozuntusu sayəsində zərərçəkən üçün əmələ gələn mənfi nəticələri zərərvuranın əmlakı hesabına aradan qaldırmaqdan ibarətdir, yəni zərərçəkənin düşdüyü zərərin əvəzini ödəməkdən (kompensasiya etməkdən) ibarətdir. Zərərçəkənin düşdüyü zərərin əvəzinin ödənilməsi isə zərərvuranın (hüququ pozanın) öz davranışına subyektiv münasibətindən asılı deyildir. Məhz bu səbəbə görə

də mülki hüquqda təqsirin müxtəlif formalarının fərqləndirilməsi əksər hallarda hüquqi əhəmiyyətə malik olmur. Mülki hüquq məsuliyyətinin yaranması üçün çox vaxt təqsirin istənilən hər hansı forması kifayət edir.

Mülki qanunvericilik nadir hallarda təqsirin formalarının fərqləndirilməsinə hüquqi əhəmiyyət verir. Məsələn, əvəzsiz istifadə müqaviləsi üzrə kirayəyə verən əvəzsiz istifadəyə verilən əşyanın qüsurlarına görə yalnız təqsirin qəsd və ya kobud ehtiyatsızlıq formasında kirayəçi qarşısında məsuliyyət daşıyır (MM-in 733-cü maddəsinin 1-ci bəndi). Təqsirin adi (sadə) ehtiyatsızlıq formasında kirayəyə verən məsuliyyətdən azad edilir. Bundan əlavə, mülki qanunvericilik zərərçəkənin (kreditorun) təqsirinin formalarını nəzərə alır və ona hüquqi əhəmiyyət verir (MM-in 458-ci maddəsinin 1-ci bəndi). Belə ki, əgər zərərin əmələ gəlməsinə zərərçəkənin (kreditorun) özünün qəsdi və ya ehtiyatsızlığı şərait yaradarsa, zərərin əvəzinin ödənilməsi miqdarı azaldıla bilər. Belə halda təqsirin dərəcəsi nəzərə alınır.

Bununla belə, **cinayət hüququ üçün «təqsirsiz məsuliyyət» anlayışı yaddır**. Bu, o deməkdir ki, cinayət törətməkdə təqsiri olmayan şəxs cinayət məsuliyyətinə cəlb edilə bilməz. Cinayət hüququndan fərqli olaraq, **mülki hüquqda və sivilistika doktrinasında «təqsirsiz məsuliyyət» anlayışı tətbiq olunur**[1]. Bu anlayışa görə təqsiri olub-olmamasına baxmayaraq, şəxs vurulmuş zərərin əvəzini ödəməlidir. Məsələn, qanunsuz məhkum etmə nəticəsində fiziki şəxsə vurulmuş zərərin əvəzi məhkəmə orqanlarının vəzifəli şəxslərinin təqsirindən asılı olmayaraq, dövlət (Azərbaycan Respublikası) tərəfindən ödənilir (MM-in 1101-ci maddəsinin 1-ci bəndi). Ətrafdakılar üçün yüksək təhlükə yaradan fəaliyyətlə (məsələn, nəqliyyat vasitəsi ilə, partlayıcı maddələrdən istifadə edilməsi, yüksək gərginlikli elektrik enerjisindən istifadə edilməsi və s.) əlaqədar vurulmuş zərərin əvəzi, təqsirdən asılı olmayaraq ödənilir (MM-in 1108-ci maddəsinin 1-ci bəndi).

Beləliklə, yuxarıda göstərdiyimiz səbəblərə görə təqsirə cinayət hüququ üçün ənənəvi olan anlayışı vermək olmaz. Yeni mülki qanunvericiliyə görə, **mülki hüquqda təqsir dedikdə, hüquq pozuntusu törədən şəxsin (zərərvuranın) ona həvalə olunmuş vəzifənin icrası üçün özündən asılı olan bütün mümkün tədbirləri görməməsi başa düşülür ki, həmin pozuntu onun cavabdeh olduğu haldan irəli gəlir** (MM-in 448-ci maddəsinin 4-cü bəndi).

Bununla bərabər, elə hallar yaranır ki, şəxs öhdəliyin icrası üçün özündən asılı olan bütün mümkün tədbirləri görür. O, öz vəzifəsinin həyata keçirilməsi üçün lazımi qayğı və diqqət göstərir. Lakin buna baxmayaraq, mülki hüquq pozuntusuna yol verilir və həmin pozuntu borclunun cavabdeh olmadığı haldan irəli gəlir. Belə halda şəxsin təqsirli olmasından söhbət gedə bilməz. Amma bunun üçün vacibdir ki, həmin şəxs vəzifənin (öhdəliyin) lazımınca icrası üçün özündən asılı olan bütün tədbirləri gördüyünü sübuta yetirsin. Əgər o,

[1] «Təqsirsiz məsuliyyət» anlayışı Almaniya mülki qanunvericiliyinə və mülki hüquq doktrinasına da məlumdur. Bu anlayışın mahiyyəti ondan ibarətdir ki, şəxs təqsiri olmadan da vurulmuş zərərin əvəzini ödəməyə, yəni mülki-hüquqi məsuliyyətə cəlb edilə bilər (*Lübbe-Wolff G.* Rechtsfolgen und Realfolgen Freiburg; München; Karl Alber. 1981; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 365).

göstərilən halı sübut etsə, təqsirsiz hesab edilir. Söylədiklərimizdən belə qənaətə gələ bilərik ki, cinayət hüququndan fərqli olaraq mülki hüquq **zərərəvuranın (hüququ pozan şəxsin) təqsir prezumpsiyasını** (latınca «praesumptio» — güman etmək mənasını ifadə edir) müəyyənləşdirir. Təqsir prezumpsiyasına görə hüququ pozan şəxs (zərərvuran) özünün təqsirsizliyini sübut edənə kimi, onun təqsirli olması güman edilir, **yəni əksi sübut edilənə kimi şəxs mülki hüquq pozuntusu törətməkdə təqsirli sayılır**. Məsuliyyətdən azad olmaq üçün zərərvuran (hüququ pozan şəxs) təqsirinin olmamasını sübut etməlidir. Deməli, sübutetmə yükünü öhdəliyi pozmuş şəxs çəkir, yəni təqsirin olmadığını öhdəliyi pozmuş şəxs sübuta yetirir (MM-in 448-ci maddəsinin 4-cü bəndi). Təqsir prezumpsiyasına görə zərərçəkən tərəf zərərvuranın (hüququ pozan şəxsin) təqsirini sübut etməyə borclu deyildir. Zərərçəkən tərəf sübut etməlidir ki, başqa subyektin davranışı nəticəsində onun hüquq və qanunla qorunan mənafeyi pozulmuşdur. Amma təqsir prezumpsiyası zərərçəkəni məhkəməyə zərərvuranın təqsirli olmasını təsdiqləyən sübutlar təqdim etmək imkanından və hüququndan məhrum etmir. Zərərçəkən ona zərər vurulması faktını sübuta yetirməlidir. Belə ki, zərər vurulması faktını hamıdan əvvəl zərərçəkən bilir.

Almaniya mülki hüququnda təqsir (Verschulden, Schuld) haqqında təlim mürəkkəb xarakter daşıyır. Ümumi qaydaya görə, təqsir məsuliyyətin (Haftung) şərti kimi çıxış edir. Təqsirsiz məsuliyyət yalnız istisna hallarda yaranır[1]. Məsuliyyətin şərti kimi təqsir Almaniya Mülki Qanunnaməsi ilə tənzimlənir. Həmin qanunnamənin 276-cı paraqrafına görə, təqsirə görə məsuliyyət prinsipi müəyyən edilir: borclu başqa hal nəzərdə tutulmazsa, təqsirə (qəsdə və ehtiyatsızlığa) görə məsuliyyət daşıyır. Professor H.Haynriks hesab edir ki, 276-cı paraqraf Mülki Qanunnamənin mərkəzi normalarından biridir[2].

Nəinki fiziki şəxslər (vətəndaşlar), habelə hüquqi şəxslər də təqsirli sayıla bilər. Mülki hüquqda təqsir anlayışı həm fiziki şəxslərə, həm də hüquqi şəxslərə bərabər qaydada şamil olunur. Bu anlayışın məzmunu onların hər ikisinə eyni dərəcədə tətbiq edilir. **Hüquqi şəxsin təqsiri öz mahiyyətinə görə vətəndaşın təqsirindən fərqlənmir**. Təqsir həm fiziki şəxslərin (vətəndaşların), həm də hüquqi şəxslərin daşıdıqları mülki hüquq məsuliyyətinin zəruri şərtidir. Bu məsuliyyətin ümumi prinsipləri onların hər ikisi üçün eynidir. Amma hüquqi şəxsin təqsiri müəyyən xüsusiyyətlərə malikdir.

Hüquqi şəxsin təqsiri anlayışı haqqında məsələ uzun müddət elmi mübahisələrin predmeti olmuşdur[3]. Mülki hüquq elmində hüquqi şəxsin məsuliyyəti və təqsiri məsələsi bu və ya digər hüquqi şəxs nəzəriyyəsi ilə bağlı olaraq əsaslandırılmışdır. Sovet sivilistika doktrinasında üstünlüyə malik olan «kollektiv nəzəriyyə» tərəfdarlarının (bu nəzəriyyənin tərəfdarları A.V.Venediktov, S.N.Bratus, O.S.İoffe və b.) mövqeyinə görə, hüquqi şəxsin təqsiri dedikdə, onun işçilərinin öz əmək funksiyalarını həyata keçirdikləri zaman yol verdikləri

[1] *Brox H.* Allgemeines Schuldrecht. München. 1999, s. 180.

[2] *H.Heinrichs // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 327.

[3] Bu barədə fikirlərin qısaca icmalı barədə bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 2. М., 1978. глава 2. § 3 (*Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 497-502).

təqsir başa düşülür. 1950-ci ildə S.N.Bratus yazırdı ki, hüquqi şəxsin məsuliyyətinin zəruri şərti konkret icraçının təqsirindən ibarətdir ki, həmin icraçı ya hüquqi şəxsin üzvüdür, ya da onun işçisidir[1]. 1955-ci ildə «kollektiv nəzəriyyə»nin tərəfdarlarından olan O.S.İoffe göstərirdi ki, əgər hüquqi şəxs zəhmətkeş, fəhlə və qulluqçuların kollektividirsə, onda əmək funksiyalarının icrası zamanı bu kollektiv iştirakçılarının hərəkəti hüquqi şəxsin özünün hərəkətini ifadə edir[2]. Deməli, «kollektiv nəzəriyyə»yə görə, hüquqi şəxsin təqsiri onun işçilərinin (üzvlərinin, iştirakçılarının) təqsirli davranışında ifadə olunur.

«Kollektiv nəzəriyyə» tərəfdarları arasında bəzi müəlliflərin fikirləri üst-üstə düşmür. Alimlərdən V.T.Smirnov belə hesab edir ki, hüquqi şəxsin təqsiri hökmən hər hansı bir konkret işçinin təqsirli hərəkətlərində təzahür etməlidir[3]. Digər müəllif Q.K.Matveyev isə göstərir ki, hüquqi şəxsin təqsirini onun ayrı-ayrı işçilərinin yox, kollektivin təqsiri ifadə edir[4].

Öz münasibətini hər hansı bir hüquqi şəxs nəzəriyyəsinə aid etməyən B.S.Antimonov qeyd edir ki, hər bir hüquqi şəxs insanların təşkilatıdır, ona görə də hüquqi şəxsin təqsiri həmişə insanların təqsirində ifadə olunur. Onun fikrincə, ayrıca bir işçinin təqsirini hüquqi şəxsin bütün işçilərinin və ya bir neçə işçisinin məcmu halında təqsirli davranışı ilə eyniləşdirmək olmaz[5].

«Kollektiv nəzəriyyə»nin hüquqi şəxsin məsuliyyətinin əsasları barədə hazırladığı konsepsiya bu nəzəriyyəyə tərəfdar olmayan bəzi müəlliflər tərəfindən də qəbul edilmişdir[6]. Alimlərdən F.L.Rabinoviç göstərir ki, müəssisənin təqsiri və kollektivin təqsiri kimi anlayışlar obyektiv həqiqətə uyğun gəlmir. Müəllifin fikrincə, müəssisənin vəzifəli şəxsləri və işçiləri öz vəzifə səlahiyyətləri həddində müəssisənin hüquqlarını həyata keçirirlər. Onların iradələrindəki qüsur (bilə-bilə faydasız müqavilə bağlamaqda, müqavilə şərtlərini qəsdən və ya ehtiyatsızlıqdan icra etməməkdə ifadə olunan iradə qüsuru) müəssisənin iradə qüsuruna çevrilir.

S.İ.Asknazi tərəfindən irəli sürülmüş «dövlət nəzəriyyəsi» kimi hüquqi şəxs nəzəriyyəsinin tərəfdarı olan V.A.Tarxov mahiyyətcə, «hüquqi şəxsin təqsiri həmişə öz ifadəsini ayrıca hər bir işçisinin təqsirində tapır» kimi konsepsiyanı dəstəkləyir. Müəllif yazır ki, hüquqi şəxs onun işçisinin davranışı nəticəsində zərər vurur, müqaviləni icra edir və ya icra etmir[7].

Bundan əlavə, sivilistika doktrinasında «culpa in eligendo et custodiendo» adlı konsepsiya yaranmışdır. Bu konsepsiyaya görə, təşkilatın təqsiri hakimiyyət-sərəncam funksiyasını həyata keçirən şəxsin təqsirində ifadə olunur. Əgər hüquqi şəxsin orqanı hüquq pozuntusu törədən işçinin düzgün seçilməsində və ya həmin şəxs üzərində lazımi nəzarətin həyata keçirilməsində təqsirli olarsa, onda hüquqi şəxs məsuliyyət daşıyır. Göstərilən nəzəriyyə tərəfdarlarından biri M.M.Aqarkovdur. O göstərirdi ki, hüquqi şəxsin təqsiri onun işçini seçəndə diqqətsizlik göstərməsində ifadə edilir[1].

Hüquqi şəxsin təqsiri məsələsi barədə nəzəri mübahisələrin genişləndiyi və kəskin bir hal aldığı şəraitdə keçən əsrin 60-cı illərinin əvvəllərində sovet qanunvericiliyi «kollektiv nəzəriyyə» tərəfdarlarının mövqeyini nəzərə aldı və onu leqal surətdə sanksiyalaşdırdı. Belə ki, SSRİ və müttəfiq respublikaların Mülki Qanunvericiliyinin Əsaslarının (1961) 88-ci maddəsinin 3-cü bəndində hüquqi şəxsin təqsiri barədə göstəriş ifadə olundu. Bu göstərişə görə, təşkilat, öz işçilərinin əmək (qulluq) vəzifələrini yerinə yetirərkən onların təqsiri üzündən vurulmuş zərəri ödəməyə borcludur. Analoji norma demək olar ki, müttəfiq sovet respublikalarının bütün 1964-1965-ci illərin mülki məcəllələrində də öz əksini tapdı. Azərbaycan Respublikasının 1964-cü il MM-i (RF-in 1964-cü il MM-inin 445-ci maddəsi) həmin normanı nəzərdə tutmuşdu. Həmin məcəllənin 443-cü maddəsi prinsipial əhəmiyyətə malik olan belə bir qayda müəyyən etmişdi ki, təşkilat öz işçilərinin əmək (qulluq) vəzifələrini yerinə yetirərkən, onların təqsiri üzündən vurulmuş zərəri ödəməyə borcludur.

Həm Rusiya Federasiyasının, həm də Azərbaycan Respublikasının yeni qanunvericiliyi hüquqi şəxslərin təqsiri məsələsini həll edərkən köhnə sovet qanunvericilik ənənəsinə əsaslanır. Rusiya Federasiyasının yeni MM-inin 402-ci maddəsi[2], Azərbaycan Respublikası MM-inin 456-cı maddəsi müqavilə öhdəlikləri sahəsində nəzərdə tutur ki, borclunun (yəni işəgötürənin, o cümlədən hüquqi şəxsin) öhdəliyini icra etmək üçün onun işçilərinin yerinə yetirdikləri hərəkətlər borclunun hərəkətləri sayılır. Əgər həmin hərəkətlər öhdəliyin icra edilməməsinə və lazımınca icra edilməməsinə səbəb olmuşsa, borclu bu hərəkətlər üçün məsuliyyət daşıyır. Bundan əlavə, Rusiya Federasiyası MM-inin 1068-ci maddəsi[3], Azərbaycan Respublikası MM-inin 1099-cu maddəsi hüquqi şəxsin delikt (ziyan vurmaq) məsuliyyətinə (müqavilədənkənar məsuliyyətinə) toxunur. Həmin maddələrdə göstərilir ki, **əgər hüquqi şəxsin işçisi öz əmək (qulluq) vəzifələrinin icrası zamanı zərər vurarsa, onda hüquqi şəxs həmin zərərin əvəzini ödəməlidir**. Deməli, müasir qanunvericilik həm müqavilə öhdəliyi sahəsində, həm də müqavilədənkənar (delikt) öhdəlik sahəsində hüquqi şəxsin təqsir məsələsini həll edir. Təbii ki, bununla sivilistika doktrinasında elmi polemikanın davam etdirilməsi imkanı aradan qaldırılmır. Beləliklə, yeni mülki qanunvericilik hüquqi şəxsin təqsiri məsələsində «kollektiv nəzəriyyə» tərəfdarlarının (S.N.Bratus, O.S.İoffe) irəli sürdükləri və işləyib

---

[1] bax: *Братусь С.Н.* Субъекты гражданского права. М., 1950, с. 211-212.

[2] bax: *Иоффе О.С.* Ответственность по советскому гражданскому праву. Л., 1955, с. 66-67 (гл. 2. § 3). S.N. Bratusun konsepsiyasını inkişaf etdirmişdir: *Новицкий И.Б., Лунц Л.А.* Общее учение об обязательстве. М., 1950, с. 352.

[3] bax: *Смирнов В.Т.* Обоснование деликтной ответственности юридических лиц // Проблемы гражданского и административного права. Л., 1962, с. 270.

[4] *Матвеев Г.К.* Основания гражданской ответственности. М., 1971, с. 236; *Матвеев Г.К.* Вина в советском гражданском праве. Киев. 1955, с. 216.

[5] *Антимонов Б.С.* Основания договорной ответственности социалистических организаций. М., 1962, с. 76-77.

[6] *Рабинович Ф.Л.* Вина как основание договорной ответственности. М., 1975, с. 54-55.

[7] bax: *Тархов В.А.* Ответственность по советскому гражданскому праву. Саратов. 1973, с. 51-78.

[1] Гражданское право. Учебник. Том 1 / Под ред. *М.М.Агаркова, Д.М.Генкина.* М., 1944, с. 332 (автор главы «Возникновение обязательства из причинения вреда» — *М.М. Агарков*).

[2] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова.* М., 1999, с. 654.

[3] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части второй / Под ред. *О.Н.Садикова.* М., 1999, с. 670.

hazırladıqları konsepsiyanı qanunvericilik səviyyəsində rəsmiləşdirmişdir.

Hüquqi şəxsin təqsiri barədə söylədiklərimizdən belə bir ümumi nəticəyə gələ bilərik ki, **hüquqi şəxsin təqsiri onun işçisinin öz əmək (qulluq) vəzifələrinin icrası zamanı təqsirli davranışında ifadə olunur**. Ona görə ki, hüquqi şəxsin fəaliyyəti onun işçilərinin yerinə yetirdikləri hərəkətlərdə təzahür edir. Lakin bu hərəkətlər işçinin öz əmək (qulluq) vəzifələrinin icrası ilə bağlı olmalıdır. İşçi dedikdə, hüquqi şəxsin rəhbəri, fəhləsi, mühəndisi, şöbə rəisi, müdir müavini və s. başa düşülür. Məsələn, dəmir-beton məmulatı müəssisəsi tikinti təşkilatı ilə mal göndərmə müqaviləsi bağlayır. Müəssisənin (hüquqi şəxsin) fəhləsi öz əmək vəzifəsini lazımınca icra etməyərək zay (keyfiyyətsiz) məmulatlar istehsal edir. Bununla satıcı (dəmir-beton məmulatı müəssisəsi) mal göndərmə öhdəliyini pozur. Bunun nəticəsində mal göndərmə müqaviləsi ləğv edilir. Satıcı (müəssisə) alıcıya (tikinti təşkilatına) vurulmuş zərərin əvəzini ödəməlidir. Ona görə ki, öhdəliyi pozmaqda hüquqi şəxs statuslu müəssisə təqsirlidir. Onun təqsiri zay məhsul istehsal edən işçinin — fəhlənin təqsirində ifadə olunur. Başqa bir misalda tikinti təşkilatı (hüquqi şəxs statuslu podratçı) vətəndaşın altıncı mərtəbədə olan mənzilini təmir edir. Tikinti təşkilatının çilingəri ehtiyatsızlıq edərək mənzildəki su kranlarını bağlamağı unudur. Bunun nəticəsində beşinci mərtəbədə yaşayan vətəndaşın mənzilini su basır və onun məişət əşyalarını xarab edərək sıradan çıxarır, istifadə üçün yararsız hala salır. Hüquqi şəxsin (tikinti təşkilatının) təqsiri olduğu üçün o, delikt (müqavilədənkənar) məsuliyyətinə cəlb edilir. Onun təqsiri işçinin — çilingərin təqsirli hərəkətində ifadə olunur. Hüquqi şəxs (tikinti təşkilatı) ev əşyalarına zərər vurulmuş vətəndaşın düşdüyü ziyanın əvəzini ödəməlidir. Başqa bir misalda firma bankdan kredit alır. Kredit müqaviləsini firmanın prezidenti imzalayır. O da alınmış kredit məbləği üzrə sərəncam verir. Firma prezidentinin təqsirli hərəkəti nəticəsində krediti vaxtında qaytarmaq mümkün olmur. Firma kreditin qaytarılmasının hər gecikdirilən günü üçün banka dəbbə pulu (penya) ödəyir. Başqa sözlə desək, kredit öhdəliyinin lazımınca icra edilməməsində firmanın təqsiri olduğuna görə o, dəbbə pulu (penya) ödəmə formasında mülki hüquq məsuliyyətinə cəlb edilir. Firmanın təqsiri onun rəhbər işçisinin — prezidentinin təqsirli hərəkətlərində ifadə olunur.

Təqsir **müxtəlif formalarda** ola bilər. Mülki qanunvericilik təqsirin iki formasını fərqləndirir ki, bu, cinayət hüququ ənənələrinə uyğundur (cinayət hüququ da təqsirin iki formasını nəzərdə tutur):

- təqsirin qəsd forması;
- təqsirin ehtiyatsızlıq forması.

Borclunun üzərinə yalnız qəsdən və ya ehtiyatsızlıqdan edilmiş hərəkətlər nəticəsində dəymiş zərərin əvəzini ödəmək vəzifəsi qoyulur (MM-in 443-cü

maddəsinin 7-ci bəndi). Bir şərtlə ki, öhdəlikdə ayrı qayda nəzərdə tutulmasın[1].

Köhnə qanunvericilik kimi, indiki qanunvericilik də təqsirin formalarının məzmununu açıqlamır. Bu hal isə sivilistika elminə (doktrinasına) cinayət hüququnun və qanunvericiliyinin təqsirin formalarına verdiyi tərifdən istifadə etmək imkanı verir.

Onu da qeyd edək ki, təqsir anlayışını hələ qədim Roma hüququ da nəzərdə tutmuşdu. Borclu öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə məsuliyyət daşıyırdı. Məsuliyyət, bir qayda olaraq, borclunun təqsiri olduqda əmələ gəlirdi. Roma hüququ təqsiri «culpa» anlayışı ilə əhatə etmişdi. Onun iki növü fərqləndirilirdi: qəsd (dolus); diqqətsizlik (culpa — məhdud mənada təqsir). Qəsd dedikdə, borclunun qabaqcadan öz davranışının (hərəkət və ya hərəkətsizliyinin) nəticələrini görməsi və bu nəticələri arzu etməsi başa düşülürdü. Diqqətsizlik dedikdə isə borclunun öz davranışının (hərəkət və ya hərəkətsizliyinin) nəticələrini əvvəlcədən görə bilməməsi, amma bu nəticələri əvvəlcədən görməyə borclu olması başa düşülürdü[2].

Qəsd dedikdə, təqsirin elə bir forması başa düşülür ki, bu forma şəxsin özünün hüquqazidd davranışını və onun zərərli (mənfi) nəticələrini qabaqcadan görməsini, lakin şüurlu surətdə bilə-bilə baş verə biləcək həmin nəticələrin qarşısını almaq üçün heç bir tədbir görməməsini nəzərdə tutur. Qəsd onu ifadə edir ki, şəxs zərərli nəticəni əvvəlcədən görür və onun baş verməsini arzu edir, ya da şüurlu surətdə həmin nəticənin baş verməsinə yol verir. Məsələn, kreditorla mübahisə edən borclu onu maddi çətinliyə salmaq istəyir. Buna görə də o, qəsdən bilə-bilə öhdəliyi şüurlu surətdə icra etmir. Daşıyıcı nisbətən daha çox haqq əldə etmək niyyəti ilə başqa müştərinin yükünü daşıyır; o, bunun nəticəsində daşıma müqaviləsi bağladığı yük göndərənin yükünü təyinat yerinə çatdırmır. Podratçı bilir ki, onun tikinti materialları yararsız və keyfiyyətsizdir. Bu cür materiallardan «yaxa qurtarmaq», onları «işə keçirmək» üçün o, podrat müqaviləsi üzrə sifarişçinin ev tikmək tapşırığını həmin materiallardan istifadə etməklə icra edir. İşin nəticəsi qüsurlu olur. Qonşu qisasçılıq zəminində o biri qonşunun ot tayasına od vurub yandırır.

Təqsirin qəsd forması onu təsdiqləyir ki, şəxs özünün hərəkət və ya hərəkətsizliyinin xarakterini tam dərk edir, onların məqsədyönlülüyünü, hüquq pozuntusu törədilməsinə yönəldilməsini başa düşür. Şəxs şüurlu surətdə anlayır ki, onun davranışı hüquq pozuntusu əmələ gəlməsinə istiqamətlənmişdir.

Təqsirin qəsd formasında hüquq pozuntusuna yol verilməsi halı mülki hüquq üçün xarakterik deyil. Bu cür hüquq pozuntusuna az-az hallarda rast gəlmək olar. Ona görə ki, mülki hüququn əsas «işi» mülki dövriyyədə normal hallarla bağlıdır. Təqsirin qəsd forması cinayət hüququ üçün xarakte-

[1] Bu norma Almaniya Mülki Qanunnaməsinin 276-cı paraqrafına uyğundur. Həmin paraqrafda göstərilir: borclu başqa hal nəzərdə tutulmazsa, qəsdə və ya ehtiyatsızlığa görə cavab verir (*H.Heinrichs // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999. s. 327; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 367). Almaniya qanunvericiliyi də təqsirin qəsd və ya ehtiyatsızlıq kimi iki formasını fərqləndirir. L.Ennekserus yazır ki, «təqsir» ifadəsi qəsdi və ya ehtiyatsızlığı əhatə edir (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 353).

[2] bax: *Novitski I.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı, 1999, s. 134.

rikdir. Biz real həyatda bu formada cinayət edilməsi hallarına daha tez-tez rast gəlirik. Bununla belə, cinayət hüququ qəsdin iki formasını fərqləndirir: birbaşa qəsd; dolayı qəsd. Mülki qanunvericilikdə və sivilistika doktrinasında qəsdin bu cür bölgüsü aparılmır[1].

Təqsirin qəsd formasında törədilən mülki hüquq pozuntuları ilə müqayisədə təqsirin ehtiyatsızlıq formasında edilən pozuntuların sayı üstünlük təşkil edir[2]. Bu cür pozuntuların sayı nisbətən çoxdur.

Təqsirin ehtiyatsızlıq forması odur ki, şəxs özünün davranışının zərərli (mənfi) nəticələr verə biləcəyi imkanını qabaqcadan görür, lakin onların qarşısını alacağına yüngül fikirlə ümid bəsləyir, yaxud bu nəticələrin baş verəcəyini əvvəlcədən görə bilməli və görməli olduğu halda, onları görmür. Bu forma onu ifadə edir ki, şəxsin davranışı şüurlu surətdə mülki hüquq pozuntusu törədilməsinə yönəlmir, lakin həmin davranış lazımi diqqətdən məhrum olur. Daha doğrusu, şəxsin davranışında hərəkəti bilə-bilə, qəsdən, məqsədlə, qərəzlə, bilərəkdən və düşünülmüş şəkildə etmək kimi elementlər olmur. Məsələn, müəssisə yeni məhsulun istehsalı üsulunu və texnologiyasını yaxşı mənimsəməmiş, keyfiyyətsiz (qüsurlu) mal buraxır. O, keyfiyyətsiz (qüsurlu) mal istehsal etməsini görmür. Həmin malları alan istehlakçılar malın keyfiyyətsiz olmasını aşkar edirlər. Başqa bir misalda kənd sakini xəstə heyvanı əvəzsiz istifadə müqaviləsi üzrə qonşuya verir. O, qonşuya verməmişdən əvvəl heyvanın xəstə olmasını müəyyənləşdirir və baytar dəvət edir. Ümid edir ki, baytarın resepti ilə alınan dərman heyvanı sağaldacaqdır. Qonşuya verilən heyvan onun digər heyvanlarını xəstəliklə yoluxdurur. Bunun nəticəsində qonşunun heyvanları tələf olur və ona zərər vurulur.

Mülki hüquqda dərəcəsinə görə təqsirin ehtiyatsızlıq formasının özünün iki forması fərqləndirilir:

- kobud ehtiyatsızlıq forması;
- sadə ehtiyatsızlıq forması.

Nə kobud ehtiyatsızlıq formasının, nə də sadə ehtiyatsızlıq formasının anlayışını mülki qanunvericilik nəzərdə tutur. Amma mülki hüquq ədəbiyyatında, ali məhkəmə orqanlarının rəhbər izahatlarında və sivilistika doktrinasında həmin formalara anlayış verilir. Özü də kobud ehtiyatsızlıq və sadə ehtiyatsızlıq formalarının fərqləndirilməsi mühüm əhəmiyyətə malikdir. Yeri gəlmişkən, RF-in Ali Məhkəməsi Plenumunun bu formaların fərqləndirilməsinə münasibətini

[1] Bəzi hallarda hüquq ədəbiyyatında sivilist alimlər (məsələn, prof. T.İ.İllarionova) belə bölgü aparırlar (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *И.Т.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 424). Mülki hüquqda qəsdin iki formasının fərqləndirilməsinin heç bir əsası yoxdur. Ona görə ki, mülki hüquq məsuliyyətinin yaranması üçün, ümumiyyətlə, təqsirin formaları hüquqi əhəmiyyət kəsb etmir. Cinayət hüququndan fərqli olaraq, mülki hüquqda məsuliyyətin dərəcəsi qəsdin formasından asılı olmur.

[2] Almaniya sivilistika doktrinasında qəsdə belə anlayış verilir: qəsd qanunazidd nəticənin baş verməsinə yönələn elə bir arzudur ki, şəxs bu arzunun hüquqa zidd olmasını və ya vəzifə ilə uyğun gəlməməsini dərk edir. Qəsd dörd elementin olmasını şərtləndirir: birincisi, qəsd qanunazidd nəticənin baş verməsinə yönəlməlidir; ikincisi, şəxs həmin nəticənin baş verməsini arzu etməlidir; üçüncüsü, şəxs müvafiq hal barəsində səhvə yol verməməlidir; dördüncüsü, şəxs müvafiq hərəkətin hüquq norması ilə qadağan edilməsini bilməlidir (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 353-357).

əsaslı və inandırıcı hesab etmək olmaz[1]. Ali Məhkəmə Plenumunun qərarında göstərilir ki, ehtiyatsızlığın kobud ehtiyatsızlıq və ya sadə ehtiyatsızlıq formasında olmasını müəyyənləşdirmək üçün hər bir halda konkret vəziyyəti nəzərə almaq lazımdır. Kobud ehtiyatsızlıq və sadə ehtiyatsızlıq anlayışları elmi kateqoriyalardır. Onların mahiyyəti konkret vəziyyətdə mövcud olan halla izah edilə bilməz. Zəruridir ki, ehtiyatsızlığın bu iki formasının elmi anlayışı verilsin. Hüquq ədəbiyyatında kobud ehtiyatsızlıq anlayışının məzmununun müəyyənləşdirilməsinə imkan verən dəqiq meyar və əlamətlərin təklif olunmasına cəhd göstərilmiş və cəhd göstərilir[2].

Kobud ehtiyatsızlığa anlayış verərkən SSRİ Ali Məhkəməsinin irəli sürdüyü anlayışa istinad etmək lazımdır[3]. Bəzi müəlliflər də bu anlayışdan istifadə edirlər[4]. **Kobud ehtiyatsızlıq** dedikdə, elə bir əməl başa düşülür ki, onun zərərli xarakteri həmin əməli törədən hər bir şəxs üçün açıq-aşkar aydın olub, şübhə doğurmur. Müəlliflərdən K.B.Yaroşenko çox haqlı olaraq göstərir ki, kobud ehtiyatsızlığa anlayış verərkən, hələ qədim Roma hüququnda mövcud olan meyardan istifadə etmək lazımdır: «hamının başa düşdüyünü son dərəcə başa düşməmək»[5]. Kobud ehtiyatsızlıq onu ifadə edir ki, şəxsin davranışı hər hansı bir diqqət göstərmək və göz yetirmək əlamətindən məhrumdur. Bu cür ehtiyatsızlıq diqqət göstərmənin və göz yetirmənin hamıya və hər kəsə məlum olan sadə, elementar tələblərinin bağışlanılmaz dərəcədə pozulmasını nəzərdə tutur. Məsələn, diqqət və göz yetirmənin hamıya bəlli olan belə bir sadə tələbi vardır ki, yaşıl işıq yananda sürücü küçəni keçə bilməz. Bu cür sadə tələbi sürücü pozur və bunun nəticəsində yaşıl işıq yanan zaman küçəni keçən piyadanı vurub ona xəsarət yetirir. Diqqət göstərmənin və göz yetirmənin hamıya məlum olan belə bir sadə tələbi vardır ki, ev sahibi evdən çıxanda su kranlarını möhkəm bağlamalıdır. Üçüncü mərtəbədə yaşayan vətəndaş işə gedərkən su kranlarını bağlamağı unudur, diqqətsizlik göstərir. Bunun nəticəsində ikinci mərtəbədə yaşayan vətəndaşın mənzilini su basır və ev əşyalarına zərər vuraraq onları istifadə üçün yararsız vəziyyətə salır. Hamıya məlumdur ki, yağış yağması gözlənilən hallarda ev əşyalarını açıq havada saxlamaq olmaz. Kirayəçi yağışın yağmasını əvvəlcədən görür. Lakin o, kirayə müqaviləsinin predmeti olan əmlakı, yağışın dərhal kəsəcəyini zənn edərək, açıq havada saxlayır. Bunun nəticəsində kirayə predmeti olan əşya yağışdan xarab olur. Gös-

[1] bax: п. 23 постановления № 3 Пленума Верховного Суда Российской Федерации от 28 апреля 1994 г. «О судебной практике по делам о возмещении вреда, причиненного повреждением здоровья» (Бюллетень Верховного Суда Российской Федерации. 1994. № 7, с. 7).

[2] bax: *Матвеев Г.К.* Вина в советском гражданском праве. Киев. 1955, с. 296; *Смирнов В.Т., Собчак А.А.* Общее учение о деликтных обязательствах в советском гражданском праве. Л., 1983, с. 81; *Брагинский М.И., Витрянский В.В.* Договорное право. Общие положения. М., 1997, с. 613 və s.

[3] bax: Сборник постановлений Пленума и определений коллегий Верховного Суда Союза ССР. М., 1940, с. 150-157.

[4] bax: *Тархов В.А.* Ответственность по советскому гражданскому праву. Саратов. 1973, с. 100-101; *Варкалло В.* Об ответственности по гражданскому праву. М., 1978, с. 308; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 431.

[5] bax: Гражданское право России. Курс лекций. Часть 2 / Под ред. *О.Н.Садикова.* М., 1997, с. 643.

tərdiyimiz hər üç halda kobud ehtiyatsızlıq forması göz qabağındadır.

Sadə ehtiyatsızlıq dedikdə, şəxsin diqqət göstərməyə və göz yetirməyə aid tələblərə müəyyən dərəcədə əməl etməsinə cəhd göstərməsi, amma bunların mülki hüquq pozuntusuna yol verilməməsi üçün kifayət etməməsi başa düşülür. Məsələn, yağış yağması gözlənilməyən hər hansı bir gün bağ evinin sahibi kirayəyə götürdüyü əşyanı bağda açıq havada qoyaraq, yağış yağmasını heç ağlına belə gətirməyərək şəhərə müəyyən bir iş üçün gəlir. Əşyanın üstünə örtük çəkir. Bağa qayıdanda görür ki, əsən güclü külək örtüyü əşyanın üstündən atdığına görə qəflətən yağan yağış kirayə predmeti olan əşyanı xarab etmişdir. Başqa bir misalda vətəndaş borc pul alır. Əlinə düşən pulu bir yerə cəm etmək, onu xərcləməmək və borcu müddət çatanda geri qaytarmaq məqsədi ilə vətəndaş pulu banka qoyur. Vətəndaş belə zənn edir ki, borcun qaytarılma müddəti başa çatanda, pulu bankdan alsın və borcunu ödəsin. Həmin müddət yetişdikdə o, banka gəlir. Lakin vətəndaş bankın müflis (ödəniş qabiliyyətsizliyi) elan edilməsi üzrə iflas prosesinə başlandığı üçün əmanəti götürə bilmir. Buna görə də borc öhdəliyi icra olunmur. Başqa bir misalda sürücü minik avtomobilini geriyə sürərkən diqqətlə arxaya baxır. Lakin buna baxmayaraq, o, qəflətən dalandan qaça-qaça avtomobilə yaxınlaşan yeniyetməni vuraraq xəsarət yetirir. Göstərilən hallarda söhbətin sadə ehtiyatsızlıq formasından getməsinə şübhə ola bilməz.

Sadə ehtiyatsızlıq **yüngül ehtiyatsızlıq** da adlanır. Cinayət hüququnda ehtiyatsızlığın sadə (yüngül) ehtiyatsızlıq, eləcə də kobud ehtiyatsızlıq kimi forması nəzərdə tutulmur. Cinayət hüququnda ehtiyatsızlığın özünəgüvənmə və etinasızlıq kimi növləri fərqləndirilir[1].

Roma hüququ da ehtiyatsızlığın (culpa) iki formasını fərqləndirirdi: kobud ehtiyatsızlıq (culpa lata); yüngül diqqətsizlik (culpa levis)[2]. Roma hüquqşünasları bu formaların hər birinə anlayış verirdilər. Hər bir orta səviyyəli şəxsin başa düşdüyünü və nəzərdə tutduğunu, əgər şəxs başa düşmürsə və nəzərdə tutmursa, onda həmin şəxsin hərəkəti kobud ehtiyatsızlıq hesab edilirdi. Yaxşı, qayğıkeş sahibin yol vermədiyi davranış yüngül diqqətsizlik hesab olunurdu.

Qeyd etdik ki, cinayət hüququ məsuliyyətin həcminin hüquq pozuntusu törədən şəxsin təqsir dərəcəsindən birbaşa asılı olması qaydasını müəyyən edir. Mülki hüquqda isə ümumi qayda belədir ki, əgər təqsir varsa, onda hüquq pozuntusu törədən şəxs təqsirin formasından asılı olmayaraq, vurulmuş zərərin əvəzini tam həcmdə ödəməlidir (MM-in 21-ci maddəsinin 1-ci bəndi). Başqa sözlə desək, cinayət hüququndan fərqli olaraq **mülki hüquqda məsuliyyətin əmələ gəlməsi üçün təqsirin formasının əhəmiyyəti yoxdur**. Zərərvuran həm qəsdən, həm də ehtiyatsızlıqdan hərəkətlər etməyə görə eyni dərəcədə mülki hüquq məsuliyyəti daşıyır. Bununla belə, elə hallar vardır ki, təqsirin forması mülki hüquq məsuliyyətinin həcminə təsir göstərir. Qarışıq təqsir bu cür hala misal ola bilər.

[1] bax: *Səməndərov F.Y.* Cinayət hüququ. Dərslik. Bakı. 1999; *Naumov A.V.* Cinayət hüququ, Mühazirə kursu. Bakı. 1998, s. 250 (Rus dilindən tərcümə); Уголовное право. Учебник. Общая часть / Под ред. *В.Н.Петрашева*. М., 1999, с. 197.

[2] bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 134.

Qarışıq təqsir odur ki, mülki hüquq pozuntusu hər iki tərəfin — həm kreditorun, həm də borclunun təqsiri üzündən baş verir. Məsələn, öhdəlik hər iki tərəfin təqsiri üzündən icra edilmir və ya lazımınca icra edilmir. Başqa bir misalda piyada kobud ehtiyatsızlıq (təqsirin forması) edərək küçəni qırmızı işıqda keçərkən sərxoş sürücü tərəfindən vurulur və xəsarət alır. Beləliklə, ona zərər vurulur. Zərərin əmələ gəlməsinə zərərçəkənin (piyadanın) kobud ehtiyatsızlığı və zərərvuranın (sürücünün) təqsiri səbəb olur.

Qarışıq təqsir həm müqavilə, həm də müqavilədənkənar, yəni delikt (zərər vurmaq nəticəsində əmələ gələn) öhdəliklərdə yarana bilər. MM-in 458-ci maddəsinin 1-ci bəndi müqavilə öhdəliyinin hər iki tərəfin təqsiri üzündən pozulmasına görə qarışıq təqsir prinsipi müəyyən edir. MM-in 1116-cı maddəsinin 2-ci bəndi isə delikt (müqavilədənkənar) öhdəliklərə münasibətdə qarışıq təqsir prinsipini nəzərdə tuturdu. İndi bu maddə heç bir əsas olmadan MM-dən çıxarılmışdır.

Qarışıq təqsirin bir neçə xüsusiyyəti vardır. Onun birinci və əsas xüsusiyyəti ondan ibarətdir ki, **zərər hər iki tərəfin, yəni həm kreditorun, həm də borclunun təqsirli davranışı üzündən əmələ gəlir**. Belə ki, zərərin yaranmasında hər iki tərəfin təqsiri əsas olur. Məsələn, yuxarıdakı misalda qırmızı işıqda küçəni keçən piyada kobud ehtiyatsızlıq formasında təqsirli hərəkət edir. Ona xəsarət yetirən sərxoş sürücü də təqsirli hərəkətə yol verir. Deməli, piyadanın sağlamlığına vurulmuş zərər hər iki tərəfin təqsiri üzündən əmələ gəlir.

Qarışıq təqsirin ikinci xüsusiyyəti ondan ibarətdir ki, zərərin hər iki tərəfin təqsiri üzündən yaranmasına baxmayaraq, **zərərə yalnız öhdəlik** subyektlərindən (tərəflərdən) biri düşür. Bu tərəf kreditordur (zərərçəkəndir). Zərər onun əmlak sahəsində əmələ gəlir. Məsələn, yuxarıdakı misalda zərərə kobud ehtiyatsızlığa yol verən piyada düşür ki, o, həmin şəraitdə yaranan delikt öhdəliyinin kreditoru rolunda çıxış edir. Zərər piyadanın (kreditorun) əmlak sferasında əmələ gəlir. Belə ki, o, aldığı xəsarət nəticəsində işə çıxmır, əmək haqqından (qazancdan) məhrum olur, müalicəyə, dava-dərman alınmasına müvafiq xərc çəkir.

Qarışıq təqsirin üçüncü xüsusiyyəti ondan ibarətdir ki, **zərər tam və bütöv halında yarandığına görə və onun hansı hissəsinin kreditorun, hansı hissəsinin borclunun təqsirli davranışı nəticəsində əmələ gəldiyini müəyyənləşdirmək mümkün olmur**. Məsələn, daşıma müqaviləsi üzrə daşıyıcı tez xarab olunan yükün (ərzaq məhsullarının) təyinat yerinə çatdırılmasını gecikdirir. Yük alan isə həmin yükün (ərzaq məhsullarının) alınmasını gecikdirir. Bunun nəticəsində yük xarab olur və zərər əmələ gəlir. Belə halda, şübhəsiz, dəqiq olaraq müəyyənləşdirmək mümkün olmur ki, zərərin hansı hissəsi yük göndərənin, hansı hissəsi isə yük alanın təqsiri üzündən yaranmışdır.

Qarışıq təqsir halı yarandıqda borclunun məsuliyyətinin ölçüsü müvafiq surətdə azaldılır (MM-in 458-ci maddəsinin 1-ci bəndi). Bu, o deməkdir ki, **zərər kreditor və borclu şəxs arasında bölüşdürülür**, yəni kreditora zərərin əvəzinin yalnız müəyyən bir hissəsi ödənilir. Zərərin qalan hissəsi kreditorun payına düşür və borclunun hesabına ödənilmir. Amma zərərin hansı hissəsinin kreditorun, hansı hissəsinin borclunun təqsiri üzündən əmələ gəldiyini təyin

etmək mümkün olmadığına görə, zərərin tərəflər arasında bölüşdürülməsi mümkün, lakin çətin məsələyə çevrilir. Bunu nəzərə alaraq qanun zərərin tərəflər arasında bölüşdürülməsini təyin etməyi, borclunun hansı məbləğdə zərərin əvəzini ödəməyi müəyyənləşdirməyi məhkəməyə həvalə edir. Qanun göstərir ki, mülki hüquq pozuntusuna hər iki tərəfin təqsiri üzündən yol verilərsə, onda məhkəmə borclunun məsuliyyətinin ölçüsünü müvafiq surətdə azaldır (MM-in 458-ci maddəsinin 1-ci bəndi).

Məhkəmə zərəri tərəflər arasında bölüşdürərkən **kreditorun və borclunun təqsir dərəcəsini (formasını)** əldə əsas tutur. Belə ki, zərərin daha çox hissəsi təqsir dərəcəsi nisbətən yuxarı olan tərəfin (öhdəlik iştirakçısının) payına düşür. Əgər tərəflərin təqsir dərəcəsi bərabər olarsa, onda zərər onlar arasında bərabər qaydada bölünür. Əgər borclunun təqsir dərəcəsi daha çox olarsa, onda zərərin çox hissəsi də onun payına düşür. Əgər kreditorun təqsir dərəcəsi nisbətən çox olarsa, onda zərərin çox hissəsi də onun payına düşür. Hava gəmilərinin toqquşması zamanı, əgər zərər hər iki tərəfin təqsiri üzündən dəyibsə, onda tərəflərin hər birinin məsuliyyəti təqsirin dərəcəsinə uyğun surətdə müəyyənləşdirilir; tərəflərin hər birinin təqsir dərəcəsini müəyyənləşdirmək mümkün olmadıqda, məsuliyyət onların arasında bərabər bölünür (qüvvədən düşmüş Hava Məcəlləsinin 67-ci maddəsi)[1]. Məsələn, yuxarıda çəkdiyimiz misalda elə hesab edək ki, daşıyıcı tərəfindən təyinat yerinə çatdırılması gecikdirilən və yük alan tərəfindən vaxtında alınmayan ərzaq məhsulları (yük) xarab olur. Bununla on min manat məbləğində zərər vurulur. Əgər hər iki tərəf kobud ehtiyatsızlıq formasında təqsirli hərəkətlərə yol verərsə, onda zərər tərəflər arasında bərabər (yarıbayarı) qaydada bölünür, yəni daşıyıcı (borclu) kreditora (yük alana) yalnız beş min manat (10 min manat : 2 = 5 min manat) ödəyəcəkdir. Zərərin qalan hissəsi olan beş min manatı daşıyıcı yük alana ödəməyəcəkdir. Çünki həmin məbləğ yük alanın payına düşür.

Əgər borclu kobud ehtiyatsızlıq formasında, kreditor sadə (yüngül) ehtiyatsızlıq formasında təqsirli davranışa yol verərsə, onda borclu zərərin əvəzini nisbətən daha çox məbləğdə (miqdarda) ödəyəcəkdir. Ona görə ki, kobud ehtiyatsızlıq kimi təqsir forması sadə (yüngül) formaya nisbətən daha çox zərər yetirmək xüsusiyyətinə malikdir. Bunun üçün də borclu (daşıyıcı), məsələn, yeddi min manat ödəyir. Zərərin qalan hissəsini (yəni 10 min manat – 7 min manat = 3 min manat) — üç min manatı daşıyıcı (borcluya) ödəmir. Ona görə ki, üç min manat kreditorun (yük alanın) payına düşür.

Başqa bir halda zərər borclunun (daşıyıcının) qəsdi, kreditorun (yük alanın) kobud ehtiyatsızlığı nəticəsində əmələ gəlir, yəni ərzaq məhsulları xarab olur. Bu halda, söz yox ki, borclunun (daşıyıcının) məsuliyyət həcmi artır. O, zərərin əvəzini daha çox miqdarda ödəyir (məsələn, onun payına doqquz min manat düşür, qalan bir min manat isə yük alanın hesabına düşür).

Qarışıq təqsir halında kreditor bir neçə əsasa görə məsuliyyət daşıyır və bu, məhkəməyə ixtiyar verir ki, borclunun payına düşən zərəri (məsuliyyət ölçüsünü) azaltsın. Həmin əsaslara aiddir:

- öhdəliyi icra etməmək və ya lazımınca icra etməmək nəticəsində dəyən **zərərin miqdarının artmasına kreditorun qəsdən köməklik göstərməsi** (məsələn, yuxarıdakı misalda yük alanın ərzaq məhsullarının daşıyıcıdan alınmasını qəsdən gecikdirməsi və bunun nəticəsində ərzaq məhsullarının tamamilə xarab olması);
- öhdəliyi icra etməmək və ya lazımınca icra etməmək nəticəsində dəyən **zərərin miqdarının artmasına kreditorun ehtiyatsızlıqdan köməklik göstərməsi** (məsələn, yük alan yükün tez xarab olan ərzaq məhsulları olmasını unudur və ona görə də stansiyaya vaxtında gəlmir);
- **kreditor zərəri azaltmaq üçün ağlabatan tədbirlər görmür** (məsələn, yük alan tez xarab olan ərzaq məhsullarını dəmir yolu stansiyasında qəbul etdikdən sonra həmin məhsulları hava yolu ilə daşımaq əvəzinə, çay nəqliyyatından istifadə edir).

Bununla belə, həyatda elə öhdəliklər vardır ki, borclu öz təqsirindən asılı olmayaraq öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün məsuliyyət daşıyır. Belə hallara təqsirsiz məsuliyyət deyilir. Təqsirsiz məsuliyyət təqsirdən asılı olmur. Bu halda əgər kreditor təqsirli davranışa yol verərsə, onda borclunun məsuliyyətinin ölçüsü müvafiq surətdə azaldılır (MM-in 458-ci maddəsinin 2-ci bəndi)[1].

Qarışıq təqsiri birgə məsuliyyət halından fərqləndirmək lazımdır. Birgə məsuliyyət halında zərər bir neçə şəxs tərəfindən vurulur, lakin zərərçəkənin (kreditorun) təqsiri olmur.

7. Mülki hüquqda təqsirsiz məsuliyyət

Ümumi qayda belədir ki, mülki hüquqda məsuliyyət təqsirə əsaslanır. Təqsirə görə məsuliyyət prinsipi mülki hüququn ən başlıca və fundamental prinsiplərindən biridir. Bu prinsipə görə, hüquq pozuntusu törətməkdə təqsirli sayılan şəxs mülki hüquq məsuliyyətinə cəlb edilir. Əgər şəxsin təqsiri olmazsa, onda o, mülki hüquq məsuliyyətindən azad edilir. Amma bu qaydadan müəyyən istisnaya yol verilir. Belə ki, **mülki hüquq məsuliyyətinin zəruri şərti kimi təqsir haqqında qayda imperativ yox, dispozitiv xarakterə malikdir**. Qanunvericilikdə nəzərdə tutula bilər ki, borclu öhdəliyi icra etməməsi və ya lazımınca icra etməməsinə görə və ya zərərvuran təqsirdən asılı olmayaraq məsuliyyət daşıyır. Bu, o deməkdir ki, cinayət hüququndan fərqli olaraq mülki hüquqda təqsirdən asılı olmayan məsuliyyət yarana bilər. Bu cür təqsir sivilistika doktrinasında «təqsirsiz məsuliyyət», «təqsirdən asılı olmayan məsuliyyət» və ya «obyektiv məsuliyyət» adlanır. **Təqsirsiz məsuliyyət dedikdə, şəxsin təqsir olmadan mülki hüquq məsuliyyətinə cəlb edilməsi başa düşülür**. Təqsirsiz məsuliyyət pozuntu törədən şəxsin (zərərvuranın) təqsirindən asılı olmayan məsuliyyətdir[2].

Təqsir olmadan şəxsin məsuliyyət daşıması mülki hüquq doktrinasında mü-

[1] bax: AR QK, II cild, s. 173.

[1] Delikt öhdəliklərində zərərvuranın (borclunun) təqsirinin nəzərə alınması barədə bu dərsliyin ikinci cildinin 41-ci fəslinin 3-cü paraqrafına bax.

[2] Təqsirsiz məsuliyyət anlayışı Almaniya mülki qanunvericiliyinə də məlumdur. Yüksək təhlükə mənbəyinin vurduğu ziyan təqsirdən asılı olmayaraq məsuliyyətə səbəb olur (*Brox H.* Allgemeines Schuldrecht. München. 1993, s. 180; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 367).

bahisə doğuran məsələdir. **«Mülki hüquq pozuntusu tərkibi» adlı konsepsiya** tərəfdarlarının fikrincə, təqsir olmadan məsuliyyətdən söhbət gedə bilməz, təqsirsiz məsuliyyət yarana bilməz[1]. **«Qısaldılmış mülki hüquq pozuntusu» konsepsiyası** tərəfdarlarının mövqeyi daha geniş dəstək almışdır. Onlar göstərirlər ki, qısaldılmış mülki hüquq pozuntusu halında da məsuliyyət yaranır. Bu konsepsiya tərəfdarları öz mövqelərini müxtəlif dəlillərlə əsaslandırırlar. Göstərilən konsepsiya özündə iki nəzəriyyəni əhatə edir: «iki əsas nəzəriyyəsi»ni; «stimullaşdırma nəzəriyyəsi»ni.

«İki əsas nəzəriyyəsi» tərəfdarları göstərirlər ki, mülki hüquqda eyni və bərabər qaydada həm təqsirli, həm də təqsirsiz məsuliyyət mövcuddur[2]. **«Stimullaşdırma nəzəriyyəsi»** tərəfdarları isə belə hesab edirlər ki, mülki hüquq məsuliyyəti bütün hallarda təqsirin olmasını tələb edir, yalnız zərərçəkənin mənafeyi və digər praktiki plan mülahizələri qanunvericini təqsirli məsuliyyət prinsipindən müəyyən istisnaya yol verməyə məcbur edir[3]. Bu, nəzəriyyə sivilistika doktrinasında həm də **«istisnaya yol verən nəzəriyyə»** adlanır[4].

Qeyd etmək lazımdır ki, həm köhnə, həm də indiki qanunvericilik «stimullaşdırma nəzəriyyəsi»nin mövqeyini nəzərə almışdır. Yeni MM köhnə MM kimi həm təqsirli, həm də təqsirsiz məsuliyyəti tənzimləyir[5]. Təqsirsiz məsuliyyətə görə təqsir məsuliyyətin zəruri şərti hesab edilmir. MM-də bir neçə norma vardır ki, bu normaların mövcudluğu qanunvericiliyə təqsirsiz məsuliyyət anlayışının məlum olmasını sübut edir. Həmin normalara aiddir:

- sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər (sahibkarlar) təqsirdən asılı olmayaraq məsuliyyət daşıyırlar (MM-in 455-ci maddəsinin 3-cü bəndi); hal-hazırda bu maddə MM-dən çıxarılmışdır;
- ətrafdakılar üçün yüksək təhlükə ilə bağlı fəaliyyət nəticəsində zərər vurmuş fiziki və hüquqi şəxslər təqsirdən asılı olmadan məsuliyyət daşıyırlar (MM-in 1108-ci maddəsinin 1-ci bəndi);
- Azərbaycan Respublikası (dövlət) qanunsuz məhkumetmə, cinayət məsuliyyətinə qanunsuz cəlb etmə, qətimkan tədbiri kimi həbsə almanın və ya başqa yerə getməmək haqqında iltizamın qanunsuz tətbiqi, inzibati tənbehin qanunsuz verilməsi nəticəsində fiziki şəxsə vurulmuş zərərə görə təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının vəzifəli şəxslərinin təqsirindən asılı olmayaraq məsuliyyət daşıyır (MM-in 1101-ci maddəsinin 1-ci bəndi);
- keyfiyyətsiz məhsul nəticəsində və s. dəyən zərərə görə malın satıcısı və ya istehsalçısı təqsirdən asılı olmayaraq məsuliyyət daşıyır (MM-in 1128-ci maddəsinin 1-ci bəndi).

Hüquq ədəbiyyatında təqsirsiz məsuliyyət anlayışının əsaslandırılması üçün üç arqument irəli sürülür[1]. Birinci arqument ondan ibarətdir ki, təqsirsiz məsuliyyət haqqında normalar borclunu öhdəliyi lazımınca icra etməyə meyilləndirir, onda stimul yaradır. Bu normalar stimullaşdırma xarakterinə malikdir. İkinci arqument ondan ibarətdir ki, bu cür normaların meydana gəlməsi zərərçəkənin əmlak mənafeyini təmin etmək zərurəti ilə bağlıdır. Təqsirsiz məsuliyyət haqqında normalar mülki qanunvericiliyə ona görə daxil edilmişdir ki, həmin normalar zərərçəkənin əmlak mənafeyini təmin etməyə imkan versin. Üçüncü arqument təqsirsiz vurulmuş zərərin əvəzinin ödənilməsi üzrə vəzifəni məsuliyyət adlandıran qanunun terminologiyası ilə bağlıdır[2].

§ 4. Məsuliyyətin ölçüsü

Mülki hüquq məsuliyyətinin əsas fundamental prinsipi **zərərin tam həcmdə ödənilməsi prinsipidir**[3]. Qeyd etdiyimiz kimi, bu prinsip zərərçəkənin əmlak vəziyyətinin bərpa edilməsini nəzərdə tutur. Göstərilən prinsip qanunun müvafiq normasında konkret olaraq ifadə olunmuşdur (MM-in 21-ci maddəsinin 1-ci bəndi). Həmin prinsipə görə, hüququ pozulmuş şəxs (zərərçəkmiş şəxs) zərərin əvəzinin tam ödənilməsini tələb edə bilər.

Zərərin tam həcmdə ödənilməsi prinsipi mülki hüququn nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin əmtəə-pul təbiətinə malik olması ilə bağlıdır. Bu prinsip həm də mülki hüquq məsuliyyətinin kompensasiya-bərpa etmək kimi əsas və başlıca funksiyası ilə şərtlənir. Axı, kompensasiya-bərpa etmək funksiyası zərərçəkən (kreditor) üçün əmələ gələn arzuolunmaz mənfi nəticələrin hüququ pozan şəxsin (borclunun) hesabına aradan qaldırılmasında ifadə olunur.

Zərərin tam həcmdə ödənilməsi prinsipi onu ifadə edir ki, zərərvuran (borclu) zərərin (itkinin) hər iki hissəsini, yəni **həm real zərəri, həm də əldən çıxmış faydanı ödəyir**. Məsələn, gərgin zehni əməklə məşğul olan professor yay aylarında istirahət etmək üçün Novxanıda bağ evini kirayəyə götürür. Pro-

---

[1] Bu konsepsiya «mülki hüquq pozuntusu tərkibini» mülki hüquq məsuliyyətinin əsası hesab edir. Belə ki, zərər, hüquqazidd davranış, səbəbli əlaqə və təqsir mülki hüquq pozuntusunun tərkibini əmələ gətirir və bu tərkib hissələrindən birinin (o cümlədən təqsirin) olmaması mülki hüquq məsuliyyətinin əmələ gəlməsinə səbəb olmur (bax: *Алексеев С.С.* О составе гражданского правонарушения // Правоведение. 1958. № 1; *Иоффе О.С.* Ответственность по советскому гражданскому праву. Л., 1955, с. 94; *Матвеев Г.К.* Основания гражданско-правовой ответственности. М., 1970; *Калмыков Ю.К.* Об элементах состава гражданского правонарушения // Уч. зап. Саратовского юрид. инс-та. Вып. X. 1962; *Малеин Н.С.* Имущественная ответственность в хозяйственных отношениях. 1968, с. 22).

[2] bax: *Яичков К.К.* Система обязательств из причинения вреда в советском гражданском праве // Вопросы гражданского права. М., 1957, с. 170.

[3] bax: Советское гражданское право. Учебник для юрид. школ. М., 1950, с. 521 (автор *Серебровский В.И.*); *Антимонов Б.С.* Значение вины потерпевшего при гражданском правонарушении. М., 1950.

[4] Гражданское право России. Курс лекций. Часть 2 / Под ред. *О.Н.Садикова*. М., 1997, с. 645; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 453.

[5] Sovet qanunvericiliyində təqsirsiz məsuliyyət barədə bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 2 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 488.

[1] bax: *Иоффе О.С.* Обязательственное право. М., 1975, с. 147.

[2] Müəlliflərdən N.S.Malein göstərir ki, təqsirsiz məsuliyyət halında mülki hüquq münasibətində iştirak edən təqsiri olmayan bərabərhüquqlu iki tərəfin (borclu və kreditorun) mənafeyi arasında ziddiyyət (kolliziya) yaranır. Onun fikrincə, bir tərəfin mənafeyini digər tərəfin mənafeyinə qurban vermək sosial cəhətdən ədalətsizlikdir. Müəllif göstərir ki, qanunverici hər hansı təqsir olmadan yaranan zərərin bölüşdürülməsinin digər formasını (məsuliyyətdən asılı olmayan) axtarıb tapmalıdır: məsuliyyətin sığortası; xüsusi dövlət və ictimai fondların yaradılması və s. (bax: *Малеин Н.С.* Юридическая ответственность и справедливость. М., 1992, с. 81).

[3] Müəlliflərdən V.A.Tarxov göstərir ki, bunu prinsip hesab etmək olmaz. Bu, elə bir idealdır ki, ona nail olmaq həmişə mümkün olmur (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 440).

fessorun təqsiri üzündən taxtadan tikilmiş bağ evinin bir hissəsi yanır. Bağ evi iki aya təmir olunur. Professor bağ evinin sahibinə (kirayəyə verənə) vurulan zərərin hər iki hissəsinin (real zərərin və əldən çıxmış faydanın) əvəzini ödəməlidir. Real zərər bağ evinin təmir olunmasına (bərpa edilməsinə) çəkilən xərclərdən ibarətdir. Əldən çıxmış fayda isə bağ evinin təmir olunduğu iki ay müddətində kirayəyə verənin məhrum olduğu iki aylıq kirayə haqqından ibarətdir. Fərz edək ki, bağ evinin təmirinə (bərpasına) beş min manat pul xərclənmişdir. Aylıq kirayə haqqı dörd yüz manatdır. Professor bağ evi sahibinə vurulmuş zərərin əvəzini ödəyir: beş min manat (real zərər) + iki aylıq kirayə haqqı, yəni iki (2) x dörd yüz (400) manat (əldən çıxmış fayda) = beş min səkkiz yüz manat (5.800 min manat).

Zərərin tam həcmdə ödənilməsi prinsipi qanunda müəyyənləşdirilən hallarda **həm də mənəvi zərərin (ziyanın) ödənilməsini** nəzərdə tutur. Məsələn, «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında» 29 dekabr 1998-ci il tarixli qanunun 5-ci maddəsi tam həcmdə ödənilməli olan zərərin tərkibini müəyyən edir: fiziki şəxsin müsadirə olunmuş, müvafiq orqanlar tərəfindən götürülmüş, üzərinə həbs qoyulmuş əmlakı; məhkəmə məsrəfləri ilə bağlı ondan tutulmuş məbləğlər, həmçinin hüquqi yardımın göstərilməsi ilə əlaqədar ödənilmiş məbləğlər (bunların hamısı birlikdə real zərəri əmələ gətirir); qanunsuz hərəkətlər nəticəsində onun itirdiyi mənfəət və digər gəlirlər (əldən çıxmış fayda); mənəvi zərər (qeyri-əmlak zərəri)[1].

Mənəvi (qeyri-əmlak) zərərin kompensasiya (əvəz) edilməsinin həcmi məhkəmə tərəfindən müəyyən edilir. Bu cür zərərin kompensasiyası pulla ifadə olunur. Öz təbiətinə görə mənəvi zərərin kompensasiyası məsuliyyət tədbirlərinə (cəriməyə) aiddir. Məhkəmə kompensasiyanın həcminə təsir göstərən hallara xüsusi diqqət yetirir və onları nəzərə alır. Onun həcmi maddi zərərin (itkinin) və digər maddi tələblərin əvəzinin ödənilməsi barədə iddianın təmin edilməsi həcmindən asılı edilə bilməz[2]. Bu, o deməkdir ki, maddi zərərin kompensasiyasının həcmi mənəvi (qeyri-əmlak) zərərin kompensasiyası həcminə təsir göstərə bilməz. Məsələn, hesab edək ki, maddi zərərin (itkinin) miqdarı beş min manat, mənəvi zərərin həcmi isə iki min manat müəyyənləşdirilir. Zərərvuran cəmi yeddi (5+2) min manat ödəməlidir.

Əvəzi ödənilməli olan zərərin miqdarı (həcmi) müəyyənləşdirilərkən bəzi hallar nəzərə alınmalıdır. Bu cür hallara aiddir:

- zərərin əvəzinin ödənilməsi barədə kreditorun (zərərçəkənin) irəli sürdüyü tələbin borclu (zərərvuran) tərəfindən könüllü və ya məcburi qaydada (məhkəmə vasitəsilə) təmin edilməsi;
- öhdəliyin icra edildiyi yerdə mövcud olan qiymət;
- hüququ pozan borclunun (zərərvuranın) bu hüququn pozulması nəticəsində gəlir əldə etməsi.

Əgər kreditorun tələbini borclu könüllü ödəyərsə, onda ödəniş günü öhdəliyin icra edilməli olduğu mövcud olmuş qiymətlər nəzərə alınır və əsas kimi götürülür. Yox, əgər borclu kreditorun tələbini könüllü yox, məcburi qaydada təmin edərsə, yəni məhkəmə vasitəsilə icra edərsə, onda ödəniş günü yox, məhkəmənin qərar çıxardığı gün mövcud olmuş qiymətlər nəzərə alınır (MM-in 443-cü maddəsinin 3-cü bəndi). Belə təsəvvür yaranır ki, zərərin əvəzinin borclu tərəfindən könüllü ödənilməməsi (məhkəmə vasitəsilə) zərərin həcmini artıra bilər. Belə ki, məhkəmə qərar qəbul etdiyi günə kimi qiymətlər bahalaşa bilər, yəni ödənişin həyata keçirilməli olduğu gündə mövcud qiymətlə məhkəmə qərar çıxardığı gün mövcud olan olan qiymət arasında fərq yarana bilər. Zərərin həcmi (miqdarı) hesablanarkən bu fərq nəzərə alınır. Bu isə, şübhəsiz ki, zərərin həcminin artmasına təsir göstərir. Lakin qiymətlər barədə norma dispozitiv xarakter daşıyır. Belə ki, qanunda (MM-də) və ya müqavilədə bundan fərqli qayda müəyyən edilə bilər.

Zərərin ikinci hissəsinin — əldən çıxmış faydanın həcminin müəyyənləşdirilməsi müəyyən xüsusiyyətlərə malikdir. Borclu (zərərvuran) hüququ pozmaq nəticəsində gəlir əldə edir. Məsələn, öz qonşusundan borc alan vətəndaş aldığı borc məbləğinin qaytarılmasını bir il gecikdirir və həmin məbləği o, banka depozitə qoyur (illik 12 %-lə) və bununla gəlir götürür. Belə halda kreditor (borc verən qonşu) həm real zərərin, həm də əldən çıxmış faydanın ödənilməsini tələb edə bilər. Əldən çıxmış faydanın həcmini müəyyənləşdirərkən, əgər öhdəlik icra olunsaydı, kreditorun çəkməli olduğu ağlabatan xərclər nəzərə alınır[1]. Xüsusən xammal və ya komplektləşdirici məmulatlar göndərilməməsi üzündən əldən çıxmış faydanın (əldə olunacaq gəlirin) həcmi müəyyənləşdirilərkən, malların istehsalı ilə bağlı olan xərclər çıxılmaqla, hazır malların satış (realizə olunması) qiyməti nəzərə alınır[2].

Almaniya mülki hüququnda **«differens-hipoteza»** adlı qayda zərərin qiymətləndirilməsinin əsası kimi çıxış edir. Bu qaydaya görə, zərər faktiki vəziyyətlə hipotetik vəziyyət arasında fərq kimi müəyyənləşdirilir. Faktiki vəziyyət vurulmuş ziyan nəticəsində əmələ gələn vəziyyətdir. Hipotetik vəziyyət isə vurulmuş ziyan olmadan, yəni vurulmuş ziyandan əvvəl mövcud olan vəziyyətdir[3].

Əvvəlki yarımbaşlıqların birində qeyd etdiyimiz kimi, mülki hüquq məsuliyyətinin iki əsas forması vardır. Bu cür formalara aiddir: zərərin əvəzinin ödənilməsi; dəbbə pulu. Əgər zərərin əvəzinin ödənilməsi forması mülki hüquq məsuliyyətinin universal-ümumi xarakterli tədbiridirsə, dəbbə pulu xüsusi təbiətə malik olan məsuliyyət tədbiridir (ölçüsüdür). Elə hallar yaranır ki, borclu öhdəliyi icra etmir və bununla hüquq pozuntusuna yol verir. Bunun üçün o, zərərin əvəzinin ödənilməsi formasında məsuliyyət daşıyır. Bununla belə, qanunda və ya müqavilədə öhdəliyin icra edilmədiyi və ya lazımınca icra edilmədiyi, o cümlədən icranın gecikdirildiyi halda dəbbə pulu (borclunun kreditora ödəməli olduğu pul məbləği) alınması nəzərdə tutula bilər. Belə halda borclunun mə-

[1] bax: «Hüquqi dövlət və qanun». Elmi-kütləvi aylıq jurnal. Bakı. 1999. № 3-4, s. 33.

[2] bax: постановления Пленума Верховного Суда РФ от 20 декабря 1994 г. «Некоторые вопросы применения законодательства о компенсации морального вреда» (Бюллетень Верховного Суда Российской Федерации. 1995. № 3, с. 10).

[1] bax: п. 11 постановления Пленума Верховного Суда РФ и Пленума Высшего Арбитражного Суда РФ «О некоторых вопросах, связанных с применением части первой Гражданского кодекса Российской Федерации» от 1 июля 1996 г. (Бюллетень Верховного Суда Российской Федерации. 1996. № 9).

[2] yenə orada.

[3] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 369.

suliyyət həcmi necə müəyyən edilir? O, kreditora zərərin əvəzini dəbbə pulu ilə birlikdə ödəyirmi? Yoxsa, borclu təkcə zərərin əvəzini ödəyir və yaxud o, kreditora ancaq dəbbə pulu verir? Beləliklə, dəbbə pulu alınması nəzərdə tutulduğu halda təbii olaraq belə bir sual meydana çıxır: kreditor dəbbə pulu alınması ilə bərabər, eyni zamanda həm də zərərin əvəzinin ödənilməsini tələb edə bilərmi? Qoyulmuş bu cür sualın cavabı qanunla və ya müqavilə ilə müəyyənləşdirilən dəbbə pulunun növündən asılıdır. Mülki məsuliyyətin forması olan dəbbə pulunu zərərin əvəzinin ödənilməsi kimi universal məsuliyyət formasına uyğunlaşdırmaq imkanından asılı olaraq qanun dəbbə pulunun dörd növünü fərqləndirir:

- əvəzləşdirmə dəbbə pulu;
- cərimə dəbbə pulu;
- müstəsna dəbbə pulu;
- alternativ dəbbə pulu.

Biz əvvəlki fəsillərin birində bu məsələyə toxunmuşuq. Onu bir daha qısaca nəzərdən keçirməyi zəruri hesab edirik.

Əvəzləşdirmə dəbbə pulu zərərin dəbbə pulu çatmamış hissəsinin əvəzinin ödənilməsini nəzərdə tutur (MM-in 466-cı maddəsinin 1-ci bəndi). Məsələn, öhdəliyin icra edilməməsi nəticəsində kreditora 7 min manat zərər vurulmuşdur. Dəbbə pulu haqqında sazişdə dəbbə pulunun məbləği 2 min manat nəzərdə tutulmuşdur. Borclu kreditora ödəyir: dəbbə pulu (2 min manat) + zərərin dəbbə pulu çatmamış hissəsinin əvəzi (7 min manat – 2 min manat = 5 min manat). Cəmi: 2 min manat + 5 min manat = 7 min manat.

Cərimə (kumulyativ) dəbbə pulu odur ki, öhdəlik pozulduğu halda borclu kreditora həm dəbbə pulunu, həm də zərərin əvəzini tam həcmdə ödəyir (MM-in 466-cı maddəsinin 2-ci bəndinin 2-ci yarımbəndi). Yuxarıdakı misalda borclu kreditora ödəyir: 2 min manat + 7 min manat = 9 min manat.

Müstəsna dəbbə pulu odur ki, borclu zərərin əvəzini ödəmir, o, təkcə dəbbə pulunu verir (MM-in 466-cı maddəsinin 2-ci bəndinin 1-ci yarımbəndi). Göstərdiyimiz misalda borclu kreditora yalnız 2 min manat ödəyir.

Alternativ dəbbə pulu odur ki, kreditorun istəyinə uyğun olaraq borclu mümkün olan iki alternativ variantdan (yoldan) birini seçir (MM-in 466-cı maddəsinin 2-ci bəndinin 3-cü yarımbəndi). Borclu ya 2 min manat məbləğində dəbbə pulunu, ya da 7 min manat miqdarında zərərin əvəzini ödəyir.

Dəbbə pulunun miqdarı qanunda və ya müqavilədə nəzərdə tutulur. Buna görə də dəbbə pulunun miqdarını müəyyənləşdirmək və hesablamaq çətinlik törətmir. Məsələn, qüvvədən düşmüş Hava Məcəlləsinin 108-ci maddəsinə görə, yükün təyinat yerinə çatdırılma müddətinin ötürülməsinə görə daşıyıcı yük alana ötürülmüş (gecikdirilmiş) hər gün üçün daşıma haqqının 5 faizi qədər dəbbə pulu (penya) ödəyirdi[1]. Bu halda dəbbə pulunun məbləği qanunla müəyyən edilir. Özü də qanuni dəbbə pulu tərəflərin sazişində nəzərdə tutulub-tutulmamasından asılı olmayaraq borclu tərəfindən ödənilir.

Mülki hüquq məsuliyyətinin əsas və universal forması olan zərərin əvəzinin ödənilməsinə gəldikdə isə qeyd etmək lazımdır ki, dəbbə pulu formasından fərqli olaraq onun həcmini hesablamaq bəzi hallarda mürəkkəb bir işə çevrilir. Bu cür çətin vəziyyətin yaranmasının qarşısını almaq məqsədi ilə tərəflər konkret müqavilədə əvvəlcədən zərərin əvəzinin ödənilməsi barədə şərt nəzərdə tuturlar və bu yolla zərərin həcmini qabaqcadan müəyyənləşdirirlər. Bir şərtlə ki, bu, qanunun göstərişlərinə zidd olmasın. Bəzi hallarda məlum olur ki, konkret müqavilədə nəzərdə tutulan zərərin həcmi real və faktiki zərərin həcminə uyğun gəlmir. Belə halda, söz yox ki, konkret müqavilə şərti əsas götürülür. Ona görə ki, qanun əsasında bağlanan müqavilə, onu bağlayan tərəflər üçün qanundur (Fransa MM-in 1134-cü maddəsinin 1-ci hissəsi).

Almaniya mülki hüquq elmində göstərilir ki, zərərin əvəzinin ödənilməsi problemi aşağıdakı yollarla həll edilir: birincisi, zərərin mövcudluğunu yoxlamaqla; ikincisi, zərərin əvəzinin ödənilməsi barədə tələbin əsasını müəyyənləşdirməklə; üçüncüsü, zərərin nəticəsini aşkar etməklə[1].

Zərərin əvəzinin ödənilməsi üsullarından biri **zərərin əvəzinin naturada ödənilməsi üsulu** adlanır (MM-in 1115-ci maddəsi). Bu üsul hüquq ədəbiyyatında mülki hüquq məsuliyyətinin formalarından biri hesab edilir[2]. Zərərin əvəzinin naturada ödənilməsi üsulu əsasında kreditora eyni növlü və keyfiyyətli əmlak verilir, zədələnmiş əmlak düzəldilir və s[3]. Bu üsuldan çox vaxt delikt (ziyan vurmaq nəticəsində əmələ gələn) öhdəliklərində istifadə olunur. Məsələn, yük maşınının sürücüsü səkidə dayanan minik avtomobilini vurub zədələyir. Sürücü həmin avtomobili təmir etdirir və onun zədələnmiş yerlərini düzəltdirir. Başqa bir misalda yüksək sürətlə yük maşınını idarə edən sürücü kənd sakininin iki qoyununu maşınla vurur. Bunun nəticəsində qoyunlar ölür. Sürücü həmin qoyunların cinsindən (növündən) olan iki başqa qoyun verməklə zərərin əvəzini naturada ödəyir.

Göstərilən üsul **məhkəmə qərarı əsasında tətbiq olunur**. Məhkəmə həmin üsulun tətbiqi barədə qərar çıxararkən işin konkret hallarını nəzərə alır.

Zərərin əvəzinin naturada ödənilməsi üsulundan müqavilə öhdəliklərində də istifadə oluna bilər. Məsələn, alqı-satqı müqaviləsi üzrə əşyanın keyfiyyətinə aid tələblər mühüm dərəcədə pozulduqda, alıcının ixtiyarı var ki, lazımi keyfiyyətli olmayan əşyanın müqaviləyə uyğun əşya ilə əvəz olunmasını tələb etsin (MM-in 587-ci maddəsinin 2-ci bəndinin 2-ci yarımbəndi).

Zərərin əvəzinin naturada ödənilməsi üsulu borclu üçün arzuolunmaz mənfi əmlak nəticəsi deməkdir. Belə ki, o, öz hesabına bu cür hərəkət etməyə məcbur edilir. Qeyd etmək lazımdır ki, zərərin (itkinin) əvəzinin ödənilməsi kimi əsas üsula nisbətən bu üsuldan təcrübədə az-az hallarda istifadə olunur. Təcrübədə zərərin (itkinin) əvəzinin ödənilməsi üsulunun (formasının) tətbiqi

[1] bax: AR QK, II cild, s. 108.

[1] *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993. s. 208-209; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 368.

[2] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 451.

[3] Almaniya qanunvericiliyində və doktrinasında bu, zərərin əvəzinin real ödənilməsi üsulu, yəni Naturals-restitution (natural restitusiya) adlanır (*H.Heinrichs // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 290; *Brox H.* Allgemeines Schuldrecht. München. 1993, s. 186; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 370). Əgər natural restitusiya mümkün olmazsa və ya zərərçəkəni təmin etməzsə, onda zərərin əvəzi pulla ödənilir (Almaniya MQ-nin 251-ci paraqrafı).

üstünlük təşkil edir. Ona görə ki, o, ümumi-universal xarakterə malikdir. Göstərilən üsulların uyğunlaşdırılmaqla birlikdə tətbiqi istisna olunmur, bu, mümkün olan haldır.

Bununla belə, mülki hüquq məsuliyyətinin həcminin sərhədləri hüdudsuz deyildir. Belə ki, mülki qanunvericilik öhdəliklər üzrə məsuliyyətin ölçüsünün məhdudlaşdırılması haqqında qayda müəyyən edir (MM-in 454-cü maddəsi). Ümumiyyətlə, **məsuliyyətin ölçüsünün məhdudlaşdırılması əlamətinə görə** iki cür məsuliyyət növü fərqləndirilir: tam məsuliyyət; məhdud məsuliyyət. **Tam məsuliyyət** zərərçəkənin (kreditorun) zərərin əvəzinin tam ödənilməsini tələb etmək hüququnu nəzərdə tutur. Tam məsuliyyət, əvvəllər qeyd etdiyimiz kimi, zərərin əvəzinin tam həcmdə ödənilməsi prinsipinə əsaslanır. Bu məsuliyyət borclu (zərərvuran) tərəfindən **həm real zərərin, həm də əldən çıxmış faydanın əvəzinin ödənilməsini nəzərdə tutur**.

Məhdud məsuliyyət odur ki, bu cür məsuliyyət kreditorun (zərərçəkənin) zərərin əvəzinin tam ödənilməsi hüququnun məhdudlaşdırılmasını nəzərdə tutur. Qüvvədə olan qanunvericilik məsuliyyətin məhdudlaşdırılmasının müxtəlif əsaslarını və formalarını müəyyənləşdirir. Məsuliyyətin ölçüsünün (həcminin) məhdudlaşdırılmasının ən geniş yayılmış halı zərərin əvəzinin ödənilməsinə aid olan məhdudlaşdırmadır. Bir qayda olaraq, bu cür məhdudlaşdırmaya görə, borclu (zərərvuran) **zərərin əsas hissəsini, yəni real zərərin əvəzini ödəyir, zərərin ikinci hissəsini təşkil edən əldən çıxmış faydanı isə ödəmir**. Məsələn, yükün və ya baqajın daşınması zamanı yük və ya baqaj itirildikdə, yaxud əskik çıxdıqda daşıyıcı müvafiq olaraq itirilmiş, yaxud əskik çıxmış yükün və ya baqajın dəyəri miqdarında məsuliyyət daşıyır («Nəqliyyat haqqında» qanunun 18-ci maddəsinin 3-cü bəndi). Bu, o deməkdir ki, daşıyıcı zərərin real zərər adlı hissəsinin əvəzini ödəyir. O, zərərin əldən çıxmış fayda adlı digər hissəsini ödəmir. Başqa bir misalda əgər qapalı hərrac təşkilatçısı bildiriş göndərdikdən sonra hərracın keçirilməsindən imtina edərsə, onda bu hal pozuntu hesab edilir və o, dəvət etdiyi iştirakçılara dəyən real zərərin əvəzinin ödəyir (MM-in 415-ci maddəsinin 3-cü bəndi). Bu halda əldən çıxmış faydanın əvəzinin ödənilməsindən söhbət gedə bilməz.

Zərərin əvəzinin ödənilməsi ilə dəbbə pulunun uyğunlaşdırılması imkanından asılı olaraq məsuliyyətin ölçüsü məhdudlaşdırıla bilər. Belə ki, qanunda və ya müqavilədə **zərərin deyil, yalnız dəbbə pulunun tutulması nəzərdə tutula bilər** (müstəsna dəbbə pulu) və yaxud kreditorun seçiminə uyğun olaraq ya dəbbə pulunun, ya da zərərin tutulması müəyyənləşdirilə bilər (alternativ dəbbə pulu). Belə təsəvvür yaranır ki, müstəsna və alternativ dəbbə pulu kimi növlər, mahiyyətcə, məsuliyyətin ölçüsünün məhdudlaşdırılmasını ifadə edir.

Məhkəmə tərəfindən **dəbbə pulu azaldıla bilər**. Bu, o halda mümkün olur ki, dəbbə pulu öhdəliyin pozulmasının nəticələrinə uyğun gəlmir (MM-in 467-ci maddəsi). Məhkəmə dəbbə pulunu azaldarkən konkret işin hallarını nəzərə alır. Məhkəmə həm də öhdəliyin pozulmasının nəticələrinə birbaşa aidiyyəti olmayan hallara (malların, xidmətlərin, işlərin qiymətinə, müqavilənin qiymətinə və s.) diqqət yetirməlidir[1].

Qanun müqavilələrdə kreditor rolunda çıxış edən istehlakçıların (fiziki şəxslərin) mənafeyinin müdafiə edilməsinə xüsusi fikir verir. Axı, o, iqtisadi cəhətdən nisbətən zəif olan tərəfdir. Kreditorun — istehlakçının (fiziki şəxsin) hüququnu müdafiə etmək üçün qanun göstərir ki, borclunun məsuliyyət ölçüsünü məhdudlaşdırmaq olmaz. Onun məsuliyyət ölçüsünü məhdudlaşdıran hər hansı bir saziş və razılaşmanın hüquqi əhəmiyyəti yoxdur. Borclu qoşulma müqaviləsində və digər müqavilələrdə (bu müqavilələrdə kreditor rolunda istehlakçı — fiziki şəxs çıxış edir) iştirak edən tərəfdir (MM-in 454-cü maddəsinin 1-ci bəndi).

Müqavilə bağlayan tərəflər müqavilədə məsuliyyətin məhdudlaşdırılması barədə şərt nəzərdə tuta bilərlər. Məsələn, kirayəyə verənlə kirayəçi belə bir razılığa gələ bilərlər ki, kirayəçi əldən çıxmış faydaya görə məsuliyyət daşımır. Bununla belə, bəzi hallarda məsuliyyətin məhdudlaşdırılması barədə tərəflərin razılığa gəlmələrinin heç bir hüquqi əhəmiyyəti olmur. Belə ki, borclunu qəsdən və ya kobud ehtiyatsızlığa görə məsuliyyətdən azad etmək haqqında tərəflərin qabaqcadan bağladıqları razılaşma hər hansı bir hüquqi nəticə yaratmır (MM-in 448-ci maddəsinin 2-ci bəndi). Bu, hüquqi əhəmiyyət kəsb etməyən sazişdir. Analoji göstəriş Almaniya Mülki Qanunnaməsində də ifadə olunmuşdur: borclunun qabaqcadan qəsdə görə məsuliyyətdən azad edilməsinə yol verilmir (§ 276)[2].

§ 5. Mülki hüquq məsuliyyətindən azad edilmənin əsasları

Qanunda və ya müqavilədə elə hüquqi faktlar nəzərdə tutula bilər ki, bu faktlar əsasında şəxs mülki hüquq məsuliyyətindən azad olunsun. Qanunda və ya müqavilədə müəyyənləşdirilən və məsuliyyətin tətbiq olunmasını aradan qaldıran həmin hüquqi faktlara **mülki hüquq məsuliyyətindən azad edilmənin əsasları** deyilir. Bu əsasların dairəsi və başlıca xüsusiyyətləri mülki qanunvericilikdə nəzərdə tutulmuşdur. Mülki qanunvericilik şəxsin mülki hüquq məsuliyyətindən azad olunmasına dəlalət edən həmin əsaslara aid edir:

- tərəflərin sazişi;
- hadisə (kazus);
- qarşısıalınmaz qüvvə;
- zəruri müdafiə və s.

Tərəflərin sazişi elə bir hüquqi faktdır ki, o, borclunun (zərərvuranın) mülki hüquq məsuliyyətindən azad olunmasına əsas verir. Hamıya məlumdur ki, öhdəliyi icra etməyən borclu kreditora dəymiş zərərin əvəzini ödəməyə borcludur. Tərəflər — kreditor və borclu razılığa gəlirlər ki, borclunun üzərinə öhdəliyi pozmağa görə məsuliyyət qoyulmasın. Bu cür razılıq olduqda, əgər borclu (zərərvuran) öhdəliyi icra etməzsə, onda o, kreditora dəymiş zərərin əvəzini ödəmir (MM-in 443-cü maddəsinin 1-ci bəndi). Bu, o deməkdir ki, borclu (zərərvuran) mülki hüquq məsuliyyətindən azad edilir. Məsələn, bağ evi tikən

[1] bax: п. 42 постановления Пленума Верховного Суда РФ и Пленума Высшего Арбитражного Суда РФ «О некоторых вопросах, связанных с применением части первой Гражданского кодекса Российской Федерации» от 1 июля 1996 г. (Вестник ВАС, 1996. № 9).

[2] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 367.

podratçı ilə sifarişçi razılığa gəlirlər ki, podratçı nəzərdə tutulan bağ evini tikməzsə, mülki hüquq məsuliyyətindən azad olunur, yəni ona zərərin əvəzini ödəmək formasında məsuliyyət tədbiri tətbiq edilmir.

Bununla bərabər, qeyd etmək lazımdır ki, mülki hüquq məsuliyyətindən azad olunmaq barədə kreditorla borclunun razılığa gəlmələri heç də bütün hallarda, istisnasız olaraq, hüquqi əhəmiyyət kəsb etmir. Qanun müəyyən edir ki, əgər tərəflər borclunun öhdəliyi qəsdən edilmiş hərəkətlər nəticəsində icra etməməsinə görə onun zərərin əvəzini ödəməkdən azad edilməsi barədə qabaqcadan razılığa gələrlərsə, onda bu cür razılaşma hüquqi nəticə doğurmur. Qanun bu cür razılaşmaya yol verilməsini qadağan edir (MM-in 443-cü maddəsinin 8-ci bəndi). Məsələn, əgər podratçı ilə sifarişçi qabaqcadan razılığa gəlsələr ki, podratçı qəsdən öhdəliyi icra etməzsə, o, zərərin əvəzini ödəməkdən azad olunacaqdır, onda bu cür saziş etibarsız hesab ediləcək və podratçının məsuliyyətdən azad olunması üçün əsas sayılmayacaqdır.

Məsuliyyətdən azad olunmanın nisbətən tipik əsaslarından biri hadisədir. Hadisəyə kazus (latınca «casus») da deyilir. Mülki hüquqda hadisə (kazus) hüquqi əhəmiyyətə və mənaya malik həyati faktdır.

Mülki hüquqda hadisə (kazus) dedikdə, əvvəlcədən görünməsi (müəyyən edilməsi) mümkün olmayan elə bir fakt başa düşülür ki, bu fakt öhdəlikdə iştirak edən tərəflərin hər hansı birinin təqsirli bilinməməsini təsdiqləyir[1]. Hadisə (kazus) **subyektiv cəhətdən qarşısıalınmazlığı** ilə xarakterizə olunur. Onun qarşısını almaq qeyri-mümkündür. Ona görə ki, hadisəni **qabaqcadan görmək mümkün deyil**. Əgər öhdəlikdə iştirak edən tərəf baş verəcək hadisəni görə bilsəydi, onda o, şübhəsiz ki, onun baş verməsinin qarşısını alardı. Belə təsəvvür yaranır ki, hadisə həmişə əvvəlcədən müəyyən edilməsi və görünməsi mümkün olmayan həyati hal kimi çıxış edir. Məsələn, vətəndaş (sifarişçi) özünə palto tikdirmək üçün dərziyə (podratçıya) parça (material) verir. Oğru çox məharətlə dərzinin emalatxanası yerləşdiyi binanın altını qazır və həmin parçanı götürür. Bu cür oğurluq hadisə kimi qiymətləndirilir. Buna görə də borclu (podratçı, dərzi) məsuliyyətdən azad olunur. Çünki dərzi bu cür hadisənin baş verməsini əvvəlcədən görməmişdi və görə də bilməzdi.

Qeyd etdik ki, hadisə subyektiv cəhətdən qarşısıalınmazdır. Bu, o deməkdir ki, hadisənin baş verməsi öhdəlik iştirakçısının, yəni borclunun subyektiv iradəsindən asılı olmur, birdən-birə yaranır və bu səbəbdən də həmin şəraitdə onu nəzərə almaq qeyri-mümkündür. Hadisənin baş verməsində borclunun (zərər vuranın) təqsiri olmur. Lakin hadisənin subyektiv cəhətdən qarşısıalınmazlığı o demək deyildir ki, hadisə obyektiv cəhətdən də qarşısıalınmaz haldır. Onun obyektiv cəhətdən qarşısını almaq mümkündür. Məsələn, yuxarıdakı misalda dərzi emalatxanasından oğurluq edilməsinin qarşısını ala bilərdi (binanın polis tərəfindən mühafizə edilməsini təşkil etməklə və s.). Hadisə kiminsə təqsirli davranışı üzündən əmələ gəlir. O, ümumiyyətlə, kiminsə təqsirini yox, yalnız borclunun təqsirinin olmamasını təsdiqləyir.

[1] Kazus (casus) hüquq pozuntusunun xarici əlamətlərini əks etdirən, amma təqsir elementindən məhrum olan və ona görə də cəzaya layiq (cəzalandırılmalı) olmayan təsadüfi hərəkətdir, hadisədir (Словарь иностранных слов / Под ред. *И.А.Акчурина*. М., 1985, с. 206).

Qarşısıalınmaz qüvvə məsuliyyətdən azad olmanın əsaslarından biridir[1]. Mülki qanunvericilik bəzi hallarda qarşısıalınmaz qüvvə anlayışını işlədir (məsələn, MM-in 379-cu, 847-ci, 1131-ci, 1108-ci və s. maddələri). Bu anlayış xarici hüquq sistemlərinə və beynəlxalq kommersiya dövriyyəsinə də məlumdur. Beynəlxalq kommersiya dövriyyəsində və təcrübəsində qarşısıalınmaz qüvvə **fors-major** (latınca «vis maior» — təbiət qüvvəsi) anlayışı altında nəzərdə tutulur[2]. Müqavilə münasibətlərində çox vaxt qarşısıalınmaz qüvvə yox, fors-major anlayışından istifadə edilir. Yeri gəlmişkən, Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında, məsələn, «Torpaq icarəsi haqqında» qanunun 16-cı maddəsində «fors-major halları» anlayışına rast gəlirik.

Mülki qanunvericilik qarşısıalınmaz qüvvənin (fors-major halının) leqal definisiyasını verirdi. Belə ki, MM-in 455-ci maddəsinin 3-cü bəndində onun normativ tərifi formulə edilmişdi. 24 iyun 2005-ci il tarixli qanunla MM-ə dəyişiklik və əlavələr edilməsindən sonra bu maddə MM-dən çıxarılmışdır. Lakin buna baxmayaraq həmin tərifi qəbul edirik. **Qarşısıalınmaz qüvvə (fors-major halı)** dedikdə, həmin şəraitdə fövqəladə və qarşısı alına bilməyən hallar başa düşülür. Mülki hüquqda qarşısıalınmaz qüvvə hüquqi məna və əhəmiyyət kəsb edən anlayışdır. O, hüquqi nəticənin əmələ gəlməsinə dəlalət edən hüquqi fakt kimi çıxış edir. Məsələn, yük maşınının sürücüsü qəflətən baş verən zəlzələ nəticəsində həmin maşını idarə etmək imkanını itirir. Bunun nəticəsində yük maşını vətəndaşın yaşayış evinin divarını uçurur. Sürücü məsuliyyətə cəlb edilmir. Bu, zəlzələnin (qarşısıalınmaz qüvvənin) doğurduğu hüquqi nəticədir. Başqa bir misalda daşıyıcı yükü təyinat yerinə çatdıra bilmir. Ona görə ki, o, yolda ikən müharibə başlayır. Daşıyıcı məsuliyyətdən azad olur. Müharibənin — qarşısıalınmaz qüvvənin doğurduğu hüquqi nəticə bundan ibarətdir.

Qarşısıalınmaz qüvvənin **iki əlaməti vardır: fövqəladəlik əlaməti; qarşısıalınmazlıq əlaməti**. Bu iki əlamətdən, heç olmazsa birindən məhrum olan həyati hal qarşısıalınmaz qüvvə sayılmır. Həmin iki əlamətə malik olan hal isə qarşısıalınmaz qüvvə kimi qiymətləndirilir və qəbul edilir ki, bu qüvvə də öhdəliyin icra edilməsinə mane olur.

Qarşısıalınmaz qüvvənin fövqəladəlik əlaməti əmələ gəlmə mənbəyinə, təsir dairəsinə, gərginlik yaratmasına görə həyati halın müstəsnalığını və qeyri-adiliyini ifadə edir. Onun yaranması məsuliyyət daşıyan şəxsin fəaliyyəti ilə bağlı deyil. Həyati halın fövqəladəliyi ondan ibarətdir ki, bu cür halın baş verməsi ilə həmişə subyektlərin həyat və fəaliyyət şəraiti pozulur. Qarşısıalınmaz qüvvə öhdəlik (və ya hüquq münasibəti) iştirakçılarının iradəsindən asılı deyil. Onun baş verməsini əvvəlcədən görmək, müəyyən etmək mümkün olmur. Bununla belə, bəzi hallarda elə vəziyyət yaranır ki, qarşısıalınmaz qüvvənin

[1] Hadisə və qarşısıalınmaz qüvvənin əsas xüsusiyyətləri ilə tanış olmaq üçün bax: *Павлодский Е.А.* Случай и непреодалимая сила в гражданском праве. М., 1978.

[2] Beynəlxalq kommersiya təcrübəsində fors-major halları barədə bax: *Комаров А.С.* Ответственность в коммерческом обороте. М., 1991, с. 76-84.

yaranmasını irəlicədən görmək və təyin etmək mümkün olur[1]. Məsələn, dənizdə fırtına olması barədə əvvəlcədən məlumat verilir. Yükü təyinat yerinə çatdırmaq üçün yük daşıyan gəmi dənizə çıxır. İki gündən sonra dənizdə fırtına başlayır. Qarşısıalınmaz qüvvə göz qabağındadır.

Qarşısıalınmaz qüvvənin baş verməsini bəzi məqamlarda qabaqcadan görmək mümkün olduğu halda, bu qüvvənin qarşısını almaq, ümumiyyətlə, qeyri-mümkün olub, imkan xaricindədir. Ona görə ki, bu qüvvə obyektiv cəhətdən qarşısıalınmazlığı ilə xarakterizə olunur.

Qarşısıalınmazlıq qarşısıalınmaz qüvvənin ikinci əlamətidir. **Həyati halın qarşısıalınmazlıq əlaməti** onu ifadə edir ki, obyektiv olaraq yaranan dağıdıcı proseslər insan iradəsinə tabe olmur, elm və texnikanın mövcud səviyyəsində bu prosesi dəf etmək, heç olmazsa, onun zərərli nəticələrini azaltmaq istisna edilir. Başqa sözlə desək, bu əlamətin mahiyyəti ondan ibarətdir ki, həmin şəraitdə həyati halın özünün və onunla bağlı olan nəticənin qarşısını almağa, ram etməyə kömək edən texniki və digər vasitələr olmur. Bu əlaməti müəyyənləşdirərkən konkret şəxsin malik olduğu yox, istənilən şəxsin malik olduğu texniki və digər vasitələrə, amma həmin şəraitdə cəmiyyətdəki elm və texnikanın səviyyəsi nəzərə alınmaqla, diqqət yetirilməlidir[2]. Məsələn, mövcud şəraitdə elm və texnikanın inkişaf səviyyəsi elə ola bilər ki, bu səviyyə həyati halın baş verməsinin qarşısını almağa imkan versin. Onda belə həyati halın qarşısıalınmazlığından, söz yox ki, söhbət açmaq yersizdir. Əgər mövcud şəraitdə cəmiyyətdə obyektiv dağıdıcı proseslərin qarşısını almağa imkan verən texniki və digər vasitələr olmazsa, onda həyati halı qarşısıalınmaz qüvvə hesab etmək olar. Məsələn, elm və texnika zəlzələnin baş verməsinin qarşısını alan hər hansı bir vasitə və üsul müəyyən etməmişdir. Deməli, zəlzələ qarşısıalınmaz qüvvə hesab edilir. Əgər alimlər zəlzələnin qarşısını almağa imkan verən hər hansı bir vasitə müəyyən etsələr, onda zəlzələ qarşısıalınmaz qüvvə sayıla bilməz.

Beləliklə, fövqəladəlik və qarşısıalınmazlıq kimi iki əlamətdən, heç olmazsa, birindən məhrum olan həyati hal qarşısıalınmaz qüvvə hesab edilmir. Məsələn, ilin fəsillərinin dəyişməsi qarşısıalınmaz xarakterə və əlamətə malikdir. Bu cür dəyişmənin qarşısını almaq imkan xaricindədir. Lakin bu cür dəyişmə fövqəladəlik əlamətindən məhrumdur. Buna görə də ilin fəsillərinin dəyişməsini qarşısıalınmaz qüvvə hesab etmək olmaz. Başqa bir misalda insanın ölümünün qarşısını almaq olmaz. Söhbət kliniki yox, bioloji ölümdən gedir. Lakin bioloji ölüm fövqəladəlik əlamətinə malik olmadığına görə, qarşısıalınmaz qüvvəyə aid edilmir. Qışda həmişə qar yağır. Soyuq hava şəraiti qış fəsli üçün xarakterikdir. Şübhəsiz ki, qışda qar yağmasını qarşısıalınmaz qüvvəyə şamil etmək olmaz. Ona görə ki, bu cür hal fövqəladəlik əlamətinə malik deyil. Əgər iyun ayında dolu qar yağarsa, onda qarşısıalınmaz qüvvə göz qabağındadır. Ona görə ki, həmin hal hər iki şərtə (əlamətə) cavab verir.

Qarşısıalınmaz qüvvə kateqoriyası mütləq xarakter daşımır. O, **nisbi təbiətə malik olan anlayışdır.** Qarşısıalınmaz qüvvə anlayışının nisbiliyi obyektiv xarakterlidir. Odur ki, ancaq həmin şəraitdə (yəni öhdəliyin icra olunduğu şəraitdə) fövqəladə və qarşısı alına bilməyən həyati hallar qarşısıalınmaz qüvvə hesab edilir. Buradan belə nəticə çıxır ki, öhdəliyin icra olunduğu müxtəlif şəraitlərdə eyni bir həyati fakt (hal) müəyyən halda qarşısıalınmaz qüvvə, digər halda isə sadəcə olaraq adi hadisə kimi çıxış edə bilər. Başqa sözlə desək, öhdəliyin icra olunduğu şəraitdə həyati hal qarşısıalınmaz qüvvə kimi, digər şəraitdə isə adi hadisə kimi qiymətləndirilə bilər. Ola bilsin ki, həmin şəraitdə qarşısıalınmaz qüvvə hesab edilən həyati hal, digər şəraitdə sadə fakt sayılsın. Məsələn, öhdəliyin icra olunduğu qış fəslində şiddətli qar yağır. Bu adi hadisədir. Şiddətli qar yağmaq qış fəsli üçün xarakterikdir. İyun ayında şiddətli qar yağır, dağ yollarında gediş-gəliş kəsilir və buna görə də daşıyıcı (nəqliyyat təşkilatı) yük daşıma müqaviləsindən irəli gələn öhdəliyi vaxtında icra edə bilmir. Burada söhbət qarşısıalınmaz qüvvədən gedir. Belə təsəvvür yaranır ki, qarşısıalınmaz qüvvə anlayışının nisbiliyi **şərait kateqoriyasından** asılıdır. Şərait anlayışını genişləndirici təfsir etmək lazımdır. Belə ki, bu anlayış özündə **vaxt və yer (məkan) kimi kateqoriyaları** birləşdirir. Yuxarıda gətirdiyimiz şiddətli qar yağması misalında həyati halın qarşısıalınmaz qüvvə hesab edilməsində vaxt (zaman) kateqoriyası mühüm rol oynadı. Həyati halın qarşısıalınmaz qüvvə sayılmasında yer (məkan) kateqoriyasının da təsiri vardır. Qarşısıalınmaz qüvvənin nisbiliyinin bu kateqoriyadan asılı olması hər hansı bir mübahisə doğura bilməz. Məsələn, yazın əvvəlində şimalda yerləşən şəhərdən axan çay həmişə donur və buna görə çay nəqliyyatı ilə yük daşımaq öhdəliyi, bir qayda olaraq, icra edilmir. Bu, adi haldır. Amma yazın əvvəlində cənub şəhərindən keçən çayın (məsələn, Kür çayının, Volqa çayının və s.) donması isə adi hal yox, qarşısıalınmaz qüvvədir. Ona görə də daşıyıcı yük daşıma öhdəliyini icra etməməyə görə məsuliyyətdən azad edilir.

Qarşısıalınmaz qüvvələri əsasən üç qrupa bölmək olar:

- təbiət hadisələrinə;
- ictimai-sosial, hərbi-siyasi hadisələrə;
- qadağanedici tədbirlərə.

Təbiət hadisələri dağıdıcı xarakterə malik olub, çox zərərli nəticələrə səbəb olur. Bu cür hadisələr **təbii fəlakətlə** nəticələnir. Təbiət hadisələrinə aiddir: zəlzələ; vulkan püskürməsi; daşqın; uçqun; burulğan; qasırğa; təbii yanğın və s.

İctimai-sosial, hərbi-siyasi hadisələr dedikdə, ictimai-siyasi və hərbi həyata və məsələlərə aid olan hallar başa düşülür. Bu cür hadisələrə şamil edilir: hərbi əməliyyatlar; epidemiya; diplomatik münasibətlərin kəsilməsi; geniş miqyaslı tətillər; xalq hərəkatı; müharibə və s. Məsələn, müharibə başlayır və bomba zərbələri nəticəsində istehsalçı müəssisənin (mal göndərmə müqaviləsi bağlayan satıcının) sexini dağıdır. Ona görə də o, mal göndərmə müqaviləsində nəzərdə tutulan malları alıcıya göndərə bilmir. Burada müharibə qarşısıalınmaz qüvvə kimi çıxış edir.

Qadağanedici tədbirlər odur ki, bu cür tədbirlər təxirəsalınmaz sosial-iqti-

[1] Müəlliflərdən professor T.İ.İlarionova göstərir ki, qarşısıalınmaz qüvvə çox vaxt məlum olur və hətta onun yaranmasını əvvəlcədən söyləmək mümkündür (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 446). Bu fikir, söz yox ki, həqiqətdən uzaqdır. Belə ki, qarşısıalınmaz qüvvəni çox vaxt yox, nadir hallarda irəlicədən görmək mümkündür

[2] Hüquq ədəbiyyatında bu əlamət müxtəlif cür izah edilir. Bu barədə bax: *Павлодский Е.А.* Случай и непреодалимая сила в гражданском праве. М., 1978.

sadi və digər məsələləri həll etmək üçün dövlət orqanları tərəfindən görülür. Bu tədbirlərin əsas məqsədi vəziyyəti normal məcraya salmaqdan ibarətdir. Qadağanedici tədbirlərə aiddir: karantin elan edilməsi; daşınmanın qadağan edilməsi; beynəlxalq sanksiya qaydasında ticarətin qadağan edilməsi[1] və s.

Qarşısıalınmaz qüvvə hüquqi əhəmiyyətə malik olan obyektiv hadisədir. Konkret borclunun (zərərvuranın) məsuliyyətdən azad olunmasında əsas rolunu oynamaq üçün zəruridir ki, bu qüvvə **kreditorun (zərərçəkənin) düşdüyü zərərlə (zərərli nəticə ilə) səbəbli əlaqədə olsun**. Məsələn, embarqo qoyulması nəticəsində müəyyən növ malın bir dövlətdən digər dövlətə ixracı kəsilir və buna görə də istehsalçı (mal göndərən satıcı) mal göndərmə müqaviləsindən irəli gələn öhdəliyi icra edə bilmir. Başqa bir misalda saxlama müqaviləsi üzrə saxlancın obyekti olan əşya zəlzələ nəticəsində tamamilə məhv olur. Bu cür hallarda qarşısıalınmaz qüvvə ilə zərərli nəticə arasında səbəbli əlaqə olduğuna görə öhdəliyi icra etmədiyi üçün borclunun (zərərvuranın) məsuliyyətə cəlb edilməsindən söhbət gedə bilməz. Borclu məsuliyyətdən azad olunur.

Qarşısıalınmaz qüvvə haqqında insanın təsəvvür və bilikləri mütləq yox, nisbidir. Dünyada hər cür möcüzələr yaradan insan elmin və təbiətin sirlərinə vaqif olduqca, bu sirlərdən agah edildikcə onlar üçün qarşısıalınmaz qüvvə hesab edilən həyat hallarının əhatə dairəsi məhdudlaşacaqdır. Bu gün qarşısıalınmaz qüvvə sayılan həyat halları sabah insan üçün adi hadisə kimi görünəcəkdir. Elmi-texniki nailiyyətlərdən istifadə olunduqca, elmi-texniki inkişaf yüksəldikcə qarşısıalınmaz qüvvə barədə insan təsəvvürləri də dəyişəcəkdir.

Zəruri müdafiə zərərvuranı mülki hüquq məsuliyyətindən azad etməyin əsaslarından biridir[2]. Bu zaman vurulan zərərin əvəzi ödənilmir (MM-in 563-cü maddəsinin 1-ci bəndi). Bu cür əsas müqavilədənkənar (delikt) sahələrdə əhəmiyyət kəsb edir.

Son zərurət də mülki hüquq məsuliyyətindən azad olunmanın əsaslarından biridir[3]. Belə ki, müdafiə zamanı son zərurət vəziyyətində edilən hərəkətlə vurulan ziyanın əvəzi ödənilmir (MM-in 564-cü maddəsinin 1-ci bəndi).

Özünəyardım da hüquqa zidd sayılmır və buna görə də mülki-hüquqi məsuliyyətə səbəb olmur (MM-in 565-ci maddəsi).

[1] Müasir beynəlxalq iqtisadi münasibətlərdə iqtisadi xarakterli məcburiyyət tədbirləri — embarqo, iqtisadi boykot, blokada tətbiq edilir. **Embarqo** dedikdə, müəyyən bir dövlətlə xarici iqtisadi münasibətlərin qadağan edilməsi və ya müəyyən mal növünün müvafiq dövlətə ixrac edilməsinin və ya həmin dövlətdən müəyyən mal növünün idxal olunmasının kəsilməsi başa düşülür. **İqtisadi boykot** dedikdə, müəyyən bir malın idxal olunmasının və ya ümumiyyətlə, müvafiq dövlətlə maliyyə, nəqliyyat və digər münasibətlərin kəsilməsinə yönələn kompleks tədbirlər başa düşülür. **Blokada**, blokada təşəbbüskarı olan dövlət tərəfindən görülən hərtərəfli kompleks xarakterli elə tədbirlərdir ki, bu tədbirlər nəticəsində müvafiq dövlətin özü və fiziki (və ya hüquqi) şəxsləri ilə blokadanı təşkil edən dövlət arasında, habelə üçüncü dövlətin şəxsləri ilə iqtisadi münasibətlər həyata keçirilmir. **Ticarət blokadası** ticarət sahəsinə, **kredit blokadası** kredit əməliyyatları sahəsinə, **texnologiya blokadası** isə texnologiyanın verilməsi sahəsinə aiddir. Blokadanın həyata keçirilməsi **iqtisadi müharibə** anlayışı ilə qovuşur. ABŞ bu cür məcburiyyət tədbirlərindən xüsusilə tez-tez istifadə edir. 1964-cü ildə Kuba iqtisadi blokadaya alınmışdı. 1979-cu ildə SSRİ-yə taxıl verilməsinə embarqo qoyulmuşdu. 1985-ci ildə Nikaraquaya malların idxal-ixracına qadağa qoyulmuşdu. Belə təsəvvür yaranır ki, iqtisadi xarakterli məcburiyyət tədbirlərini qarşısıalınmaz qüvvə hesab etməyə kifayət qədər əsas vardır (bu tədbirlər barədə bax: *М.М.Богуславский.* Международное экономическое право. М., 1986, с. 239).

[2] Bu barədə dərsliyin «Mülki hüquqların müdafiəsi» adlı fəslinin 3-cü paraqrafına bax.

[3] Bu barədə dərsliyin «Mülki hüquqların müdafiəsi» adlı fəslinin 3-cü paraqrafına bax.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Аскназий С.И. Вина и причинение в обязательствах из причинения вреда // Вестник советской юстиции, 1925. № 20.

Агарков М.М. Обязательства по советскому гражданскому праву. М., 1940.

Антимонов Б.С. Значение вины потерпевшего при гражданском правонарушении. М., 1950.

Новицкий И.Б., Лунц Л.А. Общее учение об обязательстве. М., 1950.

Иоффе О.С. Ответственность по советскому гражданскому праву. Л., 1955.

Иоффе О.С. Обязательственное право. М., 1975.

Матвеев Г.К. Вина в советском гражданском праве. Киев. 1955.

Матвеев Г.К. Основания гражданско-правовой ответственности. М., 1970.

Тархов В.А. Ответственность по советскому гражданскому праву. Саратов. 1973.

Братусь С.Н. Юридическая ответственность и законность. М., 1976.

Малеин Н.С. Правонарушение: понятие, причины, ответственность. М., 1975.

Тархов В.А. Гражданские права и ответственность. Уфа. 1996.

Варкалло В. Об ответственности по гражданскому праву. М., 1978.

Иоффе О.С. Развитие цивилистической мысли в СССР (часть 2). Л., 1978.

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой, Б.М.Гонгало, В.П.Плетневой.** М., 1998 (гл. 22).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И.Масляева.** М., 1997 (гл. 25).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко.** М., 1998 (гл. 24).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого.** М., 1997 (гл. 27).

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова.** М., 1998 (гл. 18).

Брагинский М.И., Витрянский В.В. Договорное право. Общие положения. М., 1997.

Эннекцерус Л. Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950.

А.Жалинский, А.Рёрихт. Введение в немецкое право. М., 2001.

Brox H. Allgemeines Schuldrecht. München. 1993.

Klünzinger E. Einführung in das bürgerliche Recht. München. 1993.

Schlechtreim P. Schuldrecht. Beson derer Teil. Tübingen: Morh Siebeck. 1998.

Palandt. Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999.

MÜNDƏRİCAT

II BÖLMƏ
ƏŞYA HÜQUQU

XVII FƏSİL. ƏŞYA HÜQUQU 5
§ 1. Əşya hüququnun anlayışı, predmeti və mənbələri 5
1. Əşya hüququ mülki hüququn bir yarımsahəsi kimi 5
2. Subyektiv mənada əşya hüququnun xüsusiyyətləri 7
3. Sovet mülki hüququ və əşya hüququ kateqoriyası 11
4. Əşya hüququnun əsas institutları, predmeti və prinsipləri. Əşya hüququnun mülki-hüquqi tənzimlənmə mənbələri 12
§ 2. Mülkiyyət və mülkiyyət hüququ 15
1. Mülkiyyət iqtisadi kateqoriya kimi 15
2. Mülkiyyət iqtisadi münasibətlərinin məzmunu (mülkiyyətin iqtisadi məzmunu) 18
3. Mülkiyyət hüququnun hüquqi anlayışı 19
4. Obyektiv mənada mülkiyyət hüququ 19
5. Subyektiv mənada mülkiyyət hüququ 21
6. Mülkiyyət hüquq münasibətlərinin quruluşu və subyektləri 24
7. Mülkiyyət hüquq münasibətlərinin obyekti və məzmunu 25
8. Subyektiv mülkiyyət hüququnun məzmunu 27
9. Sahiblik səlahiyyəti 30
10. İstifadə etmək səlahiyyəti 32
11. Sərəncam vermək səlahiyyəti 33
12. Mülkiyyət hüququnun anlayışı 36
13. Mülkiyyət hüququnun məhdudlaşdırılması. Qonşuluq hüququ (qonşuluq etmə hüququ) 38
§ 3. Azərbaycan Respublikasının qanunvericiliyinə görə mülkiyyət hüququnun forma və növləri 44
1. Mülkiyyət forması və mülkiyyət hüququ 44
2. Mülkiyyət hüququnun formaları (növləri) 45
§ 4. Mülkiyyət hüququnun əmələ gəlmə əsasları və üsulları 47
1. Mülkiyyət hüququnun əmələ gəlmə əsaslarının anlayışı 47
2. Mülkiyyət hüququnun əmələ gəlmə üsulları 48
3. Mülkiyyət hüququnun əmələ gəlməsinin digər üsulları. 50
§ 5. Mülkiyyət hüququnun əldə edilməsinin ilkin üsulları 52
1. Şəxsin özü üçün hazırladığı və ya yaratdığı yeni əmlaka mülkiyyət hüququnu əldə etməsi üsulu 52
2. Özbaşına tikiliyə mülkiyyət hüququnun əldə edilməsi üsulu 53
3. Emal mülkiyyət hüququnun əldə edilməsinin ilkin üsulu kimi 54
4. Birləşmə mülkiyyət hüququnun əldə edilməsi üsulu kimi 57
5. Əldə edilməsi hamıya müyəssər olan əmlaka mülkiyyət hüququnun əmələ gəlməsi 60

6. Sahibsiz daşınar əşyaya mülkiyyət hüququnun əldə edilməsi 61
7. Mülkiyyətçinin imtina etdiyi daşınar əşyaya mülkiyyət hüququnun əldə edilməsi 62
8. Tapıntı 64
9. Dəfinə 66
10. Nəzarətsiz heyvanlar 68
11. Kooperativ mənzil, bağ, qaraj və digər tikililərə mülkiyyət hüququnun əldə edilməsi 70
12. Əldə etmə müddəti 71
13. Ani müddət 76
14. «Kitab müddəti» 77
§ 6. Mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsulları 79
1. Törəmə üsullar barədə ümumi müddəalar 79
2. Mülki-hüquqi əqdlər mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsulu kimi 81
3. Mülkiyyət hüququnun vərəsəlik qaydasında (universal hüquq varisliyi) əldə edilməsi üsulu 82
4. Əmlakın yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq varisinə keçməsilə mülkiyyət hüququnun əldə edilməsi 83
5. Əşyanın verilməsi (tradisiya) mülkiyyət hüququnun əldə edilməsinin törəmə üsulu kimi 84
6. Bəhərə, məhsula və gəlirə mülkiyyət hüququnun əldə edilməsi 87
§ 7. Mülkiyyət hüququna xitam verilməsi 88
1. Mülkiyyət hüququnun xitam edilməsinin əsasları və üsulları 88
2. Əmlakın tələf və ya məhv edilməsi ilə mülkiyyət hüququna xitam verilməsi 89
3. Mülkiyyətçinin öhdəlikləri üzrə ödəmənin əmlaka yönəldilməsi 91
4. Şəxsin qanuna görə ona məxsus ola bilməyən əmlak üzərində mülkiyyət hüququna xitam verilməsi 92
5. Torpaq sahəsinin alınması ilə əlaqədar olan daşınmaz əmlakın özgəninkiləşdirilməsi 94
6. Təsərrüfatsızcasına saxlanan mədəni sərvətlərin satınalma yolu ilə əldə edilməsi 95
7. Rekvizisiya (həcz) 96
8. Müsadirə 98
9. Özəlləşdirmə 101
10. Mülkiyyət hüququndan imtina 104
11. Milliləşdirmə. 106
§ 8. Hüquqlara və tələblərə mülkiyyət hüququnun əldə edilməsi 109

XVIII FƏSİL. VƏTƏNDAŞLARIN MÜLKİYYƏT HÜQUQU 116
§ 1. Vətəndaşların xüsusi mülkiyyət hüququnun əsas cəhətləri 116
1. Vətəndaşların xüsusi mülkiyyət hüququnun anlayışı 116
2. Vətəndaşların mülkiyyəti sosial-iqtisadi kateqoriya kimi 117
3. Vətəndaşların mülkiyyəti hüquqi kateqoriya kimi 119

§ 2. Vətəndaşların mülkiyyət hüququnun obyektləri 119
1. Ümumi müddəalar 119
2. Vətəndaşların mülkiyyət hüququnun obyektlərinin mülki-hüquqi rejimi 120
3. Vətəndaşın mülkiyyət hüququnun obyektlərinin dairəsi 121
4. Vətəndaşın mülkiyyət hüququnun obyekti ola bilməyən əmlak növlərinin dairəsi 122
5. Torpaq üzərində vətəndaşların mülkiyyət hüququ 123
6. Vətəndaşların yaşayış binasının tərkib hissələrinə mülkiyyət hüququ 127
7. Müəssisə vətəndaşların mülkiyyət hüququnun obyekti kimi 129
8. Fərdi sahibkarların mülkiyyət hüququ 131
§ 3. Fiziki şəxslər mülkiyyət hüququnun subyekti kimi 132
1. Mülkiyyət hüququnun subyektləri 132
2. Azərbaycan Respublikasının vətəndaşları mülkiyyət hüququnun subyekti kimi 133
3. Sahibkar statuslu vətəndaşlar mülkiyyət hüququnun subyekti kimi 134
4. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər mülkiyyət hüququnun subyekti kimi 135
§ 4. Vətəndaşların mülkiyyət hüququnun məzmunu və həyata keçirilməsinin hədləri 137
1. Vətəndaşların mülkiyyət hüququnun məzmunu 137
2. Vətəndaşların mülkiyyət hüququnun həyata keçirilməsinin hədləri 138
XIX FƏSİL. HÜQUQİ ŞƏXSLƏRİN MÜLKİYYƏT HÜQUQU 142
§ 1. Hüquqi şəxslərin xüsusi mülkiyyət hüququ. Hüquqi şəxslərin mülkiyyət hüququnun obyekt və subyektləri 142
1. Hüquqi şəxslərin mülkiyyət hüququnun anlayışı 142
2. Hüquqi şəxslər mülkiyyət hüququnun subyekti kimi 143
3. Hüquqi şəxslərin mülkiyyət hüququnun obyektləri 144
§ 2. Hüquqi şəxslərin ayrı-ayrı növlərinin mülkiyyət hüququ 146
1. Təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin mülkiyyət hüququ 146
A. Mülkiyyət hüququnun məzmunu və həyata keçirilməsi 146
B. Təsərrüfat cəmiyyətlərinin və ortaqlıqlarının mülkiyyət hüququnun əldə edilməsinin əsasları 147
C. Təsərrüfat cəmiyyətləri və ortaqlıqlarının mülkiyyət hüququnun obyektləri 148
Ç. Təsərrüfat cəmiyyəti və ortaqlığı ləğv edildiyi və ya iştirakçıların onlardan çıxdığı zaman əmlakın bölüşdürülməsi qaydası 149
2. Kooperativlərin mülkiyyət hüququ 151
A. Kooperativ mülkiyyət hüququnun subyektləri 151
B. Kooperativin mülkiyyət hüququnun məzmunu və həyata keçirilməsi 152
C. Kooperativin mülkiyyət hüququnun əmələ gəlmə əsasları 153
Ç. Kooperativin mülkiyyət hüququnun obyektləri 154
D. Kooperativ yenidən təşkil edildiyi və ləğv edildiyi və yaxud iştirakçı onun tərkibindən çıxdığı hallarda əmlakın bölüşdürülməsi qaydası 155
3. Qeyri-kommersiya təşkilatlarının mülkiyyət hüququ 156
A. Ümumi müddəalar 156
B. Qeyri-kommersiya təşkilatlarının mülkiyyət hüququnun subyektləri 157
C. İctimai birliklərin mülkiyyət hüququ 157
Ç. İctimai birliklərin mülkiyyət hüququnun məzmunu və həyata keçirilməsi 158
D. Fondların mülkiyyətində olan əmlakın hüquqi rejimi 159
E. Dini qurumların əmlak vəziyyəti 160
Ə. Hüquqi şəxslərin ittifaqlarının mülkiyyət hüququ 161
XX FƏSİL. DÖVLƏT MÜLKİYYƏTİ HÜQUQU 163
§ 1. Dövlət mülkiyyəti hüququnun anlayışı 163
1. Dövlət mülkiyyəti iqtisadi kateqoriya kimi 163
2. Dövlət mülkiyyəti hüquqi kateqoriya kimi. Dövlət mülkiyyət hüququ 165
§ 2. Dövlət mülkiyyət hüququnun subyekti kimi 167
1. Dövlət mülkiyyət hüququnun xüsusi subyekti kimi 167
2. Azərbaycan Respublikası dövlət mülkiyyət hüququnun yeganə və vahid subyekti kimi 169
§ 3. Dövlət mülkiyyəti hüququnun obyektləri 171
1. Ümumi müddəalar 171
2. Torpaq dövlətin müstəsna mülkiyyət hüququnun obyekti kimi 173
3. Yerin təki dövlətin müstəsna mülkiyyətinin obyekti kimi 174
4. Meşələr dövlətin müstəsna mülkiyyət obyekti kimi 175
5. Daxili sular və ərazi suları (sular) dövlətin müstəsna mülkiyyət obyekti kimi 176
6. Dövlət büdcə vəsaiti dövlətin mülkiyyət hüququnun obyekti kimi 177
7. Müəssisələr dövlət mülkiyyət hüququnun obyekti kimi 178
8. Xaricdə yerləşən dövlət əmlakının hüquqi rejimi 179
§ 4. Dövlət mülkiyyəti hüququnun məzmunu 180
1. Dövlət mülkiyyəti hüququ subyektiv hüquq kimi 180
2. Üçlük səlahiyyəti 182
§ 5. Dövlət mülkiyyəti hüququnun əmələ gəlmə əsasları. Dövlət mülkiyyət hüququnun xitamı 184
1. Dövlət mülkiyyəti hüququnun əmələ gəlmə əsasları 184
2. Vergilər və digər məcburi ödənişlər dövlət mülkiyyət hüququnun əmələ gəlmə əsası kimi 186
3. Vərəsələri olmayan əmlakın dövlət mülkiyyətinə keçməsi 188
4. Dövlət mülkiyyəti hüququna xitam verilməsi 188
XXI FƏSİL. BƏLƏDİYYƏLƏRİN MÜLKİYYƏT HÜQUQ SUBYEKTLİYİ 193
§ 1. Bələdiyyələr mülkiyyət hüququnun subyekti kimi 193
1. Bələdiyyələrin mülkiyyət hüquq subyektliyinin əsas cəhətləri 193
2. Bələdiyyə mülkiyyəti 194
3. Bələdiyyə mülkiyyətinin obyekt tərkibi 197
4. Bələdiyyələrin mülkiyyət hüququnun əmələ gəlmə üsulları 199

5. Bələdiyyə mülkiyyət hüququnun həyata keçirilməsi....200
XXII FƏSİL. ÜMUMİ MÜLKİYYƏT HÜQUQU....203
§ 1. Ümumi mülkiyyət hüququnun anlayışı və növləri. 203
1. Ümumi mülkiyyət hüququnun anlayışı....203
2. Ümumi mülkiyyət hüququ obyektiv və subyektiv mənalarda. 205
3. Ümumi mülkiyyət hüququnun subyektləri....206
4. Ümumi mülkiyyət hüququnun əmələ gəlmə əsasları. 207
5. Ümumi mülkiyyət hüququnun növləri. 207
6. Ümumi mülkiyyətdə mülkiyyətçinin payının hüquqi təbiəti və xarakteri. 209
7. Ümumi mülkiyyət və kollektiv mülkiyyət 210
§ 2. Ümumi paylı mülkiyyət hüququ. 211
1. Ümumi paylı mülkiyyət hüququnun anlayışı. Ümumi paylı mülkiyyət hüququnun əmələ gəlmə əsasları (üsulları). 211
2. Ümumi paylı mülkiyyət hüququnda payın müəyyən edilməsi. 213
3. Paylı ümumi mülkiyyət hüququnun məzmunu və həyata keçirilməsi....214
4. Paylı mülkiyyətdə olan əşyanın bölünməsi və ondan payın ayrılması paylı mülkiyyət hüququna xitam verilməsinin əsası kimi 217
§ 3. Ümumi birgə mülkiyyət hüququ. 219
1. Ümumi birgə mülkiyyət hüququnun anlayışı və xüsusiyyətləri....219
2. Ümumi birgə mülkiyyət hüququnun məzmunu və həyata keçirilməsi....220
3. Birgə mülkiyyət hüququnun əmələ gəlmə və xitam edilmə əsasları....221
4. Birgə mülkiyyət hüququnun növləri. 222
5. Özəlləşdirilmiş mənzil üzrə birgə mülkiyyət hüququ. 223
6. Ər-arvadın birgə ümumi mülkiyyəti 223
XXIII FƏSİL. MƏHDUD ƏŞYA HÜQUQU....228
§ 1. Məhdud əşya hüququnun anlayışı, əsas cəhətləri və növləri....228
1. Ümumi müddəalar. 228
2. Məhdud əşya hüququnun anlayışı və növləri. 231
3. Girov hüququ məhdud əşya hüququnun bir növü kimi 235
§ 2. Tikiliyə vərəsəlik hüququnun anlayışı və əsas xüsusiyyətləri....239
1. Tikiliyə vərəsəlik hüququnun anlayışı....239
2. Tikiliyə vərəsəlik hüququ haqqında müqavilə....241
§ 3. Servitut özgəsinin daşınmaz əşyasından məhdud istifadə hüququ kimi. 245
1. Servitutun anlayışı və əsas cəhətləri. 245
2. Servitutun subyektləri, predmeti və məzmunu. Servitutun verilməsi haqqında müqavilə....248
3. Servitutun növləri. 251
4. Servituta xitam verilməsi....255
§ 4. Uzufrukt. 256
1. Uzufrukt anlayışı. 256

2. Uzufrukt hüquq münasibətlərinin elementləri. 258
3. Tərəflərin hüquq və vəzifələri. 260
4. Uzufrukta xitam verilməsi 265
XXIV FƏSİL. SAHİBLİK ƏŞYA HÜQUQUNUN XÜSUSİ XARAKTERLİ İNSTİTUTU KİMİ....269
§ 1. Sahibliyin anlayışı, əsas xüsusiyyətləri, növləri və müdafiəsi....269
1. Sahibliyin anlayışı. 269
2. Sahiblik haqqında nəzəriyyələr 274
3. Sahibliyin növləri. 275
4. Sahibliyin funksiyaları 280
5. Sahibliyin yaranması (əldə edilməsi), verilməsi, kəsilməsi və xitam olunması....281
XXV FƏSİL. MÜLKİYYƏT HÜQUQUNUN VƏ BAŞQA ƏŞYA HÜQUQLARININ MÜDAFİƏSİ. SAHİBLİYİN MÜDAFİƏSİ....284
§ 1. Əşya hüquqlarının mülki-hüquqi üsullarla müdafiə edilməsinin anlayışı və sistemi....284
1. Əşya hüquqlarının müdafiəsinin anlayışı. 284
2. Mülki və əşya hüquqlarının mülki-hüquqi müdafiə üsullarının sistemi 287
§ 2. Əşya-hüquqi müdafiə üsulları. 292
1. Vindikasiya iddiası. 292
2. Neqator iddia....306
§ 3. Mülkiyyət hüququnun tanınması barədə iddia....310
1. İddianın anlayışı. 310
2. İddianın elementləri....312
§ 4. Qeyri-mülkiyyətçilərin (titul sahiblərinin) hüquqlarının müdafiəsi. Sahibliyin müdafiəsi 314
1. Məhdud əşya hüququ subyektlərinin hüquqlarının müdafiəsi. 314
2. Öhdəlik hüququ subyektlərinin hüquqlarının müdafiəsi 315
3. Sahibliyin müdafiəsi (posessor müdafiə)....318

III BÖLMƏ
ÖHDƏLİK HÜQUQU
(ÜMUMİ HİSSƏ)

XXVI FƏSİL. ÖHDƏLİK HÜQUQU 333
§ 1. Öhdəlik hüququ mülki hüququn yarımsahəsi kimi. Öhdəliyin anlayışı, əmələ gəlmə əsasları və növləri....333
1. Öhdəlik hüququnun anlayışı və predmeti. 333
2. Öhdəlik hüququnun sistemi 337
§ 2. Öhdəliyin anlayışı və elementləri....340
1. Öhdəlik mülki hüquq münasibəti kimi....340
2. Öhdəliyin elementləri. 345
3. Öhdəliyin əmələ gəlmə əsasları 349

§ 3. Öhdəliyin növləri.....354
1. Öhdəliyin sistemi anlayışı və əhəmiyyəti.....354
2. Öhdəliklərin növləri.....357
§ 4. Öhdəliyin subyektləri.....362
1. Öhdəlikdə şəxslər çoxluğu.....362
2. Üçüncü şəxslərin iştirak etdiyi öhdəliklər.....369
3. Öhdəlikdə şəxslərin dəyişməsi.....375
XXVII FƏSİL. MÜQAVİLƏ HÜQUQU.....388
§ 1. Müqavilənin anlayışı, əhəmiyyəti və əsas xüsusiyyətləri.....388
1. Müqavilənin anlayışı və mahiyyəti.....388
2. Müqavilənin funksiyaları və əhəmiyyəti.....391
3. Müqavilə azadlığı.....393
§ 2. Müqavilənin məzmunu və forması.....397
1. Müqavilənin məzmunu.....397
2. Müqavilənin standart şərtləri.....403
3. Müqavilənin forması.....408
§ 3. Müqavilələrin təsnifi və növləri.....410
1. Müqavilələrin təsnifi anlayışı.....410
2. Əmlak və təşkilati müqavilələr.....411
3. Əsas və ilkin müqavilələr.....412
4. Ümumi müqavilələr.....414
5. Qarşılıqlı razılığa əsaslanan və qoşulma müqavilələri.....415
6. Müqavilə iştirakçısının (tərəfinin) mənafeyi üçün və üçüncü şəxsin xeyrinə müqavilə.....418
7. Konsensual və real müqavilələr.....420
8. Əvəzli və əvəzsiz müqavilələr.....422
9. İkitərəfli və çoxtərəfli müqavilələr.....423
10. Birtərəfli və ikitərəfli müqavilələr.....424
11. Əşya və öhdəlik müqavilələri.....425
12. Müqavilələrin digər növləri.....426
§ 4. Müqavilənin bağlanması.....430
1. Müqavilənin bağlanmasının anlayışı və mərhələləri.....430
2. Oferta.....433
3. Aksept.....436
4. Müqavilənin bağlanması anı və müqavilənin bağlandığı yer.....441
5. Müqavilənin hərracda bağlanması.....446
§ 5. Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi.....449
1. Müqavilənin dəyişdirilməsinin və ləğv edilməsinin əsasları (üsulları).....449
2. Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi qaydası.....454
3. Müqavilənin dəyişdirilməsinin və ləğv edilməsinin nəticələri.....456
XXVIII FƏSİL. ÖHDƏLİKLƏRİN İCRASI.....460
§1. Öhdəliklərin icrası anlayışı və prinsipləri.....460
1. Öhdəliklərin icrası anlayışı.....460

2. Öhdəliklərin icrasının prinsipləri.....463
3. Öhdəliklərin vicdanla (lazımınca) icra prinsipi. Öhdəliklərin icra şərtləri.....469
4. Öhdəliklərin icrası yeri.....480
5. Öhdəliklərin icrası müddəti.....483
XXIX FƏSİL. ÖHDƏLİKLƏRİN İCRASININ TƏMİN EDİLMƏSİ.....487
§ 1. Öhdəliklərin icrasının təmin edilməsinin anlayışı, mahiyyəti, əhəmiyyəti, üsulları və sistemi.....487
1. Öhdəliklərin icrasının təmin edilməsinin anlayışı və əhəmiyyəti.....487
2. Öhdəliklərin icrasının təmin edilməsi üsullarının məqsədi, funksiyaları, xüsusiyyətləri və əhəmiyyəti.....489
3. Öhdəliklərin icrasının təmin edilməsi üsullarının sistemi.....491
§ 2. Dəbbə pulu.....495
1. Dəbbə pulunun anlayışı, mahiyyəti, funksiyası və əsas cəhətləri.....495
2. Dəbbə pulunun növləri.....497
§ 3. Saxlama.....502
1. Saxlama hüququnun anlayışı, əmələ gəlmə əsası, funksiya və növləri.....502
2. Saxlama hüququnun subyektləri, predmeti və müddəti.....507
3. Kreditor və borclunun hüquq və vəzifələri.....510
§ 4. Zaminlik.....512
1. Zaminliyin anlayışı.....512
2. Zaminlik müqaviləsinin hüquqi təbiəti, əsas xüsusiyyətləri və elementləri.....515
3. Zaminlik öhdəliyinin məzmunu və icrası.....518
4. Zaminlik öhdəliyinin icra edilməsinin hüquqi nəticələri.....521
5. Zaminliyin xitam olunması (ləğv edilməsi).....523
§ 5. Qarantiya.....525
1. Qarantiyanın anlayışı, mahiyyəti, əsas cəhətləri və xüsusiyyətləri.....525
2. Qarantiya ilə bağlı münasibətlərin əmələ gəlmə əsası və subyektləri.....529
3. Qarantiyanın növləri.....534
4. Qarantiya öhdəliyinin icrası.....536
5. Qarantın reqres tələbi.....539
6. Qarantiya öhdəliyinin ləğv edilməsi.....540
§ 6. Beh.....541
1. Behin anlayışı, mahiyyəti və predmeti.....541
2. Behin təminat funksiyası.....544
3. Behin təsdiq etmə funksiyası.....546
4. Behin ödəmə (ödəniş) funksiyası.....547
5. Behin kompensasiya funksiyası.....549
§ 7. Girov hüququ.....550
1. Girovun anlayışı və mahiyyəti.....550
2. Girovun əsas xüsusiyyətləri və cəhətləri.....554
3. Girovun funksiyaları.....556

4. Girov haqqında qanunvericilik. 557
5. Girovun əmələ gəlmə əsasları 558
§ 8. Girov öhdəliyinin elementləri. 561
1. Girov öhdəliyinin tərəfləri. 561
2. Girovun predmeti. 563
3. Girov öhdəliyinin məzmunu. 571
4. Girov müqaviləsi. 577
5. Girov qoyulmuş əmlaka tələbin yönəldilməsi. 580
6. Girov qoyulmuş əşyanın satılması və satışdan götürülmüş məbləğin bölüşdürülməsi. 582
7. Girovun növləri 584
§ 9. İpoteka hüququ. 588
1. İpotekanın anlayışı. 588
2. İpoteka öhdəliyinin elementləri. 591
3. İpotekanın əmələ gəlmə əsasları. 598
4. İpotekanın rəsmiləşdirilməsi. 599
5. İpoteka saxlayanın tələbinin ipoteka predmeti hesabına təmin edilməsi. 602
6. İpotekanın növləri 605
7. İpoteka krediti 611
XXX FƏSİL. ÖHDƏLİKLƏRƏ XİTAM VERİLMƏSİ 618
§ 1. Öhdəliklərə xitam verilməsinin anlayışı, əsasları və ayrı-ayrı üsulları. 618
1. Öhdəliklərə xitam verilməsinin anlayışı. 618
2. Öhdəliklərə xitam verilməsinin əsasları və sistemi 619
§ 2. Öhdəliklərə xitam verilməsinin ayrı-ayrı əsasları (üsulları). 621
1. İcra nəticəsində öhdəliklərə xitam verilməsi. 621
2. Öhdəliklərin peşman haqqı verilməsi ilə xitam olunması. 625
3. Novasiya. 628
4. Öhdəliklərə qarşılıqlı tələblərin əvəzləşdirilməsi ilə xitam verilməsi (əvəzləşdirmə). 630
5. Borcun bağışlanması ilə öhdəliyin xitamı. 635
6. Müddətin keçməsinə görə öhdəliyin xitamı 638
§ 3. Öhdəliyin xitamının digər əsasları. 642
1. Borclu və kreditorun eyni şəxs olması. 642
2. İcranın mümkün olmamasına görə öhdəliyin xitamı. 643
3. Dövlət və ya bələdiyyə orqanının aktına əsasən öhdəliyin xitamı. 646
4. Borclunun və ya kreditorun ölümü nəticəsində öhdəliyin xitamı. 647
5. Hüquqi şəxsin ləğvi nəticəsində öhdəliyin xitamı. 649
6. Öhdəliyə depozitə qoyma nəticəsində xitam verilməsi 650
XXXI FƏSİL. MÜLKİ HÜQUQ MƏSULİYYƏTİ 654
§1. Mülki hüquq məsuliyyətinin anlayışı, növləri, formaları, funksiyaları, prinsipləri və əhəmiyyəti. 654
1. Mülki hüquq məsuliyyətinin anlayışı. 654

2. Mülki hüquq məsuliyyəti anlayışı haqqında diskussiya. 657
3. Mülki hüquq məsuliyyətinin əsas xüsusiyyətləri və cəhətləri. 658
4. Mülki hüquq məsuliyyətinin funksiyaları, prinsipləri və əhəmiyyəti 660
§2. Mülki hüquq məsuliyyətinin forma və növləri. 664
1. Mülki hüquq məsuliyyətinin formaları 664
2. Mülki hüquq məsuliyyətinin növləri. 665
3. Mülki hüquq məsuliyyətinin digər növləri 672
§ 3. Mülki hüquq məsuliyyətinin əmələ gəlmə əsası və şərtləri. 678
1. Mülki hüquq məsuliyyətinin əsası anlayışı. 678
2. Mülki hüquq məsuliyyətinin şərtləri 680
3. Zərər mülki hüquq məsuliyyətinin əsasıdır 682
4. Hüquqazidd davranış (əməl) mülki hüquq məsuliyyətinin şərti kimi. 689
5. Səbəbli əlaqə mülki hüquq məsuliyyətinin şərti kimi. 692
6. Təqsir mülki hüquq məsuliyyətinin şərti kimi. 696
7. Mülki hüquqda təqsirsiz məsuliyyət 711
§ 4. Məsuliyyətin ölçüsü 713
§ 5. Mülki hüquq məsuliyyətindən azad edilmənin əsasları 719

Prof. Sabir Allahverdiyev

AZƏRBAYCAN RESPUBLİKASININ MÜLKİ HÜQUQ KURSU

II cild
Xüsusi hissə
II nəşr

(*05 yanvar 2009-cu il tarixədək olan əlavə və dəyişikliklərlə*)

Korrektor: ***Cəmilə Əhmədova***
Kompüter tərtibatçısı: ***Natiq Nəcəfov***
Operator: ***Afət Quliyeva***

«Digesta» nəşriyyatında yığılmışdır.
Çapa imzalanmışdır: 05 yanvar 2009-cu il
Formatı: 70x100 1 / 16
Mətbəə kağızı № 1
Fiziki çap vərəqi: 46
Tirajı: 300
Qiyməti: **20,00** manat

«**Digesta**» nəşriyyatı
Bakı, Mətbuat pr., 24
Tel.: 438-04-57

«Zərdabi LTD» MMC Nəşriyyat Poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.